دفتر مقام معظم رهبری
www.leader.ir


Təqlidin hökmləri . . . . 6
Üç yol: Ehtiyat, ictihad, təqlid . . . . 6
Təqlidin şərtləri . . . . 9
İctihadın və ə`ləmliyin sübuta yetməsi yolları Müctəhidin fətvasını əldə etməyin yolları . . . . 12
Üdul etmək – yəni təqlidi bir müctəhiddən başqa bir müctəhidə dəyişmək . . . . 14
Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq . . . . 15
Müxtəlif məsələlər . . . . 18
Mərcəiyyət və rəhbərlik . . . . 19
Vəliyyi-fəqih və hakimin hökmü . . . . 20
Təharətin hökmləri . . . . 23
Suların hökmləri . . . . 24
Təxəllinin hökmləri . . . . 28
Dəstəmazın hökmləri . . . . 31
Allahın adlarına və Quran ayələrinə toxunmaq . . . . 38
Cənabət qüslünün hökmləri . . . . 41
Batil olan qüslün hökmləri . . . . 45
Təyəmmümün hökmləri . . . . 47
Qadınların hökmləri . . . . 50
Meyitin hökmləri . . . . 52
Nəcasətlərin hökmləri . . . . 59
Məstedicilərin hökmləri . . . . 64
Vasvasılıq və onun müalicəsi . . . . 66
Kafirin hökmləri . . . . 68
Namazın hökmləri . . . . 72
Namazın əhəmiyyəti və şərtləri . . . . 72
Namazın vaxtı . . . . 74
Qiblə . . . . 78
Namaz qılanın məkanı . . . . 80
Məscidin hökmləri . . . . 83
Başqa dini məkanların hökmləri . . . . 89
Namaz qılanın paltarı . . . . 90
Qızıl və gümüşdən istifadə etmək . . . . 93
Azan və iqamə . . . . 95
Qiraət və onun hökmləri . . . . 97
Namazın zikri . . . . 101
Səcdə və onun hökmləri . . . . 103
Namazın düzgün olmamasına səbəb olan işlər . . . . 105
Salam . . . . 107
Namazın şəkləri . . . . 108
Qəza namazı . . . . 110
Ata və ananın qəza namazı . . . . 113
Camaat namazı . . . . 115
Qiraəti düzgün olmayan imam-camaatın hökmü . . . . 120
Əlil şəxsin imam-camaat olması . . . . 121
Qadınların camaat namazında iştirak etmələri . . . . 122

Əhli-sünnəyə iqtida etmək . . . . . 123
Cümə namazı . . . . . 124
Fitr və Qurban bayramı namazları . . . . . 128
Müsafir namazı . . . . . 129
Peşəsi səfər etmək olan şəxs və ya səfər etmək peşəsinin müqəddiməsi olan şəxs . . . . . 130
Tələbələrin hökmü . . . . . 133
Qəsdi-iqamət və şəri məsafə . . . . . 135
Tərəxxüs həddi . . . . . 139
Günah səfəri . . . . . 140
Vətənin hökmləri . . . . . 141
Vətən məsələsində zövcənin və övladın ailə başçısına tabe olmaları . . . . . 145
Böyük şəhərlərin hökmləri . . . . . 146
İsticari namaz . . . . . 147
Ayət namazı . . . . . 148
Nafilələr . . . . . 150
Namazın müxtəlif məsələləri . . . . . 151
**Orucun hökmləri** . . . . . 153
Hamilə və südverən qadın . . . . . 156
Xəstəlik və həkimin qadağası . . . . . 157
Orucu pozan işlər . . . . . 159
Cənabətli qalmaq . . . . . 162
İstimna . . . . . 164
Orucu batil edən işlərin hökmləri . . . . . 166
Orucun kəffarəsi və onun miqdarı . . . . . 168
Orucun qəzası . . . . . 170
Orucun müxtəlif məsələləri . . . . . 173
Hilalı görmək . . . . . 175
**Xümsün hökmləri** . . . . . 179
Hədiyyə, bank mükafatı, mehriyyə, irs . . . . . 179
Borc, aylıq maaş, sığorta, pensiya . . . . . 182
Ev, nəqliyyat vasitələri və torpaq sahəsinin satışı . . . . . 185
Xəzinə, mədən, harama qarışmış halal mal . . . . . 187
Məişət ehtiyacları . . . . . 189
Xümsün alınıb-qaytarılması, müsalihə, xümsün qeyri-xüms ilə qarışması . . . . . 193
Sərmayə . . . . . 196
Xümsü hesablamağın qaydası . . . . . 203
Xüms ilinin müəyən edilməsi . . . . . 206
Xüms işlərini idarə edən şəxs . . . . . 208
Seyidlər və seyid hesab olunmanın hökmü . . . . . 209
Xümsün istifadə yerləri, icazə almaq, hədiyyə etmək, din elmləri tələbələrinin təqaüdü . . . . . 210
Xümsün müxtəlif məsələləri . . . . . 213
Ənfal (ümumi sərvət) . . . . . 215
**Cihad** . . . . . 217
**Əmr bil-məruf (yaxşı işlərə dəvət) və nəhy ənil-munkər (pis işlərdən çəkindirmə)** . . . . . 219
Əmr bil-məruf və nəhy ənil-munkərin vacib olma şərtləri . . . . . 219

Əmr bil-məruf və nəhy ənil-munkər etməyin qaydaları . . . 223
Əmr bil-məruf və nəhy ənil-munkərin müxtəlif məsələləri . . . 225
**Haram qazanclar** . . . 228
Nəcasətlərin ticarəti . . . 228
Vacib əməllər müqabilində ücrət almaq . . . 233
**Şahmat və qumar alətləri** . . . 234
Şahmat . . . 234
Qumar alətləri . . . 235
**Musiqi və ğina** . . . 237
**Rəqs** . . . 244
**Əl çalmaq** . . . 247
**Naməhrəmin videogörüntüsü və fotoşəkli** . . . 248
**Peyk antena** . . . 253
**Teatr və kinofilm** . . . 255
**Rəssamlıq və heykəltəraşlıq** . . . 256
**Sehr etmək, fokus göstərmək, ruhları və cinləri çağırmaq** . . . 258
**Hipnotizm** . . . 259
**Bəxt oyunları (lotoreya)** . . . 260
**Rüşvət** . . . 261
İdarə və ya şirkətin alış və satış işləri üzrə məsul şəxsi . . . 263
**Tibbə aid məsələlər** . . . 265
Hamiləliyin qarşısının alınması . . . 265
Uşaq saldırmaq . . . 267
Süni mayalanma . . . 269
Cinsiyyəti dəyişdirmək . . . 271
Meyitin yarılması və üzv köçürülmə . . . 272
Sünnət etmək . . . 276
Tibbi təhsil . . . 277
**Elm öyrənmək və öyrətməyin qaydaları** . . . 279
**Müəllif hüquqları** . . . 282
**Qeyri-müsəlman ilə ticarət** . . . 284
**Zalım dövlətdə hansısa bir peşədə işləmək** . . . 286
**Şöhrət geyimi və geyimin hökmləri** . . . 287
**Qərb mədəniyyətini təqlid etmək** . . . 289
Özünü kafirlərə oxşatmaq və onların mədəniyyətini yaymaq . . . 289
Mühacirət və siyasi sığınacaq . . . 291
**Casusluq, xəbərçilik, sirri ifşa etmək** . . . 292
**Tütün məmulatları və narkotik maddələrin istifadəsi** . . . 294
**Saqqalı qırxmaq** . . . 296
**Günah məclisində iştirak etmək** . . . 298
**Dua yazmaq və istixarə etmək** . . . 300
**Dini ayinlərin və mərasimlərin qorunması** . . . 302
Əzadarlıq məclisləri . . . 302
Mövludlar və bayramlar . . . 306
**İhtikar və israf** . . . 307

Alğı-satqı və sövdələşmənin hökmləri . . . 308
Əqdin şərtləri . . . 309
Alıcı və satıcının şərtləri . . . 311
Füzuli müamilə . . . 312
Əmlakdan istifadə etmək zəminində qəyyumlar . . . 314
Malın və onun əvəzinin şərtləri . . . 321
Sövdələşmə əqdi əsnasında qoyulan şərtlər . . . 324
Sövdələşmənin müxtəlif məsələləri . . . 326
Müamiləni pozmaq ixtiyarının qisimləri və hökmləri . . . 329
1- Məclis ixtiyarı . . . 329
2- Qüsur ixtiyarı . . . 330
3- Gecikdirmə ixtiyarı . . . 331
4- Şərt ixtiyarı . . . 332
5- Görmə ixtiyarı . . . 333
6- Ziyan ixtiyarı . . . 334
7- Şərt sövdələşməsi ixtiyarı . . . 336
8- Şərtə xilaf çıxma ixtiyarı . . . 337
Müamiləni pozmaq ixtiyarının müxtəlif hökmləri . . . 339
Satılan mala aid olan əşyalar . . . 342
Malın təhvil verilməsi və pulunun ödənilməsi . . . 343
Nağd və nisyə müamilə . . . 345
Sələf müamiləsi . . . 346
Qızıl, gümüş, pul alışı və satışı . . . 348
Ticarətin müxtəlif məsələləri . . . 350
Ribanın (sələm) hökmləri . . . 352
Şuf`ə haqqı . . . 355
İcarə . . . 357
“Sərqufli”nin hökmləri . . . 364
Zaminlik . . . 368
Girov . . . 369
Şəriklik . . . 371
Hədiyyə . . . 376
Borc . . . 385
Sülh (Razılaşma) . . . 391
Vəkillik və həvalə etmək . . . 394
Vəkillik . . . 394
Həvalə . . . 399
Sədəqə . . . 400
Ariyə və əmanət . . . 401
Vəsiyyət . . . 402
Qəsb . . . 413
Həcr və büluğun nişanələri . . . 415
Müzaribə . . . 417
Bankın hökmləri . . . 421
Bankın hədiyyələri . . . 428

Bankda işləmək . . . . . 429
Pul çekinin hökmləri . . . . . 430
**Sığorta** . . . . . 431
**Dövlət qanunları** . . . . . 432
Dövlət əmlakı . . . . . 432
Dövlət müəssisələrində işləmək . . . . . 435
Dövlət qanunları . . . . . 437
Vergilər və rüsumlar . . . . . 440
**Vəqf** . . . . . 441
Vəqfin şərtləri . . . . . 443
Vəqf qəyyumunun şərtləri . . . . . 444
Vəqf edilən əmlakın şərtləri . . . . . 449
“Moqufun-ələyh”in şərtləri . . . . . 451
Vəqf olunan şeyin şərtləri . . . . . 452
Vəqfin hökmləri . . . . . 454
Həbs . . . . . 467
Vəqfin əmlakın satılması və ya vəqfin dəyişdirilməsi . . . . . 468
**Qəbiristanlığın hökmləri** . . . . . 472

## Üç yol: Ehtiyat, ictihad, təqlid

**Sual 1:** Təqlid məsələsi sırf əqli məsələdir, yoxsa onun şəri dəlilləri də vardır?

**Cavab: Təqlidin şəri dəlilləri vardır. Həmçinin əql də hökm edir ki, şəriətin hökmlərini bilməyən şəxs camiuş-şərait müctəhidə[1] müraciət etməlidir.**

**Sual 2:** Sizin nəzərinizə görə ehtiyata əməl etmək[2] daha yaxşıdır, yoxsa təqlid etmək[3]?

**Cavab: Ehtiyata əməl etmək ehtiyatın yerlərini və qaydasını bilməyə bağlı olduğuna görə, habelə, bu iş çox vaxt tələb etdiyinə görə yaxşısı budur ki, şəriət hökmlərində mükəlləf[4] camiuş-şərait müctəhidə təqlid etsin.**

**Sual 3:** Şəriət hökmlərində ehtiyata əməl edərkən hansı hüdudlaradək fəqihlərin[5] fətvaları nəzərə alınır? Yəni keçmiş fəqihlərin fətvalarına da əməl etmək lazımdırmı?

**Cavab: Şəriət hökmlərində ehtiyata əməl etmək dedikdə, bütün fiqhi ehtimallara riayət etmək nəzərdə tutulur. Belə ki, mükəlləf öz şəri vəzifəsinə əməl etdiyinə əmin olmalıdır.**

**Sual 4:** Qızım tezliklə şəri vəzifə yaşına çatacaqdır və o, özünə mərcəyi-təqlid[6] seçməlidir. Amma təqlid məsələsini dərk etmək onun üçün çətindir. Onun qarşısında bizim üzərimizə düşən vəzifə nədir?

**Cavab: Əgər o, bu barədə olan öz şəri vəzifəsini təklikdə müəyyən edə bilmirsə, sizin vəzifəniz onu yönəltməkdir.**

**Sual 5:** "Əhkamın mövzularını müəyyən etmək mükəlləfin öz öhdəsindədir və müctəhidin vəzifəsi hökmü müəyyən etməkdir" fikri fəqihlər arasında məşhurdur. Amma bununla belə, müctəhidlər bir çox hallarda əhkamın mövzularının müəyyən edilməsində də fikir bildirirlər. Əhkamın mövzusu barəsində müctəhidin nəzərinə tabe olmaq vacibdirmi?

**Cavab: Əhkamın mövzusunu müəyyən etmək mükəlləfin öz nəzərinə həvalə olunur və mövzunun müəyyən edilməsi barəsində müctəhidin nəzərinə tabe olmaq vacib deyildir. Əlbəttə, əgər müctəhidin nəzərinə qarşı mükəlləfdə əminlik yaranarsa, yaxud mövzu fiqh mənbələrindən əldə edilən mövzu olarsa, bu hallar istisnadır.**

**Sual 6:** Əgər bir şəxs ona lazım olan şəriət hökmlərini öyrənməkdə səhlənkarlıq etsə, günahkardırmı?

**Cavab: Əgər şəriət hökmlərini öyrənməmək vacib bir əməli tərk etmək və ya haram bir işi yerinə yetirməklə nəticələnərsə, günahkardır.**

**Sual 7:** Bəzən şəriət hökmləri barəsində məlumatı az olan şəxslərdən hansı müctəhidə tədlid etdiyi soruşulur və onlar "bilmirəm" deyə cavab verirlər. Yaxud da "filan müctəhidə təqlid edirəm" deyirlər, halbuki həmin müctəhidin risaləsini ("Şəriət hökmlərinin izahı" kitabını) oxumur və nəticə etibarilə, həmin müctəhidin fətvalarına əməl etmirlər. Belə şəxslərin əməllərinin hökmü nədir?

**Cavab: Əgər onların yerinə yetirdikləri əməllər "ehtiyat"a müvafiqdirsə, yaxud keçmişdə təqlid etməli olduqları və ya hal-hazırda təqlid etməli olduqları müctəhidin nəzərinə müvafiqdirsə, bu hallarda onların yerinə yetirdikləri əməllər düzgün hesab olunur.**

**Sual 8:** Bilirik ki, hansı məsələdə bir ə`ləm müctəhidin[7] nəzəri "ehtiyat-vacib"[8] olsa, həmin məsələdə ondan sonrakıə`ləm müctəhidə müraciət edə bilərik. Əgər həmin məsələdə sonrakıə`ləm müctəhidin də nəzəri "ehtiyat-vacib" olsa, ondan sonrakı ə`ləm

müctəhidə müraciət etmək olarmı? Əgər üçüncü müctəhidin də nəzəri əvvəlkilərlə eyni olsa, ondan sonrakı ə`ləm müctəhidə müraciət etmək olarmı? Bu şəkildə davam etməyə icazə verilirmi? Xahiş edirəm, bu məsələni izah edəsiniz.

**Cavab: Əgər bir məsələdə ə`ləm müctəhidin nəzəri "ehtiyat" olarsa, həmin məsələdə nəzəri "ehtiyat" olmayan, əksinə, birbaşa "fətva" verən müctəhidə "əl-ə`ləm fəl-ə`ləm"[9] ardıcıllığına riayət edərək müraciət etməyin maneəsi yoxdur**

---

[1] Camiuş-şərait müctəhid, yəni mərcəyi-təqlidin şərtlərinə malik olan müctəhid.

Müctəhid - İslam şəriətinin hökmlərini "təfsili dəlillər"dən (Quran, sünnə, əql və icma) əldə edə bilən şəriət aliminə deyilir.

[2] Burada "ehtiyat" dedikdə, şəriət hökmlərinə əməl etmək üçün üç yoldan biri nəzərdə tutulur. Belə ki, mükəlləf öz şəri vəzifəsinə əməl etdiyinə yəqin edir. (Bu üç yol, yuxarıda qeyd olunduğu kimi, ehtiyat, ictihad və təqliddir.)

[3] Şəriət hökmlərində təqlid etmək, müctəhidin fətvasına tabe olmaq və ona əməl etmək deməkdir.

[4] Şəri vəzifəsi olan şəxs.

[5] Şəriət alimləri.

[6] Şəriət hökmlərində mükəlləfin müraciət və təqlid etdiyi müctəhid.

[7] Yəni daha bilikli müctəhid. Belə ki, başqa müctəhidlərlə müqayisədə o, ilahi hökmləri tanımaqda və onları dini mənbələrdən əldə etməkdə daha bacarıqlıdır. Həmçinin öz dövrünün vəziyyətindən daha çox məlumatlıdır.

[8] Burada "ehtiyat-vacib", "ehtiyat-müstəhəb"in müqabilindədir. Ehtiyat-vacib, fətva ilə yanaşı olmayan ehtiyatdır. Ehtiyat-müstəhəb isə, fətva ilə yanaşı olan, başqa sözlə, fətvadan sonra qeyd olunan ehtiyatdır.

[9] Elmi səviyyə nəzərə alınaraq bir ə`ləm müctəhiddən sonrakı pillədə dayanan ə`ləm müctəhid və bu qayda ilə irəliləyərək.

## Təqlidin şərtləri

**Sual 9:** **Mərcəiyyət[1] vəzifəsini öhdəsinə almayan və risaləsi olmayan (yəni "Şəriət hökmlərinin izahı" kitabı nəşr olunmayan) bir müctəhidə təqlid etmək olarmı?**

**Cavab: Camiuş-şərait müctəhidə təqlidin düzgün sayılmasında mərcəiyyət vəzifəsini öhdəyə almaq və ya "Şəriət hökmlərinin izahı" adlı kitaba sahib olmaq şərt deyildir. Ona görə də, əgər təqlid etmək istədiyi müctəhidin camiuş-şərait müctəhid olduğu mükəlləf üçün sübuta yetsə, ona təqlid etməyin maneəsi yoxdur.**

**Sual 10:** **Fiqhin[2] müəyyən bir bölümündə, məsələn, namaz və ya oruc bölümündə ictihad dərəcəsinə çatan şəxsə[3] təqlid etmək olarmı?**

**Cavab: "Mütəcəzzi müctəhid"in[4] fətvası onun özü üçün dəlildir. Fiqhin həmin bölümlərində – hansı ki, mütəcəzzi müctəhid həmin bölümlərdə fətvaya və ictihadi nəzərə sahibdir – başqaları da ona təqlid edə bilərlər. Baxmayaraq ki, "mütləq müctəhid"ə təqlid etmək ehtiyat-müstəhəbə müvafiqdir.**

**Sual 11:** **Başqa ölkələrin şəriət alimlərinə təqlid etmək olarmı? Belə ki, onlarla əlaqə qurmaq mümkün deyildir.**

**Cavab: Camiuş-şərait mütcəhidə təqlid etməkdə müctəhidin mükəlləfin ölkəsinin vətəndaşı olması və ya mükəlləfin yaşadığı yerin sakini olması şərt deyildir.**

**Sual 12:** **Müctəhid və mərcəyi-təqliddə əsas götürülən ədalət xüsusiyyəti ilə imam-camaatda[5] əsas götürülən ədalət xüsusiyyəti arasında güclü və ya zəif olma baxımından fərq varmı?**

**Cavab: Mərcəiyyət mənsəbinin həssas və əhəmiyyətli bir mənsəb olduğunu nəzərə alaraq, ədalət xüsusiyyətindən əlavə mərcəyi-təqlidin tüğyankar nəfsə hakim olmaq qüdrətinə sahib olması və dünyaya həris olmaması ehtiyat-vacibə[6] görə şərtdir.**

**Sual 13:** **Deyilir ki, ədalətli müctəhidə təqlid etmək gərəkdir. Ədalətli şəxs dedikdə, necə bir şəxs nəzərdə tutulur?**

**Cavab: Ədalətli şəxs - böyük təqvasına görə bilərəkdən günah işlətməyən şəxsdir.**

**Sual 14:** **Dövrün və məntəqənin vəziyyətindən xəbərdar olmaq ictihadın (müctəhidliyin) şərtlərindəndirmi?**

**Cavab: Bu şərtin bəzi məsələlərdə rolu ola bilər.**

**Sual 15:** **Mərhum İmam Xomeyninin (r.ə) nəzərinə görə mərcəyi-təqlid "ibadətlər" və "sövdələşmələr"in əhkamını bilməkdən əlavə, siyasi, iqtisadi, hərbi, ictimai və rəhbərlik məsələlərini də bilməlidir. Biz əvvəllər İmam Xomeyniyə (r.ə) təqlid edirdik və o, vəfat etdikdən sonra bir qrup alimin istiqamətləndirmələri və özümüzün də seçimi ilə sizə müraciət və təqlid etməyi lazımlı bildik. Beləcə, həm mərcəyi-təqlidə, həm də rəhbərə bir arada təqlid etmiş oluruq. Bu barədə sizin nəzəriniz nədir?**

**Cavab: Mərcəiyyət mənsəbinin şərtləri "Təhrirul-vəsilə" və başqa kitablarda təfsilatı ilə qeyd edilmişdir və təqlid olunmağa səlahiyyəti çatan şəxsi müəyyənləşdirmək mükəlləfin öz nəzərinə həvalə olunur.**

**Sual 16:** **Tədlid etmək üçün mərcəyi-təqlidin ə`ləm olması şərtdirmi, yoxsa şərt deyildir? Ə`ləmliyin meyarı nədir?**

**Cavab: Əgər bir məsələdə ə`ləm müctəhidin fətvası ilə qeyri-ə`ləm müctəhidin fətvası fərqli olarsa, ehtiyata görə (ehtiyat-vacib), həmin məsələdə ə`ləm müctəhidə təqlid etmək lazımdır. Ə`ləmliyin meyarı budur ki, bir mərcəyi-təqlid şəriət hökmlərini tanımaqda və bu hökmləri dini mənbələrdən əldə etməkdə başqa mərcəyi-təqlidlərlə müqayisədə daha bacarıqlıdır. Belə ki, onunla başqa mərcəyi-təqlidlər arasındakı fərq bu elmin mütəxəssisləri üçün aydındır. Həmçinin o, öz dövrünün tələblərini – əhkamın mövzularını müəyyən etmək və bu barədə fiqhi nəzəri bildirməkdə təsirli olan tələbləri – daha yaxşı bilir.**

**Sual 17: Əgər bir şəxs ə`ləm bir müctəhiddə mərcəyi-təqlidin şərtlərinin olmadığını ehtimal edib qeyri-ə`ləm bir müctəhidə təqlid edibsə, onun təqlidi yanlış hesab olunurmu?**

**Cavab: Ə`ləm müctəhiddə lazımi şərtlərin (mərcəyi-təqlidin şərtlərinin) olmadığını sadəcə ehtimal edib, ixtilaflı məsələlərdə qeyri-ə`ləm müctəhidə təqlid etməyə ehtiyata (ehtiyat-vacib) görə icazə verilmir.**

**Sual 18: Əgər bir qrup alimin hər birinin müəyyən məsələdə ə`ləm olduğu sübuta yetsə, onların hər birinə təqlid etmək olarmı?**

**Cavab: Fiqhin müxtəlif bölümlərində ayrı-ayrı müctəhidlərə təqlid etməyin maneəsi yoxdur. Əgər mükəlləfin təqlid etmək istədiyi məsələdə həmin müctəhidin ə`ləm olduğu dəqiqləşərsə, ehtiyata görə, müqəllidə[7] lazım olan məsələlərdə mövcud fətvalar arasında ixtilaf olduğu təqdirdə ayrı-ayrı müctəhidlərə təqlid etmək vacibdir.**

**Sual 19: Ə`ləm müctəhid mövcud olduğu halda qeyri-ə`ləm müctəhidə təqlid etmək olarmı?**

**Cavab: Hansı məsələlərdə qeyri-ə`ləm müctəhidin fətvası ə`ləm müctəhidin fətvasına zidd deyildirsə, həmin məsələlərdə qeyri-ə`ləm müctəhidə müraciət etməyin maneəsi yoxdur.**

**Sual 20: Mərcəyi-təqlidin ə`ləm olması şərti barədə sizin rəyiniz nədir və bunun dəlili nədir?**

**Cavab: Bir neçə camiuş-şərait müctəhidin fətvaları arasında ziddiyyət olduğu təqdirdə, ehtiyat-vacibə görə, mükəlləf ə`ləm müctəhidə təqlid etməlidir. Amma əgər ə`ləm müctəhidin fətvasının ehtiyata zidd və qeyri-ə`ləm müctəhidin fətvasının ehtiyata müvafiq olduğu dəqiqləşərsə, bu təqdirdə, qeyri-ə`ləm müctəhidə təqlid etmək olar. Ə`ləm müctəhidə təqlid etməyin vacibliyinin dəlili, ağıllı insanların qəbul etdiyi bir məsələdir və əqlin hökmüdür. Çünki ə`ləm müctəhidin fətvası müqəlliddə yəqinlik yaradır, qeyri-ə`ləm müctəhidin nəzəri isə ehtimal doğurur.**

**Sual 21: Biz kimə təqlid etməliyik?**

**Cavab: Camiuş-şərait müctəhidə təqlid etmək lazımdır. Ehtiyata görə, təqlid olunan müctəhid ə`ləm olmalıdır.**

**Sual 22: Dünyasını dəyişmiş müctəhidə ibtidai təqlid[8] etmək olarmı?**

**Cavab: İbtidai təqliddə ə`ləm və həyatda olan müctəhidə təqlid etmək ehtiyatı tərk**

**olunmamalıdır.**

**Sual 23: Dünyasını dəyişmiş müctəhidə ibtidai təqlid, həyatda olan müctəhidə təqlid etməyə bağlıdırmı?**

**Cavab: Dünyasını dəyişmiş müctəhidə ibtidai təqlid etmək və ya onun təqlidində qalmaq, həyatda olan ə`ləm müctəhidə təqlid əsasında olmalıdır.**

---

[1] Mərcəyi-təqlid olma.

[2] Şəriət hökmlərinin məcmusu və ya şəriət elmi.

[3] İctihad dərəcəsinə çatan şəxsə "müctəhid" deyilir.

[4] Fiqhin bir və ya bir neçə bölümündə şəri hökmləri əldə etmək bacarığı olan, başqa sözlə, fətvaya və ictihadi nəzərə sahib olan müctəhid.

[5] İmam-camaat – yəni pişnamaz: namazda iqtida olunan (təqlid olunan) şəxs.

[6] Ehtiyat-vacib, fətva ilə yanaşı olmayan ehtiyatdır və ona əməl etmək vacibdir. Amma təqlid edən şəxs bu ehtiyatın əvəzinə başqa bir müctəhidin fətvasına – belə ki, başqa müctəhidin elmi səviyyəsi bu müctəhiddən aşağı, amma digər müctəhidlərdən yuxarıdır - müraciət edə bilər.

[7] Təqlid edən şəxs.

[8] İbtidai təqlid, yəni ilk dəfə olaraq təqlid etmək, başqa sözlə, təqlid etməyə başlamaq.

## İctihadın və ə`ləmliyin sübuta yetməsi yolları Müctəhidin fətvasını əldə etməyin yolları

**Sual 24:** **Əgər bir müctəhidin mərcəyi-təqlid olmağa səlahiyyətinin çatması iki ədalətli şəxsin şəhadəti vasitəsilə dəqiqləşərsə, bu barədə başqa şəxslərdən də soruşub-araşdırmağa lüzum varmı?**

**Cavab: Bir müctəhidin mərcəyi-təqlid olmağa səlahiyyətinin çatması və onun camiuş-şərait müctəhid olması barədə iki ədalətli mütəxəssisin şəhadət verməsi, həmin müctəhidə təqlid edə bilmək üçün kifayət edir və başqa şəxslərdən soruşub-araşdırmağa ehtiyac yoxdur.**

**Sual 25:** **Mərcəyi-təqlidi seçməyin və fətvanı əldə etməyin yolları hansılardır?**

**Cavab: Bir müctəhidin ictihad dərəcəsinə[1] çatdığı və ə`ləm olduğu bu yollarla dəqiqləşir:**
**1. İmtahan etmək;**
**2. Yəqinliyin hasil olması: hətta bu yəqinlik bilgiyə və ya əminliyə faydalı olan "məşhurluq"[2] vasitəsilə hasil ola bilər;**
**3. İki ədalətli mütəxəssisin şəhadət verməsi.**

**Müctəhidin fətvasını əldə etməyin yolları isə aşağıdakılardan ibarətdir:**
**1. Müctəhidin özündən eşitmək;**
**2. Bir ədalətli şəxsin və ya bir etibarlı şəxsin müctəhidin özündən və ya onun etibarlı risaləsindən xəbər verməsi;**
**3. Etibarlı risaləyə müraciət etmək.**

**Sual 26:** **Mərcəyi-təqlidi seçməkdə vəkil olmaq, məsələn, atanın oğula və ya müəllimin şagirdə vəkil olması düzgündürmü?**

**Cavab: Əgər "vəkil olmaq" dedikdə, camiuş-şərait müctəhidi müəyyən etməkdən ötrü araşdırma aparmaq vəzifəsinin ataya, müəllimə və ya başqalarına həvalə olunması nəzərdə tutulursa, bunun maneəsi yoxdur. Əgər onların nəzəri bu xüsusda bilgiyə və ya yəqinliyə yararlı olarsa, yaxud bəyyinənin[3] və şəhadətin şərtlərinə malik olarsa, onların nəzəri şəri baxımdan etibarlıdır və dəlil-sübut hesab olunur.**

**Sual 27:** **Müctəhid olan bir neçə alimdən ə`ləm bir müctəhid barəsində soruşuldu. Onlar dedilər ki, filan müctəhidə müraciət etmək nəticəsində mükəlləf öz üzərinə düşən vəzifəyə əməl etmiş olur. Əgər həmin müctəhidin ə`ləm olması barədə mənim şəxsən məlumatım yoxdursa, yaxud onun ə`ləmliyinə şübhəm varsa, yaxud da onun ə`ləm olmadığına əminliyim varsa – çünki oxşar dəlil və bəyyinə ilə ə`ləmliyi sübuta yetən başqa fərdlər vardır – mən o alimlərin sözünə etimad edə və həmin müctəhidə təqlid edə bilərəmmi?**

**Cavab: Əgər camiuş-şərait müctəhidin ə`ləmliyi barədə şəri bəyyinə mövcud olarsa, bu bəyyinə ilə zidd olan başqa bir şəri bəyyinə ortaya çıxmayana qədər sözügedən bəyyinə şəri dəlildir və ona etimad olunur, baxmayaraq ki, bilgi və ya əminliyin hasil olmasına səbəb olmamışdır. Bu təqdirdə, sözügedən bəyyinəyə zidd olan bəyyinəni araşdırıb-axtarmağa və onun mövcud olmadığını dəqiqləşdirməyə lüzum yoxdur.**

**Sual 28:** **Müctəhid tərəfindən xüsusi icazəsi olmayan, həmçinin fətvaları və şəriət hökmlərini bəyan edərkən bəzi hallarda səhvə yol verən bir şəxs müctəhidin fətvasını demək və şəriət hökmlərini bəyan etmək vəzifəsini yerinə yetirə bilərmi? Əgər bu şəxs şəriət hökmlərini risaləyə ("Şəriət hökmlərinin izahı" kitabına) baxıb deyərsə, bu halda bizim vəzifəmiz nədir?**

**Cavab: Müctəhidin fətvasını demək və şəriət hökmlərini bəyan etmək vəzifəsini yerinə yetirmək üçün xüsusi icazənin olması şərt deyildir. Amma əgər bir şəxs hansısa bir şəri məsələni bəyan edərkən səhvə yol verərsə, səhvə yol verdiyini başa düşdüyü təqdirdə, o öz səhvini imkan daxilində düzəltməlidir. Hər halda, dinləyən şəxsə icazə verilmir ki, şəriət hökmlərini bəyan edən şəxsin sözlərinin doğruluğuna əmin olmadan onun dediklərinə əməl etsin.**

[1] İslam şəriətinin hökmlərini təfsili dəlillərdən (Quran, sünnə, əql və icma) əldə edə bilmək elmi dərəcəsi.

[2] Yəni camaat arasında camiuş-şərait müctəhid kimi ad çıxarması.

[3] Bəyyinə - elə şahidlərdir ki, onların şahidliyi müəyyən bir məsələni sübuta yetirə bilər.

## Üdul etmək – yəni təqlidi bir müctəhiddən başqa bir müctəhidə dəyişmək

**Sual 29:** **Dünyasını dəyişmiş müctəhidin təqlidində bu vaxtadək qeyri-ə`ləm müctəhidin icazəsi əsasında qalmışam. Əgər dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq üçün ə`ləm müctəhidin icazəsi şərtdirsə, onda təqlidi ə`ləm müctəhidə dəyişmək və dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq üçün ondan icazə almaq bizə vacibdirmi?**

**Cavab: Əgər bu məsələdə qeyri-ə`ləm müctəhidin fətvası ə`ləm müctəhidin fətvasına müvafiq olarsa, qeyri-ə`ləm müctəhidin fətvasına əməl etməyin maneəsi yoxdur və təqlidi ə`ləm müctəhidə dəyişməyə ehtiyac yoxdur.**

**Sual 30:** **İmam Xomeyninin (r.ə) müəyyən bir fətvasında təqlidi dəyişmək istədikdə, dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq üçün icazə aldığımız müctəhidin fətvalarına müraciət etməliyikmi? Yoxsa başqa müctəhidlərin fətvalarına da müraciət edə bilərik?**

**Cavab: Həmin müctəhidin fətvalarına müraciət etmək ehtiyata müvafiqdir. Amma əgər həyatda olan başqa bir müctəhid həmin müctəhiddən ə`ləm (yəni daha elmli) olarsa və sözügedən məsələdə ə`ləm müctəhidin fətvaları birinci müctəhidin fətvalarına zidd olarsa, bu halda ehtiyat-vacibə görə, ə`ləm müctəhidə müraciət etmək lazımdır.**

**Sual 31:** **Mərcəyi-təqlidi dəyişdirməyə icazə verilirmi?**

**Cavab: Ehtiyat-vacibə görə, təqlidi həyatda olan bir müctəhiddən həyatda olan başqa bir müctəhidə dəyişməyə icazə verilmir. Yalnız başqa müctəhid ə`ləm olduğu, yaxud ə`ləm olduğu ehtimal verildiyi təqdirdə icazə verilir.**

**Sual 32:** **Mən şəriət hökmlərinə riayət edən bir gəncəm. Şəri vəzifə yaşına çatmamışdan qabaq İmam Xomeyniyə (r.ə) təqlid etmişəm. Amma bu təqlid "şəri bəyyinə"yə əsaslanmamışdı. Əksinə, buna əsaslanmışdı ki, İmam Xomeyniyə (r.ə) təqlid etməklə mükəlləf üzərinə düşən vəzifəyə əməl etmiş olur. Bir müddətdən sonra mən təqlidimi başqa bir mərcəyi-təqlidə dəyişdim, halbuki, bu təqlidim də düzgün olmamışdır. Həmin mərcəyi-təqlid dünyasını dəyişdikdən sonra mən təqlidimi sizə dəyişdim. Sizdən xahiş edirəm ki, həmin mərcəyi-təqlidə təqlidimin hökmünü, habelə, həmin müddətdə yerinə yetirdiyim əməllərin hökmünü və hal-hazırda üzərimə düşən vəzifəni açıqlayasınız.**

**Cavab: İmam Xomeyninin (r.ə) fətvaları əsasında yerinə yetirdiyiniz əməllər – istər o, həyatda olarkən, istərsə də vəfat etdikdən sonra dünyasını dəyişmiş müctəhidin təqlidində qalıb yerinə yetirdiyiniz əməllər – düzgün hesab olunur. Amma başqa bir mərcəyi-təqlidə şəri meyarlara müvafiq olmayan şəkildə təqlid edərək yerinə yetirdiyiniz əməllərə gəlincə, əgər bu əməllər hal-hazırda təqlid etməli olduğunuz mərcəyi-təqlidin fətvalarına müvafiq olarsa, düzgün hesab olunur və üzərinizə düşən vəzifəyə əməl etməyinizə səbəb olur. Əks təqdirdə, həmin əməllərin qəzasını yerinə yetirmək vacibdir. Hal-hazırda isə siz İmam Xomeyninin (r.ə) təqlidində qalmaq, yaxud təqlidinizi şəri meyarlar əsasında təqlid olunmağa layiq bildiyiniz müctəhidə dəyişmək arasında seçim edə bilərsiniz.**

## Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq

**Sual 33:** **İmam Xomeyniyə (r.ə) təqlid edən bir şəxs o, vəfat etdikdən sonra başqa bir mərcəyi-təqlidə təqlid etmişdir. Hal-hazırda yenidən İmam Xomeyniyə (r.ə) təqlid etmək istəyir. Bu təqlidə icazə verilirmi?**

**Cavab: Təqlidi həyatda olan camiuş-şərait bir müctəhiddən dünyasını dəyişmiş müctəhidə dəyişməyə, ehtiyata görə, icazə verilmir. Amma əgər təqlidi həyatda olan müctəhidə dəyişərkən həyatda olan müctəhid camiuş-şərait olmamışdırsa, təqlidi dəyişmək elə əvvəldən düzgün deyilmiş. Hal-hazırda bu şəxs İmam Xomeyninin (r.ə) təqlidində qala bilər, yaxud təqlid edilməsinə icazə verilən və həyatda olan bir müctəhidə təqlidini dəyişə bilər.**

**Sual 34:** **İmam Xomeyni (r.ə) həyatda olarkən mən şəri vəzifə yaşına çatmışdım və bəzi məsələlərdə ona təqlid etmişəm. Halbuki, təqlid məsələsi mənə tam aydın deyildi. İndi mənim vəzifəm nədir?**

**Cavab: Əgər İmam Xomeyni (r.ə) həyatda ikən ibadi[1] və qeyri-ibadi[2] əməllərdə onun fətvalarına əməl etmisinizsə, hətta bütün məsələlərdə deyil, bir qisim məsələlərdə əməli surətdə ona təqlid etmisinizsə, hal-hazırda bütün məsələlərdə İmam Xomeyninin (r.ə) təqlidində qalmağınıza icazə verilir.**

**Sual 35:** **Əgər dünyasını dəyişmiş müctəhid ə`ləmdirsə, onun təqlidində qalmağın hökmü nədir?**

**Cavab: Dünyasını dəyişmiş müctəhid ə`ləm olsa belə, onun təqlidində qalmaq vacib deyildir. Amma yaxşı olar ki, dünyasını dəyişmiş ə`ləm müctəhidin təqlidində qalmaq ehtiyatı tərk edilməsin.**

**Sual 36:** **Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq üçün həyatda olan ə`ləm müctəhidin icazəsi şərtdirmi? Yoxsa hər bir müctəhidin icazəsi kifayət edir?**

**Cavab: Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağın icazəli olması barədə müctəhidlər arasında rəy birliyi olduğu təqdirdə, ə`ləm müctəhiddən icazə almaq vacib deyildir.**

**Sual 37:** **Bir şəxs İmam Xomeyniyə (r.ə) təqlid etmiş və onun vəfatından sonra bəzi məsələlərdə başqa bir müctəhidə təqlid etmişdir. İndi həmin müctəhid də vəfat etmişdir. Bu şəxsin vəzifəsi nədir?**

**Cavab: Bu şəxs təqlidini İmam Xomeynidən (r.ə) dəyişmədiyi məsələlərdə əvvəllər olduğu kimi onun təqlidində qala bilər. Təqlidini dəyişdiyi məsələlərdə isə, ya ikinci müctəhidin təqlidində qala bilər, ya da təqlidini həyatda olan bir müctəhidə dəyişə bilər.**

**Sual 38:** **İmam Xomeyni (r.ə) vəfat etdikdən sonra mən elə güman etmişdim ki, onun öz fətvasına əsasən, dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağa icazə yoxdur. Odur ki, təqlid etmək üçün həyatda olan başqa bir müctəhid seçdim. Mən yenidən İmam Xomeyninin (r.ə) təqlidinə qayıda bilərəmmi?**

**Cavab: Hansı məsələlərdə təqlidinizi İmam Xomeynidən (r.ə) həyatda olan bir müctəhidə dəyişmisinizsə, ehtiyata görə, həmin məsələlərdə yenidən İmam Xomeyninin (r.ə) təqlidinə qayıda bilməzsiniz. Yalnız o halda qayıda bilərsiniz ki, həyatda olan müctəhid dünyasını**

**dəyişmiş ə`ləm müctəhidin təqlidində qalmağın vacibliyinə dair fətva vermişdir və siz də bu qənaətdəsiniz ki, İmam Xomeyni (r.ə) həyatda olan müctəhidlə müqayisədə ə`ləmdir. Belə olduğu təqdirdə, İmam Xomeyninin (r.ə) təqlidində qalmaq vacibdir.**

**Sual 39:** **Müəyyən bir məsələdə fətvalar arasında ziddiyyət olduğu təqdirdə bəzən dünyasını dəyişmiş müctəhidin, bəzən də həyatda olan ə`ləm müctəhidin fətvasına müraciət edə bilərəmmi?**

**Cavab: Təqlidi həyatda olan müctəhidə dəyişməyənədək, dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağa icazə verilir. Amma təqlidi həyatda olan müctəhidə dəyişdikdən sonra dünyasını dəyişmiş müctəhidə yenidən müraciət etməyə, ehtiyata görə, icazə verilmir.**

**Sual 40:** **İmam Xomeyniyə (r.ə) təqlid edənlər və onun təqlidində qalmağı qərara alanlar həyatda olan müctəhidlərin birindən icazə almalıdırlarmı? Yoxsa dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağın icazəli olması barədə əksər mərcəyi-təqlidlərin və din alimlərinin eyni fikirdə olmaları kifayət edir?**

**Cavab: Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağın icazəli olması barədə alimlər eyni fikirdə olduqları təqdirdə İmam Xomeyninin (r.ə) təqlidində qalmağa icazə verilir və bu xüsusda müəyyən bir müctəhidə müraciət etməyə ehtiyac yoxdur.**

**Sual 41:** **Müəyyən bir məsələdə dünyasını dəyişmiş müctəhidin təqldində qalmaq barədə – mərcəyi-təqlid həyatda ikən mükəlləf bu məsələyə əməl etmişdir, yaxud da əməl etməmişdir - sizin nəzəriniz nədir?**

**Cavab: Bütün məsələlərdə – hətta indiyədək mükəlləfin əməl etmədiyi məsələlərdə belə – dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağa icazə verilir və bu, kifayət edir.**

**Sual 42:** **Dünyasını dəyişmiş müctəhidin təqlidində qalmağın icazəli olması hökmü, müctəhid həyatda ikən şəri vəzifə yaşına çatmayan, amma həmin müctəhidin fətvalarına əməl edən şəxslərə də şamil olurmu?**

**Cavab: Əgər şəri vəzifə yaşına çatmayan şəxs camiuş-şərait müctəhidə düzgün şəkildə təqlid edibsə, həmin müctəhid vəfat etdikdən sonra onun təqlidində qala bilər.**

**Sual 43:** **Biz İmam Xomeyniyə (r.ə) təqlid etmişik və o, vəfat etdikdən sonra da onun təqlidində qalmışıq. Müsəlman millətinin dünya hegemoları ilə qarşı-qarşıya durduğu hazırkı çətin dövrdə yeni şəri məsələlərlə qarşılaşırıq və belə başa düşürük ki, sizə müraciət etməli və sizə təqlid etməliyik. Biz bunu edə bilərikmi?**

**Cavab: Siz İmam Xomeyninin (r.ə) təqlidində qala bilərsiniz və təqlidinizi dəyişməyə hələ ki, ehtiyac yoxdur. Yeni məsələlərin şəri hökmünü bilməyə ehtiyac duyduğunuz vaxt suallarınızı yazılı şəkildə bizdən soruşa bilərsiniz.**

**Sual 44:** **Əgər müqəllid üçün başqa bir mərcəyi-təqlidin daha elmli olduğu dəqiqləşərsə, onun öz mərcəyi-təqlidi qarşısındakı vəzifəsi nədir?**

**Cavab: Hansı məsələlələrdə onun mərcəyi-təqlidinin fətvası ə`ləm mərcəyi-təqlidin fətvasına ziddirsə, ehtiyata görə, həmin məsələlələrdə o, təqidini ə`ləm mərcəyi-təqlidə dəyişməlidir.**

**Sual 45:**

**1) Hansı halda müqəllid öz təqlidini başqa mərcəyi-təqlidə dəyişə bilər?**

**2) Əgər ə`ləm müctəhidin müəyyən fətvaları zamanəyə uyğun olmazsa, yaxud bu fətvalara əməl etmək olduqca çətin olarsa, təqlidi ə`ləm müctəhiddən qeyri-ə`ləm müctəhidə dəyişmək olarmı?**

**Cavab:**

**1) Əhvətə[3] görə, təqlidi həyatda olan bir müctəhiddən başqa bir müctəhidə dəyişməyə icazə verilmir. Yalnız ikinci mərcəyi-təqlid birinci mərcəyi-təqliddən daha elmli olduğu və müəyyən bir məsələdə onun fətvası birinci mərcəyi-təqlidin fətvasına zidd olduğu təqdirdə icazə verilir.**

**2) Mərcəyi-təqlidin fətvalarının zəmanəyə və mövcud şəraitə uyğun olmadığını sadəcə güman etmək, yaxud onun fətvalarına əməl etməyin çətin olduğunu hesab etmək təqlidi ə`ləm müctəhiddən başqa bir müctəhidə dəyişməyə əsas vermir.**

---

[1] İbadi əməllər – məsələn, namaz, oruc, həcc, zəkat, xüms və s.

[2] Qeyri-ibadi əməllər – məsələn, alış-veriş, nikah, ov və s.

[3] Əhvət – yəni “ehtiyat”a müvafiq.
Ehtiyat – ya ehtiyat-vacibdir, ya ehtiyat-müstəhəbdir.
Ehtiyat-vacib – fətva ilə yanaşı olmayan ehtiyatdır və ona əməl etmək vacibdir. Amma müqəllid (təqlid edən şəxs) ehtiyat-vacibə əməl etmək yerinə, təqlid etdiyi müctəhiddən sonra digər müctəhidlərdən ələm (ən bilikli) olan müctəhidin fətvasına müraciət edə, həmin fətvaya əməl edə bilər.
Ehtiyat-müstəhəb- müctəhidin fətvası ilə yanaşı olan ehtiyatdır və ona əməl etmək tövsiyə olunur, amma vacib deyildir. Müqəllid həmin məsələdə başqa müctəhidə müraciət edə bilməz.

## Müxtəlif məsələlər

**Sual 46:** **“Müqəssir cahil” kimə deyilir?**

**Cavab: Müqəssir cahil o şəxsə deyilir ki, öz cəhalətindən xəbərdardır və bunu aradan qaldırmaq yollarını da bilir, amma şəriət hökmlərini öyənməkdə səhlənkarlıq edir.**

**Sual 47:** **“Qasir cahil” kimə deyilir?**

**Cavab: “Qasir cahil” o şəxsə deyilir ki, cahil (biliksiz və məlumatsız) olduğunu ümumiyyətlə bilmir, yaxud cahil olduğunu bilir, amma cəhalətini aradan qaldırmaq üçün bir yolu yoxdur.**

**Sual 48:** **“Ehtiyat-vacib” ifadəsi hansı mənanı bildirir?**

**Cavab: Ehtiyat ünvanında müəyyən bir işi yerinə yetirmək və ya tərk etməyin vacibliyini bildirir.**

**Sual 49:** **Bəzi fətvalarda işlənən “maneəsi vardır” (فِيهِ إِشْكَال) ifadəsi “haramlığ”a dəlalət edirmi?**

**Cavab: Bu ifadə müxtəlif yerlərdə müxtəlif mənaları bildirir. Əgər bir işin icazəsi xüsusuda “maneəsi vardır” deyilərsə, əməl məqamında haramlığa dəlalət edir.**

**Sual 50:** **“Maneəsi vardır” mənasını ” ifadələri وَيَخْلُوا yoxdur” mənasını bildirən “فِيهِ إِشْكَال ehtiyat?**

**Cavab: “Maneəsi vardır” mənasını bildirən ifadələr ehtiyata, “maneəsi yoxdur” mənasını bildirən ifadə isə fətvaya dəlalət edir.**

**Sual 51:** **“İcazə verilmir” və “haramdır” hökmləri arasındakı fərq nədir?**

**Cavab: Əməl məqamında bu ikisi arasında fərq yoxdur.**

## Mərcəiyyət və rəhbərlik

**Sual 52:** **Siyasi, ictimai və mədəni məsələlərdə vəliyyi-fəqihin (müsəlmanların rəhbəri) fətvası ilə mərcəyi-təqlidin fətvası bir-birinə zidd olduqda, müsəlmanların şəri vəzifəsi nədir? Elə bir meyar vardırmı ki, onun əsasında hansı məsələdə vəliyyi-fəqihin və hansı məsələdə mərcəyi-təqlidin verdiyi hökmə əməl edəcəyimizi bilək? Məsələn, əgər musiqi məsələsində mərcəyi-təqlidin nəzəri ilə vəliyyi-fəqihin nəzəri bir-birinə zidd olarsa, kimin nəzərinə əməl etmək vacibdir və kifayət edir? Ümumiyyətlə, vəliyyi-fəqihin nəzəri mərcəyi-təqlidin nəzərindən önəmli olduğu hökumət əmrləri hansılardır?**

**Cavab: İslam ölkəsinin idarə edilməsinə və bütün müsəlmanlara aid olan məsələlərdə vəliyyi-fəqihin nəzərinə əməl olunmalıdır. Amma sırf fərdi məsələlərdə hər bir mükəlləf öz mərcəyi-təqlidinin fətvasına əməl etməlidir.**

**Sual 53:** **Bildiyiniz kimi, "Usuli-fiqh" elmində "mutəcəzzi ictihad"[1] adlı bir məsələdən bəhs olunur. İmam Xomeyninin (r.ə) mərcəiyyəti rəhbərlikdən ayırması, "mutəcəzzi ictihad" məsələsinə aiddirmi?**

**Cavab: Vəliyyi-fəqihin rəhbərliyi ilə mərcəyi-təqlidin mərcəiyyətinin bir-birindən ayrılmasının, "mutəcəzzi ictihad" məsələsinə aidiyyatı yoxdur.**

**Sual 54:** **Əgər mən mərcəyi-təqlidlərdən birinə təqlid edirəmsə və bu halda vəliyyi-fəqih zalım kafirlərə qarşı müharibə və ya cihad əmri verərsə, lakin mənim mərcəyi-təqlidim müharibədə iştirak etməyə icazə vermirsə, mən mərcəyi-təqlidimin nəzərinə əməl etməliyəmmi?**

**Cavab: İslam ölkəsinin ümumi məsələlərində - belə ki, bu məsələlərdən biri kafirlər və təcavüzkar hegemonlar qarşısında İslamı və müsəlmanları müdafiə etməkdir – vəliyy-fəqihin əmrinə əməl etmək vacibdir.**

**Sual 55:** **Vəliyyi-fəqihin əmrinə və ya fətvasına əməl etmək nə dərəcədə əhəmiyyətlidir? Əgər vəliyyi-fəqihin nəzəri ilə ə`ləm mərcəyi-təqlidin nəzəri bir-birinə zidd olsa, kimin nəzəri önəmlidir?**

**Cavab: Vəliyyi-fəqihin əmrinə əməl etmək hamıya vacibdir və mərcəyi-təqlidin fətvası vəliyyi-fəqihin əmrinin qarşısını ala bilməz.**

[1] Yəni fiqhin müəyyən bir bölümündə və ya bölümlərində ictihada çatmaq.

## Vəliyyi-fəqih və hakimin hökmü

**Sual 56:** **"Vilayəti-fəqih" prinsipinə etiqad bəsləmək – istər anlayış, istərsə də predmet baxımından - əqli məsələdir, yoxsa şəri məsələdir?**

**Cavab: Vilayəti-fəqih - ədalətli və dinşünas fəqihin hakimiyyətindən ibarətdir. Bu məsələ təəbbüdi[1] şəri hökmdür və ağıl da bu məsələni təsdiqləyir. Bu hökmün nümunəsini (yəni vəliyyi-fəqihi) müəyyən etmək üçün əqli üslublar mövcuddur və bu üslublar İran İslam Respublikasının Konstitusiyasında açıqlanmışdır.**

**Sual 57:** **Vəliyyi-fəqih müsəlmanların ümumi mənafeyini nəzərə alıb şəriət hökmlərinə zidd olan bir hökm verə bilərmi? Şəriət hökmləri dəyişdirilə və icrası dayandırıla bilərmi?**

**Cavab: Bu məsələnin müxtəlif surətləri vardır.**

**Sual 58:** **İslam hökumətində kütləvi informasiya vasitələri vəliyyi-fəqihin, yaxud dini elmlər hövzəsinin, yaxud başqa bir qrumun nəzarəti altında olmalıdırmı?**

**Cavab: Kütləvi informasiya vasitələri vəliyyi-fəqihin nəzarəti və əmri altında idarə edilməli, İslam və müsəlmanlara xidmət və dəyərli dini maarifin yayılması istiqamətində fəaliyyət göstərməlidir. Həmçinin kütləvi informasiya vasitələri müsəlman cəmiyyətinin ideoloji yetkinliyi, cəmiyyətin problemlərinin həlli, müsəlmanların birliyi, müsəlmanlar arasında qardaşlığın artması və bu kimi istiqamətlərdə iş aparmalıdır.**

**Sual 59:** **"Mütləq vilayəti-fəqih" (yəni vəliyyi-fəqihin mütləq hakimiyyəti) məsələsinə etiqad etməyən şəxs həqiqi müsəlman sayılırmı?**

**Cavab: İmam Zamanın (ə.f) qeybi dövründə "mütləq vilayəti-fəqih" məsələsinə etiqad etməmək – istər ictihad, istərsə də təqlid əsasında olsun – dindən çıxmağa səbəb olmur.**

**Sual 60:** **Vəliyyi-fəqihin hansısa bir səbəbə görə - məsələn, müsəlmanların ümumi mənafeyinə görə - dini hökmləri aradan qaldıra bilmək kimi bir səlahiyyəti vardırmı?**

**Cavab: Həzrət Peyğəmbərin (s) vəfatından sonra İslam dininin hökmlərinin aradan qaldırılması mümkün deyildir. Hökmün tətbiq edildiyi məqamın dəyişməsi, yaxud zərurət və məcburiyyət halının yaranması, yaxud hökmün icrası üçün müvəqqəti maneənin ortaya çıxması hökmün aradan qaldırılması hesab olunmur.**

**Sual 61:** **"Həsbiyyə işlər"[2] istisna olmaqla, digər məsələlərdə vilayəti-fəqihə etiqadı olmayan şəxslərə qarşı bizim vəzifəmiz nədir? Bunu da qeyd edək ki, onların bəzi nümayəndələri bu baxışı cəmiyyətdə yayırlar.**

**Cavab: Müsəlman cəmiyyətinə rəhbərlik etmək və müsəlmanların ictimai işlərini idarə etməkdə "vilayəti-fəqih" məsələsi, hər bir dövrdə şiə məzhəbinin prinsiplərindən olub və "imamət" inancından qaynaqlanır. Əgər bir şəxs dəlil-sübut əsasında bu məsələyə etiqad etməyin vacib olmaması qənaətinə gələrsə, üzrlü hesab olunur. Amma o, müsəlmanlar arasında ixtilaf və ikitirəlik yarada bilməz.**

**Sual 62:** Vəliyyi-fəqihin əmrlərinə bütün müsəlmanlar əməl etməlidirlər, yoxsa təkcə vəliyyi-fəqihə təqlid edənlər onun əmrlərinə əməl etməlidirlər? Mütləq vilayəti-fəqihə etiqadı olmayan bir mərcəyi-təqliddə təqlid edən şəxsə vəliyyi-fəqihin əmrlərinə əməl etmək vacibdirmi, yoxsa yox?

**Cavab: Şiə məzhəbinə görə, bütün müsəlmanlar vəliyyi-fəqihin hökumət əmrlərinə əməl etməli, onun göstərişlərinə və qadağalarına tabe olmalıdırlar. Bu hökm mərcəyi-təqlidlərə də aiddir, odur ki, onların müqəllidlərinə də aid olacaqdır. Bizim nəzərimizə görə, "vilayəti-fəqih"i qəbul etmək İslamı və Məsum İmamların (ə) rəhbərliyini qəbul etməkdən ayrı bir məsələ deyildir.**

**Sual 63:** "Mütləq vilayət" ifadəsi Həzrət Peyğəmbərin (s) dövründə bu mənanı bildirirdi ki, əgər o həzrət bir şəxsə müəyyən bir işi yerinə yetirməyi əmr etsəydi, hətta həmin iş çox çətin bir iş olsaydı belə, bu şəxsin onu yerinə yetirməsi vacib idi. Məsələn, əgər Həzrət Peyğəmbər (s) bir şəxsə intihar etməyi əmr etsəydi, həmin şəxs intihar etməli idi. Sualım budur ki, "vilayəti-fəqih" ifadəsi bizim dövrümüzdə də Həzrət Peyğəmbərin (s) dövründəki mənanı bildirirmi? Nəzərə almaq lazımdır ki, Həzrət Peyğəmbər (s) məsum idi, amma bizim dövrümüzdə məsum canişin yoxdur?

**Cavab: Sonuncu səmavi din olan və qanunları Qiyamətədək qüvvədə olan İslam dini cəmiyyətin idarə olunmasını zəruri bilir. Odur ki, müsəlman cəmiyyətinin başında bir rəhbər olmalıdır. Bu rəhbərin üzərinə düşən vəzifə isə, islam ümmətini düşmənlərin şərindən qorumaq, islam hökumətini qoruyub saxlamaq, cəmiyyyətdə ədaləti icra etmək, zülmün, haqsızlığın və güclünün zəifə təcavüzünün qarşısını almaq, habelə mədəni, siyasi və ictimai inkişafı təmin etməkdir. Bu vəzifəni yerinə yetirmək bəzi şəxslərin istək, mənafe və azadlıqları ilə ziddiyyət təşkil edə bilər. Amma müsəlmanların rəhbəri böyük əhəmiyyət daşıyan rəhbərlik vəzifəsini şəri meyarlar əsasında üzərinə götürdükdən sonra lazım bildiyi məqamlarda islam fiqhi əsasında qərarlar almalı və lazımi göstərişləri verməlidir.**

**Sual 64:** Fəqihlərin fətvasına əsasən, dünyasını dəyişmiş müctəhidin təqlidində qalmaq həyatda olan müctəhidin icazəsi əsasında olmalıdır. Dünyasını dəyişmiş rəhbərin hökumət əmrlərinin qüvvədə qalması da həyatda olan rəhbərin izacəsinə bağlıdırmı? Yoxsa həyatda olan rəhbərin icazəsi olmadan belə bu əmrlər öz-özlüyündə qüvvədə qalır?

**Cavab: Əgər vəliyyi-fəqihin hökumət əmrləri və təyinatları müvəqqəti olmamışdırsa, qüvvədə qalır. Amma əgər sonrakı vəliyyi-fəqih bu əmrləri və təyinatları ləğv etməyi məqsədəuyğun bilərsə, ləğv edə bilər.**

**Sual 65:** İran İslam Respublikasında yaşayan və "mütləq vilayəti-fəqih"ə etiqadı olmayan bir fəqihə hazırkı vəliyyi-vəqihin əmrlərinə tabe olmaq vacibdirmi? Əgər o, vəliyyi-fəqihin əmrlərinə qarşı çıxarsa, fasiqdirmi? Əgər bir fəqihin "mütləq vilayəti-fəqih"ə etiqadı olsa, amma o özünü hazırkı vəliyyi-fəqihdən bu məqama daha layiqli bilsə və onun əmrlərinə qarşı çıxsa, fasiqdirmi?

**Cavab: Vəliyyi-fəqihin hökumət əmrlərinə tabe olmaq hər bir mükəlləfə, hətta fəqih olsa belə, vacibdir. Heç kim vəliyyi-fəqih mənsəbinə özünün daha layiqli olduğunu əsas tutub, hazırkı vəliyyi-fəqihin əmrlərinə qarşı çıxa bilməz. Bu o təqdirdədir ki, hazırkı vəliyyi-fəqih təsdiqlənmiş qanuni yollarla bu məqama təyin edilmişdir. Əks təqdirdə, məsələ kökündən fərq edəcəkdir.**

**Sual 66:** Qeyb dövründə camiuş-şərait müctəhid cəza ölçülərinin icrası səlahiyyətinə malikdirmi?

**Cavab: Qeyb dövrüdə də cəza ölçüləri icra edilməlidir və bu səlahiyyət yalnız vəliyyi-fəqihə**

**aiddir.**

**Sual 67:** **Vilayəti-fəqih məsələsi təqlidi məsələdir, yoxsa etiqadi məsələdir? Bu məsələyə etiqadı olmayan şəxsin hökmü nədir?**

**Cavab: Vilayəti-fəqih məsələsi məzhəbin əqidə əsaslarından olan "imamət" prinsipindən qaynaqlanır. Lakin vilayəti-fəqih məsələsinə aid hökmlər digər fiqhi hökmlər kimi şəri dəlillərdən əldə olunur və hər kim dəlil-sübut əsasında öz nəzərinə görə, bu məsələyə etiqadın vacib olmaması qənaətinə gələrsə, üzrlü hesab olunur.**

**Sual 68:** **Bəzi vaxtlar bəzi məsulların "vilayəti-idari" adlı bir məsələdən bəhs etdiklərini eşidirik. Vilayəti-idari - özündən yuxarı vəzifədə olan şəxsin göstərişlərinə etiraz etmədən tabe olmaqdır. Sizin bu barədə nəzəriniz nədir? Bizim şəri vəzifəmiz nədir?**

**Cavab: İdarənin qanunları əsasında verilən göstərişlərə qarşı çıxmağa icazə verilmir. Amma dini anlayışlarda "vilayəti-idari" adlı bir anlayış mövcud deyildir.**

**Sual 69:** **Vəliyyi-fəqihin nümayəndəsinin öz səlahiyyətləri çərçivəsində verdiyi göstərişlərinə tabe olmaq vacibdirmi?**

**Cavab: Əgər vəliyyi-fəqihin nümayəndəsinin verdiyi göstərişlər vəliyyi-fəqih tərəfindən ona verilən səlahiyyətlər çərçivəsində olarsa, bu göstərişlərə qarşı çıxmağa icazə verilmir.**

---

[1] Yəni şəriətin dəlil-sübut istənilmədən yerinə yetirilən hökmləri.

[2] Şəriət sahibi bu işlərin tərk edilməsinə razı deyildir və bu işləri vəliyyi-fəqih və ya onun nümayəndəsi idarə edir, məsələn, yetimlərin malının istifadəsinə nəzarət.

## Təharətin[1] hökmləri

1. 1) paklıq; 2) dəstəmazlı, qüsllü və təyəmmümlü olmaq.

## Suların hökmləri

**Sual 70:** **Əgər təzyiqsiz üzüaşağı tökülən "az su"yun[1] aşağı hissəsi nəcasətlə[2] təmasda olarsa, bu suyun yuxarı hissəsi pak olaraq qalırmı?**

**Cavab: Əgər su elə bir şəkildə üzüaşağı axsa ki, ona "su yuxarıdan aşağıya axır" deyilsə, suyun yuxarı hissəsi pakdır.**

**Sual 71:** **Kürr su və ya axar su[3] ilə napak paltarları yuduqda, paltarları sıxmaq lazımdırmı? Yoxsa nəcasətin özü aradan getdikdən sonra su paltarı bürüsə, kifayət edir?**

**Cavab: Ehtiyata görə, paltarı sıxmaq və ya hərəkət etdirmək lazımdır.**

**Sual 72:** **Napak paltarı kürr su və ya axar su ilə paklayarkən paltarı sudan çıxardıqdan sonra da sıxmaq lazımdırmı? Yoxsa paltarı suyun daxilində sıxdıqda, paltar paklanır?**

**Cavab: Suyun daxilində sıxmaq və ya hərəkət etdirmək kifayət edir.**

**Sual 73:** **Əgər napak kilim və ya xalçanı şəhərin su mənbəyinə birləşən borulardan gələn su ilə yusaq, borulardan gələn su napak yerə dəyən kimi kilim və ya xalça paklanırmı? Yoxsa qüsalə su[4] kilim və ya xalçadan ayrılmalıdır?**

**Cavab: Napak kilim və ya xalçanı borulardan gələn su ilə paklayarkən qüsalə suyun ondan ayrılması şərt deyildir. Nəcasət aradan getdikdən sonra suyun napak yerə dəyməsi və su töküldüyü halda xalçaya əl çəkmək vasitəsilə qüsalə suyun öz yerindən hərəkət etməsi ilə paklıq hasil olur.**

**Sual 74:** **Təbii halda qatı olan su ilə dəstəmaz almaq və qüsl etməyin hökmü nədir? Məsələn, duzların və minerallların çoxluğu nəticəsində qatı suyu olan dəniz və göl suları, o cümlədən, Urmiyyə gölünün suyu və s.**

**Cavab: Sadəcə duzların və minerallların çoxluğu nəticəsində suyun qatı olması, həmin suyun "mütləq su"[5] adlanmasına mane olmur. Mütləq suya aid olan şəri hökmləri daşıması üçün ürfdə (yəni camaatın nəzərində) "mütləq su" deyə adlanması kifayət edir.**

**Sual 75:** **Kürr suyun şəri hökmlərini daşıması üçün suyun kürr olduğuna yəqin etmək vacibdirmi? Yoxsa suyun kürr olduğunu qəbul etmək kifayət edir? (Məsələn, qatar və ya təyyarənin ayaqyolunda mövcud olan su kimi.)**

**Cavab: Əgər suyun əvvəldə kürr olduğu dəqiqləşərsə, onun kürr olduğunu qəbul etmək olar.**

**Sual 76:** İmam Xomeyninin (r.ə) risaləsində 147-ci məsələdə belə qeyd edilir: "Paklıq və napaklıq məsələlərində şəri büluğa çatmayan mümәyyiz uşağın[6] sözünə etina olunmur." Bu fətva ağır vəzifə yaradır. Çünki bu fətvaya əsasən, məsələn, on beş yaşı tamamlananadək oğlan uşağını ayaqyolunda ata və ana paklamalıdır. Xahiş edirəm, bizim şəri vəzifəmizi açıqlayasınız.

**Cavab: Əgər büluğ astanasında olan uşaq özünün və ya ixtiyarında olan bir şeyin pak və ya napak olduğunu söyləsə, onun sözünə etibar olunur. Bundan qeyri halda, əgər onun sözü yəqinliyin və ya əminliyin yaranmasına səbəb olmazsa, onun sözünə etibar olunmayacaq.**

**Sual 77:** **Bəzən suya müəyyən maddələr qatırlar və su süd rəngi alır. Bu su "müzaf su"[7] olurmu? Belə su ilə dəstəmaz almağın və paklamanın hökmü nədir?**

**Cavab: Bu su, müzaf su hökmündə deyildir.**

**Sual 78:** **Paklamada kürr su ilə axar su arasında fərq nədir?**

**Cavab: Bu xüsusda onlar arasında bir fərq yoxdur.**

**Sual 79:** **Əgər şor su qaynadılsa, onun buxarından əldə edilən su ilə dəstəmaz almaq olarmı?**

**Cavab: Əgər ona mütləq su deyilsə, mütləq su hökmündədir.**

**Sual 80:** **Ayağın və ya ayaqqabının altının paklanması üçün on beş addım yol getmək şərtdir. Nəcasət aradan getdikdən sonra on beş addım yol getmək lazımdır, yoxsa nəcasət mövcud olduğu halda da on beş addım yol getmək kifayət edir? Nəcasət on beş addım yol getmək nəticəsində aradan getdiyi təqdirdə, ayağın və ya ayaqqabının altı paklanırmı?**

**Cavab: Əgər yerin üstündə yol getmək nəticəsində ayağının altı və ya ayaqqabısının altı napak olan bir şəxs quru və pak torpağın üstündə təxminən on addım yol gedərsə və "nəcasət" və ya "nəcasətə bulaşan şey" yol getmək, yaxud ayağı yerə sürtmək nəticəsində aradan gedərsə, onun ayağının və ya ayaqqabısının altı paklanar.**

**Sual 81:** **Asfalt yolda yol getməklə ayağın və ya ayaqqabının altı paklanırmı?**

**Cavab: Asfalt və ya qırlanmış yollar ayağın və ya ayaqqabının altını paklamır.**

**Sual 82:** **Günəş "paklayıcı"dırmı[8]? Əgər paklayıcıdırsa, onun paklayıcılıq şərtləri hansılardır?**

**Cavab: Günəşin saçması Yerin, eləcə də daşınması mümkün olmayan bütün əşyaların, məsələn, ağac, bitki, bina və tikililər, binanın tikintisində istifadə olunan taxta, qapı, pəncərə və s. bu kimi əşyaların paklanmasına səbəb olur. Amma bu şərtlə ki, onlarda olan "nəcasət" öncədən aradan getmiş olmalı, bu əşyaların üzərinə günəşin birbaşa saçmasının qarşısını kəsən bulud və ya pərdə kimi bir şey mövcud olmamalı, həmçinin günəş saçarkən bu əşyalar yaş olmalı və sırf günəş vasitəsilə qurumalıdır.**

**Sual 83:** **Paklama zamanı rəngi suya çıxan napak paltarlar necə paklanar?**

**Cavab: Əgər paltarın rənginin suya çıxması suyun müzaf olmasına səbəb olmursa, napak paltarların üstünə su tökməklə paklanar.**

**Sual 84:** **Bir şəxs cənabət qüslü etmək üçün bir qabda su götürür və qüsl edərkən suyun damcıları bədənindən həmin qaba tökülür. Bu, suyun napak olmasına səbəb olurmu və həmin su ilə qüslü tamamlamağa maneə yaradırmı?**

**Cavab: Əgər suyun damcıları bədənin pak hissəsindən həmin qaba tökülürsə, su pakdır və onunla qüslü tamamlamağın maneəsi yoxdur.**

**Sual 85:** **Napak su ilə qarışdırılmış palçıqdan düzəldilən təndiri paklamaq mümkündürmü?**

**Cavab: Təndirin divarlarının üst tərəfini yumaqla paklamaq olar və xəmirin yapıldığı bu hissənin pak olması çörək bişirmək üçün kifayət edir.**

www.leader.ir

**Sual 86:** **Əgər napak yağ üstündə kimyəvi reaksiyalar aparılsa və nəticədə yağın maddələri yeni xüsusiyyətlərə malik olsa, bu yağ napak olaraq qalırmı? Yoxsa "istihalə"[9] hökmünü kəsb edir?**

**Cavab: Napak maddələrin paklanması üçün ancaq maddələrə yeni xüsusiyyətlər verən kimyəvi reaksiyaların aparılması kifayət etmir.**

**Sual 87:** **Bizim kəndimizdə bir hamam vardır ki, onun tavanı düzdür və suyun buxarından yaranan su damcıları hamamlanan insanların başına damcılayır. Bu su damcıları pakdırmı? Bu su damcıları töküldükdən sonra qüsl düzgündürmü?**

**Cavab: Hamamın buxarı və pak tavandan tökülən damcılar pak hökmündədir. Bu damcıların bədənə tökülməsi bədənin napak olmasına səbəb olmur və qüslün düzgünlüyünə xələl gətirmir.**

**Sual 88:** **Elmi araşdırmalara əsasən, çirkab suların çəkisi minerallarla qarışma və mikroblarla çirklənmə nəticəsində təbii suların çəkisindən on faiz ağır olur. Əgər təmizləmə-saflaşdırma qurğuları vasitəsilə bu suların üzərində müəyyən fiziki, kimyəvi və bioloji əməliyyatlar aparılsa və bu sular çirklənmiş minerallardan və mikroblardan təmizlənsə, belə ki, tam saflaşdırmadan sonra fiziki (rəng, iy, dad), kimyəvi (çirklənmiş minerallar) və gigiyena (zərərverici mikroblar və parazit yumurtaları) baxımından bir çox çayların və dənizlərin suyundan, xüsusilə də suvarmada istifadə olunan sulardan daha gigiyenik və daha yaxşı olsa, saflaşdırmadan qabaq napak olan bu sular sözügedən əməliyyatlardan sonra paklanırmı və istihalə hökmü ona aid olurmu? Yoxsa saflaşdırmadan sonra da napak su hökmündədir?**

**Cavab: Yuxarıda deyilənləri nəzərə alaraq, çirkab suların çirklənmiş minerallardan, mikroblardan və s. təmizlənməsi ilə "istihalə" baş vermir. Amma əgər təmizləmə-saflaşdırma işi suyun buxarlandırılması və buxarın yenidən suya çevrilməsi şəklində aparılarsa, istihalə baş verir.**

---

[1] Az su – "kür"dən az olan və yerdən qaynayıb çıxmayan sudur. Kürr su - uzunluğu, eni və dərinliyi üç qarış yarım olan bir qabın tutumu miqdarında olan sudur və 384 litr suya bərabərdir.

[2] "Nəcasətlər" müəyyən saydadır və bunlardan ibarətdir: bövl (sidik), ğait (nəcis), məni (sperma), murdar olmuş heyvan, qan, it, donuz, kafir, şərab, pivə, haramdan cənabətli olan şəxsin təri, nəcasət yeyən dəvənin təri.

[3] Axar su - yerdən qaynayan və cərəyan edən sudur, məsələn, bulaq suyu və yeraltı çayların suyu.

[4] Qüsalə su - bir şeyin (məsələn, bədən, paltar, qab və s.) yuyulmasına sərf olunan sudur: istər həmin şeydən ayrılmış olsun, istərsə də həmin şeyin daxilində qalmış olsun.

[5] Mütləq su - bir şeydən çəkilməmiş və ya bir şeylə qarışmamış sudur. Hətta əgər bir şeylə qarışmış olsa, "su" deyə adlanmayacaq həddə deyildir.

[6] Müməyyiz uşaq – şəri büluğa çatmayan, amma yaxşı və pisi ayırd edə bilən uşağa deyilir.

[7] Müzaf su, mütləq suyun əksidir. Müzaf su – bir şeydən çəkilən (məsələn, nar, limon və gül suyu kimi) və ya bir şeylə qarışan sudur, belə ki, daha ona "su" deyilmir (məsələn, şərbət kimi).

[8] Paklayıcılar – napak əşyaları paklayanlardır. Paklayıcılar bunlardır: su, Yer, Günəş, istihalə, üzüm suyunun üçdə ikisinin azalması, intiqal, İslama gəlmək, təbəiyyət, nəcasətin aradan getməsi, nəcasət yeyən heyvanın istibrası, müsəlmanın qeyb olması. Bunların hər biri müəyyən şərtlər daxilində napak əşyaları pak edir.

[9] İsithalə - bir haldan başqa bir hala düşmək deməkdir. Yəni müəyyən bir şey elə bir şəkildə dəyişir ki, daha başqa bir şey hesab olunur. Məsələn, napak çubuq yanıb kül olur.

## Təxəllinin[1] hökmləri

**Sual 89:** **Köçəri tayfaların, xüsusilə köç zamanı, paklanmaq üçün kifayət qədər suyu olmur. Sidiyin məxrəcini (xaric olduğu yeri) paklamaq üçün çubuq və xırda daşlar kifayət edirmi? Onlar bu vəziyyətdə namaz qıla bilərlərmi?**

**Cavab: Sidiyin məxrəci ancaq su ilə paklanır. Amma bədənini su ilə paklamaq imkanı olmayan şəxsin namazı düzgündür.**

**Sual 90:** **"Az su"[2] ilə sidik və nəcisin məxrəcini paklamağın hökmü nədir?**

**Cavab: Az su ilə sidiyin məxrəcini paklamaq üçün sidiyin özünü aradan apardıqdan sonra ehtiyata görə, həmin yeri iki dəfə yumaq lazımdır. Nəcisin məxrəcini paklamaq üçün nəcis və onun əlamətləri aradan gedənədək, həmin yeri yumaq lazımdır.**

**Sual 91:** **Qaydaya görə, namaz qılan bir şəxs sidik ifraz etdikdən sonra istibra etməlidir[3]. Mənim cinsiyyət üzvümdə yara vardır. İstibra edərkən sıxma nəticəsində bu yaradan qan gəlir və özümü paklayan zaman istifadə etdiyim suya qarışaraq bədənimin və paltarımın napak olmasına səbəb olur. Əgər istibra etməsəm, yaranın daha tez sağalması ehtimal olunur. Amma istibra etdikdə cinsiyyət üzvü sıxıldığına görə yaranın sağalması uzanır. Sizdən xahiş edirəm, deyəsiniz ki, mən istibra edim, yoxsa etməyim?**

**Cavab: İstibra etmək vacib deyildir. Hətta əgər ciddi bir ziyanı olarsa, istibra etməyə icazə verilmir. Bunu da qeyd etməliyik ki, əgər şəxs istibra etməsə və sidik ifraz etdikdən sonra ondan az da olsa şübhəli bir su xaric olsa, bu su sidik hökmündə olacaq.**

**Sual 92:** **Bəzən sidik ifraz etdikdən və istibra etdikdən sonra ixtiyarsız olaraq insandan sidiyə oxşar bir rütubət xaric olur. Bu rütubət napakdırmı, yoxsa pakdır? Əgər insan bir müddətdən sonra təsadüfi olaraq bu məsələni başa düşsə, qıldığı namazların hökmü nədir? Bundan sonra o, ixtiyarsız xaric olan bu rütubətin xaric olub-olmadığını araşdırmalıdırmı?**

**Cavab: Əgər istibradan sonra sidik olması şübhəli olan bir rütubət xaric olarsa, bu rütubət sidik hökmündə deyildir və pak hesab olunur. Bu xüsusda araşdırma aparmaq lazım deyildir.**

**Sual 93:** **Əgər mümkünsə, zəhmət olmasa, bəzən insandan xaric olan rütubətin qisimləri barəsində açıqlama verərdiniz.**

**Cavab: Bəzən məni (sperma) xaric olduqdan sonra insandan rütubət xaric olur və bu rütubət "vəzy" adlanır. Bəzi vaxtlar sidik ifraz etdikdən sonra insandan rütubət xaric olur və bu rütubət "vədy" adlanır. Kişi ilə qadın mazaqlaşdıqdan sonra xaric olan rütubət isə "məzy" adlanır. Bütün bu rütubətlər pakdır və taharətin (paklığın, həmçinin qüsl və dəstəmazın) pozulmasına səbəb olmur.**

**Sual 94:** **Əgər ayaqyolu çanağı qiblə qəbul edilən istiqamətdən tam fərqli istiqamətdə quraşdırılsa və bir müddətdən sonra başa düşsək ki, çanağın qoyulduğu istiqamət qiblə istiqamətindən 20-22 dərəcə fərqlidir, çanağın istiqamətini dəyidirmək vacibdirmi, yoxsa vacib deyildir?**

**Cavab: Əgər qiblə istiqamətindən dönmək "qiblə istiqamətindən dönmüşmüşdür" deyiləcək həddə olsa, kifayətdir və maneəsi yoxdur.**

**Sual 95:** **Sidik yollarının xəstəliyi nəticəsində sidik ifraz etdikdən və istibra etdikdən sonra sidiyim kəsilmir və paltarıma rütubət dəyir. Müalicə olunmaq üçün həkimə müraciət etdim və onun göstərişlərinə əməl etdim. Amma xəstəliyim sağalmadı. Mənim şəri**

vəzifəm nədir?

**Cavab: İstibradan sonra sidiyin xaric olduğuna şəkk edilərsə, bu şəkkə etina olunmur. Amma əgər sidiyin damcı-damcı xaric olduğuna yəqininiz varsa, İmam Xomeyninin (r.ə) risaləsində açıqlanan "məslus şəxs"in[4] vəzifəsinə əməl edin. Sizin bundan başqa bir vəzifəniz yoxdur.**

**Sual 96:** **Nəcisin məxrəcini paklamamışdan qabaq istibra hansı qaydada edilir?**

**Cavab: Nəcisin məxrəcini paklamamışdan qabaq və paklayandan sonra edilən istibranın qaydası arasında heç bir fərq yoxdur.**

**Sual 97:** Bəzi şirkətlərə və müəssisələrə işə düzəlmək üçün tibbi müayinə tələb olunur və bəzən bu müayinədə övrətin[5] açılması lazım gəlir. Lazım olduğu təqdirdə, bu işə icazə verilirmi?

**Cavab: Hətta işə düzəlmək üçün tələb olunsa belə, övrəti açmağa və ona baxmağa icazə verilmir. Amma əgər həkim ehtimal versə ki, müraciət edən şəxsin xüsusi bir xəstəliyi vardır və bu xəstəliklə onu işə götürmək olmaz, habelə onun bu xəstəliyə düçar olmadığını birbaşa müayinədən qeyri bir yol ilə müəyyən etmək mümkün deyildir, yalnız bu halda övrətə baxmağa icazə verilir.**

**Sual 98:** **Təxəllidən sonra sidiyin məxrəci neçə dəfə yuyulduqda paklanır?**

**Cavab: Ehtiyat-vacibə görə, sidiyin məxrəci "az su" ilə iki dəfə yuyulduqda paklanır.**

**Sual 99:** **Nəcisin məxrəcini necə paklamaq olar?**

**Cavab: Nəcisin məxrəcini iki qaydada paklamaq olar. Birinci qayda budur ki, nəcis aradan gedənədək nəcisin məxrəci su ilə yuyulsun və nəcis aradan gedəndən sonra suya çəkmək lazım deyildir. İkinci qayda budur ki, üç ədəd daş və ya parça və bu kimi şeylərlə nəcis təmizlənsin. Əgər üç ədəd daş və ya parça ilə nəcis təmizlənməzsə, başqa daş və ya parça götürülsün və nəcisin məxrəci tam təmizlənsin. Üç ədəd daş və ya parça əvəzinə bir ədəd daşın və ya parçanın üç yerindən də istifadə etmək olar.**

---

[1] Təxəlli – sidik və nəcis ifrazı deməkdir.

[2] Az su (ya qəlil su) - kürr su miqdarından az olan və yerdən qaynamayan sudur.

[3] İstibra etmək – sidik ifraz etdikdın sonra kişilərin yerinə yetirdikləri müstəhəb əməldir, başqa sözlə, sidik kanalının şəriətin buyurduğu qaydada təmizlənməsidir.

[4] Məslus şəxs – xəstəliyə görə sidiyini saxlamaqda aciz olan şəxsdir.

[5] İnsanın ayıb yerləri - qabağı və arxası.

## Dəstəmazın[1] hökmləri

**Sual 100:** Təharət niyyəti ilə məğrib namazı üçün dəstəmaz aldım. Mən bu dəstəmaz ilə Quranın xəttinə toxuna və işa namazını qıla bilərəmmi?

**Cavab: Dəstəmaz düzgün şəkildə alındığı təqdirdə, pozulmayana qədər bu dəstəmazla təharətin şərt olduğu hər bir əməli yerinə yetirmək olar.**

**Sual 101:** Başının qabaq hissəsinə süni saç qoyan və bu saçı qoymadığı təqdirdə çətinliyə düşən bir şəxs süni saçların üstünə məsh çəkə bilərmi?

**Cavab: Əgər süni saçlar parik şəklində olarsa, məsh çəkmək üçün onu çıxarmaq vacibdir. Amma əgər süni saçlar başın dərisinə əkilmiş olarsa və onu çıxarmaq mümkün olmazsa, yaxud onu çıxarmağın ziyanı və ya dözülməz böyük çətinliyi olarsa, eyni zamanda bu saçlara görə başın dərisinə məsh çəkmək və yaşlığı dəriyə çatdırmaq mümkün olmazsa, bu halda süni saçların üstünə məsh çəkmək kifayət edir. Ehtiyata görə, təyəmmüm də yerinə yetirilsin.**

**Sual 102:** Bir nəfər deyir ki, dəstəmaz alarkən üzə ancaq iki ovuc su tökülməlidir. Əgər üçüncü ovuc su tökülərsə, dəstəmaz düzgün deyildir. Bu söz düzgündürmü?

**Cavab: Dəstəmazda əzaları birinci dəfə yumaq vacibdir, ikinci dəfə yumağa icazə verilir. Bundan artıq sayda yumağa isə icazə verilmir. Amma "dəfə"ni təyin etməyin meyarı, insanın niyyətidir. Deməli, əgər birinci dəfə yumaq niyyətilə üz və ya əllərə bir neçə dəfə (bir neçə ovuc) su tökərsə, maneəsi yoxdur.**

**Sual 103:** İrtimasi dəstəmazda[2] üz və əlləri bir neçə dəfə suya daxil etmək olarmı? Yoxsa iki dəfə daxil etməyə icazə verilir?

**Cavab: İrtimasi dəstəmazda üz və əlləri yalnız iki dəfə suya daxil etmək olar. Birinci dəfə daxil etmək vacibdir, ikinci dəfə daxil etməyə icazə verilir. Üz və əlləri bundan artıq sayda suya daxil etməyə icazə verilmir. Amma irtimasi dəstəmazda əllər sudan çıxarılan vaxt dəstəmaz niyyəti edilməlidir ki, məsh dəstəmaz suyu ilə yerinə yetirilmiş olsun.**

**Sual 104:** Saçlarda və üzdə təbii olaraq əmələ gələn yağlılıq (dəstəmaz suyunun dəriyə və ya saçlara dəyməsinə) maneə yaradırmı?

**Cavab: Maneə hesab olunmur. Amma əgər bu yağlılıq suyun dəriyə və ya saçlara dəyməsinə maneə yaradacaq həddə olarsa, maneə hesab olunur.**

**Sual 105:** Mən bir müddət ayaqlarıma barmaqların başından məsh çəkməmişəm, təkcə ayağımın üstünə və barmaqların bir hissəsinə məsh çəkmişəm. Bu məsh düzgün olubdurmu? Əgər düzgün olmayıbdırsa, qıldığım namazların qəzasını qılmalıyammı?

**Cavab: Əgər məsh ayaq barmaqların başından çəkilməyibsə, dəstəmaz düzgün deyildir və qılınan namazların qəzasını qılmaq vacibdir. Amma əgər insan şəkk etsə ki, "görəsən, məsh çəkərkən ayaq barmaqların başından məsh çəkmişdir, yoxsa yox", məsələni bildiyi və barmaqların başından məsh çəkdiyini ehtimal verdiyi təqdirdə, aldığı dəstəmaz və qıldığı**

**namazlar düzgün hesab olunur.**

**Sual 106:** **Ayağın üstündəki hündürlük - belə ki, məsh çəkərkən əli həmin yerə qədər çəkmək lazımdır – hansı yerdir?**

**Cavab: Ayağa məsh oynağa qədər çəkilməlidir.**

**Sual 107:** **Dövlətin başqa ölkələrdə inşa etdirdiyi məscidlərdə, dövlət müəssisələrində və idarələrdə dəstəmaz almağın hökmü nədir?**

**Cavab: İcazə verilir və şəriət baxımından heç bir maneəsi yoxdur.**

**Sual 108:** **Bir bulaq vardır ki, əgər onun suyunu borular vasitəsilə bir neçə kilomert uzaqlıqda olan bir məntəqəyə çəkmək istəsək, borular şəxsi mülk olan torpaqlardan keçməlidir. Torpaq sahiblərinin icazəsi olmadığı təqdirdə bu bulağın suyundan dəstəmaz almaq, qüsl etmək və paklama işlərini yerinə yetirmək üçün istifadə etmək olarmı?**

**Cavab: Əgər bulaq başqasının mülkündən kənarda qaynayarsa və torpaq üstündə cərəyan etməzdən (axmazdan) qabaq borulara daxil olub nəzərdə tutulan məntəqəyə ötürülərsə, bu sudan istifadə etmək ürfdə başqasının mülkündən istifadə etmək hesab olunmadığı təqdirdə, ondan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 109:** **Su idarəsi suyun təzyiqini artıran matoru quraşdırmaq və ondan istifadə etməyi qadağan etmişdir. Amma bəzi məhəllələrdə suyun təzyiqi azdır və oranın sakinləri məcburdurlar ki, binaların yuxarı mərtəbələrində sudan istifadə etmək üçün sözügedən matordan istifadə etsinlər. Bunu nəzərə alaraq, iki sualıma cavab verərdiniz:**
**1) Sudan bol istifadə edə bilmək üçün suyun təzyiqini artıran matoru quraşdırmağa şəri baxımdan icazə verilirmi?**
**2) Suyun təzyiqini artıran matordan istifadəyə icazə verilmədiyi təqdirdə, mator vasitəsilə gələn su ilə dəstəmaz almaq və qüsl etməyin hökmü nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, suyun təzyiqini artıran matoru quraşdırmaq və ondan istifadə etməyə icazə verilmir. Mator vasitəsilə gələn su ilə alınan dəstəmaz və edilən qüsl məhəlli-işkaldır**[3]**.**

**Sual 110:** **Sizdən soruşulan bir sualın cavabında qeyd etmisiniz ki, namaz vaxtının əvvəlinə yaxın bir vaxtda alınan dəstəmazla namaz qılmaq olar. "Namaz vaxtının əvvəlinə yaxın bir vaxt" dedikdə, hansı ölçüdə olan vaxtı nəzərdə tutursunuz?**

**Cavab: Meyar, ürfdə "namaz vaxtına yaxın bir vaxt" deyilməsidir. Əgər həmin vaxtda namaz üçün dəstəmaz alınsa, maneəsi yoxdur.**

**Sual 111:** **Dəstəmaz alan şəxsin məsh çəkərkən ayaq barmaqlarının altına, yəni yol gedərkən yerə dəyən hissəsinə məsh çəkməsi müstəhəbdirmi?**

**Cavab: Ayağın məsh yeri, ayaq barmaqlarının birinin başından oynağa qədər olan ayağın üst hissəsidir. Ayaq barmaqlarının altına məsh çəkməyin müstəhəb olduğu isə sübuta yetməyibdir.**

**Sual 112:** **Əgər dəstəmaz alan şəxs üzünü və əllərini dəstəmaz niyyəti ilə yuyarkən su kranını açıb-bağlayarsa, onun bu əməlinin hökmü nədir?**

**Cavab: Maneəsi yoxdur və dəstəmazın düzgünlüyünə xələl gətirmir. Amma əgər o, sol əlini yuyub qurtardıqdan sonra və bu əl ilə məsh çəkməzdən qabaq əlini yaş olan su kranına vursa və əlin dəstəmaz suyu qeyri-dəstəmaz suyu ilə qarışsa, dəstəmaz suyunun qeyri-dəstəmaz suyu ilə qarışdığı bu yaşlıq ilə çəkilən məshin düzgünlüyü məhəlli-işkaldır.**

**Sual 113:** Məsh çəkmək üçün dəstəmaz suyu olmayan bir sudan istifadə etmək olarmı? Başa hökmən sağ əl ilə və yuxarıdan aşağıya doğru məsh çəkmək lazımdırmı?

**Cavab: Başa və ayaqlara hökmən dəstəmaz suyundan əllərdə qalan yaşlıq ilə məsh çəkmək lazımdır. Əgər əllərdə yaşlıq qalmazsa, gərək saqqaldan və ya qaşlardan yaşlıq götürülsün və onunla məsh çəkilsin. Ehtiyata görə, başa sağ əl ilə məsh çəkilsin, amma yuxarıdan aşağıya doğru məsh çəkmək lazım deyildir.**

**Sual 114:** Bəzi qadınlar iddia edirlər ki, dırnaqda olan boya dəstəmaza maneə sayılmır və nazik corabın üstündən məsh çəkməyə icazə verilir. Bu barədə sizin nəzəriniz nədir?

**Cavab: Əgər boya dırnaqda qat yaradarsa, suyun dırnağa çatmasına maneə yaradacaqdır və bu halda dəstəmaz düzgün deyildir. Corab nə qədər nazik olsa belə, onun üstündən məsh çəkmək düzgün deyildir.**

**Sual 115:** Onurğa beynindən zədə aldığına görə sidiyini saxlaya bilməyən müharibə əlilləri cümə namazında iştirak edib xütbələri dinləyə, məslus şəxsin vəzifəsinə əməl edərək cümə namazını və əsr namazını qıla bilərlərmi?

**Cavab: Onların cümə namazında iştirak etmələrinin maneəsi yoxdur. Amma nəzərə almaq lazımdır ki, onlar dəstəmaz aldıqdan sonra fasiləsiz olaraq namaza başlamalıdırlar. Beləliklə, cümə namazının xütbələrindən qabaq aldıqları dəstəmaz cümə namazını qılmaq üçün o təqdirdə kifayət edir ki, dəstəmazdan sonra dəstəmazı pozan bir iş görməsinlər.**

**Sual 116:** Dəstəmaz almağa qadir olmayan bir şəxs dəstəmaz almaq üçün başqa bir şəxsi naib tutur və özü niyyət edib, öz əli ilə məsh çəkir. Əgər o, məsh çəkməyə qadir olmasa, naib şəxs onun əlindən tutub, ona məsh çəkir. Əgər bunu da etməyə aciz olsa, naib şəxs onun əlindən rütubət götürüb, məsh çəkir. Amma əgər bu şəxsin əli olmasa, hökmü nədir?

**Cavab: Əgər bu şəxsin əli olmasa, məsh çəkmək üçün onun qolundan rütubət götürülməlidir. Əgər qolu olmasa, onun saqqalından və ya qaşından rütubət götürülməli, başına və ayaqlarına bu rütubətlə məsh çəkilməlidir.**

**Sual 117:** Cümə namazının qılındığı məkanın yaxınlığında dəstəmaz almaq üçün bir yer vardır ki, cami məscidinin (şəhərin mərkəzi məscidi) tabeliyindədir. Bu yerin su pulu məscidin büdcəsindən qeyri büdcədən ödənilir. Cümə namazında iştirak edənlər bu sudan isifadə edə bilərlərmi?

**Cavab: Oranın suyu bütün namaz qılanların dəstəmaz almaları üçün mütləq şəkildə qərar verildiyinə görə, bu sudan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 118:** Zöhr və əsr namazlarından qabaq alınan dəstəmaz, məğrib və işa namazlarını qılmaq üçün də kifayət edirmi? Belə ki, namaz qılan şəxs bu müddət ərzində dəstəmazı pozan bir iş görmədiyinə əmindir. Yoxsa hər bir namaz üçün ayrıca niyyət edib dəstəmaz almaq lazımdır?

**Cavab: Hər namaz üçün ayrıca dəstəmaz almaq lazım deyildir. Pozulmayana qədər bir dəstəmaz ilə istənilən qədər namaz qılmaq olar.**

**Sual 119:** Vacib namazın vaxtı daxil olmamışdan qabaq vacib namazı qılmaq niyyətilə dəstəmaz almaq olarmı?

**Cavab: Əgər vacib namazın vaxtının daxil olmasına yaxın bir vaxtda vacib namazı qılmaq niyyətilə dəstəmaz alınarsa, maneəsi yoxdur.**

**Sual 120:** **Hər iki ayağım iflic olduğuna görə mən tibbi ayaqqabıların və taxta əsanın köməyi ilə yol gedirəm. Dəstəmaz alarkən ayaqqabını çıxarmaq mənim üçün qeyri-mümkündür. Xahiş edirəm, ayaqlarıma məsh çəkmək barəsində mənim şəri vəzifəmi açıqlayasınız.**

**Cavab: Əgər ayaqlara məsh çəkmək üçün ayaqqabını çıxarmaq sizin üçün çox çətindirsə, ayaqqabının üstünə məsh çəkməyiniz kifayətdir.**

**Sual 121:** **Əgər bir məntəqəyə çatdıqdan sonra həmin məntəqənin bir neçə fərsəxində[4] su axtarışına çıxsaq və çirkli su tapsaq, bu təqdirdə bizə təyəmmüm etmək vacibdir, yoxsa həmin su ilə dəstəmaz almaq?**

**Cavab: Əgər həmin su pak və mütləq su olarsa, həmçinin ondan istifadə etmənin zərəri, həmçinin zərər qorxusu olmazsa, dəstəmaz almaq vacibdir və təyəmmümə növbə çatmır.**

**Sual 122:** **Dəstəmaz öz-özlüyündə müstəhəbdirmi? Namaz vaxtı daxil olmamışdan qabaq qəsdi-qürbət[5] ilə dəstəmaz almaq və həmin dəstəmazla namaz qılmaq olarmı?**

**Cavab: Təharət niyyəti ilə dəstəmaz almaq şəri baxımdan müstəhəbdir və bəyənilir. Müstəhəb dəstəmazla namaz qılmağa icazə verilir.**

**Sual 123:** **Öz dəstəmazına həmişə şəkk edən bir şəxs necə məscidə getsin, namaz qılsın, Quran oxusun və Məsumları (ə) ziyarət etsin?**

**Cavab: Dəstəmaz aldıqdan sonra dəstəmazın qaldığına dair edilən şəkkə etina edilmir. Dəstəmazın pozulduğuna yəqin etməyənədək həmin dəstəmazla namaz qıla, Quran oxuya və Məsumları (ə) ziyarət edə bilər.**

**Sual 124:** **Dəstəmazın düzgün olmasında suyun qolun hər yerinə axması şərtdirmi? Yoxsa yaş əli qola çəkmək kifayət edir?**

**Cavab: Yumağın düzgün sayılmasında şərt, suyu dəstəmaz üzvünün hər yerinə çatdırmaqdır, hətta əl çəkmək vasitəsilə olsa belə. Amma yaş əl ilə dəstəmaz üzvlərinə (üz və əllərə) məsh çəkmək təklikdə kifayət etmir.**

**Sual 125:** **Başa məsh çəkəndə saçların yaş olması kifayət edirmi, yoxsa yaşlıq başın dərisinə də dəyməlidir?**

**Cavab: Başa məshi başın qabaq hissəsinin dərisinə, yaxud başın qabaq hissəsinin saçlarına çəkmək olar. Amma əgər başın başqa hissələrindəki saçlar başın qabağına yığılsa, yaxud başın qabağındakı saçlar üz və çiyinlərə töküləcək qədər uzun olsa, saçların üstünə məsh çəkmək kifayət etmir. Gərək ayrıc ayrılsın və başın dərisinə, yaxud saçların dibinə məsh çəkilsin.**

**Sual 126:** **Süni saçlardan istifadə edən şəxs başa necə məsh çəkməlidir? Qüsl üçün onun vəzifəsi nədir?**

**Cavab: Əgər saçlar başa əkilibsə və onları çıxarmaq mümkün deyildirsə, yaxud onları çıxarmağın ziyanı və ya dözülməz böyük çətinliyi vardırsa, eyni zamanda bu saçlara görə başın dərisinə məsh çəkmək və yaşlığı dəriyə çatdırmaq mümkün deyildirsə, bu halda süni saçların üstünə məsh çəkmək kifayət edir. Qüsl də eyni hökmü daşıyır.**

**Sual 127:** **Əgər dəstəmaz alarkən və ya qüsl edərkən əzaların yuyulması arasında zaman fasiləsi yaranarsa, bunun hökmü nədir?**

**Cavab: Qüsl edərkən əzaların yuyulması arasında zaman fasiləsinin yaranmasının (yəni muvalata riayət etməməyin) maneəsi yoxdur. Amma dəstəmaz alarkən əzaların yuyulması arasında o qədər zaman fasiləsi olsa ki, yuyulan əvvəlki əzalar qurusa, dəstəmaz düzgün deyildir.**

**Sual 128:** **Əgər bir şəxsdən arasıkəsilmədən cüzi miqdarda mədə yeli xaric olursa, onun dəstəmazının və namazının hökmü nədir?**

**Cavab: Əgər o, namazı tamamlayana qədər dəstəmazını saxlaya bilməsə və namaz əsnasında yenidən dəstəmaz almaq onun üçün olduqca çətin olsa, bir dəstəmazla bir namaz qıla bilər. Yəni bir namaz üçün bir dəstəmazla kifayətlənə bilər, baxmayaraq ki, namaz əsnasında onun dəstəmazı pozulmuşdur.**

**Sual 129:** **Yaşayış binalarının bəzi sakinləri binanın isti-soyuq su, havalandırma sistemi, gözətçi və bu kimi başqa xidmətlərindən istifadə edir, amma bu xidmətlərin xərcini ödəməkdən yayınırlar. Qonşuların razılığı olmadan bu xidmətlərin xərcini onların boynuna yükləyən şəxslərin namaz, oruc və başqa ibadətləri şəri baxımdan düzgün deyildir?**

**Cavab: Binanın hər bir sakini istifadə etdiyi xidmətlərin xərcini ödəməyə borcludur. Əgər sakinlərdən kimsə su pulunu ödəməmək niyyətində olarsa, onun dəstəmazı və qüslü düzgün deyildir.**

**Sual 130:** **Bir nəfər cənabət qüslü edib və üç-dörd saat keçəndən sonra namaz qılmaq istəyir, amma qüslünün pozulub-pozulmadığını bilmir. Əgər o, ehtiyat ünvanında dəstəmaz alsa, maneəsi vardırmı, yoxsa yoxdur?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, dəstəmaz almaq vacib deyildir. Amma ehtiyatın da maneəsi yoxdur.**

**Sual 131:** **Büluğa çatmayan uşaq dəstəmazı pozan işlərdən birini etməklə dəstəmazsız sayılırmı? Quranın xəttinə toxunması üçün Quranı onun əlinə vermək olarmı?**

**Cavab: Bəli, büluğa çatmayan uşaq dəstəmazı pozan işlərdən birini etməklə dəstəmazsız sayılır. Amma Quranın xəttinə toxunmaq ona haram deyildir, həmçinin onun Quranın xəttinə toxunmasının qarşısını almaq mükəlləfə vacib deyildir.**

**Sual 132:** **Əgər yuyulduqdan sonra, amma dəstəmaz tamamlanmamışdan qabaq dəstəmaz üzvlərindən biri napak olarsa, hökmü nədir?**

**Cavab: O üzvün napak olması dəstəmazın düzgünlüyünə xələl gətirmir. Amma namaz üçün həmin üzvü nəcasətdən paklamaq vacibdir.**

**Sual 133:** **Ayağa məsh çəkərkən ayağın üstündə bir neçə damla suyun olması dəstəmaza xələl gətirirmi?**

**Cavab: Məsh yerini bu su damlalarından qurulamaq vacibdir. Məsh çəkərkən əlin rütubəti ayağa təsir etməlidir, nəinki əksinə.**

**Sual 134:** **Əgər bir şəxsin sağ əli dirsəkdən yuxarı kəsilibsə, sağ ayağa məsh çəkmək onun üzərindən götürülürmü?**

**Cavab: Sağ ayağa məsh çəkmək onun üzərindən götürülmür və o, sağ ayağına sol əli ilə məsh çəkməlidir.**

**Sual 135:** **Əgər bir şəxsin dəstəmaz üzvlərində yara və ya sınıq olarsa, onun vəzifəsi nədir?**

**Cavab: Dəstəmaz üzvlərində yara və ya sınıq olduqda əgər yara və ya sınığın üstü açıq olarsa və suyun ona zərəri olmazsa, həmin yer yuyulmalıdır. Əgər yara və ya sınığın üstünü yumağın zərəri olarsa, onun ətrafı yuyulmalıdır. Ehtiyata görə, əgər yaş əli onun üstünə çəkməyin zərəri olmazsa, yaş əli onun üstünə çəkməlidir.**

**Sual 136:** **Əgər bir şəxsin məsh yerində yara olarsa, onun vəzifəsi nədir?**

**Cavab: Əgər məsh yerində olan yaranın üstünə yaş əli çəkə bilmirsə, dəstəmaz əvəzinə təyəmmüm etməlidir. Amma əgər yaranın üstünə bir parça qoyub, onun üstünə yaş əli çəkə bilirsə, ehtiyata görə, təyəmmümdən əlavə, bu qaydada məsh çəkərək dəstəmaz da alsın.**

**Sual 137:** **Əgər bir şəxs dəstəmazının düzgün olmadığını bilməyibsə və dəstəmazdan sonra bunu başa düşübsə, hökmü nədir?**

**Cavab: Təharətin şərt olduğu əməlləri yerinə yetirmək üçün yenidən dəstəmaz alması vacibdir. Əgər düzgün olmayan dəstəmazla namaz qılıbsa, həmin namazı yenidən qılması vacibdir.**

**Sual 138:** **Əgər bir şəxsin dəstəmaz üzvlərinin birində yara olsa və onun üstünü sarğı ilə bağlasa belə, dayanmadan ondan qan gəlsə, o, necə dəstəmaz almalıdır?**

**Cavab: Yaranın üstünü elə bir sarğı ilə (məsələn, neylonla) bağlamalıdır ki, qan sarğıdan çıxmamalıdır.**

**Sual 139:** **Dəstəmazdan sonra üz və əllərdəki yaşlığı qurulamaq məkruhdurmu? Yaxud dəstəmaz üzvlərini qurulamamaq müstəhəbdirmi?**

**Cavab: Əgər şəxs dəstəmaz üzvlərini qurulamaq üçün bir parça və ya dəsmal ayırarsa, qurulamağın maneəsi yoxdur.**

**Sual 140:** **Saçlarını və qaşlarını boyamaq üçün qadınların istifadə etdikləri qeyri-təbii (yəni kimyəvi) boyalar dəstəmaz və qüslün düzgünlüyünə maneə yaradırmı?**

**Cavab: Əgər sırf boya olsa və suyun saçlara dəyməsinin qarşısını alacaq bir qat yaratmasa, dəstəmaz və qüsl düzgündür.**

**Sual 141:** **Əgər ələ mürəkkəb dəysə, suyun dəriyə dəyməsinə maneə yaradırmı və dəstəmazın düzgünlüyünə xələl gətirirmi?**

**Cavab: Əgər mürəkkəb bir qat yaradarsa və suyun dəriyə dəyməsinə maneə yaradarsa, dəstəmaz düzgün deyildir. Bu məsələni müəyyən etmək isə mükəlləfin öz öhdəsindədir.**

**Sual 142:** **Əgər başa məsh çəkərkən əlin yaşlığı üzün yaşlığına qarışarsa, dəstəmaz pozulurmu?**

**Cavab: Ayaqlara dəstəmaz suyundan əllərdə qalan yaşlıq ilə məsh çəkmək lazımdır. Buna görə də, başa məsh çəkərkən əl alının yuxarı hissəsinə dəyməməli və üzün yaşlığı ilə təmasda olmamalıdır ki, ayağa məsh çəkmək üçün lazım olan əlin yaşlığı üzün yaşlığına qarışmasın.**

**Sual 143:** **Əgər bir şəxs dəstəmaz almağa camaatın adi qaydada aldığı dəstəmaza sərf etdiyi vaxtdan daha çox vaxt sərf edirsə,**

dəstəmaz üzvlərini yuduğuna yəqin etməsi üçün nə etməlidir?

**Cavab: Vəsvəsədən uzaq olmalıdır. Şeytanı məyus etmək üçün vəsvəsələrə etina etməməli və çalışmalıdır ki, başqaları kimi şəri baxımdan vacib olan miqdarla kifayətlənsin.**

**Sual 144:** Mənim bədənimin bəzi yerlərində döymə xal vardır. Deyirlər ki, mənim qüslüm, dəstəmazım və namazım düzgün deyildir, namazım da qəbul deyildir. Ümidvaram ki, bu barədə məni məlumatlandırarsınız.

**Cavab: Əgər döymə xal sırf boya olsa, yaxud dərinin altında olub dərinin üstündə suyun dəriyə çatmasına maneə yaradan bir şey mövcud olmasa, dəstəmaz, qüsl və namaz düzgündür.**

**Sual 145:** Əgər bir şəxs sidik ifraz etdikdən sonra istibra edib dəstəmaz alsa, bundan sonra ondan sidik, yoxsa məni olduğuna şəkk etdiyi bir rütubət xaric olsa, hökmü nədir?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, təharətə yəqinliyin hasil olması üçün həm qüsl etməli, həm də dəstəmaz almalıdır.**

**Sual 146:** Xahiş edirəm, qadınla kişinin dəstəmazı arasındakı fərqi açıqlayasınız.

**Cavab: Dəstəmazın işləri və qaydası baxımından kişi ilə qadın arasında fərq yoxdur. Tək fərq budur ki, dirsəyi yuyanda kişilərin çol tərəfdən yumağa başlaması, qadınların isə iç tərəfdən yumağa başlaması müstəhəbdir.**

---

[1] Dəstəmaz - Allaha yaxın olmaq niyyəti ilə xüsusi qaydada üzü və əlləri yumaq, başa və ayaqlara məsh çəkməkdir.

[2] Dəstəmaz 3 növdür: tərtibi, irtimasi, cəbirə. Tərtibi dəstəmazda su, üz və əllərə tökülür. İrtimasi dəstəmazda isə üz və əllər suya daxil edilir. Cəbirə dəstəmaz, dəstəmaz üzvlərində cəbirə (yaranın üstünə qoyulan dərman və ya yaranın bağlanması üçün istifadə olunan sarğı) olduqda xüsusi qaydada alınır.

[3] Məhəlli-işkal – yəni maneəsi vardır və bu məsələyə fətva vermək olmur. (Təqlid edən şəxs bu məsələdə sonrakı müctəhidə müraciət edə bilər.)

[4] Fərsəx – məsafə vahididir və təxminən altı kilometrə bərabərdir.

[5] Allaha yaxın olmaq niyyəti.

## Allahın adlarına və Quran ayələrinə toxunmaq

**Sual 147:** **“Onun adı ilə” kimi cümlələrdə işlənən və Mütəal Allahın nəzərdə tutulduğu əvəzliklərə toxunmağın hökmü nədir?**

**Cavab: Əvəzlik Allahın adı hökmünü daşımır.**

**Sual 148:** **Mütəal Allahın adını, “...ا” şəklində yazmaq geniş yayılmışdır. Dəstəmazsız bu yazıya toxunanların hökmü nədir?**

**Cavab: “Əlif” hərfi və nöqtələr Allahın adı hökmünü daşımır və bu yazıya dəstəmazsız toxunmaq olar.**

**Sual 149:** **Mənim işlədiyim yerdə “Allah” kəlməsini “...ا” şəklində yazırlar. “Allah” kəlməsinin yerinə “əlif” hərfi və üç nöqtə yazmaq şəri baxımdan düzgündürmü?**

**Cavab: Şəri baxımdan maneəsi yoxdur.**

**Sual 150:** **Dəstəmazsız şəxslərin “Allah” kəlməsinə toxunacaqlarını sırf ehtimal verib, bu kəlməni yazmamaq, yaxud “...ا” şəklində yazmaq olarmı?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 151:** **Görmə qabiliyyətindən məhrum olan şəxslər oxumaq və yazmaq üçün barmaqların toxunuşu ilə oxunan qabarıq xətdən istifadə edirlər. Qurani-Kərimin oxunuşunu öyrənərkən qabarıq xətlə yazılmış Quran ayələrinə toxunanda belə şəxslərin dəstəmazlı olması vacibdirmi, yoxsa vacib deyil?**

**Cavab: Əgər qabarıq nöqtələr hərflərin əlamətidirsə, həmin hərflərin hökmünü daşımır. Amma əgər ürfdə xətt hesab olunursa, onlara toxunanda ehtiyata riayət etmək lazımdır.**

**Sual 152:** **” عبد(Abdullah) və حبيب الله” (Həbibullah) kimi adlara dəstəmazsız toxunmağın hökmü nədir?**

**Cavab: “Allah” kəlməsinə, hətta mürəkkəb adın bir hissəsi olsa belə, dəstəmazsız toxunmaq olmaz.**

**Sual 153:** **Heyzli qadın üzərində Peyğəmbərin (s) adı həkk olmuş boyunbağını boynuna taxa bilərmi?**

**Cavab: Belə boyunbağını boyuna taxmağın maneəsi yoxdur. Amma ehtiyat-vacibə görə, Peyğəmbərin (s) mübarək adı bədənə toxunmamalıdır.**

**Sual 154:** **Quran ayələrinə dəstəmazsız toxunmağın haramlığı yalnız Qurani-Kərim kitabının xəttinə aiddirmi, yoxsa başqa bir kitabda və ya tablolarda və bu kimi əşyalarda yazılan Quran ayələrinə də şamildir?**

**Cavab: Quran ayələri və kəlmələrinə dəstəmazsız toxunmağın haramlığı yalnız Qurani-Kərim kitabının xəttinə aid deyildir. Bu hökm başqa bir kitabda, yaxud qəzetlərdə, dərgilərdə, tablolarda və bu kimi əşyalarda yazılan bütün Quran ayələri və kəlmələrinə şamildir.**

**Sual 155:** **Bir ailə vardır ki, xeyir-bərəkət niyyəti ilə düyü yeyərkən üzərində Quran ayələri, o cümlədən, Ayətəl-kürsi yazılmış bir qabdan istifadə edirlər. Bu işin maneəsi varmı?**

**Cavab: Əgər dəstəmazlı olsalar, yaxud yeməyi qabdan qaşıqla götürsələr, maneəsi yoxdur.**

**Sual 156: Yazı vasitələri ilə Allahın adlarını, Quran ayələrini və ya Məsumların (ə) adlarını yazan bir şəxs bu kəlmələri yazarkən dəstəmazlı olmalıdırmı?**

**Cavab: Bu işdə təharət şərt deyildir, amma yazıya dəstəmazsız toxunmamalıdır.**

**Sual 157: İran İslam Respublikasının gerbinə dəstəmazsız toxunmaq haramdırmı?**

**Cavab: Əgər bu gerb ürfdə Allahın adı hesab olunsa və oxunsa, ona dəstəmazsız toxunmaq haramdır. Əks təqdirdə, maneəsi yoxdur, baxmayaraq ki, ona dəstəmazsız toxunmağı tərk etmək əhvətə müvafiqdir.**

**Sual 158: İran İslam Respublikasının gerbini idarə vərəqlərində çap etmək və yazı işlərində bu vərəqlərdən istifadə etməyin hökmü nədir?**

**Cavab: Allahın adını və ya İran İslam Respublikasının gerbini yazmaq və çap etməyin maneəsi yoxdur. Əhvət budur ki, Allahın adına aid olan şəri hökmlər İran İslam Respublikasının gerbi üçün də riayət olunsun.**

**Sual 159: Üzərində Quran ayələri çap olunmuş post markalarından istifadə etməyin, yaxud "Allah" kəlməsini, Mütəal Allahın adlarını və Quran ayələrini, yaxud Quran ayələrinə şamil olan bəzi müəssisələrin gerbini qəzetlərdə, dərgilərdə və gündəlik çap olunan nəşrlərdə çap etməyin hökmü nədir?**

**Cavab: Quran ayələrini, Allahın adlarını və bu kimi kəlmələri çap etməyin maneəsi yoxdur. Amma bu kəlmələrin çap edildiyi vərəqlər kimin əlinə düşərsə, bu yazılara aid olan şəri hökmlərə riayət etməsi vacibdir. O, bu yazılara hörmətsizlik etmək, onları napak etmək və dəstəmazsız onlara toxunmaqdan çəkinməlidir.**

**Sual 160: Bəzi qəzetlərdə Allahın adı və ya Quran ayələri yazılır. Bu qəzetlərə yemək bükmək, yaxud onların üstündə oturmaq, yaxud onlardan süfrə kimi istifadə etmək, həmçinin belə qəzetləri zibilliyə atmaq - başqa yollardan istifadə etməyin çətinliyini nəzərə almaqla – olarmı, yoxsa olmaz?**

**Cavab: Belə qəzetlərdən ürfdə hörmətsizlik hesab olunan məqsədlər üçün istifadə etməyə icazə verilmir. Əgər hörmətsizlik hesab olunmazsa, istifadə etməyin maneəsi yoxdur.**

**Sual 161: Üzüklərin üstünə həkk olunan kəlmələrə toxunmaq olarmı?**

**Cavab: Əgər bu kəlmələrə toxunmaq üçün təharətli olmaq şərtdirsə, onlara təharətsiz toxunmaq olmaz.**

**Sual 162: Üzərində Allahın adları olan əşyaları çaylara və arxlara atmağın hökmü nədir? Bu əməl hörmətsizlik hesab olunurmu?**

**Cavab: Əgər belə əşyaları çaylara və arxlara atmaq ürfdə hörmətsizlik hesab olunmazsa, maneəsi yoxdur.**

**Sual 163: Yoxlanmış imtahan vərəqlərini zibilliyə atmaq və ya yandırmaq istəyərkən əmin olmaq lazımdırmı ki, Allahın adları və ya Məsumların (ə) adları bu vərəqlərdə mövcud deyildir? Bir tərəfində yazı yazılmayan vərəqləri tullamaq israf sayılırmı, yoxsa yox?**

**Cavab: Araşdırma aparmaq lazım deyildir. Allahın adlarının vərəqdə olduğu**

**dəqiqləşməzsə, onu zibilliyə atmağın maneəsi yoxdur. Amma kartonların hazırlanmasında və başqa istehsalatda istifadəyə yararlı olan vərəqləri, yaxud bir üzü yazılı olan, amma digər üzündən yazı yazmaq üçün istifadəsi mümkün olan vərəqləri yandırmaq və tullamaq israf ehtimalı mövcud olduğuna görə maneəsiz deyildir.**

**Sual 164:** **Ehtiram olunması vacib olan və dəstəmazsız toxunulması haram olan adlar hansılardır?**

**Cavab: Mütəal Allaha xas olan adlara və vəsflərə dəstəmazsız toxunmaq haramdır. Əhvətə görə, Mütəal Allahın adlarına aid olan bu hökm Ulul-əzm Peyğəmbərlərin və Məsum İmamların (ə) adlarına da aiddir.**

**Sual 165:** **Lazım olan halda mübarək adları və Quran ayələrini məhv etməyin şəri yolları hansılardır? Sirləri qorumaq üçün zərurət yarandığı təqdirdə Allahın adı və Quran ayələri yazılmış vərəqləri yandırmağın hökmü nədir?**

**Cavab: Belə vərəqləri torpağa basdırmağın və ya su vasitəsilə xəmirləşdirməyin maneəsi yoxdur. Amma onların yandırılmasına icazə vermək işkallıdır. Hörmətsizlik hesab olunduğu təqdirdə, icazə verilmir. Amma əgər məcburiyyət yaranarsa və Allahın adlarını, Quran ayələrini vərəqdən ayırmaq (kəsib götürmək) mümkün olmazsa, icazə verilir.**

**Sual 166:** **Mübarək adların və Quran ayələrinin yazıldığı vərəqləri xırda-xırda doğramağın - belə ki, hətta bu kəlmələrin iki hərfi belə yanaşı qalmasın və əsla oxunmasın - hökmü nədir? Mübarək adları və Quran ayələrini məhv etmək, nəticədə, onlara aid olan şəri hökmlərin aradan qalxması üçün bu kəlmələrin yazılışında müəyyən hərfləri silmək və ya onların yazılışına müəyyən hərfləri artırmaq kifayət edirmi?**

**Cavab: Vərəqləri qeyd olunan şəkildə doğramaq əgər hörmətsizlik hesab olunarsa, buna icazə verilmir. Hörmətsizlik hesab olunmadığı təqdirdə isə, əgər vərəqləri qeyd olunan şəkildə doğramaq "Allah" kəlməsinin və Quran ayələrinin məhv olmasına səbəb olmazsa, bu, kifayət etmir. Həmçinin müəyyən hərfləri azaldıb-artırmaqla bu kəlmələrin yazılışını dəyişdirmək, "Allah" kəlməsini yazmaq niyyətilə yazılan hərflərə aid olan şəri hökmlərin aradan qalxmasına səbəb olmur. Bəli, hərflərin məhvi hesab olunan bir şəkildə hərflərin dəyişdirilməsi və bunun nəticəsində hökmün aradan qalxması uzaq ehtimal deyildir[1], baxmayaraq ki, onlara dəstəmazsız toxunmaqdan çəkinmək ehtiyata müvafiqdir.**

[1] "Uzaq ehtimal deyildir" ifadəsi fətva hökmündədir.

## Cənabət qüslünün hökmləri

**Sual 167:** **Namaz vaxtının darlığı səbəbilə cənabətli şəxs təyəmmüm edib, napak bədən və paltarda namaz qıla bilərmi? Yoxsa bədənini və paltarını pakladıqdan və qüsl etdikdən sonra namazının qəzasını qılmalıdır?**

**Cavab: Əgər bədənini və paltarını paklamağa, yaxud paltarını dəyişməyə kifayət qədər vaxt olmazsa, habelə, hava soyuq olduğuna görə və ya bu kimi başqa səbəblərə görə namazını çılpaq vəziyyətdə qıla bilməzsə, qüsl əvəzinə təyəmmüm edib, həmin paltarda namazını qılmalıdır. Bu namaz kifayət edir və qəzasını qılmaq ona vacib deyildir.**

**Sual 168:** **Əgər cinsi əlaqə olmadan kişinin mənisi qadının uşaqlığına daxil olarsa, qadının cənabətli olmasına səbəb olurmu?**

**Cavab: Bu halda cənabət gerçəkləşmir.**

**Sual 169:** **Tibbi alətlər vasitəsilə qadının uşaqlığı və uşaqlıq yolu müayinə edildikdən sonra qüsl etmək ona vacib olurmu?**

**Cavab: Məni xaric olmayanadək qüsl vacib olmur.**

**Sual 170:** **Əgər cinsi əlaqə yalnız sünnət yerinin daxil olması miqdarında olubsa və kişidən məni xaric olmayıbsa, habelə, qadın ləzzətin ən yüksək dərəcəsinə çatmayıbsa, qüsl təkcə qadına vacib olur, yoxsa təkcə kişiyə vacib olur, yoxsa hər ikisinə vacib olur?**

**Cavab: Əgər cinsi əlaqə baş veribsə, hətta yalnız sünnət yerinin daxil olması miqdarında olsa belə, cənabət qüslü hər ikisinə (həm kişiyə, həm də qadına) vacib olur.**

**Sual 171:** **Qadın möhtəlim olduqda[1] hansı halda cənabət qüslü etmək ona vacib olur? Qadın əri ilə dilxoşluq edərkən ondan xaric olan rütubət məni hökmündədirmi? Bədən süst olmadan və ləzzətin son dərəcəsinə çatmadan cənabət qüslü qadına vacib olurmu? Ümumiyyətlə, cinsi əlaqədə olmadan qadın necə cənabətli olur?**

**Cavab: Əgər qadın cinsi ləzzətin son dərəcəsinə çatarsa və həmin halda ondan bir maye gələrsə, cənabətli olar və qüsl etmək ona vacib olar. Əgər bu dərəcəyə çatıb-çatmadığına şəkk etsə, yaxud ondan maye xaric olduğuna şəkk etsə, qüsl etmək ona vacib olmur.**

**Sual 172:** **Şəhvətin təhrik olmasına səbəb olan kitabları oxumağa və ya kinofilmlərə baxmağa icazə verilirmi?**

**Cavab: İcazə verilmir.**

**Sual 173:** **Əgər qadın əri ilə cinsi əlaqədə olduqdan sonra uşaqlığında məni qaldığı bir halda dərhal qüsl etsə və qüsldən sonra məni onun uşaqlığından xaric olsa, etdiyi qüsl düzgündürmü? Qüsldən sonra ondan xaric olan məni pakdırmı, yoxsa nəcasətdir? Bu halda o, yenidən cənabətli olurmu, yoxsa olmur?**

**Cavab: Onun qüslü düzgündür. Qüsldən sonra ondan xaric olan rütubət əgər məni olarsa, nəcasətdir. Əgər bu məni kişinin mənisi olarsa, qadının yenidən cənabətli olmasına səbəb olmur.**

**Sual 174:** **Bir müddətdir ki, cənabət qüslündə şəkkə düçar olmuşam, hətta həyat yoldaşımla da cinsi əlaqədə olmuram. Bununla belə, qeyri-ixtiyari olaraq məndə elə bir hal yaranır ki, cənabət qüslünün mənə vacib olduğunu güman edirəm. Hər gün iki ya üç dəfə qüsl edirəm. Bu şəkk mənə əzab verir. Mənim vəzifəm nədir?**

**Cavab: Cənabətdə şəkkə düçar olmaqla cənabətin hökmü sizə aid olmur. Amma əgər sizdən məninin xaric olmasının şəri əlamətləri ilə yanaşı olan bir rütubət xaric olarsa, yaxud**

**məninin xaric olduğuna yəqinliyiniz olarsa, cənabət hökmü sizə aid olacaqdır.**

**Sual 175:** Heyzli halda cənabət qüslü düzgündürmü, belə ki, cənabətli qadının üzərindən vəzifə götürülsün?

**Cavab: Qeyd olunan halda qüslün düzgünlüyü məhəlli-işkaldır.**

**Sual 176:** Əgər qadın heyzli halda cənabətli olsa, yaxud cənabətli halda heyz olsa, heyzdən paklandıqdan sonra hər iki qüsl ona vacibdirmi? Yoxsa heyzli halda cənabətli olduğuna görə cənabət qüslü ona vacib olmur? Çünki cənabətli olan anda pak olmamışdır.

**Cavab: Hər iki halda heyz qüslündən əlavə, cənabət qüslü də vacibdir. Amma əməl məqamında cənabət qüslü ilə kifayətlənməsinə icazə verilir. Lakin hər iki qüslün niyyətini etməsi əhvətə müvafiqdir.**

**Sual 177:** Kişidən xaric olan rütubətin məni olduğuna hansı halda hökm verilir?

**Cavab: Sağlam bir kişidə əgər bu rütubət şəhvət, sıçrayış və bədənin süstləşməsi ilə yanaşı olarsa, məni hökmündədir.**

**Sual 178:** Bəzən qüsl etdikdən sonra əl və ayağın dırnaqlarının ətrafında təbaşir və ya sabunun izləri müşahidə olunur, halbuki, hamamda qüsl edəndə bunlar görünmürdü. Amma hamamdan çıxıb diqqətlə baxandan sonra təbaşirin və ya sabunun ağlığı görünür. Bu halda vəzifə nədir? Bəzi insanlar qüsl edəndə və dəstəmaz alanda bu məsələni bilmir və ya buna diqqət etmirlər. Təbaşir və ya sabunun izi mövcud olduğu bir halda, suyun onun altına çatdığına da yəqinlik hasil olmur.

**Cavab: Adətən bədən üzvləri quruyandan sonra təbaşirin və ya sabunun müşahidə olunan izi dəstəmaz və qüslə xələl gətirmir. Amma əgər təbaşir və ya sabun suyun dəriyə çatmasına maneə yaradan bir qat şəklində olarsa, dəstəmaz və qüslə xələl gətirər.**

**Sual 179:** Qardaşlardan biri deyir ki, qüslün düzgün olması üçün qüsldən qabaq bədənin nəcasətdən paklanması şərtdir. Əgər qüsl əsnasında bədən məni və ya başqa bir nəcasətdən paklanarsa, qüslün pozulmasına səbəb olar. Onun sözləri düzgün olduğu təqdirdə və mənim də bu məsələni bilmədiyimi nəzərə alaraq, qıldığım namazlar düzgün deyildir və bu namazların qəzasını qılmaq mənə vacibdir?

**Cavab: Qüsldən qabaq bütün bədənin pak olması vacib deyildir. Hər üzvə qüsl verərkən həmin üzvün pak olması kifayət edir. Buna görə də, əgər hər hansı bir üzvə qüsl verməzdən qabaq həmin üzv paklanarsa, qüsl və bu qüsl ilə qılınan namaz düzgündür. Amma əgər napak üzvə qüsl verməzdən qabaq həmin üzv paklanmazsa və qüsl edən şəxs bir yuma ilə həm üzvü paklamaq, həm də ona qüsl vermək istəyərsə, qüsl düzgün deyildir və bu qüsl ilə qılanan namaz da düzgün deyildir. Namazın qəzasını qılmaq vacibdir.**

**Sual 180:** Yuxuda ikən insandan xaric olan rütubət məni hökmündədirmi? Halbuki, bu rütubətin üç əlamətdən (sıçrayışla və şəhvətlə xaric olması, sonra bədənin süstləşməsi) heç birinə malik olmadığını bilirik və şəxs bu rütubətin xaric olmasını hiss etməmiş, yalnız yuxudan oyanandan sonra alt paltarının rütubətli olduğunu görmüşdür.

**Cavab: Əgər üç əlamətin heç biri və ya onlardan biri mövcud olmazsa, yaxud mövcud olduğuna şəkk olunarsa, bu rütubət məni hökmündə deyildir. Amma əgər başqa bir yol ilə bu rütubətin məni olduğuna yəqin edərsə, məni hökmündədir.**

**Sual 181:** Mən yoxsul ailədə yaşayan bir gəncəm. Məndən tez-tez məni xaric olur və atamdan hamam pulu istəməyə xəcalət çəkirəm. Evdə də hamam yoxdur. Xahiş edirəm ki, mənə yol göstərəsiniz.

**Cavab: Şəri vəzifəni yerinə yetirməkdə xəcalət çəkməyin yeri yoxdur. Xəcalət, vacib əməli**

tərk etmək üçün şəri üzr deyildir. Hər halda, əgər cənabət qüslü etməyinizə imkan yoxdursa, namaz və oruc üçün sizin şəri vəzifəniz qüsl əvəzinə təyəmmüm etməkdir.

**Sual 182:** Mən bir çətinliklə qarşılaşmışam. Çətinliyim budur ki, bədənimi yumağın, bir damcı suyun dəyməsinin belə, bədənimə ziyanı vardır. Hətta yaş əli bədənimə çəkməyimin belə, bədənimə ziyanı vardır. Bədənimi yuyanda – az yusam da belə - bir sıra fəsadlardan əlavə, ürəyimin döyüntüsü artır. Belə bir vəziyyətdə mən həyat yoldaşımla cinsi əlaqədə ola və aylarca qüsl əvəzinə təyəmmüm edə bilərəmmi? Bu təyəmmümlə namaz qıla və məscidə daxil ola bilərəmmi?

**Cavab: Cinsi əlaqəni tərk etmək sizə vacib deyildir. Cənabətli olduğunuz və qüsl etməyə üzrlü olduğunuz təqdirdə, təharətin şərt olduğu əməlləri yerinə yetirmək üçün sizin şəri vəzifəniz cənabət qüslü əvəzinə təyəmmüm etməkdir. Bu təyəmmüm ilə cənabətdən pak olmanın şərt olduğu əməlləri - məscidə daxil olmaq, namaz qılmaq, Quranın xəttinə toxunmaq və s. - yerinə yetirməyinizin maneəsi yoxdur.**

**Sual 183:** Vacib və ya müstəhəb qüslü edərkən üzü qibləyə dayanmaq vacibdirmi, yoxsa vacib deyil?

**Cavab: Qüsl edərkən üzü qibləyə dayanmaq vacib deyildir.**

**Sual 184:** Suyun “az su” olduğunu və qüsldən qabaq bədənin pak olduğunu nəzərə alaraq, qüslün “qüsalə su”yu ilə qüsl etmək düzgündürmü?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, bu su ilə qüsl etməyin maneəsi yoxdur.**

**Sual 185:** Əgər cənabət qüslü edən şəxs dəstəmazı pozan işlərdən birini görsə, yenidən qüsl etməlidirmi? Yoxsa qüslü tamamlamalı və sonra dəstəmaz almalıdır?

**Cavab: Qüsl əsnasında dəstəmazı pozan işləri görmək qüslün düzgünlüyünə xələl gətirmir və qüslü yenidən başlamaq lazım deyildir. Amma belə qüsl namaz və dəstəmazlı yerinə yetirilən digər əməllər üçün kifayət etmir.**

**Sual 186:** Əgər sidik ifraz etdikdən sonra müşahidə edilən və məniyə oxşayan qatı rütubət şəhvətsiz və qeyri-ixtiyari olaraq insandan xaric olarsa, məni hökmündədirmi?

**Cavab: Bu rütubət məni hökmündə deyildir. Amma əgər bu rütubətin məni olduğuna yəqinlik hasil olarsa, yaxud bu rütubət xaric olarkən məninin şəri əlamətlərinə malik olarsa, məni hökmündədir.**

**Sual 187:** Əgər bir şəxsin boynunda vacib və ya müstəhəb olmaqla bir neçə qüsl olarsa, bir qüsl digər qüsllərə kifayət edirmi?

**Cavab: Əgər bütün qüsllərin niyyətilə bir qüsl etsə, kifayət edir. Əgər bu qüsllərin arasında cənabət qüslü olsa və bu niyyətlə qüsl etsə, digər qüsllərə də kifayət edir. Baxmayaraq ki, bütün qüslləri niyyət etmək ehtiyata müvafiqdir.**

**Sual 188:** Cənabət qüslündən qeyri qüsllər dəstəmaz üçün kifayət edirmi?

**Cavab: Kifayət etmir.**

**Sual 189:** Sizin nəzərinizə görə, cənabət qüslündə suyun bədəndə axması (cərəyan etməsi) şərtdirmi?

**Cavab: Meyar, “bədənin qüsl niyyətilə yuyulduğu” deyilməsidir və suyun bədəndə axması şərt deyildir.**

**Sual 190:** **Əgər bir şəxs bilsə ki, həyat yoldaşı ilə cinsi əlaqədə olub cənabətli olduqda qüsl etmək üçün su tapmayacaqdır, yaxud qüsl etmək və namaz qılmaq üçün vaxt olmayacaqdır, o, həyat yoldaşı ilə cinsi əlaqədə ola bilərmi?**

**Cavab: Qüsl etmək imkanı olmadığı təqdirdə, əgər təyəmmüm etmək imkanı olarsa, həyat yoldaşı ilə cinsi əlaqədə ola bilər.**

**Sual 191:** **Cənabət qüslündə baş və bədənin digər üzvləri arasında tərtibə riayət etmək kifayət edirmi? Yoxsa bədənin sağ və sol tərəfləri arasında da tərtibə riayət etmək lazımdır?**

**Cavab: Ehtiyat-vacibə görə, bədənin iki tərəfi arasında tərtibə riayət etmək və sağ tərəfə sol tərəfdən qabaq qüsl vermək lazımdır.**

**Sual 192:** **Tərtibi qüsl edərkən əvvəlcə kürəyimi yumağımın, daha sonra tərtibi qüsl niyyəti edib qüsl etməyimin maneəsi vardırmı?**

**Cavab: Qüsl niyyəti etməmişdən və qüsl etməyə başlamamışdan öncə kürəyi və ya bədənin hər hansı bir üzvünü yumağın maneəsi yoxdur. Tərtibi qüslün qaydası belədir ki, bədəni pakladıqdan sonra qüsl niyyəti edir və əvvəlcə baş və boyunu yuyursan. Sonra ehtiyat-vacibə görə, bədənin sağ tərəfini və üçüncü mərhələdə bədənin sol tərəfini yuyursan.**

**Sual 193:** **Qüsl edərkən saçları bütünlüklə yumaq qadına vacibdirmi? Başın dərisinin hər tərəfinə suyun dəydiyini nəzərə alaraq, qüsl edərkən saçların bütünlüklə yuyulmaması qüslün düzgün olmamasına səbəb olurmu?**

**Cavab: Ehtiyat-vacibə görə, saçlar bütünlüklə yuyulmalıdır.**

---

[1] Möhtəlim olmaq – yuxuda insandan məninin xaric olmasıdır.

## Düzgün olmayan qüslün hökmləri

**Sual 194:** **Şəri vəzifə yaşına çatan, amma qüslün vacib olduğunu və onun qaydasını bilməyən bir şəxs bir müddətdən sonra, təxminən on il keçdikdən sonra təqlid məsələsini və qüslün ona vacib olduğunu başa düşür. Bu şəxsin hökmü nədir? Keçmiş namazlar və orucların qəzası barəsində onun vəzifəsi nədir?**

**Cavab: Cənabətli vəziyyətdə qıldığı namazların qəzasını qılmalıdır. Amma oruca gəlincə, əgər o, şəkk edibsə ki, görəsən, cənabətli qalmaq orucu pozur, yoxsa pozmur və cənabətli vəziyyətdə də oruc tutubsa, ehtiyat-vacibə görə, onun orucu düzgün deyildir[1] və orucun qəzasını da tutmalıdır. Amma əgər cənabətli qalmağın orucu pozmadığına yəqinliyi olubsa və bu əsasla da oruc tutubsa, onun orucu düzgündür. Baxmayaraq ki, ehtiyat üzrə orucun qəzasını tutmaq yaxşıdır.**

**Sual 195:** **Bir gənc cəhalət üzündən həm on dörd yaşından qabaq, həm də sonra istimna[2] edib və ondan məni xaric olub. Amma o, bilməyib ki, məninin xaric olması cənabətə səbəb olur və namaz və oruc üçün qüsl etməlidir. Onun vəzifəsi nədir? İstimna etdiyi və ondan məninin xaric olduğu vaxtlara görə qüsl etməlidirmi? İndiyədək cənabətli halda qıldığı namazlar və tutduğu oruclar düzgün deyildir? Onların qəzasını yerinə yetirməsi vacibdirmi?**

**Cavab: Əgər ondan dəfələrlə məni xaric olubsa və indiyədək qüsl etməyibsə, bir cənabət qüslü etməsi kifayətdir. Cənabətli vəziyyətdə qıldığını yəqinliklə bildiyi bütün namazların qəzasını qılmalıdır. Əgər o, bu işi Ramazan ayının gecələrində görübsə və bu işin cənabətə səbəb olduğunu bilməyibsə, onun oruclarının qəzası yoxdur və tutduğu oruclar düzgün hesab olunur. Amma əgər məninin xaric olduğunu və bu işin cənabətə səbəb olduğunu bilibsə, eyni zamanda şəkk edibsə ki, görəsən, cənabətli qalmaq orucu pozur, yoxsa pozmur və cənabətli vəziyyətdə da oruc tutubsa, ehtiyat-vacibə görə, onun orucu düzgün deyildir və orucun qəzasını da tutmalıdır. Amma əgər cənabətli qalmağın orucu pozmadığına yəqinliyi olubsa və bu əsasla da oruc tutubsa, onun orucu düzgündür. Baxmayaraq ki, ehtiyat üzrə orucun qəzasını tutmaq yaxşıdır.**

**Sual 196:** **Cənabətli olduqdan sonra yanlış bir şəkildə qüsl edən şəxsin bu qüsl ilə qıldığı namazların hökmü nədir? Nəzərə almaq lazımdır ki, o, qüslü yanlış şəkildə yerinə yetirdiyini bilmir.**

**Cavab: Düzgün olmayan qüsl ilə qılınan namazlar da düzgün deyildir və bu namazlar yenidən qılınmalı, yaxud qəzası qılınmalıdır.**

**Sual 197:** **Vacib qüsllərdən biri niyyətilə qüsl etdim. Hamamdan çıxandan sonra tərtibə riayət edib-etmədiyimə şəkk etdim. Tərtib niyyətinin kifayət etdiyini ehtimal verdiyimə görə, yenidən qüsl etmədim. İndi nə edəcəyimi bilmirəm. Qıldığım bütün namazların qəzasını qılmaq mənə vacibdirmi?**

**Cavab: Sualda qeyd olunanlara əsasən, sizin öhdənizə heç nə düşmür. Amma əgər qüslün düzgün olmadığına yəqin etsəniz, bütün namazların qəzasını qılmaq sizə vacibdir.**

**Sual 198:** **Mən cənabət qüslünü bu tərtiblə etmişəm: əvvəlcə bədənin sağ tərəfini, sonra başı və daha sonra bədənin sol tərəfini yumuşam. Bu barədə soruşub araşdırma aparmaqda da səhlənkarlıq etmişəm. Mənim namaz və oruclarımın hökmü nədir?**

**Cavab: Bu qaydada edilən qüsl düzgün deyildir. Odur ki, belə qüsl ilə qılınan namazlar**

**düzgün deyildir və onların qəzasını qılmaq vacibdir. Amma oruclara gəlincə, belə qaydada edilən qüslün düzgün olduğuna etiqad etdiyinizə və bilərəkdən cənabətli qalmadığınıza görə, oruclarınız düzgün hesab olunur.**

**Sual 199:** **Vacib səcdəsi olan surələri oxumaq cənabətli şəxsə haramdırmı?**

**Cavab: Cənabətli şəxsə haram olan işlərdən biri də, bu surələrin vacib səcdəsi olan ayəsini oxumaqdır. Amma bu surələrin digər ayələrini oxumağın maneəsi yoxdur.**

---

[1] **Orucun ehtiyat-vacibə görə düzgün olmadığı qeyd olunduğu hallarda mükəlləf həm orucu tutmalı, həm də orucun qəzasını tutmalıdır.**

[2] İstimna etmək (masturbasiya) – insanın özü ilə məninin xaric olmasına səbəb olan bir iş görməsidir.

## Təyəmmümün hökmləri

**Sual 200:** **Əgər üzərinə təyəmmüm etməyin düzgün olduğu torpaq, təbaşir, daş kimi şeylər divara yapışmış olsa, onların üzərinə təyəmmüm etmək düzgündürmü? Yoxsa onlar mütləq yerin üstündə olmalıdır?**

**Cavab: Təyəmmümün düzgün olmasında bu şeylərin yerin üstündə olması şərt deyildir.**

**Sual 201:** **Hamama getmək imkanı olmadığına görə bir neçə gün cənabətli halda qalan şəxs əgər qüsl əvəzinə təyəmmüm edib namaz qıldıqdan sonra dəstəmazı pozan bir iş görsə, sonrakı namaz üçün yenidən qüsl əvəzinə təyəmmüm etməlidirmi? Yoxsa cənabət baxımından elə birinci təyəmmüm kifayət edir və sonrakı namazlar üçün dəstəmaz baxımından dəstəmaz almalı və ya təyəmmüm etməlidir?**

**Cavab: Cənabətli şəxs cənabət qüslü əvəzinə düzgün şəkildə təyəmmüm etdikdən sonra əgər dəstəmazı pozan bir iş görsə, təyəmmümü icazəli edən şəri üzr aradan qalxmayanadək, ehtiyat-vacibə görə, təharətin şərt olduğu əməlləri yerinə yetirmək üçün qüsl əvəzinə təyəmmüm etməli və dəstəmaz da almalıdır. Əgər dəstəmaz almaqda da üzrlü olsa, dəstəmaz əvəzinə başqa bir təyəmmüm etməlidir.**

**Sual 202:** **Qüslə aid hökmlər qüsl əvəzinə təyəmmümə də aiddirmi? Yəni bu təyəmmümlə məscidə daxil olmaq olarmı?**

**Cavab: Təyəmmümü icazəli edən üzr davam edənədək və təyəmmüm pozulmayanadək, qüslə aid olan bütün şəri hökmlər qüsl əvəzinə təyəmmümə də aiddir. Yalnız namaz vaxtının darlığına görə qüsl əvəzinə edilən təyəmmüm istisna təşkil edir.**

**Sual 203:** **Onurğa beynindən zədə aldığına görə sidik ifrazını idarə edə bilməyən müharibə əlilinə əgər hamama getmək bir qədər çətindirsə, o, müstəhəb əməlləri yerinə yetirmək, məsələn, ziyarət etmək üçün qüsl əvəzinə təyəmmüm edə bilərmi? Həmçinin cümə qüslü əvəzinə təyəmmüm edə bilərmi?**

**Cavab: Təharətin şərt olmadığı əməlləri yerinə yetirmək, məsələn, ziyarət etmək üçün qüsl əvəzinə təyəmmüm etməyin düzgünlüyü məhəlli-işkaldır. Amma çətinlik mövcud olduğu hallarda qəsdi-rəca[1] ilə müstəhəb qüsllər əvəzinə təyəmmüm etməyin maneəsi yoxdur.**

**Sual 204:** **Əgər bir şəxsin ixtiyarında su olmasa, yaxud sudan istifadə etmək ona zərərli olsa, cənabət qüslü əvəzinə təyəmmüm etdiyi təqdirdə o, məscidə daxil ola və camaat namazı qıla bilərmi? Qurani-Kərimi qiraət etməsinin hökmü nədir?**

**Cavab: Təyəmmümü icazəli edən şəri üzr aradan qalxmayanadək və etdiyi təyəmmüm pozulmayanadək, o, təharətin şərt olduğu bütün əməlləri yerinə yetirə bilər.**

**Sual 205:** **Yuxuda ikən insandan bir rütubət xaric olur və oyandıqdan sonra o, heç nəyi xatırlamır. Amma paltarını rütubətli görür və nəyisə xatırlamağa da vaxt yoxdur, çünki sübh namazı qəza ola bilər. Bu vəziyyətdə insanın vəzifəsi nədir? Qüsl əvəzinə təyəmmüm niyyətini necə etməlidir? Bu barədə hökm nədir?**

**Cavab: Əgər möhtəlim olduğunu bilirsə, cənabətlidir və qüsl etməlidir. Namaz vaxtı dar olduğu təqdirdə, bədənini pakladıqdan sonra təyəmmüm etməli və namaz qılmalıdır. Sonra geniş vaxtda qüsl etməlidir. Amma əgər möhtəlim və cənabətli olduğuna şəkk etsə, cənabətin hökmü ona aid olmur.**

**Sual 206:** **Bir şəxs ardıcıl olaraq bir neçə gecə cənabətli olmuşdur. Hədisdə də buyurulur ki, bir neçə gün ardıcıl hamama**

getmək insanı zəif edər. Bu şəxsin vəzifəsi nədir?

**Cavab: Qüsl etmək ona vacibdir. Amma əgər sudan istifadə etmək ona zərərli olsa, bu təqdirdə təyəmmüm etməlidir.**

**Sual 207:** Mən vücudumda qeyri-təbii bir vəziyyət yaranıb. Belə ki, məndən neçə dəfə qeyri-ixtiyari olaraq müxtəlif vaxtlarda məni xaric olur və məninin xaric olması ləzzətlə yanaşı deyildir. Hər namaz üçün mənim vəzifəm nədir?

**Cavab: Əgər hər namaz üçün qüsl etmək sizə zərərlidirsə, yaxud sizin üçün çox böyük çətinliyi vardırsa, bədəninizi pakladıqdan sonra təyəmmüm edib namaz qılın.**

**Sual 208:** Əgər cənabətli şəxs qüsl etdiyi təqdirdə xəstələnəcəyini bilsə və buna görə sübh namazı üçün qüsl etməyib, qüsl əvəzinə təyəmmüm etsə, hökmü nədir?

**Cavab: Əgər qüslün ona zərərli olduğunu bilsə, təyəmmüm etməyin maneəsi yoxdur və təyəmmümlə namaz qılması düzgündür.**

**Sual 209:** Təyəmmümün qaydası necədir? Dəstəmaz əvəzinə təyəmmüm ilə qüsl əvəzinə təyəmmüm arasında fərq varmı?

**Cavab: Təyəmmümün qaydası belədir:**
**Əvvəlcə niyyət etmək lazımdır. Sonra hər iki əlin içini tamamilə, "üzərinə təyəmmüm etməyin düzgün olduğu şey"ə birlikdə vurursan. Daha sonra hər iki əlin içini birlikdə alın və alnın hər iki tərəfinə bütünlüklə – belə ki, saçların çıxdığı yerdən başlayaraq qaşlara və burnun üstünə qədər – çəkirsən. Bundan sonra sol əlin içini sağ əlin üstünə və sağ əlin içini sol əlin üstünə bütünlüklə tamamilə çəkirsən. Ehtiyat-vacibə görə, yenidən əllərin içini "üzərinə təyəmmüm etməyin düzgün olduğu şey"ə vurursan və sol əlin içini sağ əlin üstünə və sağ əlin içini sol əlin üstünə bütünlüklə çəkirsən.**

**Sual 210:** Təbaşir və əhəng daşın üzərinə, habelə, bişmiş təbaşir və əhəngin, həmçinin kərpicin üzərinə təyəmmüm etməyin hökmü nədir?

**Cavab: Yerdən sayılan hər bir şeyin, o cümlədən, təbaşir və əhəng daşının üzərinə təyəmmüm etmək düzgündür. Bişmiş təbaşir və əhəngin, həmçinin kərpicin üzərinə təyəmmüm etməyin düzgün olduğu uzaq ehtimal deyildir.**

**Sual 211:** Qeyd etmisiniz ki, üzərinə təyəmmüm edilən şey pak olmalıdır. Təyəmmüm üzvləri (alın və əllərin üstü) də pak olmaldırmı?

**Cavab: Ehtiyat budur ki, imkan olduğu təqdirdə alın və əllərin üstü pak olsun. Əgər bir şəxs təyəmmüm üzvlərini paklaya bilməsə, elə həmin halda təyəmmüm etsin. Baxmayaraq ki, hər bir halda paklığın şərt olmaması uzaq ehtimal deyildir.**

**Sual 212:** Əgər bir şəxs dəstəmaz ala bilmirsə və təyəmmüm etmək imkanı da yoxdursa, vəzifəsi nədir?

Cavab: Əgər bir şəxs namaz üçün dəstəmaz ala bilmirsə və təyəmmüm etmək də mümkün deyilsə, ehtiyata görə, namazı öz vaxtında dəstəmazsız və təyəmmümsüz qılsın, sonra dəstəmazlı və ya təyəmmümlü halda namazın qəzasını qılsın.

**Sual 213:** Mən dəri xəstəliyinə tutulmuşam. Qüsl edəndə bədənimin dərisi quruyur. Hətta əllərimi və üzümü yuyanda da dərimdə quruluq yaranır. Buna görə də, dərimə yağ sürtmək məcburiyyətindəyəm. Nəticədə, dəstəmaz alarkən, xüsusilə də, sübh namazı üçün dəstəmaz alarkən müəyyən çətinliklərlə üzləşirəm. Mən sübh namazları üçün dəstəmaz əvəzinə təyəmmüm edə bilərəmmi?

Cavab: Əgər sudan istifadə etmək sizə zərərli olarsa, dəstəmaz almaq düzgün deyildir və dəstəmaz əvəzinə təyəmmüm etməlisiniz. Amma əgər sudan istifadə etmək zərərli olmasa və həmin yağ suyun dəstəmaz üzvlərinə dəyməsinə maneə yaratmasa, dəstəmaz almalısınız. Əgər maneə yaradarsa və yağı dərinizdən təmizləyib dəstəmaz ala, sonra dərinizə yenidən yağ sürtə bilirsinizsə, təyəmmümə növbə çatmır.

**Sual 214:** Bir şəxs namaz vaxtının darlığına görə namazını təyəmmümlə qılmışdır. Namazı qılıb qurtardıqdan sonra ona məlum olmuşdur ki, dəstəmaz almaq üçün vaxt var imiş. Onun namazının hökmü nədir?

Cavab: Həmin namazı yenidən qılmaq ona vacibdir.

**Sual 215:** Biz soyuq iqlimli bir məntəqədə yaşayırıq. Yaşadığımız yerdə nə hamam vardır, nə də hamamlanmaq üçün bir yer vardır. Mübarək ramazan ayında yuxudan cənabətli halda oyananda, gecənin bir vaxtında camaatın gözü qabağında tuluq suyu ilə və ya hovuz suyunda bir gəncin qüsl etməsinin eyib sayıldığını, həmçinin həmin vaxtda suyun soyuq olduğunu nəzərə alaraq, sabahkı günün orucu barəsində bizim vəzifəmiz nədir?

Cavab: Qüsl etməyin sadəcə çətin olması və ya gecə vaxtı gənclərin qüsl etməsinin eyib sayılması şəri üzr hesab olunmur. Əgər qüsl etmək çətin olmazsa və şəri vəzifəsi olan şəxsə zərərli olmazsa, mümkün olan hər şəkildə qüsl etmək vacibdir. Çətin və ya zərərli olduğu təqdirdə isə, fəcr[2] doğmamışdan qabaq təyəmmüm etməlidir. Fəcr doğmamışdan qabaq cənabət qüslü əvəzinə edilən təyəmmümlə oruc tutmaq düzgündür. Əgər təyəmmüm etməzsə, orucu düzgün deyildir, amma gündüz ərzində imsak etmək[3] ona vacibdir.

[1] Qəsdi-rəca - Mütəal Allahın göstərişi və ya qadağası olduğunu ehtimal verərək hansısa bir əməli yerinə yetirməyi və ya tərk etməyi niyyət etmək.

[2] Fəcr – sübhün şəfəqi, dan yeri deməkdir.

Sübh azanına yaxın şərq tərəfdən bir şəfəq (şüa) görünür və üzü yuxarıya hərəkət edir. Bu şəfəq, "birinci fəcr", yaxud "kazib fəcr" adlanır. Bu şəfəq aradan getdikdən sonra başqa bir şəfəq doğur və onun nuru üfüq boyu yayılır, getdikcə də artır. Bu şəfəq, "ikinci fəcr", yaxud "sadiq fəcr" adlanır.

[3] İmsak etmək – orucu pozan işlərdən çəkinməkdir.

## Qadınların hökmləri

**Sual 216:** Anam Peyğəmbər (s) nəslindəndir. Mən də seyidə sayılırammı? Mən altmış yaşına qədər gördüyüm qanı heyz qərar verə və qan gördüyüm günlərdə namaz qılmaya, oruc tutmaya bilərəmmi?

**Cavab: Yaisəlik[1] yaşını təyin etmək məsələsində ehtiyat olunur. Qadınlar bu məsələdə başqa bir camiuş-şərait müctəhidə müraciət edə bilərlər.**

**Sual 217:** Əgər günü təyin edilmiş nəzir orucunu tutan bir qadın oruc halında heyz olsa, vəzifəsi nədir?

**Cavab: Heyz olduqda – hətta gündüzün axırına çox az vaxt qalmış olsa belə – onun orucu pozulur. Heyzdən paklandıqdan sonra həmin günün orucunun qəzasını tutmaq ona vacibdir.**

**Sual 218:** Heyzdən paklandığına yəqin etdikdən sonra qadının gördüyü ləkələrin hökmü nədir? Qeyd etmək lazımdır ki, həmin ləkələr nə qanın əlamətlərinə malikdir, nə də su ilə qarışmış qandır.

**Cavab: Əgər qan olmazsa, bu ləkələr heyz hökmündə deyildir. Əgər qan olarsa, sarı ləkələr şəklində olsa belə, on günü[2] keçmədiyi təqdirdə heyz hökmündədir. Bu məsələni müəyyənləşdirmək qadının öz öhdəsindədir.**

**Sual 219:** Ramazan ayının orucuna görə dərman vasitəsilə aybaşının qarşısını almağın hökmü nədir?

**Cavab: Maneəsi yoxdur.**

**Sual 220:** Əgər hamilə qadında cüzi qanaxma olsa, amma bu qanaxma uşağın düşməsinə səbəb olmasa, qüsl etmək ona vacibdirmi, yoxsa vacib deyil? Onun vəzifəsi nədir?

**Cavab: Hamilə qadından gələn qan əgər heyzin əlamətlərinə və şərtlərinə malik olsa, yaxud heyz adətinin vaxtında gəlsə və üç gün davam etsə - hətta batində olsa belə - heyzdir. Əks təqdirdə, istihazə olacaqdır.**

**Sual 221:** Heyzdə müəyyən adəti olan qadın, məsələn, yeddi gün heyz qanı görən qadın uşaqlığına hamiləliyə qarşı vasitə qoydurduğuna görə hər dəfə on iki gün qan görür. Yeddi gündən sonra onun gördüyü qan heyzdir, yoxsa istihazə?

**Cavab: Əgər qan onuncu günə qədər kəsilməsə, adət günlərində gördüyü qan heyz, qalan günlərdə gördüyü qan istihazə olacaqdır.**

**Sual 222:** Heyzli və ya nifaslı qadın imamzadələrin (ə) ziyarətgahına daxil ola bilərmi?

**Cavab: Daxil ola bilər.**

**Sual 223:** Uşağını saldıran qadın, nifaslıdırmı, yoxsa nifaslı deyildir?

**Cavab: Uşağı saldırdıqdan sonra – hətta döl qan laxtası şəklində olsa belə – əgər qan gələrsə, nifas hökmündədir.**

**Sual 224:** Yaisəlik yaşında qadının gördüyü qanın hökmü nədir?

## Cavab: İstihazə hökmündədir.

**Sual 225:** **Hamiləliyin qarşısını almaq üçün yollardan biri hamiləliyə qarşı dərmanlardan istifadə etməkdir. Bu dərmanlardan istifadə edən qadınlar heyz günlərində və ya qeyri günlərdə qan ləkələri müşahidə edirlər. Bu ləkələrin hökmü nədir?**

## Cavab: Əgər bu ləkələr heyzin şəri şərtlərinə malik olmasa, heyz hökmündə deyildir və istihazə hökmündədir.

[1] Yaisəlik – qadının heyzdən (aybaşıdan) tamamilə kəsildiyi dövrdür.

[2] "Gün"ün müəyyən edilməsində meyar, ürfdür və "gün" - günəş doğandan qürub edənədək olacaq.

## Meyitin hökmləri

**Sual 226:** Cənazəyə qüsl verən, onu kəfənləyən və dəfn edən şəxsin cənazə ilə eyni cinsdən olması şərtdirmi? Yoxsa kişi qadının və qadın da kişinin cənazəsinə qüsl verə, onu kəfənləyə və dəfn edə bilər?

**Cavab: Təkcə cənazəyə qüsl verəndə qüsl verən şəxsin cənazə ilə eyni cinsdən olması şərtdir. Əgər kişinin cənazəsinə kişinin və qadının cənazəsinə qadının qüsl verməsi mümkündürsə, kişinin cənazəsinə qadının və qadının cənazəsinə kişinin qüsl verməsi düzgün deyildir və meyit qüslü düzgün olmayacaq. Amma kəfənləməyə və dəfn etməyə gəlincə, bu işləri görən şəxs ilə cənazənin eyni cinsdən olması şərt deyildir.**

**Sual 227:** Kəndlərdə cənazəyə yaşayış evlərində qüsl vermək adətdir. Bəzən dünyasını dəyişmiş şəxsin vəsisi[1] olmur və bir neçə azyaşlı övladı olur. Sizin bu barədə nəzəriniz nədir?

**Cavab: Cənazəyə qüsl vermək, onu kəfənləmək və dəfn etmək kimi işləri adi qaydada yerinə yetirmək azyaşlı övladın qəyyumunun icazəsindən asılı deyildir və azyaşlı övladların olması baxımından bir maneə yaranmır.**

**Sual 228:** Bir şəxs avtomobil qəzasında və ya hündürlükdən yıxılma nəticəsində vəfat etmişdir və onun cənazəsindən qan gəlir. Qanın öz-özünə və ya tibbi vasitələrlə dayanmasını gözləmək lazımdırmı? Yoxsa qanaxma olduğu halda cənazəsini dəfn etmək olar?

**Cavab: Qüsldən qabaq cənazəni paklamaq mümkün olduğu təqdirdə, cənazəni paklamaq vacibdir. Əgər qanın dayanmasını gözləmək və ya qanaxmanın qarşısını almaq mümkündürsə, bunu etmək vacibdir.**

**Sual 229:** Qırx ya əlli il qabaq dəfn edilmiş və qəbrinin yeri itərək ümumi sahəyə çevrilmiş bir cənazənin sümükləri həmin sahədə arx qazarkən üzə çıxmışdır. Bu sümüklərə baxmaq məqsədilə onlara toxunmağın maneəsi vardırmı? Bu sümüklər napakdırmı?

**Cavab: Meyit qüslü verilmiş müsəlmanın cənazəsinin sümükləri napak deyildir. Amma bu sümükləri yenidən torpağa dəfn etmək vacibdir.**

**Sual 230:** İnsan özü üçün aldığı kəfənlə atasını, anasını və ya qohumlarından birini kəfənləyə bilərmi?

**Cavab: Maneəsi yoxdur.**

**Sual 231:** Bir həkim qrupu tibbi tədqiqat aparmaq məqsədilə cənazənin ürəyini və bəzi əzalarını onun bədənindən ayırmalı olurlar. Bu əzaların üzərində tədqiqat apardıqdan bir gün sonra onları dəfn edirlər. Ümid edirəm ki, lütf edib aşağıdakı sualları cavablandıracaqsınız:
1) Üzərində bu cür tibbi tədqiqatların aparıldığı cənazələrin müsəlman şəxslərin cənazələri olduğunu nəzərə alaraq, biz bu işi görə bilərikmi?
2) Cənazədən ayrılmış ürək və başqa əzaları cənazədən ayrı dəfn etmək olarmı?
3) Ürək və başqa əzaları cənazədən ayrı dəfn etmək bizim üçün çətinliklər yaratdığını nəzərə alaraq, bu əzaları başqa bir cənazə ilə birlikdə dəfn etmək olarmı, yoxsa olmaz?

**Cavab: Əgər insan həyatını qurtarmaq, yaxud insanların ehtiyac duyduqları tibbi nailiyyətləri əldə etmək, yaxud da insanların həyatını təhdid edən bir xəstəliyi öyrənmək meyitin yarılmasından asılı olarsa, meyitin yarılmasına icazə verilir. Amma qeyri-**

**müsəlmanın cənazəsindən istifadə etmək imkanı olduğu təqdirdə müsəlmanın cənazəsindən istifadə etməmək lazımdır. Müsəlmanın cənazəsindən ayrılan əzaların hökmü isə budur ki, bu əzalar bədənlə dəfn edilsin. Mümkün olmadığı təqdirdə isə, onların ayrıca və ya başqa bir cənazə ilə birlikdə dəfn edilməsinin maneəsi yoxdur.**

**Sual 232:** **Əgər bir şəxs özünə kəfən alsa və həmişə vacib və ya müstəhəb namazları qılanda, yaxud Qurani-Kərimi oxuyanda kəfəni açıb onun üstündə namazlarını qılsa və Quran oxusa, öləndə də ondan kəfən kimi istifadə etsə, buna icazə verilirmi? İslama görə insanın özünə kəfən alıb, onun üstünə Quran ayələri yazması və ondan yalnız kəfən kimi istifadə etməsi düzgündürmü?**

**Cavab: Yuxarıda qeyd olunan halların heç bir maneəsi yoxdur.**

**Sual 233:** **Bu yaxınlarda təxminən yeddi yüz il tarixi olan qədim bir qəbirdən bir qadın cənazəsi tapılmışdır. Bu cənazə iri sümükləri olan və sümükləri bir-birindən ayrılıb-dağılmamış insan skletidir, baş sümüyündə də bir qədər saç vardır. Bunu tapan arxeoloqların sözlərinə görə, bu cənazə müsəlman bir qadının cənazəsidir. Təbiət elmləri muzeyi tərəfindən bu sklet (qəbrin maketi hazırlanaraq və cənazə qəbrə yerləşdirərək) nümayiş etdirilə bilərmi? Belə ki, muzeyə baxmağa gələnlərə ibrət dərsi olsun, yaxud uyğun ayələr və hədislər yazmaqla onlar üçün xatırlatma və öyüd-nəsihət olsun.**

**Cavab: Əgər bu skletin müsəlmanın cənazəsinə aid olduğu sübuta yetərsə, onu dərhal dəfn etmək vacibdir.**

**Sual 234:** **Bir kənddə bir qəbiristanlıq vardır ki, heç kimin şəxsi mülkü deyildir və vəqf də edilməyibdir. Bu kəndin əhalisi şəhərdən gətirilən cənazələrin, yaxud başqa kəndlərdən gətirilən cənazələrin, yaxud da bu qəbiristanlıqda dəfn edilməsini vəsiyyət edən mərhumun bu qəbiristanlıqda dəfn edilməsinə mane ola bilərlərmi?**

**Cavab: Əgər sözügedən ümumi qəbiristanlıq kiminsə şəxsi mülkü deyildirsə və ya xüsusilə həmin kəndin əhalisinə vəqf edilməyibdirsə, bu kəndin əhalisi başqalarının ölülərinin bu qəbiristanlıqda dəfn edilməsinə mane ola bilməzlər. Əgər bir şəxs həmin qəbiristanlıqda dəfn edilməsini vəsiyyət edibdirsə, vəsiyyətə uyğun əməl etmək vacibdir.**

**Sual 235:** **Bir sıra hədislər (məsələn, "Ləalil-əxbar" kitabında qeyd edilən hədislər) qəbirlərin üstünə su səpməyin müstəhəb olduğuna dəlalət edir. Yalnız dəfn günü qəbrin üstünə su səpmək müsətəhəbdir, yoxsa bu əməl hər bir vaxt müstəhəbdir? "Ləalil-əxbar" kitabının müəllifi bu əməlin hər bir vaxt müstəhəb olduğunu qeyd etmişdir. Bu barədə sizin nəzəriniz nədir?**

**Cavab: Dəfn günü qəbrin üstünə su səpmək müstəhəbdir. Başqa vaxtlar isə bu əməli qəsdi-rəca ilə yerinə yetirməyin maneəsi yoxdur.**

**Sual 236:** **Nə üçün cənazəni gecə dəfn etmirlər? Gecə vaxtı cənazəni dəfn etmək haramdırmı?**

**Cavab: Gecə vaxtı cənazəni dəfn etməyin maneəsi yoxdur.**

**Sual 237:** **Bir şəxs avtomobil qəzasında vəfat etmişdir. Ona qüsl verib, kəfənlədikdən sonra qəbiristanlığa gətirdilər. Amma onu dəfn etmək istədikdə tabutun və kəfənin onun bədənindən axan qana bulaşdığını gördülər. Bu vəziyyətdə onun kəfənini dəyişmək vacibdirmi?**

**Cavab: Əgər kəfənin qana bulaşmış hissəsini yumaq, yaxud həmin hissəni kəsmək və ya dəyişdirmək mümkün olarsa, bu işi etmək vacibdir. Amma əgər mümkün olmazsa, cənazəni həmin vəziyyətdə dəfn etmək olar.**

**Sual 238:** **Əgər kəfəni qana bulaşmış o cənazənin dəfnindən üç ay ötübsə, bu halda qəbrin açılmasına icazə verilirmi?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, qəbrin açılmasına icazə verilmir.**

**Sual 239:** **Sizdən xahiş edirəm ki, aşağıdakı üç suala cavab verəsiniz:**
**1) Əgər hamilə qadın doğuş zamanı vəfat etsə, aşağıdakı hallarda onun bətnindəki dölün hökmü nədir?**
**a) Əgər dölə təzə ruh verilmiş olsa (yəni üç aylıq və ya bir qədər böyük olarsa) və ananın bətnindən çıxarıldığı təqdirdə onun ölüm ehtimalı çox böyük olsa, hökm nədir?**
**b) Əgər döl yeddi aylıq və ya daha böyük olsa, hökm nədir?**
**c) Əgər döl ananın bətnində ölmüş olsa, hökm nədir?**

**2) Əgər hamilə qadın doğuş zamanı vəfat etsə, dölün öldüyünü, yoxsa yaşadığını tam araşdırmaq başqalarına vacibdirmi?**

**3) Əgər hamilə qadın doğuş zamanı ölsə və döl onun bətnində sağ qalsa, bir nəfər də döl sağ olduğu bir halda adətə zidd olaraq ananın döl ilə birlikdə dəfn edilməsini göstəriş versə, bu barədə sizin nəzəriniz nədir?**

**Cavab: Əgər ananın ölümü ilə döl də ölsə, yaxud ana dölə ruh verilməmişdən qabaq vəfat etsə, dölü ananın bətnindən çıxarmaq vacib deyildir, əksinə, buna icazə verilmir. Amma əgər dölə ruh verilmiş olsa və döl ölən ananın bətnində sağ olsa, habelə, ananın bətnindən çıxarana qədər onun sağ qalma ehtimalı olsa, onu tez bir zamanda ananın bətnindən çıxarmaq vacibdir. Dölün ananın bətnində öldüyü dəqiqləşməyənə qədər ananın döl ilə birlikdə dəfn edilməsinə icazə verilmir. Əgər sağ olan döl ana ilə birlikdə dəfn edilsə və dəfn edildikdən sonra da onun sağ olduğu ehtimalı mövcud olsa, qəbrin açılması və sağ olan dölün ananın bətnindən çıxarılması vacibdir. Həmçinin əgər ananın bətnində dölün həyatını qorumaq ananın dəfn edilməməsindən asılı olsa, zahir budur[2] ki, ananın dəfn edilməsini təxirə salmaq vacibdir. Əgər bir şəxs hamilə qadın ilə onun bətnində sağ olan dölün birlikdə dəfn edilməsinə icazə verildiyini desə və başqaları da onun sözünün doğru olduğunu güman edib qadını dəfn etsələr və bu iş körpənin qəbirdə ölməsi ilə nəticələnsə, diyə ödəmək dəfn işini görən şəxsə vacibdir. Amma əgər dölün ölümü həmin şəxsin sözü əsasında olsa, bu təqdirdə diyə ödəmək həmin şəxsə vacibdir.**

**Sual 240:** **Şəhər İcra Hakimiyyəti torpaq sahələrindən səmərəli istifadə edilməsi üçün qəbirlərin ikimərtəbəli qazılmasını göstəriş vermişdir. Xahiş edirik ki, bunun şəri hökmünü açıqlayasınız.**

**Cavab: Müsəlmanların qəbrinin bir neçə mərtəbəli qazılmasına icazə verilir. Bu şərtlə ki, bu iş qəbrin açılmasına və müsəlmanın hörmətinin sınmasına səbəb olmamalıdır.**

**Sual 241:** **Bir uşaq quyuya düşüb ölmüşdür. Quyudakı su onun cəsədinin çıxarılmasına mane olur. Bunun hökmü nədir?**

**Cavab: Uşağın cəsədi həmin quyuda qalsın və quyu onun qəbri olacaqdır. Əgər quyu kiminsə şəxsi mülkü deyilsə və ya onun maliki quyunun bağlanmasına razı olarsa, quyunu bağlamaq vacibdir.**

**Sual 242:** **Bizim məntəqədə adət budur ki, ənənəvi sinəvurma və zəncirvurma mərasimi yalnız İmamların (ə), şəhidlərin və din böyüklərinin əzasında təşkil olunur. Belə mərasimlər könüllü silahlı qüvvələrdən olan fərdlərin və ya İslam hökumətinə və bu müsəlman millətə hər hansı bir şəkildə xidmət göstərən şəxslərin vəfatı münasibətilə təşkil oluna bilərmi?**

**Cavab: Bunun heç bir maneəsi yoxdur.**

**Sual 243:** **Gecə vaxtı qəbiristanlığa getməyin məkruh olduğunu nəzərə alaraq, əgər bir şəxs gecə vaxtı qəbiristanlığa getməyin islami tərbiyədə təsirli rol oynadığına etiqad bəsləyib, gecə vaxtı qəbiristanlığa getsə, hökmü nədir?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 244:** Qadınlar dəfn mərasimində iştirak edə və cənazə daşıya bilərlərmi?

**Cavab: Maneəsi yoxdur.**

**Sual 245:** Bəzi köçəri tayfalar arasında bir adətdir ki, bəzi şəxslər vəfat edəndə borc edib çox sayda qoyun alır və yas mərasimində iştirak edənlərin hamısına yemək verirlər. Bu iş onlara böyük maddi ziyan vurur. Adət-ənəni qoruyub-saxlamaqdan ötrü bu ziyanları qarşılamağa icazə verilirmi?

**Cavab: Əgər yemək üçün çəkilən xərclər yaşı böyük olan varislərin malından və onların icazəsi ilə olarsa, icazə verilir. Amma əgər bu iş maddi çətinliklərin və ziyanların ortaya çıxmasına səbəb olursa, bu işdən çəkinmək lazımdır. Əgər infaq[3] mərhumun malından verilirsə, onun necə vəsiyyət etdiyinə bağlıdır. Ümumiyyətlə, bu kimi işlərdə ilahi nemətlərin zay edilməsinə səbəb olan israfdan çəkinmək lazımdır.**

**Sual 246:** Əgər indiki zamanda bir şəxs bir məntəqədə minaya düşüb ölsə, şəhid hökmündədirmi?

**Cavab: Şəhidin qüslsüz və kəfənsiz dəfn edilməsi hökmü, yalnız müharibə meydanında öldürülən şəhidlərə aiddir.**

**Sual 247:** İslam İnqilabının Keşikçiləri Ordusundan olan qardaşlar sərhəd rayonlarının bəzi məntəqələrinə get-gəl edir və bəzən İslam İnqilabına zidd olan qruplar tərəfindən qurulan tələlərə düşürlər. Bəzi hallarda onlar bu hadisələrdə şəhid olurlar. Bu şəhidlərə qüsl və ya təyəmmüm vermək vacibdirmi? Yoxsa həmin məntəqə müharibə meydanı hesab olunur?

**Cavab: Əgər həmin məntəqə haqq dəstə ilə və nahaq dəstə arasında müharibə meydanıdırsa, haqq dəstədən orada şəhid olan şəxslər şəhid hökmündədirlər.**

**Sual 248:** Camaat namazının imamının şərtlərinə malik olmayan şəxs bir mömininin cənazə namazına imamlığı öhdəsinə götürə bilərmi?

**Cavab: Başqa namazlarda camaat namazının imamı üçün əsas olan şərtlərin cənazə namazının imamında şərt olmaması uzaq ehtimal deyildir. Baxmayaraq ki, əhvətə görə bu şərtlər cənazə namazında da riayət edilməlidir.**

**Sual 249:** Əgər bir mömin dünyanın hansısa bir yerində İslamın hökmlərinin icrası yolunda, yaxud mitinqlərdə, yaxud Cəfəri fiqhinin icrası yolunda öldürülərsə, şəhid hesab olunurmu?

**Cavab: O, şəhidin əcr və savabını qazanır, amma şəhidin dəfn hökmləri yalnız müharibə meydanında gedən döyüşlərdə şəhid olanlara aiddir.**

**Sual 250:** Əgər bir müsəlman şəxs narkotik maddələrin satışı cinayətinə görə məhkəmənin hökmü ilə edama məhkum olunarsa və edam hökmü onun barəsində icra edilərsə:
1) Ona meyit namazı qılınırmı?
2) Onun yas məclisində iştirak etmək, bu məclisdə Quran oxumaq və Əhl-beyt (ə) üçün mərsiyələr oxumağın hökmü nədir?

**Cavab: Edam olunan müsəlman şəxs başqa müsəlmanlar hökmündədir və meyitin şəri hökmləri ona da aiddir.**

**Sual 251:** Sağ insanın bədənindən ayrılan və əti üstündə olan sümüyə toxunmaq məshi-meyit qüslünə səbəb olurmu?

**Cavab: Sağ insandan ayrılan bir üzvə toxunmağın qüslü yoxdur.**

**Sual 252:** Ölü insandan ayrılan bir üzvə toxunduqda məshi-meyit qüslü vacib olurmu?

**Cavab: Bədəni soyuduqdan sonra və meyit qüslü verilməmişdən qabaq bir cənazədən ayrılan üzvə toxunmaq, cənazəyə toxunmaq hökmündədir.**

**Sual 253:** **Can verən vaxt müsəlman şəxs üzü qibləyə uzadılmalıdırmı?**

**Cavab: Yaxşı olar ki, can verən vaxt müsəlman şəxs arxası üstə qibləyə tərəf uzadılsın, yəni onun ayaqlarının altı qibləyə tərəf olsun. Fəqihlərin çoxu bu əməli yerinə yetirməyi bacardığı halda can verən şəxsin özünə və başqalarına vacib bilmişlər və bu əməli yerinə yetirmək ehtiyatı tərk olunmamalıdır.**

**Sual 254:** **Əgər diş çəkdirəndə damağın toxumalarından bir qədəri dişlə birlikdə qoparsa, ona toxunmaq məshi-meyit qüslünə səbəb olurmu?**

**Cavab: Ona toxunmaq məshi-meyit qüslünə səbəb olmur.**

**Sual 255:** **Paltarı ilə dəfn edilən müsəlman bir şəhidə məshi-meyitin hökmləri şamil olurmu?**

**Cavab: Barəsində meyit qüslü və kəfənlənmə hökmü ortadan qalxan bir şəhidə toxunduqda, məshi-meyit qüslü vacib olmur.**

**Sual 256:** **Mən tibb ixtisası üzrə tələbəyəm. Bəzən meyiti yararkən onun bədəninə toxunmaq məcburiyyətində qalırıq və cəsədin müsəlmana, yoxsa qeyri-müsəlmana aid olduğunu bilmirik. Yaxud da (müsəlman olduğu tədqirdə) meyitə qüsl verilib-verilmədiyini bilmirik. Amma məsul şəxslər bu cəsədlərə qüsl verildiyini söyləyirlər. Deyilənləri nəzərə alaraq, bu cəsədlərə toxunduqdan sonra bizim namaz və başqa ibadətlər barəsində vəzifəmizi açıqlamağınızı istəyərdik. Bu deyilənləri nəzərə alaraq, qüsl etmək bizə vacib olurmu, yoxsa vacib olmur?**

**Cavab: Əgər meyitə qüsl verildiyi dəqiqləşməzsə və meyitə qüsl verildiyi barədə sizin şəkkiniz olarsa, cəsədə və ya ondan ayrılan üzvlərə toxunduqda sizə məshi-meyit qüslü vacib olur. Məshi-meyit qüslü etmədən namaz qılmaq düzgün deyildir. Amma əgər meyit qüslünün verildiyi dəqiqləşərsə, cəsədə və ya ondan ayrılan üzvlərə toxunduqda məshi-meyit qüslü vacib olmur, hətta əgər meyit qüslünün düzgün olduğuna şəkkiniz olsa belə.**

**Sual 257:** **Adı və kimliyi məlum olmayan bir şəhid bir neçə uşaqla birlikdə bir qəbirdə dəfn edilmişdir. Bir müddətdən sonra o şəhidin, dəfn olunduğu həmin şəhərin əhalisindən olmadığına dair bir sıra dəlillər əldə olundu. Şəhidin cənazəsinin öz şəhərinə aparılması üçün onun qəbrinin açılmasına icazə verilirmi?**

**Cavab: Əgər şəri qaydalar və hökmlər əsasında dəfn edilibsə, qəbrin açılmasına icazə verilmir.**

**Sual 258:** **Əgər qəbir açılmadan onun daxilindən məlumat əldə etmək və orada olanları videokamera ilə çəkmək mümkün olarsa, buna "qəbrin açılması" deyilirmi, yoxsa deyilmir?**

**Cavab: Qəbir açılmadan və cənazə üzə çıxmadan qəbirdə dəfn edilən cənazənin bədəninin videokamera ilə çəkilməsinə, "qəbrin açılması" deyilmir.**

**Sual 259:** **Şəhər İcra Hakimiyyəti yolların genişləndirilməsi üçün qəbiristanlığın ətraf hissələrindəki qəbirləri uçurmaq istəyir. Bu işə icazə verilirmi? Həmçinin həmin ölülərin sümüklərini qəbirdən çıxarmaq və başqa bir yerdə dəfn etməyə icazə verilirmi?**

**Cavab: Möminlərin qəbirlərini uçurmağa və qəbirlərini açmağa, hətta küçələrin genişləndirilməsi üçün olsa belə, icazə verilmir. Qəbir açıldığı və müsəlmanın cənazəsi,**

**yaxud hələ də çürüməyən sümükləri üzə çıxdığı halda onu yenidən dəfn etmək vacibdir.**

**Sual 260:** Əgər bir şəxs şəri qaydalara riayət etmədən müsəlmanların qəbiristanlığını uçursa, onun qarşısında başqa müsəlmanların vəzifəsi nədir?

**Cavab: Başqa müsəlmanların vəzifəsi, "nəhy ənil-munkər"in şərtlərinə və mərhələlərinə riayət edərək onu bu işdən çəkindirməkdir. Əgər qəbirlərin uçurulması nəticəsində müsəlmanın cənazəsi üzə çıxarsa, onu yenidən dəfn etmək vacibdir.**

**Sual 261:** Atam təxminən otuz altı ildir ki, bir qəbiristanlıqda dəfn edilibdir. Mən qərara gəlmişəm ki, bu qəbirdə mənim də dəfn edilməyim üçün Vəqf İdarəsindən icazə alım. Qəbiristanlığın vəqfi ərazi olduğunu nəzərə alaraq, bu barədə qardaşlarımdan icazə almalıyammı?

**Cavab: Ölülərin dəfni üçün "ümumi vəqf"[4] edilən bir ərazidə yerləşən qəbir üçün mərhumun digər varislərindən icazə almaq şərt deyildir. Amma cənazənin sümükləri torpağa qarışmamışdan qabaq başqa bir cənazəni həmin qəbirdə dəfn etmək üçün qəbrin açılmasına icazə verilmir.**

**Sual 262:** Müsəlmanların qəbiristanlığını uçurmaq və oranı başqa bir obyektə çevirməyin bir yolu varmı? Zəhmət olmasa, izah edin.

**Cavab: Müsəlmanların ölülərinin dəfni üçün vəqf edilən qəbiristanlığın başqa bir obyektə çevirilməsinə icazə verilmir.**

**Sual 263:** Mərcəyi-təqliddən icazə aldıqdan sonra qəbrin açılmasına və ölülərin dəfni üçün vəqf edilən ərazinin başqa bir obyektə çevirilməsinə icazə verilirmi?

**Cavab: Qəbrin açılmasına və ölülərin dəfni üçün vəqf edilən ərazinin başqa bir obyektə çevirilməsinə icazə verilmədiyi hallarda mərcəyi-təqlidin icazəsinin heç bir təsiri yoxdur. Amma əgər istisna hallardan olarsa, maneəsi yoxdur.**

**Sual 264:** Bir kişi təxminən iyirmi il bundan qabaq vəfat etmişdir. Bir neçə vaxt bundan qabaq həmin kənddə bir qadın vəfat etmişdir. Səhvən o kişinin qəbrini qazıb, qadını orada dəfn ediblər. Qəbirdə o kişinin cənazəsindən heç bir əsər-əlamət olmadığını nəzərə alaraq, hal-hazırda bizim üzərimizə düşən vəzifə nədir?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, hal-hazırda sizin üzərinizə heç bir vəzifə düşmür və bir cənazənin başqa bir cənazənin qəbrində dəfn edilməsi qəbrin açılması və cənazənin başqa bir qəbirdə dəfn edilməsinin icazəli olduğuna əsas vermir.**

**Sual 265:** Yolun ortasında dörd qəbir vardır ki, yolun davamının salınmasına mane olur. Digər tərəfdən də qəbrin açılmasının şəri baxımdan maneəsi vardır. Ümidvaram ki, Şəhər İcra Hakimiyyətinin şəriətə zidd bir əməl yerinə yetirməmələri üçün bizim üzərimizə düşən vəzifəni açıqlayardınız.

**Cavab: Əgər yolun salınması qəbrin açılmasına bağlı olmasa və yolun qəbirlərin üstündən salınması mümkün olarsa, yaxud yolun qəbirlər olan yerdən salınması zəruri və qanuna görə lazımlı olarsa, yolun salınmasının maneəsi yoxdur.**

---

[1] Vəsi – vəsiyyəti yerinə yetirməyi öhdəsinə götürən şəxsə deyilir.

[2] “Zahir budur” ifadəsi “fətva”dır.

[3] İnfaq – maldan verilən bəxşiş deməkdir.

[4] Ümumi vəqf – əmlakın ümumi mənafeyi olan işlərə vəqf edilməsidir. Məsələn, məscidlərin, körpülərin, məktəblərin və s. tikintisinə edilən vəqf. Yaxud da əmlakın ümumi ünvanlara – məsələn, yoxsullara, yetimlərə və s. - vəqf edilməsidir.

## Nəcasətlərin hökmləri

**Sual 266:** Qan pakdırmı?

**Cavab: Əgər qanı sıçrayıcı olan heyvanınkı olarsa, napakdır.**

**Sual 267:** Əgərİmam Hüseynin (ə) əzadarlığında başı divara möhkəm vurmaq nəticəsində insanın başından qan gəlsə və əzadarlıq mərasimində iştirak edənlərin üz-gözünə tökülsə, bu qan pakdır, yoxsa yox?

**Cavab: İnsanın qanı hər bir halda napakdır.**

**Sual 268:** Paltarı yuduqdan sonra paltarda qalan qanın açıqrəngli izi napakdırmı?

**Cavab: Əgər bu, qanın özü olmasa və yalnız qanın rəngi olsa, pakdır.**

**Sual 269:** Bəzən yumurtada olan xırda qan laxtasının hökmü nədir?

**Cavab: Pak hökmündədir, amma onu yemək haramdır.**

**Sual 270:** Haramdan cənabətli olan şəxsin tərinin və nəcasətyeyən heyvanın tərinin hökmü nədir?

**Cavab: Əqvaya görə[1], pakdır. Amma ehtiyat-vacibə görə, onunla namaz qılınmamalıdır.**

**Sual 271:** Xalis su ilə qüsl verilməmişdən qabaq və sidirli və kafurlu su ilə qüsl verilmişdən sonra meyitin bədənindən yerə tökülən su damlaları pakdır, yoxsa yox?

**Cavab: Üçüncü qüsl tamamlanmamışdan öncə meyitin bədəni nəcasət hökmündədir.**

**Sual 272:** Bəzən dodaqlardan, əl və ayaqlardan dəri qopur. Bu, pak hökmündədir, yoxsa napak?

**Cavab: Əl və ayaqlardan, dodaqlardan və bədənin başqa yerlərindən öz-özünə qopan nazik dəri pak hökmündədir.**

**Sual 273:** Cəbhədə bir şəxs elə bir vəziyyətdə olub ki, donuz kəsib yemək məcburiyyətində qalıb. Onun bədəninin təri və ağzının suyu napak hökmündədirmi?

**Cavab: Haram və murdar ət yeyən şəxsin bədəninin təri və ağzının suyu napak deyildir. Amma donuz ətinə dəyən yaş bir şey, napak hökmündədir.**

**Sual 274:** Rəssamlıqda və xəritəçəkmədə fırçadan istifadə edilir. Keyfiyyətli fırçalar, adətən, donuz tükündən hazırlanır və qeyri-müsəlman ölkələrdən idxal edilir. Bu fırçaları hamı, xüsusilə, təbliğat və mədəniyyət müəssisələri əldə edir. Onlardan istifadə etməyin hökmü nədir?

**Cavab: Donuz tükü napakdır və təharətin şərt olduğu işlərdə ondan istifadə etmək olmaz. Amma təharətin şərt olmadığı işlərdə ondan istifadə etməyin maneəsi yoxdur. Əgər fırçanın donuz tükündən hazırlanıb-hazırlanmadığı məlum olmazsa, ondan hətta təharətin şərt olduğu işlərdə də istifadə etməyin maneəsi yoxdur.**

**Sual 275:** Qeyri-islami ölkələrdən idxal edilən ətləri yemək halaldırmı? Paklıq və napaklıq baxımından belə ətlərin hökmü nədir?

**Cavab: Belə ətlərin şəri kəsim olduğu dəqiqləşməyənədək onları yemək haramdır. Paklığa gəlincə isə, belə ətlərin şəri kəsim olmadığına yəqinlik yaranmayanadək onlar pakdır.**

**Sual 276:** Qeyri-islami ölkələrdən idxal edilən dəri və ya heyvanın başqa hissələri barəsində öz nəzərinizi bildirərdiniz.

**Cavab: Əgər heyvanın şəri qaydada kəsildiyini ehtimal verirsinizsə, pakdır. Amma əgər şəri qaydada kəsilmədiyinə yəqinliyiniz varsa, nəcasət sayılır.**

**Sual 277:** Əgər cənabətli şəxsin paltarı məni ilə napak olarsa:
1) Yaş olduğu halda ona əl vurmağın hökmü nədir?
2) Cənabətli şəxs öz paltarlarını suya çəkməsi üçün başqa bir şəxsə verə bilərmi? Möhtəlim şəxs onun paltarlarını suya çəkən şəxsə paltarların napak olduğunu bildirməlidirmi?

**Cavab: Məni nəcasətdir və əgər "keçici yaşlıq" ilə bir şeylə təmasda olarsa, onu da napak edir. Paltarı yuyan şəxsə onun napak olduğunu söyləmək lazım deyildir. Amma paltarın sahibi paltarın pak olduğuna yəqinliyi olmayanadək, onunla pak paltar kimi davrana bilməz.**

**Sual 278:** Mən sidik ifraz etdikdən sonra istibra edirəm və onunla birlikdə məni qoxusu verən bir maye xaric olur. Bu maye nəcasətdirmi? Namaz barəsində mənim vəzifəm nədir?

**Cavab: Əgər bu mayenin məni olduğuna yəqinliyiniz yoxdursa və bu maye məninin xaric olmasının şəri əlamətləri ilə xaric olmursa, məni hökmündə deyildir və pakdır.**

**Sual 279:** Əti haram quşların, məsələn, qarğa, sağsağan, qartal və tutuquşunun nəcisi napakdırmı?

**Cavab: Əti haram quşların nəcisi napak deyildir.**

**Sual 280:** "Şəriət hökmlərinin izahı" adlı kitablarda qeyd olunub ki, əti haram heyvanların və quşların nəcisi napakdır. Əti halal heyvanların, məsələn, inək, qoyun və toyuğun nəcisi napakdır, yoxsa yox?

**Cavab: Əti halal olan heyvanların – istər dördayaqlıların, istər quşların – nəcisi, həmçinin əti haram quşların nəcisi pakdır.**

**Sual 281:** Əgər tualet unitazının kənarlarında və ya içərisində nəcasət olsa və ora kür və ya az su ilə yuyulsa, amma nəcasətin özü qalsa, nəcasətin olmadığı hissə və ora dəyən su pakdır, yoxsa napakdır?

**Cavab: Napak suyun dəymədiyi hissə pak hökmündədir.**

**Sual 282:** Əgər qonaq ev sahibinin ev əşyalarından birini napak edərsə, bunu ev sahibinə bildirməsi vacibdirmi?

**Cavab: Yeyilən və içilən şeylər, həmçinin yemək qabları istisna olmaqla, digər əşyaları napak etdiyini ev sahibinə bildirməsi lazım deyildir.**

**Sual 283:** Napak bir şeylə təmasda olan pak bir şey napakdır, yoxsa yox? Napak olduğu təqdirdə, neçə vasitəyə qədər napakdır?

**Cavab: Nəcasətin özü ilə təmasda olub napak olan bir şey əgər pak bir şeylə təmasda olsa və onlardan biri yaş olsa, pak olan şeyi napak edər. Napak şeylə təmasda olmaq nəticəsində napak olan ikinci şey əgər pak bir şeylə təmasda olsa, ehtiyat-vacibə görə, onu napak edər. Amma napak olan üçüncü şey, onunla təmasda olan şeyi napak etmir.**

**Sual 284:** **Şəri qaydada kəsilməyən heyvanın dərisindən tikilən ayaqqabıdan istifadə edəndə həmişə dəstəmazdan qabaq ayaqları yumaq vacibdir? Bəziləri deyir ki, əgər ayaq ayaqqabının içində tərləyərsə, ayaqları yumaq vacibdir. Təcrübə göstərir ki, ayaq hər ayaqqabının içində az ya çox tərləyir. Sizin bu barədə nəzəriniz nədir?**

**Cavab: Əgər ayaqqabının şəri qaydada kəsilməyən heyvanın dərisindən tikildiyinə mükəlləfin yəqinliyi olsa və ayağın həmin ayaqqabıda tərlədiyi dəqiqləşsə, namaz üçün ayaqları yumaq vacibdir. Amma əgər ayaqların tərlədiyinə şəkk etsə, yaxud heyvanın – hansı ki, ayaqqabı o heyvanın dərisindən tikilibdir - şəri qaydada kəsildiyinə şəkk etsə, bu dəri pak hökmündədir.**

**Sual 285:** **Həmişə özünü napak edən bir uşağın yaş əli, ağzının suyu və yeməyinin artığının hökmü nədir? Yaş əlini ayaqlarına vuran uşaqların hökmü nədir?**

**Cavab: Onların napak olduğuna yəqinlik hasil olmayana qədər pak hökmündədirlər.**

**Sual 286:** **Mənim damağımda xəstəlik vardır və həkimin göstərişi ilə həmişə damağımı masaj etməliyəm. Masaj mənim damağımın bəzi hissələrinin rənginin qaralmasına səbəb olmuşdur, sanki dərinin altında qan yığılıb bərkimişdir. O hissəyə salfet qoyanda salfetdə qırmızı rəng görünür. Ona görə də, ağzımı kürr su ilə yuyuram. Amma bərkimiş qan bir müddət həmin hissədə qalır və yumaqla aradan getmir. Kürr su ilə yumanı dayandırdıqdan sonra ağıza daxil olub həmin hissələrlə təmasda olan və daha sonra ağızdan xaric edilən su napak hökmündədirmi? Yoxsa ağızın suyu hesab olunur və pak hökmündədir?**

**Cavab: Pak hökmündədir, baxmayaraq ki, ondan çəkinmək ehtiyata müvafiqdir.**

**Sual 287:** **Mənim sualım budur ki, yemək yeyərkən damağımda dərinin altında yığılıb bərkimiş qanla təmasda olan yemək napakdır, yoxsa yox? Napak olduğu təqdirdə, yeməyi udduqdan sonra ağız boşluğu napak qalırmı?**

**Cavab: Qeyd olunan halda yemək napak hökmündə deyildir və onu udmağın maneəsi yoxdur. Ağız boşluğu da pakdır.**

**Sual 288:** **Bir müddətdir şayiə gəzir ki, kosmetik əşyaları doğuş vaxtı döldən kəsib götürdükləri göbək ciyəsindən, yaxud ölü döldən hazırlayırlar. Biz bəzən bu əşyalardan istifadə etmişik. Hətta dodaq boyası bəzən ağıza gedir. Bu əşyalar napakdırmı?**

**Cavab: Şayiə, kosmetik əşyaların napak olmasına dair şəri dəlil deyildir. Onların napaklığı şəri yol ilə dəqiqləşməyənə qədər onlardan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 289:** **Paltarı və ya parçanı yuyarkən onlardan xırda xovlar tökülür və ləyənə baxanda onları görmək olur. Ləyən su ilə dolu olanda və borudan gələn su ora töküləndə paltarı ləyənə salarkən su ləyənin kənarlarından tökülür. Ləyəndən tökülən suda bu xırda xovlar olduğuna görə bu sudan ehtiyat edir və hər tərəfi paklayıram. Yaxud uşaqların napak paltarlarını onların əynindən çıxaranda həmin yerləri, hətta quru olsa belə, suya çəkirəm. Çünki xırda xovların ora töküldüyünü düşünürəm. Bu ehtiyata lüzum varmı?**

**Cavab: Əgər suya çəkmək üçün bir paltar ləyənə qoyularsa və onun üstünə su borularından gələn su axıdılarsa, su bu paltarı tamamilə islatdıqdan sonra paltardan ayrılarsa və ya onun daxilində bir yerdən başqa yerə hərəkət edərsə, bu təqdirdə paltar, su və paltarlardan tökülüb suyun üzündə görünən və su ilə birlikdə ləyəndən kənara tökülən xırda xovlar – bunların hamısı pakdır. Napak paltardan tökülən xırda xovlar və ya toz pakdır. Amma əgər xov və ya tozun paltarın napak yerindən töküldüyünə yəqinlik olarsa, xov və ya toz napakdır. Xov və ya tozun napak paltardan töküldüyünə sadəcə şəkk etdikdə, yaxud paltarın napak yerindən töküldüyünə şəkk etdikdə, ehtiyat etməyə lüzum yoxdur.**

**Sual 290:** **Bir şeydən başqa bir şeyə sirayət edən yaşlıq (başqa sözlə, keçici yaşlıq) hansı miqdarda olan yaşlıqdır?**

**Cavab: Keçici yaşlığın meyarı budur ki, təmas zamanı yaş şeyin yaşlığı digər şeyə keçir.**

**Sual 291:** **Quru təmizləməyə verilən paltarların paklıq baxımından hökmü nədir? Xatırlatmalıyam ki, dini azlıqlardan olanlar (yəhudilər, xristianlar və s.) öz paltarlarını yuyulma və ütülənmə üçün quru təmizləməyə verirlər. Həmçinin bilirik ki, bu yerlərdə paltarların yuyulmasında kimyəvi maddələrdən istifadə edilir.**

**Cavab: Əgər quru təmizləməyə verilən paltarlar əvvəlcədən napak olmasalar, pak hökmündədir və bu paltarların dini azlıqlardan olanların paltarları ilə təmasda olması, napaklığa səbəb olmur.**

**Sual 292:** **Tam avtomatlaşdırılmış paltaryuyan maşında yuyulan paltarlar paklanırmı, yoxsa paklanmır? Bu paltaryuyan maşının iş mexanizmi belədir ki, birinci mərhələdə su yuyucu maddə ilə qarışır və paltarlar yuyulur. Bu suyun bir miqdarı və yuyucu maddənin köpükləri paltaryuyan maşının qapısındakı şüşəyə və qapının kənarındakı plastik örtüyə dəyir. İkinci mərhələdə paltarların yuyulduğu su maşından çəkilir, amma yuyucu maddənin köpüyü maşının qapısını və qapının kənarındakı plastik örtüyü tamamilə örtmüş olur. Sonrakı mərhələlərdə paltaryuyan maşın paltarları üç dəfə “az su” ilə yaxalayır, sonra paltarların yuyulduğu su maşından çəkilir. Xahiş edirəm ki, bu qaydada yuyulan paltarların paklanıb-paklanmadığını bizə izah edin.**

**Cavab: Əgər “nəcasət” aradan getdikdən sonra paltarlar “kürr su”ya birləşən su ilə bir dəfə yuyularsa, paklanır. Həmçinin əgər paltarlar paltaryuyan maşının daxilinə qoyulmamışdan öncə paltaryuyan maşının daxili pak olarsa və “nəcasət” aradan getdikdən sonra paltarlar iki dəfə “az su” ilə yuyularsa, daha sonra da suyu adi şəkildə sıxılıb çəkilərsə, paklanır.**

**Sual 293:** **Əgər yerə, yaxud hovuza, yaxud paltarların da yuyulduğu hamama su tökülsə və bu suyun damcıları paltara sıçrasa, paltar napak olurmu, yoxsa yox?**

**Cavab: Əgər su pak bir yerə və ya pak bir torpağa tökülsə, ondan sıçrayan damcılar da pakdır. Əgər həmin yerin pak, yoxsa napak olduğuna şəkkimiz olsa, sıçrayan damcılar yenə də pakdır.**

**Sual 294:** **Şəhərin zibilyığan maşınlarından küçələrə tökülən və bəzən güclü külək nəticəsində camaatın paltarlarına sıçrayan su pak hökmündədir, yoxsa napak?**

**Cavab: Bu su pak hökmündədir. Amma əgər bir şəxs bu suyun nəcasətlə təmasda olması nəticəsində napak olduğuna yəqin etsə, bu su napakdır.**

**Sual 295:** **Küçələrdəki çalalarda yığılan su pakdır, yoxsa napakdır?**

**Cavab: Bu su pak hökmündədir.**

**Sual 296:** **Qida məhsullarında və bu kimi şeylərdə paklıq-napaklığa əhəmiyyət verməyən şəxslərlə ailəvi get-gəl etməyin hökmü nədir?**

**Cavab: Ümumiyyətlə, paklıq-napaklıq məsələsində İslam dininin hökmü budur ki, bir şeyin napak olduğuna dair yəqinlik olmazsa, həmin şey şəri baxımdan pak hökmündədir.**

**Sual 297:** **Aşağıdakı şəxslərin qusmağının paklıq-napaklıq baxımından hökmü nədir:**
**a) Südəmər uşağın;**
**b) həm süd içən, həm də yemək yeyən uşağın;**
**c) böyük adamın.**

**Cavab: Bütün hallarda pakdır.**

دفتر مقام معظم رهبری
www.leader.ir

**Sual 298:** **Məhsurə şübhə ilə təmasda olan şeyin[2] hökmü nədir?**

**Cavab: Əgər bəzi tərəfləri təmasda olarsa, napak şey hökmündə deyildir.**

**Sual 299:** **Dini məlum olmayan bir şəxs başqa bir ölkədən müsəlman ölkəsinə işləmək üçün gəlmiş və ərzaq mağazası açmışdır. O, ərzaq məhsulları satır. Satış zamanı ərzaq məhsulu onun keçici yaşlığı olan yaş bədəni ilə təmasda olur. Ondan hansı dində olduğunu soruşmaq lazımdırmı? Yoxsa bu xüsusda "əşyaların paklığı qanunu"[3] icra olunur?**

**Cavab: Ondan dini barəsində soruşmaq vacib deyildir. Bu şəxs barəsində, həmçinin onun keçici yaşlığı olan yaş bədəni ilə təmasda olan şey barəsində "əşyaların paklığı qanunu" icra olunur.**

**Sual 300:** **Əgər ailə üzvlərindən biri, yaxud insanın evinə get-gəl edən bir şəxs paklıq-napaklıq məsələsinə əhəmiyyət vermirsə və bu, bütün evin və ev əşyalarının napak olmasına səbəb olursa, belə ki, evi və ev əşyalarını yumaq və suya çəkmək mümkün olmazsa, bu xüsusda ev əhlinin vəzifəsi nədir? Deyilənləri nəzərə alaraq, insanın pak qalması necə mümkündür? Xüsusilə də, paklıq, namazın düzgünlüyü üçün şərtdir. Bu barədə şəri hökm nədir?**

**Cavab: Bütün evi paklamaq lazım deyildir. Namazın düzgün olması üçün namaz qılan şəxsin paltarının və alının qoyulduğu yerin pak olması kifayət edir. Evin və ev əşyalarının napak olması, insan üçün yalnız namaz və yemək-içmək barəsində paklığa riayət etmək vəzifəsi yaradır, bundan qeyri hallarda insan üçün bir vəzifə yaratmır.**

---

[1] Fətva deməkdir.

[2] Əgər bir neçə şeydən biri napak olarsa, amma hansının napak olduğu məlum olmazsa və yaş bir şey bunlardan biri ilə təmasda olarsa, həmin şeyə "məhsurə şübhə ilə təmasda olan şey" deyilir.

[3] Əşyaların paklığı qanunu odur ki, bir şeyin napak olduğuna əmin olmayınca həmin şey pak hökmündədir.

## Məstedicilərin hökmləri

**Sual 301:** Spirtli içkilər napakdırmı?

**Cavab: Məstedici içkilər, ehtiyata görə, napakdır.**

**Sual 302:** Odun üstündə qaynayan və üçdə ikisi azalmayan, amma məstedici də olmayan üzüm suyunun hökmü nədir?

**Cavab: Onu içmək haramdır, amma napak deyildir.**

**Sual 303:** Deyirlər ki, əgər suyunu çıxarmaq üçün bir miqdar qora qaynadılsa və qora ilə birlikdə bir və ya bir neçə üzüm dənəsi olsa, qaynayandan sonra qalan su haramdır. Bu söz doğrudurmu?

**Cavab: Əgər üzüm dənələri çox az olsa və üzümün suyu qoranın suyunda yox olsa, belə ki, artıq ona "üzüm suyu" deyilməsə, sözügedən su halaldır. Amma əgər təkcə üzüm dənələri odun üstündə qaynadılsa, onu yemək haramdır.**

**Sual 304:** Hal-hazırda bir çox dərmanların (xüsusilə də, sirop şəklində olan dərmanların), həmçinin ətirlərin (xüsusilə də, xaricdən idxal edilən ətirlərin) hazırlanmasında spirtdən istifadə olunur. Bu spirt, əslində, məstedicidir. Məsələni bilən və ya bilməyən şəxslərin bunları alıb-satmalarına və ya müxtəlif şəkillərdə istifadə etmələrinə icazə verirsinizmi?

**Cavab: "Təbiətcə məstedici mayelər"dən olduğu məlum olmayan spirtlər pak hökmündədir. Tərkibində bu spirtlərin olduğu mayeləri alıb-satmağın və istifadə etməyin maneəsi yoxdur.**

**Sual 305:** Həkimlər əllərini və istifadə etdikləri tibbi alətləri (məsələn termometri və s.) dizinfeksiya etmək üçün ağ spirtdən istifadə edə bilərlərmi? Ağ spirt, elə tibbi spirtdir və içilməsi mümkündür. Əgər bu spirtdən bir və ya bir neçə damcı paltara düşşə, bu paltarda namaz qılmaq olarmı?

**Cavab: Əgər bu spirt təbiətcə maye olmayan spirt növündən olarsa, məstedici olsa belə, pak hökmündədir. Bu spirtin töküldüyü paltarda qılınan namaz düzgündür və paltarı paklamağa ehtiyac yoxdur. Amma əgər təbiətcə maye və mütəxəssislərin rəyinə görə məstedici olan spirt növündən olarsa, ehtiyata görə, napakdır. Bu spirtin töküldüyü bədən və ya paltarı namaz qılmaq üçün paklamaq lazımdır. Amma tibbi alətləri və bu kimi şeyləri dizinfeksiya etmək üçün bu spirtdən istifadə etməyin maneəsi yoxdur.**

**Sual 306:** Qida sənayesində və əczaçılıqda istifadə edilən "kefir" adlı bir maddə vardır. Acıtma zamanı əldə edilən maddədə 5-8 faizli spirt əmələ gəlir. Bu miqdarda spirt istifadəçidə heç bir məstlik yaratmır. Şəri baxımdan bu maddədən istifadə etməyin maneəsi varmı, yoxsa yox?

**Cavab: Əgər əldə edilən maddədə mövcud olan spirt öz-özlüyündə məstedici olarsa, onu yemək haramdır və ehtiyata görə, napakdır, baxmayaraq ki, bu spirt az miqdarda olduğuna və əldə edilən maddənin tərkibinə qarışdığına görə istifadəçidə məstlik yaratmır. Amma əgər bu spirtin öz-özlüyündə məstedici olduğuna və ya təbiətcə maye şəklində olduğuna şəkk olunsa, hökm fərqli olacaq.**

**Sual 307:**
1) Etil spirti napakdır, yoxsa yox? (Güman ki, bu spirt bütün məstedicilərin tərkibində vardır və məstliyə səbəb olur.)

2) Spirtin napak olmasının meyarı nədir?
3) Şərabın məstedici olduğu hansı yolla sübut edilir?

**Cavab:**
**1) Məstedici və təbiətcə maye olan hər bir spirt, ehtiyata görə, napakdır.**
**2) Spirtin napak olmasının meyarı məstedici və təbiətcə maye olmasıdır.**
**3) Əgər mükəlləfin özünün yəqinliyi olmasa, etibarlı mütəxəssisin sözü kifayət edir.**

**Sual 308:** Bazarda mövcud olan bəzi içkilər, məsələn, koka-kola, pepsi və s. ölkə daxilində istehsal olunur. Deyilənlərə görə, bu içkilərin əsas maddələri xaricdən gətirilir və onların tərkibində spirtin olması ehtimalı vardır. Bu içkilərin hökmü nədir?

**Cavab: Pakdır və halaldır. Amma əgər mükəlləfin şəxsən özündə bu içkilərin tərkibində məstedici və təbiətcə maye olan spirtin olduğuna yəqinlik hasil olsa, bu içkilər napakdır və istifadəsi haramdır.**

**Sual 309:** Ümumiyyətlə, ərzaq məhsullarını alanda məhsulun qeyri-müsəlman olan satıcısının və ya istehsalçısının məhsula toxunduğunu, yaxud onların istehsalında spirtdən istifadə etdiyini araşdırmaq lazımdırmı?

**Cavab: Soruşmaq və araşdırma aparmaq lazım deyildir.**

**Sual 310:** Mən “atrapin sulfat spreyi”ni düzəltmişəm və spirt bu spreyin dərman formulunun tərkibində əsas rol oynayır. Belə ki, əgər sözügedən tərkibə spirt əlavə edilməsə, bu spreyin düzəldilməsi mümkün deyildir. Elmi cəhətdən də, bu sprey əsəb sisteminə təsir qoyan hərbi kimyəvi qazların əleyhinədir və İslamın silahlı qüvvələrinin bu qazlar qarşısında mühafizəsi üçün istifadə edilir. Sizin nəzərinə görə, əczaçılıqda spirtdən sözügedən tərzdə istifadə etməyə şəri baxımdan icazə verilirmi?

**Cavab: Əgər spirt məstedici və təbiətcə maye olsa, haramdır və ehtiyata görə, napakdır. Amma dərmanların hazırlanmasında ondan istifadə etməyin maneəsi yoxdur.**

## Vasvasılıq və onun müalicəsi

**Sual 311:** **Mən bir neçə ildir ki, vasvasılıq xəstəliyinə tutulmuşam. Bu məsələ məni çox incidir və vəziyyətim günbəgün daha da pisləşir. Artıq mən hər şeyə şəkk edirəm və həyatım şəkk üzərində qurulub. Ən çox yemək və yaş əşyalar barəsində şəkk edirəm. Buna görə də, adi insanlar kimi yaşaya bilmirəm. Bir yerə gedəndə dərhal corablarımı çıxarıram, çünki elə fikirləşirəm ki, corablarım tərləmişdir və napak şeylə təmasda olub napak olacaqdır. Mən hətta səccadədə də əyləşə bilmirəm. Səccadəyə oturanda mənə vəsvəsə gəlir və ayağa qalxıram ki, birdən səccadənin xovları mənim paltarlarıma yapışar və onları yumaq məcburiyyətində qalaram. Mən əvvəllər belə deyildim. İndi bu işlərimə görə xəcalət çəkirəm. İstəyirəm ki, yuxuda kimisə görüm və çətinliklərimi ona danışım, yaxud bir möcüzə baş versin və həyatımı dəyişdirsin, əvvəlki vəziyyətimə qayıdım. Ümid edirəm ki, mənə yol göstərəcəksiniz.**

**Cavab: Təharət və nəcasətin hökmləri "Şəriət hökmlərinin izahı" adlı kitablarda (risalələrdə) bəyan edilən hökmlərdən ibarətdir. Şəriət baxımından hər şey pak hökmündədir. Yalnız şəriətin "nəcasət" hesab etdiyi şeylər, həmçinin nəyinsə napak olduğuna insanın yəqinliyi olan əşyalar istisna təşkil edir. Vasvasılıq xəstəliyindən qurtulmaq üçün yuxuya və ya möcüzəyə ehtiyac yoxdur. Əslində, insan öz istəyini bir kənara qoymalı və şəriətin qayda-qanunlarına birmənalı olaraq tabe olmalıdır. Əgər nəyinsə napak olduğuna insanın yəqinliyi yoxdursa, həmin şeyi napak hesab etməməlidir. Çünki siz qapının, divarın, səccadənin və istifadə etdiyiniz başqa şeylərin napak olduğuna necə yəqin etmisiniz? Necə yəqin etmisiniz ki, üstündə əyləşdiyiniz səccadənin xovları napakdır və onun napaklığı sizin corabınıza, paltarınıza və bədəninizə sirayət edəcəkdir? Odur ki, belə hallarda zehninizə və ürəyinizə gələn vəsvəsələrə etina etməyinizə icazə verilmir. Napaklıq barəsində olan vəsvəsələrə etina etməmək və bu vəsvəsələrə etina etməməyi bir qədər məşq etmək sizə kömək edəcəkdir ki, Allahın istəyi və uğuru ilə vasvasılıqdan nicat tapasınız.**

**Sual 312:** **Mən ali təhsilli bir qadınam və bir neçə övladım var. Çətinlik çəkdiyim məsələ paklıq məsələsidir. Dindar bir ailədə böyüdüyüm üçün İslamın qayda-qanunlarına əməl etmək istəyirəm. Övladlarım azyaşlı olduqlarına görə daim sidik və nəcisi təmizləməklə məşğul oluram. Sidiyi paklayarkən sifondan sıçrayan damlalar ətrafa yayılır və ayağıma, üzümə, hətta başıma dəyir. Hər dəfə bu əzalarımı paklamaq çətinliyi ilə üzləşirəm. Bu, həyatda mənim üçün çətinliklər yaratmışdır. Digər tərəfdən də, bu məsələlərə etinasız qala bilmərəm, çünki dinim və inancım ilə bağlıdır. Çətinliyimin həlli üçün mən psixoloqa da müraciət etdim, amma bir nəticəsi olmadı. Bundan əlavə, çətinlik çəkdiyim başqa hallar da vardır, məsələn, napak bir şeyin tozu, uşağın əllərini qorumaq və s. Uşağın əllərini ya suya çəkməliyəm, ya da ətrafdakı şeylərə əl vurmasının qarısını almalıyam. Napak şeyi paklamaq mənim üçün çox çətindir, amma yalnız çirkli olan qabları və paltarları yumaq mənim üçün rahatdır. Sizdən xahiş edirəm ki, mənə yol göstərib həyatımı asanlaşdırasınız.**

**Cavab:**

**1) Müqəddəs şəriətdə paklıq-napaklığa dair qayda budur ki, bir şeyin napak olduğuna yəqinliyimiz olmayanadək – hətta onun napak olduğuna böyük ehtimal versək belə – həmin şey pak qəbul edilir.**

**2) Paklıq-napaklıq məsələlərində böyük psixoloji həssaslığı olan şəxslərə, məsələn, başqalarından daha tez bir şeyin napaklığına yəqin edən və ya başqalarından daha gec bir şeyin paklandığına yəqin edən insanlara fiqh termini ilə "vasvası" deyilir. Əgər vasvası insan bir şeyin napak olduğuna yəqin etsə, o öz yəqininə əməl etməməlidir. O, vasvası**

olmayan adi insanların bu məsələdə hasil olan yəqininə əməl edəcək. Vasvası insanın napak bir şeyi suya çəkməsində də adi insanların davranışı əsas götürülür. Belə ki, vasvası insanın napak şeyin paklandığına və nəcasətin aradan getdiyinə yəqin etməsi lazım deyildir.

3) Napak olan hər bir şeyi və ya bədən üzvünü paklamaq üçün nəcasət aradan getdikdən sonra su borularından gələn su ilə bir dəfə yumaq kifayət edir. Həmin şeyi və ya əzanı yenidən yumaq, yaxud suya salmaq lazım deyildir. Əgər napak şey parça və bu kimi şeylərdən olsa, ehtiyata görə, onu adi qaydada sıxmaq və ya hərəkət etdirmək lazımdır ki, su onun daxilindən xaric olsun.

4) Napaklıq məsələsində siz böyük həssaslığa düçar olduğunuza görə qəbul etməlisiniz ki, napak toz heç bir halda sizin üçün napak deyildir. Həmçinin uşağın əllərini – istər pak olsun, istərsə də napak – qorumağınız, habelə, bədəninizdən qan çıxıb-çıxmadığını yoxlamağınız lazım deyildir. Həssaslığınız aradan getməyənək bu hökm sizin barənizdə qüvvədədir.

5) İslam dininin hökmləri asan və insan fitrətinə uyğun hökmlərdir. Siz bu hökmləri özünüz üçün çətinləşdirməyin və belə etməklə cisminizə və ruhunuza ziyan vurmayın, özünüzü əziyyətə salmayın. Bu məsələlərdə iztirab, həyatı sizə acı edər və Mütəal Allah sizin və sizinlə ünsiyyətdə olan insanların çətinliyə düşməsinə və əzab çəkməsinə razı deyildir. Asan dinə görə şükür edin və bu nemətin şükrü Mütəal Allahın əmrlərinə müvafiq rəftar etməkdir.

6) Bu vəziyyət ötəri və müalicə oluna bilən bir vəziyyətdir. Bu vəziyyətə düşən bir çox insanlar yuxarıda açıqlanan metodla bundan nicat tapıblar. Allaha təvəkkül edin və himmət, iradə göstərib özünüzü sakitləşdirin. İnşallah ki, siz də müvəffəq olarsınız.

## Kafirin hökmləri

**Sual 313:** Bəzi fəqihlər kitab-əhlinin[1] napak olduğunu, bəziləri isə pak olduğunu bildirirlər. Sizin nəzəriniz nədir?

**Cavab: Kitab-əhlinin zati olaraq napak olduqları məlum deyildir. Bizim nəzərimizə görə onlar zati olaraq pak hökmündədirlər.**

**Sual 314:** Etiqadi baxımdan Xatəmül-ənbiyanın (s) peyğəmbərliyinə inanan, amma öz ata-babalarının yolu və adəti əsasında rəftar edən kitab-əhli olan fərdlər paklıq baxımından "kafir"in hökmünü daşıyırlar, yoxsa yox?

**Cavab: Təkcə Xatəmül-ənbiyanın (s) peyğəmbərliyinə etiqad bəsləmək "İslam" hökmünün onlar barəsində icra edilməsi üçün kifayət etmir. Amma əgər kitab-əhli hesab olunsalar, pak hökmündədirlər.**

**Sual 315:** Dostlarımla birlikdə bir ev icarayə götürdük və başa düşdük ki, dostlarımızdan biri namaz qılmır. Ondan nə üçün namaz qılmadığını soruşduq. Cavab verdi ki, Mütəal Allaha imanı vardır, amma namaz qılmır. Onunla birlikdə yemək yediyimizi və sıx ünsiyyətdə olduğumuzu nəzərə alaraq, biz onu napak bilməliyikmi?

**Cavab: Namaz, oruc və başqa şəri vacib əməlləri tərk etmək müsəlmanın mürtəd (dindən dönən), kafir və napak olmasına səbəb olmur. Onun mürtəd olduğu dəqiqləşməyənə qədər başqa müsəlmanların hökmündədir.**

**Sual 316:** "Kitab-əhli" dedikdə, kimlər nəzərdə tutulur? Onlarla ünsiyyətin hüdudlarını müəyyən edən meyar nədir?

**Cavab: "Kitab-əhli" dedikdə, İslam dinindən qeyri ilahi dinlərdən birinə etiqad bəsləyən, özünü ilahi peyğəmbərlərdən (ə) birinin ardıcılı hesab edən və peyğəmbərlərə (ə) nazil olan kitablardan birinə tapınan şəxsə deyilir, məsələn, yəhudi, məsihi, zərdüşti. Bizim araşdırmalarımıza əsasən, sabiilər də kitab-əhlidir və kitab-əhlinin hökmünü daşıyırlar. İslam qanunlarına və əxlaqına riayət edərək bu dinlərin ardıcılları ilə ünsiyyətdə olmağın maneəsi yoxdur.**

**Sual 317:** Bir firqə vardır ki, özlərini "əliyəllahı" adlandırırlar, yəni Əmirəl-möminin Əli ibn Əbu Talibi (ə) Allah bilir, namaz və oruc yerinə, dua etmək və hacət diləməyə etiqad bəsləyirlər. Onlar napakdırlarmı?

**Cavab: Əgər Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) Allah olduğuna etiqad bəsləyirlərsə - Allah bundan çox-çox uca və böyükdür! – onlar kitab-əhli olmayan qeyri-müsəlmanlar hökmündədirlər, yəni kafir və napakdırlar.**

**Sual 318:** Bir firqə vardır ki, özlərini "əliyəllahı" adlandırırlar və bu əqidədədirlər ki, Həzrət Əli (ə) Allah deyildir, amma Allahdan da aşağı deyildir. Bu firqənin hökmü nədir?

**Cavab: Əgər yeganə Allahın şəriki olduğuna etiqad bəsləmirlərsə, müşrik hökmündə deyildirlər.**

**Sual 319:** On iki imam şiəsi olanlar tərəfindən İmam Hüseynə (ə) və ya Əhli-kisaya (ə) nəzir deyilən malın "əliyəllahı" firqəsinin ardıcıllarının toplaşdığı mərkəzlərə vermək olarmı? Belə ki, bu iş onların mərkəzinin dirçəlməsinə səbəb olur.

**Cavab: Müttəqilərin mövlasının (ə) Allah olduğuna olan etiqad, yanlış etiqaddır və bu**

**etiqad insanın İslamdan xaric olmasına səbəb olur. Bu yanlış etiqadın rəvac tapmasına və yayılmasına kömək göstərmək haramdır. Bundan əlavə, nəzir edilən malın nəzir edilən ünvandan qeyri-ünvana sərf edilməsinə icazə verilmir.**

**Sual 320:** **Bizim məntəqənin ətraf yerlərində və bəzi başqa yerlərdə bir firqə vardır ki, özlərini "ismailiyyə" adlandırırlar. Onlar altı imamın imamlığına etiqad bəsləyirlər, amma vacib dini əməllərin heç birinə, həmçinin vilayəti-fəqihə etiqadları yoxdur. Sizdən xahiş edirəm ki, bu firqənin ardıcıllarının napak, yoxsa pak olduğunu bildirərdiniz?**

**Cavab: Məsum İmamlardan (ə) digər altısına etiqad bəsləməmələri, yaxud dinin və Xatəmül-ənbiyanın (s) peyğəmbərliyinin inkarı ilə nəticələnmədiyi surətdə vacib dini əməllərə və şəri hökmlərə etiqad bəsləməmələri küfrə və napaklığa səbəb olmur. Amma əgər Məsum İmamlardan (ə) birinə qarşı təhqirə və hörmətsizliyə yol versələr, kafir və napakdırlar.**

**Sual 321:** **Bizim təhsil aldığımız və yaşadığımız məntəqədə camaatın böyük əksəriyyəti buddist kafirlərdir. Əgər bir tələbə onların evini icarəyə götürsə, paklıq və napaklıq baxımından o evin hökmü nədir? Evi suya çəkmək və paklamaq zəruridirmi? Qeyd etmək lazımdır ki, bu məntəqədə olan evlərin əksəriyyəti taxtadan tikilib və onları yumaq mümkün deyildir. Hotellərin və onlarda olan əşyaların hökmü nədir?**

**Cavab: İstifadə etdiyiniz əşyanın kitab-əhli olmayan kafirin yaş əlinə və bədəninə toxunduğuna yəqinlik hasil olmayana qədər bu əşyaların napak olduğuna hökm olunmur. Onların napak olduğuna yəqinlik hasil olduğu təqdirdə də, evin və hotelin qapısını və divarlarını, orada olan əşyaları suya çəkmək vacib deyildir. Yalnız yemək-içmək və namaz qılmaq üçün istifadə edilən əşyaları paklamaq vacibdir.**

**Sual 322:** **Xuzistanda yaşayan xeyli sayda insan özlərini "sabii" adlandırır, Allah peyğəmbəri olan Həzrət Yəhyanın (ə) ardıcılı olduğunu və o həzrətin kitabının onların əlində olduğunu söyləyirlər. Dinləri araşdıran alimlər üçün sübuta yetmişdir ki, Quranda adı keçən "sabiun", onlardır. Xahiş edirəm, onların kitab-əhli olub-olmadıqlarını bildirərdiniz.**

**Cavab: Onlar kitab-əhli hökmündədir.**

**Sual 323:** **Bu söz doğrudurmu ki, kafirin tikdiyi ev napakdır və belə evdə namaz qılmaq məkruhdur?**

**Cavab: Belə evdə namaz qılmaq məkruh deyildir.**

**Sual 324:** **Yəhudi, xristian və başqa kafir firqələrin ardıcılları üçün işləmək və onlardan zəhmət haqqı almağın hökmü nədir?**

**Cavab: Kafir üçün işləməyin öz-özlüyündə maneəsi yoxdur. Bu şərtlə ki, bu iş haram işlərdən, habelə, İslamın və müsəlmanların ümumi mənafeyinə zidd olan işlərdən olmasın.**

**Sual 325:** **Hərbi xidmət göstərdiyim məntəqədə köçəri tayfalar yaşayır ki, "haqq əhli" adlı bir firqənin ardıcılıdırlar. Onlardan süd, pendir və kərə yağı alıb istifadə etmək olarmı?**

**Cavab: Əgər İslam dininin əsaslarına etiqadları varsa, paklıq və napaklıq baxımından başqa müsəlmanlar hökmündədirlər.**

**Sual 326:** **Mənim tədris etdiyim kənddə camaat namaz qılmır, çünki "haqq əhli" adlı bir firqənin ardıcılıdırlar. Biz onlardan ərzaq məhsulları və çörək alıb yemək məcburiyyətindəyik, çünki gecə-gündüz orada qalırıq. Bizim namazımız iradlıdırmı?**

**Cavab: Əgər tövhidi, nübüvvəti və İslam dinin zəruri etiqadlarından heç birini inkar**

etmirlərsə və Rəsulallahın (s) peyğəmbərliyini danmırlarsa, onların kafir və napak olduqlarına hökm olunmur. Əks təqdirdə, onlara toxunanda və ya onların yeməyindən istifadə edəndə paklıq-napaklıq məsələsinə riayət olunmalıdır.

**Sual 327:** Bizim qohumlardan biri kommunist idi və uşaq olduğumuz vaxt bizə bir çox əşyalar hədiyyə etmişdir. Hal-hazırda bu əşyalardan bəziləri qalır. Onların hökmü nədir?

**Cavab: Əgər onun kafir və mürtəd olduğu sübuta yetərsə və büluğ yaşında İslamı izhar etməzdən qabaq küfrü qəbul etmiş olarsa, onun malı başqa kafirlərin malı hökmündədir.**

**Sual 328:** Zəhmət olmasa, aşağıdakı sualları cavablandırın:
1) Müsəlman şagirdlərin azğın bəhailik firqəsinin ardıcılı olan şagirdlərlə münasibət qurmaları və əl-ələ görümələrinin – istər qız və ya oğlan olsun, istər şəri vəzifə yaşına çatmış olsun və ya çatmamış olsun, istər məktəbdə olsun və ya məktəbdən kənarda olsun, istər ibtidai, orta və ya tam orta pillədə olsun – hökmü nədir?
2) Müəllimlər bəhai olduqlarını biruzə verən, yaxud bəhai olduqlarına yəqinlikləri olan şagirdlərlə necə rəftar etməlidirlər?
3) Şagirdlərin ümumi istifadə etdikləri əşyalardan (məsələn, içməli su kranı, ayaqyolundakı su kranı, aftafa, sabun və s.) istifadə etməyin hökmü nədir? Bir halda ki, əl və bədənin yaş olduğunu bilirik.

**Cavab: Azğın bəhailik firqəsinin bütün ardıcılları napak hökmündədir. Əgər onlar bir şeyə toxunsalar, təharətin şərt olduğu işlər üçün bu şeylər barəsində paklıq məsələlərinə riayət etmək vacibdir. Amma məktəbin müdiri və müəllimləri bəhai şagirdlərlə İslamın qanunları və əxlaqı əsasında rəftar etməlidirlər.**

**Sual 329:** Xahiş edirəm ki, azğın bəhailik firqəsinin və bu firqənin ardıcıllarının müsəlman cəmiyyətinə qoyduqları təsirlərin qarşısında möminlərin vəzifəsini açıqlayardınız.

**Cavab: Bütün möminlər azğın bəhailik firqəsinin məkrləri və fəsadlarının qarşısını almalı, başqalarını onlara qoşulmaq və yolu azmaqdan çəkindirməlidirlər.**

**Sual 330:** Bəzən azğın bəhailik firqəsinin ardıcılı olan bəzi şəxslər bizə yemək və ya başqa bir şey gətirirlər. Biz onlardan istifadə edə bilərikmi?

**Cavab: Bu azğın və azdıran firqənin ardıcılları ilə hər növ münasibətdən uzaq olun.**

**Sual 331:** Bizim ətrafımızda çox sayda bəhai yaşayır və bizim evlərə tez-tez get-gəl edirlər. Bəziləri deyir ki, bəhailər napakdır. Bəziləri isə onları pak bilir. Bu bəhailərin davranışları yaxşıdır. Onlar napakdır, yoxsa pakdır?

**Cavab: Onlar napakdır və sizin din və imanınızın düşmənidirlər. Əziz övladlarım, özünüzü onlardan ciddi şəkildə qoruyun.**

**Sual 332:** Müsəlmanların və kafirlərin müştərək istifadə etdikləri maşın və ya qatar oturacaqları – nəzərə alsaq ki, bəzi yerlərdə kafirlər müsəlmanlardan sayca daha çoxdur və havanın temperaturu insanın tərləməsinə, hətta tərin oturacağa sirayət etməsinə səbəb olur – pak hökmündədirmi?

**Cavab: Kitab-əhli olan kafir pak hökmündədir. Hər halda, kafirlərin və müsəlmanların müştərək istifadə etdikləri əşyaların napak olduğuna yəqinlik hasil olmayanadək, onların pak olduğuna hökm olunur.**

**Sual 333:** Xaricdə ali təhsil alanların kafirlərlə əlaqədə və ünsiyyətdə olmaları qaçılmazdır. Belə isə, onların istehsal etdikləri və hazırladıqları yeməklərdən istifadə etməyin hökmü nədir? Əlbəttə, içərisində haram ərzaq (məsələn, şəri qaydada kəsilməyən heyvan əti) olmayan, amma kafirin yaş əlinin bu yeməyə toxunduğu ehtimal olunan yeməklər nəzərdə tutulur.

**Cavab: Sadəcə kafirin yaş əlinin yeməyə toxunduğunu ehtimal etmək, bu yeməkdən çəkinməyin vacib olması üçün kifayət etmir. Əgər kafirin yaş əlinin yeməyə toxunduğuna yəqinlik hasil olmasa, bu yeməyin pak olduğuna hökm olunur. Əgər kafir kitab-əhli olsa, zati olaraq napak deyildir və onun yaş əlinin nəyəsə toxunması, həmin şeyin napak olmasına səbəb olmur.**

**Sual 334:** **Əgər İslam hökumətində yaşayan müsəlman bir şəxsin dolanışıq xərcləri, onunla səmimi əlaqəsi olan qeyri-müsəlman bir şəxs üçün işləmək yolu təmin olunursa, belə müsəlman şəxslə möhkəm əlaqə qurmaq və ailəvi get-gəl etməyə, bəzən onun süfrəsində yemək yeməyə icazə verilirmi?**

**Cavab: Başqa müsəlmanların belə müsəlman şəxslə əlaqə qurmasının maneəsi yoxdur. Amma əgər müsəlman şəxsin qeyri-müsəlman bir şəxs üçün işləmək və onunla əlaqədə olmaq nəticəsində öz əqidəsindən dönmək kimi bir qorxusu olarsa, bu işi kənara qoyması vacibdir. Başqaları da onu "pis işdən çəkindirməli"dir.**

**Sual 335:** **Təəssüflər olsun ki, həyat yoldaşımın qardaşı müxtəlif səbəblərə görə yoldan azmış və dindən tamamilə dönmüşdü. Hətta dinin bəzi müqəddəslərinə hörmətsizlik edirdi. İslamdan dönməsindən bir neçə il keçdikdən sonra indi bir məktubda yazıb bildirmişdir ki, İslama iman gətiribdir. Amma nə namaz qılır, nə də oruc tutur. Ata və anasının, ailənin başqa üzvlərinin onunla münasibəti necə olmalıdır? O, kafirdirmi? Onu napak bilməliyikmi?**

**Cavab: Əgər onun qəlbən mürtəd olduğu sübuta yetibsə, bundan sonra tövbə etdiyi təqdirdə pak hökmündədir. Ata və anasının, ailənin başqa üzvlərinin onunla münasibətdə olmasının maneəsi yoxdur.**

**Sual 336:** **Əgər bir şəxs dinin zəruri hökmlərindən bəzilərini, məsələn, oruc və başqa bir hökmü inkar etsə, kafir hökmündədirmi, yoxsa yox?**

**Cavab: Əgər dinin zəruri hökmlərindən hansısa birini inkar etmək nübüvvətin inkarı və ya Rəsulallahın (s) peyğəmbərliyinin təkzibi ilə, yaxud şəriətə nöqsanın daxil edilməsi ilə nəticələnərsə, küfrə və mürtədliyə səbəb olur.**

**Sual 337:** **Mürtədlər və hərbi kafirlər[2] üçün müəyyən edilən cəzalar siyasi məsələlərdən və rəhbərliyin səlahiyyətlərindəndir? Yoxsa Qiyamət gününədək sabit qalan cəzalardandır?**

**Cavab: İlahi şəri hökmdür.**

---

[1] "Kitab-əhli" ifadəsinin izahı üçün 316-cı sualın cavabına baxın.

[2] Hərbi kafir – düşmənçiliyi kənara qoymağa dair müsəlmanlarla əhd-peymanı olmayan və ya müsəlmanlarla müharibədə olan kafirdir.

## Namazın əhəmiyyəti və şərtləri

**Sual 338:** **Namazı bilərəkdən tərk edən və ya yüngül sayan şəxsin hökmü nədir?**

**Cavab: Beş vaxtda qılınan gündəlik namazlar İslam şəriətinin çox mühüm vacib əməllərindəndir, hətta dinin sütunudur. Namazı tərk etmək və ya yüngül saymaq şəri baxımdan haramdır və cəzaya səbəb olur.**

**Sual 339:** **Əgər bir şəxsin ixtiyarında su və ya üzərinə təyəmmüm etməyin düzgün olduğu şey yoxdursa, namaz ona vacibdirmi?**

**Cavab: Ehtiyata görə, namazı öz vaxtında qılsın və namaz vaxtından sonra dəstəmazlı və ya təyəmmümlü halda namazın qəzasını qılsın.**

**Sual 340:** **Sizin nəzərinizə görə, vacib namazda hansı hallarda niyyəti dəyişmək lazımdır?**

**Cavab: Aşağıdakı hallarda namazın niyyətini dəyişmək vacibdir:**
**1) Niyyəti əsr namazından zöhr namazına dəyişmək: Belə ki, əsr namazının xüsusi vaxtı çatmamışdan öncə mükəlləf əsr niyyətilə namaz qıldığı əsnada zöhr namazını qılmadığını başa düşür.**
**2) Niyyəti işa namazından məğrib namazına dəyişmək: Belə ki, işa namazının xüsusi vaxtı çatmamışdan öncə mükəlləf işa niyyətilə namaz qıldığı əsnada məğrib namazını qılmadığını başa düşür və niyyəti dəyişmək yeri də keçməmişdir (yəni dördüncü rəkətin rükusunu hələ yerinə yetirməmişdir).**
**3) Mükəlləfin boynunda iki qəza namazı vardır, hansı ki, bu namazlar əda qılındığı zaman ardıcıllığa riayət olunmalıdır (məsələn, bir günün zöhr və əsr namazlarının qəzası): Əgər o, unutqanlıq nəticəsində birinci namazın qəzasını qılmamışdan öncə ikinci namazın qəzasını qılmağa başlayıbsa, bu halda niyyəti birinci namaza dəyişməlidir.**

**Aşağıdakı hallarda namazın niyyətini dəyişməyə icazə verilir:**
**1) Niyyəti əda namazından (yəni öz vaxtında qılınan namaz) vacib bir namazın qəzasına dəyişmək. (Bunu da qeyd edək ki, əgər mükəlləfin boynunda yalnız bir qəza namazı varsa, niyyəti qəza namazına dəyişmək ehtiyat-vacibdir, xüsusilə də, qəza namazı həmin günün namazı olduqda.)**
**2) Camaat namazının savabını əldə etmək üçün niyyəti vacib namazdan müstəhəb namaza dəyişmək.**
**3) Cümə günü zöhr namazının niyyətini nafiləyə dəyişmək: Belə ki, namaz qılan şəxs "Cümə" surəsini qiraət etməyi unudub, onun yerinə başqa bir surəni oxumağa başlamış və surənin yarısına çatmışdır və ya yarısını keçmişdir.**

**Sual 341:** **Əgər namaz qılan şəxs cümə günü həm cümə namazını, həm də zöhr namazını qılmaq istəyirsə, hər bir namaz üçün qəsdi-vücub (vacib niyyəti) etmədən təkcə qəsdi-qürbət[1] etməlidirmi? Yoxsa iki namazdan biri üçün həm qəsdi-qürbət və həm**

**qəsdi-vücub etməli, o biri namaz üçün təkcə qəsdi-qürbət etməlidir? Yoxsa hər iki namaz üçün həm qəsdi-vücub və həm də qəsdi-qürbət etməlidir?**

**Cavab: İki namazın hər birində qəsdi-qürbət kifayət edir və qəsdi-vücub heç birində vacib deyildir.**

**Sual 342: Əgər ağızdan və ya burundan gələn qan namaz vaxtının əvvəlindən axırına yaxın bir vaxtadək davam etsə, namazın hökmü nədir?**

**Cavab: Əgər bədəni paklamaq mümkün olmasa və namaz vaxtının qurtaracağından qorxsa, namazı həmin vəziyyətdə qılsın.**

**Sual 343: Namazın müstəhəb zikrlərini deyərkən bədənin tam aram və hərəkətsiz olması vacibdirmi, yoxsa yox?**

**Cavab: Namazın istər vacib, istərsə də müstəhəb zikrlərini deyərkən bədənin tam aram və hərəkətsiz olması vacibdir və bu baxımdan vacib zikr ilə müstəhəb zikr arasında fərq yoxdur.**

**Sual 344: Xəstəxanada bəzi xəstələrə sidiyin xaric olması üçün kateter adlı boru qoyulur. Bu vəziyyətdə sidik qeyri-ixtiyari olaraq xəstədən yatdığı və ya oyaq halda, yaxud da namaz əsnasında xaric olur. Xahiş edirəm, bu sualı cavablandırın: Belə şəxs namazını başqa vaxt yenidən qılmalıdırmı? Yoxsa həmin vəziyyətdə qıldığı namaz kifayət edir?**

**Cavab: Əgər həmin vəziyyətdə o, namazını öz şəri vəzifəsinə müvafiq şəkildə qılıbsa, namazı düzgündür, onu yenidən və qəzasını qılmaq vacib deyildir.**

---

[1] Qəsdi-qürbət – Mütəal Allaha yaxın olmaq niyyəti.

## Namazın vaxtı

**Sual 345:** Gündəlik namazların vaxtı barəsində şiə məzhəbinin dəlili nədir? Bildiyiniz kimi, əhli-sünnə işa namazının vaxtı daxil olan kimi məğrib namazını qəza hesab edir. Zöhr və əsr namazları barəsində da qayda belədir. Ona görə də onlar bu əqidədədirlər ki, işa namazının vaxtı daxil olduqda və imam-camaat işa namazı qılmağa qalxdıqda, məmum[1] onunla birlikdə məğrib namazını qıla bilməz, məğrib və işa namazlarını bir vaxtda qıla bilməz.

**Cavab: Şiənin dəlili Quran ayələrinin "mütləq" olması və mübarək sünnədir. Bundan əlavə, iki namazın bir-birinin ardınca qılınmasının icazəli olduğuna dəlalət edən hədislər mövcuddur. Əhli-sünnə qaynaqlarında da bir sıra hədislər mövcuddur ki, iki namazdan birinin vaxtında iki namazın qılınmasının icazəli olduğuna dəlalət edir.**

**Sual 346:** Bilirik ki, əsr namazının axır vaxtı məğribdir. Zöhr namazının axır vaxtı isə məğribə əsr namazını qılmaq üçün tələb olunan qədər vaxt qaldıqdadır. Bilmək istəyirəm ki, "məğrib" dedikdə, nə nəzərdə tutulur? Günəşin qürub etməsi nəzərdə tutulur, yoxsa hər yerin üfüqünə müvafiq olaraq məğrib azanının deyildiyi vaxtdır?

**Cavab: Əsr namazının vaxtı günəşin qürubuna qədərdir.**

**Sual 347:** Günəşin qürubu ilə məğrib azanı arasında zaman fasiləsi neçə dəqiqədir?

**Cavab: Zahir budur ki, ilin müxtəlif fəsillərində bu zaman fasiləsi fərq edir.**

**Sual 348:** Mən işdən gec çıxıram və gecə saat on birdə evə gəlirəm. Müraciət edənlər çox olduğuna görə işdə məğrib və işa namazlarını qılmağa vaxt tapa bilmirəm. Gecə saat on birdən sonra məğrib və işa namazlarını qılmaq düzgündürmü?

**Cavab: Əgər gecə yarısını keçməzsə, maneəsi yoxdur. Amma səy göstərin ki, gecə saat on birdən sonraya qalmasın. Hətta bacardığınız qədər namazı vaxtın əvvəlində qılmağa çalışın.**

**Sual 349:** Namazın nə qədər hissəsi "əda vaxtı"na (namazın öz vaxtına) düşərsə, "əda niyyəti" etmək düzgündür? Əgər bu hissənin namaz vaxtına düşüb-düşməməsinə şəkk edilərsə, vəzifə nədir?

**Cavab: Namazın bir rəkətinin namaz vaxtına düşməsi, namazın əda hesab olunması üçün kifayət edir. Ən azı bir rəkət üçün vaxt qalıb-qalmadığına şəkk edildiyi təqdirdə isə, namaz "ma fiz-zimmə"[2] niyyəti ilə qılınsın.**

**Sual 350:** İran İslam Respublikasının xaricdəki səfirlikləri və konsulluqları paytaxtların və böyük şəhərlərin şəri vaxtlarını müəyyən etmək üçün şəri vaxt cədvəlləri hazırlayırlar. Sualım budur ki, bu cədvəllərə nə dərəcədə etimad etmək olar?

**Cavab: Namaz vaxtının daxil olduğunun dəqiqləşməsində meyar, mükəlləfdə əminliyin hasil olmasıdır. Əgər bu cədvəllərin həqiqətə müvafiq olduğuna mükəlləfdə əminlik hasil olmazsa, o, ehtiyat etməli və şəri vaxtın daxil olduğuna yəqin edənədək səbir etməlidir.**

**Sual 351:** "Sadiq fəcr" və "kazib fəcr" barəsində sizin nəzəriniz nədir? Namaz qılan şəxsin bu barədə vəzifəsi nədir?

**Cavab: Namaz və oruc vaxtı barəsində şəri meyar, "sadiq fəcr"dir və bunun dəqiqləşməsi mükəlləfin təyininə həvalə olunur.**

**Sual 352:** İkinövbəli orta məktəblərin birində məktəbin rəhbərliyi zöhr və əsrin camaat namazını günorta saat ikidə, yəni ikinci

növbənin dərsləri başlamamışdan bir qədər əvvəl təşkil edir. Namazı namaz vaxtının əvvəlindən təxirə salmalarının səbəbi budur ki, səhər növbəsinin dərsləri şəri zöhr vaxtından qırx beş dəqiqə qabaq bitir və şagirdləri şəri zöhr vaxtına qədər gözlətdirmək çətindir. Namazı namaz vaxtının əvvəlində qılmağın əhəmiyyətini nəzərə alaraq, bu barədə öz nəzərinizi bildirin.

**Cavab: Namaz qılanlar camaat namazında iştirak edə bilsinlər deyə, camaat namazını bir qədər gec təşkil etməyin – məsulların və şagirdlərin məktəbdə olmadıqları nəzərə alınaraq – maneəsi yoxdur.**

**Sual 353:** Zöhr namazı zöhr azanından sonra və əsr namazı əsr namazının vaxtı daxil olduqdan sonra qılınmalıdırmı? Həmçinin məğrib və işa namazlarının hər biri öz vaxtında qılınmalıdırmı?

**Cavab: İki namazın müştərək vaxtı daxil olduqdan sonra mükəlləf iki namazı bir-birinin ardınca, yaxud hər namazı özünün fəzilətli vaxtında qıla bilər.**

**Sual 354:** Günümüzdə saatdan geniş istifadə edildiyinə görə fəcrin doğduğuna (sübh azanının vaxtı olduğuna) yəqin etmək mümkündür. Aylı gecələrdə sübh namazını qılmaq üçün on beş-iyirmi dəqiqə gözləmək lazımdırmı?

**Cavab: Fəcrin doğması – yəni sübh namazının vaxtının olması və oruc tutmaq üçün imsak etməyin vacib olması baxımından aylı gecələr və qeyri gecələr arasında fərq yoxdur. Baxmayaraq ki, bu xüsusda ehtiyat etmək yaxşıdır.**

**Sual 355:** Üfüqləri fərqli olduğuna görə bölgələrin şəri vaxtları arasında yaranan vaxt fərqi sübh, zöhr və məğrib namazlarının vaxtlarında eyni ölçüdə olurmu? Yəni əgər iki bölgənin zöhr vaxtı arasında iyirmi beş dəqiqə fərq vardırsa, başqa namazların vaxtlarında da fərq vardırmı və eyni ölçüdədirmi (yəni vaxt fərqi iyirmi beş dəqiqədirmi)? Yoxsa bu ölçü, sübh və məğrib namazlarının vaxtlarında fərqlidir?

**Cavab: İki bölgənin sübh, yaxud zöhr, yaxud da məğrib vaxtı arasındakı vaxt fərqinin olması, bu vaxt fərqinin digər şəri vaxtlarda eyni ölçüdə olması zərurətini yaratmır. Əksinə, şəhərlərin sübh, zöhr və məğrib vaxtları arasındakı fərq, adətən, müxtəlif olur.**

**Sual 356:** Əhli-sünnə məğrib namazını "şəri məğrib"dən qabaq qılır. Həcc günlərində və qeyri vaxtlarda onlara iqtida edə və həmin namazla kifayətlənə bilərikmi?

**Cavab: Onların vaxt daxil olmamışdan qabaq namaz qıldıqları məlum deyildir. Onların camaat namazında iştirak etmək və onlara iqtida etməyin maneəsi yoxdur, bu namaz kifayət edir. Amma namaz vaxtını qorumaq zəruridir, əlbəttə, vaxtın özünün təqiyyə hallarından olması istisnadır.**

**Sual 357:** Norveçdə və Danimarkada yay fəslində Günəş sübh saat 4-də doğur və gecə saat 11-də qürub edir. "Humrətul-məşriqiyyənin getməsi"nə[3] və "beynut-tulueyn"ə[4] riayət etdikdə təxminən 22 saat oruc tutmaq lazımdır. Namaz və oruc barəsində mənim vəzifəm nədir?

**Cavab: Gündəlik namazların vaxtı, həmçinin oruc barəsində mükəlləf öz yaşadığı yerin üfüqünə riayət etməlidir. Amma əgər gündüz uzun olduğuna görə oruc tutmağa gücü çatmazsa və ya oruc tutmağın böyük çətinliyi olarsa, orucu öz vaxtında tutmaq vəzifəsi mükəlləfin üzərindən götürülür və orucun qəzası ona vacib olur.**

**Sual 358:** Günəşin işığı Yerə təxminən yeddi dəqiqəyə çatır. Sübn namazının vaxtının başa çatmasında meyar, Günəşin doğmasıdırmı, yoxsa Günəşin işığının Yerə çatması?

**Cavab: Meyar, Günəşin doğması və namaz qılan şəxsin öz yaşadığı yerdə Günəşi**

görməsidir.

**Sual 359:** İnformasiya vasitələri hər günün şəri vaxtlarını öncəki gün elan edirlər. Bu məlumata etimad etmək və radio və televiziyadan azan yayımlandıqdan sonra namaz vaxtının daxil olduğuna hökm etmək olarmı?

**Cavab: Əgər sözügedən vasitə ilə namaz vaxtının daxil olduğuna mükəlləfdə yəqinlik hasil olarsa, bu məlumata etimad edə bilər.**

**Sual 360:** Azan deyilməyə başladıqda namaz vaxtı başlanırmı? Yoxsa azanın tamamlanmasını gözləmək, sonra namaz qılmaq lazımdır? Oruc tutmuş şəxs azan deyilməyə başladıqda iftar edə bilərmi, yoxsa azanın tamamlanmasını gözləməlidir?

**Cavab: Əgər yəqinlik hasil olsa ki, azan namaz vaxtı daxil olduqda verilməyə başlamışdır, azanın tamamlanmasını gözləmək lazım deyildir.**

**Sual 361:** İkinci namazı birincidən qabaq, məsələn, işa namazını məğrib namazından qabaq qılan şəxsin namazı düzgündürmü?

**Cavab: Əgər səhvən və ya unutqanlıq üzündən ikinci namazı birinci namazdan qabaq qılarsa və namaz tamamlandıqdan sonra bunu başa düşərsə, onun namazı düzgündür. Amma əgər bilərəkdən olarsa, namaz düzgün deyildir.**

**Sual 362:** Əvvəla salam. Mübarək ramazan ayına az qalır. Şəhərlərin genişləndiyini və fəcrin doğduğu anı dəqiqliklə müəyyən etməyin qeyri-mümkün olduğunu nəzərə alaraq, xahiş edirəm ki, oruc üçün imsak etmək və sübh namazını qılmağın vaxtı barəsində öz nəzərinizi bildirəsiniz.

**Cavab: Yaxşı olar ki, hörmətli möminlər (Allah onlara kömək olsun) oruc üçün imsak etmək və sübh namazını qılmağın vaxtı barəsində ehtiyata riayət etmək məqsədilə, kütləvi informasiya vasitələrində azan deyilməyə başlayanda oruc üçün imsak etsinlər, amma azan deyilməyə başlayandan təxminən on dəqiqə sonra sübh namazını qılsınlar.**

**Sual 363:** Əsr namazının vaxtı məğrib azanına qədərdir, yoxsa Günəşin qürub etdiyi vaxta qədərdir? İşa namazı, həmçinin minada gecələmək üçün "şəri gecə yarısı" hansı vaxtdır?

**Cavab: Əsr namazının vaxtı Günəşin qürubuna qədərdir. Gecə yarısını hesablamaq üçün gecə, "qürub"un əvvəlindən "fəcr doğana" qədər (sübh namazının şəri vaxtı daxil olanadək) hesab edilir.**

**Sual 364:** Əgər bir şəxs əsr namazını qıldığı əsnada zöhr namazını qılmadığını başa düşsə, vəzifəsi nədir?

**Cavab: Əgər o, zöhr namazını qıldığını düşünüb, əsr namazının niyyətilə namaza başlayıbsa və namaz əsnasında zöhr namazını qılmadığını başa düşübsə, zöhr və əsr namazlarının müştərək vaxtı olduğu təqdirdə, o öz niyyətini dərhal zöhr namazına dəyişməli və namazı tamamlamalıdır. Daha sonra əsr namazını qılmalıdır.**
**Əgər bu hal zöhr namazının "xüsusi vaxtı"nda[5] qarşıya çıxarsa, ehtiyat-vacibə görə, niyyəti zöhr namazına dəyişməli və namazı tamamlamalıdır. Amma sonra hər iki namazı (zöhr və əsr namazlarını) ardıcıllıqla qılmalıdır.**
**Bu hökm məğrib və işa namazlarına da aiddir, amma bu şərtlə ki, mükəlləf hələ dördüncü rəkətin rükusuna getməmişdir. Əgər o, dördüncü rəkətin rükusuna getmiş olsa, ehtiyata görə, namazı tamamlamalı, sonra isə məğrib və işa namazlarını ardıcıllıqla qılmalıdır.**

[1] Məmum – namazda imam-camaata iqtida edən şəxsə deyilir.

[2] Mükəlləfin boynunda olan vəzifədir, baxmayaraq ki, mükəlləf bu vəzifənin nədən ibarət olduğunu bilmir.

[3] Humrətul-məşriqiyyə - günəş doğmamışdan qabaq və qürub zamanı şərq tərəfdə üfüqdə yaranan qırmızılığa deyilir.

[4] Beynut-tulueyn – sadiq fəcrin doğması ilə günəşin doğması arasındakı zaman fasiləsidir.

[5] Zöhr namazının xüsusi vaxtı şəri zöhrün əvvəlindən zöhr namazını – müsafir olmayan şəxs üçün dörd rəkət, müsafir olan şəxs üçün isə iki rəkət – qılmaq ölçüsündə olan vaxtı əhatə edir.

## Qiblə

**Sual 365:** **Xahiş edirik, aşağıdakı sualları cavablandırın:**
**1) Bəzi fiqh kitablarında qeyd olunub ki, may ayının 28-i və iyul ayının 16-ı Günəş Kəbənin üstündə şaquli vəziyyətdə saçır. Bu günlərdə Məkkənin azan səsi ucaldığı bir vaxtda yerə şaxis[1] sancaraq qiblənin istiqamətini təyin etmək mümkündürmü? Əgər məscidlərin mehrabında qiblənin istiqaməti ilə şaxisin kölgəsinin istiqaməti arasında fərq olarsa, hansı biri daha düzgündür?**
**2) Qiblənümaya etimad etmək düzgündürmü?**

**Cavab: Mükəlləfdə əminliyin yaranmasına səbəb olduğu təqdirdə, onun şaxis və qiblənümaya etimad etməsi düzgündür və buna müvafiq olaraq əməl etməlidir. Əks təqdirdə isə, mükəlləf hansı istiqamətin qiblə olduğuna daha çox güman edirsə, o istiqamətə namaz qılmalıdır. Məsələn, bu güman məscidlərin mehrabına əsaslanmaq nəticəsində yarana bilər.**

**Sual 366:** **Əgər qızğın döyüş qiblə istiqamətini təyin etmək üçün əngəl olarsa, hər tərəfə namaz qılmaq düzgündürmü?**

**Cavab: Əgər döyüşçü heç bir tərəfi qiblə təxmin edə bilməsə və vaxt olsa, ehtiyata görə, dörd tərəfə namaz qılmalıdır. Amma əgər vaxt olmasa, vaxt çatdığı qədər qiblə olduğuna ehtimal verdiyi tərəflərə namaz qılmalıdır.**

**Sual 367:** **Əgər Yerin o biri tərəfində Kəbə ilə üzbəüz olan məntəqə məlum olsa - belə ki, əgər düz xətt Kəbənin yerləşdiyi məntəqədən Yerin mərkəzi ilə keçərək o biri tərəfindən çıxsa və həmin məntəqə Kəbə ilə üzbəüz məntəqə olsa - burada üzü qibləyə necə dayanmaq olar?**

**Cavab: Üzü qibləyə dayanmağın meyarı, insanın Yer kürəsinin səthində üzü Kəbəyə tərəf - Məkkədə yerləşən Allah evinə tərəf - dayanmasıdır. Beləliklə, əgər insanın sakin olduğu məntəqənin dörd bir tərəfindən xəyali düz xətlər Yer kürəsinin səthi ilə Məkkəyə tərəf çəkilərsə və uzunluq baxımından bu xətlər bir-birinə bərabər olarsa, insan qiblə üçün istədiyi tərəfə dayana və namaz qıla bilər. Amma əgər bu xətlərin uzunluğu bəzi istiqamətlərdə az və daha qısa olarsa – belə ki, bu xətlərin uzunluqları arasındakı fərq, ürfdə “üzü qibləyə” deyilməsi baxımından ixtilafa səbəb olarsa - insana daha qısa istiqaməti seçmək vacibdir.**

**Sual 368:** **Əgər insan elə bir vəziyyətdə olsa ki, heç bir vəchlə qiblə istiqamətini təyin edə bilmir və heç bir tərəfi qiblə təxmin edə bilmir, namaz barəsində onun vəzifəsi nədir? Yəni o, hansı istiqamətə namaz qılmalıdır?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, ehtiyata görə, dörd tərəfə namaz qılmalıdır. Əgər dörd namaz üçün vaxt olmasa, vaxt çatdığı qədər namaz qılmalıdır.**

**Sual 369:** **Şimal və cənub qütblərində qiblə necə təyin edilir və namaz necə qılınır?**

**Cavab: Şimal və cənub qütblərində qiblə istiqamətini təyin etmək üçün namaz qılan şəxsin yaşadığı məntəqədən Yerin səthi ilə Kəbəyə tərəf uzanan ən qısa xəyali xətt təyin edilməlidir. Bu xətt təyin edildikdən sonra həmin tərəfə namaz qılmaq lazımdır.**

---

[1] Zöhr vaxtını təyin etmək üçün yerə sancılan mil və ya bu kimi bir şey.

## Namaz qılınan məkan

**Sual 370:** Zalım dövlətin qəsb etdiyi məkanlarda əyləşməyə, namaz qılmağa və ya bu yerlərdən keçib getməyə icazə verilirmi?

**Cavab: Qəsb edildiyi məlum olduğu təqdirdə, qəsbi şeyin şəri hökmləri həmin yerə aid olur.**

**Sual 371:** Əvvəllər vəqfi olan və sonralar dövlətin sahiblənərək məktəb tikdirdiyi bir məkanda namaz qılmağın hökmü nədir?

**Cavab: Əgər ciddi bir ehtimal verilsə ki, sözügedən sahiblənmə şəri icazə ilə olubdur, həmin məkanda namaz qılmağın maneəsi yoxdur.**

**Sual 372:** Mən bir neçə məktəbdə camaat namazı qılıram. Bu məktəblərdən bəzilərinin torpaq sahəsi sahibinin razılığı olmadan onlardan alınıbdır. Mənim və şagirdlərin bu məkəblərdə namaz qılmağımızın hökmü nədir?

**Cavab: Əgər ciddi bir ehtimal verilsə ki, aidiyyatı qurum qanuni və şəri icazə əsasında bu ərazilərdə məktəblər tikmişdir, orada namaz qılmağın maneəsi yoxdur.**

**Sual 373:** Əgər bir şəxs xüms düşən bir səccadənin üstündə və ya xüms düşən bir paltarda bir müddət namaz qılıbdırsa, onun namazlarının hökmü nədir?

**Cavab: İndyədək bu səccadədə və ya paltarda qıldığı namazlar düzgündür.**

**Sual 374:** Deyirlər ki, namazda kişilər qadınlardan qabaqda dayanmalıdır. Bu söz düzdürmü?

**Cavab: Ehtiyat-vacibə görə, namazda kişi ilə qadın arasında ən azı bir qarış fasilə olmalıdır. Bu halda əgər qadın və kişi paralel dayansalar, yaxud qadın kişidən qabaqda dayansa, hər ikisinin namazı düzgündür.**

**Sual 375:** Məscidlərin daxilində İmam Xomeyninin (r.ə) və İslam İnqilabı şəhidlərinin şəkillərini vurmağın hökmü nədir? Qeyd etməliyik ki, İmam Xomeyninin (r.ə) özü onun şəklinin məscidlərdə vurulmasını istəmədiyini bildiribmiş və ümumiyyətlə, bu işin məkruh olduğuna dair kəlamlar vardır.

**Cavab: Maneəsi yoxdur. Amma əgər şəbistanda[1] olsa, yaxşı olar ki, namaz vaxtı şəklin üstü hansısa bir yol ilə örtülsün.**

**Sual 376:** Bir şəxs dövlət balansında olan bir evdə yaşayırmış. Onun bu evdə yaşamaq müddəti başa çatmışdır və evin boşaldılmasına dair qərar ona çatdırılmışdır. Evin boşaldılması üçün verilən müddət başa çatdıqdan sonra bu evdə onun namaz və orucunun hökmü nədir?

**Cavab: Əgər evin boşaldılması üçün verilən müddət başa çatdıqdan sonra aidiyyatı qurum bu şəxsin bu evdən istifadə etməsinə icazə verməyibsə, onun bu evdən istifadəsi qəsb hökmündədir.**

**Sual 377:** Üstü şəkilli səccadədə və ya möhürdə namaz qılmaq məkruhdurmu?

**Cavab: Öz-özlüyündə maneəsi yoxdur. Amma əgər şiəyə töhmət vuran fərdlərin əlinə bəhanə verəcək bir tərzdə olarsa, onları istehsal etməyə və onlarda namaz qılmağa icazə verilmir. Həmçinin əgər namazda diqqətin yayınmasına və hüzuri-qəlbin aradan getməsinə səbəb olarsa, məkruhdur.**

**Sual 378:** Əgər namaz qılan şəxsin məkanı pak olmazsa, amma səcdə yeri pak olarsa, namaz düzgündürmü?

**Cavab: Əgər namaz qılan şəxsin məkanının napaklığı onun paltarına və ya bədəninə sirayət etməzsə və səcdə yeri də pak olarsa, həmin yerdə namaz qılmağın maneəsi yoxdur.**

**Sual 379:** Mənim hal-hazırda işlədiyim idarənin binasının yerləşdiyi ərazi keçmişdə qəbiristanlıq olub. Bu qəbiristanlıq qırx il öncə tərk edilib və otuz il öncə bu bina burada inşa edilib. Hal-hazırda idarənin ətrafındakı bütün ərazilərdə binalar tikilib və qəbiristanlıqdan əsər-əlamət qalmayıb. Deyilənləri nəzərə alaraq, idarə işçilərinin bu idarədə namaz qılmaları şəri baxımdan düzgündürmü, yoxsa yox?

**Cavab: Bu idarədə namaz qılmağın və digər istifadələrin maneəsi yoxur. Amma əgər şəri yol ilə sübut olunsa ki, sözügedən binanın inşa edildiyi ərazi ölülərin dəfni üçün vəqf edilibmiş və bu torpaqlara qeyri-şəri yol ilə yiyələnərək orada binalar inşa edilibdir, oradan istifadə etməyin maneəsi vardır.**

**Sual 380:** Mömin gənclər qərara alıblar ki, "əmr bil-məruf" (yaxşı işlərə dəvət) məqsədilə həftədə bir-iki dəfə namazı parklarda qılsınlar. Amma bəziləri belə bir irad bildirirlər ki, parkların ərazisinin malikiyyəti məlum deyildir. Orada namaz qılmağın hökmü nədir?

**Cavab: İndiki parklarda və bu kimi başqa yerlərdə namaz qılmağın maneəsi yoxdur və bu ərazilərin qəsbi olma ehtimalına etina olunmur.**

**Sual 381:** Bu şəhərin məktəblərindən birinin ərazisi bir şəxsin mülküdür. Şəhərin xəritəsinə görə, bu ərazidə park salınmalı idi. Amma böyük ehtiyac olduğuna görə və aidiyyatı qurumların razılığı ilə bu ərazidə məktəb tikilməsi planlaşdırıldı. Bu torpaqların sahibi dövlətin bu torpaqlara sahiblənməsinə razı olmadığını və burada namaz qılınmasına və bu kimi işlərə razılıq vermədiyini bildirdiyini nəzərə alaraq, bu məkanda namaz qılmaq barədə öz nəzərinizi bildirərdiniz.

**Cavab: Əgər bu torpaq sahəsi onun şəri malikindən İslam Şura Məclisinin qoyduğu və Nigəhban Şurasının təsdiqlədiyi qanun əsasında alınıbsa, orada namaz qılmağın və başqa istifadələrin maneəsi yoxdur.**

**Sual 382:** Bizim şəhərdə iki qonşu məscid vardır ki, aralarındakı divar onları bir-birindən ayırır. Bir müddət əvvəl bir neçə mömin bəndə iki məscidi bir-birinə birləşdirmək üçün onların arasındakı divarın böyük hissəsini uçurtdular. Bu iş, bəzilərində bu iki məsciddə namaz qılmaq barəsində şübhə yaratdı və indi də bu şübhə onların zehnindədir. Xahiş edirəm, bu problemin həll yolunu açıqlayardınız.

**Cavab: İki məscid arasındakı divarı götürmək, bu iki məsciddə namaz qılmaq barəsində maneənin yaranmasına səbəb olmur.**

**Sual 383:** Şəhərlər arası böyük yollardakı restoranların kənarında namaz qılmaq üçün məkanlar olur. Əgər bir şəxs həmin restoranda yemək yemirsə, həmin məkanda namaz qıla bilərmi? Yoxsa əvvəlcə icazə almalıdır?

**Cavab: Əgər ehtimal versə ki, namazxana restoran sahibinin mülküdür və oradan yalnız həmin restoranda yemək yeyənlər istifadə edə bilərlər, onda icazə almalıdır.**

**Sual 384:** Qəsbi məkanda səccadənin və ya taxta parçası və bu kimi şeylərin üstündə namaz qılan şəxsin namazı düzgündürmü, yoxsa yox?

**Cavab: Qəsbi məkanda qılınan namaz düzgün deyildir, baxmayaraq ki, səccadə və ya taxta parçası üstündə qılınıbdır.**

**Sual 385:** Hal-hazırda dövlətin balansında olan bəzi şirkətlər və müəssisələrin bəzi işçiləri burada təşkil edilən camaat

**namazında iştirak etmirlər. Dəlilləri də budur ki, bu ərazilər onların sahiblərindən şəri məhkəmə vasitəsilə müsadirə edilibdir. Xahiş edirəm, bu barədə öz nəzərinizi bildirin.**

**Cavab: Əgər müsadirə hökmünü çıxaran hakimin öz qanuni səlahiyyətləri çərçivəsində, habelə, şəri və qanuni meyarlar əsasında hökm çıxardığı ehtimal verilirsə, bu hakimin əməli şəri baxımdan düzgündür. Buna görə də, bu məkanlardan istifadə edilə bilər və qəsb hökmü ona aid olmur.**

**Sual 386:** **Əgər məscid hüseyniyyənin kənarında olsa, camaat namazını hüseyniyyədə qılmaq düzgündürmü? Hər ikisində namazın savabı eynidirmi?**

**Cavab: Şübhə yoxdur ki, məsciddə namaz qılmağın fəziləti qeyri-məsciddə namaz qılmağın fəzilətindən çoxdur. Amma camaat namazını hüseyniyyədə və ya hansısa başqa bir məkanda qılmağın öz-özlüyündə şəri maneəsi yoxdur.**

**Sual 387:** **Haram musiqi yayımlanan məkanda namaz qılmaq düzgündürmü, yoxsa yox?**

**Cavab: Əgər həmin məkanda namaz qılmaq haram musiqini dinləməyə səbəb olacaqsa, orada dayanmağa icazə verilmir, amma namaz düzgündür. Əgər musiqi diqqətin yayınmasına səbəb olacaqsa, həmin məkanda namaz qılmaq məkruhdur.**

**Sual 388:** **Əgər qayıqla məmuriyyətə göndərilən şəxslərin namazlarının vaxtı çatsa və həmin vaxt namazlarını qılmasalar, sonra namazı öz vaxtında qıla bilməyəcəklərsə, onların namazının hökmü nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, namazı öz vaxtında mümkün olduğu hər şəkildə, hətta həmin qayığın daxilində belə, qılmaları vacibdir.**

---

[1] Şəbistan – böyük məscidlərin üstü tavanlı və kənarları örtülü hissələridir. Oxşar və bir-birinə paralel sütunlara malikdir və bir tərəfi məscidin daxilinə açılır. Şəbistan, qədim memarlıqda məscid binasının o hissəsi idi ki, insanlar orada ibadət edir və gecələr isə orada yatırdılar.

## Məscidin hökmləri

**Sual 389:** **Namazı məhəllə məscidində qılmağın müstəhəb olduğunu nəzərə alaraq, camaat namazı qılmaq üçün məhəllə məscidini boş qoyub, şəhərin cami məscidinə getməyin maneəsi varmı, yoxsa yox?**

**Cavab: Əgər insan başqa bir məsciddə, xüsusilə də, şəhərin cami məscidində camaat namazı qılmaq üçün məhəllə məscidini boş qoyubsa, maneəsi yoxdur.**

**Sual 390:** **Əgər məscidi tikənlər onu özləri və öz qəbilələləri üçün tikdiklərini iddia edirlərsə, bu məsciddə namaz qılmağın hökmü nədir?**

**Cavab: Məscid ünvanında tikildikdən sonra bu məscid müəyyən qövmə, dəstəyə, qəbiləyə və şəxslərə aid olmur, bütün müsəlmanlar ondan istifadə edə bilərlər.**

**Sual 391:** **Qadınlar məsciddə namaz qılsalar daha yaxşıdır, yoxsa evdə?**

**Cavab: Məsciddə namaz qılmağın fəziləti (üstünlüyü) təkcə kişilərə aid deyildir.**

**Sual 392:** **Hal-hazırda Səfa və Mərvə arasında yürüş məkanı ilə Məscidul-həram arasında alçaq bir divar – hündürlüyü yarım metr və eni bir metr olan divar - mövcuddur. Bu divar, Məscidul-həram və yürüş məkanı arasında müştərəkdir. Heyzli qadınların Məscidul-hərama daxil olmalarının qadağan olduğunu nəzərə alaraq, heyzli qadınlar bu divarın üstündə otura bilərlərmi?**

**Cavab: Maneəsi yoxdur. Amma əgər bu divarın Məscidin bir hissəsi olduğuna yəqinlik hasil olarsa, maneəsi vardır.**

**Sual 393:** **Məhəllə məscidində idman məşqləri etmək və ya orada yatmaq olarmı? Bu işləri başqa məscidlərdə etməyin hökmü nədir?**

**Cavab: Məscid idman etmək yeri deyildir və məscidin şəninə zidd olan işlərdən çəkinmək lazımdır. Məsciddə yatmaq isə məkruhdur.**

**Sual 394:** **Məscidin şəbistanından[1] gənclərə elmi-mədəni və hərbi təlimlərin keçirilməsi məqsədilə istifadə etmək olarmı? Bu məqsədlər üçün ayrılan məkanların yetərli qədər olmadığını nəzərə alaraq, bu işləri məscidin eyvanında yerinə yetirmək olarmı?**

**Cavab: Əgər tədris kurslarının təşkil olunması və bu kimi işlər məscidin şəninə zidd olmazsa, həmçinin camaat namazının təşkil olunmasına və namaz qılanlara maneəçilik törətməzsə, bunun maneəsi yoxdur.**

**Sual 395:** **Bəzi məntəqələrdə, xüsusilə də, kəndlərdə toy məclisini məscidlərdə keçirirlər. Belə ki, oxuyub-oynamaq məclisi evdə təşkil olunur, amma nahar və ya şam yeməyi məsciddə verilir. Bu işə şəri baxımdan icazə verilirmi, yoxsa yox?**

**Cavab: Dəvət olunan qonaqlara məsciddə yemək verməyin öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 396:** **Kooperativ şirkətlər yaşayış massivləri tikir. Bu massivlərdə məscid və bu kimi ümumi məkanların tikilməsi barəsində əvvəldə razılıq əldə olunur. Yaşayış mənzilləri kooperativ şirkətin səhmdarlarına təhvil verildiyi bir vaxtda bu səhmdarlardan bəziləri yaşayış mənzilini təhvil alarkən əvvəldə verdikləri razılıqdan dönə və "biz məscidin tikilməsinə razı deyilik" deyə bilərlərmi?**

**Cavab: Əgər şirkət bütün səhmdarların razılığı ilə məscidi tikibsə və məscid də tikilib vəqf edilibsə, bəzi səhmdarların əvvəldə verdikləri razılıqdan dönmələrinin heç bir təsiri yoxdur.**

Amma əgər məscidin şəri vəqfi gerçəkləşməmişdən qabaq onlardan bəziləri öz razılıqlarından dönsələr, bütün səhmdarlara aid olan torpaq sahəsində onların əmlakı ilə onların razılığı olmadan məscid tikməyə icazə verilmir. Amma əgər “lazım əqd”[2] əsnasında onların hamısı qarşısında şərt qoyulmuş olsa ki, şirkətin torpağının bir hissəsi məscidin tikintisinə aiddir və onlar da bu şərti qəbul etmişdirlərsə, bu təqdirdə öz razılıqlarından dönmək haqları yoxdur və öz razılıqlarından dönmələrinin də bir təsiri yoxdur.

**Sual 397:** **Qeyri-islam mədəniyyətin basqısına qarşı mübarizə aparmaq məqsədilə “ilahi nəğmələr qrupu” təşkil edərək, ibtidai və orta sinif şagirdlərindən təxminən otuz nəfəri məscidə toplamışıq. Onlar öz səviyyələrinə uyğun şəkildə Qurani-Kərim, əhkam və əxlaq dərslərini öyrənirlər. Bu işi görməyin hökmü nədir? Bu qrup musiqi aləti olan sintizatordan istifadə edə bilərmi və bunun hökmü nədir? Şəri qaydalara, habelə, İran İslam Respublikasının “Media və Yayım şirkəti”nin və Mədəniyyət nazirliyinin qanunlarına riayət edərək, məsciddə bu musiqi aləti ilə ifaları məşq etməyin hökmü nədir?**

Cavab: Məsciddə Quran, əhkam və İslam əxlaqını təlim etməyin, həmçinin ilahi nəğmələr və marşlar ifa etməyin maneəsi yoxdur. Amma hər halda məscidin şənini, müqəddəsliyini və məqamını qorumaq vacibdir. Məscidin şəninə və məqamına zidd olan işlərdən çəkinmək lazımdır. Namaz qılanlara da maneəçilik törətmək olmaz.

**Sual 398:** **İran İslam Respublikasının Mədəniyyət nazirliyinin istehsal etdiyi kinofilmləri məsciddə Quran kurslarında iştirak edənlər üçün nümayiş etdirməyin şəri maneəsi vardırmı, yoxsa yox?**

Cavab: Məscidi kinofilmlərin nümayiş etdirildiyi məkana çevirmək olmaz. Amma müəyyən münasibətlərlə əlaqədar və ehtiyac olduğu halda, habelə, məscidin imam-camaatının nəzarəti altında faydalı və tərbiyəvi məzmuna malik dini və inqilabi kinofilmləri nümayiş etdirməyin maneəsi yoxdur.

**Sual 399:** **Məsum İmamların (ə) mövludu münasibətilə məsciddən şən nəğmələrin yayımlanmasının şəri baxımdan maneəsi vardırmı?**

Cavab: Aydın məsələdir ki, məscidin xüsusi şəri mövqeyi vardır. Odur ki, əgər məsciddən musiqinin yayımlanması onun hörmətinə zidd olarsa, haramdır, hətta əgər musiqi qeyri-ləhvi (yəni eyş-işrət məclislərinə uyğun olmayan musiqi) olsa belə.

**Sual 400:** **Məscidin səsucaldanlarından - səsi məsciddən kənarda yayımlayan səsucaldanlardan - hansı vaxtadək istifadə etmək olar? Azandan qabaq inqilabi nəğmələri və ya Qurani-Kərimin qiraətini yayımlamağın hökmü nədir?**

Cavab: Qonşuların və məhəllə sakinlərinin narahatçılığına səbəb olmayan vaxtlarda - azandan bir neçə dəqiqə qabaq Qurani-Kərimin qiraətini yayımlamağın maneəsi yoxdur.

**Sual 401:** **Cami məscid hansı məscidə deyilir?**

Cavab: Cami məscid, hansısa bir dəstəyə və təbəqəyə aid olmayan və bütün şəhər əhalisinin toplaşması üçün şəhərdə tikilən bir məsciddir.

**Sual 402:** **Bir məscidin tavanlı bir hissəsi təxminən otuz ildir ki, tərk edilib və xarabalığa çevrilibdir, orada artıq namaz qılınmır. Oranın bir tərəfindən anbar kimi istifadə edilir. Könüllülər dəstəsi təxminən on beş ildir ki, məscidin bu hissəsində yerləşiblər. Onlar burada müəyyən təmir işləri aparıblar. Çünki olduqca əlverişsiz şəraitdə idi və tavan da uçmaq üzrə idi. Könüllülər dəstəsinin üzvü olan qardaşlar məscidin şəri hökmlərini bilmədiklərinə və bilən şəxslər də onları**

**məlumatlandırmadığına görə onlar məscidin bu hissəsində bir neçə otaq tikiblər. Bu işə xeyli pul xərcləyiblər və hal-hazırda tikinti işləri bitmək üzrədir. Xahiş edirəm, aşağıdakı halların şəri hökmünü açıqlayın:**
**1) Bu işi görənlərin və bu işə nəzarət edənlərin şəri hökmü bilmədiklərini nəzərə alaraq, onlar beytülmaldan xərclənən məbləğə zamindirlərmi? Onlar günah işlədiblərmi?**
**2) Çəkilən xərclərin beytülmaldan olduğunu nəzərə alaraq, icazə verirsinizmi ki, məscidin bu hissəsinə ehtiyac olmayanadək və orada namaz qılınmayanadək bu otaqlardan məscidin şəri hökmlərinə tam riayət edərək təlim işləri üçün, məsələn, Qurani-Kərimin, şəri hökmlərin təlimi, həmçinin məscidin digər işləri üçün istifadə edilsin? Otaqları uçurtmaq vacibdirmi?**

**Cavab: Məscidin tavanlı hissəsində tikilən otaqları uçurub məscidi əvvəlki vəziyyətinə gətirmək vacibdir. Əgər otaqları tikmək və bu işə vəsait xərcləmək bilərəkdən həddi aşmaq və məsuliyyətsizlik üzündən olmayıbsa, bu xərclərə kiminsə zamin olması məlum deyildir. Məscidin tavanlı hissəsindən Qurani-Kərimin, şəri hökmlərin və dini maarifin təlimi, həmçinin dini mərasimlərin təşkili üçün istifadə edilməsi, namaz qılanlara maneçilik yaratmadığı və məscidin imam-camaatının nəzarəti altında olduğu təqdirdə, maneəsi yoxdur. Könüllülər dəstəsinin məsciddə davamlı iştirak etmələri, həmçinin namaz və bu kimi ibadi vəzifələrin yerinə yetirilməsində əngəl yaranmaması üçün imam-camaat, könüllülər dəstəsi və məscidin digər məsulları əməkdaşlıq etməlidirlər.**

**Sual 403:** **Prospektlərdən birinin genişləndirilməsi layihəsində bir neçə məscid plana düşür. Nəqliyyat vasitələrinin hərəkətinin asanlaşması üçün bu məscidlərdən bir neçəsi bütünlüklə, digərlərinin isə bəzi hissələri sökülməlidir. Xahiş edirəm, bu barədə öz nəzərinizi açıqlayın.**

**Cavab: Məscidi bütünlüklə sökməyə və ya məscidin bir hissəsini sökməyə icazə verilmir. Amma əgər ortada elə bir fayda və xeyir olsa ki, ona əhəmiyyət verməmək və etina etməmək mümkün deyildir, bu təqdirdə icazə verilir.**

**Sual 404:** **Məscidin suyundan şəxsi ehtiyac üçün az miqdarda istifadə etmək olarmı? Məsələn, mağazaçılar bu sudan içmək və çay hazırlamaq, yaxud maşına tökmək üçün istifadə edə bilərlərmi? Nəzərə almalıyıq ki, məscidin bu işlərə qadağa qoyan xüsusi bir vəqf edəni yoxdur.**

**Cavab: Əgər suyun yalnız namaz qılanların dəstəmaz almaları üçün vəqf edildiyi məlum olmazsa və məscidin məhəlləsində qayda belə olsa ki, qonşular və məhəllədən keçib gedənlər də onun suyundan istifadə edirlərsə, bu halda maneəsi yoxdur. Baxmayaraq ki, bu xüsusda ehtiyat etmək bəyənilir.**

**Sual 405:** **Bir qəbiristanlığın qonşuluğunda bir məscid vardır. Qəbir əhlini ziyarət edən bəzi möminlər məscidin suyundan öz mərhumlarının qəbirləri üstünə su tökmək üçün istifadə edirlər. Biz bu suyun ümumi olduğunu, yoxsa xüsusilə məscidə vəqf edildiyini bilmirik. Xüsusilə məscidə vəqf edilmədiyi fərz edilsə belə, dəstəmaz almağa və ayaqyoluna getməyə məxsus olub-olmadığı məlum deyildir. Bu sudan sözügedən məqsəd üçün istifadə etmək olarmı?**

**Cavab: Əgər qəbirlərin üstünə su tökmək üçün məscidin suyundan istifadə etmək bir adət halındadırsa və kimsə buna etiraz etmirsə, habelə, bu suyun xüsusilə dəstəmaz və təharət işləri üçün vəqf edildiyinə dair bir dəlil-sübut yoxdursa, bu sudan sözügedən məqsəd üçün istifadə etməyin maneəsi yoxdur.**

**Sual 406:** **Əgər məscidin təmirə ehtiyacı varsa, bu işi görmək üçün şəri-hakimdən və ya onun vəkilindən (nümayəndəsindən) icazə almaq vacibdirmi?**

**Cavab: Əgər təmir könüllü şəkildə və xeyriyyəçilik məqsədilə olarsa, şəri-hakimin icazəsinə**

ehtiyac yoxdur.

**Sual 407:** Mən məhəllə məscidində dəfn olunmağımı vəsiyyət edə bilərəmmi? Mən bu məscid üçün çox zəhmət çəkmişəm və buna görə də, məscidin daxilində və ya həyatində dəfn olunmaq istəyirəm?

**Cavab: Əgər "vəqf cümlələri" oxunarkən "meyit dəfni" istisna edilməyibsə, məsciddə meyit dəfninə icazə verilmir. Sizin bu barədə olan vəsiyyətinizin əhəmiyyəti yoxdur.**

**Sual 408:** Bir məscid təxminən iyirmi il bundan qabaq tikilib və ona "İmam Zaman (ə.f) məscidi" adı verilib. Amma bu adın "vəqf cümlələri"ndə qeyd olunduğu məlum deyildir. Məscidin adını dəyişib, "Cami məscidi" qoymağın hökmü nədir?

**Cavab: Məscidin sadəcə adını dəyişməyin bir maneəsi yoxdur.**

**Sual 409:** Bir məscid möminlərin xeyriyyəçilik məqsədilə verdikləri vəsait və məscidə aid nəzirlər hesabına işıqlandırma və havalandırma sistemi ilə təchiz olunubdur. Məhəllə sakinlərindən kimsə vəfat edəndə, məsciddə onun üçün yas məclisi qurulur və məscidin işıqlarından və havalandırma sistemindən istifadə edilir. Yas məclisinin sahibi bu xidmətlərin xərcini vermir. Şəri baxımdan buna icazə verilirmi?

**Cavab: Yas məclislərində və bu kimi məclislərdə məscidin imkanlarından istifadə etmək məsələsi, bu imkanların məscid üçün hansı şəkildə vəqf və nəzir edildiyinə bağlıdır.**

**Sual 410:** Bir kənddə yeni tikilən bir məscid vardır ki, əvvəlki məscidin yerində tikilibdir. Bu məscidin bir hissəsində - belə ki, bu hissənin yeri əvvəlki məscidin yerinə daxildir – şəri hökmü bilməmək üzündən çay hazırlamaq və bu kimi işlər üçün bir otaq tikilibdir. Həmçinin məscidin şəbistanının bir hissəsində yarım mərtəbədə bir kitabxana qurulub. Xahiş edirəm, bu barədə öz nəzərinizi bildirin.

**Cavab: Əvvəlki məscidə aid olan yerdə çay hazırlamaq üçün otaq tikmək düzgün deyildir və bu yerin məscid halına gətirilməsi vacibdir. Məscidin şəbistanındakı yarım mərtəbə də məscid hökmündədir və məscidin şəri hökmlərini daşıyır. Amma orada kitab rəfləri qoymaq və mütaliə etməyə gəlincə, əgər namaz qılanlara maneçilik törətməzsə, maneəsi yoxdur.**

**Sual 411:** Aşağıdakı məsələ barədə sizin nəzəriniz nədir?
Kəndlərin birində uçulub-dağılmaq üzrə olan bir məscid vardır. Amma onu sökmək üçün heç bir səbəb yoxdur, çünki yolu da kəsmir. Bu məscidi tamamilə sökmək olarmı? Həmçinin bu məscidin bir qədər əşyası vardır. Bunlar kimə verilməlidir?

**Cavab: Məscidi sökmək və uçurmaq olmaz. Ümumiyyətlə, məscidi sökmək onu məscid olmaqdan xaric etmir. Məscidin əşyaları əgər həmin məsciddə istifadə edilmirsə, istifadə edilməsi üçün onları başqa məscidlərə aparmağın maneəsi yoxdur.**

**Sual 412:** Məscidin binasına müdaxilə etmədən şəbistanının bir tərəfində muzey düzəltməyə şəri baxımdan icazə verilirmi? Necə ki, hal-hazırda kitabxana məscidin bir tərəfində düzəldilir.

**Cavab: Əgər şəbistanın bir tərəfində muzey və ya kitabxana düzəltmək şəbistanın vəqfinə zidd olarsa və ya məscid binasının dəyişməsinə səbəb olarsa, bu işə icazə verilmir. Yaxşı olar ki, bu məqsədlər üçün məscidin kənarında bir yer təşkil olunsun.**

**Sual 413:** Vəqfi bir yerdə məscid, dini elmlər mədrəsəsi və ümumi kitabxana tikilibdir və hamısı fəaliyyət göstərməkdədir. Amma hal-hazırda bu yer İcra Hakimiyyəti tərəfindən plana düşübdür. Bu obyektlərin uçurulması və vəsaitin alınması barəsində İcra Hakimiyyəti ilə hansı şəkildə əməkdaşlıq etmək lazımdır ki, bu obyektlər üçün daha yaxşı binalar tikilsin?

**Cavab: Əgər İcra Hakimiyyəti bu obyektləri uçurub əvəzində vəsait verirsə və bu vəsaiti**

təhvil verirsə, maneəsi yoxdur. Amma məscidi və vəqfi mədrəsəni uçurmağa öz-özlüyündə icazə verilmir. Yalnız o təqdirdə icazə verilir ki, etina etməməyin qeyri-mümkün olduğu bir məsləhət bunu tələb edir.

**Sual 414:** Məscidi genişləndirmək üçün onun sahəsindən bir neçə ağac çıxarmaq lazımdır. Məscidin sahəsinin böyük olduğunu və orada çoxsayda ağacların olduğunu nəzərə alaraq, bu işə icazə verilirmi?

Cavab: Əgər bu iş vəqfi dəyişdirmək hesab olunmazsa, maneəsi yoxdur.

**Sual 415:** Bir məscid İcra Hakimiyyətinin abadlaşdırma layihəsində plana düşmüşdür. Yol çəkildiyinə görə məscid binasının bir hissəsi məcburiyyətdən sökülmüşdür. Bu yerin hökmü nədir?

Cavab: Əgər məcsidin əvvəlki vəziyyətinə qayıtması ehtimalı mövcud olmazsa, bu yer daha məscidin şəri hökmlərini daşımır.

**Sual 416:** Əgər bir məscid uçulub-dağılıbsa və məsciddən bir əsər-əlamət qalmayıbsa, məsələn, kənd tərk edilərək xarabalığa çevrilibsə, yaxud məscidin yerində başqa bir bina tikilibsə və orada məscidin yenidən bərpa edilməsinə ümid yoxdursa, həmin yeri napak etmək haramdırmı və oranı paklamaq vacibdirmi?

Cavab: Suala əsasən, bu yeri napak etmək haram deyildir. Baxmayaraq ki, napak etməmək ehtiyata müvafiqdir.

**Sual 417:** Bir müddətdir ki, məscidlərin birində camaat namazı qılıram və məscidin vəqfinin şərtləri barədə məlumatım yoxdur. Məscidin xərcləri baxımından müəyyən çətinliklərin mövcud olduğunu nəzərə alaraq, məscidin zirzəmisini məscidin şəninə uyğun olan bir iş üçün icarəyə vermək olarmı?

Cavab: Əgər zirzəmi məscid adını daşımırsa və məscidin ehtiyacı olan yerlərdən də deyilsə, habelə, onun vəqfi "intifa vəqfi"[3] deyilsə, maneəsi yoxdur.

**Sual 418:** Məscidin işlərini idarə etmək üçün vəsait olmadığına görə məscidin idarə heyəti qərara alıbdır ki, məscidin tavintifa anlı hissəsində zirzəmi düzəltsinlər və məscidə xidmət üçün oradan emalatxana və ümumi yerlər kimi istifadə etsinlər. Bu işə icazə verilirmi?

Cavab: Emalatxana və bu kimi yerlərin yaradılması üçün məscidin yerini qazmağa icazə verilmir.

**Sual 419:** Ümumiyyətlə, kafirlər müsəlmanların məscidlərinə daxil ola bilərlərmi, hətta tarixi abidələrə baxmaq məqsədilə olsa belə?

Cavab: Kafirlərin Məscidul-hərama daxil olmaları şəri baxımdan qadağandır. Başqa məscidlərə daxil olmaları isə əgər məscidə hörmətsizlik hesab olunarsa, icazə verilmir, hətta başqa məscidlərə də daxil olmasınlar.

**Sual 420:** Kafirlərin tikdikləri məsciddə namaz qılmağa icazə verilirmi?

Cavab: Maneəsi yoxdur.

**Sual 421:** Əgər bir kafir könüllü şəkildə müəyyən bir məbləği məscid binası üçün verərsə və ya başqa bir köməklik edərsə, onu qəbul etməyə icazə verilirmi?

Cavab: Maneəsi yoxdur.

**Sual 422:** Əgər bir şəxs gecə məscidə gəlsə və orada yatıb möhtəlim olsa, oyandıqdan sonra məsciddən xaric olmaq onun üçün

mümkün olmasa, vəzifəsi nədir?

**Cavab: Əgər məsciddən çıxıb başqa bir yerə getmək onun üçün mümkün olmasa, dərhal təyəmmüm etməlidir ki, məsciddə qalmaq ona halal olsun.**

[1] Şəbistan – böyük məscidlərin üstü tavanlı və kənarları örtülü hissələridir. Oxşar və bir-birinə paralel sütunlara malikdir və bir tərəfi məscidin daxilinə açılır. Şəbistan, qədim memarlıqda məscid binasının o hissəsi idi ki, insanlar orada ibadət edir və gecələr isə orada yatırdılar.

[2] Lazım əqd – bu müqavilədə tərəflərdən heç birinin müqaviləni pozmaq haqqı yoxdur.

[3] "İntifa vəqfi"ndə maddi gəlir əldə etmək nəzərdə tutulmayıbdır və "moqufun-ələyhim", vəqf edilən əmlakdan yalnız istifadə edir. Məsələn, torpaq sahibi öz torpaq sahəsini vəqf edir ki, orada məktəb tikilib istifadəyə verilsin.

## Başqa dini məkanların hökmləri

**Sual 423:** **Hüseyniyyəni müəyyən şəxslərin adına qeydiyyata salmağa şəri baxımdan icazə verilirmi?**

**Cavab: Əgər bir hüseyniyyə dini məclislərin təşkil edilməsi üçün ümumi vəqf edilibsə, onu "şəxsi mülk" kimi qeydiyyata salmağa icazə verilmir. Onu müəyyən şəxslərin adına "vəqfi mülk" kimi qeydiyyata salmaq isə zəruri deyildir. Hər halda, onu müəyyən şəxslərin adına"vəqfi mülk" kimi qeydiyyata salanda, yaxşı olar ki, bu hüseyniyyənin tikintisində iştirakı olna bütün şəxslərin icazəsi və razılığı olsun.**

**Sual 424:** **"Şəriət hökmlərinin izahı" adlı kitablarda qeyd olunub ki, cənabətli və heyzli şəxs İmamların (ə) hərəminə daxil ola bilməz. Xahiş edirəm, izah edəsiniz ki, "hərəm" dedikdə, gümbəzin altı nəzərdə tutulur, yoxsa bura birləşən bütün otaqlar və tikililər də nəzərdə tutulur?**

**Cavab: "Hərəm" dedikdə, mübarək gümbəzin altı və müqəddəs məzarın yerləşdiyi yer nəzərdə tutulur. Bura birləşən otaqlar və şəbistanlar hərəm hökmündə deyildir, bura cənabətli və heyzli şəxsin daxil olmasının maneəsi yoxdur. Yalnız məscid adlanan tikiliyə daxil ola bilməz.**

**Sual 425:** **Qədim bir məscidin yanında bir hüseyniyyə tikilibdir. Hal-hazırda namaz qılanlar qədim məscidə sığmırlar. Hüseyniyyəni məscidə birləşdirmək və ondan məscid ünvanında istifadə etmək olarmı?**

**Cavab: Hüseyniyyədə namaz qılmağın maneəsi yoxdur. Amma əgər hüseyniyyə, şəri baxımdan düzgün qaydada hüseyniyyə ünvanında vəqf edilibsə, onu məscidə çevirməyə icazə verilmir. Həmçinin onu məscid ünvanında məscidə birləşdirməyə də icazə verilmir.**

**Sual 426:** **İmamzadələrin (ə) ziyarətgahına nəzir edilən xalçalardan və əşyalardan məhəllənin cami məscidində istifadə etməyin hökmü nədir?**

**Cavab: Əgər ziyarətgahın və oranın zəvvarlarının onlara ehtiyacı yoxdursa, maneəsi yoxdur.**

**Sual 427:** **Həzrət Əbəlfəzlin (ə) və başqalarının adına qurulan çadırlar məscid hökmündədirmi? Zəhmət olmasa, onların hökmlərini açıqlayın.**

**Cavab: Bu çadırlar və hüseyniyyələr məscid hökmündə deyildir.**

## Namaz qılanın paltarı

**Sual 428:** **Napak olub-olmadığına şəkk etdiyim bir paltarda namaz qılmağım düzgündürmü?**

**Cavab: Napak olub-olmadığına şəkk edilən bir paltar əgər öncədən napak deyildisə, bu paltar pak hökmündədir və bu paltarda namaz qılmaq düzgündür.**

**Sual 429:** **Almaniyadan aldığım dəri kəmərin təbii, yoxsa süni dəri olduğuna, həmçinin şəri qaydada kəsilən heyvanın dərisindən olub-olmadığına şəkk edirəm. Bu kəmərlə namaz qılmağın hökmü nədir? Bu kəmərlə qıldığım namazların hökmü nədir?**

**Cavab: Əgər dərinin təbii, yoxsa süni olduğuna şəkk etsəniz, onunla namaz qılmağın maneəsi yoxdur. Amma əgər dərinin təbii olduğu dəqiqləşdikdən sonra şəri qaydada kəsilən heyvanın dərisindən olub-olmadığına şəkk etsəniz, bu dəri napak deyildir, amma onunla qılınan namaz düzgün deyildir. Bu hökmü bilmədiyiniz halda qıldığınız namazların qəzası yoxdur.**

**Sual 430:** **Əgər namaz qılan şəxs bədənində və ya paltarında nəcasətin olmadığına əmin olsa və namaz qılsa, amma sonradan bədəninin və ya paltarının napak olduğu məlum olsa, onun namazı düzgün deyildir? Əgər onun bədəni və ya paltarı namaz əsnasında napak olsa, onun namazının hökmü nədir?**

**Cavab: Əgər bədəninin və ya paltarının napak olduğunu əsla bilməsə və bunu namazdan sonra başa düşsə, onun namazı düzgündür və namazı yenidən qılmaq və ya qəzasını qılmaq vacib deyildir. Amma əgər bədəni və ya paltarı namaz əsnasında napak olsa[1], bu təqdirdə əgər namaza zidd olan bir əməli yerinə yetirmədən bədəndən nəcasəti təmizləmək və ya paltarı çıxarmaq onun üçün mümkün olsa, bədəninin nəcasətini təmizləməli və ya napak paltarı əynindən çıxarmalı və namazını tamamlamalıdır. Amma əgər namaz halını qorumaqla nəcasəti kənarlaşdırmaq onun üçün mümkün olmasa və namaz vaxtı da geniş olsa, namazı kəsməli və pak bədən və paltarla namazı yenidən qılmalıdır.**

**Sual 431:** **Bir şəxs müəyyən müddət namazlarını şəri kəsim olduğu şübhəli olan heyvanın dərisi onun üstündə olduğu halda qılmışdır. Onun qıldığı namazların hökmü nədir?**

**Cavab: Şəri qaydada kəsildiyi şübhəli olan heyvanın ətini yemək haramdır və onun dərisi ilə namaz qılmaq olmaz. Bu baxımından şəri qaydada kəsildiyi şübhəli olan heyvan, "murdar olan heyvan" hökmündədir, amma napak deyildir. Əgər bir şəxs bu hökmü bilməyib belə paltarda namaz qılıbsa, qıldığı namazlar düzgündür.**

**Sual 432:** **Qadın namaz əsnasında saçlarının bir hissəsinin göründüyünü başa düşür və dərhal onları örtür. O, namazını yenidən qılmalıdırmı, yoxsa yox?**

**Cavab: Suala əsasən, o, dərhal örtündüyünə görə namazı yenidən qılması vacib deyildir.**

**Sual 433:** **Bir şəxs məcbur qaldığına görə sidiyin məxrəcini daş ya çubuq ya başqa bir şeylə təmizləyir və evə gələndə onu su ilə paklayır. Bu şəxs namaz qılanda alt paltarını dəyişməli və ya paklamalıdırmı?**

**Cavab: Əgər onun paltarı sidiyin rütubəti ilə napak olmayıbsa, paltarı paklamaq vacib deyildir.**

**Sual 434:** **Xaricdən gətirilən bəzi sənaye texnikalarını işə salmaq yalnız xarici mütəxəssislərin əməkdaşlığı ilə mümkündür. Onlar isə İslam fiqhi baxımından kafir və napakdırlar. Qeyd etmək lazımdır ki, həmin texnikaların işə salınması üçün yağ və başqa maddələrdən istifadə edilir və bu maddələr əl ilə tökülür. Buna görə də, bu texnikaların pak olması mümkün deyildir. Digər tərəfdən, iş zamanı işçilərin paltarı və bədəni bu texnikalarla təmasda olur və namaz vaxtı paltarı və bədəni tam şəkildə paklamaq fürsəti olmur. Bu işçilərin namaz barəsində vəzifəsi nədir?**

**Cavab: Əgər sənaye qurğularını və aparatlarını işə salan kafirin kitab-əhli olduğu – belə ki, kitab-əhli pak hökmündədirlər – və ya iş zamanı əlinə əlcək geyindiyi ehtimal verilərsə, sırf bu texnikaların kafir tərəfindən işə salınması onların napak olduğuna yəqinlik yaratmır. Əgər bu texnikanların napak olduğuna və iş zamanı işçinin bədən və paltarının "keçici rütubət" vasitəsilə onunla təmasda olduğuna yəqinlik yaranarsa, namaz üçün bədəni paklamaq vacibdir. Paltarı da ya dəyişməli, ya da paklamalıdır.**

**Sual 435:** **Əgər namazda insanın üstündə və ya cibində qana bulaşaraq napak olmuş dəsmal və ya bu kimi bir şey olarsa, onun namazı düzgün deyildir?**

**Cavab: Əgər dəsmal kiçik olarsa və onunla övrəti (ayıb yeri) örtmək mümkün olmazsa, onun namazda insanın üstündə olmasının maneəsi yoxdur.**

**Sual 436:** **Tərkibində spirt olan indiki ətirlərlə ətirlənmiş paltarda namaz qılmaq düzgündürmü?**

**Cavab: Əgər insan bu ətirlərin napak olduğunu bilməsə, həmin paltarla namaz qılmağın maneəsi yoxdur.**

**Sual 437:** **Qadın namazda bədənin hansı hissələrini örtməlidir? Qısaqol paltar geyinməyin və ya corab geyinməməyin maneəsi varmı?**

**Cavab: Qadın namazda bədəni tam şəkildə örtən bir geyimlə bütün bədənini və saçlarını örtməlidir. Amma üzün dəstəmazda yuyulan hissəsi, həmçinin biləyə qədər əllər və oynağa qədər ayaqlar istisna təşkil edir və örtülməyə bilər. Naməhrəm kişi qadını gördüyü təqdirdə isə, ayaqlarını da örtməlidir.**

**Sual 438:** **Namazda ayağın üstünü örtmək qadına vacibdirmi?**

**Cavab: Naməhrəm görmədiyi təqdirdə ayaqları oynağa qədər örtmək vacib deyildir.**

**Sual 439:** **Hicablanarkən və namaz qılarkən çənəni tam örtmək vacibdirmi? Yoxsa təkcə çənənin altı örtülməlidir? Çənənin örtülməsinin vacibliyi üzü örtməyin müqəddiməsidirmi, belə ki, bu müqəddimə şəri baxımdan vacibdir?**

**Cavab: Çənənin özünü deyil, altını örtmək vacibdir, çünki çənə üzün bir hissəsidir.**

**Sual 440:** **Əgər övrəti örtmək üçün kifayət etməyən napak bir şey namazda insanın üstündə olarsa, namaz qılan şəxs şəri hökmü, yaxud mövzunu (yəni həmin şeyin onun üstündə olmasını) unutduğu və ya bilmədiyi təqdirdə onun namazının düzgün olduğuna hökm verilirmi? Yoxsa bu məsələ, "hökmiyyə şübhəsi"[2] və "mövzuiyyə şübhəsi"nə[3] də şamil olur?**

**Cavab: Yalnız unutmaq və ya bilməmək hallarına aid deyildir. Hətta insan övrəti örtmək üçün kifayət etməyən napak bir şeyin onun üstündə olduğunu bilsə belə, namazı**

düzgündür.

**Sual 441: Namazda insanın paltarında pişik tükü və ya pişiyin ağzının suyunun olması namazın düzgün olmamasına səbəb olurmu?**

## Cavab: Bəli, namazın düzgün olmamasına səbəb olur.

---

[1] Fiqh kitablarında bəzi istisna hallar qeyd olunub. Bu barədə “Namazın və orucun hökmləri” adlı fiqh risaləsinə müraciət edə bilərsiniz.

[2] **Şəri hökm barəsindəki şəkk.**

[3] **Şəri hökmün şamil olduğu nümunə barəsindəki şəkk.**

## Qızıl və gümüşdən istifadə etmək

**Sual 442:** Kişilərin qızıl üzük taxmasının - xüsusilə də, namazda – hökmü nədir?

**Cavab: Kişilərin qızıl üzük taxmasına heç bir halda icazə verilmir və qızıl üzüklə qılınan namaz, ehtiyat-vacibə görə, düzgün deyildir.**

**Sual 443:** Kişilərin ağ qızıldan olan üzük taxmasının hökmü nədir?

**Cavab: Əgər ağ qızıl adlanan şey, elə sarı qızıl olub ona müəyyən maddənin qatılması ilə rəngi ağarıbsa, ondan istifadə etmək kişilərə haramdır. Amma əgər onun tərkibində qızıl çox az olsa və ürfdə ona qızıl deyilməsə, kişilərin ondan istifadə etmələrinin maneəsi yoxdur. Platindən də istifadə etmələrinin maneəsi yoxdur.**

**Sual 444:** Zinət məqsədi olmadan – belə ki, başqaları görmədən - qızıldan istifadə etməyin şəri baxımdan maneəsi varmı?

**Cavab: Qızıldan istifadə etmək – istər üzük halqası olsun, istər qeyri bir şey – kişilər üçün birmənalı olaraq haramdır, baxmayaraq ki, zinət məqsədi yoxdur və başqaları da görmür.**

**Sual 445:** Kişilərin az bir müddət üçün qızıldan istifadə etmələrinin hökmü nədir? Çoxları belə deyir ki, kişilərin az bir müddət üçün, məsələn, nikah vaxtı qızıldan istifadə etmələrinin maneəsi yoxdur.

**Cavab: Kişilərin qızıldan istifadə etmələri haramdır və az, yaxud çox müddət arasında fərq yoxdur.**

**Sual 446:** Namaz paltarının hökmlərini və kişilərin qızıl ilə zinətlənməsinin haram olduğunu nəzərə alaraq, xahiş edirəm ki, aşağıdakı iki sualı cavablandırın:
1) Kişilərin ümumiyyətlə qızıldan istifadə etmələri, hətta sümüyün cərrahiyyə əməliyyatında və dişlərin düzəldilməsində belə istifadə etmələri haramdır?
2) Bizim şəhərimizdə təzə evlənən gənclərin sarı qızıldan üzük taxmaları bir adətdir. Bu əməl camaatın nəzərində kişi üçün zinət hesab olunmur, əksinə, ailə həyatının başlanması əlaməti hesab olunur. Bu barədə sizin nəzəriniz nədir?

**Cavab:**
**1) Kişilərin qızıldan istifadə etmələrinin haramlığı meyarı, bu əməlin təkcə "zinətlənmək" adlanması deyildir. Ümumiyyətlə, qızıldan istifadə etmək istənilən şəkildə və məqsədlə kişilərə haramdır, o cümlədən, üzük, halqa, boyunbağı və bu kimi zinət əşyalarından istifadə etmək. Amma sümüyün cərrahiyyə əməliyyatında və dişlərin düzəldilməsində kişilərin qızıldan istifadə etmələrinin maneəsi yoxdur.**
**2) Kişilərin qızıldan üzük taxmaları hər bir halda haramdır.**

**Sual 447:** Kişilərə aid olan və qadınların istifadə etmədikləri qızıl bəzək əşyalarının düzəldilməsi və satılmasının hökmü nədir?

**Cavab: Kişilərin istifadə etmələri məqsədilə qızıl bəzək əşyalarınının düzəldilməsi haramdır və onların bu məqsədlə alğı-satqısına icazə verilmir.**

**Sual 448:** Bəzi qonaqlıqlarda şirniyyatın gümüş qablara qoyulduğunu görürük. Bu iş gümüş qabda təam yemək hesab olunurmu? Bunun hökmü nədir?

**Cavab: Əgər yemək məqsədilə gümüş qabdan təam götürmək, gümüş qabda yemək-içmək hesab olunursa, haramdır.**

**Sual 449:** **Dişin üstünə qızıl qapaq qoymağın maneəsi varmı? Platin qapaq qoymaq necə?**

**Cavab: Dişin üstünə qızıl və ya platin qapaq qoymağın maneəsi yoxdur. Amma qabaq dişləri qızıl ilə örtmək, əgər zinət məqsədilə olsa, maneəsiz deyildir.**

## Azan və iqamə

**Sual 450:** **Bizim kəndimizin müəzzini mübarək ramazan ayında sübh azanını öz vaxtından bir neçə dəqiqə qabaq deyir ki, camaat azanın ortasına və ya axırına qədər yeyib-içməyi davam etdirə bilsinlər. Bu iş düzgündürmü?**

**Cavab: Əgər azanın deyilməsi camaatı çaşqınlığa salmazsa və fəcrin doğmasının elanı ünvanında olmaza, maneəsi yoxdur.**

**Sual 451:** **Bəzi şəxslər namaz vaxtının daxil olduğunu elan etmək üçün camaatın get-gəl etdiyi yollarda cəm şəklində azan deyirlər. Həmd olsun Allaha ki, bu işin məntəqədə aşkar fəsadın qarşısının alınmasında böyük təsiri olmuş və camaatın, xüsusilə gənclərin vaxtın əvvəlində namaz qılmalarına səbəb olmuşdur. Amma bir nəfər deyir ki, bu iş İslam dinində gəlməmişdir və bidətdir. Onun sözü bu xüsusda şübhə yaranmasına səbəb olmuşdur. Sizin bu barədə nəzəriniz nədir?**

**Cavab: Gündəlik vacib namazların vaxtının daxil olmasını elan etmək üçün azan deyilməsi və eşidənlərin onu təkrar etmələri şəriətdə təkid olunan müstəhəb əməllərdəndir. Camaatın get-gəl etdiyi yollarda cəm şəklində azan demək, əgər yolun bağlanmasına və ya ətrafdakıların əziyyətinə səbəb olmazsa, maneəsi yoxdur.**

**Sual 452:** **Uca səslə azan deməyin böyük savabı olan ibadi-siyasi bir əməl olduğunu nəzərə alaraq, bir qrup mömin şəxs qərara alıb ki, öz evlərinin damında, xüsusilə də, sübh namazı üçün səsucaldansız azan desinlər. Sualım budur ki, bəzi qonşular buna etiraz bildirdikləri təqdirdə bu işin hökmü nədir?**

**Cavab: Evin damında adi qaydada azan deməyin maneəsi yoxdur.**

**Sual 453:** **Mübarək ramazan ayının səhər dualarını hamının eşitməsi üçün məscidin səsucaladını ilə yayımlamağın hökmü nədir?**

**Cavab: Mübarək ramazan ayının gecələrində Quran və dua oxumaq, dini mərasimlərdə iştirak etmək üçün camaatın əksəriyyətinin oyaq qaldığı məntəqələrdə bu işi etməyin maneəsi yoxdur. Amma əgər məscidin qonşuluğunda olanların əziyyətinə səbəb olarsa, icazə verilmir.**

**Sual 454:** **Məscidin və ya bu kimi məkanların səsucaldanı vasitəsilə sübh azanından qabaq Quran tilavətinin və azandan sonra duaların yayımlanmasına icazə verilirmi? Qeyd edək ki, səs çox yüksək olduğuna görə bir neçə kilometrdən eşidilir, həmçinin bu proqram bəzən yarım saatdan çox çəkir.**

**Cavab: Sübh namazının vaxtının daxil olduğunu elan etmək üçün səsucaldan vasitəsilə adi qaydada azan yayımlamağın maneəsi yoxdur. Amma əgər məscidin səsucaldanından Quran tilavətinin və duaların yayımlanması qonşuların əziyyət çəkmələrinə səbəb olarsa, buna icazə verilmir.**

**Sual 455:** **Kişi namazda qadının azanı ilə kifayətlənə bilərmi?**

**Cavab: Kişinin qadının azanı ilə kifayətlənməsi məhəlli-işkaldır.**

**Sual 456:** **Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) imamlığına dəlalət edən azanın üçüncü şəhadətini vacib namazın azan və iqaməsində demək barəsində sizin nəzəriniz nədir?**

**Cavab: "Əşhədu ənnə Əliyyən vəliyyullah" cümləsini şiənin şüarı ünvanında demək, yaxşı**

**və mühüm əməldir və "mütləq qəsdi-qürbət" ilə deyilməlidir. Amma azan və iqamənin bir hissəsi deyildir.**

**Sual 457:** **Bir müddətdir ki, bel ağrısından əziyyət çəkirəm. Amma bəzi vaxtlar ağrı artır və mən namazlarımı ayaq üstə qıla bilmirəm. Bunu nəzərə alaraq, bəzən əgər namazı vaxtın əvvəlində qılmaq istəsəm, oturan halda qılmalıyam, amma əgər gözləsəm, bəlkə də namaz vaxtının axırında ayaq üstə namaz qıla bilərəm. Bu vəziyyətdə mənim vəzifəm nədir?**

**Cavab: Əgər namaz vaxtının axırında namazı ayaq üstə qıla biləcəyinizi ehtimal etsəniz, ehtiyata görə, o vaxtadək gözləməlisiniz. Əgər namaz vaxtının əvvəlində müəyyən bir üzrə görə namazı oturan halda qılsanız və namaz vaxtının axırınadək də sizin üzrünüz aradan qalxmasa, qıldığınız namaz düzgündür və yenidən qılmaq lazım deyildir. Əgər namaz vaxtının əvvəlində ayaq üstə namaz qıla bilməsəniz və namaz vaxtının axırınadək bu vəziyyətin davam edəcəyinə yəqininiz olsa, buna görə də namazı oturan halda qılsanız, amma namaz vaxtı başa çatmamış sizin üzrünüz aradan qalxsa və ayaq üstə namaz qıla bilsəniz, namazı ayaq üstə yenidən qılmalısınız.**

## Qiraət və onun hökmləri

**Sual 458:** **“Qiraət”i[1] ucadan oxunmayan namazın hökmü nədir?**

**Cavab: Sübh, məğrib və işa namazlarında Həmd və Surəni ucadan oxumaq kişiyə vacibdir. Əgər hökmü unutduğuna və ya bilmədiyinə görə ahəstə oxusa, namaz düzgündür. Amma əgər bilərəkdən ahəstə oxusa, namaz düzgün deyildir.**

**Sual 459:** **Əgər sübh namazının qəzasını qılmaq istəsək, onu ucadan oxumalıyıq, yoxsa ahəstə?**

**Cavab: Sübh, məğrib və işa namazlarında – istər əda olsun, istərsə də qəza – Həmd və Surəni ucadan oxumaq kişiyə vacibdir, hətta bu namazların qəzası gündüz çağı qılınsa belə. Əgər bilərəkdən ucadan oxumasa, namaz düzgün deyildir.**

**Sual 460:** **Bilirik ki, namazın bir rəkəti niyyət, təkbirətul-ehram, Həmd, Surə, rüku və səcdədən təşkil olunur. Digər tərəfdən, zöhr və əsr namazlarını, məğrib namazının üçüncü rəkətini, işa namazının üçüncü və dördüncü rəkətlərini ahəstə oxumaq vacibdir. Amma radio və televiziyadan birbaşa yayımlanan camaat namazında imam-camaatın üçüncü rəkətin rüku və səcdəsinin zikrini ucadan oxuduğunu görürük. Nəzərə alsaq ki, rüku və səcdə ahəstə oxunması vacib olan rəkətin hissələridir, bu məsələnin hökmü nədir?**

**Cavab: Sübh, məğrib və işa namazlarında “Həmd və Surə”ni ucadan, zöhr və əsr namazlarında isə ahəstə oxumaq vacibdir. Məğrib və işa namazlarının üçüncü və dördüncü rəkətlərində isə, Həmdi və ya təsbihati-ərbəəni ahəstə oxumaq vacibdir. Amma gündəlik beş namazın rüku və səcdəsinin zikrini, təşəhhüd və salamı, digər vacib zikrləri mükəlləf ahəstə və ya ucadan oxumaqda seçim edə bilər.**

**Sual 461:** **Əgər bir şəxs gündəlik vacib namazların on yeddi rəkətindən əlavə on yeddi rəkət də ehtiyat qəza namazı qılmaq istəsə, sübh, məğrib və işa namazlarının birinci və ikinci rəkətlərinin qiraətini ucadan oxumalıdırımı, yoxsa ahəstə oxumalıdır?**

**Cavab: Vacib namazlarda ucadan və ahəstə oxumanın vacibliyində əda və qəza arasında fərq yoxdur, hətta ehtiyat qəza namazı olsa belə.**

**Sual 462:** **Bilirik ” hərfi hərfidir. Amma azanda “حَیّ عَلَی الصّلاه” (Həyyə ələs-səlah) oxunur. Bu, düzgündürmü?**

**Cavab: Vəqf za ” hərfin “” kimi oxunmasının maneəsi yoxdur, hətt oxunmalıdır.**

**Sual 463:** **“Həmd” surəsinin təfsirində İmam Xomeyni (r.مَلِک’ (malik) deyil, “مَالِک” (məlik) oxunmasına üstünlük vermişdir. Onun rəyini nəzərə alaraq, istər vacib, istər qeyri-vacib namazlarda bu mübarək surəni qiraət edərkən ehtiyat ünvanında bu kəlməni hər iki şəkildə oxumaq düzgündürmü?**

**Cavab: Bu xüsusda ehtiyat etməyin maneəsi yoxdur.**

**Sual 464:** **Düzgündürmü ki, namaz qılan şəxs “Ğəyril məğzubi ələyhim” cümləsini oxuyub vəqf etsin, sonra “Vələzzallin” cümləsini qiraət etsin? Həmçinin düzgündürmü ki, təşəhhüddə “Əllahummə səlli əla Muhəmməd” cümləsini oxuyanda “Muhəmməd” sözünü deyib vəqf etsin (dayansın), sonra “Və Ali-Muhəmməd” cümləsini oxusun?**

**Cavab: Cümlənin bütövlüyünə xələl gəlmədiyi təqdirdə vəfq etmək və fasilə salmağın maneəsi yoxdur.**

**Sual 465:** **Aşağıdakı sual İmam Xomeynidən (r.ə) soruşulubdur:**
**“الضاد” hərfinin tələffüzündə müxtəlif rəylərin olduğunu nəzərə alaraq, siz hansı rəyə əməl edirsiniz?**
**İmam Xomeyni (r.ə) sualın cavabında yazmışdır: “Hərflərin məxrəcini təcvid elminin alimlərinin rəyi əsasında öyrənmək vacib deyildir. Hər bir hərf elə bir şəkildə tələffüz edilməlidir ki, ərəb ürfündə “bu hərfi tələffüz etmişdir” deyilsin.”**

**Bizim sualımız budur:**
**1) “Ərəb ürfündə “bu hərfi tələffüz etmişdir” deyilsin” cümləsi necə izah olunur?**
**2) Məgər “təcvid” elminin qaydaları[2] “sərf” və “nəhv” elmləri[3] kimi, ərəb ürfündən və ərəb danışıq dilindən əxz olunmayıbmı? Belə olduğu halda təcvid elminin ərəb ürfündən köklü şəkildə ayrı olduğunu necə qəbul etmək olar?**
**3) Əgər bir şəxs üçün etibarlı bir yol ilə yəqinlik hasil olsa ki, qiraət zamanı o, hərfləri özünün düzgün məxrəcindən tələffüz etmir, yaxud hərfləri və kəlmələri ümumiyyətlə düzgün tələffüz etmir, eyni zamanda, düzgün tələffüzü öyrənmək üçün onun hər cəhətdən uyğun şəraiti vardırsa – məsələn, yaxşı qavrama qabiliyyəti və ya bu elmi öyrənmək üçün kifayət qədər vaxtı və uyğun şəraiti vardırsa – düzgün qiraəti öyrənmək üçün öz istedadı səviyyəsində çalışması vacibdirmi?**

**Cavab: Qiraətin düzgün hesab olunmasında meyar, qiraətin bu dildə danışanların qiraət tərzinə müvafiq olmasıdır, belə ki, təcvid qaydaları elə onların danışığından əxz olunub. Beləliklə, əgər hansısa bir hərfin tələffüz qaydasında təcvid elminin alimləri arasındakı fikirayrılığı, bu dildə danışanların tələffüz tərzini başa düşmələrindən qaynaqlanarsa, fikirayrılığını həll etmək üçün bu dildə danışanların ürfünə müraciət edilir. Amma əgər alimlər arasındakı fikirayrılığı, tələffüz qaydasında onların özlərinin fikirayrılığından qaynaqlanarsa, mükəlləf bu rəylərdən hansısa birini seçməkdə ixtiyarlıdır. Öz qiraətini düzgün hesab etməyən şəxs, imkanı olduğu təqdirdə düzgün qiraəti öyrənməlidir.**

**Sual 466:** **Əgər bir şəxsin niyyəti elə əvvəldən və ya adəti üzrə “Fatihə” və “İxlas” surələrini oxumaqdırsa və “Bismillahir rəhmanir rəhim”i deyibsə, amma səhv üzündən “Surə”ni müəyyən etməyibsə, ilk öncə “Surə”ni müəyyən etməli və sonra “Bismillahir rəhmanir rəhim”i qiraət etməlidir?**

**Cavab: “Bismillahir-rəhmanir-rəhim”i yenidən qiraət etmək vacib deyildir. Hər hansı bir “Surə”ni oxumaq istəsə, qiraət etdiyi “Bismillahir-rəhmanir-rəhim” ilə kifayətlənə bilər.**

**Sual 467:** **Namazda ərəb kəlmələrini düzgün şəkildə tələffüz etmək vacibdirmi? Əgər kəlmələr ərəbcə düzgün tələffüz edilməsə, namaz düzgündürmü?**

**Cavab: Namazın bütün vacib zikrləri, o cümlədən, Həmd və Surə və digər zikrlər düzgün şəkildə tələffüz edilməlidir. Əgər namaz qılan şəxs ərəb kəlmələrinin düzgün tələffüz qaydasını bilmirsə, bunu öyrənməlidir. Amma əgər öyrənməyə qadir deyilsə, üzrlü hesab olunur və bacardığı şəkildə tələffüz etməlidir. Ehtiyat-müstəhəbə görə, o, namazlarını camaatla qılsın.**

**Sual 468:** **Namazın zikrlərini ürəkdə oxumaq, yəni kəlmələri dildə tələffüz etmədən onları ürəkdən keçirmək, “qiraət etmək” adlanırmı, yoxsa yox?**

**Cavab: Bu, “qiraət etmək” adlanmır və namazda kəlmələri dildə tələffüz etmək vacibdir, belə ki, “qiraət etmək” adlansın.**

**Sual 469:** **Bəzi təfsirçilərin nəzərinə görə Qurani-Kərimin bir neçə surəsi, o cümlədən, Fil, Qurəyş, İnşirah və Zuha surələri tam bir surə hesab olunmur. Onlar deyirlər: “Hər kim o iki surədən birini, məsələn, Fil surəsini namazda oxusa, bu surədən sonra mütləq Qurəyş surəsini də oxumalıdır. Həmçinin İnşirah və Zuha surələri də birlikdə oxunmalıdır.” Beləliklə, əgər bir şəxs məsələni**

bilmədiyinə görə namazda təkcə Fil və ya İnşirah surəsini oxusa, onun vəzifəsi nədir?

**Cavab: Əgər məsələni öyrənməkdə səhlənkarlıq etməyibsə, onun keçmiş namazları düzgün hökmündədir.**

**Sual 470:** Əgər bir şəxs unudaraq zöhr namazının üçüncü və dördüncü rəkətində Həmd və Surə oxusa, amma namazdan sonra bunu başa düşsə, namazı yenidən qılmaq ona vacibdirmi? Əgər bunu başa düşməsə, onun namazı düzgündürmü?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, onun namazı düzgündür.**

**Sual 471:** Qadınlar sübh, məğrib və işa namazlarının Həmd və Surəsini ucadan oxuya bilərlərmi?

**Cavab: Həm ucadan, həm də ahəstə oxuya bilərlər. Amma əgər onların səsini naməhrəm eşidərsə, ahəstə oxumaları yaxşıdır.**

**Sual 472:** İmam Xomeyninin (r.ə) nəzərinə görə zöhr və əsr namazlarında "qiraət"i (Həmd və Surəni) ahəstə oxumağın meyarı, səsin ucadan çıxmamasıdır. Biz bilirik ki, on hərf istisna olmaqla, qalan hərflər səsli hərflərdir. Buna görə də, əgər zöhr və əsr namazlarını ahəstə və səssiz qılsaq, on səkkiz səsli hərf düzgün tələffüz edilməyəcəkdir. Xahiş edirəm, bu məsələni izah edəsiniz.

**Cavab: Ahəstə oxumağın meyarı, səsin cövhərinin olmaması deyildir. Meyar, səsin cövhərini aşkar etməməkdir (ucaltmamaqdır). Bunun qarşısında, ucadan oxumağın meyarı, səsin cövhərini aşkar etməkdir.**

**Sual 473:** Müsəlmanlığı qəbul edən və ərəb sözləri ilə tanışlığı olmayan xarici ölkələrin vətəndaşları – istər kişi, istər qadın – öz dini vacibatlarını necə yerinə yetirsinlər? Ümumiyyətlə, bu iş üçün ərəb dilini öyrənməyə ehtiyac varmı?

**Cavab: Təkbitərul-ehram, Həmd, Surə, təşəhhüd və namazın salamını öyrənmək, habelə, ərəbcə oxunması şərt olan hər bir şeyi öyrənmək vacibdir.**

**Sual 474:** Qiraətinin ucadan oxunması vacib olan namazların nafiləsinin ucadan oxunmasına və qiraətinin ahəstə oxunması vacib olan namazların nafiləsinin ahəstə oxunmasına dair bir dəlil varmı? Cavab müsbət olduğu təqdirdə, əgər qiraətinin ucadan oxunması vacib olan namazların nafiləsi ahəstə oxunarsa, yaxud əksinə, qiraətinin ahəstə oxunması vacib olan namazların nafiləsi ucadan oxunarsa, bu namaz kifayət edirmi?

**Cavab: Qiraətinin ucadan oxunması vacib olan namazların nafiləsinin ucadan oxunması vacibdir. Həmçinin qiraətinin ahəstə oxunması vacib olan namazların nafiləsinin ahəstə oxunması müstəhəbdir. Əgər əksinə oxunarsa, kifayət edir.**

**Sual 475:** Namazda Həmd surəsini qiraət etdikdən sonra bir surə tam oxunmalıdırmı? Yoxsa Qurani-Kərimin bir neçə ayəsini oxumaq kifayət edir? Birinci halda, əgər Surə qiraət edildikdən sonra Qurani-Kərimin bir neçə başqa ayəsini oxumağa icazə verilirmi?

**Cavab: Gündəlik vacib namazlarda Həmddən sonra, ehtiyat-vacibə görə, bir surə tam oxunmalıdır. Tam bir surə əvəzinə Qurani-Kərimin bir neçə ayəsini qiraət etmək kifayət etmir. Amma tam bir surə oxunduqdan sonra Quran oxumaq niyyətilə bəzi ayələri oxumağın maneəsi yoxdur.**

**Sual 476:** Əgər səhlənkarlığa və ya danışıq ləhcəsinə görə Həmd və Surənin, yaxud namazın digər söz və zikrlərinin oxunuşunda səhvə yol verilərsə, məsələn, "yuləd" sözü "yulid" oxunarsa, namazın hökmü nədir?

**Cavab: Əgər bilərəkdən olsa, namaz düzgün deyildir. Həmçinin əgər şəxs "müqəssir cahil" (yəni öyrənməyə qadir olan cahil) olsa, ehtiyat-vacibə görə, namaz düzgün deyildir. Amma**

əgər "qasir cahil" (yəni öyrənmyə qadir olmayan cahil) olsa və keçmiş namazlarını sözügedən şəkildə qılsa və eyni zamanda da kəlmələri düzgün tələffüz etdiyini düşünsə, onun namazları düzgündür. Bu namazları yenidən qılmaq və ya qəzasını qılmaq lazım deyildir.

**Sual 477:** **Bir şəxsin otuz beş-otuz altı yaşı vardır və atası və anası uşaqlıqda ona namazı öyrətməmişlər. Onun savadı da yoxdur, amma namazı düzgün şəkildə öyrənməyə səy göstərmişdir. Bununla belə, namazın sözlərini və zikrlərini düzgün tələffüz etməyə qadir deyildir. Bəzi sözləri heç tələffüz edə bilmir. Onun namazı düzgündürmü?**

Cavab: Əgər tələffüz etməyə qadir olduğu sözləri düzgün tələffüz etsə, namazı düzgün hökmündədir.

**Sual 478:** **Mən namazın sözlərini ata və anamdan öyrəndiyim qaydada, habelə məktəbdə mənə öyrədilən qaydada tələffüz etmişəm. Amma sonradan sözləri səhv tələffüz etdiyimi başa düşdüm. İmam Xomeyninin (r.ə) fətvasına görə, mən namazları yenidən qılmalıyammı? Yoxsa o qaydada qıldığım namazlar düzgündür?**

Cavab: Sualda deyilənləri nəzərə alaraq, siz sözləri səhv tələffüz etdiyinizi ehtimal etmədiyinizə görə, əksinə, düzgün tələffüz etdiyinizi düşündüyünüzə görə keçmiş namazların hamısı düzgün hökmündədir. Bu namazları yenidən qılmaq və ya qəzasını qılmaq lazım deyildir.

**Sual 479:** **Lal olduğuna görə danışa bilməyən, amma eşidə və görə bilən bir şəxs əgər namazını işarə ilə qılsa, düzgündürmü?**

Cavab: Sualda deyilənləri nəzərə alaraq, onun namazı düzgündür və kifayət edir.

---

[1] Qiraət – namazın qiyamında (yəni ayaq üstə dayanan halda) Həmd və Surənin oxunmasına deyilir.

[2] Hərflərin tələffüzünün gözəlləşdirilməsi qaydaları.

[3] Ərəb dili qrammatikasının "morfologiya" və "sintaktika" bölmələri.

## Namazın zikri

**Sual 480:** Rükunun zikrini səcdədə və səcdənin zikrini rükuda bilərəkdən deməyin iradı varmı?

**Cavab: Əgər bu zikrlər izzətli və cəlalətli Allahı ümumi zikr etmək niyyətilə deyilərsə, maneəsi yoxdur. Rüku, səcdə və namaz bütünlüklə düzgündür. Amma rüku və səcdənin xüsusi zikri də deyilməlidir.**

**Sual 481:** Əgər bir şəxs səhv edərək səcdədə rükunun zikrini desə və ya əksinə, rükuda səcdənin zikrini desə və həmin halda öz səhvini başa düşüb düzəltsə, onun namazı düzgün deyildir?

**Cavab: Maneəsi yoxdur və namazı düzgündür.**

**Sual 482:** Əgər namaz qılan şəxs namazda və ya namazı qılıb qurtardıqdan sonra rükunun və ya səcdənin zikrini səhv dediyini başa düşsə, hökmü nədir?

**Cavab: Əgər rükudan və səcdələrdən sonra başa düşsə, ona heç nə vacib olmur.**

**Sual 483:** Namazın üçüncü və dördüncü rəkətlərində təsbihati-ərbəəni bir dəfə demək kifayət edirmi?

**Cavab: Kifayət edir, baxmayaraq ki, üç dəfə demək ehtiyata müvafiqdir.**

**Sual 484:** Namazda təsbihati-ərbəə üç dəfə deyilir, amma bir şəxs səhv edib dörd dəfə demişdir. Onun namazı Allah dərgahında qəbuldurmu?

**Cavab: Maneəsi yoxdur.**

**Sual 485:** Namazın üçüncü və dördüncü rəkətlərində təsbihati-ərbəəni üç dəfə, yaxud çox və ya az dediyini bilməyən şəxsin hökmü nədir?

**Cavab: Təsbihati-ərbəəni bir dəfə də demək kifayət edir və bu şəxsə bir şey vacib olmur. Rükuya getməmiş o, ehtimal verdiyi sayların ən azını qəbul edib təsbihati-ərbəəni təkrar edə və beləliklə, onu üç dəfə dediyinə yəqin edə bilər.**

**Sual 486:** "Bi-həvlillahi və quvvətihi əqumu və əq\`udu" zikrini namazda hərəkət edən halda demək olarmı? Bu zikri qiyam halında demək düzgündürmü?

**Cavab: Maneəsi yoxdur. Ümumiyyətlə, bu zikr qiyam halında sonrakı rəkət üçün deyilir.**

**Sual 487:** "Zikr" dedikdə, nə nəzərdə tutulur? Peyğəmbərə (s) və onun ailəsinə salavat da zikrdirm

**Cavab: İzzətli və cəlalətli Allahın zikrini (yadını) ehtiva edən hər bir ifadə "zikr" hesab olunur. Məhəmmədə və Ali-Məhəmmədə (Allahın ən üstün salamları olsun onlara) salavat, ən üstün zikrlərdəndir. Amma rüku və səcdənin "vacib zikr"i bundan ibarətdir: rükuda bir dəfə "Subhanə rabbiyəl əzimi və bi-həmdihi" və səcdədə bir dəfə "Subhanə rabbiyəl ə\`la və bi-həmdihi" demək, yaxud rükuda və səcdədə üç dəfə "Subhanəllah" demək. Əgər onun yerinə ("Subhanəllah"ın yerinə) eyni sayda başqa zikrlər – məsələn, "Əlhəmdu lillah", "Əllahu əkbər" və s. – desə, kifayət edir.**

**Sual 488:** **Bir rəkət olan vətr namazında qunut üçün əlləri qaldıranda və izzətli və cəlalətli Allahdan istəkləri diləyəndə, duaları fars dilində deməyin maneəsi varmı?**

**Cavab: Qunutda fars dilində dua etməyin maneəsi yoxdur. Ümumiyyətlə, qunutda hər dildə hər duanı etmək olar.**

## Səcdə və onun hökmləri

**Sual 489:** **Sement və mozaika üzərinə səcdə etməyin və təyəmmüm etməyin hökmü nədir?**

**Cavab: Bu ikisinin üzərinə səcdə etməyin və təyəmmüm etməyin maneəsi yoxdur. Amma sement və mozaika üzərinə təyəmmüm etməmək əhvətə müvafiqdir.**

**Sual 490:** **Namazda əlləri xırda dəlikləri olan mozaikanın üstünə qoymağın maneəsi vardırmı?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 491:** **Qaralmış və çirklənmiş möhrün üzərinə səcdə etməyin maneəsi varmı? Belə ki, möhrün üzərini çirk qatı bağlamış və alının möhürə dəyməsinə mane olur.**

**Cavab: Əgər möhrün üzərindəki çirk alın ilə möhür arasında maneə yaradarsa, səcdə və namaz düzgün deyildir.**

**Sual 492:** **Möhür üzərinə səcdə edərkən alnı, xüsusilə, səcdə yeri hicabla örtülən qadına namazlarını yenidən qılmaq vacibdirmi?**

**Cavab: Əgər səcdədə möhür ilə alnı arasında maneənin olduğunu başa düşməyibsə, namazı yenidən qılmaq ona vacib deyildir.**

**Sual 493:** **Bir qadın səcdə edərkən alnını möhürün üzərinə qoymuş və alnının möhürlə tam şəkildə təmasda olmadığını başa düşmüşdür. Belə ki, çadrası və ya yaylığı alnın möhürə tam şəkildə dəyməsinə mane olmuşdur. Ona görə də alnını möhürdən qaldırmış və maneəni aradan qaldırdıqdan sonra yenidən möhürün üzərinə qoymuşdur. Onun namazının hökmü nədir? Əgər onun bu əməli müstəqil səcdə hesab olunarsa, qıldığı namazların hökmü nədir?**

**Cavab: O, alnını möhürdən qaldırmadan sadəcə sürüşdürməli və ya maneəni alnının altından çəkib çıxartmalı və bu yolla alnını ən azı bir barmağın ucu qədər möhürün üzərinə qoymalı idi. Əgər o, məsələni bilmədiyinə və ya unutduğuna görə alnını möhürdən qaldıraraq möhürün üzərinə səcdə etmək istəyibsə və bu əməli bir rəkətin təkcə bir səcdəsində edibsə, namazı düzgündür və onu yenidən qılması vacib deyildir. Amma əgər məsələni bildiyi halda və bilərəkdən bu əməli edibsə, yaxud bu əməli bir rəkətin hər iki səcdəsində edibsə, namazı düzgün deyildir və onu yenidən qılmalıdır.**

**Sual 494:** **Səcdə edərkən bədənin yeddi üzvü yerə qoyulmalıdır. Amma biz müharibə əlili olduğumuza görə bunu edə bilmirik. Çünki əlil arabasından istifadə edirik. Namaz qılanda möhürü qaldırıb alına qoyur, ya da möhürü arabanın dəstəyi üstünə qoyur və möhürün üzərinə səcdə edirik. Bu əməl düzgündürmü, yoxsa yox?**

**Cavab: Əgər möhürü arabanın dəstəyi və ya başqa bir şeyin, məsələn, balış və ya stulun üstünə qoya və möhürün üzərinə səcdə edə bilirsinizsə, səcdəni bu şəkildə yerinə yetirməlisiniz və sizin namazınız düzgündür. Mümkün olmadığı təqdirdə isə, möhürü əlinizlə yuxarı qaldırın və alnı möhürün üzərinə qoyun. Amma əgər əsla əyilə bimirsinizsə, bu halda səcdəyə getmək əvəzinə baş ilə səcdəyə işarə edin. Əgər bunu da edə bilmirsinizsə, göz ilə səcdəyə işarə edin. İnşallah, müvəffəq olun.**

**Sual 495:** **Müqəddəs ziyarətgahlarda mərmər döşəmələrin üzərinə səcdə etməyin hökmü nədir?**

**Cavab: Mərmər daşın üzərinə səcdə etməyin maneəsi yoxdur.**

**Sual 496:** **Səcdədə ayağın baş barmağından əlavə, ayaq barmaqların bəzilərini yerə qoya bilərikmi?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 497:** **Namaz üçün bir möhür düzəldilib ki, rəkətlərin və səcdələrin sayını sayır və beləliklə, namaz qılan şəxsin şəkkini müəyyən qədər aradan qaldırır. Möhürün altında metal qurğu olduğuna görə alnı onun üzərinə qoyanda möhür aşağıya tərəf hərəkət edir. Belə olduğu halda, bu möhürün üzərinə səcdə etmək düzgündürmü? Xahiş edirəm, öz nəzərinizi bildirin.**

**Cavab: Əgər alının qoyulduğu yer, üzərinə səcdə etməyin düzgün olduğu şeylərdən olarsa və alını onun üzərinnə qoyandan sonra möhür hərəkət etməzsə, onun üzərinə səcdə etməyin maneəsi yoxdur.**

**Sual 498:** **Səcdədən qalxıb əyləşəndə hansı ayaq digərinin üstünə qoyulur?**

**Cavab: Sol budun üstündə oturmaq və sağ ayağın üstünü sol ayağın altına qoymaq müstəhəbdir.**

**Sual 499:** **Səcdədə və rükuda vacib zikri dedikdən sonra hansı zikri demək daha fəzilətlidir?**

**Cavab: Elə vacib zikri təkrarlamaq fəzilətlidir və bu zikrlərin tək sayda deyilməsi daha yaxşıdır. Deyilənlərdən əlavə, səcdədə salavat demək və dünya və axirət hacətlərini istəmək müstəhəbdir.**

**Sual 500:** **Vacib səcdəsi olan ayələrin qiraətini diskdən dinləyəndə, yaxud radio və televiziyadan yayımlanarkən eşidəndə, şəri vəzifəmiz nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, səcdə etmək vacibdir.**

## Namazın düzgün olmamasına səbəb olan işlər

**Sual 501:** Təşəhhüddə Əmirəl-mömінin Əlinin (ə) imamlığına şəhadət vermək namazın düzgün olmamasına səbəb olurmu?

**Cavab: Namazı, o cümlədən, təşəhhüdü şiə mərcəyi-təqlidlərinin (Allah onların sayını artırsın) öz risalələrində ("Şəriət hökmlərinin izahı" adlı kitablarda) qeyd etdikləri kimi qılın və deyin, ona heç nəyi əlavə etməyin, hətta doğru və düzgün bir kəlam olsa belə.**

**Sual 502:** Bir şəxs ibadətlərində riyaya mübtəla olubdur və indi öz nəfsi ilə mübarizə aparır. Onun bu əməli də riya hesab olunurmu? Riyadan necə uzaq olmaq olar?

**Cavab: Allah üçün yerinə yetirilən hər bir əməl, o cümlədən, riya ilə mübarizə aparmaq, riya hesab olunmur. Riyadan qurtulmaq üçün Mütəal Allahın əzəməti və məxluqatın Ona ehtiyacı barədə, həmçinin bütün insanların Mütəal Allahın bəndəsi və köləsi olduğu barədə düşünmək lazımdır.**

**Sual 503:** Əhli-sünnə qardaşların camaat namazında iştirak edəndə, imam-camaat "Həmd" surəsini oxuduqdan sonra cəm halda ucadan "amin" deyilir. Bu işin hökmü nədir?

**Cavab: Əgər təqiyyə "Amin" deməyi tələb edirsə, bu ifadəni deməyin maneəsi yoxdur. Əks təqdirdə, deyilməsinə icazə verilmir.**

**Sual 504:** Bəzən vacib bir namazı qılan zaman uşağın təhlükəli işlə məşğul olduğu diqqətimizi çəkir. Uşağa və ya evdəkilərə bunu başa salmaq və təhlükənin aradan qalxması üçün "Həmd" surəsinin və ya başqa surələrin bəzi sözlərini, yaxud bəzi zikrləri ucadan deyə bilərikmi? Əgər bir kəsə nəyisə başa salmaq və ya onun sualının cavabını vermək üçün namazın qiyamında əli və ya qaşları hərəkət etdirsək, bu namazın hökmü nədir?

**Cavab: Əgər ətrafdakılara nəyisə başa salmaqdan ötrü ayələri qiraət edən və ya namazın zikrlərini deyən zaman səsi ucaltmaq, namaz halətindən çıxmağa səbəb olmazsa, maneəsi yoxdur. Bu şərtlə ki, qiraət və zikr, qiraət və zikr niyyətilə olsun. Əgər əl və ya qaş-göz cüzi miqdarda hərəkət etdirilərsə və bunun namazda hərəkətsiz olmaq və namazın surəti ilə ziddiyyəti olmazsa, namazın düzgün olmamasına səbəb olmur.**

**Sual 505:** Əgər bir şəxs namazda gülməli bir söz yadına düşdüyünə və ya gülməli bir vəziyyət yarandığına görə gülərsə, namazı pozulurmu, yoxsa yox?

**Cavab: Əgər səs ilə (yəni qəhqəhə ilə) və bilərəkdən gülərsə, namaz pozulur.**

**Sual 506:** Namazda qunutdan sonra əlləri üzə çəkmək namazın pozulmasına səbəb olurmu? Namazı pozduğu təqdirdə, bu əməl günah hesab olunurmu?

**Cavab: Bu əməl məkruhdur, amma namazı pozmur.**

**Sual 507:** Namazda gözləri yummağa icazə verilirmi, bu əsasla ki, gözlərin açıq olması insanın fikrini namazdan yayındırır?

**Cavab: Namazda gözləri yummağın şəri maneəsi yoxdur, baxmayaraq ki, rükudan qeyri halda gözləri yummaq məkruhdur.**

**Sual 508:** Mən bəzən namazda zalım "Bə`s" rejimi ilə müharibə dövründəki mənəvi hallarımızı xatırlayıram və bu, namazda

**mənim xüşu halımın artmasına səbəb olur? Bu iş namazın düzgün olmamasına səbəb olurmu?**

**Cavab: Namazın düzgünlüyünə xələl gətirmir.**

**Sual 509: İki nəfər arasındakı küskünlüyün üç gün davam etməsi onların namaz və oruclarının düzgün olmamasına səbəb olurmu?**

**Cavab: İki nəfər arasında ədavət və küskünlük namazı və orucu pozmur, baxmayaraq ki, bu əməl şəri baxımdan məzəmmət olunur.**

## Salam

**Sual 510:** **"Salam" ifadəsi ilə olmayan görüşmənin cavabını vermək barədə sizin nəzəriniz nədir?**

**Cavab: Namazda belə görüşmənin cavabını verməyə icazə verilmir. Amma namazdan qeyri halda, əgər ürfdə bu ifadə görüşmək hesab olunursa, onun cavabını vermək ehtiyata müvafiqdir.**

**Sual 511:** **Uşaqların – istər qız, istər oğlan uşağının – salamının cavabını vermək vacibdirmi?**

**Cavab: Müməyyiz uşaqların – istər oğlan, istər qız uşağının – salamının cavabını vermək, eynilə qadınların və kişilərin salamının cavabını vermək kimi vacibdir.**

**Sual 512:** **Əgər bir şəxs salamı eşitsə, amma unudaraq və ya hər hansı bir səbəbə görə salamın cavabını verməsə, belə ki, bunun üstündən az bir zaman keçsə, bu halda salamın cavabını vermək vacibdirmi?**

**Cavab: Əgər salamın cavabını vermək o qədər təxirə düşsə ki, artıq ona "salamın cavabı" deyilməzsə, vacib deyildir.**

**Sual 513:** **Əgər bir şəxs bir dəstə insana salam verərək "əssəlamu ələykum cəmiən" desə və bu insanlardan biri namaz qılmaqla məşğuldursa, salamın cavabını vermək ona da vacibdirmi, hətta əgər başqaları salamın cavabını vermiş olsalar belə?**

**Cavab: Əgər salamın cavabını başqası veribsə, namaz qılan şəxs cavab verməsin.**

**Sual 514:** **Əgər bir şəxs bir vaxtda bir neçə dəfə salam desə və ya bir neçə nəfər salam versələr, onların hamısına bir dəfə cavab vermək kifayət edirmi?**

**Cavab: Birinci halda bir cavab kifayət edir. İkinci halda isə, onların salamının cavabını vermək niyyətilə onların hamısına şamil olan bir ifadə ilə bir cavab vermək kifayət edir.**

**Sual 515:** **Bir şəxs salamlaşarkən "səlamun ələykum" ifadəsi yerinə "salam" kəlməsindən istifadə edir. Onun salamının cavabını vermək vacibdirmi?**

**Cavab: Əgər ürfdə buna görüşmək və salamlaşmaq deyilirsə, cavab vermək vacibdir. Ehtiyata görə, salamın cavabını verərkən "salam" sözü əvvəldə işlənməlidir. Məsələn, "səlamun ələykum" və ya "əs-səlamu ələykum" demək lazımdır, "ələykumus-səlam" deyilməməlidir.**

## Namazın şəkləri

**Sual 516:** **Əgər bir şəxs namazın üçüncü rəkətində şəkk etsə ki, görəsən qunutu yerinə yetiribdir, yoxsa yox, hökmü nədir? O, namazını tamamlamalıdırmı, yoxsa şəkk etdiyi vaxt namazı kəsməlidir?**

**Cavab: Sözügedən şəkkə etina olunmur və namaz düzgündür. Bu xüsusda mükəlləfə heç nə vacib olmur.**

**Sual 517:** **Əgər bir şəxs nafilə namazında rəkətlərin sayından qeyri bir xüsusda şəkk etsə - məsələn, bir səcdə, yoxsa iki səcdə etdiyinə şəkk etsə - bu şəkkə etina olunurmu?**

**Cavab: Nafilə namazının sözlərində və hərəkətlərində şəkk etmək, vacib namazın sözlərində və hərəkətlərində şəkk etmək hökmündədir. Yəni əgər həmin sözün və ya hərəkətin yeri keçməyibsə, bu şəkkə etina olunur. Yox əgər yeri keçibsə, ona etina olunmur.**

**Sual 518:** **Çox şəkk edən şəxsin öz şəkkinə etina etməməli olduğunu nəzərə alaraq, əgər o, namazda nəyəsə şəkk etsə, vəzifəsi nədir?**

**Cavab: Şəkk etdiyi işi yerinə yetirdiyinə qərar verməlidir. Amma əgər bu iş namazın düzgün olmamasına səbəb olan bir işdirsə, bu təqdirdə həmin işi yerinə yetirmədiyini qəbul etməlidir və bu xüsusda rəkətlərin sayı, namazın hərəkətləri və sözləri arasında heç bir fərq qoymamalıdır.**

**Sual 519:** **Əgər bir şəxs bir neçə ildən sonra ibadətlərinin düzgün olmadığını başa düşsə, yaxud ibadətlərinin düzgün olmadığına şəkk etsə, vəzifəsi nədir?**

**Cavab: Əməldən sonra edilən şəkkə etina olunmur. Əgər ibadətlərinin düzgün olmadığına yəqinliyi olsa, qəzasını yerinə yetirə biləcəyi ibadətlərin qəzasını yerinə yetirməldir.**

**Sual 520:** **Əgər bir şəxs namazın bəzi əməllərini yanlışlıqla başqa əməllərin yerində yerinə yetirsə, yaxud namazda nəyəsə baxsa, yaxud da yanlışlıqla danışsa, onun namazı pozulurmu? Onun vəzifəsi nədir?**

**Cavab: Namazda yanlışlıqla bir əməli yerinə yetirmək namazın pozulmasına səbəb olmur. Amma bəzi hallarda "səhv-səcdəsi"nin[1] vacib olmasına və ya başqa hökmlərə səbəb olur. Əlbəttə, əgər namazın "rükn"ü[2] azalar və ya artarsa, yaxud namazın surəti pozularsa, bu hallarda namazın pozulmasına səbəb olur.**

**Sual 521:** **Əgər bir şəxs namazın bir rəkətini unutsa və axırıncı rəkətdə bunu başa düşsə, məsələn, namazın birinci rəkətinin ikinci rəkət olduğunu düşünsə və buna görə də üçüncü və dördüncü rəkətləri qılsa, amma axırıncı rəkətdə üçüncü rəkətdə olduğunu başa düşsə, onun vəzifəsi nədir?**

**Cavab: Namazın salamını deməmişdən öncə qılmadığı rəkəti qılmalı, sonra namazın salamını deməlidir. Bu halda, namazın vacib təşəhhüdünü öz yerində demədiyinə görə, unudulmuş təşəhhüd üçün iki səhv-səcdəsi yerinə yetirməlidir. Ehtiyata görə, səhv-səcdəsindən qabaq unudulmuş təşəhhüdün qəzasını yerinə yetirməlidir. Əgər üçüncü rəkətdə ikən axırıncı rəkətdə olduğunu düşünüb salam deyibsə, ehtiyat-vacibə görə, daha iki səhv-səcdəsi yerinə yetirməlidir. Bu səhv-səcdəsini də təşəhhüdün qəzasından sonra**

**yerinə yetirməlidir.**

**Sual 522:** **Mükəlləf "ehtiyat namazı"nın[3] rəkətlərinin sayını – bir rəkət, yoxsa iki rəkət olduğunu – necə bilməlidir?**

**Cavab: Ehtiyat namazının rəkətlərinin sayı, namazın rəkətlərinin sayının nə qədər əskik olduğuna dair verilən ehtimala bağlıdır. Beləliklə, iki rəkət və dörd rəkət arasındakı şəkdə iki rəkət ehtiyat namazı qılmaq vacibdir. Üç rəkət və dörd rəkət arasındakı şəkdə isə, bir rəkət ayaq üstə ehtiyat namazı və iki rəkət oturan halda ehtiyat namazı qılmaq vacibdir.**

**Sual 523:** **Əgər namazın zikrlərindən, yaxud Quran ayələrindən, yaxud da qunutun dualarından bir kəlməsi bilmədən səhv oxunsa, səhv-səcdəsi vacib olurmu?**

**Cavab: Vacib olmur.**

---

[1] Səhv-səcdəsi – namazda bilmədən yol verilən səhvlərə görə namazdan sonra yerinə yetirilən səcdədir.
Səhv-səcdəsinin qaydası belədir: Namazı tamamladıqdan dərhal sonra əyləşən halda səhv-səcdəsinin niyyətini edib, iki səcdə yerinə yetirirsən və səcdədə ehtiyata əsasən bu zikri deyirsən:
"بِسْمِ اللهِ وَ بِاللهِ، اَلسَّلامُ عَلَيکَ اَيُّهَا النَّبِیُّ وَ رَحْمَةُ اللهِ وَ بَرَکاتُهُ"

"Bismilləhi və billəhi, Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərəkatuh." İkinci səcdədən qalxdıqdan sonra təşəhhüdü və salamları deyirsən.
Səhv-səcdəsinin bir sıra şəri hökmləri vardır. "Şəriət hökmlərinin izahı" adlı kitaba müraciət edə bilərsiniz.

[2] Rükn – ibadətin ən əsas hissəsidir, belə ki, səhvə yol verilərsə (hətta bilmədən olsa belə), ibadətin düzgün olmamasına səbəb olur. Namazın rüknləri bunlardır: niyyət, təkbirətul-ehram, qiyam, rüku, iki səcdə.

[3] Ehtiyat namazı - şəkk olunan rəkətlərin əvəzində qılınan namazdır.
Ehtiyat namazının qaydası belədir: Namazı tamamladıqdan dərhal sonra ehtiyat namazının niyyətini edib təkbirətul-ehramı deyirsən. Həmdi oxuyub rüku və səcdələri yerinə yetirirsən. Əgər bir rəkət ehtiyat namazı qılmalısansa, iki səcdədən sonra təşəhhüdü və salamları deyirsən. Yox əgər iki rəkət ehtiyat namazı qılmalısansa, ikinci rəkətin səcdələrindən sonra təşəhhüdü və salamları deyirsən.
Ehtiyat namazının bir sıra şəri hökmləri vardır. "Tovzihil-məsail" kitabına müraciət edə bilərsiniz.

## Qəza namazı

**Sual 524:** Mən on yeddi yaşınadək möhtəlim olmaq, qüsl etmək və bu kimi məsələləri bilməmişəm. Bu barədə başqalarından da heç nə eşitməmişəm. Özüm də cənabətli olmaq və qüsl etməyin vacibliyini başa düşməmişəm. Buna görə, bu yaşa qədər mənim namazım və orucum iradlıdır. Xahiş edirəm, mənim vəzifəmi açıqlayasınız.

**Cavab: Cənabətli halda qıldığınız bütün namazların qəzasını qılmalısınız. Amma cənabətli olduğunuzu bilmədən cənabətli halda tutduğunuz oruclar düzgündür və kifayət edir, qəzası yoxdur.**

**Sual 525:** Təəssüflər olsun ki, mən əvvəllər cəhalət və iradə zəifliyi üzündən çox pis bir əməl olan istimnaya mübtəla olmuşdum. Buna görə də, bəzən namaz qılmırdım və bunun dəqiq müddəti yadımda deyildir. Mənim namaz qılmamağım davamlı şəkildə olmayıbdır və ancaq cənabətli olduğum və qüsl etmədiyim müddətdə olub. Güman edirəm ki, bu müddət təxminən altı ay olar. Bu müddətdə qılmadığım namazların qəzasını qılmağı qərara almışam. Bu namazların qəzası vacibdir, yoxsa yox?

**Cavab: Əgər bilirsinizsə ki, gündəlik namazlardan nə qədərini qılmamısınız və ya cənabətli halda qılmısınız, bu namazların qəzasını qılmaq sizə vacibdir.**

**Sual 526:** Əgər boynunda qəza namazının olub-olmadığını bilməyən şəxs müstəhəb və ya nafilə namazı qılsa, boynunda qəza namazı olduğu təqdirdə, bu namazlar onun qəza namazının yerinə hesab olunurmu?

**Cavab: Nafilə və müstəhəb namazlar qəza namazının yerinə hesab olunmur. Əgər onun boynunda qəza namazı varsa, onu qəza namazı niyyətilə qılmalıdır.**

**Sual 527:** Mən təxminən altı aydır ki, şəri vəzifə yaşına çatmışam. Bu yaşa çatmamışdan bir neçə həftə öncəyə qədər elə bilirdim ki, büluğun yeganə əlaməti hicri-qəməri ili ilə on beş yaşın tamamlanmasıdır. Amma indi oğlanların büluğunun əlamətləri barədə bir kitab oxumuşam ki, orada büluğun digər əlamətləri də qeyd olunubdur. Belə ki, bu əlamətlər məndə mövcuddur, amma onların nə zaman ortaya çıxdığını bilmirəm. Hal-hazırda mənim boynumda namaz və orucun qəzası varmı, yoxsa yox? Qeyd etməliyəm ki, mən bəzən namaz qılmışam və keçən il ramazan ayının hamısını oruc tutmuşam. Bu xüsusda mənim vəzifəm nədir?

**Cavab: Büluğ və şəri vəzifə yaşına çatıb əldən verdiyinizə yəqinliyiniz olan bütün namazların və orucların qəzası sizə vacibdir.**

**Sual 528:** Əgər bir şəxs mübarək ramazan ayında üç dəfə cənabət qüslü etsə (məsələn, ayın iyirmisi, iyirmi beşi və iyirmi yeddisi qüsl etsə) və sonradan bu qüsllərdən birinin düzgün olmadığına yəqin etsə, onun namaz və orucunun hökmü nədir?

**Cavab: Orucu düzgündür. Amma ehtiyata görə, boynuna düşən vəzifəni yerinə yetirdiyinə yəqin etdiyi miqdarda namazların qəzasını qılmalıdır.**

**Sual 529:** Bir şəxs şəri hökmü bilmədiyinə görə, bir müddət qüsldə tərtibə riayət etməmişdir. Onun namaz və orucunun hökmü nədir?

**Cavab: Əgər qüslü şəri baxımdan düzgün olmayan bir tərzdə edibsə, boynunda qüsl olan bu halda qıldığı namazların qəzasını qılmalıdır. Amma oruca gəlincə, həmin vaxt qüslünün düzgün olduğuna etiqadı olubsa, orucu düzgün hökmündədir.**

**Sual 530:** Əgər bir şəxs bir ilin qəza namazını qılmağı qərara alıbsa, onu necə qılmalıdır?

**Cavab: Namazların birindən başlaya və gündəlik vacib namazları qıldığı ardıcıllıqla davam etdirə bilər.**

**Sual 531:** **Bir şəxsin boynunda uzun illərin qəza namazları vardır. O, bu namazları aşağıdakı ardıcıllıqla qıla bilərmi:**
**1- Məsələn, iyirmi sübh namazı qılır;**
**2- Zöhr və əsr namazlarının hər birindən iyirmisini qılır;**
**3- Məğrib və işa namazlarının hər birindən iyirmisini qılır.**
**Beləliklə, bir ilin namazlarını bu qaydada qılır.**

**Cavab: Zöhr namazları əsr namazlarından qabaq və məğrib namazları işa namazlarından qabaq qılındığı təqdirdə, namazların qəzasını bu ardıcıllıqla qılmağın maneəsi yoxdur.**

**Sual 532:** **Bir şəxs başından yaralanmış və beyninin bir hissəsi zədə almışdır, nəticədə, sol əli və ayağı və dili iflic olmuşdur. Həmçinin namazı unutmuş və onu öyrənməyə də qadir deyildir. Amma kitabdan oxumaq və ya diskdən eşitməklə namazın hissələrini müəyyən edə bilir. Hal-hazırda namazla əlaqədar onun iki çətinliyi vardır. Biri budur ki, sidiyin məxrəcini paklamağa və dəstəmaz almağa qadir deyildir. İkincisi budur ki, namazın qiraətində çətinliyi vardır. Onun vəzifəsi nədir? Həmçinin təxminən altı ay qəzaya verdiyi namazların hökmü nədir?**

**Cavab: Əgər başqalarının köməkliyi ilə olsa belə, dəstəmaz ala və ya təyəmmüm edə bilirsə, namazı bacardığı hər şəkildə, hətta diskdən dinləmək və ya vərəqdən oxumaqla olsa belə, qılması vacibdir. Bədənini paklamağa gəlincə, əgər başqalarının köməkliyi ilə belə, onu paklamağa qadir deyildirsə, napak bədənlə namaz qılsın və namazı düzgündür. Qəzaya verdiyi namazların qəzasını qılmaq da vacibdir. Yalnız namaz vaxtı boyunca bihuş olmaq nəticəsində qəzaya gedən namazlar istisnadır (yəni qəzası yoxdur).**

**Sual 533:** **Gənclik dövründə mənim zöhr və əsr namazlarım məğrib, işa, sübh namazlarından daha çox qəzaya gedibdir və onların ardıcıl olduğunu, sayını və tərtibini bilmirəm. Bu halda “dövri namaz” qılınmalıdırmı? Dövri namaz nədir? Xahiş edirəm, izah edin.**

**Cavab: Qəza namazında tərtibə (ardıcıllığa) riayət etmək – bir günün zöhr və əsr, məğrib və işa namazları istisna olmaqla – vacib deyildir və qəzaya verdiyinizi yəqinliklə bildiyiniz namazların qəzasını qılmaq kifayət edir. Tərtibin dəqiqləşməsi üçün namazın təkrarlanması mənasında olan dövri namaz sizə vacib deyildir.**

**Sual 534:** **İzdivac etdikdən sonra məndən bəzən bir maye xaric olurdu və mən onun napak olduğunu hesab edirdim. Ona görə də, cənabət qüslü niyyəti ilə qüsl edib, namazımı dəstəmaz almadan qılmışam. “Şəriət hökmlərinin izahı adlı” kitablarda bu maye “məzy” adlandırılmışdır. İndi bilmirəm ki, dəstəmaz almadan və cənabətli olmadığım bir halda cənabət qüslü edərək qıldığım namazların hökmü nədir?**

**Cavab: Həmin maye xaric olduqdan sonra dəstəmaz almadan və cənabət qüslü edərək qıldığınız bütün namazların qəzasını qılmaq vacibdir.**

**Sual 535:** **Bir kafir bir müddətdən sonra İslamı qəbul etmişdir. Qılmadığı namazların və tutmadığı orucların qəzası ona vacibdirmi?**

**Cavab: Vacib deyil.**

**Sual 536:** **Bəzi şəxslər kommunistlərin azdırıcı təbliğatları nəticəsində neçə illər namazı və digər vacib ibadətləri tərk etmişlər. Amma İmam Xomeyninin (r.ə) keçmiş Sovet İttifaqı rəsmilərinə göndərdiyi tarixi məktubdan sonra öz səhvlərini başa düşmüş və Allaha tərəf qayıdaraq tövbə etmişlər. Hal-hazırda onlar həmin namazlar və orucların hamısının qəzasını yerinə yetirməyə qadir deyillər. Onların vəzifəsi nədir?**

**Cavab: Onlar qəzaya verdikləri namazlar və oruclardan bacardıqları qədər qəzasını yerinə yetirməli, bacarmadıqlarını isə vəsiyyət etməlidirlər.**

**Sual 537:** **Bir şəxs vəfat etmiş və onun boynunda namazın və mübarək ramazan ayının orucunun qəzası vardır. Onun oğlan övladı yoxdur. Amma ondan müəyyən miqdar irs qalmışdır ki, bu, namaz və orucdan ancaq birinin qəzasını yerinə yetirməyə kifayət edir. Bu təqdirdə namazın qəzası öndə dayanır, yoxsa orucun qəzası?**

**Cavab: Namaz və oruc bir-birindən üstün götürülmür. Varislərə vacib deyildir ki, mərhumdan qalan irsi onun namaz və orucunun qəzasını yerinə yetirməyə sərf etsinlər. Amma əgər mərhum namaz və orucunun qəzasının yerinə yetirilməsi barədə vəsiyyət etsə, bu təqdirdə onun vəsiyyətinə əməl edərək əcir tutmaq və irsin üçdə birinin yetdiyi qədər namaz və orucunun qəzasını yerinə yetirmək lazımdır.**

**Sual 538:** **Mən əksər hallarda namazlarımı qılmış və namazım qəzaya getdiyi təqdirdə də onun qəzasını yerinə yetirmişəm. Mənim namazım ya yuxuya qalıb oyanmadığım hallarda, ya da bədənim və ya paltarım napak olduğu və onu paklamağa səhlənkarlıq göstərdiyim hallarda qəzaya getmişdir. Mən qəzaya gedən gündəlik namazlarımı və boynumda olan ayət namazlarını və qəsr namazları necə hesablamalıyam?**

**Cavab: Qəzaya getdiyinə yəqinliyiniz olan namazların qəzasını yerinə yetirmək kifayət edir. Bu namazlardan hansının qəsr və ya ayət namazı olduğuna yəqinliyiniz varsa, öz yəqinliyinizə müvafiq onları yerinə yetirin və qalanını gündəlik namazların qəzası ünvanında qılın. Sizə bundan artıq heç nə vacib deyildir.**

## Ata və ananın qəza namazı

**Sual 539:** **Atam insult keçirmiş və iki il müddətində xəstə yatmışdır. Buna görə yaxşı və pisi ayırd etməyə qadir deyildi, yəni düşünmə qabiliyyətini itirmişdi. Bu iki il ərzində namazlarını qılmamış və oruclarını tutmamışdır. Mən onun böyük oğlu olduğum üçün onun namaz və oruclarının qəzası mənə vacibdirmi? Mən bilirəm ki, əgər onun sözügedən xəstəliyi olmasaydı, onun namaz və oruclarının qəzası mənə vacib olacaqdı. Xahiş edirəm, bu məsələdə mənə yol göstərəsiniz.**

**Cavab: Əgər onun əqli zəifliyi, "dəli" adlanacaq həddə çatmamışdırsa və namaz vaxtı boyunca huşsuz vəziyyətdə olmamışdırsa, onun qəzaya gedən namazları və oruclarının qəzasını yerinə yetirmək sizə vacibdir. Əks təqdirdə, bu baxımdan sizə heç nə vacib deyildir.**

**Sual 540:** **Əgər bir şəxs vəfat etsə, onun orucunun kəffarəsini kim verməlidir? Onun kəffarəsini vermək onun oğullarına və qızlarına vacibdirmi, yoxsa başqa şəxs də onu verə bilər?**

**Cavab: Ataya vacib olan kəffarə əgər seçim edə bilmək şəklində olarsa, yəni onun həm oruc tutmağa və həm də yoxsula təam verməyə qüdrəti çatırdısa, bu təqdirdə əgər kəffarəni irsdən götürmək mümkündürsə, irsdən götürülür. Əks təqdirdə, ehtiyata görə, orucu tutmaq böyük oğula vacibdir.**

**Sual 541:** **Bir kişi müəyyən səbəblərə görə öz ailəsindən ayrılmış və onlarla əlaqə saxlamaq onun üçün mümkün deyildir. O, ailənin böyük övladıdır. Bu müddət ərzində onun atası dünyasını dəyişib. O isə, atasının boynunda nə qədər qəza namazı və ya başqa ibadətlərin olduğunu bilmir. Bu kişinin əcir tutmaq üçün maddi imkanı yoxdur. Özünün də yaşı çox olduğuna görə atasının qəza namazlarını və başqa ibadətlərini yerinə yetirə bilmir. Onun vəzifəsi nədir?**

**Cavab: Böyük oğul yalnız atanın qəza etdiyinə əmin olduğu namazların qəzasını qılmalıdır. Böyük oğul atasının qəza namazlarını mümkün olan hər şəkildə yerinə yetirməlidir. Əgər onları yerinə yetirməkdə acizdirsə, üzərinə heç bir vəzifə düşmür.**

**Sual 542:** **Əgər mərhumun böyük övladı qız və ikinci övladı oğlan olarsa, ata və ananın namaz və orucunın qəzası bu oğula vacibdirmi?**

**Cavab: Ata və ananın namaz və orucunun qəzasının vacib olma meyarı, mərhumun oğlan övladının digər oğlan övladlarından - əgər mərhumun oğlan övladları varsa – böyük olmasıdır. Sualda deyilənləri nəzərə alaraq, atanın namaz və orucunun qəzası atanın ikinci övladı olan bu oğula vacibdir. Ananın namaz və orucunun qəzası da, ehtiyat-vacibə görə, ona vacibdir.**

**Sual 543:** **Əgər böyük oğul – istər büluğa çatmış olsun, istər büluğa çatmamış olsun – atadan qabaq vəfat etsə, atanın namazlarının qəzası başqa övladların boynundan götürülürmü?**

**Cavab: Atanın namaz və orucunun qəzasını yerinə yetirmək şəri vəzifəsi, ata vəfat edəndə həyatda olan böyük oğula vacibdir, baxmayaraq ki, o, atanın birinci övladı və ya birinci oğlu deyildir.**

**Sual 544:** **Mən ailənin böyük oğluyam. Atamın qəza namazlarını qılmaqdan ötrü atam həyatda ikən ondan soruşub araşdırmaq mənə vacibdirmi? Yoxsa qəza namazlarının miqdarını mənə deməsi ona vacibdir? Mənə bu barədə heç nə demədiyi halda mənim vəzifəm nədir?**

**Cavab: Soruşub araşdırmaq sizə vacib deyildir. Amma ataya vacibdir ki, qəza namazlarını fürsət ikən özü qılsın və əgər qıla bilmirsə, vəsiyyət etsin. Hər halda, böyük oğulun şəri vəzifəsidir ki, atası vəfat etdikdən sonra atasının qəza etdiyini yəqin bildiyi namaz və orucların qəzasını yerinə yetirsin.**

**Sual 545:** **Bir şəxs vəfat edib və onun bütün sərvəti övladlarının yaşadığı bir evdir. Onun boynunda namaz və orucun qəzası var imiş. Onun böyük oğlu gündəlik məişət işlərinə görə bu namaz və orucun qəzasını yerinə yetirməyə qadir deyildir. Bu evi satıb onun qəza namaz və orucunu yerinə yetirmək vacibdirmi?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, evi satmaq vacib deyildir. Amma atanın boynunda olan namaz və orucun qəzasını yerinə yetirmək hər bir halda böyük oğula vacibdir. Amma əgər mərhum öz malının üçdə birindən əcir tutulmasını vəsiyyət etsə və irsin üçdə biri bütün qəza namazlarını və oruclarını yerinə yetirməyə kifayət etsə, bu təqdirdə irsin üçdə biri bu işə sərf olunmalıdır.**

**Sual 546:** **Əgər böyük oğul – belə ki, atanın qəza namazı bu oğulun öhdəsindədir – vəfat etsə, bu qəza namazlarını qılmaq böyük oğulun varisinin boynundadırmı? Yoxsa atanın sonrakı oğluna (yəni böyük oğulun qardaşına) vacib olur?**

**Cavab: Böyük oğul ata vəfat etdikdən sonra vəfat etdikdə, atanın qəza namazı və orucu bu oğlun oğluna və ya qardaşına vacib olmur.**

**Sual 547:** **Əgər ata, ümumiyyətlə, namaz qılmayıbsa, onun bütün namazlarının qəzası qılınmalıdırmı və onları qılmaq onun böyük oğluna vacibdirmi?**

**Cavab: Ehtiyata görə, onların qəzasını qılmaq vacibdir.**

**Sual 548:** **İbadətlərini bilərəkdən yerinə yetirməyən atanın bütün namaz və oruclarının qəzasını yerinə yetirmək – belə ki, bu ibadətlər təxminən əlli ilin ibadətidir – böyük oğula vacibdirmi?**

**Cavab: Bu halda da onların qəzasını yerinə yetirmək ehtiyata müvafiqdir.**

**Sual 549:** **Əgər böyük oğlun boynunda qəza namazı və orucu olsa, atanın da qəza namazı və orucu buna əlavə olunsa, hansı biri öndə dayanır?**

**Cavab: Bu halda o, seçim edə bilər və hansı birini yerinə yetirməyə başlasa, düzgündür.**

**Sual 550:** **Atamın boynunda bir qədər qəza namazı vardır, amma onları yerinə yetirməyə qadir deyildir. Ailənin böyük oğlu olaraq, mən atam həyatda ikən onun qəza namazlarını qıla və ya bu iş üçün başqa bir şəxsi əcir tuta bilərəmmi?**

**Cavab: Həyatda olan şəxsin əvəzinə onun qəza namazı və orucunu yerinə yetirmək düzgün deyildir.**

## Camaat namazı

**Sual 551:** İmam-camaat namazda hansı niyyəti etməlidir? Camaat namazı, yoxsa fərdi namaz niyyəti etməlidir?

**Cavab: Əgər camaat namazının fəzilətini əldə etmək istəyirsə, imam-camaat və camaat namazı niyyəti etməlidir. Əgər imam-camaat niyyəti etməsə və namaz qılsa, onun namazının və başqalarının ona iqtida etməsinin maneəsi yoxdur.**

**Sual 552:** Hərbi hissələrdə iş saatında camaat namazı təşkil edildiyi zaman bəzi hərbçilər işlərinin çoxluğuna görə camaat namazında iştirak etmirlər. Halbuki, bu işləri iş saatından sonra və ya sonrakı gün görmək mümkündür. Bu əməl namazı yüngül saymaqdırmı?

**Cavab: Namaz vaxtının əvvəlində və camaat namazı qılmağın fəzilətini əldə etmək üçün yaxşı olar idarə işləri elə bir şəkildə tənzimlənsin ki, hərbçilər bu ilahi vacib əməli camaat namazı şəklində və az bir müddət ərzində qıla bilsinlər.**

**Sual 553:** Dövlət idarələrinin namazxanalarında təşkil olunan camaat namazından qabaq və ya sonra, yaxud da iki namaz arasında müstəhəb əməlləri yerinə yetirmək, məsələn, müstəhəb namazlar qılmaq ya təvəssül duası oxumaq ya digər uzun duaları oxumaq barəsində sizin nəzəriniz nədir? Qeyd edək ki, bu müstəhəb əməllər camaat namazından daha uzun çəkir.

**Cavab: İslamın şüarlarından olan camaat namazında dualar oxumaq və müstəhəb əməllər yerinə yetirmək, əgər idarənin iş saatını tutmazsa və vacib işlərin təxirə düşməsilə nəticələnməzsə, bu əməlləri yerinə yetirməyin maneəsi yoxdur.**

**Sual 554:** Azan və iqaməsinin səsi eşidilən və çox sayda namaz qılanların iştirakı ilə təşkil edilən camaat namazının yaxınlığında ikinci camaat namazının təşkil edilməsi düzgündürmü?

**Cavab: İkinci camaat namazının təşkil edilməsinin maneəsi yoxdur. Amma möminlərin bir məkanda toplaşmaları və hamının bir camaat namazında iştirak etməsi daha uyğundur, beləcə, dini mərasim olan camaat namazının əzəməti artar.**

**Sual 555:** Bəzi şəxslər camaat namazı qılınarkən fərdi şəkildə namaz qılırlar. Bu işin hökmü nədir?

**Cavab: Əgər bu iş camaat namazını zəiflətmək və ədalətinə camaatın etimadı olan imam-camaata qarşı hörmətsizlik hesab olunarsa, icazə verilmir.**

**Sual 556:** Bir məhallədə bir neçə məscid vardır və onların hamısında camaat namazı qılınır. İki məscid arasında bir ev vardır ki, bir məsciddən on ev və digər məsciddən iki ev qədər fasiləsi vardır. Bu evdə də camaat namazı qılınır. Bu camaat namazının hökmü nədir?

**Cavab: Yaxşı olar ki, camaat namazı vəhdət və insiyyət vasitəsi olsun, nəinki ixtilaf və təfriqə ab-havasının yaranmasına səbəb olsun. Hər halda, əgər məscidin yaxınlığındakı evdə camaat namazının təşkil edilməsi ixtilafa və pərakəndəliyə səbəb olmazsa, maneəsi yoxdur.**

**Sual 557:** Məscidin sabit imam-camaatının icazəsi olmadan – belə ki, bu imam-camaata Məscidlərin İdarəçiliyi Mərkəzi rəy veribdir - bir şəxs həmin məsciddə camaat namazı təşkil edə bilərmi?

**Cavab: Camaat namazı təşkil etmək məscidin sabit imam-camaatının icazəsinə bağlı deyildir. Amma yaxşı olar ki, məscidin sabit imam-camaatı camaat namazı qılmaq üçün həmin məsciddə hazır olduğu zaman kimsə ona mane olmasın. Hətta əgər ona mane olmaq fitnəyə və bu kimi hadisələrin baş verməsinə səbəb olarsa, bu iş haramdır.**

**Sual 558:** **Əgər imam-camaat bəzən xoşagəlməyən və din aliminin şəninə uyğun olmayan bir söz işlətsə və ya bir zarafat etsə, bu əməl ilə ədalətdən düşürmü?**

**Cavab: Əgər şəriətə zidd olan əməl olmasa, ədalətə xələl gətirmir.**

**Sual 559:** **İmam-camaatı həqiqətən tanımadan ona iqtida etmək olarmı?**

**Cavab: Əgər imam-camaatın ədaləti məmum (iqtida edən şəxs) üçün hansısa bir şəkildə sübuta yetibsə, ona iqtida etmək olar və camaat namazı düzgündür.**

**Sual 560:** **Əgər bir şəxsin başqa bir şəxsin ədalətinə və təqvasına etiqadı olarsa, amma eyni halda, həmin şəxsin bəzən ona zülm etdiyinə etiqadı olarsa, onu tam şəkildə ədalətli hesab edə bilərmi?**

**Cavab: Bu əməli – yəni onun zülm hesab etdiyi əməli - imam-camaatın bilərəkdən və ixtiyarlı şəkildə, həmçinin heç bir şəri icazə olmadan yerinə yetirdiyi onun üçün dəqiqləşməyənədək, imam-camaatın fasiq olduğuna hökm etməsinə icazə verilmir.**

**Sual 561:** **Əmr bil-məruf və nəhy ənil-munkər edə bilən, amma bunu etməyən bir imam-camaata iqtida etmək olarmı?**

**Cavab: Əmr bil-məruf və nəhy ənil-munkəri ancaq tərk etmək – belə ki, bu iş üçün mükəlləfin tutarlı bir səbəbi ola bilər - ədalətə xələl gətirmir və ona iqtida etməyə mane olmur.**

**Sual 562:** **Ədalətin mənası sizin nəzərinizə görə nədir?**

**Cavab: Ədalət mənəvi bir keyfiyyətdir ki, insanın daim təqvalı olmasına səbəb olur. Təqva, şəriətin vacib əməllərini tərk etməyə və haram əməllərini yerinə yetirməyə mane olan bir xüsussiyyətdir.**

**Sual 563:** **Biz bir neçə gəncik və əza məclislərində, hüseyniyyələrdə bir yerə toplaşırıq. Namaz vaxtı olanda aramızdan ədalətli bir şəxsi irəli keçirir və ona iqtida edərək camaat namazı qılırıq. Amma bəzi qardaşlar bu işə irad tutur və bildirirlər ki, İmam Xomeyni (r.ə) din alimindən qeyri bir şəxsin arxasında namaz qılmağı haram bilir. Bizim vəzifəmiz nədir?**

**Cavab: Din alimi hazır olduğu halda din alimi olmayan bir şəxsə iqtida etməsinlər.**

**Sual 564:** **İki nəfər camaat namazı təşkil edə bilərmi?**

**Cavab: Əgər imam-camaat və bir nəfər məmumdan ibarət camaat namazı təşkil etməyi nəzərdə tutursunuzsa, maneəsi yoxdur.**

**Sual 565:** **Əgər məmum zöhr və əsr namazlarını camaatla qılarkən diqqətini cəm etmək üçün Həmd və Surəni qiraət etsə – halbuki Həmd və Surəni oxumaq ona vacib deyildir – onun namazının hökmü nədir?**

**Cavab: Ahəstə qılınan namazlarda, o cümlədən, zöhr və əsr namazlarında ehtiyat-vacibə görə, məmum hətta diqqətini cəm etmək məqsədilə belə, Həmd və Surəni oxumamalıdır.**

**Həmd və Surənin yerinə zikr deməsi müstəhəbdir.**

**Sual 566: Əgər imam-camaat velosiped ilə camaat namazı qılmağa getsə və yol qaydalarına lazımınca riayət etsə, bunun hökmü nədir?**

**Cavab: Bu əməl ədalətə və camaat namazına imamlıq etməyin düzgünlüyünə xələl gətirmir.**

**Sual 567: Əgər bir şəxs camaat namazına çatmasa və yalnız namazın axırına çatsa, savab əldə etmək üçün təkbirətul-ehramı deyib əyləşsə və təşəhhüdü imam-camaatla birlikdə oxusa, imam-camaatın salamından sonra ayağa qalxıb birinci rəkəti qılsa, o, bu əməli dörd rəkətli namazların ikinci rəkətində də yerinə yetirə bilərmi?**

**Cavab: Bu, yalnız camaat namazının axırındakı təşəhhüdə aiddir və camaat namazının savabını əldə etməkdən ötrüdür.**

**Sual 568: İmam-camaat camaat namazının müqəddimə işləri üçün ücrət (zəhmət haqqı) ala bilərmi?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 569: İmam-camaat eyni bir zamanda iki namaza (bayram namazı və ya hər hansı bir namaz) imamlıq edə bilərmi?**

**Cavab: Gündəlik vacib namazlarda başqa məmumlar üçün camaat namazını bir dəfə təkrar qılmağa icazə verilir və hətta müstəhəbdir. Amma bayram namazında buna icazə verildiyi işkallıdır.**

**Sual 570: Əgər imam-camaat işa namazının üçüncü və ya dördüncü rəkətində olsa, məmum isə ikinci rəkətdə olsa, Həmd və Surəni ucadan qiraət etmək məmuma vacibdirmi?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, Həmd və Surəni ahəstə oxusun.**

**Sual 571: Camaat namazında salamdan sonra əvvəlcə Peyğəmbərə (s) salavat ayəsi oxunur və namaz qılanlar Məhəmmədə və Ali-Məhəmmədə (Allahın salamı olsun onlara) üç dəfə salavat göndərirlər. Sonra üç dəfə təkbir deyirlər. Daha sonra dua və möminlər tərəfindən bəraət şəklində siyasi şüarlar uca səslə deyilir. Bu əməlin iradı varmı?**

**Cavab: Ayə oxumaq və Peyğəmbərə (s) və onun Əhli beytinə (ə) salavat deməyin nəinki iradı yoxdur, hətta bəyənilən əməldir və savabı vardır. İslami şüarlar və İslam İnqilabının missiyasını və uca hədəflərini xatırladan İslam İnqilabının şüarlarını yaşatmaq bəyənilən əməldir.**

**Sual 572: Əgər bir şəxs camaat namazının ikinci rəkətində məscidə çatsa və şəri məsələni bilmədiyinə görə, sonrakı rəkətdə yerinə yetirməli olduğu təşəhhüd və qunutu yerinə yetirməsə, onun namazı düzgündürmü?**

**Cavab: Namazı düzgündür. Amma təşəhhüdü demədiyinə görə iki səhv-səcdəsi yerinə yetirməlidir. Ehtiyat-vacibə görə, səhv-səcdəsini yerinə yetirməmişdən qabaq unudulan təşəhhüdün qəzasını yerinə yetirməlidir.**

**Sual 573: Namazda iqtida etmək üçün iqtida edilən şəxsin icazəsi şərtdirmi? Məmuma iqtida etmək düzgündürmü?**

**Cavab: İmam-camaatın razılığı, iqtidanın düzgünlüyü üçün şərt deyildir. Əgər məmum öz namazını camaat namazı şəklində davam etdirirsə, ona iqtida etmək düzgün deyildir.**

**Sual 574: İki nəfər – biri imam-camaat və digəri məmum olaraq camaat namazı təşkil edirlər. Üçüncü bir şəxs ikinci şəxsin imam-camaat olduğunu güman edib ona iqtida edir, amma namazdan sonra onun imam-camaat deyil, məmum olduğunu başa**

düşür. Üçüncü şəxsin namazının hökmü nədir?

Cavab: Məmuma iqtida etmək düzgün deyildir. Amma əgər bir şəxs bilmədən məmuma iqtida etsə, bu təqdirdə əgər rükuda və səcdələrdə fərdi şəkildə namaz qılan şəxsin vəzifəsinə əməl etsə, yəni namazın hansısa bir rüknünü bilərəkdən və ya səhvən azaldıb-çoxaltmasa, namazı düzgündür.

Sual 575: İşa namazı qılmaq istəyən şəxs məğrib namazı qılan şəxsə iqtida edə bilərmi?

Cavab: Maneəsi yoxdur.

Sual 576: Əgər məmumların namaz məkanı ilə müqayisədə imam-camaatın namaz məkanın hündürlüyünə riayət olunmazsa, bu, məmumların namazının düzgün olmamasına səbəb olurmu, yoxsa yox?

Cavab: Əgər imam-camaatın namaz məkanı məmumların namaz məkanından şəriətin icazə verdiyi ölçüdən hündürdə olarsa (yəni bir qarış və ya daha hündür olarsa), bu, camaat namazının düzgün olmamasına səbəb olacaq.

Sual 577: Əgər camaat namazının cərgələrindən biri tamamilə namazı qəsr qılan şəxslərdən təşkil olsa və ondan arxadakı cərgədə dayananların namazı tam olsa, bu təqdirdə əgər qabaq cərgədəki şəxslər namazın iki rəkətini qıldıqdan sonra dərhal sonrakı iki rəkəti qılmaq üçün iqtida etsələr, onların arxasındakı cərgədə dayananların namazı namazın axırıncı iki rəkəti üçün camaat namazı olaraq qalırmı, yoxsa fərdi namaz olur?

Cavab: Sualda qeyd edildiyi kimi, əgər əvvəlki cərgədə dayananlar dərhal iqtida etsələr, camaat namazı olaraq qalır.

Sual 578: Əgər bir şəxs camaat namazının birinci cərgəsinin axırında – cərgənin ya sağ tərəfində, ya da sol tərəfində – dayansa, onunla imam-camaat arasında dayanan məmumlardan qabaq camaat namazına başlaya bilərmi?

Cavab: Əgər imam-camaat namaza başladıqdan sonra bu şəxs ilə imam-camaat arasında dayanan məmumlar iqtida etməyə tam hazır olub təkbir demək üzrə olsalar, bu şəxs camaat namazı niyyətilə namaza başlaya bilər.

Sual 579: Əgər bir şəxs camaat namazının üçüncü rəkətinə çatsa və imam-camaatın birinci rəkətdə olduğunu düşünüb heç nə oxumasa, namazı yenidən qılmaq ona vacibdirmi?

Cavab: Əgər rükuya getməmişdən öncə bunu başa düşsə, "qiraət", yəni Həmd və Surəni oxumaq vacibdir. Əgər vaxt azdırsa, təkcə Həmdi oxumalı və rükuda özünü imam-camaata çatdırmalıdır. Amma əgər rükuya getdikdən sonra bunu başa düşsə, namazı düzgündür və ona heç nə vacib deyildir. Baxmayaraq ki, qiraəti səhvən tərk etdiyi üçün iki səhv-səcdəsi yerinə yetirmək ehtiyat-müstəhəbə[1] müvafiqdir.

Sual 580: Dövlət idarələrində və orta məktəblərdə camaat namazının təşkil edilməsi üçün imam-camaata böyük ehtiyac vardır. Bizim məntəqədə məndən başqa din alimi olmadığına görə, mən bir namazı müxtəlif məkanlarda üç və ya dörd dəfə imam-camaat dayanaraq qılmaq məcburiyyətində qalıram. Nəzərə alsaq ki, bütün mərcəyi-təqlidlər ikinci camaat namazına icazə verirlər, ikidən çox camaat namazı qıldıqda "ehtiyat qəza namazı" niyyəti etmək olarmı?

Cavab: Suala əsasən, ehtiyat qəza namazı niyyəti ilə camaat namazına imamlıq etmək düzgün deyildir.

Sual 581: Universitetlərdən biri şəhərin məscidlərindən birinin yaxınlığında yerləşən korpuslarının birində öz işçiləri üçün

camaat namazı təşkil edir. Həmin vaxtda həmin məsciddə camaat namazının təşkil edildiyini nəzərə alaraq, universitetin təşkil etdiyi camaat namazında iştirak etməyin hökmü nədir?

**Cavab: Məmumun nəzərində iqtidanın və camaat namazının şərtlərinə malik olan bir camaat namazında iştirak etməyin maneəsi yoxdur, baxmayaraq ki, həmin vaxtda yaxınlıqdakı məsciddə camaat namazı təkil olunur.**

**Sual 582:** Peşəsi qazilik olan, amma müctəhid olmayan bir imam-camaatın arxasında namaz qılmaq düzgündürmü?

**Cavab: Əgər o, səlahiyyətli şəxs tərəfindən qazilik vəzifəsinə təyin olunubsa və beləcə, peşəsi qazilik olubsa, namazda ona iqtida etməyin maneəsi yoxdur.**

**Sual 583:** Müsafir namazında İmam Xomeyniyə (r.ə) təqlid edən bir şəxs həmin məsələdə başqa bir mərcəyi-təqlidə təqlid edən imam-camaata - xüsusilə də, cümə namazında - iqtida edə bilərmi?

**Cavab: Ayrı-ayrı mərcəyi-təqlidlərə təqlid etmək iqtidanın düzgünlüyünə maneə deyildir. Amma məmumun mərcəyi-təqlidinin fətvasına görə qəsr, imam-camaatın mərcəyi-təqlidinin fətvasına görə isə tam olan, yaxud əksinə olan bir namazda iqtida etmək düzgün deyildir.**

**Sual 584:** Əgər imam-camaat təkbirətul-ehramdan sonra səhvən rükuya getsə, məmumun vəzifəsi nədir?

**Cavab: Əgər məmum camaat namazına başladıqdan sonra və rükuya getməmişdən qabaq bunu başa düşsə, fərdi namaz niyyəti etməsi və Həmd-Surəni oxuması vacibdir.**

**Sual 585:** Əgər orta məktəbin şəri büluğa çatmayan şagirdlərindən bir dəstəsi camaat namazının üçüncü və ya dördüncü cərgəsindən sonrakı cərgələrdə dayansalar və onların arxasında şəri büluğa çatan və şəri vəzifə daşıyan şəxslər dayansalar, bu şəxslərin namazının hökmü nədir?

**Cavab: Əgər onlar şəri büluğa çatmayan şagirdlərin namazının düzgün olduğunu bilsələr, iqtida edə və camaat namazına qoşula bilərlər.**

**Sual 586:** Əgər bir imam-camaat müəyyən üzrü olduğuna görə qüsl əvəzinə təyəmmüm etsə, bu, camaat namazına imamlıq etmək üçün kifayət edirmi?

**Cavab: Əgər şəri üzrü olsa, qüsl əvəzinə təyəmmüm ilə imam-camaat ola bilər və ona iqtida etməyin maneəsi yoxdur.**

---

[1] Ehtiyat-müstəhəb – müctəhidin fətvasının kənarında qeyd olunan ehtiyatdır və ona əməl etmək tövsiyə olunur, amma vacib deyildir. Müqəllid həmin məsələdə başqa müctəhidə müraciət edə bilməz.

## Qiraəti düzgün olmayan imam-camaatın hökmü

**Sual 587:** **Qiraətin düzgünlüyü baxımından fərdi qılınan namazla, məmum və ya imamın namazı arasında fərq varmı? Yoxsa qiraətin düzgünlüyü bütün hallarda vahid bir məsələdir?**

**Cavab: Əgər mükəlləfin qiraəti düzgün olmasa və düzgün qiraəti də öyrənməyə qadir olmasa, onun namazı düzgündür. Amma başqaları ona iqtida edə bilməzlər.**

**Sual 588:** **İmam-camaatların bəzisinin qiraəti hərflərin öz məxrəcindən tələffüzü baxımından düzgün deyildir. Hərfləri öz məxrəcindən düzgün tələffüz edən bir şəxs onlara iqtida edə bilərmi? Bəziləri deyir ki, camaat namazı qıla bilərsiniz, amma sonra namazı yenidən qılmalısınız. Namazı yenidən qılmaq imkanım olmadığına görə mənim vəzifəm nədir? Mən camaat namazında iştirak edə, amma Həmd və Surəni ahəstə oxuya bilərəmmi?**

**Cavab: Əgər imam-camaatın qiraəti məmumun nəzərinə görə düzgün deyilsə, məmumun iqtida etməsi və onun camaat namazı düzgün deyildir. Əgər namazı yenidən qılmağa imkanı yoxdursa, iqtida etməməsinin maneəsi yoxdur. Amma zahirdə imam-camaata iqtida etdiyini göstərməkdən ötrü qiraəti ucadan oxunmalı olan namazı ahəstə qılmaq düzgün deyildir və kifayət etmir.**

**Sual 589:** **Bəziləri bu qənaətdədir ki, imam-cümələrin bəzisinin qiraəti düzgün deyildir. Belə ki, onlar ya hərfləri düzgün tələffüz etmir, ya da hərəkələri fərqli tələffüz edirlər. Onların arxasında qılınan namazı yenidən qılmamaq şərtilə, onlara iqtida etmək düzgündürmü?**

**Cavab: Qiraətin düzgünlüyü meyarı – hərflərin hərəkə və sükununa riayət etmək və hərfləri öz məxrəcindən tələffüz etməkdir. Belə ki, ərəbdillilər başqa hərfin deyil, məhz həmin hərfin tələffüz edildiyini söyləsinlər. Amma təcvid qaydalarına riayət etmək vacib deyildir. Əgər məmum imam-camaatın qiraətini düzgün hesab etməsə, ona iqtida edə bilməz. İqtida etdiyi təqdirdə, namazı düzgün deyildir və namazı yenidən qılmalıdır.**

**Sual 590:** **Əgər imam-camaat namazda kəlməni tələffüz etdikdən sonra onun tələffüzü qaydasında şəkk etsə və namazı qurtardıqdan sonra həmin kəlməni səhv tələffüz etdiyini bilsə, onun və məmumların namazının hökmü nədir?**

**Cavab: Namaz düzgün hökmündədir.**

**Sual 591:** **Əgər bir şəxsin, xüsusilə də, Quran müəlliminin yəqini olsa ki, imam-camaat namazın sözlərini təcvid baxımından səhv tələffüz edir, onun vəzifəsi nədir? Halbuki, bu şəxs camaat namazında iştirak etmədiyinə görə çoxlu töhmətlərə məruz qalır?**

**Cavab: Təcvid qaydalarına, yəni tələffüzün gözəlləşdirilməsi qaydalarına riayət etmək lazım deyildir. Amma əgər məmumun nəzərinə görə imam-camaatın qiraəti düzgün deyildirsə və nəticədə, onun namazını düzgün bilmirsə, ona iqtida edə bilməz. Amma məntiqi bir məqsədə görə, camaat namazında zahiri olaraq (formal olaraq) iştirak etməyin maneəsi yoxdur.**

## Əlil şəxsin imam-camaat olması

**Sual 592:** **Əli və ya ayağı iflic olan əziz müharibə əlillərinə namazda iqtida etməyin hökmü nədir?**

**Cavab: İqtida etməmək ehtiyata müvafiqdir.**

**Sual 593:** **Mən din elmləri tələbəsiyəm və sağ əlim cərrahiyyə əməliyyatı yolu ilə kəsilibdir. Təzəlikcə bilmişəm ki, İmam Xomeyni (r.ə) qüsurlu şəxsin sağlam şəxsə namazda imamlıq etməsini icazəli bilmir. Buna görə də, xahiş edirəm, indiyədək mənim imamlığım ilə namaz qılan məmumların namazlarının hökmünü açıqlayasınız.**

**Cavab: Bu miqdarda fiziki qüsurun olması imam-camaat olmağa maneəşilik yaratmır. Bəli, əgər əl və ayaq bütünlüklə kəsilərsə, imam-camaat dayanmaq iradlıdır.**

**Sual 594:** **Mən din elmləri tələbəsiyəm. İran İslam Respublikasına qarşı başladılan müharibədə ayağımdan yaralanmışam və ayağımın baş barmağı kəsilibdir. Hal-hazırda hüseyniyyələrin birində imam-camaatam. Bu əməlin şəri baxımdan maneəsi varmı? Xahiş edirəm, bunun hökmünü açıqlayın.**

**Cavab: İmam-camaatda bu həddə fiziki qüsurun olması, camaat namazına imamlıq etməyə xələl yetirmir. Əlbəttə, əgər əl və ya ayaq tam kəsilmiş olsaydı, camaat namazına imamlıq etmək məhəlli-işkal olardı (icazə verilməyəcəkdi).**

## Qadınların camaat namazında iştirak etmələri

**Sual 595:** Müqəddəs şəriət sahibi qadınları da kişilər kimi məscidlərdə təşkil olunan camaat namazında və ya cümə namazında iştirak etməyə təşviq etmişdirmi? Yoxsa qadınların evdə namaz qılmaları daha yaxşıdır?

**Cavab: Qadınların cümə və camaat namazında iştirak etmələrinin maneəsi yoxdur və camaat namazının savabını əldə edirlər.**

**Sual 596:** Qadın hansı təqdirdə imam-camaat ola bilər?

**Cavab: Camaat namazında qadının yalnız qadınlara imam-camaat olmasına icazə verilir.**

**Sual 597:** Qadınların (kişilər kimi) camaat namazında iştirak etmələrinin müstəhəblik və məkruhluq baxımından hökmü nədir? Kişilərin arxasında dayanaraq qadınların camaat namazında iştirak etmələrinin hökmü nədir? Kişilərin arxasında dayandıqları təqdirdə pərdəyə ehtiyac varmı? Əgər namazda qadınlar kişilərin kənarında dayansalar, pərdə baxımından bunun hökmü nədir? Qeyd edək ki, camaat namazında, söhbətlərdə və digər mərasimlərdə qadınların pərdə arxasında olmaları onlara qarşı təhqir və hörmətsizlikdir.

**Cavab: Qadınların camaat namazında iştirak etmələrinin maneəsi yoxdur. Əgər qadınlar kişilərin arxasında dayansalar, pərdəyə ehtiyac yoxdur. Amma əgər kişilərin kənarında dayansalar, yaxşı olar ki, onların arasında bir pərdə olsun, beləcə namazda kişilərlə qadınların bir-birinin kənarında dayanmalarının məkruhluğu aradan qalxsın. "Namazda qadınlarla kişilərin arasında pərdənin olması qadınların şəninə təhqir və hörmətsizlikdir" fikri, sadəcə bir xəyaldır və əsası yoxdur. Bundan əlavə, şəxsi nəzərlərin fiqhə müdaxilə etdirilməsi düzgün deyildir.**

**Sual 598:** Ortada pərdə olmadığı təqdirdə, qadınların və kişilərin cərgələrinin birləşməsi hansı şəkildə ola bilər?

**Cavab: Qadınlar kişilərin arxasında məsafə saxlamadan dayana bilərlər.**

## Əhli-sünnəyə iqtida etmək

**Sual 599:** **Əhli-sünnənin arxasında camaat namazı qılmağa icazə verilirmi?**

**Cavab: İslami vəhdətin qorunması üçün əhli-sünnənin arxasında camaat namazı qılmağa icazə verilir və namaz düzgündür.**

**Sual 600:** **Mənim iş yerim kürdlərin yaşadığı məntəqələrin birindədir. Oranın cümə və camaat namazlarının imam-camaatının əksəriyyəti əhli-sünnədir. Onlara iqtida etməyin hökmü nədir? Onların qeybətini etmək olarmı?**

**Cavab: Vəhdəti qorumaq baxımından onların cümə və camaat namazlarında iştirak etməyin maneəsi yoxdur. Qeybətdən də çəkinmək lazımdır.**

**Sual 601:** **Əhli-sünnə qardaşları ilə ünsiyyətdə olduğumuz məkanlarda gündəlik namazlarda iştirak edərkən bəzi məqamlarda onlar kimi rəftar edirik, məsələn, namazı əli bağlı qılırıq, namaz vaxtına riayət etmirik, xalça üzərinə səcdə edirik. Bu namazları yenidən qılmağa ehtiyac varmı?**

**Cavab: Əgər vəhdəti qorumaq bu işləri yerinə yetirməyi tələb edirsə, namaz düzgündür və kifayət edir, hətta xalça üzərinə səcdə etmək və bu kimi işlər olsa belə. Amma namazı əli bağlı qılmağa icazə verilmir və yalnız zərurət bunu tələb etdiyi təqdirdə icazə verilir.**

**Sual 602:** **İmam Xomeyninin (r.ə) fətvasına əsasən Məkkə və Mədinədə camaat namazını əhli-sünnə qardaşları ilə qılırıq. Bəzən məsciddə namaz qılmağın savabını əldə etməkdən ötrü, məsələn, zöhr namazından sonra əsr namazını və ya məğrib namazından sonra işa namazını fərdi şəkildə əhli-sünnə məscidlərində möhürsüz və xalça üzərinə səcdə edərək qılırıq. Bu namazların hökmü nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, əgər təqiyyəyə zidd olmazsa, üzərinə səcdənin düzgün olduğu şeylərə səcdə etmək gərəkdir.**

**Sual 603:** **Biz şiələrin başqa ölkələrdə əhli-sinnə qardaşları ilə birlikdə - belə ki, onlar namazı əli bağlı qılırlar - məscidlərin camaat namazında iştirak etməsinin hökmü nədir? Onlar kimi əli bağlı namaz qılmaq bizə vacibdirmi? Yoxsa namazı əlləri açıq qılmalıyıq?**

**Cavab: Vəhdətə riayət etmək üçün əhli-sünnəyə iqtida etməyə icazə verilir. Onlarla birlikdə namaz qılmaq düzgündür və kifayət edir. Amma əli bağlı namaz qılmaq vacib deyildir, hətta buna icazə verilmir. Yalnız zərurət tələb etdiyi təqdirdə icazə verilir.**

**Sual 604:** **Əhli-sünnə qardaşları ilə camaat namazında iştirak edərkən qiyamda ayağın balaca barmağını hər iki tərəfdə dayanan şəxsin ayaq barmaqlarına yapışdırmağın – necə ki, onlar edirlər – hökmü nədir?**

**Cavab: Bu iş vacib deyildir, amma bu işi yerinə yetirmək namazın düzgünlüyünə xələl gətirmir.**

**Sual 605:** **Həcc günlərində və ya başqa vaxtlarda görürük ki, əhli-sünnə qardaşları məğrib namazını bizim məğrib azanından qabaq qılırlar. Bizim onlara iqtida etməyimiz düzgündürmü?**

**Cavab: Məlum deyildir ki, onlar namazı namaz vaxtından qabaq qılırlar. Amma əgər namaz vaxtının daxil olduğu mükəlləf üçün dəqiqləşməzsə, o, namaza başlaya bilməz. Yalnız təqiyyə etmək lazım gəldiyi təqdirdə, onlarla birlikdə namaza başlaya bilər.**

## Cümə namazı

**Sual 606:** **İmam Zamanın (ə.f) qeyb dövründə yaşadığımızı nəzərə alaraq, cümə namazında iştirak etmək barədə sizin nəzəriniz nədir? Əgər bəzi şəxslər imam-cümənin ədalətli şəxs olduğunu qəbul etmirlərsə, cümə namazında iştirak etmək vəzifəsi onların üzərindən götürülürmü?**

**Cavab: Baxmayaraq ki, hazırkı dövrdə cümə namazı təxyiri-vacibdir və bu namazda iştirak etmək vacib deyildir, amma cümə namazında iştirak etməyin faydalarını və təsirlərini nəzərə alaraq, sadəcə imam-cümənin ədalətinə şübhə ilə yanaşmaq və ya məqbul olmayan başqa səbəblərə görə, möminlərin özlərini bu namazda iştirak etməyin bərəkətindən məhrum etmələri bəyənilmir.**

**Sual 607:** **Cümə namazı məsələsində təxyiri-vacibin mənası nədir?**

**Cavab: Mənası budur ki, mükəlləf cümə gününün vacib zöhr namazını qılmaqda cümə namazı ilə zöhr namazı arasında seçim edə bilər və bu ikisindən birini qılmaqda ixtiyarlıdır.**

**Sual 608:** **Cümə namazına əhəmiyyət verməmək və bu səbəbdən cümə namazında iştirak etməmək barəsində sizin nəzəriniz nədir?**

**Cavab: İbadi-siyasi namaz olan cümə namazına əhəmiyyət verməyib, bu namazda iştirak etməmək şəri baxımdan bəyənilmir.**

**Sual 609:** **Bəzi şəxslər qeyri-məntiqi səbəblərə görə və bəzən də fikirayrılıqlarına görə cümə namazında iştirak etmirlər. Bu barədə sizin nəzəriniz nədir?**

**Cavab: Cümə namazına əhəmiyyət verməmək və bu səbəbdən də cümə namazında iştirak etməmək şəri baxımdan bəyənilmir.**

**Sual 610:** **Cümə namazının qılındığı məkana yaxın bir məkanda cümə namazı ilə eyni vaxtda zöhr namazının camaat namazı şəklində təşkil olunmasına icazə verilirmi?**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur və mükəlləf cümə gününün zöhr namazını qılmış olur. Çünki hazırkı dövrdə cümə namazı "təxyiri-vacib"dir. Amma nəzərə alsaq ki, cümə günü cümə namazının qılındığı məkana yaxın bir məkanda zöhr namazının camaat namazı şəklində qılınması möminlərin pərakəndəliyinə səbəb ola, hətta camaatın nəzərində imam-cüməyə qarşı hörmətsizlik və cümə namazına qarşı etinazsızlıq hesab oluna bilər, buna görə də möminlərə bu işi görməmək tövsiyə olunur. Hətta fəsada və harama səbəb olduğu təqdirdə, bu işdən çəkinmələri vacibdir.**

**Sual 611:** **Cümə namazı ilə əsr namazı arasındakı zaman fasiləsində zöhr namazını qılmaq olarmı? Əgər əsr namazını imam-cümədən qeyri bir şəxs qılarsa, əsr namazında ona iqtida etmək olarmı?**

**Cavab: Cümə namazı zöhr namazı əvəzinə kifayət edir, amma cümə namazından sonra zöhr namazını ehtiyat ünvanında qılmağın maneəsi yoxdur. Cümə günü əsr namazını imam-cümədən başqa bir şəxsə iqtida etməyin maneəsi yoxdur. Amma əgər bir şəxs cümə**

namazından sonra zöhr namazını ehtiyat ünvanında qılarsa və sonra əsr namazını camaatla qılmaq istəyərsə, tam ehtiyat budur ki, o, cümə namazından sonra ehtiyat ünvanında zöhr namazını qılan bir şəxsə iqtida etsin.

**Sual 612:** Əgər imam-cümə cümə namazından sonra zöhr namazını qılmasa, məmum ehtiyat ünvanında zöhr namazını qıla bilərmi?

**Cavab: Məmuma icazə verilir.**

**Sual 613:** Şəri-hakimdən icazə almaq imam-cüməyə vacibdirmi? "Şəri-hakim" dedikdə, kim nəzərdə tutulur? Bu hökm uzaq şəhərlərdə də qüvvədədirmi?

**Cavab: Cümə namazına imam olmaq şəri-hakimin icazəsinə bağlı deyildir. Amma cümə namazına imam təyin edilmə hökmünü daşıması, müsəlmanların rəhbəri (müsəlmanların vəliyyi-əmri) tərəfindən təyin edilməyə bağlıdır. Bu hökm, müsəlmanların rəhbərinin hökmünə əməl olunduğu hər bir məntəqəyə və şəhərə şamildir.**

**Sual 614:** Təyin edilmiş imam-cümə bir maneə və ya təzad olmadığı təqdirdə, təyin edildiyi məkandan qeyri bir məkanda cümə namazını qıla bilərmi?

**Cavab: Bu işə öz-özlüyündə icazə verilir, amma cümə namazına təyin edilmə hökmünü daşımayacaqdır.**

**Sual 615:** Müvəqqəti imam-cümə vəliyyi-fəqih tərəfindən seçilməlidirmi? Yoxsa imam-cümənin özü kimisə müvəqqəti imam-cümə seçə bilər?

**Cavab: Təyin edilmiş imam-cümə bir şəxsi özünə müvəqqəti canişin seçə bilər, amma canişin şəxsin imamlığı vəliyyi-fəqih tərəfindən təyin edilmə hökmünü daşımayacaqdır.**

**Sual 616:** Əgər mükəlləf təyin edilmiş imam-cüməni ədalətli bilməsə və ya onun ədalətinə şübhə etsə, müsəlmanların vəhdətini qorumaqdan ötrü ona iqtida edə bilərmi? Cümə namazında iştirak etməyən şəxs başqalaranı bu namazda iştirak etməməyə təşviq edə bilərmi?

**Cavab: Mükəlləfin ədalətli bilmədiyi və ya ədalətinə şübhə etdiyi bir şəxsə iqtida etməsi düzgün deyildir və onun camaat namazı da düzgün deyildir. Amma vəhdəti qorumaqdan ötrü camaat namazında iştirak etməyin maneəsi yoxdur. Hər bir halda, başqalarını cümə namazında iştirak etməməyə təşviq etmək haqqı yoxdur.**

**Sual 617:** Əgər imam-cümənin yalan danışdığı mükəlləf üçün sübuta yetsə, onun imamlığı ilə qılınan cümə namazında iştirak etməməsinin hökmü nədir?

**Cavab: İmam-cümənin dediyi sözün ziddini aşkarlamaq, onun yalan danışdığına dəlil deyildir. Çünki onun bu sözü səhv, yaxud xəta, yaxud da tövriyə üzündən ola bilər. İmam-cümənin ədalətdən düşdüyünü sırf güman edib, cümə namazının bərəkətindən özünü məhrum etmək yaxşı bir iş deyildir.**

**Sual 618:** Mərhum İmam Xomeyni (r.ə) və ya ədalətli vəliyyi-fəqih tərəfindən təyin edilən imam-cümənin ədalətini müəyyənləşdirmək və dəqiqləşdirmək məmuma vacibdirmi? Yoxsa imam-cümə təyin edilməsi, onun ədalətinin sübutu üçün kifayət edir?

**Cavab: Əgər onun imam-cümə təyin edilməsi, məmumda onun ədalətinə etimadın**

**yaranmasına səbəb olarsa, bu, ona iqtida etməyin düzgünlüyü üçün kifayət edir.**

**Sual 619:** **Etibarlı alimlər tərəfindən məscidlərə imam-camaatın təyin edilməsi, yaxud müsəlmanların vəliyyi-əmri tərəfindən imam-cümənin təyin edilməsi onların ədalətinə bir növ şəhadət hesab olunurmu? Yoxsa onların ədaləti barəsində araşdırma aparmaq lazımdır?**

**Cavab: Əgər imam-cümənin və ya imam-camaatın təyin edilməsi, onun ədalətinə etimadın yaranmasına səbəb olarsa, ona iqtida etmək olar.**

**Sual 620:** **İmam-cümənin ədalətinə şəkk etdiyimiz və ya Allah eləməmiş onun ədalətli olmadığına yəqin etidiyimiz təqdirdə, onun arxasında qıldığımız namazları yenidən qılmağımız vacibdirmi?**

**Cavab: Əgər namazı qılıb qurtardıqdan sonra onun ədalətinə şəkk etsəniz və ya ədalətli olmadığına yəqin etsəniz, qıldığınız namazlar düzgündür və onları yenidən qılmağa ehtiyac yoxdur.**

**Sual 621:** **Avropa və qeyri-avropa ölkələrində müsəlman ölkələrin tələbələri tərəfindən təşkil edilən və imam-cümənin, habelə, namaz qılanların əksəriyyətinin əhli-sünnə qardaşlarından olduğu cümə namazında iştirak etməyin hökmü nədir? Bu halda, cümə namazını qıldıqdan sonra zöhr namazını qılmaq vacibdirmi?**

**Cavab: Müsəlmanların vəhdətini qorumaqdan ötrü bu namazda iştirak etməyin maneəsi yoxdur və zöhr namazını qılmaq vacib deyildir.**

**Sual 622:** **Pakistanın şəhərlərinin birində qırx ildir ki, cümə namazı qılınır. İndi bir şəxs iki cümə namazı arasında şəri fasiləyə riayət etmədən başqa bir cümə namazı təşkil etmiş və bu, namaz qılanlar arasında ixtilafın düşməsi ilə nəticələnmişdir. Bu işin şəri baxımdan hökmü nədir?**

**Cavab: Möminlər arasında ixtilaf və pərakəndəliyin düşməsi ilə nəticələnən hər hansı bir işi görməyə icazə verilmir. O ki qaldı, İslamın şüarlarından biri və müsəlmanların vəhdət rəmzi olan cümə namazına!**

**Sual 623:** **Ravalpindi şəhərinin[1] cəfəri cami məscidinin xətibi elan etdi ki, təmir işləri ilə əlaqədar cümə namazı bu məsciddə təşkil olunmayacaq. İndi məscidin təmir işləri başa çatmışdır, amma biz bir çətinliklə üzləşmişik. Çətinliyimiz budur ki, bizdən dörd kilomert fasilədə başqa bir məsciddə cümə namazı təşkil olunur. Qeyd edilən məsafəni nəzərə alaraq, cəfəri cami məscidində cümə namazının təşkil olunması düzgündürmü, yoxsa yox?**

**Cavab: Əgər iki cümə namazı arasındakı məsafə bir şəri fərsəx[2] qədər olmazsa, ikinci başlayan cümə namazı düzgün deyildir. Əgər hər ikisi eyni vaxtda başlasa, hər ikisi düzgün deyildir.**

**Sual 624:** **Camaatla qılınan cümə namazını fərdi qılmaq olarmı? Yəni bir şəxs camaatla cümə namazı qılanların kənarında dayanıb, fərdi cümə namazı qıla bilərmi?**

**Cavab: Cümə namazının düzgünlüyünün şərtlərindən biri, onun camaatla qılınmasıdır. Fərdi şəkildə cümə namazı qılmaq düzgün deyildir.**

**Sual 625:** **Namazı qəsr olan bir şəxs imam-cümənin arxasında dayanıb namazını camaatla qıla bilərmi?**

**Cavab: Müsafir məmumun cümə namazı düzgündür və zöhr namazının əvəzinə kifayət edir.**

**Sual 626:** **Cümə namazının ikinci xütbəsində Xanım Fatimə-Zəhranın (s.ə) mübarək adını imamlardan biri kimi qeyd etmək**

vacibdir? Yoxsa o xanımın adını müstəhəb əməl niyyətilə qeyd etmək vacibdir?

**Cavab: "İmam" adı Xanım Fatimə-Zəhraya (s.ə) şamil olmur və cümə namazının xütbəsində onun adını çəkmək vacib deyildir. Amma təbərrük ünvanında o xanımın adını çəkməyin maneəsi yoxdur, hətta bəyənilən əməldir və savabı vardır.**

**Sual 627:** İmam-cümə cümə namazı qıldığı halda məmum başqa bir vacib namazı qılmaq üçün ona iqtida edə bilərmi?

**Cavab: Bunun düzgünlüyü məhəlli-işkaldır (yəni düzgün deyildir).**

**Sual 628:** Şəri zöhr vaxtı daxil olmamışdan qabaq cümə namazının xütbələrini söyləmək düzgündürmü?

**Cavab: Şəri zöhr vaxtı daxil olmamışdan qabaq cümə namazının xütbələrini söyləməyə icazə verilir.**

**Sual 629:** Əgər məmum cümə namazının xütbələrinə çatmasa və yalnız cümə namazına çatıb imam-cüməyə iqtida etsə, onun namazı düzgündürmü və kifayət edirmi?

**Cavab: Hətta əgər cümə namazının axırıncı rəkətinin rükusundan bir an öncə iqtida edə bilsə, onun namazı düzgündür və kifayət edir.**

**Sual 630:** Bizim şəhərimizdə cümə namazı zöhr azanından bir saat yarım sonra qılınır. Bu namaz zöhr namazını əvəz edirmi, yoxsa zöhr namazını yenidən qılmaq lazımdır?

**Cavab: Cümə namazının vaxtı "şəri zöhr" daxil olduqda başlanır və ehtiyat odur ki, ürfə görə "şəri zöhrün əvvəlləri" sayılan vaxtdan o tərəfə keçməsin.**

**Sual 631:** Cümə namazına getməyə qadir olmayan bir şəxs zöhr və əsr namazlarını namaz vaxtının əvvəlində qıla bilərmi? Yoxsa cümə namazının qurtarmasını gözləməli, sonra zöhr və əsr namazların qılmalıdır?

**Cavab: Gözləmək ona vacib deyildir, zöhr və əsr namazlarını namaz vaxtının əvvəlində qıla bilər.**

**Sual 632:** Əgər təyin edilmiş imam-cümə cümə namazı qılınan məkanda hazır olsa və sağlam olsa, cümə namazını qılmağı müvəqqəti imam-cüməyə həvalə edə bilərmi? O, müvəqqəti imam-cüməyə iqtida edə bilərmi?

**Cavab: Təyin edilmiş imam-cümənin canişininin cümə namazı qılması və təyin edilmiş imam-cümənin öz canişininə iqtida etməsinin maneəsi yoxdur.**

[1] Ravalpindi Pakistanda bir şəhərdir.

[2] Bir şəri fərsəx təxminən 5125 metrdir, yəni 5 kilometr 125 metr.

## Fitr və Qurban bayramı namazları

**Sual 633:** **Sizin nəzərinizə görə Fitr və Qurban bayramı namazları və cümə namazı hansı növ vacib əməldir?**

**Cavab: Hazırkı dövrdə Fitr və Qurban bayramı namazları vacib deyildir, müstəhəbdir. Amma cümə namazı təxyiri-vacibdir.**

**Sual 634:** **Bayram namazının qunutlarını azaldıb-artırmaq namazın düzgün olmamasına səbəb olurmu?**

**Cavab: Əgər "azaldıb-artırmaq" dedikdə, qunutları qısaltmaq və ya uzatmaq nəzərdə tutulursa, bu iş namazın düzgün olmamasına səbəb olmur. Amma əgər qunutların sayını azaltmaq və ya artırmaq nəzərdə tutulursa, bayram namazını fihq kitablarında qeyd edilən şəkildə qılmaq lazımdır.**

**Sual 635:** **Keçmişdə adət belə idi ki, hər bir imam-camaat Fitr bayramı namazını öz məscidində qılırdı. Hazırkı dövrdə Firt və Qurban bayramı namazlarını imam-camaatların qılmasına icazə verilirmi?**

**Cavab: Vəliyyi-fəqihin nümayəndələrinin – belə ki, bayram namazını qılmaq vəliyyi-fəqih tərəfindən onlara icazə verilibdir – və həmçinin vəliyyi-fəqih tərəfindən təyin edilmiş imam-cümələrin hazırkı dövrdə bayram namazını camaatla qılmalarına icazə verilir. Amma əhvət budur ki, onlardan qeyriləri bayram namazını fərdi qılsınlar. Bayram namazını camaat namazı şəklində qəsdi-vurud[1] ilə deyil, qəsdi-rəca[2] ilə qılmağın isə maneəsi yoxdur. Bəli, əgər məsləhət şəhərdə bir bayram namazının təşkil olunmasını tələb etsə, yaxşı olar ki, vəliyyi-fəqih tərəfindən təyin edilmiş imam-cümədən qeyrisi bu namaza imamlıq etməsin.**

**Sual 636:** **Fitr bayramı namazının qəzası varmı?**

**Cavab: Qəzası yoxdur.**

**Sual 637:** **Fitr bayramı namazının iqaməsi varmı?**

**Cavab: İqaməsi yoxdur.**

**Sual 638:** **Əgər imam-camaat Fitr bayramı namazı üçün iqamə desə, onun və başqa namaz qılanların namazının hökmü nədir?**

**Cavab: Bu, imam-camaatın və məmumların namazının düzgünlüyünə xələl gətirmir.**

---

[1] Qəsdi-vurud – bir əməlin hədislərdə müstəhəb əməl olaraq gəldiyini niyyət etmək.

[2] Qəsdi-rəca – Mütəal Allahın göstərişi və ya qadağası olduğunu ehtimal verərək hansısa bir əməli yerinə yetirməyi və ya tərk etməyi niyyət etmək.

## Müsafir namazı

**Sual 639:** **Müsafirə namazı qəsr qılmağın vacibliyi bütün vacib namazlara şamildir, yoxsa bəzi vacib namazlara şamildir?**

**Cavab: Namazı qəsr qılmağın vacibliyi yalnız gündəlik dörd rəkətli namazlara aiddir və zöhr, əsr və işa namazlarından ibarətdir. Sübh və məğrib namazı qəsr olmur.**

**Sual 640:** **Müsafirə dörd rəkətli namazları qəsr qılmağın vacib olma şərtləri hansılardır?**

**Cavab: Aşağıdakı yeddi şərtdir:**
**1- Müsafirin səfəri şəri məsafə ölçüsündə olmalıdır, yəni getmək, yaxud qayıtmaq, yaxud da gedib-qayıtmaq ümumilikdə səkkiz şəri fərsəx olmalıdır. Bu şərtlə ki, gedərkən qət etdiyi yol dörd fərsəxdən az olmamalıdır.**
**2- Səfərə çıxarkən səkkiz fərsəx yolu qət etmək niyyətində olmalıdır. Buna görə də, əgər əvvəlcədən səkkiz fərsəx yolu qət etmək niyyətində olmasa və yaxud səkkiz fərsəxdən az yolu qət etmək niyyətində olsa, getmək istədiyi yerə çatdıqdan sonra başqa bir yerə getmək istəsə və bura ilə ora arasındakı məsafə şəri məsafədən az, amma onun yaşadığı yerdən ora qədər olan məsafə şəri məsafə qədər olsa, bu müsafir namazını tam qılmalıdır.**
**3- Yolda ikən şəri məsafəni qət etmək niyyətindən dönməməlidir. Buna görə də, əgər yolda ikən dörd fərsəxə çatmamış öz niyyətindən dönsə və ya tərəddüddə qalsa, bundan sonra səfər hökmü ona şamil olmur. Qəsr olaraq qıldığı namazları, ehtiyat-vacibə görə, yenidən tam qılmalıdır.**
**4- Şəri məsafəni qət etdiyi əsnada öz vətənindən və ya on gün, yaxud daha çox qalmaq istədiyi yerdən keçməklə səfərini kəsmək niyyətində olmamalıdır.**
**5- Şəri baxımdan səfər onun üçün icazəli olmalıdır. Buna görə də, əgər səfər günah və haram olsa – istər səfərin özü haram olsun, məsələn, döyüşdən qaçmaq, istərsə də səfər etməkdə məqsəd haram bir işi görmək olsun, məsələn, yol kəsmək – səfər hökmündə deyildir və namaz tamdır.**
**6- Müsafir köçəri həyat tərzi keçirənlərdən olmamalıdır. Məsələn, sabit yaşayış yeri olmayan və səhra və çöllərdə gəzib dolaşan, su və otlaq olan yerlərdə köç salan köçərilərdən olmamalıdır.**
**7- Səfər etməyi öz peşəsi qərar verməməlidir, məsələn, yük daşıyan, sürücü, dənizçi və başqaları kimi. Peşəsi səfərdə olan şəxs də bu qismə daxildir.**
**8- Tərəxxüs həddinə çatmalıdır. Tərəxxüs həddi o yerdir ki, şəhərdə adi səslə və**

## Peşəsi səfər etmək olan şəxs və ya səfər etmək peşəsinin müqəddiməsi olan şəxs

**Sual 641: Əgər səfər etmək bir şəxsin peşəsinin müqəddiməsidirsə, səfərdə onun namazı tam və orucu düzgündürmü? Yoxsa bu hökm, peşəsi mütləq səfər etmək olan şəxsə aiddir? Mərcəyi-təqlid İmam Xomeyninin (r.ə) qeyd etdiyi "peşəsi səfər etmək olan şəxs" ifadəsinin mənası nədir? Məgər elə bir şəxs vardırmı ki, səfər etməyin özü onun peşəsi olsun? Çünki çoban, sürücü, dənizçi və başqalarının peşəsi elə çobanlıq, sürücülük və dənizçilikdir. Səfər etməyi özünə peşə seçən bir şəxs, adətən, mövcud deyildir.**

**Cavab: Səfər etmək peşəsinin müqəddiməsi olan şəxs əgər səfərini davam etdirmək niyyətindədirsə, belə ki, səfər ürfə görə artıq onun peşəsinin tələbi hesab olunarsa – məsələn, qarşıdakı səkkiz ay, ya doqquz ay, ya da bir il ərzində həftədə bir gün peşəsi ilə əlaqədar səfər etmək niyyətindədirsə – onun namazı tam və orucu düzgündür. Əgər vətəndə və ya qeyri-vətəndə məqsədli və ya məqsədsiz şəkildə on gün qalarsa, bu on gündən sonra getdiyi birinci səfərdə onun namazı qəsrdir.**
**Fəqihlərin (Allah onlardan razı olsun) dilində "peşəsi səfər etmək olan şəxs" ifadəsinin mənası budur ki, səfər etmək bu şəxsin peşəsinin əsasında dayanır, məsələn, sualda qeyd edilən peşələr kimi.**

**Sual 642: Bir ildən çox olmaq şərtilə müəyyən bir müddət hansısa bir şəhərdə iş üçün qalmalı olan şəxslərin, yaxud hərbi xidmətini yerinə yetirmək üçün bir və ya iki il hansısa bir şəhərdə qalmalı olan əsgərlərin namaz və orucu barəsində sizin nəzəriniz nədir? Namazlarının tam və oruclarının düzgün olması üçün hər bir səfərdən sonra onlar on gün qalmaq niyyətini etməlidirlərmi? Əgər on gündən az qalmaq niyyətində olsalar, onların namaz və orucunun hökmü nədir?**

**Cavab: Sualda qeyd olunanlara əsasən, həmin şəhərdə onların namazı tam və orucu düzgündür.**

**Sual 643: Əksər günlərdə hərbi hava bazalarından uçuşa qalxıb şəri məsafədən olduqca çox məsafəni qət edən və bu işi davamlı olaraq təkrarlayan hərbi təyyarələrin pilotlarının namaz və orucunun hökmü nədir?**

**Cavab: Onların hökmü digər sürücülər, dənizçilər və təyyarə pilotlarının hökmüdür. Yəni səfərdə onların namazı tam və orucu düzgündür.**

**Sual 644: İlin üç-dörd ayını qışlaqdan yaylağa, yaxud əksinə, yaylaqdan qışlağa köçən, amma ilin qalan hissəsini yaylaqda, yaxud da qışlaqda yaşayan köçəri tayfaların iki vətəni vardırmı? Yaylaq və ya qışlağın ikisindən birində qaldıqları vaxt digərinə səfər etdikdə, onların namazı qəsrdir, yoxsa tam?**

**Cavab: Əgər daimi olaraq və ya uzun illər yaylaqdan qışlağa, yaxud əksinə, qışlaqdan yaylağa köç etmək və ilin bir hissəsini bunların birində və qalan hissəsini digərində yaşamaq niyyətindədirlərsə və hər iki məkanı özlərinin daimi və ya uzun müddət üçün yaşayış yeri seçiblərsə, bu iki məkanın hər biri onların vətəni hesab olunur. Bu iki məkanda onlar üçün vətən hökmü icra olunur. Amma əgər bu iki məkan arasındakı yol şəri məsafə qədər olarsa, bunların birindən digərinə səfər etdikləri vaxt müsafir hökmündədirlər.**

**Sual 645: Mən şəhərin dövlət idarələrinin birində işləyirəm. Mənim yaşadığım yer ilə iş yerimin arasındakı məsafə təxminən otuz beş kilometrdir. Mən hər gün bu yolu işə getmək üçün qət edirəm. Əgər müəyyən bir iş üçün bir neçə gecə şəhərdə qalmaq istəsəm, namazımın hökmü nədir? Namazı tam qılmağım vacibdirmi? Məsələn, qohumlara baş çəkmək üçün cümə günü Semnan şəhərinə səfər etsəm, namazımı tam qılmağım vacibdirmi, yoxsa yox?**

Cavab: Əgər sizin bu səfəriniz hər gün səfər etdiyiniz iş üçün olmazsa, peşə səfəri hökmündə deyildir. Amma əgər işlədiyiniz yerə getmək üçün səfər etsəniz və bu əsnada müəyyən işləri görsəniz, məsələn, qohumlara baş çəksəniz və bəzən də bir və ya bir neçə gecə orada qalsanız, bu, peşə səfəri hökmünün dəyişməsinə səbəb olmaz və namaz tam, oruc da düzgündür.

**Sual 646:** Əgər işlədiyim yerdə iş saatı qurtarandan və idarə işlərini yerinə yetirdikdən sonra – belə ki, mən bu iş üçün səfər etmişdim – şəxsi işləri görsəm, məsələn, səhər saat yeddidən günorta ikiyə qədər idarə işlərini yerinə yetirsəm, sonra şəxsi işlərimi görsəm, namaz və orucumun hökmü nədir?

Cavab: İdarənin iş saatı qurtarandan sonra idarə işi üçün olan səfərdə şəxsi işləri görmək, peşə səfəri hökmünü dəyişdirmir.

**Sual 647:** Müəyyən bir məkanda on gündən çox qalacaqlarını bilən, amma ixtiyarları öz əllərində olmayan əsgərlərin namaz və orucunun hökmü nədir? Xahiş edirəm, İmam Xomeyninin (r.ə) də fətvasını qeyd edin.

Cavab: Əgər müəyyən bir məkanda on gün və ya daha artıq qalacaqlarına əmindirlərsə, namazı tam qılmaq və orucu tutmaq onlara vacibdir. İmam Xomeyninin (r.ə) də fətvası belədir.

**Sual 648:** On gündən çox hərbi hissədə və on gündən çox sərhəd məntəqələrində qalan hərbçilərin namaz və orucunun hökmü nədir? Xahiş edirəm, İmam Xomeyninin (r.ə) də fətvasını qeyd edin.

Cavab: Əgər bir yerdə on gün və ya daha çox qalmaq niyyətindədirlərsə, yaxud həmin yerdə on gün və ya daha çox qalacaqlarını bilirlərsə, namazı tam qılmaq və orucu tutmaq onlara vacibdir. İmam Xomeyninin (r.ə) də fətvası belədir.

**Sual 649:** İmam Xomeyninin (r.ə) risaləsində ("Şəriət hökmlərinin izahı" kitabında) müsafir namazının yeddinci şərtində belə qeyd olunur: "Birinci səfər istisna olmaqla, sürücü o biri səfərlərində namazı tam qılmalıdır. Amma birinci səfərdə, hətta səfəri uzunmüddətli olsa belə, namazı qəsrdir." "Birinci səfər" dedikdə, vətəndən hərəkət edib geri dönmək nəzərdə tutulur? Yoxsa səfər edilən yerə çatdıqda, birinci səfər tamamlanır?

Cavab: Əgər getmək və geri dönmək birlikdə ürfə görə "bir səfər" hesab olunarsa – məsələn, sürücü yalnız bir məntəqəyə getməyi nəzərdə tutub, yəni müəyyən bir şəhərə yük aparıb, sonra geri dönəcəkdir – bu halda, getmək və geri dönmək birlikdə "bir səfər" hesab olunur. Amma əgər ürfə görə "bir səfər" hesab olunmazsa – məsələn, sürücü yük daşımaq üçün bir məntəqəyə səfər edir, sonra yenə də yük və ya sərnişin daşımaq üçün oradan başqa bir məntəqəyə səfər etməli olur, daha sonra öz vətəninə geri dönür, yaxud elə əvvəlcədən məqsədi bir neçə məntəqəyə səfər etmək idi – bu halda, birinci səfər etdiyi yerə çatdıqda, birinci səfər tamamlanır.

**Sual 650:** Əgər sürücülük bir şəxsin sabit və daimi peşəsi deyilsə, amma az bir müddət üçün sürücülük işi ona tapşırılıbsa – məsələn, hərbi hissələrdə sürücülük işinin əsgərə tapşırılması kimi – bu şəxs müsafir hökmündədirmi? Yoxsa namazını tam qılmalı və orucunu tutmalıdır?

Cavab: Əgər həmin az müddətdə sürücülük ürfə görə onun peşəsi hesab olunarsa, o, başqa sürücülər hökmündədir, baxmayaraq ki, şəri məsafəni qət edir.

**Sual 651:** Əgər bir hadisəyə görə sürücünün maşını müəyyən bir müddət işləməsə və sürücü maşının təmiri və ehtiyat

**hissələrini almaq üçün başqa bir şəhərə səfər etsə, öz maşını ilə səfər etmədiyini nəzərə alaraq, bu səfərdə o, namazını tam, yoxsa qəsr qılmalıdır?**

**Cavab: Sualda deyilənlərə əsasən, bu səfər "peşə səfəri" hesab olunur və namaz tam qılınmalıdır.**

## Tələbələrin hökmü

**Sual 652:** **Təhsil üçün hər həftə ən azı iki dəfə səfər edən tələbələrin, yaxud işləri ilə əlaqədar hər həftə səfər edən idarə işçilərinin hökmü nədir?**
**Onlar hər həftə səfər edirlər, amma ola bilər ki, universitetin və ya işin tətil olması ilə əlaqədar onlar bir ay müddətində öz vətənlərində qalsınlar və həmin müddətdə səfər etməsinlər, bir ay keçdikdən sonra isə yenidən davamlı olaraq səfər etsinlər. Belə olan halda, onların namazı birinci səfərdə qayda üzrə qəsr və sonrakı səfərlərdə tamdırmı? Əgər həmin peşə səfərindən öncə şəxsi bir işlə əlaqədar səfər etsələr, hökm nədir?**

**Cavab: Tələbələr istər həftə ərzində bir neçə dəfə səfər etsinlər, istərsə də hər gün səfər etsinlər, ümumiyyətlə, təhsil üçün olan səfərdə namazın və orucun hökmü ehtiyata əsaslanır[1].**
**Amma qeyri-dövlət və ya dövlət işi üçün səfər edən şəxs əgər vətəni ilə iş yeri arasında, yaxud qaldığı yer ilə iş yeri arasında hər on gündə ən azı bir dəfə get-gəl etsə, namazını tam qılmalıdır, orucu da düzgündür. Əgər iş üçün etdiyi iki səfər arasında on gün öz vətənində və ya başqa bir yerdə qalsa, bu on gündən sonra etdiyi birinci səfərdə namazı qəsrdir və oruc tuta bilməz. Həmçinin əgər o, bu peşə səfərindən öncə şəxsi bir işlə əlaqədar səfər etsə, şəxsi işlə əlaqədar etdiyi səfərdə namaz qəsrdir. Bu səfərdən sonra peşə səfərində isə, namazı qəsr və tam arasında cəm etmək ehtiyatı (yəni ehtiyata görə namazın həm qəsr, həm də tam qılınması) tərk edilməməlidir.**

**Sual 653:** **Mən Rəfsəncan şəhərində orta məktəb müəllimi işləyirəm. Təkmilləşdirmə kurslarına göndərildiyimə görə, həftənin ilk üç gününü Kerman şəhərində təhsil alıram, həftənin qalan günləri isə öz şəhərimdə tədrislə məşğulam. Mənim namaz və orucumun hökmü barəsində sizin nəzəriniz nədir? Mən tələbə hökmündəyəmmi, yoxsa yox?**

**Cavab: Əgər təhsil almaq üçün göndərilmisinizsə, sizin namazınız tam və orucunuz düzgündür.**

**Sual 654:** **Əgər bir ilahiyyatçı islam maarifini yaymağı özünə peşə etmək niyyətindədirsə, bu halda o, səfərdə namazını tam qıla və oruc tuta bilərmi? Əgər bir şəxs islam maarifini yaymaq və dini maarifləndirmə, yaxud yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək işindən qeyri bir iş üçün səfər etsə, onun namaz və orucunun hökmü nədir?**

**Cavab: Əgər islam maarifini yaymaq və dini maarifləndirmə, yaxud yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək ürfdə onun peşəsi və işi hesab olunarsa, bu işləri görmək üçün etdiyi səfərdə o, öz peşəsi və işi üçün səfər edən müsafir hökmündədir. Əgər bu işlərdən qeyri bir iş üçün səfər edərsə, bu səfərdə başqa müsafirlər kimi, onun namazı qəsrdir və orucu düzgün deyildir.**

**Sual 655:** **Qeyri-müəyyən müddətə səfər edən şəxslərin, məsələn, dini təhsil almaq üçün dini elmlər mərkəzinə gedən ilahiyyatçıların, yaxud dövlət işində işləyən və iş ilə əlaqədar başqa bir şəhərə ezamiyyətə göndərilən işçilərin namaz və orucunun hökmü nədir?**

**Cavab: Sualda deyilənlərə əsasən, əgər həmin yerdə təxminən bir il qalmaq niyyətindədirlərsə, onların namazı tamdır və orucu da düzgündür.**

**Sual 656:** **Bir ilahiyyatçı öz vətəni olmayan bir şəhərdə yaşayır. Əgər o, “bir yerdə on gün qalmağ”ı niyyət etməmişdən öncə hər həftə şəhərdən kənarda olan bir məscidə gedəcəyini bilsə və ya belə bir məqsədi olsa, o, bir yerdə on gün qalmağı niyyət edə bilərmi,**

yoxsa yox?

**Cavab: "Bir yerdə on gün qalmağ"ı niyyət edərkən, eyni zamanda şəri məsafədən az olan və ürfə görə də "bir yerdə on gün qalmaq" anlayışı ilə zidd olmayan bir məsafədə həmin yerdən çıxmaq niyyətində olmaq, əslində, "bir yerdə on gün qalmaq" niyyətinin düzgünlüyünə xələl gətirmir. Məsələn, bu şəxs on gün ərzində iki-üç dəfə və hər dəfə də ən çoxu yarım gün olaraq qaldığı yerdən çıxıb, şəri məsafədən az olan bir məsafədə yerləşən yerə gedib-qayıdır.**

[1] Belə durumda olan şəxslər lazımi şərtlərə riayət edərək, başqa bir müctəhidə müraciət edə bilərlər. Müraciət etmədikləri təqdirdə isə, "ehtiyat"ın tələbi namazı qəsr və tam arasında cəm etməkdir, yəni namazı həm qəsr və həm də tam qılmalıdırlar. Ramazan ayında da ehtiyata görə oruc tutmalı və sonradan həmin orucun qəzasını tutmalıdırlar.

## Qəsdi-iqamət[1] və şəri məsafə

**Sual 657:** Qonşu şəhər ilə mənim işlədiyim yer arasındakı məsafə şəri məsafədən azdır. Bu iki yerin heç biri mənim vətənim olmadığına görə, mən namazlarımı tam qılım və oruclarımı tutum deyə, işlədiyim yerdə on gün qalmağı niyyət edirəm. İşlədiyim yerdə on gün qalmağı niyyət edərkən bu müddət ərzində və bu müddətdən sonra qonşu şəhərə getməyi nəzərdə tutmuram. Belə isə, aşağıdakı hallarda mənim şəri hökmüm nədir?

1) On gün tamamlanmamışdan qabaq hansısa bir hadisə və ya iş ilə əlaqədar qonşu şəhərə gedirəm və təxminən iki saatdan sonra iş yerimə qayıdıram?

2) On gün tamamlanandan sonra qonşu şəhərin müəyyən məhəlləsinə getmək məqsədilə o şəhərə gedirəm və şəri məsafəni aşmıram, amma bir gecə orada qaldıqdan sonra qaldığım yerə (başqa sözlə, işlədiyim yerə) qayıdıram?

3) On gün tamamlanandan sonra qonşu şəhərin müəyyən məhəlləsinə getmək məqsədilə o şəhərə gedirəm, amma getmək istədiyim məhəlləyə çatdıqdan sonra başqa bir məhəlləyə getməyi qərara alıram, halbuki o məhəllə ilə mənim qaldığım yer arasındakı məsafə şəri məsafədən çoxdur?

**Cavab: 1 və 2) Əgər ilk əvvəldə, qaldığınız yerdən xaric olmaq niyyətiniz olmayıbsa, "bir yerdə on gün qalmaq niyyət"i gerçəkləşdikdən (yəni orada ən azı bir dördrəkətli namaz qıldıqdan) sonra şəri məsafədən az olmaq şərtilə bir və ya bir neçə gün[2] oradan xaric olmağınız "bir yerdə on gün qalmaq niyyəti"nə xələl gətirmir. Bu halda, istər on gün tamamlanmamışdan qabaq, istərsə də on gün tamamlandıqdan sonra oradan xaric olmağınızın bir fərqi yoxdur və yeni bir səfər etməyənədək namaz tam və oruc düzgündür. 3) Sualda deyilənlərə əsasən, "şəri səfər" gerçəkləşmədiyinə görə, bir yerdə on gün qalmaq niyyəti pozulmur.**

**Sual 658:** Əgər müsafir vətəndən xaric olduqdan sonra elə bir yol ilə hərəkət etsə ki, bu yolda öz vətəninin azan səsini eşidir və ya evlərin divarını görür, bu, şəri məsafəyə xələl gətirirmi?

**Cavab: O öz vətənindən keçməyənə qədər şəri məsafəyə xələl gəlmir və səfəri kəsilmir. Amma vətən ilə tərəxxüs həddi arasındakı hüdud daxilində olanadək o, müsafir hökmündə deyildir.**

**Sual 659:** İşlədiyim və eyni zamanda yaşadığım yer mənim vətənim deyildir. İşlədiyim yer ilə vətənim arasında şəri məsafədən çox məsafə vardır. İşlədiyim yeri mən özümə vətən etməmişəm, çünki ola bilər, orada ancaq bir neçə il qalım. Bəzən idarə işləri ilə əlaqədar ayda iki-üç gün oradan xaric oluram. Yaşadığım şəhərdən şəri məsafədən çox olmaq şərtilə xaric olub-geri döndükdə, mən on gün qalmağı niyyət etməliyəmmi, yoxsa yox? Əgər on gün qalmağı niyyət etmək vacibdirsə, şəhərin ətrafına hansı məsafədə gedə bilərəm?

**Cavab: Sualda deyilənlərə əsasən, siz həmin şəhərdə müsafir hökmündə deyilsiniz. Sizin namazınız tamdır və orucunuz düzgündür.**

**Sual 660:** Bir şəxs təhsil ilə əlaqədar illərcə öz vətəninin dörd kilometrliyində qalıb və hər həftə öz evinə də gedib. Əgər bu şəxs öz vətəninin iyirmi bir kilometrliyində, amma illərcə qalıb dərs oxuduğu yerin iyirmi kilometrliyində yerləşən bir yerə səfər etsə, onun namazının hökmü nədir?

**Cavab: Əgər bu şəxs həmin yerə öz vətənindən səfər edərsə və dərs oxuduğu yerdə də müsafir hesab olunarsa, namazı qəsrdir.**

**Sual 661:** Bir şəxs üç fərsəx yol getmək niyyətindədir, amma elə əvvəlcədən nəzərdə tutmuşdur ki, yol əsnasında müəyyən bir işlə əlaqədar əsas yoldan çıxıb başqa yol ilə bir fərsəx gedəcək və işini gördükdən sonra yenidən əsas yola qayıdıb səfərini davam etdirəcəkdir. Bu şəxsin namaz və orucunun hökmü nədir?

**Cavab: O, müsafir hökmündədir. Çünki başqa yol ilə gedib-qayıtdığı məsafəni əsas yolda qət etdiyi məsafəyə əlavə etməsi, şəri məsafənin tamamlanması üçün kifayət edir.**

**Sual 662: İmam Xomeyninin (r.ə) fətvasına əsasən, səkkiz fərsəx yol qət etdikdə namazı qəsr qılmaq və orucu iftar etmək vacibdir. Bu fətvanı nəzərə alaraq, əgər gediş yolu dörd fərsəxdən az olsa, amma qayıdarkən yol çətinliklərinə və maşının olmamasına görə altı fərsəxdən çox yolu qət etmək məcburiyyətində olsa, bu şəxs namazını qəsr qılmalı və orucunu iftar etməlidirmi?**

**Cavab: Əgər gediş yolu dörd fərsəxdən az olsa və qayıdış yolu da şəri məsafə qədər olmasa, namaz tamdır və oruc düzgündür.**

**Sual 663: Bir şəxs yaşadığı yerdən başqa bir yerə səfər edir və həmin yerə qədər olan məsafə şəri məsafədən azdır. Həftə ərzində bir neçə dəfə həmin yerdən başqa yerlərə səfər edir və gedilən ümumi yol səkkiz fərsəxdən çox olur. Bu şəxsin vəzifəsi nədir?**

**Cavab: Əgər səfərə çıxanda əvvəlcədən şəri məsafəni qət etmək niyyətində olmayıbsa və getdiyi birinci yer ilə başqa yerlər arasında da şəri məsafə qədər yol olmayıbsa, o, müsafir hökmündə deyildir.**

**Sual 664: Əgər bir şəxs müəyyən bir yerə getmək üçün öz şəhərindən çıxsa və həmin yerdə gəzintiyə çıxmış olsa, bu gəzintidə getdiyi yol mənzilindən həmin yerə qədər qət etdiyi məsafədən sayılırmı?**

**Cavab: Getdiyi yerdə gəzintiyə çıxması, qət etdiyi yoldan hesab olunmur.**

**Sual 665: Müəyyən bir yerdə on gün qalmağı niyyət edəndə qaldığımız yerdən xaric olub, dörd fərsəxdən az məsafədə olan başqa bir yerə getməyi nəzərdə tuta bilərikmi?**

**Cavab: Əgər qaldığınız yerdən xaric olub, şəri məsafədən az olan başqa bir yerə getməyi nəzərdə tutmağınız qəsdi-iqamətin (yəni on gün müəyyən bir yerdə qalmaq niyyətinin) düzgünlüyünə xələl gətirməzsə – məsələn, on gün ərzində iki-üç dəfə və hər dəfə də ən çoxu yarım gün şəri məsafədən az olaraq gedib-gəlsəniz – bu halda qəsdi-iqamətə xələl gəlmir.**

**Sual 666: Nəzərə alsaq ki, aralarında iyirmi dörd kilometrdən çox məsafə olan yaşayış yerindən iş yerinə qədər yolu qət etmək namazın tam qılınmasına səbəb olur, əgər mən işlədiyim şəhərdən kənara çıxsam və ya başqa bir şəhərə getsəm, belə ki, işlədiyim yer ilə həmin yer arasında məsafə şəri məsafə qədər olmasa və zöhrdən qabaq, yaxud zöhrdən sonra iş yerimə qayıtsam, yenə də namazım tamdırmı?**

**Cavab: Şəri məsafədən az olmaqla iş yerindən kənara getmək, gündəlik işinizlə əlaqəsi olmasa belə, iş yerində sizin namaz və orucunuzun hökmü dəyişmir. Bu halda, zöhrdən qabaq, yaxud zöhrdən sonra iş yerinə qayıtmağınızın bir fərqi yoxdur.**

**Sual 667: Bir şəxs öz vətənindən başqa bir şəhərə səfər edir. O şəhərin başlanğıcına qədər olan məsafə şəri məsafə qədər deyildir, amma bu şəxsin getmək istədiyi yerə qədər olan məsafə şəri məsafə qədərdir. Şəri məsafəni hesablamaq üçün şəhərin başlanğıcı meyar götürüləcək, yoxsa şəxsin o şəhərdə getmək istədiyi yer meyar götürüləcək?**

**Cavab: Ümumiyyətlə, şəri məsafənin hesablanması üçün "məbdə şəhər"in[3] sonu ilə "məqsəd şəhər"in[4] başlanğıcı arasındakı yol hesablanır.
Amma əgər bu şəxsin məqsədi şəhərin özünə getmək deyilsə, əksinə, şəhərin ətrafında yerləşən müəyyən və müstəqil bir məkana – məsələn, şəhərdən kənarda yerləşən bəzi universitetlər, hərbi hissələr, xəstəxanalar və bu kimi məkanlara – getməkdirsə, belə ki, ürfə görə şəhərə çatmaq bu şəxsin getmək istədiyi məkana çatmaq hesab olunmursa və**

şəhərə daxil olub, oradan keçmək sadəcə onun getmək istədiyi məkana çatmaq üçün bir yol qismindədirsə, bu halda şəri məsafənin hesablaması üçün həmin xüsusi məkana

**Sual 668:** Mən hər həftə Xanım Məsumәni (s.ə) ziyarət etmək və Cəmkəran məscidinin əməllərini yerinə yetirmək üçün Qum şəhərinə səfər edirəm. Bu səfərdə namazımı tam, yoxsa qəsr qılmalıyam?

**Cavab: Bu səfərdə siz başqa müsafirlər hökmündəsiniz və namazınız qəsrdir.**

**Sual 669:** Mən Kaşmir şəhərində doğulmuşam. Hicri-şəmsi 1345-ci ildən 1369-cu ilə qədər Tehranda yaşamışam və oranı özümə vətən etmişəm. Üç ildir ki, ailəmlə birlikdə idarə işləri əlaqədar Bəndər-Abbasa ezamiyyətə göndərilmişəm və bir ildən sonra və ya daha tez özümə vətən etdiyim Tehran şəhərinə geri dönəcəyəm. Nəzərə alsaq ki, Bəndər-Abbasda olduğum müddətdə hər an bu rayonun başqa şəhərlərinə ezamiyyətə göndərilə və orada bir müddət qala bilərəm, habelə, ezamiyyətə nə zaman göndəriləcəyim məlum deyildir, xahiş edirəm ki:
Birincisi, mənim namaz və orucumun hökmünü bəyan edəsiniz.
İkincisi, həyat yoldaşımın evdar qadın olduğunu və Tehranda doğulduğunu, mənimlə Bəndər-Abbasa gəldiyini və burada yaşadığını nəzərə alaraq, onun namaz və orucunun şəri hökmü nədir?

**Cavab: Sualda deyilənlərə əsasən, siz həmin şəhərdə müsafir hökmündə deyilsiniz. Orada sizin və həyat yoldaşınızın namazı tamdır və orucunuz düzgündür.**

**Sual 670:** Bir şəxs müəyyən bir yerdə on gün qalmağı niyyət etmişdir, çünki on gün orada qalacağını bilirdi və ya on gün orada qalmağı qərara almışdı. Amma bir dördrəkətli namaz qılmaqla namazı tam qılmaq hökmü ona aid olduqdan sonra zəruri olmayan bir səfərə çıxmaqla qarşılaşır. O, həmin səfərə gedə bilərmi?

**Cavab: Hətta səfər zəruri olmasa belə, onun səfər etməsinin maneəsi yoxdur.**

**Sual 671:** Əgər bir şəxs İmam Rzanın (ə) hərəmini ziyarət etmək üçün səfər etsə və orada on gündən az qalacağını bildiyi bir halda namazını tam qılmaqdan ötrü on gün qalmağı niyyət etsə, onun bu əməlinin hökmü nədir?

**Cavab: Əgər orada on gün qalmayacağını bilirsə, on gün qalmağı niyyət etməyin bir mənası və təsiri yoxdur. Orada namazını qəsr qılmalıdır.**

**Sual 672:** Vətəni olmayan bir şəhərdə işləyib, işlədiyi şəhərdə heç vaxt on gün qalmayan, amma eyni zamanda (bu şəhərə işə gəlmək üçün) şəri məsafədən az olaraq səfər edən işçilərin şəri vəzifəsi namazı tam və ya qəsr qılmaq baxımından nədir?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, on gün bir yerdə qalmadığı təqdirdə, onun səfəri iş səfəri hesab olunur. Qaldığı və işlədiyi yerdə, habelə, bu iki yer arasındakı yolda onun namazı tamdır.**

**Sual 673:** Əgər bir şəxs bir yerə səfər etsə və orada nə qədər - on gün, yoxsa daha az - qalacağını bilməsə, namazı necə qılmalıdır?

**Cavab: Tərəddüddə olan şəxsin vəzifəsi namazı otuz günə qədər qəsr qılmaqdır. Bundan sonra isə namazı tam qılmalıdır, hətta həmin gün getməli olsa belə.**

**Sual 674:** Əgər bir şəxs iki yerdə dini maarifləndirmə işi ilə məşğuldursa və həmin məntəqədə də on gün qalmaq niyyətindədirsə, onun namaz və orucunun hökmü nədir?

**Cavab: Əgər ürfdə həmin yerlər iki yer hesab olunursa, on gün ərzində bu iki yerin birindən digərinə get-gəl etməyi nəzərdə tutaraq hər iki yerdə və ya onların birində qalmağı niyyət etmək düzgün deyildir.**

[1] Qəsdi-iqamət – müəyyən bir yerdə on gün qalmaq niyyəti

[2] Burada “gün”ün müəyyən edilməsi üçün “ürf” meyar götürülür və “gün” günəş doğandan qürub edənədək olan müddət götürülür.

[3] Məbdə şəhər – yəni səfər edən şəxsin şəhəri (ya qəsəbəsi, ya kəndi), başqa sözlə, “səfərin başlandığı şəhər”.

[4] Məqsəd şəhər – yəni səfər edən şəxsin getdiyi şəhər (ya qəsəbə, ya kənd), başqa sözlə, “gedilən şəhər”.

## Tərəxxüs həddi

**Sual 675:** **Almaniyada və bəzi Avropa ölkələrində bəzi şəhərlərin arasındakı məsafə (yəni bir şəhərin çıxışında qoyulan tablo ilə digər şəhərin girişində qoyulan tablo arasındakı məsafə) yüz metrə belə çatmır. Hətta iki şəhərin evləri və prospektləri bir-birinə tam birləşmişdir. Bu halda tərəxxüs həddi necə olacaq?**

**Cavab: İki şəhərdən biri digərinə ürfə görə bir şəhər hesab olunacaq şəkildə birləşdiyi halda, bu iki şəhər bir şəhərin iki məhəlləsi hökmündədir və onların birindən digərinə getmək səfər hesab olunmur. Buna görə də, tərəxxüs həddinə ehtiyac olmur.**

**Sual 676:** **Tərəxxüs həddinin meyarı şəhərin azanını eşitmək və divarlarını görməkdir. Bunların biri kifayət edirmi, yoxsa hər ikisi birgə olmalıdır?**

**Cavab: Tərəxxüs həddi o yerdir ki, şəhərdə adi səs ilə və səsucaldan olmadan deyilən azan həmin yerdə artıq eşidilmir.**

**Sual 677:** **Tərəxxüs həddinin meyarı, müsafirin şəhərdən xaric və ya şəhərə daxil olduğu tərəfdən ucalan azan səsinin eşidilməsidir? Yoxsa meyar, şəhərin mərkəzində verilən azan səsinin eşidilməsidir?**

**Cavab: Meyar, müsafirin xaric və ya daxil olduğu tərəfdən şəhərin axırında verilən azan səsinin eşidilməsidir.**

**Sual 678:** **Burada məntəqələrdən birinin əhalisi arasında şəri məsafə barəsində fikirayrılığı vardır. Bir dəstə deyir ki, məntəqənin bir-birinə birləşən axırıncı evlərinin divarları meyar götürülür. Başqa bir dəstə isə deyir ki, şəri məsafə şəhərin evlərindən sonra pərakəndə şəkildə yerləşən fabriklər və sənaye şəhərciklərindən hesablanmalıdır. Sualım budur ki, şəhərin axırı haradır?**

**Cavab: Şəhərin axırını təyin etmək ürfə həvalə olunur. Əgər ürfdə şəhərin ətrafında pərakəndə şəkildə yerləşən fabriklər və sənaye şəhərcikləri şəhərdən hesab olunmazsa, şəri məsafə şəhərin axırıncı evlərindən hesablanmalıdır.**

## Günah səfəri

**Sual 679:** **Əgər bir şəxs səfər etdiyi yerdə günah və haram işlər edəcəyini bilsə, onun namazı qəsrdir, yoxsa tam?**

**Cavab: Əgər onun səfəri "günah səfəri" olmasa və səfər etməkdə məqsədi günah etmək olmasa, amma səfər əsnasında haram iş görsə, onun səfəri "günah səfəri" hökmündə deyildir və namaz qəsrdir. Amma əgər səfər boyunca (az bir zaman istisna olmaqla) haram işi görməyi davam etdirsə və buna görə də onun səfəri "günah səfəri" adlansa, belə olan halda ehtiyata görə, namazı cəm qılmalıdır (yəni həm qəsr, həm də tam qılmalıdır).**

**Sual 680:** **Əgər bir şəxs günah etmək niyyətində olmadan səfər etsə, amma yol əsnasında səfəri davam etdirmək və başa çatdırmaqdan ötrü günah etməyi niyyətində tutsa, namazını tam qılmalıdır, yoxsa qəsr? Yol boyu qəsr qıldığı namazlar düzgündürmü, yoxsa yox?**

**Cavab: Səfəri günah üçün davam etdirməyi qərara aldığı vaxtdan etibarən namazını tam qılmalıdır. Əgər o, şəri məsafəyə çatmamışdan öncə niyyətini dəyişibsə, niyyəti dəyişməmişdən öncə və sonra qəsr qıldığı namazları yenidən tam qılmalıdır. Amma əgər şəri məsafəyə çatdıqdan sonra niyyətini dəyişibsə, təkcə niyyətini dəyişdikdən sonra qəsr qıldığı namazları yenidən tam qılmalıdır.**

**Sual 681:** **Səfərdə namaz qılmaq və namazın müqəddimələrini yerinə yetirmək üçün məkan olmadığı təqdirdə əylənmək və ya məişət ehtiyaclarını almaqdan ötrü səfər etməyin hökmü nədir?**

**Cavab: Əgər şəxs səfərdə namazın bəzi vacib əməllərini tərk etməli olacağını bilsə, əhvətə görə, bu səfərə getməməlidir. Amma əgər bu səfərə getməmək onun ziyanına olarsa və ya onun üçün böyük çətinlik yaradarsa, bu səfərə gedə bilər. Hər halda, namazı tərk etməsinə heç bir vəchlə icazə verilmir.**

## Vətənin hökmləri

**Sual 682:** **Mən Tehran şəhərində doğulmuşam. Atam və anam isə Mehdişəhər əhalisindəndirlər və ona görə də il boyu bir neçə dəfə ora səfər edirlər. Mən də onlarla birlikdə gedirəm. Amma Mehdişəhərdə yaşamaq üçün ora dönmək niyyətində olmadığımı, əksinə Tehranda yaşamaq niyyətində olduğumu nəzərə alaraq, mənim namaz və orucumun hökmü nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, ata və ananızın əsl vətənində sizin namaz və orcunuz, başqa müsafirlərin namaz və orucunun hökmündədir.**

**Sual 683:** **Mən ilin altı ayını bir şəhərdə, altı ayını isə doğulduğum, mənim və ailəmin yaşadığı yer olan başqa bir şəhərdə yaşayıram. Amma birinci şəhərdə davamlı surətdə yaşamıram, məsələn, iki həftə, yaxud on gün, yaxud da daha az orada qalıram, sonra doğulduğum və ailəmin yaşadığı şəhərə qayıdıram. Sualım budur ki, əgər birinci şəhərdə on gündən az qalmaq niyyətində olsam, müsafir hökmündəyəm, yoxsa yox?**

**Cavab: Əgər orada ürfə görə müsafir hesab olunmayacaq qədər yaşasanız, orada sizin namazınız tam və orucunuz düzgündür.**

**Sual 684:** **Əgər bir şəxs müvəqqəti olaraq müəyyən bir yerdə qalıb yaşamaq istəyirsə, hansı müddətdə orada qalmağı nəzərdə tutduğu təqdirdə, onun namazı tam və orucu dügündür?**

**Cavab: Əgər müəyyən bir yerdə bir il yaşamağı nəzərdə tutubsa, ürfə görə, ora onun vətəni deyildir, amma müsafir də adlanmır. Odur ki, orada on gün qalmağı niyyət etmədən, namazı tamdır və orucu düzgündür.**

**Sual 685:** **Bir şəxsin vətəni Tehrandır, hal-hazırda isə Tehran yaxınlığında olan bir şəhərdə məskunlaşmaq və oranı özünə vətən etmək niyyətindədir. Amma gündəlik iş yeri Tehranda olduğuna görə, həmin şəhərdə nəinki altı ay, heç on gün qala bilmir. O, hər gün iş yerinə gedir və gecə həmin şəhərə geri dönür. Həmin şəhərdə onun namaz və orucunun hökmü nədir?**

**Cavab: "Yeni vətən" adının gerçəkləməsi şərti bu deyildir ki, insan hansısa bir şəhəri özünə vətən etdikdən və həmin şəhərdə məskunlaşdıqdan sonra orada davamlı olaraq bir müddət qalmalıdır. Əksinə, oranı yeni vətən seçdikdən və bu niyyətlə bir müddət (hətta təkcə gecələri belə) orada yaşadıqdan sonra ora onun vətəni hesab olunur. Həmçinin əgər orada müəyyən isləri görsə, hansı ki, insan adətən bir yeri özünə vətən etmək istədikdə həmin işləri görür, məsələn, ev alsa, iş yeri seçsə və s. – hətta orada bir müddət qalmasa belə – "vətən" adı gerçəkləşir.**

**Sual 686:** **Mənim və həyat yoldaşımın doğulduğu yer Kaşmir şəhəridir. Amma dövlət müəssisələrinin birində işə düzəldiyimə görə Nişabur şəhərinə köçmüşəm. Bizim ata-anamız hələ də doğulduğumuz yerdə yaşayırlar. Nişabura yeni getdiyimiz vaxtlarda biz öz əsl vətənimizi vətənlikdən çıxardıq, amma indi on beş il keçdikdən sonra fikrimizi dəyişmişik. Xahiş edirəm ki, aşağıdakı sualları cavablandırasınız:**
**1- Biz ata-anamızın evinə gedəndə və onların yanında bir neçə gün qalanda, namaz üçün mənim və həyat yoldaşımın vəzifəsi nədir?**
**2- İndi yaşadığımız şəhərdə (yəni Nişabur şəhərində) dünyaya gələn və hal-hazırda həddi-büluğa çatan övladlarımızla birlikdə ata-baba şəhərimizə (Kaşmirə) gedəndə və orada bir neçə gün qalanda, övladlarımızın vəzifəsi nədir?**

**Cavab: Siz öz əsl vətəninizi (Kaşmir şəhərini) vətənlikdən çıxardıqdan sonra daha ora sizin üçün vətən hökmündə deyildir. Amma əgər yenidən ora dönsəniz və daimi olaraq, yaxud uzun müddət (hətta ilin bir neçə ayını), yaxud da müddət təyin etmədən orada yaşamağı qərara alsanız, ora yenidən sizin vətəniniz olacaq. Amma bu şərtlə ki, orada yaşayış üçün şərait yaratmalı və ya müəyyən müddət orada qalmalısınız. Hazırda Kaşmir şəhəri sizin övladlarınız üçün də vətən hökmündə deyildir və sizin hamınız orada müsafir hökmündəsiniz.**

**Sual 687: Bir şəxsin iki vətəni vardır, buna görə də, hər iki yerdə namazını tam qılır və oruc da tutur. Onun həyat yoldaşı və öhdəsində olan övladları bu məsələdə ailə başçısına tabe olmalıdırlarmı? Yoxsa ailə başçısından müstəqil surətdə əməl edə bilərlər?**

**Cavab: Qadın ərinin yeni vətənini öz vətəni qərar verməyə bilər. Amma övladlar əgər azyaşlı olsalar və qərar vermək və qazanc əldə etməkdə müstəqil olmasalar, yaxud bu məsələdə atanın istəyinə tabe olsalar, atanın yeni vətəni onların da vətəni hesab olunur.**

**Sual 688: Əgər doğum evi atanın vətənindən kənarda olsa və doğum üçün ana bir neçə günlük doğum evinə getməli olsa, övladı dünyaya gəldikdən sonra isə geri dönsə, bu uşağın vətəni haradır?**

**Cavab: Başqa bir şəhərdə dünyaya gəlmək həmin şəhərin uşağın vətəni olmasına səbəb olmur. Uşağın vətəni ata və ananın vətənidir, belə ki, dünyaya gəldikdən sonra uşaq həmin şəhərə gətirilir, ata-ana ilə birlikdə orada yaşayır və böyüyüb boya-başa çatır.**

**Sual 689: Bir şəxs bir neçə ildir ki, Əhvaz şəhərində yaşayır, amma oranı özünə ikinci vətən etməmişdir. Əgər həmin şəhərdən şəri məsafədən çox və ya az olaraq xaric olsa, yenidən ora qayıtdıqda namaz və orucunun hökmü nədir?**

**Cavab: Sualda deyilənlərə əsasən, bu şəxs ürfə görə orada müsafir hesab olunmur və buna görə də onun namazı tamdır, orucu da düzgündür.**

**Sual 690: Mən iraqlıyam və vətənim olan İraqı vətənlikdən çıxarmaq niyyətindəyəm. Mən bütün İranı özümə vətən etməliyəm, yoxsa təkcə məskunlaşdığım və yaşadığım məntəqəni vətən etməliyəm? Özümə vətən seçmək üçün orada, mütləq, ev almalıyammı?**

**Cavab: "Yeni vətən"in gerçəkləşməsi üçün müəyyən və konkret bir şəhəri vətən etmək niyyətində olmaq şərtdir. Həmçinin orada müəyyən isləri görməlidir, hansı ki, insan adətən bir yeri özünə vətən etmək istədikdə həmin işləri görür, məsələn, ev almaq və ya icarə etmək, iş yeri açmaq və s. Yaxud da orada bir-iki ay qalmalıdır.**

**Sual 691: Bir şəxs həddi-büluğa çatmamışdan qabaq doğulduğu yerdən başqa bir şəhərə köçüb və vətəni vətənlikdən çıxarmaq məsələsini də bilməyib. Hal-hazırda o, şəri vəzifə yaşına çatıb. Doğulduğu yerdə namaz və oruc barəsində onun vəzifəsi nədir?**

**Cavab: Əgər o, atasının tabeliyində olduğu halda həmin yerdən köçübsə və atası yaşayış üçün ora geri dönməmək niyyətində olubsa, doğulduğu yer onun üçün daha vətən hökmündə deyildir.**

**Sual 692: Əgər bir şəxs hal-hazırda vətəninin birində yaşamırsa, amma bəzən öz həyat yoldaşı ilə ora gedirsə, onun həyat yoldaşı da orada onun kimi namazını tam qılmalıdır, yoxsa yox? Əgər həyat yoldaşı ora tək getsə, namazının hökmü nədir?**

**Cavab: Həmin məkanın onun ərinin vətəni olması, onun da vətəni olmasına səbəb olmur. Ora onun vətəni hökmündə deyildir.**

**Sual 693:** **İş yeri vətən hökmündədirmi?**

**Cavab: Hansısa bir yerdə işləmək həmin yerin "vətən" olmasına səbəb olmur. Amma əgər şəxs orada məskunlaşsa və bir il orada qalmaq niyyətində olsa, müsafir hökmündə olmayacaq və onun namazı tamdır, orucu da düzgündür.**

**Sual 694:** **"Vətəni vətənlikdən çıxarmaq" dedikdə, nə nəzərdə tutulur? Qadının ailə qurması və əri ilə birlikdə ərin istədiyi yerə köçməsi, vətəni vətənlikdən çıxarmaq hesab olunurmu, yoxsa yox?**

**Cavab: Vətəni vətənlikdən çıxarmaq – vətənə dönməmək niyyətilə oradan çıxmaq, həmçinin vətənə dönməyin qeyri-mümkün olduğunu bilərək və ya buna əmin olaraq oradan çıxmaqla gerçəkləşir. Qadının başqa şəhərdə olan ər evinə köçməsi, qadının öz əsl vətənini vətənlikdən çıxarması demək deyildir.**

**Sual 695:** **Xahiş edirəm ki, əsl vətən və ikinci vətən barəsində öz fikrinizi açıqlayasınız.**

**Cavab: Əsl vətən o yerdir ki, insan öz ömrünün ilkin illərinin böyük hissəsini (yəni uşaqlıq və yeniyetməlik dövrünü) orada boya-başa çatıb böyümüşdür. İkinci vətən isə o yerdir ki, mükəlləf daimi olaraq, yaxud uzun müddət (hətta ilin bir neçə ayını), yaxud da müddət təyin etmədən orada yaşamağı qəti qərara almışdır.**

**Sual 696:** **Mənim atam və anam Savə şəhərinin əhalisindəndir. Onlar uşaq ikən Tehrana gəlmiş və orada məskunlaşmışlar. İzdivac etdikdən sonra Çalus şəhərinə getmiş və orada məskunlaşmışlar, çünki atamın iş yeri orada imiş. Beləliklə, mən Tehranda dünyaya gəlmişəm, amma orada əsla yaşamamışam. Mən Tehranda və Savədə namazı necə qılmalıyam?**

**Cavab: Sualda deyilənlərə əsasən, siz orada başqa müsafirlər hökmündə olacaqsınız.**

**Sual 697:** **Bir şəxs öz vətənini vətənlikdən çıxarmayıbdır və hal-hazırda təxminən altı ildir ki, başqa bir şəhərdə yaşayır. İmam Xomeyninin (r.ə) təqlidində qaldığını nəzərə alaraq, o öz vətəninə döndükdə, namazınıtam qılmalıdır, yoxsa qəsr qılmalıdır?**

**Cavab: Əvvəlki vətənini vətənlikdən çıxarmayana qədər onun üçün vətən hökmündə qalır. Orada onun namazı tam və orucu düzgündür.**

**Sual 698:** **Bir tələbə Təbriz universitetində təhsil almaq üçün Təbriz şəhərində bir evi dörd il müddətinə icarəyə götürmüşdür. Həmçinin o, imkan olduğu təqdirdə Təbrizdə daimi qalmaq niyyətindədir. Hal-hazırda mübarək ramazan ayında bəzən o öz əsl vətəninə get-gəl edir. Bu iki yer onun üçün iki vətən hesab olunurmu?**

**Cavab: Əgər təhsil aldığı yeri hal-hazırda özünə vətən etməyi qəti surətdə qərara almayıbsa, ora onun üçün vətən hökmündə olmayacaq. Amma sualda deyilənlərə əsasən, o, bu yerdə müsafir hökmündə deyildir və onun namazı tamdır, orucu da düzgündür. Bunu da qeyd edək ki, o, öz əsl vətənini vətənlikdən çıxarmayanadək ora onun üçün vətən hökmündə qalır.**

**Sual 699:** **Mən Kermanşah şəhərində doğulmuşam və altı ildir ki, Tehranda yaşayıram. Öz əsl vətənimi vətənlikdən çıxarmadan Tehranı özümə vətən etmişəm. Əgər hər il və ya iki ildən bir Tehranın bir məntəqəsindən başqa bir məntəqəsinə köçsəm, orada mənim namaz və orucumun hökmü necə olacaqdır? Artıq altı ay olar ki, Tehranın yeni bir məntəqəsində yaşayıram. Bura bizim üçün vətən hökmündədir, yoxsa yox? Gün ərzində Tehranın müxtəlif məntəqələrinə get-gəl edəndə namaz və orucumuzun hökmü necə olacaqdır?**

**Cavab: Əgər indiki Tehranı və ya onun bir məhəlləsini özünüzə vətən etmisinizsə, bütün**

**Tehran sizin vətəniniz hesab olunacaqdır. Tehranın bütün məhəllələri sizin üçün vətən hökmündədir və sizin namazınız tam, orucunuz düzgündür. İndiki Tehranda müxtəlif məntəqələrə get-gəl etməyiniz səfər hökmündə deyildir.**

**Sual 700:** **Kənd əhalisindən olan bir şəxsin indiki iş və yaşayış yeri Tehrandır. Onun ata-anası kənddə yaşayır və orada mülkləri vardır. Bu şəxs ata-anasını görmək və onlara kömək etmək üçün kəndə gedir, amma yaşamaq üçün ora qayıtmaq istəmir. Oranın onun doğulduğu yer olduğunu nəzərə alaraq, orada onun namaz və orucunun hökmü nədir?**

**Cavab: Əgər yaşamaq üçün həmin kəndə qayıtmaq niyyətində deyilsə, əksinə, ora dönməmək niyyətindədirsə, ora onun üçün vətən hökmündə deyildir.**

**Sual 701:** **İnsanın doğulduğu yer, orada yaşamamasına baxmayaraq, vətən hesab olunurmu?**

**Cavab: Əgər doğulduğu yerdə bir müddət (yəni uşaqlıq və yeniyetməlik dövrünü) qalıb boya-başa çatıbsa, oranı vətənlikdən çıxarmayanadək vətən hökmündədir. Əks təqdirdə, vətən hökmündə deyildir.**

**Sual 702:** **Əgər bir şəxs uzun illər (doqquz il) vətəni olmadığı bir yerdə yaşayıbsa və hal-hazırda öz vətəninə qayıtmaq ona qadağa qoyulubsa, amma bir gün öz vətəninə qayıdacağına əmindirsə, onun namaz və orucunun hökmü nədir?**

**Cavab: Sualda deyilənlərə əsasən, bu şəxs müsafir adlanmır və orada onun namazı tamdır, orucu da düzgündür.**

**Sual 703:** **Mən ömrümün altı ilini bir kənddə və səkkiz ilini bir şəhərdə yaşamışam. Hal-hazırda təhsil almaq üçün Məşhəd şəhərinə gəlmişəm. Bu yerlərin hər birində mənim namaz və orucumun hökmü nədir?**

**Cavab: Əgər doğulduğunuz kənd ürfə görə sizin əsl vətəniniz hesab olunursa, orada sizin namazınız tamdır və orucunuz da düzgündür. Yox əgər oranın "vətən" adlanıb-adlanmadığına şəkk olunursa, ehtiyata riayət olunmalıdır. Əgər siz sözegedən kənddə doğulmamısınızsa, oranın "vətən" adlanıb-adlanmadığına şəkk olundğu təqdirdə, ora sizin üçün vətən hökmündə olmayacaq. Bir neçə il yaşadığınız şəhərə gəlincə isə, əgər oranı özünüzə vətən seçmisinizsə, oranı vətənlikdən çıxarmayanadək sizin üçün vətən hökmündədir. Əgər Məşhəd şəhərini də özünüzə vətən etmək niyyətində deyilsinizsə, ora sizin vətəniniz hesab olunmayacaq. Amma əgər orada bir-iki il yaşamaq niyyətindəsizinsə, orada sizin namazınız tamdır və orucunuz da düzgündür.**

## Vətən məsələsində zövcənin və övladın ailə başçısına tabe olmaları

**Sual 704:** **Qadın bir yeri vətən etmək, yaxud bir yerdə qalmağı niyyət etmək məsələsində ərinə tabedirmi?**

**Cavab: Belə deyildir ki, qadın bu məsələlərdə mütləq öz ərinə tabe olmalıdır. Qadın özünə vətən seçməkdə, yaxud bir yerdə qalmağı niyyət etməkdə öz ərinə tabe olmaya bilər. Əlbəttə, əgər qadın vətən seçməkdə və ya vətəni vətənlikdən çıxarmaqda öz ərinin istəyinə və seçiminə tabedirsə, ərinin niyyəti onun üçün kifayət edir. Daimi yaşamaq və vətən etmək niyyətilə əri ilə birlikdə getdiyi şəhər, qadının da vətəni hesab olunur. Həmçinin yaşadıqları yerdən başqa bir yerə köçərək ərinin onların müştərək vətənini vətənlikdən çıxarması, qadının da həmin vətəni vətənlikdən çıxarması hesab olunur. Əgər qadın səfər zamanı ərinin bir yerdə on gün qalmaq niyyətindən xəbərdar olsa, ərinin istəyinə və seçiminə tabe olduğu təqdirdə, onun niyyəti qadın üçün də kifayət edir. Hətta əgər orada qaldıqları müddətdə əri ilə birlikdə olmaq məcburiyyətindədirsə, yenə də hökm belədir.**

**Sual 705:** **Bir gənc oğlan başqa şəhərdən olan bir qızla evlənmişdir. Bu qadın öz atası evinə gedəndə namazı qəsrdir, yoxsa tam?**

**Cavab: Öz əsl vətənini vətənlikdən çıxarmayana qədər orada namazı tamdır.**

**Sual 706:** **İmam Xomeyninin (r.ə) risaləsində ("Şəriət hökmlərinin izahı" adlı kitabında) 1284-cü məsələ zövcəyə və övladlara şamil olurmu? Yəni müsafir hökmündə olmaları üçün onların səfər niyyətində olmaları şərt deyildirmi? Atanın vətəni atanın tabeliyində olan şəxslərin namazının tam olmasına səbəb olurmu?**

**Cavab: Əgər səfər məsələsində onlar ataya tabedirlərsə – hətta bu tabelilik təbii surətdə alınsa belə – atanın şəri məsafəni qət etmək niyyətində olması və onların da atanın bu niyyətindən xəbərdar olmaları kifayət edir. Vətən seçmək və ya vətəni vətənlikdən çıxarmaq məsələsinə gəlincə isə, əgər onlar qərar verməkdə və yaşayışda müstəqil deyildirlərsə, yəni təbii surətdə atanın istək və seçiminə tabedirlərsə, əvvəlki vətəni vətənlikdən çıxarmaq və yeni vətən seçməkdə – belə ki, ata onları götürüb yaşayış üçün ora gedir – onlar ataya tabe olacaqlar.**

## Böyük şəhərlərin hökmləri

**Sual 707: Vətən etmək və ya on gün qalmağı niyyət etmək baxımından böyük şəhərlər barəsində sizin nəzəriniz nədir?**

**Cavab: Müsafirin, vətən etməyin və qəsdi-iqamətin (on gün qalmaq niyyətində olmaq) hökmləri böyük şəhərlərdə də, adi şəhərlərdə eynidir və bu baxımdan böyük şəhər ilə adi şəhər arasında fərq yoxdur. Bir şəxs böyük bir şəhəri özünə vətən etməyi qərara aldıqda və vətən üçün lazımlı olan şəraiti orada yaratdıqda və ya bir müddət orada qaldıqda, bu şəhər bütünlüklə onun üçün vətən hökmündə olacaq. Həmçinin əgər bir şəxs böyük bir şəhərdə on gün qalmağı niyyət etsə, şəhərin bütün məhəllərində onun namazı tam və orucu düzgündür; istər bu şəhərin müəyyən bir məntəqəsini özünə vətən etmək və ya orada on gün qalmaq niyyətində olubdur, istərsə də belə bir niyyəti olmayıbdır.**

**Sual 708: Bir şəxs Tehranın böyük şəhər olduğuna dair İmam Xomeyninin (r.ə) fətvasından xəbərdar olmamış və İslam İnqilabından sonra onun fətvasını öyrənmişdir. Onun adi qaydada qıldığı namazlar və tutduğu orucların hökmü nədir?**

**Cavab: Əgər bu şəxs hal-hazırda həmin məsələdə İmam Xomeyninin (r.ə) təqlidində qalıbsa, İmam Xomeyninin (r.ə) fətvasına müvafiq olmayan keçmiş əməllərini yenidən yerinə yetirməlidir. Belə ki, qəsr əvəzinə tam qıldığı namazları qəsr olaraq qəzasını qılmalı və səfərdə ikən tutduğu orucların qəzasını tutmalıdır. Amma o, bu məsələdə həyatda olan bir müctəhidə müraciət edə bilər və bu halda keçmiş namazlarını yenidən qılmağa ehtiyac olmayacaq.**

# İsticari namaz[1]

**Sual 709:** **Mən namaz qılmağa qadir deyiləm. Bir şəxs mənim yerimə namaz qıla bilərmi? Naib şəxsin zəhmət haqqı alması və ya almaması arasında fərq varmı?**

**Cavab: Mükəlləf şəxs həyatda olduğu halda vacib namazlarını bacardığı hər hansı bir şəkildə özü qılmalıdır. Naib şəxsin namazı – istər zəhmət haqqı alsın, istərsə də almasın – onun üçün kifayət etmir.**

**Sual 710:**

**1- İsticari namaz qılan şəxsin azan və iqaməni, üç salamı və təsbihati-ərbəəni tam şəkildə deməsi vacibdirmi?**

**2- Əgər o, bir gün, məsələn, zöhr və əsr namazlarını qılsa, sonrakı gün isə gündəlik beş namazın hamısını qılsa, tərtibə (ardıcıllığa) riayət etməsi lazımdırmı?**

**3- İsticari namazda mərhumun xüsusiyyətlərini vurğulamaq şərtdirmi, yoxsa yox?**

**Cavab: Mərhumun xüsusiyyətlərini vurğulamaq lazım deyildir. Eyni bir günün zöhr və əsr namazları, həmçinin eyni bir günün məğrib və işa namazları arasında ardıcıllığa riayət etmək şərtdir. Əgər isticari namazın müqaviləsində əcir şəxs qarşısında müəyyən bir qayda şərt qoyulmazsa, isticari namazı yalnız namazın vacib əməllərini yerinə yetirərək qılmaq əcir şəxsə vacib olur.**

---

[1] İsticari namaz – ücrət alıb mərhumun qəza namazlarını qılmaq.

## Ayət namazı

**Sual 711:** **Ayət namazı nədir və onun vacib olmasının şəri səbəbləri hansılardır?**

**Cavab: Ayət namazı iki rəkətdir və hər rəkətində beş rüku və iki səcdə vardır. Ayət namazının vacib olmasının şəri səbəbləri bunlardan ibarətdir:**

**- Günəşin və Ayın tutulması, hətta onların az bir hissəsi tutulsa belə;**

**- zəlzələ;**

**- camaatın əksəriyyətinin qorxmasına səbəb olan qeyri-adi təbiət hadisəsi, məsələn, qeyri-adi qırmızı, qara və sarı küləklər, qatı zülmətin çökməsi, yerin çökməsi və dağın uçulması, göy gurultusu, bəzən səmada müşahidə olunan ildırım və şimşək.**

**Günəş və Ayın tutulmasından, zəlzələdən qeyri hadisələr camaatın əksəriyyətinin qorxmasına səbəb olmalıdır. Qorxu yaratmayan və ya az sayda insanın qorxmasına səbəb olan təbiət hadisəsi əsas götürülmür.**

**Sual 712:** **Ayət namazı necə qılınır?**

**Cavab: Ayat namazını bir neçə qaydada qılmaq olar:**

***Birinci qayda:*** **Niyyət etdikdən və təkbirətul-ehramı dedikdən sonra “Həmd” və “Surə”ni oxuyursan, daha sonra rükuya gedirsən. Rükudan qalxıb, yenidən “Həmd” və “Surə”ni oxuyursan, daha sonra rükuya gedirsən. Yenə də rükudan qalxıb, “Həmd” və “Surə”ni oxuyursan, daha sonra rükuya gedirsən. Bu qaydada beş rüku yerinə yetirir və hər rükudan qabaq “Həmd” və “Surə”ni oxuyursan. Daha sonra səcdəyə gedir və iki səcdə yerinə yetirirsən. Sonra isə namazın ikinci rəkəti üçün ayağa qalxır və ikinci rəkəti də eynilə birinci rəkət kimi yerinə yetirirsən. Axırda səcdələrdən sonra təşəhhüdü və salamları deyirsən.**

***İkinci qayda:*** **Hər rəkətdə yalnız bir “Həmd” və bir “Surə” oxunur. Belə ki, “Surə” beş hissəyə bölünərək oxunur.**

**Niyyət etdikdən və təkbirətul-ehramı dedikdən sonra “Həmd”i və “Surə”nin bir hissəsini (istər bir ayə olsun, istər bir ayədən az olsun, istərsə də bir ayədən çox olsun) oxuyursan, daha sonra rükuya gedirsən. (Ehtiyat-vacibə görə, “Bismilləhir-rahmənir-rahim” ayəsini “Surə”nin bir hissəsi hesab etmək və onu deyib rükuya getmək olmaz.) Rükudan qalxır və “Həmd”i oxumadan “Surə”nin ikinci hissəsini oxuyursan, daha sonra ikinci rükuya gedirsən. Bu qaydada davam etdirirsən. Beləliklə, hər rükudan qabaq bir hissəsini oxuduğun “Surə”, axırıncı rükudan qabaq tamamlanmalıdır. Beşinci rükunu da yerinə yetirdikdən sonra səcdəyə gedirsən. İki səcdəni yerinə yetirdikdən sonra ikinci rəkət üçün ayağa qalxırsan. İkinci rəkəti də eynilə birinci rəkət kimi yerinə yetirir və sonra təşəhhüdü və salamı deyirsən.**

*Üçüncü qayda:* **Rəkətlərdən birini yuxarıda açıqlanan qaydalardan biri şəklində, digər rəkəti isə digər qaydada qılırsan.**

*Dördüncü qayda:* **Birinci rükudan qabaq qiyamda "Surə"nin bir hissəsini oxuyur və ikinci, yaxud üçüncü, yaxud da dördüncü rükudan qabaq "Surə"ni tamamlayırsan. "Surə"ni tamamladığın təqdirdə, rükudan qalxdıqdan sonra növbəti qiyamda "Həmd"i yenidən oxumalısan. "Həmd"dən sonra bir "Surə" və ya "Surə"nin bir hissəsini oxuyursan. Bu halda, həmin "Surə"ni beşinci rükuya getməmişdən qabaq tamamlamalısan.**

**Sual 713: Ayət namazını qılmaq hadisənin baş verdiyi şəhərdə olan mükəlləflərə vacib olur? Yoxsa bu hadisədən xəbər tutan bütün mükəlləflərə də vacibdir, baxmayaraq ki, onlar həmin şəhərdə olmayıblar?**

**Cavab: Ayat namazını qılmaq hadisə baş verdiyi zaman o yerdə olan şəxslərə vacibdir.**

**Sual 714: Əgər bir şəxs zəlzələ baş verən zaman huşsuz vəziyyətdə olsa və zəlzələ baş verib qurtarandan sonra huşa gəlsə, ayət namazı ona vacib olurmu?**

**Cavab: Sualda qeyd olunanlara əsasən, bu şəxs ehtiyat-vacibə görə, ayat namazını qılmalıdır.**

**Sual 715: Bir məntəqədə zəlzələ baş verdikdən sonra adətən az bir müddət ərzində onlarla zəlzələ dalğasının geri qayıtması və təkanlar baş verir. Bu hallarda ayət namazının hökmü nədir?**

**Cavab: Hər bir zəlzələ - istər güclü olsun, istərsə də zəif - əgər ayrıca bir zəlzələ hesab olunarsa, onun üçün ayrıca ayət namazı qılınmalıdır.**

**Sual 716:** Əgər Seysmoloji Xidmət Mərkəzi bizim yaşadığımız məntəqədə zəif yeraltı təkanların baş verdiyini bildirsə və onların sayını açıqlasa, amma kimsə bu təkanları əsla hiss etməsə, bu halda ayat namazı vacib olurmu, yoxsa yox?

**Cavab: Əgər bu təkanları heç kim hiss etməsə və yalnız cihazlar vasitəsilə məlum olsa,**

## Nafilələr[1]

**Sual 717:** **Nafilə namazları ucadan qılınmalıdır, yoxsa ahəstə?**

**Cavab: Gündüz nafilələrinin ahəstə, gecə nafilələrinin isə ucadan qılınması müstəhəbdir.**

**Sual 718:** **İki rəkət-iki rəkət şəklində qılınan gecə namazını iki dördrəkətli, bir ikirəkətli və bir vətr namazı şəklində qılmaq olarmı?**

**Cavab: Gecə namazını dördrəkətli namaz şəklində qılmaz olmaz.**

**Sual 719:** **Gecə namazı qılarkən vacibdirmi ki, kimsə bizim gecə namazı qıldığımızı görməsin və duymasın? Gecə namazını qaranlıq bir məkanda qılmalıyıqmı?**

**Cavab: Gecə namazını qaranlıq bir məkanda və başqalarından məxfi şəkildə qılmaq şərt deyildir. Amma bu əməldə riyakarlıq da etmək olmaz.**

**Sual 720:** **Zöhr və əsr namazlarını qıldıqdan sonra nafilə vaxtında zöhr və əsr namazlarının nafiləsini qəza niyyətilə qılmaq lazımdır, yoxsa başqa niyyətlə?**

**Cavab: Bu halda əhvət budur ki, nafilələr əda və qəza niyyəti etmədən "qürbətən iləllah" niyyəti ilə qılınsın.**

**Sual 721:** **Xahiş edirəm, gecə namazının qaydasını geniş şəkildə bizə açıqlayasınız.**

**Cavab: Gecə namazı on bir rəkətdir. Onun səkkiz rəkəti iki rəkət-iki rəkət şəklində qılınır və gecə namazı adlanır. İki rəkəti "şəf" namazıdır və sübh namazı kimi qılınır. Bir rəkət isə "vətr" namazı adlanır və onun qunutunda dua kitablarında qeyd edildiyi qaydada möminlər üçün Allahdan bağışlanma diləmək və dua etmək, Mənnan Allahdan diləklər diləmək müstəhəbdir.**

**Sual 722:** **Gecə namazı hansı şəkildə qılınmalıdır? Yəni "Surə" oxumaq, bağışlanma diləmək və dua etmək qaydası necədir?**

**Cavab: Gecə namazında Surə oxumaq, bağışlanma diləmək və dua etmək namazın bir hissəsi ünvanında şərt deyildir. Hər rəkətdə niyyətdən və təkbirətul-ehramdan sonra Həmdi oxumaq kifayət edir. Əgər namaz qılan şəxs istəsə, Həmdi oxuduqdan sonra Quran surələrindən birini oxuya bilər. Sonra rükunu, səcdələri və onların zikrlərini, təşəhhüdü və salamı yerinə yetirməlidir.**

---

[1] Müstəhəb namazlar çoxdur və "nafilə" adlanır. Müstəhəb namazlar arasında gündəlik nafilə namazlarının qılınması çox tövsiyə olunub. Gündəlik nafilə namazları cümə günündən qeyri günlərdə 34 rəkətdir:
- 2 rəkət sübh namazının nafiləsi;
- 8 rəkət zöhr namazının nafiləsi:
- 8 rəkət əsr namazının nafiləsi;
- 4 rəkət məğrib namazının nafiləsi;
- 2 rəkət işa namazının nafiləsi;
- 11 rəkət gecə nafiləsi (gecə namazı).

İşa namazının nafiləsi ehtiyat-vacibə görə əyləşən halda qılınmalıdır, buna görə də, bir rəkət hesab olunur. Amma cümə günü zöhr və əsr namazlarının 16 rəkət nafiləsinə 4 rəkət də əlavə olunur.

## Namazın müxtəlif məsələləri

**Sual 723:** **Ailə üzvlərini sübh namazına necə oyatmaq lazımdır?**

**Cavab: Bu barədə ailə üzvləri ilə əlaqədar xüsusi bir qayda mövcud deyildir.**

**Sual 724:** **Müxtəlif tayfalardan və dəstələrdən olub bir-birinə qarşı kin, həsəd və hətta düşmənçilik bəsləyən şəxslərin namaz və orucunun hökmü nədir?**

**Cavab: Mükəlləf başqalarına qarşı həsəd, kin və düşmənçilik bəsləyə bilməz, amma bu məsələlər namaz və orucun düzgün olmamasına səbəb olmur.**

**Sual 725:** **Əgər bir əsgər cəbhədə döyüş qızğın olduğuna görə Fatihə surəsini oxumağa və ya səcdə və rüku etməyə qadir deyilsə, orada namazını necə qılmalıdır?**

**Cavab: Onun üçün necə mümkündürsə, namazını o şəkildə qılsın. Əgər rüku və səcdə etməyə qadir deyilsə, rüku və səcdə əvəzinə işarə etmək kifayət edir.**

**Sual 726:** **Ata və ana öz övladlarına hansı yaşda şəriət hökmlərini və ibadətləri öyrətməlidirlər?**

**Cavab: Uşaq yaxşını pisdən ayırd edə bildiyi yaşa çatanda valideynin ona şəriət hökmlərini və ibadətləri öyrətməsi müstəhəbdir.**

**Sual 727:** **Şəhərlərarası marşurut avtobusların bəzi sürücüləri sərnişinlərin namazına əhəmiyyət vermir, sərnişinlər namaz qılmaq üçün avtobusu saxlamalarını istədikdə, onların sözünə etina etmirlər. Buna görə də, sərnişinlərin namazı bəzən qəzaya gedir. Bu xüsusda avtobus sürücülərinin vəzifəsi nədir? Sərnişinlərin öz namazları barəsində vəzifələri nədir?**

**Cavab: Namaz vaxtının keçəcəyindən qorxduqları təqdirdə avtobusu uyğun bir yerdə saxlamağı sürücüdən tələb etmək sərnişinlərə vacibdir. Sürücü də onların tələbini qəbul etməlidir. Əgər sürücü məqbul bir səbəbə görə və ya səbəbsiz olaraq avtobusu saxlamaqdan boyun qaçırarsa, namaz vaxtının keçəcəyindən qorxduqları təqdirdə sərnişinlər namazı avtobus hərəkət etdiyi halda avtobusda qılmalıdırlar. Mümkün olduğu qədər qiblə istiqamətinə, qiyam, rüku və səcdələrin yerinə yetirilməsinə riayət etməlidirlər.**

**Sual 728:** **“Şərab içən şəxsin namazı və orucu qırx gün namaz və oruc deyildir” kəlamının mənası nədir? Yəni bu müddətdə namaz qılmaq ona vacib deyildir və sonradan namazların qəzasını qılmalıdır? Yoxsa həm namazı qılmalı, həm də sonradan qəzasını qılmalıdır? Yaxud da namazın qəzasını qılmaq ona vacib deyildir və təkcə namazı öz vaxtında qılmaq kifayət edir, amma bu namazın savabı digər namazlardan azdır?**

**Cavab: Bu kəlamın mənası budur ki, şərab içmək namaz və orucun qəbul olunmasına maneədir[1]. Belə deyildir ki, şərab içəndə daha namaz qılmaq və oruc tutmaq bu şəxsə vacib olmur və o, bu ibadətlərin qəzasını yerinə yetirməlidir, yaxud da həm bu ibadətləri öz vaxtında yerinə yetirməli, həm də onların qəzasını yerinə yetirməlidir.**

**Sual 729:** **Əgər mən görsəm ki, bir şəxs namazın əməllərini səhv yerinə yetirir, bu halda mənim şəri vəzifəm nədir?**

**Cavab: Namazın şərtləri və əməlləri bir baxımdan iki qismə ayrılır:**
**1- Mükəlləf namazın müəyyən şərtləri və əməllərini bilmir və buna görə də səhvə yol verir,**

amma bu səhv namazın düzgünlüyünə xələl gətirmir;
2- Mükəlləf namazın müəyyən şərtləri və əməllərini bilmir və buna görə də səhvə yol verir, amma bu səhv namazın düzgünlüyünə xələl gətirir.
Birinci halda bu şəxsə səhvini demək vacib deyildir. Amma ikinci halda bu səhv – məsələn, dəstəmaz, qüsl, namazın vaxtı, rüku, səcdələr və s. bu kimi namazın şərtləri və əməllərində yol verilən səhvlər – namazın pozulmasına səbəb olduğuna və namazı yenidən qılmaq lazım gəldiyinə görə, düzgün hökmü ona demək vacibdir.

**Sual 730:** **Namaz qurtardıqdan sonra namaz qılanların əl-ələ görüşmələri barəsində sizin nəzəriniz nədir? Qeyd etmək lazımdır ki, bəzi alimlər "Bu barədə İmamlardan (ə) heç bir hədis yoxdur" deyə buyurublar, odur ki, əl-ələ görümək üçün heç bir səbəb yoxdur. Amma eyni halda müşahidə edirik ki, əl-ələ görüşmək namaz qılanlar arasında dostluğun və sevginin artmasına səbəb olur.**

Cavab: Namazın salamından sonra və namaz qurtadıqdan sonra əl-ələ görüşməyin heç bir maneəsi yoxdur. Ümumiyyətlə, möminlərin əl-ələ görüşməsi müstəhəbdir.

---

[1] "Namazın qəbul olunmasına maneədir" dedikdə bu nəzərdə tutulur ki, bu namaza savab yazılmır. Amma əgər o, namazı düzgün şəkildə qılarsa, namazı tərk edən bir şəxs hesab olunmayacaq və namazı tərk etmək cəzası ona verilməyəcək. Baxmayaraq ki, namaza görə ona savab və mükafat da verilməyəcək.

## Orucun hökmləri

**Sual 731:** Əgər bədəninin zəifliyinə görə şəri vəzifə yaşına çatan bir qızın oruc tutmağa qüvvəsi çatmırsa və ramazan ayından sonra da gələn ilin ramazan ayına qədər orucun qəzasını tuta bilmirsə, onun hökmü nədir?

**Cavab: Ancaq bədənin zəifliyi və qüvvənin çatmaması səbəbilə orucu və onun qəzasını tuta bilməmək, orucun qəzasının mükəlləfin boynundan götürülməsinə səbəb olmur. Ramazan ayında tutmadığı orucların qəzası ona vacibdir.**

**Sual 732:** Əgər şəri vəzifə yaşına yeni çatan qızlara oruc tutmaq bir qədər çətindirsə, onların hökmü nədir? Qızların şəri büluğ yaşı qəməri ili ilə doqquz yaşın tamamlanmasıdırmı?

**Cavab: Məşhur nəzərə görə, qızların şəri büluğu qəməri ili ilə doqquz yaşın tamamlanmasıdır. Bu yaşda oruc tutmaq onlara vacib olur və bir sıra üzrlərə görə orucu tərk etmələrinə icazə verilmir. Amma əgər oruc tutmağın onlara zərəri, yaxud böyük əziyyəti olarsa, iftar etmələrinə icazə verilir.**

**Sual 733:** Mən şəri vəzifə yaşına çatmağımın dəqiq tarixini bilmirəm. Sizdən xahiş edirəm ki, namaz və orucun qəzasının mənə nə zamandan vacib olduğunu söyləyəsiniz.

**Cavab: Şəri vəzifə yaşına çatdığınıza əmin olduğunuz tarixdən etibarən, qəzaya verdiyinizə yəqinliyiniz olan namaz və orucların qəzası sizə vacibdir.**

**Sual 734:** Doqquz yaşlı qıza oruc tutmağın vacib olduğunu nəzərə alaraq, əgər o, çətin olduğuna görə orucunu iftar edərsə, orucun qəzası ona vacibdirmi, yoxsa vacib deyildir?

**Cavab: Ramazan ayında iftar etdiyi orucların qəzası ona vacibdir.**

**Sual 735:** Əgər bir şəxs tutarlı bir səbəbə görə əlli faiz ehtimal versə ki, oruc ona vacib deyildir və buna görə oruc tutmasa, lakin sonradan orucun ona vacib olduğu məlum olsa, orucun qəzası və kəffarəsi üçün hökmü nədir?

**Cavab: Əgər mübarək ramazan ayının orucunu məhz orucun vacib olmaması ehtimalı ilə iftar etsə, sualda deyilənləri nəzərə alaraq, orucun qəzasından əlavə kəffarəsi də ona vacib olur. Amma əgər o, zərər qorxusuna görə iftar etsə və bu qorxunun da məntiqi əsası olsa, orucun kəffarəsi vacib olmur, təkcə qəzası vacib olur.**

**Sual 736:** Bir şəxs hal-hazırda hərbi xidmətdədir. O, səfər edib hərbi xidmətə gəldiyinə görə ötən il ramazan ayı oruc tuta bilməyib. Bu il də ramazan ayında hərbi xidmətdə olacaq və yenə də oruc tuta bilməyəcəyi ehtimal olunur. Əgər o, hərbi xidməti başa vurduqdan sonra bu iki ayın orucunun qəzasını tutmaq istəsə, ona kəffarə də vacib olurmu, yoxsa yox?

**Cavab: Hərbi xidmətdə olmaq oruc tutmamağı icazəli etmir. Əgər orucu vacib edən şərtlər mövcud olarsa, bu şəxs oruc tutmalıdır. Oruc tutmadığı halda, həm orucun qəzası, həm də kəffarə ona vacib olur. Əgər gələn ramazan ayınadək orucun qəzasını tutmazsa, təxir kəffarəsi[1] də verməlidir. Amma əgər hərbi xidmətdə ikən orucu vacib edən şərtlər mövcud olmazsa və səfərə görə ramazan ayının orucunu tuta bilməzsə və səfər də gələn ilin ramazan ayınadək davam edərsə, yalnız orucun qəzası ona vacib olur. Təxir kəffarəsi vacib olmur.**

**Sual 737:** **Əgər oruc tutmuş şəxsin boynunda cənabət qüslü olsa və cənabətli olduğu zöhr azanınadək onun yadına düşməsə, sonra da irtimasi qüsl etsə, onun orucu pozulurmu? Əgər qüsl etdikdən sonra başa düşsə ki, oruc halında irtimasi qüsl etmişdir, orucun qəzası ona vacib olurmu?**

**Cavab: Əgər o, oruc olduğunu unudaraq irtimasi qüsl edibsə, onun qüslü və orucu düzgündür. Orucun qəzası ona vacib olmur.**

**Sual 738:** **Əgər bir şəxs zöhr azanından qabaq qaldığı yerə çatmaq istəsə, amma yolda qarşılaşdığı bir hadisə ilə əlaqədar həmin vaxtda ora çata bilməsə, onun orucuna xələl gəlirmi? Kəffarə ona vacib olurmu, yoxsa təkcə həmin günün orucunun qəzasını tutmalıdır?**

**Cavab: Səfərdə onun orucu düzgün deyildir və təkcə zöhrdən qabaq qaldığı yerə çata bilmədiyi günün orucunun qəzası ona vacibdir. Kəffarə ona vacib olmur.**

**Sual 739:** **Təyyarə yüksək hündürlükdə uçduğu və uçuş təxminən iki saat yarım-üç saat davam etdiyi zaman pilot və stüardessa fiziki baxımdan normal vəziyyəti qorumaqdan ötrü hər iyirmi dəqiqədə su içməlidirlər. Belə olan halda, mübarək ramazan ayında orucun qəzası və kəffarəsi onlara vacib olurmu?**

**Cavab: Əgər bu peşədə (pilot və stüardessa) işləmək bu şəxs üçün zəruri olarsa və ramazan ayında iş məzuniyyəti götürə bilməzsə və ya başqa bir yolla gəlir əldə edə bilməzsə, orucun ona zərəri olduğu təqdirdə, su içərək iftar edə bilər. Sonradan orucun qəzasını tutmalıdır, amma kəffarə vacib olmur.**

**Sual 740:** **Əgər mübarək ramazan ayında məğrib azanına iki saat və ya daha az vaxt qaldıqda qadın heyz olarsa, onun orucu pozulurmu?**

**Cavab: Orucu pozulur.**

**Sual 741:** **Əgər bir şəxs xüsusi bir geyimdə (məsələn, dalğıc geyimində) suya daxil olsa və bədəni əsla islanmasa, orucunun hökmü nədir?**

**Cavab: Əgər geyim onun başına yapışarsa, orucunun düzgünlüyü məhəlli-işkaldır və ehtiyat-vacibə görə, orucun qəzasını tutmalıdır.**

**Sual 742:** **Ramazan ayında orucu açmaq və orucdan qaçmaq məqsədilə bilərəkdən səfər etmək olarmı?**

**Cavab: Ramazan ayında səfər etməyə, hətta orucdan yayınmaq məqsədilə olsa belə, icazə verilir. Amma səfər etməmək daha yaxşıdır, əlbəttə, yaxşı və ya lazımlı bir iş üçün səfər etmək istisna təşkil edir. Oruc tutan şəxs səfər etdikdə, hətta orucdan yayınmaq məqsədilə səfər etsə belə, orucunu açmalıdır.**

**Sual 743:** **Bir şəxsin boynunda vacib oruc vardır və o, bu orucu tutmaq niyyətindədir. Amma hansısa bir səbəbə görə bu orucu tuta bilmir. Məsələn, günəş çıxdıqdan sonra səfərə çıxır və zöhrdən sonra qayıdır. Yolda da orucu pozan işlərdən heç birini yerinə yetirmir. Amma vacib orucun niyyətinin vaxtı artıq ötmüşdür. Həmin gün isə oruc tutmağın müstəhəb olduğu günlərdən biridir. Bu şəxs müstəhəb oruc niyyətini edə bilərmi, yoxsa edə bilməz?**

**Cavab: Əgər bu şəxsin boynunda ramazan ayının orucunun qəzası varsa, vacib orucun niyyətinin vaxtı ötmüş olsa belə, onun müstəhəb oruc niyyətini etməsi düzgün deyildir.**

**Sual 744:** **Mən siqaret aludəçisiyəm və mübarək ramazan ayında tünd xasiyyətli olmamağa çalışsam da, bacarmıram. Bu, ailə üzvlərimin böyük narahatlığına səbəb olur və özüm də bu çətin vəziyyətimdən əziyyət çəkirəm. Mənim vəzifəm nədir?**

**Cavab: Mübarək ramazan ayının orucu sizə vacibdir və ehtiyat-vacibə görə, oruc halında siqaret çəkə bilməzsiniz. Həmçinin heç bir səbəb olmadan başqaları ilə sərt davrana bilməzsiniz.**

[1] Təxir kəffarəsi – "gecikdirmə kəffarəsi" deməkdir və hər gün üçün bir müdd təam fəqirə verməkdən ibarətdir.

## Hamilə və südverən qadın

**Sual 745:** **Əgər hamilə qadın orucun bətnindəki uşağa zərəri olub-olmadığını bilmirsə, oruc tutmaq ona vacibdirmi?**

**Cavab: Əgər orucun bətnindəki uşağa zərəri olacağından qorxsa və onun qorxusunun məntiqi əsası olsa, iftar etmək ona vacibdir. Əks təqdirdə, oruc tutması vacibdir.**

**Sual 746:** **Körpəsinə süd verən, eyni zamanda hamilə olan qadın ramazan ayının orucunu tutmuşdur. Doğuş zamanı uşaq ölü dünyaya gəlmişdir. Əgər o, elə əvvəldən orucun ona zərəri olmasını ehtimal veribsə və eyni halda oruc tutubsa:**
**1) Orucu düzgündür, yoxsa yox?**
**2) Onun öhdəsinə diyə gəlirmi, yoxsa gəlmir?**
**3) Əgər o, orucun ona zərəri olmasını ehtimal verməyibsə, amma sonradan məlum olub ki, orucun onun bətnindəki uşağa zərəri var imiş, hökmü nədir?**

**Cavab: Əgər o, məntiqi əsası olan bir zərərdən qorxusu olduğu halda oruc tutubsa, yaxud orucun onun özünə və ya bətnindəki uşağa zərəri olduğu sonradan ona məlum olubsa, orucu düzgün deyildir və orucun qəzasını tutmaq ona vacibdir. Amma uşağın diyəsinin təsdiqlənməsi üçün ölüm səbəbinin ananın oruc tutması olduğu sübuta yetməlidir.**

**Sual 747:** **Mən Mütəal Allahın lütfü sayəsində övlad sahibi olmuşam və hal-hazırda o, südəmər körpədir. İnşaallah, tezliklə mübarək ramazan ayı daxil olacaqdır. Mən oruc tuta bilərəm, amma əgər oruc tutsam, südüm quruyacaqdır. Bədənimin zəif olduğunu və körpəmin də hər on dəqiqədən bir süd istədiyini nəzərə alaraq, mənim vəzifəm nədir?**

**Cavab: Əgər oruc tutmaq nəticəsində südünüz azalsa və ya qurusa və bunun körpənizə zərəri olacağından qorxsanız, orucunuzu iftar edin. Amma hər gün üçün bir müdd təam fəqirə verməlisiniz. Sonradan orucun qəzasını da tutmalısınız.**

## Xəstəlik və həkimin qadağası

**Sual 748:** Şəri məsələlərə əhəmiyyət verməyən bəzi həkimlər orucun zərəri olacağını əsas götürərək, oruc tutmağı xəstələrə qadağan edirlər. Belə həkimlərin sözü yetərli dəlil sayılırmı, yoxsa sayılmır?

**Cavab: Əgər həkim etibarlı şəxs olmazsa və onun sözü də xəstədə əminlik və zərər qorxusu yaratmazsa, yaxud xəstə orucun ona zərəri olmayacağını öz şəxsi təcrübəsi əsasında başa düşərsə, bu halda həkimin sözünü əsas götürmək olmaz. Bundan qeyri halda isə, mükəlləf oruc tutmamalıdır.**

**Sual 749:** Anam təxminən on üç il xəstə olmuşdur və buna görə də, oruc tuta bilməmişdir. Mən dəqiqliklə bilirəm ki, anam dərman içmək məcburiyyətində olduğu üçün oruc tuta bilməmişdir. Xahiş edirəm bizi məlumatlandırasınız ki, orucların qəzası ona vacibdirmi?

**Cavab: Əgər o, xəstəliyinə görə oruc tuta bilməmişdirsə, orucun qəzası yoxdur.**

**Sual 750:** Mən bədənimin zəifliyinə görə büluğ yaşından on iki yaşıma qədər oruc tutmamışam. İndi mənim vəzifəm nədir?

**Cavab: Mübarək ramazan ayında tutmadığınız orucların qəzasını tutmaq sizə vacibdir, çünki siz şəri vəzifə yaşına çatmışdınız. Əgər ramazan ayında orucu bilərəkdən, ixtiyari olaraq və heç bir şəri üzr olmadan iftar etmisinizsə, sizə kəffarə də vacib olur.**

**Sual 751:** Göz həkimi oruc tutmağı mənə qadağan etmiş və bildirmişdi ki, gözümün xəstəliyinə görə əsla oruc tutmamalıyam. Amma mən həkimin sözünə etina etməyib oruc tutdum və buna görə də, ramazan ayında xəstəliyimlə əlaqədar çətinliklərlə üzləşdim. Bəzi günlərdə əsr vaxtı gözümdə ağrılar yaranır və mən iki yol arasında qalıram ki, görəsən, orucumu açım, yoxsa qüruba qədər dözüb orucumu açmayım? Sualım budur ki, ümumiyyətlə, oruc tutmaq mənə vacibdirmi? Oruc tutduğum bəzi günlərdə orucu qüruba qədər davam etdirməyə gücümün çatıb-çatmayacağını bilmədikdə, orucumu davam etdirməliyəmmi? Mən necə niyyət etməliyəm?

**Cavab: Əgər dindar və etibarlı bir həkimin sözü ilə siz oruc tutmağın gözünüzə zərəri olduğuna yəqin etsəniz və ya sizdə zərər qorxusu yaransa, oruc tutmaq sizə vacib deyildir, hətta sizə oruc tutmaq olmaz. Zərər qorxusu olduğu təqdirdə, oruc niyyəti düzgün deyildir. Amma əgər zərər qorxusu olmazsa, oruc niyyəti etməyin maneəsi yoxdur. Amma orucun düzgün olması, oruc tutmağın həqiqətən sizə zərəri olmayacağına bağlıdır.**

**Sual 752:** Mən tibbi eynəkdən istifadə edirəm və hal-hazırda da gözlərim çox zəif görür. Həkimə müraciət edəndə o mənə dedi ki, əgər gözlərimin qüvvətlənməsi üçün səy göstərməsəm, daha da zəifləyəcəkdir. Beləliklə, əgər ramazan ayının orucunu tutmamaqda üzrlü olsam, mənim vəzifəm nədir?

**Cavab: Əgər oruc tutmağın sizin gözlərinizə zərəri varsa, oruc tutmağınız vacib deyildir, əksinə, iftar etməyiniz vacibdir. Əgər sizin xəstəliyiniz gələn ilin ramazan ayına qədər davam etsə, orucun qəzası da sizə vacib deyildir. Amma hər gün üçün bir müdd təam fəqirə verməyiniz vacibdir.**

**Sual 753:** Anam ağır xəstədir və atam da bədəninin qüvvətsizliyindən əziyyət çəkir. Buna baxmayaraq, onların hər ikisi oruc tutur və bəzən orucun onların xəstəliklərini ağırlaşdırdığı aydın görünür. Mən indiyədək onları razı sala bilməmişəm ki, heç olmasa, xəstəlikləri ağırlaşanda oruc tutmasınlar. Xahiş edirəm ki, onların oruclarının hökmünü mənə açıqlayasınız.

**Cavab: Xəstəliyin yaranması və ağırlaşmasına orucun təsir göstərdiyini, həmçinin oruc tutmağa bədənin qüvvəsinin çatmadığını oruc tutan şəxsin özü müəyyən etməlidir. Əgər o, orucun ona zərəri olduğunu bilsə və ya onda zərər qorxusu yaransa, eyni halda oruc tutmaq istəsə, oruc tutmaq ona haramdır.**

**Sual 754:** **Ötən il mütəxəssis bir həkim mənim böyrəyimi cərrahiyyə əməliyyatı etdi. O, ömrümün axırınadək oruc tutmağı mənə qadağan etdi. Amma hal-hazırda mən özümdə heç bir ağrı və çətinlik hiss etmirəm, hətta normal şəkildə yemək yeyir və su içirəm. Özümdə xəstəliyin heç bir fəsadını da hiss etmirəm. Mənim vəzifəm nədir?**

**Cavab: Əgər oruc tutmağın zərəri olacağından sizdə bir qorxu yaranmırsa və oruc tutmamağa şəri bir dəliliniz də yoxdursa, ramazan ayının orucunu tutmağınız vacibdir.**

**Sual 755:** **Əgər həkim bir şəxsə oruc tutmağı qadağan etsə, bəzi həkimlərin şəri məsələləri bilmədiklərini nəzərə alaraq, həkimin sözünə əməl etmək vacibdirmi?**

**Cavab: Əgər həkimin sözü əsasında orucun zərəri olacağına dair mükəlləfdə əminlik yaransa, yaxud həkimin sözü əsasında və ya başqa bir məntiqi əsasla orucun zərəri olacağına dair mükəlləfdə qorxu yaransa, oruc tutmaq ona vacib deyildir, hətta oruc tutmasına icazə verilmir.**

**Sual 756:** **Mənim böyrəklərimə daş yığılır və bunun qarşısını almağın yeganə yolu davamlı surətdə maye qəbul etməkdir. Həkimlərin rəyinə görə, mən oruc tutmamalıyam. Ramazan ayının orucu barəsində mənim şəri vəzifəm nədir?**

**Cavab: Əgər böyrək xəstəliyinin qarşısını almaq gün ərzində su və ya başqa mayelər qəbul etməyə bağlıdırsa, oruc tutmaq sizə vacib deyildir.**

**Sual 757:** **Şəkər xəstəliyi olan şəxslər hər gün bir və ya iki dəfə insulin iynəsi vurmaq məcburiyyətindədirlər. Onların yeməkləri də gecikməməlidir, çünki bu, qanda şəkərin aşağı düşməsinə və nəticədə, qıcolma və huşdan getməyə səbəb olur. Buna görə də, bəzən həkimlər onlara gün ərzində dörd dəfə yemək yeməyi məsləhət görürlər. Xahiş edirəm ki, bu xəstələrin orucu barəsində öz nəzərinizi bəyan edəsiniz.**

**Cavab: Əgər diabet xəstələri sübh azanından məğrib azanına qədər yeyib-içməməyin onlara zərəri olacağını bilsələr və ya zərəri olacağından qorxsalar, oruc tutmaq onlara vacib deyildir. Hətta oruc tutmalarına icazə verilmir.**

## Orucu pozan işlər

**Sual 758:** **Mən ramazan ayının gündüzündə şeytanın vəsvəsəsinə uyub orucumu pozmaq qərarına gəldim, amma orucu pozan bir işi yerinə yetirməmişdən qabaq qərarımdan döndüm. Mənim orucumun hökmü nədir? Əgər ramazan ayının orucunda deyil, qeyri bir orucda bu məsələ qarşıya çıxarsa, orucun hökmü nədir?**

**Cavab: Əgər ramazan ayında oruc tutan şəxs gün[1] əsnasında oruc tutmaq niyyətindən dönərsə, belə ki, daha orucu davam etdirmək niyyətində olmazsa, bu şəxsin orucu pozulur və yenidən orucunu davam etdirmək qərarına gəlməsinin bir faydası yoxdur. Əlbəttə, o, məğrib azanınadək orucu pozan işlərdən çəkinməlidir. Amma əgər orucu davam etdirib-etdirməməkdə tərəddüd edərsə, yaxud orucu pozan bir işi yerinə yetirməyi qərara alsa, amma hələ bu işi yerinə yetirməsə, bu iki halda onun orucunun düzgünlüyü məhəlli-işkaldır (iradlıdır). Ehtiyat-vacibə görə, o, orucunu başa çatdırmalı və sonradan həmin günün orucunun qəzasını tutmalıdır.**

**Sual 759:** Əgər oruc tutmuş şəxsin ağzından qan gəlsə, orucu pozulurmu?

**Cavab: Bu səbəbə görə oruc pozulmur. Amma qanın boğaza çatmasının qarşısını almaq vacibdir.**

**Sual 760:** **Oruc halında siqaret kimi tütün məhsullarından istifadə etməyin hökmü nədir?**

**Cavab: Ehtiyat-vacibə görə, oruc tutmuş şəxs hər növ tütün məhsullarının tüstüsündən, həmçinin burun yolu ilə çəkilən və ya dilin altına qoymaqla sovrulan narkotik maddələrin istifadəsindən çəkinməlidir.**

**Sual 761:** **Tütün və başqa otların qarışığından hazırlanan burunotunu bir neçə dəqiqəliyə dilin altına qoymaq və sonra çıxarıb atmaq orucu pozurmu, yoxsa yox?**

**Cavab: Ehtiyat-vacibə görə, oruc tutmuş şəxs hər növ tütün məhsullarının, həmçinin burun yolu ilə çəkilən və ya dilin altına qoymaqla sovrulan narkotik maddələrin istifadəsindən çəkinməlidir.**

**Sual 762:** **Şiddətli təngnəfəsliyi olan xəstələr aerozol qablaşdırmada olan bir dərmandan istifadə edirlər. Belə ki, preslənmiş maye olan bu dərmanı ağıza sıxdıqda, dərman qaz tozu şəklində ağız yolu ilə xəstənin ağ ciyərlərinə daxil olur və təngnəfəsliyi aradan qaldırır. Bəzən xəstə gün ərzində bu dərmandan bir neçə dəfə istifadə etmək məcburiyyətində olur. Bu dərmandan istifadə edərək oruc tutmaq olarmı? Nəzərə almaq lazımdır ki, bu dərmandan istifadə etmədən oruc tumaq qeyri-mümkün və ya çox çətin olacaqdır.**

**Cavab: Sözügedən vasitə tənəffüs yollarını açmaqdan ötrü istifadə olunduğuna görə, orucu pozmur.**

**Sual 763:** **Çox vaxt damağımdan gələn qan ağzımın suyuna qarışır və bəzən mən ağzımın suyunu udduqda onun qanla qarışıb-qarışmadığını bilmirəm. Bu halda mənim orucumun hökmü nədir?**

**Cavab: Əgər damaqdan gələn qan ağzın suyuna qarışıb yox olarsa, ağız suyu pak**

hökmündədir və onu udmağın maneəsi yoxdur, orucu da pozmur. Həmçinin ağız suyunun qanla qarışıb-qarışmadığına şəkk etdikdə, onu udmağın maneəsi yoxdur və orucun düzgünlüyünə xələl gətirmir.

**Sual 764:** Ramazan ayında oruc tutduğum bir gün dişlərimi fırçalamamışdım. Dişlərimin arasında qalan yemək qırıntılarını bilərəkdən udmasam da, bunlar öz-özünə boğazıma getdi. Həmin günün orucunun qəzasını tutmaq mənə vacib olurmu?

**Cavab: Əgər dişlərinizin arasında yemək qırıntılarının qaldığına və ya bunların boğazınıza getdiyinə yəqinliyiniz yoxdursa, yemək qırıntılarının boğazınıza getməsi də bilərəkdən və ixtiyari olmayıbdırsa, orucun qəzasını tutmaq sizə vacib deyildir.**

**Sual 765:** Əgər oruc tutmuş şəxsin damağından çoxlu qan axsa, orucu pozulurmu? O, qab ilə başına su tökə bilərmi?

**Cavab: Əgər damaqdan axan qanı udmazsa, oruc pozulmur. Həmçinin qab ilə başa su tökmək orucun düzgünlüyünə xələl gətirmir.**

**Sual 766:** Bəzi qadın xəstəliklərinin müalicəsi üçün istifadə edilən xüsusi dərmanlar (yağ tərkibli müalicəvi şamlar) vardır və bu dərmanlar bədənin daxilinə qoyulur. Bunlardan istifadə etmək orucun pozulmasına səbəb olurmu?

**Cavab: Bu dərmanlardan istifadə etmək oruca xələl gətirmir.**

**Sual 767:** Mübarək ramazan ayında oruc tutan şəxsin iynə vurdurması barəsində sizin nəzəriniz nədir?

**Cavab: Ehtiyat-vacibə görə, oruc tutmuş şəxs əzələ daxilinə vurulan qüvvətləndirici və ya qidalandırıcı iynələrdən, həmçinin damara vurulan heç bir iynədən və damara köçürülən heç bir sistemdən istifadə etməməlidir. Amma əzələ daxilinə vurulan və qüvvətləndirici və ya qidalandırıcı olmayan iynələrdən, məsələn, antibiotiklər və ağrıkəsicilərdən, həmçinin bədənin hansısa bir nahiyəsini hissiyyatsız etmək üçün istifadə edilən iynələrdən istifadə etməsinin maneəsi yoxdur.**

**Sual 768:** Oruc halında təzyiq həbi udmağa icazə verilirmi, yoxsa icazə verilmir?

**Cavab: Əgər ramazan ayında təzyiqi tənzimləmək üçün təzyiq həbi udmaq zəruri olarsa, onu udmağın maneəsi yoxdur. Amma həb udduqda, oruc pozulur.**

**Sual 769:** Əgər mən və bəzi insanlar bu əqidədə olsaq ki, müalicə məqsədilə həb udmağa yeyib-içmək ünvanı aid olmur, bu əqidəyə müvafiq əməl etməyə icazə verilirmi və oruca xələl gəlirmi?

**Cavab: Həb udmaq orucu pozur.**

**Sual 770:** Əgər ramazan ayında bir kişi öz qadını ilə cinsi əlaqədə olsa və qadın da cinsi əlaqəyə razı olsa, onların hökmü nədir?

**Cavab: Onların hər ikisi orucu bilərəkdən iftar etmişdir və orucun qəzasından əlavə, orucun kəffarəsi də hər ikisinə vacibdir.**

**Sual 771:** Əgər ramazan ayının gündüzündə bir kişi öz qadını ilə mazaqlaşsa, orucuna xələl gələrmi?

**Cavab: Əgər məninin xaric olmasına səbəb olmazsa, oruca xələl gətirmir.**

---

[1] Müqəddəs şəriət sahibi "gün" anlayışının tərifini verdiyi hallarda, buna əsasən əməl olunacaq. Məsələn, oruc və etikafda "gün" dedikdə, fəcr doğandan şəri məğribə qədər olan müddət nəzərdə tutulur. Bundan qeyri hallarda isə, ürfün nəzəri meyar götürülür və "gün" – Günəş doğandan qüruba qədərdir.

## Cənabətli qalmaq

**Sual 772:** Əgər bir şəxs bəzi çətinliklərə görə sübh azanına qədər cənabətli qalsa, həmin gün oruc tuta bilərmi?

**Cavab: Ramazan ayının orucu və ramazan ayının orucunun qəzası istisna olmaqla, digər oruclarda bunun maneəsi yoxdur. Amma ramazan ayının orucu və ramazan ayının orucunun qəzasına gəlincə, əgər mükəlləf qüsl etməkdə üzrlüdürsə, təyəmmüm etmək ona vacibdir. Əgər o, təyəmmüm etməzsə, orucu düzgün deyildir. Amma eyni zamanda, ramazan ayında məğrib azanınadək orucu pozan işlərdən çəkinməlidir.**

**Sual 773:** Əgər bir şəxs cənabətli vəziyyətdə bir neçə gün oruc tutubsa və cənabətdən paklanmağın orucun düzgünlüyü şərti olduğunu bilməyibsə, cənabətli vəziyyətdə tutduğu orucların kəffarəsi ona vacibdirmi, yoxsa təkcə orucun qəzası kifayət edir?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, orucun qəzası kifayət edir.**

**Sual 774:** Cənabətli şəxs sübh azanından sonra cənabət qüslü edib, qəza orucu və ya müstəhəb oruc tuta bilərmi?

**Cavab: Əgər bilərəkdən sübh azanınadək cənabətli qalarsa, ramazan ayının orucu və ramazan ayının orucunun qəzası düzgün deyildir. Amma müstəhəb orucda bunun iradı yoxdur.**

**Sual 775:** Bir şəxs ramazan ayında gecəni bir evdə qonaq qalır və gecə yarısı möhtəlim olur. Qonaq olduğu və özü ilə paltar götürmədiyi üçün orucdan qaçmaq məqsədilə sübh azanından dərhal sonra səfərə çıxacağını gecə vaxtı qərara alır. Buna görə də, sübh azanından sonra heç nə yeyib-içmədən səfər etmək məqsədilə yola düşür. Sual budur ki, bu şəxsin səfər etməyi qərara alması onun boynundan kəffarənin götürülməsinə səbəb olurmu, yoxsa səbəb olmur?

**Cavab: Əgər o, cənabətli vəziyyətdə yuxudan oyanarsa və boynuna cənabət qüslü gəldiyini bildiyi bir halda sübh azanından qabaq qüsl və ya təyəmmüm etməmişdirsə, sübh olan kimi səfərə çıxacağını gecə vaxtı qərara alması və ya gündüz vaxtı səfərə çıxması kəffarənin onun boynundan götürülməsi üçün kifayət etmir.**

**Sual 776:** İxtiyarında su olmadığına görə, yaxud başqa üzrlərə görə (vaxtın darlığı istisna olmaqla) cənabət qüslü edə bilməyən bir şəxs mübarək ramazan ayının gecələrində halal yol ilə özünü cənabətli edə bilərmi?

**Cavab: Əgər onun vəzifəsi təyəmmüm etməkdirsə və boynuna cənabət qüslü gəldikdən sonra təyəmmüm etmək üçün kifayət qədər vaxt olarsa, bu işi görməsinə icazə verilir.**

**Sual 777:** Əgər bir şəxs mübarək ramazan ayında sübh azanından qabaq yuxudan oyansa və möhtəlim olduğunu başa düşməsə, sonra yenidən yatıb sübh azanı əsnasında yuxudan oyansa və cənabətli olduğunu başa düşsə, eyni halda sübh azanından qabaq möhtəlim olduğuna əmin olsa, onun orucunun hökmü nədir?

**Cavab: Əgər o, möhtəlim olduğunu sübh azanından qabaq başa düşməzsə, orucu düzgündür.**

**Sual 778:** Əgər ramazan ayının gecəsində mükəlləf sübh azanından qabaq yuxudan oyansa və möhtəlim olduğunu görsə, sonra qüsl etmək üçün oyanacağını ümid edib sübh azanından qabaq yenidən yatsa və sübh azanından sonraya qədər yatıb qalsa, oyandıqdan sonra da qüslünü zöhr azanına qədər təxirə salsa və zöhr azanından sonra qüsl edib zöhr və əsr namazlarını qılsa, həmin günün orucunun hökmü nədir?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, "birinci yuxu" olduğuna görə orucu düzgündür. Amma əgər o, yenidən yatıb sübhə qədər yuxudan oyanmazsa, həmin günün orucunun qəzasını tutmalıdır.**

**Sual 779:** **Əgər ramazan ayının gecəsində sübh azanından qabaq mükəlləf möhtəlim olub-olmadığına şəkk etsə, amma öz şəkkinə etina etməyib yenidən yatsa və sübh azanından sonra oyanıb sübh azanından qabaq möhtəlim olduğunu başa düşsə, orucunun hökmü nədir?**

**Cavab: Əgər o, birinci dəfə yuxudan oyandıqda özündə möhtəlimlikdən bir əsər-əlamət görməzsə, möhtəlim olduğunu yalnız ehtimal verərsə və onun üçün bir əlamət aşkarlanmazsa, beləcə, sübh azanından sonra yuxudan oyanarsa, onun orucu düzgündür. Baxmayaraq ki, sübh azanından qabaq möhtəlim olduğu sonradan məlum olmuşdur.**

**Sual 780:** **Əgər bir şəxs mübarək ramazan ayında napak su ilə qüsl etsə və bir həftədən sonra qüsl üçün istifadə etdiyi suyun napak olduğunu başa düşsə, onun bu müddət ərzində qıldığı namazlar və tutduğu orucların hökmü nədir?**

**Cavab: Namazları düzgün deyildir və qəzasını qılmaq vacibdir. Amma tutduğu oruclar düzgün hökmündədir.**

**Sual 781:** **Xəstəliklə əlaqədar olaraq bir şəxsdən müəyyən müddət ərzində sidik damlaları davamlı surətdə xaric olur. Yəni sidik ifraz etdikdən sonra bir saat və ya daha çox müddət ərzində ondan sidik damlaları xaric olur. O, ramazan ayının bəzi gecələrində cənabətli olur. Bəzən sübh azanından bir saat əvvəl yuxudan oyanır və sübh azanından sonra məninin sidik damlaları ilə birlikdə xaric olacağını ehtimal edir. Bu şəxsin oruc barəsində vəzifəsi nədir? Oruc vaxtına təharətli daxil olmaq üçün onun vəzifəsi nədir?**

**Cavab: Əgər o, sübh azanından qabaq cənabət qüslü etsə və ya qüsl əvəzinə təyəmmüm etsə, orucu düzgündür, baxmayaraq ki, sübh azanından sonra ondan qeyri-ixtiyari olaraq məni xaric olur.**

**Sual 782:** **Əgər bir şəxs sübh azanından qabaq və ya sonra yuxuda cənabətli olsa və sübh azanından sonra yuxudan oyansa, qüsl etmək üçün nə qədər vaxtı vardır?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, yuxuda cənabətli olması həmin günün orucuna xələl gətirmir. Amma namaz qılmaq üçün qüsl etməlidir və namaz vaxtına qədər qüslü təxirə sala bilər.**

**Sual 783:** **Əgər mükəlləf ramazan ayının orucu və ya başqa oruclar üçün cənabət qüslü etməyi unudarsa və qüsl etməli olduğu gündüz əsnasında yadına düşərsə, onun orucunun hökmü nədir?**

**Cavab: Əgər mükəlləf ramazan ayında cənabət qüslü etməyi unudarsa və cənabətli halda sübhə daxil olarsa, həmin günün orucu düzgündür. Amma əgər bu unutqanlıq bir neçə gün davam edərsə, həmin günlərin orucunun qəzasını tutmalıdır. Namazlar isə, istənilən halda düzgün deyildir.**

## İstimna[1]

**Sual 784:** **Ramazan ayında orucunu haram cinsi əlaqə ilə, yaxud istimna etməklə, yaxud da haram yemək və içki ilə pozan şəxsin hökmü nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, o, altmış gün oruc tutmalı və ya altmış fəqirə təam verməlidir. Ehtiyat-müstəhəbə görə, hər ikisini yerinə yetirsin.**

**Sual 785:** **Əgər mükəlləf istimnanın orucu pozduğunu bilsə, amma bilərəkdən bu işi etsə, ona "cəm kəffarə"[2] vacib olurmu?**

**Cavab: Əgər bilərəkdən istimna etsə və ondan məni də xaric olsa, ona cəm kəffarə vacib olmur. Amma ehtiyat-müstəhəbə görə, cəm kəffarə versin.**

**Sual 786:** **Mübarək ramazan ayında istimnaya səbəb olacaq heç bir iş görmədən, yalnız telefonda naməhrəm bir qadınla danışarkən məndə yaranan hisslər nəticəsində məndən məni xaric oldu. Nəzərə alsaq ki, bu qadınla danışmaqda məqsədim ləzzət almaq deyildi, mənim orucum pozulubdurmu? Əgər pozulubsa, orucun kəffarəsi də mənə vacib olurmu, yoxsa vacib olmur?**

**Cavab: Əgər oruc tutan şəxsdən qeyri-ixtiyari olaraq məni xaric olarsa, oruc pozulmur.**

**Sual 787:** **Bir şəxs illərdir istər ramazan ayında, istərsə də qeyri-vaxtlarda istimna etmişdir. Onun namaz və oruclarının hökmü nədir?**

**Cavab: İstimna birmənalı olaraq haramdır. Əgər istimna edərkən məni xaric olarsa, cənabətə səbəb olur. Əgər bu iş ramazan ayının gündüzündə oruc halında görülərsə, bilərəkdən haramla iftar etmək hökmündədir. Əgər namaz və orucu cənabətli halda və qüsl və ya təyəmmüm etmədən yerinə yetiribsə, namaz və orucu düzgün deyildir, onların qəzasını yerinə yetirmək vacibdir.**

**Sual 788:** **Həyat yoldaşı vasitəsilə edilən istimna haram istimna hökmündədirmi?**

**Cavab: Bu iş haram istimna hallarından deyildir.**

**Sual 789:** **Əgər həkim subay oğlandan analiz üçün məni verməsini istəsə və məni xaric etməkdən ötrü istimnadan qeyri bir yol olmasa, o, istimna edə bilərmi?**

**Cavab: Əgər müalicə buna bağlı olarsa, maneəsi yoxdur.**

**Sual 790:** **Bəzi diaqnostika mərkəzlərində məninin analizi üçün kişidən istimna etməsini tələb edirlər ki, onun övlad sahibi olmağa qadir olub-olmadığı müəyyən edilsin. Bu kişi istimna edə bilərmi?**

**Cavab: Hətta kişinin övlad sahibi olmağa qadir olub-olmadığını müəyyən etmək üçün olsa belə, istimna etməyə icazə verilmir. Yalnız zərurət tələb etdiyi halda buna icazə verilir.**

**Sual 791:** **Ehtirası oyatmaq məqsədilə xəyallarda kimisə canlandırmağın aşağıdakı iki surətdə hökmü nədir?**
**1- Həyat yoldaşını xəyallarda canlandırmaq;**
**2- Naməhrəm qadını xəyallarda canlandırmaq.**

**Cavab: Birinci surətdə, əgər haram bir iş ilə nəticələnməzsə, maneəsi yoxdur. İkinci surətdə isə, bu işi tərk etmək ehtiyata müvafiqdir.**

**Sual 792:** **Bir şəxs şəri vəzifə yaşına yenicə çatdığı ildə oruc tutmuş, amma oruc ikən istimna edərək cənabətli olmuşdur. O, cənabətli halda bir neçə gün oruc tutmuş, amma oruc tutmaq üçün cənabət qüslü etməyin vacib olduğunu bilməmişdir. Həmin günlərin orucunun qəzasını tutmaq kifayət edirmi, yoxsa onun üzərində başqa vəzifə də vardır?**

**Cavab: Əgər o, oruc ikən istimna edibsə və bu işin orucu pozduğunu bilibsə, bu halda həm orucun qəzası, həm də kəffarəsi ona vacib olur. Yox əgər bu işin orucu pozduğunu bilməyibsə, amma bu işin haram olduğunu bilibsə, orucun qəzasından əlavə, ehtiyat-vacibə görə, kəffarə də verməlidir. Amma sonrakı günlərə gəlincə, əgər oruc tutmaq üçün cənabət qüslü etməyin vacib olmadığına yəqinliyi olubsa, orucun qəzası və kəffarəsi vacib olmur. Baxmayaraq ki, ehtiyat edib orucun qəzasını tutmaq daha yaxşı olar.**

**Sual 793:** **Ramazan ayında oruc tutmuş bir şəxs ehtirası oyadan bir səhnəyə baxmış və cənabətli olmuşdur. Buna görə onun orucu pozulurmu?**

**Cavab: Əgər həmin səhnəyə baxmaqda onun məqsədi özündən məni xaric etmək olubsa, yaxud həmin səhnəyə baxdıqda cənabətli olacağını bilibsə, yaxud da belə səhnələrə baxdıqda, adətən, cənabətli olubdursa, amma buna baxmayaraq bilərəkdən belə səhnələrə baxıb cənabətli olubsa, bilərəkdən cənabətli olmaq hökmündədir. Yəni həm orucun qəzası, həm də kəffarəsi onun boynuna gəlir.**

**Sual 794:** **Əgər oruc tutmuş şəxs orucu pozan işi gün ərzində bir dəfədən çox (yəni bir neçə dəfə) görsə, vəzifəsi nədir?**

**Cavab: Ona təkcə bir kəffarə vacib olur. Bəli, əgər bu iş cinsi əlaqədə olmaq və ya istimna etmək olubsa, bu təqdirdə ehtiyat-vacibə görə, neçə dəfə cinsi əlaqədə olubsa və ya istimna edibsə, o qədər də kəffarə verməlidir.**

---

[1] İstimna etmək – insanın özü ilə məninin xaric olmasına səbəb olacaq bir iş görəməsidir.

[2] Yəni kəffarənin hər ikisi – həm 60 gün oruc tutmaq, həm də 60 fəqiri yedirtmək.

## Orucu pozan işlərin hökmləri

**Sual 795:** Ümumi yığıncaqlarda, rəsmi toplantılarda və s. orucun iftar vaxtı barəsində əhli-sünnə kimi əməl etmək olarmı? Əgər mükəlləfə məlum olsa ki, onlar kimi əməl etmək təqiyyənin tələbi deyildir və bunun üçün bir səbəb yoxdur, vəzifəsi nədir?

**Cavab: İftar vaxtının daxil olduğunu dəqiqləşdirmədən orucu iftar etmək barəsində başqalarına baxıb əməl etmək olmaz. Əgər təqiyyə tələb edərsə, orucu iftar etməyə icazə verilir, amma həmin günün orucunun qəzasını tutmaq lazımdır. Gecənin daxil olduğunu və gündüzün başa çatdığına hissi yol ilə yəqin etməyənədək və ya şəri dəlil ilə dəqiqləşdirməyənədək ixtiyari şəkildə orucu iftar etmək olmaz.**

**Sual 796:** Əgər mən oruc tutsam və anam məni yeyib-içməyə vadar etsə, orucum pozulurmu?

**Cavab: Yeyib-içmək orucu pozur, baxmayaraq ki, bunu bir başqasının tələbi və təkidi ilə etmisən.**

**Sual 797:** Əgər oruc tutmuş şəxsin ağızına zorla bir şey qoysalar və ya onun başını zorla suya salsalar, orucu pozulurmu? Əgər oruc tutmuş şəxsi orucunu pozmağa vadar etsələr - məsələn, ona desələr ki, əgər orucunu iftar etməsən, özünə və ya malına ziyan yetirəcəyik, o da ziyanı dəf etməkdən ötrü yemək yesə - orucu düzgündürmü?

**Cavab: Əgər oruc tutmuş şəxsin boğazından qeyri-ixtiyari olaraq bir şey keçsə və ya başı zorla suya salınsa, orucu pozulmur. Amma əgər başqası tərəfindən məcbur edildiyinə görə onun özü orucu pozan bir işi yerinə yetirsə, orucu pozulur.**

**Sual 798:** Əgər oruc tutmuş şəxs bilməsə ki, zöhr azanından qabaq səfərə çıxdıqda tərəxxüs həddinə çatmamış orucunu aça bilməz və o, müsafir olduğuna əsaslanaraq tərəxxüs həddinə çatmamış orucunu açsa, bu şəxsin orucunun hökmü nədir? Orucun qəzası ona vacibdir, yoxsa başqa bir hökmü vardır?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, onun orucu pozulur və qəzasını tutmalıdır. Amma əgər məsələnin hökmünü bilməyibdirsə, orucun kəffarəsi yoxdur.**

**Sual 799:** Zökəm xəstəliyinə tutulduğum üçün başımdan və boğazımdan ağzıma gələn bəlğəmi çölə tüpürmək əvəzinə uddum. Görəsən, mənim orucum düzgündürmü, yoxsa düzgün deyildir? Mübarək ramazan ayının bəzi günlərində qohumlardan birinin evində qonaq qalmışdım. Bir tərəfdən zökəm xəstəliyinə tutulduğum, digər tərəfdən də xəcalət çəkdiyim üçün vacib qüsl əvəzinə torpaqla təyəmmüm etdim və zöhrə qədər qüsl etmədim. Bu iş bir neçə gün təkrarlandı. Həmin günlərdə mənim orucum düzgündürmü?

**Cavab: Baş və sinədən gələn bəlğəmi udmaq oruca xələl gətirmir. Amma əgər bəlğəm ağız boşluğuna gələrsə, ehtiyat-vacibə görə, onu udmaqdan çəkinmək lazımdır. Oruc tutmaq istədiyiniz gün fəcr doğmamışdan (sübn namazının vaxtı olmamışdan) qabaq cənabət qüslünü yerinə yetirməməyiniz və qüsl əvəzinə təyəmmüm etməyinizə gəlincə, əgər bu işinizin şəri üzrü olsa, yaxud vaxtın darlığına görə təyəmmüm etsəniz, orucun pozulmasına səbəb olmur və təyəmmüm ilə sizin tutduğunuz oruc düzgündür. Əks təqdirdə, həmin günlərdə sizin tutduğunuz oruc düzgün deyildir.**

**Sual 800:** Mən metal mədənində işləyirəm. Hər gün – istər ramazan ayında, istərsə də başqa aylarda - mədənin daxilində işləmək məcburiyyətindəyəm. İş alətlərindən istifadə edərkən ağzıma toz girir. Mənim vəzifəm nədir? Bu vəziyyətdə mənim orucum düzgündürmü?

**Cavab: Ehtiyat-vacibə görə, oruc tutmuş şəxsin qatı toz udması orucu pozur və buna görə də, qatı tozu udmaqdan qorunmaq lazımdır. Amma tozun ağız və ya buruna daxil olması və boğaza çatmaması orucu pozmur.**

## Orucun kəffarəsi və onun miqdarı

**Sual 801:** Özünə yemək alsın deyə, fəqirə bir müdd təamın pulunu vermək kifayət edirmi?

**Cavab: Əgər kəffarə verən şəxs əmin olsa ki, fəqir onun tərəfindən təam alıb, sonra onu kəffarə ünvanında qəbul edəcəkdir, maneəsi yoxdur.**

**Sual 802:** Əgər bir şəxs bir neçə fəqirə yemək vermək üçün vəkil olsa, o, kəffarə ünvanında ona verilən maldan gördüyü işin və yemək bişirməyin zəhmət haqqını götürə bilərmi?

**Cavab: O, işin və yemək bişirməyin zəhmət haqqını tələb edə bilər, amma onu kəffarə ünvanında hesab edə bilməz və ya kəffarə ünvanında fəqirlərə verilməli olan maldan zəhmət haqqı götürə bilməz.**

**Sual 803:** Hamilə bir qadının doğuş vaxtı yaxınlaşdığına görə oruc tuta bilmir. O, bu orucların qəzasını doğuşdan sonra və gələn ilin ramazan ayına qədər tutmalı olduğunu bilir. Əgər bilərəkdən və ya bilmədən bu qəza oruclarını bir neçə il tutmasa, təkcə həmin ilin kəffarəsi ona vacibdir, yoxsa orucu təxirə saldığı bütün illərin kəffarəsi ona vacibdir?

**Cavab: Ramazan ayının orucunun qəzası bir neçə il təxirə salınsa belə, təxir fidyəsi bir dəfə vacibdir və bu fidyə hər gün üçün bir müdd təamdan ibarətdir. Fidyə isə, ramazan ayının orucunun qəzası gələn ilin ramazan ayına qədər səhlənkarlıq və şəri bir üzr olmadan təxirə salındığı təqdirdə vacib olur. Amma əgər orucun düzgünlüyünə maneə olan şəri bir üzrə görə təxirə salınsa, fidyəsi yoxdur.**

**Sual 804:** Bir qadın xəstə olduğuna görə oruc tutmaqda üzrlüdür və gələn ilin ramazan ayına qədər onların qəzasını da tutmağa qadir deyildir. Belə olduğu təqdirdə, kəffarə onun özünə vacibdir, yoxsa onun ərinə vacibdir?

**Cavab: Əgər ramazan ayının orucunu xəstəliyə görə iftar edibsə və xəstəliyi davam etdiyinə görə də orucun qəzasını təxirə salıbsa, hər gün üçün bir müdd təam vermək qadının özünə vacibdir və ərinin öhdəsinə heç nə düşmür.**

**Sual 805:** Bir şəxsin on gün qəza orucu vardır və o, şaban ayının iyirmisindən etibarən oruc tutmağa başlayır. Bu təqdirdə o, orucunu şəri zöhrdən qabaq və ya sonra bilərəkdən iftar edə bilərmi? Şəri zöhrdən qabaq və ya sonra orucunu iftar etdiyi təqdirdə, kəffarəsi nə qədərdir?

**Cavab: Sualda deyilənlərə əsasən, bu şəxs orucunu bilərəkdən iftar edə bilməz. Amma orucunu bilərəkdən iftar etdiyi təqdirdə, əgər şəri zöhrdən qabaq iftar etsə, kəffarə ona vacib olmur. Əgər şəri zöhrdən sonra iftar etsə, kəffarə ona vacib olur. Bu kəffarə on fəqirə təam verməkdən ibarətdir. Buna maddi imkanı olmadığı təqdirdə, üç gün oruc tutmalıdır.**

**Sual 806:** Bir qadın iki il ardıcıl olaraq mübarək ramazan ayında hamilə olmuşdur və həmin günlərdə oruc tutmağa qadir olmamışdır. Amma indi oruc tutmağa qadirdir. Onun hökmü nədir? Ona cəm kəffarəsi vacibdir, yoxsa təkcə orucun qəzasını tutmalıdır? Orucun qəzasını yubatmasının hökmü nədir?

**Cavab: Əgər doğumu yaxın olan hamilə bir qadın orucun onun bətnindəki uşağa və ya onun özünə zərəri olacağından qorxarsa, oruc tutmaq ona vacib deyildir. Birinci surətdə, yəni orucun onun bətnindəki uşağa zərəri olacağından qorxduğu təqdirdə, hər gün üçün bir**

**müdd təam, yəni 750 qram buğda, arpa və bu kimi ərzaqlardan birini fidyə ünvanında fəqirə verməlidir. Ramazan ayından sonra da orucun qəzasını tutmalıdır. İkinci surətdə, yəni orucun onun özünə zərəri olacağından qorxduğu təqdirdə, tutmadığı orucların qəzasını tutmalı və ehtiyata görə, fidyə də verməlidir. Doğumu yaxın olmayan hamilə qadın isə, ehtiyat-vacibə görə fidyə verməlidir.**
**Əgər süd verən qadın (istər körpənin anası olsun, istərsə də dayəsi olsun, həmçinin dayə istər pul qarşılığında uşağa süd versin, istərsə də pul almadan süd versin) qorxsa ki, oruc tutacağı halda südü azalacaq və ya quruyacaq və bunun da körpəyə zərəri olacaq, oruc tutmaq ona vacib deyildir. O, hər gün üçün fidyə verməli və sonradan orucun qəzasını tutmalıdır. Amma əgər oruc tutmağın bu qadının özünə zərəri olarsa, fidyə ehtiyata görə vacib olur.**
**Yuxarıdakı iki məsələdə əgər qadın qarşıda gələn ramazan ayınadək orucun qəzasını tutmasa, səhlənkarlıq etdiyi təqdirdə, qəzadan əlavə, "təxir kəffarəsi" də ona vacib olur. Amma əgər müəyyən bir üzrə görə orucun qəzasını tutmasa, "təxir kəffarəsi" vacib olmur. Əgər bu üzr, orucun onun övladına zərəri olacağına dair bir qorxudursa, orucların qəzasını tutmağa qadir olduğu zaman onları tutmalıdır. Amma əgər bu üzr, orucun onun özünə zərəri olacağına dair bir qorxudursa, orucun qəzası onun boynundan götürülür və hər gün üçün bir müdd təam fidyə verəcək.**

**Sual 807: Orucun kəffarəsində qəza və kəffarə arasında tərtibə riayət etmək vacibdirmi, yoxsa vacib deyildir?**

**Cavab: Vacib deyildir.**

## Orucun qəzası

**Sual 808:** **Dini vəzifəni yerinə yetirməkdən ötrü ramazan ayında səfər etdiyim üçün on səkkiz gün oruc tutmamışam. Mənim vəzifəm nədir? Bu orucların qəzası mənə vacibdirmi?**

**Cavab: Ramazan ayında səfər səbəbilə tutmadığınız orucların qəzasını tutmaq sizə vacibdir.**

**Sual 809:** **Əgər bir şəxs ramazan ayının qəza orucunu tutmaq üçün əcir olsa və zöhr azanından sonra iftar etsə, kəffarə ona vacibdirmi, yoxsa vacib deyildir?**

**Cavab: Kəffarə ona vacib deyildir.**

**Sual 810:** **Bir şəxs öz dini vəzifəsini yerinə yetirmək üçün ramazan ayında səfər etmiş və buna görə də oruc tuta bilməmişdir. Əgər o, bir neçə il keçdikdən sonra həmin orucların qəzasını tutmaq istəsə, kəffarə də verməlidirmi?**

**Cavab: Əgər “oruc tutmağa maneə olan hansısa bir üzr” qarşıda gələn ramazan ayınadək davam etsə və buna görə də ramazan ayının orucunun qəzası təxirə düşsə və mükəlləf orucun qəzasını tuta bilməsə, təkcə orucun qəzasını tutmaq kifayət edir. Bu halda hər gün üçün bir müdd təam fidyə vermək vacib deyildir, baxmayaraq ki, orucun qəzasından əlavə, fidyə vermək ehtiyata müvafiqdir. Amma əgər səhlənkarlıq ucbatından və heç bir üzr olmadan orucun qəzası təxirə düşsə və mükəlləf orucun qəzasını yerinə yetirməsə, orucun qəzasından əlavə, fidyə vermək ona vacib olur.**

**Sual 811:** **Bir şəxs cahillik ucbatından on il müddətində namaz qılmamış və oruc tutmamışdır. İndi isə tövbə edərək Allaha tərəf qayıtmış və ibadətlərinin qəzasını yerinə yetirməyi qərara almışdır. Amma tutmadığı orucların hamısının qəzasını tutmaq iqtidarında deyildir və orucların kəffarəsini vermək üçün malı-pulu da yoxdur. Təkcə istiğfarla (bağışlanma diləmək) kifayətlənməsi düzgündürmü?**

**Cavab: Tutmadığı orucların qəzası heç bir vəchlə onun boynundan götürülmür. Ramazan ayının orucunu bilərəkdən iftar etməyin kəffarəsinə gəlincə, əgər hər gün üçün iki ay oruc tutmaq və ya altmış fəqirə təam vermək iqtidarında deyilsə, neçə fəqirə təam verməyə imkanı çatırsa, təam versin. Ehtiyata görə, istiğfar da etsin. Əgər fəqirə təam verməyə heç bir vəchlə imkanı yoxdursa, təkcə istiğfar etmək kifayət edir. Yəni qəlbində və dilində desin: “Əstəğfirullah (Allahdan bağışlanma diləyirəm)”.**

**Sual 812:** **Maddi imkanım olmadığına və bədənimin qüvvəsi çatmadığına görə mənə vacib olan kəffarələri verməkdən ötrü oruc tuta və ya fəqirə təam verə bilmədim. Nəticədə, Allahdan bağışlanma dilədim. Amma indi Allahın lütfü sayəsində oruc tutmaq və ya fəqirə təam vermək iqtidarındayam. Mənim vəzifəm nədir?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, kəffarəni vermək lazım deyildir. Baxmayaraq ki, onu vermək ehtiyat-müstəhəbdir.**

**Sual 813:** **Əgər bir şəxs gələn ilin ramazan ayı çatanadək bu ilin ramazan ayının orucunun qəzasını tutmalı olduğunu bilməyib, orucun qəzasını tutmasa və təxirə salsa, hökmü nədir?**

**Cavab: Mükəlləf bu məsələni (yəni gələn ilin ramazan ayı çatanadək bu ilin ramazan ayının orucunun qəzasını tutmalı olduğunu) bilmədiyinə görə qəza orucunun “təxir fidyəsi” onun**

boynundan götürülmür.

**Sual 814:** Yüz iyirmi gün oruc tutmayan şəxsin vəzifəsi nədir? Hər gün üçün altmış gün oruc tutmalıdırmı? Kəffarə ona vacibdirmi?

**Cavab: Əgər ramazan ayının orucunu tutmayıbsa, orucların qəzasını tutmalıdır. Əgər bilərəkdən və heç bir şəri üzr olmadan iftar edibsə, qəzadan əlavə hər günün kəffarəsi də ona vacibdir. Bu kəffarə ya altmış gün oruc tutmaq, ya altmış fəqiri yedirtmək, ya da altmış müdd təamı altmış fəqirə - hər fəqirə bir müdd olaraq - verməkdir.**

**Sual 815:** Mən təxminən bir ay bu niyyətlə oruc tutdum ki, əgər boynumda qəza orucum varsa, qəza orucu hesab olunsun və əgər boynumda oruc yoxdursa, sırf "qürbətən iləllah" hesab olunsun. Əgər boynumda qəza oruclarım varsa, tutduğum bu bir ay oruc qəza orucu hesab olunurmu?

**Cavab: Əgər oruc tutduğunuz vaxt şəri baxımdan boynunuza düşən vəzifə - istər qəza orucu, istərsə də müstəhəb oruc – niyyəti ilə oruc tutmusunuzsa və boynunuzda qəza orucu da olubsa, qəza orucu hesab olunacaqdır.**

**Sual 816:** Bir şəxs nə qədər qəza orucunun olduğunu bilmir və qəza orucunun olması ehtimalı ilə yanaşı müstəhəb oruc tutur. Əgər bu şəxs qəza orucunun olmadığını qəbul edərsə, onun tutduğu müstəhəb oruc qəza orucunun yerinə hesab olunurmu?

**Cavab: Müstəhəb oruc niyyəti ilə tutduğu oruclar onun boynunda olan qəza orucların yerinə hesab olunmur.**

**Sual 817:** Şəri məsələni bilməmək səbəbilə orucunu bilərəkdən iftar edən şəxs barəsində sizin nəzəriniz nədir? Ona təkcə orucun qəzası vacibdir, yoxsa kəffarə də verməlidir?

**Cavab: Əgər mükəlləf şəri məsələni bilmədiyinə görə orucu pozan bir iş görsə – məsələn, dərman içməyin orucu pozduğunu bilməsə və ramazan ayının gündüzündə dərman içsə – orucu pozulur və qəzasını tutmalıdır. Amma kəffarə ona vacib deyildir.**

**Sual 818:** Əgər büluğ yaşına yeni çatan bir fərd bədəninin zəifliyinə və qüvvəsinin çatmadığına görə oruc tuta bilməyibdirsə, ona təkcə orucun qəzası vacib olur, yoxsa orucun qəzası ilə yanaşı kəffarəsi də vacib olur?

**Cavab: Əgər oruc tutmağın ona böyük əziyyət və çətinliyi olmayıbsa və o, bilərəkdən iftar edibsə, qəzadan əlavə kəffarə də ona vacib olur. Amma əgər oruc tutub xəstələnəcəyindən qorxubsa, onun öhdəsinə təkcə orucun qəzası düşür.**

**Sual 819:** Əgər bir şəxs oruc tutmadığı günlərin sayını və qılmadığı namazların sayını bilmirsə, vəzifəsi nədir? Orucunu şəri bir üzrə görə iftar etdiyini, yoxsa bilərəkdən yediyini bilməyən şəxsin hökmü nədir?

**Cavab: Qəza etdiyini yəqinliklə bildiyi namaz və orucların qəzasını yerinə yetirməklə kifayətlənə bilər. Orucunu bilərəkdən iftar etdiyinə şəkk etdiyi təqdirdə, kəffarə vacib deyildir.**

**Sual 820:** Əgər ramazan ayında oruc tutan şəxs bir gün sahur[1] yemək üçün oyana bilməsə və buna görə də, qüruba qədər orucunu davam etdirə bilməsə, belə ki, gündüz ərzində onun üçün bir hadisə baş versə və o da orucunu iftar etsə, bu şəxsə orucun kəffarəsi vacib olurmu?

**Cavab: Əgər bu şəxs orucunu o həddə qədər davam etdirsə ki, susuzluq və aclığa görə oruc onun üçün böyük əziyyətə çevrilsə və buna görə də, orucunu iftar etsə, təkcə orucun qəzası**

**ona vacib olur, kəffarə vacib olmur.**

**Sual 821:** **Əgər mən boynumda olan qəza oruclarını tutub-tutmadığıma şəkk etsəm, vəzifəm nədir?**

**Cavab: Əgər boynunuzda qəza orucunun olduğuna ilk əvvəldə yəqinliyiniz var idisə, vəzifənizi yerinə yetirdiyinizə yəqinlik yaradacaq qədər qəza orucu tutmağınız vacibdir.**

**Sual 822:** **Bir şəxs şəri vəzifə yaşına çatdığı il ramazan ayında yalnız on bir gün oruc tutubdur və bir günün orucunu da zöhr vaxtı iftar edibdir. Beləliklə, o, on səkkiz gün oruc tutmayıbdır və orucu bilərəkdən tutmadığına görə ona kəffarənin vacib olduğunu da bilməyibdir. Bu şəxsin hökmü nədir?**

**Cavab: Əgər o, ramazan ayının orucunu bilərəkdən və heç bir şəri üzr olmadan iftar edibsə, orucun qəzasından əlavə, kəffarə də verməlidir – istər orucu iftar etdiyi vaxt kəffarənin ona vacib olduğunu bilmişdir, istərsə də bunu bilməmişdir.**

**Sual 823:** **Əgər həkim xəstəyə orucun ona zərəri olduğunu desə və xəstə də oruc tutmasa, amma bir neçə ildən sonra xəstə orucun ona zərəri olmadığını və həkimin qənaətinin səhv olduğunu başa düşsə, xəstəyə orucun qəzası və kəffarəsi vacib olurmu?**

**Cavab: Əgər mütəxəssis və etibarlı bir həkimin sözünə, yaxud başqa bir məntiqi əsasa görə xəstədə oruc tutmağın ona zərəri olacağına dair qorxu yaransa və buna görə oruc tutmasa, ona təkcə orucun qəzası vacib olur.**

---

[1] **Sahur – obaşdanlıq, yəni oruc tutan müsəlmanların sübh azanından qabaq yedikləri yemək deməkdir.**

## Orucun müxtəlif məsələləri

**Sual 824:** **Əgər qadın "günü müəyyən olan nəzir orucu"nu tutduğu halda heyz olarsa, vəzifəsi nədir?**

**Cavab: Heyz olmaqla onun orucu pozulur. Heyzdən paklandıqdan sonra həmin günün orucunun qəzasını tutmalıdır.**

**Sual 825:** **Bir şəxs ramazan ayının əvvəlindən iyirmi yeddisinədək öz vətənində (Bəndər-Dəyyirdə) oruc tutmuş və iyirmi səkkizinci günün sübhündə Dubaya səfər etmişdir. Ayın iyirmi doqquzuncu günü Dubaya çatmış və orada bayram elan edildiyini görmüşdür. İndi o öz vətəninə qayıtmışdır. Tutmadığı orucların qəzası ona vacibdirmi? Əgər o, bir gün qəza orucu tutsa, ramazan ayı onun üçün iyirmi səkkiz gün olacaqdır. Əgər o, iki gün qəza orucu tutmaq istəsə, nəzərə alınmalıdır ki, ayın iyirmi doqquzuncu günü bayram elan edilən bir bölgədə olmuşdur. Bu şəxsin hökmü nədir?**

**Cavab: Əgər həmin bölgədə ayın iyirmi doqquzuncu günü Fitr bayramının elan edilməsi şəri qaydada və düzgün olubdursa, həmin günün orucunun qəzası bu şəxsə vacib deyildir. Amma əgər iki bölgənin (bu şəxsin vətəni olan bölgə ilə səfər etdiyi bölgənin) üfüqünün eyni olması nəzəri mövcud olarsa, bu halda məlum olur ki, o, ayın əvvəlindən bir gün oruc tutmamışdır. Odur ki, iki günün orucunun qəzasını tutmalıdır.**

**Sual 826:** **Əgər oruc tutmuş şəxs şəri məğrib vaxtı bir ölkədə iftar etsə və sonra (təyyarə ilə) başqa bir ölkəyə səfər etsə, amma səfər etdiyi ölkəyə çatdıqda orada hələ şəri məğrib vaxtı daxil olmamış olsa, həmin günün orucunun hökmü nədir? O, həmin ölkədə şəri məğribdən qabaq yeyib-içə bilərmi?**

**Cavab: Onun orucu düzgündür. Şəri məğrib vaxtı öz ölkəsində iftar etdiyini nəzərə alaraq, o, səfər etdiyi ölkədə şəri məğribdən qabaq yeyib-içə bilər.**

**Sual 827:** **Bir şəhid öz dostlarından birinə vəsiyyət etmişdir ki, ehtiyat ünvanında onun tərəfindən bir neçə gün qəza orucu tutsun. Amma şəhidin varisləri bu məsələlərə əhəmiyyət vermirlər və onun vəsiyyətini varislərə demək də mümkün deyildir. Digər tərəfdən şəhidin dostuna oruc tutmağın böyük əziyyət və çətinliyi vardır. Başqa bir həll yolu varmı?**

**Cavab: Əgər şəhid şəxsən dostunun onun üçün oruc tutmasını ona vəsiyyət edibsə, bu xüsusda onun varislərinin üzərinə bir vəzifə gəlmir. Əgər şəhid tərəfindən oruc tutmağın onun dostuna böyük əziyyət və çətinliyi varsa, onun da üzərindən vəzifə götürülür.**

**Sual 828:** **Mən çox şəkk edirəm, daha dəqiq desək, çox vəsvəsə olunuram. Dini məsələlərdə, xüsusilə də, ibadi məsələlərdə çox şəkk edirəm. Məsələn, ötən ramazan ayında şəkk etdim ki, görəsən, ağzıma daxil olan qatı tozu uddum, yoxsa udmadım? Yaxud ağzıma aldığım suyu ağzımdan xaric etdim, yoxsa etmədim? Sonra da şəkk edirəm ki, görəsən, mənim orucum düzgündür, yoxsa yox?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, sizin orucunuz düzgün hökmündədir və bu şəklərə etina olunmur.**

**Sual 829:** **Xanım Fatimə-Zəhradan (s.ə) nəql olunan "Kisa" hədisi mötəbər hədisdirmi? Oruc halında bu hədisi Xanım Fatimə-Zəhraya (s.ə) nisbət vermək olarmı?**

Cavab: Əgər "Kisa" hədisini nəql edən kitablara istinadən bu hədisi nəql edərək Xanıma (s.ə) nisbət versəniz, maneəsi yoxdur.

**Sual 830:** Bəzi alimlərdən və qeyri-alimlərdən eşitmişik ki, əgər müstəhəb oruc tutan bir şəxsi kimsə yeməyə dəvət edərsə, bu şəxs dəvəti qəbul edib bir qədər yemək yeyə bilər və onun orucu pozulmur, əksinə, savabı vardır. Xahiş edirəm, bu barədə öz nəzərinizi söyləyin.

Cavab: Əgər mömin bir şəxs müstəhəb oruc tutan bir şəxsi yeməyə dəvət edərsə, onun dəvətini qəbul etmək şəriət baxımından bəyənilir. Amma bu dəvəti qəbul edib yemək yedikdə, oruc pozulur.

**Sual 831:** Hədis mənbələrində "Ramazan ayının hər gününün duası" nəql olunmuşdur. Əgər bir şəxs bu duaların düzgünlüyünə (yəni Məsumlardan (ə) nəql olunub-olunmadığına) şəkk edərsə, onları oxumasının hökmü nədir?

Cavab: Əgər bu dualar onların Məsumlardan (ə) nəql olunduğu və şəriət sahibi tərəfindən bəyənilən əməl olduğu ümidilə oxunarsa, maneəsi yoxdur.

**Sual 832:** Bir şəxs oruc tutmaq niyyətində olmuşdur, amma sahur yemək üçün oyana bilməmiş, buna görə də, oruc tuta bilməmişdir. Oruc tutmamasının günahı onun öz boynunadır, yoxsa onu sahur yeməyinə oyatmayan şəxsin boynunadır? Əgər bir şəxs sahur yemədən oruc tutsa, orucu düzgündürmü?

Cavab: Bu xüsusda başqalarının heç bir günahı yoxdur. Sahur yemədən də oruc tutmaq düzgündür.

**Sual 833:** Məscidul-həramda etikafın üçüncü gününün orucunun hökmü nədir?

Cavab: Əgər etikaf edən şəxs müsafir olsa və Məkkədə on gün qalmağı qərar versə, yaxud səfərdə oruc tutacağını nəzir etmiş olsa, etikafın iki gününü oruc tutduqdan sonra üçüncü gününü də oruc tutub etikafını tamamlamalıdır. Amma əgər Məkkədə on gün qalmağa qərar verməyibsə, yaxud səfərdə oruc tutacağını nəzir etməyibsə, səfərdə onun orucu düzgün deyildir. Oruc düzgün olmadığı təqdirdə, etikaf da düzgün deyildir.

## Hilalı görmək

**Sual 834: Bildiyiniz kimi, ayın axırında və ya əvvəlində hilal aşağıdakı vəziyyətlərdən birində olur:**
**a) Hilal, günəş qürub etməmişdən qabaq qürub edir;**
**b) Hilal, günəşlə eyni vaxtda qürub edir;**
**c) Hilal, günəş qürub edəndən sonra qürub edir.**
**Xahiş edirəm, açıqlayasınız ki, ayın əvvəlini müəyyən etmək üçün yuxarıdakı vəziyyətlərdən hansını əsas götürmək olar?**

**Cavab: Hər üç vəziyyətdə, əsr çağı hilalı görmək həmin gecədən etibarən yeni qəməri ayının başlanmasının sübutu üçün kifayət edir.**

**Sual 835: Yeni ayı müəyyən cihazlar və vasitələrlə görməyin hökmü nədir? CCD kameralardan istifadə edilərək, işığın əks olunmasının kompyuterdə qeydə alınması və bu məlumatların oxunması ilə ayın hilalının şəklini görmək, ayın əvvəlinin sübuta yetməsi üçün kifayət edirmi?**

**Cavab: Hilalı müəyyən cihazlar və vasitələrlə görmək və ya adi gözlə görmək arasında fərq yoxdur və etibarlı sayılır. Əsas odur ki, "görmək" adlansın. Deməli, gözlə görmək, eynəklə görmək, teleskopla görmək – bunların hamısı eyni hökmü daşıyır. Amma yeni qəməri ayınının başlanmasının sübutu üçün işığın əks olunmasının kompyuterdə qeydə alınması və bu yolla ayın hilalının şəklini görmək məsələsinə gəlincə, bunun "görmək" adlanması məlum olmadığına görə, iradlıdır.**

**Sual 836: Əgər şəvval ayının hilalı bir şəhərdə müşahidə edilməsə, amma televiziya və radioda yeni ayın başlandığı xəbər verilsə, bu, kifayət edirmi? Yoxsa daha artıq araşdırma aparmaq vacibdir?**

**Cavab: Əgər televiziya və radioda verilən xəbər yeni ayın başlandığına dair mükəlləfdə yəqinlik və ya əminlik yaradarsa, yaxud bu xəbər yeni ayın başlandığına dair vəliyyi-fəqihin hökmü əsasında olarsa, bu, kifayət edir və araşdırma aparmağa ehtiyac yoxdur.**

**Sual 837: Əgər səma buludlu olduğuna və ya başqa səbəblərə görə ayın əvvəlinin hilalını görmək mümkün olmazsa və bu səbəbdən də ramazan ayının birinci gününü və mübarək Fitr bayramı gününü müəyyən etmək mümkün olmazsa, eyni zamanda şaban ayının və ya ramazan ayının otuz günü tamamlanmış olmazsa, bu halda Yaponiyada yaşayan bizim kimi mükəlləflər İran üfüqünə əməl edə və ya təqvimə əsaslana bilərlərmi? Bizim vəzifəmiz nədir?**

**Cavab: Əgər ramazan ayının başlandığı və ayın birinci günü olduğu sübuta yetməzsə, oruc tutmaq vacib deyildir. Amma əgər ayın başlanmış olduğu sonradan məlum olarsa, həmin günün orucunun qəzasını tutmaq vacibdir.**
**Əgər şəvval ayının başlandığı və ayın birinci günü olduğu hilalın görünməsi ilə – hətta üfüqü eyni olan qonşu şəhərlərdə hilalın görünməsi ilə – yaxud iki ədalətli şəxsin şahidliyi ilə, yaxud da şəri-hakimin hökmü ilə sübuta yetməzsə, həmin günü oruc tutmaq vacibdir.**

**Sual 838: Hilalın göründüyünə hökm verməkdə üfüqün eyni olması şərtdirmi, yoxsa şərt deyildir?**

**Cavab: Bəli, şərtdir.**

**Sual 839: "Üfüqün eyni olması" nə deməkdir və üfüqü eyni olan regionlar hansı regionlardır?**

**Cavab: "Üfüqün eyni olması" dedikdə, hilalı görməyin mümkün olub-olmaması**

**baxımından bir regionun başqa bir regionla eyni olması nəzərdə tutulur.**

**Sual 840:** Əgər ayın iyirmi doqquzu elan olunsa ki, sabah Tehranda və Xorasanda bayramdır, Buşəhr kimi şəhərlərin sakinləri də iftar edə bilərlərmi? Nəzərə almaq lazımdır ki, Tehran və Xorasanın üfüqü Buşəhrin üfüqü ilə eyni deyildir.

**Cavab: Ümumiyyətlə, əgər iki şəhərin üfüqü arasındakı fərq o qədər olsa ki, onların birində hilal göründükdə, digərində hilalın görünməsi qeyri-mümkündür, bu halda bir şəhərdə hilalın görünməsi digər şəhər üçün kifayət etmir.**

**Sual 841:** Əgər bir şəhərin alimləri arasında hilalın görünüb-görünmədiyi barədə fikirayrılığı yaranarsa, eyni zamanda onların ədalətinə və öz dəlillərində diqqətli olmalarına mükəlləfin yəqinliyi olarsa, mükəlləfin vacib vəzifəsi nədir?

**Cavab: Əgər iki bəyyinənin ziddiyyəti "inkar" və "təsdiq" şəklində olarsa, yəni alimlərdən biri hilalın göründüyünü və digəri görünmədiyini söyləyərsə, bu fikirayrılığı "iki bəyyinənin ziddiyyəti"nə və hər ikisinin qüvvədən düşməsinə səbəb olur. Mükəlləfin vəzifəsi hər iki nəzəri kənara qoymaq və iftar edib, yoxsa oruc tutmaq barəsində əsas hökmün tələbinə uyğun əməl etməkdir.**
**Amma əgər bir şəhərin alimləri arasındakı fikirayrılığı, hilalın görünməsi ilə hilalın göründüyünə yəqinliyin olmaması arasında olarsa, yəni əgər alimlərdən bəziləri hilalın göründüyünü və bəziləri hilalın müşahidə edilmədiyini söyləyərlərsə, bu təqdirdə əgər hilalın göründüyünü söyləyən alimlər ədalətlidirlərsə, onların sözü bütün mükəlləflər üçün şəri dəlildir və bu nəzərə əməl etməlidirlər.**

**Sual 842:** Əgər bir nəfər ayın hilalını görsə və bilsə ki, hilalı görmək onun şəhərinin şəri-hakiminə hansısa bir səbəbə görə mümkün olmayacaqdır, hilalı gördüyünü şəri-hakimə xəbər vermək onun vəzifəsidirmi?

**Cavab: Bunu xəbər vermək ona vacib deyildir. Əlbəttə, əgər bu işi tərk etmək fəsada yol açarsa, bunu xəbər verməlidir.**

**Sual 843:** Bildiyiniz kimi, hörmətli fəqihlərin əksəriyyəti öz risalələrində ("Şəriət hökmlərinin izahı" adlı kitablarda) şəvval ayının əvvəlinin sübutu üçün beş yol qeyd etmişlər və bunların arasında "ayın əvvəlinin şəri-hakim üçün sübuta yetməsi" yer almamışdır. Bunu nəzərə alaraq, möminlərin əksəriyyəti sırf mərcəyi-təqlidlər üçün ayın əvvəlinin sübuta yetməsilə öz oruclarını necə iftar edirlər?

**Cavab: Şəri-hakim hilalın göründüyünə hökm verməyənədək, ayın görünməsinin onun üçün sübuta yetməsi başqalarının ona tabe olmasında kifayət etmir. Əlbəttə, əgər hilalın görünməsinin sübuta yetməsinə yəqin edərlərsə, kifayət edir.**

**Sual 844:** Əgər müsəlmanların vəliyyi-əmri sabahısı günün Fitr bayramı günü olduğuna hökm verərsə və radio və televiziyada hilalın bir neçə şəhərdə göründüyü elan edilərsə, ölkənin bütün bölgələrində bayram olduğu sübuta yetirmi? Yoxsa təkcə ayın göründüyü şəhərlər və bu şəhərlərlə üfüqü eyni olan şəhərlər üçün sübuta yetir?

**Cavab: Əgər şəri-hakimin hökmü bütün ölkəyə şamil olarsa, onun hökmü şəri olaraq bütün şəhərlər üçün etibarlıdır.**

**Sual 845:** Hilalın kiçik və nazik olması və birinci gecənin hilalının xüsusiyyətlərinə sahib olması əvvəlki gecənin ayın birinci gecəsi deyil, əvvəlki ayın otuzuncu gecəsi olduğuna dəlildirmi? Əgər bir şəxs üçün bayram olduğu sübuta yetərsə və bu yolla əvvəlki günün bayram olmadığına yəqin edərsə, o, ramazan ayının otuzuncu gününün orucunun qəzasını tutmalıdırmı?

**Cavab: Sırf hilalın kiçik və aşağıda olması, yaxud böyük və yuxarıda olması, yaxud da enli**

**və ya nazik olması gecənin birinci və ya ikinci gecə olmasına şəri dəlil deyildir. Amma əgər mükəlləf bu xüsusiyyətlərdən hansısa bir məsələyə yəqin edərsə, bu xüsusda öz yəqinliyinə müvafiq əməl etməlidir.**

**Sual 846:** **Ayın bədirləndiyi gecəyə (on dördüncü gecə) istinad etmək və ayın əvvəlini hesablamaq üçün buna bir dəlil ünvanında əsaslanmaq olarmı? Belə ki, "şəkk günü"nün vəziyyəti bu yolla məlum olsun? Məsələn, məlum olsun ki, ramazan ayının otuzuncu günüdür və ramazan ayının gününə aid olan hökmlər bu günə də aid olsun? Yaxud da "bəyyinə"[1] əsasında bu günü oruc tutmayan şəxsə orucun qəzasını tutmağın vacib olduğuna hökm verilsin, digər tərəfdən "istishab qaydası"na[2] əsasən ramazan ayının olduğunu qəbul edib oruc tutan şəxsin boynuna heç bir vəzifə gəlməsin?**

**Cavab: Sözükeçən məsələ sualda qeyd olunanlara şəri dəlil deyildir. Amma əgər sözükeçən məsələ mükəlləfdə hansısa bir məsələyə yəqinlik yaradarsa, bu yəqinliyə müvafiq əməl etməsi vacibdir.**

**Sual 847:** **Hər ayın əvvəlində ayın hilalını görmək kifayi-vacibdir[3], yoxsa ehtiyat-vacibdir?**

**Cavab: Ayın hilalını görmək öz-özlüyündə şəri vacib əməl deyildir.**

**Sual 848:** **Mübarək ramazan ayının əvvəli və axırı hilalı görməklə sübuta yetir, yoxsa təqvim vasitəsilə sübuta yetir, hətta şaban ayı otuz gün olmasa belə?**

**Cavab: Mübarək ramazan ayının əvvəli və ya axırı bu yollardan biri ilə sübuta yetir:**
**- Mükəlləfin özü yeni ayın hilalını görür;**
**- iki ədalətli şəxs şahidlik edir, bu şərtlə ki, əksəriyyət hilalın göründüyünü inkar etməsinlər və bu iki ədalətli şəxsin səhv etdiyinə güman artmasın;**
**- yəqinlik və ya əminlik yaradan xəbər geniş yayılır;**
**- əvvəlki ayın başlanmasından otuz gün keçir;**
**- şəri-hakim hökm verir.**

**Sual 849:** **Əgər hilalın görünməsinə dair dövlət tərəfindən verilən elana müvafiq əməl etməyə icazə verilsə və bu elan başqa ölkələrdə də hilalın görünməsinin sübuta yetməsi üçün elmi bir əsas hesab olunsa, bu dövlətin islami dövlət olması şərtdirmi? Yoxsa həmin dövlət ədalətsiz bir dövlət olsa belə, bu elana əməl etmək olar?**

**Cavab: Bu məsələdə əsas meyar, mükəlləfin regionunda hilalın göründüyünə dair yəqinliyin və ya əminliyin hasil olmasıdır.**

**Sual 850:** **Xahiş edirəm ki, "dörd məscid"dən[4] qeyri məscidlərdə (istər cami məscid[5] olsun, istərsə də qeyri-cami məscid olsun) etikaf etmək barədə nəzərinizi söyləyin.**

**Cavab: Bütün cami məscidlərdə etikaf etmək olar. Qeyri-cami məscidlərə gəlincə, əgər bu məscidlərdə camaat namazı təşkil olunursa və ədalətli imam-camaatı varsa, orada qəsdi-rəca[6] ilə etikaf etmək düzgündür.**

[1] Bəyyinə - elə şahidlərdir ki, onların şahidliyi müəyyən bir məsələni sübuta yetirə bilər.

[2] İstishab qaydası – üsuli-fiqh termini olub, "əvvəlki yəqinin qüvvədə qalmasına hökm vermək" mənasını bildirir.

[3] Kifayi-vacib əməli hər bir mükəlləf yerinə yetirməlidir. Amma əgər bəzi mükəlləflər kifayət həddə onu yerinə yetirsələr, həmin vacib əməl digər mükəlləflərin boynundan götürülür. Məsələn, Allah yolunda cihad. Əgər kifayət sayda mükəlləf cihadda iştirak edərsə, digər mükəllərin boynundan götürülür. (Leader.ir saytına istinadən)

[4] Etikaf üçün dörd məscid Məscidul-həram, Məscidun-Nəbi, Kufə və Bəsrə məscidlərindən ibarətdir.

[5] Cami məscid – adətən şəhərin əsas və mərkəzi yerində inşa edilən və ibadi ayinlərin, xüsusilə, cümə namazının və eləcə də siyasi, ictimai və mədəni toplantıların təşkil edildiyi məsciddir.

[6] Qəsdi-rəca – Mütəal Allahın göstərişi və ya qadağası olduğunu ehtimal verərək hansısa bir əməli yerinə yetirməyi və ya tərk etməyi niyyət etmək.

## Hədiyyə, bank mükafatı, mehriyyə, irs

**Sual 851:** Hədiyyəyə və bayram bəxşişinə (bayramlıq) xüms düşürmü?

**Cavab: Hədiyyə və bəxşişin xümsünü vermək vacib deyildir. Amma əhvət budur ki, ilin xərclərindən artıq qaldığı təqdirdə, xümsü verilsin.**

**Sual 852:** Bankın öz müştərilərinə və qərzul-həsənə[1] büdcəsinin öz üzvlərinə verdiyi mükafatlara xüms düşürmü, yoxsa düşmür?

**Cavab: Mükafat və hədiyyəyə xüms vacib deyildir.**

**Sual 853:** Şəhid fondunun hörmətli şəhid ailələrinə verdiyi vəsaitin ilin xərclərindən artıq qalanına xüms düşürmü?

**Cavab: Şəhid fondunun hörmətli şəhid ailələrinə hədiyyə etdiklərinin xümsü yoxdur.**

**Sual 854:** Bir şəxsin atasından və ya qardaşından və ya bir qohumundan aldığı dolanışıq xərci hədiyyə hesab olunurmu, yoxsa hesab olunmur? Əgər bu dolanışıq xərcini verən şəxs öz malının xümsünü verməyibsə, onu alan şəxsə aldığı xərcliyin xümsünü vermək vacibdirmi?

**Cavab: Bəxşiş və hədiyyə adının doğrulması, onu verənin niyyətinə bağlıdır. Sualda deyilənləri nəzərə alaraq, dolanışıq xərcini alan şəxsə aldığı xərcliyin xümsünü vermək vacib deyildir.**

**Sual 855:** Qızıma cehiz ünvanında bir mənzil bağışlamışam. Bu mənzilə xüms düşürmü?

**Cavab: Əgər qızınıza bağışladığınız mənzil bir bəxşiş olaraq ürfdə sizin şəninizə uyğun hesab olunursa və onu xüms ili əsnasında bağışlamısınızsa, onun xümsünü vermək vacib deyildir.**

**Sual 856:** Bir şəxs bir ili tamam olmayan bir malı öz həyat yoldaşına hədiyyə verə bilərmi, halbuki, həyat yoldaşının ona hədiyyə verilən bu malı gələcəkdə ev almaq üçün və ya zəruri xərclər üçün ehtiyatda saxlayacağını bilir?

**Cavab: Buna icazə verilir. İnsanın öz həyat yoldaşına bağışladığı mal əgər ürfdə onun və onun kimi insanların şəninə uyğun hesab olunursa, habelə bu bəxşiş formal və xümsdən yayınmaq niyyətilə deyilsə, onun xümsü yoxdur.**

**Sual 857:** Əmlakına xüms düşməsin deyə, ər və arvad xüms ili çatmamışdan qabaq öz illik gəlirlərini bir-birilərinə hədiyyə edirlər. Xahiş edirəm, bu əmlakın xüms hökmünü açıqlayın.

**Cavab: Formal və xümsdən qaçmaq məqsədilə olan belə hədiyyə nəticəsində vacib xüms onların boynundan götürülmür.**

**Sual 858:** Bir şəxs müstəhəb həccə getmək üçün müəyyən məbləğ pulu Həcc və Ziyarət İdarəsinin bank hesabına köçürmüşdür. Amma Allah evinin ziyarətinə getməmişdən qabaq vəfat etmişdir. Bu pulun hökmü nədir? Bu pulu mərhumun yerindən həcc ziyarəti yerinə yetirmək üçün sərf etmək vacibdirmi? Ona xüms düşürmü?

**Cavab: Həcc və Ziyarət İdarəsinin bank hesabına köçürülən pul müqabilində verilən həcc qəbzi indiki qiymətilə mərhumun irsindən hesab olunur. Əgər mərhumun boynunda həcc**

**ziyarəti yoxdursa və həcc ziyarəti yerinə yetirməyi də vəsiyyət etməyibdirsə, onun yerindən həcc ziyarəti yerinə yetirmək vacib deyildir. Əgər bu pulun xümsü verilməyibsə, sualda deyilənləri nəzərə alaraq, onun xümsünü vermək vacibdir.**

**Sual 859:** **Ata bağı bəxşiş və ya irs yolu ilə onun oğluna çatmışdır. Bu bağ oğula hədiyyə veriləndə və ya irs qalanda onun qiyməti yüksək deyildi. Amma hal-hazırda bu bağın qiyməti satışda əvvəlki qiyməti ilə xeyli fərq etmişdir. Qiymət artımı nəticəsində ortada olan fərqə xüms düşürmü?**

**Cavab: İrs və hədiyyənin, həmçinin onların satışından əldə edilən pulun - hətta onların qiyməti artsa belə - xümsü yoxdur. Amma əgər onu ticarət və qiymətinin artması məqsədilə saxlayıbsa, onda onu satdıqdan sonra, ehtiyat-vacibə görə, artan dəyərin xümsünü verməlidir.**

**Sual 860:** **Sığorta şirkəti müalicə xərclərinə görə mənə müəyyən məbləğ pul borcludur və yaxın günlərdə bu pulu mənə ödəməlidir. Bu pula xüms düşürmü?**

**Cavab: Şəxsi gəlirdən müalicə və dərmanlar üçün çəkilən xərclər sonradan sığorta şirkəti tərəfindən qaytarıldıqda, bu pul "yeni gəlir" hesab edilmir, əksinə, həmin şəxsi gəlirdir. Bu pul xüms ilinin sonunadək məişət ehtiyaclarına sərf edilmədiyi təqdirdə, ona xüms düşəcək. Amma əgər bu pul xüms ili başa çatdıqdan sonra geri qaytarılarsa, onun xümsü dərhal verilməlidir.**

**Sual 861:** **Gələcəkdə izdivac üçün lazım olan əşyaları almaq məqsədilə aylıq maaşımdan yığdığım pula xüms düşürmü?**

**Cavab: Əgər aylıq maaş ünvanında aldığınız pulun özünü yığmısınızsa, xüms ilinin əvvəlində bu pulun xümsü verilməlidir. Amma əgər xüms ilinin əvvəlindən bir neçə gün sonra bu pulu izdivacın zəruri əşyalarını almaq üçün xərcləmək istəyirsinizsə, onun xümsü verilmir.**

**Sual 862:** **"Təhrirul-vəsilə" kitabında qeyd olunur ki, qadının mehriyyəsinə xüms düşmür və bu baxımdan müddətli və müddətsiz mehriyyə arasında fərq qoyulmamışdır. Xahiş edirəm, bu məsələni izah edəsiniz.**

**Cavab: Mehriyyəyə xüms düşməməsi baxımından müddətli və ya müddətsiz mehriyyə, həmçinin nağd pul və ya mal arasında fərq yoxdur. (Yəni mehriyyə istər müddətli olsun, istərsə də müddətsiz, həmçinin istər nağd pul olsun, istərsə də mal, ona xüms düşmür.)**

**Sual 863:** **Dövlət müəssisələrində işləyən işçilərə bayram günlərində dövlət tərəfindən bayramlıq adı ilə ərzaq verilir. Xüms ilinin sonunda bu ərzaqdan bir miqdar artıq qalmışdır. İşçilərə verilən bayramlığa xüms düşmədiyini bilirik, amma qeyd etməliyik ki, biz bu ərzağa görə müəyyən məbləğ pul ödəmişik. Buna görə də, bizə verilən ərzaq tam mənada hədiyyə deyildir, əksinə, ucuz qiymətə verilən maldır. Bu ərzağın yalnız pul ödənilən hissəsinin xümsü verilməlidirmi? Yoxsa onun bazar qiyməti hesablanıb, xümsü verilməlidir? Yaxud da bayramlıq olduğuna görə ona ümumiyyətlə xüms düşmür?**

**Cavab: Suala əsasən, bu ərzağın bir hissəsi, əslində, dövlət tərəfindən işçiyə pulsuz verildiyinə və bir hissəsinin isə qarşılığında pul alındığına görə, əgər xüms ilinin sonunda artıq qalan ərzaq dövlətin yardım ünvanında verdiyi ərzaq miqdarında olarsa, ona xüms düşməyəcək. Amma əgər bu miqdardan artıq olarsa, yanız artıq olan hissə günün qiymətilə dəyərləndirilməli və onun xümsü verilməlidir.**

**Sual 864:** **Dünyasını dəyişən bir şəxs həyatda ikən öz xüms borcunu dəftərinə qeyd etmiş və onu ödəmək niyyətində olmuşdur. İndi isə onun bir qızı istisna olmaqla, bütün ailə üzvləri xümsü ödəməkdən boyun qaçırmış və mərhumun irsindən həm onun, həm də özlərinin xərcinə sərf edirlər. Xahiş edirəm, aşağıdakı məsələlər barədə öz nəzərinizi açıqlayın:**
**1) Mərhumun daşınan və daşınmaz əmlakından onun yeznəsinin və ya varislərdən birinin istifadə etməsinin hökmü nədir?**
**2) Yeznənin və ya varislərdən birinin mərhumun evində yemək yeməsinin hökmü nədir?**
**3) Bu şəxslərin mərhumun əmlakından istifadə etdikləri pul və malın, yedikləri yeməyin hökmü nədir?**

**Cavab: Əgər əmlakının müəyyən miqdarının xüms olaraq verilməsinə dair mərhumun vəsiyyəti olsa, yaxud mərhumun müəyyən miqdar xüms borcu olduğuna varislərin yəqinliyi olsa, mərhumun vəsiyyətinə əməl etməyənədək və ya onun xüms borcunu verməyənədək varislər irsdən istifadə edə bilməzlər. Yalnız o halda istifadə edə bilərlər ki, səhlənkarlıq göstərmədən vəsiyyətə əməl etməyi və ya xümsü ödəməyi ciddi surətdə qərara alıblar. Mərhumun vəsiyyətinə əməl etməmiş və ya onun xüms borcunu verməmiş varislərin irsdən istifadə etdikləri pul-mal vəsiyyət və ya borc nisbətində qəsb hökmündədir. Varislər buna zamindirlər (yəni bu məbləği borcludurlar).**

---

[1] Qərzul-həsənə - Qurandan götürülən ifadədir və "gözəl borc" deməkdir. Sələmsiz və minnətsiz borc gözəl borcun nümunələrindəndir. *Müt.*

## Borc, aylıq maaş, sığorta, pensiya

**Sual 865:** Bəzən elə olur ki, idarə işçisinin öz illik xərclərindən bir qədər artıq pulu qalır, amma eyni zamanda onun nağd və ya kredit borcları da olur. Belə olan halda xüms vermək ona vacib olurmu?

**Cavab: Əgər o, il ərzində həmin ilin xərclərinə görə pul borc alıbsa, yaxud həmin ildə ehtiyacı olan bəzi malları nisyə şəklində alıb borclu qalıbsa, bu halda əgər borc pulu və ya malı məişət ehtiyaclarına sərf etdiyi zaman onun elə həmin miqdarda gəliri olubsa, borc həmin ilin gəlirinin artıq qalan miqdarından çıxılacaq. Amma əgər gəlir bu pulun və ya malın istifadəsindən sonra onun əlinə gəlibsə, ehtiyat-vacibə görə, borc həmin ilin gəlirinin artıq qalan miqdarından çıxılmayacaq.**

**Sual 866:** Təməttö həcci üçün borc alınan pulun xümsü verilməli və xümsü verildikdən sonra qalan məbləğ həccin xərclərinə sərf edilməlidirmi?

**Cavab: Borc alınan pulun xümsü yoxdur.**

**Sual 867:** Mən torpaq sahəsi alıb ev tikmək üçün beş il ərzində müəyyən məbləğ pulu məskən fonduna ödəmişəm. Amma indiyədək mənə torpaq sahəsi verilməsi barədə qərar qəbul edilməyibdir. Ona görə də həmin pulu məskən fondundan geri almağı qərara almışam. Nəzərə alsaq ki, bu pulun bir hissəsini borc almışam, bir hissəsini evimin xalçalarını satıb pul etmişəm, bir hissəsini də müəllimə işləyən yoldaşımın maaşından götürmüşəm, xahiş edirəm, aşağıdakı iki sualı cavablandırın:
1) Əgər mən bu pulu geri ala bilsəm və onu ancaq ev məsələsi (ya torpaq sahəsi almaq, ya da ev almaq) üçün sərf etsəm, bu pula xüms düşürmü?
2) Bu pula nə qədər xüms düşür?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, bu pul hədiyyə, ya borc, ya ev əşyalarını satmaq vasitəsilə əldə edildiyinə görə ona xüms vacib olmur.**

**Sual 868:** Mən bir neçə il əvvəl bankdan pul krediti götürdüm və bu pulu bir il müddətinə öz bank hesabıma qoydum. Bu puldan istifadə edə bilməmişəm, amma hər ay onun kreditini ödəyirəm. Bu pul kreditinə xüms düşürmü?

**Cavab: Xüms ilinin əvvəlinə qədər bu pul krediti üçün öz iş gəlirinizdən ödədiyiniz məbləğə xüms vacib olur.**

**Sual 869:** Mənim ev tikintisinə görə müəyyən məbləğ borcum var və bu borc on iki il müddətində ödəniləcəkdir. Xahiş edirəm, xüms məsələsi barədə məni məlumatlandırasınız və açıqlayasınız ki, bu borc ilin gəlirindən çıxılırmı?

**Cavab: Ev tikintisi və bu kimi işlərin ötən ilə aid olan borcu və kreditləri il ərzindəki iş gəlirindən ödənilə bilər. Amma ödənilmədiyi təqdirdə, ilin gəlirindən çıxılmır və xüms ilinin sonunda ilin gəlirindən artıq qalan məbləğə xüms düşür.**

**Sual 870:** Gəlir mənbəyi olmayan bir tələbənin atasının ona verdiyi pul və ya universitetin tələbələrə verdiyi borc pul ilə aldığı kitablara xüms düşürmü? Əgər o bilsə ki, atası kitabların pulunun xümsünü verməmişdir, onun xümsünü vermək vacibdirmi?

**Cavab: Borc pul və ya atanın bağışladığı pul ilə alınan kitablara xüms düşmür.**

**Sual 871: Əgər bir şəxs pul borc alsa və il tamamlanmamışdan qabaq onu qaytara bilməsə, pulun xümsünü vermək borc verənin öhdəsindədir, yoxsa borc alanın?**

**Cavab: Borc alan şəxsə borc aldığı pulun xümsünü vermək vacib deyildir. Borcun yalnız o məbləğinin xümsünü vermək ona vacib ola bilər ki, bu məbləği il ərzindəki gəlirdən qaytarmış, eyni zamanda həmin borc pulu xəcləməmiş və pul onun əlində qalmışdır və ya onu hansısa bir işə sərmayə qoymuşdur. Borc verən şəxsə gəlincə isə, əgər o, borcu il ərzindəki iş gəlirindən və bu gəlirin xümsünü verməmişdən qabaq veribsə, verdiyi borcu ilin axırınadək geri ala bildiyi təqdirdə, xüms ilinin sonunda onun xümsünü verməlidir. Verdiyi borcu ilin axırınadək geri ala bilmədiyi təqdirdə isə, hələlik onun xümsünü vermək vacib deyildir. Amma borcunu geri alanda onun xümsünü dərhal verməlidir.**

**Sual 872: Hər ay pensiya alan pensiyaçılar il ərzində aldıqları pensiyanın xümsünü verməlidirlərmi?**

**Cavab: İlin xərclərindən artıq qaldığı təqdirdə, xüms ilinin sonunda artıq qalan məbləğin xümsünü vermək vacibdir.**

**Sual 873: İran İslam hökuməti tərəfindən əsirlikdə olan vətəndaşların ata-analarına aylıq təqaüd ödənilir. Bu pul bankda yığıldığı təqdirdə, ona xüms düşürmü, yoxsa yox?**

**Cavab: Bu pulun xümsü yoxdur.**

**Sual 874: Mən bir nəfərə müəyyən məbləğ pul borcluyam. Əgər xüms ilinin sonu çatsa və borc verən şəxs borcunu geri istəməsə, mənim də əlimdə ilin gəlirindən bir qədər pul qalsa və mən bu pul ilə borcumu verə bilsəm, bu borc ilin gəlirindən çıxılırmı, yoxsa yox?**

**Cavab: İstər pul borc alıb borclu qalasan, istərsə də ev əşyalarını nisyə alıb borclu qalasan, bu borc həmin ilin və ya əvvəlki illərin borcu olmasından asılı olmayaraq, ilin sonunadək qaytarılmadığı təqdirdə, ilin gəlirindən çıxılmayacaq. Amma əgər borc pul və ya mal məişət ehtiyaclarına sərf edildiyi zaman həmin miqdarda da gəlir olubsa, ilin gəlirindən çıxılacaq.**

**Sual 875: Bir şəxsin bank hesabında il ərzindəki gəlirindən müəyyən məbləğ pul qalıb. Onun xüms ili çatıb, amma eyni zamanda borcu da var. Nəzərə alsaq ki, borcu qaytarmaq üçün onun bir neçə il möhləti vardır, xüms vermək ona vacibdirmi?**

**Cavab: Borc qaytarılmadığı təqdirdə – istər müddətli borc olsun, istərsə də müddətsiz borc olsun – ilin gəlirindən çıxılmayacaq. Amma əgər şəxs borc pulu məişət ehtiyaclarına sərf etdiyi zaman onun gəliri də olubsa, bu halda həmin məbləğ ilin gəlirindən çıxılacaq.**

**Sual 876: Dəyən ziyanı aradan qaldırmaqdan ötrü sığorta şirkətlərinin sığortalanan şəxsə müqavilə əsasında ödədikləri pula xüms düşürmü?**

**Cavab: Avtonəqliyyat vasitələrinin sığortası, yanğın sığortası, əkinçilik məhsullarının sığortası və s. bu kimi sığortalarda dəyən ziyanı qarşılamaqdan ötrü sığorta şirkətlərinin sığortaolunan şəxsə ödədikləri pul iş gəlirindən sayılır. Odur ki, əgər bu pul xüms ilinin sonunadək məişət xərclərinə sərf edilməzsə, onun xümsünü vermək vacibdir.**

**Sual 877: Keçən il müəyyən məbləğ pul borc aldım və bu pul ilə torpaq sahəsi aldım. Torpaq sahəsini almaqda məqsədim,**

qiyməti artıqdan sonra onu, həmçinin hal-hazırda yaşadığım evi satmaq və gələcəkdə ev problemimi həll etmək idi. İndi mənim xüms ilim çatıbdır. Sualım budur ki, bu borcu keçən ilin iş gəlirindən – belə ki, ona xüms düşür - çıxa bilərəmmi, yoxsa çıxa bilmərəm?

**Cavab: Sualda deyilənlərə əsasən, bu borcu alıb torpaq sahəsi almısınız və torpaq sahəsini almaqda da məqsədiniz gələcəkdə onu satmaq olubdur. Buna görə də, bu borc, borc aldığınız ilin iş gəlirindən çıxılmır. İlin xərclərindən artıq qalan iş gəlirinin xümsü vacibdir.**

**Sual 878:** **Mən bankdan müəyyən məbləğ pul krediti götürmüşəm və onun ödəniş tarixi mənim xüms tariximdən sonradır. Mən qorxuram ki, əgər bu məbləği bu il ödəməsəm, gələn il onu ödəməyə imkanım olmasın. Xüms ilim çatanda xüms vermək baxımından mənim vəzifəm nədir?**

**Cavab: Əgər ilin gəlirini il tamamlanmamışdan qabaq borcunuzu ödəməyə sərf etsəniz və borcunuz da sərmayəni artırmaqdan ötrü olmasa, ilin gəlirinin xümsü yoxdur. Amma əgər borcunuz sərmayəni artırmaqdan ötrü olsa, yaxud ilin gəlirini ehtiyat pul ünvanında yığmaq niyyətində olsanız, ilin gəlirinin xümsünü vermək sizə vacibdir.**

**Sual 879:** **Adətən, evi icarəyə götürəndə ev sahibinə müəyyən məbləğ pul həvalə olunur. Əgər bu pul iş gəlirindən olsa və bir neçə il ev sahibinin əlində qalsa, onu geri alanda xümsü dərhal verilməlidirmi? Əgər şəxs bu pul ilə başqa bir evi icarəyə götürmək istəsə, hökm necə olacaq?**

**Cavab: Bu pula xüms düşür. Amma əgər ev icarəyə götürmək üçün bu pula ehtiyacı olsa, ehtiyacı aradan qalxanadək onun xümsünü verməyi gecikdirə bilər.**

## Ev, nəqliyyat vasitələri və torpaq sahəsinin satışı

**Sual 880: Xümsü verilməmiş pul ilə tikilən evə xüms düşürmü? Xüms düşdüyü təqdirdə, onun xümsü indiki qiymət əsasında hesablanmalıdır, yoxsa evin tikildiyi dövrün qiyməti əsasında hesablanmaldır?**

**Cavab: Əgər ev il ərzindəki gəlirlə yaşayış üçün tikilibsə, ona xüms düşmür. Amma əgər "xüms ili başa çatan gəlir"lə tikilibsə, bu pulun xümsü qarşıda gələn ilk xüms ilinin əvvəlində verilməlidir. Əgər inflyasiya nəticəsində pulun dəyəri düşübsə, inflyasiya miqdarı da ödənilməlidir. Şəxs inflyasiyanın miqdarını bilmədikdə, şəri-hakimlə müsalihə etməlidir[1] (razılığa gəlməlidir).**

**Sual 881:** Bir müddət öncə öz yaşayış mənzilimi satdım. Bu alğı-satqı mənim xüms ilimlə eyni zamana təsadüf etdi. Şəri əmlak vergisini verməyi özümə vəzifə bildiyim üçün həyatımın xüsusi durumu nəticəsində bu sarıdan çətinliklə üzləşdim. Xahiş edirəm, bu barədə mənə yol göstərəsiniz.

**Cavab: Əgər satdığınız mənzili xümsü olmayan pul ilə, yaxud ilin gəliri ilə almışdınızsa, bu mənzilin satışından əldə edilən pulun hər bir halda xümsü yoxdur.**

**Sual 882: Şəhərlərin birində yarımtikili bir evim vardır. Mən dövlət balansında olan binada yaşadığıma görə hal-hazırda bu yarımtikili evə ehtiyacım yoxdur. Ona görə də bu evi satmaq və pulu ilə şəxsi istifadə üçün avtomobil almaq istəyirəm. Bu evin satışından əldə edilən pula xüms düşürmü?**

**Cavab: Əgər sözügedən evi ilin gəliri ilə və il ərzində yaşayış məqsədilə tikmiş və ya almısınızsa, sonra da elə həmin il onu satmısınızsa, evin satışından əldə etdiyiniz pulu həmin ilin məişət ehtiyaclarına sərf etdiyiniz təqdirdə, evin satışından əldə edilən pulun xümsü yoxdur. Həmçinin əgər onu sonrakı ildə satmısınızsa, evin satışından əldə edilən pulun xümsü yoxdur.**

**Sual 883: Yaşadığım ev üçün bir neçə plastik qapı almışdım. Amma iki ildən sonra bu qapılardan istifadə etmək istəmədiyim üçün onları satdım və pulunu aliminium qapı-pəncərə düzəldən şirkətə ödədim ki, əvvəlki qapıların yerinə həmin qiymətə mənim üçün aliminium qapı düzəltsinlər. Bu pula xüms düşürmü?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, bu qapılardan istifadə edilmədiyinə görə onun satışından əldə edilən pula xüms düşür.**

**Sual 884: Mən müəyyən məbləğ pulu bir idarəyə ödəmişəm ki, yaşayış evi tikmək üçün gələcəkdə mənə torpaq sahəsi verilsin. Bu məbləği ödədiyim vaxtdan bir il ötür. Digər tərəfdən də bu pulun bir hissəsi mənim öz pulum idi, amma bir hissəsini borc almışdım. İndi borcumdam bir qədərini də qaytarmışam. Bu pula xüms düşürmü? Xümsün miqdarı nə qədərdir?**

**Cavab: Əgər yaşayış üçün ehtiyac olan evi tikməkdən ötrü torpaq sahəsi almaq pulun bir hissəsini öncədən ödəməyə bağlıdırsa, ödənilən pulun xümsü yoxdur. Hətta əgər bu pul sizin iş gəlirinizdən olsa belə.**

**Sual 885: Əgər bir şəxs öz evini satsa və əldə etdiyi pulu bank faizlərindən bəhrələnmək üçün banka qoysa, sonra onun xüms ili çatsa, bu pulun hökmü nədir? Əgər bu pulu ev almaq üçün saxlamışdırsa, hökmü nədir?**

**Cavab: Əgər evi ilin iş gəlirindən yaşayış üçün və ilin xərcləri hesabında tikmişdirsə və ya**

almışdırsa, daha sonra xüms ilindən sonra onu satmışdırsa, onun satışından əldə edilən pulun hər bir halda xümsü yoxdur.

**Sual 886:** Ev və ya digər məişət ehtiyaclarını almaq üçün ehtiyatda tədricən yığılan pula xüms düşürmü?

**Cavab: Əgər məişətin zəruri ehtiyaclarını almaq şəxsin maddi durumu ilə əlaqədar olaraq ilin gəlirindən pul yığmağa bağlıdırsa və o, bu pulu yaxın gələcəkdə (bir neçə günə) məişətin zəruri ehtiyaclarını almağa sərf etmək niyyətindədirsə, onun xümsü yoxdur.**

**Sual 887:** Mən bir neçə il öncə bir avtomobil almışdım və indi onun qiyməti bir neçə dəfə bahalaşıb. Mən bu avtomobili xümsü verilməmiş pul ilə almışdım. İndi isə onu satıb, pulu ilə özümə bir yaşayış evi almaq istəyirəm. Avtomobilin satışından əldə edəcəyim pulun hamısına xüms düşəcək, yoxsa yalnız bir neçə il öncə onu almağa xərclədiyim məbləğə xüms düşəcək? Qalan pul – yəni avtomobilin qiymətinin artması nəticəsində onun satışından əldə edilən artıq məbləğ – avtomobilin satıldığı ilin gəlirindən hesab olunduğuna görə, əgər həmin ilin axırınadək məişət xərclərinə sərf edilməzsə, ona xüms düşəcəkmi?

**Cavab: Əgər avtomobil sizin məişət ehtiyaclarınızdan olubsa və onu il ərzindəki gəlirlə məişətdə şəxsi istifadə üçün almısınızsa, onun satışından əldə edilən pulun xümsü yoxdur. Amma əgər avtomobili iş görmək üçün almısınızsa, onun pulunun xümsü qarşıda gələn ilk xüms ilinin əvvəlində sizin öhdənizdədir. Əlbəttə, pulun dəyərdən düşməsi də hesablanmalıdır. Amma sonrakı illərdə avtomobilin qiymət artımına gəlincə, bu qiymətdən inflyasiya miqdarını çıxdıqdan sonra artan məbləğ satış ilinin gəliri hesab olunur.**

**Sual 888:** Mənim evim olduqca kiçikdir və bir sıra başqa səbəblərə də görə mən böyük bir ev almağı qərara aldım. Amma evin pulunu ödəmək üçün istifadə etdiyim avtomobili satmaq, həmçinin rayonun bankından pul krediti və şəhərimizin qərzul-həsənə büdcəsindən borc götürmək məcburuyyətində qaldım. Nəzərə alsaq ki, avtomobili xüms ilimin başlanma tarixindən qabaq satdım və əldə etdiyim pulu bəzi borclarımı ödəməyə sərf etdim, avtomobilin satışından əldə edilən pula xüms düşürmü, yoxsa düşmür?

**Cavab: Əgər avtomobili il ərzindəki gəlir ilə almısınızsa və xüms ili başa çatdıqdan sonra onu satmısınızsa, onun satışından əldə edilən pulun xümsü yoxdur.**

**Sual 889:** İlin gəliri ilə alınan və insanın özünün və ya ailəsinin ehtiyacı olan ev, avtomobil və bu kimi əşyalar əgər zərurətə görə və ya daha keyfiyyətli əşya almaqdan ötrü satılarsa, xüms baxımından hökmü nədir?

**Cavab: Məişət ehtiyaclarından olan əşyaların satışından əldə edilən pulun xümsü yoxdur.**

**Sual 890:** Əgər ev və ya avtomobil və ya məişət ehtiyaclarından olan başqa bir şey xümsü verilmiş pul ilə satmaq və ya ticarət məqsədilə deyil, şəxsi istifadə üçün alınarsa, sonra müəyyən səbəbə görə satılarsa, bazarda qiymətlərin artması ilə əlaqədar olaraq onun satşından əldə edilən artıq məbləğə xüms düşürmü?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, onun satışından əldə edilən artıq məbləğə xüms düşmür.**

---

[1] Müsalihə etmək – yəni tərəflərin razılığa gəlmələri.

## Xəzinə, mədən, harama qarışmış halal mal

**Sual 891:** Bir şəxsin öz mülkündə tapdığı xəzinə barədə sizin nəzəriniz nədir?

**Cavab: Bu kimi məsələlərdə İslam hökumətinin qanunları meyar götürülür.**

**Sual 892:** Əgər yüz illər öncəyə aid olan bir miqdar gümüş sikkə bir şəxsin mülkü olan evin torpağı altından tapılsa, bu sikkələr onun indiki malikinə, məsələn, qanuni varisə və ya alıcıya aiddirmi, yoxsa yox?

**Cavab: Bu, xəzinə hökmündədir və onun hökmü bir qədər əvvəl açıqlandı.**

**Sual 893:** Biz belə bir sual ilə qarşılaşmışıq:
Bildiyimiz kimi, istixrac olunan mədənlərin xümsünü vermək indiki zamanda da vacibdir, çünki mədənin xümsünün vacibliyi hörmətli fəqihlərin nəzərində aydın hökmlərdən biridir. Dövlət tərəfindən istixrac olunan mədənlərin hökmü nədir? Nəzərə almaq lazımdır ki, dövlətin mədənlərdən çıxardığı faydalı qazıntıları islam ölkəsinin müsəlmanları arasında paylaması, xümsün vacibliyinin qarşısını almır. Çünki mədənin istixrac olunması üç surətdə ola bilər:
Ya birbaşa dövlət tərəfindən istixrac olunur və sonra millətin istifadəsinə verilir. Bu halda, dövlət, mədəni istixrac edib onu başqa bir şəxsə bağışlayan, ya hədiyyə verən, ya sədəqə verən şəxs qismində olur. Hər bir halda, xümsün dəlillərinin ümumiliyi bu surətə də şamil olur, çünki istisna hal üçün bir dəlil mövcud deyildir.
Ya dövlət millətin vəkili qismində mədənləri istixrac edir. Bu halda, mədəni istixrac edən, əslində, millətin özüdür. Bu surətdə xüms vermək millətə vacibdir.
Ya dövlət millətin başçısı qismində mədənləri istixrac edir. Bu halda, mədəni istixrac edən ya başçının özüdür, ya da millət tərəfindən onu istixrac edir ki, burada əslində, millət özü mədəni istixrac edir.
Bir sözlə, mədənin "xümsün ümumiliyi"ndən çıxarılmasına (və istisna hal təşkil etməsinə) dair bir dəlil mövcud deyildir. Necə ki, mədənin özü əgər nisab həddinə çatarsa, ona xüms düşür. Mədən digər iş gəlirləri kimi deyildir ki, istifadə etmək və ya bağışlamaqla ilin məişət ehtiyaclarından hesab olunsun və xümsün vacibliyindən istisna edilsin. Bu mühüm məsələ barədə sizin nəzəriniz nədir?

**Cavab: Mədənə xümsün vacib olması şərtlərindən biri də budur ki, bir şəxs və ya şərik olan bir neçə şəxs mədəni istixrac etsinlər, onların hər birinin payı nisab həddinə çatsın və istixrac etdikləri faydalı qazıntı onların əmlakı hesab olunsun. Dövlətin istixrac etdiyi mədənlər bir və ya bir neçə şəxsin əmlakı olmadığına görə, əksinə, "cəhət əmlakı" olduğuna görə xümsün vacib olma şərtinə malik deyildir. Nəticədə, dövlətə xümsün vacib olmasından söz getməyəcəkdir. Bu isə, xümsün vacib olmasında mədənin istisna hal təşkil etdiyi anlamında deyildir. Bəli, bir şəxsin və ya şərik olan bir neçə şəxsin istixrac etdikləri mədənə xüms vacib olur. Bu şərtlə ki, şəxsin istixrac etdiyi faydalı qazıntı və ya şərik olan şəxslərin istixrac etdikləri faydalı qazıntıdan onların hər birinin payı, bu işə çəkilən xərclər və saflaşdırma xərcləri çıxıldıqdan sonra iyirmi qızıl dinarın dəyərinə bərabər olmalıdır.**

**Sual 894:** Əgər haram bir mal insanın malına qarışsa, o malın hökmü nədir və necə halal olar? Əgər insan malın haram olduğunu bilsə və ya bilməsə, onun vəzifəsi nədir?

**Cavab: Əgər insan onun malına haram mal qarışdığına əmin olsa, amma haram malın dəqiq miqdarını bilməsə və onun sahibini də tanımasa, malı halal etməyin yolu onun xümsünü verməkdir. Amma əgər insan onun malına haram mal qarışdığına şəkk etsə, onun öhdəsinə heç nə düşmür.**

**Sual 895:** Xüms ilimin sonu çatmamışdan öncə mən müəyyən məbləğ pulu bir şəxsə borc verdim. O şəxs bu pul ilə iş görmək və

əldə edilən gəliri aramızda yarıbayarı bölmək niyyətində idi. Nəzərə alsaq ki, bu pul hal-hazırda mənim əlimdə deyildir və onun xümsünü də verməmişəm, sizin bu barədə nəzəriniz nədir?

**Cavab:** Əgər siz o pulu borc vermisinizsə və xüms ilinizin sonunda onu geri ala bilməmisinizsə, hələlik onun xümsü sizə vacib deyildir. Siz bu pulu geri aldığınız zaman onun xümsü sizə vacib olacaq. Amma bunu da bilməlisiniz ki, borc alan şəxsin işdən əldə etdiyi gəlirdə sizin heç bir haqqınız yoxdur. Əgər ondan bir şey tələb etsəniz, ribadır (sələm) və haramdır. Amma əgər siz o pulu müzaribə sərmayəsi[1] ünvanında ona vermisinizsə, müqavilə əsasında sərmayənin gəlirində şəriksiniz. Bu pul sərmayə hesab olunduğuna görə, siz onun hamısının xümsünü verməlisiniz. Amma əgər bu pulun xümsünü verdiyiniz təqdirdə qalan pul ilə öz ictimai mövqeyinizə uyğun bir səviyyədə məişət xərclərinizi təmin edə bilməyəcəksinizsə, bu halda onun xümsünü vermək sizə vacib deyildir.

**Sual 896:** Mən bankda işləyirəm. İşə başlamaq üçün icbari olaraq banka beş yüz min tümən depozit qoydum. Bu pul mənim adıma olan uzunmüddətli bir hesabdadır və hər ay onun faizi mənə ödənilir. Bank hesabında olan bu pulun xümsünü vermək vacibdirmi? Qeyd etməliyəm ki, bu pul dörd ildir banka qoyulubdur.

**Cavab: Əgər hal-hazırda bu pulu geri götürmək mümkün deyilsə, onu geri götürməyənədək bu pulun xümsü vacib deyildir. Amma onun illik faizinin ilin məişət ehtiyaclarından artıq qalanına xüms düşür.**

**Sual 897:** Depozit qoymaq üçün banklarda belə bir üsul vardır ki, onun əsasında pul heç vaxt istifadəçinin əlinə çatmır, amma bankda onun adına olan müəyyən saylı hesaba köçürülür. Bu pula xüms düşür, yoxsa düşmür?

**Cavab: Əgər banka qoyduğunuz depozit sizin iş gəlirinizdən olsa və xüms ili çatanda onu bankdan götürmək sizə mümkün olsa, xüms ilinin əvvəlində onun xümsünü vermək vacibdir.**

**Sual 898:** "İcarəyə götürən şəxs"in (müstəcir) "icarəyə verən şəxs"ə (mucir) girov ünvanında verdiyi pulun xümsü icarəyə götürən şəxsin öhdəsindədir, yoxsa icarəyə verən şəxsin?

**Cavab: Əgər bu pul "icarəyə götürən şəxs"in iş gəlirindən olsa, bu pulu "icarəyə verən şəxs"dən geri aldıqdan sonra onun xümsünü verməlidir. İcarəyə verən şəxs bu pulu borc ünvanında aldığı təqdirdə, bu pulun xümsünü vermək ona vacib olmur.**

**Sual 899:** Əgər dövlət müəssisələrində işləyən işçilərin aylıq maaşı dövlət tərəfindən bir neçə il gecikdirilsə, bu pulu alanda həmin ilin (yəni pulun alındığı ilin) gəlirindən hesab olunurmu və xüms ilinin əvvəli çatanda onun xümsünü hesablamaq vacibdirmi? Yoxsa bu pula heç xüms düşmür?

**Cavab: Gecikdirilmiş əmək haqqı, əmək haqqını aldığı ilin gəlirindən hesab olunur və həmin ilin xərclərindən artıq qalanına xüms vacibdir.**

---

[1] Müzaribə - sərmayə sahibi olan şəxs ilə iş görən şəxs arasında bağlanan bir müqavilədir ki, bu müqavilə əsasında iş görən şəxs sərmayə sahibinin sərmayəsi ilə ticarət edəcəyini və ticarətdən əldə edilən gəlirin müəyyən nisbətdə onların ikisi arasında bölüşdürüləcəyini öhdəsinə götürür.

## Məişət ehtiyacları

**Sual 900:** Bir şəxsin öz şəxsi kitabxanası vardır və bir müddət bu kitablardan istifadə etmişdir. Hazırda isə bir neçə ildir bu kitabxanadan istifadə etmir, amma gələcəkdə ondan istifadə edəcəyini ehtimal verir. Kitablardan istifadə etmədiyi müddətdə onlara xüms düşürmü? Xüms düşməsi baxımından bu kitabları onun özünün, yoxsa atasının alması arasında fərq varmı?

**Cavab: Əgər bu kitabları alanda mütaliə və müraciət üçün onlara ehtiyacı olubsa, həmçinin kitabların sayı ürfə görə onun şəninə uyğun olubsa, hətta aldığı ildən sonrakı illərdə onlardan istifadə etməsə belə, onların xümsü yoxdur. Həmçinin əgər kitablar ona irs çatıbsa, yaxud ata-anası və ya başqaları tərəfindən ona hədiyyə verilibsə, onlara xüms düşmür.**

**Sual 901:** Ərin öz arvadına aldığı qızıla xüms düşürmü?

**Cavab: Əgər adi miqdarda və onun şəninə uyğun olsa, ilin məişət ehtiyaclarından hesab olunur və xümsü yoxdur.**

**Sual 902:** Tehranda açılan beynəlxalq kitab sərgisindən alınan kitablar üçün ödənilən pula xüms düşürmü? Qeyd edək ki, kitab hələ ünvana göndərilməmiş və təhvil alınmamışdır.

**Cavab: Əgər sözügedən kitablara ehtiyac varsa və kitabların sayı ürfdə onu alan şəxsin şəninə uyğundursa, xümsü yoxdur.**

**Sual 903:** Əgər bir şəxs öz şəninə uyğun olan və ailəsinə yaşayış evi tikmək baxımından ehtiyac duyulan ikinci bir torpaq sahəsinə sahib olsa, amma xüms ili ərzində bu torpaq sahəsində ev tikməyə imkanı olmasa, yaxud evi bir il ərzində tikib tamamlaya bilməsə, bu torpaq sahəsinin xümsünü vermək o şəxsə vacibdirmi?

**Cavab: Yaşayış evi tikmək üçün ehtiyac duyulan torpaq sahəsinə xümsün vacib olmaması məsələsində şəxsin bir və ya iki torpaq sahəsinə sahib olması, yaxud bir və ya iki evə sahib olmasının fərqi yoxdur. Bu məsələdə meyar, şəxsin ürfi şəni baxımından o torpaq sahəsinə ehtiyacının olması, həmçinin maddi imkan baxımından onu tədricən tikə bilməsidir.**

**Sual 904:** Qab-qacaq dəstinin bəzi parçalarından istifadə etmək ona xümsün düşməməsi üçün kifayət edirmi?

**Cavab: Əgər şəxsin bu əşyalara ehtiyacı varsa və bu ehtiyac ürfə görə onun şəninə uyğundursa, hətta il ərzində bu əşyalardan istifadə etməsə belə, onlara xüms düşmür.**

**Sual 905:** Əgər xalça və qab-qacaqdan il ərzində istifadə olunmasa, amma qonaqları qarşılamaq üçün onlara ehtiyac varsa, onlara xüms vacib olurmu?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, onlara xüms vacib olmur.**

**Sual 906:** İzdivac edəndə qızın ər evinə apardığı gəlinlik cehizi barədə İmam Xomeyninin (r.ə) fətvasını nəzərə alaraq, əgər hansısa bir məntəqədə adət-ənənəyə görə bəy evi ev əşyalarını təmin edirsə və bu əşyaları tədricən alıb yığırlarsa, belə ki, əşyaların alınmasından il keçir, bu əşyaların hökmü nədir?

**Cavab: Əgər gələcək üçün ev əşyalarını hazırlamaq ürfdə məişət ehtiyaclarından hesab olunursa, onların xümsü yoxdur.**

**Sual 907:** Çoxcildli kitabın bir cildindən istifadə etmək bütün cildlərdən xümsün götürülməsinə səbəb olurmu? Yoxsa kitabın hər cildindən bir səhifə oxunmalıdır?

**Cavab: Əgər kitabın bütün cildlərinə ehtiyac varsa və ya ehtiyac duyulan cildi almaq kitabın bütün cildlərini almağa bağlıdırsa, onların xümsü yoxdur. Bundan qeyri halda, hazırda ehtiyac duyulmayan cildlərin xümsü verilməlidir. Kitabın hər cildindən bir səhifə oxumaq xümsün götürülməsi üçün kifayət etmir.**

**Sual 908:** İl əsnasındakı gəlirdən alınan və sığorta şirkəti tərəfindən pulu ödənilən dərmanlar əgər xarab olmadan xüms ilinin əvvəlinə qədər qalsa, ona xüms düşürmü, yoxsa düşmür?

**Cavab: Əgər dərmanlar, ehtiyac olanda onlardan istifadə etmək üçün alınıbsa və onlara ehtiyac da olursa, xümsü yoxdur.**

**Sual 909:** Bir şəxsin evi yoxdur və o, ev almaq və ya məişət ehtiyaclarını almaq üçün ehtiyatda pul yığmışdır. Bu pula xüms düşürmü?

**Cavab: İş gəlirindən ehtiyatda yığılan pul əgər məişət xərclərini təmin etməkdən ötrü olarsa, xüms ilinin əvvəlində xümsü vardır. Amma əgər bu pul zəruri məişət əşyalarını almaq və ya lazımlı xərcləri təmin etmək üçün yığılıbsa, bu təqdirdə əgər xüms ilindən sonra yaxın gələcəkdə (bir neçə gün ərzində) sözügedən məqsədlərə sərf edilərsə, xümsü yoxdur.**

**Sual 910:** Mənim həyat yoldaşım xalça toxuyur. Bu işin sərmayəsi özümüzünküdür və biz bu sərmayəni borc almışıq. Hal-hazırda xalçanın bir hissəsi toxunulubdur. Nəzərə alsaq ki, mənim xüms ilim artıq başa çatmışdır, görəsən, xalça toxunulub qurtardıqdan və evin ehtiyaclarını təmin etmək üçün satıldıqdan sonra həmin toxunmuş hissəyə xüms düşəcəkmi, yoxsa düşməyəcək? Bizim sərmayəmizin xüms baxımından hökmü nədir?

**Cavab: Borc olan sərmayəni xalçanın satış pulundan çıxdıqdan sonra qalan məbləğ, satış ilinin gəliri hesab olunur. Beləliklə, bu məbləğ əgər xalça toxunulub qurtardığı və satıldığı ildə məişət xərclərinə sərf edilərsə, xümsü yoxdur.**

**Sual 911:** Mənim əmlakım üçmərtəbəli bir evdən ibarətdir. Bu evin hər mərtəbəsində iki otaq vardır. Bir mərtəbədə mən və iki mərtəbədə övladlarım yaşayır. Mən həyatda ikən bu evə xüms düşürmü? Yoxsa mən vəfat edəndən sonra ona xüms düşür və əgər belədirsə, varislərimə vəsiyyət edim ki, mən öləndən sonra onun xümsünü versinlər?

**Cavab: Sualda sözükeçən evin xümsü yoxdur. Əlbəttə, əgər bir şəxs ilin hesabını heç vaxt aparmayıbsa, müəyyən bir şəkildə müsalihə etməlidir.**

**Sual 912:** Evdə olan əşyaların xümsü necə hesablanır?

**Cavab: İstifadə ediləndə aradan getməyən əşyaların, məsələn, xalça və bu kimi əşyaların xümsü yoxdur. Amma gündəlik istifadəsinə ehtiyac olan şeylərin, məsələn, düyü, yağ və bu kimi şeylərin xüms ilinin əvvəlinə qədər artıq qalan miqdarına xüms düşür.**

**Sual 913:** Bir şəxsin yaşayış üçün şəxsi evi yoxdur. Ona görə də torpaq sahəsi almışdır ki, orada özünə bir ev tiksin. Amma ev tikmək üçün kifayət qədər pulu olmadığına görə il keçmiş, həmin torpaq sahəsini də satmamışdır. Bu torpaq sahəsinə xüms vacibdirmi? Vacib olduğu təqdirdə, alış qiymətinin xümsünü verməlidir, yoxsa torpaq sahəsinin indiki qiymətinin xümsünü verməlidir?

**Cavab: Əgər bu torpaq sahəsini ehtiyacı olan evi tikməkdən ötrü ilin iş gəlirindən alıbdırsa, xümsü yoxdur.**

**Sual 914:** **Əvvəlki sualı nəzərə alaraq, əgər bu şəxs evi tikməyə başlasa, amma evi tikib qurtarmamış xüms ili çatsa, tikinti materiallarına xərclədiyi pulun xümsünü verməlidirmi?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, ona xüms düşmür.**

**Sual 915:** **Əgər bir şəxs öz övladlarının gələcəyini düşünərək, birinci mərtəbəsində yaşadığı evin ikinci mərtəbəsini tiksə, amma hələlik ona bir neçə il ehtiyacı olmasa, onun tikintisinə çəkdiyi xərcin xümsünü verməlidirmi?**

**Cavab: Əgər övladlarının gələcəyi üçün evin ikinci mərtəbəsini tikmək hal-hazırda onun ürfi şəninə uyğun olan xərclərdən hesab olunarsa, onun tikintisinə çəkdiyi xərcin xümsü yoxdur. Belə olmadığı halda isə, onun xümsünü verməlidir.**

**Sual 916:** **Siz qeyd etmisiniz ki, ilin xərclərindən hesab olunan şeyin xümsü yoxdur. Bir şəxsin yaşayış evi yoxdur, amma onun torpaq sahəsi vardır ki, üstündən bir və ya bir neçə il keçmişdir və bu şəxsin orada ev tikməyə imkanı çatmır. Bəs nə üçün bu torpaq sahəsi onun xərclərindən hesab olunmur? Xahiş edirəm, izah edəsiniz.**

**Cavab: Əgər bu şəxs torpaq sahəsini ehtiyacı olan evi tikməkdən ötrü il əsnasındakı gəlirindən alıbdırsa, onun indiki xərclərindən hesab olunur və bu torpaq sahəsinin xümsü vacib deyildir.**

**Sual 917:** **Mənim xüms ilimin əvvəli şəhrivər ayının biridir. Adətən, universitet və orta məktəblərdə imtahanlar ordibehişt və xordad aylarında təşkil olunur. Altı aydan sonra imtahan günlərində bizim əlavə iş saatlarının pulu ödənilir. Xahiş edirəm, izah edəsiniz ki, xüms ili tamamlanmamışdan qabaq gördüyüm işin əmək haqqını xüms ili tamamlanandan sonra alsam, bu pula xüms düşürmü?**

**Cavab: Gecikdirilmiş əmək haqqı, əlavə iş saatlarını işlədiyi ilin deyil, əmək haqqını aldığı ilin gəlirindən hesab olunur. Əgər həmin ilin xərclərinə sərf edilərsə, xümsü yoxdur.**

**Sual 918:** **Bəzən məişət əşyaları, məsələn, soyuducu bazar qiymətindən aşağı qiymətə bizə satılır. Bu əşyalara gələcəkdə, yəni izdivac etdikdən sonra ehtiyacımız olacaqdır. İzdivac etdikdən sonra bu əşyaları inidiki qiymətindən bir neçə dəfə baha qiymətə almalı olacağımızı nəzərə alaraq, hal-hazırda evdə istifadəsiz qalan bu əşyalara xüms düşürmü?**

**Cavab: Əgər bu əşyaları ilin iş gəlirindən gələcəkdə istifadə etmək üçün almısınızsa və aldığınız il onlara ehtiyacınız olmayıbsa, onların ədalətli qiymətinin (nə çox ucuz, nə çox baha olmamaq şərtilə) xümsünü verməlisiniz. Amma əgər ehtiyacınız olduğu zaman onları birdəfəyə almaq imkanınız olmadığına görə tədricən alıb, ehtiyac olan zaman üçün saxlamaq məcburiyyətindəsinizsə, habelə, onların miqdarı sizin ürfi şəninizə uyğundursa, bu təqdirdə sizin məişət ehtiyaclarınızdan sayılır və xümsü yoxdur.**

**Sual 919:** **Xeyriyyə işlərinə, məsələn, məktəblərə, seldən zərərçəkmişlərə, fələstin millətinə kömək olaraq insanın sərf etdiyi pul ilin məişət ehtiyaclarından sayılırmı və xümsü yoxdurmu?**

**Cavab: Xeyriyyə işlərinə insanın sərf etdiyi pul həmin ilin xərclərindən hesab olunur və xümsü yoxdur.**

**Sual 920:** **Keçən il xalça almaq üçün pul yığmışdım. İlin axırında bir neçə xalça mağazasına baxdım və nəhayət, bu mağazalardan biri mənim zövqümə uyğun olan xalçanı gətizdirməyi öhdəsinə götürdü. Yeni ilin ikinci ayı xalçanı gətirdilər. Nəzərə alsaq ki, mənim xüms ilimin əvvəli hicri-şəmsi ilinin əvvəlidir, bu pula xüms düşürmü?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, bu pula və xalçaya xüms dümür.**

**Sual 921:** **Bir neçə şəxs birlikdə xüsusi orta məkəb açmışlar. Əllərində olan kiçik sərmayəni istifadə etdikdən sonra bankdan pul krediti götürməyi qərara almışlar. Həmçinin lazım olan sərmayənin yığılması və bank kreditlərinin ödənilməsi üçün hər bir üzvün ayda müəyyən məbləği ödəməsini qərara almışlar. Bu müəssisə hələ gəlir gətirmə mərhələsinə çatmamışdır. Hər bir üzvün aylıq ödədiyi məbləğə xüms düşürmü? Sərmayənin məcmusunun – belə ki, bu, müəssisənin qiymətidir – xümsü vardırmı?**

**Cavab: Hər bir üzvə vacibdir ki, müəssisənin sərmayəsi ünvanında ödədiyi aylıq məbləğin xümsünü, həmçinin məktəbin açılması üçün əvvəldə qoyduğu sərmayənin xümsünü versin. Hər bir üzv müəssisənin sərmayəsindən öz hissəsinin xümsünü verdikdən sonra daha sərmayənin məcmusunun xümsü yoxdur.**

**Sual 922:** **İş yerimdən bir neçə ildir mənə müəyyən məbləğ pul borcludurlar və indiyədək onu ödəməmişlər. Mən bu pulu alan kimi ona xüms düşəcəkmi, yoxsa üstündən bir il keçməlidir?**

**Cavab: Əgər almalı olduğunuz pul sizin əmək haqqınızdırsa və xüms ilinin əvvəlində onu almağınız mümkün deyilsə, onu aldığınız zaman həmin ilin gəlirindən hesab olunacaqdır. Əgər həmin il məişət ehtiyaclarına sərf edilərsə, xümsü yoxdur.**

**Sual 923:** **Məişət ehtiyaclarına xümsün vacib olmamasında meyar, il ərzində onlardan istifadə edilməsidir, yoxsa il ərzində onlara ehtiyacın olması kifayət edir, baxmayaraq ki, onlardan istifadə edilməmişdir?**

**Cavab: İstifadə ediləndə aradan getməyən əşyalarda (məsələn, xalça və s.) meyar, onlara ehtiyacın olmasıdır. Amma gündəlik istifadəsinə ehtiyac olan şeylərdə (məsələn, düyü, yağ və s.) meyar, onlardan istifadə edilməsidir. Beləliklə, onların illik istifadədən artıq qalan miqdarına xüms düşür.**

**Sual 924:** **Bir şəxs ailəsinin ehtiyaclarını aradan qaldırmaq və onların rifahı üçün xümsü verilməmiş və il əsnasında əldə etdiyi gəlirdən bir maşın almışdır. Onun xümsünü vermək vacibdirmi? Əgər maşını işi ilə əlaqədar alıbsa, yaxud hər iki məqsədə görə (yəni həm ailəsinin rifahı, həm də işi ilə əlaqədar) alıbsa, hökmü nədir?**

**Cavab: Əgər maşını işi ilə əlaqədar alıbsa, iş aləti hökmündədir və xümsü vardır. Amma əgər məişət ehtiyaclarını aradan qaldırmaq üçün alıbsa və maşın onun ürfi şəninə uyğun olan ehtiyaclardandırsa, xümsü yoxdur. Əlbəttə, əgər onun puluna xüms düşürdüsə, xümsünü verməldir. Amma əgər hər iki məqsədə görə alıbsa, xümsü nisbətə görə hesablamalıdır.**

## Xümsün alınıb-qaytarılması[1], müsalihə, xümsün qeyri-xüms ilə qarışması

**Sual 925:** Bəzi şəxslərə xüms vacib olsa da, onlar indiyədək xüms verməmişlər. Hal-hazırda isə xüms verməyə imkanları yoxdur və ya xüms vermək onlar üçün olduqca çətindir. Bu halda onların hökmü nədir?

**Cavab: Maddi imkanın olmaması və ya xüms verməyin çətin olması mükəlləfin boynundan bu şəri vəzifənin götürülməsinə səbəb olmur, əksinə, mümkün olduğu qədər bu şəri vəzifə yerinə yetirilməlidir. Belə şəxslər xüms işlərini idarə edən şəxsdən və ya onun vəkilindən (nümayəndəsi) möhlət alaraq, məbləğ və zaman baxımından imkanları çatdığı qədər xümsü tədricən ödəyə bilərlər.**

**Sual 926:** Mənim bir evim vardır ki, borc edib onu almışam və borcun kreditlərini ödəyirəm. Həmçinin bir ticarət obyektim vardır ki, orada ticarətlə məşğulam. Şəri vəzifəmə əməl etmək üçün özümə xüms ili təyin etmişəm. Xahiş edirəm ki, lütfkarlıq edib məni evin xümsü verməkdən azad edəsiniz. Amma ticarət obyektinin xümsünü kredit şəklində verməyə imkanım çatır.

**Cavab: Yaşadığınız ev, sualda deyilənlərə əsasən, nisyə alındığına görə xümsü yoxdur. Amma ticarət obyektinin xümsünü vermək vacibdir. Amma əgər onun xümsünü verdikdə qalan məbləğ ilə işləmək sizin məişət xərclərinizə kifayət etməyəcəksə, yaxud qalan məbləğ ilə işləmək sizin ürfi şəninizə uyğun deyilsə, xümsü yoxdur.**

**Sual 927:** Xarici ölkədə yaşayan bir şəxs əmlakının xümsünü verməmişdir. O, xümsü verilməmiş pul ilə bir ev almışdır və hal-hazırda onun xümsünü vermək üçün kifayət qədər pulu yoxdur. Amma hər il həmin ilin xümsündən əlavə, bir qədər artıq məbləği borclu qaldığı xümsə görə verir. Onun bu işi düzgündürmü, yoxsa yox?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, bu şəxs boynunda olan xüms borcunu hesablamalı və xüms işlərini idarə edən şəxsdən və ya onun vəkilindən möhlət almalı, sonra onu tədricən verməlidir. İndiyədək ödədiyi məbləğə görə isə, bizim vəkillərdən (nümayəndə) birinə müraciət etsin.**

**Sual 928:** Bir şəxs neçə ildir ki, illik gəlirinin xümsünü verməmişdir. İndi buna görə nə qədər borcu olduğunu bilmir. O, hal-hazırda boynundakı xüms borcundan necə çıxa bilər?

**Cavab: Xüms düşən bütün əmlakı hesablamalı və onun xümsünü verməlidir. Xümsün düşüb-düşmədiyinə tərəddüd etdiyi əmlak barəsində isə xüms işlərini idarə edən şəxs və ya onun vəkili ilə müsalihə etməlidir.**

**Sual 929:** Mən ailəmlə yaşayan bir gəncəm. Atam xümsünü və zəkatını vermir. Hətta evi riba pulu ilə tikmişdir. Evdə yediyim yeməyin haram olması aydın məsələdir. Mən hələ ailəmdən ayrıla və ayrı yaşaya bilmirəm. Xahiş edirəm, bu barədə mənim vəzifəmi açıqlayasınız.

**Cavab: Atanızın malının ribaya qarışdığına və ya atanızın xüms-zəkat vermədiyinə yəqinliyinizin olması, onun istifadə etdiyi şeyin və ya onun malından sizin istifadə etdiyiniz şeyin haram olduğuna yəqinliyin olması anlamına gəlmir. Bu malın haram olduğuna yəqinliyiniz olmayanadək, ondan istifadə etməyinizin maneəsi yoxdur. Əlbəttə, əgər atanızın malından istifadə etdiyiniz şeyin haram olduğuna yəqinliyiniz olsa, ondan istifadə etməyinizə icazə verilmir. Amma əgər ailədən ayrılmağın və onlarla əlaqəni kəsməyin sizə**

**böyük çətinliyi olarsa, bu təqdirdə onların harama qarışmış malından istifadə etməyinizin maneəsi yoxdur. Amma istifadə etdiyiniz şeydə mövcud olan "özgə malı"na zaminsiniz.**

**Sual 930:** **Mən əminəm ki, atam xümsünü və zəkatını vermir. Bunu ona xatırladanda deyir ki, bizə xüms və zəkat verilməlidir, xüms və zəkat bizə vacib deyildir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər atanızın xüms və zəkat düşən bir malı yoxdursa, ona xüms və zəkat vermək, sizə də bu barədə araşdırma aparmaq vacib deyildir.**

**Sual 931:** **Biz xüms verməyən və ilin hesabını aparmayan insanlarla ünsiyyətdə oluruq: onlarla alış-veriş edirik, onların görüşünə gedirik, onlarla bir süfrədə yemək yeyirik. Bu məsələnin hökmü nədir?**

**Cavab: Onların malından istifadə etməyinizin maneəsi yoxdur.**

**Sual 932:** **Əgər bir şəxs xümsü verilməmiş bir malı məscidə bağışlasa, bu malı ondan almağa icazə verilirmi?**

**Cavab: Onu almağın maneəsi yoxdur.**

**Sual 933:** **Dini məsələlərə, xüsusilə, namaza və xümsə əhəmiyyət verməyən müsəlmanlarla əlaqə qurmağın hökmü nədir? Onların evində yemək yeməyin maneəsi varmı? Maneəsi olduğu təqdirdə, bu işi bir neçə dəfə edən şəxsin hökmü nədir?**

**Cavab: Əgər onlarla əlaqə qurmaq onların dini məsələlərə əhəmiyyət verməmələrini dəstəkləməzsə, maneəsi yoxdur. Amma əgər onlarla əlaqəni kəsmək onların dini məsələlərə əhəmiyyət verməlorində təsirli olarsa, bu təqdirdə "pis işlərdən çəkindirmək" məqsədilə müvəqqəti olaraq onlarla əlaqəni kəsmək vacibdir. Amma onların malından (məsələn, yemək və bu kimi şeylərdən) istifadə etməyin maneəsi yoxdur.**

**Sual 934:** **Dostlarımdan biri məni tez-tez yeməyə dəvət edir. Təzəlikcə bilmişəm ki, onun əri xüms vermir. Xüms verməyən bir şəxsin yeməyini yeyə bilərəmmi?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 935:** **Bir şəxs ilk dəfə olaraq öz əmlakının xümsünü vermək istəyir. Əgər o, yaşadığı evi hansı pul ilə aldığını xatırlamırsa, hökmü nədir? Əgər bu evi bir neçə il yığdığı pul ilə aldığını bilərsə, hökmü nədir?**

**Cavab: Əgər o, yaşadığı evi və ya digər məişət əşyalarını şəriətə görə xüms düşməyən pul ilə (məsələn, irs və ya hədiyyə ilə) aldığını ehtimal edirsə, bu əşyaların xümsü baxımından ona heç bir şey vacib olmur. Yox əgər onları öz iş gəliri ilə aldığını yəqin bilirsə, amma iş gəlirini il əsnasında, yoxsa il tamamlanandan sonra və gəlirin xümsünü verməmişdən qabaq bunları almağa sərf etdiyini bilmirsə, ehtiyata görə, bizim nümayəndələrdən biri ilə müsalihə etməlidir. Əgər yaşadığı evi iş gəlirindən bir neçə il ərzində yığdığı, amma xümsünü vermədiyi pul ilə aldığını yəqin bilirsə, yığdığı bu pulun xümsünü verməlidir. Pulun dəyərdən düşməsini də (inflyasiya miqdarını) hesablamalıdır.**

**Sual 936:** **Bir alim şəhərlərin birində müəyyən məbləğ pulu xüms ünvanında almışdır. Amma bu pulun özünü sizə və ya sizin idarənizə çatdırmaq onun üçün çətindir. Bu pulu bank vasitəsilə sizə təhvil verə bilərmi? Amma nəzərə almaq lazımdır ki, bankdan təhvil alınan pul, həmin şəhərdə banka verilən pulun özü deyildir.**

**Cavab: Xüms və başqa şəri əmlak vergilərini bank vasitəsilə təhvil verməyin maneəsi yoxdur.**

**Sual 937:** **Əgər torpaq sahəsini xümsü verilməmiş pul ilə alsam, həmin yerdə namaz qılmaq olar, yoxsa yox?**

**Cavab: Orada namaz qılmağın maneəsi yoxdur.**

**Sual 938:** **Əgər alıcı aldığı mala xüms düşdüyünü, amma satıcının onun xümsünü vermədiyini bilsə, həmin maldan istifadə edə bilərmi?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 939:** **Əgər mağaza sahibi onunla alış-veriş edən bir müştərinin öz malının xümsünü verib-vermədiyini bilməsə, müştərinin verdiyi pulun xümsünü vermək ona vacibdirmi?**

**Cavab: Mağaza sahibinin öhdəsinə heç nə düşmür və araşdırma aparmaq baxımdan da üzərinə vəzifə gəlmir.**

**Sual 940:** **Əgər dörd nəfər şərikli olaraq yüz min tüməni bir istehsal işinə sərmayə qoysalar və onlardan biri xüms verməsə, onunla şərik olmaq düzgündürmü, yoxsa yox? Digər şəriklər xüms verməyən şəxsin pulunu qərzul-həsənə ünvanında ondan alıb işlədə bilərmi? Ümumiyyətlə, əgər bir neçə nəfər şərik olsalar, onlardan hər biri müstəqil şəkildə öz gəlirinin xümsünü verməlidir, yoxsa xüms müştərək büdcədən verilməlidir?**

**Cavab: Sərmayəsinə xüms düşən, amma onu verməyən şəxs ilə şərik olmağın öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 941:** **Əgər mənim şəriklərimin xüms ili hesabatları yoxdursa, mənim vəzifəm nədir?**

**Cavab: Hər bir şərik öz payının şəri əmlak vergisini ödəməlidir. Əgər digər şəriklər onu ödəmirsə, onlarla şərikliyi davam etdirməyinizə icazə verilir.**

[1] Bəzən xüms verən şəxsin imkansızlığı nəzərə alınır və xüms işlərini idarə edən şəxs və ya onun vəkili xümsü alıb, borc ünvanında yenidən onun özünə qaytarır və ya ona bağışlayır. Buna “xümsün alınıb-qaytarılması” (dəstgərdan) deyilir.

## Sərmayə

**Sual 942:** **Neçə illərdir ki, "təhsil işçilərinin kooperativləşdirilmiş şirkəti" adlı bir şirkət yaradılıbdır. Şirkətin sərmayəsi ilk əvvəldə bir neçə təhsil işçisinin hissəsindən ibarət idi ki, onların hər biri yüz tümən ödəmişdi. Əvvəldə şirkətin sərmayəsi az idi, amma hal-hazırda üzvlərin sayının artması ilə sərmayə on səkkiz milyon tümənə yaxındır, üstəlik, şirkətin bir neçə maşını vardır. Sərmayənin gəliri səhmdarlar arasında onların hissəsi nisbətində bölünür və onların hər biri öz hissəsini rahatlıqla götürüb şirkətlə hesablaşa bilər. İndiyədək sərmayənin və onun gəlirinin xümsü verilməyibdir. Mən şirkətin idarə heyətinin rəisi olaraq şirkətin hesabına düşən xümsü verə bilərəmmi? Bu xüsusda səhmdarların razılığı şərtdirmi?**

**Cavab: Şirkətin sərmayəsi və bu sərmayədən əldə edilən gəlirin xümsünü ödəmək, şirkətin ümumi əmlakından öz hissəsi nisbətində hər bir üzvün vəzifəsidir. Şirkətin idarə heyətinin rəisinin bu işi yerinə yetirməsi, şirkətin səhmdarlarından icazə almağa və onlar tərəfindən vəkil olmağa dayanır.**

**Sual 943:** **Bir neçə nəfər öz aralarında qərzul-həsənə büdcəsi yaratmağı qərara alıblar, belə ki, ehtiyac yarandığı zaman bir-birilərinə borc verə bilsinlər. Hər bir üzv büdcə təşkil edildiyi zaman ödədiyi ilkin məbləğdən əlavə, büdcənin hesabının artması üçün hər ay müəyyən məbləğ pul ödəməlidir. Xahiş edirəm, hər bir üzvün öz xümsünü necə verəcəyini açıqlayasınız. Büdcənin sərmayəsi borc ünvanında daim üzvlərin əlində olduğu təqdirdə, onun xümsü necə veriləcək?**

**Cavab: Əgər büdcənin üzvləri öz paylarına düşən məbləği xüms ili tamamlanan, amma xümsü verilməyən iş gəlirindən veriblərsə, hər kəs öz pulunun xümsünü verməlidir. Amma əgər bu məbləği xüms ili ərzində veriblərsə, xüms ilinin axırında onu geri götürmək mümkün olduğu təqdirdə, ilin axırında onun xümsünü verməlidirlər. Əks halda, pulu büdcədən götürməyənədək xümsü vermək onlara vacib deyildir. Amma pulu götürmək mümkün olduğu zaman onun xümsünü dərhal verməlidirlər.**

**Sual 944:** **Qərzul-həsənə büdcəsi "müstəqil hüquqi şəxs"dirmi? Əgər beladirsə, əldə edilən gəlirə xüms düşürmü? Əgər müstəqil hüquqi şəxs deyildirsə, onun xümsü hansı qaydada verilməlidir?**

**Cavab: Əgər büdcənin sərmayəsi şərikli şəkildə onun üzvlərinin şəxsi əmlakı olarsa, ondan əldə edilən gəlir hər bir üzvün payı nisbətində hər üzvün şəxsi əmlakı olacaqdır və ilin məişət ehtiyaclarından artıq qalanının xümsünü verməlidir. Amma əgər büdcənin sərmayəsi şəxs və ya şəxslərin əmlakı olmazsa, məsələn, ümumi vəqf əmlakı və bu kimi bir əmlak olarsa, ondan əldə edilən gəlirin xümsü yoxdur.**

**Sual 945:** **On iki nəfər mömin belə razılığa gəliblər ki, bir büdcə yaratsınlar və onların hər biri hər ay, məsələn, iyirmi manat pulu bu büdcəyə qoysun, sonra isə hər ayda onların biri bu pulu götürüb öz şəxsi ehtiyaclarına sərf etsin. Beləliklə, on iki aydan sonra növbə axırıncı nəfərə çatacaq. Yəni o, bu müddət ərzində verdiyi məbləği – belə ki, bu məbləğ iki yüz qırx manat edir – götürəcəkdir. Bu pulun xümsünü vermək ona vacibdirmi, yoxsa bu pul onun məişət ehtiyaclarından sayılır? Əgər bu şəxsin müəyyən xüms günü vardırsa və götürdüyü pulun bir hissəsi xüms ili tamamlandıqdan sonra onun əlində qalarsa, pulun bu hissəsinin xümsünü verməkdən azad olmaq üçün başqa bir tarixi xüms günü olaraq qəbul edə bilərmi?**

**Cavab: Üzvün büdcədən aldığı pul 3 hissəyə bölünə bilər:**
**1- Ötən xüms ilinin gəlirindən verdiyi məbləğ;**
**2- Hazırkı xüms ilinin gəlirindən verdiyi məbləğ;**
**3- Qarşıda gələn xüms ilində əvəzini ödəyəcəyi məbləğ.**
**Birinci hissəyə aid olan pulun xümsü pul alındığı zaman dərhal verilməlidir.**

**İkinci hissəyə aid olan pul xüms ili başa çatmamış məişət ehtiyaclarına sərf edildiyi təqdirdə, ona xüms düşmür. Amma əgər bu pul xüms ilinin sonunadək məişət ehtiyaclarına sərf edilməzsə, onun xümsü verilməlidir və bu pul üçün ayrıca xüms günü təyin edə bilməz. Üçüncü hissəyə aid olan pul isə borc sayılır və hazırda ona xüms düşmür.**

**Sual 946:** **Mən müəyyən məbləğ pulu girov ünvanında verib bir ev icarəyə götürmüşəm. Bir il keçdikdən sonra bu pula xüms düşürmü?**

**Cavab: İcarə verən şəxsə borc verdiyiniz pul əgər ilin gəlirindən olarsa, xümsü vardır.**

**Sual 947:** **Abadlıq işləri aparmaq üçün böyük məbləğə ehtiyac vardır və bu məbləği birdəfəyə vermək bizə çətindir. Ona görə də abadlıq işləri üçün bir büdcə yaratmışıq və hər ay müəyyən məbləğ pulu ora əmanət qoyuruq. Bir qədər pul yığıldıqdan sonra onu abadlıq işlərinə sərf edirik. Yığılan bu pula xüms düşürmü?**

**Cavab: Əgər hər bir şəxsin verdiyi pul onun illik gəlirindən olarsa və abadlıq işlərinə sərf edilənədək onun mülkiyyətində qalarsa, onun xümsünü verməlidir.**

**Sual 948:** **Mən bir neçə il əvvəl əmlakımı hesabladım və özümə xüms günü təyin etdim. Həmin vaxt doxsan səkkiz baş qoyunum var idi ki, onların xümsü verildi, həmçinin müəyyən məbləğ nağd pulum və bir motorsikletim var idi. Bir neçə ildir ki, qoyunlar tədricən satıldığına görə onların sayı azalıbdır, amma nağd pulum çoxalıbdır. Hal-hazırda altmış baş qoyunum və müəyyən məbləğ nağd pulum vardır. Bu pulun xümsünü vermək mənə vacibdirmi, yoxsa yalnız artan məbləğin xümsünü verməliyəm?**

**Cavab: Əgər mövcud qoyunların dəyəri ilə əlinizdə olan nağd pulun cəmi, doxsan səkkiz qoyunun dəyəri ilə o vaxt xümsünü verdiyiniz pulun cəmindən çoxdursa (əlbəttə, inflyasiya da nəzərə alınmalıdır), artan məbləğə xüms düşür.**

**Sual 949:** **Bir şəxsin bir mülkü (evi və ya torpaq sahəsi) vardır və ona xüms düşür. Onun xümsünü ilin gəlirindən verə bilərmi? Yoxsa əvvəlcə gəlirin xümsünü verməli, sonra xümsü verilmiş gəlirdən mülkün xümsünü verməlidir?**

**Cavab: Əgər mülkün xümsünü ilin gəlirindən vermək istəsə, ilk öncə mülkün xümsü ünvanında vermək istədiyi pulun xümsünü verməlidir.**

**Sual 950:** **Şəhid Fondunun hər ay əziz şəhidlərin azyaşlı övladlarına verdiyi vəsaitdən, yaxud bəzi şəhidlərin mülkü olan istehsal müəssisəsinin və ya əkin sahəsinin gəlirindən – belə ki, bu gəlir ilə onlar öz məişət xərclərini təmin edirdilər – şəhidlərin övladları üçün ehtiyatda yığmışıq. Bəzən ehtiyatda yığılan pulun müəyyən hissəsi şəhid övladlarının zəruri ehtiyaclarını təmin etmək üçün sərf olunur. Xahiş edirəm, açıqlayasınız ki, sözügedən gəlirdən və ya Şəhid Fondunun verdiyi aylıq müavinətdən ehtiyatda yığılan pulun xümsü vardırmı, yoxsa bu uşaqlar böyüyənə qədər onun xümsü yoxdur?**

**Cavab: Əziz şəhidlərin övladlarına atalarından irs qalan əmlakın və ya Şəhid Fondunun onlara verdiyi müavinətin xümsü yoxdur. Amma irsdən və ya Şəhid Fondunun verdiyi müavinətdən əldə edilən gəlirə gəlincə, əgər şəhid övladları şəri büluğa çatdıqları zaman sözügedən gəlirdən onların mülkiyyətində qalarsa, ehtiyata görə, onların hər biri şəri vəzifə yaşına çatdıqdan sonra onun xümsünü verməlidirlər.**

**Sual 951:** **Gəlir əldə etmək və ticarətlə bağlı işləri yerinə yetirmək üçün sərf edilən vəsaitə xüms düşürmü, yoxsa yox?**

**Cavab: Gəlir əldə etmək üçün ilin gəlirindən ticarətlə bağlı işlərə və ya qeyri işlərə - məsələn, anbar, yükləmə, yük daşıma və yüklərin çəkilməsi xərclərinə, ticarət vasitəçələrinə və bu kimi işlərə - sərf edilən vəsait həmin ilin gəlirindən çıxılır və xümsü yoxdur.**

**Sual 952:** Sərmayənin özünün və onun gəlirinin xümsü varmı?

**Cavab: Əgər sərmayədar sərmayənin xümsünü verərsə, qalan məbləğ ilə işləməkdən əldə edilən gəlir onun məişət xərclərinə kifayət etməyəcəksə, yaxud qalan məbləğ ilə işləmək onun ürfi şəninizə uyğun deyilsə, xümsü yoxdur.**

**Sual 953:** Əgər bir şəxsin sikkə qızılı olsa və bu qızıl nisab həddinə çatmış olsa, onun zəkatını verməkdən əlavə, xümsünü də vermək vacibdirmi?

**Cavab: Əgər iş gəlirindən hesab olunarsa, digər iş gəlirləri hökmündədir və xümsü vacibdir.**

**Sual 954:** Mən və həyat yoldaşım təhsil nazirliyi işçiləriyik. Həyat yoldaşım öz maaşını həmişə mənə bağışlayır. Mən "Təhsil işçilərinin əkinçilik şirkəti"nə müəyyən məbləğ pul ödəyib şirkətin hissələrinə şərik olmuşam. Amma bu məbləğin öz maaşımdan, yoxsa həyat yoldaşımın maaşından olduğunu bilmirəm. Nəzərə alsaq ki, mənim xüms ilimin axırında həyat yoldaşımın aylıq maaşından ehtiyatda yığılan pul onun il ərzində aldığı puldan azdır, bu halda sözügedən məbləğə xüms düşürmü?

**Cavab: Öz maaşınızdan ehtiyatda yığılan pula, həmçinin şirkətin hissələrini almaq üçün öz maaşınızdan ödədiyiniz pula xüms düşür. Həyat yoldaşınızın bağışladığı pula gəlincə isə, əgər hədiyyə formal deyildirsə və sizin şəniniz həddindədirsə, bu pula xüms düşmür. Öz maaşınızdan, yoxsa həyat yoldaşınızın maaşından olduğuna şəkk etdiyiniz pulun xümsünü vermək isə vacib deyildir, baxmayaraq ki, onun xümsünü vermək və ya müsalihə etmək əhvətə müvafiqdir.**

**Sual 955:** İki il müddətinə banka qərzul-həsənə ünvanında qoyulan pula xüms düşürmü?

**Cavab: İş gəlirindən ehtiyatda yığılan pula bir dəfə xüms düşür və bu pulu banka qərzul-həsənə ünvanında qoymaq xümsün vacibliyini əngəlləmir. Bəli, əgər şəxs verdiyi borcu xüms ilinin əvvəlinə qədər borc alan şəxsdən geri ala bilməsə, onu geri almayanadək xümsünü ödəməsi vacib deyildir.**

**Sual 956:** Bir şəxs pul yığmaq üçün özünə və ya himayəsində olan ailəsinə az pul xərcləyir, yaxud məişət çətinliklərini həll etmək üçün pul borc alır. Əgər ehtiyatda yığdığı və ya borc aldığı pul xüms ilinin sonunda onun əlində qalsa, ona xüms düşürmü?

**Cavab: Əgər sonrakı ilin məişət ehtiyaclarına sərf etmək üçün bu ilin gəlirindən ehtiyatda pul yığarsa və bu pulu yeni xüms ilində yaxın bir neçə gün ərzində məişət ehtiyaclarına sərf etməyi nəzərdə tutarsa, bu pulun xümsünü vermək vacib deyildir. Borc alınan pulun xümsü isə, borc alan şəxsin öhdəsində deyildir. Amma əgər bu şəxs il ərzindəki gəlirindən borcun bir hissəsini qaytararsa və xüms ili çatanda borc aldığı pul onun əlində qalarsa, borcdan qaytardığı məbləğ miqdarında bu pulun xümsünü verməlidir.**

**Sual 957:** İki ildir ki, ev tikmək üçün torpaq sahəsi almışam. Hal-hazırda icarədə qalıram. Əgər bu torpaq sahəsində ev tikmək üçün gündəlik xərclərimdən azaldıb pul yığsam, ilin axırında həmin pula xüms düşürmü?

**Cavab: Əgər xüms ili başa çatmamış ilin gəliri ilə lazım olan tikinti materiallarını alsanız, yaxud ilin gəlirini xüms ili başa çatdıqdan sonra yaxın bir neçə gün ərzində evin tikintisinə sərf etmək üzrə olsanız, həmin pulun xümsü yoxdur.**

**Sual 958:** **Mən izdivac etməyi qərara almışam. Gəlir əldə etmək üçün öz sərmayəmin bir hissəsini universitetin hesabına yatırmışam. Bu pulun xümsü ilə bağlı müsalihə etmək mümkündürmü?**

**Cavab: Əgər həmin pul sizin iş gəlirinizdən olsa, xüms ili tamamlananda onun xümsünü vermək vacibdir və qəti xüms ilə bağlı müsalihə edilmir.**

**Sual 959:** **Keçən il Həcc və Ziyarət İdarəsi həcc karvanına ehtiyac olan əşyaları – belə ki, bunlar mənim şəxsi malım idi - məndən aldı. Mən satdığım əşyaların pulunu, yəni iki yüz on dörd min tüməni bu ilin yayında aldım. Bundan əlavə, keçən il səksən min tümən almışdım. Nəzərə alsaq ki, mənim xüms ilim vardır və hər il məişət ehtiyaclarından artıq qalan əmlakımın xümsünü verirəm, həmçinin nəzərə alsaq ki, sözügedən əşyalar həcc karvanına rəhbərlik etdiyim vaxtlarda hacıları idarə etməkdən ötrü mənə lazım idi, onları satanda aldığım qiymətindən bahalaşmışdı. Onların satışından əldə etdiyim pulun xümsünü və ya hal-hazırda onun qiymətində mövcud olan fərqin xümsünü vermək vacibdirmi?**

**Cavab: Əgər həmin əşyaları xümsü verilmiş pul ilə almışdınızsa, onun satışından əldə etdiyiniz pulun xümsü yoxdur. Əks təqdirdə, bu pulun xümsünü vermək vacibdir. Hər iki halda, alış və satış qiymətləri arasındakı fərq, inflyasiyanın miqdarını çıxdıqdan sonra satış ilinin gəlirindən hesab olunur.**

**Sual 960:** **Mənim mağazam vardır və hər il nağd pulumu və mallarımı hesablayıram. Bəzi mallar xüms ilinin axırına qədər satılmır. Elə isə, xüms ilinin əvvəlində satılmamış malların xümsünü vermək vacibdirmi? Yoxsa onların xümsü satıldıqdan sonra verilməlidir? Əgər malın xümsünü versəm və sonra onu satsam, gələn il hesabı necə aparmalıyam? Əgər malı satmasam və onun qiyməti dəyişsə, hökmü nədir?**

**Cavab: Xüms ilinin əvvəlinə qədər satılmayan və müştərisi olmayan malın hal-hazırda artan dəyərinin xümsünü vermək vacib deyildir. Gələcəkdə bu malın satışından əldə edilən gəlir, satış ilinin gəliri hesab olunacaqdır. Amma qiyməti bahalaşan və il ərzində müştərisi olan malı əgər siz daha çox gəlir əldə etməkdən ötrü ilin axırına kimi satmasanız, xüms ili çatanda artan dəyərin xümsünü verməlsiniz. Bu təqdirdə, xüms ilinin əvvəlində dəyərləndirilən və artan dəyərin xümsü verilən bu mal, gələn ilin gəlirindən çıxılacaqdır.**

**Sual 961:** **Üç qardaş üçmərtəbəli bir ev almışlar və evin bir mərtəbəsində yerləşib, iki mərtəbəsini icarəyə vermişlər. Evin icarəyə verilən iki mərtəbəsinə xüms düşürmü, yoxsa düşmür? Bu, onların məişət ehtiyaclarından sayılırmı?**

**Cavab: Əgər onlar bu evi yaşayış məqsədilə öz illik gəlirlərindən alıblarsa və hal-hazırda məişət ehtiyaclarına görə onu icarəyə veriblərsə, ona xüms düşmür. Amma əgər evin bəzi mərtəbələrini icarəyə vermək məqsədilə öz illik gəlirləri ilə alıblarsa və icarə pulunu da məişət ehtiyaclarına sərf etmək niyyətində olublarsa, evin həmin hissəsi sərmayə hökmündədir və xümsü vardır.**

**Sual 962:** **Bir şəxsin bir miqdar buğdası var imiş və onun xümsünü veribmiş. Yeni məhsulu yığdıqda xümsü verilmiş buğdanı istifadə etmiş və onun yerinə yeni buğdadan qoymuşdur. O, neçə illər belə etmişdir. Görəsən, istifadə etdiyi buğdanın yerinə qoyduğu buğdaya xüms düşürmü? Xüms düşdüyü təqdirdə, onun hamısının xümsü vardır?**

**Cavab: Suala əsasən, yeni buğda yığımı zamanı xümsü verilmiş buğda mövcud olduğuna görə, köhnə buğdanın yerinə yeni buğdanı qoya bilər.**

**Sual 963:** **Mən Allahın lütfü ilə hər il malımın xümsünü verirəm. Amma malımın xümsünü hesabladığım illərdə həmişə malın hesablanmasında şəkk etmişəm. Bu şəkkin hökmü nədir? Bu il nağd əmlakımın hamısını hesablamağım vacibdirmi, yoxsa bu məsələdə yaranan şəkkə etina olunmur?**

**Cavab: Əgər ötən illərin iş gəlirinin xümsünün düzgün hesablandığına şəkk edirsinizsə, bu şəkkə etina olunmur və xümsü yenidən verməyiniz vacib deyildir. Amma iş gəliri barəsində şəkk etsəniz – belə ki, bu gəlirin xümsünü verdiyiniz əvvəlki illərin iş gəlirindən, yoxsa xümsü verilməmiş bu ilin iş gəlirindən olduğuna şəkk etsəniz – ehtiyat ünvanında onun xümsünü verməyiniz vacibdir. Amma əgər onun xümsünü verdiyiniz dəqiqləşərsə, xümsü yoxdur.**

**Sual 964: Əgər xümsü verilmiş pul ilə, məsələn, yüz manata bir xalça alsam və bir müddətdən sonra onu yüz iyirmi manata satsam, xümsü verilmiş pula əlavə olunan iyirmi manat pul iş gəliri hesab olunurmu və ona xüms düşürmü?**

**Cavab: Alış qiymətindən artıq olan məbləğ (inflyasiya miqdarı çıxıldıqdan sonra) iş gəliri hesab olunur. Bu gəlirin ilin məişət ehtiyaclarından artıq qalan məbləğinə xüms düşür.**

**Sual 965: Hər bir gəliri üçün ayrıca xüms ili qərar verən şəxs, xüms ili çatan gəlirinin xümsünü hələ üstündən il keçməmiş gəlirlərindən verə bilərmi? Bu gəlirlərin ilin axırına kimi tam olaraq qalacağını və məişət ehtiyaclarına onlardan sərf olunmayacağını bildiyi təqdirdə hökm nədir?**

**Cavab: Bir işin gəlirinin xümsünü başqa bir işin gəlirindən vermək istədikdə, verəcəyi məbləğin də xümsünü verməlidir. Məişət xərclərinə heç sərf olunmayan gəlirlərə gəlincə, ya onları əldə edən kimi xümsünü verə bilər, ya da xüms ili çatana kimi gözləyə bilər.**

**Sual 966: Bir şəxsin ikimərtəbəli evi vardır. Özü yuxarı mərtəbədə yaşayır, aşağı mərtəbəni isə yaşamaq üçün başqasına veribdir. Borcları ilə əlaqədar olaraq ev sahibi olan şəxs evini verdiyi şəxsdən borc alıbdır və buna görə ondan icarə pulu almır. Onun borc aldığı məbləğə xüms düşürmü?**

**Cavab: Bir şəxsdən borc alıb havayı olaraq evi onun istifadəsinə verməyin şəri əsası yoxdur. Hər halda, borc aldığı pulun xümsü yoxdur.**

**Sual 967: Xəstələrin tibbi müayinəsi üçün Vəqf İdarəsindən və vəqf qəyyumundan ayda müəyyən məbləğ icarə pulu verməklə bir yer icarəyə götürdüm. Onlar məndən "pəzirə" (razılaşma) ünvanında müəyyən məbləğ pul aldılar. Nəzərə alsaq ki, hal-hazırda bu pul mənim mülkiyyətimdən xaric olubdur və mən daha o pulun sahibi olmayacağam, bu pula xüms düşürmü?**

**Cavab: Əgər bu pulun verilməsi "sərqufli"nin[1] ötürülməsi qiyməti hökmündə olubdursa, həmçinin bu pul iş gəlirindən olubdursa, onun xümsünü vermək vacibdir.**

**Sual 968: Əgər bir şəxs yaşadığı evini köhnə olduğuna görə bir tikinti şirkətinə versə ki, şirkət bu evi söküb onun yerində bir neçə mərtəbəli bina tiksin və çəkdiyi xərclər və gördüyü iş qarşılığında binanın bir neçə mənzilini özünə götürüb, bir neçə mənzilini də ona versin, bu halda bu şəxsə verilən əlavə mənzillərin xüms baxımından hökmü nədir?**

**Cavab: Məsələnin bir neçə surəti ola bilər:**
**1) Əgər bu işi ticarət (yəni əlavə mənzilləri satıb gəlir əldə etmək) məqsədilə edibsə, alıcı mövcud olduğu təqdirdə, infylasiya miqdarı çıxıldıqdan sonra artan qiymətə xüms düşür.**
**2) Əgər aldığı mənzillərə ehtiyacı olarsa və bu, onun şəninə uyğun olarsa, mənzillərə xüms düşmür.**
**3) Ev sahibinin ticarət məqsədi olmayıb, amma mənzilləri icarəyə verib gəlir əldə etmək məqsədi olub. Bu halda mənzilləri satmadığı təqdirdə, xümsü yoxdur. Amma satdıqdan sonra artan məbləğ satış ilinin gəliri hesab olunur, əlbəttə, inflyasiya miqdarı hesablanıb çıxılır.**

**Sual 969:** **Bir şəxs xüms üçün heç vaxt ilin hesabını aparmamış və indi ilin hesabını aparmağı qərara almışdır. İzdivac etdiyi vaxtdan indiyədək borcu olan bu şəxs xümsünü necə hesablamalıdır?**

**Cavab: Əgər keçmişdən indiyədək məişət xərclərindən artıq bir gəliri olmayıbsa, keçmişə görə onun öhdəsində heç nə yoxdur.**

**Sual 970:** **Vəqf edilən əmlakın və ərazilərin gəlir və məhsulunun xüms-zəkat baxımından hökmü nədir?**

**Cavab: Vəqf edilən əmlakın özünə, hətta "xüsusi vəqf"[2] olsa belə, birmənalı olaraq xüms düşmür. Onun artımına[3] da xüms düşmür, amma əgər iktisabi şəkildə olarsa, xüms düşəcək.**
**"Ümumi vəqf"in artımına gəlincə, "moqufun-ələyh"[4] tərəfindən təhvil alınmamışdan qabaq ona zəkat düşmür. Amma təhvil alınandan sonra zəkatın vacib olma şərtlərinə malik olduğu təqdirdə, vəqfdən götürülən artımın zəkatı verilməlidir. Xüsusi vəqfin artımına gəlincə isə, əgər "moqufun-ələyh"in hər birinin payı nisab həddinə çatarsa, zəkatı verilməlidir.**

**Sual 971:** Uşaqların iş gəlirinə "seyid payı" və "imam payı" (yəni xüms) düşürmü?

**Cavab: Şəri vəzifə yaşına çatdıqdan sonra, ehtiyata görə, şəri vəzifə yaşına çatmamışdan qabaq əldə etdikləri və bu yaşa çatanadək onların mülkiyyətində qalan iş gəlirinin xümsünü vermək onlara vacibdir.**

**Sual 972:** **İş alətlərinə xüms düşürmü?**

**Cavab: İş alətləri sərmayə hökmündədir. Əgər iş gəliri ilə alınarsa, onlara xüms düşür.**

**Sual 973:** **Yenilikcə Həcc və Ziyarət İdarəsi və İran Milli Bankı arasında əldə olunan razılığa görə, təmətto həccinə getmək istəyənlər İran Milli Bankına müraciət edib öz adlarına hesab açdırır və bir milyon tümən pulu "müzaribə müqaviləsi"[5] şəklində öz hesablarına qoyub qəbz alırlar. Şəxs həccə gedənə qədər bu pul onun şəxsi hesabında qalır və yazılı müqavilə əsasında hər ilin axırında hesab sahibinə on yeddi faiz müzaribə gəliri ödənilir. Həcc və Ziyarət İdarəsi daha tez ad yazdıranlara birincilik haqqı verir və təxminən üç il sonra növbələrinin çatdığı onlara xəbər verilir. Onlar da həcc ziyarətinə getmək istədiklərini bildirdikdən sonra ziyarətə göndərilirlər. Bu vaxt bank hesabına müzaribə müqaviləsi ilə pul qoyan şəxs həmin pulu bankdan götürür və lazım olan əlavə məbləğ ilə birlikdə Həcc və Ziyarət İdarəsinin hesabına köçürdükdən sonra həcc ziyarətinə göndərilir. Sizdən xahiş edirəm, açıqlayasınız ki, sözügedən müqavilənin yazılı surətdə olduğunu və pulun sahibi ilə bank arasında şifahi danışığın aparılmadığını nəzərə alaraq, pul sahibinin müzaribə gəliri ünvanında aldığı gəlirin hökmü nədir?**

**Cavab: Yuxarıda qeyd edildiyi qaydada yazılı müqavilə surətində olan bank əməliyyatları iradsızdır və müzaribə müqaviləsindən əldə edilən gəlir bank hesabına pul qoyan şəxsə halaldır. Əgər hesaba qoyulan pul xümsü verilməmiş iş gəlirindən olarsa, xümsü vardır. Əgər müzaribə müqaviləsindən əldə edilən gəliri həcc ziyarətinə gedəcəyi ildən qabaq götürmək mümkün olmazsa, bu gəlir onu bankdan götürdüyü ilin gəlirindən hesab olunacaqdır. Belə ki, əgər həmin il həcc ziyarətinə xərclənərsə, xümsü yoxdur.**

**Sual 974:** **Əgər bir idarə işçisinin xüms ilinin əvvəli isfənd ayının axırıdırsa və o, xüms ilinin əvvəlindən beş gün qabaq aldığı aylıq maaşını yeni ilin birinci ayında xərcləyəcəksə, bu pulun xümsünü verməlidirmi?**

**Cavab: Əgər il tamamlanmamışdan qabaq aldığı maaşı xüms ilinin axırına kimi məişət**

ehtiyaclarına xərcləməsə, onun xümsünü verməlidir. Əlbəttə, əgər ehtiyatda müəyyən məbləğ pulun olması onun məişət ehtiyaclarından hesab olunarsa, bu pulun xümsü yoxdur.

**Sual 975: Bir çox tələbələr gözlənilmədən ortaya çıxan çətinliklərin həlli üçün məişət xərclərini azaldırlar, nəticədə, tələbə təqaüdündən müəyyən məbləğ pul yığa bilirlər. Sualım budur ki, bu pulun tələbə təqaüdünün qənaətlə xərclənməsi nəticəsində yığıldığını nəzərə alaraq, ona xüms düşürmü?**

**Cavab: Tələbə təqaüdünün xümsü yoxdur.**

[1] Sərqufli – obyekti icarəyə götürməkdə birincilik hüququ və öz ticarət məkanında işini davam etdirmək baxımından tacirin malik olduğu mənəvi haqdır. Sərqufli "tabeli daşınmaz əmlak"ın bir hissəsidir.

[2] Əgər bir məkandan və ya əşyadan faydalanmaq haqqı müəyyən şəxslər üçün, məsələn, övladlar üçün təyin olunarsa, buna "xüsusi vəqf" deyilir. Amma əgər hamı üçün təyin olunarsa, buna "ümumi vəqf" deyilir.

[3] Burada artım iki cür ola bilər: 1- "Birləşik artım", məsələn, qoyunun kökəlməsi. 2- "Ayrı olan artım", məsələn, qoyundan doğulan quzular.

[4] Müəyyən bir şeydən istifadə etmək kimə vəqf edilibsə, bu şəxs "moqufun-ələyh" adlanır. "Moqufun-ələyh" xüsusi vəqfdə müəyyən şəxs və ya şəxslər, ümumi vəqfdə isə bütün insanlardır.

[5] Müzaribə - sərmayə sahibi olan şəxs ilə iş görən şəxs arasında bağlanan bir müqavilədir ki, bu müqavilə əsasında iş görən şəxs sərmayə sahibinin sərmayəsi ilə ticarət edəcəyini və ticarətdən əldə edilən gəlirin müəyyən nisbətdə onların ikisi arasında bölüşdürüləcəyini öhdəsinə götürür.

## Xümsü hesablamağın qaydası

**Sual 976:** Xümsü verməyi gələn ilə təxirə salmağın hökmü nədir?

**Cavab: Xümsü verməyi xüms ilindən o biri ilə təxirə salmaq olmaz, baxmayaraq ki, hər vaxt xümsü versə, borcunu vermiş olar.**

**Sual 977:** Mənim müəyyən məbləğ pulum vardır. Bu pulun bir hissəsi nağd olaraq özümdə, bir hissəsi isə qərzul-həsənə olaraq başqalarındadır. Digər tərəfdən, yaşayış üçün torpaq sahəsi aldığıma görə borcum vardır və bir neçə aydan sonra borcumun bir hissəsini verməliyəm. Mən torpaq sahəsinə görə olan borcumu sözügedən puldan (yəni əlimdə olan nağd pul və borc verdiyim pul) çıxıb, qalan pulun xümsünü verə bilərəmmi? Həmçinin yaşayış üçün aldığım torpaq sahəsinin xümsü varmı?

**Cavab: Əgər ilin gəlirindən başqalarına borc verdiyiniz pul xüms ilinin sonunadək sizə qaytarılmasa, bu pulu geri almayanadək onun xümsünü vermək vacib deyildir.**
**İlin gəlirindən əlinizdə olan pula gəlincə, xüms ili başa çatmamış bu pulla bir neçə ay sonra verməli olduğunuz borcu verə bilərsiniz. Amma əgər il ərzində bu pul ilə borcunuzu verməsəniz və xüms iliniz başa çatsa, borcunuzu bu puldan çıxa bilməzsiniz və ilin gəlirindən əlinizdə qalan pulun xümsünü verməlisiniz.**
**Amma əgər gəlir əldə edildikdən sonra, iş gəliri mövcud olduğu bir halda borc pul məişət ehtiyaclarına xərclənərsə, xüms ilinin sonunda xərclənən bu məbləğ ilin iş gəlirindən çıxılacaqdır.**
**İl ərzindəki gəlir ilə aldığınız və ehtiyacınız olan torpaq sahəsinin isə xümsü yoxdur.**

**Sual 978:** Mən izdivac etməmişəm. Hal-hazırda əlimdə olan pulun bir hissəsini gələcəkdə ehtiyacım olacaq xərclər üçün ehtiyatda saxlaya bilərəmmi?

**Cavab: İlin gəlirindən ehtiyatda saxladığınız pulu əgər yaxın bir neçə gün ərzində izdivacın zəruri xərclərinə sərf edəcəksinizsə, bu pulun xümsü yoxdur.**

**Sual 979:** İlin onuncu ayının axırıncı günü mənim xüms ilim başlanır. Onuncu ayın maaşını ayın axırlarında alıram. Onuncu ayın maaşına xüms düşəcəkmi? Əgər maaşı aldıqdan sonra ondan qalan məbləği (belə ki, adəti üzrə hər ay maaşdan müəyyən məbləğ qalır və ehtiyatda yığılır) həyat yoldaşıma bağışlasam, ona xüms düşürmü?

**Cavab: Xüms ili başa çatmamışdan öncə aldığınız və ya ala biləcəyiniz maaş əgər həmin ilin məişət ehtiyaclarından artıq qalarsa, artıq qalan miqdarın xümsü verilməlidir. Həyat yoldaşınıza və ya başqa bir şəxsə hədiyyə etdiyiniz pula gəlincə, əgər hədiyyə vermək formal olmazsa, həmçinin sizin ürfi şəninizə uyğun miqdarda olarsa, bu pula xüms düşmür.**

**Sual 980:** Xümsü verilmiş pulum və ya malım vardır və mən onu istifadə edirəm. Xümsü verilmiş həmin pulun və ya malın əvəzini xüms ilinin axırında ilin gəlirindən çıxmaq olarmı?

**Cavab: Əgər xümsü verilmiş pulu və ya malı istifadə edərkən ilin gəliri də mövcud olubsa, xümsü verilmiş pul və ya maldan istifadə etdiyi miqdarı xüms ilinin axırında ilin gəlirindən çıxa bilər.**

**Sual 981:** Əgər xüms düşməyən bir mal (məsələn, mükafat və ya bu kimi bir şey) sərmayəyə qarışsa, xüms ilinin axırında onu sərmayədən çıxmaq və sonra qalan malın xümsünü vermək olarmı?

Cavab: Onu çıxmağın maneəsi yoxdur.

**Sual 982:** Üç il əvvəl mən xümsü verilmiş mal ilə bir mağaza açdım. Mənim xüms ilimin əvvəli hicri-şəmsi ilin axırıncı günü, yəni Novruz bayramı axşamıdır. İndiyədək xüms ilim başa çatanda həmişə görmüşəm ki, mənim bütün sərmayəm borc olaraq camaatdadır, eyni zamanda, özümün də xeyli borcum vardır. Xahiş edirəm, mənim şəri vəzifəmi açıqlayasınız.

Cavab: Əgər xüms ilinin axırında nə sərmayədən, nə də gəlirdən sizin əlinizdə heç nə olmasa, yaxud sərmayənizə heç nə əlavə olunmasa, xüms vermək sizə vacib deyildir. Malın nisyə satışına görə camaatın sizə olan borcuna gəlincə, əgər xüms ilinin axırında bu borcu ala bilsəniz, sərmayəni və onun inflyasiya miqdarını bu puldan çıxdıqdan sonra qalan məbləğin xümsünü verməlisiniz. Amma əgər xüms ilinin axırında bu borcu ala bilməsəniz, bu pul onu alacağınız ilin gəlirindən hesab olunacaq.

**Sual 983:** Xüms ilinin hesabını apararkən mağazada mövcud olan malların qiymətini müəyyən etmək çətindir. Bunu necə hesablamaq lazımdır?

Cavab: İlin gəlirini hesablamaq və onun xümsünü vermək üçün mağazada mövcud olan malların qiymətini mümkün olan hər şəkildə müəyyən etmək, hətta təxmin etməklə olsa belə, vacibdir.

**Sual 984:** Əgər bir neçə il illik gəlirimi hesablamasam, beləliklə, malım nağdlaşsa və sərmayəm artsa və bundan sonra əvvəlki sərmayəmdəm qeyri malımın xümsünü versəm, mənim bu işimin iradı varmı?

Cavab: Əgər hər xüms iliniz çatanda sizin malınıza, hətta az miqdarda olsa belə, xüms düşürdüsə, xümsü verməyi təxirə sala bilməzsiniz.

**Sual 985:** Xahiş edirəm, mağaza sahibinin öz xümsünü hesablaması üçün mümkün olan ən asan yolu açıqlayasınız.

Cavab: Xüms ilinin axırında bütün malını və nağd pulunu hesablayıb, ümumi məbləği müəyyən etsin. Sonra bu məbləği əsas sərmayəsi ilə (inflyasiya miqdarını da hesablayaraq) müqayisə etsin. Əgər sərmayədən artıq olarsa, artıq məbləğ gəlir hesab olunur və ona xüms düşür.

**Sual 986:** Mən xüms ilimin əvvəlini keçən ilin üçüncü ayının əvvəli qərar verdim. Xümsü hesablamaq üçün bu tarixdə bank hesabımın gəlirinə baxdım. Bu metod, xüms ilinin hesabatı üçün düzgün bir metoddurmu?

Cavab: Sizin xüms ilinizin əvvəli, ala biləcəyiniz ilk gəliri aldığınız gündür. Xüms ilinin əvvəlini həmin gündən sonraya salmaq olmaz.

**Sual 987:** Əgər avtomobil, motorsiklet, xalça və s. bu kimi məişət ehtiyacı olan əşyaların xümsü verilməyibsə, bu əşyalar satıldığı zaman onların satışından əldə edilən pulun xümsü dərhal verilməlidir?

Cavab: Əgər adı çəkilən əşyalar məişət ehtiyaclarından olubsa və il ərzindəki gəlir ilə alınıbsa, sonrakı ildə satıldığı təqdirdə onların satışından əldə edilən pula xüms düşmür. Amma əgər bu əşyalar üstündən il keçmiş və xümsü verilməmiş pul ilə alınıbsa, hətta bu əşyalar satılmasa belə, onların alış qiymətinin xümsü (pulun dəyərdən düşməsi miqdarı da hesablanaraq) verilməlidir. Əgər şəxsin il hesabatı yoxdursa və məişət ehtiyaclarının alışına xərclədiyi pulun xüms ili tamamlanan, yoxsa tamamlanmayan pul olduğunu bilmirsə,

**ehtiyat-vacibə görə, bu əşyaların alış qiyməti barəsində bizim nümayəndələrdən biri ilə müsalihə etməlidir.**

**Sual 988: Bir şəxsin bir məişət əşyası almağa (məsələn, soyuducuya) ehtiyacı vardır, amma onun pulunu birdəfəyə ödəmək imkanı yoxdur. Buna görə də, hər ay müəyyən məbləğ pulu kənara qoyur ki, lazım olan məbləğ yığılanda həmin əşyanı alsın. İndi onun xüms ili çatıbdır. Onun sözügedən məqsəd üçün yığıdığı pula xüms düşürmü?**

**Cavab: Əgər zəruri məişət ehtiyacını almaqdan ötrü yığdığı pula yaxın bir neçə gündə ehtiyacı varsa, bu pulun xümsü yoxdur.**

**Sual 989: Əgər bir şəxs xüms ilinin başa çatmasına bir neçə ay qalmış öz gəlirinin müəyyən hissəsini bir şəxsə borc versə və xüms ili başa çatdıqdan bir neçə ay sonra pulu alsa, bu pulun hökmü nədir?**

**Cavab: Suala əsasən, borc alan şəxs borcu qaytardıqda, borc verən şəxs bu pulun xümsünü dərhal verməlidir.**

**Sual 990: Əgər şəxs xüms ili ərzində bir əşya alsa və xüms ilindən sonra onu satsa, onun hökmü nədir?**

**Cavab: Əgər bu əşya məişət ehtiyaclarından olarsa və şəxsi istifadə üçün alınarsa, onun xümsü yoxdur. Amma əgər satmaq məqsədilə il ərzindəki gəlir ilə alınarsa və xüms ilinin sonunadək onu satmaq mümkün olarsa, onun alış pulunun və ondan əldə edilən gəlirin xümsünü vermək vacibdir. Bundan qeyri halda, bu əşyanı satmayanadək, xümsü yoxdur. Bu əşyanı satdıqda isə, onun satışından əldə edilən gəlir satış ilinin gəlirlərindən hesab olunacaq.**

**Sual 991: Əgər bir idarə işçisi xüms ilinin maaşını xüms ili başa çatandan sonra alsa, onun xümsünü verməlidirmi, yoxsa yox?**

**Cavab: Əgər xüms ilinin sonunadək maaşı almaq mümkün idisə, onun xümsünü vermək vacibdir, baxmayaraq ki, hələ onu almamışdır. Bundan qeyri halda, bu pul onu aldığı ilin gəlirlərindən hesab olunacaqdır.**

**Sual 992: Qiyməti daim dəyişən qızıl sikkələrinin xümsü necə hesablanır?**

**Cavab: Əgər qızıl sikkələrin sahibi onların qiymətinin xümsünü vermək niyyətindədirsə, sikkələrin xüms ilinin axırındakı qiyməti əsas götürüləcək.**

**Sual 993: Əgər bir şəxs öz xüms ilinin hesabatını qızılın qiyməti ilə apararsa, məsələn, əgər onun bütün sərmayəsi yüz qızıl sikkəyə – "Bəhare azadi" sikkəsinə – bərabər olarsa, bunun iyirmi sikkəyə bərabər miqdarını xüms verərsə və səksən sikkəyə bərabər hissəsi xümsü verilmiş mal olarsa, sonrakı il əgər sikkənin qiyməti artarsa (amma onun sərmayəsi elə səksən sikkəyə bərabər olarsa), ona xüms düşürmü? Artan dəyərin xümsünü verməlidirmi?**

**Cavab: Əgər qiyməti artarsa və xüms ilində onu satmaq mümkün olarsa, inflyasiya miqdarını çıxdıqdan sonra xümsü vardır.**

## Xüms ilinin müəyyən edilməsi

**Sual 994:** Əgər bir şəxs illik gəlirindən ilin axırına kimi heç nə qalmayacağına və gəlirinin hamısının il ərzində məişət xərclərinə sərf ediləcəyinə əmindirsə, o özünə xüms ili müyyən etməlidirmi? Əgər bir şəxs illik gəlirindən ilin axırına kimi heç nə qalmayacağına əmin olub özünə xüms ili müəyyən etməsə, hökmü nədir?

**Cavab: Xüms ilinin əvvəli mükəlləfin müəyyən etməsi ilə müəyyən olmur. Bu, öz-özlüyündə reallaşır. Belə ki, ticarətlə məşğul olan şəxsin xüms ilinin əvvəli ticarətə başladığı vaxtdan, əkinçinin xüms ilinin əvvəli məhsul yığımının çatdığı vaxtdan, fəhlə və işçinin xüms ilinin əvvəli ilk gəliri əlinə aldığı vaxtdan başlanır. Xüms ilinin əvvəlində hesabat aparmaq və illik gəliri hesablamaq "müstəqil vacib əməl" deyildir, əksinə, xümsün miqdarını bilmək üçün bir yoldur. Hesabat aparmaq o təqdirdə vacib olur ki, mükəlləf ona xümsün vacib olduğunu bilir, amma xümsün miqdarını bilmir. Əgər iş gəlirindən heç nə qalmayıbsa və gəlirin hamısı məişət ehtiyaclarına sərf edilibsə, onların heç birinin xümsü ona vacib deyildir.**

**Sual 995:** Xüms ilinin əvvəli mükəlləfin işə başladığı ilk aydan başlanır, yoxsa maaş aldığı ilk aydan?

**Cavab: Maaş və ya zəhmət haqqı alan idarə işçiləri, fəhlələr və başqaları üçün xüms ilinin əvvəli maaş və ya zəhmət haqqını aldıqları və ya ala bildikləri ilk gündən etibarən başlanır.**

**Sual 996:** Xüms vermək üçün xüms ilinin əvvəli necə müəyyən edilir?

**Cavab: Xüms ilinin əvvəli mükəlləf tərəfindən müəyyən edilmir, əksinə, öz-özlüyündə və ilin gəlirinin hansı tarixdən etibarən əldə olunması əsasında müəyyən olur. Beləliklə, fəhlə və işçilərin xüms ilinin əvvəli, zəhmət haqqı və maaş olaraq ilk gəliri aldıqları və ya ala bildikləri ilk gündən etibarən başlanır. Tacirlərin və mağaza sahiblərinin xüms ilinin əvvəli alış-verişə başladıqları tarixdən etibarən, əkinçilərin xüms ilinin əvvəli isə ilin ilk əkinçilik məhsulunu yığdıqları tarixdən etibarən başlanır.**

**Sual 997:** Ata-anası ilə birlikdə yaşayan subay bir gəncin özünə xüms ili müəyyən etməsi vacibdirmi? Onun xüms ili hansı tarixdən başlanır və xüms ilinin başlanmasını necə hesablamalıdır?

**Cavab: Əgər subay gəncin – az da olsa – şəxsi gəliri olsa, özünün xüms ilini müəyyən etməli və illik gəlirini hesablamalıdır. Beləliklə, ilin axırına kimi gəlirindən nə qalarsa, xümsünü verməlidir. Onun xüms ilinin əvvəli ilk iş gəlirini əldə etdiyi tarixdir.**

**Sual 998:** Maaşlarını müştərək şəkildə məişət ehtiyaclarına sərf edən ər və arvad özlərinə müştərək xüms ili təyin edə bilərlərmi?

**Cavab: Ər və arvadın hər birinin öz gəliri əsasında müstəqil xüms ili olmalıdır. Buna görə də, onların hər biri öz xüms ilinin axırında maaşdan və illik gəlirdən artıq qalan məbləğin xümsünü verməlidir. Amma onlardan biri digərinin icazəsi ilə qarşı tərəfin xümsünü hesablayıb verə bilər.**

**Sual 999:** **Mən evdar qadınam. Həyat yoldaşımın xüms ili vardır və xüms ili başa çatanda o öz əmlakının xümsünü verir. Mənim də bəzən gəlirim olur. Mən xüms vermək üçün özümə xüms ili təyin edə bilərəmmi? Belə ki, xüms ilimin başlanğıcını ilk gəliri əldə etdiyim tarixi təyin edim – hansı ki, bu gəlirin xümsünü verməmişəm – və ilin axırında məişət ehtiyaclarını gəlirimdən çıxdıqdan sonra qalan məbləğin xümsünü verim? İl ərzində ziyarətə, hədiyyə almağa və bu kimi işlərə xərclədiyim pula xüms düşürmü?**

**Cavab: Siz ilin ilk gəlirini əldə etdiyiniz tarixi öz xüms ilinizin başlanğıcı təyin etməlisiniz. İl ərzində iş gəlirinizdən öz şəxsi xərclərinizə, o cümlədən, qeyd etdiyiniz məqsədlərə sərf etdiyiniz pulun xümsü yoxdur. Amma ilin iş gəlirindən xüms ilinin axırında məişət ehtiyacları və xərclərindən artıq qalan məbləğin xümsünü verməlisiniz.**

**Sual 1000:** **Xüms ili günəş təqvimi ilə hesablanmalıdır, yoxsa ay təqvimi ilə?**

**Cavab: Mükəlləf bu baxımdan seçim sahibidir.**

**Sual 1001:** **Bir şəxs deyir ki, onun xüms ilinin sonu ilin on birinci ayıdır. Amma o, xümsünü verməyi unudaraq, ilin on ikinci ayında evinə xalça, saat və döşənəcək almışdır. İndi isə qərara almışdır ki, xüms gününü ramazan ayına dəyişsin. Bunu da qeyd etməliyəm ki, bu şəxsin ötən il və bu ilə görə səksən üç manat xüms borcu vardır və onu hissə-hissə verir. Sözükeçən əşyalarda İmam (ə) payı və seyid payı barəsində sizin nəzəriniz nədir?**

**Cavab: Xüms gününü irəliyə çəkmək olar. Belə ki, xüms ilinin əvvəlindən nəzərdə tutulan günədək iş gəlirinin xüms hesabatını aparıb ödəyirsən və bundan sonra sənin xüms günün həmin gün olur. Amma xümsü verməyi gecikdirmək və sonrakı ildə və ya illərdə vermək olmaz. Əgər bir şəxs xüms ilinin sonunda öz gəlirinin xümsünü verməsə və xüms ili başa çatdıqdan sonra onu məişət ehtiyaclarına sərf etsə, bu xüms onun öhdəsindədir. O, pulun dəyərdən düşməsi (inflyasiya) miqdarını da hesablayıb, xümsü verməldiir. Əgər inflyasiya miqdarı məlum olmazsa, şəri-hakimlə müsalihə etməlidir.**

**Sual 1002:** **Mükəlləf öz əmlakının xümsünü özü hesablayıb, ona vacib olan məbləği sizin nümayəndələrə verə bilərmi?**

**Cavab: Əgər xümsün hökmlərini bilirsə, maneəsi yoxdur.**

## Xüms işlərini idarə edən şəxs

**Sual 1003:** **Mərhum İmam Xomeyni (r.ə), siz və bəzi fəqihlər xüms və zəkat işinin müsəlmanların rəhbərinə aid olduğunu qeyd etmisiniz. Elə isə, xüms və zəkatı müsəlmanların rəhbərindən qeyrisinə verməyin hökmü nədir?**

**Cavab: Hörmətli mərcəyi-tədlidlərin müqəllidləri əgər xüms verərkən özlərinin mərcəyi-təqlidinin fətvasına uyğun əməl edərlərsə, boyunlarından haqq götürülər.**

**Sual 1004:** **Seyid payını xeyriyyə işlərinə, məsələn, seyidlərin izdivacına sərf etmək olarmı?**

**Cavab: Seyid payı İmam (ə) payı kimi müsəlmanların vəliyyi-əmrinin ixtiyarındadır. Əgər xüsusi icazə olarsa, seyid payını qeyd edilən məqsədə sərf etməyin maneəsi yoxdur.**

**Sual 1005:** **İmam (ə) payını xeyriyyə işinə (məsələn, dini hövzələrə və ya yetimlər evinə) sərf etmək üçün müqəllidin məhz öz mərcəyi-təqlidindən icazə alması zəruridirmi, yoxsa hansısa bir müctəhidin icazəsi kifayət edir? Ümumiyyətlə, müctəhidin icazəsi zəruridirmi?**

**Cavab: İmam (ə) payı və seyid payı, ümumiyyətlə, müsəlmanların rəhbərinə aiddir. Əgər bir şəxsin öhdəsində və ya əmlakında müəyyən miqdar İmam (ə) payı və ya seyid payı varsa, bunu xüms işlərini idarə edən şəxsə və ya onun vəkilinə təhvil verməlidir. Əgər xümsü sözükeçən məqsədlərdən biri üçün sərf etmək istəsə, əvvəlcə bunun üçün icazə almalıdır. Eyni halda, mükəlləf bu xüsusda öz mərcəyi-təqlidinin fətvasına riayət etməlidir.**

**Sual 1006:** **Sizin nümayəndənizin və ya şəri əmlak vergisini almaqda nümayəndə olmayan şəxsin xüms verən mükəlləfə qəbz vermək vəzifəsi vardırmı, yoxsa belə bir vəzifəsi yoxdur?**

**Cavab: Mükəlləf şəri əmlak vergisini bizim hörmətli nümayəndələrimizə və ya şəri əmlak vergisini bizim nümayəndəliklərə çatdırmaq üçün onları alan şəxslərə verəndə, onlardan bizim möhrmüz olan qəbzi tələb etsinlər.**

**Sual 1007:** **Öz məntəqəmizdə xümsü sizin nümayəndəyə verəndə bəzən İmam (ə) payını bizə geri qaytarır və deyir ki, sizin tərəfinizdən buna icazəsi vardır. Bizə qaytarılan bu məbləği ailəmizə xərcləyə bilərikmi?**

**Cavab: Əgər bizim tərəfimizdən bu işə icazəsi olduğunu iddia edən şəxsin sözünə şübhə edirsinizsə, hörmətli şəkildə ondan yazılı icazəni sizə göstərməsini istəyə bilərsiniz, yaxud bizim möhrümüz olan qəbzi ondan tələb edə bilərsiniz. Əgər onlar bizim tərəfimizdən verilən icazəyə uyğun əməl ediblərsə, əməlləri məqbuldur.**

**Sual 1008:** **Bir şəxs xümsü verilməmiş pul ilə baha qiymətə bir mülk almış və onun təmirinə də böyük xərc çəkmişdir. Sonra onu öz büluğa çatmamış övladına bağışlamış və rəsmi şəkildə mülkü onun adına keçirmişdir. Bu şəxsin həyatda olduğunu nəzərə alaraq, onun xüms məsələsinin hökmü nədir?**

**Cavab: Əgər mülkü almağa və təmir etməyə xərclədiyi pul ilin gəlirindən olsa və bu mülkü həmin il öz övladına bağışlasa, bu bəxşiş onun ürfi şəninə uyğun olduğu təqdirdə xümsü yoxdur. Bundan qeyri halda, onun xümsünü verməsi vacibdir.**

## Seyidlər və seyid hesab olunmanın hökmü

**Sual 1009:** Mənim anam seyidədir. Xahiş edirəm, aşağıdakı sualları cavablandırın:
1) Mən də seyid hesab olunurammı?
2) Mənim övladlarım və övladlarımın övladları - beləcə davam edərək – seyid hesab olunurlarmı?
3) Ata tərəfdən seyid olan şəxs ilə ana tərəfdən seyid olan şəxs arasında nə fərq vardır?

**Cavab: Baxmayaraq ki, ana tərəfdən Həzrət Peyğəmbərin (s) nəslinə çatanlar da, o Həzrətin (s) övladları hesab olunurlar, amma seyidliyin şəri hökmlərinin aid olması üçün meyar, ata tərəfdən o Həzrətin (s) nəslinə çatmaqdır.**

**Sual 1010:** Abbas ibn Əli ibn Əbutalibin (ə) övladları başqa seyidlər hökmündədirmi? Məsələn, o Həzrətin (ə) nəslindən olan din alimi seyid din aliminin libasını geyinə bilərmi? Əqil ibn Əbu Talibin övladları da seyiddirmi?

**Cavab: Ata tərəfdən nəsli Abbas ibn Əli ibn Əbutalibə çatan şəxs Ələvi seyidlərindəndir. Ələvi və Əqili seyidlərin hamısı Haşimidirlər və Haşimi seyidlərinə xas olan məziyyətlərdən istifadə etmək haqları vardır.**

**Suaı 1011:** Təzəlikcə atamın əmisi övladlarından olan bir şəxsin sənədini gördüm ki, bu sənəddə sənəd sahibinin adı "seyid" qeyd edilmişdi. Nəzərə alsaq ki, qohumlar arasında bizim seyidliyimiz məşhurdur, bu məsələ ilə təzəlikcə əldə etdiyim dəlil-sübutu yanaşı qoyub, mənim seyid olmağım barədə nəzərinizi bəyan edin.

**Cavab: Sizin qan qohumlarınızdan olan bir şəxsin sənədində "seyid" adının qeyd edilməsi, sizin seyidliyinizə şəri dəli hesab olunmur. Siz öz seyidliyinizi əminliklə və ya şəri dəlilə istinad edərək dəqiqləşdirməyənədək, seyidliyin şəri hökmləri sizə aid olmayacaqdır.**

**Sual 1012:** Mən bir uşağı övladlığa götürdüm və adını Əli qoydum. Onun üçün şəxsiyyət vəsiqəsi almaq üçün vətəndaşların qeydiyyatı idarəsinə müraciət etdim və orada mənim övladlığıma "seyid" ləqəbini qoydular. Amma mən cəddim Rəsulallahdan (s) qorxduğuma görə bu ləqəbi qəbul etmədim. İndi də tərəddüddə qalmışam ki, görəsən, bu uşağın övladlığını geri verim, yoxsa seyid olmayan bir kəsin seyidliyini qəbul etmək kimi bir günahı işlədim? Mən bu iki yoldan hansını seçim? Xahiş edirəm, mənə yol göstərin.

**Cavab: "Övlad"ın şəri hökmləri övladlığa götürülən şəxsə aid olmur. Həmçinin doğma atası tərəfdən seyid olmayan şəxs, seyidliyin şəri hökmlərini daşımır. Amma hər halda, himayəsiz uşağı götürüb saxlamaq şəri baxımdan olduqca yaxşı və bəyənilən bir əməldir.**

## Xümsün istifadə yerləri, icazə almaq, hədiyyə etmək, din elmləri tələbələrinin təqaüdü

**Sual 1013:** **Bəzi şəxslər öz tərəflərindən (yəni icazə almadan) seyidlərin su pulu və işıq pulu qəbzlərini ödəyirlər. Bu məbləği xümsdən hesab edə bilərlərmi, yoxsa hesab edə bilməzlər?**

**Cavab: İndiyədək seyid payı niyyətilə verdikləri qəbul edilir. Amma sonrakı hallar üçün ödəniş etməmişdən qabaq icazə almaları vacibdir.**

**Sual 1014:** **Siz İmam (ə) payının üçdə birini dini kitabların alınması və paylanmasına sərf edilməsinə icazə vermisiniz?**

**Cavab: Əgər bizim nümayəndələrimiz faydalı dini kitabların alınması və paylanmasını lazımlı bilsələr, İmam (ə) payının üçdə birini – belə ki, bu hissənin müəyyən şəri məqsədlərə sərf edilməsinə icazə vermişik – bu işə sərf edə bilərlər.**

**Sual 1015:** **Seyid payını ailəli və övlad sahibi olan yoxsul Ələvi seyidə xanıma vermək olarmı, halbuki, onun əri seyid deyildir, amma yoxsuldur? Bu qadın bu məbləği övladlarına və ərinə xərcləyə bilərmi?**

**Cavab: Əgər ər yoxsul olduğuna görə həyat yoldaşının dolanışıq xərclərini verə bilmirsə və onun həyat yoldaşı da şəri baxımdan yoxsul hesab olunursa, qadın öz ehtiyaclarını təmin etmək üçün seyid payı ala bilər və onu özünə, övladlarına və hətta ərinə sərf edə bilər.**

**Sual 1016:** **Əgər din elmləri tələbəsinin hövzə təqaüdündən əlavə, başqa gəlirləri olsa və bu gəlirlər dolanışığını təmin etmək üçün kifayət etsə, onun İmam (ə) payı və seyid payı almasının hökmü nədir?**

**Cavab: Əgər İmam (ə) payı və seyid payı bir şəxsin haqqı deyilsə və dini elmlər hövzəsinin qanunlarına əsasən ona hövzə təqaüdü düşmürsə, onun İmam (ə) payı və seyid payı almasına icazə verilmir.**

**Sual 1017:** **Bir Ələviyyə seyidə xanım deyir ki, atası ailənin dolanışıq xərclərini tam ödəmir və buna görə də, o, məscidin yanında dilənçilik edib öz xərclərini təmin etmək məcburiyyətində qalıb. Həmin məntəqənin əhalisi də o seyid kişini imkanlı, amma ailəsinə qarşı xəsis bir fərd kimi tanıyırlar. Bu qadının dolanışıq xərcini seyid payından vermək olarmı? Fərz edək ki, onun atası: "Mənə ancaq yemək və geyim xərcini vermək vacibdir. Başqa xərcləri, məsələn, qadınlara aid əşyaları almaq və uşaqların gündəlik xərcliklərini vermək mənə vacib deyildir" desə, ehtiyaclarını təmin edəcək miqdarda onlara seyid payından vermək olarmı?**

**Cavab: Birinci halda, əgər o öz dolanışıq xərcini atasından ala bilmirsə, ona dolanışıq xərcləri miqdarında seyid payından vermək olar. İkinci halda, əgər yemək və geyimdən əlavə, durumuna uyğun olan başqa bir şeyə ehtiyacı olarsa, ona ehtiyacını təmin edəcək miqdarda seyid payından vermək olar.**

**Sual 1018:** **İcazə verirsinizmi, mükəlləfin özü seyid payını yoxsul seyidlərə versin?**

**Cavab: Öhdəsində seyid payı olan şəxs onu yoxsul seyidlərə vermək üçün icazə almalıdır.**

**Sual 1019:** **Sizin müqəllidiniz seyid payını yoxsul seyidə verə bilərmi, yoxsa xümsün hamısını, yəni İmam (ə) payını və seyid payını sizin nümayəndənizə təhvil verməli və o da lazımi yerlərə sərf etməlidir?**

**Cavab: Bu xüsusda seyid payı ilə İmam (ə) payı arasında fərq yoxdur.**

**Sual 1020:** **Şəri əmlak vergisi (xüms, məzalim[1], zəkat) hökumət işlərindəndirmi, yoxsa yox? Öhdəsində xüms olan şəxs seyid**

**payını yoxsul seyidə verə bilərmi? Məzalimi və zəkatı haqq sahibinə verə bilərmi?**

**Cavab: Zəkatı və məzalimi mükəlləfin özü dindar və iffətli yoxsullara verə bilər, baxmayaraq ki, şəri-hakimin izni ilə verməsi ehtiyata müvafiqdir. Amma xümsün hamısını bizim nümayəndəliyimizə və ya bizim nümayəndələrdən birinə təhvil verməlidir ki, şəriətdə müəyyən edilən yerlərə sərf edilsin. Yaxud da xümsü haqq sahibinə vermək üçün mükəlləf icazə almalıdır.**

**Sual 1021:** **İşi və gəliri olan bir seyid xüms ala bilərmi, yoxsa ala bilməz? Xahiş edirəm, izah edin.**

**Cavab: Əgər gəliri onun dolanışığına onun ürfi şəninə uyğun olan və adi bir həddə kifayət edirsə, o, fəqir sayılmır və buna görə də xüms ala bilməz.**

**Sual 1022:** **Mən iyirmi beş yaşında bir gəncəm və idarə işçisiyəm. Subayam və ata-anamla birlikdə yaşayıram. Atam yaşlıdır və gəliri də yoxdur. Dörd ildir ki, dolanışıq xərclərini mən təmin edirəm. Mən həm illik gəlirimin xümsünü verməyi, həm də dolanışıq xərclərini təmin etməyi öhdələyə bilmirəm. Üstəlik, əvvəlki illərin gəlirinin xümsündən də on doqquz min tümən borcum vardır ki, mən onu bir yerə qeyd etmişəm və bir müddət sonra ödəyəcəyəm. Xahiş edirəm, izah edəsiniz ki, mən ilin gəlirinin xümsünü öz doğmalarıma, məsələn, atama və anama verə bilərəmmi?**

**Cavab: Əgər sizin ata və ananızın öz dolanışıq xərclərini təmin etməyə maddi imkanları yoxdursa və sizin onlara maddi kömək etməyə imkanınız varsa, onlara maddi kömək etmək sizə vacibdir. Onların dolanışıq xərclərinə sərf etdiyiniz məbləğ sizin məişət ehtiyaclarınızdan sayılır. Amma bu məbləği vacib xüms əvəzinə hesablaya bilməzsiniz.**

**Sual 1023:** **Mənim öhdəmdə müəyyən məbləğ İmam (ə) payı vardır və mən onu sizə verməliyəm. Digər tərəfdən, maddi köməyə ehtiyacı olan bir məscid var. İcazə verirsinizmi ki, bu məbləği məscidin tikintisinin tamamlanması üçün oranın imam-camaatına verim?**

**Cavab: Hazırkı dövrdə İmam (ə) payı və seyid payına (yəni xüms) din elmləri hövzələrinin idarə olunması üçün ehtiyac vardır. Məscidin tikintisi və bu kimi işlər üçün möminlərin maddi yardımlarından faydalanmaq olar.**

**Sual 1024:** **Biz ehtimal veririk ki, atamız həyatda olarkən öz əmlakının xümsünü tam verməyibdir. Biz onun torpaq sahələrindən birini xəstəxana tikintisi üçün bağışlamışıq. Bu torpaq sahəsini mərhumun əmlakının xümsü ünvanında hesablamaq olarmı?**

**Cavab: Sözügedən torpaq sahəsi xüms ünvanında hesab olunmur.**

**Sual 1025:** **Hansı hallarda xüms düşən şəxsə xümsü bağışlana bilər?**

**Cavab: İmam (ə) payı və seyid payı heç bir halda bağışlanmır.**

**Sual 1026:** **Bir şəxsin xüms ilinin axırında məişət ehtiyaclarından, məsələn, yüz min tümən artıq pulu qalır və onun xümsünü verir. Əgər sonrakı il məişət ehtiyaclarından artıq qalan məbləğ yüz əlli min tümən olarsa, yeni ildə əlli min tümənin xümsünü verməlidir, yoxsa yenidən yüz əlli min tümənin xümsünü verməlidir?**

**Cavab: Əgər xümsü verilmiş pul ilə xümsü verilməmiş pul bir-birinə qarışarsa, yaxud bu pullar eyni bir bank hesabında olarsa və şəxs "xümsü verilmiş pul", yoxsa "xümsü verilməmiş pul"dan götürdüyünü niyyət etmədən o bank hesabından pul götürərsə, yaxud hətta xümsü verilmiş pul niyyətilə o hesabdan pul götürərsə və bu pulu məişət ehtiyaclarına**

sərf edərsə, xüms ilinin sonunda bank hesabında xümsü verilmiş pul miqdarında və ya bundan daha az pul qaldığı təqdirdə, bu pula xüms düşməyəcək.

**Sual 1027:** Əgər hələ ailəli və evi olmayan bir din elmləri tələbəsinin din maarifini təbliğ etmək və fəaliyyət göstərmək, yaxud İmam (ə) payından hədiyyə almaq yolu ilə gəliri olsa, onun gəlirinə xüms düşürmü? Yoxsa onun gəlirinə xüms düşmədiyini əsas götürüb, onun xümsünü vermədən icdivac xərcləri üçün ehtiyatda yığa bilər?

**Cavab:** Mərcəyi-təqlidlər tərəfindən dini elmlər hövzələrində təhsil alan tələbələrə xüms-zəkatdan hədiyyə edilən pula xüms düşmür. Amma təbliğat və fəaliyyət yolu ilə əldə etdikləri gəlirdən xüms ilinin əvvəlinə qədər artıq qalan məbləğin xümsünü verməlidirlər.

**Sual 1028:** Bir şəxsin ehtiyatda yığdığı pulunun bir hissəsi xümsü verilmiş, bir hissəsi isə xümsü verilməmiş puldur. O, bəzən bu puldan götürüb ehtiyacları üçün xərcləyir, bəzən də onun üstünə pul əlavə edir. Xümsü verilmiş pulun məbləğinin məlum olduğunu nəzərə alaraq, xüms ilinin sonunda artıq qalan məbləğin hamısının xümsü verilməlidir, yoxsa təkcə xümsü verilməmiş pulun xümsü verilməlidir?

**Cavab:** Əgər xümsü verilmiş pul ilə xümsü verilməmiş pul bir-birinə qarışarsa, yaxud bu pullar eyni bir bank hesabında olarsa və şəxs "xümsü verilmiş pul", yoxsa "xümsü verilməmiş pul"dan götürdüyünü niyyət etmədən o bank hesabından pul götürərsə, yaxud hətta xümsü verilmiş pul niyyətilə o hesabdan pul götürərsə və bu pulu məişət ehtiyaclarına sərf edərsə, xüms ilinin sonunda bank hesabında xümsü verilmiş pul miqdarında və ya bundan daha az pul qaldığı təqdirdə, bu pula xüms düşməyəcək.

**Sual 1029:** Bir şəxs kəfən almışdır və neçə ildir ki, bu kəfən qalır. Onun xümsü verilməlidirmi, yoxsa ancaq onun alış qiymətinin xümsü verilməlidir?

**Cavab:** Əgər kəfəni xümsü verilmiş pul ilə alıbsa, daha kəfənə xüms düşmür. Əks təqdirdə, kəfənin qiymətinin xümsünü (inflyasiyanı da nəzərə alaraq) cari xüms ilinin axırında verməlidir.

**Sual 1030:** Mən dini elmlər tələbəsiyəm. Xeyriyyəçilərdən maddi yardım alıb, həmçinin seyid payı və borc alıb özümdə olan pulun üstünə qoyaraq balaca bir ev almışdım. İndi bu evi satmışam. Əgər evin satış pulunun üstündən bir il keçsə və mən hələ ev ala bilməsəm, ev almaq üçün əlimdə saxladığım bu pula xüms düşürmü?

**Cavab:** Dini elmlər hövzəsinin təqaüdü, xeyriyyəçilərin yardımı, xüms-zəkat və borc ilə aldığınız evin satış puluna xüms düşmür.

[1] Məzalim - insanın boynunda olan, amma sahibi bilinməyən, yaxud sahibi əlçatmaz olan mala deyilir.

## Xümsün müxtəlif məsələləri

**Sual 1031:** **Mən hicri-şəmsi 1341-ci ildə İmam Xomeyniyə (r.ə) təqlid etmişəm və öhdəmə düşən şəri əmlak vergisini onun fətvaları əsasında vermişəm. Hicri-şəmsi 1346-cı ildə İmam Xomeyni (r.ə) şəri əmlak vergisi və dövlət vergiləri barəsində soruşulan sualın cavabında qeyd etmişdi ki, şəri əmlak vergisi xüms və zəkatdır, amma dövlət vergiləri şəri əmlak vergisindən sayılmır. Hal-hazırda İslam hökumətində yaşadığımızı nəzərə alaraq, xahiş edirəm, şəri əmlak vergisi və dövlət vergiləri barəsində bizim vəzifəmizi açıqlayasınız.**

**Cavab: Baxmayaraq ki, İslam hökumətinin qanunlar əsasında qoyduğu vergiləri qanunun şamil olduğu bütün şəxslər ödəməlidir və hər il ödənilən vergilər həmin ilin məişət ehtiyaclarından hesab olunur, amma bu vergilər İmam (ə) payı və seyid payı hesab olunmur. Bu şəxslər öz illik gəlirlərindən ilin məişət ehtiyaclarından artıq qalan məbləğin xümsünü ayrıca olaraq verməlidirlər.**

**Sual 1032:** **Xüms-zəkat pulunu dəyəri sabit olan valyutaya çevirməyə şəri baxımdan icazə verilirmi, yoxsa verilmir?**

**Cavab: Öhdəsində şəri əmlak vergisi olan şəxs bu işi görə bilər. Amma o öz vacib şəri əmlak vergisini verdiyi vaxt onu ödəniş gününün məzənnəsi ilə hesablamalıdır. Amma şəri əmlak vergisini almaqda müsəlmanların vəliyyi-əmri tərəfindən vəkil olan və etibar edilən şəxs aldığı pulu başqa bir pula (valyutaya) çevirə bilməz. Amma əgər bu işi görməsinə icazəsi olarsa, bu hal istisnadır. Pulun dəyərinin dəyişməsi pulu başqa pula çevirmək üçün şəri icazə hesab olunmur.**

**Sual 1033:** **Bir elmi müəssisədə gələcəkdə müəssisənin maddi ehtiyaclarını təmin etmək üçün ticarət şöbəsi açılmışdır və onun sərmayəsi şəri əmlak vergisindəndir. Bu ticarətin gəlirinin xümsünü vermək vacibdirmi? Onun xümsünü müəssisəyə sərf etmək olarmı?**

**Cavab: Şəri əmlak vergisi şəriətdə müəyyən edilən yerlərə sərf olunmalıdır. Onu şəriətdə müəyyən edilən yerlərə sərf etməyib - hətta gəlirindən bir elmi müəssisə üçün istifadə etmək məqsədilə olsa belə - ticarətə sərmayə qoymağın, xüms işlərini idarə edən şəxsin icazəsi olmadan maneəsi vardır. Ticarətə sərmayə qoyulduğu təqdirdə, əldə edilən gəlir sərmayəyə tabedir və sərmayənin sərf edildiyi yerlərə sərf edilməlidir, xümsü də yoxdur. Bəli, müəssisəyə verilən hədiyyələri ticarətə sərmayə qoymqğın maneəsi yoxdur. Sərmayə müəssisənin əmlakı olduğu təqdirdə, əldə edilən gəlirin xümsü yoxdur.**

**Sual 1034:** **Əgər hansısa bir şeyin xümsünü verib-vermədiyimizə şəkk etsək, amma onun xümsünü verdiyimizə böyük ehtimal versək, vəzifəmiz nədir?**

**Cavab: Əgər xüms düşən bir şey barəsində belə bir şəkk edirsinizsə, onun xümsünü verdiyiniz barədə yəqinə çatmalısınız.**

**Sual 1035:** **Bir neçə il əvvəl mənə müəyyən məbləğ xüms vacib oldu. Mən bu məbləği bir müctəhidə verib-geri aldım (dəstgərdan etdim). Xümsün bir hissəsini ödədim, qalan hissə isə öhdəmdə qaldı. O vaxtdan indiyədək qalan məbləği ödəyə bilməmişəm. Mənim vəzifəm nədir?**

**Cavab: Xüms borcunu ödəməyə maddi imkanın olmaması, mükəlləfin öhdəsindən şəri**

vəzifənin götürülməsinə səbəb olmur. Xüms borcunu verməyə imkanınız olan zaman, hətta hissə-hissə olsa belə, onu ödəməlisiniz.

**Sual 1036:** Xüms düşməyən bir malın xümsü olaraq verdiyim məbləği, hal-hazırda xümsünü borclu olduğum malın xümsü olaraq hesablaya bilərəmmi?

**Cavab: Əgər verdiyiniz xüms, şəriətdə müəyyən edilən yerlərə sərf edilibsə, sizin hal-hazırkı xüms borcunuzun yerinə hesablanmayacaqdır. Amma əgər verdiyiniz xümsün özü mövcud olarsa, onu geri istəyə bilərsiniz.**

**Sual 1037:** Şəri vəzifə yaşına çatmayan uşaqlara xüms və zəkat vacib olurmu?

**Cavab: Şəri vəzifə yaşına çatmayan uşağa əmlakının zəkatı vacib deyildir. Amma əgər onun əmlakına xüms düşərsə (məsələn, mədəni olarsa və ya halal mal harama qarışarsa), xümsü vermək uşağın şəri qəyyumuna vacibdir. Amma uşağın əmlakı ilə ticarətdən əldə edilən gəlirə və ya uşağın iş gəlirinə gəlincə – belə ki, bu gəlirlərin xümsünü vermək uşağın qəyyumuna vacib deyildir – ehtiyata görə, əldə edilən gəlirlər uşaq şəri vəzifə yaşına çatdığı vaxt qaldığı təqdirdə, onun özü bu gəlirlərin xümsünü verməlidir.**

**Sual 1038:** Əgər bir şəxs şəri əmlak vergisindən, İmam (ə) payından, ümumiyyətlə, şəriətin müəyyən etdiyi yerlərə sərf edilməsi üçün mərcəyi-təqlidlərin birindən icazə alınması gərəkli olan əmlakın müəyyən qədərini bir dini müəssisəyə, yaxud mədərəsə ya məscid ya hüseyniyyənin tikintisinə sərf etsə, şəri baxımdan haqqı vardırmı ki, öhsədində olan şəri əmlak vergisini vermək ünvanında sərf etdiyi bu əmlakı geri alsın, yaxud onun torpaq sahəsini geri alsın, yaxud həmin müəssisənin binasını satdırsın? Yoxsa buna haqqı yoxdur?

**Cavab: Əgər o, şəri əmlak vergisini təhvil verməli olduğu şəxsin icazəsi əsasında öz əmlakını, öhdəsində olan şəri əmlak vergisini vermək niyyətilə mədrəsə və bu kimi obyektlərin tikintisinə veribsə, onu geri almaq və ondan öz mülkü kimi istifadə etmək haqqı yoxdur.**

## Ənfal (ümumi sərvət)

**Sual 1039:** **Ölkə torpaq qanunvericiliyinə əsasən:**
**1- İşlənməmiş xam torpaqlar "ənfal"dan, yəni "ümumi sərvət"dən hesab olunur və İslam dövlətinin idarəetməsi altındadır.**
**2- İstər işlənməmiş xam torpaqlar, istər işlənmiş abad torpaqlar əgər xüsusi mülk olarsa, dövlətin və Rayon (Şəhər) İcra Hakimiyyətinin bu torpaqlara ehtiyacı olduğu təqdirdə, həmin bölgənin qiymətlərinə müvafiq bir qiymətə onları öz sahibindən alıb, dövlət əmlakı edə bilər.**

**Mənim suallarım isə bunlardır:**
**1- Bir şəxs işlənməmiş torpaq sahəsinin rəsmi sənədlə sahibidir, amma hazırkı dövrdə ölkə torpaq qanunvericiliyinə əsasən bu sənəd etibardan düşmüşdür. Bu şəxs bu torpaq sahəsini imam payı və seyid payı ünvanında verə bilərmi?**
**2- Əgər həm işlənməmiş, həm də işlənmiş torpaq sahələrinin sahibi olan bir şəxs dövlət və ya yerli İcra Hakimiyyəti tərəfindən qanun əsasında bu torpaq sahələrini satmağa vadar edilərsə, amma o, bu torpaq sahələrini imam payı və seyid payı ünvanında verərsə, hökmü nədir?**

**Cavab: Ölü torpaqlar hesab olunan və rəsmi sənədi olan şəxsin şəri baxımdan mülkü hesab olunmayan torpaq sahələrini xüms ünvanında vermək və xüms borcu yerinə hesab etmək düzgün deyildir. Həmçinin bir şəxsin mülkü olan, amma dövlət və ya yerli İcra Hakimiyyəti tərəfindən qanun əsasında ödənişli və ya ödənişsiz şəkildə öz sahibindən alına bilən torpaq sahələri xüms ünvanında verilə və xüms borcu yerinə hesab edilə bilməz.**

**Sual 1040:** **Əgər bir şəxs kərpic zavodlarının kənarında torpağını satmaq məqsədilə ərazi alarsa, bu ərazi ənfaldan hesab olunurmu? Əgər ənfaldan hesab olunmazsa, on faiz nisbətində şəhər İcra Hakimiyyətinə vergi verildiyini nəzərə alaraq, dövlətin də bu torpaq üçün vergi tələb etməyə haqqı varmı?**

**Cavab: Satılan torpaq sahəsi əgər abad olarsa və şəri baxımdan satıcının xüsusi mülkü hesab olunarsa, baxmayaraq ki, alğı-satqı nəticəsində bu torpaq sahəsi alıcının xüsusi mülkü olur və ənfaldan hesab olunmur, amma əgər oranın torpağının satılmasından əldə edilən gəlirin vergisini ödəmək (İranda) İslam Şurası Məclisinin təsdiq etdiyi qanuna əsaslanarsa və bu qanun Konstitusiyanın Mühafizə Şurası tərəfindən təsdiqlənmiş olarsa, bu vergi ödənməlidir və dövlətin onu tələb etməyə haqqı vardır.**

**Sual 1041:** **Yerli İcra Hakimiyyəti çayların yatağındakı qumlardan şəhərin təmir və tikinti işləri və başqa işlər üçün istifadə etməkdə özəl hüquqa malikdirmi? Belə bir hüquqa malik olduğu təqdirdə, əgər bir şəxs çay yatağının onun xüsusi mülki olduğunu iddia edərsə, onun iddiası dinlənilməlidir, yoxsa yox?**

**Cavab: İcra hakimiyyətləri bu işi görə bilər. Amma böyük və ümumi çayların yatağının özlərinin xüsusi mülkü olduğunu iddia edən şəxslərin iddiası qəbul edilmir.**

**Sual 1042:** **Əgər köçəri tayfalar heyvanlarının otlaq sahələrindən köç etsələr, amma yenidən ora qayıtmaq fikrində olsalar, bu otlaq sahələrindən istifadə etməkdə onların birincilik haqqı aradan gedirmi? Nəzərə almaq lazımdır ki, köç etmək həmişə olub və yenə də davam edir.**

**Cavab: Heyvanlarının otlaq sahələrindən köç etdikdən sonra bu otlaq sahələri barəsində onlar üçün şəri baxımdan birincilik haqqının qalması məhəlli-işkaldır və bu barədə ehtiyat etmək yaxşıdır.**

**Sual 1043:** **Bir kənd otlaq və əkin sahələri baxımından sıxıntıdadır və kənd əhalisinin dolanışığı əsasən bu otlaqların otunu satmaqla təmin olunur. Bu vəziyyət İslam İnqilabından sonra da indiyədək davam edir. Amma məsul şəxslər kənd əhalisinə bu işi**

qadağan ediblər. Kənd əhalisinin maddi baxımdan yoxsul olduğunu və bu otlaqların da işlənməmiş torpaqlar olduğunu nəzərə alaraq, kənd şurasının əhaliyə otlaqların otunu satmağı qadağan etmək haqqı varmı və o, bu otların satışından əldə edilən gəlirin kəndin ümumi xərclərinə sərf edə bilərmi?

Cavab: Təbii ümumi otlaqların otları əvvəlcədən kimsənin xüsusi mülkü olmadığına görə, indi də kimsənin xüsusi mülkü deyildir və kimsənin onları satmasına icazə verilmir. Amma dövlət tərəfindən kənd işlərinə təyin edilən məsul şəxs bu otlaqlarda öz heyvanlarını otarmağa icazəsi olan şəxslərdən kəndin ümumi xərcləri üçün müəyyən məbləğ ala bilər.

**Sual 1044:** Köçəri tayfalar on illərcə get-gəl etdikləri yaylaq və qışlaq otlaqlarını özlərinin xüsusi mülkü edə bilərlərmi?

Cavab: Təbii otlaqlar əvvəlcədən kimsənin xüsusi mülkü olmamışdır və buna görə də, bu otlaqlar "ənfal"dan, yəni "ümumi əmlak"dan hesab olunur və müsəlmanların vəliyyi-əmrinin ixtiyarındadır. Köçəri tayfaların bu otlaqlara get-gəl etmələri bu ərazilərin onların mülkiyyətinə çevrilməsinə səbəb olmur.

**Sual 1045:** Köçəri tayfaların otlaqlarının alğı-satqısı nə zaman düzgündür və nə zaman düzgün deyildir?

Cavab: Xüsusi mülk olmayan və ənfal (ümumi əmlak) hesab olunan otlaqların alğı-satqısı heç bir halda düzgün deyildir.

**Sual 1046:** Bizim peşəmiz heyvandarlıqdır və öz heyvanlarımızı meşələrin birində otladırıq. Əlli ildən çoxdur ki, bu işlə məşğuluq. Əlimizdə olan bir sənəd dəlalət edir ki, biz irs yolu ilə bu meşənin şəri sahibiyik. Bu sənəd rəsmi və qanuni bir sənəddir. Bundan əlavə, bu meşələr Əmirəl-mömininə (ə), Seyyidüş-şühədaya (ə) və Əbulfəzl Abbasa (ə) vəqf edilibdir. Heyvandarlar illərdir ki, bu meşələrdə yaşayırlar və burada onların yaşayış evləri, əkin sahələri və bostanları vardır. Təzəlikcə meşə qoruyucuları bizi buradan çıxarmağı və bu əraziləri öz ixtiyarlarına keçirməyi qərara alıblar. Onların bizi bu meşədən çıxarmaq haqqı varmı?

Cavab: Vəqfin düzgün olması "şəri mülkiyyət"ə bağlıdır, yəni vəqf edilən hansısa bir ərazi əvvəllər vəqf edən şəxsin şəri baxımdan mülkü olmalıdır. Həmçinin mülkün varislərə irs qalması da mərhumun "şəri mülkiyyət"inə bağlıdır, yəni mərhum həmin mülkün şəri baxımdan sahibi olmalıdır. Təbii meşələr və otlaqlar indiyədək kimsənin xüsusi mülkü olmadığına və orada abadlaşdırma işləri görülmədiyinə görə, kimsənin xüsusi mülkü hesab olunmur. Ona görə də, oranın vəfq edilməsi düzgün deyildir və kimsəyə də irs qalmır. Amma şəri və qanuni icazə əsasında meşənin əkin sahələrinə, yaşayış yerlərinə və s. çevrilən və abad edilən əraziləri şəri baxımdan xüsusi mülk hesab olunur. Əgər bu ərazilər vəqf edilibsə, oradan istifadə etmək haqqı vəqfin şəri qəyyumuna aiddir. Əgər vəqf edilməyibsə, oradan istifadə etmək haqqı oranın sahibinə aiddir. Amma meşənin və otlaqların "təbii meşə" və "təbii otlaq" olaraq qaldığı əraziləri "ənfal"dan (ümumi əmlak və sərvətdən) hesab olunur və qanun əsasında İslam dövlətinin ixtiyarındadır.

**Sual 1047:** Əkin sahələrinin kənarındakı otlaqlarda öz heyvanlarını otarmaq icazəsi olan heyvandarlar heyvanların su içməsi üçün əkin sahələrinin sahibinin icazəsi olmadan ora daxil ola bilərlərmi? Qeyd edək ki, bu əkin sahələri xüsusi mülk sayılır.

Cavab: Xüsusi mülk sayılan əkin sahələrinin kənarındakı otlaqlarda heyvanları otarmaq icazəsinə malik olmaq, başqasının mülkünə daxil olub oranın suyundan istifadə etməyin icazəli olması üçün kifayət etmir. Bu əkin sahələrinin sahibinin icazəsi olmadan heyvandarların bu işi görmələrinə icazə verilmir.

## Cihad

**Sual 1048:** **Məsum İmamın (ə) qeyb dövründə "ibtidai cihad"ın[1] hökmü nədir? Camiuş-şərait məbsutul-yəd[2] fəqih (yəni müsəlmanların vəliyyi-əmri) bu cihada hökm verə bilərmi?**

**Cavab: Ümumi mənafe tələb etdiyi təqdirdə müsəlmanların rəhbəri olan camiuş-şərait fəqihin ibtidai cihada hökm verməsinin icazəli olması uzaq ehtimal deyildir, əksinə, bu nəzər əqvadır[3].**

**Sual 1049:** **İslam üçün təhlükə yarandığını gördükdə valideynin icazəsi olmadan İslamın müdafiəsinə qalxmağın hökmü nədir?**

**Cavab: İslamın və müsəlmanların müdafiəsi vacibdir və valideynin icazəsinə bağlı deyildir. Amma buna baxmayaraq, bacardıqca valideynin razılığını almaq tövsiyə olunur.**

**Sual 1050:** **İslam ölkələrində yaşayan kitab-əhli "əhli-zimmə"[4] hökmündədirmi?**

**Cavab: Himayəsində yaşadıqları İslam dövlətinin qanunlarına tabe olduqları və əmniyyətə zidd olan işlər görmədikləri müddətə qədər onlar "müqavilə bağlayan şəxs" hökmündədirlər.**

**Sual 1051:** **Müsəlman bir şəxs kafir bir şəxsi – kafir şəxs istər kitab-əhli olsun, istər kitab-əhli olmasın, yaxud istər kişi olsun, istər qadın olsun - küfr ölkəsində və ya müsəlman ölkəsində öz mülkiyyətinə keçirə bilərmi?**

**Cavab: Bu işə icazə verilmir. Kafirlər İslam torpaqlarına hücum çəkdikdə və onlardan bir dəstəsi əsir düşdükdə, müharibə əsirlərinin taleyi İslam hakiminin əlindədir və müsəlman fərdlərin əsirlərin taleyini müəyyən etmək haqları yoxdur.**

**Sual 1052:** **Əgər xalis Məhəmmədi (s) İslamın qorunması günahsız insanın qanının tökülməsinə bağlıdırsa, bu işə icazə verilirmi?**

**Cavab: Günahsız insanın qanının tökülməsi şəriət baxımından haramdır və xalis Məhəmmədi (s) İslamın hökmlərinə ziddir. Odur ki, deyilən bu söz – yəni xalis Məhəmmədi (s) İslamın qorunmasının günahsız insanın qanının tökülməsinə bağlı olması – mənasız bir sözdür. Amma əgər bu sözdə mükəlləfin Allah yolunda cihada getməsi və İslamın müdafiəsinə qalxması, beləliklə, bu yolda öldürülməsi nəzərdə tutulursa, burada bir neçə surət mövcuddur. Əgər mükəlləf öz uzaqgörənliyi ilə İslam dininin təhlükədə olduğunu başa düşərsə, hətta bu yolda öldürülsə belə, İslamın müdafiəsi üçün qiyam etməlidir.**

[1] İbtidai cihad – Məsum İmamın (ə) və ya onun naibinin göstərişi ilə düşmənə hücum tipli döyüşdür.

[2] İşi yerinə yetirməkdə iqtidar və ixtiyara malik olmaq.

[3] Fətva deməkdir.

[4] “Əhli-zimmə”, yaxud “zimmi-kafir” – İslam ölkələrində xüsusi şərtlərlə İslam hökumətinin pənahında yaşayan kitab-əhlinə deyilir.

## Əmr bil-məruf və nəhy ənil-munkərin vacib olma şərtləri

**Sual 1053:** **Əgər əmr bil-məruf və nəhy ənil-munkər etmək vacib əməli tərk edən və ya haram işi yerinə yetirən şəxsin abrının getməsinə və camaatın yanında hörmətdən düşməsinə səbəb olarsa, hökmü nədir?**

**Cavab: Əgər əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərinə və qaydalarına riayət edilərsə və sərhədlər gözlənilərsə, əmr bil-məruf və nəhy ənil-munkər etməyin maneəsi yoxdur.**

**Sual 1054:** **Nəzərə alsaq ki, İslam Respublikası dövlətində vətəndaşların vəzifəsi dildə əmr bil-məruf və nəhy ənil-munkər etməklə kifayətlənməkdir və bu işin digər mərhələləri məsul şəxslərin öhdəsindədir, bu, dövlət tərəfindən alınan qərardır, yoxsa fətvadır?**

**Cavab: Fiqhi fətvadır.**

**Sual 1055:** **Əgər pis və haram işin qarşısını almaq yalnız bu iş ilə onu görənin arasında maneə yaratmaqla mümkün olarsa və bu da, həmin şəxsi döyməyə, yaxud onu həbs edib incitməyə, yaxud da onun malına müdaxilə etməyə – hətta malını tələf etməyə - bağlı olarsa, bu halda şəri-hakimdən icazə almadan nəhy ənil-munkər ünvanında bu işləri görmək olarmı?**

**Cavab: Bu məsələnin müxtəlif surətləri vardır. Ümumiyyətlə, əgər əmr bil-məruf və nəhy ənil-munkərin mərhələləri haram işi yerinə yetirən şəxsin özünə və ya malına ziyan dəyməsilə nəticələnən bir iş görməyə bağlı olmazsa, kimsədən icazə almağa ehtiyac yoxdur. Əksinə, bu miqdar bütün mükəlləflərə vacibdir. Amma əgər dildə yaxşı işə dəvət etmək və ya pis işdən çəkindirməkdən daha çox bir iş görməyə bağlı olarsa, bu təqdirdə əgər mükəlləf İslam hökuməti olan və bu vacib əmələ əhəmiyyət verilən bir ölkədə yaşayarsa, şəri-hakimin, aidiyyatı məsul şəxslərin, polisinin və məhkəmənin izninə ehtiyac vardır.**

**Sual 1056:** **Əgər çox mühüm işlərdə - məsələn, insan həyatını qorumaq üçün - nəhy ənil-munkər etmək hücum edən şəxsi döyməyə bağlı olarsa və onun yaralanması, hətta qətli ilə nəticələnərsə, bu halda da şəri-hakimin izni şərtdirmi?**

**Cavab: Əgər insan həyatını qorumaq və qətlin qarşısını almaq üçün təcili və birbaşa müdaxilə etmək lazımdırsa, bu işə icazə verilir, hətta insan həyatını qorumaq baxımından bu iş vacibdir. Şəri-hakimdən icazə almağa və ya onun bu barədə əmrinin olmasına bağlı deyildir. Amma əgər insan həyatını qorumaq hücum edən şəxsin qətlə yetirilməsinə bağlı olarsa, bunun müxtəlif surətləri vardır ki, onların hər birinin fərqli hökmləri ola bilər.**

**Sual 1057:** **Əgər bir şəxs başqa bir şəxsi yaxşı işə dəvət etmək və pis işdən çəkindirmək istəsə, buna qadir olmalıdırmı? Əmr bil-məruf və nəhy ənil-munkər etmək nə vaxt ona vacib olur?**

**Cavab: Yaxşı işə dəvət edən və pis işdən çəkindirən şəxs yaxşı və pis işi tanımalıdır. Həmçinin pis və günah işi görən şəxsin bu işi bilərəkdən və heç bir şəri üzr olmadan gördüyünü bilməlidir. Əmr bil-məruf və nəhy ənil-munkərin qarşı tərəfə təsir edəcəyi ehtimalı olduğu təqdirdə bu işi görmək ona vacib olur. Həmçinin bu işi görməyin onun özünə bir ziyanı olmamalıdır və bu halda, ehtimali ziyan ilə dəvət etdiyi yaxşı işin və ya çəkindirdiyi pis işin əhəmiyyətini müqayisə etməli və nəzərə almalıdır. Əks təqdirdə, əmr bil-məruf və nəhy ənil-munkər etmək ona vacib olmur.**

**Sual 1058:** Əgər qohumlardan biri davamlı surətdə günah işlədərsə və bu işə əhəmiyyətsiz yanaşarsa, onunla əlaqə saxlamaq və get-gəl etmək baxımından bizim vəzifəmiz nədir?

**Cavab: Əgər ehtimal versəniz ki, onunla müvəqqəti olaraq əlaqəni və get-gəli kəssəniz o, günahdan çəkinəcəkdir, əmr bil-məruf və nəhy ənil-munkər ünvanında bu işi görmək sizə vacibdir. Əks təqdirdə, qohumlarla əlaqəni kəsməyə icazə verilmir.**

**Sual 1059:** İşdən çıxarılma qorxusuna görə əmr bil-məruf və nəhy ənil-munkəri yerinə yetirməmək olarmı? Məsələn, bir şəxs universitetdə gənc tələbələrlə ünsiyyətdə olan bir məsul şəxsin şəriətə zidd əməllər yerinə yetirdiyini, yaxud orada günah işlərə şərait yaratdığını görür. Amma qorxur ki, əgər bu məsul şəxsi yaxşı işə dəvət edərsə və pis işdən çəkindirərsə, onun işdən çıxarılmasına səbəbkar olacaqdır.

**Cavab: Ümumiyyətlə, əgər bir şəxs əmr bil-məruf və nəhy ənil-munkər edəcəyi təqdirdə ona ciddi bir ziyanın dəyəcəyindən qorxarsa, bu işi görməsi vacib deyildir.**

**Sual 1060:** Əgər universitetdə yaxşı işlər tərk edilərsə və günah işlər geniş yayılarsa, eyni zamanda, yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək üçün şərait mövcud olarsa, amma yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək istəyən şəxs subay bir fərd olarsa, subay olduğuna görə əmr bil-məruf və nəhy ənil-munkər etmək vəzifəsi onun üzərindən götürülürmü, yoxsa yox?

**Cavab: Əgər günah işlər görülərsə, eyni zamanda, yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək üçün şərait mövcud olarsa, bu ictimai və insani vəzifəni yerinə yetirmək bütün mükəlləflərin vacib şəri vəzifəsidir. Mükəlləfin müxtəlif vəziyyətləri, o cümlədən, subay və ya ailəli olması burada rol oynamır. Sırf subay olduğuna görə, bu vəzifə mükəlləfin üzərindən götürülmür.**

**Sual 1061:** Əgər bir şəxs xüsusi ictimai nüfuza və mövqeyə malik olarsa, belə ki, ona etiraz edənlərə zərər yetirmək iqtidarında olarsa, eyni zamanda, onun günah və şəriətə zidd işlər gördüyünə, yalan danışdığına dair sübutlar və şahidlər olarsa, belə bir vəziyyətdə biz onu yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək vəzifəsini tərk edə bilərikmi? Yoxsa onun bizə zərər yetirəcəyindən qorxsaq belə, onu yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək bizə vacibdir?

**Cavab: Əgər zərərdən olan qorxu məntiqi bir qorxu olarsa, əmr bil-məruf və nəhy ənil-munkər etmək vacib deyildir və şəri vəzifə sizin üzərinizdən götürülür. Amma tövsiyə olunmur ki, vacib əməli tərk edən və ya haram işi yerinə yetirən bir şəxsin mövqeyini nəzərə alıb, yaxud onun tərəfindən cüzi bir zərərin dəyə biləcəyini güman edib, mömin qardaşa öyüd-nəsihət etməyəsiniz və onu qəflətdən ayıltmayasınız.**

**Sual 1062:** Bəzən günah işlədən şəxsi yaxşı işlərə dəvət edəndə və pis işlərdən çəkindirəndə, İslam əhkamını və vacib əməlləri bilmədiyinə görə onda dinə qarşı ikrah yaranır. Digər tərəfdən də, əgər onu öz halına buraxsaq, fəsada və başqalarının günah işlətməsinə zəmin yaradacaqdır. Bu halda bizim vəzifəmiz nədir?

**Cavab: Lazımi şərtlərə riayət edərək əmr bil-məruf və nəhy ənil-munkər etmək İslam əhkamını və cəmiyyətin sağlamlığını qorumaq üçün ümumi şəri vəzifədir. Günah işlədən şəxsdə və ya kimlərdəsə dinə qarşı ikrah yaranacağı düşüncəsi, bu mühüm vəzifənin tərk edilməsinə əsas vermir.**

**Sual 1063:** Əgər fəsadın qarşısını almaq vəzifəsini daşıyan dövlət məmurları öz vəzifələrini yerinə yetirməkdə səhlənkarlıq göstərsələr, camaatın özü bu işi görə bilərmi?

**Cavab: Təhlükəsizlik və hüquq orqanlarının vəzifələri hesab olunan işlərə adi vətəndaşların müdaxilə etmələrinə icazə verilmir. Amma əmr bil-məruf və nəhy ənil-munkərin**

hüdudlarına və şərtlərinə riayət edərək camaatın bu işi görməsinin maneəsi yoxdur.

**Sual 1064:** Adi camaatın vəzifəsi ancaq dildə əmr bil-məruf və nəhy ənil-munkər etməklə kifayətlənməkdirmi? Əgər ancaq dildə əmr bil-məruf və nəhy ənil-munkər etməklə kifayətlənmək vacib olarsa, bu məsələ, "Şəriət hökmlərinin izahı" adlı kitablarda, xüsusilə də, "Təhrirul-vəsilə"də qeyd olunanlarla ziddiyyət təşkil etmirmi? Yox əgər lazım olduqda əmr bil-məruf və nəhy ənil-munkərin digər mərhələlərini də icra etməyə icazə verilirsə, onda lazım olduqda "Təhrirul-vəsilə"də qeyd edilən bütün mərhələləri icra etmək olarmı?

**Cavab: Nəzərə alsaq ki, İslam hakimiyyətində əmr bil-məruf və nəhy ənil-munkərin "dildə əmr və nəhy etmək mərhələsi"ndən sonrakı mərhələləri təhlükəsizlik və hüquq orqanlarına həvalə etmək mümkündür, xüsusilə də, günahın qarşısını almaqdan ötrü güc tətbiq etmək, o cümlədən, haram işi yerinə yetirən şəxsin malını müsadirə etmək, yaxud ona şallaq vurmaq və həbs etməkdən başqa çıxış yolu olmadıqda, bu kimi hallarda mükəlləflərin dildə əmr bil-məruf və nəhy ənil-munkər etməklə kifayətlənmələri vacibdir. Güc tətbiq edilməsinə ehtiyac olduğu təqdirdə, təhlükəsizlik və hüquq orqanlarında aidiyyatı şöbələrə müraciət etməlidirlər. Bu məsələnin İmam Xomeyninin (r.ə) fətvası ilə heç bir ziddiyyəti yoxdur. Amma İslam hakimiyyətinin iqtidarda olmadığı zamanlarda və məkanlarda mükəlləflərə şərait mövcud olduğu təqdirdə ardıcıllığa riayət edərək əmr bil-məruf və nəhy ənil-munkərin bütün mərhələlərini məqsəd hasil olanadək icra etmək vacibdir.**

**Sual 1065:** Bəzi sürücülər maşında ğina və haram musiqilər diski oxutdururlar və onlara öyüd-nəsihət etsən də maqnitafonu söndürmürlər. Xahiş edirəm ki, bu kimi hallarda bu sürücülərlə uyğun davranış qaydasını açıqlayardınız. Onlarla sərt davranmaq olarmı, yoxsa yox?

**Cavab: Nəhy ənil-munkər etməyin şəraiti mövcud olduğu təqdirdə sizə ancaq dildə nəhy ənil-munkər etmək vacibdir. Əgər sözünüzün təsiri olmazsa, ğina və haram musiqiyə qulaq asmaqdan çəkinməlisiniz. Əgər qeyri-ixtiyari olaraq ğina və haram musiqini eşidirsinizsə, sizə heç bir günahı yoxdur.**

**Sual 1066:** Mən xəstəxanaların birində müqəddəs peşə olan tibb bacısı işləyirəm. Bəzən xəstəxananın bəzi palatalarında xəstələrin haram musiqilər dinlədiklərini görürəm. Mən onlara bu işi görməmələrini tövsiyə edirəm. Növbəti dəfə tövsiyədən sonra sözümün təsiri olmadığı təqdirdə, kaseti maqnitafondan çıxarır və musiqiləri sildikdən sonra kasetləri onların özünə qaytarıram. Bu davranış düzgündürmü, yoxsa düzgün deyildir?

**Cavab: Kasetdən haram istifadənin qarşısını almaqdan ötrü kasetdəki haram musiqiləri silmək olar. Amma bu işi görmək kaset sahibinin və ya şəri-hakimin icazəsinə bağlıdır.**

**Sual 1067:** Bəzi mənzillərdən musiqi səsləri eşidilir və bu musiqilərin halal olub-olmadığı məlum deyildir. Bəzən də musiqi səsləri çox ucadan gəlir, belə ki, möminlərin narahatçılığına səbəb olur. Bu halda bizim vəzifəmiz nədir?

**Cavab: Camaatın evinin daxilinə müdaxilə etməyə icazə verilmir. Əmr bil-məruf və nəhy ənil-munkər etmək günah iş yerinə yetirildiyi, həmçinin əmr və nəhyin şərtlərinin mövcud olduğu təqdirdə vacibdir.**

**Sual 1068:** Hicabı kamil olmayan qadınlara əmr bil-məruf və nəhy ənil-munkər etməyin hökmü nədir? Əgər insan belə qadınlara dildə əmr bil-məruf və nəhy ənil-minkər etdiyi vaxt şəhvətinin təhrik olunmasından ehtiyatlanarsa, bu işi yerinə yetirməyin hökmü nədir?

**Cavab: Əmr bil-məruf və nəhy ənil-munkər etmək üçün naməhrəm qadına reybə[1] ilə**

baxmaq lazım deyildir. Hər bir mükəlləf haram işdən çəkinməlidir, xüsusilə də, vacib əməl olan nəhy ənil-munkər işini yerinə yetirdiyi vaxt.

[1] Fəsada və günaha düşmək qorxusu.

## Əmr bil-məruf və nəhy ənil-munkər etməyin qaydaları

**Sual 1069:** Ata və ana xüms vermədikdə övladın onların qarşısında, yaxud ər xüms vermədikdə qadının onun qarşısında vəzifəsi nədir? Onlar xümsü verilməmiş və harama qarışmış maldan istifadə edə bilərlərmi? Nəzərə almalıyıq ki, ruhu çirkləndirdiyinə görə, belə maldan istifadə etməmək hədislərdə təkid edilir.

**Cavab: Əgər övlad ata və anasının, yaxud qadın ərinin vacib bir əməli tərk etdiyini və ya haram bir işi gördüyünü müşahidə edərsə, şərait mövcud olduğu təqdirdə əmr bil-məruf və nəhy ənil-munkər etməlidir. Amma onların malından istifadə etməsinin maneəsi yoxdur.**

**Sual 1070:** Dini vəzifələrə tam etiqadı olmadığına görə, əgər valideyn bu vəzifələrə əhəmiyyət verməzsə, övlad valideyninə qarşı necə davranmalıdır?

**Cavab: Valideynin ehtiramını qoruyaraq, yumşaq dillə onları yaxşı işlərə dəvət etməli və pis işlərdən çəkindirməlidir.**

**Sual 1071:** Mənim qardaşım şəri və əxlaqi məsələlərə riayət etmir və indiyədək öyüd-nəsihət ona təsir etməmişdir. Onun bu hərəkətlərini müşahidə etdiyim vaxt mənim vəzifəm nədir?

**Cavab: Onun şəriətə zidd hərəkətlərinə nifrət etdiyinizi büruzə verin və faydalı və təsirli ola biləcək hər hansı bir yolla ona qardaşcasına öyüd-nəsihət verin. Amma onunla əlaqəni və get-gəli kəsməyə icazə verilmir.**

**Sual 1072:** Əvvəllər günah işlər görən, məsələn, şərab içən şəxslərlə hansı şəkildə əlaqə qurmalıyıq?

**Cavab: İnsanların indiki vəziyyəti meyar götürülür. Əgər onlar etdikləri əməllərə görə tövbə ediblərsə, başqa möminlərlə əlaqə qurduğunuz kimi onlarla əlaqə qurun. Amma hal-hazırda haram işlər görən şəxsi bu işlərdən çəkindirməlisiniz. Əgər o, haram işlərdən çəkinməzsə və onu bu işlərdən çəkindirməyin tək yolu onunla əlaqəni kəsmək, ondan uzaqlaşmaq olarsa, nəhy ənil-munkər ünvanında onunla əlaqəni kəsmək vacibdir.**

**Sual 1073:** Bildiyiniz kimi, İslama zidd olan qərb mədəniyyətinin ardı-arası kəsilməyən basqısı nəticəsində cəmiyyətimizdə bəzi qeyri-islami adətlər yayılmaqdadır. Məsələn, bəzi kişilərin boyunlarından qızıl xaç asmaları, yaxud bəzi qadınların al-əlvan üst geyimləri geyinmələri, yaxud da bəzi kişi və qadınların diqqəti cəlb edən və ürfdə onlardan istifadə etmək qəbahət sayılan bəzək əşyalarından, tünd rəngli eynəklərdən, saatlardan istifadə etmələrini qeyd etmək olar. Bəzən bu kimi şəxslərə əmr bil-məruf və nəhy ənil-munkər etdikdən sonra da onlar öz işlərindən əl çəkmirlər. Xahiş edirəm ki, bu kimi şəxslərlə necə rəftar etməli olduğumuzu açıqlayardınız.

**Cavab: Kişilərin qızıl bəzək əşyalarından istifadə etmələri və qızıl bir əşyanı boyunlarından asmaları birmənalı olaraq haramdır. Modelinə və ya rənginə və ya başqa bir cəhətinə görə ürfdə qeyri-müsəlmanların mədəniyyətini təqlid etmək və bu mədəniyyəti yaymaq hesab olunan geyimləri geyinməyə icazə verilmir. Həmçinin İslam və müsəlmanların düşmənlərinin mədəniyyətini təqlid etmək və onların mədəniyyətini yaymaq hesab olunan bəzək əşyalarından istifadə etməyə icazə verilmir. Yad mədəniyyəti təqlid edən işlər görən şəxsləri dildə nəhy ənil-munkər etmək hamıya vacibdir.**

**Sual 1074:** Bəzən bir universitet tələbəsinin və ya bir idarə işçisinin haram iş gördüyünü müşahidə edirik. Amma ona dəfələrlə

**öyüd-nəsihət və xəbərdarlıq edilsə də, o öz işindən əl çəkmir. Əksinə, universitet və ya idarə mühitində fəsad atmosferinin yaranmasına səbəb olan işlərini yerinə yetirməkdə davam edir. Belə şəxslər barəsində bəzi idarə cəzalarının tətbiq olunması, məsələn, onlara töhmət verilməsi barədə sizin nəzəriniz nədir?**

**Cavab: Universitet və ya idarə nizamnaməsinə müvafiq cəzaların verilməsinin maneəsi yoxdur. Əziz gənclərimiz əmr bil-məruf və nəhy ənil-munkər məsələsinə ciddi yanaşmalı, onun şəri hökmlərini və şərtlərini diqqətlə öyrənməlidirlər. Bu ilahi vacib əməli kütləviləşdirməli, yaxşı işlərə rəğbətləndirmək və haram işlərin qarşısını almaq üçün əxlaq çərçivəsində olan təsirli üsullardan istifadə etməlidirilər. Bu vacib əməli öz şəxsi məqsədləri üçün həyata keçirməkdən çəkinməli və bilməlidirlər ki, bu yol yaxşı işləri yaymaq və pis işlərin qarşısını almaq üçün ən yaxşı və təsirli yoldur. Allah sizə Özünün razı qaldığı işləri nəsib etsin.**

**Sual 1075: Haram bir işi görən şəxsi cəzalandırmaq məqsədilə onun salamının cavabını verməmək olarmı?**

**Cavab: Müsəlmanın salamının cavabını vermək şəri baxımdan vacibdir. Amma əgər nəhy ənil-munkər məqsədilə salamın cavabını verməmək ürfdə nəhy ənil-munkər hesab olunarsa, bu işi görmək olar.**

**Sual 1076: Əgər idarənin məsuluna sübuta yetsə ki, idarənin bəzi işçiləri namaza səhlənkar yanaşır, yaxud ümumiyyətlə namaz qılmırlar və onlara öyüd-nəsihətin də təsiri yoxdur, bu şəxslərə qarşı onun vəzifəsi nədir?**

**Cavab: Hər halda, əmr bil-məruf və nəhy ənil-munkərin şərtlərinə riayət edərək davamlı surətdə əmr bil-məruf və nəhy ənil-minkər etməyin təsirini nəzərdən qaçırmasın. Əmr bil-məruf və nəhy ənil-munkərin onlara təsir edəcəyindən ümidini üzdükdə, əgər idarənin qanunları çərçivəsində belə şəxsləri bəzi güzəştlərdən məhrum etmək mümkün olarsa, bu qanunlar onlar barəsində icra olunmalıdır. Eyni zamanda, onlara xəbərdarlıq edilməlidir ki, bu, onların ilahi vacib əmələ qarşı səhlənkarlıqlarına görədir.**

## Əmr bil-məruf və nəhy ənil-munkərin müxtəlif məsələləri

**Sual 1077:** Bacım bir müddətdir ki, namaz qılmayan bir kişi ilə izdivac etmişdir. Bacımın əri davamlı olaraq bizim evə get-gəl etdiyinə görə onunla söhbət etmək və ünsiyyətdə olmaq məcburiyyətindəyəm. Bəzən də məndən kömək istəyir və mən də ona kömək edirəm. Sualım budur ki, şəri baxımdan mən onunla ünsiyyətdə ola, onunla söhbət edə və ona kömək edə bilərəmmi? Ona qarşı mənim vəzifəm nədir?

**Cavab: Sizin vacib vəzifəniz yalnız - əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olduğu təqdirdə - əmr bil-məruf və nəhy ənil-munkər etməkdir. Əgər onunla ünsiyyətdə olmaq və ona kömək etmək namazı tərk etməsinə daha çox təşviq olunmasına səbəb olmazsa, bunun maneəsi yoxdur.**

**Sual 1078:** Əgər böyük alimlərin zalımlarla və zalım hökumət başçıları ilə əlaqə qurmaları onların zülmünün azalmasına səbəb olarsa, alimlər onlarla əlaqə qura bilərlərmi?

**Cavab: Əgər alim üçün sübuta yetsə ki, onun zalımla əlaqə qurması onun zülmünün qarşısını alacaq və onu pis işdən çəkindirməkdə təsirli olacaqdır, yaxud zalımın mühüm bir məsələyə əhəmiyyət verməsinə və onu araşdırmasına səbəb olacaqdır, onunla əlaqə qurmasının maneəsi yoxdur.**

**Sual 1079:** Mən bir neçə ildir ki, ailə qurmuşam və dini məsələlərə çox əhəmiyyət verirəm. İmam Xomeyniyə (r.ə) təqlid edirəm. Amma təəssüflər olsun ki, həyat yoldaşım dini məsələlərə çox əhəmiyyət vermir. Bəzən aramızda düşən söz-söhbətdən sonra bir dəfə namazını qılır, sonra yenə də qılmır. Onun bu hərəkəti məni çox incidir. Mənim ona qarşı vəzifəm nədir?

**Cavab: Sizin vəzifəniz onun islahı üçün mümkün olan hər şəraiti və vasitəni hazırlamaqdır. Onunla əsla tünd və qaba davranmamalısınız. Əmin olun ki, dini məclislərdə iştirak etməyin və dindar ailələrlə get-gəl etməyin onun islah olunmasında çox böyük təsiri olacaqdır.**

**Sual 1080:** Bir kişiyə bəzi dəlil-sübutlara əsasən məlum olur ki, onun həyat yoldaşı bir neçə uşaq anası olmasına baxmayaraq, gizli şəkildə iffətə zidd əməllər yerinə yetirir. Amma kişinin bunu sübut etmək üçün şəri dəlili - məsələn, bu işə şahidlik edən bir şahidi - yoxdur. Onun övladlarının belə bir qadının tərbiyəsi altında böyüdüyünü nəzərə alaraq, bu kişi bu qadınla necə rəftar etməlidir? Əgər şəxs və ya şəxslərin bu rüsvayçı və ilahi şəriətə zidd əməli yerinə yetirdikləri məlum olarsa, amma dini məhkəməyə təqdim edilə biləcək dəlil-sübutlar mövcud olmazsa, belə şəxslərlə necə davranmaq lazımdır?

**Cavab: Sui-zənn etmək və zənni dəlil-sübutlara əsaslanmaqdan çəkinmək vacibdir. Şəriətdə haram buyurulan əməlin yerinə yetirildiyi dəqiqləşdiyi təqdirdə, xəbərdarlıq etmək və öyüd-nəsihət etməklə bu əməli yerinə yetirən şəxsi pis işlərdən çəkindirmək vacibdir. Əgər nəhy ənil-munkər təsir etməzsə, tutarlı dəlillər mövcud olduğu təqdirdə məhkəməyə müraciət etmək olar.**

**Sual 1081:** Dini hüdudlara riayət edərək bir gənc qız bir gənc oğlana dərslərində və ya başqa işlərində kömək edə bilərmi?

**Cavab: Sualda qeyd edilənlərə əsasən, bu işin maneəsi yoxdur. Amma şeytanın aldatmaları və vəsvəsələrindən ciddi surətdə qorunmaq lazımdır və şəriətin bu barədə olan hökmlərinə - məsələn, naməhrəmlə xəlvət bir məkanda olmamaq kimi – riayət olunmalıdır.**

**Sual 1082:** **Əgər idarə və müəssisə işçiləri iş yerində məsul işçilərin idarə və şəriətin qanunlarına zidd əməllər yerinə yetirdiklərini görsələr, onların vəzifələri nədir? Əgər bir işçi nəhy ənil-munkər etdiyi təqdirdə məsul işçi tərəfindən ona zərər dəyəcəyindən qorxsa, nəhy ənil-munkər vəzifəsi bu işçinin üzərindən götürülürmü?**

**Cavab: Əgər əmr bil-məruf və nəhy ənil-munkərin şəraiti mövcud olarsa, əmr bil-məruf və nəhy ənil-munkər etməlidirlər. Əks təqdirdə, bu xüsusda onların bir vəzifəsi yoxdur. Həmçinin ziyandan ciddi qorxu mövcud olduğu təqdirdə də şəri vəzifə onların üzərindən götürülür. Bu hökm İslam hakimiyyətinin iqtidarda olmadığı təqdirdədir. Amma bu ilahi vəzifəyə əhəmiyyət verən İslam hakimiyyəti iqtidarda olduqda əmr bil-məruf və nəhy ənil-munkər etməyə qadir olmayan şəxslərə aidiyyatı qurumlara məlumat vermək və fəsad törədən şəxslər zərərsizləşdirilənə və fəsadın kökü kəsilənə qədər məsələ ilə maraqlanmaq vacibdir.**

**Sual 1083:** **Əgər dövlət idarələrinin birində dövlət əmlakının (beytülmal) mənimsənməsi baş verirsə, digər tərəfdən də bir şəxs həmin idarənin müdiri olduğu təqdirdə bu vəziyyəti islah edə biləcəyinə inanırsa, amma onun müdir ola bilməsi yalnız məsul işçilərdən birinə rüşvət verməklə həyata keçə bilərsə, dövlət əmlakının mənimsənməsinin qarşısını almaq üçün rüşvət vermək olarmı, yoxsa olmaz? Bu, əslində, "daha pis iş"in qarşısını "pis iş" ilə almaqdır.**

**Cavab: Qanun pozuntusundan xəbər tutan şəxslərin vəzifəsi - "nəhy ənil-munkər"in şərtlərinə və qaydalarına riayət edərək - "nəhy ənil-munkər" etməkdir. Hər hansı bir iş üçün, hətta fəsadın qarşısını almaq üçün rüşvət vermək və bu kimi qeyri-qanuni yollara əl atmağa icazə verilmir. Əlbəttə, İslam hakimiyyətinin iqtidarda olduğu bir ölkədə şəriətə və qanuna zidd olan belə bir iş baş verdikdə, şəxsən əmr bil-məruf və nəhy ənil-munkər etməyə qadir olmadıqlarına görə bu ilahi vəzifə vətəndaşların üzərindən götürülmür. Onlara aidiyyatı qurumlara məlumat vermək və məsələ ilə maraqlanmaq vacibdir.**

**Sual 1084:** **"Munkər", yəni "pis iş" nisbi məsələdirmi? Belə ki, bir-birilə müqayisədə iki mühitdən biri digərindən daha pis olduğuna görə, nisbətən yaxşı mühitdə bəzi pis işlərə qarşı nəhy ənil-munkər etmək tərk edilə bilər və başqa pis işlərlə müqayisədə bunların haram və pis işlər hesab olunmadığını əsas götürərək onların qarşısı alınmaya bilərmi?**

**Cavab: Pis iş olmaq baxımından pis işlər arasında heç bir fərq yoxdur. Amma eyni halda, bir-birilə müqayisədə onların bəzilərinin haramlığı daha çox ola bilər. Hər halda, nəhy ənil-munkərin şəraiti mövcud olduğu təqdirdə nəhy ənil-munkər etmək bir şəri vəzifədir və bu vəzifəni tərk etməyə icazə verilmir. Bu hökmdə pis işlər arasında, həmçinin müxtəlif mühitlər (universitet, idarə və başqa mühitlər) arasında heç bir fərq yoxdur.**

**Sual 1085:** **İslam ölkəsində bəzi müəssisələrdə işləyən xarici mütəxəssislərin öz mənzillərində və ya onların qalması üçün ayrılan yerlərdə spirtli içkilər içmələrinin, həmçinin donuz ətindən yeməklər hazırlayıb yemələrinin hökmü nədir? Onların iffətə və camaata hakim olan dəyərlərə zidd işlər görmələrinin hökmü nədir? Onların işlədikləri müəssisələrin məsullarının və onlarla ünsiyyətdə olan işçilərin vəzifələri nədir? Müəssisənin məsullarına və bölgədə olan aidiyyatı qurumlara bu barədə məlumat verildikdən sonra əgər onlar heç bir tədbir görməzlərsə, şəri vəzifə nədir?**

**Cavab: Müəssisənin məsulları onlara göstəriş verməlidir ki, spirtli içki içdiklərini və haram ətlər yediklərini büruzə verməsinlər. Həmçinin müəssisənin məsulları onların aşkar şəkildə bu içkilərdən və qidalardan istifadə etmələrinin qarşısını almalıdır. İffətə zidd olan işlər görmələrinə gəlincə isə, buna heç bir vəchlə icazə verilməməlidir. Hər halda, aidiyyatı qurumlar bu barədə lazımi tədbirlər görməlidir.**

**Sual 1086:** **Bəzi qardaşlar əmr bil-məruf və nəhy ənil-munkər etmək, öyüd-nəsihət vermək və maarifləndirmək məqsədilə bəzi məkanlara gedirlər ki, orada hicabsız qadınlar da olur. Onlar əmr-bil məruf etmək məqsədilə ora getdiklərinə görə hicabsız qadınlara baxa bilərlərmi?**

**Cavab: Bir məqsəd olmadığı təqdirdə birinci baxışın maneəsi yoxdur. Amma üz və biləyə qədər əllər istisna olmaqla, qadının başqa üzvlərinə bilərəkdən baxmağa, hətta əmr bil-məruf etmək məqsədilə olsa belə, icazə verilmir.**

**Sual 1087:** **Oğlan və qız tələbələrin birgə təhsil aldıqları universitetlərdə müşahidə etdikləri fəsadlar qarşısında mömin gənclərin vəzifəsi nədir?**

**Cavab: Fəsada bulaşmaqdan özlərini qorumaqla yanaşı, əmr bil-məruf və nəhy ənil-munkərin şərtləri mövcud olduğu və bu işi görməyə qadir olduqları təqdirdə bu şəri vəzifəni yerinə yetirməlidirlər.**

## Nəcasətlərin ticarəti

**Sual 1088:** **Otlaqları və əkin sahələrini qorumaq məqsədilə ov idarəsi və ya bölgənin əkinçiləri tərəfindən ovlanan çöl donuzlarını konservləşdirmək və qeyri-islami ölkələrə ixrac etmək məqsədilə almaq olarmı?**

**Cavab: Sualda qeyd olunanlara əsasən, bu işdən qazanc əldə etməmək ehtiyata müvafiqdir. Amma məntiqi bir mənfəət və halal istifadə üçün olarsa – məsələn, heyvan qidası olaraq istifadə edilməsi və ya donuz piyindən sabun istehsalında istifadə edilməsi – bu halda bu işdən gəlir əldə etməyin maneəsi yoxdur.**

**Sual 1089:** **Donuz əti konservi zavodunda, gecə klublarında, fəsad məkanlarında işləmək olarmı? Bu yolla əldə edilən qazancın hökmü nədir?**

**Cavab: Haram işlərdə işləməyə, məsələn, şərab satmağa, yaxud gecə klubları, fəsad və əxlaqsızlıq məkanları, qumarxana, bar və bu kimi məkanlar yaratmağa və idarə etməyə icazə verilmir. Bu yolla qazanc əldə etmək haramdır və insan bu işlərin müqabilində aldığı ücrətin sahibi olmur. Amma donuz ətinin satışına gəlincə, bu işdən qazanc əldə etməmək ehtiyata müvafiqdir.**

**Sual 1090:** **Şərab, donuz əti və ümumiyyətlə, yeyilməsi və içilməsi haram olan şeyləri, bunları halal hesab edən bir şəxsə satmaq və ya hədiyyə etmək düzgündürmü?**

**Cavab: Məstedici içkiləri başqalarına satmağa və ya verməyə birmənalı olaraq icazə verilmir. Məstedici içkilər istisna olmaqla, digər haram yemək və içməkləri başqasına satmaq və verməyə gəlincə, əgər qarşı tərəf onlardan istifadəni öz məzhəbinə görə haram bilmirsə, bunun maneəsi yoxdur. Donuz ətinin satışından isə qazanc əldə etməmək ehtiyata müvafiqdir.**

**Sual 1091:** **Bizim qida məhsullarının satışını həyata keçirən bir şirkətimiz vardır. Satış mərkəzindəki bəzi qida məhsulları şəri kəsim olmayan ətlərdən və yeyilməsi haram olan məhsullardandır. Nəzərə alsaq ki, əldə edilən illik qazanc səhmdarlar (şəriklər) arasında bölüşdürülür, bu qazancın hökmü nədir?**

**Cavab: Məstedici içkiləri başqalarına satmağa və ya verməyə birmənalı olaraq icazə verilmir. Onların vasitəsilə qazanc əldə etmək də haramdır. Məstedici içkilər istisna olmaqla, digər haram yemək və içməkləri başqasına satmağa və ya verməyə gəlincə, əgər qarşı tərəf onlardan istifadəni öz məzhəbinə görə haram bilmirsə, bunun maneəsi yoxdur. Donuz ətinin satışından isə qazanc əldə etməmək ehtiyata müvafiqdir. Haram yolla əldə edilən qazancın səhmdarlar arasında bölüşdürülməsinə isə icazə verilmir. Şirkətin sərmayəsi bu qazancla qarışdığı təqdirdə, "harama qarışmış mal" hökmündə olacaq və bunun qisimləri "Şəriət hökmlərinin izahı" adlı kitablarda qeyd edilmişdir.**

**Sual 1092:** **Bir müsəlman şəxs qeyri-islami bir ölkədə hotel tikdirmişdir. O, bu hoteldə müştərilərə müxtəlif növ şərablar və haram yeməklər satmaq məcburiyyətindədir. Çünki bu ölkənin əhalisinin əksəriyyəti xristiandır və yeməyin yanında şərab da içirlər. Onlar yeməyin yanında şərab verilməyən hotellərə getmirlər. Bu müsəlman şəxsin haram işlər ilə əldə etdiyi qazancın hamısını şəri-hakimə vermək niyyətində olduğunu nəzərə alaraq, onun bu işi görməsinə icazə verilirmi?**

**Cavab: Qeyri-islami ölkələrdə hotel və restoran açmağın maneəsi yoxdur. Amma məstedici içkiləri başqalarına satmağa və ya verməyə birmənalı olaraq icazə verilmir. Onların vasitəsilə qazanc əldə etmək də haramdır. Məstedici içkilər istisna olmaqla, digər haram yeməkləri və içməkləri başqasına satmağa və ya verməyə gəlincə, əgər qarşı tərəf onlardan istifadəni öz məzhəbinə görə haram bilmirsə, bunun maneəsi yoxdur. Donuz ətinin satışından isə qazanc əldə etməmək ehtiyata müvafiqdir, baxmayaraq ki, müsəlman şəxs bu pulu şəri-hakimə vermək niyyətindədir.**

**Sual 1093:**
**1) Tora düşüb ölən pullu balığın hökmü nədir?**
**2) Əti haram olan su heyvanlarının alğı-satqısının hökmü nədir? Əti haram olan su heyvanlarını halal bilən şəxslərə bunları satmaq olarmı? Heyvan qidası olaraq, həmçinin sənayedə istifadə edilməsi üçün bunların alğı-satqısına icazə verilirmi?**

**Cavab:**
**1) Balıqçı toruna düşüb torda ölən pullu balıq halaldır.**
**2) Əgər qarşı tərəf haram yeməklərdən istifadəni öz məzhəbinə görə haram bilmirsə, bu yeməkləri ona satmağın və ya verməyin maneəsi yoxdur. Əks halda, buna icazə verilmir. Ümumiyyətlə, əgər insan qidası olaraq deyil, başqa bir məntiqi mənfəətə görə və halal istifadə məqsədilə – məsələn, tibdə və sənayedə istifadə edilməsi, eləcə də, heyvan qidası olaraq istifadə edilməsi məqsədilə – olarsa, onların alğı-satıqısının maneəsi yoxdur.**

**Sual 1094:** **Qida məhsullarının daşınması işində işləmək olarmı, qeyd etməliyəm ki, bu qida məhsullarının arasında şəri kəsim olmayan ətlər də mövcuddur? Bu ətlərin yeyilməsini halal bilən, yoxsa halal bilməyən insanlar üçün daşınmasının bir fərqi vardırmı?**

**Cavab: Əgər bir şəxs öz məzhəbinə görə bu ətlərdən istifadəni haram bilmirsə, şəri kəsim olmayan ətin belə insanlar üçün daşınmasının maneəsi yoxdur. Əks halda, buna icazə verilmir.**

**Sual 1095:** **Qandan istifadə edən şəxsə qan satmaq olarmı?**

**Cavab: Qan satmaq əgər məntiqi və şəri məqsəd üçün olarsa, maneəsi yoxdur.**

**Sual 1096:** **Müsəlman şəxs qeyri-müsəlman ölkəsində qeyri-müsəlmanlara haram yeməklər (məsələn, donuz ətindən və ya şəri kəsim olmayan ətdən hazırlanan yeməklər) və spirtli içkilər sata bilərmi? Aşağıdakı surətlərdə bunun hökmü nədir:**
**a) Sözügedən yeməklər və spirtli içkilər onunku deyildir və bu məhsulların satılması qarşılığında da onun heç bir gəliri yoxdur. Onun işi yalnız bu məhsulları və eləcə də, halal yeməkləri müştəriyə satmaqdır.**
**b) O, bu obyektdə qeyri-müsəlman bir şəxslə şərikdir. Belə ki, müsəlman şəxs halal məhsulların və onun qeyri-müsəlman şəriki haram yeməklərin və spirtli içkilərin sahibidir. Hər biri də ayrıca olaraq öz mallarının gəlirini götürürlər.**
**c) Müsəlman şəxs haram qida məhsulları və spirtli içkilərin satıldığı obyektdə yalnız işləyir və sabit maaş alır, istər bu obyektin sahibi müsəlman olsun, istər qeyri-müsəlman olsun.**
**ç) Müsəlman şəxs haram qida məhsulları və spirtli içkilər satılan obyektdə yalnız bir işçi kimi işləyir və ya oranın şərikidir, amma bu məhsulların alğı-satqısında heç bir rolu yoxdur və bu məhsullar onunku deyildir. Əksinə, onun yalnız qida məhsullarının əldə edilməsi və satışında rolu vardır. Nəzərə alsaq ki, müştərilər spirtli içkiləri həmin məkanda içmirlər, onun işinin hökmü nədir?**

**Cavab: Məstedici spirtli içkiləri satmaq, bu məhsulların satıldığı məkanda işləmək, bu məhsulların istehsalında və alğı-satqısında şərik olmaq, onların vasitəsilə qazanc əldə etmək və bu işlərdə başqalarının göstərişini yerinə yetirmək şəri baxımdan haramdır. Bu baxımdan, insan istər sərmayədə şərik olsun, istərsə də gündəlik işçi olsun, yaxud həmin**

məkanda istər təkcə haram qida məhsulları və spirtli içkilər satılsın, istərsə də onlarla yanaşı halal qida məhsulları da satılsın, yaxud da insan istər bu işdən gəlir götürsün və ya əmək haqqı alsın, istərsə də bu işi havayı görsün, bunun bir fərqi yoxdur. İşin sahibinin və ya şərikin müsəlman, yoxsa qeyri-müsəlman olmasının da bir fərqi yoxdur. Məstedici içkilər istisna olmaqla, digər haram yemək və içməkləri başqasına satmaq və vermək isə, əgər qarşı tərəf onlardan istifadəni öz məzhəbinə görə haram bilmirsə, bunun maneəsi yoxdur. Donuz ətinin satışından isə qazanc əldə etməmək ehtiyata müvafiqdir.

**Sual 1097:** Spirtli içkilərin daşınması üçün istifadə edilən yük maşınlarını təmir etməklə qazanc əldə etmək olarmı?

Cavab: Əgər yük maşınlarından spirtli içkilərin daşınması üçün istifadə olunursa, bu halda onların təmiri işində işləməyə icazə verilmir.

**Sual 1098:** Bir ticarət şirkətinin bir neçə qeyri-əsas şöbəsi qida məhsullarının satışı ilə məşğuldur. Bu qida məhsulları arasında şəri baxımdan haram olan qida məhsulları da (məsələn, xaricdən idxal olunub şəri kəsim olmayan ətlər) mövcuddur. Nəticədə, şirkətin əmlakının bir hissəsi şəri baxımdan haram hesab olunur. Həm haram, həm də halal qida məhsulları satan bu şirkətin şöbələrindən ehtiyac duyulan məhsulları almaq olarmı? Əgər almaq olarsa, satıcıya verilən pulun qalığını ondan almaq üçün şəri-hakimin icazəsinə ehtiyac varmı, nəzərə alsaq ki, satıcının qaytardığı pul "sahibi bilinməyən mal" qismindədir? Əgər şəri-hakimdən icazə almağa ehtiyac varsa, ehtiyac duyduğu məhsulları bu şöbələrdən alan alıcıya siz bu icazəni verirsinizmi?

Cavab: Şirkətin əmlakı barədə mükəlləfin dəqiq məlumatı olmadığı təqdirdə, şirkətin əmlakında haram malın olduğunu ümumi şəkildə bilmək, ehtiyac duyulan məhsulların bu şirkətdən almağın düzgünlüyünə xələl gətirmir. Buna görə də, ehtiyac duyulan məhsulları bu şirkətdən almaq hamı üçün maneəsizdir. Pulun qalığını almağa gəlincə, şirkətin əmlakı barədə müştərinin dəqiq məlumatı olmadığı təqdirdə, onu almağın maneəsi yoxdur. Həmçinin şirkətdən aldığı məhsulun özündə haram malın olduğunu bilmədiyi təqdirdə, onu almağın maneəsi yoxdur. Aldığı məhsuldan və pulunun qalığı olaraq şirkətdən aldığı puldan istifadə etmək üçün şəri-hakimin icazəsinə ehtiyac yoxdur.

**Sual 1099:** Qeyri-müsəlmanların ölülərini yandırmaq işində işləmək və buna görə zəhmət haqqı almaq olarmı?

Cavab: Qeyri-müsəlmanların ölülərinin cəsədini yandırmaq haram deyildir, buna görə də, bu işdə işləmək və zəhmət haqqı almağın maneəsi yoxdur.

**Sual 1100:** İş qabiliyyəti olan bir şəxsin başqalarından maddi köməklik istəməsi və bu yardımlarla dolanmasına icazə verilirmi?

Cavab: Bu işi görmək tövsiyə olunmur.

**Sual 1101:** Zərgərlik bazarında və ya başqa bazarlarda qadınlar qızıl və cəvahirat sata və bu yolla qazanc əldə edə bilərlərmi?

Cavab: Şəri hüdudlara riayət edərək bu işi görmələrinin maneəsi yoxdur.

**Sual 1102:** Evin dekorasiya edilməsi əgər haram işlər üçün istifadə edilməsi məqsədilə olarsa, xüsusilə də, əgər bəzi otaqlar bütə ibadət üçün istifadə edilərsə, hökmü nədir? Əgər zalın rəqs və bu kimi işlər üçün istifadə ediləcəyi ehtimal olunarsa, belə zalı tikmək olar, yoxsa olmaz?

Cavab: Evin dekorasiya edilməsi əgər haram işlər üçün istifadə edilməsi məqsədilə olmazsa, öz-özlüyündə maneəsi yoxdur. Amma bütə ibadət üçün nəzərdə tutulan otağı

dekorasiya etmək, məsələn, bu otağın əşyalarını düzmək, bütün qoyulacağı yeri düzəltmək və bu kimi işləri görməyə şəri baxımdan icazə verilmir. Həmçinin haram işlər üçün istifadə olunan zalları tikməyə icazə verilmir. Amma bu xüsusda sadəcə ehtimal vermək, maneə yaratmır.

**Sual 1103:** **Həbsxana və polis bölməsinə şamil olan binanı tikmək və onu zalım dövlətə təhvil vermək olarmı? Bu binanın tikintisində işləmək olarmı?**

Cavab: Həbsxana və polis bölməsinə şamil olan binanı tikməyin maneəsi yoxdur, bu şərtlə ki, orada zülm məhkəmələrinin qurulması və günahsız insanların həbs edilməsi üçün məkanın hazırlanması məqsədilə olmamalıdır. Belə binanın tikintisində işləyən şəxsin nəzərinə görə, əgər belə binalar adətən sözügedən məqsədlər üçün istifadə edilmirsə, bu halda tikinti işinə görə zəhmət haqqı almasının maneəsi yoxdur.

**Sual 1104:** **Mənim işim tamaşaçılar qarşısında öküz oynatmaqdır. Tamaşaçılar buna görə hədiyyə ünvanında mənə müəyyən məbləğdə pul verirlər. Bu işə icazə verilirmi?**

Cavab: Bu iş şəri baxımdan bəyənilməyən işdir, amma tamaşaçılardan hədiyyələr almağa gəlincə, əgər onlar bunu ixtiyari şəkildə və öz razılıqları ilə verərlərsə, maneəsi yoxdur.

**Sual 1105:** **Bəzi şəxslər orduya aid olan hərbi geyimlər satırlar. Bu geyimləri almaq və onlardan istifadə etmək olarmı?**

Cavab: Əgər onların bu geyimləri qanuni yolla əldə etdiklərini və ya bu geyimlərin satışı üçün onlara icazə verildiyini ehtimal verirsinizsə, qanuna zidd olmadığı məqamlarda bu geyimləri almağın və onlardan istifadə etməyin maneəsi yoxdur.

**Sual 1106:** **Partlayıcı maddələrdən istifadə edilməsinin, onların düzəldilməsinin və alğı-satqısının – istər insanlara çətinlik yaratsın, istər yaratmasın – hökmü nədir?**

Cavab: Əgər insanlara çətinlik yaradarsa, yaxud pulu boş yerə xərcləmək hesab olunarsa, yaxud da İslam hökumətinin qanunlarına zidd olarsa, bu maddələrdən istifadə etmək olmaz.

**Sual 1107:** **İslam hökumətində polis, yol polisi, gömrük işçisi və vergi məmuru işləməyin hökmü nədir? Bəzi hədislərdə qeyd olunur ki, camaatın işləri barədə hökumətə məlumat çatdıran məmurların, vergi və gömrük məmurlarının duası qəbul olunmur. Bu, islam hökumətində çalışan həmin məmurlara da aiddirmi?**

Cavab: Bu məmurların işi əgər qanunlar çərçivəsində olarsa, öz-özlüyündə maneəsi yoxdur. Zahirən, hədislərdə sözüke عشّار və "عريف" ifadələrində, bu işləri tüğyankar və zalım hökumətlərdə yerinə yetirən məmurlar nəzərdə tutulur.

**Sual 1108:** **Bəzi qadınlar ailələrinin dolanışıq xərclərini təmin etmək üçün gözəllik salonlarında işləyirlər. Bu iş, iffətsizliyin yayılması və ya müsəlman cəmiyyətinin iffətinə bir təhdid hesab olunmurmu?**

Cavab: Qadınları bəzəmək və bunun müqabilində zəhmət haqqı almağın öz-özlüyündə maneəsi yoxdur, bu şərtlə ki, naməhrəmə göstərmək məqsədilə olmamalıdır.

**Sual 1109:** **Podratçı şirkətlər sahibkar ilə fəhlələr və bənnalar arasında vasitəçilik etmək müqabilində ücrət ala bilərlərmi?**

**Cavab: Mübah iş müqabilində ücrət almağın maneəsi yoxdur.**

**Sual 1110: Dəllalın aldığı ücrət halaldırmı?**

**Cavab: Əgər mübah bir işi yerinə yetirmək müqabilində və qarşı tərəfin istəyilə olarsa, maneəsi yoxdur.**

## Vacib əməllər müqabilində ücrət almaq

**Sual 1111:** İlahiyyat institutunda fiqh və üsuli-fiqh dərslərini tədris edən müəllimlərin aldıqları əmək haqqının hökmü nədir?

**Cavab: Öyrədilməsi "kifayi-vacib" olan biliklərin öyrədilməsi və tədris edilməsinin vacibliyi, bu iş müqabilində əmək haqqı almağa maneə deyildir.**

**Sual 1112:** Şəri məsələləri öyrətməyin hökmü nədir? İlahiyyatçılar şəri məsələləri camaata öyrətmək müqabilində ücrət ala bilərlərmi?

**Cavab: Halal-harama aid məsələləri öyrətmək vacibdir. Amma bunun müqabilində ücrət almağın maneəsi yoxdur.**

**Sual 1113:** Dövlət müəssisələrində və idarələrindəcamaat namazı qılmaq və dini maarifləndirmə işləri aparmaq müqabilində aylıq maaş almağa icazə verilirmi?

**Cavab: Maneəsi yoxdur.**

**Sual 1114:** Cənazəyə qüsl vermək üçün ücrət almaq olarmı?

**Cavab: Almaq olar.**

**Sual 1115:** Nikah əqdi oxumaq müqabilində ücrət almaq olarmı?

**Cavab: Maneəsi yoxdur.**

## Şahmat

**Sual 1116:** Əksər məktəblərdə şahmat oyunlarının keçirildiyini nəzərə alaraq, şahmat oynamaq və şahmat təlimi kursları təşkil etmək olarmı?

**Cavab: Əgər mükəlləfin nəzərinə görə hazırkı dövrdə şahmat qumar alətlərindən hesab olunmursa, mərcləşmədən şahmat oynamağın maneəsi yoxdur.**

**Sual 1117:** Əyləncə vasitələri, o cümlədən, oyun kartları ilə oynamağın hökmü nədir? Əyləncə məqsədilə və mərcləşmədən onlarla oynamaq olarmı?

**Cavab: Ürfə görə qumar aləti hesab olunan hər hansı bir şeylə oyun oynamaq - hətta əyləncə məqsədilə və mərcləşmədən olsa belə - birmənalı olaraq haramdır.**

**Sual 1118:** Aşağıdakı hallarda şahmatın hökmü nədir:
1) Şahmatın düzəldilməsi və alğı-satqısı;
2) Mərcləşərək və ya mərcləşmədən şahmat oynamaq;
3) Ümumi məkanlarda və ya qeyri yerlərdə şahmat təlimi kursları və oyunları təşkil etmək, insanları buna təşviq etmək.

**Cavab: Əgər mükəlləf hazırkı dövrdə şahmatın qumar alətlərindən hesab olunmadığını müəyyən edərsə, şahmatın düzəldilməsi və alğı-satqısı, həmçinin mərcləşmədən şahmat oynamağın maneəsi yoxdur. Bunlara əsasən, şahmatı təlim etməyin maneəsi olmayacaqdır.**

**Sual 1119:** Riyaziyyat şöbəsi tərəfindən şahmat oyunlarının təşkil olunmasının təsdiqlənməsindən şahmatın qumar alətlərindən olmadığı məlum olurmu? Mükəlləf buna əsaslana bilərmi?

**Cavab: Əhkamın mövzularını təyin etməkdə meyar mükəlləfin öz qənaətidir və ya mükəlləf üçün bu mövzuya dair şəri dəlilin mövcud olmasıdır.**

**Sual 1120:** Xarici ölkələrdə kafirlərlə şahmat və bilyard oynamağın hökmü nədir? Mərcləşmədən oyun oynamaq üçün bu alətlərdən istifadəyə görə pul xərcləməyin hökmü nədir?

**Cavab: Əvvəlki məsələlərdə şahmat oynamağın və qumar alətləri ilə oyunun hökmü açıqlandı. Bu hökmdə sözügedən alətlərlə islami ölkələrdə və ya qeyri-islami ölkələrdə, həmçinin müsəlmanlarla və ya kafirlərlə oynamaq arasında bir fərq mövcud deyildir. Qumar alətlərinin alğış-satqısına bu zəmində pul xərcləməyə icazə verilmir.**

## Qumar alətləri

**Sual 1121:** Əgər insan mərcləşmədən, qumar, udub-uduzmaq və gəlir əldə etmək məqsədi olmadan, əksinə, yalnız əyləncə məqsədilə kart oynasa, haram iş görmüşdürmü? Əyləncə məqsədilə kart oynanılan məclisdə istirak etməyin hökmü nədir?

**Cavab: Ürfdə qumar alətlərindən hesab olunan kartla oynamaq birmənalı olaraq haramdır. Qumar məclisində və ya qumar alətləri ilə oyun oynanılan məclisdə insan ixtiyari şəkildə iştirak edə bilməz.**

**Sual 1122:** Sırf məntiq oyunları olub, elmi və dini məzmuna malik olan oyun kartlarından mərcləşmədən istifadə etmək olarmı? Xüsusi şəkildə düzüldüyü zaman bəzi şəkillər məsələn, motosiklet və ya maşın şəkli əmələ gələn, eyni zamanda mərcləşmə və yarışmaq üçün istifadə oluna bilən kartlarla oynamağın hökmü nədir?

**Cavab: Ürfdə qumar alətləri hesab olunan kartlarla oynamağa birmənalı olaraq icazə verilmir. Amma ürfdə qumar aləti hesab olunmayan kartlarla mərcləşmədən oynamağın maneəsi yoxdur. Ümumiyyətlə, mükəlləfin qənaətinə görə qumar aləti hesab olunan hər hansı bir şeylə oyun oynamağa, yaxud oyunda mərcləşməyə heç bir vəchlə icazə verilmir. Qumar aləti hesab olunmayan hər hansı bir şeylə mərcləşmədən oyun oynamağın maneəsi yoxdur.**

**Sual 1123:** Qoz-qoz oyunu və yumurta döyüşdürmək oyunu oynamağın, ümumiyyətlə, şəri baxımdan "mal" hesab olunan hər bir başqa şeylə oyun oynamağın hökmü nədir? Uşaqlar bu oyunları oynaya bilərlərmi?

**Cavab: Əgər oyun qumar və mərcləşmə olarsa, şəri baxımdan haramdır. Udan tərəf udduğu və qarşı tərəfdən aldığı şeyin sahibi olmur. Amma əgər bu oyunları oynayanlar həddi-büluğa çatmayan uşaqlar olarsa, şəri baxımdan vəzifə daşımırlar. Eyni zamanda, udduqları şeyin sahibi olmurlar.**

**Sual 1124:** Qeyri-qumar alətləri ilə oyun oynayandapul və ya başqa bir şey ilə mərcləşmək olarmı?

**Cavab: Oyunda şərt bağlamağa icazə verilmir, baxmayaraq ki, oyun qeyri-qumar alətləri ilə oynanılır.**

**Sual 1125:** Kompyuterdə qumar alətləri ilə məsələn, kart oyunu oynamağın hökmü nədir?

**Cavab: Əgər iki nəfər bir-birilə oynayarsa, qumar aləti ilə oyun hökmündədir. Amma əgər bir şəxs təklikdə oynayarsa, fəsadı olmadığı təqdirdə maneəsi yoxdur.**

**Sual 1126:** "Uno" ilə oynamağın (amerikan kart oyununun kartları) hökmü nədir?

**Cavab: Əgər ürfdə qumar alətlərindən hesab olunarsa - hətta mərcləşmədən olsa belə - onunla oynamaq olmaz.**

**Sual 1127:** Əgər bəzi oyun vasitələri bir şəhərdə qumar alətlərindən hesab olunarsa, amma başqa bir şəhərdə qumar alətlərindən hesab olunmazsa, bu vasitələrlə oynamaq olarmı?

**Cavab: Hər iki məkanın ürfü nəzərə alınmalıdır. Bu mənada ki, əgər bu vasitələr bu iki**

**şəhərdən birindən qumar alətlərindən hesab olunursa və əvvəllər hər iki şəhərdə qumar alətlərindən hesab olunubdursa, indiki dövrdə də onlarla oynamaq haramdır.**

## Musiqi və ğina

**Sual 1128:** **Halal musiqinin haram musiqidən ayırd etməyin meyarı nədir? Klassik musiqilər halaldırmı? Bu meyarı açıqlamağınızı xahiş edirəm.**

**Cavab: Ürfə görə eyş-işrət məclislərinə uyğun olub Allah yolundan azdıran hər bir musiqi haram musiqi hesab olunur. Bu baxımdan musiqinin klassik, yoxsa qeyri-klassik musiqi olmasının bir fərqi yoxdur. Məsələni müəyyən etmək də mükəlləfin ürfi nəzərinə həvalə olunur. Əgər musiqi qeyd edilən xüsusiyyətlərə malik olmazsa, öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1129:** **İslam Təbliğatı Təşkilatı və ya başqa bir islam təbliğatı müəssisəsi tərəfindən icazə verilən musiqi disklərini dinləməyin hökmü nədir? Musiqi alətlərində, məsələn, kaman, skripka və fleytada ifa etməyin hökmü nədir?**

**Cavab: Musiqi disklərini dinləməyin icazəli olub-olmadığını mükəlləfin özü müəyyən etməlidir. Belə ki, əgər mükəlləf musiqi disklərinin ğinanı, eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran musiqiləri, həmçinin yanlış məzmunlu musiqiləri ehtiva etmədiyini müəyyən edərsə, onları dinləməyin maneəsi yoxdur. Buna görə də, İslam Təbliğatı Təşkilatı və ya başqa bir islami müəssisə tərəfindən musiqi disklərinə icazə verilməsi, bu musiqiləri dinləməyin icazəli olması üçün öz-özlüyündə şəri dəlil deyildir.**
**Musiqi alətlərində eyş-işrət və günah məclislərinə uyğun musiqiləri ifa etməyə icazə verilmir. Amma musiqi alətlərindən məntiqi hədəflər üçün halal istifadənin maneəsi yoxdur. Məsələni müəyyən etmək də mükəlləfin öz nəzərinə həvalə olunur.**

**Sual 1130:** **Eyş-işrət məclislərinə uyğun musiqilər dedikdə, hansı musiqilər nəzərdə tutulur? Belə musiqiləri müəyyən etməyin meyarı nədir?**

**Cavab: Eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran musiqilər, malik olduğu xüsusiyyətlərə görə insanı Mütəal Allahdan və müsbət əxlaqi kefiyyətlərdən uzaqlaşdıran, əxlaqsızlığa və günaha sövq edən musiqilərdir. Məsələni müəyyən etməyin mənbəyi, ürfdür (camaatın nəzəridir).**

**Sual 1131:** **İfaçının şəxsiyyəti, musiqinin ifa edildiyi məkan və ya musiqinin ifa edilməsində məqsədin musiqinin hökmünə təsiri vardırmı?**

**Cavab: Haram musiqi, eyş-işrət və günah məclislərinə uyğun olan Allah yolundan azdıran musiqidir. Bəzən ifaçının şəxsiyyəti, yaxud musiqi ilə birgə oxunan sözlər, yaxud musiqinin ifa edildiyi məkan və başqa şərtlər, onun eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran haram musiqi adını və ya başqa haram adlar almasında rol oynayır. Məsələn, qeyd edilən şərtlər nəticəsində musiqi fəsada səbəb yaradır.**

**Sual 1132:** **Musiqinin haramlığı meyarı yalnız onun eyş-işrət və günah məclislərinə uyğun olmasıdırmı, yoxsa dinləyicini həyəcanlandırması da musiqinin haramlığında rol oynayır? Əgər musiqi dinləyicinin kədərlənməsinə və ağlamasına səbəb olarsa, hökmü nədir? Qəzəlləri musiqilə oxumağın və dinləməyin hökmü nədir?**

**Cavab: Burada musiqinin ifa edilmə qaydası və bütün xüsusiyyətləri nəzərə alınmalıdır. Əgər musiqi öz mahiyyəti etibarilə eyş-işrət və günah məclislərinə uyğun bir musiqidirsə, haramdır: istər dinləyicini həyəcanlandırsın və ya həyəcanlandırmasın, istər dinləyicidə kədər və digər hisslər yaratsın və ya yaratmasın. Əgər musiqilə birlikdə oxunan qəzəllər ğina və eyş-işrət məclislərinə uyğun musiqi şəklini alarsa, onları oxumaq və dinləmək haramdır.**

**Sual 1133: Ğina nədir? Ğina təkcə insan səsinə şamil olur, yoxsa musiqi alətlərindən yayılan sədalara da şamil olur?**

**Cavab: Ğina insan səsinə şamil olur və eyş-işrət məclislərinə uyğun avazlarda edilən boğazlardır. Bu tərzdə oxumaq və belə musiqini dinləmək haramdır.**

**Sual 1134: Toy məclislərində qadınların qab-qazan və musiqi aləti olmayan digər vasitələri çalmalarına icazə verilirmi? Əgər səs ətrafa yayılarsa və kişilər eşidərsə, hökmü nədir?**

**Cavab: Bu işin icazə verilməsi ifanın necəliyinə bağlıdır. Əgər qədim toy məclislərində çalındığı tərzdə çalınarsa və eyş-işrət məclislərinə uyğun musiqi hesab olunmazsa, habelə, fəsad yaratmazsa, maneəsi yoxdur.**

**Sual 1135: Toy məclislərində qadınların dəf çalmasının hökmü nədir?**

**Cavab: Eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran musiqiləri çalmaq üçün musiqi alətlərindən istifadə etməyə icazə verilmir.**

**Sual 1136: Evdə ğinaya qulaq asmaq olarmı? Əgər ğina bir şəxsə təsir etmirsə, bunun hökmü nədir?**

**Cavab: Ğinaya qulaq asmaq birmənalı olaraq haramdır: istər evdə tək başına qulaq asasan və ya başqa insanların əhatəsində qulaq asasan, yaxud istər ğina insana təsir qoysun və ya təsir qoymasın.**

**Sual 1137: Şəri vəzifə yaşına yeni çatan bəzi gənclər musiqinin ümumiyyətlə haram olduğuna - hətta islam dövlətinin radio və televiziyasından yayımlanan musiqilərin belə haram olduğuna - fətva verən müctəhidlərə təqlid edirlər. Bu məsələnin hökmü nədir? Əgər vəliyi-fəqih halal musiqiyə qulaq asmağa icazə verirsə, hökumət məsələlərinə görə onun halal musiqiyə icazə verməsi, halal musiqiyə qulaq asmağın icazəli olması üçün kifayət edirmi? Yoxsa bu gənclər təqlid etdikləri müctəhidin fətvasına əməl etməlidirlər?**

**Cavab: Musiqini dinləməyə icazə verilməsi və ya icazə verilməməsinə dair fətva, hökumət məsələlərindən deyildir. Bu məsələ, şəri və fiqhi bir məsələdir və hər bir mükəlləf təqlid etdiyi müctəhidin fətvasına müvafiq əməl etməlidir. Amma əgər musiqi eyş-işrət və günah məclislərinə uyğun bir musiqi deyilsə və fəsad yaratmırsa, onun haram olması üçün bir dəlil mövcud deyildir.**

**Sual 1138: Musiqi və ğina dedikdə, nə nəzərdə tutulur?**

**Cavab: Ğina - eyş-işrət məclislərinə uyğun avazlarda edilən boğazlardır. Ğina günahdır və oxuyana və dinləyənə haramdır. Musiqi - musiqi alətlərinin ifasından yayılan sədalardır. Əgər musiqi eyş-işrət və günah məclislərinə uyğun bir şəkildə ifa edilərsə, həm musiqini ifa edənə, həm də dinləyənə haramdır. Amma əgər bu şəkildə olmazsa, öz-özlüyündə maneəsi**

yoxdur və buna icazə verilir.

**Sual 1139:** Mənim işlədiyim yerin sahibi həmişə ğina disklərinə qulaq asır. Mən də bunu eşitmək məcburiyyətindəyəm. Mən bu işdə işləyə bilərəm, yoxsa yox?

**Cavab:** Əgər disklərdə ğina və eyş-işrət və günah məclislərinə uyğun olan musiqilərdirsə, bu disklərə qulaq asmaq olmaz. Amma əgər siz həmin yerdə olmaq məcburiyyətindəsinizsə, ora getməyiniz və orada işləməyinizin sizin üçün bir maneəsi yoxdur. Amma ğinaya qulaq asmamalısınız, baxmayaraq ki, qeyri-ixtiyari olaraq onu eşidirsiniz.

**Sual 1140:** İslam dövlətinin radio və televiziyasından yayımlanan musiqinin hökmü nədir? İmam Xomeyninin (r.ə) musiqini ümumiyyətlə halal elan etməsi barədə danışılanlar düzdürmü?

**Cavab:** İmam Xomeyninin (r.ə) musiqini ümumiyyətlə halal elan etməsi barədə danışılanlar onun adından deyilən bir yalan və iftiradır. İmam Xomeyni (r.ə) günah məclislərinə uyğun olan musiqiləri haram bilirdi və bizim də nəzərimiz elə budur. Amma mükəlləflər arasındakı fikirayrılığı, məsələnin müəyyən edilməsindən qaynaqlanır. Çünki məsələni müəyyən etmək, mükəlləfin öz nəzərinə həvalə olunur. Bəzən ifaçının nəzəri dinləyənin nəzəri ilə fərqli olur. Belə olduğu təqdirdə, əgər bir musiqi mükəlləfin nəzərinə görə eyş-işrət və günah məclislərinə uyğurdursa, onun bu musiqiyə qulaq asması haramdır. Şübhəli qalan musiqilər isə halal hökmündədir. Musiqinin radio və televiziyadan yayımlanması, onun mübah və halal olması üçün öz-özlüyündə şəri dəlil hesab olunmur.

**Sual 1141:** Radio və televiziyadan yayımlanan bəzi musiqilər mənim nəzərimə görə eyş-işrət və günah məclislərinə uyğun olan musiqilərdir. Mən bu musiqilərə qulaq asmaqdan çəkinməliyəmmi və başqalarını da ona qulaq asmaqdan çəkindirməliyəmmi?

**Cavab:** Əgər siz bu musiqiləri eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran musiqilər hesab edirsinizsə, onlara qulaq asa bilməzsiniz. Amma başqalarını "nəhy ənil-munkər" ünvanında bu musiqilərə qulaq asmaqdan o təqdirdə çəkindirə bilərsiniz ki, onların da həmin musiqiləri haram musiqi bildikləri sizə aydındır.

**Sual 1142:** Qərb ölkələrinin ğina və haram musiqilərini dinləmək və yaymağın hökmü nədir?

**Cavab:** Eyş-işrət və günah məclislərinə uyğun olan musiqilərin dinlənilməsinə icazə verilməməsi, musiqinin hansı dildə olmasının və ya hansı ölkəyə aid olmasının bir fərqi yoxdur. Buna görə də, ğina və haram musiqilərin disklərinin alğı-satqısına, onları dinləməyə və yaymağa icazə verilmir.

**Sual 1143:** Kişi və ya qadının ğina tərzində oxumasının – istər disklərdə səsyazma olsun və ya radiodan yayımlansın, yaxud istər musiqi ilə birgə olsun və ya birgə olmasın – hökmü nədir?

**Cavab:** Ğina haramdır və ğina tərzində oxumağa və ona qulaq asmağa icazə verilmir: istər kişi oxusun və ya qadın oxusun, yaxud istər birbaşa yayımlansın və ya disklərdə səsyazma olsun, yaxud da istər musiqi alətlərinin ifası ilə birgə olsun və ya birgə olmasın.

**Sual 1144:** Müqəddəs bir məkanda, məsələn, məsciddə məntiqi və halal bir məqsəd üçün musiqi çalınmasının hökmü nədir?

**Cavab:** Eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran musiqiləri çalmağa

birmənalı olaraq icazə verilmir, hətta məsciddən qeyri bir məkanda və məntiqi və halal bir məqsədlə olsa belə. Amma inqilab marşlarının və bu kimi musiqilərin müqəddəs məkanda və müəyyən bir münasibətlə əlaqədar çalınmasının maneəsi yoxdur. Bu şərtlə ki, həmin məkanın hörmətinə zidd olmasın və məscid kimi məkanlarda olduğu təqdirdə namaz qılanlar üçün maneəçilik yaratmasın.

**Sual 1145:** Musiqi alətində ifa etməyi öyrənmək, xüsusilə də, santur çalmağı öyrənmək olarmı? Başqalarını bu işə təşviq etməyin hökmü nədir?

Cavab: Haram olmayan musiqiləri musiqi alətlərində ifa etməyin, məsələn, inqilab marşları və ya dini musiqilər çalmağın, yaxud faydalı mədəni proqramları aparmaq üçün məntiqi və mübah məqsədlə musiqi alətlərində ifa etməyin maneəsi yoxdur. Bu şərtlə ki, başqa fəsadlara yol açmamalıdır. Həmçinin sözükeçən məqsədlə musiqi alətlərində ifa etməyi öyrənmək və öyrətməyin öz-özlüyündə maneəsi yoxdur. Amma musiqinin geniş yayılması islam hökumətinin müqəddəs amallarına uyğun deyildir.

**Sual 1146:** Bədii qiraət şəklində şeir deyən və ya bir mətn oxuyan qadını dinləməyin – dinləyici istər gənc olsun və ya gənc olmasın, yaxud istər kişi olsun və ya qadın olsun - hökmü nədir? Əgər qadın məhrəmlərdən olarsa, hökm nədir?

Cavab: Əgər qadın şeiri ğina tərzində oxumursa və dinləyici onun səsini "ləzzət" və "reybə" məqsədilə dinləmirsə, habelə, bunun başqa bir fəsadı yoxdursa, onu dinləməyin maneəsi yoxdur və yuxarıda qeyd edilən surətlər arasında fərq yoxdur.

**Sual 1147:** İranın mədəni irsi sayılan milli musiqilər haramdır, yoxsa haram deyildir?

Cavab: Ürfə görə eyş-işrət və günah məclislərinə uyğun olan musiqilər birmənalı olaraq haramdır və bu baxımdan musiqinin İran, yoxsa başqa bir ölkənin musiqisi olması, yaxud milli və ya qeyri-milli musiqi olmasının bir fərqi yoxdur.

**Sual 1148:** Bəzən ərəb radiolarından bəzi musiiqlər yayımlanır. Ərəb dilini dinləməyi sevdiyinə görə mükəlləf bu musiqiləri dinləyə bilərmi?

Cavab: Eyş-işrət və günah məclislərinə uyğun olan musiqiləri dinləmək birmənalı olaraq haramdır və ərəb dilini dinləməyi sevmək bu musiqiləri dinləmək üçün şəri icazə hesab olunmur.

**Sual 1149:** Şeiri avazla, amma musiqi səslənmədən oxumaq və təkrarlamaq olarmı?

Cavab: Ğina, hətta musiqi alətinin müşayiəti ilə birgə olmasa belə, haramdır. Ğina dedikdə, eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran bir tərzdə boğazlar edərək oxumaqdır. Amma sırf şeiri təkrarlamağın maneəsi yoxdur.

**Sual 1150:** Musiqi alətlərinin alğı-satqısının hökmü nədir? Onlardan hansı hüdudda istifadə etmək olar?

Cavab: Haram olan və haram olmayan musiqilərin ifası üçün müştərək şəkildə istifadə edilən musiqi alətlərinin alğı-satqısının maneəsi yoxdur.

**Sual 1151:** Quran və dua oxuyarkən, azan deyərkən ğina etmək olarmı?

**Cavab: Ğina - eyş-işrət məclislərinə uyğun avazlarda edilən boğazlardır. Ğina - hətta Quran və dua oxuyarkən, azan və mərsiyə deyərkən - birmənalı olaraq haramdır.**

**Sual 1152:** **Hazırkı dövrdə bəzi xəstəliklərin, o cümlədən, ruh düşgünlüyü, iztirab, cinsi problemlər və qadınların soyuqtəbiətliyinin müalicəsində musiqidən istifadə olunur. Bunun hökmü nədir?**

**Cavab: Əgər mütəxəssis və etibarlı həkimin nəzərinə görə xəstəliyin müalicəsi musiqidən istifadə etməyə bağlıdırsa, müalicə üçün tələb olunan həddə musiqidən istifadə etməyin maneəsi yoxdur.**

**Sual 1153:** **Əgər ğinaya qulaq asmaq insanın öz həyat yoldaşına meylinin artmasına səbəb olarsa, bunun hökmü nədir?**

**Cavab: Sırf insanın öz həyat yoldaşına meylinin artması, ğinaya qulaq asmaq üçün şəri icazə hesab edilmir.**

**Sual 1154:** **Qadının qadınlar üçün konsert proqramı verməsinin – belə ki, ifaçılar da qadınlardır – hökmü nədir?**

**Cavab: Əgər konsert ğinadan və Allah yolundan azdıran və günah məclislərinə uyğun olan musiqilərdən ibarət olarsa, haramdır.**

**Sual 1155:** **Əgər musiqinin "haram musiqi" hesab olunması üçün meyar onun eyş-işrət və günah məclislərinə uyğun olmasıdırsa, onda bəzi insanlarda, hətta müməyyiz olmayan uşaqlarda şadlıq hissi yaradan avazların və mahnıların hökmü nədir? Əgər qadın müğənnilərin ğina tərzində oxuduqları avazlar insanda şadlıq hissi yaratmazsa, onları dinləmək olarmı? Ümumi sərnişin marşurutlarının sürücüləri əksər hallarda bayağı musiqi diskləri oxutdururlar. Bu marşurutlara minən sərnişinlərin vəzifəsi nədir?**

**Cavab: Əgər bir musiqi və ya boğazlarla yanaşı olan bir avaz tərz və ya məzmun baxımından, yaxud da musiqi alətini ifa edərkən ifaçının və ya oxuyarkən müğənninin xüsusi vəziyyəti baxımından ğina olarsa və ya eyş-işrət və günah məclislərinə uyğun olan bir musiqi olarsa - hətta bu avaz və ya musiqi öz mənfi təsirini insanda qoymasa belə - ona qulaq asmaq haramdır. Əgər ümumi sərnişin marşurutlarında və ya başqa maşınlarda ğina və ya günah məclislərinə uyğun olan musiqi diskləri oxutdurulursa, sərnişinlər buna qulaq asmamalı və nəhy ənil-munkər etməlidirlər.**

**Sual 1156:** **Kişi öz zövcəsindən cinsi ləzzət almaq məqsədilə naməhrəm qadının ğinasına qulaq asa bilərmi? Qadın öz əri və ya kişi öz zövcəsi üçün ğina tərzində oxuya bilərmi? Bu söz düzdürmü ki, şəriət sahibi ğinanı eyş-işrət və günah məclislərinə uyğun olduğuna və bu ikisinin bir-birindən ayrılmadığına görə haram buyurmuşdur? Başqa sözlə, ğinanın haram olması belə məclislərin haram olmasından qaynaqlanırmı?**

**Cavab: Ğinaya qulaq asmaq birmənalı olaraq haramdır. Qeyd olunduğu kimi, ğina eyş-işrət məclislərinə uyğun avazlarda edilən boğazlardır. Hətta qadının öz əri üçün və ya kişinin öz zövcəsi üçün ğina tərzində oxuması haramdır. İnsanın öz həyat yoldaşından cinsi ləzzət almaq məqsədi, ğinanı mübah etmir. Ğina və bu kimi işlərin haramlığı şəriətin birbaşa göstərişidir və şiə fiqhinin dəyişməz hökmüdür. Ğinanın haramlığına fərzi meyarlar, psixoloji və ictimai təsirlər əsasında fətva verilməyibdir. Ğina haram hökmünü daşıdığı müddətədək haramdır və ondan çəkinmək birmənalı olaraq vacibdir.**

**Sual 1157:** **Müəllimlər universitetinin tələbələri ixtisas fənləri mərhələsində "inqilab mahnıları və melodiyaları" fənnində iştirak etməlidirlər. Onlar bəzi musiqi parçalarını öyrənir, müsiqilərlə ümumi şəkildə tanış olurlar. Bu musiqiləri əsasən sintizator**

vasitəsilə öyrənirlər. Əsas fənlərdən olan bu fənni öyrənməyin hökmü nədir? Sintizator almaq və ondan istifadə etməyin hökmü nədir? Xüsusilə də, verilən tapşırıqları kişilərin qarşısında icra etməkdə qadınların vəzifəsi nədir?

**Cavab: İnqilab mahnılarının, dini proqramların, mədəni və tərbiyəvi fəaliyyətlərin icrası üçün musiqi alətlərindən istifadə etməyin öz-özlüyündə maneəsi yoxdur. Sözügedən işlər üçün musiqi alətlərini alıb-satmağın, musiqi öyrətmək və öyrənməyin də maneəsi yoxdur. Xanımlar vacib hicaba və şəri qaydalara riayət edərək bu dərsdə iştirak edə bilərlər.**

**Sual 1158:** Bəzi mahnılar zahirdə inqilabi mahnılardır və ürf də onları inqilabi mahnılar hesab edir. Amma müğənninin məqsədinin inqilabi, yoxsa eyş-işrət mahnıları oxumaq olduğunu bilmirik. Müğənninin müsəlman olmadığını, amma oxuduğu mahnıların vətənpərvərlik, işğal əleyhinə mübarizə və müdafiə məzmunu daşıdığını nəzərə alaraq, bu mahnılara qulaq asmağın hökmü nədir?

**Cavab: Əgər dinləyənin nəzərinə görə bu mahnılar ürfdə eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran mahnılar deyildirsə, onlara qulaq asmağın maneəsi yoxdur. Müğənninin məqsədinin və oxuduğu mahnının məzmununun bu xüsusda rolu yoxdur.**

**Sual 1159:** Bir gənc bəzi idmanların beynəlxalq məşqçisi və hakimi peşəsi üzrə işləyir. Peşəsinin tələbinə görə, o, bəzən ğina və haram musiqi yayımlanan idman klublarına getmək məcburiyyətində qalır. Nəzərə alsaq ki, bu işin gəliri ilə o öz dolanışıq xərclərinin bir qismini təmin edir və onun yaşadığı yerdə iş yerləri azdır, o, belə idman klublarına gedə bilərmi?

**Cavab: Onun bu peşə üzrə işləməsinin maneəsi yoxdur. Amma ğinaya və eyş-işrət musiqilərinə qulaq asması haramdır. Məcburiyyət hallarında ğina və haram musiqi məclisinə daxil olmaq olar, amma belə mahnılara və musiqilərə qulaq asmaqdan çəkinmək lazımdır. Qeyri-ixtiyari olaraq insanın belə musiqiləri eşitməsinin maneəsi yoxdur.**

**Sual 1160:** Musiqiyə ancaq "qulaq asmaq" haramdır, yoxsa musiqini "eşitmək" də haramdır?

**Cavab: Ğinanı və eyş-işrət musiqilərini eşitmək, onlara qulaq asmaq hökmündə deyildir. Əlbəttə, bəzi hallarda onları eşitmək, ürfdə elə qulaq asmaq hesab olunur.**

**Sual 1161:** Quranın qiraəti musiqi ilə müşayiət oluna bilərmi? Belə ki, bu musiqi adətən eyş-işrət məclislərində istifadə edilən musiqi alətlərindən qeyri alətlərdə ifa olunacaqdır?

**Cavab: Qurani-Kərimi onun şəninə uyğun bir tərzdə gözəl səslə oxumağın maneəsi yoxdur, hətta bu, bəyənilən bir əməldir. Əlbəttə, bu şərtlə ki, haram ğina həddinə çatmamalıdır. Amma Quranın qiraətinin musiqi ilə müşayiət olunmasının şəri əsası yoxdur.**

**Sual 1162:** Mövlud şənliklərində və başqa məclislərdə təbil çalmağın hökmü nədir?

**Cavab: Musiqi və çalğı alətlərindən eyş-işrət və günah məclislərinə uyğun tərzdə istifadə etmək birmənalı olaraq haramdır.**

**Sual 1163:** Məktəblərdə şagirdlərdən ibarət mahnı qruplarının musiqi alətlərindən istifadə etmələrinin hökmü nədir?

**Cavab: Ürfdə halal və haram məclislər üçün müştərək şəkildə istifadə oluna bilən musiqi alətlərindən eyş-işrət məclislərinə uyğun olmayan bir tərzdə halal məqsədlər üçün istifadə etmək olar. Amma ürfə görə eyş-işrət məclislərinə xas olan musiqi alətlərindən istifadə etmək olmaz.**

**Sual 1164:** **Musiqi aləti olan santuru düzəltmək və bir peşə kimi bu yolla qazanc əldə etmək olarmı? Bu musiqi alətini düzəltmək sənətini genişləndirmək və təkmilləşdirmək, musiqiçiləri santur çalmağa təşviq etmək məqsədilə santur musiqi alətinin düzəldilməsinə maddi dəstək olmaq olarmı? Klassik musiqiləri yaymaq və yaşatmaq məqsədilə qədim iran milli musiqilərini öyrənmək və öyrətmək olarmı?**

**Cavab: Eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran musiqilər həddində olmadığı təqdirdə, milli və ya inqilabi musiqiləri ifa etməyin, yaxud hər hansı bir halal və faydalı məqsəd üçün musiqi alətlərindən istifadə etməyin maneəsi yoxdur. Həmçinin sözügedən məqsədlər üçün musiqi öyrənmək və öyrətməyin, musiqi alətlərini düzəltməyin maneəsi yoxdur.**

**Sual 1165:** **Hansı musiqi alətləri eyş-işrət məclislərinə uyğun musiqi alətləri hesab olunur və onlardan istifadə etməyə əsla icazə verilmir?**

**Cavab: Adətən eyş-işrət məclislərində istifadə olunan və onlar vasitəsilə halal qazanc əldə edilməyən musiqi alətləri nəzərdə tutulur.**

**Sual 1166:** **Haram musiqi disklərinin üzünü köçürmək müqabilində pul almaq olarmı?**

**Cavab: Dinlənilməsi haram olan musiqilər diskinin üzünü köçürmək və bunun müqabilində pul almaq olmaz.**

## Rəqs

**Sual 1167:** Toy məclislərində milli-yerli rəqsləri oynamaq olarmı? Belə məclislərdə iştirak etməyin hökmü nədir?

**Cavab: Ehtiyat-vacibə görə, kişinin rəqs etməsi haramdır. Qadının qadınların qabağında rəqs etməsinə gəlincə, əgər eyş-işrət məclisi adını kəsb edərsə – məsələn, qadın məclisi rəqs məclisinə çevrilərsə - məhəlli-işkaldır və bunu tərk etmək ehtiyat-vacibdir. Bundan qeyri halda, əgər şəhvəti təhrik edən bir tərzdə olarsa, yaxud fəsada səbəb olarsa, yaxud haram bir iş (məsələn, haram musiqi və mahnı) ilə yanaşı olarsa, yaxud məclisdə naməhrəm kişi olarsa, haramdır. Bu hökm baxımından toy məclisi ilə qeyri məclislər arasında fərq yoxdur. Əgər toy məclislərində iştirak etmək başqalarının haram işini dəstəkləmək hesab olunarsa, yaxud haram iş ilə yanaşı olarsa, buna icazə verilmir. Əks təqdirdə, maneəsi yoxdur.**

**Sual 1168:** Qadınlar məclisində musiqi sədaları olmadan rəqs etmək haramdır, yoxsa halal? Haram olduğu təqdirdə, iştirakçıların məclisi tərk etmələri vacibdir?

**Cavab: Əgər qadının qadınların qabağında rəqs etməsi eyş-işrət məclisi adını kəsb edərsə - məsələn, qadın məclisi rəqs məclisinə çevrilərsə - məhəlli-işkaldır və bunu tərk etmək ehtiyat-vacibdir. Bundan qeyri halda, əgər şəhvəti təhrik edən bir tərzdə olarsa, yaxud haram bir iş ilə yanaşı olarsa, yaxud fəsada səbəb olarsa, haramdır. Haram işə etiraz olaraq belə məclisi tərk etmək, "pis işdən çəkindirmək" hesab olunduğu təqdirdə, vacibdir.**

**Sual 1169:** Kişinin kişilərin qabağında, yaxud qadının qadınların qabağında, yaxud da kişinin qadınların arasında və qadının kişilərin arasında milli-yerli rəqs etməsinin hökmü nədir?

**Cavab: Ehtiyat-vacibə görə, kişinin rəqs etməsi haramdır. Qadının qadınların qabağında rəqs etməsinə gəlincə, əgər eyş-işrət məclisi adını kəsb edərsə – məsələn, qadın məclisi rəqs məclisinə çevrilərsə - məhəlli-işkaldır və bunu tərk etmək ehtiyat-vacibdir. Bundan qeyri halda, əgər şəhvəti təhrik edən bir tərzdə olarsa, yaxud fəsada səbəb olarsa, yaxud haram bir iş (məsələn, haram musiqi və mahnı) ilə yanaşı olarsa, yaxud məclisdə naməhrəm kişi olarsa, haramdır.**

**Sual 1170:** Televizorda və ya başqa informasiya vasitələrində kişilərin qrup şəklində rəqsinə və azyaşlı qızların rəqsinə baxmağın hökmü nədir?

**Cavab: Əgər buna baxmaq şəhvətin təhrik olmasına, yaxud günah işlədən şəxsin dəstəklənməsi və həddi aşmasına, yaxud da fəsada səbəb olarsa, baxmaq olmaz.**

**Sual 1171:** Toy məclisində iştirakçıların rəqs edəcəkləri ehtimal verildiyi bir halda ictimai adət-ənənəyə hörmət məqsədilə belə toy məclisinə getməyin şəri baxımdan maneəsi varmı?

**Cavab: Haram iş işlədən şəxsin dəstəklənməsi hesab olunmadığı və harama düşməyə səbəb olmadığı təqdirdə iştirakçıların rəqs edəcəkləri ehtimal verilən toy məclislərində iştirak etməyin öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1172:** Qadının öz əri üçün, yaxud kişinin öz həyat yoldaşı üçün rəqs etməsi haramdırmı?

**Cavab: Əgər qadının öz əri üçün, yaxud kişinin öz həyat yoldaşı üçün rəqs etməsi harama düşməklə yanaşı olmazsa, maneəsi yoxdur.**

**Sual 1173:** Ata və ana öz övladlarının toy məclisində rəqs edə bilərmi?

**Cavab: Əgər haram rəqs növündən olarsa, hətta ata və ananın öz övladlarının toy məclisində bu tərzdə rəqs etmələri haramdır.**

**Sual 1174:** Ərli bir qadın toy məclislərində ərinin xəbəri olmadan naməhrəmlərin qabağında rəqs etmişdir və bunu dəfələrlə təkrar etmişdir. Ərinin ona nəyh ənil-munkər və əmr bil-məruf etməsi təsir etmir. Vəzifə nədir?

**Cavab: Qadının naməhrəmlərin qabağında rəqs etməsi birmənalı olaraq haramdır. Ərin icazəsi olmadan qadının evdən çıxması da öz-özlüyündə haramdır və bu, qadının naşizə hesab olunmasına, yəni nəfəqə[1] haqqından məhrum olmasına səbəb olur.**

**Sual 1175:** Musiqi alətlərindən istifadə edildiyi kənd toy məclislərində qadınların naməhrəm kişilərin qabağında rəqs etmələrinin hökmü nədir? Bizim onların qarşısında vəzifəmiz nədir?

**Cavab: Qadının naməhrəm kişilərin qabağında rəqs etməsi, həmçinin fəsada və şəhvətin təhrik olmasına səbəb olan hər bir rəqs haramdır. Musiqi alətlərindən istifadə etmək və ona qulaq asmaq əgər eyş-işrət məclislərinə uyğun tərzdə olarsa, haramdır. Bu kimi hallarda mükəlləflərin vəzifəsi nəhy ənil-munkər etməkdir (pis işdən çəkindirməkdir).**

**Sual 1176:** Müməyyiz uşağın – istər oğlan olsun, istər qız olsun – qadın və ya kişi məclisində rəqs etməsinin hökmü nədir?

**Cavab: Həddi-büluğa çatmayan uşağın – istər oğlan olsun, istər qız olsun – şəri vəzifəsi yoxdur. Amma şəri vəzifəsi olan şəxslərin onu rəqs etməyə təşviq etmələri bəyənilmir.**

**Sual 1177:** Rəqs təlim mərkəzləri yaratmağın hökmü nədir?

**Cavab: Rəqs təlim mərkəzləri yaratmaq və rəqs etməyi yaymaq İslam hökumətinin hədəflərinə ziddir.**

**Sual 1178:** Kişilərin onlara məhrəm qadınların və qadınların onlara məhrəm kişilərin – istər "səbəbi məhrəm"[2], istərsə "nəsəbi məhrəm"[3] olsunlar - qabağında rəqs etmələrinin hökmü nədir?

**Cavab: Haram rəqs istər kişi, istər qadın üçün haramdır. Həmçinin məhrəmlərin və ya naməhrəmlərin qabağında haram rəqs etmək haramdır.**

**Sual 1179:** Toy məclislərində əsa ilə döyüş tamaşası göstərmək olarmı? Əgər bununla yanaşı musiqi alətlərindən istifadə edilərsə, hökmü nədir?

**Cavab: Əgər əyləncə-idman oyunu şəklində olarsa və insan həyatı üçün təhlükə qorxusu olmazsa, bunun öz-özlüyündə maneəsi yoxdur. Amma eyş-işrət məclislərinə uyğun olan və Allah yolundan azdıran bir tərzdə musiqi alətlərindən istifadə edilməsinə heç bir vəchlə icazə verilmir.**

**Sual 1180:** "Yallı"nın hökmü nədir? (Yallı – milli bir rəqsdir ki, rəqs edənlər qollarını bir-birinə keçirir və yuxarı atlanmaqla

**və bədən hərəkətləri ilə ayaqlarını birgə şəkildə yerə döyəcləyirlər, beləcə, uca və ritmik səs yaranır.)**

## Cavab: Əgər ürfdə rəqs hesab olunarsa, rəqs hökmündədir.

[1] Nəfəqə - yemək, geyim, məskən, müalicə, məişət əşyaları və s. xərclərinin ehtiyac olan həddə təmin olunmasıdır.

[2] Səbəbi məhrəm – izdivac vasitəsilə məhrəm olan şəxsdir, məsələn, qayınata, qayınana, gəlin, yeznə.

[3] Nəsəbi məhrəm – qan qohumluğu və doğum vasitəsilə məhrəm olan şəxsdir, məsələn, bibi, xala, əmi, dayı.

# Əl çalmaq

**Sual 1181:** **Ancaq qadınların iştirak etdikləri mövlud və ya toy məclisi kimi şadyanalıq məclislərində qadınlar əl çala bilərlərmi? Cavab müsbət olduğu təqdirdə, əgər səs ətrafa yayılarsa və naməhrəmlər eşidərsə, hökmü nədir?**

**Cavab: Adi şəkildə əl çalmaq əgər fəsada səbəb olmazsa, maneəsi yoxdur, hətta naməhrəm onun səsini eşitsə belə.**

**Sual 1182:** **Məsum İmamların (ə) mövludu, vəhdət həftəsi və Məbəs bayramı münasibətilə təşkil edilən şadlıq məclislərində şadlanmaq, oxumaq və Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) salavat deməklə əl çalmağın hökmü nədir? Əgər bu məclislər məscid, dövlət idarələri və müəssisələrinin namazxanası, hüseyniyyə kimi ibadət məkanlarında təşkil edilərsə, bunun hökmü nədir?**

**Cavab: Ümumiyyətlə, mövlud məclislərində, yaxud təşviq və dəstək məqsədilə, yaxud da bu kimi başqa məqsədlərlə adi şəkildə əl çalmağın maneəsi yoxdur. Amma yaxşı olar ki, dini məclislər, xüsusilə də, məscidlərdə, hüseyniyyələrdə və namazxanalarada təşkil edilən mərasimlər salavat və təkbir ilə zinətlənsin, beləcə, insan bunların savabına nail olsun.**

## Naməhrəmin videogörüntüsü və fotoşəkli

**Sual 1183: Naməhrəm qadının hicabsız görüntüsünə baxmağın hökmü nədir? Televizorda görüntülənən qadının üzünə baxmağın hökmü nədir? Bu baxımdan müsəlman qadın ilə qeyri-müsəlman qadın arasında, həmçinin birbaşa yayım ilə birbaşa olmayan yayım arasında fərq vardırmı?**

**Cavab: Naməhrəm qadının görüntüsünə baxmaq naməhrəm qadının özünə baxmaq hökmündə deyildir. Beləliklə, əgər kişi naməhrəm qadının görüntüsünə ləzzət üzündən baxmazsa və günaha düşmək qorxusu mövcud olmazsa, həmçinin tanış bir müsəlman qadının görüntüsü olmazsa, ona baxmağın maneəsi yoxdur. Ehtiyat-vacibə görə, televizorda birbaşa yayımda görüntülənən naməhrəm qadının görüntüsünə baxmaq olmaz. Amma əgər televizorda birbaşa olmayan yayımda görüntülənən naməhrəm qadının görüntüsünə baxmağın günaha düşmək qorxusu mövcud olmazsa, ona baxmağın maneəsi yoxdur.**

**Sual 1184: Peyk antenaları vasitəsilə yayımlanan televiziya kanallarına baxmağın hökmü nədir? Əgər Fars körfəzi ölkələrinə qonşu olan rayonların sakinləri həmin ölkələrin televiziya kanallarını izləsələr, bunun hökmü nədir?**

**Cavab: Qərbin peyk vasitəsilə yayımlanan televiziya kanalları, həmçinin qonşu ölkələrin əksəriyyətinin televiziya kanalları azğın düşüncələri təlim və haqqı təhrif etdiyinə, fəsad və əxlaqsızlığı təbliğ etdiyinə görə, habelə, bu kanalları izləmək əksər hallarda azğınlığa, fəsada və haram işlərin yerinə yetirilməsinə səbəb olduğuna görə bu kanallara baxmaq olmaz.**

**Sual 1185: Radio və televiziyadan komediya proqramlarını dinləmək və ya izləməyin maneəsi varmı?**

**Cavab: Komediya proqramlarını və gülməli teatrları dinləmək və izləməyin maneəsi yoxdur, əlbəttə, bu şərtlə ki, mömin bir şəxsə qarşı hörmətsizlik olmamalıdır.**

**Sual 1186: Toy məclisində mənim bir neçə fotoşəklimi çəkdilər ki, bu fotoşəkillərdə mən kamil hicabda deyildim. İndi bu fotoşəkillər mənim dostlarımda və qohumlarımdadır. Bu fotoşəkilləri onlardan almaq mənə vacibdirmi?**

**Cavab: Əgər bu fotoşəkillərin başqalarında olmasının bir fəsadı yoxdursa, yaxud fəsadı olduğu təqdirdə bu fotoşəkilləri başqalarına verməkdə sizin bir rolunuz olmayıbdırsa, yaxud da bu fotoşəkilləri başqalarından almağın sizə böyük çətinliyi vardırsa, bu xüsusda bir vəzifəniz yoxdur.**

**Sual 1187: İmam Xomeyninin (r.ə) və şəhidlərin fotoşəklini öpməyin biz qadınlar üçün maneəsi vardırmı, nəzərə alaraq ki, onlar biz qadınlara naməhrəmdirlər?**

**Cavab: Ümumiyyətlə, insanın fotoşəkli onun özü hökmündə deyildir. Ona görə də günaha düşmək qorxusu mövcud olmadığı təqdirdə, ehtiram və sevgi göstərmək məqsədilə fotoşəkli öpməyin maneəsi yoxdur.**

**Sual 1188: Kinofilmlərdə və başqa videogörüntülərdə tanımadığımız qadınların çılpaq və yarıçılpaq görüntülərinə baxmaq olarmı?**

**Cavab: Naməhrəmin videogörüntüsünə və fotoşəklinə baxmaq, onun özünə baxmaq hökmündə deyildir. Beləliklə, əgər mükəlləf naməhrəmin videogörüntüsünə və fotoşəklinə şəhvət üzündən baxmazsa və harama düşmək qorxusu olmazsa, həmçinin fəsadı olmazsa, bunun şəri baxımdan maneəsi yoxdur. Amma nəzərə alsaq ki, çılpaq qadın görüntüsünə baxmaq şəhvəti təhrik edir və bu görüntülərə, adətən, şəhvət ilə baxılır, buna görə də, günah işlətmək üçün bir başlanğıc olur, bu baxımdan belə görüntülərə baxmaq haramdır.**

**Sual 1189:** **Qadın ərinin icazəsi olmadan toy məclislərində fotoşəkil çəkdirə bilərmi? Əgər çəkdirə bilərsə, kamil hicaba riayət etməlidirmi?**

**Cavab: Fotoşəkil çəkdirmək üçün ərin icazəsi lazım deyildir. Amma əgər qadın ehtimal versə ki, naməhrəm kişi onun fotoşəklini görə bilər və kamil hicaba riayət etməmək fəsadla nəticələnər, kamil hicaba riayət etmək vacibdir.**

**Sual 1190:** **Qadınlar kişilərin güləşini izləyə bilərmi?**

**Cavab: Əgər güləş meydanında iştirak edərək izləyərlərsə, yaxud ləzzət almaq məqsədilə izləyərlərsə, yaxud da günaha və fəsada düşmək qorxusu mövcud olarsa, buna icazə verilmir. Əgər televizayadan birbaşa yayımda izləyərlərsə, ehtiyata görə, icazə verilmir. Bundan qeyri hallarda isə, maneəsi yoxdur.**

**Sual 1191:** **Əgər toy məclisi gecəsi gəlin başına açıqrəngli və nazik örtük atarsa, naməhrəm kişi onun fotoşəklini çəkə bilərmi?**

**Cavab: Əgər bu iş naməhrəm qadına haram baxış ilə yanaşı olarsa, bu işi görmək olmaz. Əks təqdirdə, maneəsi yoxdur.**

**Sual 1192:** **Qadının öz məhrəmləri ilə hicabsız fotoşəklini çəkməyin hökmü nədir? Əgər ehtimal verilsə ki, fotoşəkillər çıxarılarkən naməhrəm bir kişi onları görəcəkdir, bunun hökmü nədir?**

**Cavab: Əgər bu qadına baxan və onun fotoşəklini çəkən fotoqraf bu qadının məhrəmlərindən olarsa, qadının fotoşəklini çəkməyin maneəsi yoxdur. Qadını tanımayan fotoqrafın bu fotoşəkilləri çıxarmasının da maneəsi yoxdur.**

**Sual 1193:** **Bəzi gənclər əxlaqa zidd görüntülərə baxır və bu işləri üçün əsassız üzrlər gətirirlər. Bunun hökmü nədir? Əgər bu görüntülərə baxmaq insanın şəhvətini müəyyən qədər sakitləşdirərsə və harama düşməyin qarşısının alınmasında təsirli olarsa, hökmü nədir?**

**Cavab: Əgər şəxs bu görüntülərə cinsi ləzzət almaq məqsədilə baxarsa, yaxud bu görüntülərə baxdıqda şəhvətinin təhrik olacağını bilərsə, yaxud günaha və fəsada düşmək qorxusu mövcud olarsa, bu təqdirdə bu görüntülərə baxmaq haramdır. Amma başqa bir harama düşməməsi üçün insanın bu görüntülərə baxması məsələsinə gəlincə, bu məsələ şəri baxımdan haram olan bir işi görməyi icazəli etmir.**

**Sual 1194:** **Musiqi çalınan və rəqs edilən şənlik məclislərində video çəkiliş etmək üçün iştirak etməyin hökmü nədir? Kişinin kişi məclislərindən və qadının qadın məclislərindən video çəkiliş etməsinin hökmü nədir? Toy məclisinin video çəkilişini kişi montajçının – istər toy sahibinin ailəsini tanıyan, istər tanımayan montajçının - montaj etməsinin hökmü nədir? Həmçinin bu işi qadın montajçının etməsinin hökmü nədir? Bu video yazılarda musiqilərdən istifadə etmək olarmı?**

**Cavab: Ğinaya və haram musiqiyə qulaq asmaqla, yaxud hər hansı bir haram işi görməklə**

**yanaşı olmadığı təqdirdə şənlik məclislərində iştirak etməyin, həmçinin kişinin kişi məclislərindən və qadının qadın məclislərindən video çəkiliş etməsinin maneəsi yoxdur. Amma kişinin qadın məclislərindən və ya qadının kişi məclislərindən video çəkiliş etməsinə gəlincə, əgər günaha düşmək qorxusu olan baxış ilə yanaşı olarsa, yaxud hər hansı bir fəsadla yanaşı olarsa, bu işə icazə verilmir. Həmçinin video yazılarda eyş-işrət və günah məclislərinə uyğun olan musiqilərdən istifadə etmək haramdır.**

**Sual 1195:** **İslam hökuməti televiziyasından yayımlanan kinofilmlərin (istər xarici, istər daxili kinofilmlərin) və musiqilərin xüsusiyyətini nəzərə alıb, onları izləmək və dinləməyin hökmü nədir?**

**Cavab: Əgər dinləyici və izləyici şəxslər müəyyən etsələr ki, radio və televiziyadan yayımlanan musiqi eyş-işrət və günah məclislərinə uyğun musiqidir, yaxud televiziyada göstərilən kinofilmin fəsadı vardır, onlar bu kinofilmləri izləyə və bu musiqiləri dinləyə bilməzlər. Bu musiqi və ya kinofilmlərin radio və televiziyadan yayımlanması, onları izləmək və dinləməyin icazəli olmasına şəri dəlil hesab olunmur.**

**Sual 1196:** **Dövlət müəssisələrində divara vurmaq üçün Həzrət Peyğəmbər (s), Əmirəl-möminin Əli (ə) və İmam Hüseynə (ə) aid edilən təsvirləri almağın və satmağın hökmü nədir?**

**Cavab: Bu işin öz-özlüyündə şəri baxımdan maneəsi yoxdur, bu şərtlə ki, ürfə görə hörmətsizlik hesab olunan cəhətlərə şamil olmamalı və o həzrətlərin şəninə zidd olmamalıdır.**

**Sual 1197:** **Şəhvətin təhrik olunmasına səbəb olan əxlaqa zidd kitabları və şeirləri oxumağın hökmü nədir?**

**Cavab: Onlardan çəkinmək gərəkdir.**

**Sual 1198:** **Peyk antenaları vasitəsilə yayımlanan televiziya kanallarında bəzi ictimai proqramlar göstərilir ki, qərb cəmiyyətinin ictimai məsələlərini əks etdirir və azğın düşüncələri yaymaq, o cümlədən, kişi və qadın arasında məsafənin olmamasına təşviq etmək və qeyri-qanuni cinsi əlaqələri təbliğ etmək xarakteri daşıyır. Belə ki, bu proqramlar bəzi möminləri də öz təsiri altına almışdır. Təsir altına düşməsi ehtimal verilən şəxslərin bu proqramları izləməsinin hökmü nədir? Bu hökm, bu proqramları təhlil edib onların mənfi cəhətlərini aşkarlamaq və camaata bu proqramlara baxmamaq üçün öyüd-nəsihət etmək məqsədilə baxan şəxslər barəsində dəyişirmi?**

**Cavab: Əgər bu proqramlar cinsi ləzzət almaq məqsədilə izlənilərsə, yaxud təsir altına düşmək və fəsad qorxusu mövcud olarsa, onları izləmək olmaz. Amma bu proqramların təsiri altına və fəsada düşməyəcəyinə əmin olan səlahiyyətli şəxslərin bu proqramları təhlil etmək və camaatı onların təhlükələri və mənfi cəhətləri barədə məlumatlandırmaq məqsədilə onları izləməsinin maneəsi yoxdur. Əlbəttə, əgər bu zəmində müəyyən qanunlar mövcud olarsa, onlara riayət olunmalıdır.**

**Sual 1199:** **Bəzənmiş və başı-sinəsi açıq televiziya aparıcısının saçlarına baxmaq olarmı?**

**Cavab: Əgər ləzzət almaq məqsədilə olmazsa və harama, fəsada düşmək qorxusu mövcud olmazsa, habelə, birbaşa və canlı yayım olmazsa, maneəsi yoxdur.**

**Sual 1200:** **Ailəli şəxs şəhvəti təhrik edən filmləri izləyə bilərmi?**

Cavab: Əgər bu filmləri şəhvətinin təhrik olunması məqsədilə izləyərsə, yaxud bu filmləri izləmək şəhvətin təhrik olunmansına səbəb olarsa, onları izləyə bilməz.

**Sual 1201:** Harama düşməyə səbəb olmadığı təqdirdə, evli kişinin hamilə qadın ilə düzgün qaydada cinsi əlaqədə olmağı təlim edən videoçarxları izləməsinin hökmü nədir?

Cavab: Bu videoçarxları izləmək hər zaman şəhvəti təhrik edən baxış ilə birgə olduğuna görə, onları izləmək olmaz.

**Sual 1202:** İcazəli olan kinofilmləri, dərgiləri, nəşriyyatları, audio diskləri müəyyən etmək məqsədilə Dini Maarif Nazirliyinin nəzarət məsullarının müxtəlif kinofilmləri, dərgiləri, nəşriyyatları və audio diskləri izləmələri və dinləmələrinin hökmü nədir?

Cavab: Qanuni vəzifələrini yerinə yetirərkən Dini Maarif Nazirliyinin nəzarət məsullarının bu materialları zəruri miqdarda izləmələri və dinləmələrinin maneəsi yoxdur. Amma ləzzət almaq niyyətindən və harama düşmək qorxusu olan baxışdan çəkinməlidirlər. Həmçinin nəzarət və araşdırma işinə təyin edilən şəxslər fikri və ruhi baxımdan müşavir məsulların nəzarəti altında olmalıdırlar.

**Sual 1203:** Azdırıcı səhnələrini kəsib montaj etdikdən sonra izləyicilər arasında yaymaqdan ötrü belə səhnələri olan kinofilmləri izləməyin hökmü nədir?

Cavab: Əgər bu kinofilmləri izləməkdə məqsəd, fəsad yaradan və azdırıcı səhnələri kəsib montaj etmək olarsa, onları izləməyin maneəsi yoxdur. Bu şərtlə ki, bu işi görən şəxs harama düşməkdən amanda olmalıdır.

**Sual 1204:** Ər və arvad evdə porno filmləri izləyə bilərlərmi? Beldən aşağı iflic olan şəxs şəhvətinin təhrik olunması və öz həyat yoldaşı ilə cinsi əlaqədə olmağa qabil olması məqsədilə belə filmləri izləyə bilərmi?

Cavab: Porno filmləri vasitəsilə şəhvətin təhrik edilməsinə icazə verilmir.

**Sual 1205:** Fəsadı olmadığı təqdirdə, İslam dövlətinin qanunlarına görə qadağan olunmuş filmləri və görüntüləri gizli şəkildə izləməyin hökmü nədir? Gənc ər və arvad üçün bunun hökmü nədir?

Cavab: Əgər qadağan olunmuş filmlər və görüntülərdirsə, onları izləməyin maneəsi vardır.

**Sual 1206:** İslam hökümətinin ali dəyərlərinə və Ali Dini Liderə hörmətsizliyi ehtiva edən videoçarxları izləməyin hökmü nədir?

Cavab: Onları izləməkdən çəkinmək lazımdır.

**Sual 1207:** İslam inqilabından sonra İranda istehsal olunan bəzi kinofilmlərdə aktrisalar naqis hicabdadırlar və bunun bəzən mənfi təsirləri olur. Belə kinofilmləri izləməyin hökmü nədir?

Cavab: Əgər izləyici bu kinofilmləri ləzzət almaq niyyətilə və ya harama düşmək qorxusu olan baxış ilə izləməzsə, həmçinin fəsadın yaranmasına səbəb olmazsa, onları izləməyin öz-özlüyündə maneəsi yoxdur. Amma kinematoqraflar İslamın dəyərli təlimlərinə zidd olan kinofilmləri istehsal etməkdən çəkinməlidirlər.

**Sual 1208:** Dini Maarif Nazirliyinin təsdiqlədiyi kinofilmləri yaymağın hökmü nədir? Həmçinin Dini Maarif Nazirliyinin təsdiqlədiyi audio diskləri universitetlərdə yaymağın hökmü nədir?

**Cavab: Əgər mükəlləfin nəzərinə görə, həmin kinofilmlər və ya audio disklər ürfdə ğinaya, yaxud eyş-işrət və günah məclislərinə uyğun olan musiqilərə şamildirsə, mükəlləf onları yaya, həmçinin izləyə və dinləyə bilməz. Məsələnin təyin edilməsində mükəlləfin nəzəri ilə bəzi aidiyyatı qurumların təsdiqi bir-birinə zidd olduğu təqdirdə, bu qurumların təsdiqi sözügedən məsələnin mükəlləf üçün icazəli olmasına şəri dəlil hesab olunmur.**

**Sual 1209: Naməhrəm qadınların şəkli dərc olunan və geyim seçmək üçün istifadə edilən qadın geyimləri dərgilərini alıb-satmağın və saxlamağın hökmü nədir?**

**Cavab: Bu dərgilərdə sırf naməhrəm qadınların şəklinin dərc olunması, onları alıb-satmağa və geyim seçmək üçün onlardan istifadə etməyə maneə yaratmır. Əlbəttə, bu şərtlə ki, həmin şəkillər fəsada səbəb olacaq bir tərzdə olmamalıdır.**

**Sual 1210: Videokamera almaq və satmaq olarmı?**

**Cavab: Haram işlərdə istifadə etmək məqsədilə olmadığı təqdirdə videokamera almağın və satmağın maneəsi yoxdur.**

**Sual 1211: Əxlaqa zidd filmlərin disklərini, həmçinin video aparat (DVD) alıb-satmağın və icarəyə verməyin hökmü nədir?**

**Cavab: Əgər filmlər şəhvəti təkrik edən və azğınlığa, fəsada səbəb olan əxlaqa zidd səhnələrə şamil olarsa, yaxud ğinaya və eyş-işrət, günah məclislərinə uyğun olan musiqilərə şamil olarsa, onları hazırlamaq, alıb-satmaq və icarəyə vermək olmaz.**

**Sual 1212: Xarici radioların xəbərlərini və elmi-mədəni proqramlarını dinləmək olarmı?**

**Cavab: Azğınlığa və fəsada səbəb olmadığı təqdirdə, dinləmək olar.**

## Peyk antena

**Sual 1213:** **Peykdən yayımlanan televiziya kanallarını tutmaq üçün qəbuledici peyk antenasını almaq, saxlamaq və istifadə etmək olarmı? Əgər bu antena havayı olaraq əldə edilərsə, hökmü nədir?**

**Cavab: Qəbuledici peyk antenası televiziya kanallarını tutmaq və həm halal, həm də haram proqramları izləmək üçün bir vasitə olduğuna görə "müştərək alət" hökmünü daşıyır. Odur ki, haram işlərə istifadə məqsədilə onu almaq, satmaq və saxlamaq haramdır. Halal işlərə istifadə məqsədilə isə, icazə verilir. Amma bu antena ona sahib olan şəxs üçün haram televiziya proqramlarını izləməyə əlverişli şərait yaratdığına və bəzən də başqa fəsadlara zəmin yaratdığına görə, onu almaq və saxlamağa icazə verilmir. Yalnız ondan haram işlərə istifadə etməyəcəyinə və evdə bu antenanın quraşdırılması fəsada zəmin yaratmayacağına əmin olan bir şəxs onu ala və saxlaya bilər. Lakin əgər bu zəmində qanun mövcuddursa, ona riayət olunmalıdır.**

**Sual 1214:** **İran İslam Respublikasından xaricdə yaşayan şəxslər İran İslam Respublikasının peykdən yayımlanan televiziya kanallarını tutmaq məqsədilə qəbuledici peyk antenasını ala və ya sata bilərlərmi?**

**Cavab: Baxmayaraq ki, sözügedən antena "müştərək alət" hökmünü daşıyır və ondan halal işlərə istifadə etmək mümkündür, amma əksər hallarda ondan haram işlərə istifadə edildiyinə görə və bundan əlavə, evdə bu antenanı quraşdırmaq digər fəsadlara zəmin yaratdığına görə, onu almağa və evdə onu quraşdırmağa icazə verilmir. Yalnız ondan haram işlərə istifadə etməyəcəyinə və evdə bu antenanın quraşdırılması fəsada zəmin yaratmayacağına əmin olan bir şəxs onu ala və saxlaya bilər.**

**Sual 1215:** **Əgər qəbuledici peyk antenası İran İslam Respublikasının televiziya kanallarından əlavə, ərəb ölkələrinin və Fars körfəzi ölkələrinin xəbər kanallarını və faydalı proqramları yayımlayan bəzi kanallarını, həmçinin qərb ölkələrinin bütün televiziya kanallarını və fəsad yayan kanallarını da tutursa, bunun hökmü nədir?**

**Cavab: Televiziya kanallarını tutmaq üçün bu antenadan istifadə etməyə hansı meyar ilə icazə verildiyi bir qədər əvvəldə açıqlandı və bu xüsusda qərb ölkələri ilə başqa ölkələrin televiziya kanalları arasında fərq yoxdur.**

**Sual 1216:** **Qərb ölkələrinin, yaxud Fars körfəzi ölkələrinin, yaxud da başqa ölkələrin peykdən yayımlanan televiziya kanallarında elmi, dini və ya başqa proqramları izləmək üçün peyk antenalarından istifadə etməyin hökmü nədir?**

**Cavab: Elmi, dini və ya başqa proqramları izləmək və dinləmək üçün bu antenadan istifadə etməyin öz-özlüyündə bir maneəsi olmasa da, amma qərb ölkələrinin və əksər qonşu ölkələrin peykdən yayımlanan televiziya kanallarındakı proqramlar əksər hallarda azğın düşüncələri təlim, haqqı təhrif və eyş-işrəti təbliğ etdiklərinə görə, hətta bu kanallarda elmi və ya dini proqramları izləmək fəsada və harama düşməyə səbəb olduğuna görə həmin proqramları izləmək üçün sözügedən antenalardan istifadə etmək şəri baxımdan haramdır. Əlbəttə, əgər sırf faydalı elmi və ya dini proqramlar olarsa və onları izləmək hansısa bir fəsada və ya harama düşməyə səbəb olmazsa, bu proqramları izləməyə icazə verilir. Lakin**

**əgər bu zəmində qanun mövcuddursa, ona riayət olunmalıdır.**

**Sual 1217: Mənim peşəm radio və televiziya kanallarını tutan qəbuledici cihazları təmir etməkdir. Son zamanlar peyk antenalarının hissələrini quraşdırmaq və onları təmir etmək üçün mənə müraciət olunur. Bu xüsusda mənim vəzifəm nədir? Bu antenaların hissələrini alıb-satmağın hökmü nədir?**

**Cavab: Əgər bu antenadan haram işlər üçün istifadə ediləcəksə - adətən, haram işlər üçün istifadə edilir – və yaxud siz bu antenanı quraşdırmaq istəyən şəxsin ondan haram işlər üçün istifadə edəcəyini bilsəniz, onu alıb-satmaq, hissələrini quraşdırmaq və təmir etmək olmaz.**

## Teatr və kinofilm

**Sual 1218: Lazım gələrsə, din alimlərinin və qazilərin geyimlərindən kinofilmlərdə istifadə etmək olarmı? Din alimlərinin və İslam dininin hörmətini gözləmək, ədəbsizlik və hörmətsizlik etməmək şərtilə keçmiş və ya müasir din alimləri barəsində dini və irfani məzmunda kinofilmlər çəkmək olarmı, yoxsa yox? Qeyd etməliyik ki, məqsəd, İslam dininin açıqladığı uca və dərin dəyərləri tanıtdırmaq, irfanın mənasını və müsəlman ümmətinin üstünlüyü sayılan xalis mədəniyyəti bəyan etmək, həmçinin düşmənin rüsvayçı mədəniyyəti qarşısında dayanmaqdır. Bunu da qeyd etməliyik ki, bütün bu deyilənləri kinofilm qəlibində bəyan etməyin daha çox cəzbediciliyi və təsiri, xüsusilə də, gənc nəslin üzərində böyük təsiri vardır.**

**Cavab: KİnofiImin maarifləndirmə və təbliğat vasitəsi olduğunu nəzərə alaraq, gənclərin və başqalarının maariflənməsi və məlumatlanması, habelə, İslam mədəniyyətinin təbliği üçün yararlı ola biləcək hər bir şeyin görüntülənməsi və təqdim olunmasının maneəsi yoxdur. Din alimlərinin şəxsiyyətinin və onların özünəməxsus həyat tərzinin, həmçinin digər alimlərin və böyük şəxsiyyətlərin, onların həyat tərzinin tanıtdırılması bunlardan biridir. Amma onların hörmətini və xüsusi həyatlarına aid məqamları gözləmək vacibdir. Həmçinin bu vasitədən İslama zidd olan bilgilərin yayılması üçün istifadə olunmamalıdır.**

**Sual 1219: Biz həmişəyaşar Kərbəla hadisəsini və İmam Hüseynin (ə) uğrunda şəhid olduğu böyük hədəfləri əks etdirən tarixi bir kinofilm çəkmək istəyirik. Qeyd etməliyik ki, İmam Hüseyn (ə) bu kinofilmdə adi şəkildə göstərilməyəcək, əksinə, çəkilişdə, işıqlandırmada və montajda nur əhatəsində göstəriləcəkdir. Belə bir kinofilmi çəkmək və İmam Hüseyni (ə) bu şəkildə göstərmək olarmı?**

**Cavab: Əgər kinofilm mötəbər mənbələrə istinadən çəkilərsə, habelə, mövzunun müqəddəsliyi, İmam Hüseynin (ə) və onun səhabələrinin, əziz Əhli-beytinin (Salam olsun onlara!) uca məqamı qorunaraq çəkilərsə, maneəsi yoxdur. Amma mövzunun müqəddəsliyinin və Seyyidüş-şühədanın (ə) və onun səhabələrinin hörmətinin layiqincə qorunması olduqca çətin bir iş olduğuna görə, bu zəmində ehtiyat etmək gərəkdir.**

**Sual 1220: Teatr nümayiş etdirərkən və ya kinofilmə çəkilərkən kişilərin qadın geyimi və ya qadınların kişi geyimi geyinmələrinin hökmü nədir? Kişilərin qadın səsini və ya qadınların kişi səsini yamsılamalarının hökmü nədir?**

**Cavab: Rol oynayarkən və bir şəxsin obrazını yaradarkən əks cinsin geyimini geyinmək və səsini yamsılamaq əgər fəsada səbəb olmazsa, bu işin icazəli olması uzaq ehtimal deyildir.**

**Sual 1221: Kişilərin də seyr etdikləri teatr tamaşalarında qadın aktrisaların müxtəlif növ kremlərdən və kosmetik vasitələrdən istifadə etmələrinin hökmü nədir?**

**Cavab: Əgər onları qadınlar və ya onlara məhrəm olan kişilər makiyaj edərsə, yaxud özləri özlərini makiyaj edərlərsə, həmçinin bu iş fəsada səbəb olmazsa, maneəsi yoxdur. Əks təqdirdə, buna icazə verilmir. Əlbəttə, makiyajlı üz naməhrəmdən örtünməlidir.**

## Rəssamlıq və heykəltəraşlıq

**Sual 1222:** **Gəlincik və heykəl düzəltmək, canlı varlıqların – istər bitkilərin, istər heyvanların, istərsə də insanların – rəsmini və üz cizgilərini çəkməyin hökmü nədir? Onları almaq, satmaq, saxlamaq və sərgilərdə sərgiləməyin hökmü nədir?**

**Cavab: Heykəl düzəltməyin, rəsm çəkməyin, hətta canlı varlıqların üz cizgilərini çəkməyin maneəsi yoxdur. Həmçinin rəsm tabloları və heykəlləri almaq, satmaq və saxlamaq olar. Onları sərgilərdə sərgiləməyin də maneəsi yoxdur.**

**Sual 1223:** **Yeni tədris metodunda "özünə güvənmə" adlı dərs saatı mövcuddur və bu dərsdə oyuncaq, heykəl düzəltmək də tələb olunur. Bəzi müəllimlər əl işi ünvanında şagirdlərə it, dovşan və bu kimi heyvanların parçadan və ya başqa materialdan oyuncağını və heykəlini düzəltməyi tapşırırlar. Bu əşyaları düzəltməyin hökmü nədir? Müəllimlərin şagirdlərə bu tapşırığı vermələrinin hökmü nədir? Bu heyvanların tam heykəlini düzəltmək ilə yarımçıq heykəlini düzəltmək hökmdə təsir qoyurmu?**

**Cavab: Heykəl düzəltməyin və heykəl düzəltməyə dair tapşırıq verməyin maneəsi yoxdur.**

**Sual 1224:** **Uşaqların və yeniyetmələrin "Quran hekayələri"ni təsvir etmələri və rəsmini çəkmələrinin hökmü nədir? Məsələn, uşaqlara "Əshabi-fil", yaxud Musa peyğəmbər (ə) üçün çayın yarılması, yaxud da başqa hekayələrin rəsmini çəkmək tapşırılır.**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur, amma həqiqətə müvafiq olmalıdır. Həqiqəti olmayan məsələlərdən və ya hörmətsizlik sayılan işlərdən çəkinmək lazımdır.**

**Sual 1225:** **Canlı varlıqların – istər insanların, istər qeyri insanların – müəyyən dəzgahlar vasitəsilə heykəlini və ya oyuncağını düzəltmək olarmı?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 1226:** **Heykəl şəklində dekorativ əşyalar düzəltməyin hökmü nədir? Heykəllərin düzəldildiyi materiallar "haram" hökmünə təsir edirmi?**

**Cavab: Heykəl düzəltməyin maneəsi yoxdur və heykəllərin düzəldiyi materiallar arasında da fərq yoxdur.**

**Sual 1227:** **Gəlinciyin hissələrini, məsələn, əlini, ayağını və başını bərpa etməyə heykəl düzəltməyin haramlığı hökmü şamil olurmu? Buna "heykəl düzəltmək" deyilirmi?**

**Cavab: Gəlinciyin hissələrini düzəltmək və ya onları bərpa etmək "heykəl düzəltmək" hesab olunmur. Ümumiyyətlə, heykəl düzəltməyin maneəsi yoxdur.**

**Sual 1228:** **Bəziləri bədənə xal döydürməyə adi baxırlar və bu yolla bədənlərinə silinməyən şəkillər çəkdirirlər. Bunun hökmü nədir? Bu, dəstəmaz və qüslün düzgünlüyünə xələl gətirirmi?**

**Cavab: Bədənə xal döydürmək haram deyildir və dərinin altında qalan izlər dəstəmaz suyunun bədənə çatmasına manеə deyildir. Döymə xal ilə alınan dəstəmaz və edilən qüsl düzgündür.**

**Sual 1229:** **Bir ər və arvad tanınmış rəssamdırlar və onların işi rəsm tablolarını bərpa etməkdir. Bu tabloların əksəriyyətində xristian cəmiyyəti əks olunubdur və onların bəzisində xaç şəkli, Xanım Məryəmin (s.ə) və İsa peyğəmbərin (ə) rəsmi mövcuddur. Çox qədim olduqlarına görə və ya başqa səbəblərə görə müəyyən hissəsi aradan gedən bu tabloları bərpa etmək üçün bəzi müəssisələr və şirkətlər, yaxud kilsə tərəfindən bəzi şəxslər onlara müraciət edirlər. Nəzərə alsaq ki, tabloların əksəriyyəti belədir və tabloları bərpa etmək dolanışıqlarını təmin etmək üçün onların yeganə peşəsidir, habelə, onlar müqəddəs İslam dininin təlimlərinə**

**əməl edirlər, belə tabloları bərpa edə və bu işdən aldıqarı zəhmət haqqıdan istifadə edə bilərlərmi?**

**Cavab: Rəsm tablolarını bərpa etməyin, hətta xristian cəmiyyəti, yaxud İsa peyğəmbərin (ə) və Xanım Məryəmin (s.ə) rəsmini əks etdirən tablolar olsa belə, öz-özlüyündə maneəsi yoxdur. Bu işin qarşılığında zəhmət haqqı almağın da maneəsi yoxdur. Həmçinin bu işi bir peşə kimi seçmək və dolanışığı təmin etməyin maneəsi yoxdur. Əlbəttə, bu iş səhv yolu və azğınlığı yaymaq olmamalı, yaxud başqa fəsadlara səbəb olmamalıdır.**

## Sehr etmək, fokus göstərmək, ruhları və cinləri çağırmaq

**Sual 1230:** **Fokus öyrənmək, öyrətmək və izləməyin, cəldlik ilə yanaşı olan oyunları oynamağın hökmü nədir?**

**Cavab: Sehrin növlərindən sayılan fokusu öyrənmək və öyrətmək haramdır. Amma sürətli hərəkət və cəldlik ilə yanaşı olan və sehrin növlərindən sayılmayan oyunların maneəsi yoxdur.**

**Sual 1231:** **Rəml atmağı, münəccimlik etməyi, qeybdən xəbər verən digər elmləri öyrənmək olarmı?**

**Cavab: Hal-hazırda bu elmlərdən insanlar arasında mövcud olan bilgilər əksər hallarda qeybi bilmək və qeybi məsələləri yəqinliklə xəbər verməkdə etimad ediləcək həddə deyildir. Amma rəml atmaq kimi elmləri düzgün şəkildə öyrənməyin maneəsi yoxdur, bu şərtlə ki, fəsada səbəb olmamalıdır.**

**Sual 1232:** **Sehr öyrənmək və onu yerinə yetirmək olarmı? Ruhları, mələkləri və cinləri çağırmaq olarmı?**

**Cavab: Sehr elmi və onu öyrənmək haramdır. Əlbəttə, məntiqi və şəri bir məqsədlə olduqda, istisna təşkil edir. Ruhları, mələkləri və cinləri çağırmağa gəlincə isə bu, yerinə, vasitələrinə və məqsədinə görə müxtəlif hökmlər daşıyır.**

**Sual 1233:** **Ruhları və cinləri ram edərək xəstəliyi müalicə edən şəxslərə möminlərin müraciət etmələrinin hökmü nədir? Qeyd etməliyik ki, bu şəxslərin ancaq xeyir iş gördüklərinə yəqinlik vardır.**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur, bu şərtlə ki, bu iş şəri baxımdan halal olan yollarla görülməlidir.**

**Sual 1234:** **Xırda daşlar vasitəsilə fala baxmaq və bu yolla gəlir əldə etmək olarmı?**

**Cavab: Yalan xəbərlər verməyə icazə verilmir.**

## Hipnotizm

**Sual 1235:** **Hipnoz etmək olarmı?**

**Cavab: Əgər məntiqi bir məqsədlə olarsa və hipnoz edilən şəxsin buna razılığı olarsa, həmçinin haram bir işlə yanaşı olmazsa, maneəsi yoxdur.**

**Sual 1236:** **Bəzi şəxslər müalicə məqsədilə deyil, insan ruhunun qüdrətini nümayiş etdirmək məqsədilə hipnoz edirlər. Bu işə icazə verilirmi? Bu sahədə təcrübəsi olan, amma mütəxəssis olmayan şəxslər bu işi görə bilərlərmi?**

**Cavab: Ümumiyyətlə, halal və məntiqi məqsədlə hipnotizmi öyrənmək və ondan istifadə etməyin maneəsi yoxdur. Bu şərtlə ki, süni yuxuya getmək istəyən şəxsin buna razılığı olmalıdır və hipnozun onun üçün etina olunacaq bir zərəri də olmamalıdır.**

## Bəxt oyunları (lotoreya)

**Sual 1237: Lotoreya biletlərini almaq və satmağın və uduşa düşən hədiyyənin hökmü nədir?**

**Cavab: Lotoreya biletlərinin alğı-satqısı ehtiyat-vacibə görə, haramdır. Hədiyyəni udan şəxs onun maliki olmur və hədiyyəni almağa haqqı yoxdur.**

**Sual 1238: "Firavan həyat müjdəsi" adı ilə camaat arasında yayılan biletləri almaq və bu biletlərə aid püşkatmada iştirak etməyin hökmü nədir?**

**Cavab: Xeyriyyə işlərinə camaatdan yardım yığmaq məqsədi dayışan biletləri paylamağın və yardım edənləri püşkatma ilə təşviq etmək və həvəsləndirməyin şəri qadağası yoxdur. Həmçinin xeyriyyə işlərində iştirak etmək məqsədilə bu biletləri almaq üçün pul ödəməyin maneəsi yoxdur.**

**Sual 1239: Bir şəxs öz maşınını lotoreya oyununa qoymuşdur. Belə ki, oyun iştirakçısı müəyyən tarixdə püşk atılacaq bileti müəyyən qiymətə alır. Bir qrup insan püşkatmada iştirak edir və həmin günün axırında püşk atılır. Püşkdə kimin adı çıxırsa, həmin şəxs qalib olur və bahalı maşını təhvil alır. Püşkatma yolu ilə maşının bu şəkildə verilməsinə şəri baxımdan icazə verilirmi?**

**Cavab: Belə biletlərin alğı-satqısı ehtiyata görə, haramdır və hədiyyəni udan şəxs onun sahibi olmur. Suala əsasən, hədiyyəni udan şəxsin sözügedən maşının sahibi ola bilməsi üçün maşının sahibi "şəri əqdlər"dən biri, məsələn, alğı-satqı, hədiyyə, müsalihə əsasında onu udan şəxsin mülkiyyətinə keçirməlidir.**

**Sual 1240: Camaatın xeyriyyə işlərinə olan yardımlarını yığmaq məqsədi daşıyan biletləri satmaq olarmı? Belə ki, yardım yığılandan sonra püşk atılır və yığılan yardımın bir hissəsi hədiyyə ünvanında püşkdə adı çıxanlara verilir, qalan hissəsi isə ümumi xeyri olan işlərə sərf edilir.**

**Cavab: Bu işi "alğı-satqı" adlandırmaq düzgün deyildir. Amma bu biletləri camaat arasında yaymaq və xeyriyyə işləri üçün yardım yığmağın maneəsi yoxdur. Püşkdə adı çıxanlara hədiyyələrin veriləcəyi vədi ilə camaatı yardım etməyə təşviq etmək də olar. Bu şərtlə ki, camaat bu biletləri xeyriyyə işlərində iştirak etmək məqsədilə əldə etməlidirlər.**

**Sual 1241: Xüsusi bir şirkətin əmlakı olan lotoreya biletlərini almaq olarmı, belə ki, gəlirin yalnız iyirmi faizi qadın xeyriyyə müəssisələrinə veriləcəkdir?**

**Cavab: Lotoreya biletlərinin alğı-satqısı ehtiyat-vacibə görə, haramdır və bu biletlərin püşkatmasında adı çıxan şəxslər aldıqları pulun sahibi olmurlar.**

## Rüşvət

**Sual 1242:** **Bankın bəzi müştəriləri işlərinin tez yerinə yetirilməsi və daha yüksək xidmət almaları üçün bank işçilərinə müəyyən məbləğ pul bağışlayırlar. Qeyd etməliyik ki, əgər bank işçiləri onların işini tez yerinə yetirməsələr və daha yüksək xidmət göstərməsələr, bank işçilərinə heç bir şey vermirlər. Belə olduğu təqdirdə, həmin pulu almaq olarmı?**

**Cavab: Bank işçiləri müştərilərə xidmət göstərmək üçün işə qəbul olunublar və bunun müqabilində hər ay maaş alırlar. Bu xidmətə görə onlar müştərilərdən pul və ya başqa bir şey ala bilməzlər. Həmçinin bank müştəriləri də onlara xidmət göstərmələri üçün bank işçilərini pul və ya başqa bir şey ilə şirnikləndirməməlidirlər. Çünki bu, fəsada səbəb olur.**

**Sual 1243:** **Bankın bəzi müştəriləri mövcud adət üzrə bank işçilərinə bayramlıq pul verir və elə düşünürlər ki, əgər bu hədiyyəni verməsələr, işləri arzuolunan səviyyədə yerinə yetirilməyəcəkdir. Bu işin hökmü nədir?**

**Cavab: Əgər bu hədiyyələr müştərilərə bank xidmətlərinin göstərilməsində ayrıseçkiliklə nəticələnərsə, sonunda fəsada və başqalarının haqqının tapdalanmasına səbəb olarsa, müştərilər bu hədiyyələri bank işçilərinə verməməlidirlər və işçilərin də bu hədiyyələri almağa haqqı yoxdur.**

**Sual 1244:** **Əgər bir şəxs təşəkkür ünvanında bir idarə işçisinə hədiyyə verərsə, bunun hökmü nədir? Qeyd etməliyik ki, bu idarə işçisi heç bir mənfəət güdmədən öz işini yerinə yetirir.**

**Cavab: İdarələrə müraciət edənlərin idarə işçilərinə hədiyyə vermələri olduqca təhlükəli işlərdən biridir və bu işdən nə qədər uzaq olsanız, sizin dünya və axirətinizin xeyrinə olacaqdır. Yalnız bir halda verilən hədiyyəni qəbul etmək olar və o da bu haldadır ki, müraciət edən şəxs hədiyyəni təkidlə vermək istəyir və idarə işçisi də onu qəbul etməkdən imtina edir, amma müraciət edən şəxs bir yolla onu idarə işçisinə verir. Bundan əlavə, idarə işçisi artıq öz işini yerinə yetirmiş olmalıdır və öncədən də heç bir razılaşma, yaxud təvəqqe mövcud olmamalıdır.**

**Sual 1245:** **Dövlət idarələrinə müraciət edənlərin idarə işçilərinə saf niyyətlə və razılıqla verdikləri hədiyyələrin – istər nağd pul olsun, istər yeyinti məhsulları olsun, istərsə də başqa bir şey olsun – hökmü nədir? İdarə işçilərinə rüşvət ünvanında verilən hər hansı bir şeyin – istər rüşvət verən şəxs onun üçün bir iş yerinə yetirilməsini istəsin, istərsə də istəməsin – hökmü nədir? Əgər idarə işçisi rüşvəti almağa tamahlanaraq qanuna zidd bir iş görərsə, hökmü nədir?**

**Cavab: Hörmətli idarə işçiləri müraciət edənlərin hamısı ilə idarənin qanunları əsasında əlaqə qurmalıdırlar. Hansı ünvanda olmasından asılı olmayaraq, hər hansı bir hədiyyəni müraciət edənlərdən qəbul etmələrinə icazə verilmir. Çünki bu iş fəsada və onlara qarşı bədgümanlığa səbəb olur. Habelə, tamahkar insanları qanuna əməl etməməyə və başqalarının haqqını tapdalamağa təşviq edir. Rüşvətə gəlincə, aydın məsələdir ki, rüşvət vermək və almaq haramdır. Rüşvəti alan şəxs onu öz sahibinə qaytarmalıdır və ondan istifadə etmək haqqı yoxdur.**

**Sual 1246:** **Bəzi hallarda bəzi idarə işçiləri öz işlərini yerinə yetirmək müqabilində müraciət edənlərdən rüşvət tələb edirlər. Onlara rüşvət vermək olarmı?**

**Cavab: Müraciət edənlərə xidmət göstərmək vəzifəsini daşıyan idarə işçilərinə yerinə yetirdikləri işin müqabilində qeyri-qanuni şəkildə pul verməyə, yaxud onlar üçün hansısa bir iş görməyə kimsənin haqqı yoxdur. Həmçinin qanuna görə müraciət edənlərin işini görmək vəzifəsini daşıyan idarə işçilərinin də, gördükləri işin müqabilində müraciət edənlərdən pul istəməyə və almağa haqları yoxdur. Onlar bu puldan istifadə edə bilməzlər və onu öz sahibinə qaytarmalıdırlar.**

**Sual 1247:** **Öz haqqını almaqdan ötrü insanın rüşvət verməsinin hökmü nədir? Qeyd etməliyik ki, bu iş bəzən başqaları üçün çətinlik yaradır, məsələn, rüşvət verərək öz haqqını almaq istəyən şəxs başqa haqq sahiblərindən irəlidə tutulur.**

**Cavab: Rüşvət vermək və almaq olmaz, hətta bu iş başqaları üçün çətinlik və maneəçilik yaratmasa belə. Haqq sahibi olmayan bir insanın (rüşvət verərək) başqalarına maneəçilik yaratmasına isə, heç şübhəsiz, icazə verilmir.**

**Sual 1248:** **Əgər bir şəxs onun qanuni və şəri işini problem çıxarmadan yerinə yetirsinlər deyə, idarələrdən birinin işçilərinə müəyyən məbləğ pul vermək məcburiyyətində qalarsa, bu pul rüşvət hesab olunurmu? Çünki o, bu pulu vermədiyi təqdirdə, həmin idarənin işçilərinin onun işini yerinə yetirməyəcəklərini bilir? Bu iş haramdırmı, yoxsa işinin yerinə yetirilməsi üçün bu pulu vermək məcburiyyətində qalması rüşvət hökmünü aradan qaldırır, nəticədə, bu iş haram olmur?**

**Cavab: Müraciət edənlərə xidmət göstərmək vəzifəsini daşıyan idarə işçilərinə müraciət edənlərin pul və ya başqa bir şey vermələri hökmən idarələrdə fəsadın yaranmasına səbəb olacaqdır və bu iş şəri baxımdan haram hesab olunur. Məcbur qaldığını düşünməsi, onun bu işi yerinə yetirməsinə əsas vermir.**

**Sual 1249:** **Qaçaqmalçılar, onların qanun pozuntusuna göz yumsunlar deyə, bəzi idarə işçilərinə müəyyən məbləğ pul verirlər. İdarə işçisi onların istəyini qəbul etmədiyi təqdirdə isə, onu ölümlə hədələyirlər. Bu halda idarə işçisinin vəzifəsi nədir?**

**Cavab: Qaçaqmalçıların qanuna zidd işlərinə göz yummaq müqabilində hər hansı məbləğdə pul almağa icazə verilmir.**

**Sual 1250:** **Maliyyə şöbəsinin müdiri mühasibatçıdan şirkətlərdən birinin vergi məbləğini bir qədər az göstərməsini tələb etmişdir. Qeyd etməliyik ki, əgər mühasibatçı bu işdən boyun qaçırarsa, böyük çətinliklərlə qarşılaşacaqdır. Bu kimi hallarda mühasibatçının şöbə müdirinin göstərişinə tabe olması vacibdirmi? Bu göstərişi yerinə yetirmək müqabilində pul ala bilərmi?**

**Cavab: Bu kimi hallarda qanuna müvafiq əməl olunmalıdır və qanunu pozmaq olmaz: istər bu işin müqabilində pul almasın, istərsə də pul alsın.**

## İdarə və ya şirkətin alış və satış işləri üzrə məsul şəxsi

**Sual 1251: Bəzi satıcılar idarə və ya şirkətin alış işləri üzrə məsul şəxsi ilə əlaqə yaratmaq məqsədilə satdıqları malın sabit qiymətinə heç nə əlavə etmədən ona müəyyən məbləğ pul verirlər. Bu pulun satıcı və alış işləri üzrə məsul şəxs ilə əlaqədar hökmü nədir?**

**Cavab: Satıcı bu pulu alış işləri üzrə məsul şəxsə verə bilməz və məsul şəxs də onu ala bilməz. Aldığı pulu işçisi olduğu idarəyə və ya şirkətə təhvil verməlidir.**

**Sual 1252: İdarəyə və ya şirkətə lazım olan əşyaları satış mərkəzlərindən almaq vəzifəsini daşıyan dövlət idarəsi və ya özəl şirkətin işçisi satıcı qarşısında şərt qoya bilərmi ki, alışdan əldə etdiyi gəlirin müəyyən faizini ona versin? O, bu pulu satıcıdan ala bilərmi? Əgər idarə və ya şirkət müdiri onun belə bir şərt qoymasına icazə verərsə, bunun hökmü nədir?**

**Cavab: Alış işləri üzrə məsul şəxsin və ya işçinin belə bir şərt qoyması düzgün deyildir və bu pulu satıcıdan ala bilməz. Belə bir şərtin qoyulmasına idarə və ya şirkət müdirinin də icazə verməyə haqqı yoxdur və onun bu xüsusda olan icazəsi etibarsızdır.**

**Sual 1253: İdarəyə və ya şirkətə lazım olan əşyaları almaq vəzifəsini daşıyan alış işləri üzrə məsul şəxs satıcıdan maddi köməklik almaq məqsədilə bazarda müəyyən qiyməti olan bir əşyanı ondan baha qiymətə ala bilərmi? Bu alış-veriş düzgündürmü? Buna görə satıcıdan maddi köməklik ala bilərmi?**

**Cavab: Əgər o, müəyyən bir əşyanı ədalətli bazar qiymətindən baha qiymətə alarsa, yaxud həmin əşyanı bazardan daha ucuz qiymətə ala bilərdisə, əşyanın baha qiymətə alınması ilə baş tutan alış-veriş "füzuli əqd"dir və onun düzgünlüyü aidiyyatı məsul şəxsin icazəsinə bağlıdır. Hər bir halda, alış-verişə görə satıcıdan özünə pul almağa haqqı yoxdur.**

**Sual 1254: Əgər idarənin alış işləri üzrə işçisi müxtəlif satış mərkəzlərinin olmasına baxmayaraq, öz tanışından mal alsa və onunla: "səndən mal aldığıma görə gəlirin müəyyən faizini mənə verəcəksən" deyə şərt kəssə, bu təqdirdə:**
**1) Bu şərtin hökmü nədir?**
**2) Əgər idarə müdirinin və ya idarənin səlahiyyətli məsul şəxsinin bu xüsusda icazəsi olarsa, bunun şəri hökmü nədir?**
**3) Əgər sözügedən mal satıcı tərəfindən adi bazar qiymətindən yuxarı qiymətə təklif olunarsa və müqavilə bağlanarsa, bunun hökmü nədir?**
**4) Bəzi satıcıların idarəyə lazım olan əşyaları almaq vəzifəsini daşıyan məsul şəxsə alış qəbzində qeyd edilən məbləğə aidiyyatı olmadan gəlirdən verdikləri faizin satıcı və məsul şəxs ilə əlaqədar hökmü nədir?**
**5) Əgər sözügedən şəxs idarə işçisi olmaqla yanaşı başqa bir şirkətin marketinqi olarsa və idarəyə lazım olan əşyaları almaqda həmin şirkət üçün marketinqlik edərsə, həmin şirkətdən gəlirin müəyyən faizini ala bilərmi?**
**6) Əgər bir şəxs yuxarıda qeyd edilən yollarla gəlir əldə edərsə, bu gəlir barəsində onun şəri vəzifəsi nədir?**

**Cavab:**
**1) Bu şərtin şəri əsası yoxdur və yanlış və etibarsızdır.**
**2) İdarə müdirinin və ya idarənin səlahiyyətli məsul şəxsinin bu xüsusda icazəsinin şəri və qanuni surəti olmadığına görə etibarsızdır.**
**3) Əgər sözügedən mal ədalətli bazar qiymətindən yuxarı qiymətə olarsa, yaxud həmin malı bazardan daha ucuz qiymətə almaq mümkün olarsa, bu halda bağlanılan müqavilə etibarsızdır.**
**4) İcazə verilmir. Alış işləri üzrə məsul şəxs bu ünvanla aldığı hər bir şeyi işçisi olduğu idarəyə təhvil verməlidir.**

**5) Gəlirin faizini almağa haqqı yoxdur və aldığı hər hansı məbləği işçisi olduğu idarəyə təhvil verməlidir. Əgər bağladığı müqavilə idarənin xeyrinə zidd olarsa, müqavilə kökündən yanlış və etibarsızdır.**
**6) O, qeyri-şəri gəlirləri alış işləri üzrə işçisi olduğu idarəyə təhvil verməlidir.**

## Hamiləliyin qarşısının alınması

**Sual 1255:**
**1) Sağlam bir qadın nütfənin mayalanmasının qarşısını alan vasitələrdən və ya maddələrdən istifadə edib müvəqqəti olaraq hamiləliyin qarşısını ala bilərmi?**
**2) Hamiləliyin qarşısını hansı şəkildə aldığı indiyədək məlum olmayan, amma hamiləliyin qarşısını alan vasitə kimi tanınan vasitələrdən birindən istifadə edərək hamiləliyin qarşısını almağın hökmü nədir?**
**3) Hamiləliyin təhlükəsindən qorxan qadın hamiləliyin qarşısını daimi olaraq ala bilərmi?**
**4) Qüsurlu, yaxud genetik fiziki və ya ruhi xəstəliklərə düçar olan uşaqlar dünyaya gətirməsi mümkün olan qadın hamiləliyin qarşısını daimi olaraq ala bilərmi?**

**Cavab:**
**1) Əgər ərin razılığı ilə olarsa, maneəsi yoxdur.**
**2) Əgər uşaqlığa düşən mayalanmış nütfənin məhv edilməsinə səbəb olarsa, yaxud haram baxışı və toxunuşu lazımlı edərsə, icazə verilmir.**
**3) Sözügedən halda hamiləliyin qarşısını almağın maneəsi yoxdur. Əksinə, əgər hamiləliyin ananın həyatı üçün təhlükəsi olarsa, ixtiyari olaraq hamilə qalmasına icazə verilmir.**
**4) Əgər məntiqi bir məqsədlə olarsa və ciddi bir ziyanı olmazsa, habelə, ərin icazəsi ilə olarsa, maneəsi yoxdur.**

**Sual 1256:** **Kişinin sperma kanallarını bağlatdırmasının hökmü nədir?**

**Cavab: Əgər bu iş məntiqi bir məqsəd daşıyarsa və ciddi bir ziyanı da olmazsa, öz-özlüyündə maneəsi yoxdur. Amma cəmiyyət artımının qarşısını almaq üçün bu işi etmək qınanılır.**

**Sual 1257:** **Əgər bir qadın sağlamdırsa və hamiləliyin ona zərəri yoxdursa, məninin xaricə tökülməsi, yaxud uşaqlıq daxili vasitəni qoydurmaq, yaxud dərman preparatından istifadə etmək, yaxud da uşaqlıq borularını bağlatdırmaq yolu ilə hamiləliyin qarşısını ala bilərmi? Əri onu məninin xaricə tökülməsindən qeyri bir yoldan istifadə etməyə məcbur edə bilərmi?**

**Cavab: Məninin xaricə tökülməsi yolu ilə hamiləliyin qarşısının alınmasının öz-özlüyündə maneəsi yoxdur. Həmçinin digər yollardan istifadə etmək, əgər məntiqi bir məqsədlə olarsa və ciddi bir ziyanı olmazsa, habelə, ərin icazəsi ilə olarsa və haram toxunuşa və baxışa lüzum olmazsa, maneəsi yoxdur. Amma ərin öz zövcəsini bu işə məcbur etməyə haqqı yoxdur.**

**Sual 1258:** **Uşaqlıq borularını bağlatdırmaq niyyətində olan hamilə qadın uşağı qeysəriyyə əməliyyatı ilə dünyaya gətirə və cərrahiyyə əməliyyatı zamanı borularını bağlatdıra bilərmi?**

**Cavab: Uşaqlıq borularını bağlatdırmağın hökmü əvvəlki məsələdə açıqlandı. Amma qeysəriyyə əməliyyatının icazəli olması ona ehtiyacın olmasına, yaxud hamilə qadının istəyinə bağlıdır. Hər bir halda, qeysəriyyə əməliyyatı edərkən və uşaqlıq borularını bağlayarkən zəruri hal istisna olmaqla, naməhrəm kişinin qadına toxunması və baxması haramdır.**

**Sual 1259:** **Qadın ərinin icazəsi olmadan hamiləliyin qarşısını alan vasitələrdən istifadə edə bilərmi?**

**Cavab: Məhəlli-işkaldır.**

**Sual 1260: Dörd övladı olan bir kişi sperma kanallarını bağlatdırmışdır. Əgər zövcəsi buna razı olmazsa, kişi günahkar hesab olunurmu?**

**Cavab: Bu iş zövcənin razılığına bağlı deyildir və kişinin öhdəsinə heç nə düşmür.**

## Uşaq saldırmaq

**Sual 1261:** İqtisadi çətinliklərə görə uşaq saldırmaq olarmı?

**Cavab: İqtisadi çətinliklərə görə uşaq saldırmağa icazə verilmir.**

**Sual 1262:** Həkim hamiləliyin ilk aylarında qadını müayinə etdikdə ona demişdir ki, hamiləliyin davam etməsinin onun həyatı üçün təhlükəsi vardır. Həmçinin demişdir ki, hamiləlik davam etdiyi təqdirdə, onun övladı qüsurlu dünyaya gələcəkdir. Bu səbəbdən həkim uşağı saldırmağı təyin etmişdir. Bu işi görmək olarmı? Ruh verilməmişdən qabaq uşağı saldırmaq olarmı?

**Cavab: Uşağın qüsurlu dünyaya gələcəyi uşağı saldırmaq üçün – hətta ruh verilməmişdən qabaq – şəri icazə hesab olunmur. Amma əgər mütəxəssis və etibarlı həkimin nəzərinə görə hamiləliyin davam etməsinin ananın həyatı üçün təhlükəsi olarsa, ruh verilməmişdən qabaq uşağı saldırmağın maneəsi yoxdur.**

**Sual 1263:** Mütəxəssis həkimlər yeni üsullardan və aparatlardan istifadə edərək hamiləlik dövründə dölün qüsurlarını təyin edə bilirlər. Qüsurlu dünyaya gələn uşaqların həyatı boyu qarşılaşacaqları çətinlikləri nəzərə alaraq, mütəxəssis və etibarlı həkimin qüsurlu olduğunu təyin etdiyi dölü saldırmaq olarmı?

**Cavab: Sırf qüsurlu olduğuna və həyatda çətinliklərlə qarşılaşacağına görə inkişafının heç bir mərhələsində dölü saldırmağa icazə verilmir.**

**Sual 1264:** Uşaqlığa düşən mayalanmış nütfəni "qan laxtası" mərhələsinə çatmamışdan qabaq – belə ki, bu, təxminən qırx gün çəkir – tələf etmək olarmı? Ümumiyyətlə, aşağıdakı mərhələlərin hansı birində uşağı saldırmaq haramdır:
1) Uşaqlığa düşən mayalanmış nütfə;
2) qan laxtası (ələqə);
3) döyülmüş ət parçası (muzğə);
4) izam (ətsiz sümük; ruh verilməmişdən qabaq).

**Cavab: Uşaqlığa düşən mayalanmış nütfəni, həmçinin inkişafının sonrakı mərhələlərinin heç birində dölü saldırmağa icazə verilmir.**

**Sual 1265:** Bəzi ər-arvadların qan xəstəlikləri vardır və qüsurlu genə sahibdirlər, nəticədə, bu xəstəlikləri öz övladlarına ötürürlər. Bu uşaqların ağır xəstəliklərə düçar olma ehtimalı çox böyükdür. Belə uşaqlar doğulduqları andan etibarən ömürlərinin sonuna qədər daim çox əziyyətli bir vəziyyətdə yaşayırlar. Məsələn, hemofiliya xəstələri kiçik bir zərbə almaq nəticəsində şiddətli qanaxmaya tutula bilərlər və bu da ölümlə, yaxud iflic olmaqla nəticələnə bilər. Hamiləliyin ilk həftələrində bu xəstəliyi təyin etməyin mümkün olduğunu nəzərə alaraq, belə hallarda uşaq saldırmağa icazə verilirmi?

**Cavab: Əgər döldə xəstəliyin mövcud olduğu qətiləşərsə və belə bir uşağa sahib olmaq və onu saxlamaq böyük əziyyətə səbəb olarsa, bu halda ruh verilməmişdən qabaq dölü saldırmağa icazə verilir. Amma ehtiyata görə, onun diyəsi verilməlidir.**

**Sual 1266:** Uşaq saldırmağın hökmü nədir? Hamiləliyin davam etməsinin ananın həyatı üçün təhlükəsi olarsa, bunun hökmü nədir?

**Cavab: Uşaq saldırmaq şəri baxımdan haramdır və buna əsla icazə verilmir. Yalnız hamiləliyin davam etməsinin ananın həyatı üçün təhlükəsi olduğu halda buna icazə verilir. Bu halda da, ruh verilməmişdən qabaq uşağı saldırmağın maneəsi yoxdur. Amma ruh veriləndən sonra uşağı saldırmağa - hətta hamiləliyin davam etməsinin ananın həyatı üçün**

təhlükəsi olsa belə - icazə verilmir. Amma əgər hamiləliyin davam etməsinin həm ananın, həm də uşağın həyatı üçün təhlükəsi olarsa və uşağın həyatını xilas etmək heç bir vəchlə mümkün olmazsa, amma uşağı salmaqla təkcə ananın həyatını xilas etmək mümkün olarsa, bu halda, uşağı saldırmağa icazə verilir.

**Sual 1267:** Bir qadın zinadan hamilə qaldığı yeddiaylıq uşağı atasının tələbi ilə saldırmışdır. Ona diyə vacib olurmu? Əgər diyə verilməlidirsə, diyəni vermək ananın, yoxsa atanın öhdəsindədir? Hal-hazırda sizin nəzərinizə görə diyənin miqdarı nə qədərdir?

**Cavab:** Qadın zinadan hamilə qalsa belə, uşağı saldırmaq haramdır. Atanın uşağı saldırmağı tələb etməsi, bu işi icazəli etmir. Əgər uşağı salmaqda ananın birbaşa iştirakı olarsa, diyə ananın öhdəsindədir. Amma sualda qeyd edilənləri nəzərə alaraq, diyənin miqdarı barəsində tərəddüd edilir. Əhvət budur ki, bu barədə müsalihə edilməlidir. Bu diyə "varisi olmayan şəxsin irsi" hökmündədir.

**Sual 1268:** İki ay yarımlıq dölü bilərəkdən saldırdıqda, onun diyəsi nə qədərdir? Diyə kimə verilməlidir?

**Cavab:** Əgər qan laxtası (ələqə) mərhələsində olarsa, onun diyəsi qırx dinardır. Əgər döyülmüş ət parçası (muzğə) mərhələsində olarsa, diyəsi altmış dinardır. Əgər ətsiz sümük (izam) mərhələsində olarsa, diyəsi səksən dinardır. Diyə, "irsin təbəqələri" riayət olunmaqla uşağın varisinə verilir. Amma uşağın salınmasında birbaşa iştirakı olan varisə diyədən pay düşmür.

**Sual 1269:** Əgər hamilə qadın damağını və ya dişlərini müalicə etdirmək məcburiyyətində olarsa və mütəxəssis həkimin təyini ilə cərrahiyyə əməliyyatına ehtiyac olarsa, bihuş edilmənin və rentgenə düşmənin ana bətnində olan dölün qüsurlu olmasına səbəb olduğunu nəzərə alaraq, qadın uşağı saldıra bilərmi?

**Cavab:** Sözügedən səbəb uşağı saldırmaq üçün şəri icazə hesab olunmur.

**Sual 1270:** Əgər uşağın ana bətnində öldüyü qətiləşərsə və onun həmin vəziyyətdə ana bətnində qalmasının ananın həyatı üçün təhlükəsi olarsa, onu saldırmaq olarmı? Əgər bu qadının əri bu vəziyyətdə uşağı saldırmağı icazəli bilməyən bir müctəhidə təqlid edirsə, amma qadın və onun qohumları bu vəziyyətdə uşağı saldırmağı icazəli bilən bir müctəhidə təqlid edirlərsə, bu zaman kişinin vəzifəsi nədir?

**Cavab:** Sualda qeyd edilənlərə əsasən, məsələ "uşağın təklikdə qəti ölümü" ilə "uşaq və anasının birlikdə qəti ölümü" arasında qərar tutduğu üçün həll yolu, uşağı saldırmaqla ananın həyatını xilas etməkdir. Sualda qeyd edilənlərə əsasən, ərin öz zövcəsinə bu işi qadağan etməyə haqqı yoxdur. Amma mümkün qədər elə etmək lazımdır ki, uşağın qətli kimsəyə aid olmasın.

**Sual 1271:** Qeyri-müsəlman bir şəxsdən "vəty bi-şubhə"[1] ilə əmələ gələn uşağı, yaxud zinadan əmələ gələn uşağı saldırmaq olarmı?

**Cavab:** Olmaz.

[1] Vəty bi-şubhə – mükəlləfin ona haram olan bir şəxs ilə cinsi əlaqədə olmasıdır: ya bu şəxsi öz həyat yoldaşı güman edibdir, ya da hökmü bilməyibdir.

## Süni mayalanma

**Sual 1272:**
**1) Toxum (sperma) və yumurta hüceyrəsi şəri nikahlı ər və arvaddan götürüldüyü təqdirdə, laboratoriya şəraitində süni mayalanma əməliyyatının aparılmasına icazə verilirmi?**
**2) İcazə verildiyi təqdirdə, bu iş xarici həkimlər tərəfindən həyata keçirilə bilərmi? Bu yolla dünyaya gələn uşaq toxum və yumurta hüceyrəsinin sahibi olan ər və arvada aiddirmi?**
**3) Bu işə icazə verilmədiyi təqdirdə, ailə həyatını qurtarmağın bu işə bağlı olduğu hal istisna hal hesab olunurmu?**

**Cavab:**
**1) Bu işin öz-özlüyündə maneəsi yoxdur, amma haram müqəddimələrdən, məsələn, haram toxunuş və baxışdan çəkinmək vacibdir.**
**2) Bu yolla dünyaya gələn uşaq toxum və yumurta hüceyrəsinin sahibi olan ər və arvada aiddir.**
**3) Qeyd olundu ki, sözügedən işə icazə verilir.**

**Sual 1273:** **Bəzi ər-arvadlar qadında yumurta hüceyrəsinin əmələ gəlməməsi (folekulun partlamaması) səbəbilə - belə ki, mayalanma üçün yumurta hüceyrəsinin əmələ gəlməsi zəruridir – ayrılmaq məcburiyyətində qalırlar. Yaxud bu xəstəliyi müalicə etdirməyə maddi imkanları çatmadığına və övlad sahibi olmadıqlarına görə, ailədə çətinliklər və psixoloji problemlər yaşayırlar. Belə durumda elmi üsullardan istifadə edərək başqa bir qadının yumurta hüceyrəsi ana bətnindən kənarda ərin sperması ilə mayalandırıla və mayalanmış sperma bu kişinin arvadının uşaqlığına ötürülə bilərmi?**

**Cavab: Sözügedən işin öz-özlüyündə maneəsi yoxdur, amma bu yolla dünyaya gələn uşaq sperma və yumurta hüceyrəsinin sahibinə aid olacaqdır. Bu uşağı uşaqlığın sahibi olan qadına aid etməyin maneəsi vardır. Odur ki, əsl-nəsəbə aid şəri hökmlər barəsində ehtiyata riayət olunmalıdır.**

**Sual 1274:** **Əgər ərin nütfəsi (sperması) götürülsə və ər vəfat etdikdən sonra onun zövcəsinin yumurta hüceyrəsi ilə süni mayalanma əməliyyatı aparılaraq qadının uşaqlığında yerləşdirilsə:**
**1) Şəri baxımdan bu işə icazə verilirmi?**
**2) Dünyaya gələn uşaq həmin kişinin övladı hesab olunurmu və şəri baxımdan ona aid olurmu?**
**3) Dünyaya gələn uşağa nütfə sahibindən irs düşürmü?**

**Cavab: Sözügedən işin öz-özlüyündə maneəsi yoxdur və dünyaya gələn uşaq yumurta hüceyrəsi və uşaqlığın sahibinə aid olur. Həmçinin nütfə sahibinə aid olması da uzaq ehtimal deyildir, amma nütfə sahibindən ona isr çatmır.**

**Sual 1275:** **Başqa bir kişinin nütfəsi övlad sahibi olmayan kişinin arvadının uşaqlığına yeridilərək mayalandırma aparıla bilərmi?**

**Cavab: Qadının başqa bir kişinin nütfəsi ilə mayalandırılmasının öz-özlüyündə maneəsi yoxdur, amma haram müqəddimələrdən, məsələn, haram baxışdan, haram toxunuşdan və bu kimi başqa işlərdən çəkinmək lazımdır. Hər bir halda, bu yolla dünyaya gələn uşaq həmin qadının ərinə aid olmayacaqdır. Əksinə, nütfənin sahibi olan kişiyə və uşaqlıq və yumurta hüceyrəsinin sahibi olan qadına aid olacaqdır.**

**Sual 1276:**
**1) Əgər ərli bir qadında yaisəliyə və ya başqa bir səbəbə görə yumurta hüceyrəsi əmələ gəlmirsə, kişinin ikinci arvadının yumurta**

hüceyrəsi ərin nütfəsi ilə mayalandırıla və bu qadının uşaqlığına ötürülə bilərmi? Bu halda bu qadının və ya kişinin ikinci arvadının daimi zövcə, yaxud müvəqqəti zövcə olmalarının bir fərqi vardırmı?
2) Bu iki qadından hansı biri uşağın anası olacaqdır? Yumurta hüceyrəsinin sahibi olan qadın, yoxsa uşaqlığın sahibi olan qadın?
3) Əgər bu iş uşaqlıq sahibi olan qadının yumurta hüceyrəsinin zəif olduğuna görə kişinin o biri arvadının yumurta hüceyrəsinə ehtiyac olduğu bir halda həyata keçirilərsə - belə ki, əgər ərin nütfəsi zəif yumurta hüceyrəsi ilə mayalanarsa, uşağın qüsurlu dünyaya gəlməsi qorxusu mövcuddur – bu işə icazə verilirmi?

**Cavab:**
**1) Sözügedən işin şəri baxımdan maneəsi yoxdur və bu hökm baxımından zövcələrin nikahının daimi, yoxsa müvəqqəti olması arasında, yaxud da birinin nikahının daimi və digərinin nikahının müvəqqəti olması arasında bir fərq yoxdur.**
**2) Uşaq nütfənin və yumurta hüceyrəsinin sahibinə aiddir və uşağın uşaqlığın sahibinə aid edilməsinin maneəsi vardır. Odur ki, bu qadınla əlaqədar əsl-nəsəbin şəri hökmləri baxımından ehtiyata riayət olunmalıdır.**
**3) Bu işə icazə verilir.**

**Sual 1277:** Aşağıdakı hallarda qadın vəfat etmiş ərinin nütfəsi ilə mayalandırıla bilərmi?
1) Ər vəfat etdikdən sonra, amma vəfat iddəsi tamamlanmamışdan qabaq;
2) Ər vəfat etdikdən sonra, amma vəfat iddəsi tamamlandıqdan sonra;
3) Əgər bu qadın əri vəfat etdikdən sonra başqa bir kişi ilə izdivac edərsə, birinci ərinin nütfəsi ilə özünü mayalandıra bilərmi? İkinci əri vəfat etdiyi təqdirdə, bu qadın özünü birinci ərinin nütfəsi ilə mayalandıra bilərmi?

**Cavab: Bu işin öz-özlüyündə manəesi yoxdur və vəfat iddəsi tamamlanmamışdan qabaq, yaxud tamamlandıqdan sonra olması arasında fərq yoxdur. Həmçinin qadının yenidən izdivac etməsi, yaxud izdivac etməməsi arasında fərq yoxdur. İzdivac etdiyi təqdirdə də, ikinci əri vəfat etdikdən sonra, yaxud həyatda ikən özünü birinci ərinin nütfəsi ilə mayalandırması arasında fərq yoxdur. Amma əgər onun ikinci əri həyatda olarsa, bu iş onun icazəsi və izni ilə həyata keçməlidir.**

**Sual 1278:** Hazırkı dövrdə uşaqlıqdan kənarda mayalandırılmış yumurta hüceyrələrini xüsusi şəraitdə və aparatlarda canlı saxlamaq və ehtiyac olduğu təqdirdə onları yumurta hüceyrəsinin sahibinin uşaqlığında yerləşdirmək mümkündür. Bu işə icazə verilirmi?

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur.**

## Cinsiyyəti dəyişmək

**Sual 1279:** **Bəzi fərdlər zahirdə kişi olsalar da, amma ruhi baxımdan qadın cinsinin xüsusiyyətlərinə malikdirlər və qadınların cinsi təmayülləri onlarda tam şəkildə mövcuddur. Əgər onlar cinsiyyətlərini dəyişməsələr, fəsada düşəcəklər. Cərrahiyyə əməliyyatı vasitəsilə onları müalicə etmək olarmı?**

**Cavab: Ümumiyyətlə, cinsiyyəti dəyişdirməyə icazə verilmir. Amma əgər əminlik yaradan elmi və ürfi yollarla cinsiyyətini dəyişmək istəyən şəxsin əks cinsə mənsub olduğu sübuta yetərsə, bu halda haram toxunuş və baxış məsələləri nəzərə alınmadan, onun cinsiyyətinin cərrahiyyə əməliyyatı yolu ilə dəyişdirməyə icazə verilir. Həmçinin əgər onun əks cinsə mənsub olduğu sübuta yetməzsə, amma eyni zamanda əks cinsə mənsub olmadığı da sübuta yetməzsə və cinsiyyətini dəyişmək istəyən şəxs ağır psixoloji durumda olarsa, bu işi görməyin icazəli olması uzaq ehtimal deyildir.**

**Sual 1280:** **Xonsa fərdin (hermafrodit) qadın və ya kişi cinsinə mənsub edilməsi üçün cərrahiyyə əməliyyatının aparılmasının hökmü nədir?**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur, amma haram müqəddimələrdən çəkinmək vacibdir.**

## Meyitin yarılması və üzv köçürülmə

**Sual 1281:** **Ürək-damar xəstəliklərinin araşdırılması və bu sahədə yeni məsələlərin kəşfi üçün silsilə bəhslərin aparılması ölmüş insanın ürək və damarları üzərində müayinə və təcrübə aparılmasına bağlıdır. Qeyd etmək lazımdır ki, cənazə üzərində bir və ya bir neçə gün təcrübə və araşdırma aparıldıqdan sonra cənazə dəfn edilir. Sualım budur ki:**
**1) Müsəlmanın cənazəsi üzərində belə təcrübə və araşdırmalar aparmaq olarmı?**
**2) Cənazədən ayrılmış ürək və damarlar cənazədən ayrı dəfn edilə bilərmi?**
**3) Ürək və damarların cənazədən ayrı şəkildə dəfn edilməsinin çətinliyini nəzərə alaraq, onları başqa bir cənazə ilə dəfn etmək olarmı?**

**Cavab: Əgər insan həyatını qurtarmaq, yaxud insanların ehtiyac duyduqları tibb elminin yeni məsələlərini kəşf etmək, yaxud da insanların həyatını hədələyən xəstəliklər barədə məlumatlar əldə etmək buna bağlı olarsa, meyitin yarılmasının maneəsi yoxdur. Amma mümkün qədər müsəlmanın cənazəsindən istifadə olunmamalıdır. Müsəlmanın cənazəsindən ayrılan hissələrə gəlincə, əgər onları cənazə ilə birlikdə dəfn etməyin böyük çətinliyi və ya maneəsi olmazsa, cənazənin özü ilə dəfn edilməsi vacibdir. Əks təqdirdə, onları ayrıca, yaxud başqa bir cənazə ilə dəfn etmək olar.**

**Sual 1282:** **Şübhəli ölümlərdə ölümün səbəbini - məsələn, ölümün zəhərlənmə, yoxsa boğulma, yoxsa başqa bir səbəbə görə baş verdiyini - araşdırmaq və aşkarlamaq üçün meyitin yarılmasına icazə verilirmi, yoxsa yox?**

**Cavab: Əgər həqiqətin aşkarlanması buna bağlı olarsa, maneəsi yoxdur.**

**Sual 1283:** **Toxumaların öyrənilməsi sahəsində yeni məlumatların əldə olunması üçün müxtəlif inkişaf mərhələlərində olan düşmüş uşağı yarmağın hökmü nədir? Qeyd edək ki, tibb universitetində meyitin yarılması dərsinin keçirilməsi zəruridir.**

**Cavab: Əgər insan həyatını qurtarmaq, yaxud insanların ehtiyac duyduğu tibb elminin yeni məsələlərini kəşf etmək, yaxud da insanların həyatını hədələyən xəstəliklər barədə məlumatlar əldə etmək düşmüş uşağın yarılmasına bağlı olarsa, bu işin maneəsi yoxdur. Amma ruhu verilmiş müsəlman uşaqdan mümkün qədər istifadə olunmasın.**

**Sual 1284:** **Platinin qiymətli və az tapılan metal olduğunu nəzərə alaraq,dəfn edilməmişdən qabaq müsəlmanın cənazəsini yarıb platin parçasını çıxarmaq olarmı?**

**Cavab: Sualda qeyd olunanları nəzərə alaraq, müsəlmanın cənazəsinə hörmətsizlik sayılmaması şərtilə platin parçasını çıxarmaq olar.**

**Sual 1285:** **Tibb universitetində tədris zamanı əyani vəsait kimi istifadə edilməsi məqsədilə insan sümükləri əldə etməkdən ötrü qəbirləri açmaq – istər müsəlmanların qəbiristanlığında olsun, istər qeyri-müsəlmanların qəbiristanlığında – olarmı?**

**Cavab: Bu iş üçün müsəlmanların qəbrini açmağa icazə verilmir. Yalnız tibb tədrisində insan sümüklərini əldə etməyə təcili ehtiyac duyulduğu və qeyri-müsəlman cənazəsinin sümüklərini əldə etmək mümkün olmadığı təqdirdə icazə verilir.**

**Sual 1286:** **Saçları yanan və buna görə ümumi məkanlarda sıxıntı keçirən şəxs saç əkdirə bilərmi?**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur, bu şərtlə ki, əti halal olan heyvanın tükündən, yaxud insan saçından istifadə edilməlidir.**

**Sual 1287:** Əgər bir şəxs elə bir xəstəliyə tutulsa ki, həkimlər onun sağalacağına ümid olmadığını və tezliklə dünyadan köçəcəyini desələr, bu şəxs vəfat etməmişdən qabaq onun həyat əhəmiyyətli bədən üzvlərini, məsələn, ürəyini, böyrəklərini və başqa üzvlərini götürmək və başqa bir şəxsə köçürmək olarmı?

**Cavab: Əgər bu şəxsin bədən üzvlərini götürmək onun ölümü ilə nəticələnərsə, onun qətlə yetirilməsi hökmünü daşıyır. Bu hökmü daşımadığı təqdirdə, əgər onun özünün icazəsi ilə olarsa, bu işin maneəsi yoxdur.**

**Sual 1288:** Ölmüş insanın bədənindən damarları götürüb, xəstə bir şəxsə köçürmək olarmı?

**Cavab: Əgər həyatda ikən onun özü bu işə icazə veribdirsə, yaxud insan həyatını qurtarmaq bu işə bağlıdırsa, maneəsi yoxdur.**

**Sual 1289:** Əgər ölmüş insanın gözünün buynuz təbəqəsi götürülüb başqa bir insana köçürülsə, adətən, bu işin meyitin sahiblərinin icazəsi olmadan yerinə yetirildiyini nəzərə alaraq, bu işə diyə vacib olurmu? Vacib olduğu təqdirdə, gözün və gözün buynuz təbəqəsinin diyəsi nə qədərdir?

**Cavab: Müsəlmanın cənazəsindən gözün buynuz təbəqəsinin götürülməsi haramdır və bu iş diyəyə səbəb olur. Bunun diyəsi əlli dinardır. Amma əgər mərhum həyatda ikən bu işə icazə veribdirsə, maneəsi yoxdur və diyəyə səbəb olmur.**

**Sual 1290:** Bir müharibə əlili xaya nahiyəsindən yaralanmışdır, belə ki, onun xayaları kəsilmişdir. O, cinsi əlaqədə olmaq qabiliyyətini qorumaq üçün hormonlu dərmanlardan istifadə edə bilərmi? Əgər cinsi əlaqədə olmaq və övlad sahibi olmaq qabiliyyətinə malik olmağın yeganə yolu başqa bir şəxsin xayalarının bu şəxsə köçürülməsi olarsa, bunun hökmü nədir?

**Cavab: Əgər xayanın onun bədəninə köçürülməsi mümkün olarsa, belə ki, üzv köçürülmə əməliyyatından sonra bu xaya onun bədəninin bir hissəsi olarsa, paklıq və nəcasət baxımından maneəsi yoxdur. Həmçinin övlad sahibi olmaq qabiliyyətinə malik olması və dünyaya gələn uşağın ona aid olması baxımından da bir problemi yoxdur. Cinsi əlaqədə olmaq qabiliyyətini qorumaq üçün hormonlu dərmanlardan istifadə etməsinin də maneəsi yoxdur.**

**Sual 1291:** Böyrək xəstələrinin həyatını xilas etmək üçün böyrək köçürülməsi əməliyyatının əhəmiyyətini nəzərə alaraq, həkimlər böyrək məlumat bankı yaratmaq qərarına gəldilər. Burada bir çox insanlar öz böyrəklərini ixtiyari olaraq hədiyyə etdiklərini və ya satdıqlarını elan verirlər. Böyrəyi və ya bədənin hər hansı bir üzvünü ixtiyari olaraq satmaq və ya hədiyyə etmək olarmı? Zəruri olduğu təqdirdə, bu işin hökmü nədir?

**Cavab: Mükəlləf həyatda ikən öz böyrəyini və ya bədəninin hər hansı bir üzvünü xəstələrin istifadə etməsi üçün hədiyyə edə və ya sata bilər, bu şərtlə ki, bu işin onun özünə etina olunacaq bir zərəri olmamalıdır. Bir insan həyatını qurtarmaq buna bağlı olduqda isə, böyrəyini hədiyyə etmək və ya satmaq istəyən şəxsin özünə böyük bir əziyyəti və ya zərəri olmadığı təqdirdə bu işi görməsi vacibdir.**

**Sual 1292:** Bəzi insanlar müalicəsi və bərpası mümkün olmayan beyin travması alırlar, belə ki, bu travma nəticəsində onların beyin fəaliyyəti tamamilə aradan gedir və onlar tam olaraq komaya düşürlər. Həmçinin nəfəs almır, işıq şüalarına və fiziki toxunuşlara reaksiya vermirlər. Belə hallarda bədənin sözügedən fəaliyyətlərinin təbii şəklinə qayıtması ehtimalı tamamilə aradan gedir və xəstənin təkcə ürəyinin avtomatik döyüntüsü qalır ki, bu da müvəqqətidir və süni tənəffüs aparatı ilə baş verir. Bu vəziyyət bir neçə saat, yaxud ən çoxu bir neçə gün davam edir. Tibb elmində bu vəziyyət beyin ölümü adlanır və insan öz şüurunu, hissiyyatını, ixtiyari hərəkətlərini itirir. Digər tərəfdən isə, elə xəstələr vardır ki, onların həyatını xilas etmək beyin ölümü keçirən xəstələrin bədən üzvlərindən istifadə etməyə bağlıdır. Elə isə, başqa xəstələrin həyatını xilas etmək üçün beyin ölümü keçirən

**xəstələrin bədən üzvlərindən istifadə etmək olarmı?**

**Cavab: Sualda qeyd edilən xəstələrin bədən üzvlərindən başqa xəstələrin müalicəsi üçün istifadə etmək əgər həmin xəstələrin ölümünün tezləşməsinə və onların həyatına son qoyulmasına səbəb olarsa, buna icazə verilmir. Əks təqdirdə, əgər bu iş həmin xəstənin əvvəlcədən verdiyi icazə əsasında görülərsə, yaxud insan həyatını xilas etmək ehtiyac duyulan o bədən üvzünə bağlı olarsa, bu işi görməyin maneəsi yoxdur.**

**Sual 1293: Mən öz bədən üzvlərimi bağışlamaq və ölümümdən sonra mənim bədənimdən istifadə olunmasını istəyirəm. Öz istəyimi də aidiyyatı təşkilatların məsullarına bildirmişəm. Onlar da mənə bu istəyimi vəsiyyətnamədə yazmağımı və bu məsələni varislərə deməyimi söyləyiblər. Mənim belə bir haqqım vardırmı?**

**Cavab: Bir insanın canını xilas etmək üçün, yaxud xəstəliyinin müalicəsi üçün ölü insanın bədən üzvlərini ona köçürməyin maneəsi yoxdur. Bu məsələni vəsiyyət etməyin də manəesi yoxdur. Amma əgər ölü insanın bədənindən hansısa bir əzasının çıxarılması “müslə” (əzaların kəsilməsi ilə insanın eybəcər hala salınması) adını kəsb edərsə, yaxud ürfdə meyitə hörmətsizlik hesab olunarsa, bu əzanın çıxarılmasının maneəsi vardır.**

**Sual 1294: Estetik cərrahiyyə əməliyyatının hökmü nədir?**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1295: Hərbi bir müəssisə tərəfindən övrətin müayinə olunmasına icazə verilirmi?**

**Cavab: Kiminsə övrətini açıb baxmağa və başqalarının qarşısında övrətini açmasına onu vadar etməyə icazə verilmir. Amma əgər qanuna riayət və ya müalicə kimi bir zərurət bu işin görülməsini tələb edərsə, icazə verilir.**

**Sual 1296: “Zərurət” ifadəsi həkimin qadının bədəninə toxunması və ya baxmasının icazəli olması şərti kimi tez-tez vurğulanır. “Zərurət” nə deməkdir və onun hüdudları hansılardır?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, “zərurət” dedikdə, xəstəliyin təyin edilməsi və müalicə edilməsinin xəstənin bədəninə toxunmağa və baxmağa bağlı olması nəzərdə tutulur. Zərurətin hüdudları isə, bu işin hansı miqdarda yerinə yetirilməsinə duyulan ehtiyaca bağlıdır.**

**Sual 1297: Qadın həkim qadın xəstəni müayinə etmək və xəstəliyini təyin etmək üçün onun övrətinə baxa və toxuna bilərmi?**

**Cavab: Zəruri hallardan qeyri hallarda icazə verilmir.**

**Sual 1298: Müayinə zamanı kişi həkim qadın xəstənin bədəninə toxuna və baxa bilərmi?**

**Cavab: Əgər xəstəliyin müalicəsi kişi həkimin qadın posiyentin bədəninə toxunmasına və baxmasına bağlı olarsa, həmçinin qadın həkimə müraciət etməklə xəstəliyin müalicəsi mümkün olmazsa, bu işin maneəsi yoxdur.**

**Sual 1299: Ayna vasitəsilə müayinə etmək mümkün olduğu bir halda qadın həkimin qadın xəstənin övrətinə baxması və ona toxunmasının hökmü nədir?**

**Cavab: Əgər ayna vasitəsilə baxmaq mümkün olarsa və birbaşa baxmaq və toxunmağa**

zərurət olmazsa, bu işə icazə verilmir.

**Sual 1300:** Xəstə ilə eyni cinsin nümayəndəsi olmayan tibb bacısı və ya tibb qardaşı təzyiqi ölçmək kimi bədənə toxunmağa ehtiyac duyulan işləri görərkən əlinə tibbi əlçək geyinməsi mümkün olduğu bir halda əlcəkdən istifadə etmədən bu işləri görə bilərmi?

Cavab: Müayinə və müalicə zamanı paltarın üstündən bədənə toxunmaq və ya ələ əlcək geyinmək mümkün olduğu halda eyni cinsin nümayəndəsi olmayan xəstənin bədəninə toxunmağa zərurət qalmır, buna görə də, sualda qeyd edilən işə icazə verilmir.

**Sual 1301:** Əgər estetik cərrahiyyə əməliyyatı zamanı kişi həkimin qadın posiyentin bədəninə baxması və toxunması gərəkirsə, bu cərrahiyyə əməliyyatını etdirməyə icazə verilirmi?

Cavab: Estetik cərrahiyyə əməliyyatı xəstəliyin müalicəsi hesab olunmur və bu əməliyyata görə haram baxışa və toxunuşa icazə verilmir. Amma əgər yanığın müalicəsi və bu kimi işlər üçün olarsa və həkim xəstənin bədəninə baxmaq və toxunmaq məcburiyyətində olarsa, bu işə icazə verilir.

**Sual 1302:** Qadının övrətinə ərindən başqasının, hətta həkimin baxması birmənalı olaraq haramdırmı?

Cavab: Qadının övrətinə ərindən başqasının, hətta həkimin və qadın həkimin belə baxması haramdır, amma məcburiyyət halında və xəstəliyin müalicəsi üçün baxmaq istisnadır.

**Sual 1303:** Əgər qadın xəstəlikləri üzrə mütəxəssis kişi həkimin təcrübəsi və bacarığı qadın həkimlərdən çox olarsa, yaxud qadın həkimə müraciət etməyin böyük çətinliyi olarsa, qadınlar bu kişi həkimə müraciət edə bilərlərmi?

Cavab: Əgər müayinə və müalicə haram baxışa və toxunuşa bağlı olarsa, qadınların kişi həkimə müraciət etmələrinə icazə verilmir. Amma əgər təcrübəli və bacarıqlı qadın həkimə müraciət etmək qeyri-mümkün və ya olduqca çətin olarsa, qadınların kişi həkimə müraciət etmələrinə icazə verilir.

**Sual 1304:** Məninin (sperma) analizi və yoxlanışı üçün həkimin göstərişi ilə istimna etməyə icazə verilirmi?

Cavab: Əgər xəstəliyin müalicəsi buna bağlı olarsa və istimnanın həyat yoldaşı vasitəsilə yerinə yetirilməsi mümkün olmazsa, bunun maneəsi yoxdur.

## Sünnət etmək

**Sual 1305:** **Sünnət etmək vacibdirmi?**

**Cavab: Oğlan uşaqlarını sünnət etmək vacibdir. Sünnət etmək həcc və ümrə təvafının düzgün olması şərtidir. Əgər oğlan uşağı həddi-büluğa çatdıqdan sonraya qədər sünnət olunmasa, sünnət etmək onun özünə vacib olur.**

**Sual 1306:** **Bir şəxs sünnət etməyibdir, amma sünnət yeri adlanan hissə, adətən bu hissənin üzərini örtən dəridən tam şəkildə çöldədir. Sünnət etmək ona vacibdirmi?**

**Cavab: Əgər sünnət yeri adlanan hissənin üzərində kəsilməsi vacib olan dəridən heç nə mövcud deyilsə, vacib sünnətə ehtiyac qalmır.**

**Sual 1307:** **Qızları sünnət etmək vacibdir, yoxsa yox?**

**Cavab: Vacib deyildir.**

## Tibbi təhsil

**Sual 1308:** **Tibb universitetinin tələbələri (istər oğlan, istərsə də qız) təhsil üçün naməhrəmə toxunaraq və baxaraq onu müayinə etmək məcburiyyətindədirlər. Bu müayinələri aparmaq dərs proqramıdır və gələcəkdə xəstələri müalicə edə bilmələri üçün lazımi bacarıqları və hazırlıqları əldə edə bilmələrindən ötrü buna ehtiyac vardır. Bu müayinələri aparmamaq xəstələrin xəstəliklərini təyin etməkdə onların aciz qalmalarına səbəb olacaq və bu da öz növbəsində xəstələrin xəstəliyinin uzanması, bəzən isə onların ölümü ilə nəticələnə bilər. Elə isə, bu müayinələri aparmağa icazə verilirmi, yoxsa yox?**

**Cavab: Əgər təcrübə yığmaq, xəstələrin müalicə üsulunu təyin etmək və onların canını xilas etmək üçün zəruri olan hallardan sayılırsa, bunun maneəsi yoxdur.**

**Sual 1309:** **Əgər tibb universiteti tələbələrinin zəruri hallarda naməhrəm xəstələri müayinə etmələrinə icazə verilirsə, bu zərurəti kim müəyyən edir?**

**Cavab: Şəraiti nəzərə almaq şərtilə bu zərurəti müəyyən etmək tələbənin öz nəzərinə həvalə olunur.**

**Sual 1310:** **Bəzən təhsil zamanı naməhrəmləri müayinə etmək məsələsi ilə qarşılaşırıq və bu işin gələcək üçün zəruri olub-olmadığını bilmirik. Amma bu, universitetin dərs proqramı və tibb tələbələrinin üzərinə düşən öhdəlik, hətta müəllimin verdiyi dərs tapşırığıdır. Bunları nəzərə alaraq, biz bu müayinələri apara bilərikmi?**

**Cavab: Bu müayinələrin aparılmasının dərs proqramı olması, yaxud müəllimin verdiyi dərs tapşırığı olması öz-özlüyündə şəriətə zidd işin görülməsi üçün şəri icazə hesab olunmur. Bu xüsusda meyar, insan həyatını xilas etmək üçün lazımi biliyi və təcrübəni toplamaq və ya zərurətin tələbidir.**

**Sual 1311:** **Tibbi bilikləri öyrənmək və təcrübə toplamaq zərurətinə görə naməhrəmin müayinə edilməsi məsələsində cinsiyyət üzvünü və ya başqa üvzləri müayinə etməyin hökmü arasında fərq vardırmı? Bəzi tələbələr təhsili başa vurduqdan sonra xəstələri müalicə etməkdən ötrü kəndlərə və uzaq məntəqələrə gedirlər. Bəzən qadının doğuşunu aparmaq və ya doğuşun fəsadlarını, məsələn, qanaxmanı aradan qaldırmaq məcburiyyətində qalırlar. Bu işin hökmü nədir? Məlum məsələdir ki, əgər bu qanaxma tez bir zamanda dayandırılmasa və ya başqa fəsadlara tez bir zamanda müdaxilə edilməsə, yeni doğuş edən qadının həyatı təhlükəyə düşəcəkdir. Nəzərə almaq lazımdır ki, bu xəstəliklərin müalicə yollarını bilmək tibbi təhsil zamanı lazımi bilikləri öyrənməyə və təcrübə toplamağa bağlıdır.**

**Cavab: Zərurət olduğu zaman cinsiyyət üzvünü və ya başqa üzvləri müayinə etməyin hökmü arasında fərq yoxdur. Ümumi meyar, insan həyatını xilas etmək üçün tibbi bilikləri öyrənmyə və təcrübə toplamağa ehtiyacın mövcud olmasıdır. Bu kimi hallarda zərurət həddi ilə kifayətlənmək lazımdır.**

**Sual 1312:** **Cinsiyyət üzvü müayinə edilərkən – istər eyni cinsin nümayəndəsi tərəfindən, istərsə də əks cinsin nümayəndəsi tərəfindən – şəri hökmlərə, məsələn, həkimin və ya tibb tələbəsinin ayna vasitəsilə baxması kimi hökmlərə riayət olunmur. Xəstəliklərin necə təyin edildiyini öyrənmək üçün biz həkimlərin etdiklərini təkrarlamalı olduğumuza görə bizim şəri vəzifəmiz nədir?**

**Cavab: Öz-özlüyündə haram sayılan müayinələr vasitəsilə tibbi bilikləri öyrənməyə gəlincə, əgər bu bilikləri öyrənmək və xəstəliklərin müalicəsi yollarını bilmək bu kimi müayinələri etməyə bağlı olarsa, bu müayinələri etməyin maneəsi yoxdur. Bu şərtlə ki, tələbə əmin olmalıdır ki, gələcəkdə insanların həyatını xilas etmək bacarığı bu yolla əldə edilən biliklərə**

**bağlıdır. Həmçinin əmin olmalıdır ki, gələcəkdə xəstələr ona müraciət edəcəkdir və o da onların həyatını xilas etmək məsuliyyəti daşıyacaqdır.**

**Sual 1313:** **İxtisas dərsliklərimizdəki qeyri-müsəlman kişi və qadınların yarımçılpaq vəziyyətdə olan şəkillərinə baxa bilərikmi?**

**Cavab: Əgər harama düşmək və fəsad qorxusu olmazsa, maneəsi yoxdur.**

**Sual 1314:** **Tibb sahəsinin tələbələri təhsil dönəmində tibbi biliklərə yiyələnmək məqsədilə cinsiyyət üzvünün müxtəlif şəkillərinə baxır və video çarxları izləyirlər. Bu işə icazə verilirmi, yoxsa yox? Əks cinsin nümayəndəsinin cinsiyyətinə baxmağın hökmü nədir?**

**Cavab: Video çarxları izləməyin və şəkillərə baxmağın öz-özlüyündə maneəsi yoxdur, bu şərtlə ki, şəhvani ləzzət almaq məqsədilə olmamalı və harama düşmək qorxusu da mövcud olmamalıdır. Haram olan iş, əks cinsin nümayəndəsinin bədəninə baxmaq və toxunmaqdır. Başqalarının övrətindən çəkilən video çarxı izləmək və ya şəklinə baxmaq maneəsiz deyildir.**

**Sual 1315:** **Doğuş zamanı qadının vəzifəsi nədir? Doğan qadına yardım göstərən tibb bacılarının qadının övrətini açmaq və övrətə baxmaqda vəzifəsi nədir?**

**Cavab: Məcburiyyət yaranmadan tibb bacısının doğan qadının övrətinə bilərəkdən baxmasına icazə verilmir. Həkim də məcburiyyət yaranmayanadək xəstə qadının bədəninə baxmaq və toxunmaqdan çəkinməlidir. Qadın bunu gördükdə, özünü örtə bildiyi təqdirdə örtməli, yaxud bu işi görməyi başqasından istəməlidir.**

**Sual 1316:** **Universitetdə tədris zamanı plastikdən hazırlanan süni cinsiyyət üzvlərindən istifadə edilir. Bunlara baxmağın və toxunmağın hökmü nədir?**

**Cavab: Süni cunsiyyət üzvləri həqiqi övrət hökmündə deyildir və onlara baxmağın və toxunmağın maneəsi yoxdur. Amma əgər harama düşmək qorxusu olarsa və ya şəhvətin təhrik olunmasına səbəb olarsa, bu halda onlara baxmaq və toxunmağın maneəsi vardır.**

**Sual 1317:** **Mən qərb elmi-araşdırma mərkəzlərində musiqi, toxunuş, rəqs, dərman preparatları, elektrik cərəyanı ilə müalicə üsulu vasitəsilə ağrının sakitləşdirilməsi zəminində aparılan araşdırmalar barədə araşdırma aparıram. Qeyd etməliyəm ki, onların bu zəmində olan araşdırmaları nəticə də vermişdir. Bu barədə araşdırma aparmağa şəriət baxımından icazə verilirmi?**

**Cavab: Qeyd edilən üsullar və xəstəliklərin müalicəsində onların nə qədər təsir qoyduğu barədə araşdırma aparmağın şəriət baxımından maneəsi yoxdur, bu şərtlə ki, şəriət baxımından haram olan işlərin görülməsi ilə yanaşı olmamalıdır.**

**Sual 1318:** **Təhsil tələb etdiyi təqdirdə tibb bacılarının başqa bir qadının övrətinə baxmalarına icazə verilirmi?**

**Cavab: Əgər xəstəliklərin müalicəsi və ya insan həyatını xilas etmək başqalarının övrətinə baxmağı lazımlı edən dərsin öyrənilməsinə bağlı olarsa, bu işi görməyin maneəsi yoxdur.**

## Elm öyrənmək və öyrətməyin qaydaları

**Sual 1319:** **Əgər insan ona lazım olan məsələləri öyrənməzsə, günah işlətmişdirmi və günahkar sayılırmı?**

**Cavab: Əgər bu məsələləri öyrənməmək vacib işin tərk edilməsi və ya haram işin yerinə yetirilməsi ilə nəticələnərsə, bu insan günahkardır.**

**Sual 1320:** **Dini elmlər tələbəsi birinci mərhələni başa vurduqdan sonra əgər müctəhidlik dərəcəsinə yüksələnə qədər dini təhsil almağa özünü qadir görərsə, dini təhsil almaq onun üçün "vacibi-eyni"[1] olurmu, yoxsa yox?**

**Cavab: Heç şübhəsiz, dini təhsil almaq və müctəhidlik dərəcəsinə yüksələnə qədər təhsili davam etdirmək öz-özlüyündə böyük fəzilət sayılır. Amma müctəhidlik dərəcəsinə yüksəlməyə tələbənin özünü qadir görməsi bu işin ona "vacibi-eyni" olmasına səbəb olmur.**

**Sual 1321:** **Üsuliddinə (dinin əqidə əsaslarına) yəqinlik əldə etməyin yolları hansılardır?**

**Cavab: Yəqinlik, adətən, əqli dəlillər vasitəsilə əldə olunur. Sadəcə, mükəlləflərin idrak dərəcələrinin müxtəlifliyinə görə əqli dəlillər də müxtəlif olur. Hər halda, əgər bir şəxs üçün yəqinlik başqa bir yolla hasil olarsa, bu yol kifayət edir.**

**Sual 1322:** **Elm öyrənməkdə süstlük və tənbəllik göstərmək və vaxtı tələf etməyin hökmü nədir? Bu iş haramdırmı?**

**Cavab: Vaxtı boş keçirib tələf etməyin maneəsi vardır. Əgər universitet tələbəsi tələbəlik imtiyazlarından istifadə edirsə, universitetin dərs proqramını yerinə yetirməlidir. Əks təqdirdə, həmin məziyyətlərdən, o cümlədən, tələbəlik təqaüdü, təhsil yardımı və bu kimi məziyyətlərdən istifadə etməsinə icazə verilmir.**

**Sual 1323:** **İqtisad universitetinin bəzi dərsləri əsnasında müəllim "sələmli borc"a aid məsələlər və ticarətdə, sənayedə və başqa sahələrdə riba (sələm) əldə edilməsi yollarının müqayisəsi barəsində bəhs edir. Bu dərsi tədris etmək və qarşılığında zəhmət haqqı almağın hökmü nədir?**

**Cavab: Sırf tədris etmək və sələmli borcun məsələlərini araşdırmaq haram deyildir.**

**Sual 1324:** **İslam Respublikasında məsuliyyətli mütəxəssislərin tədris üçün seçməli olduqları düzgün metod hansıdır? Hansı şəxslər idarələrdə strateji bilgilər və texnologiyaları mənimsəməyə layiqdir?**

**Cavab: Əgər məntiqi və şəri bir məqsəd daşıyarsa, həmçinin fəsada düşmək və fəsad yaratmaq qorxusu mövcud olmazsa, hər bir şəxs hər bir elmi öyrənə bilər. Amma tədris edilməsinə və öyrənilməsinə dair İslam dövlətinin müəyyən qayda-qanunlar qoyduğu elmlər və bilgilər istisna təşkil edir.**

**Sual 1325:** **Dini elmlər hövzələrində fəlsəfənin tədris edilməsi və öyrənilməsinə icazə verilirmi?**

**Cavab: Əgər bir şəxs əmin olsa ki, fəlsəfəni öyrənmək onun dini inanclarını sarsıtmayacaqdır, fəlsəfə öyrənməsinin maneəsi yoxdur. Bəzi hallarda hətta bu, vacibdir.**

**Sual 1326:** **Azdırıcı kitabları, məsələn, "Şeytan ayələri" kitabını alıb-satmağın hökmü nədir?**

**Cavab: Azdırıcı kitabları alıb-satmaq və saxlamaq olmaz. Yalnız bu kitablarda olan mətləblərin yanlışlığını isbatlamağa qadir olan şəxslər bu məqsədlə sözügedən kitabları əldə edə bilərlər.**

**Sual 1327:** **Tərbiyəvi faydası olduğu təqdirdə heyvanların və insanların həyatı barəsində xəyali hekayələri danışmağın və öyrətməyin hökmü nədir?**

**Cavab: Əgər hekayənin xəyali olduğu söhbətdən məlum olarsa, maneəsi yoxdur.**

**Sual 1328:** **Əgər universitet və ya instituta daxil olmaq orada təhsil alan örtüksüz qadınlarla ünsiyyətdə və eyni bir mühitdə olmağa səbəb olarsa, bunun hökmü nədir?**

**Cavab: Təhsil və tədris üçün təhsil ocaqlarına daxil olmağın maneəsi yoxdur, amma qadınlar və qızlar hicablarını qorumalı, kişilər də haram baxışdan, həmçinin fitnə-fəsad qorxusuna səbəb olacaq ünsiyyətdən çəkinməlidirlər.**

**Sual 1329:** **Qadın şəri hicaba və iffətə riayət edərək sürücülük təlimi mərkəzində kişi təlimçidən sürücülüyü öyrənə bilərmi?**

**Cavab: Əgər hicab və iffət qorunarsa və fəsada düşmək qorxusu olmazsa, qadının kişi təlimçidən sürücülüyü öyrənməsinin maneəsi yoxdur. Amma yaxşı olar ki, məhrəmlərindən biri qadınla birlikdə olsun. Və daha yaxşı olar ki, sürücülüyü qadın təlimçidən və ya öz məhrəmlərinin birindən öyrənsin.**

**Sual 1330:** **Orta məktəb və universitetlərdə təhsil alan gənc oğlanlar qızlarla ünsiyyətdə olur və sinif və ya qrup yoldaşı ünvanında onlarla dərs, yaxud başqa məsələlər barəsində söhbət edirlər. Bəzən də söhbət əsnasında zarafat edir və gülüşürlər. Söz yox ki, günaha düşmək qorxusu və ya şəhvani ləzzət məqsədi mövcud deyildir. Belə bir ünsiyyətə icazə verilirmi?**

**Cavab: Əgər hicaba riayət olunarsa və günaha düşmək qorxusu mövcud olmazsa, belə ki, fəsada düşməyəcəklərinə əmin olarlarsa, bu ünsiyyətin maneəsi yoxdur. Əks təqdirdə, icazə verilmir.**

**Sual 1331:** **Hazırkı dövrdə hansı elm sahələri İslam və müsəlmanlar üçün daha faydalıdır?**

**Cavab: Yaxşı olar ki, alimlər, universitet müəllimləri və tələbələri müsəlmanların ehtiyac duyduqları bütün faydalı elm sahələrinə əhəmiyyət versinlər və beləliklə, başqalarına, xüsusilə də, İslam və müsəlmanların düşmənlərinə möhtac olmasınlar. Ən faydalı elm sahələrini müəyyən etmək isə, mövcud şəraiti nəzərə alaraq aidiyyatı qurumların öhdəsinə düşür.**

**Sual 1332:** **Məlumatı artırmaq məqsədilə azdırıcı kitabları, habelə, başqa dinlərlə və onların etiqadları ilə tanış olmaq üçün onların kitablarını mütaliə etməyin hökmü nədir?**

**Cavab: Yalnız tanışlıq və məlumatı artırmaq məqsədinə görə bu kitabların mütaliəsinin icazəli olmasına hökm vermək çətindir. Amma bu kitablardakı yanlış mətləbləri ayırd etməyə qadir olan şəxslərin bu mətləblərin yanlışlığını isbatlamaq məqsədilə sözügedən kitabları mütaliə etmələrinə icazə verilir, bu şərtlə ki, haqq yoldan dönməyəcəklərinə əmin olmalıdırlar.**

**Sual 1333:** **Azğın etiqadların təsiri altına düşməyəcəklərini bildiyimiz təqdirdə övladlarımızı bəzi azğın etiqadların tədris**

**edildiyi məktəblərə göndərməyimizin hökmü nədir?**

**Cavab: Əgər onların dini etiqadları barəsində bir qorxu mövcud olmazsa, həmçinin (onların belə məktəblərə getmələri) nahaqqı təbliğ etmək hesab olunmazsa və uşaqlar da yanlış və azdırıcı mətləbləri öyrənməkədən boyun qaçıra bilərlərsə, maneəsi yoxdur.**

**Sual 1334: Bir tələbə dörd ildir tibb universitetində təhsil alır, amma dini elmləri öyrənməyə çox böyük sevgisi vardır. Tibb sahəsi üzrə təhsilini davam etdirmək ona vacibdirmi? Yoxsa o, bu sahəni tərk edib dini elmlərin təhsilinə başlaya bilər?**

**Cavab: Tələbə öz təhsil sahəsini seçməkdə azaddır. Amma burada diqqətəlayiq bir məqama toxunmaq istərdim və o da bundan ibarətdir ki, əgər dini elmləri öyrənmək islam ictimaiyyətinə xidmət göstərmək bacarığı kəsb etməkdən ötrü əhəmiyyət daşıyırsa, müsəlmanlara tibbi xidmət göstərmək, onların xəstəliklərini müalicə etmək və həyatını xilas etmək məqsədilə tibb sahəsində təhsil almaq çox böyük əhəmiyyət daşıyır.**

**Sual 1335: Bir müəllim sinifdə bir şagirdi başqa şagirdlərin qarşısında möhkəm cəzalandırmışdır. Bu şagirdin eyni hərəkəti müəllimə qarşı etməyə haqqı varmı, yoxsa yoxdur?**

**Cavab: Müəllimə qarşı layiq olmayan bir tərzdə şagirdin onunla rəftar etməyə və ona cavab verməyə haqqı yoxdur. Şagird müəllimin hörmətini gözləməli və sinfin nəzmini qorumalıdır. O, hüquqi yollara müraciət edə bilər. Müəllim də şagirdlərin hörmətini onların sinif yoldaşları qarşısında gözləməli və islamın təlim-tədris qaydalarına riayət etməlidir.**

---

[1] Vacibi-eyni – hər bir mükəlləfin şəxsən yerinə yetirməli olduğu vacib əməldir və başqaları bu əməli yerinə yetirməklə şəri vəzifə mükəlləfin boynundan götürülmür.

## Müəllif hüquqları

**Sual 1336:** Xaricdən gətirilən və ya İslam Respublikası daxilində çap edilən kitab və məqalələrin onların naşirinin icazəsi olmadan yenidən çap edilməsinin hökmü nədir?

**Cavab: İslam Respublikasından xaricdə çap edilən kitabların yenidən çap edilməsi və ya ofset üsulu ilə onların üzünün çıxarılması məsələsi, bu zəmində İslam Respublikası ilə həmin dövlətlər arasında bağlanılan müqavilələrə tabedir. Amma daxildə çap edilən kitablara gəlincə, əhvət budur ki, yeni çap növbəsi üçün onların naşirlərindən icazə almaqla müəllif hüququ qorunmalıdır.**

**Sual 1337:** Müəlliflər, mütərcimlər və incəsənət əsərlərinin müəllifləri çəkdikləri zəhmət qarşılığında və ya bu iş üçün sərf etdikləri zəhmət, vaxt və maddi vəsait qarşılığında müəllif hüququ ünvanında müəyyən məbləğdə pul istəyə bilərlərmi?

**Cavab: Onlar özlərinin elmi və ya incəsənət əsərinin birinci və ya orijinal nüsxəsini naşirə təhvil vermək qarşılığında naşirdən istənilən məbləğdə pul ala bilərlər.**

**Sual 1338:** Əgər müəllif, ya mütərcim, ya incəsənət əsərinin müəllifi özlərinin əsərinin birinci çapı qarşılığında müəyyən məbləğdə pul alsalar, amma eyni zamanda növbəti çaplar üçün də müəllif hüququna sahib olduqlarını bildirsələr, növbəti çaplarda naşirdən öz haqlarını tələb edə bilərlərmi? Bu pulu almağın hökmü nədir?

**Cavab: Əgər birinci nüsxənin təhvil verilməsi üçün bağlanılan müqavilə əsnasında növbəti çaplarda müəyyən məbləğdə pul alacağını şərt qoyarsa, yaxud bu məsələ qanunun tələbi olarsa, bu pulu almağın maneəsi yoxdur və naşirin şərtə əməl etməsi vacibdir.**

**Sual 1339:** Əgər müəllif birinci çapa icazə verdiyi zaman növbəti çaplar barəsində söz açmazsa, naşir müəllifdən icazə almadan və ona pul vermədən həmin əsəri yenidən çap edə bilərmi?

**Cavab: Əgər əsərin çap olunması barəsində onlar arasında bağlanılan müqavilə yalnız birinci çap barəsində olarsa, əhvət budur ki, müəllifin haqqı riayət olunmalı və növbəti çaplar üçün ondan icazə alınmalıdır.**

**Sual 1340:** Əgər səfər, ölüm və ya bu kimi səbəblərdən müəllif qaib olarsa (ortadan yoxa çıxarsa), təkrar çap üçün kimdən icazə alınmalı və pulu kim təhvil almalıdır?

**Cavab: Bu xüsusda müəllifin vəkilinə və ya onun şəri qəyyumuna, müəllif öldüyü təqdirdə isə, onun varisinə müraciət olunmalıdır.**

**Sual 1341:** Sahibinin icazəsi olmadan və kitabda "Çap hüququ müəllif üçün qorunur" cümləsi olduğu təqdirdə bu kitabı çap etmək olarmı?

**Cavab: Əhvətə görə, təkrar çap üçün müəllifdən və naşirdən icazə alaraq onların hüququ qorunmalıdır. Qeyd etməliyik ki, bu barədə qanun mövcud olduğu təqdirdə, qanuna riayət olunmalıdır. Bu hökm, sonrakı məsələlərdə də riayət olunmalıdır.**

**Sual 1342:** Bəzi Quran və dini musiqi disklərinin üstündə "Disklərin üzünün köçürülməsi hüququ qorunur" cümləsi yazılmışdır. Bu təqdirdə onların üzünü köçürmək və başqalarına vermək olarmı?

**Cavab: Əhvətə görə, belə düsklərin üzünün köçürülməsi üçün onların həqiqi naşirindən icazə alınmalıdır.**

**Sual 1343: Kompyuter disklərinin üzünün köçürülməsinə icazə verilirmi? Əgər bu iş haramdırsa, bu hökm yalnız İranda yığılan disklərə aiddir, yoxsa xaricdə yığılan disklərə də aiddir? Qeyd etmək lazımdır ki, daxilindəki materialın əhəmiyyətinə görə bu disklərin bəziləri çox bahalıdır.**

**Cavab: Əhvətə görə, ölkə daxilində yığılan disklərin üzünün köçürülməsi barəsində onların həqiqi sahiblərindən icazə almaqla müəllif hüququ qorunmalıdır. Xaricdə yığılan disklərə gəlincə isə, bu məsələ mövcud müqaviləyə tabedir.**

**Sual 1344: Mağazaların və şirkətlərin ticari adları onların malikinə aiddirmi? Yəni başqaları öz mağaza və şirkətlərini bu adlarla adlandıra bilməzlərmi? Məsələn, bir şəxs mağazasını öz soyadı ilə adlandırmışdır. Elə isə, həmin ailənin digər bir üzvü öz mağazasını bu adla adlandıra bilərmi? Digər ailələrdən olan şəxslər öz mağazalarını bu adla adlandıra bilərlərmi?**

**Cavab: Əgər mağaza və şirkətlərin ticari adları ölkənin mövcud qanunları əsasında dövlət tərəfindən müəyyən bir şəxsə təqdim olunarsa – belə ki, həmin şəxs başqalarından qabaq bu xüsusda dövlət qurumlarına rəsmi müraciət etmişdir və bu ad dövlət sənədlərində onun adına qeydiyyata salınmışdır – bu təqdirdə həmin şəxsin icazəsi olmadan başqaları bu addan istifadə edə bilməzlər: istər həmin adın sahibinin ailəsənin digər üzvləri olsunlar, istər digər ailələrdən olsunlar. Amma əgər məsələ qeyd edilən şəkildə olmazsa, başqalarının bu adlardan istifadə etmələrinin maneəsi yoxdur.**

**Sual 1345: Bəzi şəxslər vərəqlərin və ya kitabların surətini çıxaran mağazalara müraciət edir və gətirdikləri materialın surətinin çıxarılmasını istəyirlər. Mömin şəxs olan mağaza sahibi bu kitabın, ya vərəqlərin, ya dərginin başqa möminlər üçün faydalı olduğunu görür. O, bu kitabın sahibinin icazəsi olmadan onun surətini çıxara bilərmi? Əgər kitabın sahibinin bu işə razı olmadığını bilsə, hökmdə dəyişiklik yaranacaqdırmı?**

**Cavab: Əhvətə görə, mağaza sahibi bu vərəqlərin və ya kitabın sahibinin icazəsi olmadan onların surətini çıxarmamalıdır.**

**Sual 1346: Bəzi möminlər videodisklərin icarəyə verildiyi mağazadan videodisklər götürür və filmləri bəyəndikdə mağaza sahibindən icazə almadan bu disklərin üzünü köçürür, çoxaldırlar. Bu əməllərini isə, əksər din alimlərinin nəzərinə görə çap hüququnun qorunmasının vacib olmaması ilə əsaslandırırlar. Bu işə icazə verilirmi? İcazə verilmədiyi təqdirdə, əgər bir şəxs bu disklərin üzünü köçürsə və çoxaltsa, o, bu işi gördüyünü mağaza sahibinə deməlidirmi, yoxsa üzünü çıxardığı diskin daxilindəki videoyazıları silmək kifayət edir?**

**Cavab: Əhvətə görə, videodiskin sahibinin icazəsi olmadan onun üzü köçürülməməlidir. Amma əgər videodiskin sahibinin icazəsi olmadan bu işi görərsə, diskin daxilindəki videoyazıları silmək kifayət edir.**

## Qeyri-müsəlman ilə ticarət

**Sual 1347:** İsrail istehsalı olan məhsulları idxal etmək və yaymaq olarmı? Əgər bu iş məcburiyyət üzündən görülərsə, bu məhsulları satmaq olarmı?

**Cavab: İslamın və müsəlmanların düşməni hesab olunan qəsbkar İsrail rejiminin xeyrinə olan ticarətlərdən çəkinmək gərəkdir. İstehsalından və satışından onların gəlir əldə etdikləri məhsullarını idxal etmək və yaymaq heç kimə icazə verilmir. İslama və müsəlmanlara olan ziyan və təhlükələrinə görə müsəlmanların bu məhsulları almalarına icazə verilmir.**

**Sual 1348:** İsrailə qarşı iqtisadi embarqonu ləğv edən bir ölkədə tacirlər İsrail istehsalı olan məhsulları idxal edə və yaya bilərlərmi?

**Cavab: İstehsalından və satışından qəsbkar İsrail dövlətinin gəlir götürdüyü məhsulları idxal etmək və yaymaqdan çəkinmək vacibdir.**

**Sual 1349:** Müsəlmanlar islam ölkələrində satılan İsrail istehsalı olan məhsulları ala bilərlərmi?

**Cavab: Bütün müsəlmanlar İslam və müsəlmanlarla müharibədə olan sionizm rejiminin istehsal və satışından gəlir əldə etdiyi məhsulları almaqdan və istifadə etməkdən çəkinməlidirlər.**

**Sual 1350:** İslam ölkələrində İsrailə səfərlər təşkil edən turizm şirkətləri açmaq olarmı? Müsəlmanlar bu şirkətlərdən bilet ala bilərlərmi?

**Cavab: İslam və müsəlmanlara olan ziyanlarına görə, bu işə icazə verilmir. Həmçinin heç kimə icazə verilmir ki, müsəlmanların düşmən İsrail dövlətinin əleyhinə qoyduğu embarqonu pozan işləri yerinə yetirsin.**

**Sual 1351:** Əgər ehtimal verilsə ki, yəhudi, ya Amerika, ya Kanada şirkətləri İsrail dövlətinin güclənməsinə xidmət göstərir, bu şirkətlərin istehsal etdiyi məhsulları almaq olarmı?

**Cavab: Əgər bu şirkətlərin məhsullarını almaq və satmaq qəsbkar İsrail dövlətinin güclənməsinə səbəb olarsa, yaxud (əldə edilən gəlir) İslam və müsəlmanlarla düşmənçilik yolunda sərf edilərsə, bu məhsulları almaq və satmaq kimsəyə icazə verilmir. Əks təqdirdə, maneəsi yoxdur.**

**Sual 1352:** Əgər İsrail istehsalı olan məhsullar islam ölkəsinə idxal edilərsə, tacirlər bu məhsullardan alıb camaata sata və onları yaya bilərlərmi?

**Cavab: Bu işin ziyanı olduğuna görə tacirlərin bu işi görmələrinə icazə verilmir.**

**Sual 1353:** Əgər İsrail istehsalı olan məhsullar bir islam ölkəsinin ümumi mağazalarında satılırsa və müsəlmanlar başqa ölkələrdən idxal edilən məhsullar arasından özlərinin ehtiyacı olan məhsulları ala bilərlərsə, onlar İsrail istehsalı olan məhsulları ala bilərlərmi?

**Cavab: Bütün müsəlmanlar İslam və müsəlmanlarla müharibədə olan sionizm rejiminin**

**istehsal və satışından gəlir əldə etdiyi məhsulları almaqdan və istifadə etməkdən çəkinməlidirlər.**

**Sual 1354:** **İsrail istehsalı olan məhsulların üzərindəki etiketdə məhsulun istehsal olunduğu yer dəyişdirilərək başqa ölkələrdən, məsələn, Türkiyə, Kipr və s. ölkələrdən yenidən ixrac olunur ki, müsəlman alıcılar bu məhsulların İsrailin deyil, başqa ölkələrin istehsalı olduğunu görsünlər. Çünki əgər müsəlmanlar bu məhsulların İsrailin istehsalı olduğunu görsələr, onları almaqdan imtina edəcəklər. Bunu bildikdə, müsəlmanların vəzifəsi nədir?**

**Cavab: Müsəlmanlar bu məhsulları almaqdan, yaymaqdan və istifadə etməkdən çəkinməlidirlər.**

**Sual 1355:** **Amerika istehsalı olan məhsulları almaq və satmağın hökmü nədir? Bu hökm Fransa və İngiltərə kimi bütün qərb ölkələrinə şamil olurmu? Bu hökm yalnız İranda icra olunmalıdırmı, yoxsa bütün ölkələrdə icra olunmalıdır?**

**Cavab: Əgər qeyri-islami ölkələrdən idxal edilən malları almaq və onlardan istifadə etmək İslam və müsəlmanlara düşmən olan kafir və istismarçı dövlətlərin güclənməsinə səbəb olarsa, yaxud müsəlman torpaqlarına və ya bütün dünyadakı müsəlmanlara hücum etmələri üçün onların iqtisadi gücünü artırarsa, müsəlmanlar bu malları almaqdan və istifadə etməkdən çəkinməlidirlər. Bu hökm baxımından İslam və müsəlmanlara düşmən olan kafir dövlətlər arasında, habelə, onların istehsal etdikləri mallar arasında fərq yoxdur. Bu hökm yalnız İran müsəlmanlarına aid deyildir.**

**Sual 1356:** **Əgər bir fabrik, zavod və istehsal müəssisəsinin gəliri kafir dövlətlərə çatırsa və bu, onların möhkəmlənməsinə və güclənməsinə səbəb olursa, bu müəssisələrdə işləyənlərin vəzifəsi nədir?**

**Cavab: Şəriət baxımından halal hesab olunan işlərdən qazanc əldə etməyin öz-özlüyündə maneəsi yoxdur, baxmayaraq ki, bu işdən hasil olan gəlir qeyri-islami dövlətlərə çatır. Amma əgər bu dövlət İslam və müsəlmanlara qarşı müharibədədirsə və müsəlmanların işinin səmərəsindən müharibədə istifadə edirsə, bu işlərdən qazanc əldə etməyin maneəsi vardır.**

## Zalım dövlətdə hansısa bir peşədə işləmək

**Sual 1357:** Qeyri-islami hökumətdə insan üzərinə düşən vəzifəni yerinə yetirə bilərmi?

**Cavab: Bu, həmin vəzifənin öz-özlüyündə icazəli olmasına bağlıdır.**

**Sual 1358:** Bir şəxs ərəb ölkələrinin birində yol polisi idarəsində işləyir. Onun vəzifəsi yol hərəkət qaydalarını pozan şəxslərin dosyesini imzalamaqdır və beləliklə, onlar məsuliyyətə cəlb olunaraq həbs olunurlar. Bu şəxs qanun pozuntusuna yol verən şəxslərin dosyesini imzaladıqda, onlar həbs olunurlar. O, bu işdə işləyə bilərmi? İşinin müqabilində dövlətdən aldığı əmək haqqının hökmü nədir?

**Cavab: İctimaiyyətdə nizam-intizamın yaradılması məqsədilə qoyulan qanun-qaydalara riayət etmək hər bir halda vacibdir, baxmayaraq ki, bu qanun-qaydalar qeyri-islami dövlət tərəfindən qoyulmuşdur. Halal işin müqabilində əmək haqqı almağın maneəsi yoxdur.**

**Sual 1359:** Müsəlman bir şəxs Amerika və ya Kanada vətəndaşlığını aldıqdan sonra oranın hərbi və ya polis qüvvələrində işləyə bilərmi? Yaxud İcra Hakimiyyəti və bu kimi dövlət idarələrində işləyə bilərmi?

**Cavab: Əgər bu iş fəsadla nəticələnməzsə, yaxud haram işin yerinə yetirilməsi və ya vacib işin tərk edilməsi ilə yanaşı olmazsa, maneəsi yoxdur.**

**Sual 1360:** Zalım dövlət başçısı tərəfindən təyin edilən hakimin (qazinin) mühakimə aparmaq və hökm çıxarmağa şəri səlahiyyəti çatırmı və ona itaət etmək vacibdirmi?

**Cavab: Camiuş-şərait müctəhid olmayan bir şəxsin – başqa sözlə, hakim təyin edən səlahiyyətli şəxs tərəfindən təyin edilməyən bir şəxsin - camaatın mübahisəli məsələləri barəsində mühakimə aparmasına və hökm çıxarmasına icazə verilmir. Zərurət halı istisna olmaqla, camaatın ona müraciət etməsinə də icazə verilmir və onun çıxardığı hökm keçərli deyildir.**

## Şöhrət geyimi və geyimin hökmləri

**Sual 1361:** Şöhrət geyiminin meyarı nədir?

**Cavab: Şöhrət geyimi o geyimdir ki, rənginə, ya tikiliş modelinə, ya qiymətli qədim geyim olduğuna, ya da başqa xüsusiyyətlərinə görə insanın onu geyinməsi münasib deyildir. Belə ki, əgər insan bu geyimi camaatın qarşısında geyinərsə, onların diqqətini özünə çəkəcək və barmaqla göstəriləcəkdir.**

**Sual 1362:** Yol gedərkən qadınların ayaqqabısının yerə dəyməsi naticəsində yaranan səsin hökmü nədir?

**Cavab: Diqqəti çəkmədiyi və fəsada səbəb olmadığı təqdirdə, bunun öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1363:** Qızlar tünd göy rəngə yaxın bir rəngdə geyim geyinə bilərlərmi?

**Cavab: Bunun öz-özlüyündə maneəsi yoxdur, bu şərtlə ki, başqalarının diqqətini çəkməməli və fəsada səbəb olmamalıdır.**

**Sual 1364:** Toy və bu kimi məclislərdə qadınlar bədənin qabartılarını göstərən dar geyimlər və ya açıq geyimlər geyinə bilərlərmi?

**Cavab: Əgər yad kişilər onları görməzsə və fəsada səbəb olmazsa, maneəsi yoxdur. Əks təqdirdə, icazə verilmir.**

**Sual 1365:** Mömin ə qadın parıltılı qara ayaqqabı geyinə bilərmi?

**Cavab: Maneəsi yoxdur. Amma əgər onun rəngi və modeli naməhrəmin diqqətini çəkərsə və ya onun barmaqla göstərilməsinə səbəb olarsa, maneəsi vardır.**

**Sual 1366:** Qadınlar yalnız qara rəngli baş örtüyü, şalvar, köynək və s. geyinməlidirlərmi?

**Cavab: Rəng və tikiliş modeli baxımından qadının geyiminin hökmü ayaqqabının hökmü ilə eynidir və bu hökm əvvəlki sualın cavabında açıqlandı.**

**Sual 1367:** Qadın naməhrəm kişilərin diqqətini cəlb edən, yaxud şəhvəti təhrik edən bir tərzdə hicab örtə və geyim geyinə bilərmi? Məsələn, naməhrəmlərin diqqətini cəlb edən bir tərzdə çadra örtə bilərmi? Yaxud şəhvəti təhrik edən bir materialda və rəngdə corab geyinə bilərmi?

**Cavab: Qadın rəng, yaxud model, yaxud da geyim tərzi baxımından naməhrəm kişilərin diqqətini cəlb edən, fəsada və harama düşməyə səbəb olan geyimləri geyinə bilməz.**

**Sual 1368:** Kişilər qadınlara xas olan geyimləri, yaxud əksinə, qadınlar kişlərə xas olan geyimləri evdə və özünü əks cinsə oxşatmaq məqsədi olmadan geyinə bilərlərmi?

**Cavab: Həmin geyimi özlərinə geyim olaraq qəbul etmədikləri təqdirdə maneəsi yoxdur.**

**Sual 1369:** Kişilərin qadınlara aid alt paltarları satmalarının hökmü nədir?

**Cavab: Əgər əxlaqi və ictimai fəsada səbəb olmazsa, maneəsi yoxdur.**

**Sual 1370:** **Nazik corabın toxunmasına, satılması və alınmasına şəri baxımdan icazə verilirmi?**

**Cavab: Əgər nazik corabın toxunması, satılmasına və alınması qadınların bu corabı naməhrəm kişilərin qarşısında geyinmələri məqsədilə olmazsa, maneəsi yoxdur.**

**Sual 1371:** **Subay şəxslər şəriət və əxlaq qaydalarına riayət edərək qadın geyimləri və kosmetik əşyalar satılan mağazalarda işləyə bilərlərmi?**

**Cavab: İşləmək və halal qazanc əldə etmək şəri baxımdan xüsusi bir dəstəyə aid deyildir, əksinə, hər kəs islam qayda-qanunlarına riayət edərək işləmək və halal qazanc əldə etmək hüququna malikdir. Amma əgər aidiyyatı qurumlar tərəfindən lisenziyaların verilməsi üçün bəzi peşələr barəsində ümumi məsləhətə görə müəyyən şərtlər qoyulubsa, bu şərtlərə riayət olunmalıdır.**

**Sual 1372:** **Kişilərin boyunbağı taxmasının hökmü nədir?**

**Cavab: Əgər boyunbağı qızıldan və ya ancaq qadınların istifadə etdikləri vasitələrdən olarsa, kişilər onu taxa bilməzlər.**

## Özünü kafirlərə oxşatmaq və onların mədəniyyətini yaymaq

**Sual 1373:** Üzərində xarici yazılar və şəkillər olan geyimləri geyinmək olarmı? Bu geyimlər qərb mədəniyyətini yaymaq hesab olunurmu?

**Cavab: Əgər ictimai fəsadı olmazsa, bu geyimləri geyinməyin öz-özlüyündə maneəsi yoxdur. Amma İslam mədəniyyətinə zidd olan qərb mədəniyyətini yaymaq hesab olunub-olunmaması ürfə həvalə olunur.**

**Sual 1374:** Bu günlərdə xarici ölkələrdən geyimlər gətirilməsi və bu geyimlərin satışı, alışı və istifadəsi şəhərlərdə geniş yayılmışdır. İslam inqilabına qarşı qərbin mədəni basqısının artdığını nəzərə alaraq, bu işin hökmü nədir?

**Cavab: Bu geyimlərin idxalı, satışı, alışı və istifadəsinin – bu baxımdan ki, sözügedən geyimlər qeyri-islami ölkələrdən gətirilmişdir - maneəsi yoxdur. Amma əgər bu geyimləri geyinmək iffətə və islam əxlaqına zidd olarsa, yaxud islam mədəniyyətinə düşmən olan qərb mədəniyyətinin yayılması hesab olunarsa, onların idxalına, satışına, alışına və istifadəsinə icazə verilmir. Bunun qarşısının alınması üçün aidiyyatı qurumlara müraciət olunmalıdır.**

**Sual 1375:** Saç düzümündə qərb modellərini təqlid etməyin hökmü nədir?

**Cavab: Bu kimi işlərin haramlığı meyarı, özünü islam düşmənlərinə oxşatmaq və onların mədəniyyətini yaymaqdır. Bu məsələ müxtəlif ölkələrə, zamanlara və şəxslərə görə dəyişir. Həmçinin bu məsələ təkcə qərbə aid deyildir.**

**Sual 1376:** Orta məktəb müəllimləri saçını islam qanunlarına zidd olan qərb modellərində düzəltdirən şagirdlərin saçını qırxa bilərlərmi? Belə ki, bu, özünü kafirlərə oxşatmaq hesab olunur. Qeyd edək ki, onları başa salmağın və öyüd-nəsihət etməyin bir faydası yoxdur. Onlar məktəbdə olarkən islam qanunlarına zahirdə riayət edir, amma məktəbdən xaric olduqdan sonra görkəmlərini dəyişirlər. Bu xüsusda bizim vəzifəmiz nədir?

**Cavab: Orta məktəb müəllimlərinin şagirdlərin saçını qırxmaları bəyənilən bir iş deyildir. Məktəb məsulları şagirdlərin bəzi hərəkətlərinin islam qanunlarına və mədəniyyətinə uyğun olmadığını gördükdə, yaxşı olar ki, özləri bir böyük kimi onları öyüd-nəsihət etsinlər. Lazım gördükdə isə, problemin həlli üçün onların valideynlərini məsələdən agah etsinlər. Söz yox ki, təhsil sisteminin qayda-qanunlarına riayət etmək lazımdır.**

**Sual 1377:** Amerika istehsalı olan geyimləri geyinməyin hökmü nədir?

**Cavab: İstismarçı dövlətlərin istehsalı olan geyimləri geyinməyin – bu baxımdan ki, sözügedən geyimlər islam düşmənlərinin istehsalıdır - öz-özlüyündə maneəsi yoxdur. Amma əgər bu iş düşmənin islama zidd mədəniyyətinin yayılmasına səbəb olarsa, yaxud islam ölkələrini istismar etmək istiqamətində onların iqtisadiyyatının güclənməsinə səbəb olarsa, yaxud islam ölkələrinin iqtisadiyyatına ziyan dəyməsilə nəticələnərsə, bunun maneəsi vardır. Hətta bəzi hallarda bu işə icazə verilmir.**

**Sual 1378:** Nazirliklər və dövlət qurumları tərəfindən təşkil edilən xarici qonaqların qarşılanması və gül dəstəsinin təqdim edilməsi mərasimində qadınlar iştirak edə bilərlərmi? Qadınların bu mərasimdə iştirak etmələrini belə əsaslandıra bilərikmi ki,

bizim hədəfimiz islam ictimaiyyətində qadınların azadlığını və hörmətini göstərməkdir?

**Cavab: Xarici qonaqların qarşılanması mərasimində qadınların iştirak etmələrinə bir əsas yoxdur. Fəsada və qeyri-islami mədəniyyətin yayılmasına səbəb olduğu təqdirdə isə, buna icazə verilmir.**

**Sual 1379:** Qalstuk geyinməyin hökmü nədir?

**Cavab: Ümumiyyətlə, qeyri-müsəlmanların geyimi hesab olunan qalstuk və bu kimi başqa geyimləri geyinmək qərbin azğın mədəniyyətinin yayılmasına səbəb olduğu təqdirdə, belə geyimlərin geyinilməsinə icazə verilmir.**

**Sual 1380:** Aşkar bir şəkildə qeyri-əxlaqi nüanslara malik olmayan, amma cəmiyyətdə, xüsusilə də, gənclər arasında dolayısıyla azğın və qeyri-islami bir mədəni fəzanın yaranmasına səbəb olan şəkillərin, kitabların və dərgilərin satışının hökmü nədir?

**Cavab: Gənclərin azmasına və azğın bir mədəni fəzanın yaranmasına səbəb olan bu kimi vasitələrin satılmasına, alınmasına və yayılmasına icazə verilmir və bunlardan çəkinmək vacibdir.**

**Sual 1381:** İslam ictimaiyyətinə mədəni basqı ilə mübarizə aparmaq istiqamətində bu gün bizim qadınlarımızın vəzifəsi nədir?

**Cavab: Onların mühüm vəzifələrindən biri islami hicabı qorumaq və onu yaymaq, həmçinin düşmənin mədəniyyətini təqlid etmək sayılan geyimləri geyinməkdən çəkinməkdir.**

**Sual 1382:** Bəzi müsəlmanlar xristianların bayramlarını qeyd edirlər. Bu işin maneəsi vardırmı?

**Cavab: Həzrət İsa Məsihin (ə) miladını bayram etməyin maneəsi yoxdur.**

**Sual 1383:** Üzərində şərabın təbliğatı və təşviqatı hesab olunan yazıların və şəkillərin olduğu geyimləri geyinmək olarmı?

**Cavab: Olmaz.**

## Mühacirət və siyasi sığınacaq

**Sual 1384:** Xarici ölkələrdən siyasi sığınacaq almağın hökmü nədir? Siyasi sığınacaq ala bilmək üçün həqiqəti olmayan hadisə uydurmaq olarmı?

**Cavab: Fəsadı olmadığı təqdirdə qeyri-müsəlman ölkədən siyasi sığınacaq almağın öz-özlüyündə maneəsi yoxdur. Amma sığınacaq ala bilmək üçün yalana əl atmağa və həqiqəti olmayan hadisə uydurmağa icazə verilmir.**

**Sual 1385:** Müsəlman bir şəxs qeyri-müsəlman ölkələrə mühacirət edə bilərmi?

**Cavab: Əgər dindən azmaq qorxusu mövcud olmazsa, bu işin maneəsi yoxdur. Orada ehtiyata riayət edərək, din və məzəbini qoruyaraq bacardığı qədər İslamı və müsəlmanları müdafiə etməlidir.**

**Sual 1386:** Küfr ölkəsində İslama iman gətirən və ailəsindən, cəmiyyətindən qorxduqlarına görə müsəlman olduqlarını aşkar edə bilməyən qadınlara İslam ölkəsinə mühacirət etmək vacibdirmi?

**Cavab: Əgər İslam ölkəsinə mühacirət etməyin onlar üçün böyük çətinliyi olarsa, mühacirət etmək onlara vacib deyildir. Amma bacardıqları qədər namaz, oruc və başqa vacib əməlləri qoruyub yerinə yetirmələri vacibdir.**

**Sual 1387:** Günah üçün – məsələn, hicabsızlıq, haram musiqilərə qulaq asmaq və s. –şəraitin mövcud olduğu bir ölkədə yaşamağın hökmü nədir? Belə bir ölkədə şəri vəzifə yaşına yeni çatan bir şəxsin vəzifəsi nədir?

**Cavab: Orada yaşamağın öz-özlüyündə maneəsi yoxdur. Amma şəriət baxımından ona haram olan işlərdən çəkinməlidir. Əgər bunu edə bilmirsə, İslam ölkələrinə mühacirət etməlidir.**

## Casusluq, xəbərçilik, sirri ifşa etmək

**Sual 1388:** İşçilərdən birinin dövlət əmlakını mənimsəməsi barəsində bir neçə yazılı məlumat daxil olmuşdu və bu ittiham barəsində araşdırma aparıldıqda bu məlumatlardan bəzisinin doğru olduğu aşkar oldu. Amma müttəhim şəxs sorğu-suala çəkilərkən bütün bu ittihamları inkar edir. Nəzərə alsaq ki, bu məlumatlar məhkəməyə göndərildiyi təqdirdə həmin şəxsin abır-heysiyyəti gedəcəkdir, bu məlumatları məhkəməyə göndərmək olar, yoxsa yox? Əgər olmazsa, bu məsələni bilən şəxslərin vəzifəsi nədir?

**Cavab: Əgər beytul-malı və dövlət əmlakını qorumaq vəzifəsini daşıyan şəxs işçilərdən birinin və ya başqa birisinin dövlət əmlakını mənimsədiyindən xəbər tutsa, haqqın bərqərar olunması üçün bu barədə olan məlumatlarını aidiyyatı qurumlara təqdim etməkdə şəri və qanuni baxımdan məsuliyyət daşıyır. Müttəhimin abır-heysiyyətinin aradan gedəcəyindən qorxmaq, beytul-malın qorunmasında səhlənkarlıq göstərməyə qanuni əsas hesab olunmur. Başqa şəxslər də öz məlumatlarını dəlil-sübutlarla aidiyyatı qurumlara təqdim etməlidirlər ki, araşdırma aparıldıqdan və məsələ sübuta yetdikdən sonra lazımi ölçü götürülsün.**

**Sual 1389:** Bildiyiniz kimi, bəzi mətbuatlar oğruların, dələduzların, idarələrdə rüşvət alanların, əxlaqsızlıq edənlərin, gecə yığıncaqları təşkil edən dəstələrin tutulduqları barədə xəbərlər dərc edirlər. Bu kimi xəbərləri dərc etmək bir növ pis əməli yaymaq hesab olunmurmu?

**Cavab: Baş verən hadisələri mətbuatda dərc etmək pis əməli yaymaq hesab olunmur.**

**Sual 1390:** Hansısa bir təhsil ocağının tələbələri müşahidə etdikləri pis əməllər barəsində tərbiyə işləri üzrə məsul şəxslərə məlumat verə bilərlərmi ki, bu əməllərin qarşısı alınsın?

**Cavab: Əgər bu məlumatlar aşkarda yerinə yetirilən əməllər barəsində olarsa və casusluq və qeybət hesab olunmazsa, bu barədə məlumat verməyin maneəsi yoxdur. Hətta əgər "pis işlərdən çəkindirməy"in müqəddiməsindən hesab olunarsa, bu işi etmək vacibdir.**

**Sual 1391:** Bəzi idarə məsullarının haqsızlıqlarını və xəyanətlərini camaata açıb demək olarmı?

**Cavab: Haqsızlığın baş verdiyini araşdırdıqdan və buna əmin olduqdan sonra bu barədə araşdırma aparmaları üçün aidiyyatı qurumlara məlumat verməyin maneəsi yoxdur. Hətta əgər "pis işlərdən çəkindirməy"in müqəddiməsindən hesab olunarsa, bu işi etmək vacibdir. Amma bunu camaata açıb deməyin bir əsası yoxdur, əksinə, əgər fitnə-fəsada və İslam dövlətinin zəifləməsinə səbəb olarsa, bu işi görmək haramdır.**

**Sual 1392:** Möminlərin əmlakı barəsində araşdırma aparmaq və bu barədə zalım dövlətə məlumat verməyin hökmü nədir? Xüsusilə də, əgər bu iş möminlərin incidilməsi və onlara ziyan dəyməsinə səbəb olarsa?

**Cavab: Bu kimi işlər şəriət baxımından haramdır. Əgər möminlərə dəyən ziyan onlardan zalım məsullara xəbərçiliyə görə olarsa, xəbərçilik edən şəxs həmin ziyana zamindir (onun boynundadır).**

**Sual 1393:** Əgər mömin bir şəxsin haram iş gördüyü və ya vacib işi tərk etdiyi müşahidə edilərsə, "yaxşı işlərə dəvət" və "pis işlərdən çəkindirmə" məqsədilə onun şəxsi və ya qeyri-şəxsi işləri barəsində araşdırma aparmaq olarmı? Camaatın yanlış işlərini aşkarlamaqda bir vəzifə daşımayan, amma bu xüsusda araşdırma aparan şəxslərin hökmü nədir?

**Cavab: Rəsmi müfəttişlərin idarə işçilərinin işi barəsində qanun çərçivəsində rəsmi araşdırma aparmalarının maneəsi yoxdur. Amma başqalarının işləri barəsində, yaxud işçilərin rəftarları və əməlləri barəsində onların sirlərini aşkarlamaq məqsədilə qanun çərçivəsindən kənar olaraq araşdırma aparmağa, hətta rəsmi müfəttişlərə belə, icazə verilmir.**

**Sual 1394:** **Şəxsi sirləri və xüsusi məsələləri başqalarına açıb danışmaq olarmı?**

**Cavab: Şəxsi və xüsusi məsələləri başqalarına açıb danışmaq əgər hansısa bir şəkildə müəyyən şəxslərə də aid olarsa, yaxud fəsada yol açarsa, buna icazə verilmir.**

**Sual 1395:** **Psixoloqlar əksər hallarda xəstəliyin səbəbini və onun müalicə yollarını tapmaq üçün xəstədən şəxsi və ailə məsələləri barəsində suallar soruşurlar. Xəstə bu suallara cavab verə bilərmi?**

**Cavab: Əgər bu suallara cavab vermək fəsada yol açmazsa və başqa bir şəxsə qarşı hörmətsizlik və onun qeybətini etmək sayılmazsa, maneəsi yoxdur.**

**Sual 1396:** **Bəzən təhlükəsizlik məmurları fəsad mərkəzlərini və terrorçu qrupları aşkarlamaq üçün bəzi mərkəzlərə daxil olmağı və bəzi qrupların daxilinə nüfuz etməyi zəruri hesab edirlər. Necə ki, kəşfiyyat və araşdırma üsulları da bunu tələb edir. Bu işin şəriət baxımından hökmü nədir?**

**Cavab: Əgər aidiyyatı qurumun məsullarının icazəsi ilə olarsa və rəsmi qanunlara riayət edilərsə, habelə, günaha və harama yol verilməzsə, maneəsi yoxdur. Məsullar da onların işinə bu baxımdan tam nəzarət etməlidirlər.**

**Sual 1397:** **Bəzi şəxslər başqalarına İslam Respublikasında mövcud olan nöqsanlardan və çatışmazlıqlardan söz açırlar. Bu söhbətlərə qulaq asmağın hökmü nədir?**

**Cavab: Aydın məsələdir ki, küfrün və dünya istismarçılarının qarşısında dayanan İslam Respublikasının simasını korlayan hər bir əməl İslamın və müsəlmanların xeyrinə deyildir. Buna görə də, əgər belə söhbətlər İslam Respublikasının zəifləməsinə səbəb olarsa, belə söhbətləri etməyə icazə verilmir.**

## Tütün məmulatları və narkotik maddələrin istifadəsi

**Sual 1398:** **Dövlət idarələrində və ümumi məkanlarda tütün məmulatlarından istifadə etməyin hökmü nədir?**

**Cavab: Əgər idarələrin daxili qanunlarına və ümumi məkanların qaydalarına zidd olarsa, yaxud başqalarının narahatlığına və ya onlara ziyan dəyməsinə səbəb olarsa, buna icazə verilmir.**

**Sual 1399:** **Mənim qardaşım narkotika istifadəçisidir, həmçinin narkotik maddələrin qaçaqmalçılığını da edir. Onun bu əməlinin qarşısı alınsın deyə, aidiyyatı təşkilatlara onun barəsində məlumat vermək mənə vacibdirmi?**

**Cavab: Sizə "pis işlərdən çəkindirmək" vacibdir. Narkotiki tərk etməsi üçün siz ona kömək etməlisiniz. Həmçinin onu narkotik maddələrin qaçaqmalçılığından, satmaqdan və yaymaqdan çəkindirməlisiniz. Əgər onun əməlləri barəsində aidiyyatı təşkilatlara məlumat vermək bu istiqamətdə ona kömək edəcəksə, yaxud "pis işlərdən çəkindirmə"nin müqəddiməsi hesab olunarsa, onun barəsində məlumat verməyiniz vacibdir.**

**Sual 1400:** **Burunotundan istifadə etmək olarmı? Bunun aludəçisi olmağın hökmü nədir?**

**Cavab: Əgər ciddi ziyanı olarsa, ondan istifadə etmək və aludəçisi olmaq olmaz.**

**Sual 1401:** **Tənbəki ticarətinin və istifadəsinin hökmü nədir?**

**Cavab: Tənbəki ticarətinin və istifadəsinin öz-özlüyündə maneəsi yoxdur. Amma əgər insana ciddi ziyanı olarsa, onun ticarətinə və istifadəsinə icazə verilmir.**

**Sual 1402:** **Həşiş pakdırmı? Ondan istifadə etmək haramdırmı?**

**Cavab: Həşiş pakdır, amma ondan istifadə etmək haramdır.**

**Sual 1403:** **Narkotik maddələrdən, məsələn, həşiş, tiryək, heroin, morfin və marixuanadan yemək, içmək, çəkmək, iynə vurmaq, şam qoymaq şəklində istifadə etməyin hökmü nədir? Narkotik maddələrin ticarəti vasitəsilə qazanc əldə etmək və ya ondan başqa yollarla, məsələn, daşınması, saxlanılması və yayılması vasitəsilə qazanc əldə etməyin hökmü nədir?**

**Cavab: Narkotik maddələrdən istifadə etməyin çox böyük fərdi və ictimai ziyanları olduğuna görə, onlardan istifadə etmək haramdır. Bu səbəbdən də onların daşınması, saxlanılması, ticarəti və s. yollar vasitəsilə qazanc əldə etmək də haramdır.**

**Sual 1404:** **Xəstəliyin müalicəsi üçün narkotik maddələrdən istifadə etməyə icazə verilirmi? Əgər icazə verilirsə, ümumi şəkildə icazə verilir, yoxsa yalnız o halda icazə verilir ki, xəstəliyin müalicəsi narkotikdən istifadəyə bağlıdır?**

**Cavab: Əgər xəstəliyin müalicəsi hansısa bir şəkildə narkotik maddədən istifadəyə bağlı olarsa və bunu etibarlı bir həkim təyin edərsə, ondan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 1405:** **Tiryək, heroin, morfin, həşiş və kakainin alındığı xaşxaş, hind şahdənəsi, koyha və bu kimi başqa bitkiləri əkib becərməyin hökmü nədir?**

**Cavab: Bu növ bitkilərin əkilib becərilməsi İslam Respublikasının qanunlarına zidd olduğuna görə, onların əkilib becərilməsinə icazə verilmir.**

**Sual 1406:** **Narkotik maddələrin hazırlanmasının – istər təbii maddələrdən alınan morfin, heroin, həşiş və marixuana kimi narkotiklər olsun, istərsə də kimyəvi maddələrdən alınan narkotik vasitələr olsun – hökmü nədir?**

**Cavab: Narkotik maddələrin hazırlanmasına icazə verilmir.**

**Sual 1407:** **Üzərinə şərabın bəzi növlərinin səpildiyi tənbəkidən istifadə etmək olarmı? Onun tüstüsünü iyləyib ciyərə çəkmək olarmı?**

**Cavab: Əgər ürfdə belə tənbəkidən istifadə etmək şərabdan istifadə etmək hesab olunmazsa, həmçinin məstliyə və insana ciddi ziyanın dəyməsinə səbəb olmazsa, ondan istifadə etməyin maneəsi yoxdur. Baxmayaraq ki, ondan istifadə etməmək əhvətə müvafiqdir.**

**Sual 1408:** **Tütün məmulatlarından istifadə etməyə başlamaq haramdırmı? Əgər narkotik aludəçisi olan şəxs tütündən istifadəni bir neçə həftəlik və ya daha çox müddətə tərk edərsə, yenidən tütündən istifadə etməsi haramdırmı?**

**Cavab: Tütün məmulatlarından istifadənin zərərinin dərəcələrinə görə şəri hökm də dəyişir. Ümumiyyətlə, əgər tütündən insan orqanizminə ciddi ziyan dəyəcək bir həddə istifadə edilərsə, ondan istifadə etməyə icazə verilmir. Əgər insan bilsə ki, tütündən istifadə etməyə başlayarsa sözügedən həddə çatacaqdır, ondan istifadə etməsinə icazə verilmir.**

**Sual 1409:** **Əgər bir malın haram olduğu məlumdursa - məsələn, narkotik maddələrin ticarətindən əldə edilən mal – onun hökmü nədir? Əgər bu malın sahibini tanımırıqsa, bu, “sahibi bilinməyən mal” hökmündədirmi? Əgər belədirsə, bu maldan şəri-hakimin və ya onun ümumi vəkilinin icazəsi ilə istifadə etmək olarmı?**

**Cavab: Əgər bir şəxs əldə etdiyi malın haram olduğunu bilsə, bu təqdirdə əgər onun şəri sahibini, hətta onlardan bir neçəsini tanıyırsa, həmin malı onlara qaytarması vacibdir. Əgər tanımırsa, həmin malı onun şəri sahibi tərəfindən fəqirlərə sədəqə verməlidir. Əgər haram mal halal mala qarışarsa və haram malın miqdarı və onun şəri sahibi bilinməzsə, bu malın xümsü xüms işlərini idarə edən şəxsə verilməlidir.**

## Saqqalı qırxmaq

**Sual 1410:** **"Alt çənə" dedikdə, nə nəzərdə tutulur, belə ki, alt çənənin üz tükünü saxlamaq vacibdir? Yanaqlar da bura daxildirmi?**

**Cavab: Meyar, ürfdə "saqqal saxlayıbdır" deyilməsidir.**

**Sual 1411:** **Saqqalın uzunluğu və qısalığı nə qədər olmalıdır?**

**Cavab: Bunun müəyyən bir ölçüsü yoxdur. Meyar budur ki, ürfdə ona saqqal deyilsin. Saqqalın əlin enindən uzun olması isə məkruhdur.**

**Sual 1412:** **Bığı uzatmağın və saqqalı qısaltmağın hökmü nədir?**

**Cavab: Bunun öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1413:** **Bəzi kişilər çənənin tükünü saxlayır və üzün qalan hissəsinin tükünü qırxırlar. Bunun hökmü nədir?**

**Cavab: Saqqalın bir hissəsini qırxmaq, bütün saqqalı qırxmaq hökmündədir.**

**Sual 1414:** **Saqqalı qırxmaq fasiqlik hesab olunurmu?**

**Cavab: Ehtiyata görə, saqqalı qırxmaq haramdır. Əhvətə görə, fasiqliyin ehkamı və nəticələri ona aid olur.**

**Sual 1415:** **Bığı qırxmağın hökmü nədir? Bığı çox uzatmaq olarmı?**

**Cavab: Bığı qırxmağın, yaxud bığ saxlamağın və onu uzatmağın öz-özlüyündə maneəsi yoxdur. Əlbəttə, əgər yemək yeyərkən və su içərkən yemək və suya dəyəcək qədər uzadılarsa, bığı bu qədər uzatmaq məkruhdur.**

**Sual 1416:** **Əgər incəsənət adamı peşəsinin tələbinə görə saqqalını ülgüclə və ya üzqırxan maşınla qırxarsa, bunun hökmü nədir?**

**Cavab: Əgər saqqalı qırxmaq adlanarsa, ehtiyata görə, bu iş haramdır. Amma əgər onun işi İslam ictimaiyyətinin zəruri ehtiyacı hesab olunarsa, həmin zərurət miqdarında saqqalı qırxmağın maneəsi yoxdur.**

**Sual 1417:** **Mən İran İslam Respublikasına bağlı olan şirkətlərin birində ümumi əlaqələr şöbəsinin məsulu olduğuma görə, qonaqlara taraş vasitələri alıb vermək məcburiyyətindəyəm. Mənim vəzifəm nədir?**

**Cavab: Zərurət halı istisna olmaqla, ehtiyata görə, üzü qırxmaq üçün olan vasitələri alıb başqalarına vermək olmaz.**

**Sual 1418:** **Əgər saqqal saxlamaq insana qarşı hörmətsizlik olunmasına səbəb olarsa, saqqalı qırxmağın hökmü nədir?**

**Cavab: Dininə əhəmiyyət verən müsəlman şəxsin saqqal saxlaması başıaşağılıq deyildir. Saqqal saxlamağın zərəri və ya böyük çətinliyi olduğu hallar istisna olmaqla, ehtiyata görə, saqqalı qırxmaq olmaz.**

**Sual 1419:** Əgər saqqal saxlamaq insanın öz şəri hədəflərinə çatmasına mane olarsa, saqqalı qırxmaq olarmı?

**Cavab: Allahın hökmünə əməl etmək mükəlləflərə vacibdir. Yalnız böyük çətinlik və ya ciddi ziyanın mövcud olduğu hallar istisnadır.**

**Sual 1420:** Əsasən saqqalı qırxmaq üçün istifadə edilən, amma bəzən saqqaldan qeyri tükləri təmizləmək üçün istifadə edilən taraş kremini istehsal etmək və alıb-satmaq olarmı?

**Cavab: Əgər sözügedən kremin saqqalı qırxmaqdan əlavə başqa halal xeyirləri olarsa, bu məqsədlə onu istehsal etməyin və satmağın maneəsi yoxdur.**

**Siual 1421:** "Saqqalı qırxmaq haramdır" dedikdə, üzün tükünün tam çıxması və sonra qırxılması nəzərdə tutulur? Yoxsa bu hökm üzün tükünün bir hissəsinin çıxması və qırxılmasına da şamildir?

**Cavab: Ümumiyyətlə, üzün tükünün "saqqalı qırxmaq" adlanan miqdarda qırxılması, ehtiyata görə, haramdır. Amma belə adlanmadığı miqdarda qırxılmasının maneəsi yoxdur.**

**Sual 1422:** Saç ustasının saqqalı qırxmaq müqabilində aldığı zəhmət haqqı haramdırmı? Haram olduğu təqdirdə, əgər bu pul halal mala qarışarsa, xüms verərkən bu malın xümsü iki dəfə verilməlidirmi?

**Cavab: Ehtiyata görə, saqqalı qırxmaq müqabilində zəhmət haqqı almaq haramdır. Amma harama qarışmış mala gəlincə, əgər haram malın miqdarını bilərsə və onun sahibini tanıyarsa, həmin malı onun sahibinə qaytarması, yaxud onun razılığını əldə etməsi vacibdir. Yox əgər onun sahibini hətta məhdud sayda belə tanımazsa, həmin malı fəqirə sədəqə verməsi vacibdir. Əgər haram malın miqdarını bilməzsə, amma onun sahibini tanıyarsa, onun sahibinin razılığını hansısa bir şəkildə əldə etməsi vacibdir. Yox əgər haram malın miqdarını bilməzsə və onun sahibini də tanımazsa, mal haramdan təmizlənsin deyə harama qarışmış malının xümsünü verməsi vacibdir. Xümsü verdikdən sonra yerdə qalan mal əgər ilin dolanışıq xərclərindən əlavə qalarsa, qazancın xümsünü vermək ünvanında bu malın xümsünü verməsi vacibdir.**

**Sual 1423:** Bəzi müştərilər taraş maşınını təmir etdirməkdən ötrü bəzən mənə müraciət edirlər. Şəriət baxımından saqqal qırxmağın haram olduğunu nəzərə alaraq, mən bu maşını təmir edə bilərəmmi?

**Cavab: Sözügedən maşının saqqalı qırxmaqdan əlavə başqa istifadələrinin olduğunu nəzərə alaraq, saqqalın qırxılması məqsədilə olmadığı təqdirdə onu təmir etmək və bunun müqabilində zəhmət haqqı almağın maneəsi yoxdur.**

**Sual 1424:** Yanaqdakı tükü sap və ya tükçəkən ilə təmizləmək haramdırmı?

**Cavab: Yanaqdakı tükü, hətta qırxmaqla olsa belə, təmizləmək haram deyildir.**

## Günah məclisində iştirak etmək

**Sual 1425:** **Bəzi vaxtlar xarici ölkələrdə universitet müəllimləri və ya universitetlər tərəfindən ümumi bayram yığıncağı təşkil olunur və bu yığıncaqda spirtli içkilərin olacağı əvvəlcədən məlumdur. Bu bayram yığıncağında iştirak etmək istəyən tələbələrin şəri vəzifəsi nədir?**

**Cavab: Şərab içilən məclisdə iştirak etmək heç kimə icazə verilmir. Siz bu yığıncaqlarda iştirak etməyin və qoy, onlar bilsinlər ki, siz müsəlman olduğunuza görə şərab içilən məclisdə iştirak etmir və şərab içmirsiniz.**

**Sual 1426:** **Toy məclisində iştirak etməyin hökmü nədir? Əgər toy məclisində rəqs edərlərsə, bu məclisdə iştirak etmək "bir dəstənin əməlinə qatılan onlardan sayılır" adını daşıyırmı və buna görə də, bu məclisi tərk etmək vacibdirmi? Yoxsa ki, rəqs etmədən və başqa işləri görmədən həmin məclisdə iştirak etməyin maneəsi yoxdur?**

**Cavab: Əgər məclis eyş-işrət, haram və günah məclisi adını daşıyacaq bir şəkildə olmazsa və orada iştirak etməyin fəsadı olmazsa, bu məclisdə iştirak etmək və əyləşməyin maneəsi yoxdur, bu şərtlə ki, ürfdə şəriətin icazə vermədiyi bir əməli dəstəkləmək hesab olunmamalıdır.**

**Sual 1427:**
**1) Kişilərin və qadınların musiqi ifa etdikləri, rəqs etdikləri, amma ayrı olduqları bayram yığıncaqlarında iştirak etməyin hökmü nədir?**
**2) Çalğı çalınan və rəqs edilən toylarda iştirak etmək olarmı?**
**3) Rəqs edilən bir məclisdə "pis işlərdən çəkindirmək" şəri vəzifəsini yerinə yetirmək vacibdirmi, halbuki "yaxşı işlərə dəvət etmək" və "pis işlərdən çəkindirməy"in məclisdə iştirak edənlərə bir təsiri olmayacağı məlumdur?**
**4) Qadın və kişinin bir yerdə rəqs etməsinin hökmü nədir?**

**Cavab: Ümumiyyətlə, istər toy məclislərində olsun, istərsə də başqa məclislərdə, əgər rəqs şəhvətin təhrik olunmasına səbəb olarsa və ya haram bir əməl ilə yanaşı olarsa, yaxud da naməhrəm qadın və kişi birlikdə rəqs edərsə, buna icazə verilmir.**
**Günah məclisində iştirak etmək əgər eyş-işrət və günah məclislərinə uyğun olan musiqilərə qulaq asmaq kimi haram bir işi görməyə səbəb olarsa, yaxud bu məclisdə iştirak etmək günahı dəstəkləmək hesab olunarsa, belə məclisdə iştirak etməyə icazə verilmir. "Yaxşı işlərə dəvət etmək" və "pis işlərdən çəkindirməy"in təsirinin olmayacağı ehtimal edildikdə isə, bu şəri vəzifə mükəlləfin boynundan götürülür.**

**Sual 1428:** **Əgər naməhrəm bir kişi toy məclisinə daxil olsa və orada hicabsız qadın olsa, kişi də "pis işlərdən çəkindirmə"nin qadına təsir qoymayacağını bilsə, o, məclisi tərk etməlidirmi?**

**Cavab: Əgər etiraz ünvanında günah məclisini tərk etmək "pis işlərdən çəkindirmə"nin nümunəsi olarsa, məclisi tərk etmək vacibdir.**

**Sual 1429:** **Ğina musiqi diskləri dinlənilən məclislərdə iştirak etmək olarmı? Əgər şəxs musiqinin ğina olduğuna şəkk etsə, diskin oxutdurulmasının qarşısını ala bilməyəcəyini nəzərə alaraq, hökm nədir?**

**Cavab: Əgər ğina musiqilərinin və ya eyş-işrət, günah məclislərinə uyğun musiqilərin səsləndirildiyi məclisdə iştirak etmək bu musiqilərə qulaq asmaqla, yaxud bu musiqiləri dəstəkləməklə nəticələnərsə, belə məclislərdə iştirak etmək olmaz. Amma əgər şəxs musiqinin sözügedən musiqi növündən olduğuna şəkk edərsə, belə məclisdə iştirak etmək və bu musiqilərə qulaq asmağın öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1430:** **Əgər şəxs müəyyən məclislərdə bəzən yaxşı olmayan sözlər eşidərsə, məsələn, din adamlarına və ya İslam dövləti məsullarına və ya möminlərə iftira atılarsa, bu məclislərdə iştirak etməyin hökmü nədir?**

**Cavab: Əgər bu məclislərdə iştirak etmək qeybətə qulaq asmaq kimi haram bir işi görməyə səbəb olmazsa, həmçinin pis işin dəstəklənməsi və yayılmasına səbəb olmazsa, bu məclislərədə iştirak etməyin öz-özlüyündə maneəsi yoxdur. Amma şərait mövcud olduğu təqdirdə "pis işlərdən çəkindirmə" vəzifəsini yerinə yetirmək vacibdir.**

**Sual 1431:** **Bəzi qeyri-islami ölkələrdə təşkil edilən iclaslarda və yığıncaqlarda adəti üzrə xidmət ünvanında iştirakçılara spirtli içkilər təklif edilir. Bu iclaslarda və yığıncaqlarda iştirak etmək olarmı?**

**Cavab: Şərab içilən məclisdə iştirak etmək olmaz. İştirak etmək məcburiyyətində qaldıqda, zərurət miqdarında iştirak etməklə kifayətlənmək vacibdir.**

## Dua yazmaq və istixarə etmək

**Sual 1432:** **Dua yazmaq qarşılığında pul vermək və almaq olarmı?**

**Cavab: Dini mənbələrdə gələn duaları yazmaq qarşılığında zəhmət haqqı olaraq pul vermək və almağın maneəsi yoxdur.**

**Sual 1433:** **Əgər dua yazan şəxs yazdığı duaların qədim kitablarda qeyd edildiyini iddia edirsə, bu duaların hökmü nədir? Bu dualar şəri baxımdan mötəbərdirmi? Bu dualardan istifadə etməyin hökmü nədir?**

**Cavab: Əgər dualar Məsum İmamlardan (ə) nəql olunarsa, yaxud onların məzmunu haqq və düzgün məzmun olarsa, bu dualardan təbərrük ünvanında istifadə etməyin maneəsi yoxdur. Həmçinin şübhəli duaların Məsumdan (ə) olduğuna ümid edərək, onlardan təbərrük ünvanında istifadə etməyin maneəsi yoxdur.**

**Sual 1434:** **İstixarəyə əməl etmək vacibdirmi?**

**Cavab: İstixarəyə əməl etmək şəri baxımdan vacib deyildir, amma istixarənin əksinə əməl etməmək yaxşıdır.**

**Sual 1435:** **“Xeyir işlərdə istixarəyə ehtiyac yoxdur” deyildiyinə görə, görəsən, xeyir işləri yerinə yetirməyin qaydası barəsində və ya bu işləri yerinə yetirərkən təxmin edilməyən və qarşıya çıxa biləcək çətinliklər barəsində istixarə etmək olarmı? İstixarə qeybi bilmək üçün bir yol hesab olunurmu, yoxsa qeybdən yalnız Allah xəbərdardır?**

**Cavab: İstixarə mübah işlərdə qərarsızlığı və tərəddüdü aradan qaldırmaqdan ötrüdür: istər işin özündə tərəddüd mövcud olsun, istərsə işi yerinə yetirməyin qaydası barəsində tərəddüd mövcud olsun. Buna görə də, əgər xeyir iş barəsində qərarsızlıq və tərəddüd mövcud olmazsa, istixarəyə lüzum yoxdur. Həmçinin istixarə şəxsin və ya işin gələcəyindən xəbərdar olmaqdan ötrü deyildir.**

**Sual 1436:** **Talaq almaq və ya almamaq kimi işlər barəsində Quran ilə istixarə etdirmək düzgündürmü? Əgər bir şəxs istixarə etdirsə, amma istixarəyə əməl etməsə, bunun hökmü nədir?**

**Cavab: Quran və ya təsbeh ilə istixarə etdirmək xüsusi işlərə aid deyildir, əksinə, hər bir mübah iş barəsində insanın tərəddüdü olduqda və bir qərara gələ bilmədikdə istixarə edə bilər. İstixarəyə əməl etmək şəri baxımdan vacib deyildir, baxmayaraq ki, istixarənin əksinə əməl etməmək yaxşıdır.**

**Sual 1437:** **İzdivac kimi taleyüklü işlərdə təsbeh və ya Quran ilə istixarə etmək olarmı?**

**Cavab: İnsan hansısa bir iş barəsində bir qərar vermək istədikdə, yaxşı olar ki, ilk öncə düşünüb daşınsın, yaxud təcrübəli və etibarlı insanlarla məsləhətləşsin. Əgər bundan sonra onun qərarsızlığı və tərəddüdü aradan getməzsə, istixarə edə bilər.**

**Sual 1438:** **Bir iş üçün neçə dəfə istixarə etmək düzgündür?**

**Cavab: İstixarə qərarsızlığı aradan qaldırmaqdan ötrü olduğuna görə, birinci istixarə ilə**

**qərarsızlıq aradan qalxdıqda yenidən istixarə etməyin mənası yoxdur. Amma əgər məsələ dəyişərsə, yenidən istixarə etmək olar.**

**Sual 1439:** **Bəzən İmam Rzanın (ə) möcüzələrini ehtiva edən yazıların ziyarətgahlarda və məscidlərdə ziyarət kitablarının arasına qoyularaq insanlar arasında yayıldığını görürük. Bunları yazıb yayan şəxs aşağıda qeyd edir ki, kim bu möcüzələri oxusa, hacətinə çatması üçün onu müəyyən sayda yazıb camaat arasında paylamalıdır. Bu söz düzgündürmü? Kim bu yazıları oxusa, bunları yazıb yayan şəxsin istəyinə əməl etməlidirmi?**

**Cavab: Bu işlərin düzgünlüyü barəsində şəri baxımdan bir dəlil mövcud deyildir. Bu yazıları oxuyan şəxs də bunları yazıb yayan şəxsin istəyinə əməl etmək vəzifəsini daşımır.**

## Əzadarlıq məclisləri

**Sual 1440:** Əksər bölgələrin, xüsusilə də, kəndlərin məscid və hüseyniyyələrində qədim bir ənənə kimi Kərbəla hadisələri səhnələşdirilərək nümayiş etdirilir (şəbihçıxarma). Bu səhnələrin nümayişi bəzən insanlar üzərində müsbət təsir qoyur. Bunun hökmü nədir?

**Cavab:** Əgər bu səhnələrin nümayişində yalan və əsassız mətləblərə yol verilməzsə və bu səhnələrin nümayişi fəsada səbəb olmazsa, həmçinin dövrün tələblərini nəzərə alaraq haqq məzhəbin əsaslarının süst və zəif göstərilməsinə səbəb olmazsa, maneəsi yoxdur. Amma bununla belə, yaxşı olar ki, bu səhnələrin nümayişi əvəzinə əzadarlıq məclislərində moizə deyilsin, İmam Hüseynin (ə) müsibətlərindən danışılsın, mərsiyyələr oxunsun.

**Sual 1441:** Əzadarlıq məclislərində və dəstələrin yürüşündə təbil, sinc və şeypurdan, həmçinin tikanlı zəncirlərdən istifadə etməyin hökmü nədir?

**Cavab:** Əgər tikanlı zəncirlərdən istifadə etmək insanlar qarşısında məzhəbin əsaslarının süst və zəif göstərilməsinə səbəb olarsa, yaxud bədənə ciddi bir ziyanı olarsa, bu zəncirlərdən istifadə etməyə icazə verilmir. Amma şeypur, təbil və sincdən adi qaydada istifadə etməyin maneəsi yoxdur.

**Sual 1442:** Matəm günlərində bəzi məscidlərdə çoxlu bahalı işləmələri olan bayraqlardan istifadə edilir. Bəzən bunun fəlsəfəsi barəsində dindarlarda sual yaranır. Bu, təbliğat proqramlarında xələl yaradır, hətta məscidin müqəddəs hədəfləri ilə ziddiyyət təşkil edir. Bu barədə şəri hökm nədir?

**Cavab:** Əgər bu bayraqları məsciddə qoymaq məscidin ürfi qaydalarına zidd olarsa, yaxud namazqılanlar üçün maneəçilik törədərsə, bunun maneəsi vardır.

**Sual 1443:** Əgər bir şəxs Seyyidüş-şühədanın (ə) əzadarlıq məclisi üçün bir bayraq nəzir etsə, hüseyniyyənin məsullarını onu qəbul etməkdən imtina edə bilərlərmi?

**Cavab:** Bu nəzir, hüseyniyyənin məsullarının və idarə heyətinin bu bayrağı qəbul etmələrini vacib etmir.

**Sual 1444:** Seyyidüş-şühədanın (ə) əzadarlıq məclislərində bayraqdan istifadə etməyin, belə ki, bayrağı məclisdə qoymaq və ya dəstələrin yürüşündə qaldırıb gəzdirməyin hökmü nədir?

**Cavab:** Bu işin öz-özlüyündə maneəsi yoxdur. Amma bu işlər dinin göstərişlərindən hesab olunmamalıdır.

**Sual 1445:** Əgər mükəlləf əzadarlıq məclislərində iştirak etdiyinə görə bəzi vacibatları əldən verərsə, məsələn, sübh namazını qəza edərsə, bundan sonra bu məclislərdə iştirak etməməsi daha yaxşıdır, yoxsa onun bu məclislərdə iştirak etməməsi Əhli-beytdən (ə) uzaq düşməsinə səbəb olar?

**Cavab:** Məlum məsələdir ki, vacib namaz Əhli-beytin (ə) əzadarlıq məclislərində iştirak etməyin fəzilətindən önəmlidir. İmam Hüseyn (ə) əzadarlığında iştirak etmək bəhanəsilə namazı tərk etmək və ya qəza etməyə icazə verilmir. Amma əzadarlıq məclislərində namaza maneəçilik törtməyəcək bir şəkildə iştirak etmək mümkündür və bu məclislərdə iştirak etmək təkid edilən müstəhəb əməllərdəndir.

**Sual 1446:** Bəzi dini heyətlərdə mötəbər tarixi mənbədə qeyd edilməyən, həmçinin heç bir alimdən və mərcəyi-təqliddən eşidilməyən Əhli-beyt (ə) müsibətlərinin mərsiyyələri oxunur. Mərsiyyəxandan bu hadisənin hansı mənbədə qeyd edildiyini soruşduqda belə cavab verir: "Bunları Əhli-beyt (ə) bizə çatdırmış və başa salmışdır. Kərbəla hadisələri yalnız tarixi mənbələrdə qeyd edilənlərdən və alimlərin danışdıqlarından ibarət deyildir. Əksinə, bəzi vaxtlar Hüseyn məddahı və ya xətibi üçün bəzi mətləblər ilham və mükaşifə yolu ilə aydın olur". Sualım budur ki, hadisələri bu yolla nəql etmək düzgündürmü, yoxsa yox? Əgər düzgün deyildirsə, dinləyicilərin vəzifəsi nədir?

**Cavab: Əgər nəql edilən hadisə heç bir hədisdə və ya tarixi mənbədə qeyd edilməyibsə, sözügedən yolla hadislərin nəql edilməsi şəri yol deyildir. Amma əgər məddah və ya xətib bu hadisələri öz qənaəti olaraq "zəbani-hal" (vəziyyəti bəyan etmək) ünvanında nəql edərsə və bunun həqiqətə zidd olduğunu bilməzsə, bu hal istisnadır. Dinləyicilərin vəzifəsi isə, "pis işlərdən çəkindirmək"dir, bu şərtlə ki, "pis işlərdən çəkindirmə"nin mövzusu və şərtləri onlar üçün öz təsdiqini tapmalıdır.**

**Sual 1447:** Hüseyniyyədən Quran qiraəti və İmam Hüseynin (ə) əzadarlıq məclisinin səsi səsucaldan vasitəsilə yayımlanır, belə ki, bu səs şəhər xaricində də eşidilir. Bu, hüseyniyyənin qonşuluğunda yaşayanların narahatlığına səbəb olur. Hüseyniyyənin məsulları və xətiblər isə bunun belə davam etməsində israrlıdırlar. Bu işin hökmü nədir?

**Cavab: Baxmayaraq ki, dini mərasimlərin və ayinlərin münasib zamanlarda hüseyniyyələrdə təşkil edilməsi ən yaxşı işlərdən və təkid edilən müstəhəb əməllərdəndir, amma mərasimi təşkil edənlər və əzadarlar qonşuluqda yaşayanlara narahatçılıq törətməkdən mümkün qədər çəkinməlidirlər. Məsələn, səsucaldanın səsini azalda və ya onun istiqamətini hüseyniyyənin daxilinə yönəldə bilərlər.**

**Sual 1448:** Məhərrəm ayının gecələrində əzadarlıq dəstələrinin təbil və ney çalaraq gecə yarısına qədər yürüş etmələri barəsində sizin nəzəriniz nədir?

**Cavab: Seyyidüş-şühəda (ə) və onun köməkçiləri üçün əzadarlıq dəstələrinin yürüş etmələri və bu kimi mərasimlərdə iştirak etmək olduqca bəyənilən bir əməldir və insanı Allaha yaxınlaşdıran ən böyük əməllərdəndir. Amma başqalarının narahatçılığına səbəb olan, yaxud şəri baxımdan öz-özlüyündə haram olan hər bir əməldən çəkinmək lazımdır.**

**Sual 1449:** Əzadarlıq məclislərində musiqi alətlərindən, məsələn, sintizatordan, sincdən və s. istifadə etməyin hökmü nədir?

**Cavab: Musiqi alətlərindən istifadə etmək Seyyidüş-şühədanın (ə) əzadarlıq məclisinə uyğun deyildir və yaxşı olar ki, əzadarlıq məclisi qədimdə təşkil olunduğu adi qaydada təşkil olunsun.**

**Sual 1450:** İmam Hüseynə (ə) əzadar olmaq ünvanında bədəni deşib qıfıl və çəki daşı asmağa icazə verilirmi?

**Cavab: Məzhəbin əsaslarını süst və zəif gösərən bu kimi işlərin görülməsinə icazə verilmir.**

**Sual 1451:** Əgər insan İmamların (ə) ziyarətgahlarında özünü yerə atsa və bəziləri kimi qan axana qədər üzünü və sinəsini yerə sürtsə, sonra bu vəziyyətdə hərəmə daxil olsa, bu əməlin hökmü nədir?

**Cavab: Kədəri izhar etmək, ənənəvi əzadarlıq və İmamlara (ə) sevgi hesab olunmayan bu kimi əməllər şəri baxımdan əsassızdır. Hətta əgər bədənə ciddi ziyanın dəyməsinə, yaxud məzhəbin əsaslarının süst və zəif göstərilməsinə səbəb olarsa, bu kimi əməllərə icazə verilmir.**

**Sual 1452:** **Bəzi bölgələrdə qadınlar "Həzrət Əbülfəzl (ə) süfrəsi" adlı mərasim təşkil edir və bəzi əməllər yerinə yetirirlər, yaxud "Xanım Fatimənin (ə) toy məclisi" adlı mərasim təşkil edir və bu mərasimdə toy şeirləri oxuyur, əl çalır, sonra da rəqs edirlər. Belə mərasimləri təşkil etməyin hökmü nədir?**

**Cavab: Əgər bu mərasimlərdə yalan və yanlış mətləblər deyilməzsə, həmçinin məzhəbin əsaslarının süst və zəif göstərilməsinə səbəb olmazsa, belə mərasimləri təşkil etməyin öz-özlüyündə maneəsi yoxdur. Amma rəqs etməyə gəlincə, bunun hökmü 1167-ci məsələdə qeyd edildi.**

**Sual 1453:** **İmam Hüseynin (ə) Aşura mərasimi üçün yığılan xərclərin artıq qalanı hansı yerə sərf edilməlidir?**

**Cavab: Qalan pulları hədiyyə verənlərin icazəsi ilə xeyriyyə işlərinə sərf etmək, yaxud gələn ilin əzadarlıq məclislərinə sərf etmək üçün saxlamaq olar.**

**Sual 1454:** **Məhərrəmlikdə xeyriyyəçi insanlardan pul yığmaq və onları paylara ayırıb bir qismini Quran qarisinə, mərsiyyəxana və dini söhbət edənə, digər qismini isə məclisin təşkil edilməsinə sərf etmək olarmı?**

**Cavab: Əgər mal sahiblərinin razılığı ilə olarsa, maneəsi yoxdur.**

**Sual 1455:** **Qadınlar hicablarını qoruyaraq və bədənlərini örtən xüsusi geyimlər geyinərək sinəzən və zəncirzən dəstələrində iştirak edə bilərlərmi?**

**Cavab: Qadınların sinəzən və zəncirzən dəstələrində iştirak etmələri bəyənilmir.**

**Sual 1456:** **Əgər İmamların (ə) əzadarlığında qəmə vurmaq insanın ölümünə səbəb olarsa, bu əməl intihar hesab olunurmu?**

**Cavab: Əgər bu əməl adətən ölümlə nəticələnmirsə, intihar hökmünü daşımır. Amma əgər elə əvvəlcədən insan üçün həyat təhlükəsi qorxusu mövcud olarsa və bununla belə, o, bu əməli yerinə yetirərsə və bu əməl onun ölümü ilə nəticələnərsə, intihar hökmünü daşıyır.**

**Sual 1457:** **İntihar edərək dünyasını dəyişən bir müsəlmanın yas məclisində iştirak etmək olarmı? Onun qəbri üstündə Fatihə oxumağın hökmü nədir?**

**Cavab: Bu işin öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1458:** **İmamların (ə) mövlud bayramlarında və Məbəs bayramında dinləyiciləri qəhərləndirən və onların ağlamalarına səbəb olan şeirləri və mədhiyyələri oxumağın hökmü nədir? Bu məclis iştirakçılarının başına pul tökməyin hökmü nədir?**

**Cavab: Dini bayramlarda şeirlər və mədhiyyələr oxumağın maneəsi yoxdur. Məclis iştirakçılarının başına pul tökməyin də maneəsi yoxdur. Hətta əgər sevinci izhar etmək və möminlərin qəlbini şad etmək məqsədilə olarsa, bu işin savabı vardır.**

**Sual 1459:** **Əgər qadın bilsə ki, naməhrəm kişilər onun səsini eşidirlər, o, əzadarlıq məclislərində mərsiyyə oxuya bilərmi?**

**Cavab: Əgər fəsad qorxusu olarsa, bu işdən çəkinməlidir.**

**Sual 1460:** **Aşura günü qəmə vurmaq, ayaqyalın oda və yanar közə daxil olmaq kimi mərasimlər təşkil edilir. Bu, İslam məzhəblərinin alimləri və ardıcılları, həmçinin dünya ictimaiyyətinin nəzərində şiə məzhəbinin pis ad çıxarmasına səbəb olmaqla yanaşı, bu işləri görən insanlara cismi və ruhi zərərlər də vurur. Eləcə də, məzhəbi alçaltmaq hesab olunur. Sizin bu barədə nəzəriniz nədir?**

**Cavab: İnsana zərər yetirən, yaxud din və məzhəbin əsaslarının süst və zəif göstərilməsinə**

**səbəb olan hər bir iş haramdır. Möminlər belə işlərdən çəkinməlidirlər. Gizli deyildir ki, bu işlərin əksəriyyəti Əhli-beyt (ə) məzhəbinin pis ad çıxarmasına və məzhəbin əsaslarının süst və zəif göstərilməsinə səbəb olur. Bu isə ən böyük zərər və xəsarətdir.**

**Sual 1461:** **Gizli şəkildə qəmə vurmaq halaldırmı? Yoxsa sizin fətvanız ümumidir?**

**Cavab: Qəmə vurmaq həm ürfə görə kədər və hüznün təzahürlərindən hesab olunmur, həm də İmamların (ə) dövründə və sonrakı dövrlərdə bu iş yerinə yetirilməmişdir və bu barədə heç bir Məsumdan (ə) nə xüsusi, nə də ümumi şəkildə bir dəlil-sübut əlimizə gəlib çatmamışdır. Bundan əlavə, hazırkı dövrdə bu iş məzhəbin əsaslarının süst və zəif göstərilməsinə və məzhəbin pis ad çıxarmasına səbəb olur. Buna görə də, bu işə heç bir şəkildə icazə verilmir.**

**Sual 1462:** **"Zərər"in – istər cismi zərər, istərsə də ruhi zərərin - şəri meyarı nədir?**

**Cavab: Meyar, ürfdə etina olunacaq zərərdir.**

**Sual 1463:** **Bəzi müsəlmanların etdikləri kimi bədənə zəncir vurmağın hökmü nədir?**

**Cavab: Əgər adi qaydada olarsa və ürfə görə əzadarlıqda hüzn və kədərin izharı hesab olunan bir şəkildə olarsa, bunun maneəsi yoxdur.**

## Mövludlar və bayramlar

**Sual 1464:** **Qədir-xum bayramı günündən qeyri günlərdə qardaşlıq əhd-peymanı bağlamaq olarmı?**

**Cavab: Bu işin yalnız mübarək Qədir-xum bayramı günündə icra edilməli olması məlum deyildir, baxmayaraq ki, bu gündə icra edilməsi daha münasib və əhvətə müvafiqdir.**

**Sual 1465:** **Qardaşlıq əhd-peymanı məlum cümlələri söyləməklə icra olunmalıdırmı, yoxsa onu istənilən dildə icra etmək düzgündür?**

**Cavab: Bunun üçün hədislərdə xüsusi cümlələr qeyd edilməyibdir.**

**Sual 1466:** **Novruz bayramı barəsində sizin nəzəriniz nədir? Müsəlmanların böyük əhəmiyyət verdikləri bayramlar kimi - məsələn, Fitr və Qurban bayramları kimi - şəri baxımdan öz təsdiqini tapıbdırmı, yoxsa cümə və ya başqa günlər kimi yalnız mübarək bir gün hesab olunur?**

**Cavab: Baxmayaraq ki, Novruz bayramının dini bayramlardan və mübarək dini günlərdən olması barədə mötəbər bir hədis əlimizə gəlib çatmayıbdır, amma bu günü bayram olaraq qeyd etməyin və qohum-qonşuya gedib-gəlməyin maneəsi yoxdur, hətta qohumlarla əlaqə saxlamaq baxımından bəyənilən bir işdir.**

**Sual 1467:** **Novruz bayramı, onun fəziləti və əməlləri barəsində qeyd olunanlar düzgündürmü? Bu əməlləri (namaz, dua və başqa əməlləri) "qəsdi-vurud"[1] ilə yerinə yetirmək olarmı?**

**Cavab: Bu əməlləri "qəsdi-vurud" ilə yerinə yetirmək məhəlli-işkaldır[2]. Amma onları "qəsdi-rəca"[3] və bəyənilən bir əməl niyyətilə yerinə yetirməyin maneəsi yoxdur.**

---

[1] Qəsdi-vurud - bir əməlin hədislərdə müstəhəb əməl olaraq gəldiyini niyyət etmək.

[2] Məhəlli-işkal – yəni maneəsi vardır və bu məsələyə fətva vermək olmur. (Təqlid edən şəxs bu məsələdə sonrakı müctəhidə müraciət edə bilər.)

[3] Qəsdi-rəca - Mütəal Allahın göstərişi və ya qadağası olduğunu ehtimal verərək hansısa bir əməli yerinə yetirməyi və ya tərk etməyi niyyət etmək.

## İhtikar[1] və israf

**Sual 1468:** **Hansı məhsulları ihtikar etmək şəri baxımdan haramdır? Sizin nəzərinizə görə, möhtəkirləri[2] maddi cərimə etmək olarmı?**

**Cavab: Hədislərə istinadən və məşhur nəzərə görə, yalnız dörd qida məhsulunu (arpa, buğda, kişmiş, xurma), həmçinin heyvan və bitki mənşəli yağları ihtikar etmək haramdır, belə ki, cəmiyyətin müxtəlif təbəqələrinin bunlara ehtiyacı vardır. Amma ümumi məsləhət tələb etdiyi təqdirdə İslam hökuməti camaatın ehtiyacı olan başqa malların ehtikar edilməsinin də qarşısını almaq hüququ daşıyır. Həmçinin şəri-hakim münasib bildiyi təqdirdə, möhtəkiri maddi cərimə etməyin maneəsi yoxdur.**

**Sual 1469:** **Deyilir ki, otağı ehtiyacdan artıq miqdarda işıqlandırmaq üçün işıq enerjisindən istifadə etmək israf sayılır. Bu söz düzgündürmü?**

**Cavab: Heç şübhəsiz, ehtiyacdan artıq miqdarda hər bir şeydən, o cümlədən, işıq enerjisindən və lampa işığından istifadə etmək israf sayılır. Düzgün olan söz, Həzrət Peyğəmbərin (s) buyurduğu bu kəlamdır: "لا سَرَفَ فی خیر". Yəni: "Xeyir işdə israf yoxdur".**

---

[1] İhtikar - qiymətinin artması məqsədilə camaatın ehtiyacı olan malları (məsələn, qida məhsullarını) anbara yığıb saxlamaq, bir halda ki, başqa mərkəzlər həmin malı bazarda satışa çıxarmır.

[2] Möhtəkir - camaatın ehtiyacı olan malları anbara yığıb saxlayan şəxs.

# Alğı-satqı və sövdələşmənin[1] hökmləri

[1] Müamilə - yəni alğı-satqı, ticarət.

## Əqdin şərtləri

**Sual 1470: İstər alğı-satqıda, istər başqa sövdələşmələrdə olan "muatat sövdələşməsi"nə[1] "əqd sövdələşməsi" kimi əməl olunmalıdırmı?**

**Cavab: Sövdələşməyə əməl etmək baxımından "əqd sövdələşməsi" ilə "muatat sövdələşməsi" arasında fərq yoxdur.**

**Sual 1471: Əgər torpaq sahəsi və ev ailə üzvləri arasında "sövdələşmə" və ya "müsaliha"[2] yolu ilə əlyazma olan adi bir sənədlə, rəsmi qeydiyyata salınmadan və bir din alimi tərəfindən sövdələşmənin xüsusi cümlələri oxunmadan satılıb-alınarsa, bu sövdələşmə şəriət və qanun baxımından düzgündürmü?**

**Cavab: Sövdələşmə şəri qaydada baş tutduqda düzgün sayılır və ona əməl olunmalıdır. Sövdələşmənin rəsmi qeydiyyata salınmaması və xüsusi cümlələrin oxunmaması onun düzgünlüyünə xələl gətirmir.**

**Sual 1472: Rəsmi sənədi olan bir mülkü adi sənədlə, habelə, bu mülkün rəsmi sənədini alıcının adına qeydiyyata salmadan almağa şəri baxımdan icazə verilirmi?**

**Cavab: Alğı-satqının reallaşmasında rəsmi sənədin tənzimlənməsi və qeydiyyata salınması şərt deyildir. Meyar, şəri baxımdan düzgün olan şəkildə malın mal sahibi, ya onun vəkili, ya qəyyumu tərəfindən alıcıya ötürülməsidir, baxmayaraq ki, bu barədə ümumiyyətlə bir sənəd tənzimlənməmişdir.**

**Sual 1473: Satıcı və alıcı arasında sadəcə adi bir sənədin tənzimlənməsi sövdələşmənin reallaşması üçün kifayət edirmi və onun sənədi sayılırmı? Sövdələşmə müqaviləsini yerinə yetirməkdə tərəflərin niyyətli olması, habelə, satıcının rəsmi sənəd tənzimləməsi və satılan malı alıcıya təhvil verməsi öhdəliyi sövdələşmənin reallaşması üçün kifayət edirmi?**

**Cavab: Sadəcə sövdələşmə niyyətində olmaq və ya bu barədə adi bir sənədin tənzimlənməsi sövdələşmənin reallaşması və satılan malın mülkiyyət hüququnun alıcıya keçməsi üçün kifayət etmir. Sövdələşmə şəri baxımdan düzgün qaydada baş tutmayana qədər, alıcının adına rəsmi sənədin tənzimlənməsinə və mal sahibi tərəfindən malın təhvil alınması barəsində tələbinə lüzum yoxdur.**

**Sual 1474: İki nəfər bir sövdələşmə barəsində söhbətləşir və razılığa gəlirlər. Alıcı müəyyən məbləğ pulu beh ünvanında satıcıya verir və bu sövdələşmə barəsində yazılı sənəd tənzimləyirlər. Bu sənəddə şərt olaraq qeyd edirlər ki, əgər onlardan biri sövdələşməni başa çatdırmaqdan boyun qaçırsa, müəyyən məbləğ pulu qarşı tərəfə verməlidir. Bu sənəd təklikdə sövdələşmə sənədi hesab olunurmu? Başqa sözlə, sövdələşmə barəsində tərəflərin sadəcə razılığı və istəyi sövdələşmənin və onun nəticələrinin reallaşması üçün kifayət edirmi? Beləliklə də, onlardan biri sövdələşməni başa çatdırmaqdan boyun qaçırdığı təqdirdə, qarşı tərəf onu sözügedən şərtə əməl etməyə məcbur etmək hüququna malik olurmu?**

**Cavab: Sadəcə sövdələşmə niyyətində olmaq və ya bu barədə razılığa gəlmək və ya bunu yerinə yetirməyi vəd etmək sövdələşmə hesab olunmur və onun reallaşması üçün kifayət etmir, baxmayaraq ki, tərəflər bu barədə yazılı sənəd tənzimləmişlər. Əgər hər hansı bir şərt əqd və sövdələşmə əsnasında qeyd edilməzsə, yaxud əqd bu şərt əsasında bağlanmazsa, bu şərtin heç bir etibarı yoxdur. Buna görə də, əgər sövdələşmə və malın alıcıya ötürülməsi şəri baxımdan düzgün qaydada baş tutmasa, sövdələşmə barəsində razılığa gəlmək və ya**

**sövdələşməni vəd etmək baxımından tərəflərdən heç birinin digəri üzərində haqq-hüququ olmayacaqdır.**

---

[1] Bu növ müamilədə tərəflər müamilənin xüsusi cümlələrini oxumadan biri öz malını digərinə verir.

[2] Müsalihə etmək - yəni tərəflərin razılığa gəlmələri.

## Alıcı və satıcının şərtləri

**Sual 1475:** **Əgər bir şəxs dövlət tərəfindən və ya şəri-hakimin hökmü ilə öz torpağını və ev əşyalarını satmağa vadar edilərsə, bunu bilən başqa bir şəxs sözügedən əşyaları ondan ala bilərmi?**

**Cavab: Əgər bu şəxsin öz torpağını və ev əşyalarını satmağa vadar edilməsi haqlı olarsa və bu iş şəri baxımdan səlahiyyətli şəxs tərəfindən həyata keçirilərsə, başqalarının sözügedən əşyaları ondan almalarının maneəsi yoxdur. Əks təqdirdə, sövdələşmənin düzgünlüyü bu şəxsin sonradan sövdələşməyə icazə verməsi ilə şərtlənir.**

**Sual 1476:** **Zeyd öz mülkünü Əmrə satır və pulunu alır. Sonra Əmr həmin mülkü Xalidə satır və pulunu alıb öz xərclərinə sərf edir. Bundan sonra Zeydin əmlakının müsadirə olunmasına dair hökm çıxarılır. Bu hökm Zeydin qabaqcadan satdığı mülkə də şamil olurmu və bu mülkün satışının düzgün olmadığı aşkar olurmu?**

**Cavab: Əgər məlum olsa ki, sövdələşmə zamanı satıcının əmlakının müsadirə olunmasına dair şəri-hakimin hökmü var imiş və onun həmin mülkü satmağa haqqı yox imiş, yaxud bu mülk onun əlində və istifadəsində olsa da onun sahibi deyilmiş, əksinə, satılan şey şəri-hakimin müsadirə edəcəyi şeylərdən imiş, sövdələşmədən sonra çıxarılan müsadirə hökmü satılan həmin mülkə də şamil olur və hökm çıxarılmamışdan qabaq baş tutan sövdələşmənin düzgün olmadığına hökm verilir. Əks təqdirdə, əmlakın müsadirəsi hökm çıxarılmamışdan qabaq baş tutan sövdələşməyə şamil olmur və düzgündür.**

**Sual 1477:** **İctimai əlaqələrin mürəkkəbliyi, iqisadi və ictimai çətinliklər bəzən insanları ziyanlı və ədalətsiz, yaxud ən azı ürfdə qınanılan sövdələşmələr etmək məcburiyyətində qoyur. "Məcburiyyət" şəri baxımdan sövdələşmənin pozulmasına səbəb olurmu, yoxsa yox?**

**Cavab: Məcburiyyət, razılıqla yanaşı olan alğı-satqının və ya başqa sövdələşmələrin düzgünlüyünə və keçərliliyinə fiqh baxımından xələl gətirmir. Amma əxlaqi və insani baxımdan qarşı tərəf, çıxılmaz vəziyyətə düşən şəxs üçün yaranan vəziyyətdən sui-istifadə etməməlidir.**

## Füzuli sövdələşmə[1]

**Sual 1478:** **Mən əkin sahəsinin bir hissəsini qardaşımdan “şərt sövdələşməsi”[2] şəklində almışam. Amma qardaşım həmin hissəni yenidən başqa bir şəxsə satıbdır. Onun ikinci sövdələşməsi düzgündürmü?**

**Cavab: Əgər birinci sövdələşmə şəri baxımdan düzgün qaydada baş tutubsa, birinci sövdələşməni pozmadan satıcının həmin yeri başqa bir şəxsə satmaq haqqı yoxdur. Əgər bu işi görərsə, ikinci sövdələşmə “füzuli”dir və (sövdələşmənin düzgünlüyü) birinci alıcının icazəsinə bağlıdır.**

**Sual 1479:** **Bir kooperativ şirkətin üzvləri yaşayış üçün torpaq sahəsi almış və onun pulunu özləri ödəmişlər, amma torpaq sahəsinin sənədi şirkətin adına rəsmi qeydiyyata salınıbdır. Torpaq sahəsinin alışında və pulunun ödənilməsində iştirakı olmayan şirkətin idarə heyəti bu yaxınlarda şirkətin üzvləri olmuş və əvvəlki üzvlərin razılığını əldə etmədən sözügedən torpaq sahəsini onun həqiqi qiymətindən aşağı qiymətə satmışlar. Bu sövdələşməyə icazə verilirmi?**

**Cavab: Əgər müəyyən şəxslər özlərinin pulu ilə bir torpaq sahəsini özləri üçün alıblarsa, bu torpaq sahəsi onların mülküdür və başqalarının onda heç bir haqqı yoxdur. Bu torpaq sahəsinin sahiblərinin icazəsi olmadan şirkətin idarə heyətinin onu başqalarına satmaları “füzuli sövdələşmə”dir. Amma əgər şirkətin əvvəlki üzvləri bu torpaq sahəsini “hüquqi şəxs” sayılan həmin şirkətin sərmayəsi ilə şirkətin özü üçün almışlarsa, bu torpaq sahəsi kooperativ şirkətin əmlakı hesab olunacaqdır. Belə olduğu təqdirdə, şirkətin idarə heyəti şirkətin qanunları əsasında ondan yararlana bilərlər.**

**Sual 1480:** **Bir şəxs səfərə gedərkən evini satmaqda qardaşını özünə rəsmi vəkil edir. Qardaşı bu evi hətta özünə də sata bilərdi. Amma bu şəxs səfərdən qayıtdıqdan sonra evini satmaq qərarından dönür və qərarından döndüyünü şifahi şəkildə qardaşına məlumat verir. Amma qardaşı sözügedən rəsmi vəkilliyi əsas götürüb evi öz adına qeydiyyata salır, halbuki, vəkil tutan şəxsə (yəni qardaşına) nə evin pulunu vermişdir, nə də evi ondan təhvil almışdır. Bu sövdələşmə düzgündürmü?**

**Cavab: Əgər məlum olsa ki, vəkil vəkillikdən çıxarıldığı barədə - hətta şifahi şəkildə - məlumat aldıqdan sonra evi özünə satmışdır, sövdələşmə füzulidir və onun düzgünlüyü vəkil tutan şəxsin icazəsinə bağlıdır.**

**Sual 1481:** **Əgər mal sahibi öz malını bir şəxsə satsa, sonra birinci sövdələşməni pozmağa haqqı olmadığı halda həmin malı yenidən başqa bir şəxsə satsa, onun bu sövdələşməsi düzgündürmü? Əgər satılan mal onun əlində olsa, ikinci alıcı ikinci sövdələşməyə əsaslanaraq onu tələb edə bilərmi?**

**Cavab: Malın birinci satışı başa çatdıqdan sonra birinci alıcının icazəsi olmadan onu yenidən başqa bir şəxsə satmaq füzuli sövdələşmədir və sövdələşmənin düzgünlüyü birinci alıcının icazəsinə bağlıdır. Əgər o, ikinci sövdələşməyə icazə verməzsə, malı harada görsə, götürə bilər. İkinci alıcının bu malı satıcıdan tələb etməyə haqqı yoxdur.**

**Sual 1482:** **Bir şəxs bir torpaq sahəsini başqa bir şəxsin pulu ilə almışdır. Bu torpaq sahəsi onun mülkü sayılır, yoxsa pul sahibinin mülkü sayılır?**

**Cavab: Əgər torpaq sahəsini başqa şəxsin birbaşa pulu ilə alıbdırsa, pul sahibi sövdələşməyə icazə verdiyi təqdirdə, sövdələşmə onun tərəfindən baş tutmuşdur və alıcının bu torpaq sahəsində heç bir haqqı yoxdur. Yox əgər icazə verməzsə, sövdələşmə**

pozulmuşdur və düzgün deyildir. Amma əgər alıcı torpaq sahəsini özü üçün və (onun pulunu ödəyəcəyini) boynuna götürərək alarsa, sonra onun pulunu başqa şəxsin pulu ilə ödəyərsə, bu halda torpaq sahəsi alıcının mülkü olacaqdır, amma onun pulunu satıcıya borcludur. Həmçinin satıcıya verdiyi o şəxsin puluna da zamindir. Satıcı da ilk əvvəldə torpaq sahəsinin dəyəri ünvanında aldığı pulu pul sahibinə qaytarmalıdır.

**Sual 1483:** **Əgər bir şəxs başqa bir şəxsin malını füzuli sövdələşmə olaraq satarsa və pulunu alıb öz ehtiyaclarına sərf edərsə, uzun müddət keçdikdən sonra isə bu malın əvəzini mal sahibinə vermək istəyərsə, malın satışından əldə etdiyi məbləğdə pulu ona verməlidir, yoxsa malın o dövrdə olan qiymətini və ya əvəzini vermək istədiyi gündə olan qiymətini verməlidir?**

Cavab: Əgər mal sahibi sövdələşmənin özünə icazə verdikdən sonra malın pulunu təhvil almasına da icazə verərsə, malın qiyməti ünvanında alıcıdan aldığı həmin məbləğdə pulu mal sahibinə verməlidir. Yox əgər mal sahibi sövdələşmənin özünü rədd edərsə, mümkün olduğu təqdirdə malın özünü mal sahibinə qaytarmalıdır. Mümkün olmadığı təqdirdə isə, malın əvəzini – istər onun oxşarını, istərsə də dəyərini – mal sahibinə verməlidir. (Malın dəyərini verdiyi təqdirdə) əhvət budur ki, sövdələşmə günü ilə malın dəyərini verdiyi günün qiymət fərqi barəsində mal sahibi ilə müsalihə etsin.

---

[1] Şəxsin icazəsi olmadan onun tərəfindən edilən müamilə.

[2] Şərt müamiləsi – Bu müamilə əqdinin mətnində şərt olaraq qeyd edilir ki, əgər müəyyən müddət ərzində satıcı malın pulunun hamısını və ya bir hissəsini alıcıya qaytararsa, satıcının müamiləni pozmaq ixtiyarı vardır.

## Əmlakdan istifadə etmək zəminində qəyyumlar

**Sual 1484:** Əgər ata öz azyaşlı övladları üçün bir mal alarsa və sövdələşmə əqdinin şəri ifadələri də söylənilərsə, öz övladları üzərində olan qəyyumluğu əsasında atanın satılan malı təhvil alması ilə sövdələşmə reallaşırmı?

**Cavab: Atanın öz azyaşlı övladları üçün sövdələşməsi düzgün şəkildə baş tutduqdan sonra azyaşlı övladları üzərində olan qəyyumluğu əsasında atanın satılan malı təhvil alması, sövdələşmənin hökmlərinin qüvvədə olması üçün kifayət edir.**

**Sual 1485:** Mən uşaq ikən mənim qəyyumum mənim torpaq sahəmi satmış və alıcıdan beh ünvanında müəyyən məbləğdə pul almışdır. Mən onlar arasında sövdələşmənin başa çatıb-çatmadığını bilmirəm, amma torpaq sahəsi daimi surətdə alıcının ixtiyarındadır və ondan istifadə etməkdədir. Bu sövdələşmə düzgündürmü və mənim üçün də keçərli sayılırmı? Yoxsa mən mülkün həqiqi sahibi olaraq torpaq sahəsini alıcıdan geri ala bilərəm?

**Cavab: Əgər məlum olsa ki, sizin şəri qəyyumunuz sizin torpaq sahənizi o dövrdə sizin üzərinizdə olan qəyyumluğu əsasında satmışdır, sövdələşmə şəri baxımdan düzgündür. Hal-hazırda həmin sövdələşmənin pozulduğu sübuta yetməyənədək sizin torpaq sahəsini geri almağa haqqınız yoxdur.**

**Sual 1486:** Əgər mərhumun əmlakından müəyyən miqdar nağd pul qalarsa və qəyyum (azyaşlı varislərin qəyyumu) onu özündə saxlayıb dövriyyəyə buraxmazsa, pulun gəliri bankların verdiyi məbləğdə (məsələn, 13%), yaxud bazarda və camaat arasında olan adi məbləğdə qəyyumun öhdəsindədirmi? Əgər o, sözügedən pul ilə ticarət edərsə və məlum olmayan məbləğdə gəlir əldə edərsə, bunun hökmü nədir?

**Cavab: Qəyyum azyaşlı uşaqların əmlakının qeyri-faktiki gəlirinə zamin deyildir. Amma əgər o, azyaşlı uşaqların əmlakı ilə ticarət edərsə, əldə edilən gəlirin hamısı o uşaqlara aiddir və qəyyuma onların əmlakı ilə ticarət etməyə şəri baxımdan icazə verildiyi təqdirdə, qəyyuma ancaq gördüyü işin ücrətül-misli düşür.**

**Sual 1487:** Həyatda olan və hüququndan məhrum edilməyən bir şəxsin kürəkəni və övladları bu şəxsin əmlakını ondan icazə almadan və bu şəxs onlara vəkillik vermədən sata bilərlərmi?

**Cavab: Başqasının əmlakını onun icazəsi olmadan satmaq füzuli sövdələşmədir və sövdələşmənin düzgünlüyü onun icazəsinə bağlıdır, baxmayaraq ki, satıcı əmlak sahibinin kürəkəni və ya övladlarıdır. Buna görə də, əmlak sahibi icazə verməyənədək sövdələşmənin hökmləri bu sövdələşmə barəsində qüvvədə deyildir.**

**Sual 1488:** Bir şəxs beyin infarktı keçirmiş və əsəb pozuntusuna düçar olmuşdur. Bu halda onun övladları onun əmlakından hansı şəkildə istifadə edə bilərlər? Şəri-hakimin və digər övladların icazəsi olmadan övladlardan birinin bu əmlakdan istifadə etməsinin hökmü nədir?

**Cavab: Əgər bu şəxsin əsəb pozuntusu ürfdə dəli hesab olunacaq bir həddə olsa, onun və əmlakının qəyyumu şəri-hakimdir. Şəri-hakimin icazəsi olmadan onun əmlakından heç kim, hətta övladları istifadə edə bilməzlər. Əgər şəri-hakimdən icazə almadan onun əmlakından istifadə etsələr, qəsb hesab olunur və istifadə etdikləri şeyə zamindirlər. Bu əmlak ilə əlaqədar edilən sövdələşmələr füzulidir və şəri-hakimin icazəsinə bağlıdır.**

**Sual 1489:** Əgər bir şəxs şəhidin həyat yoldaşı ilə ailə qursa və onun başçılığını öhdəsinə götürsə, bu halda onun özü, övladları və həyat yoldaşı (yəni şəhid övladlarının anası) şəhid övladlarına Şəhid Fondunun verdiyi pul ilə alınan şeylərdən istifadə edə bilərlərmi? Şəhid övladlarına verilən təqaüddən və Şəhid Fondunun ərzaq-əşya və ya nağd pul şəklində göstərdiyi yardımlardan hansı şəkildə istifadə olunmalıdır? Bunları ayırmaq və dəqiq şəkildə yalnız şəhid övladlarına sərf etmək lazımdırmı?

**Cavab: Şəhidin azyaşlı övladlarına aid olan əmlakdan onların dolanışıq xərclərinə və ya başqalarına sərf etmək üçün – hətta azyaşlı uşaqların məsləhətinə və xeyrinə olsa belə - onların şəri qəyyumundan icazə alınmalıdır.**

**Sual 1490:** Şəhidin dostları şəhid ailəsinin görüşünə gedərkən ailəyə verdikləri hədiyyələrin hökmü nədir? Bu hədiyyələr şəhid övladlarının əmlakı hesab olunurmu?

**Cavab: Əgər hədiyyələr şəhid övladlarına verilərsə, şəri qəyyum onları qəbul etdiyi təqdirdə şəhid övladlarının əmlakı hesab olunur və başqalarının bunlardan istifadə etmələri uşaqların şəri qəyyumunun icazəsinə bağlıdır.**

**Sual 1491:** Atamın bir mağazası var idi və o, vəfat etdikdən sonra əmilərim oranı işlədir, bizə icarə pulu verirdilər. Bir müddətdən sonra anam – belə ki, o bizim qəyyumumuz idi - əmilərimin birindən müəyyən məbləğ pul borc aldı. Əmilərim də icarə pulunu verdikləri borcdan çıxırlar və icarə pulunu vermirlər. Daha sonra "büluğ yaşına çatanadək azyaşlı uşaqların əmlakının qorunub saxlanılması"na dair qanunun ziddinə olaraq həmin mağazanı anamdan satın aldılar və sövdələşmə əvvəlki hökumətin dövründə bəzi hökumət adamlarının köməkliyi ilə rəsmi şəkildə həyata keçirilib başa çatdı. Hal-hazırda bizim vəzifəmiz nədir? Sözügedən istifadələr və sövdələşmə düzgündürmü, yoxsa bu sövdələşməni pozmağa şəri baxımdan bizim haqqımız vardır? Azyaşlı uşağın haqqı zamanın keçməsi ilə aradan gedirmi?

**Cavab: Mağazanın icarəyə verilməsi, icarə pulunun verilən borcdan çıxılması, həmçinin mağazanın satılması şəri baxımdan düzgündür. Amma əgər şəri və qanuni yolla sübuta yetsə ki, həmin dövrdə azyaşlı uşaqların əmlakının satılması onların məsləhətinə deyilmiş, yaxud onların qəyyumu bu əmlakı sata bilməzmiş, uşaqlar büluğ yaşına çatdıqdan sonra bu sövdələşməyə icazə vermədikləri təqdirdə sövdələşmə pozulmuş hesab olunur. Sövdələşmə pozulduğu sübuta yetdiyi təqdirdə, zamanın keçməsi azyaşlı uşaqların haqqının aradan getməsinə səbəb olmur.**

**Sual 1492:** Ərim yol qəzasında dünyasını dəyişmişdir. Maşının sürücüsü onun dostlarından biri idi. Mən azyaşlı övladlarımın şəri və qanuni qəyyumu oldum. Sualım budur:
1) Mən sürücüdən diyə (qanbahası), yaxud sığorta məsələsini həll etməsini tələb etməliyəmmi?
2) Uşaqlara aid əmlakdan onların atasının yas məclisini keçirmək üçün istifadə edə bilərəmmi?
3) Mən diyə barəsində övladlarımın haqqından keçə bilərəmmi?
4) Əgər onların haqqından keçsəm və onlar büluğ yaşına çatdıqdan sonra buna razı olmasalar, mən diyəyə zaminəmmi?

**Cavab:**
**1) Əgər sürücü və ya başqa bir fərd şəri baxımdan diyəyə zamindirsə, siz azyaşlı uşaqların qəyyumu olaraq, onların haqqını diyəyə zamin olan şəxsdən tələb edərək qorumalısınız. Həmçinin sığorta məsələsində əgər uşaqlar qanuna müvafiq olaraq belə bir haqqa malikdirlərsə, eyni vəzifəni daşıyırsınız.**
**2) Uşaqların əmlakından onların atasının yas məclisində istifadə etməyə - hətta bu əmlak atadan onlara irs çatmış olsa belə - icazə verilmir.**
**3 və 4) Uşaqların haqqından keçmək onların məsləhətinə və xeyrinə olmadığına görə, uşaqların haqqından keçməyə icazə verilmir. Onlar büluğ yaşına çatdıqdan sonra diyəni**

tələb edə bilərlər.

**Sual 1493:** Ərim vəfat etmiş və onun bir neçə azyaşlı övladı qalmışdır. Məhkəmənin qərarı ilə uşaqların ata tərəfdən olan babası onların hamısının qəyyumu olmuşdur. Əgər övladlarımdan biri büluğ yaşına çatsa, öz qardaşlarının qəyyumu olurmu? Əgər olmazsa, mənim öz övladlarımın qəyyumu və başçısı olmaq haqqım varmı? Digər tərəfdən uşaqların babası məhkəmə qərarı ilə mərhumun əmlakının altıda birini götürmək niyyətindədir. Bu məsələnin hökmü nədir?

Cavab: Azyaşlı uşaqlar büluğ və yetkinlik yaşına çatanadək onların qəyyumu ata tərəfdən olan babasıdır və bu xüsusda məhkəmə qərarına ehtiyac yoxdur. Amma ata tərəfdən olan babanın azyaşlı uşaqların əmlakından istifadə etməsi uşaqların məsləhətinə və xeyrinə müvafiq olmalıdır. Əgər o, azyaşlı uşaqların məsləhətinə zidd olan bir iş görərsə, onlar məsələnin araşdırılması üçün məhkəməyə müraciət etmək hüququna malikdirlər. Uşaqlardan biri büluğ və yetkinlik yaşına çatdıqda ata tərəfdən olan babanın qəyyumluğundan çıxır və öz işlərinin ixtiyar sahibi olur. Amma nə onun özü, nə də anası digər uşaqların qəyyumu olmur. Uşaqların atasının əmlakının altıda biri onların ata tərəfdən olan babasına irs çatdığı üçün ata tərəfdən olan babanın mərhumun əmlakının altıda birini özünə götürməsinin manəesi yoxdur.

**Sual 1494:** Atası, anası və üç azyaşlı övladı olan ərli bir qadın qətlə yetirilmiş və məhkəmə hökm çıxarmışdır ki, onun qatili öz qaynıdır və qan sahiblərinə diyə verməlidir. Amma azyaşlı uşaqların atası – belə ki, o, uşaqların həm də şəri qəyyumudur – öz qardaşını qatil hesab etmir və buna görə də, öz qardaşından özü və övladları üçün diyə almaqdan imtina edir. Atanın bu işi görməsinə icazə verilirmi? Həmçinin azyaşlı uşaqların atası və ata tərəfdən olan babası həyatda olduğu halda, başqa bir şəxsin hər hansı bir ünvanda bu işə dəxalət etmək və uşaqların əmisindən onlar üçün diyə alınmasına təkid etmək haqqı vardırmı, yoxsa yoxdur?

Cavab:
1) Əgər azyaşlı uşaqların atası əmin olsa ki, həyat yoldaşının qətlində ittiham olunan qardaşı həqiqətən qatil deyildir və diyə onun boynunda deyildir, ondan diyə ala bilməz və azyaşlı uşaqların haqqını almaq ünvanında ondan diyə tələb edə bilməz.
2) Uşaqların qəyyumu olan ata və ya ata tərəfdən olan babası həyatda olduğu halda, başqa bir şəxsin bu uşaqların işlərinə müdaxilə etmək haqqı yoxdur.

**Sual 1495:** Əgər qətlə yetirilən şəxsin uşaqlarının hamısı azyaşlıdırsa və onlar üçün təyin edilən qəyyum qan sahiblərindən deyildirsə, bu qəyyum qatili əvf edə, yaxud qisası diyəyə dəyişdirə bilərmi?

Cavab: Əgər şəri qəyyumun səlahiyyətləri təyin edilən qəyyuma həvalə olunubsa, bu qəyyum azyaşlı uşaqların məsləhət və mənafeyinə riayət edərək qatilin əfvinə və ya qisasın diyəyə dəyişdirilməsinə qərar verə bilər.

**Sual 1496:** Azyaşlı bir uşağın bankda müəyyən məbləğdə pulu vardır. Uşağın qəyyumu onun üçün ticarət etmək və onun xərclərini təmin etmək məqsədilə bu pulun bir miqdarını bankdan götürmək niyyətindədir. O, bu işi görə bilərmi?

Cavab: Azyaşlı uşağın qəyyumu uşağın məsləhət və mənafeyinə riayət edərək onun pulu ilə onun üçün müzaribə ünvanında iş görə bilər. Yaxud iş görməsi üçün bu pulu başqa bir şəxsə verə bilər. Bu şərtlə ki, iş görən şəxs etibarlı və əmanətdar şəxs olmalıdır. Əks təqdirdə, azyaşlı uşağın malına zamindirlər.

**Sual 1497:** Əgər qan sahiblərinin hamısı və ya onların bəzisi azyaşlı uşaq olarsa və onların haqqını tələb etməkdə şəri-hakim

**onların qəyyumu olarsa, cinayətkarın maddi imkanının olmadığı şəri-hakimə aydın olduğu halda, qisası diyəyə dəyişərək cinayətkarı qisas olunmaqdan əfv edə bilərmi?**

**Cavab: Əgər şəri-hakim azyaşlı uşaqların məsləhət və mənafeyini qisası diyəyə dəyişməkdə görərsə, qisas haqqını diyəyə dəyişə bilər.**

**Sual 1498: Azyaşlı uşağın şəri qəyyumunun uşağın əmlakına ziyan vurduğu sübuta yetdiyi təqdirdə, şəri-hakim bu şəxsi qəyyumluqdan kənarlaşdıra bilərmi?**

**Cavab: Əgər şəri-hakimə, hətta əlamətlər və şahidlər vasitəsilə aydın olsa ki, azyaşlı uşağın şəri qəyyumunun uşağın əmlakından istifadə etməsi və onun qəyyumluğunun davam etməsi uşağın ziyanınadır, onu qəyyumluqdan kənarlaşdırmaq şəri-hakimə vacibdir.**

**Sual 1499: Uşağın qəyyumunun uşağa verilən əvəzsiz hədiyyəni və sülhü[1], ümumiyyətlə, uşağın xeyrinə olan bu kimi şeyləri qəbul etməkdən imtina etməsi, uşağı ziyana salmaq və ya onun məsləhətinə riayət etməmək hesab olunurmu?**

**Cavab: Uşağa verilən əvəzsiz hədiyyəni və hədiyyəni qəbul etməkdən imtina etmək öz-özlüyündə uşağı ziyana salmaq və onun məsləhətinə riayət etməmək hesab olunmur. Buna görə də, bu işin öz-özlüyündə maneəsi yoxdur. Çünki uşaq üçün əmlak əldə etmək qəyyuma vacib deyildir. Əksinə, bəzi hallarda mümkündür ki, uşağa verilən hədiyyələri qəbul etməkdən imtina etmək, qəyyumun nəzərinə görə uşağın məsləhətinədir.**

**Sual 1500: Əgər dövlət şəhid övladları üçün torpaq sahəsi və ya maddi vəsait ayırarsa və bunların şəhid övladlarının adına rəsmi qeydiyyata salınmasına dair qərar imzalayarsa, amma uşaqların qəyyumu onların sənədlərini imzalamaqdan imtina edərsə, şəri-hakim uşaqların qəyyumu ünvanında bu işi görə bilərmi?**

**Cavab: Əgər azyaşlı uşaqlar üçün əmlak əldə etmək qəyyumun imzasına bağlıdırsa, bu işi yerinə yetirmək ona vacib deyildir. Şəri qəyyum olduğu halda şəri-hakimin uşaqlar üzərində qəyyumluğu yoxdur. Amma əgər azyaşlı uşaqlara aid olan əmlakı qorumaq qəyyumun imzasına bağlıdırsa, bu işi yerinə yetirməkdən imtina etməyə onun haqqı yoxdur. Əgər bu işi yerinə yetirməkdən imtina edərsə, şəri-hakim onu həmin sənədləri imzalamağa vadar etməlidir, yaxud uşaqların qəyyumu ünvanında özü bu işi görməlidir.**

**Sual 1501: Uşağa qəyyumluqda “ədalət” xüsusiyyəti şərtdirmi? Əgər uşağın qəyyumu fasiq şəxs olarsa və uşağın fəsada sürüklənməsi və ya onun əmlakının dağıdılması qorxusu mövcud olarsa, şəri-hakimin vəzifəsi nədir?**

**Cavab: Ədalət xüsusuiyyəti atanın və ata tərəfdən olan babanın uşaq üzərində olan qəyyumluğunda şərt deyildir. Amma əgər şəri-hakim üçün - hətta “haliyyə qərinə”lər[2] əsasında - sübuta yetsə ki, ata və ya ata tərəfdən olan baba uşağa zərər dəyməsinə səbəb olacaqlar, şəri-hakim onları qəyyumluqdan kənarlaşdırmalı və uşağın əmlakından istifadə etmələrinə qadağa qoymalıdır.**

**Sual 1502: Əgər biləndən yerinə yetirilən qətldə qətlə yetirilən şəxsin qan sahiblərinin hamısı azyaşlı uşaqlar və ya dəli olarsa, şəri qəyyumun (ata və ya ata tərəfdən olan baba) və ya məhkəmənin təyin etdiyi qəyyumun qisas və ya diyə tələb etməyə haqqı vardırmı?**

**Cavab: Azyaşlı uşağa və dəliyə qəyyumluq barəsində olan dəlillərin məcmusundan bu nəticə əldə olunur ki, müqəddəs şəriət sahibi tərəfindən onlara qəyyumun təyin edilməsi onların məsləhət və mənafeyinin qorunması məqsədini daşıyır. Buna görə də, bəhs edilən**

**məsələdə onların şəri qəyyumu onların məsləhət və mənafeyinə riayət edərək davranmalıdır və qəyyumun qisas və ya diyə, əvəzli və ya əvəzsiz əfv barədə qərarı qüvvədədir. Aydın məsələdir ki, azyaşlı uşağın və dəlinin məsləhətini müəyyən etmək üçün bütün cəhətlər, o cümlədən, onun büluğ yaşına yaxın və ya uzaq olması nəzərə alınmalıdır.**

**Sual 1503:** **Əgər yetkin bir şəxs (yəni həddi-büluğ və ağıllı olan şəxs) cinayətə məruz qalarsa, onun icazəsi olmadan atasının və ya ata tərəfdən olan babasının onun üçün diyə tələb etmək və almaq haqqı vardırmı? Yəni əgər onun atası və ya ata tərəfdən olan babası cinayətkardan diyə tələb edərsə, cinayətkar şəxs onu cinayətə məruz qalan şəxsə verməlidirmi?**

**Cavab: Atanın və ya ata tərəfdən olan babanın həddi-büluğ və ağıllı şəxs üzərində qəyyumluğu yoxdur, buna görə də, onun icazəsi olmadan onun haqqını tələb edə bilməzlər.**

**Sual 1504:** **Azyaşlı uşaqların qəyyumu irsin üçdə bir hissəsindən artıq qalan vəsait ilə mərhumun vəsiyyətinin yerinə yetirilməsinə icazə verə bilərmi?**

**Cavab: Şəri qəyyum azyaşlı uşaqların məsləhət və mənafeyinə riayət edərək bu işə icazə verə bilər.**

**Sual 1505:** **Övladla əlaqədar ata anaya nisbətdə daha çox haqqa və birincilik haqqına malikdirmi? Əgər ata və ya ata tərəfdən olan baba birincilik haqqına malik deyildirlərsə, əksinə, ata və ananın eyni dərəcədə haqqı vardırsa, fikirayrılığı zamanı atanın sözü öndə dayanır, yoxsa ananın sözü?**

**Cavab: Bu sualın cavabı haqların müxtəlifliyinə görə dəyişir. Azyaşlı uşağın qəyyumluğu ataya və ata tərəfdən olan babaya aiddir. Oğlan uşağının hizanəti[3] iki yaşına qədər və qız uşağının hizanəti yeddi yaşına qədər anaya aiddir, bu yaşdan sonra isə ataya aiddir. Övladın valideynə itaətinin vacibliyi və valideyni incitməyin haramlığı ata və ana barəsində eyni dərəcədədir. Övlad anaya daha artıq ehtiram göstərməlidir. Çünki hədislərdə qeyd olunubdur ki, cənnət anaların ayaqları altındadır.**

**Sual 1506:** **Mənim ərim şəhid olmuş və ondan iki övladım vardır. Ərimin qardaşı və anası iki övladımı, həmçinin ev əşyalarını və uşaqların bütün əmlakını götürmüşlər, uşaqları mənə vermirlər. Qeyd etməliyəm ki, mən uşaqlara görə izdivac etməmişəm və etməyəcəyəm də. Elə isə, kimin onlara və onların əmlakına nəzarət etmək haqqı vardır?**

**Cavab: Yetim uşaqlar şəri vəzifə yaşına çatanadək onlara baxmaq ananın haqqıdır. Amma onların əmlakına qəyyumluq onların şəri qəyyumuna aiddir və şəri qəyyum həyatda olmadığı təqdirdə, bu vəzifə şəri-hakimə aiddir. Uşaqların əmisi və nənəsi hizanət haqqına və uşaqlara və onların əmlakına qəyyumluq haqqına malik deyildirlər.**

**Sual 1507:** **Mərhumun həyat yoldaşı izdivac etdikdən sonra azyaşlı uşaqların qəyyumlarından bəziləri ananın və onun hizanəti altında olan övladların atadan uşaqlara çatan irsdən, o cümlədən, evdən və ehtiyac duyulan digər əşyalardan istifadə etmələrinə mane olurlar. Onları irsdən uşaqlara çatan payın uşaqların hizanətinə öhdədar olan anaya vermələrinə vadar edən hansısa bir şəri əsas mövcuddurmu?**

**Cavab: Azyaşlı uşaqların şəri qəyyumu onların məsləhət və mənafeyini nəzərə alaraq hərəkət etməlidir və məsləhəti şəri qəyyum müəyyən edir. Əgər o, məsləhətin ziddinə hərəkət edərsə və ixtilafın yaranmasına səbəb olarsa, şəri-hakimə müraciət olunmalıdır.**

**Sual 1508:** **Azyaşlı uşaqların qəyyumunun uşaqların əmlakı ilə onların mənafeyi qoruyaraq ticarət etməsi düzgündürmü?**

**Cavab: Uşaqların məsləhət və mənafeyinə riayət edildiyi təqdirdə maneəsi yoxdur.**

**Sual 1509:** **Baba, əmi, dayı və mərhumun həyat yoldaşı həyatda olduğu təqdirdə qəyyumluq haqqı onlardan hansı birinə aiddir?**

**Cavab: Azyaşlı yetim uşağın və onun əmlakının şəri qəyyumu onun ata tərəfdən olan babasıdır və uşağın hizanət haqqı da yalnız anaya aiddir. Əmi və dayı qəyyumluq və hizanət haqqına malik deyildirlər.**

**Sual 1510:** **Yetim uşaqların əmlakı Ali Məhkəmənin icazəsi ilə uşaqların hizanətini qəbul etdiyinə görə ananın ixtiyarına verilə bilərmi, belə ki, uşaqların ata tərəfdən olan babası yalnız nəzarət etmək haqqına malik olsun və birbaşa müdaxilə etmək haqqı olmasın?**

**Cavab: Uşaqların şəri qəyyumu olan babanın (atanın atası) razılığı olmadan bu iş görülə bilməz. Amma əgər yetim uşaqların əmlakının ata tərəfdən olan babanın ixtiyarında qalması onların ziyanına olarsa, bu təqdirdə şəri-hakim bunun qarşısını almalı və uşaqların əmlakına qəyyumluğu bu işə layiq bildiyi şəxsə – bu şəxs istər ana olsun, istərsə də anadan qeyrisi - tapşırmalıdır.**

**Sual 1511:** **Diyəni ödəməli olan şəxsdən azyaşlı uşağın haqqı olan diyəni almaq onun qəyyumuna vacibdirmi? Uşağın mənafeyinə olduğu təqdirdə diyədən uşağa düşən pay ilə iş görmək, o cümlədən, banka sərmayə ünvanında yatırmaq onun qəyyumuna vacibdirmi?**

**Cavab: Cinayət diyəyə səbəb olduğu təqdirdə uşağın haqqı olan diyəni cinayətkar şəxsdən tələb etmək və almaq, habelə, uşaq büluğ və yetkinlik yaşına çatana qədər bunu onun üçün qoruyub saxlamaq uşağın qəyyumuna vacibdir. Amma bu əmlak ilə uşaq üçün ticarət etmək və gəlir əldə etmək ona vacib deyildir. Əlbəttə, uşağın məsləhətinə və mənafeyinə olduğu təqdirdə, bu işi görməsinin maneəsi yoxdur.**

**Sual 1512:** **Əgər şirkətin üvzlərindən biri vəfat etsə və onun azyaşlı varisi olsa, şirkətin əmlakında pay sahibinə çevrildiyinə görə bu uşaq şirkətin digər üzvləri ilə şərik olarsa, şirkətin əmlakından istifadə etmək barəsində digər üzvlərin vəzifəsi nədir?**

**Cavab: Azyaşlı uşağın payı barəsində onun şəri qəyyumuna və ya şəri-hakimə müraciət olunmalıdır.**

**Sual 1513:** **Ata tərəfdən olan babanın yetim uşaqlar və onların əmlakı üzərində olan qəyyumluğunun tələbinə görə, uşaqlara irs çatan əmlakın qorunması üçün bu əmlakı ata tərəfdən olan babaya təhvil verməк vacibdirmi? Əgər vacibdirsə, uşaqlar ana ilə birlikdə harada yaşamalıdırlar? Nəzərə alsaq ki, uşaqlar məktəbli və ya körpədirlər, ana da evdar qadındır, onlar dolanışıq xərclərini haradan təmin etməlidirlər?**

**Cavab: Azyaşlı uşaqlara qəyyumluq onların əmlakının qəyyuma təhvil verilməsi və büluğ yaşına çatana qədər bu əmlakdan istifadə etməkdən məhrum qalmaları anlamında deyildir. Qəyyumluq - qəyyumun uşaqlara və onların əmlakına nəzarət etməsi, onların əmlakı barəsində məsuliyyət daşıması anlamındadır. Uşaqların əmlakından istifadə etmək onun icazəsinə bağlıdır. Qəyyum da azyaşlı uşaqların əmlakından onların ehtiyacları qədər onlara verməlidir. O, istifadə etmələri üçün uşaqların əmlakının ananın və uşaqların ixtiyarında qoyulmasını məsləhət bilərsə, bu işi görə bilər.**

**Sual 1514:** **Ata ondan müstəqil olan həddi-büluğ və ağıllı övladının əmlakından hansı miqdarda istifadə edə bilər? Əgər icazəsi olmadığı bir halda övladının əmlakından istifadə edərsə, istifadə etdiyi şeyə zamindirmi?**

**Cavab: Həddi-büluğ və ağıllı övladının əmlakından atanın istifadə etməsinə icazə verilmir və yalnız övladının icazəsi ilə istifadə edə bilər. Bəzi hallar istisna olmaqla, övladının icazəsi olmadan onun əmlakından atanın istifadə etməsi haramdır və zaminliyə səbəb olur.**

**Sual 1515:** **Mömin bir şəxs öz yetim qardaşlarına başçılıq edir. Qardaşlarının müəyyən məbləğdə pulu onun əlindədir və o, bu pul ilə onlar üçün sənədi olmayan torpaq sahəsi almışdır. Gələcəkdə bu torpaq sahəsi üçün sənəd alacağını, yaxud aldığı qiymətdən baha qiymətə satacağına ümid etmişdir. Amma indi başqa bir şəxsin mülkiyyət iddiası edəcəyindən, yaxud ondan istifadə edəcəyindən qorxusu vardır. Əgər o, indi bu torpaq sahəsini satarsa, alış qiymətini belə əldə edə bilməyəcəkdir. Əgər o, bu torpaq sahəsini alış qiymətindən aşağı qiymətə satarsa, yaxud qəsbkar bir şəxs onu qəsb edərsə, yetim uşaqların puluna zamindirmi?**

**Cavab: Əgər o, şəri surətdə uşaqların qəyyumu olarsa və onların məsləhət və mənafeyinə riayət edərək onlar üçün torpaq sahəsi alarsa, onun boynunda heç bir haqq yoxdur. Əks təqdirdə, sövdələşmə füzulidir və sövdələşmənin düzgünlüyü şəri qəyyumun icazəsinə, yaxud büluğ yaşına çatdıqdan sonra onların özünün icazəsinə bağlıdır. Həmçinin o, yetim uşaqların əmlakına zamindir.**

**Sual 1516:** **Ata öz azyaşlı uşağının əmlakından borc ünvanında götürə bilərmi və ya başqa bir şəxsə borc verə bilərmi?**

**Cavab: Əgər uşağın məsləhət və mənafeyinə riayət edərsə, manəesi yoxdur.**

**Sual 1517:** **Əgər uşağa geyim və ya başqa bir şey, məsələn, oyuncaq hədiyyə verilərsə və uşaq böyüdüyünə görə, yaxud başqa səbəblərə görə daha bunlar onun üçün istifadəyə yararlı olmazsa, uşağın qəyyumu bunları sədəqə verə bilərmi?**

**Cavab: Uşağın qəyyumu uşağın məsləhət və mənafeyinə riayət edərək məsləhət bildiyi şəkildə onlardan istifadə edə bilər.**

---

[1] Sülh – şəri əqdlərdən (müqavilə) biridir və burada əqdin hər iki tərəfi mal-mülkə sahiblənmə, borcun bağışlanması, haqqın ortadan qalxması və s. bu kimi məsələlərdə öz razılıqlarını elan edirlər.

[2] "Sarifə-qərinə" (yəni sözü həqiqi mənadan məcazi mənaya yönəldən əlamət, sübut) 2 qismdir: 1) Əgər "söz və kəlam" olarsa, "məqaliyyə və ya ləfziyyə qərinə" adlanır. 2) Əgər halət (vəziyyət və durum) olarsa, "məqamiyyə və ya haliyyə qərinə" adlanır.

[3] Hizanət – yəni azyaşlı uşağı böyütmək məqsədilə ona başçılıq etmək.

## Malın və onun əvəzinin şərtləri

**Sual 1518:** **İnsan bəzi bədən üzvlərini (məsələn, böyrəyini) bu üzvə ehtiyacı olan bir şəxsə sata bilərmi?**

**Cavab: Əgər bu üzvü bədəndən götürməyin insan üçün təhlükəsi və ya ciddi ziyanı olmazsa, bu işin maneəsi yoxdur.**

**Sual 1519:** **İnsanların əksəriyyəti üçün faydası və əhəmiyyəti olmayan, amma xüsusi bir dəstə üçün dəyəri və əhəmiyyəti olan şeylər, məsələn, araşdırma mərkəzləri və universitetlər üçün araşdırma əhəmiyyətli həşəratlar, arılar və bu kimi şeylər "mal" hesab olunurmu? "Mal" hesab olunan şeylərin hökmləri, məsələn, mülkiyyət, alğı-satqı, zəmanət və s. hökmlər onlar barəsində icra olunurmu?**

**Cavab: Halal xeyirlərinə görə ağıllı insanların, hətta onların bir dəstəsinin əhəmiyyət verdikləri hər bir şey "mal" hesab olunur və əmlakın bütün hökmləri və nəticələri, o cümlədən, mülkiyyət, alğı-satqı, zəmanət və s. onlara aid olur. Əlbəttə, bir sıra hökmlər və nəticələr istisna təşkil edə bilər, hansı ki, nəzərdə tutulan şeyə bunların aid olmadığına dair şəri baxımdan dəlil mövcuddur. Bununla belə, əhvət budur ki, arı və həşərat kimi şeylər mübadilə edilərkən "əvəz" "haqq"ın qarşılığında və bu əşyalardan istifadə haqqının aradan qalxması qarşılığında verilsin.**

**Sual 1520:** **Satılan malın "şey, əşya" olmasının şərt olduğunu – belə ki, fəqihlərin çoxu bu əqidədədirlər – əsas götürərək, texniki elmlərin satışı düzgündürmü? Qeyd edək ki, indiki dövrdə bu elmlərin mübadiləsi barəsində dövlətlər arasında müqavilələr bağlanılır.**

**Cavab: Müsalihə yolu ilə bu elmlərin mübadiləsinin maneəsi yoxdur.**

**Sual 1521:** **Oğurluqda ad çıxaran şəxsə torpaq sahəsi və ya başqa bir mal satmağın hökmü nədir? Çünki aldığı malın qiyməti ünvanında satıcıya verdiyi pulun oğurluq olması ehtimalı vardır.**

**Cavab: Əgər bu barədə yalnız ehtimal mövcud olarsa, haram yolla əmlak əldə etməkdə ad çıxaran şəxs ilə sövdələşmə etməyin maneəsi yoxdur. Yox əgər satıcının yəqinliyi olsa ki, alıcının ona verdiyi pul haram maldandır, bu pulu götürə bilməz.**

**Sual 1522:** **Mənim bir əkin sahəm var idi və bu, mənim mehriyyəm idi. Təzəlikcə mən onu satmışam. İndi isə bir kişi iddia edir ki, həmin əkin sahəsi iki yüz ildən çox müddətdir ki, vəqfidir. Bu əkin sahəsinin satışı ilə bağlı mənim vəzifəm nədir? Bu əkin sahəsini mənə mehriyyə olaraq verən ərimin vəzifəsi nədir? Onu məndən alan alıcının vəzifəsi nədir?**

**Cavab: Sözügedən əkin sahəsi üzərində baş tutan sövdələşmələrin hamısı düzgündür. Amma əgər həmin əkin sahəsinin vəqfi olduğunu iddia edən şəxs öz iddiasını şəri məhkəmədə sübuta yetirərsə, həmçinin bu vəqfi əmlakın satıla bilməyən əmlakdan olduğu sübuta yetərsə, bu təqdirdə bu əkin sahəsi üzərində baş tutan bütün sövdələşmələrin pozulduğuna hökm verilir. Bu vaxt siz alıcının verdiyi pulu ona geri qaytarmalısınız. Əkin sahəsi də vəqfi olaraq qalmalıdır. Əriniz də mehriyyənizə zamindir.**

**Sual 1523:** **Fars körfəzi dövlətlərinin qonşuluğunda yerləşən İran ölkəsinə aid adalardan qoyun və dördayaqlıların idxalı artmışdır. Tacirlər arasında bu söz geniş yayılmışdır ki, dördayaqlıların İran İslam Respublikasından ixracı qadağandır, amma qeyri-qanuni yollarla və qaçaqmalçılıq şəklində ixrac edilir. Elə isə, sözükeçən dövlətlərin bazarlarından bunların alışına icazə verilirmi?**

Cavab: Qoyun və başqa dördayaqlıların qeyri-qanuni yollarla və İran İslam Respublikasının qanunlarına zidd bir şəkildə xarici ölkələrə ixracı və aparılması şəri baxımdan qadağandır.

**Sual 1524:** Atam özünün suvarma payından bir saatını və ona tabe torpaqları “torpaq islahatına dair qanun”a görə əkinçiyə satmışdır, belə ki, bu qanuna görə atamdan öz torpağını satmaq tələb olunurdu. Amma alıcının etirafına görə, atam bunun qarşılığında ondan heç nə almamışdır. Torpağı bağışlaması barəsində də atamdan heç bir söz eşitməmişlər. Biz onun pulunu alıcıdan tələb edə bilərikmi?

Cavab: Ümumiyyətlə, əgər suvarma haqqı və ona tabe torpaqlar şəri baxımdan satıcının mülküdürsə, satıcının özünün və ya ölümündən sonra onun varislərinin satılan malın pulunu tələb etməyə haqqı vardır. Amma torpaq islahatına dair qanunun şamil olduğu torpaqların məsələsi İslam Şurası Məclisinin və Dövlət Məsləhət Şurasının qanuna tabedir.

**Sual 1525:** Əgər bir şəxs bir mağaza üçün idxal və ya alış icazəsi alarsa, heç bir iş görmədən azad bazarda onu başqa bir şəxsə sata bilərmi?

Cavab: Əgər İslam dövlətinin qanunlarına zidd olmazsa, bu işin öz-özlüyündə maneəsi yoxdur.

**Sual 1526:** Vətəndaşların dövlətdən aldıqları ticarət lisenziyasını satmaq və ya icarəyə vermək olarmı?

Cavab: İş lisenziyasından istifadə hüququnun başqa bir şəxsə əvəzsiz və ya əvəzli şəkildə ötürülməsi İslam dövlətinin qanunlarına bağlıdır.

**Sual 1527:** Qanunun tələbinə görə açıq hərracda satılmalı olan bir mal əgər hərracda satışa çıxarılarsa, bu malı mütəxəssisin təyin etdiyi qiymətə satmaq mümkün olmadığı təqdirdə, aşağı qiymətə satmaq olarmı, yoxsa olmaz?

Cavab: Mütəxəssisin təyin etdiyi qiymət, hərracda satış üçün meyar deyildir. Ona görə də, əgər bir mal hərracda şəri və qanuni baxımdan düzgün şəkildə satışa çıxarılarsa, hərracda ən yüksək qiyməti verən müştəriyə satılması düzgündür.

**Sual 1528:** Sahibi məlum olmayan bir torpaq sahəsində yaşayış evi tikdik. Əgər alıcı bilsə ki, torpaq sahəsinin sahibi məlum deyildir və satıcı yalnız evin sahibidir, bununla belə onu almağa razı olsa, bu evi torpaq sahəsi ilə birlikdə alıcıya satmaq olarmı?

Cavab: Əgər sahibi məlum olmayan torpaq sahəsində evin tikilməsi şəri-hakimin icazəsi ilə olarsa, evin sahibi yalnız evi sata bilər və torpaq sahəsini satmağa haqqı yoxdur.

**Sual 1529:** Mən öz evimi bir şəxsə satdım və o da pulun bir hissəsi ünvanında mənə müəyyən məbləğli pul çeki verdi. Amma indi onun bank hesabında pul mövcud olmadığına görə, çeki nağd pula çevirməkdən boyun qaçırır. İnflyasiyanı və zaman keçdikcə evin qiymətinin qalxdığını nəzərə alsaq, həmçinin nəzərə alsaq ki, məsələnin hüquqi yolla həll edilməsi və alıcının çekdə qeyd etdiyi pulu ödəməsi üçün məsuliyyətə cəlb edilməsi vaxt aparacaqdır, mənim yalnız çekdə qeyd edilən məbləği almağa haqqım vardır, yoxsa çekdə qeyd edilən məbləği aldığım gün ilə satış günü arasındakı qiymət fərqini də tələb edə bilərəm?

Cavab: Satıcının sövdələşmə zamanı satışa çıxarılan mal üçün təyin edilən qiymətdən artıq məbləği tələb etmək haqqı yoxdur. Amma əgər alıcı pulu ödəməkdə səhlənkarlıq göstərdiyinə görə satıcının alış qabiliyyəti və pulunun dəyəri aşağı düşərsə və buna görə də ziyana düşərsə, satıcı inflyasiya miqdarını alıcıdan tələb edə bilər. Əhvət isə budur ki, qiymət fərqi barəsində alıcı ilə müsalihə etsin.

**Sual 1530:** **Mən bir yaşayış evini bir şəxsdən almışam, bu şərtlə ki, müəyyən müddət ərzində bu evi mənə təhvil verəcəkdir. Sövdələşmə əqdi əsnasında da evin qiymətinin 15%-dək arta biləcəyi barəsində razılığa gəlmişik. Amma indi satıcı birtərəfli olaraq qiyməti 31%-dək artırmış və bildirmişdir ki, evin təhvil verilməsi həmin məbləğin ödənilməsinə bağlıdır. O, bu işi görə bilərmi?**

**Cavab: Əgər sövdələşmə əqdi bağlanan zaman evin son və dəyişməz qiyməti müəyyən edilməyibsə, yaxud qiymətin müəyyən edilməsi evin təhvil veriləcəyi günün məzənnəsinə həvalə olunubsa, sövdələşmə düzgün deyildir. Satıcı sövdələşməni yerinə yetirməkdən imtina edə və istədiyi qiyməti müəyyən edə bilər. Alıcı və satıcının "satılan mal"ın təhvil veriləcəyi günün məzənnəsini nəzərə alaraq son qiyməti müəyyən edəcəklərinə dair razılığı, sövdələşmənin düzgünlüyü üçün kifayət etmir.**

**Sual 1531:** **Mən plastik istehsalı zavodunun "müşa"[1] şəklində olan hissələrinin beşdə birini müəyyən qiymətə almışam. Pulun dörddə birini nağd şəkildə, dörddə üçünü isə üç pul çeki şəklində ödəmişəm, belə ki, hər pul çekində qiymətin dörddə bir məbləği qeyd edilmişdir. Amma zavod, nağd pul və pul çekləri satıcının əlindədir. Belə olduğu surətdə, sövdələşmə şəri baxımdan baş tutubdurmu və mənim satıcıdan zavodun gəlirindən öz payımı tələb etmək haqqım vardırmı?**

**Cavab: Satılan malın alıcı tərəfindən təhvil alınması və malın pulunun hamısının satıcıya nağd şəkildə ödənilməsi sövdələşmə və alğı-satqının düzgünlüyündə şərt deyildir. Buna görə də, əgər zavodun beşdə bir hissəsi zavodun şəri sahibindən, yaxud onun vəkilindən, ya qəyyumundan şəri baxımdan düzgün şəkildə alınarsa, bu sövdələşmə nəticəsində həmin hissə alıcının mülkü hesab olunacaqdır və alıcının mülkiyyət hüququ bu hissəyə aid olacaqdır. Nəticədə, zavodun gəlirindən öz payını tələb etmək haqqı olacaqdır.**

---

[1] Müşa mal-mülk – şərikli mal-mülkə deyilir ki, şəriklər onun hissəbəhissəsində şərikdirlər.

## Sövdələşmə əqdi əsnasında qoyulan şərtlər

**Sual 1532:** **Bir şəxs öz bağını başqa bir şəxsə bu şərtlə satmışdır ki, həyatda olduğu müddətdə bağın mənfəəti ona aid olacaqdır. Bu sövdələşmə sözükeçən şərt ilə düzgündürmü?**

**Cavab: Maldan müəyyən bir müddətədək mənfəət götürülməməsi şərti ilə malı satmağın maneəsi yoxdur. Bu şərtlə ki, şəriət və ürf baxımından həmin şey "mal" hesab olunmalı və ondan mənfəət götürmək - hətta ondan mənfəət götürülməməsinə dair razılaşmanın müddəti başa çatdıqdan sonra - mümkün olmalıdır. Amma əgər maldan qeyri-müəyyən bir müddətədək mənfəət götürülməməsi şərt qoyul مُثْمَن, habelə, qiyməti danışılan malın (ثَمَن) məlum olmaması ilə nəticələnərsə, sövdələşmə "ğərər"[1] səbəbilə düzgün deyildir və pozulmuşdur.**

**Sual 1533:** **Əgər sövdələşmə əqdi əsnasında satıcı qarşısında şərt qoyulsa ki, müəyyən edilən vaxtda malın təhvil verilməsi gecikdirildiyi təqdirdə alıcıya müəyyən məbləğ pul ödəcəyəcəkdir, bu şərtə əməl etmək şəri baxımdan satıcının öhdəsindədirmi, yoxsa yox?**

**Cavab: Sözükeçən şərtin qoyulmasının maneəsi yoxdur və satılan malın təhvil verilməsi gecikdirildiyi təqdirdə bu şərtə əməl etmək satıcıya vacibdir. Alıcı da bu şərtə əməl olunmasını tələb edə bilər.**

**Sual 1534:** **Bir şəxs öz ticarət mağazasını başqa bir şəxsə bu şərtlə satmışdır ki, mağazanın damı onun mülkü olaraq qalacaqdır və onun üstündə başqa bir mərtəbəni də tikmək haqqı vardır. Belə bir şərt qoyulduğu bir halda, həmçinin bu şərtin qoyulmadığı təqdirdə satıcının mağazanı satmayacağını alıcının bildiyi bir halda, alıcının mağazanın damı ilə əlaqədar bir haqqı vardırmı, yoxsa yoxdur?**

**Cavab: Əgər mağazanın damı sövdələşməyə daxil edilməmişdirsə, alıcının mağazanın damı ilə əlaqədar heç bir haqqı yoxdur.**

**Sual 1535:** **Bir şəxs tikintisi başa çatmayan bir evi bu şərtlə almışdır ki, satıcı evi alıcının adına rəsmi qeydiyyata salmaq müqabilində alıcıdan pul tələb etməyəcəkdir. Amma indi satıcı evi alıcının adına rəsmi qeydiyyata salmaq müqabilində alıcıdan müəyyən məbləğ pul tələb edir. Satıcınn belə bir haqqı vardırmı? Bu pulu ödəmək alıcıya vacibdirmi?**

**Cavab: Satıcı alğı-satqı zamanı boynuna götürdüyü öhdəliyə əməl etməli, satılan malı alıcıya təhvil verməli və evi alıcının adına rəsmi qeydiyyata salmalıdır. Əqd hansı şərtlər əsasında bağlanıbdırsa, satıcının bundan artığını tələb etməyə haqqı yoxdur. Amma əgər alıcının istəyi ilə satıcı ürfə görə xərci olan bir işi yerinə yetirərsə və bu iş əqddə razılıq əldə edilən işlərdən əlavə bir iş olarsa, bu halda satıcının artıq məbləğ tələb etməyə haqqı vardır.**

**Sual 1536:** **Bir torpaq sahəsi müəyyən bir qiymətə satılmışdır və pulun hamısı satıcıya ödənilmişdir. Sövdələşmə əqdi əsnasında müəyyən edilmişdir ki, torpaq sahəsini alıcının adına rəsmi qeydiyyata salması müqabilində alıcı satıcıya müəyyən məbləğ pul ödəyəcəkdir. Bu şərtlərin hamısı adi bir sənəddə yazılmışdır. Amma indi satıcı torpaq sahəsinin sənədini alıcıya təhvil vermək müqabilində həmin adi sənəddə yazılan məbləğdən daha artıq məbləğ pul tələb edir. Onun belə bir haqqı vardırmı?**

**Cavab: Alğı-satqı şəri baxımdan düzgün şəkildə baş tutduqdan sonra satıcı sövdələşmə əqdinə və sövdələşmə əqdi əsnasında alıcının xeyrinə öhdəsinə götürdüyü bütün şərtlərə əməl etməlidir. Alıcının öhdəsinə götürdüyü məbləğdən artığını alıcıdan tələb etməyə onun**

haqqı yoxdur.

**Sual 1537: Əgər alıcı və satıcı sövdələşmə müqaviləsinin tənzimlənməsi əsnasında sövdələşməni pozmaq haqları olmadığını öhdələrinə götürsələr - belə ki, əgər müqavilə imzalandıqdan sonra alıcı sövdələşməni yerinə yetirmək fikrindən dönərsə, satıcıya verdiyi behi tələb etməyə haqqı yoxdur, həmçinin əgər müqavilə imzalandıqdan sonra satıcı sövdələşməni yerinə yetirmək fikrindən dönərsə, sözügedən behi alıcıya geri qaytarmaqdan əlavə xəsarət ünvanında ona müəyyən məbləğ pul da verməlidir - bu təqdirdə onlar tərəfindən sözükeçən şəkildə "ixtiyar"[2] və "iqalə"[3] şərtinin qoyulması düzgündürmü? Bu yol ilə əldə edilən mal onlara halaldırmı?**

**Cavab: Sözükeçən şərt, "ixtiyar" və ya "iqalə" deyildir. Əksinə, sövdələşməni yerinə yetirmək fikrindən döndükdə müəyyən məbləğ pulun ödənilməsi şərtidir. Bu kimi şərtlər sövdələşmə əqdinin əsnasında qeyd edilməyənədək, sövdələşmə müqaviləsinin tənzimlənməsi və imzalanması əsnasında onların vurğulanması və qeyd edilməsinin heç bir etibarı yoxdur. Amma sövdələşmə əqdi əsnasında qeyd edildikdə, yaxud əqd bu şərtlərin əsasında bağlandıqda, bu şərtlər düzgündür və onlara əməl etmək vacibdir. Bu yolla əldə edilən malı götürməyin maneəsi yoxdur.**

**Sual 1538: Bəzi vaxtlar sövdələşmə müqavilələrində bu cümlə yazılır: "Əgər tərəflərdən biri sövdələşməni pozarsa, qarşı tərəfə xəsarət ünvanında müəyyən məbləğ pul ödəməlidir." Sualım budur: 1) Bu cümlə "ixtiyar şərti" hesab olunurmu? 2) Bu kimi şərtlər düzgündürmü? 3) Əgər şərt düzgün deyildirsə, sövdələşmə əqdi də düzgün deyildir və pozulmuşdur?**

**Cavab: Bu şərt, ixtiyar şərti hesab olunmur, əksinə, sövdələşməni başa çatdırmaq fikrindən döndükdə müəyyən məbləğin ödənilməsi şərtidir. Əgər bu şərt "lazım əqd"in əsnasında olarsa və ya əqd bu şərtin əsasında bağlanarsa, maneəsi yoxdur. Amma satılan malın qiyməti üzərində təsir qoyan bu kimi şərtlər üçün müəyyən müddət qeyd olunmalıdır, əks təqdirdə şərt düzgün deyildir.**

---

[1] Ğərər - yəni malın xüsusiyyətlərinin məlum olmaması.

[2] İxtiyar- müamiləni pozmaq haqqı.

[3] İqalə - tərəflərin razılığı ilə "lazım əqd"i pozmaq.

## Sövdələşmənin müxtəlif məsələləri

**Sual 1539: Bəzi şəxslər öz mallarını başqa bir şəxsə bu şərtlə satırlar ki, həmin malı alıcının aldığı qiymətdən baha qiymətə ondan alacaqlar. Bu sövdələşmə düzgündürmü?**

**Cavab: Bu növ sövdələşmə formal olub sələmli borc almaqdan ötrüdür, buna görə də, haramdır və düzgün deyildir. Amma əgər şəxs öz malını ciddi və şəri baxımdan düzgün şəkildə satarsa, sonra həmin malı eyni qiymətə və ya baha qiymətə alıcıdan nağd və ya nisyə qiymətə almaq istəyərsə, maneəsi yoxdur.**

**Sual 1540: Bəzi tacirlər başqa tacirlərin əvəzindən bank kredit sənədləri vasitəsilə mal idxal edir və malın sənədlərini aldıqdan sonra da o tacirlərin əvəzindən malın pulunu banka ödəyirlər. Bu işin qarşılığında isə, öncədən razılaşdırılan müəyyən məbləğ faizi o tacirlərdən alırlar. Bu sövdələşmə düzgündürmü, yoxsa yox?**

**Cavab: Əgər bir tacir malı özü üçün idxal edərsə və sonra malın qiymətinin faizi nisbətində müəyyən olunan mənfəət ilə bu malı istədiyi bir şəxsə satarsa, maneəsi yoxdur. Həmçinin əgər bir tacir mal idxalı barəsində ona müraciət edən şəxs üçün malın qiymətinin faizi nisbətində müəyyən olunan əvəz və zəhmət haqqı ilə "cualə"[1] şəklində mal idxal edərsə, maneəsi yoxdur. Amma əgər müraciət edən şəxs tərəfindən vəkil olaraq və vəkilliyə görə zəhmət haqqı alaraq mal idxal edərsə, vəkilliyin düzgünlüyü üçün zəhmət haqqı əvvəlcədən müəyyən edilməlidir.**

**Sual 1541: Həyat yoldaşım vəfat etdikdən sonra ev əşyalarından bəzilərini satdım və onların pulu üzərinə bir qədər də pul qoyub başqa əşyalar aldım. İkinci həyat yoldaşımın evində bu əşyalardan istifadə etməyimə icazə verilirmi?**

**Cavab: Əgər satdığınız əşyalar sizin əmlakınız idisə, onların pulu ilə aldığınız əşyalar da sizin əmlakınız hesab olunacaqdır. Əks təqdirdə, onların satışı digər varislərin icazəsinə bağlıdır.**

**Sual 1542: Bir şəxs bir ticarət obyektini icarəyə götürmüşdür, amma bu ticarət obyektinin sahibi Şəhər İcra Hakimiyyətindən tikinti lisenziyası almadan onu tikmişdir. Şəhər İcra Hakimiyyəti isə bu məkanda qanunsuz tikintiyə görə cərimə tələb edir. Bu cəriməni icarəçi verməlidir, yoxsa tikinti lisenziyası almadan ticarət obyekti tikən obyekt sahibi?**

**Cavab: Bu cəriməni vermək qanunsuz tikinti işi görən obyekt sahibinin öhdəsindədir.**

**Sual 1543: Mən bir şəxsdən bir torpaq sahəsi almışam ki, o, bu torpaqdan istifadə edir və əkin əkirdi və onu əvvəlki hökumətin torpaq islahatı qanunu əsasında əldə etmişdi. Amma satıcının bu torpaq sahəsinin şəri sahibi olub-olmadığını bilmirəm. O, xeyli vaxtdır ki, vəfat etmişdir. İndi isə onun varisləri məndən bu torpaq sahəsinin pulunu tələb edirlər. Bu məsələnin hökmü nədir?**

**Cavab: Torpaq islahatına dair qanunun şamil olduğu torpaqların məsələsi İslam Şurası Məclisinin və Dövlət Məsləhət Şurasının qanuna tabedir.**

**Sual 1544: Mən bir şəxsdən bir mülk almış və onu başqa bir şəxsə satmışam. Amma satıcı sövdələşmə müqaviləsini məndən aldıqdan sonra həmin mülkü başqa bir şəxsə yenidən satmışdır. Elə düşünmüşdür ki, sövdələşmə sənədini məndən aldığını mən sübut edə bilməyəcəyəm. Mənim etdiyim sövdələşmə düzgündür, yoxsa onun etdiyi sövdələşmə?**

**Cavab: Əgər hansısa bir mal mal sahibindən şəri baxımdan düzgün şəkildə alınarsa, satılan malın ixtiyar sahibi alıcıdır və alıcı onu istədiyi şəxsə sata bilər, etdiyi sövdələşmə də**

**düzgündür. Birinci satıcının bu maldan istifadə etmək haqqı yoxdur və onun bu malı yenidən başqasına satması "füzuli sövdələşmə"dir, sövdələşmənin düzgünlüyü birinci alıcının icazəsinə bağlıdır.**

**Sual 1545:** Mən qardaşım övladına söz vermişdim ki, pulunu mənə tam ödədikdə torpaqlarımın bir hissəsini ona satacağam. Amma bəzi idarə problemlərinə görə mən sövdələşmədən qabaq torpaq sahəsini onun adına rəsmi qeydiyyata saldım və onun özü də torpağın sahibi olmadığını iqrar etdi. Amma bir müddətdən sonra torpaq sahəsinin onun adına rəsmi qeydiyyatda olduğunu əsas götürərək torpaq sahəsini məndən istədi. Mən onun istəyini həyata keçirməliyəmmi?

**Cavab: Torpaq sahəsini aldığını iddia edən şəxs onu şəri baxımdan düzgün şəkildə aldığını sübut etməyənədək, bu torpaq sahəsində onun heç bir haqqı yoxdur. Əgər torpaq sahəsi onun adına rəsmi qeydiyyata salındığı vaxt onun sahibi olmadığını açıq şəkildə söyləyibdirsə, bu torpağın rəsmi sənədinə əsaslana bilməz.**

**Sual 1546:** Bizim idarənin kooperativ şirkəti bir şəxsin mülkü olan torpaq sahəsinə sahiblənərək onu idarə işçiləri arasında bölüşdürmüşdür. Bu şirkət idarə işçilərindən müəyyən məbləğ pul almışdır və bu pulları torpağın sahibinə verib, onun razılığını əldə etdiyini iddia edir. Amma bəzi işçilər iddia edirlər ki, torpaq sahibinin razı olmadığını birbaşa onun özündən eşidiblər. Digər tərəfdən, bu torpaqda məscid və yaşayış evləri tikilmişdir. Deyilənləri nəzərə alaraq, sualım budur ki:
1) Məscidin ərazisi və onun tikintisinin davam etdirilməsi üçün torpağın sahibindən icazə almağa ehtiyac vardırmı, yoxsa yox?
2) Bu torpaq sahəsində özlərinə ev tikən idarə işçilərinin vəzifəsi nədir?

**Cavab: Əgər sübut olunsa ki, kooperativ şirkətin nümayəndələri (yəni torpaq sahəsini onun sahibindən almaq vəzifəsini daşıyan şəxslər) düzgün şəkildə sövdələşmə edib və torpaq sahibinin razılığını əldə ediblər, şirkətin nümayəndələri tərəfindən bu torpaq sahəsinin onun sahibindən alışı düzgündür. Həmçinin əgər torpaq sahəsini idarə işçiləri arasında bölüşdürərkən iddia etsələr ki, bu torpaq sahəsini şəri şəkildə onun sahibindən alıblar, onların sözünün yalan olduğu sübuta yetməyənədək, onların sözü və onlar tərəfindən torpağın bölüşdürülməsi düzgündür. Bu bölgü etibarlı sayılır və sözügedən şirkətdən torpaq payı alan idarə işçilərinin öz torpaq paylarından istifadə etmələrinin maneəsi yoxdur. Həmçinin bu torpaq sahəsinin bir hissəsində bu hissədə şərik olan şəxslərin icazəsi ilə məscid tikilməsinin maneəsi yoxdur.**

**Sual 1547:** Bir şəxs şəhidin həyat yoldaşından istəmişdir ki, avtomobil almaqda şəhid övladlarına verilən imtiyaz üçün müraciət etsin və bu yolla bu şəxs özünə maşın alsın. Şəhidin həyat yoldaşı da şəhid övladlarının qəyyumu ünvanında bu şəxslə razılaşmışdır. Amma maşını aldıqdan sonra şəhid övladları bu maşının onlara aid olduğunu iddia etmiş və bildirmişlər ki, bu maşın onlara verilən imtiyaz ilə alınmışdır. Bu iddiaya əhəmiyyət verilməlidirmi?

**Cavab: Əgər maşını satan tərəf onu alıcının özünə satıbdırsa - hətta maşın almaq imtiyazı şəhadətnaməsini təqdim etməklə olsa belə - və alıcı da maşını özü üçün öz malı ilə alıbdırsa, maşın alıcının əmlakı hesab olunur. Amma alıcı şəhid ailəsinə verilən imtiyazın qiymətinə zamindir.**

**Sual 1548:** Mən torpaq sahibinin vəkili olaraq bir torpaq sahəsini adi (qeyri-rəsmi) sənədlə bir şəxsə satdım və pulun bir hissəsini alıcıdan aldım. Qərara alındı ki, alıcı pulun qalan hissəsini ödədikdən sonra torpaq sahəsi onun adına rəsmi qeydiyyata salınacaqdır. Amma alıcı pulun qalan hissəsini ödəmədi, nəticədə, torpaq sahəsi məni vəkil tutan şəxsin adına rəsmi qeydiyyatda qaldı və indiyədək də notariusda alıcının adına rəsmi qeydiyyata salınmayıbdır. Amma bu müddət ərzində alıcı bu torpaq sahəsində icazəsiz şəkildə bir neçə ticarət obyekti və mağaza tikmişdir. Bu səbəbdən də, gözlənilməyən vergilər, o cümlədən, icarə və kooperativ vergiləri gəlmişdir. Halbuki, on iki il öncə adi sənədlə satılan bu torpaq sahəsi boş bir yer idi. Bundan əlavə, sövdələşmə müqaviləsində aydın şəkildə qeyd edilmişdir ki, torpaq sahəsi alıcının adına rəsmi qeydiyyata salındıqdan sonra bütün xərclər

**alıcının öhdəsində olacaqdır. İndi sözügedən vergilər şəri baxımdan satıcının öhdəsindədir, yoxsa alıcının?**

**Cavab: Torpaq sahəsinin özünə və ya onun satışına aid olan vergilər və xərclər satıcının öhdəsindədir. Amma bu torpaq sahəsində tikilən tikililərə, yaxud tikintiyə görə torpaq sahəsinə aid olan vergilər və xərclər alıcının öhdəsindədir, belə ki, orada sözügedən ticarət obyektlərini və mağazaları o tikmişdir. Əgər sövdələşmə əqdi əsnasında şərt qoyulsa və razılaşma əldə edilsə ki, xərclər sövdələşmənin bir tərəfinin (satıcı və ya alıcının) öhdəsində olacaqdır, bu şərtə əməl olunmalıdır.**

**Sual 1549:** **Qiymət, sövdələşmənin şərtləri və kreditlər barəsində iki tərəf arasında razılaşma əldə edildikdən sonra bir şəxs başqa bir şəxsdən bir yaşayış evini nağd və kredit şəklində almışdır. Sonra isə alıcı həmin evi həmin şərtlər ilə başqa bir şəxsə satmışdır, bu şərtlə ki, kreditin qalanını ödəmək ikinci alıcının öhdəsində olacaqdır. Belə olduğu təqdirdə, birinci satıcı sövdələşmənin şərtlərini və əvvəlki müqaviləni dəyişdirə bilərmi?**

**Cavab: Sövdələşmə baş tutduqdan sonra satıcının sövdələşmə qərarından dönmək və onun şərtlərini dəyişdirmək haqqı yoxdur. Aldığı malın kreditlərini ödəməmişdən qabaq alıcının bu malı başqa bir şəxsə satmasının isə maneəsi yoxdur. Amma kreditin qalanını ikinci alıcının ödəməsini şərt qoymaq düzgün deyildir. Yox əgər birinci satıcı bu şərti qəbul edərsə, bu şərti qoymaq olar.**

**Sual 1550:** **Mağazaların birində satışa bir televizor qoyulmuşdur, belə ki, püşk kimin adına çıxacaqsa, bu televizor həmin şəxsə satılacaqdır. Mən də daxil olmaqla yüz otuz nəfər püşkatmada iştirak etmiş və püşk mənim adıma çıxmışdır. Mən də televizoru aldım. Bu sövdələşmə düzgündürmü? Mən ondan istifadə edə bilərəmmi?**

**Cavab: Əgər püşk sizin adınıza çıxdıqdan sonra sövdələşmə baş tutubsa, bu sövdələşmənin və alınan maldan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 1551:** **Bir şəxs öz torpaq sahəsini başqa bir şəxsə satmış, alıcı da həmin torpaq sahəsini üçüncü bir şəxsə satmışdır. Nəzərə alsaq ki, bu torpaq sahəsi hər dəfə sövdələşmə edildikdə mövcud qanuna görə dövlət rüsumu ödənməlidir, satıcının bu torpaq sahəsini birinci alıcının adına rəsmi qeydiyyata salması və sonra alıcının bu torpaq sahəsini ikinci alıcının adına rəsmi qeydiyyata salması vacibdirmi? Yoxsa bu torpaq sahəsini birbaşa ikinci alıcının adına rəsmi qeydiyyata salmaq olar, beləliklə də, birinci alıcı sövdələşmənin rüsumu və vergisindən azad ola bilər? Əgər satıcı satılan torpaq sahəsini birinci alıcının adına rəsmi qeydiyyata salarsa, birinci alıcıdan alınan rüsuma və vergilərə görə ona dəyən maddi ziyana zamindirmi, yoxsa zamin deyildir? Satıcı, satılan torpaq sahəsinin birbaşa ikinci alıcının adına rəsmi qeydiyyata salınmasına dair birinci alıcının istəyini həyata keçirməlidirmi?**

**Cavab: Qanuna zidd olmadığı təqdirdə, satıcı satılan torpaq sahəsini birinci və ya ikinci alıcının adına rəsmi qeydiyyata salmaqda ixtiyarlıdır. O, mövcud qanuna müvafiq əməl etmək barəsində alıcının onunla razılığa gəlməsini alıcıdan istəyə bilər. Torpaq sahəsi birinci alıcının adına rəsmi qeydiyyata salındığı təqdirdə, satıcı ondan alınan rüsum və vergiyə zamin deyildir. Həmçinin torpaq sahəsinin birbaşa ikinci alıcının adına rəsmi qeydiyyata salmasına dair birinci alıcının istəyini həyata keçirmək ona vacib deyildir.**

[1] Cualə - bir öhdəlikdir və burada şəxs elan edir ki, kim onun üçün müəyyən bir işi görərsə, müəyyən məbləğdə zəhmət haqqı alacaqdır. Məsələn, elan edir ki, kim mənim itən əşyamı taparsa, ona filan məbləğdə pul verəcəyəm.

## 1- Məclis ixtiyarı:

**Sual 1552:** **Bir şəxs bir ev almış və satıcıya beh ünvanında müəyyən məbləğ pul vermişdir. Satıcı isə üç saatdan sonra sövdələşməni pozmuş və evi alıcıya verməkdən boyun qaçırmışdır. Onun bu işinin hökmü nədir?**

**Cavab: Əgər satıcı sövdələşmə məclisindən ayrıldıqdan sonra və sövdələşməni pozmağın şəri səbəblərindən heç biri mövcud olmadığı halda sövdələşməni pozarsa, onun bu işi düzgün deyildir və əsassızdır. Əks təqdirdə, sövdələşməni pozması düzgündür və etibarlı sayılır.**

## 2- Qüsur ixtiyarı:

**Sual 1553:** Əgər rəsmi idarələr satılan mülkün alıcının adına rəsmi qeydiyyata salmaqdan imtina edərsə, bu, alıcı üçün sövdələşməni pozmaq ixtiyarının yaranmasına səbəb olurmu?

**Cavab: Əgər sövdələşmədən sonra məlum olsa ki, mülkün rəsmi şəkildə başqasının mülkiyyətinə keçməsi qadağan imiş, bu məsələ ürfdə qüsur sayıldığı təqdirdə alıcı üçün sövdələşməni pozmaq ixtiyarının yaranmasına səbəb olur.**

**Sual 1554:** Əgər sövdələşmə zamanı satılan malın alıcının adına rəsmi qeydiyyata salınması qadağan imişsə və alıcı da bunu bilirdisə, bu məsələ sövdələşmənin pozulmasına səbəb olurmu, yoxsa yox?

**Cavab: Bu məsələ sövdələşmənin pozulmasına səbəb olmur və sualda qeyd edilənləri nəzərə alaraq, alıcı üçün sövdələşməni pozmaq ixtiyarının yaranmasına da səbəb olmur.**

## 3- Gecikdirmə ixtiyarı:

**Sual 1555:** **Bir şəxs bir evi müəyyən qiymətə başqa bir şəxsdən almış və evin pulunu verməyi öhdəsinə götürmüşdür. Amma alıcı ödənişi gecikdirəcəyinə dair satıcı ilə şərt kəsmədiyi bir halda pulu ona ödəməmişdir. Beləliklə, sövdələşmə zamanından iki il ötmüş və satıcı da evi alıcıya təhvil verməmişdir. Bu sövdələşmə pozulmuş hesab olunurmu?**

**Cavab: Alıcının ödənişi gecikdirməsi və satılan malı satıcıdan təhvil almaması sövdələşməni pozmur, baxmayaraq ki, ödənişi gecikdirəcəyini satıcı ilə şərt kəsməmişdir. Amma bu sövdələşmədən üç gün keçdikdən sonra satıcının sövdələşməni pozmaq ixtiyarı vardır.**

## 4- Şərt ixtiyarı:

**Sual 1556:** **Mən bir yaşayış evini "lazım əqd" şəklində başqa bir şəxsə bu şərtlə satdım ki, əgər pulun qalanını ödəməsi və evin onun adına rəsmi qeydiyyata salınması üçün müəyyən edilən vaxtda notariusa gəlməzsə, mənim sövdələşməni pozmaq və evi günün qiymətinə uyğun başqa bir şəxsə satmaq hüququm olacaqdır. Alıcı müəyyən edilən vaxtda notariusa gəlmədiyi üçün mən sövdələşməni pozdum və evi başqa bir şəxsə satdım. İkinci sövdələşmə şəri baxımdan düzgündürmü?**

**Cavab: Lazım əqd əsnasında tərəflərin qəbul etdikləri şərtlərə müvafiq olaraq sövdələşməni pozmağın və satılan malı başqa bir şəxsə satmağın maneəsi yoxdur.**

## 5- Görmə ixtiyarı:

**Sual 1557:** **Əgər torpaq sahəsini satan şəxs alıcıya torpağın sahəsinin filan kvadrat metr olduğunu desə və sövdələşmə sənədi buna əsasən tənzimlənsə, amma sonra alıcı torpağın sahəsinin satıcının dediyindən olduqca az olduğunu başa düşsə, bu sövdələşmə şəri baxımdan düzgündürmü? Alıcının sövdələşməni pozmaq ixtiyarı vardırmı?**

**Cavab: Əgər alıcı torpaq sahəsini görərsə və torpağın sahəsinin ölçüsü barəsində satıcıya etibar edərək onu alarsa, sövdələşmə düzgündür. Amma satılan malın xüsusiyyəti deyildiyi kimi olmadığına görə, alıcının sövdələşməni pozmaq ixtiyarı vardır. Amma əgər alıcı torpağın sahəsinin filan kvadrat metr olduğunu bilib onun hər kvadrat metrini müəyyən qiymətə alarsa və sonra torpağın sahəsinin deyilən ölçüdən az olduğu məlum olarsa, mövcud hissə nisbətində sövdələşmə düzgündür. Alıcı isə torpaq sahəsinin əskik hissəsi üçün verdiyi pulu geri tələb edə bilər, yaxud sövdələşməni poza və verdiyi pulun hamısını geri ala bilər.**

## 6- Ziyan ixtiyarı:

**Sual 1558:** Əgər alıcı aldığı malın pulunu müəyyən edilən vaxtda ödəməyib gecikdirərsə və malın qiyməti satış günü ilə müqayisədə bahalaşarsa, bu, satıcı üçün "ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarı"nın yaranmasına səbəb olurmu? Yoxsa malın pulu müəyyən edilən vaxtda ödənilmədiyi və gecikdirildiyinə görə satıcı üçün "gecikdirmə səbəbilə sövdələşməni pozmaq ixtiyarı"nın yaranmasına səbəb olur?

**Cavab:** Ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarının yaranması meyarı, sövdələşmə zamanı malın ədalətli qiymətində ziyana düşməkdir. Məsələn, satıcı hansısa bir malı ürfdə güzəşt edilməyəcək həddə aşağı qiymətə satmışdır. Amma sövdələşmə baş tutduqdan sonra malın qiymətinin artması, ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarının yaranmasına meyar deyildir. Eləcə də, malın pulunun ödənişinin gecikdirilməsi, satıcı üçün "gecikdirmə səbəbilə sövdələşməni pozmaq ixtiyarı"nın yaranmasına səbəb olmur.

**Sual 1559:** Mən bir torpaq sahəsini müəyyən məbləğə satdım. Amma bir şəxs mənə dedi ki, bu sövdələşmədə sən ziyan etmisən. Onun bu sözü ilə mənim üçün "ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarı" yaranırmı?

**Cavab:** Torpaqların qiymətindən məlumatsız olub, öz torpaq sahənizi satış gününün məzənnəsindən güzəşt edilməyəcək həddə aşağı qiymətə satdığınız sübut olunmayanadək, sizin üçün "ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarı" yaranmır.

**Sual 1560:** Bir şəxs bir torpaq sahəsini müəyyən kvadrat metr sahəsi olan yer ünvanında satmış, amma sonra məlum olmuşdur ki, satılan torpağın həqiqi sahəsi bu şəxsin satıb pulunu aldığı sahədən çox imiş. Bu şəxsin torpağın artıq olan hissəsinin pulunu tələb etmək haqqı vardırmı?

**Cavab:** Əgər bu torpaq sahəsinin müəyyən kvadrat metr sahəsi olduğunu düşünüb onu bütövlükdə müəyyən qiymətə satıbsa, amma sonra onun sahəsinin çox olduğu məlum olubsa və nəticədə, bu torpaq sahəsinin qiyməti satdığı qiymətdən çoxdursa, ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarı yarandığına görə, onun sövdələşməni pozmaq haqqı vardır. Amma əgər torpaq sahəsinin hər kvadrat metrini müəyyən qiymətə satıbdırsa, artıq olan bir neçə kvadrat metr sahənin pulunu tələb edə bilər.

**Sual 1561:** Əgər iki şəxs bu şərtlə sövdələşmə etsələr ki, alıcının sövdələşmədə ziyana düşüb-düşmədiyinin məlum olması üçün alınan malın pulunu bir müddət ödəməyəcəkdir, bu sövdələşmə şəri baxımdan düzgündürmü? Əgər düzgündürsə, alıcının sövdələşməni pozmaq haqqı vardırmı?

**Cavab:** Malın pulunun ödənişini müəyyən müddətədək gecikdirmək şərtilə sövdələşmə etməyin - hətta məqsəd, alıcının bu sövdələşmədə ziyana düşüb-düşmədiyinin məlum olması olsa belə - maneəsi yoxdur. Amma alıcının ziyana düşdüyü sübuta yetməyənədək sövdələşməni pozmaq haqqı yoxdur.

**Sual 1562:** Əgər sövdələşmədə ziyana düşən tərəf qeyri-müsəlman olarsa, bu sövdələşmənin hökmü nədir?

**Cavab:** Ziyana düşmək səbəbilə sövdələşməni pozmaq ixtiyarının yaranması baxımından müsəlman və qeyri-müsəlman arasında fərq yoxdur.

**Sual 1563:** Mən bir evi bir şəxsə satdım. Bu şəxs evin pulunu mənə verdikdən və evi məndən təhvil aldıqdan sonra ziyana düşdüyünü və sövdələşməni pozduğunu elan etdi. Amma həmin vaxtdan etibarən müxtəlif səbəblərə görə evi boşaltmaqdan və mənə verdiyi pulu geri almaqdan boyun qaçırmışdır. İki il keçdikdən sonra isə iddia edir ki, mən sövdələşməni evin yarısı barəsində pozmuşam. İndi də məndən evin pulunun yarısını tələb edir. Nəzərə alsaq ki, o, sövdələşmədə ziyana düşdüyünü iddia etmiş və buna görə sövdələşməni pozmuşdur, şəri baxımdan evin yarısına sahib olduğunu iddia edə bilərmi?

**Cavab: Alıcının ziyana düşdüyü sübuta yetdiyi təqdirdə, alınan malın hamısı barəsində sövdələşməni pozmaq və verdiyi pulun geri qaytarılmasını tələb etmək haqqı vardır. Alınan malın yalnız bir hissəsi barəsində sövdələşməni pozmaq, yaxud verdiyi puldan artıq məbləğdə pul tələb etmək haqqı yoxdur.**

**Sual 1564:** İki şəxs sövdələşmə etmiş və bu sövdələşmə üçün adi bir sənəd tənzimləmişlər. Sövdələşmə əqdi əsnasında belə bir şərt qeyd etmişlər ki, əgər onlardan biri sövdələşmədən peşman olarsa, qarşı tərəfə müəyyən məbləğ pul verməlidir. Əgər tərəflərdən biri ziyan etdiyinə görə sövdələşmədən peşman olarsa, onun sövdələşməni pozmaq haqqı vardırmı? Əgər o, ziyana düşdüyünə görə sövdələşməni pozarsa, sözükeçən şərtə əməl etməlidirmi?

**Cavab: Sövdələşməni başa çatdırmaqdan imtina edən tərəfin qarşı tərəfə müəyyən məbləğ pul verəcəyi şərti əgər sövdələşmə əqdi əsnasında qeyd edilərsə, yaxud əqd bu şərt əsasında bağlanarsa, bu şərt öz-özlüyündə düzgündür və ona əməl etmək vacibdir. Amma bu, ziyana düşmə səbəbilə sövdələşməni pozmaq ixtiyarının yarandığı hallara şamil olmur.**

**Sual 1565:** Evi aldıqdan bir həftə sonra sövdələşmədə ziyana düşdüyüm məlum oldu. Buna görə də, sövdələşməni pozmaq üçün satıcıya müraciət etdim. Amma o, sövdələşməni pozmağa və mənim pulumu geri qaytarmağa razı olmadı, nəticədə, ev mənim ixtiyarımda və istifadəmdə qaldı. Bundan sonra evin qiyməti bahalaşdı, satıcı da sövdələşməni pozmağı və evi boşaltmağımı istədi. Mən isə onun istəyini qəbul etməkdən imtina etdim və ona verdiyim puldan artıq məbləğdə pul verəcəyi təqdirdə sövdələşməni pozmağa razılaşacağımı bildirdim. Amma o, artıq pul verməkdən imtina etdi. Sualım budur ki, ziyan etdiyim sübuta yetdikdən sonra sövdələşməni pozmaq üçün satıcıya müraciət etməyim, yaxud ona verdiyim puldan artıq məbləğdə pul verəcəyi təqdirdə sövdələşməni pozacağımı qəbul etməyim, sövdələşməni pozmaq hesab olunurmu, yoxsa yox?

**Cavab: Sövdələşməni pozmaq ixtiyarına malik olan tərəfin sövdələşməni pozmağa razılaşması üçün digər tərəfə müraciət etməsi, yaxud verdiyi puldan artıq məbləğdə pul alacağı təqdirdə aldığı malı satıcıya qaytaracağına razılaşması, sövdələşməni pozmaq hesab olunmur. Amma sövdələşməni pozmaq ixtiyarına malik olan tərəfin sövdələşməni poza bilməsi qarşı tərəfin razılığına və aldığı malı satıcıya qaytarmasına bağlı deyildir, buna görə də, əgər siz ziyana düşdüyünüzü bildikdən sonra sövdələşməni həqiqətən pozmusunuzsa, bu, şəri baxımdan düzgündür. Sövdələşməni pozduqdan sonra isə sözügedən evin sahibi deyilsiniz və siz ondan isitfadə etməməli, onu sahibinə təhvil verməlisiniz.**

## 7- Şərt sövdələşməsi[1] ixtiyarı:

**Sual 1566:** **Əgər bir şəxs bir şeyi başqa bir şəxsə "şərt sövdələşmə"si şəklində satarsa, satılan malı alıcıya təhvil verməmişdən qabaq satıcı və ya alıcı həmin malı başqa bir şəxsə sata bilərmi?**

**Cavab: Şərt sövdələşməsi baş tutduqdan sonra sövdələşmə pozulmayanadək satılan mal alıcının əmlakı sayılır və birinci sövdələşməni pozmayanadək satıcının bu malı başqa bir şəxsə satmaq haqqı yoxdur. Şərtdə qeyd edilən müddət başa çatdıqdan sonra alıcı bu malı başqa bir şəxsə sata bilər, baxmayaraq ki, onu satıcıdan hələ təhvil almamışdır. Bu şərtlə ki, satıcı qeyd edilən müddət ərzində sövdələşməni pozmamış olmalıdır.**

[1] Şərt müamiləsi – bu müamilə əqdinin mətnində şərt olaraq qeyd edilir ki, əgər müəyyən müddət ərzində satıcı malın pulunun hamısını və ya bir hissəsini alıcıya qaytararsa, satıcının müamiləni pozmaq ixtiyarı vardır.

## 8- Şərtə xilaf çıxma ixtiyarı:

**Sual 1567: Bir şəxs bir malı başqa bir şəxsdən bu şərtlə almışdır ki, iki ay ərzində malın pulunu ödəyəcəkdir və bu müddət ərzində alıcının sövdələşməni pozmaq ixtiyarı vardır. Amma alıcı sövdələşmə tarixindən yeddi ay sonra malı satıcıya qaytarmışdır və satıcı da malı bu şərtlə qəbul etmişdir ki, alıcı müəyyən edilmiş müddət ərzində sövdələşməni pozmadığına və bu işi gecikdirdiyinə görə malın pulundan müəyyən faizini çıxacaqdır, çünki bu gecikdirmə ona müəyyən ziyanın dəyməsinə səbəb olmuşdur. Belə ki, əgər sövdələşmə müəyyən edilmiş müddət ərzində pozulsaydı, satıcı bu malı satar və onun pulunu başqa ticarətlərə sərmayə qoyub gəlir əldə edərdi. Sual budur ki, müəyyən edilmiş müddət keçdikdən sonra alıcının sövdələşməni pozmaq haqqı vardırmı? Satıcı bunu qəbul etməlidirmi? Satıcının malın pulundan müəyyən faizini çıxmaq şərtilə sövdələşmənin pozulmasını qəbul etmək haqqı vardırmı?**

**Cavab: Müəyyən edilmiş müddət keçdikdən sonra sövdələşməni pozmaq ixtiyarına malik olan tərəfin sövdələşməni pozmaq və malı geri qaytarmaq haqqı yoxdur. Həmçinin o, satıcını sövdələşməni pozmağa vadar edə bilməz. Əlbəttə, onlar "iqalə" barəsində razılığa gələ bilərlər, amma "iqalə"ni qəbul etməsi üçün satıcı pulun müəyyən faizini çıxacağını şərt qoya bilməz. Əgər satıcı alıcının pulundan müəyyən məbləğ çıxmaqla "iqalə"ni qəbul edərsə, iqalə düzgün deyildir və pozulmuşdur.**

**Sual 1568: Sövdələşmənin tərəfləri (yəni satıcı və alıcı) sövdələşmədə olan məqsədlərinə nail olmadıqlarını iddia edərək sövdələşməni poza bilərlərmi?**

**Cavab: Əgər sövdələşmədə olan məqsədə nail olmamaq sövdələşmə əqdi əsnasında şərt olaraq qeyd edilməyibdirsə, yaxud sövdələşmə əqdi bunun əsasında bağlanmayıbdırsa, şəri baxımdan sövdələşməni pozmaq ixtiyarının yaranmasına səbəb olmur.**

**Sual 1569: Mən öz ticarət mağazamı müəyyən şərtlər daxilində adi sənədlə satdım. Şərtlərdən biri də bu idi ki, mağazanın vergilərini alıcı ödəyəcəkdir. Amma alıcı indiyədək onları ödəməmişdir. Mənim sövdələşməni pozmaq haqqım vardırmı, yoxsa yoxdur?**

**Cavab: Əgər sövdələşmə əqdi əsnasında açıq şəkildə şərt qoyulsa ki, alıcı vergiləri ödəmədiyi təqdirdə satıcının sövdələşməni pozmaq haqqı vardır, yaxud sövdələşmə əqdi bu şərtin əsasında bağlanarsa, satıcı üçün sövdələşməni pozmaq ixtiyarı yaranır.**

**Sual 1570: Bir şəxs bir torpaq sahəsini bu şərtlə almışdır ki, əgər dövlət torpağın rəsmi sənədinin onun adına keçməsinə icazə verməzsə, yaxud torpaq sahəsinin plana düşdüyü məlum olarsa, onun sövdələşməni pozmaq haqqı vardır. Alıcı bu torpaq sahəsində tikinti işləri aparmaq üçün lisenziya ala bilmədiyinə görə hal-hazırda satıcıdan sövdələşməni pozmasını və aldığı pulu geri qaytarmasını istəyir. Amma bu şərtlə ki, əgər İcra Hakimiyyəti indiki vaxtdan etibarən iki il müddətində bu torpaq sahəsində tikitinti işlərinə icazə verərsə, satıcı bu torpaq sahəsini əvvəlki qiymətinə ona yenidən satmalıdır. Alıcının belə bir şərt qoyması düzgündürmü?**

**Cavab: Sövdələşmə əqdi əsasında qeyd edilən şərt əsasında – belə ki, hər iki tərəf bu şərti qəbul etmişdir – alıcı sövdələşməni poza və torpağın pulunu satıcıdan tələb edə bilər. Amma sövdələşməni pozmaq əsnasında satıcının ziyanına olan hər hansı bir şərti qoymaq haqqı yoxdur.**

**Sual 1571: Satıcı və alıcı arasında müəyyən şərtlər daxilində sövdələşmə əqdi baş tutmuşdur, belə ki, alıcı satıcının xeyrinə olaraq bu şərtləri öhdəsinə götürmüşdür. Alıcı malın pulunun bir hissəsini beh ünvanında satıcıya vermiş, amma sövdələşmənin digər şərtlərinə əməl etməkdən boyun qaçırmışdır. Belə olduğu təqdirdə alıcının satıcını sövdələşməni başa çatdırmağa vadar etmək**

haqqı vardırmı?

**Cavab: Satıcı sövdələşməni "şərtə xilaf çıxma" səbəbilə pozmayana qədər sövdələşməyə vəfa etməlidir. Amma əgər onun sövdələşməni pozmaq haqqı vardırsa, alıcının bəzi şərtlərə əməl etməkdən boyun qaçırması səbəbilə olsa belə, sövdələşməni poza bilər. Belə olduğu təqdirdə, alıcının satıcını ondan aldığı pulu geri qaytarmaqdan qeyri bir şeyə vadar etmək haqqı yoxdur.**

## Sövdələşməni pozmaq ixtiyarının müxtəlif hökmləri

**Sual 1572: Haqqı tələb etməyi tərk etmək, yaxud haqqı tələb etməyi gecikdirmək – məsələn, iki il gecikdirmək – şəri baxımdan haqqın aradan getməsinə səbəb olurmu?**

**Cavab: Haqqı tələb etməmək, yaxud müəyyən bir müddət haqqı tələb etməmək haqqın aradan getməsinə səbəb olmur. Amma əgər haqqın öz-özlüyündə zaman məhdudiyyəti olarsa, haqq aradan gedir.**

**Sual 1573: Bir şəxs öz mülkünü müəyyən məbləği nağd və müəyyən məbləği nisyə şəklində müəyyən bir qiymətə satdı. Nağd pulu aldıqdan və mülkü alıcıya təhvil verdikdən sonra başqa bir şəxs həmin mülkü daha yüksək qiymətə almaq istədiyini bildirdi. Satıcı birinci sövdələşməni poza və mülkü ikinci alıcıya daha yüksək qiymətə sata bilərmi?**

**Cavab: Sövdələşmə düzgün şəkildə baş tutduqdan sonra sövdələşmə əqdinə vəfa etmək satıcıya vacibdir. Əgər şəri baxımdan sövdələşməni pozmaq ixtiyarı yoxdursa, sövdələşməni poza və satılan malı başqa bir şəxsə sata bilməz.**

**Sual 1574: Mən bir torpaq sahəsini başqa bir şəxsə satdım və şərtimiz bu oldu ki, onun pulunu dörd il ərzində ödəyəcəkdir. Amma elə sövdələşmə zamanı torpaq sahəsini satdığıma peşman oldum və bir il ötdükdən sonra alıcıdan onu geri qaytarmasını istədim. Amma o, torpaq sahəsini geri qaytarmaqdan imtina etdi. Bu sövdələşmədən dönmək üçün bir yol mövcuddurmu?**

**Cavab: Sövdələşmə baş tutduqdan sonra peşman olmağın şəri baxımdan heç bir etibarı yoxdur. Buna görə də, sövdələşmə düzgün şəkildə baş tutduqdan sonra sövdələşmə əqdi satılan malın alıcının ixtiyarına keçməsi barəsində qüvvədədir və satıcının onun geri almaq haqqı yoxdur. Amma əgər sövdələşməni pozmaq ixtiyarı yaradan səbəblərdən biri mövcud olduğuna görə sövdələşməni pozmaq ixtiyarı olarsa, bu halda sövdələşməni poza bilər.**

**Sual 1575: Bir şəxs rəsmi sənədi olan torpaq sahəsini adi sənədlə və sövdələşməni pozmaq ixtiyarları ortadan qaldırılaraq satmışdır. Amma rəsmi sənəd onun adına olduğuna görə sui-istifadə edərək həmin torpaq sahəsini başqa bir şəxsə yenidən satmışdır. Onun ikinci sövdələşməsi düzgündürmü?**

**Cavab: Torpaq sahəsinin satışı düzgün şəkildə baş tutduqdan və sövdələşməni pozmaq ixtiyarları ortadan qaldırıldıqdan sonra satıcının həmin torpaq sahəsini başqa bir şəxsə yenidən satmaq haqqı yoxdur. Onun bu sövdələşməsi füzulidir və sövdələşmənin düzgünlüyü birinci alıcının icazəsinə bağlıdır.**

**Sual 1576: Bir şəxs sement zavodundan müəyyən miqdarda sement almışdır, bu şərtlə ki, onu tədricən və bir neçə dəfəyə təhvil alacaqdır. Sementin pulunu isə tam ödəmişdir. Alıcı sementin bir hissəsini zavoddan təhvil aldıqdan sonra bazarda sementin qiyməti bir xeyli qalxdı. Zavod bu şəxslə etdiyi sövdələşməni poza və sementin qalan hissəsini alıcıya təhvil verməkdən imtina edə bilərmi?**

**Cavab: Sövdələşmə şəri baxımdan düzgün şəkildə baş tutduqdan sonra – istər nağd şəkildə olsun, istər nisyə şəklində olsun, istərsə də sələf sövdələşməsi[1] şəklində - sövdələşməni pozmaq üçün satıcının şəri ixtiyarlarından heç biri mövcud olmadığı təqdirdə, sövdələşməni birtərəfli pozmağa haqqı yoxdur.**

**Sual 1577: Mən bir evi adi sövdələşmə sənədi ilə aldım, bu şərtlə ki, evin pulunun bir hissəsini nağd şəkildə, qalanını isə müəyyən edilən vaxtadək ödəyəcəyəm, habelə, evin sənədi üç ay ərzində rəsmi şəkildə mənim adıma keçəcəkdir. Amma mən pulun**

qalan hissəsini müəyyən edilən vaxtda satıcıya verə bilmədim və o da heç bir etiraz bildirmədi. Beləcə, dörd aydan sonra mən pulun qalanını ödəmək və evi təhvil almaq üçün satıcıya müraciət etdim. Amma o, evi mənə təhvil verməkdən imtina etdi və ödəniş üçün müəyyən edilən vaxt tamamlandıqdan sonra sövdələşməni pozduğunu iddia etdi. Nəzərə alsaq ki, sövdələşməni pozduqdan sonra məndən aldığı pulu geri qaytarmamışdır və evi də bu müddət ərzində icarəyə verib icarə pulu almışdır, mən müəyyən edilən vaxtda pulu ödəmədiyimə görə onun sövdələşməni pozmağa haqqı vardırmı?

**Cavab: Ödəniş üçün müəyyən edilən vaxtda evin pulunun bir hissəsini satıcıya ödəməmək satıcı üçün sövdələşməni pozmaq haqqının yaranmasına səbəb olmur. Buna görə də, əgər ev şəri baxımdan düzgün şəkildə alınıbsa, amma satıcının istifadəsində qalıbsa və sövdələşməni pozmaq ixtiyarı olmadığı bir halda satıcı evi icarəyə veribdirsə, onun icarə əqdi füzulidir və əqdin düzgünlüyü alıcının icazəsinə bağlıdır. Satıcı evi alıcıya təhvil verməkdən əlavə, icarəçidən icarə haqqı ünvanında aldığı pulu alıcıya təhvil verməlidir. Amma əgər alıcı icarə əqdinə icazə verməzsə, bu halda alıcı həmin müddətdə o evdən istifadənin "ücrətül-misl"ini[2] tələb edə bilər.**

**Sual 1578:** Satıcı üçün sövdələşməni pozmaq ixtiyarı yaranmadığı bir halda onun sövdələşməni pozmaq haqqı vardırmı? Sövdələşmə baş tutduqdan sonra satıcı satılan malın qiymətini artıra bilərmi?

**Cavab: Sözügedən işlərin heç birini görmək haqqı yoxdur.**

**Sual 1579:** Bir şəxs başqa bir şəxsdən ev almışdır və o şəxs də bu evi evlər idarəsindən almışdır. Sövdələşmə tamamlandıqdan və satıcı evin pulunu alıcıdan aldıqdan sonra evlər idarəsi bildirir ki, idarəyə ödədiyi puldan əlavə alıcı müəyyən məbləğ də ödəməlidir. Alıcı satıcını bu məsələdən xəbərdar edir və idarənin tələb etdiyi əlavə məbləği ödəməsini satıcıdan istəyir. Əks təqdirdə, sövdələşməni pozacağını və verdiyi pulu geri alacağını bildirir. Amma satıcı idarənin tələb etdiyi əlavə məbləği ödəməkdən imtina edir, nəticədə, idarə həmin evi başqa bir şəxsə satmağı qərara alır. Bu halda alıcı verdiyi pulu geri almaqdan ötrü kimə müraciət etməlidir? Sözügedən idarəyə, yoxsa satıcıya, yoxsa evi alan ikinci alıcıya?

**Cavab: Əgər şərt nəticəsində və ya başqa bir səbəbə görə sövdələşmə pozularsa, alıcı pulu satıcıdan tələb etməlidir.**

**Sual 1580:** Bir şəxs bir heyvan alır, sonra onu bazara aparır. Məqsədi də bu olur ki, əgər həmin heyvan üçün müştəri çıxarsa, onu satsın, əks təqdirdə sövdələşməni pozsun. Bu məqsədi onun üçün sövdələşməni pozmaq haqqı yaradırmı?

**Cavab: Sualda deyilənlərə əsasən, satılan mal heyvan olduğuna görə sövdələşmə günündən etibarən üç gün ərzində sövdələşməni pozmaq ixtiyarı vardır.**

**Sual 1581:** Bir neçə şəxs bir mülkü bir şəxsdən aldılar və pulun bir hissəsini bir neçə dəfəyə ona ödədilər. Pulun qalan hissəsini ödəmələri üçün mülkün rəsmi sənədinin onların adına keçməsini şərt kəsdilər. Amma satıcı bu işi görməkdə səhlənkarlıq etmiş və mülkün rəsmi sənədini onların adına keçirməkdən imtina etmiş, sövdələşməni pozduğunu elan etmişdir. Satıcı sövdələşməyə əməl etməlidirmi? Yoxsa onun tərəfindən sövdələşmənin pozulması düzgün hesab olunur?

**Cavab: Satıcı üçün sövdələşməni pozmaq ixtiyarını yaradan səbəblər, o cümlədən, şərt, ziyana düşmə və bu kimi səbəblər mövcud olmadığı təqdirdə onun tərəfindən sövdələşmənin pozulması düzgün deyildir. O, sövdələşməyə əməl etməlidir və mülkün rəsmi sənədini alıcıların adına keçirmək şəri baxımdan ona vacibdir.**

**Sual 1582:** Bir şəxs başqa bir şəxsdən bir mal almış və pulun bir hissəsini ödədikdən sonra həmin malı bir qədər artıq qiymətə başqa bir şəxsə satmışdır. Amma ikinci alıcı maldan istifadə etdikdən sonra satıcının bu malın satışından gəlir əldə etdiyini bilib, malı aldığına peşman olduğunu bildirmişdir. O, buna görə sövdələşməni poza bilərmi?

**Cavab: Əgər ikinci alıcı üçün sövdələşməni pozmaq ixtiyarlarından biri mövcud olarsa,**

## sövdələşməni poza bilər. Əks təqdirdə, sövdələşməni poza bilməz.

[1] Sələf müaviləsi – yəni malın pulu öncədən verilir, amma mal sonradan təhvil alınır.

[2] Ücrətül-misl – yəni ürfün nəzərində bir iş üçün və ya bir şeyi icarəyə götürmək üçün ödənilən ücrət miqdarı.

## Satılan mala aid olan əşyalar

**Sual 1583:** **Bir şəxs öz evini satmış və evi satdıqdan sonra lampaları, su qızdırıcısını və bu kimi əşyaları evdən götürmüşdür. Bu işin hökmü nədir?**

**Cavab: Bu və bu kimi əşyalar əgər ev satılarkən ürfdə evə aid olan əşyalar hesab olunmazsa, habelə, əgər bu əşyaları evdə saxlamaq satıcı qarşısında şərt qoyulmazsa, satıcının bu əşyaları özünə götürməsinin maneəsi yoxdur.**

**Sual 1584:** **Mən bir evi maşın duracağı və başqa əşyaları ilə birlikdə aldım. Amma satıcı təkcə evi mənə təhvil verdi və sövdələşmə sənədindən maşın duracağının satıldığına dəlalət edən hissəni çıxartdı. Halbuki, maşın duracağına və sövdələşmə sənədində qeyd edilən başqa əşyalara görə məndən pul almışdı. Bu məsələnin hökmü nədir?**

**Cavab: Satıcı satılan malı bu mala aid olan əşyalarla birlikdə - hansı ki, sövdələşmə bunun əsasında baş tutmuşdur – alıcıya təhvil verməlidir. İstər bu əşyalara görə pul verilmiş olsun, istərsə də bu əşyaların satılan mal ilə birlikdə satılması şərt qoyulmuş olsun. Alıcı satıcını bu əşyaları təhvil verməyə vadar edə bilər.**

**Sual 1585:** **Mən bir evin ikinci mərtəbəsini almışam və oranı aldığım zaman su kondisioneri eyvanda idi, indi də eyvandadır. Bu kondisionerə su birinci mərtəbədəki əsas borudan çəkilən su borusundan gəlir və bu su borusu divarın üstü ilə kondisionerə qədər çəkilmişdir. İndi isə birinci mərtəbənin sahibi birinci mərtəbədən istifadə haqqının ona mənsub olduğunu əsas gətirərək, kondisionerin su borusunu kəsmişdir. Onun bu əməlinin hökmü nədir?**

**Cavab: Əgər sövdələşmə əqdində birinci mərtəbənin həyətindəki su borusundan sizin də istifadə etmək haqqınız olduğu qeyd edilməyibdirsə, birinci mərtəbənin sahibini buna vadar edə bilməzsiniz.**

## Malın təhvil verilməsi və pulunun ödənilməsi

**Sual 1586:** **Mənim qohumlarımdan olan bir şəxsin bir böyrəyi öz funksiyasını tam itirdi və kənar bir şəxs öz böyrəklərindən birini müəyyən qiymətə ona verməyə hazır olduğunu bildirdi. Amma lazımi analizlərdən sonra bu şəxsin böyrəyinin xəstəyə köçürülməsinin qabil olmadığı məlum oldu. Bir neçə gün öz işindən qaldığına görə bu şəxs razılaşdırılan məbləği xəstədən tələb edə bilərmi?**

**Cavab: Əgər razılaşdırılan məbləğ böyrəyin verilməsi qarşılığında olarsa və bu şəxsin böyrəyi onun bədənindən götürüldükdən sonra böyrəyin xəstəyə köçürülməsinin qabil olmadığı məlum olarsa, bu şəxs razılaşdırılan qiymətin hamısını tələb edə bilər, baxmayaraq ki, xəstə onun böyrəyindən istifadə etməmişdir. Amma əgər böyrək bu şəxsin bədənindən götürülməmişdən qabaq məsələ məlum olarsa və xəstə bu şəxsi məlumatlandırarsa, onun xəstədən bir şey tələb etməyə haqqı yoxdur.**

**Sual 1587:** **Mən öz yaşayış mənzilimi adi sənədlə satdım və pulun bir hissəsini də aldım. Qərara alındı ki, pulun qalan hissəsini ev rəsmi şəkildə alıcının adına keçirilən zaman ondan alacağam. Amma indi mənzilimi satdığıma görə peşman olmuşam, digər tərəfdən isə alıcı evi boşaltmağımı təkidlə tələb edir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər sövdələşmə şəri baxımdan düzgün şəkildə baş tutubsa, satıcı üçün sövdələşməni pozmaq haqqı yaranmadığı təqdirdə, o, ancaq peşman olduğuna və satılan mala ehtiyacı olduğuna görə malı alıcıya təhvil verməkdən boyun qaçıra bilməz.**

**Sual 1588:** **Karxanadan daşları təhvil almaqdan ötrü Daş Karxanaları İdarəsindən zəmanət sənədi aldım. Amma malı təhvil aldıqdan sonra məlum oldu ki, daşın son və dəqiq qiyməti müəyyən edilməyibdir. Daşın qiymətinin müəyyən edilməsi üçün idarəyə müraciət etdim. Mənə dedilər ki, daşın qiyməti tez bir zamanda cüzi dəyişiklik ilə idarə tərəfindən elan ediləcəkdir. Amma idarə daşın qiymətini əvvəlki qiymətin bir neçə misli qədər elan etdi, mən də bu qiyməti qəbul etmədim. Nəzərə alsaq ki, həmin müddət ərzində mən daşları kəsib satmışdım, bu məsələnin hökmü nədir?**

**Cavab: Sövdələşmənin düzgün olması şərtlərindən biri də, satılan malın və onun qiymətinin elə bir şəkildə müəyyən edilməsidir ki, “ğərər” (yəni malın xüsusiyyətlərinin məlum olmaması) və “cəhl” (məlumatsızlıq) aradan qalxmalıdır. Buna görə də, əgər daşların təhvil alındığı gün sövdələşmə şəri baxımdan düzgün şəkildə baş tutmayıbdırsa, alıcı daşları kəsib satdığı günün qiymətinə bu daşlara zamindir.**

**Sual 1589:** **Bir şəxs öz qızından ev almış və evin pulunu da qızına vermişdir, amma ev qadının ərinin istifadəsindədir. Əri qadını bilərəkdən incidir və hədəyir ki, əgər bu sövdələşməni inkar etməzsə, onu boşayacaqdır. Bu səbəbdən də evin təhvil verilməsində problem yaranmışdır. Evi təhvil vermək, yaxud onun pulunu geri qaytarmaq evi satan bu qadının öhdəsindədir, yoxsa onun ərinin öhdəsindədir?**

**Cavab: Satılan malı təhvil vermək, yaxud malın pulunu alıcıya geri qaytarmaq satıcıya vacibdir.**

**Sual 1590:** **Mən bir evi adi sənədlə aldım və satıcı qarşısında şərt qoydum ki, notariusa gəlib evi rəsmi şəkildə mənim adıma keçirməlidir. Amma satıcı öz öhdəliyinə əməl etmədi və evi mənə təhvil verməkdən, habelə, evi rəsmi şəkildə mənim adıma keçirməkdən imtina etdi. Bu işi görməsini ondan tələb etmək haqqım vardırmı?**

**Cavab: Əgər sizin aranızda baş tutan və barəsində adi müqavilə tənzimlədiyiniz sövdələşmə şəri baxımdan düzgün olan alğı-satqı olubdursa, satıcının sövdələşmədən dönmək və**

**sövdələşməyə əməl etməkdən imtina etmək kimi bir haqqı yoxdur. Əksinə, o, şəri baxımdan evi sizə təhvil vermək və evin rəsmi şəkildə sizin adınıza keçməsi üçün gərəkli olan işləri görmək vəzifəsini daşıyır. Müqaviləyə əməl etməsini ondan tələb etmək haqqınız vardır.**

**Sual 1591: Satıcı və alıcı arasında baş tutan ticarət sövdələşməsi əsasında alıcı öhdəsinə götürmüşdür ki, aldığı malın pulunu həftəlik olaraq hissə-hissə ödəyəcəkdir. Alıcı satıcıya hər dəfə ödədiyi məbləği öz dəftərində qeyd edirmiş. Satıcı da alıcıdan hər dəfə aldığı məbləği öz dəftərində qeyd edirmiş, həmçinin alıcının dəftərində aldığı hər məbləğin altında imza çəkirmiş. Təxminən dörd ay keçdikdən sonra alıcının hissə-hissə ödədiyi pulların hesabını aparırlar və məlum olur ki, alıcının borcunun məbləği barəsində ixtilaf mövcuddur. Alıcı ixtilaflı məbləği ödədiyini iddia edir, amma satıcı bunu inkar edir. Nəzərə alsaq ki, ixtilaflı məbləğ iki dəftərin heç birində qeyd edilməyibdir, bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər alıcının sözügedən ixtilaflı məbləği satıcıya verdiyinə dair iddiası sübuta yetərsə, alıcının öhdəsində heç nə yoxdur. Əks təqdirdə, bu məbləği aldığını inkar edən satıcının sözü öndə tutulacaqdır.**

## Nağd və nisyə sövdələşmə

**Sual 1592:** **Malı bir il müddətinə nisyə şəklində onun nağd qiymətindən baha qiymətə almağın hökmü nədir? Müəyyən müddət sonra nağd edilə bilən pul çekini bu çekdə qeyd edilən məbləğdən yuxarı və ya aşağı qiymətə satmağın hökmü nədir?**

**Cavab: Malı nisyə şəklində onun nağd qiymətindən baha qiymətə almağın və satmağın maneəsi yoxdur. Pul çekinin alğı-satqısının hökmü isə 1950-ci məsələdə qeyd edilmişdir.**

**Sual 1593:** **Maşını satan şəxs maşının nağd qiymətinin filan məbləğ, on aylıq kreditlə satış qiymətinin isə filan məbləğ olduğunu söyləyir. Alıcı da maşının kreditlə satış qiymətindəki artıq məbləğin pulun on ay ərzindəki faizi olduğunu düşünür və bu əsasla sövdələşmə baş tutur. Nəzərə alsaq ki, alıcı maşının nağd qiymətindən artıq olan məbləği pulun faizi ünvanında ödədiyini və sövdələşmənin "sələmli sövdələşmə" olduğunu düşünür, belə olduğu halda bu sövdələşmə sələmli və düzgün olmayan sövdələşmə hesab olunmurmu?**

**Cavab: Bu sövdələşmə əgər nisyə şəklindədirsə və maşının pulu kredit şəklində ödənilirsə, maneəsi yoxdur. Bu kimi sövdələşmələr sələmli sövdələşmə hesab olunmur.**

**Sual 1594:** **Sövdələşmə əqdində mal və malın pulu üçün bu şəkildə müddət qeyd edilmişdir ki, malın pulu bir il ərzində kredit şəklində ödəniləcəkdir, mal isə birinci ödəniş edilən tarixdən etibarən bir il sonra alıcıya təhvil veriləcəkdir. Əgər birinci ödəniş müəyyən edilən vaxtdan xeyli gecikdirilərsə, satıcının sövdələşməni pozmaq ixtiyarı vardırmı?**

**Cavab: Sualda deyilənlərə əsasən, bu sövdələşmə "sələf sövdələşməsi" şəklindədir və burada sövdələşmə əqdi zamanı pul nağd şəkildə ödənməlidir, əks təqdirdə, sövdələşmə kökündən yanlışdır.**

**Sual 1595:** **Əgər malın pulu kredit şəklində ödənilərsə və birinci ödəniş adi vaxtından gecikdirilərsə, eyni zamanda əgər ödəniş üçün müəyyən vaxt müəyyən edilməyibsə və ödəniş gecikdirildiyi təqdirdə satıcı üçün sövdələşməni pozmaq ixtiyarının yaranacağı da qeyd edilməyibsə, sözügedən gecikməyə görə satıcı üçün sövdələşməni pozmaq ixtiyarı yaranırmı, yoxsa yox?**

**Cavab: Nisyə sövdələşmədə malın pulunun ödəniş vaxtı müəyyən edilməlidir. Buna görə də, əgər kredit şəklində olan ödənişin vaxtı müəyyən edilmədən nisyə sövdələşmə baş tutarsa, bu sövdələşmə kökündən yanlışdır. Amma əgər ödəniş vaxtı müəyyən edilərsə və alıcı ödənişi müəyyən edilən vaxtdan gecikdirərsə, bu gecikdirmə satıcı üçün sövdələşməni pozmaq ixtiyarının yaranmasına səbəb olmur.**

**Sual 1596:** **Bir ərazidə bir texniki peşə məktəbi tikilmiş və təhsil nazirliyi bu torpaq sahəsinin pulunu onun sahiblərinə verəcəyini öhdəsinə götürmüşdür. Amma peşə məktəbinin binası tikilib qurtardıqdan sonra təhsil nazirliyi torpaq sahəsinin pulunu onun sahiblərinə verməkdən boyun qaçırır. Torpaq sahəsinin sahibləri də bu məsələyə öz narazılıqlarını bildirmişlər və məktəb binasının qəsbi olduğunu, orada namaz qılmağın düzgün olmadığını hesab edirlər. Bu məsələnin hökmü nədir?**

**Cavab: Torpaq sahəsinin sahibləri bu ərazini təhsil nazirliyinə təhvil verməklə peşə məktəbinin tikilməsinə razı olduqdan və torpaq sahəsinin pulunu təhsil nazirliyindən almaq şərtilə bu ərazini sözükeçən nazirliyin ixtiyarına verdikdən sonra daha bu torpaq sahəsində onların heç bir haqqı yoxdur və bu torpaq sahəsi qəsbi deyildir. Əlbəttə, torpaq sahəsinin pulunu təhsil nazirliyindən tələb etmək haqları vardır. Buna görə də, həmin binada təhsil almaq və namaz qılmağın şəri baxımdan maneəsi yoxdur və torpaq sahəsinin əvvəlki sahiblərinin razılığına bağlı deyildir.**

## Sələf sövdələşməsi

**Sual 1597: Mən bir yaşayış mənzilini bir şirkətdən sələf sövdələşməsi şəklində almışam. Evin pulunun bir hissəsini kredit şəklində ödəyib qəbz almışam, pulun qalan hissəsini isə hələ də borcluyam. Amma həmin şirkət mənim evimi "Məskən Bankı"na satmış və qərar vermişdir ki, mən başqa bir mənzili günün qiymətinə, yəni əvvəlki qiymətin dörd misli qədər olan bir qiymətə şirkətdən təhvil alım. Bu məsələnin hökmü nədir?**

**Cavab: Sözükeçən mənzili kredit şəklində almaq kökündən yanlışdır, çünki sələf sövdələşməsinin düzgün olma şərtlərindən biri malın pulun hamısını nağd şəkildə elə sövdələşmə məclisində satıcıya verməkdir. Buna görə də, əgər sözükeçən mənzil sələf sövdələşməsi şəklində alınıbsa və sövdələşmə məclisində malın pulunun hamısı nağd şəkildə satıcıya verilibsə, satıcı satılan malı alıcıya təhvil verməlidir. Satılan malı alıcının təhvil ala bilməsi üçün satıcının alıcıdan artıq pul tələb etməyə haqqı yoxdur. Həmçinin satıcının satılan maldan qeyrisini alıcıya təhvil verməyə haqqı yoxdur və nəinki alıcıdan artıq pul tələb etməyə, hətta bu malı eyni qiymətə ona satsa belə, alıcı bunu qəbul etməyə məcbur deyildir.**

**Sual 1598: Mən tikintisi tamamlanmamış bir yaşayış mənzilini kredit şəklində aldım. Sonra isə mənzilin tikintisi tamamlanmamışdan və mən onu satıcıdan təhvil almamışdan qabaq onu başqa bir şəxsə satdım. Bu alğı-satqı düzgündürmü?**

**Cavab: Əgər aldığınız mənzil müəyyən və bəlli bir mənzildirsə və siz onu nisyə və kredit şəklində almısınızsa, bu şərtlə ki, satıcı onun tikintisini tamamlayacaqdır, bu mənzili almağın, həmçinin mənzilin tikintisi tamamlanmamış onu satmağın və onu satıcıdan təhvil almağın maneəsi yoxdur.**

**Sual 1599: Mən Tehran Beynəlxalq Kitab Sərgisindən sələf sövdələşməsi şəklində bir neçə kitab aldım, belə ki, kitabların pulunun yarısını məndən aldılar, yarısını isə kitabları təhvil verərkən alacaqlar. Ödəniş vaxtı isə müəyyən deyildir. Bu sövdələşmə düzgündürmü?**

**Cavab: Əgər öncədən ödənilən məbləğ beh ünvanında olarsa və sövdələşmə kitablar təhvil verilərkən və pulun qalan hissəsi ödənilərkən baş tutarsa, sövdələşmənin maneəsi yoxdur. Amma əgər sövdələşmə kitabların pulunun bir hissəsi ödənilərkən baş tutarsa və nisyə şəklində olarsa, eyni zamanda pulun qalan hissəsinin ödəniş vaxtı müəyyən edilməzsə, yaxud sövdələşmə sələf sövdələşməsi şəklində olarsa, amma kitabların pulunun hamısı sövdələşmə məclisində nağd şəkildə ödənilməzsə, bu sövdələşmə şəri baxımdan düzgün deyildir. Qeyd etmək lazımdır ki, sələf sövdələşməsində ödənilən məbləğ barəsində sövdələşmə düzgündür, amma satıcı həmin məbləğ barəsində də sövdələşməni poza bilər.**

**Sual 1600: Bir şəxs başqa bir şəxsdən müəyyən malı bu şərtlə alır ki, malı bir müddətdən sonra təhvil alacaqdır. Amma müəyyən edilən vaxt çatanda sözügedən mal öz dəyərini itirir. Bu halda alıcı malın özünü təhvil almalıdır, yoxsa malın pulunu geri almalıdır?**

**Cavab: Əgər sövdələşmə şəri baxımdan düzgün şəkildə baş tutarsa, alıcı malın özünü təhvil almalıdır. Əlbəttə, əgər sözükeçən malın öz dəyərini tamamilə itirməsi ürfdə malın tələf olması hesab olunarsa, bu halda sövdələşmə öz-özünə pozulur və satıcı malın pulunu alıcıya**

**qaytarmalıdır.**

## Qızıl, gümüş, pul alışı və satışı

**Sual 1601:** **Əgər qızıl külçəsi nağd şəkildə bugünkü günün məzənnəsinə görə müəyyən qiymətə satılırsa, iki tərəfin razılığı ilə bu qızıl külçəsini bir ay müddətinə nisyə şəklində bugünkü günün məzənnəsindən baha qiymətə satmaq olarmı? Onun satışından əldə edilən gəlir halaldır, yoxsa yox?**

**Cavab: Sövdələşmə əqdində – sövdələşmə istər nağd olsun, istər nisyə olsun – qiymətin müəyyən edilməsi iki tərəfin razılığına bağlıdır. Buna görə də, sözügedən sövdələşmə və ondan əldə edilən gəlirin maneəsi yoxdur. Qeyd etmək lazımdır ki, qızılın qızıla sövdələşməsinin nisyə şəklində olmasına, yaxud satılan qızılın qarşılığında dəyəri artıq olan qızılı almağa icazə verilmir.**

**Sual 1602:** **Qızıl zinət əşyaları düşəltməyin (zərgərlik) hökmü nədir? Qızılın sövdələşməsinin hansı şərtləri vardır?**

**Cavab: Qızıl zinət əşyaları düzəltməyin və satmağın maneəsi yoxdur. Amma qızılın qızıla sövdələşməsinin nağd olması, satılan və alınan malın bərabər dəyərdə olması, habelə, bunların sövdələşmə məclisində verilib-alınması şərtdir.**

**Sual 1603:** **Kağız pulu nisyə şəklində onun məbləğindən artıq qiymətə satmağın və almağın hökmü nədir?**

**Cavab: Əgər sözügedən sövdələşmə ciddi və məntiqi məqsəd daşıyarsa, məsələn, kağız pullar köhnə və təzə olma baxımından fərqlənərsə, yaxud xüsusi əlamətlərə malik olarsa, yaxud onların qiyməti bir-birindən fərqlənərsə, bu sövdələşmənin maneəsi yoxdur. Amma əgər bu sövdələşmə formal olub ribadan (sələmdən) qaçmaq məqsədi daşıyarsa və həqiqətdə pulun faizini əldə etməkdən ötrü olarsa, bu sövdələşmə şəri baxımdan haramdır və düzgün deyildir.**

**Sual 1604:** **Bəzi şəxslər ümumi telefonlarda istifadə olunan dəmir pulları onların öz dəyərindən artıq qiymətə satırlar. Məsələn, otuz beş tumən dəmir pul verib əlli tumən kağız pul alırlar. Bu pulları satmağın və almağın hökmü nədir?**

**Cavab: Ümumi telefonlarda və ya başqa məqsədlə istifadə olunması üçün dəmir pulları onların öz məbləğindən artıq qiymətə satmağın və almağın maneəsi yoxdur.**

**Sual 1605:** **Əgər bir şəxs köhnə pulu yeni və işlənən pul qiymətinə satarsa və ya alarsa, amma köhnə pulun dəyərinin yeni pulun dəyərinin yarısı qədər olduğunu bilməzsə, sonra alıcı da bu pulu başqa bir şəxsə yeni pul qiymətinə satarsa, bu halda ziyana səbəbkar olan şəxs ziyana düşən şəxsi ziyana düşdüyündən xəbərdar etməlidirmi? Alıcının ziyana düşməsilə nəticələnən bu sövdələşmələr düzgün hesab olunurmu? Bu yolla əldə edilən puldan istifadə etmək olarmı, yoxsa bu pul "sahibi bilinməyən mal" və ya "harama qarışmış halal mal" hökmündədir?**

**Cavab: Köhnə pulları satıcı və alıcının razılığa gəldikləri qiymətə almağın maneəsi yoxdur, baxmayaraq ki, köhnə pulun dəyəri yeni və işlənən pulun dəyərindən olduqca azdır. Satılan köhnə pul "mal" hesab olunduğu və dəyəri işlənən puldan az olsa da bazarda bir dəyəri olduğu təqdirdə sövdələşmə düzgündür, baxmayaraq ki, bu sövdələşmə alıcının ziyana düşməsilə nəticələnir. Ziyana səbəbkar olan şəxsin ziyana düşən şəxsi ziyana düşdüyündən xəbərdar etməsi vacib deyildir. Ziyana səbəbkar olan şəxsin belə sövdələşmədən əldə etdiyi pul onun başqa əmlakı hökmündədir (yəni onun əmlakı hesab olunur) və ziyana düşən şəxs**

**sövdələşməni pozmayanadək o, bu puldan istifadə edə bilər.**

**Sual 1606: Bəzi kağız pulları "mal" ünvanında və ya mal hesab olunduğuna və etibalılığı olduğuna görə deyil, xüsusi bir kağız olması baxımından satmaq və almağın hökmü nədir? Məsələn, İmam Xomeyninin (r.ə) şəkli olan min tümənlik yaşıl kağız pulu onun öz məbləğindən artıq qiymətə satmağın və almağın hökmü nədir?**

**Cavab: Əgər bu kağız pulları satmaq və almaq ciddi və məntiqi bir məqsəd daşıyarsa, maneəsi yoxdur. Amma əgər sövdələşmə formal olub "borc sələmi"ndən qaçmaq məqsədi daşıyarsa, haramdır və düzgün deyildir.**

**Sual 1607: Valyuta mübadiləsi işi üzrə işləmək və az tapılan valyutaları satmaq və almağın hökmü nədir?**

**Cavab: Öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1608: Dövlət istiqrazlarını almağın hökmü nədir? Bu istiqrazları almağa və satmağa şəri baxımdan icazə verilirmi?**

**Cavab: Əgər milli istiqraz vərəqlərinin çap edilməsi və satılması yolu ilə dövlətin millətdən borc alması nəzərdə tutulursa, bu vərəqləri alaraq millətin dövlətə borc verməkdə iştirak etməsinin maneəsi yoxdur. Həmçinin əgər bu vərəqləri başqalarına satmaq qanuna zidd olmazsa, onu satmağın maneəsi yoxdur.**

## Ticarətin müxtəlif məsələləri

**Sual 1609:** **Bəzi istehsal müəssisələri başqa müəssisələrin istehsalı olan avadanlıq hissələrini quraşdıraraq avadanlıqlar düzəldir və bunları tanınmış xarici ölkələrin məhsulu adı ilə bazara satışa çıxarırlar. Bu iş “ğəşş”[1] və “tədlis”[2] hesab olunurmu? Əgər belədirsə, alıcı məsələdən xəbərdar olmadığı təqdirdə bu avadanlıqların sövdələşməsi düzgün hesab olunurmu, yoxsa yox?**

**Cavab: Əgər alıcı sözügedən avadanlığa baxdıqda onun, yaxud onun hissələrinin daxili və ya xarici istehsal olduğunu ayırd edə bilirsə, bu hissələri quraşdıraraq avadanlıqların düzəldilməsinə “təqəllüb” (saxtakarlıq, hiylə işlətmək) və “tədlis” deyilmir. Amma onlar barəsində həqiqətə zidd məlumat vermək yalan hesab olunur və haramdır. Əgər sözügedən avadanlıq həqiqətə zidd olan xüsusiyyətlərlə təqdim olunsa və sövdələşmə bunun əsasında baş tutarsa, sövdələşmə düzgündür, amma alıcı həqiqəti bildikdən sonra sövdələşməni pozmaq ixtiyarı vardır.**

**Sual 1610:** **İstehsal müəssisələrinin və ya mağazaların sahibləri öz müəssisə və mağazalarının lövhəsində xarici dildə yazılar yazdıra bilərlərmi? Yaxud alıcıların diqqətini çəkməkdən ötrü uşaq geyimlərinin üstündə xarici yazılar və şəkillər çap etdirə bilərlərmi?**

**Cavab: Əgər alıcını aldatmaq məqsədi daşımazsa, həmçinin yad mədəniyyəti yaymaq hesab olunmazsa, maneəsi yoxdur. Amma İslam hökumətinin qanunlarına riayət etmək lazımdır.**

**Sual 1611:** **Daha çox maddi və ya elmi mənfəət əldə etmək üçün qeyri-müsəlmanlarla sövdələşmədə (onlar başa düşmədən) saxtakarlıq etmək, yalan danışmaq və aldatmağın hökmü nədir?**

**Cavab: Sövdələşmədə yalan danışmağa, aldatmağa və saxtakarlıq etməyə icazə verilmir, hətta qarşı tərəf qeyri-müsəlman olsa belə.**

**Sual 1612:** **Malın satışından hansı miqdarda qazanc götürməyə icazə verilir?**

**Cavab: Qazanc götürməyin müəyyən bir miqdarı yoxdur. Buna görə də, camaata sıxıntı yaratmaq həddində olmayan, həmçinin dövlətin qanunlarına zidd olmayan bir miqdarda qazanc götürməyin maneəsi yoxdur. Amma daha yaxşı olar ki, hətta müstəhəbdir ki, satıcı onun xərclərini təmin edəcək miqdarda qazanc götürməklə kifayətlənsin.**

**Sual 1613:** **Bir şəxs öz mülkiyyətində olan suyu müxtəlif şəxslərə müxtəlif qiymətlərə satmışdır. Məsələn, suyun bir hissəsini bir şəxsə on min tümənə, həmin miqdarda olan başqa bir hissəsini isə başqa bir şəxsə on beş min tümənə satmışdır. Nəzərə alsaq ki, bu suların hamısı eyni suvarma kanalından və ya eyni quyudandır, qiymət fərqinə görə bizim etiraz etmək haqqımız vardırmı?**

**Cavab: Əgər satıcı suyun sahibidirsə və ya şəri baxımdan suyun üzərində haqq sahibidirsə, qiymət fərqinə görə başqalarının ona etiraz etməyə haqqı yoxdur.**

**Sual 1614:** **Əgər hansısa bir malı kooperativləşdirilmiş şirkətdən dövlət qiymətinə, yəni azad bazardakı qiymətindən aşağı qiymətə alsam, bu malı azad bazarda onun alış qiymətindən artıq qiymətə, hətta üç dəfə artıq qiymətə sata bilərəmmi?**

**Cavab: Əgər bu malı azad bazarda satmaq dövlət tərəfindən qadağan edilməyibsə və qiymət alıcıya zülm və təcavüzkarlıq həddində artırılmazsa, onu azad bazarda satmağın maneəsi yoxdur.**

**Sual 1615:** **Mən elektron cihazların istehsalçısıyam. İstehsal etdiyim cihazları istədiyim və təklif-tələb bazarının da qəbul etdiyi qiymətə sata bilərəmmi?**

**Cavab: Dövlət tərəfindən qiymət təyin edilməyən hər hansı bir məhsulu satıcı ilə alıcı arasında razılaşdırılan və alıcıya zülm və təcavüzkarlıq hesab olunmayan bir qiymətə satmağın maneəsi yoxdur.**

**Sual 1616:** **İslamın baxışında sərmayədarlığın (varlanmağın) hökmü nədir və onun hüdudları hansılardır? Yoxsulların haqqını verən bir şəxsin çox varlanması mümkün bir işdirmi? İslam dininin sərmayədarlıqla mübarizəsi yalnız xüms və zəkatını verməyən şəxslərə şamil olurmu, yoxsa xüms və zəkatını verən müsəlmanlara da şamil olur? Əmlakının şəri haqlarını ödəyən şəxsin çox varlanması mümkün bir işdirmi?**

**Cavab: Varlıların əmlakına şamil olan şəri əmlak haqları xüms və zəkat ilə məhdudlaşmır. İslam dini varlanmağın əleyhinə deyildir, bu şərtlə ki, var-dövlət şəri və halal yollarla əldə edilməli, şəxs də onun əmlakına aid olan bütün haqları ödəməlidir. Habelə, öz əmlakını şəri baxımdan halal olan, İslam və müsəlmanların xeyrinə olan yerlərə sərf etməlidir. Bu məsələlərə riayət edərək var-dövlətə sahiblənmənin iradı yoxdur.**

**Sual 1617:** **Biz tərəflərdə bu hala çox rast gəlinir ki, bir şəxs başqa bir şəxsə onun üçün maşın almasını tapşırır və ikinci şəxs də maşını - məsələn – bir milyon tümənə alır. Amma birinci şəxsə maşını bir milyon yüz min tümənə aldığını deyir və həmin artıq məbləği maşını almaq üçün çəkdiyi zəhmətin haqqı olaraq nəzərdə tutur. Bu sövdələşmə düzgündürmü?**

**Cavab: Əgər ikinci şəxs maşın almaqda birinci şəxs tərəfindən vəkil olarsa, bu halda maşın satış qiymətinə vəkil tutan şəxs üçün alınmışdır və vəkilin onu vəkil tutan şəxsdən artıq məbləğ tələb etməyə haqqı yoxdur. Əlbəttə, o, vəkilliyə görə zəhmət haqqı tələb edə bilər. Amma əgər maşını özü üçün alarsa, sonra bu maşını ona maşın almağı tapşıran şəxsə satarsa, razılaşdıqları qiymətə onu sata bilər. Eyni halda, maşının qiyməti barəsində yalan danışa bilməz, baxmayaraq ki, yalan danışmaq sövdələşmənin pozulmasına səbəb olmur.**

**Sual 1618:** **Qardaşlardan bəziləri maşın təmiri yerində işləyirlər. Bəzən maşın tacirləri onlara müraciət edir və az xərcləri çıxsın deyə maşını səthi təmir etmələrini onlardan istəyirlər. Onlar belə düşünürlər ki, maşını alıcıya satmaq üçün onun üzdən qüsursuz olması kifayət edir. Maşın təmirçiləri bu işi görə bilərlərmi?**

**Cavab: Əgər bu iş "tədlis" ilə nəticələnərsə və təmirçi maşın sahibinin həqiqəti alıcıdan gizlədəcəyini bilərsə, təmirçinin bu işi görməsinə icazə verilmir.**

[1] Ğəşş – yəni malın keyfiyyətli olduğuna və ya miqdarca çox olduğuna inandırmaqla başqalarını aldatmaq.

[2] Tədlis – yəni (izdivacda və ya mal alğı-satqısında) qüsuru gizlətmək, yaxud bir şeyi olduğu kimi deyil, daha yaxşı göstərmək.

## Ribanın (sələm) hökmləri

**Sual 1619:** **Bir sürücü yük maşını almaq istəyir. O, yük maşını almaq üçün lazım olan pulu başqa bir şəxsdən alır və bu şəxsin vəkili ünvanında yük maşınını onun üçün alır. Sonra isə pulun sahibi yük maşınını kreditlə bu sürücüyə satır. Bu sövdələşmənin hökmü nədir?**

**Cavab: Əgər sürücü bu sövdələşməni pulun sahibinin vəkili ünvanında yerinə yetirərsə, sonra pulun sahibi bu yük maşınını sürücünün özünə kreditlə satarsa, belə olduğu təqdirdə, əgər onların məqsədi ribadan qaçmaq üçün hiylə işlətmək olmazsa və hər iki sövdələşmədə məqsəd ciddi şəkildə alıb-satmaq olarsa, bu sövdələşmənin maneəsi yoxdur.**

**Sual 1620:** **"Borc sələmi" nədir? Banka depozit qoyanların gəlir ünvanında bankdan aldıqları faiz "sələm" hesab olunurmu?**

**Cavab: Borc sələmi - borc alan şəxsin borc verən şəxsə borc məbləğindən əlavə verdiyi puldur. Amma banka depozit qoyulan və bankın da pul sahibinin vəkili ünvanında bu pulu şəri baxımdan düzgün olan əqdlərin birində işlətməsindən əldə edilən gəlir sələm deyildir və maneəsi yoxdur.**

**Sual 1621:** **"Sələmli sövdələşmə"nin meyarı nədir? Bu soz: "Sələm ancaq borcda olur, başqa işlərdə olmur" – düzgün sözdürmü?**

**Cavab: Sələm sövdələşmədə də ola bilər, necə ki, borcda olur. Sələmli sövdələşmə odur ki, ölçü qabı və ya tərəzi ilə ölçülüb-çəkilən bir mal onunla eyni cinsdən olan mala satılır, amma qarşılığında artıq ölçüdə və ya çəkidə mal alınır.**

**Sual 1622:** **Bilirik ki, əgər bir şəxs şiddətli aclığa görə ölüm təhlükəsi ilə üz-üzə qalarsa və həyatını xilas etmək üçün yeməyə ölü heyvan ətindən (leş) başqa bir şey mövcud olmazsa, məcburiyyət qarşısında qaldığına görə ölü heyvan ətindən yeyə bilər. Belə isə, əgər bir şəxsin işləməyə qüvvəsi yoxdursa, amma az miqdarda sərmayəsi varsa və o, bu sərmayəni sələmli sövdələşməyə qoyub onun gəliri ilə dolanışığını təmin etmək məcburiyyətindədirsə, məcburiyyət qarşısında qaldığına görə sələm yeyə bilərmi?**

**Cavab: Sələm almaq haramdır və sələm almağı məcburiyyət qarşısında qalaraq ölü heyvan əti yeməklə müqayisə etmək düzgün müqayisə deyildir. Çünki ölü heyvan əti yemək məcburiyyəti qarşısında qalan şəxsin həmin anda canını xilas etmək üçün başqa bir şeyə əli çatmır. Amma işləməyə qüvvəsi olmayan, amma sərmayəsi olan bir şəxs öz sərmayəsini şəri baxımdan halal olan əqdlərin birində - məsələn, müzaribə əqdində - dövriyyəyə buraxa bilər.**

**Sual 1623:** **Bəzən poçt markaları ticarət sövdələşmələrində öz qiymətindən artıq qiymətə satılır. Məsələn, qiyməti iyirmi riyal olan bir marka iyirmi beş riyala satılır. Bu sövdələşmə düzgündürmü?**

**Cavab: Maneəsi yoxdur və artıq alınan bu məbləğ sələm hesab olunmur. Çünki sələmli sövdələşmə odur ki, ölçü qabı və ya tərəzi ilə ölçülüb-çəkilən eyni cinsdən olan iki mal bir-biri ilə dəyişdirilir və biri digərindən çox olur. Belə bir sövdələşmə düzgün deyildir.**

**Sual 1624:** **Riba bütün fiziki və hüquqi şəxslər üçün eyni dərəcədə haramdırmı, yoxsa bəzi xüsusi hallar istisna təşkil edir?**

**Cavab: Riba ümumiyyətlə haramdır. Yalnız ata ilə övlad və ər ilə arvad arasındakı riba,**

həmçinin müsəlmanın zimmi-kafir olmayan bir kafirdən aldığı riba haram deyildir.

**Sual 1625:** Əgər sövdələşmədə malın qiyməti müəyyən edilərsə və sövdələşmə bu qiymət əsasında baş tutarsa, amma sövdələşmənin tərəfləri razılığa gələrsə ki, malın pulu müddətli pul çeki şəklində (yəni bir neçə müddət sonra çekdə qeyd edilən məbləğ nağd pul şəklində alına bilər) ödənildiyi təqdirdə alıcı müəyyən edilən qiymətdən əlavə bir məbləğ də satıcıya ödəyəcəkdir, onlar belə bir razılığa gələ bilərmi və bu əlavə məbləği almaq olarmı?

Cavab: Əgər sövdələşmə müəyyən və bəlli bir qiymət əsasında baş tutarsa və əlavə məbləğ əsas məbləğin ödənişinin gecikdirilməsinə görə tələb olunarsa, bu, ribadır və şəri baxımdan haramdır. Əlavə məbləğin ödənilməsi barədə sövdələşmənin tərəflərinin razılığa gəlmələri, bu pulun halal olmasına səbəb olmur.

**Sual 1626:** Əgər bir şəxsin müəyyən məbləğ pula ehtiyacı olsa və ona borc (sələmsiz borc) verən bir şəxs tapa bilməsə, o, bu məbləği əldə etməkdən ötrü belə bir yoldan istifadə edə bilərmi: bir malı nisyə şəklində onun həqiqi qiymətindən baha qiymətə alır, sonra elə həmin sövdələşmə məclisində bu malı satıcının özünə daha ucuz qiymətə satır? Məsələn, bir kiloqram zəfəranı müəyyən qiymətə bir illik müddətə nisyə şəklində alır və elə həmin məclisdə bu zəfəranı nağd şəkildə satıcının özünə alış qiymətinin üçdə ikisi qiymətinə satır.

Cavab: Bu sövdələşmə, həqiqətdə, borc sələmindən qaçmaq üçün bir növ hiylə olduğuna görə, şəri baxımdan haramdır və düzgün deyildir.

**Sual 1627:** Mən gəlir əldə etmək, eyni zamanda ribadan qaçmaq məqsədilə belə bir sövdələşməni etdim: Bir evi beş yüz min tümənə aldım, halbuki, evin dəyəri bundan çox idi. Sövdələşmə əqdi əsnasında şərt qoydum ki, beş aya qədər satıcının sövdələşməni pozmaq haqqı vardır, amma sövdələşməni pozduğu təqdirdə aldığı məbləği (evin pulunu) geri qaytaracaqdır. Sövdələşmə başa çatdıqdan sonra həmin evi satıcının özünə ayda on beş min tümənə icarəyə verdim. İndi sövdələşmədən dörd ay keçmişdir və mən İmam Xomeyninin (r.ə) fətvasını eşitmişəm ki, ribadan qaçmaq üçün hiylə işlətməyə icazə verilmir. Sizin nəzərinizə görə, bu məsələnin hökmü nədir?

Cavab: Əgər bu sövdələşmə ciddi məqsədlə olmayıbsa, əksinə, formal və zahiri olubsa, başqa sözlə, satıcının borc alması və alıcının gəlir əldə etməsindən ötrü olubsa, belə sövdələşmə borc sələmindən qaçmaq üçün hiylədir. Bu isə, şəri baxımdan haramdır və düzgün deyildir. Bu kimi sövdələşmələrdə alıcı yalnız evin qiyməti ünvanında satıcıya verdiyi əsas məbləği geri ala bilər.

**Sual 1628:** Ribadan qaçmaq məqsədilə mala nəyisə əlavə etməyin hökmü nədir?

Cavab: Bu iş sələmli borcu izacəli etmir və mala nəyisə əlavə etməklə sələmli borc halal olmur.

**Sual 1629:** İşçi əmək fəaliyyəti göstərdiyi müddət ərzində öz aylıq maaşından yaşlılıq dövrü üçün pensiya fonduna köçürür və pensiyaya çıxdıqdan sonra həmin pulu dövlətin əlavə etdiyi müəyyən məbləğ ilə birlikdə pensiya ünvanında alır. Bunu almağın maneəsi vardırmı, yoxsa yox?

Cavab: Pensiya almağın maneəsi yoxdur və işçinin aylıq maaşından çıxılan pulun üzərinə dövlətin əlavə etdiyi məbləğ pensiyaçının pulunun gəliri deyildir və riba hesab olunmur.

**Sual 1630:** Bəzi banklar rəsmi sənədi olan evin təmiri üçün “cualə”[1] ünvanında borc verirlər, belə ki, borc alan şəxs borcu bir neçə faiz əlavə məbləğlə birlikdə müəyyən müddət ərzində kredit şəklində ödəyəcəkdir. Şəri baxımdan bu şəkildə borc almağa icazə verilirmi?

Cavab: Əgər bu pul evin təmiri üçün borc ünvanında evin sahibinin ixtiyarına verilərsə,

**onun "cualə" olması məna kəsb etmir və borcda əlavə məbləğin verilməsini şərt qoymağa da icazə verilmir, baxmayaraq ki, borcun özü hər bir halda düzgündür. Amma evin sahibinin evi təmir etməkdə bank üçün "cu`l" (əvəz) qərar verməsinin maneəsi yoxdur. Bu təqdirdə, "cu`l" (əvəz) bankın evin təmiri üçün sərf etdiyi məbləğə aid deyildir, əksinə, evin təmiri qarşılığında bankın kredit şəklində tələb etdiyi ümumi məbləğə aiddir.**

**Sual 1631:** **Malı nisyə şəklində onun nağd qiymətindən baha qiymətə almaq olarmı? Bu sövdələşmə riba hesab olunurmu?**

**Cavab: Malı nisyə şəklində onun nağd qiymətindən baha qiymətə satıb-almağın maneəsi yoxdur. Nağd və nisyə qiymətlər arasındakı fərq riba hesab olunmur.**

**Sual 1632:** **Bir şəxs öz evini "şərt sövdələşməsi" şəklində satmışdır. Amma (sövdələşməni pozmaq üçün) müəyyən edilən vaxt çatanadək evin pulunu alıcıya geri qaytara bilməmişdir. Satıcının sövdələşməni poza bilməsi üçün üçüncü bir şəxs evin pulunu alıcıya vermişdir, amma bu şərtlə ki, verdiyi məbləğdən əlavə, zəhmət haqqı ünvanında müəyyən məbləğ də alacaqdır. Bu məsələnin şəri hökmü nədir?**

**Cavab: Əgər üçüncü şəxs evin pulunu qaytarmaq və sövdələşməni pozmaqda satıcı tərəfindən vəkil olarsa, belə ki, əvvəlcə evin pulu məbləğində olan pulu satıcıya borc verərsə, sonra satıcının vəkili olaraq bu pulu alıcıya verib sövdələşməni pozarsa, onun bu işinin və vəkillik haqqı almasının maneəsi yoxdur. Amma əgər alıcıya verdiyi pulu satıcıya borc ünvanında vermiş olarsa, satıcıdan yalnız onun tərəfindən evin pulu ünvanında ödədiyi məbləği tələb edə bilər.**

[1] Cualə - bir öhdəlikdir və burada şəxs elan edir ki, kim onun üçün müəyyən bir işi görərsə, müəyyən məbləğdə zəhmət haqqı alacaqdır. Məsələn, elan edir ki, kim mənim itən əşyamı taparsa, ona filan məbləğdə pul verəcəyəm.

## Şuf`ə haqqı[1]

**Sual 1633:** **Əgər vəqfi şey iki şəxsə aid olarsa və vəqfi malın satışı icazəli olduğu təqdirdə bu şəxslərdən biri öz payını üçüncü bir şəxsə satarsa, bu halda şuf`ə haqqı yaranırmı? Həmçinin əgər iki şəxs bir mülkü və ya vəqfi bir şeyi icarəyə götürərsə, sonra onlardan biri öz haqqını sülh və ya icarə vasitəsilə üçüncü şəxsə verərsə, icarəyə verilən şey barəsində şuf`ə haqqı yaranırmı?**

**Cavab: Şuf`ə haqqı yalnız o halda yaranır ki, iki şəxs bir şeyin şərikli sahibidir və şəriklərdən biri öz haqqını üçüncü bir şəxsə satır. Buna görə də, iki şəxsə aid olan vəqfi bir şeyə gəlincə, onun satışı icazəli olduğu təqdirdə əgər şəriklərdən biri öz payını başqa bir şəxsə satarsa, şuf`ə haqqı yaranmır. Həmçinin iki şəxsin icarəyə götürdüyü bir şeyə gəlincə, əgər bu şəxslərdən biri öz haqqını başqa bir şəxsə verərsə, şuf`ə haqqı yaranmır.**

**Sual 1634:** **"Şuf`ə haqqı" barəsində fiqh kitablarında və Mülki Məcəllədə verilən açıqlamalardan aydın olur ki, iki şərikdən biri öz payını üçüncü bir şəxsə satdıqda digər şərik üçün şuf`ə haqqı yaranır. Bu əsasla, əgər iki şərikdən biri alıcını digər şərikin payını almağa təşviq edərsə, yaxud digər şərikin payını aldığı təqdirdə öz şuf`ə haqqından istifadə etməyəcəyini açıq şəkildə söyləyərsə, bu əməl şuf`ə haqqının aradan qalxması hesab olunurmu?**

**Cavab: İki şərikdən birinin alıcını digər şərikin payını almağa sadəcə təşviq etməsi, onun şuf`ə haqqı ilə ziddiyyət təşkil etmir. Hətta əgər o, alıcıya vəd etsə ki, alıcı ilə digər şərik arasında sövdələşmə baş tutduğu təqdirdə o öz şuf`ə haqqından istifadə etməyəcəkdir, bu da, sövdələşmə baş tutduqdan sonra onun şuf`ə haqqının aradan qalxmasına səbəb olmayacaqdır.**

**Sual 1635:** **İki şərikdən biri öz payını satmamışdan qabaq digər şərikin şuf`ə haqqının aradan qalxması düzgündürmü, yoxsa yox? Çünki hələ digər şərik üçün şuf`ə haqqı yaranmamışdır.**

**Cavab: İki şərikdən biri öz payını üçüncü bir şəxsə satmaq nəticəsində digər şərik üçün şuf`ə haqqı yaranmamışdan qabaq şuf`ə haqqının aradan qalxması düzgün deyildir. Amma iki şərikdən biri "lazım əqd" əsnasında öhdəsinə götürə bilər ki, digər şərik öz payını başqa bir şəxsə satdığı təqdirdə öz şuf`ə haqqından istifadə etməyəcəkdir.**

**Sual 1636:** **İkimərtəbəli bir ev iki qardaşın şərikli mülküdür. Bir şəxs bu evin bir mərtəbəsini icarəyə götürmüşdür. Bu qardaşların isə bu şəxsə borcu vardır. Bu şəxs verdiyi borcu təkidlə tələb etsə də, qardaşlar iki ildir onun borcunu verməkdən boyun qaçırırlar, belə ki, şəri baxımdan bu şəxs üçün "təqas haqqı"nın[2] yaranmasına gətirib çıxarmışdır. Evin qiyməti isə onun verdiyi borcun məbləğindən çoxdur. Əgər o, verdiyi borc məbləğində bu evə "təqas" ünvanında sahiblənərsə və bu evdə o qardaşlarla şərik olarsa, evin qalan hissəsində onun şuf`ə haqqı vardırmı, yoxsa yox?**

**Cavab: Sualda qeyd edilənləri nəzərə alaraq, burada şuf`ə haqqı yaranmır. Çünki şuf`ə haqqı o şərik üçün yaranır ki, onun şəriki öz payını üçüncü şəxsə satmışdır və şəriklik sövdələşmə baş tutmamışdan qabaq mövcud imiş. Şuf`ə haqqı iki şərikdən birinin payını almaq, yaxud "təqas haqqı" nəticəsində o paya sabiblənmək vasitəsilə başqası ilə şərik olan şəxs üçün yaranmır. Bundan əlavə, iki şərikdən biri öz payını satdıqda şuf`ə haqqı o halda yaranır ki, həmin mülk yalnız iki şəxsin şərikli mülkü olsun, ikidən artıq deyil.**

**Sual 1637:** **Bir mülk iki şəxs arasında şəriklidir və onlardan hər biri mülkün yarısının sahibidir. Mülkün rəsmi sənədi də onların hər ikisinin adınadır. Özlərinin dəst-xətti ilə yazdıqları bölgüyə aid adi sənəddə sözügedən mülk onlar arasında müəyyən sərhədlərlə iki hissəyə bölünmüşdür. Bölgü aparıldıqdan sonra əgər iki şərikdən biri öz payını üçüncü bir şəxsə satarsa, mülkün**

rəsmi sənədi onların hər ikisinin adına olduğuna görə digər şərik üçün şuf`ə haqqı yaranırmı?

**Cavab: Əgər satılan hissə sövdələşmə zamanı digər şərikin hissəsindən müəyyən sərhədlərlə ayrılıbdırsa, hissələrin bir-birinin kənarında yerləşməsi, yaxud öncəki şəriklik, yaxud mülkün rəsmi sənədinin onların hər ikisinin adına olması şuf`ə haqqının yaranmasına səbəb olmur.**

---

[1] Şuf`ə haqqı - iki şərikdən biri şərikli maldan öz payını digər şərikin razılığı olmadan üçüncü bir şəxsə satdığı təqdirdə, digər şərik üçün müamiləni pozmaq haqqının yaranmasına deyilir.

[2] Təqas haqqı – başqasının haqqını mənimsəyən və onu verməkdən boyun qaçıran bir şəxsin malından və ya pulundan bu haqqın götürülməsinə deyilir.

## İcarə

**Sual 1638:** **Əgər bir şəxsin başqa bir şəxs üçün gördüyü iş böyük fiziki və zehni əmək, həmçinin xərc tələb etmirsə, digər tərəfdən də əgər aidiyyatı qurumlar tərəfindən bu işə qiymət təyin edilməyibdirsə və bu işi yerinə yetirməyə sərf edilən ortalama vaxt ona qiymət təyin etmək üçün ümumi meyar hesab olunmursa, müraciət edən şəxsə haqsızlıq olmaması şərtilə bu kimi işlərə hansı meyar əsasında qiymət təyin edilməlidir?**

**Cavab: Bu kimi işlərə zəhmət haqqı təyin etmək ürfə həvalə olunur və sövdələşmənin tərəfləri müəyyən məbləğ barəsində razılaşdıqları təqdirdə, bunun maneəsi yoxdur.**

**Sual 1639:** **Mən bir evi icarəyə götürdüm, amma sonra bildim ki, evi almaq üçün ödənilən pulun bir hissəsi ribadan əldə edilibmiş. İndi mənim vəzifəm nədir?**

**Cavab: Evi icarəyə verənin bu evi ribadan əldə edilən pulun özü ilə aldığını dəqiqliklə bilməyənədək, bu evdən istifadə etməyin maneəsi yoxdur.**

**Sual 1640:** **İşlədiyim dövlət müəssisəsi məni iki ay müddətinə xarici ölkəyə ezamiyyətə göndərdi və ezamiyyət haqqı olaraq mənə müəyyən məbləğdə valyuta verdi. Mən valyutanı Mərkəzi Bankdan çox ucuz qiymətə aldım. Amma müəyyən səbəblərə görə mənim ezamiyyətim bir aydan çox çəkmədi. Ölkəyə geri qayıtdıqdan sonra valyutanın qalan yarısını onu aldığım qiymətdən çox baha qiymətə satdım. İndi mən dövlət büdcəsinə olan borcumu verib borcdan çıxmaq istəyirəm. Bilmək istəyirəm ki, borcu valyutanın alış qiyməti ilə qaytarmalyam, yoxsa satış qiyməti ilə?**

**Cavab: Əgər bu məbləğ ezamiyyət haqqı olaraq sizə verilibsə, ezamiyyətin qalan günləri nisbətində olan məbləğə zaminsiniz (yəni üzərinizdə borcdur) və bu valyutanın özünü, yaxud onun indiki qiymətinə bərabər olan məbləği dövlət büdcəsinə geri qaytarmalısınız.**

**Sual 1641:** **Bir şəxs iş sahibi ilə işçilər arasında vasitəçidir. Belə ki, iş sahibi müəyyən məbləğ pulu işçilərin zəhmət haqqı ünvanında bu vasitəçi şəxsə verir, o isə bundan az məbləği işçilərə verir. Onun bu işinin hökmü nədir?**

**Cavab: Əgər vasitəçi şəxs iş sahibinin vəkili qismində olarsa, ona verdiyi puldan artıq qalanını iş sahibinin özünə qaytarmalıdır və o, bu puldan istifadə edə bilməz. Amma əgər artıq qalan puldan onun istifadə etməsinə iş sahibinin razı olduğunu bilərsə, ondan istifadə edə bilər.**

**Sual 1642:** **Bir şəxs vəqfi bir torpaq sahəsini onun şəri və qanuni qəyyumundan on il müddətinə icarəyə götürmüşdür və bu barədə rəsmi icarənamə də tənzim edilmişdir. Amma icarəyə verən şəxsin (yəni vəqfi torpaq sahəsinin şəri və qanuni qəyyumunun) ölümündən sonra onun canişini (onu əvəz edən şəxs) iddia edir ki, o, səfeh imiş və buna görə də, icarə düzgün deyilmiş. Bu məsələnin hökmü nədir?**

**Cavab: İcarəyə verən şəxsin vəqfi torpaq sahəsindən istifadə etməsinin düzgün olmadığı sübuta yetməyənədək, onun sözükeçən torpaq sahəsini icarəyə verməsi düzgündür.**

**Sual 1643:** **Bir şəxs cami məscidinin vəqfi əmlak olan bir mağazasını müəyyən müddətə icarəyə götürmüşdür. İcarə müddəti bir neçə ildir başa çatmışdır. Amma o, mağazanın icarə pulunu ödəməməklə yanaşı, mağazanı boşaltmaqdan da boyun qaçırır və oranı boşaltmaq qarşılığında neçə milyon pul tələb edir. Bu pulu məscidin vəqfi əmlakından ona vermək olarmı?**

**Cavab: İcarə müddəti başa çatdıqdan sonra icarəçi şəxsin icarəyə verilən şeydə heç bir haqqı yoxdur. Buna görə də, o, mağazanı boşaltmalı və məscidin vəqf qəyyumuna təhvil verməlidir. Amma əgər qanun baxımından bu şəxs üçün müəyyən haqq nəzərə alınıbdırsa,**

o, bu haqqı tələb edə bilər. Bu haqqı məscidin vəqfi əmlakından verməyin maneəsi yoxdur.

**Sual 1644:** Bir şəxs bir evi müəyyən müddət üçün müəyyən məbləğə icarəyə götürür. Daha sonra, hazırkı icarə müddəti başa çatdıqdan sonra növbəti müəyyən müddət üçün əvvəlki icarə pulundan artıq məbləğdə icarə pulunu ev sahibinə öncədən verir. Bu şərtlə ki, ev sahibi müəyyən müddətədək ondan evi boşaltmasını istəməyəcəkdir, əks təqdirdə, içarəçi şəxs evi boşaldarkən ev sahibi ikinci müddətin icarə pulunu birinci müddətin icarə pulu qədər hesablayacaq və artıq qalan məbləği icarəçi şəxsə geri qaytaracaqdır. Amma ev sahibi qərarlaşdırılan müddət başa çatmamışdan qabaq icarəçi şəxsdən evi boşaltmasını istəmiş və artıq qalan məbləği qaytarmaqdan da imtina etmişdir. Bu məsələnin hökmü nədir? Ev sahibi evin boyanmasına çəkilən xərclərə görə icarəçi şəxsdən müəyyən məbləğ pul ala bilərmi? Halbuki, bu barədə onlar arasında heç bir müqavilə mövcud deyildir?

Cavab: Əgər icarə əqdi əsnasında şərt qoysalar ki, ev sahibi qərarlaşdırılan müddətdən qabaq evi boşaltmağı tələb etdiyi təqdirdə icarə müddəti başa çatdıqdan sonra icarəçi şəxs ikinci müddət üçün də birinci müddət üçün verdiyi icarə pulunu ödəyəcəkdir, ev sahibi şərtə zidd olaraq artıq məbləğdə pul tələb edə bilməz. Əgər artıq məbləğdə pul alıbdırsa, onu icarəçi şəxsə geri qaytarmalıdır. Ev sahibinin evin boyanmasına və təmirinə çəkdiyi xərc də icarəçi şəxsin öhdəsində deyildir.

**Sual 1645:** Bir şəxs bir evin iki otağını ayı müəyyən məbləğə icarəyə götürmüş və ev sahibi də otaqların açarını ona vermişdir. İcarəçi şəxs bu iki otağa öz ev əşyalarını gətirib yerləşdirmişdir. Daha sonra öz ailəsini gətirmək üçün getmiş, amma geri dönməmişdir. Ev sahibinin də onun barəsində, onun geri dönməməsinin səbəbi barəsində heç bir məlumatı yoxdur. Ev sahibinin otaqlardan istifadə etmək haqqı vardırmı? Həmçinin icarəçi şəxsin ev əşyaları barəsində ev sahibinin vəzifəsi nədir?

Cavab: Əgər icarə şəri baxımdan düzgün şəkildə baş tutmayıbsa, məsələn, müddət müəyyən edilməyibsə, icarəçi şəxsin "icarəyə verilən şey"də heç bir haqqı yoxdur. Əksinə, bu şeyin ixtiyarı onun sahibindədir və ondan istədiyi şəkildə istifadə edə bilər. Amma icarəçi şəxsin əşyaları ev sahibinin əlində əmanətdir və onu qorumalıdır. İcarəçi şəxs geri döndükdən sonra isə, otaqlara ev əşyalarını qoymaq və onların qapısını bağlı saxlamaq şəklində oradan istifadə etdiyi müddət müqabilində otaqların ücrətül-mislini icarəçi şəxsdən tələb edə bilər. Amma əgər icarə şəri baxımdan düzgün şəkildə baş tutubsa, ev sahibi icarə müddətinin başa çatmasını gözləməlidir və icarə müddətinin icarə pulunu bütünlüklə tələb etmək haqqı vardır. İcarə müddəti başa çatdıqdan sonra icarəçi şəxsin həmin evdə heç bir haqqı yoxdur və bu vəziyyət icarənin kökündən pozulduğu vəziyyət kimidir.

**Sual 1646:** Biz bir şirkətin işçiləriyik və şirkətin icarəyə götürdüyü binada yaşayırıq. İndi isə ev sahibinin vəkili iddia edir ki, icarə pulunun məbləği barəsində şirkət rəbərliyi ilə ev sahibi arasında narazılıq yaranmışdır və məhkəmənin qərarı çıxmayanadək ev sahibi bu evdə namaz qılınmasına, evdən bu və digər şəkildə istifadə edilməsinə razı deyildir. Bu evdə qılınan namazları yenidən qılmaq vacibdirmi, yoxsa məsələdən xəbərdar olmamaq şəri vəzifənin ortadan qalxmasına səbəb olur?

Cavab: İcarə şəri baxımdan düzgün şəkildə baş tutduqdan sonra icarənin müddəti başa çatmamış şirkət işçilərinin bu evdən istifadə etmələri üçün ev sahibinin icazəsinə və yeni razılığına ehtiyac yoxdur, bu evdə namaz qılmaq düzgündür. Həmçinin icarə düzgün olmadığı təqdirdə, yaxud icarənin müddəti başa çatdığı təqdirdə əgər şirkət işçiləri məsələdən xəbərdar olmadıqlarına görə bu evdə namaz qılıblarsa, onların namazları düzgündür və bu namazları yenidən qılmaq vacib deyildir.

**Sual 1647:** Bir işçinin iş yerinə yaxın yerdə şəxsi evi vardır və bu evi icarəyə vermişdir. Özü isə işlədiyi müəssisəyə aid yaşayış

**evlərinin birində məskunlaşmışdır. Onun bu əməli qanuna ziddir, çünki qanunda vurğulanır ki, şəxsi evi olan şəxslərin müəssisəyə aid evlərdən istifadə etmək haqqı yoxdur. Əgər icarəçi şəxs müəssisə işçisinin (yəni ev sahibinin) müəssisənin qanununa zidd hərəkət etdiyini bilsə, vəzifəsi nədir?**

**Cavab: Tələb olunan kriteriyalara uyğun gəlməyən şəxslərin müəssisəyə aid yaşayış evlərindən istifadə etmələrinə icazə verilmir. Amma müəssisə işçisinin öz şəxsi evini icarəyə verməsinin, yaxud başqa bir şəxsin bu evi icarəyə götürməsinin, həmçinin icarəçi şəxsin bu evdən istifadə etməsinin maneəsi yoxdur.**

**Sual 1648:** **Ev sahibi icarəçi şəxsin qarşısında şərt qoymuşdur ki, icarə müddəti başa çatdıqdan sonra evi təhvil vermədiyi təqdirdə hər gün üçün günün məzənnəsinin "ücrətül-misl"indən artıq məbləğdə pul ödəməlidir. İcarə müqaviləsində bu məbləği ödəməyi öhdəsinə götürən icarəçi şəxs onu ödəməlidirmi?**

**Cavab: "Lazım əqd"də qeyd edilən şərtə əməl etmək vacibdir.**

**Sual 1649:** **Bir şəxs bir yeri "müşa" şəklində iki nəfərə bu şərtlə icarəyə vermişdir ki, bu iki icarəçi şəxs onun icazəsi olmadan bu yeri başqa bir şəxsə icarəyə verməməlidirlər. Amma onlardan biri yer sahibinin icazəsi olmadan öz hissəsini şərikinə həvalə etmişdir. Bu, "başqasına icarəyə vermək" hesab olunurmu?**

**Cavab: Bu, "başqasına icarəyə vermək" hesab olunur. Amma əgər sözügedən şərtin "digər şərikə həvalə etməy"ə aid olmadığına əsas verən bir dəlil mövcud olarsa, bu hal istisna təşkil edir.**

**Sual 1650:** **Mən bir mülkü dörd il müddətinə icarəyə götürdüm və şərtimiz bu oldu ki, mülkü icarəyə verən şəxsin ikinci ilin başlanğıcında icarə əqdini pozmağa haqqı vardır. Amma mülkü icarəyə verən şəxs ikinci ilin axırına qədər icarə əqdini pozmadı, əksinə, üçüncü ilin də icarə pulunu alıb, pulu aldığını təsdiqləyən qəbz verdi. İcarə müddəti başa çatmamışdan qabaq mülkü icarəyə verən şəxsin və ya mülkü aldığını iddia edən şəxsin icarəyə verilən mülkdən istifadə etmək haqqı vardırmı?**

**Cavab: Əgər icarəyə verən şəxs icarə əqdini pozmağa haqqı olduğu müddətdə icarə əqdini pozmazsa, bu müddətdən sonra icarə əqdini poza bilməz. Əgər icarəni pozmaq möhləti başa çatdıqdan sonra sözügedən mülkü başqa bir şəxsə satarsa, bu, icarə əqdinin pozulmasına səbəb olmur. Əksinə, mülkün yeni sahibi icarə müddətinin başa çatmasını gözləməlidir.**

**Sual 1651:** **Bir şəxs iki mağazanı icarəyə götürmüşdür və icarənin şərtinə görə bu mağazaları qida məhsullarının satışı üçün istifadə etməli idi. Bu şərt müqavilədə də qeyd edilmişdir, amma icarəçi şəxs bu şərtə əməl etməmişdir. İcarəçi şəxsin bu mağazalarda gördüyü iş halaldırmı? Şərtə əməl olunmaması səbəbilə mağazanı icarəyə verən şəxsin icarə əqdini pozmaq haqqı vardırmı?**

**Cavab: İcarəçi şəxs mağaza sahibinin şərtinə müvafiq əməl etməlidir. O, şərtə zidd hərəkət etdiyi təqdirdə, şərtə əməl olunmaması səbəbilə mağaza sahibinin icarə əqdini pozmağa haqqı vardır.**

**Sual 1652:** **Mən bir müəssisədə işləyirəm. Müəssisənin müdiri öhdəsinə götürmüşdü ki, aylıq maaşdan əlavə, indiki dövrdə idarə və müəssisələrdə qəbul edilən bir sıra məziyyətlərlə – məsələn, evlə təmin etmək, məzuniyyət, tibbi sığorta və s. – məni təmin edəcəkdir. Amma bir neçə il ötməsinə baxmayaraq, o öz sözünə əməl etməmişdir. Bu xüsusda mənim əlimdə yazılı müqavilə olmadığına görə öz haqqımı tələb etmək iqtidarında deyiləm. Haqqımı qanuni yollarla tələb etməyə şəri baxımdan izacəm varmı?**

**Cavab: Qanuni yollarla haqqı tələb etməyin bir maneəsi yoxdur.**

**Sual 1653:** **Bir şəxs yağış suları ilə suvarılan vəqfi bir əkin sahəsini müəyyən məbləğə icarəyə götürmüşdür. Amma yağış suları ilə kifayətləndiyinə görə az məhsul götürdüyü üçün bu əkin sahəsini suvarılan sahəyə çevirmiş və bu iş üçün böyük məbləğdə vəsait**

**xərcləmişdir. Belə olduğu təqdirdə, o, suvarılan əkin sahəsinin icarə pulunu verməlidir, yoxsa yağış suları ilə suvarılan əkin sahəsinin icarə pulunu verməlidir? Əgər bu iş dövlət dəstəyi ilə həyata keçibdirsə, məsələnin hökmü nədir? Əgər əkin sahəsini vəqf edən şəxs icarə pulunun hansı yerə sərf edilməsini müəyyən edərsə - belə ki, illik icarə pulu on gün ərzində Seyyidüş-şühədanın (ə) əza məclislərinə xərclənməlidir deyərsə – icarə pulu onu vəqf edən şəxsin müəyyən etdiyi yerə sərf edilməlidirmi? Əgər vəqf qəyyumu icarəçi şəxsdən icarə pulunu almaqdan imtina edərsə, icarəçi şəxs bu pulu Vəqf İdarəsinə ödəyə bilərmi?**

**Cavab: Əkinin suvarılması üçün yağış sularından istifadə etmək əvəzinə quyu, kanal və s.-nin qazılması əgər icarə əqdi düzgün şəkildə baş tutduqdan sonra həyata keçərsə, müəyyən edilən icarə pulunun artmasına və ya azalmasına səbəb olmur: istər bu iş vəqf qəyyumunun xərci ilə həyata keçsin, istər dövlət dəstəyi ilə həyata keçsin, istərsə də icarəçi şəxsin öz xərci ilə həyata keçsin. Amma əgər bu iş icarə əqdi baş tutmamışdan qabaq, yaxud icarənin əvvəlki müddəti başa çatdıqdan sonra və onun yeni müddəti təyin edilməmişdən qabaq həyata keçərsə, vəqfi əkin sahəsinin qəyyumu əkin sahəsi üçün çəkdiyi xərcləri nəzərə alaraq, onun icarə pulunu günün ədalətli qiyməti ilə müəyyən etməlidir. İcarə pulu əmlakı vəqf edən şəxsin müəyyən etdiyi yerə sərf edilməlidir. Vəqfi əmlakın icarə pulu vəqf qəyyumunun nəzərinə həvalə olunur və o da bu əmlakı icarəyə verərkən onun xeyrini nəzərə almalıdır. Vəqfi əmlakı onun şəri qəyyumundan icarəyə götürmədən və onun icazəsini əldə etmədən ondan istifadə etmək olmaz və belə istifadə qəsb hesab olunur. İcarə pulunu Vəqf İdarəsinə, yaxud hər hansı bir fonda ödəmək vəqfi əmlakdan istifadənin icazəli olması üçün kifayət etmir. Amma əgər vəqf qəyyumu icarə müddəti ərzində icarə pulunu götürməkdən imtina edərsə, icarəçi şəxsin bu əmlakdan istifadə etməsinin maneəsi yoxdur. Bu halda, icarə pulu Vəqf İdarəsi ilə razılaşdırılaraq vəqfin məqsədinə sərf edilməlidir.**

**Sual 1654:** **Əgər icarəçi şəxs icarəyə verilən obyektdə müəyyən təmir işləri aparmasını və proyektdə dəyişiklik etməsini icarəyə verən şəxsdən istəsə, bu işlərin xərci kimin öhdəsindədir?**

**Cavab: Əgər icarəyə verilən obyekt icarə əqdi (müqaviləsi) bağlanan zaman hansı şəkildə olubsa, elə həmin şəkildə də qalıbdırsa, icarəçi şəxsin obyektdə müəyyən təmir işlərinin aparılmasına və proyektdə dəyişiklik edilməsinə dair istəyini həyata keçirmək icarəyə verən şəxsə vacib deyildir. Amma icarəyə verən şəxs onun istəyini qəbul etdiyi təqdirdə, obyekdə aparılan təmir və dəyişiklik işlərinin xərcinin hamısı icarəyə verən şəxsin öhdəsindədir. İcarəçi şəxsin icarəyə verən şəxsdən olan belə bir istəyi, icarəçi şəxsin bu xərclərə zamin olmasına səbəb olmur.**

**Sual 1655:** **Bir şəxs başqa bir şəxsdən yas məclisində Quran surələri oxumasını istəmiş və zəhmət haqqı ünvanında ona müəyyən məbləğ pul vermişdir. Amma bu şəxs Quranı oxuduğu zaman ona zəhmət haqqı verən şəxsi niyyət etməyi unutmuşdur. Buna görə də, Quranı oxuyub qurtardıqdan sonra ona Quran oxunmasını vəsiyyət edən şəxsi niyyət etmək istəmişdir. Onun bu əməli düzgündürmü? Ona zəhmət haqqı düşürmü, yoxsa yox?**

**Cavab: Əgər Quranı oxuduğu əsnada onun niyyəti həmin şəxs olmazsa, Quranı oxuyub qurtardıqdan sonra oxunan bu surələri ona Quran oxunmasını vəsiyyət edən şəxs üçün hesab etmək düzgün deyildir. Quran oxuyan şəxsə də zəhmət haqqı düşmür.**

**Sual 1656:** **Biz bir dəllalla birlikdə bir evə baxmağa getdik və evə baxdıqdan sonra onu almaq fikrindən daşındıq. Sonra isə başqa bir şəxslə birlikdə həmin evə baxmağa getdik və satıcı, ya alıcı tərəfindən dəllala xəbər verilmədən həmin evi aldıq. Bu**

xüsusda dəllalın hər hansı bir haqqı vardırmı, yoxsa yox?

**Cavab: Satışa çıxarılan evi alıcıya göstərmək üçün alıcını istiqamətləndirən və onunla birlikdə get-gəl edən dəllalın bu işinə görə zəhmət haqqı tələb etməyə haqqı vardır. Amma əgər alğı-satqıda vasitəçiliyi və bu xüsusda heç bir rolu olmazsa, satıcı ilə alıcı arasında baş tutan alğı-satqı üçün dəllalın zəhmət haqqı tələb etməyə haqqı yoxdur. Əgər bu barədə qanun mövcud olarsa, qanuna riayət olunmalıdır.**

**Sual 1657:** Bir şəxs öz evini satmaqdan ötrü daşınmaz əmlakın alğı-satqısı ofisinə müraciət etmiş və ofisin köməkliyi ilə alıcı tapa və evə satış qiyməti təyin edə bilmişdir. Amma alıcı dəllallıq haqqını ödəməkdən boyun qaçıra bilmək üçün alğı-satqını vasitəçi olmadan birbaşa alıcının özü ilə həyata keçirmişdir. Dəllala zəhmət haqqı vermək alıcı və satıcının öhdəsindədirmi?

**Cavab: Dəllala sadəcə müraciət etmək, alğı-satqıya görə dəllalın ücrət almaq haqqına malik olmasına səbəb olmur. Amma əgər dəllal sövdələşmənin iki tərəfindən hansı biri üçün müəyyən bir iş görərsə, həmin şəxsdən bu işin ücrətül-mislini almaq haqqına malikdir.**

**Sual 1658:** Bir şəxs bir mağazanı müəyyən müddətə və müəyyən məbləğə icarəyə götürmüş, amma bir müddət keçdikdən sonra icarəni pozmuşdur. İcarəçi şəxsin icarəni pozması düzgündürmü? Əgər düzgündürsə, mağazanı icarəyə verən şəxs icarə pozulmamışdan öncəki günlərin icarə pulunu almaq haqqına malikdirmi, yoxsa malik deyildir?

**Cavab: Şəri baxımdan icarəni pozmaq haqqına malik olmadığı təqdirdə, icarəçi şəxsin icarəni pozması düzgün deyildir. İcarəçi şəxs icarəni pozmaq haqqına malik olduğu təqdirdə, əgər o, icarəni pozarsa, icarə pozulmamışdan öncəki günlərin icarə pulunu ödəməlidir.**

**Sual 1659:** Bir şəxs bir torpaq sahəsini əkinçilik üçün icarəyə götürmüşdür. İcarənin şərtinə əsasən, əkin sahəsinin suvarılması üçün dərin quyunun qazılması və suyun çıxarılması üçün bütün işləri onun özü görməli, bütün xərcləri də özü çəkməli idi. Beləliklə, icarəçi şəxs qanuni mərhələləri keçdikdən və quyunun qazılması üçün öz adına icazə aldıqdan sonra quyunu qazmış və ondan istifadə etmişdir. Amma torpaq sahəsinin sahibi bir il keçdikdən sonra icarə əqdini birtərəfli olaraq pozmuşdur. Quyunun, ona aid vasitələrin və onun qazılması üçün çəkilən xəcrlərin hökmü nədir? Quyu icarəçi şəxsin mükiyyətində qalırmı, yoxsa mülkiyyət baxımından torpaq sahəsinə tabedir?

**Cavab: İcarə müddəti başa çatmamış tərəflərdən heç birinin icarəni pozmaq haqqı yoxdur. Amma quyu torpaq sahəsinə tabedir və torpaq sahəsinin sahibinin mülküdür. Yox əgər bunun əksinə olan bir şərt qeyd edibdirlərsə, bu hal istisnadır. Quyudan su çəkmək üçün istifadə edilən vasitələr, həmçinin icarəçi şəxsin öz pulu ilə aldığı digər vasitələr icarəçi şəxsin əmlakıdır. Əgər icarəçi şəxsin quyudan istifadə etmək haqqına malik olduğuna dair icarə əqdində razılığa gəliblərsə, onun haqqı qüvvədədir.**

**Sual 1660:** Əgər özəl müəssisələrin və şirkətlərin sahibləri İslam Şurası Məclisi tərəfindən qəbul edilən və Konstitusiyasının Mühafizə Şurası tərəfindən təsdiqlənən əmək qanununun şamil olduğu işçilərə bəzi maddi imtiyazları ödəməkdən boyun qaçırarsa, vəzifə nədir?

**Cavab: Fəhlə və işçilərin qanuna əsasən malik olduqları hüquqlar barəsində iş sahiblərinin öz öhdəliklərinə əməl etmələri vacibdir. İşçilər öz qanuni haqlarını tələb etmək hüququna malikdirlər.**

**Sual 1661:** İki dövlət idarəsi bir-biri ilə belə bir müqavilə bağlaya bilərlərmi ki, bu idarələrdən birinə aid olan binanın bir hissəsi müəyyən müddət üçün digər idarənin ixtiyarında olacaqdır və həmin idarə də binanı boşaldana qədər öz büdcəsinin bir hissəsini icarə müddəti başa çatdıqdan sonra birinci idarənin hesabına köçürəcəkdir?

**Cavab: Əgər bu iş düzgün icarə əqdi vasitəsilə və həmin binanın qanuni məsulunun razılığı ilə həyata keçərsə, maneəsi yoxdur. İcarə əqdi əsnasında qeyd edilən şərt şəriətə zidd olmadığı təqdirdə, qüvvədədir.**

**Sual 1662:** **İndiki dövrdə evi icarəyə verərkən ev sahibi müəyyən məbləğ pulu öncədən alır. Camaat arasında geniş yayılan bu işin hökmü nədir?**

**Cavab: Əgər ev sahibi öz evini müəyyən müddətə və müəyyən məbləğə bu şərtlə icarəyə versə ki, icarəçi şəxs müəyyən məbləğ pulu borc ünvanında ona verəcəkdir, bunun maneəsi yoxdur. Baxmayaraq ki, borc aldığı bu pula görə ev sahibi evin icarə pulunu günün məzənnəsindən aşağı qiymətə müəyyən etmişdir. Amma əgər ev sahibi icarəçi şəxsdən bu şərtlə borc pul alsa ki, öz evini havayı olaraq ona verəcəkdir, yaxud öz evini günün məzənnəsinin qiymətinə, yaxud da aşağı, ya yuxarı qiymətə ona icarəyə verəcəkdir – belə ki, onlar arasında ilk öncə borc verib-almaq olmuş, evi icarəçi şəxsə icarəyə vermək və ya evi ona havayı vermək borc verməyin şərti ünvanında olmuşdur – bütün bu hallar haramdır və düzgün deyildir.**

**Sual 1663:** **Müəyyən məbləğ zəhmət haqqı qarşılığında malın daşınması və müştəriyə çatdırılmasını təmin edən karqo şirkəti mal yolda oğurlandığı, yaxud yanğın səbəbilə yanıb məhv olduğu, yaxud da mala ziyan dəydiyi təqdirdə, bu mala zamindirmi?**

**Cavab: Malın daşınması və ünvana çatdırılmasını öhdəsinə götürən bir şirkət əgər daşınma və çatdırılmada malın qorunması üçün lazımi tədbirləri yerinə yetirərsə və bu xüsusda heç bir ifrat-təfritə yol verməzsə, bu təqdirdə əgər onun mala zamin olması şərt qoyulmayıbdırsa, zamin deyildir. Amma əgər onun zamin olması şərt qoyulubdursa, zamindir.**

**Sual 1664:** **Əgər çoban qoyun sürüsünü tövləyə salıb, tövlənin ağzını bağladıqdan sonra tövlədən üç fərsəx uzaqlıqda yerləşən evinə gedərsə və gecə vaxtı canavar tövləyə girib qoyunları parçalayarsa, çoban tələf olan qoyunlara zamindirmi? Müqaviləyə görə bu qoyunlardan yeddisi zəhmət haqqı ünvanında çobana verilməli idi. Belə olduğu halda, qoyunları otarmaq üçün çobanı işçi tutan şəxs onun ücrətini verməlidirmi?**

**Cavab: Əgər çoban gecə vaxtı qoyunların tövləsini qorumaq vəzifəsini daşımırdısa və qoyunları qorumaq baxımından öz vəzifəsində heç bir ifrat-təfritə yol verməyibdirsə, tələf olan qoyunlara zamin deyildir və qoyunları otardığına görə ücrətini bütünlüklə tələb etmək haqqı vardır.**

**Sual 1665:** **Bir şəxsin bir evi vardır və qonşusu havayı olaraq və heç bir icarə, ya alğı-satqı, ya girov olmadan uzun müddət həmin evdə yaşamışdır. Ev sahibi vəfat etdikdən sonra onun varisləri evi bu şəxsdən geri istəyirlər, amma o, evi onlara təhvil verməkdən imtina edir və evin ona aid olduğunu iddia edir. Digər tərəfdən isə, iddiasını sübut etməyə heç bir dəlil-sübutu yoxdur. Bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər varislər bu evin mərhumun mülkü olduğunu şəri yolla sübut etsələr, yaxud hal-hazırda evdən istifadə edən şəxs evin mərhumun mülkü olduğunu etiraf etsə, amma müəyyən səbəbə görə evin onun sahibindən ona ötürüldüyünü iddia etsə, o öz iddiasını şəri yolla sübut edə bilməyənədək, evi ev sahibinin varislərinə qaytarmalıdır.**

**Sual 1666:** **Bir şəxs saatını təmir etməsi üçün saatsaza vermiş və bir müddətdən sonra saat mağazadan oğurlanmışdır. Saat**

**təmiri mağazasının sahibi bu saata zamindirmi?**

**Cavab: Əgər mağaza sahibi saatın qorunub saxlanmasında səhlənkarlıq etməyibdirsə, oğurlanan saata zamin deyildir.**

**Sual 1667: Burada bir özəl şirkət vardır ki, xarici şirkətlərin məhsullarının satışı üçün bu şirkətlərə vəkillik edir və bunun müqabilində satılan malın pulunun müəyyən faizini özünə götürür. Şəri baxımdan bu faizi götürməyə icazə verilirmi? Əgər dövlət müəssisəsinin işçilərindən biri bu şirkətlə əməkdaşlıq etsə, bu faizdən müəyyən hissəni ala bilərmi?**

**Cavab: Əgər bu faiz daxili və ya xarici şirkətlərin – istər dövlət sektoru olsun, istərsə özəl sektor olsun – məhsullarının satışında vəkillik etməyin ücrəti ünvanında olarsa, vəkilin onu almasının öz-özlüyündə maneəsi yoxdur. Amma dövlət müəssisəsi işçisinin maaş alıb göstərdiyi dövlət xidməti qarşılığında başqa bir ücrət və ya hədiyyə almağa haqqı yoxdur.**

## “Sərqufli”nin[1] hökmləri

**Sual 1668:** **Ticarətlə məşğul olmaq və ya başqa bir iş görmək üçün bir mağazanı müəyyən müddətə icarəyə götürən şəxs icarə müddəti başa çatdıqdan sonra və mağaza sahibi icarə müddətini artırmadığı təqdirdə, mağazanı boşaltmaqdan imtina edə və “sərqufli haqqı”nı tələb edə bilərmi? İcarəyə götürülən şeyi başqa bir şəxsə həvalə etmək haqqı olmadığı təqdirdə, bu şey barəsində “peşə haqqı” iddia edə bilərmi?**

**Cavab: İcarə müddəti başa çatdıqdan sonra icarəçi şəxsin icarəyə götürülən şeyi öz istifadəsində saxlamaq və bunu öz sahibinə təhvil verməkdən imtina etmək haqqı yoxdur. Amma əgər həmin şey barəsində icarəçi şəxsin sərqufli haqqı olarsa – belə ki, bu haqq mülkün sahibi tərəfindən ona ötürülmüşdür – yaxud mağaza qanun baxımından icarəçi şəxs üçün bu mağazada haqq yaranmasına səbəb olan obyektlərdən olarsa, bu təqdirdə icarəçi şəxs öz haqqının əvəzini mağaza sahibindən tələb edə bilər.**

**Sual 1669:** **Mən bir ticarət obyektini icarəyə götürdüm və sərqufli haqqını əldə etməkdən ötrü müəyyən məbləğ pulu mağaza sahibinə verdim. Bundan əlavə, mağazaya elektrik naqillərinin çəkilməsi, yerin daşla döşənməsi və bu kimi başqa işlər üçün böyük məbləğdə xərc çəkdim, həmçinin iş sertifikatı almaq üçün müəyyən məbləğ pul xərclədim. On il keçdikdən sonra mağaza sahibinin varisləri məndən həmin obyekti onlara qaytarmağımı istədilər. Mən onların istəyini qəbul edib mağazanı boşaltmalıyammı? Əgər mağazanı təhvil verməliyəmsə, mağazaya çəkdiyim xərci onlardan tələb edə bilərmmi? Sərquflinin əvəzini günün qiymətinə onlardan tələb etməyə haqqım vardırmı?**

**Cavab: Mağaza sahibinə icarənin müddətini artımağın vacib olması, yaxud mağazanı boşaltmağı tələb etməyin icazəli olması və bu tələbi yerinə yetirməyin vacibliyi, həmçinin icarəyə götürülən obyektə çəkilən xərclərə zamin olmaq ölkənin qüvvədə olan qanunlarına və ya obyekti icarəyə verən şəxs ilə icarəçi şəxs arasında bağlanan icarə əqdində vurğulanan şərtlərdən asılıdır. Amma həmin obyektin sərqufli haqqına gəlincə, əgər bu haqq obyekt sahibindən şəri şəkildə icarəçi şəxsə ötürülübdürsə, yaxud qanunun tələbinə görə bu haqq icarəçi şəxs üçün mövcuddursa, onu günün qiymətinə tələb etmək haqqı vardır.**

**Sual 1670:** **Bir şirkətin sahibi bir binanı icarəyə vermiş və icarəçi şəxsdən sərqufli haqqı ünvanında heç nə almamışdır. İcarəçi şəxs binanı təhvil verdiyi zaman binanın sahibi sərqufli ünvanında ona müəyyən məbləğ pul verməlidirmi? Əgər binanı icarəyə verən şəxs bu binanı icarəçi şəxsə satarsa, sərqufli haqqı ünvanında müəyyən məbləğ pulu binanın qiymətindən çıxmalıdırmı?**

**Cavab: Əgər binanın sərqufli haqqı şəri şəkildə - məsələn, alğı-satqı, yaxud sülh, yaxud lazım əqd əsnasında qeyd edilən şərt vasitəsilə, yaxud da bunu təsdiqləyən qanuna müvafiq olaraq - icarəçi şəxsin əmlakı olmayıbdırsa, bina sahibindən sərqufli haqqı ünvanında heç nə tələb edə bilməz. Həmçinin əgər o, bu binanı onun sahibindən alarsa, sərquflinin əvəzi ünvanında binanın qiymətindən heç bir məbləği çıxa bilməz.**

**Sual 1671:** **Atam bir neçə ticarət mağazasını özünün üç övladı üçün almış və elə həmin vaxt mağazaların sənədini onların adına keçirmişdir. Beləliklə, həmin mağazalar şəriət və qanun baxımından onlara aiddir. Atam vəfat etməmişdən qabaq bu mağazalar onun istifadəsində idi və o, burada ticarətlə məşğul idi. Bu mağazaların sərqufli haqqı yalnız onların sahiblərinindirmi, yoxsa mağazaların sərqufli haqqı mülkdən ayrıdır və bütün varislərə aiddir?**

**Cavab: Mağazaların sərqufli haqqı mülkə bağlıdır və bu haqq şəri şəkildə başqa bir şəxsə ötürülməyənə qədər onun malikinə aiddir.**

**Sual 1672:** **Əgər icarəçi şəxs mağazanı icarəyə götürərkən sərqufli ünvanında müəyyən məbləğ pulu mağaza sahibinə verərsə, icarəçi şəxs hər hansı bir səbəbə görə mağazanı təhvil vermək istədiyi təqdirdə mağaza sahibi həmin məbləği icarəçi şəxsə verməlidirmi, yoxsa sərquflinin qiymətini mağazanın təhvil verildiyi günün qiyməti ilə icarəçi şəxsə verməlidir?**

**Cavab: Əgər mağazanın sərqufli haqqı şəri baxımdan icarəçi şəxsə aid olarsa, o, sərquflinin hazırkı qiymətini günün ədalətli qiyməti ilə tələb edə bilər və mağaza sahibi də hazırkı qiyməti ona verməlidir. Amma əgər icarəçi şəxs müəyyən məbləğ pulu mağaza sahibinin yanında əmanət qoyarsa, belə ki, mağazanı təhvil verdiyi vaxt mağaza sahibi bu pul ona verməlidirsə, bu təqdirdə icarəçi şəxs yalnız oranı icarəyə götürdüyü vaxt mağaza sahibinə verdiyi məbləğin bərabərini tələb edə bilər. Pulun dəyərinin fərqi barəsində isə müsalihə etmək ehtiyata müvafiqdir.**

**Sual 1673:** **Mən bir mağazanı onun sahibindən icarəyə götürdüm və sərqufli ünvanında ona heç nə vermədim, çünki həmin vaxtlar bizim şəhərdə sərqufli haqqı vermək adət deyildi. Hal-hazırda mağazanı icarəyə verən şəxs vəfat etmiş və bu mağaza onun övladlarından birinin mülkü olmuşdur. Bu şəxs məndən mağazanı boşaltmağımı istəyir. Digər tərəfdən, icarə müddəti ərzində mən mağaza üçün bəzi işlər görmüşəm, o cümlədən, ora işıq və telefon çəkdirmişəm, qapısını dəyişdirmişəm, oranı qoruyub saxlamışam. Həmçinin bu mağazadan alış-veriş edənlər arasında mənə borcu olan şəxslər vardır. Mən mağazanın indiki sahibinin istəyini yerinə yetirməli və heç bir haqqa malik olmadan bu mağazanı boşaldıb ona təhvil verməliyəmmi? Əgər hər hansı bir haqqım vardırsa, bu haqq nədən ibarətdir?**

**Cavab: Əvvəlki icarənin müddəti başa çatdıqdan sonra mağazanın indiki sahibi tərəfindən icarə müddəti artırılmayana qədər bu mağazadan istifadə etmək və mağazanı onun indiki sahibinə təhvil verməkdən boyun qaçırmaq haqqınız yoxdur. Amma icarənin müddətinin artırılmasına dair müraciətə mağaza sahibinin müsbət cavab verməsinin vacibliyi, yaxud mağazanın boşaldılmasını tələb etməyin icazəli olması və bu istəyi qəbul etmyin vacibliyi ölkənin qüvvədə olan qanunlarına və ya icarə əqdi əsnasında vurğulanan şərtlərə bağlıdır. Mağazanı boşaldarkən sərqufli ünvanında nə isə tələb etməyinizə gəlincə, nəzərə alsaq ki, əvvəlki icarə əqdi bağlanarkən sərqufli haqqının icarəçi şəxs üçün yaranması həmin bölgədə adət deyilmiş və sərqufli haqqı mağaza sahibindən sizə ötürülməmişdir, buna görə də, mağazanı boşaldıb onun indiki sahibinə təhvil verməyiniz müqabilində sərqufli ünvanında mağaza sahibindən bir şey tələb etmək haqqınız yoxdur. Amma əgər ölkə qanunu sizə belə bir haqq tanıyarsa, bu hal istisnadır. Mağazaya işıq və telefon çəkdirməyə və öz xərcinizlə gördüyünüz bütün işlərə gəlincə, bunların hamısı sizin əmlakınızdır. Amma əgər ürf və ya ölkə qanunu bunların havayı olaraq və ya çəkilən xərclərin mülk sahibi tərəfindən ödənilməsi ilə mülkə bağlı olduğunu bilərsə, bu hal istisnadır.**

**Sual 1674:**

**1)** **Bir obyekt ardıcıl iyirmi il müddətinə iş yeri ünvanında icarəyə verilmişdir. İcarəçi şəxs icarə müddəti ərzində və ya icarə müddəti başa çatdıqdan sonra həmin obyektin sərqufli haqqını sərquflinin vergilərini ödəmək və qanunun bütün tələblərinə riayət etmək şərtilə başqa bir icarəçi şəxsə həvalə edə bilərmi?**

**2)** **Əgər icarəçi şəxs həmin obyektin sərqufli haqqını rəsmi şəkildə və qanunun bütün tələblərinə riayət edərək başqa bir icarəçi şəxsə ötürərsə, obyekt sahibinin bunu qəbul etməyib, ikinci icarəçi şəxsdən sözügedən obyekti boşaltmasını tələb etməyə haqqı vardırmı?**

**Cavab: Əgər həmin obyektin sərqufli haqqı obyekt sahibi tərəfindən və ya qanuna müvafiq olaraq icarəçi şəxsə ötürülməyibdirsə, onu başqasına satmağa və həvalə etməyə haqqı**

yoxdur. Əgər belə bir iş tutarsa, icarə füzulidir və (icarənin düzgünlüyü) obyekt sahibinin icazəsinə bağlıdır.

**Sual 1675:** Malından mənə irs çatan şəxs hoteli və hotelə aid olan hər şeyi – istər əşyalar olsun, istərsə də haqlar – mənimlə müsalihə etmişdir (mənimlə razılığa gələrək mənə həvalə etmişdir). Bu müsalihə bu hotelin sərqufli haqqına da şamil olurmu?

Cavab: Əgər hotelin sərqufli haqqı bu şəxsə aid olarsa və müsalihə onun hoteldə olan bütün əmlakı barəsində – istər əşyalar olsun, istərsə də haqlar olsun – istisnasız olaraq baş tutarsa, hotelin sərqufli haqqı da bu müsalihəyə daxildir.

**Sual 1676:** Bir şəxs bir yeri icarəyə götürmüşdür və şərtə görə yer sahibi tələb etdiyi vaxt oranı boşaldıb təhvil verməlidir. İcarə müddəti başa çatdıqdan və yer sahibi oranın boşaldılmasını tələb etdikdən sonra icarəçi şəxs bu yerin sərqufli haqqını tələb edir. Yer sahibi sərqufli haqqını icarəçi şəxsə ödəməlidirmi?

Cavab: Sualda qeyd edilənləri nəzərə alaraq, yer sahibi tələb etdiyi vaxt icarəçi şəxsin həmin yeri boşaltması şərt qoyulmuşdur və başa düşüldüyü qədər sərqufli haqqı yer sahibindən icarəçi şəxsə ötürülməmişdir. Buna görə də, icarəçi şəxsin bir şey tələb etməyə haqqı yoxdur. Amma əgər belə bir haqqı tələb etmək İslam hökuməti qanunlarına müvafiq olarsa, bu hal istisnadır.

**Sual 1677:** İcarəyə verdiyim yerin sərqufli haqqını müəyyən məbləğə icarəçi şəxsə satdım və o da mənə bir pul çeki verdi. Amma onun bank hesabında pul olmadığına görə mən çeki nağd pula çevirə bilmədim. Həmin yer hələ də icarəçi şəxsin ixtiyarındadır və mən indiyədək sərquflinin pulunu əlimə almadığıma baxmayaraq, o, sərqufli haqqının ona aid olduğunu iddia edir. Bu yerin sərqufli haqqı ona aiddirmi, yoxsa mən sərquflinin pulunu əlimə ala bilmədiyimə görə onun sövdələşməsi pozulmuşdur?

Cavab: Sərqufinin sövdələşməsi düzgün şəkildə baş tutuduqdan sonra çek sahibinin bank hesabında pulun olmaması – belə ki, bu çeki sərquflinin pulu ünvanında vermişdir – sövdələşməsinin pozulmasına səbəb olmur. Əksinə, sərqufli haqqı onu alana aiddir və sərqufli haqqını satan şəxsin, başqa sözlə, yeri icarəyə verən şəxsin ondan çekdəki məbləği pulun dəyərdən düşməsini də hesablayaraq tələb etmək haqqı vardır.

**Sual 1678:** Əgər mağazanı boşaltdığı vaxt icarəçi şəxsin sərquflinin əvəzini almaq haqqı olarsa, amma mağaza sahibi ürf və qanun baxımından qəbul edilən qaydaların ziddinə olaraq bu haqqı verməkdən boyun qaçırarsa, mülk sahibinin icazəsi olmadan icarəçi şəxsin sərquflinin əvəzini alana qədər həmin mülkdə qalmasının hökmü nədir? Əgər icarəçi şəxsin həmin mülkdə qalmasına icazə verilmirsə və qəsb sayılırsa, oradan əldə etdiyi gəlir şəri baxımdan halaldırmı?

Cavab: Əgər mağazanın boşaldılması üçün sərquflinin əvəzinin ödənilməsi şərt qoyulmazsa, mağaza boşaldılarkən sərquflinin əvəzini tələb etmək haqqının yaranması icarə müddəti başa çatdıqdan sonra oradan istifadə etməyin icazəli olması üçün kifayət etmir. Amma həmin mağazada ticarətdən əldə edilən gəlir şəri baxımdan halaldır.

**Sual 1679:** Bir şəxs bir mağazanı müəyyən məbləğə icarəyə götürmüş və müəyyən bir məbləğ də sərqufli ünvanında ödəmişdir. Sonra mağaza sahibi oranın icarə pulunu artırmağa başlamış və icarə pulu əvvəlkinin iki bərabərinə çatmışdır. İndi isə icarəçi şəxs mağazanı daha artıq məbləğdə sərqufli ilə başqa bir icarəçi şəxsin ixtiyarında qoymaq istəyir, amma mağaza sahibi sərquflinin on beş faizini tələb edir və aylıq icarə pulunu da on bərabərə qədər artırmaq niyyətindədir. Halbuki, qonşu mağazaların icarə pulu bu qiymətdən aşağıdır. Mağaza sahibinin şəriət və qanun baxımından sözügedən faizi almaq və icarə pulunu bu qədər artırmaq haqqı vardırmı?

Cavab: Əgər mağazanın sərqufli haqqı icarəçi şəxsə aiddirsə və onu istədiyi şəxsə vermək

**icazəsi vardırsa, sərquflinin əvəzi ünvanında icarəçi şəxsin aldığı məbləğdən mağaza sahibinin hansısa bir faizi tələb etməyə haqqı yoxdur. Amma icarə puluna gəlincə, onun məbləğini təyin etmək icarə əqdi yenilənərkən mağaza sahibi ilə icarəçi şəxs arasında əldə edilən razılığa bağlıdır.**

**Sual 1680:** **Əgər bir şəxs bir mağazanı icarəyə götürsə və aylıq icarə pulundan əlavə sərqufli ünvanında müəyyən bir məbləğ ödəsə, eyni zamanda şərt qoysa ki, mağazanı boşaltdığı vaxt mağaza sahibi sərquflinin pulunu günün qiyməti ilə ödəyəcəkdir, əks təqdirdə, icarəçi şəxsin mağazanın sərqufli haqqını başqa bir şəxsə satmaq və mağazanı ona təhvil vermək haqqı olacaqdır, belə bir şərti qoymaq düzgündürmü? Mağaza sahibi sərquflinin əvəzini günün qiyməti ilə icarəçi şəxsə ödəyərək, yaxud oranın başqa bir şəxsin ixtiyarına verilməsi ilə razılaşaraq, sözügedən şərtə vəfa etməlidirmi?**

**Cavab: İcarə əqdi əsnasında belə bir şərti qoymağın maneəsi yoxdur və mağazanı icarəyə verən şəxs bu şərtə əməl etməlidir. Əgər mağaza sahibi sərqufini icarəçi şəxsdən almağa razılaşmazsa, sərquflinin başqa bir şəxsə satılmasına və mağazanın onun ixtiyarına verilməsinə etiraz etmək haqqı yoxdur.**

**Sual 1681:** **Mən bir ev almışam, amma onun ticarət mağazası başqa bir şəxsə icarəyə verilibdir. Əvvəlki ev sahibi mağazanın sərqufli haqqını icarəçi şəxsə satmışdır və həmin icarəçi şəxs də öz haqqını başqa bir şəxsə satmışdır. İcarə müddəti başa çatdıqdan sonra əgər mən ikinci icarəçi şəxsdən mağazanı boşaltmasını istəsəm, sərquflinin əvəzini ona mən ödəməliyəm, yoxsa sərquflinin pulunu alan evin əvvəlki sahibi və ya əvvəlki icarəçi şəxs ödəməlidirlər?**

**Cavab: İkinci icarəçi şəxs şəri şəkildə sərqufli haqqının sahibi olarsa, hal-hazırda bu haqqı ondan almaq istəyən şəxs sərquflinin pulunu ona ödəməlidir.**

---

[1] **Sərqufli – obyekti icarəyə götürməkdə birincilik hüququ və öz ticarət məkanında işini davam etdirmək baxımından tacirin malik olduğu mənəvi haqdır. Sərqufli "tabeli daşınmaz əmlak"ın bir hissəsidir.**

## Zaminlik

**Sual 1682:** **Bank hesabında vəsaiti olmayan bir şəxs başqa bir şəxsə zaminlik vəsiqəsi ünvanında pul çeki yaza bilərmi?**

**Cavab: Bu kimi məsələlərdə İslam hökumətinin qanunları əsas götürülür.**

**Sual 1683:** **Bir şəxs mənə müəyyən məbləğ pul borclu idi və borcunu verməkdə səhlənkarlıq edirdi. Nəhayət, onun qohumlarından biri mənə borcun məbləği qeyd edilən müddətli pul çeki verdi ki, borcunu qaytarmaqda o şəxsə möhlət verim. Beləcə, pul çeki verən şəxs zamin oldu ki, əgər borcu olan şəxs çekdə qeyd edilən tarixə qədər borcunu qaytarmazsa, onun özü borcu qaytaracaqdır. Daha sonra borcu olan şəxs qaçıb gizləndi və mən hələ də onu tapa bilmirəm. Mən zamin olan şəxsdən borcumu bütünlüklə ala bilərəmmi?**

**Cavab: Əgər o, şəri baxımdan düzgün şəkildə zamin olubdursa, qeyd edilən tarix çatdıqda siz öz borcunuzu ondan tələb edə və borcunuzu bütünlüklə ondan ala bilərsiniz.**

## Girov

**Sual 1684:** **Bir şəxs bankdan götürdüyü pul borcunun qarşılığında öz evini banka girov qoymuşdur. Amma borcunu verib qurtarmamış vəfat etmiş və onun azyaşlı varisləri də qalan borcu ödəyə bilməmişlər. Nəticədə, bank sözügedən evi müsadirə etmişdir, halbuki, o evin qiyməti borcun məbləğindən neçə dəfə çox idi. Artıq olan bu məbləğin hökmü nədir? Məruhumun azyaşlı varisləri və onların haqqı barəsində hökm nədir?**

**Cavab: Əgər girov qoyulan şeydən öz borcunu əldə etmək üçün girov götürən şəxsin bu şeyi satmaq icazəsi vardırsa, həmin şeyi mümkün olan ən yüksək qiymətə satmalıdır. Bu şeyi borcun məbləğindən artıq qiymətə satdığı təqdirdə, borc verdiyi məbləği götürdükdən sonra qalan pulu bu şeyin şəri sahibinə qaytarmalıdır. Buna görə də, sualda qeyd edilənləri nəzərə alaraq, pulun artıq qalanı mərhumun varislərinə çatır.**

**Sual 1685:** **Bir şəxs müəyyən məbləğ pulu müəyyən müddətə borc götürüb, borca görə öz mülkünü borc verən şəxsin yanında girov qoya və sonra bu evi ondan müəyyən məbləğə və müəyyən müddətə icarəyə götürə bilərmi?**

**Cavab: Mülk sahibinin öz mülkünü icarəyə götürməsi məsələsində mövcud olan iraddan əlavə, bu kimi sövdələşmələr sələmli borc almaq üçün işlədilən hiylələrdir. Buna görə də, şəri baxımdan haramdır və düzgün deyildir.**

**Sual 1686:** **Bir şəxs başqa bir şəxsdən aldığı borcun qarşılığında öz torpaq sahəsini onun yanında girov qoymuşdur. Bu sövdələşmənin üstündən qırx ildən çox vaxt keçmiş, nəhayət, həm girov qoyan şəxs, həm də girov götürən şəxs vəfat etmişlər. Girov qoyan şəxsin varisləri o vəfat etdikdən sonra girov götürən şəxsin varislərindən həmin torpaq sahəsini dəfələrlə tələb etmişlər. Amma onlar bu tələbi qəbul etməyib, torpaq sahəsinin atadan onlara irs çatdığını iddia etmişlər. Girov qoyan şəxsin varisləri bu torpaq sahəsini onlardan geri ala bilərmi?**

**Cavab: Əgər sübuta yetsə ki, girov götürən şəxs verdiyi borcu əldə etmək üçün bu torpaq sahəsinə sahiblənə bilərmiş və bu torpaq sahəsinin də qiyməti onun verdiyi borc məbləğində və ya daha az məbləğdə olarsa, habelə, bu torpaq sahəsi o vəfat edənədək onun ixtiyarında olarsa, göründüyü qədər onun mülküdür. O vəfat etdikdə isə, onun mirası və varislərinə çatan irs sayılır. Əks təqdirdə, bu torpaq sahəsi girov qoyan şəxsin varislərinə irs çatır və onlar bu torpaq sahəsini girov götürən şəxsin varislərindən tələb edə bilərlər. Girov qoyan şəxsin varisləri də onun borcunu onun öz mirasından girov götürən şəxsin varislərinə ödəməlidirlər.**

**Sual 1687:** **Bir evi icarəyə götürən bir şəxs başqa bir şəxsə borclu olduğuna görə bu evi onun yanında girov qoya bilərmi? Yoxsa girovun düzgün olmasında girov qoyulan şeyin girov qoyan şəxsin əmlakı olması şərtdir?**

**Cavab: Evin sahibinin izni və icazəsi ilə olarsa, maneəsi yoxdur.**

**Sual 1688:** **Mən bir şəxsə borclu olduğum üçün öz evimi onun yanında bir il müddətinə girov qoydum və bu barədə müqavilə də yazdıq. Amma müqavilədən kənar olaraq, mən ona vəd etdim ki, ev üç il müddətində onun ixtiyarında olacaqdır. Girovun müddəti barəsində müqavilədə yazılanlar mötəbər sayılır, yoxsa adi bir təklif olaraq mənim ona etdiyim vəd? Girov düzgün olmadığı təqdirdə, girov qoyan şəxsin və girov götürən şəxsin vəzifəsi nədir?**

**Cavab: Girovun müddəti barəsində müqavilədə yazılanlar, yaxud edilən vəd, yaxud da bu kimi məsələlər meyar götürülmür, əksinə, borc müqaviləsinin özü meyar götürülür.**

Beləliklə, əgər borcun müəyyən müddətdən sonra qaytarılması şərt qoyulubsa, həmin tarix çatdıqda müqavilə pozulur. Əks təqdirdə, həmin şey girov olaraq qalır və borc qaytarılmayanadək və ya borc verən şəxs öz haqqından keçməyənədək bu şey girovluqdan azad olmur. Sözügedən ev girovluqdan azad olduğu, yaxud girov əqdinin kökdən yanlış olduğu məlum olduğu təqdirdə, girov qoyan şəxs girov qoyduğu şeyi girov götürən şəxsdən tələb edə bilər. Girov götürən şəxsin də həmin şeyi geri qaytarmaqdan imtina etmək və düzgün olan girovun hökmlərini onun barəsində icra etmək haqqı yoxdur.

**Sual 1689:** Atam təxminən iki il və ya iki ildən bir qədər çox öncə bir neçə qızıl sikkəni bir şəxsdən aldığı borcun qarşılığında ona girov verdi. Ölümündən bir neçə gün əvvəl isə həmin şəxsə bu qızıl sikkələri satmasına icazə verdi, amma onu bu məsələdən xəbərdar edə bilmədi. Atam vəfat etdikdən sonra mən atamın borcu məbləğində pul borc götürüb həmin şəxsə verdim. Məqsədim isə, atamın borcunu ödəmək və onu borcdan çıxarmaq deyildi, əksinə, girov qoyulan qızıl sikkələri ondan alıb başqa bir şəxsin yanında girov qoymaq idi. Amma həmin şəxs qızıl sikkələri mənə təhvil vermək üçün digər varislərin də razılığını şərt qoydu, varislərdən bəziləri isə bu işə icazə vermədi. Beləliklə, mən girov qoyulan qızıl sikkələri təhvil almaq üçün həmin şəxsə müraciət etdim, amma o, qızıl sikkələri verdiyi borcun qarşılığında özünə götürdüyünü iddia edib onları təhvil verməkdən boyun qaçırdı. Bu məsələnin şəri baxımdan hokmü nədir? Verdiyi borcu geri aldıqdan sonra girov götürən şəxs girov qoyulan şeyi geri qaytarmaqdan boyun qaçıra bilərmi? Nəzərə alsaq ki, mən atamın borcunu vermək vəzifəsini daşımırdım və həmin şəxsə verdiyim pul atamın borcu ünvanında deyildi, o, verdiyi borcun qarşılığında bu pulu özünə götürüb, qaytarmaya bilərmi? O, girov qoyulan şeyi geri qaytarmaq üçün digər varislərin razılığını şərt qoya bilərmi?

Cavab: Əgər sözügedən pulu o şəxsə verməkdə məqsəd mərhumun borcunu ödəmək olubdursa, mərhum borcdan çıxmış sayılır, girov qoyulan şey də girovluqdan azad olur və o şəxsin əlində əmanətə çevrilir. Amma həmin şey bütün varislərə aid olduğuna görə, digər varislərin razılığı olmadan varislərdən bəzilərinə verməməlidir. Yox əgər sözügedən pulun mərhumun borcunu ödəmək məqsədilə verildiyi dəqiqləşməzsə, xüsusilə də, əgər girov götürən şəxs bunu iqrar etməzsə, verdiyi borcun qarşılığında bu pulu özünə götürə bilməz. Əksinə, bu pulu ona verən şəxsə - xüsusilə də, əgər pulu geri istəyirsə - geri qaytarmalıdır. Qızıl sikkələr də girov ünvanında onun yanında qalır və varislər mərhumun borcunu ödəyib onu azad etməlidirlər, yaxud da girov götürən şəxsə qızıl sikkələri satmasına və əldə edilən puldan verdiyi borcu götürməsinə icazə verməlidirlər.

**Sual 1690:** Bir şəxs girov qoyduğu şeyi girovdan azad etməmiş onu öz borcu qarşılığında başqa bir şəxsin yanında girov qoya bilərmi?

Cavab: Əgər girov qoyan şəxs onu birinci girovdan azad etməmiş ikinci girova qoyarsa, birinci girov götürən şəxsin icazəsi olmadan bu iş "füzuli"dir (icazəsiz müqavilə hökmündədir) və (bu işin düzgünlüyü) birinci girov götürən şəxsin icazəsinə bağlıdır.

**Sual 1691:** Bir şəxs başqa bir şəxsdən müəyyən məbləğ borc almaqdan ötrü öz torpaq sahəsini onun yanında girov qoyur. Amma girov götürən şəxs həmin məbləğdə pulu olmadığını bildirib, pulun əvəzində on baş qoyun verir. İndi hər iki tərəf girovu azad etmək və öz mallarını geri götürmək niyyətindədirlər. Amma girov götürən şəxs təkid edir ki, verdiyi qoyunlar ona qaytarılmalıdır. Şəri baxımdan onun belə bir haqqı vardırmı?

Cavab: Girov borcun qarşılığında olmalıdır, nəinki borc sonradan verilməlidir. Sualda qeyd olunanlara əsasən, torpaq sahəsi və qoyunlar onların sahiblərinə qaytarılmalıdır.

## Şəriklik

**Sual 1692:** **Mən bir şirkət sahibi ilə şirkətin sərmayəsində şərik oldum. Belə ki, o, sərmayəni işlətməkdə mənim tərəfimdən vəkil idi və hər ay səhmlərin gəlirindən beş min tümən mənə verməli idi. Bir il ötdükdən sonra həmin əmlakın və onun gəlirinin əvəzində ondan bir torpaq sahəsi aldım. Bu torpaq sahəsinin hökmü nədir?**

**Cavab: Sualda qeyd olunanlara əsasən, şirkətin sərmayəsində şərik olduğunuza və şirkət sahibinin də bu sərmayədən istifadə etmək icazəsi olduğuna görə şəri baxımdan halal olan yolla gəlir əldə edildiyi təqdirdə onu almağın maneəsi yoxdur.**

**Sual 1693:** **Bir neçə şəxs bir şeyi şərikli şəkildə almışlar, bu şərtlə ki, öz aralarında püşk atacaqlar və püşkdə kimin adı çıxarsa bu şey onun olacaqdır. Bu işin hökmü nədir?**

**Cavab: Əgər püşk atmaqda onların məqsədi bu olsa ki, şərikli malda olan paylarını püşkdə adı çıxan şəxsə razılıqla hədiyyə edəcəkdirlər, bu işin maneəsi yoxdur. Amma əgər onların məqsədi bu olsa ki, şərikli mal püşk vasitəsilə püşkdə adı çıxan şəxsin əmlakı olacaqdır, bu iş şəri baxımdan düzgün deyildir. Həmçinin əgər onların əsas məqsədi udub-uduzmaq olarsa, bu da düzgün deyildir.**

**Sual 1694:** **İki şəxs bir torpaq sahəsi almış və iyirmi ildir bu torpaq sahəsində şərikli şəkildə əkinçiliklə məşğuldurlar. Hal-hazırda onlardan biri öz payını başqasına satmaq istəyir. Onun belə bir haqqı vardırmı, yoxsa yalnız şərikinin onu almaq haqqı vardır? Əgər bu şəxs öz payını digər şərikinə satmaq istəmirsə, şərikinin etiraz etməyə haqqı vardırmı?**

**Cavab: Bir şərikin digər şəriki öz payını ona satmağa məcbur etməyə haqqı yoxdur. Əgər şəriki öz payını başqasına satarsa, etiraz etmək haqqı da yoxdur. Amma alğı-satqı baş tutduqdan sonra əgər bu xüsusda "şuf`ə haqqı"nın bütün şərtləri mövcud olarsa, "şuf`ə haqqı"ndan istifadə edə bilər.**

**Sual 1695:** **İstehsal və ya ticarət şirkətlərinin, yaxud bankların satışa çıxardıqları səhmləri almaq və satmağın hökmü nədir? Belə ki, bir şəxs bu səhmlərdən birini alır və birja bazarında satışa çıxarır, nəticədə, onun qiyməti alış qiymətindən yuxarı və ya aşağı olur. Bildiyimiz kimi, sərmayə deyil, səhmin özü alğı-satqıya çıxarılır. Həmçinin əgər sözügedən şirkətlərin sələmli fəaliyyətləri olarsa, yaxud bu barədə tərəddüdümüz olarsa, məsələnin hökmü nədir?**

**Cavab: Əgər fabrik, zavod, şirkət və ya bankın səhmlərinin əmlak dəyəri səhmlərin özünün etibarlılığı və bu səhmlərə etibarlılıq verməsi düzgün olan bir şəxs tərəfindən onlara etibarlılığın verilməsi nəticəsində olarsa, onları almağın və satmağın maneəsi yoxdur. Həmçinin əgər fabrik, zavod, şirkət və bankın qiyməti və ya onların sərmayəsinin etibarlılığı nəticəsində olarsa – belə ki, hər bir səhm bu qiymətin və ya sərmayənin bir hissəsi deməkdir – səhmlərin alğı-satqısının maneəsi yoxdur. Bu şərtlə ki, hər səhmin qiyməti məlum olmalıdır, həmçinin şirkətin fəaliyyəti, fabrik, zavod və ya bankın gördüyü iş şəri baxımdan halal olmalıdır.**

**Sual 1696:** **Biz üç nəfər toyuqların kəsilməsi sexində və bu sexə aid olan mülkdə şərikik. Anlaşmadığımıza görə şərikliyə son qoymaq və ayrılmaq qərarına gəldik. Buna görə də, sexi və ona aid olan mülkü şəriklər arasında hərraca çıxardıq və bizlərdən biri hərracı qazandı. Amma o vaxtdan indiyədək bizə bir pul verməmişdir. Bu sövdələşmə etibardan düşürmü?**

**Cavab: Hərracın elan edilməsi və şəriklərdən birinin və ya başqa bir şəxsin daha çox qiymət**

**təklif etməsi, sövdələşmənin gerçəkləşməsi və mülkiyyətin həmin şəxsə keçməsi üçün yetərli deyildir. Səhmlərin sövdələşməsi şəri baxımdan düzgün şəkildə gerçəkləşməyənə qədər şəriklik öz yerində qalır. Amma əgər sövdələşmə düzgün şəkildə baş tutarsa, alıcının pulu ödəməsini gecikdirməsi sövdələşmənin pozulmasına səbəb olmur.**

**Sual 1697:** **Biz bir şirkət yaradıb onu rəsmi qeydiyyatdan keçirdikdən sonra mən digər şəriklərin razılığı ilə öz hissəmi başqa bir şəxsə satdım. Bu şəxs də pulu bir neçə pul çeki şəklində ödədi. Amma bu şəxsin bank hesabında kifayət qədər vəsait olmadığına görə mən ona müraciət etdim, o da pul çeklərini məndən geri alıb mənim şirkətdən olan hissəmi özümə qaytardı. Amma sözügedən hissənin rəsmi sənədi onun adında qaldı. Sonra mənə məlum oldu ki, bu şəxs sözügedən hissəni başqa bir şəxsə satmışdır. Onun bu sövdələşməsi düzgündürmü? Yoxsa mənim öz hissəmi tələb etməyə haqqım vardır?**

**Cavab: Əgər o, sizinlə olan sövdələşməni pozduqdan sonra həmin hissəni başqasına satmışdırsa, bu sövdələşmə füzulidir və (onun düzgünlüyü) sizin icazənizə bağlıdır. Amma əgər sizinlə olan sövdələşməni pozmamışdan qabaq həmin hissəni üçüncü bir şəxsə satmışdırsa, sövdələşmə düzgündür.**

**Sual 1698:** **Bir ev iki qardaşa atadan irs çatmışdır. Qardaşlardan biri evi bölüb və ya evdən olan payını satıb öz qardaşından ayrılmaq istəyir. Amma qardaşı onun bütün təkliflərini rədd edir, belə ki, nə evin bölünməsinə razıdır, nə qardaşının payını almağa və ya öz payını ona satmağa razıdır. Nəticədə, bu qardaş işi məhkəməyə verir və məhkəmə də bu işə baxılması üçün ev barəsində məhkəmə mütəxəssisinin araşdırma aparmasını tələb edir. Məhkəmə mütəxəssisi də bildirir ki, ev bölünməyə qabil deyildir və şərikliyə son qoymaq üçün onlardan biri öz payını başqa bir şəxsə satmalıdır, yaxud ev bütünlüklə üçüncü bir şəxsə satılmalı və evin pulu bu iki şərikə verilməlidir. Bu sövdələşmə düzgündürmü və qardaşlardan hər biri öz payını evin pulundan götürə bilərlərmi?**

Cavab: Maneəsi yoxdur.

**Sual 1699:** **Şəriklərdən biri bir mülkü şirkətin pulu ilə almış və onu öz həyat yoldaşının adına rəsmi qeydiyyata salmışdır. Bu alış bütün şəriklərə aiddirmi və mülk bütün şəriklərin əmlakı hesab olunurmu? Sözügedən mülkü bütün şəriklərin adına rəsmi qeydiyyata salmaq - hətta əgər əri bu işi görməsinə icazə verməsə belə - bu şəxsin həyat yoldaşına şəri baxımdan vacibdirmi?**

**Cavab: Əgər bu şəxs sözügedən mülkü "boynuna götürdüyü ümumi bir qiymətə" özü və ya həyat yoldaşı üçün alarsa, sonra mülkün pulunu şirkətin əmlakından verərsə, bu mülk ona və ya onun həyat yoldaşına aiddir. Amma digər şəriklərin əmlakı miqdarında onlara borcludur. Yox əgər sözügedən mülkü şirkətin əmlakı ilə alarsa, şəriklərin payı nisbətində sövdələşmə füzulidir və (sövdələşmənin düzgünlüyü) onların icazəsinə bağlıdır.**

**Sual 1700:** **Varislərdən bəziləri və ya onların vəkili digər varislərin razılığı olmadan müşa şəklində olan şərikli mülkdən istifadə edə və ya onu alıb-sata bilərlərmi?**

**Cavab: Heç bir şərik digər şəriklərin icazəsi və razılığı olmadan müştərək mülkdən istifadə edə bilməz. Həmçinin heç bir şərikin digər şəriklərin icazəsi və razılığı olmadan müştərək mülkü alıb-satması düzgün deyildir.**

**Sual 1701:** **Əgər şəriklərdən bəziləri müşa şəklində olan şərikli mülkü satarlarsa, yaxud başqa bir şəxs müşa şəklində olan şərikli mülkü satarsa və şəriklərdən bəziləri bu satışa icazə verərlərsə, digər şəriklərin icazəsi olmadan bu sövdələşmə onların hamısı tərəfindən düzgün sayılırmı? Yoxsa onların tərəfindən sövdələşmənin düzgün sayılması onların hamısının razılığına bağlıdır? Əgər şəriklərin hamısının razılığı şərtdirsə, şərikliyin bir ticarət şirkətində və ya bir sosial şirkətdə olması arasında fərq vardırmı? Bu mənada ki, ikincisində şəriklərin hamısının razılığı şərt hesab olunsun, amma birincisində şərt hesab olunmasın?**

**Cavab: Sövdələşmə yalnız öz hissəsini satan şəxsin hissəsi nisbətində düzgündür. Sövdələşmənin hər bir şərikin hissəsində düzgün olması onların razılığına bağlıdır. Bu**

**baxımdan şirkətin hansı qisimdən olmasının bir fərqi yoxdur.**

**Sual 1702: Bir şəxs bankdan müəyyən məbləğdə pul borc götürmüşdür, bu əsasla ki, evin tikintisində bank onunla şərik olacaqdır. Ev tikilib qurtardıqdan sonra evi bankda təbii fəlakətlər qarşısında sığortalamışdır. Hal-hazırda yağış sularının və ya çirkab sular quyusunun evin divarlarına nüfuz etməsi nəticəsində evin bir hissəsi xarab olmuşdur və onun təmiri üçün müəyyən məbləğ pul xərclənməlidir. Amma bank bu zəmində heç bir məsuliyyəti qəbul etmir, sığorta şirkəti də bu ziyanın ödənilməsini müqavilə çərçivəsindən xaric hesab edir. Bu zəmində kim məsuliyyət daşıyır və dəyən ziyana kim zamindir?**

**Cavab: Sığorta şirkəti sığorta müqaviləsinin qaydalarından xaric ziyanlara zamin deyildir. Evin təmiri və başqasının zamin olmadığı ziyanların ödənilməsi evin sahibinin öhdəsindədir. Əgər bankın evdə sosial şərikliyi olarsa, bank öz hissəsi nisbətində ziyanın xərclərini ödəməlidir. Amma əgər ziyanın ödənilməsi xüsusi bir şəxsə aid olarsa, bu hal istisnadır.**

**Sual 1703: Üç nəfər şərikli şəkildə bir neçə ticarət obyekti almışlar ki, bu obyektlərdə birlikdə ticarətlə məşğul olsunlar. Amma şəriklərdən biri digər iki şərikə bu obyektlərdən istifadə etməyə, hətta oranı icarəyə vermək və ya satmağa razılıq vermir. Sual budur:**
**1) Şəriklərdən biri digər iki şərikin icazəsi olmadan öz payını sata və ya icarəyə verə bilərmi?**
**2) O, digər iki şərikin icazəsi olmadan həmin obyektlərdə işlə məşğul ola bilərmi?**
**3) O, bu obyektlərdən birini özünə götürüb, qalan obyektləri digər iki şərikinə verə bilərmi?**

**Cavab:**
**1) Şəriklərdən hər biri müşa şəklində olan payını digər şəriklərin icazəsi olmadan sata bilər.**
**2) Şəriklərdən heç biri digər şəriklərin icazəsi olmadan şərikli maldan istifadə edə bilməz.**
**3) Şəriklərdən heç biri birtərəfli olaraq və digər şəriklərin razılığı olmadan öz payını şərikli maldan ayıra bilməz.**

**Sual 1704: Bir məntəqənin əhalisindən bir dəstəsi ağac əkilmiş bir sahədə hüseyniyyə tikmək fikrindədirlər. Amma sözügedən sahədə payı olan əhalinin bir qismi bu işə razı deyildir. Bu məntəqədə hüseyniyyə tikməyin hökmü nədir? Əgər ehtimal olunsa ki, bu torpaq sahəsi ənfaldandır və ya şəhərin ümumi məkanlarındandır, məsələnin hökmü nədir?**

**Cavab: Əgər torpaq sahəsi əhalinin müşa şəklində olan şərikli mülkü olarsa, oradan istifadə etmək şəriklərin hamısının razılığına bağlıdır. Amma əgər bu torpaq sahəsi ənfaldan və ya şəhərin ümumi məkanlarından olarsa, onun ixtiyarı İslam Dövlətinin əlindədir və dövlətin icazəsi olmadan oradan istifadə etmək olmaz.**

**Sual 1705: Əgər varislərdən biri müştərək bağdan olan payının satılmasına razı deyildirsə, digər şəriklər və ya dövlət müəssisələrindən biri onu bu işə vadar edə bilərmi?**

**Cavab: Əgər şəriklərin payının bölünməsi və ayrılması mümkün olarsa, şəriklərdən heç biri və ya başqa şəxslər şəriklərdən birini öz payını satmağa vadar edə bilməz. Bu kimi hallarda hər bir şərik yalnız digər şəriklərdən onun payını ayırmalarını istəyə bilər. Amma əgər ağacları olan bağın bölünməsi və ayrılması barəsində İslam hökuməti tərəfindən müəyyən qanunlar qoyulubdursa, bu təqdirdə həmin qanunlara riayət etmək vacibdir. Yox əgər müşa şəklində olan şərikli mülkün ayrılması və bölünməsi mümkün olmazsa, şəriklərdən hər biri şəri-hakimə müraciət edə bilər və şəri-hakim də digər şəriki öz payını satmağa və ya onun payını almağa vadar edə bilər.**

**Sual 1706:** **Dörd qardaş sahib olduqları şərikli mal ilə dolanışıqlarını təmin edərək birlikdə yaşayırlar. Bir neçə il sonra qardaşlardan ikisi izdivac edir. Bu iki qardaşın hər biri öz azyaşlı qardaşlarından birini himayə etməyi və onların ailə qurmalarına imkan yaratmağı öz öhdəsinə götürür. Amma onlar öz öhdəliklərinə əməl etmədiklərinə görə, iki azyaşlı qardaş öz mallarını onlardan ayırmağı qərara alır və şərikli malın bölünməsini istəyir. Şərikli mal onlar arasında şəriət baxımından hansı şəkildə bölünməlidir?**

**Cavab: Əgər bir şəxs şərikli maldan şəxsi istifadə edərsə, digər şəriklərinə o miqdarda borclu sayılır ki, bu şəriklər özlərinin payı nisbətində şərikli maldan onun xərclədiyi miqdarda şəxsi istifadə etməyibdirlər. Buna görə də, digər şəriklərin haqqı vardır ki, şəxsi istifadə etdiyi malın əvəzini öz malından verməsini ondan tələb etsinlər və qalan şərikli malı da bərabər şəkildə öz aralarında bölsünlər. Yaxud da ilk öncə şərikli maldan istifadə etməyən və ya başqaları ilə müqayisədə az istifadə edən şəxslərin hamısına, şərikli maldan istifadə baxımından hamının bərabərləşəcəyi miqdarda versinlər, sonra isə qalan şərikli malı öz aralarında bərabər şəkildə bölsünlər.**

**Sual 1707:** **Çay istehsalı və istehlakına nəzarət qurumu bölgələrdə çay satışı ilə məşğul olan tacirləri qurumla əməkdaşlıq etməyə və qurumun üzvü olmağa məcbur edir. Sözügedən qurum çay satışı ilə məşğul olan tacirləri qurumla əməkdaşlıq etməyə məcbur edə bilərmi? Bu məcburi əməkdaşlıq düzgündürmü?**

**Cavab: Əgər sözügedən qurum bölgələrdə çay satışı ilə məşğul olan tacirlərə şərait yaradırsa və bölgənin satış mərkəzlərinə paylamaq üçün onlara çay verirsə, bir sözlə, onlara bu kimi xidmətlər göstərirsə, bunun qarşılığında da qurumla əməkdaşlıq etməyi və yalnız onlarla sövdələşmə etməyi şərt qoyursa, bu şərtin və belə əməkdaşlığın maneəsi yoxdur.**

**Sual 1708:** **Şirkətin müdiri və ya məsul işçisi səhmdarlardan icazə almadan şirkətin gəlirini xeyriyyə işlərinə xərcləyə bilərmi?**

**Cavab: Şərikli malın gəlirindən hər bir şərikin payına düşən hissənin ixtiyarı və bu gəliri hansı məqsəd üçün istifadə etməsi, hər bir şərikin öz əlindədir. Nəticədə, əgər başqa bir şəxs vəkil təyin edilmədən və ya ona icazə verilmədən həmin gəliri xərcləyərsə - bu məbləği xeyriyyə işlərinə xərcləmiş olsa belə - bu məbləğə zamindir.**

**Sual 1709:** **Üç nəfər bir ticarət obyektində şərikdirlər. Belə ki, birinci şərik sərmayənin yarısını, digər iki şərikin hər biri isə sərmayənin dörddə birini vermişlər. Şərtə görə, əldə edilən gəlir onların arasında bərabər şəkildə bölünəcəkdir. Amma ikinci və üçüncü şərik ticarət obyektində daha aktiv və davamlı şəkildə işləyirlər, halbuki, birinci şərik orada daha az işləyir. Bu şəriklik sözügedən şərt ilə düzgündürmü?**

**Cavab: Şəriklik müqaviləsində şəriklərin bərabər miqdarda sərmayə qoymaları şərt deyildir. Əldə edilən gəlirin şəriklər arasında bərabər şəkildə bölünməsinin də maneəsi yoxdur, baxmayaraq ki, onların qoyduqları sərmayənin miqdarı müxtəlifdir. Amma ticarət obyektində işləməyə gəlincə, əgər şəriklik müqaviləsində bu barədə bir şey qeyd edilməyibdirsə, şəriklərin hər biri gördükləri iş miqdarında ücrətül-misl almaq haqqına malikdir.**

**Sual 1710:** **Bir şirkət dövlət sektoru və özəl sektor tərəfindən yaradılmışdır və səhmdarların nümayəndələri bu şirkətin fəaliyyətinə nəzarət edirlər. Şirkətin idarə heyəti və işçiləri şirkətin nəqliyyat vasitələrindən öz şəxsi işləri üçün məqbul bir şəkildə istifadə edə bilərlərmi?**

**Cavab: Şirkətin nəqliyyat vasitələrindən və digər əmlakından şirkətə aid olmayan işlər**

**üçün istifadə etmək səhmdarların və ya onların nümayəndələrinin bu xüsusda icazəsinə bağlıdır.**

**Sual 1711:** **Şirkətin nizamnaməsinə əsasən, ixtilaflı məsələlərin həlli üçün mühakimə heyəti yaradılmalıdır. Amma sözügedən heyət şirkət üzvləri tərəfindən yaradılmayanadək öz vəzifəsini yerinə yetirməyə qadir deyildir. Hal-hazırda səhmdarların və şəriklərin 51%-i öz haqlarından keçdiklərinə görə sözügedən heyəti yaratmırlar. Öz haqlarından keçənlər digər səhmdarların haqlarını qorumaq üçün bu heyətin yaradılmasında iştirak etməlidirlərmi?**

**Cavab: Əgər şirkət üzvləri şirkətin daxili nizamnaməsinə görə, tələb olunduğu zaman mühakimə heyəti yaradacaqlarını öhdələrinə götürüblərsə, öz öhdəliklərinə əməl etməlidirlər. Şirkət üzvlərinin bəzilərinin öz haqlarından keçmələri, mühakimə heyətinin yaradılmasında onların öz öhdəliklərinə əməl etməkdən boyun qaçırmalarını icazəli etmir.**

**Sual 1712:** **İki nəfər müştərək sərmayə ilə və sərqufli̇si də müştərək olan bir obyektdə ticarətlə məşğuldurlar. İlin sonunda gəliri və ziyanı hesablayıb, öz aralarında bölüşdürürlər. Son vaxtlar onlardan biri gündəlik işini buraxıb öz sərmayəsini geri götürmüşdür, halbuki, digər şərik həmin obyektdə ticarəti davam etdirir. İndi isə, işi buraxan şərik iddia edir ki, şərikinin etdiyi bəzi alış-verişlərə o da şərikdir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Mülkdə və ya ticarət obyektinin sərqufli̇sində şərik olmaq ticarətdə və ticarətdən əldə edilən gəlirdə şərik olmaq üçün yetərli deyildir. Burada meyar, ticarət sərmayəsində şərik olmaqdır. Buna görə də, əgər iki şərik müştərək sərmayədə olan paylarını düzgün şəkildə bölüşdürdükdən və onlardan biri öz payını geri götürdükdən sonra digər şərik həmin obyektdə öz ticarətini davam etdirərsə, öz sərmayəsini geri götürən şəxsin digər şəxsin ticarətində heç bir haqqı yoxdur. O, yalnız bu obyektdə olan payının nisbətində icarə pulu və ya ücrətül-misl tələb edə bilər. Yox əgər müştərək sərmayə bölünməmişdən qabaq o, bu obyektdə ticarətini davam etdirərsə, digər şərikin sərmayədə olan şərikliyi nisbətində öz şərikinin ticarətində haqqı vardır.**

**Sual 1713:** **Bacımın öz əmlakını İslama və haqq məzhəbə zidd olan azğın düşüncələrin yayılması yolunda sərf edə biləcəyini nəzərə alaraq, bacımın öz əmlakından istifadəsinin və şirkətdən öz payını götürməsinin qarşısını almaq mənə vacibdirmi?**

**Cavab: Şəriklərdən birinin şirkətdən ayrılmasının qarşısına almağa heç bir şərikin haqqı yoxdur. Həmçinin şəriklərdən birinin öz əmlakını götürüb onu pis yolda və günah işlərə xərcləyəcəyi qorxusu olduğuna görə, digər şəriklər onun öz əmlakını götürməsinə mane ola bilməzlər. Şəriklər onun bu istəyini (əmlakını geri götürmək istəyini) təmin etməlidirlər. Amma bu şəxsin öz əmlakını haram işlərə sərf etməsi haramdır. Həmçinin onu pis işlərdən çəkindirmək başqalarına vacibdir.**

**Sual 1714:** **Bizim kəndimizdə sahəsi on hektara çatan bir su çalahovuzu vardır və əkinçilərin ata-babalarının mülkü olmuşdur. Hər il qışda ora su yığılır və əkin sahələrinin, bağların suvarılması üçün ondan istifadə olunur. Hal-hazırda dövlət bu çalahovuzun ortasından keçən geniş bir yol tikir və onun yalnız beş hektarı olduğu kimi qalmışdır. Çalahovuzun qalan bu hissəsi İcra Hakimiyyətinin mülkü, yoxsa əkinçilərin mülkü hesab olunur?**

**Cavab: Əgər çalahovuz əkinçilərin ata-babalarının mülkü olubdursa və əkinçilərə irs çatıbdırsa, onun qalan hissəsi əkinçilərin mülkü hesab olunur və İcra Hakimiyyətinin onda bir haqqı yoxdur. Amma əgər dövlətin bu zəmində müəyyən qanunları olarsa, bu hal istisnadır.**

## Hədiyyə

**Sual 1715:** **Həddi-büluğa çatmayan yetim uşağa verilən hədiyyədən istifadə etmək olarmı?**

**Cavab: Onun şəri qəyyumunun icazəsinə bağlıdır.**

**Sual 1716:** **İki qardaş bir torpaq sahəsində şərikdirlər. Qardaşlardan biri öz hissəsini böyük qardaşının oğluna "əvəzli hədiyyə" (هبة معوضة) şəklində bağışlamış və ona təhvil vermişdir. Hədiyyə verən şəxs vəfat etdikdən sonra onun övladları bu torpaq sahəsindən həmin hissənin onlara irs çatdığını iddia edə bilərlərmi?**

**Cavab: Əgər sübuta yetsə ki, vəfat edən qardaş bu torpaq sahəsində olan hissəsini həyatda ikən öz qardaşı oğluna bağışlamış və ona təhvil verərək onun ixtiyarında qoymuşdur, o vəfat etdikdən sonra onun varislərinin bu torpaq sahəsində heç bir haqları yoxdur.**

**Sual 1717:** **Bir şəxs atasının torpaq sahəsində atası üçün ev tikmişdir. Atası həyatda ikən onun icazəsi ilə evin ikinci mərtəbəsini də özü üçün tikmişdir. Nəzərə alsaq ki, atası vəfat etdikdən bir neçə il sonra bu şəxs də vəfat etmişdir və evin ikinci mərtəbəsinin hədiyyə olduğuna və ya hansı şəkildə istifadə ediləcəyinə dəlalət edən bir vəsiyyət, yaxud bir sənəd mövcud deyildir, ikinci mərtəbə bu şəxsin mülkü hesab olunurmu və o vəfat etdikdən sonra varislərinə çatırmı?**

**Cavab: Əgər övlad ikinci mərtəbənin tikintisinin xərcini çəkibdirsə və atası həyatda ikən heç bir ixtilaf olmadan evin ikinci mərtəbəsi onun ixtiyarında olubdursa, şəri baxımdan onun mülkü olduğuna hökm verilir. O vəfat etdikdən sonra onun irsi sayılır və varislərinə çatır.**

**Sual 1718:** **Mənin on bir yaşım olanda atam öz evlərindən birini rəsmi şəkildə mənim adıma keçirdi. Həmçinin bir torpaq sahəsini və bir evin yarısını qardaşımın adına, evin digər yarısını isə anamın adına keçirdi. Atam vəfat etdikdən sonra digər varislər iddia etdilər ki, atamın mənim adıma keçirdiyi ev şəri baxımdan mənim mülküm deyildir. Onlar iddia etdilər ki, atam evin müsadirə olunmasının qarşısını almaqdan ötrü o evi mənim adıma keçirmişdir. Eyni zamanda isə etiraf edirlər ki, qardaşımın və anamın adına keçirdiyi əmlak qardaşımın və anamın mülküdür. Atamın vəsiyyət etmədiyini və bu məsələyə bir şahidin olmadığını nəzərə alsaq, məsələnin hökmü nədir?**

**Cavab: Əgər ata həyatda ikən öz əmlakından bəzi varislərinə hədiyyə verərsə və hədiyyəni onlara təhvil verərsə, eləcə də, bu məsələnin təsdiqlənməsi üçün hədiyyə etdiyi mülkün rəsmi sənədini onların adına keçirərsə, bu mülk onların mülküdür və digər varsilərin onlara maneəçilik törətmək haqqı yoxdur. Amma əgər digər varislər etibarlı bir yol ilə sübuta yetirsələr ki, ata həmin mülkü həmin varisə bağışlamamışdır və rəsmi sənədi onun adına keçirməsi formal xarakter daşıyırmış, sözügedən mülk həmin varisin mülkü olmayacaqdır.**

**Sual 1719:** **Ərim evi tikərkən mən ona kömək edirdim və bu, evin tikintisinə çəkilən xərclərin azalmasına və evin tikintisinin tamamlanmasına səbəb oldu. Ərim dəfələrlə demişdi ki, mən bu evdə onunla şərikəm və evin tikintisi başa çatdıqdan sonra evin üçdə birini mənim adıma keçirəcəkdir. Amma o, bu işi görməmişdən qabaq vəfat etdi və indi mənim əlimdə iddiamı sübuta yetirən bir sənəd və vəsiyyət yoxdur. Bu məsələnin hökmü nədir?**

**Cavab: Evin tikintisinə kömək etməyiniz, yaxud sizi evə şərik edəcəyinə ərinizin vəd verməsi evin mülkiyyətində şərik olmağınıza səbəb olmur. Buna görə də, əriniz həyatda ikən evin bir hissəsini sizə bağışladığı mötəbər bir yolla sübut olmayanadək, sizə çatan irs**

payından başqa bu evdə bir haqqınız yoxdur.

**Sual 1720:** Ərim ağıl sağlamlığına malik olduğu bir vəziyyətdə bankın məsul işçisini çağırtdırdı və bank hesabındakı pulunu mənə bağışladı. Bank hesabından pul götürmək haqqının mənə aid olduğuna dair sənədi də imzaladı. Bu hadisəyə xəstəxananın müdiri və bankın məsul işçisi şahid oldular. Buna görə də, bank mənə pul çeki kitabçası verdi və ay ərzində mən bank hesabından müəyyən məbləğ pul götürdüm. Bir ay yarım keçdikdən sonra ərimin oğlu onu banka apardı və şüurunu itirmiş vəziyyətdə olan ərimdən bankda: "Bu əmlak sənin həyat yoldaşına aiddirmi?" deyə soruşurlar. O, başı ilə müsbət cavab verir. Yenidən ondan soruşurlar ki: "Bu əmlak sənin övladlarına aiddirmi?" O, yenə də başı ilə müsbət cavab verir. Bu əmlak mənə aiddir, yoxsa ərimin övladlarının əmlakıdır?

Cavab: Hədiyyə məsələsində "təhvil almaq və sahiblənmək", mülkiyyətin hasil olmasının şərti olduğuna görə sənədin imzalanması və bank hesabındakı depozit pulu götürə bilmək üçün pul çeki kitabçası almaq kifayət etmir. Odur ki, sənədin imzalanması və pul çeki kitabçası almaq sözügedən hədiyyənin düzgün olduğuna hökm verməyə səbəb olmur. Beləliklə, ərinizin icazəsi ilə və əriniz ağıl sağlamlığına malik olduğu bir vəziyyətdə bank hesabından götürdüyünüz pul sizin əmlakınızdır. Ərinizin əmlakından bank hesabında qalan vəsait isə, o vəfat etdikdən sonra onun irsi sayılır və varislərinə aiddir. Ağıl sağlamlığına malik olmadığı vəziyyətdə onun iqrar etdiyi söz əsas götürülmür. Əgər bu zəmində qanun mövcuddursa, qanuna riayət olunmalıdır.

**Sual 1721:** Ana həyatda ikən onun istifadə etməsi üçün övladlarının ona aldıqları əşyalar ananın şəxsi əmlakı hesab olunurmu? Belə ki, ana vəfat etdikdən sonra onun irsi sayılırmı?

Cavab: Əgər övladlar sözügedən əşyaları anaya bağışlayıb onun ixtiyarında qoyubdurlarsa, ananın şəxsi əmlakı sayılır və ana vəfat etdikdən sonra onun irsi sayılır.

**Sual 1722:** Ərin öz həyat yoldaşı üçün aldığı qızıl zinət əşyaları ərin əmlakı sayılırmı və ər vəfat etdikdən sonra onun irsindən hesab olunurmu? Yəni bu zinət əşyaları varislər arasında bölünür və zövcəyə də öz payı çatırmı? Yoxsa bu zinət əşyaları zövcənin əmlakı hesab olunur?

Cavab: Əgər qızıl zinət əşyaları zövcənin ixtiyarında və istifadəsində olarsa, belə ki, bu əşyalardan bir malik kimi istifadə edərsə, bu qızıl zinət əşyalarının qadının əmlakı olduğuna hökm verilir. Amma əgər bunun əksi sübuta yetərsə, qadının əmlakı hesab olunmayacaqdır.

**Sual 1723:** Ərlə arvadın ailə həyatı boyunca onlara verilən hədiyyələr ərin əmlakıdır, yoxsa qadının əmlakıdır, yoxsa hər ikisinin əmlakıdır?

Cavab: Hədiyyənin kişilərə və ya qadınlara xas olması, yaxud hər ikisinin və ya onlardan birinin istifadə etməsinə qabil olması baxımından məsələ müxtəlif şəkillər alır. Zahirən onlardan birinə hədiyyə verilən şey onun əmlakı hesab olunur, amma onların hər ikisinə müştərək şəkildə hədiyyə verilən şey onların müştərək əmlakı hesab olunur.

**Sual 1724:** Əgər kişi öz həyat yoldaşına talaq verərsə, qadın izdivac zamanı ailəsinin ona verdiyi əşyaları (məsələn, xalça, yataq, geyim və s.) kişidən geri istəyə bilərmi?

Cavab: Əgər bu əşyalar qadının öz ailəsindən aldığı əşyalardırsa, yaxud qadının özü üçün aldığı şəxsi əşyalardırsa, yaxud qadına hədiyyə verilibdirsə, qadının əmlakıdır və bu əşyalar mövcud olduğu təqdirdə qadın onları ərindən geri istəyə bilər. Amma əgər bu əşyaları

qadının ailəsi və ya qohumları ailənin kürəkəni olan kişiyə hədiyyə veribdirlərsə, qadın bu əşyaları kişidən geri istəyə bilməz. Əksinə, bu kimi əşyaların ixtiyarı onları kişiyə hədiyyə verən şəxslərin əlindədir. Belə ki, əgər bu əşyalar mövcud olarsa və kişi də onların qan qohumlarından olmazsa, hədiyyə verən şəxs hədiyyəni geri ala bilər.

**Sual 1725:** Mən həyat yoldaşıma talaq verdikdən sonra qızıl zinət əşyalarını və ailə həyatı boyunca öz pulumla alıb ona verdiyim əşyaları ondan geri aldım. İndi mən bu əşyalardan istifadə edə bilərəmmi?

**Cavab:** Əgər bu əşyaları müvəqqəti olaraq və onlardan istifadə etməsi üçün həyat yoldaşınıza vermisinizsə, yaxud əgər bu əşyaları ona hədiyyə vermisinizsə və bu əşyalar da olduğu kimi həyat yoldaşınızın əlindədir və həyat yoldaşınız da sizin qan qohumlarınızdan deyildirsə, hədiyyə əqdini poza və hədiyyə verdiyiniz əşyaları geri ala bilərsiniz. Buna görə də, ondan geri aldığınız əşyalardan istifadə edə bilərsiniz. Əks təqdirdə, bu əşyaları geri ala və onlardan istifadə edə bilməzsiniz.

**Sual 1726:** Atam mənə bir torpaq sahəsi bağışladı və onun sənədini rəsmi şəkildə mənim adıma keçirdi. Amma bir ildən sonra bu işinə peşman oldu. Mən bu torpaq sahəsindən istifadə edə bilərəmmi?

**Cavab:** Əgər siz torpaq sahəsini təhvil aldıqdan və ona sahibləndikdən sonra atanız verdiyi hədiyyəyə görə peşman olarsa və onu geri almaq istəyərsə, hədiyyəni geri alması düzgün deyildir. Torpaq sahəsi şəri baxımdan sizin əmlakınızdır. Amma əgər siz torpaq sahəsini təhvil almamışdan qabaq atanız verdiyi hədiyyəyə görə peşman olarsa və onu geri almaq istəyərsə, bu istəyini bildirdikdən sonra daha həmin torpaq sahəsində sizin heç bir haqqınız yoxdur. Hədiyyədə əsas götürülən "təhvil alma"nın gerçəkləşməsi üçün torpaq sahəsinin sənədinin sizin adınıza keçirilməsi kifayət etmir.

**Sual 1727:** Mən bir torpaq sahəsini bir şəxsə bağışladım və o da bu torpaq sahəsinin bir hissəsində yaşayış evi tikdi. Mən bağışladığım bu torpaq sahəsinin özünü və ya onun pulunu həmin şəxsdən tələb edə bilərəmmi? Bu torpaq sahəsinin yaşayış evi tikilməyən hissəsini ondan geri ala bilərəmmi?

**Cavab:** Həmin şəxs torpaq sahəsini sizin icazənizlə götürdükdən və orada ev tikərək ondan istifadə etdikdən sonra daha sizin hədiyyə əqdini pozmağa və torpaq sahəsinin özünü, yaxud pulunu geri almağa haqqınız yoxdur. Əgər torpaq sahəsi elə bir ölçüdə olsa ki, onun bir hissəsində ev tikmək həmin məntəqənin əhalisinin nəzərində torpaq sahəsinin hamısından istifadə etmək sayılırsa, bu torpaq sahəsinin heç bir hissəsini ondan geri almağa haqqınız yoxdur.

**Sual 1728:** İnsan öz əmlakının hamısını övladlarından birinə hədiyyə verə və digər övladlarını bu əmlakdan məhrum edə bilərmi?

**Cavab:** Əgər bu iş övladlar arasında fitnə və ixtilafın yaranmasına səbəb olmazsa, bu işi görə bilər.

**Sual 1729:** Bir şəxs öz evini "əvəzli hədiyyə" şəklində rəsmi sənədlə beş nəfərə hədiyyə edir ki, evin yerində hüseyniyyə tiksinlər. Bu şərtlə ki, hüseyniyyəni tikdikdən sonra onu on il müddətinə "həbs"[1] etsinlər, sonra əgər istəsələr, vəqf edə bilərlər. Beləliklə, onlar camaatın köməkliyi ilə hüseyniyyəni tikdilər və on il müddətinə həbs edilən hüseyniyyənin idarəçilik və nəzarət işlərini, həmçinin sözügedən müddət başa çatdıqdan sonra vəfq əqdinin şərtlərinə aid məsələləri, vəqf qəyyumu və nəzarətçisini təyin etməyi

**öz öhdələrinə götürdülər. Onlar bu barədə bir sənəd də tənzimlədilər. Əgər bu hüseyniyyəni vəqf etmək fikrində olsalar, vəqf qəyyumu və nəzarətçisini seçmək barəsində onların nəzərinə tabe olmaq vacibdirmi? Bu şərtlərə tabe olmamağın şəri baxımdan iradı vardırmı? Əgər həmin beş nəfərdən biri hüseyniyyənin vəqf edilməsinə qarşı çıxarsa, məsələnin hökmü nədir?**

**Cavab: Hədiyyə verən şəxsin "əvəzli hədiyyə" əqdi əsnasında onların qarşısında qoyduğu şərtlərə müvafiq əməl etmələri vacibdir. Əgər hədiyyə verən şəxsin həbs və ya vəqf barəsində qoyduğu şərtlərə zidd əməl etsələr, hədiyyə verən şəxs və ya onun varisi "əvəzli hədiyyə"ni pozmaq haqqına malik olacaqdır. Amma bu beş nəfərin həbs edilən hüseyniyyənin idarəçilik və nəzarət işləri, həmçinin vəqf, vəqf qəyyumu və nəzarətçisi barəsində qeyd etdikləri şərtlərə gəlincə, əgər hədiyyə əqdində hədiyyə verən şəxsin bu şərtlərə razılığı olarsa - belə ki, bu işlərin ixtiyarını onlara həvalə etmiş olarsa - bu şərtlərə tabe olmaq və əməl etmək vacibdir. Əgər onlardan bəziləri hüseyniyyəni vəqf etməkdən imtina edərlərsə, halbuki, hədiyyə verən şəxsin fikri vəfq barəsində onların birlikdə qərara gəlmələri olarsa, digərlərinin həmin hüseyniyyəni vəqf etməyə haqları yoxdur.**

**Sual 1730:** **Bir şəxs evinin üçdə birini öz həyat yoldaşına bağışlamışdır. Bundan bir il sonra isə evin hamısını on beş il müddətinə icarəyə vermiş, sonra da vəfat etmişdir. Bu şəxsin övladı yoxdur. Evin üçdə birini bağışladıqdan sonra evi icarəyə verdiyinə görə, bu hədiyyə düzgün sayılırmı? Əgər bu şəxsin borcu olarsa, borc evin hamısından çıxılmalıdır, yoxsa evin üçdə ikisindən çıxılmalı, sonra qalan irs varislər arasında bölüşdürülməlidir? İcarənin müddəti başa çatanadək borc verən şəxslərin gözləmələri vacibdirmi?**

**Cavab: Əgər hədiyyə verən şəxs evi icarəyə verməmişdən qabaq evin öz həyat yoldaşına bağışladığı hissəsini ona təhvil vermişdirsə - hətta evin hamısını təhvil vermək əsnasında olsa belə - və həyat yoldaşı onun qan qohumlarındandırsa, yaxud hədiyyə "əvəzli hədiyyə"dirsə, hədiyyə həmin hissə barəsində düzgündür və qüvvədədir. Evin icarəsi isə yalnız evin qalan hissəsi barəsində düzgündür. Bundan qeyri halda, evin üçdə biri hədiyyə verildikdən sonra evin hamısı icarəyə verildiyinə görə, bu hədiyyə düzgün deyildir. Əlbəttə, evin icarəyə verilməsi hədiyyəni geri almaq məqsədi daşıdığı təqdirdə, hədiyyə verildikdən sonra evin icarəyə verilməsi düzgün hesab olunur. Mərhumun borcu isə, vəfat etdiyi gün malik olduğu əmlakından çıxılmalıdır. Həyatda ikən müəyyən müddətə icarəyə verdiyi əmlakın mənfəəti icarə müddəti ərzində icarəçi şəxsə aiddir, amma həmin əmlakın özü mərhumun irsindən hesab olunur. Mərhumun borcu bu əşyadan çıxılır və qalanı varislərə irs olaraq çatır. Amma icarə müddəti başa çatanadək onların həmin şeydən istifadə etməyə haqları yoxdur.**

**Sual 1731:** **Bir şəxs öz vəsiyyətnaməsində yazmışdır ki, onun daşınmaz əmlakının hamısı övladlarından birinə aiddir. Bu şərtlə ki, o, həyatda olduğu müddətdə övladı bu əmlakın qarşılığında hər il müəyyən miqdar düyü ona və ailəsinə verməlidir. Bir ildən sonra isə bu şəxs sözügedən əmlakın hamısını həmin övladına bağışlayır. Bu vəsiyyət hədiyyədən qabaq olduğuna görə yenə də qüvvədədirmi? Beləliklə də, vəsiyyət həmin əmlakın üçdə biri barəsində düzgün hesab olunur və əmlakın qalan hissəsi mərhumun bütün varislərinə irs çatır? Yoxsa hədiyyə vəsiyyətdən sonra olduğuna görə vəsiyyət pozulmuş olur? (Qeyd etməliyik ki, sözügedən əmlak hədiyyə verilən şəxsin ixtiyarında və istifadəsindədir.)**

**Cavab: Əgər vəsiyyətdən sonra olan bu hədiyyə gerçəkləşmişdirsə, yəni hədiyyə verən şəxs həyatda ikən qarşı tərəf hədiyyə verilən əmlakı təhvil almış və onun icazəsi ilə bu mala sahiblənmişdirsə, hədiyyədən qabaq olan vəsiyyət pozulmuş olur. Çünki hədiyyə vəsiyyətdən dönmək hesab olunur. Beləliklə, hədiyyə verilən əmlak həmin övladın əmlakıdır**

və digər varislərin bu əmlakda haqları yoxdur. Əks təqdirdə, vəsiyyət edən şəxsin öz vəsiyyətindən döndüyü dəqiqləşməyənədək, vəsiyyət qüvvədədir.

**Sual 1732:** Əgər varislərdən biri ata irsindən olan payını iki qardaşına bağışlamışdırsa, bir neçə ildən sonra onu geri istəyə bilərmi? Əgər qardaşları onun payını geri qaytarmaqdan imtina etsələr, məsələnin hökmü nədir?

**Cavab: Əgər qarşı tərəf hədiyyəni təhvil aldıqdan və hədiyyə gerçəkləşdikdən sonra o, hədiyyəni geri almaq istəyərsə, belə bir haqqı yoxdur. Amma əgər hədiyyə təhvil alınmamışdan qabaq öz fikrindən dönərsə, bu, düzgündür və maneəsi yoxdur.**

**Sual 1733:** Qardaşlarımdan biri irsdən olan payını razılıqla mənə bağışladı, amma bir müddətdən sonra irs varislər arasında bölünməmişdən qabaq hədiyyəni geri götürdü. Məsələnin hökmü nədir?

**Cavab: Əgər irsdən olan payını sizə təhvil verməmişdən qabaq hədiyyəni geri götürərsə, bu, düzgündür və onun sizə verdiyi əmlakda sizin heç bir haqqınız yoxdur. Amma əgər siz bu əmlakı təhvil aldıqdan sonra hədiyyəni geri götürərsə, bunun heç bir təsiri yoxdur və sizə bağışladığı əmlakda onun heç bir haqqı yoxdur.**

**Sual 1734:** Bir qadın öz əkin sahəsini bir şəxsə bağışlayır ki, ölümündən sonra bu şəxs onun əvəzindən həcc ziyarətini yerinə yetirsin. Çünki qadın həcc ziyarətinin ona vacib olduğunu düşünür. Amma qadının qohumları bu işə razı olmurlar. Daha sonra qadın həmin əkin sahəsini nəvələrindən birinə bağışlayır və bundan bir həftə sonra vəfat edir. Belə isə, birinci hədiyyə düzgün hesab olunur, yoxsa ikinci hədiyyə? Hədiyyə verilən birinci şəxsin bu qadının əvəzindən həcc ziyarətini yerinə yetirmək barəsində vəzifəsi nədir?

**Cavab: Əgər birinci şəxs qadının (hədiyyə verən şəxsin) qan qohumlarından olarsa və hədiyyə verilən şeyi onun icazəsi ilə təhvil alarsa, birinci hədiyyə düzgündür və buna əməl etmək lazımdır. Həmin şəxsin bu qadının əvəzindən həcc ziyarətini yerinə yetirməsi də vacibdir. Bu halda ikinci hədiyyə füzulidir və (onun düzgünlüyü) hədiyyə verilən birinci şəxsin icazəsinə bağlıdır. Amma əgər birinci şəxs qadının qan qohumlarından olmazsa, yaxud bu şəxs hədiyyə verilən şeyi təhvil almamış olarsa, ikinci hədiyyə düzgündür və bu, birinci hədiyyədən dönmək hesab olunur. Beləliklə də, birinci hədiyyə pozulmuş olur və birinci şəxsin əkin sahəsində heç bir haqqı yoxdur. Həmçinin bu qadının əvəzindən həcc ziyarətini yerinə yetirməsi də vacib deyildir.**

**Sual 1735:** "Haqq-hüquq" gerçəkləşməmişdən qabaq hədiyyə verilə bilərmi? Əgər qadın gələcəkdə malik olacağı maddi hüququnu əqd zamanı ərinə bağışlayarsa, bu, düzgündürmü?

**Cavab: Bu kimi hədiyyələrin düzgünlüyündə irad, hətta qadağa mövcuddur. Beləliklə, əgər qadının gələcəkdə malik olacağı hüququnu bağışlaması sülhə və ya haqq gerçəkləşdikdən sonra onun aradan qalxması şərtinə qayıdarsa, bunun maneəsi yoxdur. Əks təqdirdə isə heç bir faydası və təsiri yoxdur.**

**Sual 1736:** Kafirlərdən hədiyyə almağın və ya onlara hədiyyə verməyin hökmü nədir?

**Cavab: Öz-özlüyündə maneəsi yoxdur.**

**Sual 1737:** Bir şəxs həyatda ikən öz əmlakının hamısını nəvəsinə bağışlamışdır. Bu hədiyyə onun bütün əmlakı barəsində, hətta ölümündən sonra onun kəfəni, dəfni və başqa işlər üçün çəkiləcək xərclər barəsində də qüvvədədirmi?

**Cavab: Əgər hədiyyə verilən əmlak hədiyyə verən şəxs həyatda ikən və onun izni ilə təhvil alınarsa, təhvil alınan əmlakın hamısı barəsində hədiyyə hökmü qüvvədədir.**

**Sual 1738:** **Müharibə əlillərinə və yaralılarına verilən pul hədiyyə hesab olunurmu?**

**Cavab: Bəli, hədiyyə hesab olunur. Amma əgər onların gördükləri işin müqabilində verilərsə, işin ücrəti hesab olunacaqdır.**

**Sual 1739:** **Şəhid ailəsinə verilən pul-mal onun varislərinin əmlakıdır, yoxsa onların zamininin və ya başçısının?**

**Cavab: Bu, hədiyyə verən şəxsin niyyətinə bağlıdır.**

**Sual 1740:** **Bəzi daxili və ya xarici şirkətlər, yaxud fiziki və ya hüquqi şəxslər alğı-satqı həyata keçirərkən və ya ticari müqavilələr bağlayarkən vəkillərə və ya vasitəçilərə hədiyyələr verirlər. Halbuki, hədiyyə alan tərəfin hədiyyə verən tərəfin xeyrinə iş görməsi, yaxud onun xeyrinə qərarlar qəbul etməsi ehtimalı mövcuddur. Şəri baxımdan bu hədiyyələri almaq olarmı?**

**Cavab: Alğı-satqıda və ticari müqavilədə vəkil və ya hansısa vasitəçi şəxs alğı-satqı müqabilində qarşı tərəfdən hədiyyə almamalıdır.**

**Sual 1741:** **Əgər şirkətlər və ya şəxslər tərəfindən verilən hədiyyələr beytülmaldan onlara verilən hədiyyənin müqabilində olarsa, bu hədiyyələrin hökmü nədir?**

**Cavab: Əgər beytülmaldan verilən hədiyyənin əvəzi olaraq verilərsə, bu hədiyyələr beytülmala verilməlidir.**

**Sual 1742:** **Əgər hədiyyə onu alan şəxsə təsir qoyarsa və bəyənilməyən əlaqələrin və ya əmniyyət baxımından şübhəli olan əlaqələrin yaranmasına səbəb olarsa, bu hədiyyəni almaq və ondan istifadə etmək olarmı?**

**Cavab: Bu hədiyyəni almaq olmaz, əksinə, onu qəbul etməkdən çəkinmək vacibdir.**

**Sual 1743:** **Əgər ehtimal verilsə ki, hədiyyə onu verən şəxsin xeyrinə təbliğat aparmağa təşviq məqsədilə verilir, bu hədiyyəni almaq və ondan istifadə etmək olarmı?**

**Cavab: Əgər bu təbliğata şəriət və qanun baxımından icazə verilirsə, maneəsi yoxdur və bu təbliğat müqabilində hədiyyə qəbul etməyin qadağası yoxdur. Söz yox ki, idarələrdə bu məsələ idarənin qanunlarına bağlıdır.**

**Sual 1744:** **Əgər hədiyyə hansısa işlərin görülməsi üçün məsul işçinin razılığını əldə etməkdən, yaxud bu işlərin görülməsinə göz yummasını, görməzdən gəlməsini və buna qarşı çıxmamasını əldə etməkdən ötrü verilirsə, belə hədiyyəni qəbul etməyin hökmü nədir?**

**Cavab: Belə hədiyyələri qəbul etməyin maneəsi vardır, hətta onları qəbul etmək qadağandır. Ümumiyyətlə, əgər hədiyyə şəriətə və qanuna zidd olan bir məqsədə nail olmaqdan ötrü verilirsə, yaxud məsul bir işçini razılıq verməyə haqqı çatmadığı bir işə razılıq verməyə sövq etmək məqsədilə verilirsə, belə hədiyyəni qəbul etmək olmaz. Əksinə, belə hədiyyəni qəbul etməkdən imtina etmək vacibdir, məsullara da bunun qarşısını almaq vacibdir.**

**Sual 1745:** **Baba (atanın atası) həyatda ikən özünün bütün əmlakını və ya əmlakının bir hissəsini dünyasını dəyişmiş övladının həyat yoldaşına və onun övladlarına bağışlaya bilərmi? Onun qızlarının bu işə etiraz etməyə haqları vardırmı?**

**Cavab: Həyatda ikən istədiyini öz nəvələrinə və ya oğlunun həyat yoldaşına bağışlamaq haqqı vardır. Qızlarının isə onun bu işinə etiraz etməyə haqları yoxdur.**

**Sual 1746:** **Bir şəxsin nə övladı, nə ata-anası, nə də ki bacı-qardaşı vardır. O öz əmlakını həyat yoldaşına və ya onun qohumlarına bağışlamaq istəyir. Şəri baxımdan onun bu işi görməsinə icazə verilirmi? Bu işin müəyyən bir həddi vardırmı, yoxsa o, bütün əmlakını bağışlaya bilər?**

**Cavab: Həyatda ikən insanın öz əmlakının hamısını və ya bir hissəsini istədiyi şəxsə - istər onun varisi olsun, istərsə də qeyri-varisi olsun – bağışlamasının maneəsi yoxdur.**

**Sual 1747:** **Şəhid övladıma yas və xatirə məclisi təşkil etməkdən ötrü şəhid fondu mənə müəyyən qədər pul və ərzaq verdi. Bunları almağın mənim üçün axirət haqq-hesabı vardırmı? Bu, şəhidin savabının azalmasına səbəb olurmu?**

**Cavab: Əziz şəhid ailələrinin bu yardımları almalarının heç bir maneəsi yoxdur, həmçinin şəhidin və onun ailəsinin savabına heç bir təsiri yoxdur.**

**Sual 1748:** **Hotelin mühafizəçiləri və işçiləri onlara verilən bəxşişlərin bir yerə yığılması və sonra onların arasında bərabər şəkildə bölüşdürülməsi üçün müştərək bir büdcə təşkil etmişlər. Amma nisbətən yüksək vəzifəsi olan işçilər və müdir müavinləri daha artıq pay tələb edirlər. Bu isə, büdcəyə üvz olan işçilərin arasında hər zaman ixtilaf və çəkişmənin yaranmasına səbəb olur. Bu məsələnin hökmü nədir?**

**Cavab: Bu, bəxşişi verən şəxsin niyyətinə bağlıdır. Beləliklə, onun müəyyən bir şəxsə verdiyi bəxşiş həmin şəxsə aiddir, hamıya verdiyi bəxşiş isə onların arasında bərabər şəkildə bölüşdürülməlidir.**

**Sual 1749:** **Azyaşlı uşaqlara hədiyyə verilən pul ya əşya - məsələn, bayramlıq – azyaşlı uşağın əmlakı hesab olunurmu, yoxsa onun ata və anasının əmlakıdır?**

**Cavab: Əgər uşağın atası onun başçısı olaraq bu pulu, ya əşyanı təhvil alıbdırsa, azyaşlı uşağın əmlakı hesab olunur.**

**Sual 1750:** **Bir ananın iki qızı vardır. O öz əmlakını, yəni sahib olduğu bir əkin sahəsini nəvələrindən birinə (qızlarından birinin oğluna) hədiyyə vermək istəyir. Belə olduğu halda, onun ikinci qızı irsdən məhrum olacaqdır. Ananın bu hədiyyəsi düzgündürmü? Yoxsa ananın digər qızı ana vəfat etdikdən sonra həmin əkin sahəsindən özünə pay tələb edə bilər?**

**Cavab: Əgər ana həyatda ikən öz mülkünü nəvəsinə bağışlayarsa və ona təhvil verərsə, bu halda mülk nəvənin olacaqdır və heç kimin də etiraz etmək haqqı yoxdur. Amma əgər vəsiyyət etsə ki, o vəfat etdikdən sonra mülkü nəvəsinə verilsin, onun vəsiyyəti irsin üçdə biri barəsində keçərlidir, irsin qalan hissəsində isə varislərin icazəsinə bağlıdır.**

**Sual 1751:** **Bir şəxs öz əkin sahəsinin bir hissəsini qardaşı oğluna bağışlayır, bu şərtlə ki, qardaşı oğlu özünün iki qızlığını onun iki oğluna ərə versin. Amma qardaşı oğlu qızlıqlarından birini onun oğullarından birinə ərə verir, amma ikinci qızlığını onun oğluna ərə verməkdən imtina edir. Bu hədiyyə sözügedən şərtlə düzgündürmü və ona müvafiq əməl olunmalıdırmı, yoxsa düzgün deyildir və ona əhəmiyyət verilmir?**

**Cavab: Bu hədiyyə düzgündür və ona müvafiq əməl olunmalıdır, amma bu şərt düzgün deyildir. Çünki atalıq öz qızlıqlarının başçısı hesab olunmur. Əgər bu qızların atası və ya babası (atanın atası) yoxdursa, onların izdivacı yalnız özlərinin razılığına bağlıdır.**
**Bəli, əgər sözügedən şərtdə qardaşı oğlunun öz qızlıqları ilə söhbət aparıb, qızları onun oğulları ilə izdivac etmələrinə razı salması nəzərdə tutulubsa, bu şərt düzgündür və ona**

əməl etmək vacibdir. Əgər qardaşı oğlu bu şərtə əməl etməsə, hədiyyə edən şəxs hədiyyəni pozmaq ixtiyarına malikdir.

**Sual 1752:** Mən sahib olduğum yaşayış evini azyaşlı qızımın adına keçirdim. Amma qızımın anasını boşadıqdan sonra verdiyim hədiyyədən döndüm və qızım on səkkiz yaşına çatmamışdan qabaq həmin evi ikinci həyat yoldaşımdan dünyaya gələn oğlumun adına keçirdim. Bu məsələnin hökmü nədir?

Cavab: Əgər bu mülkü öz qızınıza həqiqətən bağışlamısınızsa və qızınızın başçısı olaraq bu hədiyyəni almısınızsa, bu hədiyyə əqdinə müvafiq əməl olunmalıdır və onu pozmaq olmaz. Amma əgər həqiqi hədiyyə gerçəkləşməyibdirsə və yalnız evin sənədini qızınızın adına keçirmisinizsə, bu, hədiyyənin gerçəkləşməsi və mülkiyyətin hasil olması üçün kifayət etmir. Buna görə də, həmin ev sizin mülkünüzdür və ixtiyarı öz əlinizdədir.

**Sual 1753:** Mən ağır bir xəstəliyə tutulduğum vaxt bütün əmlakımı övladlarımın arasında bölüşdürdüm və bu barədə onlar üçün sənəd də tənzimlədim. Amma sağaldıqdan sonra övladlarımdan əmlakımın bir hissəsini mənə qaytarmalarını istədim. Onlar isə bu işi görməkdən imtina etdilər. Bu məsələnin hökmü nədir?

Cavab: Ancaq sənəd tənzimləmək övladlar üçün mülkiyyətin hasil olmasına kifayət etmir. Beləliklə, əgər öz əmlakınızı onlara bağışlamısınızsa və təhvil vermisinizsə, belə ki, bu əmlak onların ixtiyarına keçibdirsə və bir sahib kimi ondan istifadə edirlərsə, bu əmlakı geri götürməyə haqqınız yoxdur. Amma əgər ümumiyyətlə, hədiyyə gerçəkləşməyibdirsə, yaxud hədiyyə təhvil alınmayıbdırsa, bu əmlak sizin mülkiyyətinizdə qalmışdır və onun ixtiyarı öz əlinizdədir.

**Sual 1754:** Bir şəxs öz vəsiyyətnaməsində qeyd etmişdir ki, evində olan hər şeyi öz həyat yoldaşına bağışlayır. Evdə bu şəxsin əlyazması olan bir kitab da vardır. Onun həyat yoldaşı bu kitabın sahibi olmaqdan əlavə, bu kitabdan qaynaqlanan hüquqların, məsələn, kitabın nəşr edilməsi və yayılması hüququnun da sahibidirmi? Yoxsa başqa varislərin də bu hüquqlarda payı vardır?

Cavab: Kitabın nəşr edilməsi və yayılması hüququ onun mülkiyyətinə tabedir. Buna görə də, əgər müəllif həyatda ikən öz kitabını bir şəxsə hədiyyə veribdirsə və hədiyyəni təhvil veribdirsə, yaxud kitabın ona çatmasını vəsiyyət edibdirsə, müəllif vəfat etdikdən sonra kitab həmin şəxsə aid olacaqdır və kitabın bütün imtiyazları, hüquqları da ona aid olacaqdır.

**Sual 1755:** Bəzi idarələr və müəssisələr müxtəlif münasibətlərlə öz işçilərinə hədiyyələr verirlər ki, bunun hansı əsasla olması məlum deyildir. İşçilər bu hədiyyəni ala və ondan istifadə edə bilərlərmi?

Cavab: Əgər hədiyyə verən tərəf dövlət qanunlarına müvafiq olaraq hədiyyə vermək səlahiyyətinə və ixtiyarına malikdirsə, dövlət əmlakından hədiyyə verməsinin maneəsi yoxdur. Əgər hədiyyə alan tərəf hədiyyə verən tərəfin belə bir səlahiyyətə və ixtiyara malik olduğuna dair ciddi bir ehtimal versə, hədiyyəni ondan almasının maneəsi yoxdur.

**Sual 1756:** Hədiyyə verən şəxsdən hədiyyəni təhvil almaq barəsində “hədiyyəni ondan almaq” kifayət edirmi? Yoxsa bundan əlavə, hədiyyəni - xüsusilə də, avtombil, ev, torpaq sahəsi və bu kimi mal-mülkü - hədiyyə alan şəxsin adına rəsmi sənədlə keçirməlidir?

Cavab: “Hədiyyənin təhvil alınması” dedikdə, müqavilə yazmaq və onu imzalamaq nəzərdə tutulmur. Əksinə, həmin əşyanın xaricdə həmin şəxsin ixtiyarında və istifadəsində olması

**nəzərdə tutulur. Bu, hədiyyənin gerçəkləşməsi və mülkiyyətin hasil olması üçün kifayət edir. Hədiyyə verilən əşyaların arasında isə heç bir fərq yoxdur.**

**Sual 1757: Bir şəxs bir əşyanı izdivac və ya ad günü və ya başqa işlərə görə başqa bir şəxsə hədiyyə vermişdir. Üç və ya dörd il keçdikdən sonra o, bu əşyanı geri almaq istəyir. Hədiyyə alan şəxsə bu hədiyyəni geri qaytarmaq vacibdirmi? Əgər bir şəxs əzadarlıq məclislərinin və ya İmamların (ə) mövlud bayramlarının keçirilməsi üçün pul verərsə, sonradan bu pulu geri istəmək haqqı vardırmı?**

**Cavab: Əgər həmin hədiyyə həmin şəxsin əlində olduğu kimi qalıbdırsa, hədiyyə verən şəxs onu geri istəyə və ala bilər, bu şərtlə ki, hədiyyə alan şəxs onun qan qohumlarından olmamalı və hədiyyə də "əvəzli hədiyyə" olmamalıdır. Amma əgər hədiyyə aradan gedibdirsə və ya dəyişibdirsə, onu geri istəmək və ya onun əvəzini istəmək haqqı yoxdur. Həmçinin Allaha yaxınlaşmaq və Onun razılığını qazanmaq niyyətilə verdiyi pulu geri almaq haqqı yoxdur.**

---

[1] Həbs – vəqfə oxşar bir əqddir, amma vəqf ilə fəqrli cəhətləri vardır. Məsələn, burada əmlak həbs edən şəxsin mülkiyyətindən xaric olmur. Həqiqətdə, həbs, bir növ müəyyən şərtlər altında başqasının əmlakından istifadə etmək haqqını yaradır.

## Borc

**Sual 1758:** **Zavodlardan birinin sahibi xammal almaq üçün məndən müəyyən məbləğ pul borc aldı və bir müddətdən sonra borcunu müəyyən qədər artıq məbləğlə birlikdə mənə qaytardı. O, bu artıq məbləği özünün tam razılığı ilə, habelə, öncədən heç bir şərt qoyulmadan və mənim də heç bir təvəqqem olmadan mənə verdi. Mən bu artıq məbləği ondan ala bilərəmmi?**

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, borcda artıq məbləğin verilməsi şərt qoyulmadığına və borc alan şəxs bu məbləği özünün razılığı ilə verdiyinə görə, onu alıb istifadə etməyinizin maneəsi yoxdur.**

**Sual 1759:** **Əgər borc alan şəxs borcunu verməkdən boyun qaçırarsa və bu səbəbdən də borc verən şəxs onun verdiyi pul çekini nağd pula çevirmək üçün məhkəməyə şikayət edərsə, nəticədə, borc alan şəxs borc aldığı məbləğdən əlavə, məhkəmə hökmünün icrası rüsumunu dövlətə ödəməli olarsa, bu rüsum şəri baxımdan borc verən şəxsin öhdəsindədirmi?**

**Cavab: Əgər borcunu verməkdə səhlənkarlıq edən şəxsdən məhkəmə hökmünün icrası rüsumunu dövlətə ödəmək tələb olunarsa, bu xüsusuda borc verən şəxsin öhdəsinə heç nə düşmür.**

**Sual 1760:** **Qardaşım mənə müəyyən məbləğ pul borclu idi. Mən ev alanda o, evimə bir xalça gətirdi və mən bunun hədiyyə olduğunu düşündüm. Amma sonra ondan borcumu istəyəndə, o, xalçanı borcunun əvəzində verdiyini söylədi. Bu barədə onun mənə heç nə söyləmədiyini nəzərə alsaq, xalçanı borcunun əvəzində verməsi düzgündürmü? Əgər mən xalçanı onun borcunun əvəzində qəbul etməsəm, xalçanı ona geri qaytarmalıyammı? Pulun dəyəri və alıcılıq qabiliyyəti aşağı düşdüyünə görə mən borcun məbləğindən artıq məbləği ondan tələb edə bilərəmmi? Çünki o vaxt bu pulun dəyəri və alıcılıq qabiliyyəti indiki vaxtdan daha çox idi?**

**Cavab: Borc verən şəxsin razılığı olmadan borc verilən şeylə eynicinsli olmayan bir şeyi – o cümlədən, xalçanı – borcun əvəzi olaraq vermək kifayət etmir. Sözügedən xalçanın sizin verdiyiniz borcun əvəzi olmasına razı olmadığınız təqdirdə, xalçanı ona geri qaytarmalısınız. Çünki belə olduğu təqdirdə, həmin xalça hələ də onun mülkiyyətindədir. Pulun dəyəri aşağı düşdüyü təqdirdə isə, siz borc verdiyiniz məbləğdən əlavə, inflyasiya miqdarını da tələb edə bilərsiniz. Ehtiyat budur ki, pulun dəyərinin fərqi barəsində bir-birinizlə müsalihə edəsiniz.**

**Sual 1761:** **Borcu haram mal ilə qaytarmağın hökmü nədir?**

**Cavab: Başqasının malı ilə borcu qaytardıqda borclu şəxs borcdan çıxmır.**

**Sual 1762:** **Bir qadın almaq istədiyi evin qiymətinin üçdə biri bərabərində pul borc alır və borc verən şəxs ilə razılığa gəlirlər ki, maddi durumu düzəldikdə borcunu qaytaracaqdır. Həmin vaxt qadının oğlu borcun məbləğinə bərabər məbləğin qeyd olunduğu pul çekini zəmanət ünvanında borc verən şəxsə verir. İndi həmin vaxtdan dörd il keçmişdir və həm borc alan şəxs, həm də borc verən şəxs vəfat etmişlər. Onların varisləri isə bu məsələni həll etmək istəyirlər. Qadının varisləri borc pul ilə alınan evin üçdə bir hissəsini borc verən şəxsin varislərinə verməlidirlərmi? Yoxsa pul çekində qeyd edilən məbləği onlara vermələri kifayət edir?**

**Cavab: Borc verən şəxsin varislərinin evdən bir şey tələb etmək haqları yoxdur. Onların yalnız qadının ev almaq üçün borc aldığı məbləği (inflyasiya miqdarını da hesablayaraq) tələb etmək haqları vardır, əlbəttə bu şərtlə ki, o qadın onun borcunun ödənməsinə kifayət edəcək qədər pul irs qoymuşdur. Ehtiyat budur ki, pulun dəyərinin fərqi barəsində bir-**

birilәri ilә müsalihә etsinlәr.

**Sual 1763:** Mәn bir şәxsdәn müәyyәn mәblәğ pul borc aldım vә bir müddәtdәn sonra hәmin şәxs yoxa çıxdı. Mәn indi onu tapa bilmirәm. Ona olan borcuma görә mәnim vәzifәm nәdir?

**Cavab: Siz onu gözlәmәli vә borcunuzu qaytarmaq üçün onu arayıb axtarmalısınız, belәliklә, borcu ya onun özünә, ya da onun varislәrinә qaytarmalısınız. Onu tapa bilәcәyinizdәn ümidinizi üzdüyünüz tәqdirdә, borc barәsindә şәri-hakimә müraciәt edә bilәrsiniz, yaxud da borc sahibi tәrәfindәn hәmin pulu sәdәqә verә bilәrsiniz.**

**Sual 1764:** Borc verәn şәxs borc verdiyini isbatlamaq vә pulunu geri ala bilmәk üçün çәkdiyi mәhkәmә xәrclәrini borc alan şәxsdәn tәlәb edә bilәrmi?

**Cavab: Borc verәn şәxsin çәkdiyi mәhkәmә xәrclәri borc alan şәxsin öhdәsindә deyildir. Hәr bir halda, bu kimi mәsәlәlәrdә İslam Hökumәtinin qanunlarına müvafiq әmәl olunmalıdır.**

**Sual 1765:** Әgәr borclu şәxs öz borcunu vermirsә vә borcunu vermәkdә sәhlәnkarlıq göstәrirsә, borc verәn şәxs verdiyi borcu onun malından götürә bilәrmi? Mәsәlәn, öz haqqını gizli şәkildә vә ya başqa bir yolla onun malından götürә bilәrmi?

**Cavab: Әgәr borc alan şәxs öz borcunu inkar edәrsә, yaxud heç bir üzrü olmadan borcunu vermәkdә sәhlәnkarlıq göstәrәrsә, borc verәn şәxs onun malından borcu götürә bilәr. Amma әgәr bu şәxs özünü borclu bilmirsә, yaxud onun boynunda borc verәn şәxsin haqqı olub-olmadığını hәqiqәtәn bilmirsә, bu halda borc verәn şәxsin onun malından borcu götürmәsi iradlıdır, hәtta buna icazә verilmir.**

**Sual 1766:** Mәrhumun borcu "hәqqünnas" (insanlara olan borc) sayılırmı vә mәrhumun varislәrinә bu borcu onun irsindәn vermәk vacibdirmi?

**Cavab: Borc istәr fiziki şәxsә olsun, istәr hüquqi şәxsә olsun, "hәqqünnas"dır vә varislәrin mәrhumun borcunu onun irsindәn borc sahibinә vә ya borc sahibinin varislәrinә ödәmәlәri vacibdir. Mәrhumun borcunu ödәmәyәnәdәk onun irsindәn istifadә etmәk haqları yoxdur.**

**Sual 1767:** Bir şәxsin bir torpaq sahәsi vardır, amma bu torpaq sahәsindә tikilmiş ev başqa bir şәxsә aiddir. Torpaq sahәsinin sahibinin isә iki nәfәrә borcu vardır. Borc sahiblәri öz haqlarını almaq üçün torpaq sahәsini vә orada tikilmiş evi müsadirә edә bilәrlәrmi? Yoxsa onlar yalnız torpaq sahәsini müsadirә edә bilәrlәr?

**Cavab: Onlar borclu şәxsin әmlakı olmayan şeyin müsadirә edilmәsini tәlәb edә bilmәzlәr.**

**Sual 1768:** Borclu şәxsin özünün vә ailәsinin yaşayış üçün ehtiyacları olan ev, әmlakın müsadirәsindәn kәnarda qalırmı?

**Cavab: Yaşayışının davam etmәsi üçün borclu şәxsin ehtiyacı olan hәr hansı bir şey, mәsәlәn, ev vә ev әşyaları, avtomobil, telefon, ümumiyyәtlә, onun durumuna uyğun mәişәt ehtiyaclarından olan digәr şeylәr әmlakın müsadirәsi vә satışa çıxarılması hökmündәn kәnarda qalır.**

**Sual 1769:** Bir tacir borcu çoxaldığına görә iflasa uğramışdır vә onun bir evdәn başqa heç nәyi qalmamışdır. O, bu evi satışa qoymuşdur, halbuki, evin pulu onun borcunun yalnız yarısını ödәyir. Buna görә dә, o, borcunun qalan hissәsini qaytara bilmәyәcәkdir. Belә olduğu tәqdirdә, borc sahiblәri onu bu evi satmağa mәcbur edә bilәrlәrmi? Yoxsa borcunu tәdricәn qaytarması üçün ona möhlәt vermәlidirlәr?

**Cavab: Əgər sözügedən ev onun və ailəsinin yaşadığı ev olmazsa, borcunu qaytarması üçün onu bu evi satmağa məcbur etməyin maneəsi yoxdur, baxmayaraq ki, evin pulu borcunun hamısını qaytarmasına yetməyəcəkdir. Evin qiyməti məbləğində borc sahiblərinin ona möhlət vermələri vacib deyildir. Amma borcunun qalan hissəsinə gəlincə, onu qaytarmaq imkanına malik olanadək borc sahibləri gözləməlidirlər.**

**Sual 1770:** **Əgər bir dövlət müəssisəsi başqa bir dövlət müəssisəsindən pul borc alarsa, bu borcu qaytarması vacibdirmi?**

**Cavab: Borcu qaytarmağın vacibliyi baxımından digər borcların hökmünü daşıyır.**

**Sual 1771:** **Əgər borclu şəxs xahiş etmədən bir şəxs onun borcunu qaytararsa, bu şəxsin verdiyi pulun əvəzini ona qaytarmaq borclu şəxsə vacibdirmi?**

**Cavab: Əgər borclu şəxs xahiş etmədən bir şəxs onun borcunu qaytararsa, verdiyi pulun əvəzini borclu şəxsdən tələb etmək haqqı yoxdur. Həmçinin borclu şəxsə də bu şəxsin verdiyi pulun əvəzini ona qaytarmaq vacib deyildir.**

**Sual 1772:** **Əgər borc alan şəxs borcu qaytarmağı təyin edilmiş vaxtdan gecikdirərsə, borc verən şəxs borc məbləğindən artıq məbləğ tələb edə bilərmi?**

**Cavab: Borc verən şəxs borc məbləğindən əlavə, inflyasiya miqdarını da tələb edə bilər.**

**Sual 1773:** **Atam formal bir sövdələşmə (alğı-satqı) əsnasında bir şəxsə müəyyən məbləğ pul verdi. Əslində, bu pul, borc idi. Borclu şəxs isə, pulun gəliri ünvanında hər ay müəyyən məbləğ pul verirdi. Borc sahibi (yəni atam) vəfat etdikdən sonra borclu şəxs həmin məbləğ pulu gəlir ünvanında verməyə davam etdi və bir müddətdən sonra o da vəfat etdi. Pulun gəliri ünvanında verilmiş pullar sələm (riba) sayılırmı və borc sahibinin varisləri bunu borclu şəxsin varislərinə qaytarmalıdırlarmı?**

**Cavab: Nəzərə alsaq ki, bu pul, əslində, o şəxsə borc verilibdir, əgər pulun gəliri ünvanında verilən məbləğ inflyasiya miqdarında olarsa, bunun maneəsi yoxdur. Əks halda, inflyasiya miqdarından artıq olan və pulun gəliri ünvanında ödənilən məbləğ riba sayılır və şəriət baxımından haramdır. Artıq məbləğ – inflyasiya miqdarı da hesablanaraq – borc verən şəxsin irsindən götürülüb, borc alan şəxsə və ya onun varislərinə qaytarılmalıdır.**

**Sual 1774:** **Bir şəxs öz pulunu başqa bir şəxsə əmanət verə və hər ay pulun gəlirini ala bilərmi?**

**Cavab: Əgər şəriət baxımından düzgün olan əqdlərdən biri əsasında istifadə etsin deyə bir şəxs öz pulunu başqa bir şəxsə əmanət verərsə, bunun maneəsi yoxdur və pulun istifadəsindən əldə edilən gəlirin də maneəsi yoxdur. Amma əgər pul borc verilərsə, borcun özü düzgün olsa da, borcda gəlirin verilməsinin şərt qoyulması şəri baxımdan düzgün deyildir. Pulun gəliri ünvanında borclu şəxsdən alınan pul sələm sayılır və haramdır.**

**Sual 1775:** **Bir şəxs bir ticarət işi görmək üçün müəyyən məbləğ pul borc aldı. Əgər o, bu işdən gəlir əldə edərsə, bu gəlirdən müəyyən məbləği borc verən şəxsə verə bilərmi? Borc verən şəxs bunu tələb edə bilərmi?**

**Cavab: Borc alan şəxsin borc pul ilə ticarət edərək əldə etdiyi gəlirdə borc verən şəxsin heç bir haqqı yoxdur və o, bu gəlirdən heç nə tələb edə bilməz. Amma əgər borc alan şəxsin özü öncədən heç bir razılaşma olmadan borc məbləğindən artıq məbləği borc verən şəxsə vermək və ona yaxşılıq etmək istəsə, bunun maneəsi yoxdur, hətta bu iş müstəhəbdir.**

**Sual 1776:** **Bir şəxs bir malı üç ay müddətinə nisyə olaraq almışdır. Amma təyin edilən vaxt çatdıqda o, satıcıdan vaxtın üç ay da uzadılmasını xahiş edir, bu şərtlə ki, malın pulundan artıq məbləği ona ödəyəcəkdir. Onlar bu işi görə bilərlərmi?**

**Cavab: Bu artıq məbləğ sələm sayılır və haramdır.**

**Sual 1777:** **Zeyd Ömərdən sələmli borc alır. Üçüncü bir şəxs borc müqaviləsini və borcun şərtlərini onlar üçün yazır. Dördüncü şəxs isə mühasibatçıdır və o, müqavilə sənədlərini rəsmiləşdirir. Mühasibatçı da sələmli borcun həyata keçməsində şərikdirmi? Onun işi və bu işin qarşılığında ücrət alması haramdırmı? Beşinci şəxs müfəttişdir və aparılan hesabatları yoxlayır. Başqa sözlə, o, heç nə qeydə almır, yalnız sələmli sövdələşmələrin hesabatında yanlışlığın olub-olmadığını yoxlayır, sonra nəticə barəsində mühasibatçıya məlumat verir. Onun da işi haramdırmı?**

**Cavab: Sələmli əqddə (mümailədə), yaxud sələmli borcun həyata keçməsində, yaxud da borc alan şəxsdən sələmin alınmasında iştirakı olan hər bir iş şəriət baxımından haramdır və bu işi görən şəxsə ücrət düşmür.**

**Sual 1778:** **Müsəlmanların çoxu sərmayəyə malik olmadıqlarına görə kafirlərdən sərmayə almaq məcburiyyətində qalırlar və bu da onlara sələm verməyi labüd edir. Kafirlərdən sələmli borc almağın və ya qeyri-müsəlman dövlət tabeliyində olan bankdan borc götürməyin hökmü nədir?**

**Cavab: Sələmli borc "təklifi hökm"[1] baxımından birmənalı olaraq - hətta müsəlman şəxs onu qeyri-müsəlmandan alsa belə - haramdır. Amma əgər bir şəxs belə bir borcu alarsa, borcun özü düzgündür.**

**Sual 1779:** **Bir şəxs müəyyən müddətə müəyyən məbləğ pul borc götürür, bu şərtlə ki, borc verən şəxsin səfər xərclərini, məsələn, həcc ziyarətinin xərclərini çəkəcəkdir. Onlar bu işi görə bilərlərmi?**

**Cavab: Borc əqdində (müqaviləsində) borc verən şəxsin səfər xərclərinin və bu kimi xərclərin çəkilməsinin şərt qoyulması, əslində, elə borc verilən pulun gəlirini almaq deməkdir. Bu isə, şəriət baxımından haramdır və düzgün deyildir. Amma borcun özü düzgündür.**

**Sual 1780:** **Qərzul-həsənə müəssisələri borc verərkən şərt qoyurlar ki, əgər borc götürən şəxs iki və ya bir neçə kredit ödənişini təyin edilən vaxtdan gecikdirərsə, müəssisə borcun hamısını bir yerdə almaq hüququna malik olacaqdır. Bu şərtlə borc verməyə icazə verilirmi?**

**Cavab: Maneəsi yoxdur.**

**Sual 1781:** **Bir kooperativ şirkətin üzvləri sərmayə ünvanında şirkətə müəyyən məbləğ pul ödəyirlər və şirkət də kömək məqsədilə onlara faizsiz və ücrətsiz borc (pul krediti) verir. Şirkət üvzlərinin sileyi-rəhim və yardımlaşma məqsədilə etdikləri bu işin hökmü nədir?**

**Cavab: Yardımlaşmanın və möminlərə borc verilməsini təmin etməkdə iştitak etməyin - hətta sualda qeyd edilən şəkildə olsa belə - icazəli və üstün bir əməl olmasında şübhə yoxdur. Amma əgər şirkətə ödənilən pul borc ünvanında olub, borc üçün bu şərt qoyulsa ki, şirkət gələcəkdə onlara pul krediti verəcəkdir, bu işə şəriət baxımından icazə verilmir. Bamayaraq ki, borcun özü "vəz`i hökm"[2] baxımından düzgündür.**

**Sual 1782:** **Bəzi qərzul-həsənə müəssisələri camaatın onlara əmanət ünvanında verdikləri pullarla mülk və ya başqa şeylər alırlar. Bu alğı-satqının hökmü nədir? Nəzərə alsaq ki, əmanət qoyanların bəziləri bu işlərin görülməsinə razı deyildirlər, müəssisənin məsulu bu pullardan – məsələn, alğı-satqı etməklə - istifadə edə bilərmi? Bu işə şəriət baxımından icazə verilirmi?**

**Cavab: Əgər camaat pulu qərzul-həsənə müəssisəsinə əmanət ünvanında və bu məqsədlə versə ki, müəssisə bu pulu uyğun gördüyü fərdlərə borc versin, bu halda bu pullardan mülk və ya başqa şeyin alınması "füzuli sövdələşmə"dir və sövdələşmənin düzgünlüyü pul sahiblərinin icazəsinə bağlıdır. Amma əgər camaat pulu müəssisəyə borc verərsə və məsullar onlara verilən səlahiyyətlər əsasında mülk və ya başqa şeylər alarsa, bunun maneəsi yoxdur.**

**Sual 1783:** **Bəzi şəxslər başqalarından müəyyən məbləğ pul alır və bunun müqabilində hər ay onlara gəlir ünvanında müəyyən məbləğ pul ödəyirlər. Halbuki, bu işi "şəri müqavilələr"dən birinin adı altında görmürlər, sadəcə iki tərəfin razılığı əsasında görürlər. Bu işin hökmü nədir?**

**Cavab: Bu kimi işlər "sələmli borc" hesab olunur və borcda gəlir şərtinin qoyulması düzgün deyildir. Artıq alınan məbləğ, "riba" (sələm) hesab olunur və şəriət baxımından haramdır, onu almaq olmaz.**

**Sual 1784:** **Əgər qərzul-həsənə büdcəsindən borc götürən şəxs borcu qaytararkən öz istəyi ilə və onun qarşısında heç bir şərt qoyulmadan borc məbləğindən bir qədər artıq məbləğ verərsə, ondan bu artıq məbləği almaq və abadlıq işlərinə sərf etmək olarmı?**

**Cavab: Əgər borc götürən şəxs bu artıq məbləği razılıqla və borcu qaytararkən görülən müstəhəb bir əməl ünvanında verərsə, bu məbləği ondan almağın maneəsi yoxdur. Amma müəssisə məsullarının bu pulu abadlıq işlərinə və ya başqa işlərə sərf etmələrinə gəlincə, bu məsələ onların bu barədə olan səlahiyyətlərinə bağlıdır.**

**Sual 1785:** **Qərzul-həsənə müəssisəsinin idarə işçisi bir şəxsdən borc aldığı pul ilə bir yaşayış evi alır və bir aydan sonra həmin şəxsin borcunu camaatın müəssisəyə qoyduğu əmanət pul ilə, onların razılığı olmadan, ona qaytarır. Onun etdiyi bu müamailə şəriət baxımından düzgündürmü? Bu evin sahibi kimdir?**

**Cavab: Əgər idarə işçisi malik olduğu səlahiyyətlər əsasında müəssisəyə borc verilən pul ilə müəssisə üçün ev alarsa, bunun maneəsi yoxdur. Alınan ev müəssisənin və müəssisənin sərmayəsinin sahiblərinin əmlakıdır. Əks təqdirdə isə, sövdələşmə füzulidir və (sövdələşmənin düzgünlüyü) pul sahiblərinin icazəsinə bağlıdır.**

**Sual 1786:** **Bankdan borc (pul krediti) götürərkən banka ücrət ödəməyin hökmü nədir?**

**Cavab: Əgər bu pul borc vermək işinin ücrəti ünvanında ödənilərsə, məsələn, sənədləşdirmə işinə, həmçinin işıq pulu və bu kimi xərclərə görə ödənilərsə və borcun gəliri hesab olunmazsa, onu verməyin və almağın, həmçinin borcu almağın maneəsi yoxdur.**

**Sual 1787:** **Bir müəssisə öz üzvlərinə borc (pul krediti) verir. Amma borc vermək üçün şərt qoyur ki, borc götürmək istəyən şəxs müəyyən məbləğ pulu üç və ya altı ay müddətinə müəssisəyə verməlidir və bu müddət keçdikdən sonra verdiyi pulun iki misli qədər ona pul borc veriləcəkdir. O, borcunu tam qaytardıqdan sonra isə öncədən verdiyi pul ona geri qaytarılacaqdır. Bu işin hökmü nədir?**

**Cavab: Əgər həmin pul müəssisəyə müəyyən müddətə borc olaraq verilsə, bu şərtlə ki, müəssisə də sözükeçən müddət keçdikdən sonra həmin şəxsə borc verəcəkdir, yaxud müəssisə bu şərtlə borc versə ki, həmin şəxs öncədən müəyyən məbləğ pul büdcəyə qoymuş olmalıdır, bu şərt sələm hökmündədir, şəriət baxımından haramdır və düzgün deyildir. Amma borcun özü hər iki tərəf üçün düzgündür.**

**Sual 1788:** **Qərzul-həsənə büdcələri borc vermək üçün müəyyən məsələləri şərt qoyurlar, o cümlədən, borc götürən şəxs büdcənin üzvü olmalıdır, büdcəyə əmanət pul qoymalıdır, büdcənin yerləşdiyi məntəqənin sakini olmalıdır və s. Bu şərtlər sələm hökmündədirmi?**

**Cavab: Qərzul-həsənə büdcəsinin üzvü olmaq, yaxud büdcənin yerləşdiyi məntəqənin sakini olmaq, ümumiyyətlə, borcun məhdud sayda şəxslərə verilməsinə səbəb olan başqa şərtlərin maneəsi yoxdur. Qərzul-həsənə büdcəsinə əmanət pul qoymaq məsələsinə gəlincə, əgər bu, borcun yalnız büdcənin üzvlərinə verilməsi məsələsinə qayıdarsa, maneəsi yoxdur. Yox əgər gələcəkdə büdcədən borc götürməyin öncədən büdcəyə müəyyən məbləğ pul qoymaq şərtinə qayıdarsa, bu şərt borcda gəlir hökmündədir və düzgün deyildir.**

**Sual 1789:** **Bank sövdələşmələrində ribadan uzaq olmaq üçün bir yol mövcuddurmu?**

**Cavab: Həll yolu, "şəri əqdlər"dən (şəri müqavilələrdən) istifadə etmək və onların bütün şərtlərinə riayət etməkdir.**

**Sual 1790:** **Bankın öz müştərilərinə konkret bir iş üçün verdiyi borc pulu (pul kreditini) başqa bir iş üçün istifadə etmək olarmı?**

**Cavab: Əgər bankın öz müştərilərinə verdiyi pul həqiqətən borc olarsa və konkret bir iş üçün istifadə edilməsini şərt qoyarsa, bu şərtə zidd əməl etməyə icazə verilmir. Həmçinin əgər müştərinin bankdan götürdüyü borc pul müzaribə və ya şəriklik və ya bu kimi işlərin sərmayəsi olarsa, müştərinin bu pulu bankın verdiyi işdən qeyri bir iş üçün xərcləməyə haqqı yoxdur.**

**Sual 1791:** **Bir müharibə əlili pul krediti götürmək üçün banka müraciət edir və özünün əlillik kitabçasını banka təqdim edir. O, əlillik dərəcəsinə görə müharibə əlillərinə verilən xüsusi güzəştli pul kreditindən yararlanmaq istəyir. Amma o özünün əlillik dərəcəsinin bu kitabçada qeyd ediləndən daha az olduğunu hesab edir və elə güman edir ki, mütəxəssis həkimlər onun barəsində səhvə yol veriblər. Bu şəxs həkimlərin onun barəsindəki rəyi əsasında bankın sözügedən güzəştli kreditindən yararlana bilərmi?**

**Cavab: Əgər mütəxəssis həkimlər tibbi müayinə əsasında bu şəxsin əlillik dərəcəsini təyin edibdirlərsə və qanun baxımından da güzəştli kreditin verilməsində bank üçün həkimlərin rəyi meyar götürülürsə, həkimlərin onun üçün təyin etdikləri əlillik dərəcəsinin məziyyətlərindən istifadə etməsinin maneəsi yoxdur. Baxmayaraq ki, öz nəzərinə görə onun əlillik dərəcəsi həkimlərin təyin etdiyindən azdır.**

[1] Təklifi hökm – vasitə olmadan mükəlləfin əməlinə aid edilir və mükəlləfin vəzifəsini həmin əməli yerinə yetirmək və ya yerinə yetirməmək baxımından müəyyənləşdirir. Məsələn, "vacib" və ya "haram" hökmü kimi: namaz vacibdir, zülm etmək haramdır, sələmli borc almaq haramdır.

[2] Vəz`i hökm – vasitə ilə mükəlləfin əməlinə aid edilir. Məsələn, şəxslərə və ya əşyalara aid edilən "evlidir", "pakdır və ya napakdır", "düzgündür və ya düzgün deyildir" hökmləri kimi.

## Sülh[1] (Razılaşma)

**Sual 1792:** **Bir şəxs bütün əmlakını, o cümlədən, evini, maşınını, ev əşyalarını öz həyat yoldaşına sülh etmişdir (yəni əmlakının öz həyat yoldaşının mülkiyyətinə keçməsinə razılaşmışdır). Həmçinin həyat yoldaşını öz azyaşlı övladlarının qəyyumu təyin etmişdir. Belə olduğu təqdirdə, bu şəxsin ölümündən sonra ata-ananın onun irsindən pay tələb etməyə haqqı vardırmı?**

**Cavab: Əgər sübuta yetsə ki, bu şəxs həyatda ikən bütün əmlakını öz həyat yoldaşına və ya başqa bir şəxsə sülh etmişdir, belə ki, öldüyü günədək özü üçün (öz mülkiyyətində) bir şey saxlamamışdır, ata-anaya və ya başqa varislərə irs çatması məsələsinə yer qalmır. Buna görə də, bu şəxs həyatda ikən onun həyat yoldaşının mülkiyyətinə keçən əmlakından ata-ananın və ya başqa varislərin pay tələb etmək haqları yoxdur.**

**Sual 1793:** **Bir şəxs əmlakının bir hissəsini öz övladına sülh edir. Amma bir neçə il keçdikdən sonra bunu həmin övladına satır. Hal-hazırda isə bu şəxsin varisləri həkimin yazılı rəyi əsasında iddia edirlər ki, onların atası evi satmamışdan bir müddət qabaq ağlını itiribmiş. Sülh edilən malı sülh edilən tərəfin özünə satmaq sülhdən dönmək hesab olunurmu və sövdələşmənin düzgünlüyünə hökm edilirmi? Əgər sülh öz düzgünlüyündə qalıbdırsa, bu, sülh edilən malın üçdə biri barəsində düzgündür, yoxsa onun hamısı barəsində?**

**Cavab: Əvvəlki sülh düzgündür və keçərlidir. Sülh edən şəxsin müqaviləni pozmaq haqqına malik olduğu sübuta yetməyənədək, bu sülhə əməl olunmalıdır. Buna görə də, sülh edən şəxsin sülh edilən malı sonradan satması - hətta onu satdığı vaxt ağıl sağlamlığına malik olsa belə - düzgün deyildir. Baş tutan və düzgünlüyünə hökm edilən sülh, sülh edilən malın hamısı barəsində qüvvədədir.**

**Sual 1794:** **Bir şəxs özünün bütün əmlakını, hətta alacaqlarını və tibbi sığorta müəssisəsindəki haqqını öz həyat yoldaşına sülh etmişdir. Amma sözükeçən müəssisə bildirmişdir ki, qanun baxımından bu müəssisədə olan haqqını başqasına sülh etməyə onun haqqı yoxdur. Buna görə də, onunla bu barədə razılaşmamışdır. Sülh edən şəxs də bu məsələni etiraf edir, həmçinin deyir ki, başqalarına olan borcunu qaytarmaqdan boyun qaçırmaq məqsədilə belə bir iş görmüşdür. Bu sülhün hökmü nədir?**

**Cavab: Başqasının malı barəsində və ya başqalarının haqqının aid olduğu mal barəsində edilən sülh "füzuli əqd"dir və onun düzgünlüyü mal, ya haqq sahibinin icazəsinə bağlıdır. Əgər sülh edən şəxs tamamilə özünə aid olan mal barəsində sülh edərsə, amma məqsədi başqalarına olan borcunu qaytarmaqdan boyun qaçırmaq olarsa - xüsusilə də, əgər hazırkı əmlakından başqa bir əmlak əldə edə biləcəyinə və borclarını bu əmlakdan qaytara biləcəyinə ümidi yoxdursa - bu sülhün düzgünlüyü və keçərliliyi məhəlli-işkaldır (yəni düzgün deyildir).**

**Sual 1795:** **Sülh əqdi sənədində qeyd edilibdir ki, ata öz əmlakını bir hissəsini övladına sülh etmiş və ona təhvil vermişdir. Bu sənəd şəriət və qanun baxımından etibarlı sayılırmı?**

**Cavab: Sülh əqdi sənədində qeyd edilənlərin doğru olduğuna yəqinlik hasil olmayanadək mövcud sənəd sülh əqdinin baş tutduğuna və əqdin şərtlərinə şəri dəlil-sübut hesab olunmur. Bəli, əgər mal sahibinin sülh etdiyi dəqiqləşdikdən sonra bu sülhün şəriət baxımından düzgün şəkildə baş tutduğuna dair şübhə mövcud olarsa, sülh əqdi şəriət baxımından düzgün hesab olunur və bu mal sülh edilən tərəfə aid olacaqdır.**

**Sual 1796:** **Mən izdivac edəndə qayınatam - yəni ərimin atası - müəyyən məbləğ pulun qarşılığında bir torpaq sahəsini mənə sülh etdi və onu mənə təhvil verdi. Bu barədə bir neçə şahidin qarşısında müqavilə də tənzimlədi. Amma indi bu sülhün formal olduğunu iddia edir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Bu sülh şəriət baxımından düzgündür və iddaçı şəxs sülhün formal olduğunu sübuta yetirməyənədək bu iddianın heç bir təsiri yoxdur.**

**Sual 1797:** **Atam həyatda ikən bütün daşınmaz və qeyri-daşınmaz əmlakını mənə sülh etdi. Bu şərtlə ki, o, vəfat etdikdən sonra mən bacılarımın hər birinə müəyyən məbləğ pul verməli idim. Bacılarım da buna razı oldular və vəsiyyət sənədini imzaladılar. Atam vəfat etdikdən sonra mən onların haqqını verdim və əmlakın qalan hissəsini özümə götürdüm. Mən bu əmlakdan istifadə edə bilərəmmi? Əgər bacılarım buna (mənim bu əmlakdan istifadə etməyimə) razı olmasalar, məsələnin hökmü nədir?**

**Cavab: Bu sülhün maneəsi yoxdur və sualda qeyd edilənlərə əsasən, sülh edilən mal sizə aiddir, başqa varislərin narazılığının heç bir təsiri yoxdur.**

**Sual 1798:** **Əgər bir şəxs yanında olan övladlarının razılığı olmadan və yanında olmayan övladlarından da xəbərsiz olaraq öz əmlakını oğullarından birinə sülh edərsə, bu sülh düzgündürmü?**

**Cavab: Mal sahibi həyatda ikən öz əmlakını varislərindən birinə sülh etməsi digər varislərin icazəsinə bağlı deyildir və digər varislərin buna etiraz etməyə haqqı yoxdur. Bəli, əgər bu iş övladlar arasında fitnə və ixtilafın düşməsinə səbəb olarsa, bu sülhə icazə verilmir.**

**Sual 1799:** **Əgər bir şəxs bir malı başqa bir şəxsə bu şərtlə sülh etsə ki, yalnız həmin şəxs (yəni sülh edilən tərəf) ondan istifadə edə bilər, həmin şəxs sülh edən şəxsin razılığı olmadan bu malı eyni məqsədlə istifadə etməsi üçün üçüncü bir şəxsə verə bilərmi? Yaxud sülh edən şəxsin razılığı olmadan, bu maldan istifadə etməkdə başqa bir şəxsi özünə şərik edə bilərmi? Əgər bu iş düzgündürsə, sülh edən şəxs bu sülhdən dönə bilərmi?**

**Cavab: Sülh edilən tərəf sülh əqdində öhdəsinə götürdüyü şərtləri poza bilməz. Bu şərtləri pozduğu təqdirdə sülh edən şəxs sülh əqdini poza bilər.**

**Sual 1800:** **Sülh əqdi baş tutduqdan sonra sülh edən şəxs bu əqddən dönə bilərmi və sülh edilən tərəfə bildirmədən həmin malı başqa bir şəxsə sülh edə bilərmi?**

**Cavab: Əgər sülh düzgün şəkildə baş tutarsa, sülh edən şəxs ona əməl etməlidir. Sülh edən şəxs özünə əqdi pozmaq haqqı təyin etməyənədək, sülhdən dönmək haqqı yoxdur. Buna görə də, əgər həmin malı başqa bir şəxsə sülh edərsə, bu sülh "füzuli"dir və onun düzgünlüyü sülh edilən birinci şəxsin icazəsinə bağlıdır.**

**Sual 1801:** **Anadan qalan irs onun oğulları və qızları arasında bölüşdürülmüşdür. Bu məsələ özünün qanuni mərhələlərini keçmiş, irsin bölüşdürüldüyünə dair rəsmi sənəd imzalanmışdır. Varislərin hər biri öz payını aldıqdan və bu məsələnin üstündən xeyli vaxt keçdikdən sonra mərhumənin qızlarından biri iddia edir ki, anası həyatda ikən özünün bütün əmlakını ona sülh etmişdir. Bu barədə adi (qeyri-rəsmi) sənəd mövcuddur ki, yalnız qızın özü və onun əri bu sənədi imzalamışlar. Həmçinin bu sənəddə ananın da barmaq imzası vardır. İndi bu qız irsin hamısını tələb edir. Vəzifə nədir?**

**Cavab: Həyatda ikən ananın öz əmlakını bu qızına sülh etdiyi sübuta yetməyənədək, iddia etdiyi şey (irsin hamısı) barəsində qızın heç bir haqqı yoxdur. Sülh əqdi sənədinin həqiqətə uyğun olduğu sübuta yetməyənədək, bu sənədin heç bir etibarı yoxdur.**

**Sual 1802:** **Bir ata bütün əmlakını öz övladlarına sülh etmişdir. Bu şərtlə ki, həyatda olduğu müddətdə bu əmlakdan istifadə etmək ixtiyarı olacaqdır. Bu deyilənləri nəzərə alaraq, aşağıdakı məsələlərin hökmü nədir?**
**a)Bu sülh sözügedən şərtlə düzgündürmü və keçərlidirmi?**

**b) Bu sülh düzgün və keçərli olduğu təqdirdə, sülh edən şəxs ondan dönə bilərmi? Sülh edən şəxs ondan dönə bildiyi təqdirdə, əgər sülh etdikdən sonra bu əmlakın bir hissəsini satarsa, onun bu əməli sülhdən dönmək hesab olunurumu? Bu əməl sülhdən dönmək hesab olunduğu təqdirdə, sülhdən bütünlüklə dönmək deməkdir, yoxsa satılan mal barəsində sülhdən dönməkdir?**
**c) Əqddə qeyd edilən "həyatda olduğu müddətdə bu əmlakdan istifadə etmək ixtiyarı" cümləsi, sülh edən şəxsin əqdi pozmaq haqqına malik olması mənasını bildirirmi? Yoxsa bu əmlakı başqasına verə bilmək haqqına malik olması mənasını bildirir? Yaxud da həyatda olduğu müddətdə bu əmlakdan sadəcə istifadə etmək haqqına malik olması mənasını bildirir?**

## Cavab:

**a) Bu sülh sözügedən şərtlə düzgündür və keçərlidir.**
**b) Sülh əqdi "lazım əqd"dir. Nəticədə, sülh edən şəxsin əqdi pozmaq haqqı olmayanadək, onun bu əqdi pozması düzgün deyildir. Deməli, əgər o, sözügedən əmlakı sülh etdikdən sonra əqdi pozmaq haqqına malik olmadığı bir halda əmlakın bir hissəsini sülh edilən tərəflərdən birinə satarsa, alıcının payı barəsində sövdələşmə düzgün deyildir. Sülh edilən digər təfələrin payı barəsində isə sövdələşmə "füzuli"dir və sövdələşmənin düzgünlüyü onların icazəsinə bağlıdır.**
**c) "Həyatda olduğu müddətdə bu əmlakdan istifadə etmək ixtiyarı" cümləsi sülh edən şəxsin əmlakdan sadəcə istifadə etmək haqqına malik olması mənasını bildirir. Bu cümlə, sülh edən şəxsin nə əqdi pozmaq haqqına malik olması, nə də bu əmlakın başqasına verə bilmək haqqına malik olması mənasını bildirir.**

[1] Sülh – şəri əqdlərdən (müqavilə) biridir və burada əqdin hər iki tərəfi mal-mülkə sahiblənmə, borcun bağışlanması, haqqın ortadan qalxması və s. bu kimi məsələlərdə öz razılıqlarını elan edirlər.

## Vəkillik

**Sual 1803:** **Mən bir şirkətin vəkiliyəm. Şirkətin mənə verdiyi əmək haqqının müqabilində mən şirkətin məhsullarının təbliği, satışdan sonra göstərilən xidmətlər, beynəlxalq sərgilərdə iştirak etmək və bu kimi işləri yerinə yetirirəm. Şirkətdən aldığım əmək haqqının hökmü nədir?**

**Cavab: Şirkətə aid işləri yerinə yetirmək müqabilində vəkillik əmək haqqını almağın maneəsi yoxdur, bu şərtlə ki, həmin işlər mübah işlər olmalıdır.**

**Sual 1804:** **Bir şəxs bir torpaq sahəsini onun sahibinin vəkilindən kredit şəklində almışdır. O, kreditləri verib qurtardıqdan sonra vəkil tutan şəxs (yəni torpaq sahəsinin sahibi) sövdələşməni pozduğunu və torpaq sahəsini öz mülkiyyətinə qaytardığını iddia edir. Onun bu iddiası düzgündürmü? Yoxsa alıcının bu torpaq sahəsini ondan tələb etməyə haqqı vardır?**

**Cavab: Torpaq sahəsinin sahibinin vəkili ünvanında vəkilin etdiyi sövdələşmə düzgündür və sövdələşməyə əməl olunmalıdır. Satılan mal alıcının mülküdür və vəkil tutan şəxs onu alıcıya təhvil verməlidir. Vəkil tutan şəxs sövdələşməni pozmaq ixtiyarına malik olduğunu sübuta yetirməyənədək, sövdələşmə əqdini pozmağa və torpaq sahəsini öz mülkiyyətinə qaytarmağa haqqı yoxdur.**

**Sual 1805:** **Bir vəkil onu vəkil tutan şəxsin bir neçə torpaq sahəsini adi (qeyri-rəsmi) sənədlə satmışdır. Torpaq sahəsinin sahibi vəkilə alıcıların heç birinə rəsmi sənəd verməməsini tapşırmışdır. Torpaq sahəsinin sahibi vəfat etdikdən sonra onun varisləri bu torpaq sahələrinin alıcıların mülkü olduğunu iqrar edir, amma iddia edirlər ki, alıcılara rəsmi sənədin verilməsi vəkilin öhdəsindədir. Nəzərə alsaq ki, vəkil torpaq sahələrini satdığı vaxt pulu alıb onu vəkil tutan şəxsə təhvil vermişdir, amma hal-hazırda (alıcılar) ondan torpaq sahələrinin rəsmi sənədini, həmçinin (varislər) bu torpaq sahələrinin indiki qiymətini tələb edirlər. Deyilənləri nəzərə alaraq, torpaq sahələrini alıcıların adına rəsmi qeydiyyata keçirmək varislərin öhdəsindədir, yoxsa vəkilin? Varislərin bu torpaq sahələrinin pulunu və ya indiki qiymətlərlə olan qiymət fərqini vəkildən tələb etmək haqları vardırmı?**

**Cavab: Torpaq sahələrinin rəsmi sənədini alıcıların adına keçirmək və bunun xərcləri vəkilin öhdəsində deyildir. Torpaq sahələrinin puluna gəlincə, əgər bu pulu alıcılardan alıb onu vəkil tutan şəxsə təhvil verdiyi sübuta yetərsə, varislərin bu pulu vəkildən tələb etməyə haqqı yoxdur. Həmçinin alıcıların ondan bir şey tələb etməyə, varislərin də indiki qiymətlərlə olan qiymət fərqini ondan tələb etmək haqları yoxdur.**

**Sual 1806:** **Bir müctəhid tərəfindən təyin edilən vəkil həmin müctəhid həyatda ikən "şəri haqları" (xüms, zəkat və s.) başqa bir müctəhidə verə bilərmi?**

**Cavab: Bir müctəhid tərəfindən təyin edilən vəkil şəri haqlar ünvanında təhvil aldığı hər bir şeyi onu vəkil təyin edən müctəhidə verməlidir.**

**Sual 1807:** **Qardaşımı mənə telefon almaqda özümə vəkil etdim və telefonun birinci kreditini ödəməsi üçün ona müəyyən məbləğ pul verdim. O da bu pulu aidiyyatı idarəyə ödədi. Qalan kreditləri isə özüm şəxsən ödədim. Sonra qardaşım vəfat etdi və hal-hazırda telefon aidiyyatı idarədə onun adınadır. Qardaşımın varislərinin bu telefonu məndən tələb etmək haqları vardırmı?**

**Cavab: Əgər qardaşınız sizin verdiyiniz pul ilə telefonun birinci kreditini ödəyib, onu sizin vəkiliniz olaraq sizin üçün alıbdırsa, telefon sizə aiddir və qardaşınızın varislərinin bu telefonda heç bir haqqı yoxdur. Amma əgər bu idarə telefonu müraciət edən və qeydiyyata düşən şəxsə verirsə, sizin bu telefonda haqqınız yoxdur. Siz yalnız ödədiyiniz pulları tələb edə bilərsiniz.**

**Sual 1808:** **Mən vəkillik ücrəti ünvanında müəyyən məbləğ pulu vəkilə verdim və ondan ödənişin edildiyini təsdiqləyən qəbz istədim. O bildirdi ki, etdiyi vəkilliyə görə kimsəyə qəbz vermir. Bir müddətdən sonra bu vəkil işini yerinə yetirməmiş vəfat etdi. Mən verdiyim pulu onun varislərindən tələb edə bilərəmmi?**

**Cavab: Sualda deyilənlərə əsasən, vəkilə verdiyiniz pulu onun varislərindən tələb edə bilərsiniz və bu məbləği vəkilin əmlakından (mərhumun irsindən) ödəmək onun varislərinə vacibdir.**

**Sual 1809:** **Vəkillik əqdi vəkilin və ya vəkil tutan şəxsin ölümü ilə pozulurmu?**

**Cavab: Vəkillik əqdi bu ikisindən birinin ölümü ilə pozulur.**

**Sual 1810:** **Bir kişi Asiya ölkələrindən birinə etdiyi səfər zamanı yol qəzasında dünyasını dəyişir. Onun varisləri (anası və həyat yoldaşı) hadisəni araşdırmaq üçün məni vəkil tutdu. Araşdırma üçün mən həmin ölkəyə səfər etməliyəm. Həmin ölkəyə səfərin xərclərini mərhumun irsindən götürə bilərəmmi? Yoxsa bu xərcləri həmin dövlətin mərhumun varislərinə verdiyi puldan götürməliyəm?**

**Cavab: Sizin vəkillik ücrətinizi və bu iş üçün çəkilən digər xərcləri hadisəni araşdırmaq üçün sizi vəkil tutan şəxslər öz əmlaklarından verməlidirlər. Amma əgər öncədən başqa bir şəkildə razılığa gəlmisinizsə, bu hal istisnadır.**

**Sual 1811:** **Bir vəkillik müqaviləsində hazırda mövcud olan qanuna müvafiq olaraq, “vəkillikdən kənarlaşdırılmayacaqdır” cümləsi birbaşa qeyd edilibdir. Əlbəttə, bu, bir “ibtidai müstəqil vəkillik”dir. Başqa sözlə, əqd əsnasında tərəflər arasında qoyulan şərt şəklində deyildir. Müqavilədə bu cümlənin qeyd edilməsi ilə vəkillik “caiz əqd”dən[1] “lazım əqd”ə[2] çevrilirmi və vəkillikdən kənarlaşdırmaq haqqı ortadan qalxırmı?**

**Cavab: “Lazım vəkillik” odur ki, lazım əqd əsnasında nəticənin şərti olaraq şərt qoyulur. Buna görə də, “vəkillikdən kənarlaşdırılmayacaqdır” cümləsinin qeyd edilməsi vəkilliyin “lazım əqd”ə çevrilməsində təsiri yoxdur və vəkillikdən kənarlaşdırmaq haqqı ortadan qalxmır.**

**Sual 1812:** **Bir şəxs məhkəmədə vəkil qismində çıxış etməyə rəsmi icazəsi olmayan bir şəxsi məhkəmədə araşdırılan mülki iş və ya cinayət işi üçün vəkil tuta bilərmi? Qeyd etməliyik ki, Ədliyyə Nazirliyindən vəkillik sertifikatı olan şəxslər vəkillik ücrəti ala bilmək üçün xüsusi şərtlərə və keyfiyyətlərə malik olmalıdırlar. Belə bir icazəsi olmayan şəxslərin onları vəkil tutan şəxslərin məhkəmə davalarını araşdırmaq müqabilində ücrət almaq haqları vardırmı?**

**Cavab: Vəkalət verilməyə qabil olan işlərdə vəkillik etməyin öz-özlüyündə şəriət baxımından maneəsi yoxdur. Məhkəmə davalarının araşdırılması da bu qəbildəndir. Ücrətin təyin edilməsi isə tərəflərin razılığına bağlıdır. Amma mülki işin və ya cinayət işinin araşdırılmasında vəkillik etmək üçün rəsmi qurumlara və dövlət məhkəmələrinə müraciət etmək lazım gəldiyinə görə əgər qanun baxımından rəsmi icazə tələb olunursa, belə bir icazəyə malik olmayan şəxsi vəkil etməyə və onun vəkilliyini qəbul etməyə icazə verilmir. Hər bir halda, əgər rəsmi icazəsi olmayan bir şəxs başqa bir şəxsin istəyi ilə ücrət düşən bir işi yerinə yetirərsə, onun işinin ücrətül-misli qarşı tərəfin öhdəsindədir.**

**Sual 1813:** **Nəzərə alsaq ki, bəzən vəkil hansısa bir məsələnin və ya davanın araşdırılması, yaxud hansısa bir işin yerinə yetirilməsi istiqamətində vaxt qoyub səy göstərsə də, get-gəl xərclərini çəksə də, vəkil tutan şəxsin xeyrinə olan bir nəticə hasil olmur. Bu işlə əlaqədar göstərdiyi səyə görə vəkilə vəkillik ücrəti ünvanında pul verməyin və onun da bu ücrəti almasının hökmü nədir?**

**Cavab: Vəkilliyin şəriət baxımından düzgün olması və vəkil tutan şəxsin istəyi ilə yerinə yetirdiyi vəkillik üçün vəkilin ücrətül-müsəmma[3] və ya ücrətül-misl[4] almaq haqqı vəkil tutan şəxsin gözlədiyi nəticənin hasil olmasına bağlı deyildir. Amma əgər öncədən başqa bir şəkildə razılığa gəliblərsə, bu hal istisnadır.**

**Sual 1814:** **Rəsmi məhkəmə şöbələrinin əksəriyyətində qayda budur ki, vəkilliyin hüdudları müəyyən edilir. Məsələn, yazılır: "Filan yerdə yerləşən filan evin satılmasına vəkildir". Həmçinin digər hüdudlar da müəyyən edilir. Amma bəzi əlyazma vəkalətnamələrdə bu cümlə yazılır: "Filan şəxs vəkil təyin edildiyi məsələyə aid bütün işlərdə vəkildir". Nəticədə, vəkil ilə vəkil tutan şəxs arasında əksər hallarda ixtilaf yaranır, belə ki, filan iş və ya müdaxilə vəkalətə daxildir, yoxsa daxil deyildir? Sual budur ki, əgər vəkil təyin edildiyi məsələ barəsində vəkil üçün xüsusi işlər müəyyən edilməzsə, vəkil bu məsələ barəsində hər bir işi və müdaxiləni yerinə yetirə bilərmi?**

**Cavab: Bir vəkil, vəkil təyin edildiyi məsələdə, vəkillik əqdinin birbaşa olaraq və ya zahirə görə - hətta "haliyyə qərinə"lər və ya "məqaliyyə qərinə"lərin[5] köməkliyi ilə - şamil olduğu işlərlə kifayətlənməlidir; hətta bu qərinələr vəkillik ilə bir sıra işlər arasında bağlılığın olduğuna dair mövcud adət-ənənə olsa belə. Qısaca desək, vəkillik bir neçə şəkildə təsəvvür oluna bilər:**
**a) Vəkillik hər iki cəhətdən – həm əməl, həm də mütəəlləq (vəkilliyin təyin edildiyi məsələ) cəhətindən xüsusidir.**
**b) Vəkillik sözügedən hər iki cəhətdən ümumidir.**
**c) Yalnız bir cəhətdən ümumidir.**
**ç) Yalnız əməl və müdaxilə cəhətindən mütləqdir. Məsələn, belə desin: "Sən yalnız mənim evim barəsində vəkilsən".**
**d) Yalnız mütəəlləq cəhətindən mütləqdir. Məsələn, belə desin: "Sən mənim mülkümün satışında vəkilsən".**
**e) Hər iki cəhətdən mütləqdir. Məsələn, belə desin: "Sən mənim malımdan istifadə etməkdə vəkilsən".**
**Vəkil bu bəndlərin hər birində yalnız vəkillik əqdinin ümumiliyi və ya xüsusiliyi və ya mütləqliyinin şamil olduğu işlərlə kifayətlənməli və ondan kənara çıxmamalıdır.**

**Sual 1815:** **Bir kişi öz həyat yoldaşını vəkil etmişdir ki, onun bir torpaq sahəsini və bir neçə evini satsın və bunların pulu ilə onun azyaşlı övladı üçün bir yaşayış evi alıb, uşağın adına keçirsin. Amma qadın bu vəkalətdən sui-istifadə edərək, aldığı evi öz adına keçirmişdir. Qadının gördüyü işlər şəriət baxımından düzgündürmü? Nəzərə alsaq ki, sözügedən ev kişinin əmlakının satışından əldə edilən pul ilə alınmışdır, bu kişi vəfat etdikdən sonra bu ev onun azyaşlı övladının mülküdür, yoxsa bütün varislərin mülküdür?**

**Cavab: Əri tərəfindən vəkil olaraq qadının gördüyü işlər - o cümlədən, torpaq sahəsinin və evlərin satışı - düzgündür və keçərlidir. Evi öz adına keçirməsinin isə, şəriət baxımından heç bir etibarı yoxdur. Buna görə də, əgər o, vəkilliyə müvafiq olaraq bu evi əri həyatda ikən və onun pulu ilə azyaşlı övladı üçün alıbdırsa, sövdələşmə (alğı-satqı) düzgündür və keçərlidir. Bu ev təkcə azyaşlı uşağa aiddir. Yox əgər bu evi əri həyatda ikən və onun pulu ilə özü üçün alıbdırsa, yaxud əri vəfat etdikdən sonra bu evi azyaşlı uşağı üçün alıbdırsa, sövdələşmə "füzuli"dir və icazə lazımdır. Əlbəttə, birinci halda kişi vəfat etdikdən sonra onun varislərinin icazəsi keçərli deyildir, çünki alış zamanı pulun sahibi deyildilər. Amma**

**ikinci halda, əgər varislər bu işə icazə versələr, mümailə onların hər birinin irsdən olan payı nisbətində baş tutmuş olur.**

**Sual 1816:** **Qəza namazlarını qılmaq və oruclarını tutmaq üçün əcir tutmaqda bir neçə şəxs Zeydi vəkil etdi. Yəni Zeyd bu şəxslərdən pulu alıb əcir olan şəxslərə verməli idi. Amma o, əmanətə xəyanət edib, bu iş üçün kimsəni əcir tutmadı. İndi isə bu əməlinə görə peşman olmuş və borcdan çıxmaq istəyir. O, bu iş üçün bir neçə nəfəri əcir tutmalıdırmı? Yoxsa bu işin ücrətini indiki qiymətlə pul sahiblərinə qaytarmalıdır? Yaxud da ancaq onlardan aldığı pulu borcludur? Əgər onun özü qəza namazlarını qılmaq və oruclarını tutmaqda əcir olubdursa və bu işi yerinə yetirməmişdən qabaq vəfat edərsə, vəzifə nədir?**

**Cavab: Əgər əcir tutmaq üçün vəkil olan şəxsin vəkillik müddəti əcir tutmamışdan qabaq başa çatarsa, o, ancaq aldığı pula zamindir. (Əlbəttə, pulun dəyərdən düşməsi və inflyasiya miqdarı hesablanmalıdır.) Əks halda, o, ya qəza namazlarını qıldırmaq və qəza oruclarını tutdurmaq üçün aldığı pul ilə əcir tuta bilər, ya da vəkilliyi pozub pulu sahibinə qaytara bilər. (Əlbəttə, pulun dəyərdən düşməsi və inflyasiya miqdarı hesablanmalıdır.) Pulun dəyərinin fərqi barəsində, ehtiyata görə, müsalihə etsinlər (razılığa gəlsinlər). Amma qəza namazlarını qılmaq və oruclarını tutmaq üçün əcir olan şəxsə gəlincə, əgər bu işləri şəxsən onun yerinə yetirməsi şərt qoyulubdursa, onun ölümü ilə icarə əqdi pozulur və aldığı pul onun irsindən qaytarılmalıdır. (Əlbəttə, pulun dəyərdən düşməsi və inflyasiya miqdarı hesablanmalıdır.) Yox əgər bu işləri şəxsən onun yerinə yetirməsi şərt qoyulmayıbdırsa, bu işlərin yerinə yetirilməsinə borcludur. Onun varisləri bu işlərin yerinə yetirilməsi üçün onun irsi ilə bir şəxsi əcir tutmalıdırlar, əlbəttə, əgər ondan irs qalıbdırsa. Əks təqqdirdə (yəni əgər ondan irs qalmayıbdırsa), bu barədə varislərin öhdəsinə heç nə düşmür.**

**Sual 1817:** **Bəzi şirkətlərin işə götürdükləri bəzi vəkillərin vəzifəsi davaları və şikayətləri araşdırmaq üçün şirkət tərəfindən məhkəmədə iştirak etməkdir. Əgər şirkətin hansısa bir iddiası vəkilin nəzərinə görə düzgün əsasa malik deyildirsə, o, bu məsələdə şirkəti müdafiə edə bilərmi? Öz nəzərinə görə düzgün olmayan bir davada şirkəti müdafiə etdiyi təqdirdə, bu müdafiəsinə görə - hətta əgər məhkəmə "əleyhinə dava açılan tərəf"in xeyrinə hökm çıxarsa belə – məsuliyyət daşıyırmı? Öz nəzərinə görə düzgün olmayan bir davanın müdafiəsi müqabilində aldığı ücrət haramdırmı?**

**Cavab: Düzgün olmayan bir məsələni müdafiə etməyə və onun haqq olduğunu isbatlamaq üçün səy göstərməyə icazə verilmir. Haram əməlin mahiyyəti məhkəmənin "əleyhinə dava açılan tərəf"in xeyrinə hökm çıxarması ilə dəyişmir. Düzgün olmayan məsələnin müdafiəsi müqabilində alınan ücrət haramdır.**

**Sual 1818:** **Bir şəxs başqa bir şəxsə vəkil olmağı bu şərtlə qəbul edir ki, ücrətini iş görməmişdən qabaq alacaqdır. Əgər vəkil heç bir iş görməzsə, bu pul şəriət baxımından ona halaldırmı?**

**Cavab: Vəkillik əqdinin bağlanması ilə vəkil ücrətül-müsəmmanın sahibi olur və vəkil təyin edildiyi işi yerinə yetirməmişdən qabaq bu ücrəti tələb etməyə haqqı vardır. Amma əgər vəkil təyin edildiyi işi yerinə yetirməzsə və beləcə, bu işin vaxtı keçərsə, yaxud onun vəkillik müddəti başa çatarsa, buna görə vəkillik əqdi pozulur. Vəkil aldığı ücrəti onu vəkil tutan şəxsə qaytarmalıdır.**

---

[1] Caiz əqd – bu müqavilədə tərəflərdən birinin və ya hər ikisinin müqaviləni pozmaq haqqı vardır.

[2] **Lazım əqd – bu müqavilədə tərəflərdən heç birinin müqaviləni pozmaq haqqı yoxdur.**

[3] **Ücrətül-müsəmma - əqd əsnasında təyin edilən ücrət.**

[4] **Ücrətül-misl – yəni ürfün nəzərində bir iş üçün və ya bir şeyi icarəyə götürmək üçün ödənilən ücrət miqdarı.**

[5] **"Sarifə-qərinə" (yəni sözü həqiqi mənadan məcazi mənaya yönəldən əlamət, sübut) 2 qismdir: 1) Əgər "söz və kəlam" olarsa, "məqaliyyə və ya ləfziyyə qərinə" adlanır. 2) Əgər halət (vəziyyət və durum) olarsa, "məqamiyyə və ya haliyyə qərinə" adlanır.**

## Həvalə[1]

**Sual 1819: Bir şəxs bir torpaq sahəsini müəyyən bir qiymətə alır. Eyni zamanda, bu torpaq sahəsinin qiyməti məbləğində üçüncü bir şəxsdən alacağı vardır (üçüncü şəxs ona bu məbləğdə pul borcludur). Buna görə də, o, satıcını borclu şəxsə həvalə edir ki, torpaq sahəsinin pulunu ondan alsın. Amma üçüncü şəxs, yəni borclu olan şəxs alıcının xəbəri olmadan torpaq sahəsinin pulunu satıcıya verib, onu özü üçün alır. Birinci sövdələşmə düzgündür, yoxsa ikinci sövdələşmə? Halbuki, satıcı torpaq sahəsinin pulunun üçüncü şəxsə həvalə edilməsinə razılıq vermişdi?**

**Cavab: İkinci sövdələşmə "füzuli"dir və (sövdələşmənin düzgünlüyü) birinci alıcının icazəsinə bağlıdır. Amma əgər birinci sövdələşmə şəriət baxımından düzgün bir şəkildə pozulduqdan sonra ikinci sövdələşmə baş tutarsa, ikinci sövdələşmə düzgündür.**

---

[1] Həvalə - borcunu alması üçün borc verən şəxsi başqa bir şəxsə yönləndirməkdir.

## Sədəqə

**Sual 1820:** İmam Xomeyni adına yardım komitəsi sədəqə və yardımların yığılması və bunların yoxsullara, haqq sahiblərinə çatdırılması üçün evlərdə, küçələrdə, şəhər və kəndlərin ümumi məkanlarında sədəqə qutuları qoymuşdur. Komitə işçilərinin aidiyyatı qurumdan aldıqları aylıq əmək haqqından və mükafatlardan əlavə, onlara bu qutulardan götürülən pulların müəyyən faizi mükafat ünvanında verilə bilərmi? Komitə işçisi olmayan, amma qutulardan pulların toplanmasında iştirak edən fərdlərə bu pullardan müəyyən məbləğ verilə bilərmi?

**Cavab: Aidiyyatı qurumdan aldıqları aylıq əmək haqqıdan əlavə, sədəqə qutularından götürülən pullardan mükafat ünvanında komitə işçilərinə müəyyən məbləğ pul verilməsinin maneəsi vardır. Hətta pul sahiblərinin bu işə razı olduqları dəqiqləşməyənədək, buna icazə verilmir. Komitənin işçisi olmayan, amma qutulardan pulların toplanmasında kömək göstərən fərdlərə bu pullardan ücrət ünvanında verilməsinin isə maneəsi yoxdur. Bu şərtlə ki, sədəqələrin toplanması və onların haqq sahiblərinə çatdırılmasında bu fərdlərin köməyinə ehtiyac olmalıdır və pul sahiblərinin buna razı olduqları zahirən aydın olmalıdır. Əks halda, bu pulların fəqirlərə xərclənməsindən qeyri işlərə sərf edilməsi iradsız deyildir.**

**Sual 1821:** Evin qapısını döyüb dilənən, yaxud küçələrdə oturub dilənən dilənçilərə sədəqə vermək olarmı? Yoxsa sədəqəni yetimlərə və miskinlərə vermək daha yaxşıdır? Yaxud da sədəqəni sədəqə qutularına atıb yardım komitəsinin ixtiyarında qoymaq daha yaxşıdır?

**Cavab: Müstəhəb sədəqəni iffətli və dindar yoxsula vermək daha yaxşıdır. Həmçinin sədəqəni yardım komitəsinin ixtiyarında qoymağın – hətta onu sədəqə qutularına atmaqla olsa belə - maneəsi yoxdur. Amma vacib sədəqəni şəxsin özü, yaxud vəkili sədəqə düşən yoxsullara verməlidir. Əgər şəxs bilsə ki, yardım komitəsinin məsulları sədəqə qutularının pullarını toplayıb sədəqə düşən fəqirlərə verirlər, bu sədəqəni sədəqə qutularına atmasının maneəsi yoxdur.**

**Sual 1822:** Öz dolanışıqlarını dilənərək təmin edən və İslam cəmiyyətinin simasını korlayan dilənçilərin qarşısında insanın vəzifəsi nədir? Xüsusilə də, dövlət onları cəmiyyətdən yığışdırmağa çalışır? Bu dilənçilərə yardım etməyə icazə verilirmi?

**Cavab: Sədəqəni dindar və iffətli yoxsullara verməyə çalışın.**

**Sual 1823:** Mən məscidin xadimiyəm və ramazan ayında işlərim çoxalır. Buna görə də, bəzi xeyriyyəçi şəxslər mənə yardım ünvanında pul verirlər. Mən bu pulu ala bilərəmmi?

**Cavab: Onların sizə verdikləri pul sizə etdikləri yardımdır. Buna görə də, bu pul sizə halaldır və onu almağınızın maneəsi yoxdur.**

## Ariyə[1] və əmanət[2]

**Sual 1824:** **Zavodda baş verən yanğın nəticəsində orada olan hər şey, o cümlədən, xammal, dəzgahlar, materiallar və bəzi fərdlərin orada əmanət qoyduqları mallar yanmışdır. Bunlara zavodun sahibi zamindir, yoxsa zavodu idarə etmək məsuliyyətini daşıyan şəxs?**

**Cavab: Əgər yanğına heç kim səbəbkar olmayıbdırsa və zavoda əmanət qoyulan malların qorunmasında heç kim səhlənkarlıq göstərməyibdirsə, bunlara kimsə zamin deyildir.**

**Sual 1825:** **Bir şəxs özünün yazılı vəsiyyətnaməsini başqa bir şəxsə əmanət vermişdir ki, ölümündən sonra bu vəsiyyətnaməni onun böyük övladına versin. Amma bu şəxs vəsiyyətnaməni onun övladına verməkdən boyun qaçırır. Onun bu işi əmanətə xəyanət sayılırmı?**

**Cavab: Əmanət verən şəxsin təyin etdiyi şəxsə əmanəti qaytarmaqdan boyun qaçırmaq bir növ xəyanət hesab olunur.**

**Sual 1826:** **Hərbi xidmət müddətində şəxsi istifadə üçün hərbi hissədən müəyyən əşyalar təhvil almışdım, amma hərbi xidmət müddəti başa çatdıqdan sonra onları hərbi hissəyə təhvil vermədim. İndi bu əşyalara görə mənim vəzifəm nədir? Onların pulunu Mərkəzi Bankın ümumi hesabına köçürmək kifayət edirmi?**

**Cavab: Əgər hərbi hissədən aldığınız əşyalar "ariyə" ünvanında olubdursa, bu əşyalar qaldığı təqdirdə onların özünü hərbi hissəyə qaytarmalısınız. Amma əgər bu əşyaları qorumaqda səhlənkarlıq göstərdiyinizə görə - hətta onları geri qaytarmağı yubatdığınıza görə - bu əşyalar aradan gedibdirsə, onların oxşarını və ya pulunu hərbi hissəyə verməlisiniz. Əks təqdirdə, sizin öhdənizə heç nə düşmür.**

**Sual 1827:** **Etibarlı bir şəxsə başqa bir şəhərə aparması üçün müəyyən məbləğ pul verdilər. Amma pullar yolda oğurlandı. Bu şəxs bu pullara zamindirmi?**

**Cavab: Pulları qorumaqda onun səhlənkarlıq göstərdiyi sübuta yetməyənədək, o, bu pullara zamin deyildir.**

**Sual 1828:** **Məscidin təmirinə lazım olan materialları almaq üçün məscidin idarə heyəti mənə məhəllə sakinlərinin məscidə bağışladıqları puldan müəyyən məbləğ pul verdi. Amma bu pul mənim şəxsi əşyalarımla birlikdə yolda itdi. Mənim vəzifəm nədir?**

**Cavab: Əgər bu pulu qoruyub saxlamaqda səhlənkarlıq etməmisinizsə, pula zamin deyilsiniz.**

---

[1] Ariyə – bir əqddir (müqavilədir) və burada əqdin bir tərəfi digər tərəfə onun malından havayı olaraq istifadə etməsinə icazə verir.

[2] Əmanət – bir əqddir və burada əqdin bir tərəfi öz malını digər tərəfin yanında onu qoruyub saxlaması üçün qoyur.

## Vəsiyyət

**Sual 1829:** Bəzi şəhidlər vəsiyyət etmişlər ki, onların irsinin üçdə biri müqəddəs müdafiə cəbhələrinə yardım üçün xərclənsin. Hal-hazırda ölkə müharibə şəraitində olmadığına görə, bu vəsiyyətə əməl etmək mümkün deyildir. Bu vəsiyyətlərin hökmü nədir?

**Cavab: Əgər vəsiyyətə əməl etmək mümkün deyildirsə, irsin üçdə bir hissəsi də varislərə çatır. Əhvət budur ki, bu mal varislərin icazəsi ilə xeyriyyə işlərinə xərclənsin.**

**Sual 1830:** Qardaşım vəsiyyət etmişdir ki, irsinin üçdə biri xüsusi bir şəhərin müharibə didərginlərinə xərclənsin. Amma hal-hazırda həmin şəhərdə heç bir müharibə didərgini yoxdur. Vəzifə nədir?

**Cavab: Əgər "müharibə didərginləri" dedikdə, qardaşınızın hal-hazırda həmin şəhərdə yaşayanları nəzərdə tutduğu məlum olsa, hal-hazırda onlar müharibə didərgini olmadıqlarına görə, bu mal qardaşınızın varislərinə çatır. Bundan qeyri halda, bu pul həmin şəhərdə yaşamış müharibə didərginlərinə verilməlidir, baxmayaraq ki, hal-hazırda oradan köçüb getmişlər.**

**Sual 1831:** İnsan öz irsinin yarısının onun yas məclisinə xərclənməsini vəsiyyət edə bilərmi? Yoxsa bu miqdarı müəyyən etməyə icazə verilmir? Çünki İslam dini bu iş üçün xüsusi hüdud müəyyən etmişdir?

**Cavab: İnsanın öz irsindən onun yas məclisi üçün xərclənməsini vəsiyyət etməsinin maneəsi yoxdur və bunun şəriət baxımından xüsusi bir hüdudu da yoxdur. Amma mərhumun vəsiyyəti yalnız onun irsinin üçdə biri barəsində keçərlidir və irsin üçdə birindən çoxunun xərclənməsi varislərin icazəsinə bağlıdır.**

**Sual 1832:** Vəsiyyət etmək vacibdirmi? Yəni insan əgər vəsiyyət etməzsə, günah işlətmişdirmi?

**Cavab: Əgər insanın yanında başqalarının əmanəti vardırsa, həmçinin boynunda "həqqünnas" və "həqqüllah" vardırsa və həyatda ikən bu borcları ödəyə bilməyibdirsə, bunlar barəsində vəsiyyət etməsi vacibdir. Əks təqdirdə, vəsiyyət etmək vacib deyildir.**

**Sual 1833:** Bir kişi əmlakının üçdə birindən azını öz həyat yoldaşına vəsiyyət edir və böyük oğlunu özünə vəsi[1] təyin edir. Amma digər varislər bu vəsiyyətə etiraz edirlər. Bu halda vəsinin vəzifəsi nədir?

**Cavab: Əgər irsinin üçdə birini və ya bundan azını vəsiyət edibdirsə, digər varislərin etirazının heç bir əsası yoxdur. Əksinə, vəsiyyətə əməl etmələri vacibdir.**

**Sual 1834:** Əgər varislər vəsiyyəti ümumiyyətlə inkar etsələr, vəzifə nədir?

**Cavab: Vəsiyyətin mövcud olduğunu iddia edən şəxs bu iddianı şəri yollarla sübuta yetirməldir. Vəsiyyətin mövcud olduğu sübuta yetdiyi təqdirdə, əgər irsin üçdə birinə və ya bundan azına vəsiyyət edilibsə, ona əməl etmək vacibdir. Varislərin inkar və etirazının heç bir təsiri yoxdur.**

**Sual 1835:** Bir şəxs bir neçə etibarlı şəxsin, o cümlədən, oğullarından birinin qarşısında vəsiyyət etmişdir ki, xüms, zəkat və kəffarə kimi boynunda olan şəri haqların ödənilməsi, həmçinin namaz, oruc və həcc kimi boynunda olan vacib ibadətlərin yerinə yetirilməsi üçün əmlakının bir hissəsi onun irsindən çıxılsın. Amma varislərdən bəziləri bu məsələni inkar edir və atalarının

**əmlakından heç nə çıxılmadan əmlakın varislər arasında bölüşdürülməsini tələb edirlər. Bu barədə vəzifə nədir?**

**Cavab: Vəsiyyətin mövcud olduğu şəri dəlillərlə və ya varislərin iqrarı ilə sübuta yetdikdən sonra vəsiyyət edilən əmlak irsin üçdə birindən çox olmadığı təqdirdə, varislərin bu əmlakın onlar arasında bölüşdürülməsini tələb etmək haqları yoxdur. Əksinə, onlar bu əmlakı mərhumun vəsiyyət etdiyi şəri haqlara və vacib ibadətlərə sərf edib, vəsiyyətə əməl etməlidirlər. Hətta əgər şəri yollarla və ya varislərin etirafı ilə sübuta yetsə ki, mərhum camaata borclu imiş, yaxud xüms, zəkat və kəffarə kimi şəri haqlar, yaxud da maddi-mənəvi ibadət olan həcc kimi bir ibadət onun boynunda var imiş, hətta mərhum bu borclar barəsində vəsiyyət etməsə belə, varislər mərhumun irsindən onun bütün borclarını qaytarmalıdırlar. Bundan sonra qalan irs onların arasında bölüşdürülməlidir.**

**Sual 1836: Bir əkin sahəsinə sahib olan şəxs bu əkin sahəsinin məscidin təmirinə sərf edilməsini vəsiyyət etmişdir. Amma onun varisləri bu əkin sahəsini satıbdırlar. Mərhumun vəsiyyəti keçərlidirmi? Varislərin bu əmlakı satmaq haqları vardırmı?**

**Cavab: Əgər vəsiyyətin məzmunu əkin sahəsinin satılıb məscidin təmirinə sərf edilməsi olarsa, əkin sahəsinin qiyməti irsin üçdə birindən çox olmadığı təqdirdə vəsiyyət keçərlidir və onun satılmasının maneəsi yoxdur. Amma əgər vəsiyyət edən şəxs əkin sahəsindən əldə edilən gəlirlərin məscidin təmirinə sərf edilməsini nəzərdə tutubdursa, varislərin bu əkin sahəsini satmaq haqları yoxdur.**

**Sual 1837: Bir şəxs vəsiyyət etmişdir ki, onun torpaq sahələrindən biri boynunda olan namaz və orucun yerinə yetirilməsinə, həmçinin xeyriyyə işlərinə sərf edilsin. Bu torpaq sahəsini satmaq olarmı? Yoxsa vəqf hesab olunur?**

**Cavab: Əgər dəlil və əlamətlərdən onun məqsədinin bu torpaq sahəsinin olduğu kimi qalması və torpaq sahəsinin gəlirlərinin ona sərf edilməsi olduğu başa düşülməzsə, əksinə, torpaq sahəsinin ona sərf edilməsini vəsiyyət etdiyi məlum olarsa, bu vəsiyyət vəqf hökmündə deyildir. Buna görə də, əgər torpaq sahəsinin qiyməti irsin üçdə birindən çox olmazsa, onu satıb pulunun mərhumun vəsiyyətinə sərf edilməsinin maneəsi yoxdur.**

**Sual 1838: Ölümündən sonra onun özünə sərf edilsin deyə, insan öz əmlakından müəyyən qədərini irsin üçdə biri ünvanında kənara qoya, yaxud bir şəxsin yanında əmanət qoya bilərmi?**

**Cavab: Bu işin maneəsi yoxdur, bu şərtlə ki, ölümündən sonra həmin malın iki misli qədər onun varisləri üçün qalmış olmalıdır.**

**Sual 1839: Bir şəxs öz atasına vəsiyyət etmişdir ki, boynunda olan bir neçə ay qəza namazı və orucun yerinə yetirlməsi üçün əcir tutsun. Hal-hazırda isə bu şəxs itkin düşmüşdür. Onun qəza namazı və orucunun yerinə yetirilməsi üçün əcir tutmaq ataya vacibdirmi?**

**Cavab: Vəsiyyət edən şəxsin öldüyü şəri dəlil və ya vəsinin əldə etdiyi məlumat vasitəsilə sübuta yetməyənədək, onun qəza namazı və orucunun yerinə yetirilməsi üçün atanın əcir tutması düzgün deyildir.**

**Sual 1840: Atam öz torpaq sahəsinin üçdə birini məscidin tikilməsinə vəsiyyət etmişdir. Amma bu torpaq sahəsinin yaxınlığında iki məscidin olduğunu və əhalinin məktəb tikilməsinə böyük ehtiyacı olduğunu nəzərə alaraq, həmin torpaq sahəsində məscidin əvəzinə məktəb tikmək olarmı?**

**Cavab: Vəsiyyəti dəyişdirib məscid əvəzinə məktəb tikmək olmaz. Amma əgər məscidin məhz həmin torpaq sahəsində tikilməsi nəzərdə tutlmayıbdırsa, həmin torpaq sahəsini satıb, onun pulunu məscidə ehtiyac duyulan başqa bir yerdə məscid tikintisinə sərf etməyin maneəsi yoxdur.**

**Sual 1841:** **Bir şəxs vəsiyyət edə bilərmi ki, ölümündən sonra onun cəsədi tibb universiteti tələbələrinin ixtiyarında qoyulsun və cəsədin yarılması və tədris-təlim üçün istifadə edilsin? Yoxsa bu iş müsəlmanın cəsədinin müslə edilməsinə[2] səbəb olması baxımından haramdır?**

**Cavab: Bizim fikrimizcə, "müslə"nin və onun kimi işlərin haramlığı dəlilləri başqa bir məsələdən qaynaqlanır. Bu, sualda qeyd edilən məsələyə şamil olmur, çünki cəsədin bu kimi məqsədlərlə yarılmasında mühüm fayda mövcuddur. Əgər müsəlmanın cəsədinə ehtiram göstərilməsi şərti gerçəkləşərsə - belə ki, bu şərt bu kimi məsələlərdə qaçılmazdır – zahirən cəsədin yarılmasının maneəsi olmayacaqdır.**

**Sual 1842:** **Əgər bir şəxs ölümündən sonra bəzi əzalarının xəstəxanaya və ya bir şəxsə hədiyyə edilməsini vəsiyyət etsə, bu vəsiyyət düzgündürmü və onu yerinə yetirmək vacibdirmi?**

**Cavab: Hansı əzaları cənazədən ayırmaq ölüyə hörmətsizlik hesab olunmursa, həmin əzalar barəsində edilən vəsiyyətin düzgün və keçərli olması da uzaq ehtimal deyildir. Bu vəsiyyəti yerinə yetirməyin maneəsi yoxdur.**

**Sual 1843:** **Əgər vəsiyyət edən şəxs həyatda ikən varislər ona irsin üçdə birindən çoxu barəsində vəsiyyət etməsinə icazə versələr, bu, vəsiyyətin keçərli olmasına kifayət edirmi? Əgər kifayət edirsə, vəsiyyət edən şəxs vəfat etdikdən sonra varislər verdikləri icazədən dönə bilərlərmi?**

**Cavab: Vəsiyyət edən şəxs həyatda ikən varislərin ona irsin üçdə birindən çoxu barəsində vəsiyyət etməsinə icazə vermələri, vəsiyyətin keçərli və düzgün olmasına kifayət edir. Vəsiyyət edən şəxs vəfat etdikdən sonra varislərin verdikləri icazədən dönmək haqları yoxdur. Həmçinin verdikləri icazədən dönmələrinin təsiri də yoxdur.**

**Sual 1844:** **Bir şəhid qəza namazları və oruclar barəsində vəsiyyət etmişdir, amma ondan irs qalmamışdır. Yaxud da ondan qalan irs təkcə bir ev və evdə olan əşyalardır ki, bunları satmaq onun azyaşlı övladlarının sıxıntıya düşmələrinə səbəb olacaqdır. Bu vəsiyyətlə əlaqədar onun varislərinin vəzifəsi nədir?**

**Cavab: Əgər bu şəhiddən irs qalmayıbdırsa, onun vəsiyyətinə əməl etmək vacib deyildir. Amma onun böyük oğluna vacibdir ki, şəri vəzifə yaşına çatdıqda atasının qəza namazlarını və oruclarını yerinə yetirsin. Yox əgər ondan irs qalıbdırsa, irsin üçdə birinin onun vəsiyyətinə sərf edilməsi vacibdir. Varislərin ehtiyaclı və azyaşlı olmaları vəsiyyətə əməl etməmək üçün şəri üzr hesab olunmur.**

**Sual 1845:** **Vəsiyyət edilən zaman "vəsiyyət olunan şəxs"in (موصى له) həyatda olması əmlak barəsindəki vəsiyyətin düzgün və keçərli olmasında şərtdirmi?**

**Cavab: Əmlak barəsindəki vəsiyyətdə vəsiyyət edilən zaman "vəsiyyət olunan şəxs"in ( موصى له) həyatda olması şərtdir, hətta ana bətnində döl şəklində olsa belə, yaxud ruh verilməmiş döl şəklində olsa belə, bu şərtlə ki, uşaq dünyaya diri gəlməlidir.**

**Sual 1846:** **Bir şəxs yazılı vəsiyyətnaməsində özünə vəsi təyin etməklə yanaşı, başqa bir şəxsi də ona nəzarətçi təyin etmişdir. Amma nəzarətçi şəxsin səlahiyyətlərini qeyd etməmişdir. Yəni məlum deyildir ki, nəzarətçi şəxsin işi yalnız vəsiyyətə zidd əməl etməsin deyə, vəsinin işlərinə nəzarət etməkdir? Yoxsa vəsinin işləri barəsində fikir bildirməlidir və vəsi onun nəzəri əsasında işləri görməlidir? Bu halda, nəzarətçi şəxsin hansı səlahiyyətləri vardır?**

**Cavab: Vəsiyyətin qeyd-şərtsiz olduğunu nəzərə alaraq, vəsinin öz işləri barəsində nəzarətçi şəxs ilə məsləhətləşməsi vacib deyildir, baxmayaraq ki, onunla məsləhətləşməsi əhvətə müvafiqdir. Nəzarətçi şəxsin vəzifəsi, yalnız vəsinin işlərinə nəzarət etməkdir.**

**Sual 1847:** **Bir şəxs böyük oğlunu özünə vəsi, məni də ona nəzarətçi təyin etmişdir. Bu şəxs dünyasını dəyişir, ardınca da oğlu dünyasını dəyişir. Mən bu şəxsin vəsiyyətinin yerinə yetirilməsində məsuliyyət daşıyan tək şəxsəm. Amma indiki durumuma görə onun vəsiyyət etdiyi işləri yerinə yetirmək mənim üçün çətindir. Görəsən, vəsiyyəti dəyişdirmək və irsin üçdə birindən əldə edilən gəlirləri xeyriyyə işlərinə sərf etməsi, himayəsində olan ehtiyaclı fərdlərə xərcləməsi üçün səhiyyə idarəsinə vermək olarmı?**

**Cavab: Nəzarətçi şəxs mərhumun vəsiyyətlərini - hətta vəsi dünyasını dəyişsə belə - müstəqil şəkildə yerinə yetirə bilməz. Amma əgər vəsiyyət edən şəxs vəsi dünyasını dəyişdiyi təqdirdə nəzarətçini vəsi təyin etdiyini qeyd edərsə, bu hal istisnadır. Əks təqdirdə, vəsi dünyasını dəyişdikdən sonra nəzarətçi şəxs şəri-hakimə müraciət etməlidir ki, şəri-hakim vəsinin yerinə başqa bir şəxsi təyin etsin. Hər bir halda, mərhumun vəsiyyətini dəyişdirməyə icazə verilmir.**

**Sual 1848:** **Əgər bir şəxs əmlakının müəyyən hissəsinin Nəcəfdə Quran tilavətinə sərf edilməsini vəsiyyət etsə, yaxud bu iş üçün müəyyən miqdar malı vəqf etsə, amma vəsiyə və ya vəqf qəyyumuna Quran tilavətinə əcir tutmaqdan ötrü bu pulu Nəcəfə göndərmək mümkün olmazsa, onun bu barədə vəzifəsi nədir?**

**Cavab: Əgər bu pulu Nəcəfdə Quran tilavətinə – hətta gələcəkdə olsa belə - sərf etmək mümkün olarsa, vəsiyyətə əməl etmək vacibdir.**

**Sual 1849:** **Anam dünyasını dəyişməmişdən qabaq vəsiyyət etdi ki, onun qızıllarını cümə gecələri xeyriyyə işlərinə xərcləyim. İndiyə qədər mən onun vəsiyyətini yerinə yetirmişəm. Amma əhalisinin böyük ehtimalla müsəlman olmadığı xarici ölkələrə səfər etdiyim zaman mənim vəzifəm nədir?**

**Cavab: Ananızın bu malın hər kəsə - istər müsəlmanlara, istərsə də qeyri-müsəlmanlara – xərclənməsini nəzərdə tutduğu dəqiqləşməyənədək, bu malın ancaq müsəlmanlara aid xeyriyyə işlərinə sərf edilməsi vacibdir. Hətta bu malı müsəlman ölkəsində etibarlı bir şəxsə vermək olar ki, onu müsəlmanlara xərcləsin.**

**Sual 1850:** **Bir şəxs vəsiyyət etmişdir ki, onun torpaq sahələrinin bir hissəsi satılıb, pulu əzadarlıq məclislərinə və xeyriyyə işlərinə xərclənsin. Amma bu torpaq sahəsinin varislərdən qeyrisinə satılması varislər üçün çətinliklərin yaranmasına səbəb olacaqdır, çünki bu torpaq sahəsini digər torpaq sahələrindən ayırmaq böyük çətinliklər yaradacaqdır. Varislər bu torpaq sahəsini özləri üçün kredit şəklində ala bilərlərmi? Belə ki, hər il pulun bir hissəsini ödəsinlər və vəsinin və nəzarətçi şəxsin nəzarəti altında vəsiyyət edilən işə sərf edilsin?**

**Cavab: Varislərin bu torpaq sahəsini özləri üçün almalarının maneəsi yoxdur. Həmçinin vəsiyyət edən şəxsin bu torpaq sahəsinin nağd satılmasını və pulun elə birinci il vəsiyyət edilən işə sərf edilməsini nəzərdə tutduğu dəqiqləşməyənədək, bu torpaq sahəsini kredit şəklində ədalətli qiymətə almalarının da maneəsi yoxdur. Bu şərtlə ki, vəsi və nəzarətçi şəxs bu işi məsləhətə uyğun görməlidirlər. Kreditlər də elə bir şəkildə olmalıdır ki, vəsiyyətə qarşı səhlənkarlıq göstərilməsi və onun yerinə yetirilməməsi ilə nəticələnməməlidir.**

**Sual 1851:** Ölümlə nəticələnən bir xəstəliyə tutulan şəxs iki şəxsə - vəsi və vəsinin naibi ünvanında vəsiyyət edir. Amma sonra fikrindən dönür və vəsiyyətini ləğv edir, bu barədə vəsiyə və vəsinin naibinə də məlumat verir. O, başqa bir vəsiyyətnamə yazır və onun yanında olmayan qohumlarından birini özünə vəsi təyin edir. Birinci vəsiyyət ləğv edildikdən və dəyişdirildikdən sonra yenə də etibarlı sayılırmı? Əgər ikinci vəsiyyət düzgündürsə və qayib olan şəxs vəsidirsə, vəsilikdən kənarlaşdırılan birinci vəsi və onun naibi mərhumun ləğv etdiyi vəsiyyətə əsaslanıb onu yerinə yetirdikləri təqdirdə onların maldan istifadəsi qəsbkarlıq sayılırmı və maldan xərclədiklərini ikinci vəsiyə qaytarmalıdırlarmı?

**Cavab: Əgər vəsiyyət edən şəxs sağ ikən birinci vəsiyyətini ləğv etsə və birinci vəsini kənarlaşdırsa, vəsilikdən kənarlaşdırıldığını bildikdən sonra onun həmin vəsiyyətə əsaslanmağa və əməl etməyə haqqı yoxdur. Vəsiyyət edilən maldan istifadə etməsi "füzuli"dir və vəsinin icazəsinə bağlıdır. Beləliklə, əgər vəsi buna icazə verməzsə, kənarlaşdırılmış vəsi istifadə etdiyi mala zamindir.**

**Sual 1852:** Bir şəxs vəsiyyət etmişdir ki, onun mülklərindən biri övladlarından birinə verilsin. Amma iki ildən sonra vəsiyyətini bütünlüklə dəyişmişdir. Bu şəxsin öz vəsiyyətini dəyişdirməsi şəriət baxımından düzgündürmü? Əgər bu şəxs xəstədirsə və qulluq və qayğıya ehtiyacı vardırsa, bu işi görmək yalnız onun vəsisinin, yəni böyük oğlunun üzərinə düşürmü? Yoxsa onun bütün övladları bu barədə bərabər şəkildə məsuliyyət daşıyırlar?

**Cavab: Vəsiyyət edən şəxs həyatda olduğu və ağıl sağlamlığına malik olduğu halda vəsiyyətini dəyişdirməsinin şəriət baxımından maneəsi yoxdur. Şəriət baxımından düzgün və etirbarlı sayılan vəsiyyət, sonrakı vəsiyyətdir. Əgər xəstə şəxs öz pulu ilə özünə qulluqçu tutmaq iqtidarında deyildirsə, atalarına qulluq etmək imkanına malik olan övladlar ona qulluq etməkdə bərabər şəkildə məsuliyyət daşıyırlar. Bu barədə vəsi təklikdə məsuliyyət daşımır.**

**Sual 1853:** Bir ata əmlakının üçdə birini özünə vəsiyyət etmiş və məni özünə vəsi təyin etmişdir. İrs bölüşdürülərkən onun üçdə biri kənara qoyuldu. Onun vəsiyyətini yerinə yetirmək üçün kənara qoyulan bu maldan müəyyən qədərini sata bilərəmmi?

**Cavab: Əgər əmlakının üçdə birini onun vəsiyyətinin yerinə yetirilməsinə sərf edilməsini vəsiyyət edibdirsə, irsin üçdə birini irsdən ayırdıqdan sonra onu satmağın və vəsiyyətnamədə qeyd edilən işlərə sərf etməyin maneəsi yoxdur. Amma əgər irsin üçdə birinin gəlirlərini onun vəsiyyətinin yerinə yetirilməsinə sərf edilməsini vəsiyyət edibdirsə, bu halda həmin malın özünü satmağa icazə verilmir; hətta vəsiyyət edilən işlərin yerinə yetirilməsinə sərf edilməsi üçün olsa belə.**

**Sual 1854:** Əgər vəsiyyət edən şəxs vəsini və vəsiyə nəzarət edən şəxsi təyin etsə, amma onların vəzifə və səlahiyyətlərini qeyd etməsə, həmçinin əmlakının üçdə birindən istifadə edilməsini qeyd etməsə, bu halda vəsinin vəzifəsi nədir? O, vəsiyyət edən şəxsin irsinin üçdə birini ayıra və xeyriyyə işlərinə sərf edə bilərmi? Vəsiyyət etmək və vəsi təyin etmək irsin üçdə birinin vəsiyyət edən şəxsin özünə sərf edilməsi haqqını qazanmasına kifayət edirmi? Beləliklə də, irsin üçdə birini ayırmaq və onu vəsiyyət edən şəxsə sərf etmək vəsiyə vacib olurmu?

**Cavab: Əgər əlamətlər və dəlillər, yaxud məntəqənin xüsusi ürfü vasitəsilə vəsiyyət edən şəxsin nəyi nəzərdə tutduğu başa düşülərsə, bu halda vəsi vəsiyyətin nədən ibarət olduğuna və vəsiyyət edən şəxsin nəyi nəzərdə tutduğuna dair bu yolla əldə etdiyi qənaətinə əməl etməlidir. Bundan qeyri halda, nəyin vəsiyyət edildiyi qaranlıq qaldığı və qeyd edilmədiyi üçün vəsiyyət etibarsızdır.**

**Sual 1855:** Bir şəxs belə vəsiyyət etmişdir: "Bütün tikilmiş və tikilməmiş parçalar və bundan qeyri şeylər həyat yoldaşıma

**çatsın". Vəsiyyətdə qeyd edilən "bundan qeyri şeylər" ifadəsində mərhumun daşınan əmlakı nəzərdə tutulurmu? Yoxsa parça və paltardan dəyəri az olan əşyalar, məsələn, ayaqqabı və bu kimi əşyalar nəzərdə tutulur?**

**Cavab: Vəsiyyətdə qeyd edilən "bundan qeyri şeylər" ifadəsində nəyin nəzərdə tutulduğu məlum olmayanadək və vəsiyyət edən şəxsin bu ifadədə nəyi nəzərdə tutduğu kənar amillər vasitəsilə başa düşülməyənədək, vəsiyyətdəki bu ifadə qaranlıq qaldığına görə icra edilməyə qabil deyildir. Bu ifadəni sualda qeyd edilən ehtimallardan birinə tətbiq etmək varislərin razılığına bağlıdır.**

**Sual 1856: Bir qadın vəsiyyət edir ki, irsinin üçdə biri ilə onun üçün səkkiz il qəza namazı qılınsın, qalan məbləğ də rəddi-məzalimə, xümsə və xeyriyyə işlərinə sərf edilsin. Amma bu vəsiyyətin yerinə yetirilməsi müqəddəs müdafiə illərinə təsadüf edir ki, bu illərdə cəbhəyə yardım göstərmək daha zəruri idi. Vəsi də əmin idi ki, bu qadının boynunda hətta bir qəza namazı belə yoxdur. Bununla belə, o, bir şəxsi əcir tutur və qadın üçün iki il qəza namazı qıldırır. İrsin üçdə birinin müəyyən hissəsini isə cəbhəyə yardım göstərir, qalan məbləği də xümsün və rəddi-məzalimin ödənilməsinə sərf edir. Vəsiyyətə əməl etmək baxımından vəsinin öhdəsində bir vəzifə qalmışdırmı?**

**Cavab: Vəsiyyətə olduğu kimi əməl etmək vacibdir, yəni mərhum necə vəsiyyət edibdirsə, elə də əməl olunmalıdır. Vəsi vəsiyyəti, hətta vəsiyyət edilən işlərin bəzisini tərk edə bilməz. Buna görə də, əgər bu malın müəyyən hissəsini vəsiyyət edilən işlərdən qeyri bir işə sərf edibdirsə, həmin mala zamindir.**

**Sual 1857: Bir şəxs iki nəfərə vəsiyyət edir ki, ölümündən sonra vəsiyyətnamədə qeyd edilənləri yerinə yetirsinlər. Vəsiyyətnamənin üçüncü bəndində qeyd edilmişdir ki, bütün irs – mərhumun daşınan və daşınmaz əmlakı, nağd pulu və camaatdan alacaqları – bir yerə yığılsın və onun borcu verilsin, sonra irsin üçdə biri ayrılsın və vəsiyyətnamənin dördüncü, beşinci və altıncı bənlərinə müvafiq şəkildə xərclənsin. On yeddi il keçdikdən sonra isə irsin üçdə birindən artıq qalan məbləğ yoxsul varislərə xərclənsin. Amma bu iki vəsi bu şəxsin vəfat etdiyi vaxtdan sözükeçən müddət başa çatanadək irsin üçdə birini ayırmağa müvəffəq ola bilməmişlər və vəsiyyətnamədə qeyd edilən bəndlərə əməl etmək onlar üçün mümkün olmamışdır. Varislər də iddia edirlər ki, vəsiyyətnamə sözükeçən müddət başa çatdıqdan sonra öz etibarını itirir və bu iki vəsinin mərhumun irsinə müdaxilə etmək haqqı yoxdur. Bu məsələnin hökmü nədir? Bu iki vəsinin vəzifəsi nədir?**

**Cavab: Vəsiyyət və vəsilik, vəsiyyətin icrasının gecikdirilməsi səbəbilə öz etibarını itirmir. Əksinə, bu iki vəsiyə vəsiyyətə əməl etmək - hətta bu iş uzun müddət çəksə belə - vacibdir. Əgər onların vəsiliyi üçün müəyyən bir müddət təyin edilməyibdirsə, vəsiyyətin icrasında varislərin onlara mane olmaq haqları yoxdur.**

**Sual 1858: Mərhumun irsi varislər arasında bölüşdürüldükdən və mülkiyyət sənədi onların adına keçdikdən altı il sonra varislərdən biri iddia edir ki, mərhum şifahi şəkildə ona vəsiyyət etmişdir ki, evin bir hissəsi onun oğullarından birinə verilsin. Bir neçə qadın da bu məsələyə şahidlik edirlər. Sözükeçən müddət keçdikdən sonra onun iddiası qəbul edilirmi?**

**Cavab: Zamanın keçməsi və irsin bölüşdürülməsinin qanuni mərhələlərinin başa çatması vəsiyyətin icrası üçün maneə hesab olunmur, bu şərtlə ki, qaldırılan iddia şəri dəlillə sübuta yetməlidir. Beləliklə, əgər iddiaçı şəxs öz iddiasını şəri dəlillə sübuta yetirərsə, bütün varislərə ona müvafiq əməl etmək vacibdir. Bundan qeyri halda, hər kim onun iddiasının düzgünlüyünü etiraf edirsə, bu iddiaya müvafiq əməl etməlidir və irsdən olan payı qədər onu yerinə yetirməlidir.**

**Sual 1859: Bir şəxs iki nəfərə vəsiyyət etmişdir ki, onun torpaq sahələrindən birini satıb onun tərəfindən həcc ziyarətini yerinə yetirsinlər. Bu şəxs öz vəsiyyətnaməsində bu iki nəfərdən birini vəsi, digərini isə ona nəzarətçi təyin etmişdir. Amma üçüncü bir şəxs iddia edir ki, o, vəsidən və nəzarətçi şəxsdən icazə almadan mərhumun tərəfindən həcc ziyarətini yerinə yetirmişdir. Hal-hazırda vəsi dünyasını dəyişmişdir və təkcə nəzarətçi şəxs həyatdadır. Nəzarətçi şəxs o torpaq sahəsinin pulu ilə mərhumun tərəfindən**

**yenidən həcc ziyarətini yerinə yetirməlidirmi? Yoxsa torpaq sahəsinin pulunu mərhumun tərəfindən həcc ziyarətini yerinə yetirdiyini iddia edən şəxsə ücrət ünvanında verməlidir? Yoxsa bu xüsusda onun öhdəsinə heç nə düşmür?**

**Cavab: Əgər mərhumun boynunda həcc ziyarəti vardırsa və onun tərəfindən həcc ziyarətinin yerinə yetirilməsini vəsiyyət edərək borcdan çıxmaq istəmişdirsə, sözükeçən üçüncü şəxs də mərhumun tərəfindən həcc ziyarətini yerinə yetiribdirsə, bu, onun üçün kifayət edir. Amma sözükeçən üçüncü şəxsin kimsədən ücrət tələb etməyə haqqı yoxdur. Bundan qeyri halda, vəsi və nəzarətçi şəxs mərhumun vəsiyyətinə əməl etməli və torpaq sahəsinin pulu ilə onun tərəfindən həcc ziyarətini yerinə yetirməlidirlər. Əgər vəsi vəsiyyətə əməl etməmiş dünyasını dəyişərsə, nəzarətçi şəxs vəsiyyətə əməl etmək üçün şəri-hakimə müraciət etməlidir.**

**Sual 1860: Varislər vəsini vadar edə bilərlərmi ki, mərhum tərəfindən namaz və orucun qəzasının yerinə yetirilməsi üçün müəyyən məbləğ pul versin? Vəsinin bu barədə vəzifəsi nədir?**

**Cavab: Mərhumun vəsiyyətlərinə əməl etmək vəsinin vəzifəsidir və bu iş onun öhdəsindədir. O özünün məsləhət gördüyü kimi vəsiyyətə əməl etməlidir. Varislərin bu işə müdaxilə etmək haqları yoxdur.**

**Sual 1861: Neft anbarları bombardman edilərkən şəxs şəhid olur və vəsiyyətnaməsi onun üstündə olur. Buna görə də, vəsiyyətnamə həmin hadisədə yanır, yaxud itir və kimsə onun məzmunundan xəbərdar deyildir. Hal-hazırda bu şəxsin vəsisi bilmir ki, vəsi təkcə onun özüdür, yoxsa başqa bir vəsi də vardır? Onun vəzifəsi nədir?**

**Cavab: Vəsiyyətin mövcud olduğu sübuta yetdikdən sonra o, vəsiyyətdə dəyişdirilmədiyinə əmin olduğu işlərə əməl etməlidir. Başqa bir vəsinin olması ehtimalına etina etməməlidir.**

**Sual 1862: İnsan öz varislərindən qeyri bir şəxsi özünə vəsi seçə bilərmi? Onun bu işinə qarşı çıxmağa kiminsə haqqı vardırmı?**

**Cavab: Vəsiliyə layiq bildiyi şəxslər arasından özünə vəsi seçmək insanın öz rəyinə bağlıdır. İnsanın öz varislərindən qeyri bir şəxsi özünə vəsi seçməsinin maneəsi yoxdur və varislərin ona etiraz etmək haqları yoxdur.**

**Sual 1863: Varislərdən bəziləri digər varislərlə məsləhətləşmədən, yaxud vəsidən razılıq almadan mərhumun əmlakından qonaqlıq ünvanında onun üçün xərcləyə bilərlərmi?**

**Cavab: Əgər bu işi görməkdə onların məqsədi vəsiyyətə əməl etməkdirsə, bu işi görmək vəsinin öhdəsindədir və vəsinin razılığı olmadan, onların özbaşına bu işi görmək haqları yoxdur. Yox əgər onların məqsədi mərhumun irsindən varislərə düşən payın hesabından xərcləməkdirsə, bu işi görmək digər varislərin icazəsinə bağlıdır. Əgər digər varislər razı olmasalar, onların payı nisbətində bu iş qəsb hökmünü daşıyır.**

**Sual 1864: Bir şəxs vəsiyyətnaməsində qeyd etmişdir ki, filankəs onun birinci vəsisi, Zeyd onun ikinci vəsisi və Əmr onun üçüncü vəsisidir. Bu üç nəfər birlikdə onun vəsisidir, yoxsa təkcə birinci şəxs onun vəsisidir?**

**Cavab: Bu məsələ vəsiyyət edən şəxsin nəzərinə bağlıdır. Belə ki, bu üç nəfərin birlikdə, yoxsa ardıcıllıqla vəsi olmalarını nəzərdə tutduğu mövcud dəlillər və əlamətlərdən əldə edilməyənədək, bu üç nəfər vəsiyyətə birlikdə əməl etmək barəsində razılığa gəlməlidirlər.**

**Sual 1865: Əgər bir şəxs üç nəfəri birlikdə özünə vəsi təyin etsə, amma onlar vəsiyyətə əməl etməyin üslubu barəsində razılığa**

gəlməsələr, onlar arasındakı ixtilaf necə aradan qaldırılmalıdır?

**Cavab: Bir neçə nəfər vəsi olduğu halda, əgər vəsiyyətə əməl etməyin üslubu barəsində onlar arasında ixtilaf yaranarsa, şəri-hakimə müraciət etməlidirlər.**

**Sual 1866:** Mən atamın böyük oğluyam və şəriətə görə, atamın qəza namaz və oruclarını yerinə yetirməliyəm. Əgər atamın boynunda bir neçə il qəza namazı və orucu olarsa, amma o, onun üçün təkcə bir il qəza namazı və orucu yerinə yetirilməsini vəsiyyət edərsə, mənim vəzifəm nədir?

**Cavab: Əgər mərhum vəsiyyət etsə ki, onun qəza namaz və orucları irsinin üçdə biri ilə yerinə yetirilsin, irsin üçdə biri ilə bu işi görmək üçün bir şəxsi əcir tutmaq olar. Əgər onun boynunda vəsiyyət etdiyindən daha çox qəza namazı və orucu olarsa, bunları yerinə yetirmək sizə vacibdir və bu iş üçün siz öz malınızla bir şəxsi əcir də tuta bilərsiniz.**

**Sual 1867:** Bir şəxs böyük oğluna vəsiyyət etmişdir ki, onun torpaq sahələrindən müəyyən birini satsın və əldə edilən pul ilə onun tərəfindən həcc ziyarətini yerinə yetirsin. Böyük oğlu da atası üçün bu işi görəcəyini öhdəsinə götürmüşdür. Amma "Həcc və Ziyarətlər İdarəsi"ndən həcc ziyarətinə vaxtında icazə ala bilmədiyinə görə ziyarət xərcləri artmışdır. Belə ki, bu torpaq sahəsinin pulu həcc ziyarətini yerinə yetirmək üçün daha kifayət etmir. Buna görə də, böyük oğulun şəxsən özünün həcc ziyarətinə getməsi qeyri-mümkün olmuşdur və o da, atasının tərəfindən həcc ziyarətini yerinə yetirməsi üçün naib tutmaq məcburiyyətində qalmışdır. Amma torpaq sahəsinin satışından əldə edilən pul naiblik ücrəti üçün də kifayət etmir. Atanın vəsiyyətinə əməl etməkdə digər varislərin böyük oğul ilə həmkarlıq etmələri vacibdirmi? Yoxsa bu işi yerinə yetirmək təkcə böyük oğulun vəzifəsidir? Çünki atasının tərəfindən həcc ziyarətini o yerinə yetirməli idi?

**Cavab: Sualda deyilənləri nəzərə alaraq, həcc ziyarətinin xərclərindən hansısa məbləği ödəmək digər varislərə vacib deyildir. Amma əgər vəsiyyət edən şəxsin boynunda həcc ziyarəti vardırsa və onun tərəfindən həcc ziyarətinin yerinə yetirilməsi üçün müəyyən etdiyi torpaq sahəsinin pulu "niyabəti həcc"in xərcləri üçün – hətta "miqat"dan olsa belə - kifayət etmirsə, "miqati həcc"in xərcləri irsin özündən müəyyən məbləğ götürülərək tamamlanmalıdır.**

**Sual 1868:** Əgər "şəri haqlar" (xüms, zəkat və s.) ünvanında mərhumun müəyyən məbləğ pul ödədiyini göstərən qəbz mövcuddursa, yaxud bir neçə şəxs mərhumun hər zaman şəri haqları ödədiyinə şahidlik edirlərsə, mərhumun şəri haqlarını irsdən ödəmək varislərə vacibdirmi?

**Cavab: "Şəri haqlar" ünvanında mərhumun müəyyən məbləğ pul ödədiyini göstərən qəbzin mövcudluğu, yaxud mərhumun hər zaman şəri haqları ödədiyinə şahidlərin şahidlik etmələri onun bu haqları ödəyib borcdan çıxdığına, həmçinin onun malına şəri haqların aid olmadığına dair şəri dəlil hesab olunmur. Beləliklə, əgər o, həyatda ikən və ya öz vəsiyyətnaməsində şəri haqlar ünvanında müəyyən məbləğ borclu olduğunu və ya onun əmlakında müəyyən məbləğ şəri haqların olduğunu etiraf edibdirsə, yaxud da varislər buna əmindirlərsə, mərhumun iqrar etdiyi məbləği və ya özlərinin əmin olduqları məbləği mərhumun irsindən ödəmələri varislərə vacibdir. Bundan qeyri halda, varislərə heç nə vacib olmur.**

**Sual 1869:** Bir şəxs irsinin üçdə birini özünə vəsiyyət etmiş və vəsiyyətnaməsinin haşiyəsində qeyd etmişdir ki, bağda olan ev irsin üçdə birini təmin etməyə sərf edilsin. Dünyasını dəyişdikdən iyirmi il sonra vəsi bu evi satsın və əldə edilən pulu onun üçün sərf etsin. İrsin üçdə biri irsin hamısından – ev və digər mal-mülk də daxil olmaqla – hesablanmalıdırmı? Belə ki, əgər evin qiyməti irsin üçdə birindən az olarsa, mərhumun digər mal-mülkündən götürülərək tamamlanmalıdırmı? Yoxsa irsin üçdə biri elə evin özüdür və irsin üçdə biri ünvanında digər mal-mülk varislərdən alınmayacaqdır?

**Cavab: Əgər bu şəxs vəsiyyət etməklə və ya vəsiyyətnaməsinin hasiyəşində qeyd etməklə təkcə sözügedən evi irsin üçdə biri ünvanında özü üçün təyin etmək istəyibdirsə və mərhumun bocları irsdən ödənildikdən sonra bu evin qiyməti irsin üçdə birindən çox deyildirsə, bu halda təkcə bu ev irsin üçdə biridir və mərhuma aiddir. Eləcə də, əgər irsin üçdə birini özünə vəsiyyət etdikdən sonra onun məqsədi irsin üçdə birini təmin etmək üçün sözügedən evi təyin etmək olubdursa və onun borcları ödənildikdən sonra bu evin qiyməti irsin üçdə biri qədər olarsa, hökm eynidir. Bundan qeyri halda, irsin üçdə birinin tamamlanması üçün irsin müəyyən hissəsi evə əlavə olunmalıdır.**

**Sual 1870:** **İrsin bölüşdürülməsindən iyirmi il, mərhumun qızının isə öz irs payını satmasından dörd il keçdikdən sonra ana bir vəsiyyətnamə ortaya çıxarır ki, bu vəsiyyətnaməyə əsasən ərin bütün əmlakı onun həyat yoldaşına aid imiş. Ana həmçinin etitaf edir ki, bu vəsiyyətnamə əri öldüyü vaxtdan onda imiş, amma indiyədək bu barədə heç kimə heç nə deməyibdir. Belə bir vəsiyyətnamə ortaya çıxdığına görə irsin bölüşdürülməsinin və mərhumun qızının öz irs payını satmasının düzgün olmadığına hökm verilirmi? Əgər buna hökm verilirsə, qız ilə ana arasında olan ixtilafa görə alıcının qızdan aldığı rəsmi mülkiyyət sənədinin ləğv olunması düzgündürmü?**

**Cavab: Sözügedən vəsiyyət düzgün olsa və mötəbər dəlillə sübuta yetsə belə, nəzərə alsaq ki, əri vəfat etdiyi vaxtdan irs bölüşdürüldüyü vaxtadək ana bu vəsiyyətdən xəbərdar imiş və qızına irsdən pay verildikdə, həmçinin qızı bu payı başqasına satdıqda vəsiyyətnamə ananın əlində imiş, lakin eyni zamanda vəsiyyət barəsində sükut etmiş və vəsiyyətnaməni üzə çıxara bildiyi bir halda qızına irsdən pay verilərkən etiraz etməmişdir, həmçinin qızı öz irs payını satdıqda buna etiraz etməmişdir, elə isə, bütün bunlar ananın qızına irsdən pay çatmasına və qızının öz payını başqasına satmasına razı olması hesab olunur. Bundan sonra ananın irsdən qızına verdiyi payı tələb etməyə haqqı yoxdur. Həmçinin alıcıdan nəyisə tələb etməyə haqqı yoxdur. Qızının etdiyi alğı-satqı düzgündür və satılan mal da alıcının əmlakıdır.**

**Sual 1871:** **Bir şəhid öz atasına vəsiyyət etmişdir ki, əgər onun evini satmadan onun borclarını qaytara bilməyəcəkdirsə, evi satsın və əldə edilən pul ilə onun borclarını qaytarsın. Həmçinin vəsiyyət etmişdir ki, pulun müəyyən məbləği xeyriyyə işlərinə xərclənsin, torpağın pulu dayısına verilsin, anası həcc ziyarətinə göndərilsin, onun tərəfindən bir neçə il qəza namazı və orucu yerinə yetirilsin. Sonra şəhidin qardaşı şəhidin həyat yoldaşı ilə izdivac edir. Sözügedən evin bir hissəsini şəhidin həyat yoldaşının aldığını bildiyi halda onun evində məskunlaşır. O, evin təmiri üçün müəyyən məbləğ xərc çəkir və bir qızıl sikkə də evin təmirinə sərf etmək üçün şəhidin övladından alır. Şəhidin qardaşının şəhidin evindən və övladının əmlakından istifadə etməsinin hökmü nədir? Şəhidin övladını böyütdüyünü və onun dolanışıq xərclərini çəkdiyini nəzərə alaraq, şəhid övladına verilən aylıq müavinətdən istifadə etməsinin hökmü nədir?**

**Cavab: Şəhidin bütün əmlakı hesablanmalı və onun bütün maddi borcları bu əmlakdan verildikdən sonra qalan əmlakın üçdə biri onun vəsiyyətlərinin icrası üçün – məsələn, onun tərəfindən qəza namazı və orucu yerinə yetirilməsi, anaya həcc ziyarəti xərclərinin verilməsi və s. – sərf edilməlidir. Sonra irsin üçdə ikisi, eləcə də, irsin üçdə birindən artıq qalan məbləğ şəhidin varisləri arasında – yəni atası, anası, övladı və həyat yoldaşı arasında – Kitab və sünnəyə əsasən bölüşdürülməlidir. Şəhidin əmlakından, o cümlədən, evindən və əşyalarından yalnız varislərin və azyaşlı uşağın şəri başçısının icazəsi ilə istifadə etmək olar. Azyaşlı uşağın şəri başçısından icazə almadan şəhidin qardaşının evdə apardığı təmir işlərinin xərcini uşağın əmlakından götürməyə haqqı yoxdur. Həmçinin şəhid övladının**

**əmlakı olan qızıl sikkəni və ona verilən aylıq müavinəti evin təmirinə və öz xərclərinə sərf edə bilməz. Hətta uşağın şəri başçısının icazəsi olmadan bunları uşağın özünə belə xərcləyə bilməz. Əgər xərcləyərsə, bu mala zamindir və onu uşağa qaytarmalıdır. Evin alınması da varislərin və azyaşlı uşağın şəri başçısının icazəsi ilə olmalıdır.**

**Sual 1872:** **Bir şəxs vəsiyyətnaməsində belə qeyd etmişdir: "Onun bütün əmlakı – üç hektar olan meyvə bağları bu şəkildə müsalihə edilmişdir (razılaşdırılmışdır) ki, bağın iki hektarı o, vəfat edikdən sonra övladlarından bir neçəsinə verilsin, üçüncü hektar isə onun vəsiyyətlərinin yerinə yetirilməsinə sərf edilsin". Amma bu şəxs vəfat etdikdən sora məlum oldu ki, onun bağlarının ümumi sahəsi iki hektardan azdır. Birinci sual budur ki, vəsiyyətnaməsində qeyd etdiyi məsələ onun istədiyi şəkildə malın müsalihə edilməsidirmi, yoxsa vəfat etdikdən sonra əmlakı barəsində etdiyi vəsiyyətdir? İkinci sual budur ki, onun bağlarının ümumi sahəsinin iki hektardan az olduğu məlum olduqdan sonra bağın hamısı onun övladlarına aid olacaqdırmı və özünə aid etdiyi bir hektar məsələsi ortadan qalxacaqdırmı? Yoxsa başqa bir şəkildə əməl olunmalıdır?**

**Cavab: Bu şəxs həyatda ikən onun tərəfindən müsalihənin düzgün şəri şəkildə həyata keçdiyi – yəni müsalihə edən şəxs tərəfindən malın verilməsi və müsalihə edilən şəxs tərəfindən malın təhvil alınması – dəqiqləşməyənədək, onun qeyd etdikləri vəsiyyət olaraq qəbul edilir. Beləliklə, meyvə bağlarının övladlarından bir neçəsinə və özünə aid olması barəsində etdiyi vəsiyyət, irsin üçdə biri barəsində keçərlidir. İrsin üçdə ikisi barəsində varislərin icazəsinə bağlıdır. Varislər icazə vermədikləri təqdirdə irsin üçdə ikisi onlara çatır.**

**Sual 1873:** **Bir şəxs bütün əmlakını oğlunun adına keçirmişdir. Bu şərtlə ki, ata vəfat etdikdən sonra oğul irs payı əvəzinə müəyyən məbləğ nağd pul bacılarının hər birinə verməlidir. Amma ata vəfat etdiyi vaxt bacılardan biri həmin şəhərdə olmadığına görə haqqını ala bilmir. Həmin şəhərə qayıtdıqda isə, öz haqqını qardaşından istəyir. Amma qardaşı ona heç nə vermir. Hal-hazırda bu hadisədən bir neçə il keçdiyi və pulun dəyəri olduqca aşağı düşdüyü bir vaxtda qardaşı həmin pulu ona verə biləcəyini bildirir. Bacı isə bu pulu o vaxtkı dəyəri nisbətində istəyir, qardaş da bu məbləği verməkdən imtina edərək bacını sələm tələb etməkdə ittiham edir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər atanın bütün əmlakının oğula verilməsi və qız övladlarına müəyyən məbləğ pulun verilməsini vəsiyyət etməsi düzgün şəri qaydada həyata keçibdirsə, bacıların yalnız vəsiyyət edilən pulu almaq haqları vardır. Amma əgər pulun dəyəri pulun verildiyi vaxt ilə atanın vəfat etdiyi vaxtla müqayisədə aşağı düşübdürsə, pulun dəyərinin fərqi də hesablanmalıdır. Bu isə, sələm hökmündə deyildir.**

**Sual 1874:** **Atam və anam həyatda ikən övladlarının qarşısında bir əkin sahəsini əmlaklarının üçdə biri ünvnında təyin etdilər ki, vəfat etdikdən sonra onların kəfən-dəfn işlərinə, qəza namaz və orucun yerinə yetirilməsinə və bu kimi başqa işlərə sərf edilsin. Bu barədə mənə - ailənin tək oğluna vəsiyyət etdilər. Nəzərə alsaq ki, onlar vəfat edəndə nağd pulları yox idi və bu işlərin xərcini mən öz pulumla ödəmişəm, xərclədiyim məbləği irsin üçdə birindən götürə bilərəmmi?**

**Cavab: Əgər məqsədiniz mərhumun vəsiyyətini yerinə yetirmək və sonra xərclədiyiniz pulu irsin üçdə birindən götürmək olubdursa, xərclədiyiniz pulu mərhumun irsinin üçdə birindən götürə bilərsiniz. Bundan qeyri halda, icazə verilmir.**

**Sual 1875:** **Bir kişi vəsiyyət etmişdir ki, əgər o, vəfat etdikdən sonra onun həyat yoldaşı izdivac etməzsə, yaşadığı evin üçdə biri ona verilsin. Nəzərə alsaq ki, vəfat iddəsi başa çatdıqdan sonra qadın izdivac etməmişdir və gələcəkdə izdivac etmək fikrində olduğuna dəlalət edən bir nişanə mövcud deyildir, mərhumun vəsiyyətinə əməl etmək barəsində vəsinin və digər varislərin vəzifəsi nədir?**

**Cavab: Onlar vəsiyyət edilən mülkü hal-hazırda qadına verməlidirilər, amma bu mülk**

**qadının izdivac etməyəcəyi şərtilə ona verilir. Beləliklə, əgər qadın bundan sonra izdivac edərsə, varislərin mülkü geri almaq haqları vardır.**

**Sual 1876: Atamın irsi ona öz atasından qalmışdır və bu əmlakda biz nənəmiz və əmimiz ilə şərikik, belə ki, onlara da babamızdan irs qalmışdır. Biz bu irsi bölüşdürmək istədikdə, nənəm və əmim babamın yazdığı otuz il öncəyə aid vəsiyyətnaməni göstərdilər. Babam bu vəsiyyətnamədə irsdən nənəmə və əmimə çatan paydan əlavə, onlara müəyyən məbləğdə nağd pul da vəsiyyət etmişdir. Onlar sözügedən məbləği bugünkü dəyəri ilə hesabladılar və nəticədə, vəsiyyət edilən məbləğin bir neçə misli qədər müştərək əmlakdan özlərinə götürdülər. Onların bu işi şəriət baxımından düzgündürmü?**

**Cavab: Suala əsasən, pulun dəyərdən düşməsi və inflyasiya miqdarı hesablanmalıdır.**

**Sual 1877: Bir şəhid vəsiyyət etmişdir ki, evi üçün aldığı xalçanı Kərbəlada İmam Hüseynin (ə) hərəminə hədiyyə etsinlər. Hal-hazırda əgər bu xalçanı evdə saxlamaq istəsək, xalçanın tələf olacağından qorxuruq. Xəsarət və ziyanın qarşısını almaqdan ötrü bu xalçanı məhəllənin məscidində və ya hüseyniyyəsində istifadə edə bilərikmi?**

**Cavab: Əgər vəsiyyətə əməl etmək mümkün olanadək xalçanı qorumaq onu müvəqqəti olaraq məsciddə və ya hüseyniyyədə istifadə etməyə bağlıdırsa, bunun maneəsi yoxdur.**

**Sual 1878: Bir şəxs vəsiyyət etmişdir ki, bir sıra əmlakının gəlirlərindən müəyyən hissəsi məscidə, hüseyniyyəyə, dini məclislərə, xeyriyyə işlərinə və s. sərf edilsin. Amma onun bu və digər əmlakı qəsb edilmişdir və onu qəsbkar şəxsin əlindən azad etmək üçün xərc tələb olunur. Bu xərcləri vəsiyyət edilən mülkdən götürmək olarmı? Mülkü qəsbdən azad etməyin mümkünlüyü, vəsiyyətin düzgün olması üçün kifayət edirmi?**

**Cavab: Əmlakı qəsbkar şəxsin əlindən azad etməyin xərclərini vəsiyyət edilən mülkün gəlirlərindən götürməyin maneəsi yoxdur. Mülk barəsindəki vəsiyyətin düzgünlüyü üçün bu mülkün vəsiyyət edilən yerə istifadə edilməyə qabil olması kifayət edir: hətta onu qəsbkar şəxsin əlindən azad etdikdən sonra olsa belə və bu iş üçün xərc tələb olunsa belə.**

**Sual 1879: Bir şəxs bütün daşınmayan və daşınmaz əmlakını oğluna vəsiyyət etmişdir və bu vəsiyyəti ilə altı qızını irsdən məhrum etmişdir. Bu vəsiyyət keçərlidirmi? Əgər keçərli deyildirsə, bu əmlak altı qız və bir oğul arasında necə bölüşdürüləcəkdir?**

**Cavab: Bu vəsiyyət ümumilikdə düzgündür, amma təkcə irsin üçdə biri barəsində keçərlidir. İrsin qalanı barəsində isə, bütün varislərin icazəsinə bağlıdır. Beləliklə, əgər qızlar buna icazə verməsələr, onların hər biri irsin üçdə ikisindən öz paylarını götürəcəklər. Nəticədə, atanın irsi iyirmi dörd hissəyə ayrılacaqdır və irsin oğula vəsiyyət edilən üçdə bir hissəsi, iyirmi dördün səkkiz hissəsi olacaqdır. İrsin üçdə ikisindən oğula çatan pay, iyirmi dördün dörd hissəsi olacaqdır. Qızların hər birinin payı isə, iyirmi dördün iki hissəsi olacaqdır. Başqa sözlə desək, irsin yarısı oğula aid olacaq və digər yarısı altı qız arasında bölüşdürüləcəkdir.**

[1] Vəsi – vəsiyyəti yerinə yetirməyi öhdəsinə götürən şəxsə deyilir.

[2] Müslə etmək - əzaları kəsməklə insanı eybəcər hala salmaq.

## Qəsb

**Sual 1880:** **Bir şəxs bir torpaq sahəsini azyaşlı övladının adına almış və sövdələşmənin adi sənədini övladının adına bu şəkildə tənzimləmişdir: "Satıcı filankəs, alıcı isə onun filan övladıdır". Onun bu övladı büluğ yaşına çatanda bu torpaq sahəsini başqa bir şəxsə satır. Amma atanın varisləri bu torpaq sahəsinin atadan onlara irs çatdığını iddia edərək torpaq sahəsinə sahiblənirlər, halbuki, sövdələşmənin adi sənədində atanın adı qeyd edilməmişdir. Belə olduğu təqdirdə varislər ikinci alıcı üçün maneəçilik yarada bilərlərmi?**

**Cavab: Alğı-satqı müqaviləsində azyaşlı övladın adının alıcı ünvanında qeyd olunması, onun bu torpaq sahəsinin sahibi olduğuna əsas götürülmür. Buna görə də, əgər atanın bu torpaq sahəsini öz pulu ilə alıb övladına bağışladığı və ya sülh etdiyi sübuta yetsə, bu torpaq sahəsi bu övlada aid olacaqdır. Əgər o, büluğ yaşına çatdıqdan sonra bu torpaq sahəsini düzgün şəri qaydada başqa bir alıcıya satarsa, kimsənin maneəçilik yaratmağa və torpaq sahəsini onun əlindən almağa haqqı yoxdur.**

**Sual 1881:** **Mən bir neçə alıcı və satıcının alıb-satdığı bir torpaq sahəsini aldım və orada ev tikdim. Hal-hazırda isə bir şəxs iddia edir ki, bu torpaq sahəsi onun mülküdür və torpaq sahəsi İslam İnqilabından qabaq onun adına rəsmi şəkildə sənədləşdirilibdir. Buna görə də, bu şəxs məndən və bir neçə qonşumdan məhkəməyə şikayət etmişdir. Onun iddiasını nəzərə alaraq, mənim bu torpaq sahəsindən istifadə etməyim qəsb hesab olunurmu?**

**Cavab: Torpaq sahəsinin əvvəlki istifadəçidən ( ذُو اليَد – zul-yəd) alınması şəriət baxımından zahirən düzgündür və torpaq sahəsi alıcının mülküdür. Beləliklə, öncədən bu torpaq sahəsinin sahibi olduğunu iddia edən şəxs öz şəri sahibliyini məhkəmədə sübuta yerirməyənədək, indiki istifadəçiyə maneəçilik yaratmağa haqqı yoxdur.**

**Sual 1882:** **Bir torpaq sahəsi adi sənəddə atanın adınadır və bir müddətdən sonra rəsmi sənəddə onun azyaşlı övladının adına keçmişdir. Amma bu torpaq sahəsi hələ də atanın ixtiyarındadır. Hal-hazırda büluğ yaşına çatan övlad torpaq sahəsinin rəsmi sənədinin onun adına olduğunu əsas götürərək, bu torpaq sahəsinin onun mülkü olduğunu iddia edir. Amma atası deyir ki, torpaq sahəsini öz pulu ilə özü üçün alıbdır və sadəcə az vergi verməkdən ötrü torpaq sahəsini övladının adına keçirmişdir. Əgər övlad atanın razılığı olmadan bu torpaq sahəsindən istifadə edərsə, qəsbkar hesab olunurmu?**

**Cavab: Əgər ata torpaq sahəsini öz pulu ilə alıbdırsa və övladı büluğ yaşına çatanadək və ondan sonra da bu torpaq sahəsindən istifadə edirsə, övlad atanın bu torpaq sahəsini ona bağışladığını və sahibliyi ona ötürdüyünü sübuta yetirməyənədək, torpaq sahəsinin rəsmi sənədinin onun adına olduğunu əsas götürüb, atasının ondan istifadə etməsinə və sahibliyinə mane olmağa haqqı yoxdur.**

**Sual 1883:** **Bir şəxs əlli il öncə bir torpaq sahəsi almışdır. Mülkiyyət sənədində hündür bir dağın adı bu torpaq sahəsinin hüdudu ünvanında qeyd edilmişdir. Hal-hazırda bu şəxs mülkiyyət sənədində bu dağın adının qeyd edildiyinə əsaslanaraq, milyonlarla kvadrat metr ümumi torpaqların, habelə, alınan torpaq sahəsi ilə bu dağ arasındakı ərazidə tikilən onlarla qədim evin mülkiyyət iddiasını edir. Həmçinin iddia edir ki, həmin ərazinin əhalisinin bu torpaqlarda və evlərdə qıldıqları namaz qəsb səbəbilə düzgün deyildir. Qeyd etməliyik ki, bu şəxs əvvəllər bu torpaqlardan və oradakı qədim evlərdən əsla istifadə etməmişdir. Bu torpaqların yüz illər öncəki durumunu aydınlaşdıran sübut-sənəd də mövcud deyildir. Deyilənləri nəzərə alaraq, məsələnin hökmü nədir?**

**Cavab: Əgər alınan torpaq sahəsi ilə mülkiyyət sənədində qeyd edilən dağ arasındakı ərazi istifadə edilməyən torpaqlar olub müəyyən bir şəxsin mülkiyyətində olmayıbdırsa, yaxud əvvəlki istifadəçilərin ixtiyarında olub indiki istifadəçilərin ixtiyarına onlardan keçibdirsə,**

bu təqdirdə şəriət baxımından hər bir kəs öz ixtiyarında olan və bir ixtiyar sahibi kimi istifadə etdiyi torpaq sahəsinin və ya evin sahibi hesab olunur. Mülkiyyət iddiası edən şəxs öz iddiasını şəri yollarla məhkəmədə sübuta yetirməyənədək, onların bu torpaq sahələrindən istifadə etmələri mübah və halaldır.

**Sual 1884:** **Şəri-hakimin hökmü əsasında müsadirə edilən torpaq sahəsində onun əvvəlki sahibinin razılığı olmadan məscid tikmək olarmı? Bu kimi məscidlərdə namaz qılmaq və digər dini ayinlər təşkil etmək olarmı?**

Cavab: Əgər sözügedən torpaq sahəsi şəri-hakimin hökmü əsasında və ya İslam dövlətinin qüvvədə olan qanunu əsasında onun əvvəlki sahibinin əlindən alınıbdırsa, yaxud torpaq sahəsinin sahibi olduğunu iddia edən şəxsin iddiası sübuta yetməyibdirsə, bu torpaq sahəsindən istifadə etmək mülkiyyət iddiası edən şəxsin və ya onun əvvəlki sahibinin icazəsinə bağlı deyildir. Beləliklə, bu torpaq sahəsində məscid tikməyin və bu məsciddə namaz qılmaq və dini ayinlər təşkil etməyin maneəsi yoxdur.

**Sual 1885:** **Bir torpaq sahəsi nəsildən-nəsilə irs yolu ilə ötürülərək varislərə çatmışdır. Sonra bir qəsbkar şəxs onu qəsb edib öz mülkiyyətinə keçirmişdir. İslam İnqilabı qələbə çaldıqdan və İslam hökuməti qurulduqdan sonra bu torpaq sahəsi qəsbkar şəxsdən geri alınmışdır. Şəri baxımdan bu torpaq sahəsinin mülkiyyəti varislərə çatırmı, yoxsa varislər onu dövlətdən almaqda digərlərindən öndə olmaq haqqına malikdirlər?**

Cavab: Varislərin əvvəllər bu torpaq sahəsindən irs yolu ilə istifadə etmələri, mülkiyyətin onlara aid olmasını və ya bu torpaq sahəsini almaqda digərlərindən öndə olmaq haqqına malik olmalarını zəruri etmir. Amma bunun əksi (yəni mülkiyyətin onlara aid olmadığı) sübuta yetməyənədək, mülkiyyət üçün şəri əlamət hesab olunur. Buna görə də, əgər varislərin bu torpaq sahəsinin sahibi olmadıqları sübuta yetərsə, yaxud başqalarının bu torpaq sahəsinin sahibi olduqları sübuta yetərsə, varislərin bu torpaq sahəsini və ya onun əvəzini tələb etmək haqları yoxdur. Bundan qeyri halda, “zul-yəd” olmaları (yəni irs yolu ilə torpaq sahəsindən istifadə etmələri) səbəbilə torpaq sahəsinin özünü və ya onun əvəzini tələb etmək haqları vardır.

## Həcr[1] və büluğun nişanələri

**Sual 1886:** Atanın bir qızı və büluğa çatmış səfeh bir oğlu var və onlar atanın himayəsindədirlər. Ata dünyasının dəyişdikdən sonra bacı öz səfeh qardaşına başçı ünvanında qardaşının əmlakından istifadə edə bilərmi?

**Cavab: Bacı və qardaş öz səfeh qardaşlarına başçı ola bilməzlər. Əgər onların ata tərəfdən olan babası yoxdursa, yaxud ata səfeh oğluna başçılıq etməyi kimsəyə vəsiyyət etməyibdirsə, səfeh oğula və onun əmlakına başçılıq etmək şəri-hakimin öhdəsindədir.**

**Sual 1887:** Oğlan və qızların büluğ yaşı üçün şəmsi təqvim meyar götürülür, yoxsa qəməri təqvim?

**Cavab: Qəməri təqvim meyar götürülür.**

**Sual 1888:** Bir şəxsin şəri vəzifə yaşına çatıb-çatmadığını müəyyən etmək üçün qəməri təqvim (ay təvvimi) əsasında onun doğum tarixini – il və ayı - necə əldə etmək olar?

**Cavab: Əgər onun doğum tarixi şəmsi təqvim (günəş təqvimi) əsasında məlum olarsa, qəməri təqvim ilə şəmsi təqvim arasındakı fərqi hesablayaraq bunu müəyyən etmək olar.**

**Sual 1889:** Əgər oğlan uşağı on beş yaşından qabaq möhətlim olarsa (yuxuda ondan məni xaric olarsa), onun büluğa çatdığına hökm verilirmi?

**Cavab: Möhtəlim olması səbəbilə onun büluğa çatdığına hökm verilir. Çünki möhtəlim olmaq şəriət baxımından büluğun nişanələrindəndir.**

**Sual 1890:** Əgər on faiz ehtimal versək ki, (şəri vəzifə yaşından qeyri) büluğun digər iki əlaməti daha tez zahir olubdur, hökm nədir?

**Cavab: Bu iki əlamətin daha tez zahir olduğunu sadəcə ehtimal vermək, uşağın büluğa çatdığına hökm vermək üçün kifayət etmir.**

**Sual 1891:** Cinsi əlaqədə olmaq büluğun əlamətlərindən hesab olunurmu və bu işi görməklə şəri vəzifələr insana vacib olurmu? Əgər bir şəxs məsələni bilməzsə və illər keçərsə, cənabət qüslü etmək ona vacib olurmu? Əgər namaz və oruc kimi taharətin şərt olduğu ibadətləri cənabət qüslünü etmədən yerinə yetiribdirsə, bu ibadətlər pozulubdurmu və onların qəzasını yerinə yetirmək vacibdirmi?

**Cavab: Məni xaric olmadan sadəcə cinsi əlaqədə olmaq büluğun əlamətlərindən deyildir. Amma bu iş cənabətə səbəb olur və büluğ yaşına çatdıqda cənabət qüslü etməsi vacibdir. Büluğun əlamətlərindən biri insanda zahir olmayanadək, şəriət baxımından onun büluğa çatdığına hökm verilmir və şəri vəzifələri yerinə yetirmək onun öhdəsinə düşmür. Əgər bir şəxs uşaqlıqda cinsi əlaqədə olmaq səbəbilə cənabətli olarsa və büluğ yaşına çatdıqdan sonra cənabət qüslü etmədən namaz qılıb oruc tutarsa, namazlarını yenidən qılması vacibdir. Amma cənabətli olduğunu bilməyibdirsə, orucların qəzasını tutmaq vacib deyildir.**

**Sual 1892:** Bizim müəssisənin bir qrup qız və oğlan şagirdləri doğum tarixlərinə əsasən büluğ yaşına çatıbdırlar. Onlarda yaddaşsızlıq və yaddaş zəifliyi müşahidə edildiyinə görə, dərrakə və yaddaşlarının yoxlanılması üçün tibbi müayinə aparıldı. Müayinənin nəticəsinə görə onlar öz yaşıdları ilə müqayisədə bir il və ya daha çox əqli geriliyə düçar idilər. Amma onların bəzilərini

dəli hesab etmək olmaz, çünki ictimai və dini məsələləri dərk edə biləcək bir səviyyədədirlər. Bu müəssisənin diaqnozu həkimlərin diaqnozu kimi əsas götürülürmü və həmin şagirdlər üçün meyardırmı?

**Cavab: Şəri vəzifələrin insana vacib olması meyarı, onun şəri baxımdan büluğa çatması və ürfdə ağıllı hesab olunmasıdır. Amma dərrakənin dərəcələri əsas götürülmür və bu baxımdan təsiri yoxdur.**

**Sual 1893:** Bəzi şəriət hökmlərində mümәyyiz uşaq barəsində belə qeyd olunur: "Yaxşını pisdən ayırd edə bilən uşaq". "Yaxşı" və "pis" dedikdə, nə nəzərdə tutulur? Mümәyyizlik yaşı hansı yaşdır?

**Cavab: "Yaxşı" və "pis" dedikdə, ürfün "yaxşı" və "pis" hesab etdiyi işlər nəzərdə tutulur. Bu xüsusda, uşağın yaşadığı mühitin şəraiti və yaşadığı yerin adət-ənənələri nəzərə alınmalıdır. Mümәyyizlik yaşı isə, insanların dərrakə və istedadının fərqliliyinə görə müxtəlifdir.**

**Sual 1894:** Doqquz yaşı tamam olmamışdan qabaq qız uşağının heyzin əlamətlərinə malik olan qan görməsi büluğun əlamətlərindəndirmi?

**Cavab: Bu qan qızın şəri büluğa çatması əlaməti sayılmır və heyz hökmündə deyildir, baxmayaraq ki, heyzin əlamətlərinə malikdir.**

**Sual 1895:** Müəyyən səbəbə görə məhkəmənin qərarı ilə şəxsi əmlakından istifadə etməsinə qadağa qoyulan bir şəxs əgər dünyasını dəyişməmişdən qabaq öz əmlakından müəyyən bir hissəni qardaşı oğlunun xidmətlərini mükafatlandırmaq ünvanında ona verərsə və qardaşı oğlu da həmin malı əmisi vəfat etdikdən sonra onun kəfən-dəfn və başqa işlərinə sərf edərsə, məhkəmə həmin malı ondan tələb edə bilərmi?

**Cavab: Əgər bu şəxsin öz qardaşı oğluna verdiyi malın istifadəsinə qadağa qoyulubdursa, yaxud bu mal başqasının əmlakıdırsa, şəriət baxımından bu malı ona verməyə haqqı yoxdur və qardaşı oğlu da bu maldan istifadə edə bilməz. Məhkəmə bu malı onun qardaşı oğlundan tələb edə bilər. Əks təqdirdə, kimsənin bu malı ondan almağa haqqı yoxdur.**

---

[1] Həcr – şəxsi əmlakdan istifadəyə qadağa qoyulması.

## Müzaribə[1]

**Sual 1896:** Qızıl və gümüşdən qeyri bir şeylə müzaribə etmək olarmı?

**Cavab: Hazırkı dövrdə geniş istifadə edilən kağız pul ilə müzaribə etməyin maneəsi yoxdur. Amma mal və əmtəə ilə müzaribə etmək düzgün deyildir.**

**Sual 1897:** İstehsal, paylama, xidmət və ticarət işlərində müzaribə əqdindən istifadə etmək düzgündürmü? Hazırkı dövrdə qeyri-ticari işlərdə müzaribə ünvanında tanınan əqdlər şəri baxımdan düzgündürmü, yoxsa düzgün deyildir?

**Cavab: Müzaribə yalnız sərmayənin alğı-satqıdan ibarət olan ticarətdə istifadə edilməsinə aiddir. Sərmayədən müzaribə ünvanında istehsal, paylama, xidmət və bu kimi sahələrdə istifadə edilməsi düzgün deyildir. Amma bu işləri başqa şəri əqdlər ünvanında, məsələn, cualə, sülh və s. ünvanında yerinə yetirməyin maneəsi yoxdur.**

**Sual 1898:** Mən bir dostumdan müzaribə ünvanında müəyyən məbləğ pul aldım, bu şərtlə ki, bir müddətdən sonra həmin məbləğ pulu əlavə məbləğ ilə birlikdə ona qaytaracağam. Mən bu pulun bir hissəsini pula ehtiyacı olan dostlarımdan birinə verdim və onunla razılığa gəldik ki, pulun gəlirinin üçdə birini o verəcəkdir. Bu iş düzgündürmü?

**Cavab: Aldığı pulu bir müddətdən sonra əlavə məbləğ ilə birlikdə qaytarmaq şərtilə başqa bir şəxsdən pul almaq müzaribə əqdi deyildir. Əksinə, bu, haram olan sələmli borcdur. Amma bu pulu müzaribə ünvanında almaq həmin şəxsdən borc almaq hesab olunmur və pul da "iş görən şəxs"in əmlakı olmur. Əksinə, bu pul, pul sahibinin mülkiyyətində qalır və "iş görən şəxs"in bu pul ilə yalnız ticarət etməyə haqqı vardır. Onların hər ikisi razılaşdıqları şəkildə bu pulun gəlirində şərikdirlər. Pul sahibinin icazəsi olmadan "iş görən şəxs"in bu pulun bir hissəsini başqa bir şəxsə borc və ya müzarivə ünvanında verməyə haqqı yoxdur.**

**Sual 1899:** Müzaribə ünvanında pul verən və müqaviləyə əsasən hər ay hər yüz min tümən qarşılığında təxminən dörd-beş min tümən gəlir alan şəxsdən müzaribə adı ilə pul borc almağın hökmü nədir?

**Cavab: Qeyd edilən şəkildə pul borc almaq müzaribə deyildir, əksinə, sələmli borcdur və "təklifi hökm" baxımından haramdır. Adın formal şəkildə dəyişdirilməsi ilə bu borc halal olmur, baxmayaraq ki, borcun özü düzgündür və borc alan şəxs pulun sahibi olur.**

**Sual 1900:** Bir şəxs başqa bir şəxsə ticarət etməsi üçün müəyyən məbləğ pul verir, bu şərtlə ki, pulun gəliri ünvanında hər ay ona müəyyən məbləğ pul verəcəkdir və ziyanın hamısı da onun öz öhdəsində olacaqdır. Bu müqavilə düzgündürmü?

**Cavab: Əgər onlar müqavilə bağlasalar ki, iş görən şəxs bu pul ilə düzgün şəri qaydada müzaribə edəcək və pulun gəlirindən hər ay təxmini bir məbləğ pul sahibinə verəcəkdir, həmçinin sərmayə ziyana uğradığı təqdirdə iş görən şəxs buna zamin olacaqdır, belə bir müqavilə düzgündür.**

**Sual 1901:** Mən bir şəxsə nəqliyyat vasitələri alıb ölkəyə idxal etmək və satmaq üçün müəyyən məbləğ pul verdim. Bu şərtlə ki, nəqliyyat vasitələrinin satışından əldə edilən gəlir bizim aramızda bərabər şəkildə bölünəcəkdir. O da bir müddət keçdikdən sonra müəyyən məbləğ pulu mənə verib dedi: "Bu, gəlirdən sizin payınızdır". Mən bu pulu götürə bilərəmmi?

**Cavab: Əgər sərmayəni müzaribə ünvanında ona vermisinizsə, o da bu sərmayə ilə nəqliyyat vasitələri alıb satıbdırsa və gəlirdən sizin payınızı veribdirsə, bu gəlir sizə halaldır.**

**Sual 1902: Bir şəxs başqa bir şəxsə ticarət etməsi üçün müəyyən məbləğ pul vermişdir və hər ay ondan təxmini olaraq müəyyən məbləğ pul alır. İlin axırında onlar xeyri və ziyanı hesablayırlar. Əgər pul sahibi və həmin şəxs xeyir-ziyanı razılıqla bir-birilərinə bağışlasalar, onların bu işi düzgündürmü?**

**Cavab: Əgər pul sahibi bu pulu həmin şəxsə düzgün şəkildə müzaribə etməsi üçün veribdirsə, pul sahibinin pulun gəlirindən hər ay müəyyən məbləği təxmini olaraq iş görən şəxsdən almasının maneəsi yoxdur. Həmçinin onların hər birinin digərindən şəriət baxımından almağa haqqı olan şey barəsində müsalihə etmələrinin maneəsi yoxdur. Amma əgər bu pul borc ünvanında verilsə və şərt qoyulsa ki, borc alan şəxs pulun gəliri ünvanında hər ay müəyyən məbləğ pul borc verən şəxsə verəcəkdir, sonra ilin axırında onların hər birinin digərindən şəriət baxımından almağa haqqı olan şey barəsində müsalihə etsələr, bu, sələmli borc olub "təklifi hökm" baxımından haramdır və borc əsnasında qoyulan şərt də düzgün deyildir. Baxmayaraq ki, borcun özü düzgündür. Bu iş, xeyir və ziyanı razılıqla bir-birilərinə bağışlamaları səbəbilə halal olmur. Buna görə də, borc verən şəxs pulun gəlirini ala bilməz, həmçinin heç bir ziyana da zamin deyildir.**

**Sual 1903: Bir şəxs başqa bir şəxsdən müzaribə ünvanında müəyyən məbləğ pul almışdır, bu şərtlə ki, gəlirin üçdə ikisi onun özünün və üçdə biri sərmayə sahibinin olacaqdır. Bu pul ilə mal alıb öz şəhərinə yollayır, amma mal yolda oğurlanır. Ziyan kimin öhdəsindədir?**

**Cavab: Sərmayənin və ya ticarət malının hamısının və ya bir hisssinin oğurlanması əgər iş görən şəxsin və ya başqa bir şəxsin səhlənkalığından irəli gəlməzsə, ziyan sərmayə sahibinin öhdəsindədir və gəlir vasitəsilə aradan qaldırılacaqdır. Amma əgər sərmayə sahibinin ziyanının iş görən şəxsin öhdəsində olduğunu şərt qoyularsa, ziyan iş görən şəxsin öhdəsindədir.**

**Sual 1904: Ticarət məqsədilə bir şəxsdən pul almaq və ya bir şəxsə pul vermək olarmı? Bu şərtlə ki, ticarətdən əldə edilən gəlir riba hesab olunmadan onların ikisi arasında razılıqla bölüşdürülsün?**

**Cavab: Əgər ticarət üçün alınan və ya verilən pul borc ünvanında olarsa, əldə edilən gəlirin hamısı borc alan şəxsə aiddir. Həmçinin pulun tələf olması və ya ziyanı onun öhdəsindədir. Pulun sahibinin yalnız pulun əvəzini ondan almağa haqqı vardır, pulun gəlirini ala bilməz. Yox əgər müzaribə ünvanında olarsa, müzaribənin nəticələrinə nail olmaq üçün onlar arasında düzgün şəkildə müzaribə əqdi bağlanmalıdır. Həmçinin müzaribə əqdinin şəriət baxımından düzgün olması üçün gərəkli olan şərtlərə riayət olunmalıdır. O cümlədən, gəlirdən onların hər birinin payı faiz və kəsr şəklində müəyyən edilməlidir (məsələn, birinə gəlirin 25%-i və digərinə 75%-i, yaxud birinə gəlirin ¼-i və digərinə ¾-i). Əks təqdirdə, pul və bu pul ilə ticarətdən əldə edilən gəlirin hamısı pulun sahibinə aid olacaq və iş görən şəxs yalnız işinin ücrətül-mislini almaq haqqına malik olacaqdır.**

**Sual 1905: Nəzərə alsaq ki, bankların bağladıqları müqavilələr həqiqi müzaribə deyildir – çünki bank heç bir ziyanı öz**

**öhdəsinə götürmür - əmanətçilərin hər ay əmanət qoyduqları pulun gəliri ünvanında bankdan aldıqları pul halaldırmı?**

**Cavab: Bankın heç bir ziyanı öz öhdəsinə götürməməsi müzaribə əqdinin düzgün olmamasına səbəb olmur. Həmçinin müzaribə əqdinin formal olmasına da dəlalət etmir. Çünki şəriət baxımından heç bir maneəsi yoxdur ki, sərmayə sahibi və ya onun vəkili müzaribə əqdi əsnasında "iş görən şəxs"in "sərmayə sahibi"nin ziyanlarına zamin olmasını şərt qoysunlar. Buna görə də, əmanətçilərin vəkili ünvanında bankın yerinə yetirdiyi müzaribənin formal olduğu və müəyyən səbəbə görə düzgün olmadığı dəqiqləşməyənədək bu müzaribə düzgün hesab olunur. Bu müzaribədən əldə edilən gəlirdən sərmayə sahiblərinə verilən pul onlara halaldır.**

**Sual 1906: Mən bir zərgərə ticarətdə istifadə etməsi üçün müəyyən məbləğ pul verdim. Onun həmişə gəlir əldə etdiyini və ziyan etmədiyini nəzərə alaraq, əldə etdiyi gəlirdən hər ay müəyyən məbləği ondan istəyə bilərəmmi? Əgər bunun maneəsi vardırsa, sözügedən məbləğin əvəzinə müəyyən qədər cəvahirat ala bilərəmmi? Əgər sözügedən məbləğ bizim aramızda vasitəçi şəxs tərəfindən verilərsə, maneə aradan qalxarmı? Əgər (ticarətdə istifadə etməsi üçün) ona pul verdiyimə görə mənə müəyyən məbləği hədiyyə verərsə, bunun da maneəsi vardırmı?**

**Cavab: Müzaribədə sərmayə sahibinin və iş görən şəxsin gəlirdən olan paylarının kəsr şəklində müəyyən edilməsi - məsələn, üçdə bir, dörddə bir, yarıbayarı və s. - şərtdir. Beləliklə, sərmayə sahibinə aylıq gəlir ünvanında konkret bir məbləğ müəyyən edildiyi təqdirdə müzaribə düzgün deyildir: müəyyən edilən aylıq gəlir istər nağd pul şəklində olsun, istər mal şəklində olsun, istərsə də cəvahirat şəklində olsun; həmçinin istər sərmayə sahibi bunu özü birbaşa alsın, istər başqa bir şəxs alıb ona versin; həmçinin fərqi yoxdur ki, bunu gəlirdən olan payı ünvanında alsın və ya iş görən şəxs sərmayə sahibinin pulu ilə ticarət etdiyinə görə hədiyyə ünvanında ona versin. Bəli, onlar şərt kəsə bilərlər ki, gəlir əldə edildiyi təqdirdə sərmayə sahibi hər ay gəlirdən müəyyən məbləği təxmini olaraq götürsün və müzaribə əqdi başa çatdıqda haqq-hesab aparılsın.**

**Sual 1907: Bir şəxs ticarət etmək üçün bir neçə nəfərdən müzaribə ünvanında müəyyən məbləğ pul almışdır. Bu şərtlə ki, əldə edilən gəlir onunla pul sahibləri arasında onların pulu nisbətində bölüşdürüləcəkdir. Bu işin hökmü nədir?**

**Cavab: Əgər ticarət etmək üçün pul sahiblərinin icazəsi ilə pulları üst-üstə qoyarsa, maneəsi yoxdur.**

**Sual 1908: Lazım əqd əsnasında şərt qoyula bilərmi ki, "iş görən şəxs" hər ay müəyyən məbləği "sərmayə sahibi"nə gəlirdən olan payı qarşılığında versin və sərmayə sahibinin payından əskik və ya artıq gələn məbləğ barəsində müsalihə etsinlər? Başqa sözlə, lazım əqd əsnasında müzaribənin hökmlərinə zidd olan bir şərti qoymaları düzgündürmü?**

**Cavab: Əgər sözügedən şərt "müsalihə" olarsa, yəni gəlir əldə edildiyi təqdirdə sərmayə sahibi gəlirdən kəsr şəklində müəyyən edilən payı qarşılığında iş görən şəxsin hər ay ona verdiyi məbləğə razılaşarsa, bunun maneəsi yoxdur. Amma əgər sözügedən şərt, sərmayə sahibinin gəlirdən olan payının iş görən şəxsin hər ay ona vermək istədiyi məbləğdə müəyyən edilməsi olarsa, bu şərt müzaribə əqdinin tələblərinə zidd olduğuna görə düzgün deyildir.**

**Sual 1909: Bir tacir bir şəxsdən müzaribə sərmayəsi ünvanında müəyyən məbləğ pul aldı, bu şərtlə ki, bu pul ilə etdiyi ticarətdən əldə edilən gəlirin müəyyən faizini pulun sahibinə verəcəkdir. Ticarət etmək üçün o, bu pul ilə öz sərmayəsini üst-üstə**

qoydu. Onların hər ikisi əvvəlcədən bilirdilər ki, bu pulun aylıq gəlirinin miqdarını müəyyən etmək çətindir. Buna görə də, müsalihə etməyi qərara aldılar. Belə olduğu təqdirdə, müzaribə əqdi şəriət baxımından düzgündürmü?

Cavab: Müzaribə sərmayəsi ünvanında verilən pulun aylıq gəlirinin miqdarını müəyyən etməyin mümkün olmaması müzaribə əqdinin düzgün olmasına xələl gətirmir, bu şərtlə ki, müzaribə əqdinin düzgün olmasının digər şərtlərinə də riayət olunmalıdır. Beləliklə, əgər müzaribə əqdinin şəri şərtlərinə riayət edərək müzaribə əqdi bağlasalar, sonra əldə edilən gəlirin bölüşdürülməsi barəsində müsalihə etməyi qərara alsalar – belə ki, gəlir əldə edildikdən sonra pulun sahibi gəlirdən olan payı qarşılığında müəyyən məbləği almağa razılaşarsa – bunun maneəsi yoxdur.

**Sual 1910:** Bir şəxs başqa bir şəxsə müzaribə sərmayəsi ünvanında müəyyən məbləğ pulu bu şərtlə vermişdir ki, üçüncü bir şəxs həmin pula zamin dayanmalıdır. Bu halda əgər iş görən şəxs həmin pulu götürüb aradan çıxarsa, sərmayə sahibinin verdiyi pulu geri almaq üçün zamin dayanan şəxsə müraciət etməyə haqqı vardırmı?

Cavab: Müzaribə sərmayəsi ünvanında verilən pula sualda qeyd edilən şəkildə zamin dayanılmasını şərt qoymağın maneəsi yoxdur. Beləliklə, əgər iş görən şəxs müzaribə sərmayəsi ünvanında aldığı pulu götürüb aradan çıxarsa, yaxud səhlənkarlıq ucbatından pulu tələf edərsə, pulun əvəzini almaq üçün sərmayə sahibinin zaminə müraciət etməyə haqqı vardır.

**Sual 1911:** Əgər "iş görən şəxs" müzaribə sərmayə ünvanında bir neçə şəxsdən aldığı pulun bir hissəsini pul sahiblərinin icazəsi olmadan başqa bir şəxsə borc verərsə - istər sərmayənin məcmusundan versin, istərsə də müəyyən bir şəxsin pulundan versin – bu şəxslərin müzaribə sərmayəsi ünvanında "iş görən şəxs"ə verdikləri pul barəsində onun əli "xəyanətkar əl" sayılırmı?

Cavab: Pul sahiblərinin icazəsi olmadan başqa bir şəxsə borc verdiyi məbləğ barəsində onun "əmanətdar əl"i "xəyanətkar əl"ə çevrilir və buna görə də, həmin pula zamindir. Amma səhlənkarlığa yol verməyənədək qalan məbləğ barəsində onun əli əmanətdar əldir.

---

[1] Müzaribə - sərmayə sahibi olan şəxs ilə iş görən şəxs arasında bağlanan bir müqavilədir ki, bu müqavilə əsasında iş görən şəxs sərmayə sahibinin sərmayəsi ilə ticarət edəcəyini və ticarətdən əldə edilən gəlirin müəyyən nisbətdə onların ikisi arasında bölüşdürüləcəyini öhdəsinə götürür.

## Bankın hökmləri

**Sual 1912:** **Əgər bank borc pul (pul krediti) vermək üçün borc götürən şəxsin artıq məbləğ ödəməsini şərt qoyarsa, belə bir borcu götürmək üçün mükəlləf şəri-hakimdən və ya onun vəkilindən icazə almalıdırmı? Zərurət və ehtiyac olmadığı halda belə bir borcu götürməyə icazə verilirmi?**

**Cavab: Borc götürmək üçün - hətta dövlət bankından olsa belə - şəri-hakimin icazəsi şərt deyildir. Borc götürmək – hətta sələmli borc götürmək - "vəz`i hökm" baxımından düzgündür. Amma sələmli borc götürmək "təklifi hökm" baxımından haramdır: istər müsəlmandan götürsün, istər qeyri-müsəlmandan götürsün; həmçinin istər islami dövlətin bankından götürsün, istər qeyri-islami dövlətin bankından götürsün. Amma əgər harama düşməyi icazəli edən bir həddə çıxılmaz vəziyyətə düşərsə, belə borcu götürə bilər. Haram borcu götürmək şəri-hakimin icazəsi ilə halal olmur, şəri-hakimin icazəsinin bu məsələyə aidiyyatı yoxdur. Bu halda o, haram işlətməməkdən ötrü əlavə məbləği ödəməyəcəyini nəzərdə tuta bilər, baxmayaraq ki, bu məbləği ondan alacaqlarını bilir. Borc sələmli olmadığı təqdirdə, borc götürməyin icazəli olması zərurət və ehtiyac halına aid deyildir.**

**Sual 1913:** **İran İslam Respublikasının Məskən Bankı ev almaq, tikmək və təmir etmək üçün müştərilərinə borc verir və müştəri evi aldıqdan və ya tikdikdən və ya təmir etdikdən sonra borcu kredit şəklində qaytarır. Amma bankın aldığı kreditlərin məcmusu borc götürən şəxsə verdiyi məbləğdən çox olur. Bu artıq məbləğin şəri əsası vardırmı, yoxsa yoxdur?**

**Cavab: Məskən Bankının ev almaq və ya tikmək üçün müştəriyə veridyi pul borc ünvanında deyildir. Əksinə, bu pulu düzgün şəri əqlərdən biri ünvanında, məsələn, şəriklik, cualə, icarə və s. əqdlər ünvanında verir. Əgər bu əqdlərin şəri şərtlərinə riayət olunarsa, əqdin düzgünlüyünə xələl gəlmir.**

**Sual 1914:** **Banklar müştərilərin əmanət qoyduqları pula üç faizdən iyirmi faizədək gəlir verirlər. İnflyasiyanın səviyyəsini nəzərə alaraq, düzgün olarmı ki, müştəirlər bu artıq məbləği pulu banka qoyduqları vaxt ilə bu pulu bankdan götürmək istədikləri vaxtla müqayisədə pulun dəyərinin aşağı düşməsinin əvəzi ünvanında hesab etsinlər və beləcə, bu gəlir bu yolla sələm hesab olunmasın?**

**Cavab: Əgər bank sözügedən gəliri əmanətçinin vəkili olaraq düzgün şəri əqdlərdən biri əsasında əmanət qoyulan pulun istifadəsindən əldə etdiyi gəlirdən verirsə, bu gəlir sələm deyildir. Əksinə, şəri sövdələşmənin gəliridir və maneəsi yoxdur.**

**Sual 1915:** **Əgər bir şəxs dolanışığını təmin etmək üçün başqa bir iş tapmadığına görə sələmlə işləyən banklarda işləmək məcburiyyətində qalarsa, bunun hökmü nədir?**

**Cavab: Əgər onun bankdakı işi sələmli sövdələşmərlə əlaqəli olarsa və hansısa bir şəkildə sələmli sövdələşmənin həyata keçməsində rolu olarsa, bankda işləməsinə icazə verilmir.**

**Sual 1916:** **Məskən Bankı bizə ev almışdır, bu şərtlə ki, evin pulunu aylıq kredit şəklində qaytarmalıyıq. Bu mümailə şəriət baxımından düzgündürmü və biz bu evin sahibi oluruqmu?**

**Cavab: Əgər bank bu evi özünə alıb, sonra kreditlə sizə satıbdırsa, bunun maneəsi yoxdur.**

**Sual 1917:** **Banklar ev tikmək üçün şəriklik ünvanında və ya sövdələşmə əqdlərindən biri ünvanında pul verir və təxminən beş-**

**səkkiz faiz artıq məbləğ alırlar. Bu pulun və artıq məbləğin hökmü nədir?**

**Cavab: Bankdan şəriklik ünvanında və ya düzgün şəri sövdələşmələrdən biri ünvanında pul götürmək “borc verib-almaq” deyildir. Bu kimi şəri sövdələşmələr vasitəsilə banka çatan gəlir də sələm hesab olunmur. Beləliklə, ev almaq və ya tikmək üçün düzgün şəri sövdələşmələrdən biri ünvanında bankdan pul götürməyin, həmçinin bu puldan istifadə etməyin maneəsi yoxdur. Əgər bu pul borc ünvanında olarsa və artıq məbləğin ödəniləcəyi şərt qoyularsa, baxmayaraq ki, sələmli borc “təklifi hökm”[1] baxımından haramdır, amma borcun özü “vəz`i hökm”[2] baxımından borc götürən şəxs üçün düzgündür və bu puldan istifadə etməsinin maneəsi yoxdur.**

**Sual 1918:** **Qeyri-islami dövlətlərin banklarında əmanət qoyulan pulun gəlirini almağa icazə verilirmi? Əgər əmanətçi pulun gəlirini alarsa, ondan istifadə etməsinə - istər bankın sahibi kitab-əhli olsun, istər müşrik olsun, həmçinin istər pulu banka qoyarkən pulun gəlirini alacağını şərt qoysun, istər şərt qoymasın - icazə verilirmi?**

**Cavab: Sualda deyilənlərə əsasən, pulun gəlirini almağın - hətta pulun gəlirini alacağını şərt qoysa belə - maneəsi yoxdur.**

**Sual 1919:** **Əvvəlki sual və cavabı nəzərə alaraq, əgər bankın sərmayədarlarının bəzisi müsəlman olarsa, bu bankdan pulun gəlirini almağa icazə verilirmi?**

**Cavab: Qeyri-müsəlmanların səhmlərindən pulun gəlirini almağın maneəsi yoxdur. Amma müsəlmanların səhmlərinə gəlincə, əgər pulun gəlirini, yəni sələm almaq şərtilə pul banka qoyulubsa, buna icazə verilmir.**

**Sual 1920:** **İslami ölkələrin banklarına əmanət qoyulan pulların gəlirini almağın hökmü nədir?**

**Cavab: Əgər banka qoyulan pul borc ünvanında olub, pulun gəlirini almaq şərtilə olarsa, yaxud bu şərtə dayanarsa, onu almağa icazə verilmir.**

**Sual 1921:** **Əgər bank verdiyi borca görə sələm alırsa və mükəlləf də bankdan borc götürmək istəyirsə, sələmdən qaçmaq üçün belə bir iş görməsi düzgündürmü:**
**Bir ədəd min tümənlik əskinası min iki yüz tümənə nisyə şəklində alır, bu şərtlə ki, hər ay onun yüz tümənini ödəyəcəkdir və bunun üçün banka on iki ədəd yüz tümənlik veksel[3] verir? Yaxud bankdan ümumi məbləği min iki yüz tümən olan on iki ədəd müddətli vekseli min tümənə nağd şəkildə alır, bu şərtlə ki, bu veksellərin məbləği on iki ay ərzində ödəniləcəkdir?**

**Cavab: Formal olan və borc sələmindən qaçmaq məqdəsi daşıyan bu sövdələşmələr şəriət baxımından haramdır və düzgün deyildir.**

**Sual 1922:** **İran İslam Respublikası banklarının yerinə yetirdiyi sövdələşmələr düzgündürmü? Bankdan götürülən pul il ev və ya başqa əşyalar almağın hökmü nədir? Bu pul ilə alınan evdə qüsl etmək və namaz qılmağın hökmü nədir? Banka qoyulan pulun gəlirini almaq halaldırmı?**

**Cavab: Ümumiyyətlə, İslam Şurası Məclisinin qəbul etdiyi və Konstitusiyanın Mühafizə Şurasının da təsdiqlədiyi qanunlar əsasında bankların yerinə yetirdiyi sövdələşmələrin maneəsi yoxdur və düzgündür. Düzgün şəri əqdlərdən biri ünvanında sərmayənin istifadəsindən əldə edilən gəlir şəriət baxımından halaldır. Buna görə də, əgər ev və ya başqa bir əşya almaq üçün bankdan bu əqdlərdən biri ünvanında pul götürülərsə, maneəsi yoxdur. Amma əgər sələmli borc ünvanında olarsa, baxmayaraq ki, sələmli borc almaq**

**“təklifi hökm” baxımından haramdır, amma borcun özü vəz`i hökm baxımından düzgündür. Bu pul borc götürən şəxsin əmlakı olur və bu puldan, habelə, bu pul ilə aldığı əşyadan istifadə edə bilər.**

**Sual 1923:** **İran İslam Respublikası banklarının ev almaq, heyvandarlıq, əkinçilik və bu kimi işlər üçün öz müştərilərinə verdikləri pulun gəlirini almaları halaldırmı?**

**Cavab: Əgər bankların ev tikmək və ya almaq, yaxud başqa işlər üçün öz müştərilərinə verdikləri pulun borc ünvanında olduğu doğru məlumat olarsa, heç şübhəsiz, bu pulun gəlirini almaq şəriət baxımından haramdır və bankın onu tələb etməyə haqqı yoxdur. Amma zahirən banklar bu pulu borc ünvanında vermirlər, əksinə, banklar halal sövdələşmələrdən biri ünvanında - məsələn, şəriklik, cualə, icarə və s. – bu pulu verib sövdələşmələri yerinə yetirirlər. Nümunə üçün, bank evin tikintisi üçün tələb olunan xərclərin bir hissəsini verib mülkə şərik olur, sonra öz payını kreditlə - məsələn, iyirmi aylıq kreditlə - öz şərikinə satır. Yaxud öz payını müəyyən müddətə və müəyyən məbləğə ona icarəyə verir. Nəticədə, bu sövdələşmələrin və bu kimi sövdələşmələrdən bankın əldə etdiyi gəlirin maneəsi yoxdur. Bu kimi sövdələşmələrin borc və sələm ilə əlaqəsi yoxdur.**

**Sual 1924:** **Bank bir layihədə şərik olmaq üçün mənə pul krediti verdi. Mən isə bu pulun yarısını dostuma verib onunla şərt kəsdim ki, pulun bank faizinin hamısını o verəcəkdir. Bu barədə mənə hansısa bir iş vacibdirmi?**

**Cavab: Əgər bank pul krediti götürən şəxsin təklif etdiyi müəyyən bir layihədə onunla şərik olmaq üçün bu pulu ona veribdirsə, pul krediti götürən şəxs onu başqa bir işə sərf edə bilməz, eləcə də, bu puldan başqa bir şəxsə borc verə bilməz. Bu pul onun əlində əmanətdir və onu müəyyən edilən işə sərf etməli, yaxud pulun özünü banka qaytarmalıdır.**

**Sual 1925:** **Bir şəxs saxta sənədlərlə bankdan müzaribə ünvanında müəyyən məbləğ pul götürmüşdür, bu şərtlə ki, bir müddətdən sonra həmin məbləği və onun gəlirini banka ödəyəcəkdir. Bank sənədlərin saxta olduğunu bilmədiyi təqdirdə, bu məbləğ borc hesab olunurmu? Borc götürən şəxsin pulun gəliri ünvanında banka ödədiyi məbləğ də sələm hesab olunurmu? Əgər bank sənədlərin saxta olduğunu bilib bu məbləği o şəxsə veribdirsə, bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər bank tərəfindən müzaribə əqdinin bağlanmasında sənədlərin düzgün olması – hansı ki, müzaribə əqdi bu sənədlərin əsasında bağlanır - şərtdirsə, sənədlər saxta olduğu təqdirdə sözügedən əqd pozulmuşdur. Nəticədə, bankdan götürülən məbləğ borc deyildir, necə ki, müzaribə də deyildir. Zəmanət baxımından, düzgün olmayan əqd ilə pul almaq hökmündədir və bu pul ilə ticarətdən əldə edilən gəlirin hamısı banka aiddir. Bu, bankın vəziyyətdən xəbərsiz olduğu təqdirdədir. Amma əgər bank sənədlərin saxta olduğunu bilərsə, bankdan götürülən pul qəsb hökmündədir.**

**Sual 1926:** **Halal sövdələşmələrdən birində istifadə olunması məqsədilə və pulun gəlirindən əmanətçinin payı dəqiq müəyyən edilmədən banka pul qoymaq olarmı? Bu şərtlə ki, bank hər altı ayda pulun gəlirindən əmanətçinin payını verəcəkdir?**

**Cavab: Əgər əmanətçi bütün səlahiyyətləri banka verərsə, hətta fəaliyyətin növünü seçməyi və pulun gəlirindən əmanətçinin payını müəyyən etməyi bir vəkil ünvanında banka həvalə edərsə, bu şəkildə banka pul qoymağın və şəriət baxımından halal olan sövdələşmədə bu pulun istifadəsindən əldə edilən gəlirin maneəsi yoxdur. Banka pul qoyarkən pul sahibinin**

gəlirdən olan payını bilməməsi sövdələşmənin düzgünlüyünə xələl gətirmir.

**Sual 1927:** Müsəlmanlarla düşmən olan və ya müsəlmanların düşmənləri ilə əməkdaşlıq edən qeyri-islami dövlətlərin banklarında uzunmüddətli sərmayə yatırımı hesabına pul qoymaq olarmı?

**Cavab: Qeyri-islami dövlətlərin banklarına pul qoymağın öz-özlüyündə maneəsi yoxdur, bu şərtlə ki, sözügedən yatırım bu dövlətlərin İslam və müsəlmanların əleyhinə istifadə edəcəkləri iqtisadi və siyasi qüdrətlərinin artmasına səbəb olmamalıdır. Əks təqdirdə, buna icazə verilmir.**

**Sual 1928:** Nəzərə alsaq ki, islami ölkələrdəki bankların bəzisi zalım dövlətlərə aiddir, bəzisi kafir dövlətlərə bağlıdır və bəzisi də müsəlmanların və ya qeyri-müsəlmanların özəl müəssisələridir, bu banklarla hər hansı bir sövdələşməni etməyin hökmü nədir?

**Cavab: Bu banklarla şəriət baxımından halal olan sövdələşmələri etməyin maneəsi yoxdur. Amma islami banklar və müəssisələr ilə sələmli sövdələşmələr etməyə və borc sələmi almağa icazə verilmir. Amma əgər bankın sərmayəsi qeyri-müsəlmana aid olarsa, buna icazə verilir.**

**Sual 1929:** İslami banklar qanunlara müvafiq olaraq sərmayə sahiblərinin banka qoyduqları sərmayələri halal gəliri olan müxtəlif iqtisadi sahələrdə istifadə edir və əldə edilən gəlirdən sərmayə sahiblərinə pay verirlər. Biz eynilə banklar kimi müxtəlif iqtisadi sahələrdə istifadə etmələri üçün sərmayəmizi bazarın etibarlı tacirlərinə verə bilərikmi?

**Cavab: Əgər sərmayə qarşı tərəfə borc ünvanında verilərsə və hər ay və ya hər il müəyyən faiz gəlirin alınacağı şərt qoyularsa, bu sövdələşmə "təklifi hökm" baxımından haramdır, baxmayaraq ki, borcun özü vəz`i hökm baxımından düzgündür. Borca görə alınan gəlir sələmdir və şəriət baxımından haramdır. Amma əgər sərmayə şəriət baxımından halal olan bir işdə istifadə etməsi üçün qarşı tərəfə verilərsə, bu şərtlə ki, sərmayənin şəri əqdlərdən biri ünvanında istifadəsindən əldə edilən gəlirdən müəyyən pay sərmayə sahibinə veriləcəkdir, bu sövdələşmə düzgündür və sövdələşmədən əldə edilən gəlir də halaldır. Bu baxımdan bank ilə hüquqi və ya fiziki şəxslər arasında fərq yoxdur.**

**Sual 1930:** Əgər bank sistemi sələmli sistem olarsa, sərmayə yatırımı yolu ilə banka borc vermək və ya bankdan borc götürməyin hökmü nədir?

**Cavab: Banka qərzul-həsənə ünvanında borc verməyin və ya bankdan qərzul-həsənə ünvanında borc götürməyin maneəsi yoxdur. Amma sələmli borc "təklifi hökm" baxımından birmənalı olaraq haramdır, baxmayaraq ki, borcun özü vəz`i hökm baxımından düzgündür.**

**Sual 1931:** Mən bankdan müzaribə ünvanında müəyyən məbləğ pul götürdüm. Bu puldan ev almaq üçün istifadə edə bilərəmmi?

**Cavab: Müzaribə sərmayəsi sərmayə sahibi tərəfindən iş görən şəxsin əlində əmanətdir və iş görən şəxsin bu sərmayədən yalnız razılaşdıqları şəkildə ticarət etməyə haqqı vardır. Beləliklə, əgər bu sərmayəni birtərəfli olaraq başqa bir işə sərf edərsə, qəsb hökmündədir.**

**Sual 1932:** Əgər bir şəxs ticarət etmək üçün bankdan müəyyən məbləğdə sərmayə götürsə və şərtə görə bank gəlirdə onunla şərikdirsə, bu şəxs ticarətdə ziyan etdiyi təqdirdə bank da ziyanda şərikdirmi?

**Cavab: Müzaribə müqaviləsində ziyan, sərmayəyə və sərmayə sahibinə aid olur, gəlirdən aradan qaldırılır. Amma iş görən şəxsin ziyanın hamısına və ya bir hissəsinə zamin olmasını şərt qoymalarının maneəsi yoxdur.**

**Sual 1933:** **Bir şəxs ehtiyat pul yığmaq üçün bankların birində hesab açdı və bir müddət keçdikdən sonra bu pula müəyyən qədər gəlir aid oldu. Bu gəliri almağın hökmü nədir?**

**Cavab: Əgər pulunuzu borc ünvanında banka qoyarsınızsa və pulun gəlirini almaq şərtilə olarsa, yaxud bu şərtə dayanarsa, onu almağa icazə verilmir. Çünki bu gəlir sələmdir və şəriət baxımından haramdır. Bundan qeyri halda, onu almağın maneəsi yoxdur.**

**Sual 1934:** **Bankların birində belə bir hesab vardır ki, əgər müştəri hər ay müəyyən məbləği beş il müddətinə banka qoyarsa və bu müddət ərzində pula toxunmazsa, həmin müddət başa çatdıqdan sonra bank hər ay müəyyən məbləği həmin hesaba köçürəcəkdir və bank hesabının sahibi həyatda olduğu müddətdə bu məbləği ona verəcəkdir. Bu sövdələşmənin hökmü nədir?**

**Cavab: Bu sövdələşmənin şəri əsası yoxdur və sələmli sövdələşmədir.**

**Sual 1935:** **Uzunmüddətli əmanətlərə verilən gəlirin hökmü nədir?**

**Cavab: Halal sövdələşmələrin birində istifadə edilməsi üçün banka pul qoymağın, həmçinin bu puldan əldə edilən gəliri almağın maneəsi yoxdur.**

**Sual 1936:** **Əgər bir şəxs müəyyən bir iş üçün bankdan müəyyən məbləğ pul götürsə, bir halda ki, həmin iş üçün bu pulu götürməsi formal xarakter daşısa və onun əsas məqsədi başqa mühüm bir işə sərf etmək üçün pul əldə etmək olsa, yaxud pulu götürdükdən sonra onu daha mühüm bir işə sərf etməyi qərara alsa, bu işin hökmü nədir?**

**Cavab: Əgər pul borc ünvanında verilərsə və ya götürülərsə, hər bir halda düzgündür. Bu pul borc götürən şəxsin əmlakı olur və bu pulu istədiyi işə sərf etməsi düzgündür. Baxmayaraq ki, əgər bu pulu müəyyən bir işə sərf etməsi şərt qoyularsa, "təklifi hökm" baxımından bu şərtə əməl etməsi vacibdir. Amma əgər pul məsələn, müzaribə və ya şəriklik ünvanında verilərsə və ya götürülərsə, əqd formal olduğu təqdirdə düzgün deyildir. Nəticədə, bu pul bankın mülkiyyətində qalır və pulu götürən şəxs onu xərcləyə bilməz. Həmçinin əgər ciddi məqsədlə müəyyən bir əqd ünvanında bankdan pul götürübdürsə, bu pul onun əlində əmanətdir və bu pulu nəzərdə tutulan işdən qeyri bir işə sərf edə bilməz.**

**Sual 1937:** **Bir şəxs bankdan müzaribə üçün müəyyən məbləğ pul götürmüş və bir müddətdən sonra götürdüyü məbləği və bankın gəlirdən olan payını kredit şəklində banka qaytarmışdır. Amma kredit ödənişlərini qəbul edən bank işçisi bu pulları mənimsəmiş və sənədləri formal şəkildə ləğv etmişdir. O, məhkəmə qarşısında da bu işini etiraf etmişdir. Müzaribə ünvanında götürdüyü məbləği ödəmək hələ də "iş görən şəxs"in öhdəsindədirmi?**

**Cavab: Əgər kreditlər ödənişin qayda-qanunlarına riayət edilərək banka ödənilibdirsə və bankın əmlakının bank işçisi tərəfindən mənimsənməsi kredit ödənişinin qayda-qanunlarının icrasında pul götürən şəxsin nöqsanından irəli gəlməyibdirsə, kreditləri ödədikdən sonra "iş görən şəxs" heç nəyə zamin deyildir. Əksinə, bankın əmlakını mənimsəyən bank işçisi bu pula zamindir.**

**Sual 1938:** **Püşkatmada hədiyyə qazandıqlarını bank hesabı sahiblərinə xəbər vermək banka vacibdirmi?**

**Cavab: Bu məsələ, bankın qanunlarına bağlıdır. Əgər hədiyyələri bank hesabı sahiblərinə**

çatdırmaq hədiyyə qazandıqlarını onlara xəbər verməyə bağlıdırsa, bunu onlara xəbər verməK vacibdir.

**Sual 1939:** Şəriət baxımından bank məsulları bank əmanətlərinin gəlirindən bir hissəsini əmanətçilərə - istər fiziki, istərsə də hüquqi şəxslərə - bağışlaya bilərlərmi?

Cavab: Əgər bu gəlir bankın əmlakı olarsa, bu məsələ bankın qanunlarına bağlıdır. Amma əgər bu gəlir əmanətçilərə aid olarsa, ondan istifadə etmək haqqı əmanətçilərə aiddir.

**Sual 1940:** Banklar hər ay əmanətçilərə banka qoyduqları pulun gəlirini verirlər. Nəzərə alsaq ki, pulun gəlirinin miqdarı, hətta sərmayə iqtisadi fəaliyyətlərdə istifadə edilməmişdən qabaq müəyyən edilmişdir və sərmayə sahibi işin ziyanına da şərik deyildir, pulun gəlirini əldə etmək məqsədilə bu banklara pul qoymaq olarmı? Yoxsa belə sövdələşmələr sələmli olduğuna görə pulun gəlirini almaq haramdır?

Cavab: Əgər pulu banka borc ünvanında qoyarsa və pulun gəlirini əldə etmək şərtilə olarsa, yaxud bu şərtə dayanarsa, məlumdur ki, bu, sələmli borcdur və "təklifi hökm" baxımından haramdır. Pulun gəliri də sələmdir və şəriət baxımından haramdır. Amma əgər pulu banka borc ünvanında qoymazsa, əksinə, bankın bu pulu şəri halal sövdələşmələrdən birində istifadə etməsi məqsədilə qoyarsa, bunun maneəsi yoxdur. Bu pul iqtisadi fəaliyyətlərdə istifadə edilməmişdən qabaq pulun gəlirinin miqdarının müəyyən edilməsi, həmçinin pul sahibinin işin ehtimali ziyanlarına şərik olmaması sözügedən müqavilənin düzgünlüyünə xələl gətirmir.

**Sual 1941:** Əgər bir şəxs bəzi bank işçilərinin bəzi işlərdə, məsələn, müzaribədə və kreditli satışlarda bankın qanunlarını düzgün şəkildə icra etmədiklərini bilsə, bu şəxs pulun gəlirini əldə etmək məqsədilə banka pul qoya bilərmi?

Cavab: Əgər bu şəxs bank işçilərinin onun pulunu düzgün olmayan bir sövdələşmədə istifadə etdiklərini həqiqətən bilsə, pulun gəlirini ala və bu gəlirdən istifadə edə bilməz. Amma sərmayə sahibləri tərəfindən banka qoyulan pulların olduqca böyük məbləğ olduğunu və bankların yerinə yetirdikləri müxtəlif sövdələşmələri nəzərə alaraq, habelə, bu sövdələşmələrin əksəriyyətinin şəriət baxımından düzgün olduğunu bildiyimiz üçün bu şəxsin belə bir məlumatı əldə edə bilməsi olduqca uzaq ehtimaldır.

**Sual 1942:** Özəl şirkət və ya dövlət müəssisəsi öz işçiləri ilə əldə etdiyi razılıq əsasında hər ay onların maaşından müəyyən məbləğ pul çıxır və bu pulu istifadə edilməsi üçün bankların birinə qoyur, pulun gəlirini isə işçilər arasında onların banka qoyduqları pulun nisbətində bölüşdürür. Bu sövdələşmə düzgündürmü və buna icazə verilirmi? Bu gəlirin hökmü nədir?

Cavab: Əgər pul banka borc ünvanında və pulun gəlirini almaq şərtilə qoyularsa, banka bu şəkildə pul qoymaq haramdır. Bu pulun gəliri sələmdir və şəriət baxımından haramdır. Nəticədə, pulun gəlirini almaq və ondan istifadə etmək olmaz. Amma əgər əmlakın qorunması və ya başqa bir halal məqsədlə qoyularsa və pulun gəlirini almaq şərt qoyulmazsa, habelə, pulun gəlirini əldə etmək təvəqqesi də olmazsa, eyni halda, bank müəyyən məbləği öz tərəfindən pul sahibinə verərsə, yaxud bu pulu halal sövdələşmələrin birində istifadə edib pulun gəlirini pul sahibinə verərsə, banka bu şəkildə pul qoymağın və əlavə məbləği almağın maneəsi yoxdur. Bu gəlir əmanətçinin əmlakı hesab olunur.

**Sual 1943:** İnsanları banka pul qoymağa təşviq etmək üçün bankın əmanətçilərə belə bir vəd verməsi düzgündürmü ki, hər kim

öz bank hesabından altı ay ərzində pul çıxarmazsa, bank tərəfindən ona güzəştlər veriləcəkdir?

**Cavab: Bankın belə bir vəd verməsinin və əmanətçiləri təşviq etmək məqsədilə bank tərəfindən güzəştlərin verilməsinin maneəsi yoxdur.**

**Sual 1944: Bəzən abonent ödəyəcəyi məbləğdən bir qədər artıq məbləğdə pul ödəyir və pulun artıq qalanı kommunal ödənişləri qəbul edən bank işçisinin əlində qalır. Məsələn, kommunal xərclər ünvanında səksən tümən ödəməli olan bir şəxs yüz tümən ödəyir və pulun qalanını götürmür, onu tələb də etmir. Bank işçisi bu pulu özünə götürə bilərmi?**

**Cavab: Pulun artıq qalanı pulu ödəyən şəxsin əmlakıdır və ödənişi qəbul edən bank işçisi bu pulu onun sahibinə - onu tanıdığı təqdirdə - qaytarmalıdır. Onu tanımadığı təqdirdə isə, bu pul "sahibi bilinməyən mal" hökmündədir və bank işçisi bu pulu özünə götürə bilməz. Amma əgər sözügedən pulu ödəyicinin ona bağışladığı, yaxud bu pulu istəmədiyi ona məlum olarsa, bu təqdirdə bu pulu özünə götürə bilər.**

---

[1] Təklifi hökm – vasitə olmadan mükəlləfin əməlinə aid edilir və mükəlləfin vəzifəsini həmin əməli yerinə yetirmək və ya yerinə yetirməmək baxımından müəyyənləşdirir. Məsələn, "vacib" və ya "haram" hökmü kimi: namaz vacibdir, zülm etmək haramdır, sələmli borc almaq haramdır.

[2] Vəz`i hökm – vasitə ilə mükəlləfin əməlinə aid edilir. Məsələn, şəxslərə və ya əşyalara aid edilən "evlidir", "pakdır və ya napakdır", "düzgündür və ya düzgün deyildir" hökmləri kimi.

[3] Borc sənədi.

## Bankın hədiyyələri

**Sual 1945:** **Mən Milli Banka müəyyən məbləğ pul qoydum və bir müddətdən sonra bank hədiyyə ünvanında mənə müəyyən məbləğ pul verdi. Bu hədiyyəni almağın hökmü nədir?**

**Cavab: Hədiyyəni almağın və ondan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 1946:** **Qərzul-həsənə ünvanında banka qoyulan pula hədiyyələr verilir. Bu hədiyyələri almağın hökmü nədir? Əgər bu hədiyyələri almağa icazə verilirsə, onlara xüms düşürmü?**

**Cavab: Banka qərzul-həsənə ünvanında pul qoymağın və ona verilən hədiyyələrin maneəsi yoxdur. Hədiyyəyə xüms düşmür.**

**Sual 1947:** **Əgər bank hesabı sahibləri hədiyyə qazandıqlarını bilmədiklərinə və ya başqa səbəblərə görə hədiyyəni almaq üçün banka müraciət etməsələr, bank bu hədiyyədən istifadə edə, yaxud onu bank işçiləri arasında paylaşdıra bilərmi?**

**Cavab: Bank və bank işçiləri bank hesabı sahiblərinə aid olan hədiyyələrə onların icazəsi olmadan sahiblənə bilməzlər.**

## Bankda işləmək

**Sual 1948:** **Mən bank işçisiyəm və bankın ölkə xaricində olan şöbəsində işləyirəm. Həmin ölkənin dövləti bizim qarşımızda sələmli və qeyri-sələmli sövdələşmələrə şamil olan bank qanunlarına tabe olmağı vəzifə qoymuşdur. Bu məsuliyyəti qəbul etmək və bu bank sistemində işləmək olarmı? Sözügedən bank şöbəsindən aldığım əmək haqqının hökmü nədir?**

**Cavab: Bu vəzifəni qəbul etməyin öz-özlüyündə maneəsi yoxdur, amma sələmli sövdələşmələrlə əlaqədar olan bank əməliyyatlarını yerinə yetirməyə icazə verilmir. Belə əməliyyatları yerinə yetirməyin qarşılığında insan ücrət və əmək haqqı almaq haqqına malik olmur. Amma sözügedən bank şöbəsindən əmək haqqı almağa gəlincə, əgər aldığı pulda haram malın olduğuna yəqinliyi olmazsa, onu almasının maneəsi yoxdur.**

**Sual 1949:** **Bankın depozit, mühasibat və müdiriyyət şöbəsində işləmək qarşılığında əmək haqqı almaq olarmı?**

**Cavab: Əgər şəri baxımdan haram olan sövdələşmərlə hansısa bir şəkildə əlaqədar olmazsa, bankın sözükeçən şöbələrində işləmək və bunun qarşılığında əmək haqqı almağın maneəsi yoxdur.**

## Pul çekinin hökmləri

**Sual 1950:** **Müddətli pul çekini nağd şəkildə günün məzənnəsindən aşağı qiymətə satmağın hökmü nədir?**

**Cavab: Müddətli pul çekini çekdə qeyd edilən məbləğdən aşağı və ya yuxarı qiymətə satmaq olar və bunun maneəsi yoxdur. O işə icazə verilmir və maneəsi vardır ki, bir şəxs başqa bir şəxsdən pul borc alır və bunun qarşılığında həmin şəxsə borc aldığı məbləğdən artıq məbləğin qeyd edildiyi müddətli pul çeki verir. Bu iş sələmli borcdur və haramdır, baxmayaraq ki, borcun özünün düzgün olması uzaq ehtimal deyildir.**

**Sual 1951:** **Pul çeki nağd pul kimi götürülürmü? Belə ki, əgər borclu olan şəxs pul çekini borc sahibinə verərsə, borcdan çıxmış olurmu?**

**Cavab: Pul çeki nağd pul kimi götürülmür. Borc sahibinə borcun qaytarıldığı və ya satıcıya malın pulunun verildiyi bu məsələyə dayanır ki, pul çekini almaq ürfə görə çekdə qeyd edilən məbləği almaq hesab olunsun. Bu isə, qarşıya çıxan vəziyyətə və şəxslərə görə dəyişir.**

## Sığorta

**Sual 1952:** **Ömür sığortasının hökmü nədir?**

**Cavab: Şəriət baxımından maneəsi yoxdur.**

**Sual 1953:** **Tibbi soğorta kitabçasının sahibinin ailə üzvlərindən olmayan bir şəxs bu sığorta kitabçasından istifadə edə bilərmi? Bir şəxs öz tibbi sığorta kitabçasını istifadə etmələri üçün başqa şəxslərə verə bilərmi?**

**Cavab: Tibbi sığorta kitabçasından yalnız o şəxs istifadə edə bilər ki, sığota şirkəti ona tibbi xidmət göstərməyi öz öhdəsinə götürmüşdür. Başqa şəxslərin bu tibbi sığorta kitabçasından istifadə etmələri zaminliyə səbəb olur.**

**Sual 1954:** **Sığorta şirkəti sığortalanan şəxs ilə bağladığı ömür sığortası müqaviləsində öz öhdəsinə götürmüşdür ki, sığortalanan şəxs vəfat etdikdən sonra müəyyən məbləğ pulu onun müəyyən etdiyi şəxslərə ödəyəcəkdir. Əgər sığortalanan şəxsin borcu olarsa və onun əmlakı borcunu ödəməyə kifayət etməzsə, borc sahibləri öz pullarını sığorta şirkətinin ödəyəcəyi puldan götürmək haqqına malikdirlərmi?**

**Cavab: Bu məsələ tərəflərin müqavilədə əldə etdikləri razılığa bağlıdır. Əgər onlar bu razılığa gəliblərsə ki, sığorta şirkəti müəyyən məbləğ pulu sığortalanan şəxs vəfat etdikdən sonra onun müəyyən etdiyi şəxsə və ya şəxslərə verməlidir, bu təqdirdə şirkətin ödəyəcəyi pul mərhumun irsi hökmündə deyildir, əksinə, bu pul onun müəyyən etdiyi şəxslərə aiddir.**

## Dövlət əmlakı

**Sual 1955:** **Beytülmala aid müəyyən məbləğ pul bir neçə ildir məndədir və hal-hazırda mən borcdan çıxmaq istəyirəm. Mənim vəzifəm nədir?**

**Cavab: Əgər sizdə olan beytülmala aid pul müəyyən bir dövlət idarəsinə aid dövlət əmlakıdırsa, mümkün olduğu təqdirdə pulu həmin idarəyə qaytarmalısınız. Mümkün olmadığı təqdirdə isə, dövlətin ümumi xəzinəsinə təhvil verməlisiniz.**

**Sual 1956:** **Mən beytülmaldan şəxsi istifadə etmişəm. Borcdan çıxmaq üçün mənim vəzifəm nədir? İdarə işçiləri beytülmala aid imkanlardan hansı həddə istifadə edə bilərlər? Əgər aidiyyatı məsul şəxslərin icazəsi ilə istifadə edilərsə, hökmü nədir?**

**Cavab: İdarə işçilərinin beytülmala aid imkanlardan rəsmi iş saatlarında zəruri və ehtiyac olan işlərə adi qaydada istifadə etmələrinin – belə ki, iş şəraiti işçilərin bu həddə istifadə etmələrinə icazə verildiyini göstərir - maneəsi yoxdur. Həmçinin beytülmala aid imkanlardan istifadə edilməsinə şəriət və qanun baxımından icazə vermək haqqına malik olan şəxsin icazəsi ilə bu imkanlardan istifadə etməyin maneəsi yoxdur. Beləliklə, əgər beytülmaldan sizin şəxsi istifadəniz sözükeçən iki surətdən biri şəklində olarsa, bununla bağlı sizin öhdənizə heç nə düşmür. Yox əgər beytülmaldan adi olmayan qaydada istifadə etmisinizsə, yaxud beytülmala aid imkanlardan istifadə edilməsinə icazə vermək haqqına malik olan şəxsin icazəsi olmadan bu imkanlardan istifadə etmisinizsə, buna zaminsiniz. Əgər həmin əmlakın özü mövcuddursa, onun özünü beytülmala qaytarmalısınız. Yox əgər aradan gedibdirsə, onun əvəzini beytülmala qaytarmalısınız. Həmçinin əgər bu əmlakdan istifadə etməyin ücrəti olarsa, ücrətül-mislini beytülmala ödəməlisiniz.**

**Sual 1957:** **Müayinə üçün təyin edilən həkim heyəti mənim barəmdə əmək qabiliyyətinin itirilməsi faizini müəyyən etdikdən sonra mən dövlətdən müəyyən məbləğdə müavinət aldım. Amma mən ehtimal verirəm ki, bu məbləğdə müavinət almaq mənim haqqım deyildir və həkimlər mənimlə tanış olduqlarına görə mənə güzəşt etmişlər. Nəzərə alsaq ki, mənim yaralarım olduqca çoxdur və həmin məbləğdən artıq məbləğdə müavinət almaq mənim haqqım ola bilər, bu halda mənim vəzifəm nədir?**

**Cavab: Müayinə üçün təyin edilən həkim heyətinin müəyyən etdiyi əmək qabiliyyətinin itirilməsi faizi əsasında sizə verilən müavinəti almağınızın maneəsi yoxdur. Amma əgər yəqinliyiniz olsa ki, bu məbləği almaq qanun baxımından sizin haqqınız deyildir, bu halda həmin müavinəti almağınızın maneəsi vardır.**

**Sual 1958:** **Mühasibatda yol verilən səhv nəticəsində mən aylıq əmək haqqımın iki misli qədər əmək haqqı aldım və bu barədə müəssisənin məsuluna məlumat verdim. Amma artıq məbləği geri qaytarmadım və indi bu hadisədən təxminən dörd il keçir. Nəzərə alsaq ki, bu pul dövlət müəssisələrinin illik maliyyə büdcəsinə aiddir, bu pulu müəssisəyə necə geri qaytara bilərəm?**

**Cavab: Mühasibatçının səhvi sizin öz haqqınızdan artıq məbləğ pulu almağınıza qanuni əsas deyildir. Siz artıq məbləği – hətta bu pul ötən ilin büdcəsinə aid olsa belə – inflyasiya miqdarını hesablayaraq, həmin müəssisəyə geri qaytarmalısınız.**

**Sual 1959:** **Qanuna əsasən, əmək qabiliyyətinin itirilməsi faizi iyirmi beş faizdən yuxarı olan müharibə əlilləri müəssisədən pul krediti götürmək üçün güzəştlərdən istifadə edə bilərlər. Əmək qabiliyyətinin itirilməsi faizi qeyd edilən faizdən aşağı olan əlil şəxs bu güzəştlərdən istifadə edə bilərmi? Əgər bu güzəştlərdən istifadə etsə və müəssisədən müəyyən məbləğdə pul krediti götürsə, bu**

**puldan istifadə edə bilərmi?**

**Cavab: Beytülmaldan pul krediti götürmək şərtlərinə malik olmayan şəxsin həmin şərtlər və məziyyətlər ünvanında beytülmaldan pul krediti götürməsinə icazə verilmir. Əgər bu ünvanda pul krediti götürsə, ondan istifadə edə bilməz.**

**Sual 1960:** **Dövlət əmlakı olan malların dövlət büdcəsindən olan pul ilə alındığını nəzərə alaraq, dövlət büdcəsinə bağlı olan hansısa bir şirkət, fabrik və ya zavod, idarə özünə lazım olan vasitələri, xammalı və malları dövlət büdcəsinə bağlı olan başqa bir şirkətdən, fabrik və ya zavoddan, idarədən ala bilərmi?**

**Cavab: Əgər alış-veriş şəriət qaydalarına və dövlət qanunlara müvafiq olaraq yerinə yetirilərsə, bunun maneəsi yoxdur.**

**Sual 1961:** **Dövlətin, yaxud dövlətə bağlı fabrik və zavodların, şirkətlərin və müəssisələrin ixtiyarında olan əmlakın – istər islami dövlət, istərsə də qeyri-islami dövlət olsun – hökmü nədir? Bu əmlak "sahibi bilinməyən mal" hökmündədirmi, yoxsa dövlətin əmlakı hesab olunur?**

**Cavab: Dövlət əmlakı – hətta qeyri-islami dövlət olsa belə - şəriət baxımından dövlətin əmlakı hesab olunur və bu əmlak ilə "sahibi bilinən mal" kimi davranılmaldır. Bu əmlakdan istifadə etmək məsul şəxsin icazəsinə bağlıdır.**

**Sual 1962:** **Küfr ölkələrində ümumi əmlakda dövlətin, xüsusi əmlakda isə əmlak sahibinin haqq-hüququna riayət etmək vacibdirmi? Təhsil ocaqlarının imkanlarından həmin ölkələrin qanunlarının icazə verdiyi məqsədlərdən qeyri məqsədlər üçün istifadə etmək olarmı?**

**Cavab: Başqasının əmlakının haqq-hüququna riayət etməyin vacibliyi və əmlak sahibindən icazəsiz ondan istifadə etməyin haramlığı baxımından şəxsi əmlak ilə dövlət əmlakı arasında fərq yoxdur: istər müsəlman olsun, istərsə də qeyri-müsəlman. Həmçinin küfr ölkələrində və ya islam ölkələrində olmaları, yaxud da əmlak sahibinin müsəlman və ya kafir olması arasında fərq yoxdur. Ümumiyyətlə, əgər başqasının hansısa bir malından istifadə etmək şəriət baxımından icazəli deyildirsə, bu maldan istifadə etmək qəsb sayılır və haramdır, həmçininn zaminliyə səbəb olur.**

**Sual 1963:** **Əgər universitet tələbələrinə verilən yemək talonlarının etibarlılıq müddəti təyin edilən gündə yemək alınmadıqda talonun pulu geri qaytarılmadan qurtararsa, yemək almaq üçün etibarlılıq müddəti qurtaran talonları etibarlı sayılan talonların yerinə vermək olarmı? Bu şəkildə alınan yeməyin hökmü nədir?**

**Cavab: Yemək almaq üçün etibarlılıq müddəti qurtaran talonlardan istifadə etmək olmaz. Bu talonlar vasitəsilə alınan yemək qəsbdir və ondan istifadə etmək haramdır, həmçinin yeməyin qiymətinə zaminliyə səbəb olur.**

**Sual 1964:** **Universitetlərdə və ali təhsil müəssisələrində tələbələrə yemək və onların ehtiyacı olan bu kimi başqa vasitələr verilir. Bu imkanlar Ticarət Nazirliyi və başqa müəssisələr tərəfindən universitetdə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu vasitələr universitet işçilərinə də verilə bilərmi?**

**Cavab: Universitetdə təhsil alan tələbələrin ehtiyacı olan və onlar üçün nəzərdə tutulan vasitələrin universitet işçilərinə verilməsinə icazə verilmir.**

**Sual 1965:** **Aidiyyatı qurumlar tərəfindən müəssisə müdirlərinin və hərbi məsulların ixtiyarına avtomobillər qoyulur ki, onlardan idarə işlərində istifadə edilsin. Şəxsi məqsədlər və idarə işlərindən qeyri işlər üçün bu avtomobillərdən istifadə edilməsinə şəriət baxımından icazə verilirmi?**

**Cavab: Müdirlər, məsul işçilər və digər işçilər dövlət əmlakından şəxsi istifadə edə bilməzlər. Yalnız aidiyyatı qurumun qanuni icazəsi ilə dövlət əmlakından şəxsi istifadə edə bilərlər.**

**Sual 1966:** **Əgər bəzi məsul şəxslər idarənin rəsmi qonaqlarına yemək və meyvə alınması üçün ayrılan büdcədən sui-istifadə edib onu başqa yerlərə xərcləsələr, bu işin hökmü nədir?**

**Cavab: Dövlət əmlakını nəzərdə tutulan məqsəddən qeyri məqsədlərə xərcləmək qəsb hökmündədir və zaminliyə səbəb olur. Bu iş yalnız yuxarı vəzifədə olan məsul şəxsin qanuni icazəsi ilə yerinə yetirilə bilər.**

**Sual 1967:** **Əgər bir şəxsin dövlətdən müəyyən miqdar əmək haqqı və ya qanuni şəkildə ona verilən müəyyən məziyyətlər tələbi olarsa, amma öz haqqını isbatlamaq üçün əlində qanuni dəlillər olmazsa, yaxud öz haqqını almaq iqtidarında olmazsa, bu şəxs əvəzçıxma ünvanında ixtiyarında olan dövlət əmlakından öz haqqı miqdarında götürə bilərmi?**

**Cavab: Bu şəxs əmanət olaraq onun ixtiyarında və istifadəsində olan dövlət əmlakından əvəzçıxma ünvanında özünə götürə bilməz. Beləliklə, əgər dövlətdən pul və ya haqq tələbi olarsa və onu almaq istəyərsə, haqqını isbatlamaq və onu almaq üçün qanuni yollarla hərəkət etməlidir.**

**Sual 1968:** **Su idarəsi balığı olan çayların suyunun töküldüyü su səddinə balıqyetişdirmə məqsədilə balıq tökmüşdür. Amma idarə su səddinin balıqlarını yalnız öz işçiləri arasında paylaşdırır və camaatın bu su səddindən balıq tutmasına mane olur. Camaat bu su səddindən balıq tuta bilərmi?**

**Cavab: Su səddinin sularındakı balıqlar, hətta su səddinə tökülən çayların balıqları olsa belə, su idarəsinin ixtiyarında olan sulara aiddir. Beləliklə, bu balıqları tutmaq və onlardan istifadə etmək su idarəsinin icazəsinə bağlıdır.**

## Dövlət müəssisələrində işləmək

**Sual 1969:** **İdarə işçiləri rəsmi iş saatında camaat namazı təşkil edə bilərlərmi? Buna icazə verilmədiyi təqdirdə, əgər onlar rəsmi iş saatı qurtardıqdan sonra namaza sərf etdikləri vaxt qədər əlavə işləyəcəklərini öz öhdələrinə götürsələr, rəsmi iş saatında namaz qıla bilərlərmi?**

**Cavab: Gündəlik namazların xüsusi əhəmiyyətini və namazın vaxtın əvvəlində qılınmasına təkid edildiyini, həmçinin camaat namazının fəzilətini nəzərə alaraq, işçilərə iş saatı əsnasında vacib namazı camaatla vaxtın əvvəlində və qısa bir müddətdə qıla bilmək üçün münasib bir yol seçmək tövsiyə olunur. Amma bu işin müqəddiməsini elə bir şəkildə yerinə yetirməlidirlər ki, vaxtın əvvəlində camaat namazı qılması müraciət edənlərin işlərinin təxirə salınmasına bir bəhanə və ya səbəb olmamalıdır.**

**Sual 1970:** **Bəzi təhsil müəssisələrində müşahidə olunur ki, müəssisənin işçisi olan müəllim və ya müavin yuxarı məsul şəxsin razılığı ilə öz rəsmi iş saatlarında başqa təhsil müəssisələrində tədris edir və aylıq əmək haqqından əlavə tədris haqqı da alır. Bu işi görmək və bu işin qarşılığında ücrət almaq olarmı?**

**Cavab: Yuxarı məsul şəxsin müəssisə işçisinin rəsmi iş saatlarında onun tədrislə məşğul olmasına icazə verməsi, bu məsul şəxsin qanuni səlahiyyətlərinə bağlıdır. Amma dövlət qulluqçusunun öz rəsmi iş saatları qarşılığında hər ay əmək haqqı aldığını nəzərə alaraq, onun eyni saatlarda başqa təhsil müəssisələrində tədris etmək qarşılığında ücrət almağa haqqı yoxdur.**

**Sual 1971:** **Nəzərə alsaq ki, rəsmi iş saatı günorta saat üçün yarısına qədər davam edə bilər, idarədə iş əsnasında bir dəfə yemək yeməyin hökmü nədir?**

**Cavab: Əgər çox vaxt tələb olunmazsa və idarənin işlərinin dayanmasına səbəb olmazsa, maneəsi yoxdur.**

**Sual 1972:** **Əgər idarədə iş yerində işçinin boş saatları çox olarsa və bu saatlarda başqa şöbələrdə işləmək icazəsi olmazsa, boş vaxtlarda o öz şəxsi işlərini görə bilərmi?**

**Cavab: İş yerində iş saatlarında şəxsi işləri yerinə yetirmək idarənin qanunlarına və aidiyyatı məsul şəxsin icazəsinə bağlıdır.**

**Sual 1973:** **Dövlət idarələri və müəssisələrində işçilər camaat namazı, yaxud əzadarlıq məclisləri təşkil edə bilərlərmi?**

**Cavab: Camaat namazı təşkil etməyin və camaat namazına toplaşdıqda şəriət hökmlərini, dinin təlimlərini və bu kimi məsələləri açıqlamağın - xüsusilə də, mübarək ramazan ayında və ilahi günlərdə - maneəsi yoxdur. Bu şərtlə ki, müraciət edənlərin haqqı tapdalanmamalıdır.**

**Sual 1974:** **Biz bir hərbi hissədə işləyirik və iş yerimiz iki ayrı-ayrı yerdədir. Bəzi həmkarlarımız bir yerdən digər yerə gedərkən yolda öz şəxsi işlərini görürlər və bu işlərə çox vaxt gedir. Şəxsi işləri görmək üçün icazə almaq lazımdırmı, yoxsa yox?**

**Cavab: İş vaxtı sayılan rəsmi iş saatlarında şəxsi işləri görmək üçün icazə vermək səlahiyyətinə malik olan yuxarı vəzifəli məsul şəxsin icazəsi lazımdır.**

**Sual 1975:** **Bizim idarənin yaxınlığında bir məscid vardır. Camaat namazında iştirak etmək üçün rəsmi iş saatlarında bu məscidə gedə bilərikmi?**

**Cavab: İdarənin özündə camaat namazı təşkil edilmədiyi təqdirdə, namaz vaxtının əvvəlində camaat namazında iştirak etmək üçün məscidə getməkdən ötrü idarədən xaric olmağın maneəsi yoxdur. Amma namazın müqəddimələri elə bir şəkildə yerinə yetirilməlidir ki, camaat namazı qılmaq üçün işçinin rəsmi iş saatlarında idarədən xaric olduğu müddət mümkün qədər az olmalıdır.**

**Sual 1976:** **Əgər bir idarə işçisi hər ay təxminən otuz-qırx saat əlavə işləyirsə, idarənin məsulu işçiləri təşviq etməkdən ötrü onların əlavə iş saatlarını iki misli qədər hesablaya bilərmi? Məsələn, hər ay onlara yüz iyirmi saat əlavə iş saatı hesablaya bilərmi? Əgər bunun maneəsi olarsa, əlavə iş saatları müqabilində işçinin aldığı ücrətin hökmü nədir?**

**Cavab: Həqiqət olmayan hesabatı vermək və işin görülmədiyi əlavə iş saatları qarşılığında işçinin pul almasına icazə verilmir. İşçinin haqqı olmayan əlavə pulların geri qaytarılması vacibdir. Amma əgər qanuna görə idarə məsulunun əlavə işləyən işçinin əlavə iş saatlarını iki misli qədər hesablamaq icazəsi olarsa, o, bu işi görə bilər. Belə olduğu təqdirdə, işçi idarə məsulunun onun əlavə iş saatları barəsində yazdığı hesabata müvafiq ücrəti ala bilər.**

## Dövlət qanunları

**Sual 1977:** Əgər bir fəhlə mütəxəssis məsul işçi işdə olmadığı vaxtlarda onun işlərini yerinə yetirsə və bu yolla özü bu sahədə ustalaşıb bu sahəsinin mütəxəssisi olarsa, bu ixtisasın məziyyətlərindən faydalanmaq üçün mütəxəssisliyini isbatlayan yazılı şəhadətnamə almaqdan ötrü yuxarı vəzifəli məsul şəxslərə müraciət edə bilərmi?

**Cavab: İş təcrübəsinin və mütəxəssisliyin məziyyətlərindən faydalanmaq və yuxarı vəzifəli məsullardan şəhadətnamə almaqla mütəxəssisliyi isbatlamaq aidiyyatı qanunlara bağlıdır. Amma əgər şəhadətnamə həqiqi olmazsa, yaxud qanuna zidd olarsa, bu şəhadətnaməni almağa səy göstərməməlidir. Həmçinin belə bir şəhadətnamədən isifadə edə bilməz.**

**Sual 1978:** Ticarət Nazirliyinin tabeliyində olan İqtisadiyyat Otağı dövlət qiymətinə satışa çıxarılsın deyə, müəyyən ev əşyalarını, o cümlədən, xalça, soyuducu və s. mağazaların birinə vermişdir. Amma bazarda tələbin yuxarı olduğunu nəzərə alan mağazanın məsulu sözükeçən əşyaların satışı üçün püşkatma kağızları çap etdirmişdir. Pükşatma kağızları müəyyən qiymətə satılmışdır və onların satışından əldə edilən gəlirin xeyriyyə işlərinə sərf edilməsi nəzərdə tutulmuşdur. Sözükeçən əşyaların püşkatma yolu ilə satışının şəriət baxımından maneəsi vardırmı? Satışa çıxarılan əşyalara aid olan püşkatma kağızlarının satışının şəriət baxımından maneəsi vardırmı?

**Cavab: Mağaza məsulunun sözükeçən əşyaları aidiyyatı məsul şəxslərdən aldığı şərtlər altında satışa çıxarması vacibdir. Onun satış şərtlərini dəyişdirməyə və özündən şərtlər qoymağa haqqı yoxdur. Püşkatma kağızlarının satışından əldə edilən gəlirin xeyriyyə işlərinə sərf edilməsi sözükeçən əşyaların satışı üçün başqa şərtlər qoymağa əsas vermir.**

**Sual 1979:** Dövlətin çörəkçilərə güzəştli qiymətlə verdiyi unun satılmasına icazə verilirmi?

**Cavab: Əgər dövlət çörəkçiyə bu unu satmasına icazə vermirsə, çörəkçi onu sata bilməz və camaatın da bu unu almasına icazə verilmir.**

**Sual 1980:** Əgər mağazada olan malların qiyməti təbii şəkildə və ya qəfildən artarsa, bu malları indiki qiymətlə satmaq olarmı?

**Cavab: Əgər dövlət tərəfindən bu mallara qiymət təyin edilməyibdirsə, bu malların indiki ədalətli qiymətlə satmağın maneəsi yoxdur.**

**Sual 1981:** Əgər şəriətin hökmü ilə dövlət qanunu ziddiyyətdə olarsa – necə ki, torpaq sahiblərinin razılığı olmadan dövlətin camaatın abad torpaqlarına sahiblənmə məsələsində bu ziddiyyət mövcuddur – bu alış və sahiblənmənin hökmü nədir?

**Cavab: Müəyyən qanunlar əsasında dövlətin şəxsi mülkə sahiblənməsinin icazəli olması və dövlətin və Şəhər İcra Hakimiyyətinin ümumi layihələri həyata keçirmək üçün ehtiyac duyduğu torpaqların alınması və onlara sahiblənməsi şəxsi mülkiyyət, yaxud mülk sahibinin şəri və qanuni haqqları ilə ziddiyyət təşkil etmir.**

**Sual 1982:** Bir şəxs başqa bir şəxsə çəkdiyi zəhmətlərin qarşılığında əntiqə bir əşya vermişdir və həmin şəxs vəfat etdikdən sonra bu əntiqə əşya onun varislərinə irs çatmışdır. Bu əşya varislərin şəri əmlakı hesab olunurmu? Bu əntiqə əşyanın dövlətin ixtiyarına verilməsinin daha uyğun olduğunu nəzərə alaraq, varislər bu əşyanı dövlətə təhvil vermək qarşılığında bir şey tələb edə bilərlərmi?

**Cavab: Bir əşyanın əntiqə olması ilə onun şəxsi əmlak olması arasında ziddiyyət yoxdur və əşyanın əntiqə olması onun şəri mülkiyyətdən xaric olmasına səbəb olmur. Bu şərtlə ki,**

sahibi bu əşyanı şəri yolla əldə etməlidir. Belə olduğu təqdirdə, antiqə əşya onun mülkiyyətində qalır və şəxsi əmlakın şəri hökmləri ona aid olur. Amma əgər nəfis əşyaların və tarixi irsin qorunmasına dair dövlət tərəfindən müəyyən qanunlar qəbul edilibdirsə, bu qanunlara əməl edilərkən əmlak sahibinin şəri haqqlarına da riayət olunmalıdır. Yox əgər şəxs sözükeçən əşyanı qeyri-şəri və İslam dövləti qanunlarının ziddinə olan bir yolla əldə edibdirsə - hansı ki, bu qanunlara riayət etmək vacibdir - bu təqdirdə şəxs bu əşyanın sahibi deyildir.

**Sual 1983:** Fars körfəzi ölkələrinin sakinlərinə satılması üçün İslam Respublikasından istehlak mallarının - məsələn, geyim, düyü və s. - qaçaqmalçılığına icazə verilirmi?

**Cavab: İslam Respublikasının qanunlarına qarşı çıxmağa icazə verilmir.**

**Sual 1984:** Əgər dövlət idarələri islam hökmlərinə müəyyən qədər zidd olan qanunlar qoyarsa, işçilər bu qanunlara əməl etməyə bilərlərmi?

**Cavab: İslam Respublikasında heç kimin islam hökmlərinə zidd olan qanunlar qoymağa və ya göstəriş verməyə haqqı yoxdur. İdarə müdirinin göstərişinə tabe olmaq bəhanəsilə aydın ilahi hökmlərə qarşı çıxmağa icazə verilmir. Amma bizim bildiyimiz qədər dövlət idarələrinin mövcud qanunları arasında islam şəriətinə zidd olan qanun mövcud deyildir. Hər kim islam hökumətinə zidd olan bir qanunun mövcud olmasından xəbərdar olarsa, bu problemin həlli və islam hökmlərinə zidd olan qanunların aradan qaldırılması üçün bu barədə yuxarı vəzifəli şəxslərə məlumat verməlidir.**

**Sual 1985:** Əgər hansısa bir iş işçinin nəzərinə görə qanuna ziddirsə, amma yuxarı vəzifəli məsul şəxs bu işin maneəsiz olduğunu iddia edir və onun yerinə yetirilməsini tələb edirsə, bu məsələnin hökmü nədir?

**Cavab: Heç kimin dövlət idarələrinin mövcud qanunlarına əməl etməmək və bu qanunların ziddinə əməl etmək haqqı yoxdur. Heç bir məsul şəxs işçidən qanuna zidd işi yerinə yetirməsini tələb edə bilməz. İdarənin məsulunun bu barədə rəyi əhəmiyyət kəsb etmir.**

**Sual 1986:** Dövlət idarələrinin işçiləri bəzi müraciət edənlər barəsində kiminsə tapşırığını qəbul edə bilərlərmi?

**Cavab: İdarə işçilərinin müraciət edənlərin müraciətlərinə baxmaları və onların işlərini qanuna müvafiq şəkildə yerinə yetirmələri vacibdir. Qanuna zidd olduğu, yaxud başqalarının haqqı tapdalandığı təqdirdə, heç bir idarə işçisi kiminsə tapşırığını qəbul edə bilməz.**

**Sual 1987:** Yol hərəkəti qaydalarını, ümumiyyətlə, dövlət qanunlarını pozmağın hökmü nədir? Qanun pozuntusuna yol verilən hallar barəsində "yaxşı işlərə dəvət" və "pis işlərdən çəkindirmək" vəzifəsi yaranırmı?

**Cavab: Birbaşa olaraq İslam Şurası Məclisinin qəbul etdiyi və Konstitusiyanın Mühafizə Şurasının təsdiqlədiyi, yaxud aidiyyatı qurumların qanuni icazəsinə əsasən qəbul edilən İslam dövlətinin qanunlarını pozmaq heç kimə icazə verilmir. Hər kim qanun pozuntusuna yol verərsə, başqaları onu xəbərdar etməli və pis işdən çəkindirməlidir. (Söz yox ki, "pis işdən çəkindirməy"in şərtlərinə riayət olunmalıdır.)**

**Sual 1988:** **Bəzi xarici ölkələrdə universitetin xarici ölkə vətəndaşı olan tələbələri öz ölkəsinin vətəndaşlığından çıxıb həmin ölkənin vətəndaşlığına keçmək üçün müraciət etdikdə, müraciət qəbul edildiyi təqdirdə, o, təhsil zamanı universitetin tələbələrinə aid olan bütün imtiyazlardan faydalanacaqdır. Həmin dövlətin qanununa əsasən, bu şəxs yenə də vətəndaşlığını dəyişə və əvvəlki vətəndaşlığına qayıda bilər. Bu işin şəri hökmü nədir?**

**Cavab: İslam dövlətinin vətəndaşlarının öz vətəndaşlığını dəyişməsi əgər mövcud qanunlara zidd deyildirsə, həmçinin bu işin bir fəsadı yoxdursa və İslam dövlətinin zəifləməsinə səbəb olmazsa, bu işin maneəsi yoxdur.**

**Sual 1989:** **Xarici şirkətlərdə işləyən işçinin, yaxud xarici şirkətlərlə ticarət edən şəxsin onların qanunlarına riayət etməməsinə icazə verilirmi? Xüsusilə də, əgər bu iş İslama və müsəlmanlara qarşı bədbinliyə səbəb olacaqdırsa?**

**Cavab: Hər bir mükəlləfə başqalarının, hətta qeyri-müsəlmanların belə, haqlarına riayət etmək vacibdir.**

## Vergilər və rüsumlar

**Sual 1990:** **Bəzi şəxslər, şirkətlər, özəl və dövlət müəssisələri dövlətin müəyyən etdiyi vergiləri və rüsumları ödəməkdən yayınmaq üçün müxtəlif yollarla bəzi həqiqətləri gizlətməyə çalışırlar. Onlar bu işi görə bilərlərmi?**

**Cavab: İslam Respublikası dövlətinin qanunlarını icra etməkdən və İslam dövlətinin müəyyən etdiyi vergiləri, rüsumları və digər qanuni haqları ödəməkdən boyun qaçırmaq heç kimə icazə verilmir.**

**Sual 1991:** **Bir şəxs bankların biri ilə bağladığı müzaribə müqaviləsi vasitəsilə gəlir əldə edir və müqaviləyə əsasən əldə olunan gəlirin bir hissəsini banka verir. Vergilər idarəsi bu şəxsdən tələb edə bilərmi ki, gəlirdən öz payının vergisini ödəməklə yanaşı, bankın payının vergisini də ödəsin?**

**Cavab: Bu məsələ gəlirin vergisi barəsindəki qanunlara bağlıdır. Buna görə də, əgər mükəlləf qanun baxımından gəlirdən yalnız öz payının vergisini ödəmək məsuliyyətini daşıyırsa, şərikinin gəlirdən olan payının vergisinə zamin deyildir.**

**Sual 1992:** **Mən bir şəxsdən ev aldım və şərtə görə evin alğı-satqı vergisini yarı-yarıya ödəməliydik. Az vergi ödəyək deyə, evi satan şəxs məndən vergi məmuruna evin qiymətini alış qiymətindən aşağı söyləməyimi istədi. Evin qiyməti ilə mənim vergi məmuruna söylədiyim qiymət arasındakı pul fərqinin vergisini ödəmək mənə vacibdirmi?**

**Cavab: Evin həqiqi qiymətinə aid olan vergidən sizin payınıza düşən hissənin qalanını ödəmək sizə vacibdir.**

**Sual 1993:** **Bizim məntəqənin əhalisi arasında bu fikir geniş yayılmışdır ki, öz müsəlman əhalisini incidən, xüsusilə də, öz milləti ilə münasibətdə Əhli-beyt (ə) ardıcılları ilə başqaları arasında ayrıseçkilik qoyan qeyri-islami dövlətə su və işıq pulunu ödəmək vacib deyildir. Bu dövlətə su və işıq pulunu ödəməkdən imtina edə bilərikmi?**

**Cavab: Bu işə icazə verilmir. Əksinə, dövlətin su və işıq xidmətindən istifadə edən hər bir şəxs onun pulunu dövlətə, hətta qeyri-islami dövlət olsa belə, ödəməlidir.**

**Sual 1994:** **Ərim vəfat etmişdir və onun bank hesabında müəyyən məbləğ pul vardır. Bank ərimin vəfat etdiyi barədə məlumat aldıqdan sonra onun hesabını bağlamışdır. Digər tərəfdən Şəhər İcra Hakimiyyəti bildiriş yollamışdır ki, mərhum tikintiyə icazə sertifikatı və başqa işlərə görə öz ticarət obyektinin rüsumunu ödəməlidir, əks təqdirdə, həmin obyektləri bağlayacaqdır. Bizim övladlarımızın hamısı azyaşlıdır və bu rüsumu ödəmək iqtidarında deyilik. Sözügedən vergiləri və rüsumları ödəmək bizə vacibdirmi?**

**Cavab: Şəhər İcra Hakimiyyətinin müəyyən etdiyi rüsumlar və rəsmi vergilər dövlət qanunlarına müvafiq şəkildə ödənməlidir. Beləliklə, əgər bu rüsumlar və vergilər mərhumun öhdəsində olarsa, mərhumun irsinin üçdə biri ayrılmamış və irs bölüşdürülməmiş bu rüsumlar və vergilər irsdən ödənməlidir. Yox əgər bunlar varislərin öhsədində olarsa, varislərin əmlakından ödənilməlidir.**

# Vəqf[1]

**Sual 1995:** **Vəqfin düzgün olmasında vəqf cümlələrini oxumaq şərtdirmi? Əgər şərtdirsə, vəqf cümlələrinin ərəbcə oxunması şərtdirmi?**

**Cavab: Vəqfdə vəqf cümlələrini oxumaq şərt deyildir, çünki vəqf "muatat" şəklində də gerçəkləşə bilər. Həmçinin vəqf cümlələri oxunduğu təqdirdə, bu cümlələrin ərəbcə oxunması şərt deyildir.**

**Sual 1996:** **Bir şəxs öz bağını bu şəkildə vəqf etmişdir ki, bağın gəliri əlli il müddətinə onun qəza namaz və oruclarının yerinə yetirilməsi üçün əcir tutmağa sərf edilsin, əlli ildən sonra isə bağın gəliri qədr gecələri məclislərinə sərf edilsin. O özünün dörd oğlunu vəqf qəyyumu təyin etmişdir. Hal-hazırda bu bağ viran olmaq üzrədir və heç bir vəchlə istifadəyə yararlı deyildir. Amma əgər bağ satılarsa, onun pulu ilə vəqf edən şəxsin qəza namaz və oruclarının yerinə yetirilməsi üçün iki yüz il müddətinə əcir tutmaq olar. Onun dörd oğlu bu işə razıdır. Onlar bu bağı sata və pulunu bu işə sərf edə bilərlərmi?**

**Cavab: Əgər vəqf edən şəxsin bağı sözükeçən şəkildə vəqf etməkdə məqsədi bağı ardıcıl olaraq özünə və sonra başqalarına vəqf etmək olmuşdursa, vəqf onun özü barəsində düzgün deyildir, başqaları barəsində isə vəqf "munqətiul-əvvəl"[2] olacaqdır və onun düzgünlüyü maneəsiz deyildir. Amma əgər vəqf edən şəxs həmin bağın gəlirini əlli il müddətinə özünə aid etmək istəmişdirsə, bu işin düzgünlüyü şəri baxımdan maneəsizdir. Sözügedən vəqf düzgün olduğu təqdirdə, bağın gəlirini vəsiyyətə və vəqfə əməl etmək istiqamətində sərf etmək üçün bağı qoruyub saxlamaq mümkün olanadək – hətta bağın gəlirinin artması üçün gəlirin bir hissəsini onu qoruyub saxlamağa sərf etməklə mümkün olsa belə – yaxud bağın torpağını ev tikintisinə və ya başqa bir işə icarəyə verməklə onun icarə pulunu vəsiyyətə və vəqfə əməl etmək istiqamətində sərf etməklə onun torpağından istifadə etmək mümkün olanadək, bağı satmaq və ya onu dəyişdirmək olmaz. Bundan qeyri halda, vəsiyyətə və vəqfə əməl etmək məqsədilə onu satmağın və pulu ilə keyfiyyətli torpaq sahəsi almağın maneəsi yoxdur.**

**Sual 1997:** **Mən Allahın fəzli və tofiqi ilə kənddə məscid niyyətilə bir tikili tikdirmişəm. Amma kənddə iki məscidin olduğunu və məktəb binasının olmadığını nəzərə alaraq, hal-hazırda kəndin məscidə ehtiyacı yoxdur. Bu tikili üçün hələ məscid ünvanında vəqf cümlələri oxunmamış və məsciddə qılınan namaz ünvanında orada iki rəkət namaz qılınmamışdır. Şəriət baxımından maneəsi olmadığı təqdirdə, mən niyyətimi dəyişməyə və bu tikilini təhsil idarəsinin ixtiyarında qoymağa hazıram. Bu məsələnin hökmü nədir?**

**Cavab: Vəqf cümlələri oxunmamış və namaz qılmaları üçün namazqılanlara təhvil verilməmiş, sadəcə məscid niyyətilə bir tikilini tikmək vəqfin gerçəkləşməsi və tamamlanması üçün kifayət etmir. Bu tikili onun sahibinin mülkiyyətindədir və sahibi ondan istədiyi şəkildə istifadə edə bilər. Beləliklə, bu tikilini təhsil idarəsinin ixtiyarında qoymağın maneəsi yoxdur.**

**Sual 1998:** **Lazım olan əşyaların alınması üçün hüseyniyyəyə bağışlanan pul vəqf hökmündədirmi? Yoxsa bu pul ilə alınan əşyalar barəsində vəqf cümlələrinin oxunmasına ehtiyac vardır?**

**Cavab: Pulun toplanması vəqf hesab olunmur. Amma bu pul ilə hüseyniyyəyə əşyalar**

**alındıqdan və istifadə edilməsi üçün bu əşyalar hüseniyyədə yerləşdirildikdən sonra "muatat vəqf" gerçəkləşir və vəqf cümlələrinin oxunmasına ehtiyac yoxdur.**

[1] Vəqf etmək – insanın öz əmlakını müəyyən şəxslərə və ya xeyriyyə işlərinə aid etməsi.

[2] Munqətiul-əvvəl vəqfdə vəqfin başlanğıcı vəqf edilən zamanda deyildir, sonradan başlanır.

## Vəqfin şərtləri

**Sual 1999:** **Vəqf etməyə məcbur edilən bir şəxsin etdiyi vəqf düzgündürmü?**

**Cavab: Əgər bir şəxs məcburi şəkildə vəqf edərsə, bu işə razı olmayanadək vəqf düzgün deyildir.**

**Sual 2000:** **Bir qrup zərdüşt xəstəxana tikdirmiş və onu xeyriyyəçilik yolunda min il müddətinə vəqf etmişlər. İmamiyyə fiqhində vəqfin qayda-qanunlarını nəzərə alaraq, hal-hazırda vəqf qəyyumu vəqfnamədə qeyd edilən şərtlərə, o cümlədən bu şərtə: "Əgər xəstəxananın gəliri onun xərclərindən çox olarsa, bu gəlirlə bir neçə çarpayı alınsın və xəstəxanada mövcud çarpayıların sayı artırılsın" – zidd əməl edə bilərmi?**

**Cavab: Müsəlmanın etdiyi vəqf hansı hallarda düzgündürsə, qeyri-müsəlmanın – istər kitab-əhli olsun, istər kitab-əhli olmasın - etdiyi vəqf də həmin hallarda düzgündür. Beləliklə, xeyriyyəçilik yolunda xəstəxananın min il müddətinə vəqf edilməsi, "munqətiul-axir"[1] vəqf olsa belə, onun düzgünlüyü şəriət baxımından maneəsizdir. Buna görə də, vəqf edən şəxsin qoyduğu şərtlərə əməl etmək vəqf qəyyumuna vacibdir. Vəqf qəyyumunun bu şərtlərə qarşı laqeydlik göstərməyə və onlara zidd əməl etməyə haqqı yoxdur.**

[1] Munqətiul-axir vəqfdə vəqfin müddətinin sonu məlumdur.

## Vəqf qəyyumunun şərtləri

**Sual 2001:** Vəqf edən şəxs və ya şəri-hakim tərəfindən təyin edilən vəqf qəyyumu vəqfə aid işləri yerinə yetirmək qarşılığında özünə ücrət götürə bilərmi? Yaxud onun yerinə bu işləri yerinə yetirməsi üçün başqa bir şəxsə ücrət verə bilərmi?

**Cavab: Vəqfə aid işləri yerinə yetirməsi qarşılığında vəqf edən şəxs vəqf qəyyumu üçün müəyyən bir ücrət təyin etmədiyi təqdirdə vəqf qəyyumu – o, istər vəqf edən şəxs, istərsə də şəri hakim tərəfindən təyin edilmiş olsun – vəqfin gəlirlərindən özünə "ücrətül-misl" götürə bilər.**

**Sual 2002:** Məhkəmə vəqf qəyyumunun işlərinə nəzarət etmək üçün etibarlı bir şəxsi vəqf qəyyumuna həmkar təyin etmişdir. Bu kimi hallarda əgər vəqf qəyyumunun özündən sonrakı vəqf qəyyumunu təyin etmək haqqı olarsa, o, məhkəmənin təyin etdiyi şəxslə məsləhətləşmədən və onun rəyi olmadan özündən sonrakı vəqf qəyyumunu təyin edə bilərmi?

**Cavab: Əgər vəqf qəyyumunun işlərinə nəzarət etmək üçün etibarlı şəxsin ona həmkar təyin edilməsi hökmü ümumi olarsa və vəqfə aid bütün işlərə, o cümlədən, sonrakı vəqf qəyyumunun təyin edilməsinə də şamil olarsa, vəqf qəyyumunun özündən sonrakı vəqf qəyyumunu təyin etməkdə etibarlı şəxslə məsləhətləşmədən, özbaşına şəkildə öz rəyinə əməl etməyə haqqı yoxdur.**

**Sual 2003:** Məscidlərdən birinin qonşuluğunda yerləşən evlərin və torpaq sahələrinin sahibləri məscidin genişləndirilməsi və bu ərazilərin məscidin ərazisinə artırılması üçün öz əmlaklarını təmənnasız olaraq məscidə bağışlamışlar. İmam-cümə də alimlərlə məsləhətləşdikdən sonra bu ərazilərin vəqfi üçün ayrıca bir sənədin tənzimlənməsini qərara almışdır. Öz torpaq sahələrini məscidə bağışlayan şəxslərin hamısı bu işə razıdırlar. Amma qədim məscidi tikdirən şəxs bu işə razılıq vermir və yeni ərazilərin vəqfinin əvvəlki vəqf sənədində qeyd edilməsini və vəqfin hamısına özünün qəyyum olmasını tələb edir. Onun belə bir iş tutmağa haqqı vardırmı? Onun tələbinə müsbət cavab vermək bizə vacibdirmi?

**Cavab: Məscidin ərazisinə yeni artırılan ərazilərin vəqfinin ixtiyarı, vəqfnamənin tənzimlənməsi və vəqf qəyyumunun təyin edilməsi yeni vəqf edən şəxslərin ixtiyarındadır. Qədim məscidi tikdirən şəxsin buna qarşı çıxmağa haqqı yoxdur.**

**Sual 2004:** Əgər vəqf tamamlandıqdan sonra hüseyniyyənin vəqf qəyyumları hüseyniyyə üçün daxili nizamnamə hazırlasalar, amma nizamnamənin bəzi bəndləri hüseyniyyənin vəqf tələblərinə zidd olsa, şəriət baxımından bu bəndlərə əməl etməyə icazə verilirmi?

**Cavab: Vəqf qəyyumunun vəqfin tələblərinə zidd olan qaydalar qoymağa haqqı yoxdur və şəriət baxımından bu qaydalara əməl etməyə icazə verilmir.**

**Sual 2005:** Əgər bir neçə şəxs birlikdə vəqf qəyyumu təyin edilərsə, onlardan bəzilərinin digər bəzilərinin rəyini və razılığını almadan vəqfə aid işləri yerinə yetirmələri şəriət baxımından düzgündürmü? Əgər vəqfə aid işlərin yerinə yetirilməsində onlar arasında fikirayrılığı yaranarsa, onların hər biri özbaşına şəkildə öz rəyinə əməl edə bilərmi? Yoxsa əl saxlamalı və şəri-hakimə müraciət etməlidirlər?

**Cavab: Əgər vəqf edən şəxs onları vəqf qəyyumu təyin edərkən heç bir qeyd vurğulamayıbdırsa və onlardan bəzilərinin, hətta əksəriyyətinin müstəqil olmasına dəlalət edən bir əsas mövcud deyildirsə, bu halda onlardan heç birinin, hətta əksəriyyətinin vəqfə aid işləri – hətta müəyyən işləri - yerinə yetirməkdə müstəqil şəkildə hərəkət etmək haqları yoxdur. Əksinə, onlar vəqfə aid işləri yerinə yetirməkdə bir-biriləri ilə məsləhətləşməli və**

**vahid qərar qəbul edib, birgə hərəkət etməlidirlər. Əgər onların arasında ixtilaf və fikirayrılığı yaranarsa, şəri-hakim onları vahid qərar qəbul etməyə vəzifələndirsin deyə, bu xüsusda şəri-hakimə müraciət etməlidirlər.**

**Sual 2006:** **Vəqf qəyyumlarından bəzilərinin digər bəzilərini bu vəzifədən kənarlaşdırmaları şəriət baxımından düzgündürmü?**

**Cavab: Düzgün deyildir. Amma əgər vəqf edən şəxs onlara belə bir səlahiyyəti veribdirsə, bu hal istisnadır.**

**Sual 2007:** **Əgər vəqf qəyyumlarından bəziləri digər bəzilərinin xəyanətkar olduğunu iddia edərlərsə və onların bu vəzifədən kənarlaşdırılmalarını tələb edərlərsə, şəri hökm nədir?**

**Cavab: Xəyanətdə ittiham olunan şəxslərin ittihamının araşdırılması şəri-hakimə həvalə olunmalıdır.**

**Sual 2008:** **Əgər bir şəxs öz torpaq sahəsini "ümumi vəqf"[1] edərsə və özü həyatda ikən özünü, vəfat etdikdən sonra isə oğul övladlarının ən böyüyünü vəqf qəyyumu təyin edib, vəqfi əmlaka aid işlərin yerinə yetirilməsində ona xüsusi səlahiyyətlər də verərsə, Vəqf və Xeyriyyəçilik İdarəsi bu səlahiyyətlərin hamısını və ya bəzisini vəqf qəyyumundan ala bilərmi?**

**Cavab: Vəqf edən şəxs tərəfindən təyin edilən vəqf qəyyumu ona verilən səlahiyyətlərdən kənara çıxmayana qədər vəqfə aid işlərin yerinə yetirilməsi vəqf edən şəxsin təyin etdiyi şəkildə onun ixtiyarındadır. Vəqf əsnasında vəqf edən şəxsin vəqf qəyyumu üçün müəyyən etdiyi səlahiyyətlərin dəyişdirilməsi şəriət baxımından düzgün deyildir.**

**Sual 2009:** **Bir şəxs bir torpaq sahəsini məscidə vəqf etmiş və öz övladlarını nəsilbənəsil vəqf qəyyumu təyin etmişdir. Övladlarının nəsli davam etmədiyi təqdirdə isə bu məsciddə gündəlik namazları qılan imam-caamatı (pişnamaz) vəqf qəyyumu təyin etmişdir. Bu əsasla, vəqf qəyyumunun nəsli davam etmədikdən sonra bu vəzifəni həmin məsciddə gündəlik namazları qılan bir din alimi öz öhdəsinə götürmüşdür. Amma indi o, infarkt keçirmiş və camaat namazı qılmağa qadir deyildir. Buna görə də, camaat namazı imamları şurası başqa bir alimi məscidin hazırkı imam-camaatı təyin etmişlər. Belə olduğu təqdirdə, əvvəlki din alimi vəqfi əmlaka qəyyumluq vəzifəsindən kənarlaşırmı? Yoxsa bu din aliminin camaat namazını qılması üçün başqa bir şəxsi öz vəkili və ya naibi ünvanında təyin etməyə, özü isə vəqf qəyyumu olaraq qalmağa haqqı vardır?**

**Cavab: Əgər bu din alimi məsciddə gündəlik namazları qılan imam-camaat olduğuna görə vəqf qəyyumu təyin edilibdirsə, xəstəliklə əlaqədar olaraq və ya başqa bir səbəbə görə məsciddə camaat namazına imamlıq etməyə qadir olmadığı təqdirdə vəqfi əmlaka qəyyumluq vəzifəsi onun öhdəsindən götürülür.**

**Sual 2010:** **Bir şəxs öz əmlakını vəqf etmişdir ki, onun gəliri müəyyən xeyriyyə işlərinə, o cümlədən, seyidlərə yardım edilməsinə və əzadarlıq məclislərinin təşkil edilməsinə sərf edilsin. Hal-hazırda bu əmlakın icarə qiyməti – belə ki, əmlakın icarəyə verilməsindən əldə edilən gəlir vəqfi əmlakın gəliri hesab olunur – artdığına görə bəzi müəssisələr və ya şəxslər bu əmlakda müəyyən imkanların olmadığına görə, yaxud mədəni, siyasi, ictimai və ya dini səbəblərə görə, onu çox aşağı qiymtə icarəyə götürmək istəyirlər. Vəqf qəyyumu bu əmlakı günün qiymətindən aşağı qiymətə icarəyə verə bilərmi?**

**Cavab: Vəqfin şəri qəyyumu və vəqf işlərini idarə edən məsul şəxs icarə üçün müraciət edən şəxsə əmlakı icarəyə verməkdə və icarənin qiymətini təyin etməkdə vəqfin məsləhət və mənfəətini nəzərə almalıdır. Beləliklə, əgər icarəçi şəxsin xüsusi durumu və ya vəqfi əmlakın icarəyə götürüldüyü işin əhəmiyyəti baxımından əmlakın aşağı qiymətə icarəyə verilməsi vəqfin məsləhət və mənfəətinə olarsa, maneəsi yoxdur. Əks təqdirdə isə, buna icazə verilmir.**

**Sual 2011:** **Mərhum İmam Xomeyninin (r.ə) rəyinə görə məscidin qəyyumu olmur. Bu hökm məscidə vəqf edilən əmlaka, məsələn, məsciddə moizə və maarifləndirmə, şəriətin təlimi məclislərinin təşkil edilməsi üçün vəqf edilən əmlaka da şamil olurmu? Şamil olduğu təqdirdə, bir çox məscidlərin vəqfi əmlakı və bu əmlakın da qanuni və şəri vəqf qəyyumu olduğunu, Vəqf İdarəsinin də onlarla vəqf qəyyumu ünvanında davrandığını nəzərə alaraq, onlar bu vəqfi əmlakın qəyyumluq vəzifəsini kənara qoya və vəqfi əmlakın idarə edilməsi barəsində olan vəzifələrindən imtina edə bilərlərmi? Halbuki, İmam Xomeynidən (r.ə) soruşulan sualda o qeyd etmişdir ki, vəqf qəyyumunun vəqfi əmlakın qəyyumluq vəzifəsindən imtina etməyə haqqı yoxdur, əksinə, vəqf edən şəxsin müəyyən etdiyi şəkildə əməl etməli və bu xüsusda səhlənkarlıq etməməlidir?**

**Cavab: "Məscidin qəyyumu olmur" hökmü məscidin özünə aiddir və məscidə vəqf edilən əmlaka şamil olmur. Deməli, məcsiddə moizə və maarifləndirmə, şəriətin təlimi kimi məclislərin təşkil edilməsi üçün vəqf edilən əmlaka da şamil olmayacaqdır. Buna görə də, xüsusi və ümumi vəqf üçün vəqf qəyyumunun təyin edilməsinin, hətta məscidin ehtiyaclarının aradan qaldırılması, məsələn, məscidə lazım olan əşyaların alınması, məscidin işıqlandırılması, su ilə təmin olunması, təmizliyi və s. üçün vəqf edilən əmlaka vəqf qəyyumunun təyin edilməsinin maneəsi yoxdur. Ehtiyat-vacibə görə, təyin edilən vəqf qəyyumunun bu kimi vəqfi əmlakın qəyyumluq vəzifəsindən imtina etməyə haqqı yoxdur. Əksinə, vəqf edən şəxsin vəqfnamədə müəyyən etdiyi şəkildə əməl etməsi – hətta bu iş üçün özünə naib tutmaqla olsa belə - vacibdir. Heç kimin vəqfi əmlakın idarə edilməsində vəqf qəyyumuna maneəçilik və problem yaratmağa haqqı yoxdur.**

**Sual 2012:** **Vəqfin şəri qəyyumundan qeyri bir şəxs vəqfi əmlaka aid işlərə müdaxilə etmək, ondan istifadə etmək və vəqfnamədə qeyd edilən şərtləri dəyişməklə vəqfin şəri qəyyumuna maneəçilik yarada bilərmi? Yaxud vəqfi torpaq sahəsini vəqf qəyyumunun saleh bilmədiyi bir şəxsə təhvil verməsini ondan tələb edə bilərmi?**

**Cavab: Vəqf edən şəxsin vəqfnamədə müəyyən etdiyi şəkildə vəqfi əmlaka aid işləri idarə etmək, yalnız vəqfin xüsusi şəri qəyyumunun öhdəsindədir. Əgər vəqf edən şəxs xüsusi bir vəqf qəyyumu təyin etməyibdirsə, vəqfi əmlaka aid işləri idarə etmək müsəlmanların şəri-hakiminin və bu işlərə müdaxilə etmək haqqına malik olan şəxsin öhdəsindədir. Eləcə də, heç kimin, hətta vəqfin şəri qəyyumunun vəqfin məqsədini və ya vəqfnamədə qeyd edilən şərtləri dəyişdirməyə haqqı yoxdur.**

**Sual 2013:** **Əgər vəqf edən şəxs bir şəxsi vəqf nəzarətçisi təyin edib şərt qoysa ki, yalnız müsəlmanların vəliyyi-əmri onu vəqf nəzarətçiliyindən kənarlaşdıra bilər, həmin şəxs özünü bu vəzifədən kənarlaşdıra bilərmi?**

**Cavab: Ehtiyat-vacibə görə, vəqf nəzarətçisi bu vəzifəni qəbul etdikdən sonra özünü bu vəzifədən kənarlaşdıra bilməz. Necə ki, vəqf qəyyumu da bu işi görə bilməz (yəni özünü vəqfi əmlaka qəyyumluq vəzifəsindən kənarlaşdıra bilməz).**

**Sual 2014:** **Bir vəqfi əmlakın bir hissəsi xüsusi, bir hissəsi isə ümumi vəqfdir. Vəqf edən şəxs bu vəqfi əmlakın qəyyumluğu vəzifəsi barəsində belə qeyd etmişdir: "Qəyyum vəfat etdikdə bu vəzifə nəsilbənəsil – birinci nəsil ikinci nəsildən öndə tutulması şərtilə - oğlan övladlarından ən böyüyü və ən salehinin öhdəsindədir". Belə olduğu təqdirdə, əgər birinci nəslin nümayəndələri arasında bütün şərtlərə malik şəxs mövcud olarsa, amma vəqf qəyyumluğunu qəbul etməkdən imtina edərsə, eyni halda saleh və bu vəzifəyə layiq bildiyi kiçik övladın qəyyumluğu ilə razılaşarsa, digər şərtlərə malik olduğu təqdirdə kiçik övlad vəqf qəyyumluğunu qəbul edə bilərmi?**

**Cavab: Vəqfi əmlaka qəyyumluq vəzifəsinə layiq olan bir şəxs bu vəzifəni qəbul etməkdən imtina edə bilər. Amma bu vəzifəni qəbul etdiyi təqdirdə, ehtiyata görə, özünü bu vəzifədən kənarlaşdıra bilməz. Amma şəxsən idarə etmək şərt qoyulmadığı təqdirdə, etibarlı və**

**layiqli olan başqa bir şəxsi vəqfi əmlaka aid işlərin idarə edilməsində özünə vəkil edə bilər. Həmçinin əvvəlki nəsildə bütün şərtlərə malik şəxs mövcud olduğu və vəqf qəyyumluğunu qəbul etdiyi halda, sonrakı nəsildən olan bir şəxsin vəqf qəyyumluğu vəzifəsini öhdəsinə götürməsinə icazə verilmir.**

**Sual 2015:** **Əgər "moqufun-ələyhim"[2] arasından bəzi şəxslər – belə ki, lazımi şərtlərə malik olduqları təqdirdə vəqf qəyyumluğu vəzifəsini icra etmək haqqına malikdirlər - şəri-hakimə müraciət edib onları vəqf qəyyumu təyin etməsini ondan istəsələr, amma şəri-hakim onların lazımi şərtlərə malik olmadıqlarını əsas gətirib bu istəyi qəbul etməsə, bu şəxslər yaşı az olduğunu əsas gətirib lazımi şərtlərə malik olan bir şəxsin vəqf qəyyumu təyin edilməsinə qarşı çıxa bilərlərmi?**

**Cavab: Lazımi şərtlərə malik olmayan şəxsin vəqf qəyyumu olmaq, habelə, lazımi şərtlərə malik olan şəxsin vəqf qəyyumu təyin edilməsinə qarşı çıxmağa haqqı yoxdur.**

**Sual 2016:** **Əgər vəqfi əmlaka aid işləri idarə etmək üçün təyin edilən vəqf qəyyumu müəyyən səbəbə görə öz vəzifəini yerinə yetirməkdə səhlənkarlıq göstərsə, onu bu vəzifədən kənarlaşdırmaq və başqa bir şəxsi vəqf qəyyumu təyin etmək olarmı?**

**Cavab: Vəqfi əmlaka aid işləri idarə etməkdə sadəcə səhlənkarlıq göstərmək təyin edilən vəqf qəyyumunu bu vəzifədən kənarlaşdırmaq və onun yerinə başqa bir şəxsi təyin etmək üçün şəri əsas deyildir. Əksinə, bu barədə şəri-hakimə müraciət etmək lazımdır ki, onu vəqfi əmlaka aid işləri idarə etməyə vadar etsin. Əgər onu öz vəzifəsini yerinə yetirməyə vadar etmək mümkün olmazsa, şəri-hakim ondan tələb etməlidir ki, vəqfi əmlaka aid işləri yerinə yetirməsi üçün özünə saleh bir vəkil təyin etsin. Yaxud şəri-hakimin özü etibarlı bir şəxsi ona həmkar təyin etməlidir.**

**Sual 2017:** **İranın müxtəlif şəhər və kəndlərində uzun illərdir ziyarətgah olan və xüsusi vəqf olmayıb, xüsusi bir vəqf qəyyumuna malik olmayan imamzadələrin (ə) ziyarətgahlarına başçılıq etmək səlahiyyəti, o cümlədən, bu məkanların qorunub saxlanması, təmir edilməsi, abadlaşdırılması, nəzirlərin toplanması kimə aiddir? Qədim zamanlardan bəri ölülərin dəfn edildiyi məkan olan imamzadələrin (ə) ziyarətgahının torpağı barəsində kimsə mülkiyyət iddiası edə bilərmi?**

**Cavab: Müqəddəs ziyarətgahların və xüsusi bir vəqf qəyyumuna malik olmayan ümumi vəqfin vəqf qəyyumluğu vəzifəsi şəri-hakimin və müsəlmanların vəliyyi-əmrinin öhdəsindədir. Hal-hazırda bu vəzifə Vəqf və Xeyriyyə İşləri İdarəsində vəliyyi-fəqihin nümayəndəsinin öhdəsinə qoyulubdur. Qədim zamanlardan bəri müsəlmanların ölülərinin dəfni üçün nəzərdə tutulan imamzadələrin (ə) ziyarətgahının torpağı ümumi vəqf hökmündədir. Amma əgər bunun əksi şəri-hakimə şəri yolla sübuta yetərsə, hökm fərqlidir.**

**Sual 2018:** **Vəqfi əmlakdan istifadə edən və hamılıqla müsəlman olan şəxslər müsəlman olmayan bir şəxsin vəqf qəyyumluğuna namizədliyini irəli sürə və vəqf qəyyumu təyin edilməsinə dair qərar çıxarması üçün onu Vəqf İdarəsinə tanıtdıra bilərlərmi?**

**Cavab: Müsəlman olmayan şəxs müsəlmanlara aid vəqfi əmlaka qəyyumluq vəzifəsinə təyin edilə bilməz.**

**Sual 2019:** **Vəqf edən şəxs tərəfindən təyin edilən və təyin edilməyən vəqf qəyyumu kimdir? Əgər vəqf edən şəxs müəyyən bir şəxsi vəqf qəyyumu təyin edərsə və özündən sonrakı vəqf qəyyumunu təyin etməyi də onun öhdəsində qoyarsa, onun təyin etdiyi sonrakı vəqf qəyyumu vəqf edən şəxs tərəfindən təyin edilən qəyyum hesab olunurmu?**

**Cavab: Təyin edilən vəqf qəyyumu o şəxsdir ki, vəqf edən şəxs vəqf cümlələri oxunanda onu vəqf qəyyumu təyin etmişdir. Əgər vəqf cümlələri oxunanda sonrakı vəqf qəyyumunu**

təyin etmək səlahiyyətini də ona həvalə edibdirsə, onun özündən sonrakı vəqf qəyyumunu təyin etməsinin maneəsi yoxdur. Həmçinin onun təyin etdiyi sonrakı vəqf qəyyumu vəqf edən şəxs tərəfindən təyin edilən qəyyum hökmündədir.

**Sual 2020:** **İslam Respublikasının Vəqf İdarəsi vəqf qəyyumunu bu vəzifədən kənarlaşdıra bilərmi? Əgər kənarlaşdıra bilərsə, bunun hansı şərtləri vardır?**

**Cavab: Vəqf İdarəsi qanunun icazə verdiyi çərçivədə xüsusi vəqf qəyyumu olan vəqflərə müdaxilə etmək haqqına malikdir.**

**Sual 2021:** **Vəqf qəyyumu öz vəzifəsini Vəqf və Xeyriyyə işləri İdarəsinə həvalə edə bilərmi?**

**Cavab: Vəqf qəyyumunun belə bir haqqı yoxdur. Amma Vəqf İdarəsini və ya başqa bir şəxsi vəqf işlərini idarə etməkdə özünə vəkil edə bilər.**

**Sual 2022:** **Məhkəmə vəqf işlərini idarə etməkdə səhlənkarlıqda ittiham edilən vəqf qəyyumunun işlərinə nəzarət etmək üçün bir şəxsi etibarlı nəzarətçi ünvanında təyin etmişdir. Vəqf qəyyumu ona ünvanlanan ittihamın əsassız olduğunu sübuta yetirdikdən sonra vəfat etmişdir. Bu etibarlı nəzarətçi vəqf qəyyumunun illər öncə - yəni etibarlı nəzarətçi bu vəzifəyə təyin edilməmişdən qabaq – qəbul etdiyi qərarları təsdiqləmək və ya ləğv etməklə bu qərarlara müdaxilə edə və fikir yürüdə bilərmi? Yoxsa onun vəzifəsi və nəzarət haqqı, yalnız onun bu vəzifəyə təyin edilməsinə dair çıxarılan hökmün tarixi ilə vəqf qəyyumunun vəfat etdiyi tarix arasındakı zaman kəsiminə aiddir? Nəzərə alsaq ki, vəqf qəyyumunun günahsız olduğuna dair hökm çıxarıldığı tarixdən etibarən etibarlı nəzarətçinin bu vəzifədən kənarlaşdırılmasına dair heç bir iş görülməmişdir, vəqf qəyyumunun günahsız olduğuna dair hökm çıxarılması ilə etibarlı nəzarətçinin vəzifəsi başa çatırmı? Yoxsa o, məhkəmə tərəfindən bu vəzifədən kənarlaşdırılmalıdır?**

**Cavab: Əgər etibarlı nəzarətçinin şəri vəqf qəyyumuna həmkar təyin edilməsinin səbəbi, vəqf qəyyumunun vəqf işlərini idarə etməkdə səhlənkarlıqda ittiham edilməsi olmuşdursa, etibarlı nəzarətçinin yalnız nəzarətçi təyin edildiyi işlərə müdaxilə etmək və fikir yürütmək haqqı vardır. Etibarlı nəzarətçinin, barəsində ittiham irəli sürülən vəqf qəyyumunun işlərinə nəzarət etmək səlahiyyəti, vəqf qəyyumunun günahsız olduğuna dair hökmün çıxarılması ilə başa çatır. Eləcə də, vəqf qəyyumu vəfat etdikdən və bu vəzifə başqa bir şəxsə ötürüldükdən sonra bu etibarlı nəzarətçinin yeni vəqf qəyyumunun vəqfə dair işlərinə müdaxilə etməyə haqqı yoxdur.**

---

[1] Ümumi vəqf – əmlakın ümumi mənafeyi olan işlərə vəqf edilməsidir. Məsələn, məscidlərin, körpülərin, məktəblərin və s. tikintisinə edilən vəqf. Yaxud da əmlakın ümumi ünvanlara – məsələn, yoxsullara, yetimlərə və s. - vəqf edilməsidir.

[2] Vəqf kimlərə edilibdirsə, həmin şəxslər "moqufun-ələyhim" adlanır.

## Vəqf edilən əmlakın şərtləri

**Sual 2023: Əgər bir qrup şəxs xeyriyyəçilərdən pul toplasalar və hüseyniyyə açmaq məqsədilə bu pulla bir ev alsalar, bu iş üçün onların pul toplamaları bu evi hüseyniyyə ünvanında vəqf etmək haqqına malik olmalarına kifayət edirmi? Yoxsa bu iş üçün pulun sahibləri onları vəkil etməlidir? Nəzərə alsaq ki, əmlakın sahibi olmaq və ya sahib hökmündə olmaq vəqf edən şəxsin şərtlərindəndir, bu şəxslər isə pulun sahibi deyildirlər, bu pulu topladıqlarına görə, onlar "pulun sahibi" hesab olunurlarmı və vəqf etmək haqqına malik olurlarmı?**

**Cavab: Əgər evi alıb hüseyniyyə ünvanında vəqf etməkdə xeyriyyəçi şəxslər tərəfindən vəkil olarlarsa, pulun sahiblərinin vəkili ünvanında onların etdikləri vəqf düzgündür.**

**Sual 2024: Ənfal hesab olunan təbii meşələr və çöllüklər – belə ki, onların yaranmasında insanın müdaxiləsi olmamışdır – vəqf edilə bilərmi?**

**Cavab: Vəqfin düzgün olmasında vəqf edən şəxsin "xüsusi şəri sahib" olması şərtdir. Ənfal və ümumi əmlak olan təbii meşələr və çöllüklər heç kəsin xüsusi mülkü olmadığına görə, onların kiminsə tərəfindən vəqf edilməsi düzgün deyildir.**

**Sual 2025: Bir şəxs əkin sahəsinin müşa[1] şəklində şərikli olan bir hissəsini almış və bu mülkü rəsmi şəkildə oğlunun adına qeydiyyatdan keçirmişdir. Bu şəxs öz oğlu üçün aldığı bu torpaq sahəsini vəqf edə bilərmi?**

**Cavab: Mülkün bir şəxsin adına rəsmi qeydiyyatdan keçməsi həmin şəxsin şəri sahibliyinə dair meyar deyildir. Beləliklə, əgər ata torpaq sahəsini aldıqdan və onu oğlunun adına rəsmi qeydiyyatdan keçirdikdən sonra bu torpaq sahəsini oğluna bağışlayarsa və hədiyyənin təhvil alınması düzgün şəkildə həyata keçərsə, bu halda atanın bu torpaq sahəsini vəqf etməyə haqqı yoxdur. Çünki o, bu torpaq sahəsinin sahibi deyildir. Amma əgər təkcə torpaq sahəsinin sənədini oğlunun adına keçiribdirsə və mülk onun öz mülkiyyətində qalıbdırsa, şəri baxımdan o, bu torpaq sahəsinin sahibidir və onu vəqf etməyə haqqı vardır.**

**Sual 2026: Əgər Neft şirkəti və Şəhər Torpaq İdarəsinin məsulları şirkətin və ya idarənin ixtiyarında olan torpaq sahələrinin bir hissəsini məscidlərin və dini elmlər mədrəsələrinin tikintisinə ayırsalar, vəqfin xüsusi cümlələri oxunduqdan və vəqfi əmlak təhvil alındıqdan sonra bu torpaq sahələri vəqfi əmlak hesab olunurmu? Vəqfin şəri hökmləri onlara aid olurmu?**

**Cavab: Əgər bu torpaq sahələri dövlətin ümumi əmlakından olarsa və onların xüsusi bir yerə istifadə edilməsi müəyyən edilibdirsə, bu torpaq sahələri vəqf edilə bilməz. Amma əgər heç kimin mülkü olmayan "ölü torpaqlar" olarsa və dövlətin, ya Neft Şirkətinin, ya Şəhər Torpaq İdarəsinin ixtiyarında olarsa, aidiyyatı məsulların icazəsi ilə bu torpaq sahələrinin məscid, mədrəsə və s. ünvanında istifadə edilməsinin maneəsi yoxdur.**

**Sual 2027: Şəhər İcra Hakimiyyəti öz ixtiyarında olan əmlakdan ümumi mənfəəti olan işlərə vəqf etmək haqqına malikdirmi?**

**Cavab: Bu məsələ, Şəhər İcra Hakimiyyətinin qanuni səlahiyyətlərinə və mülkün xüsusiyyətlərinə bağlıdır. Buna görə də, əgər bu mülk Şəhər İcra Hakimiyyətinin qanun əsasında ümumi mənfəəti olan işlərə - məsələn, klinikaların, xəstəxanaların, məscidlərin və s. tikintisinə - ayıra bilmək səlahiyyətinə malik olduğu mülkdən olarsa, bu halda onu vəqf**

**etməsinin maneəsi yoxdur. Amma əgər İcra Hakimiyyətinə aid işlərə istifadə edilməsi üçün müəyyən edilən mülkdən olarsa, onu vəqf etmək haqqına malik deyildir.**

[1] Müşa mal-mülk – şərikli mal-mülkə deyilir ki, şəriklər onun hissəbəhissəsində şərikdirlər.

## “Moqufun-ələyh”in[1] şərtləri

**Sual 2028:** **Bir məntəqənin əhalisi Şəhər Torpaq İdarəsindən aldıqları bir torpaq sahəsində məscid tikdikdən sonra onlar arasında məscidi hansı şəkildə vəqf etmək – ümumi, yoxsa xüsusi vəqf etmək – barədə fikirayrılığı yarandı. Onların bir dəstəsi bu qənaətdə idi ki, məscid xüsusi vəqf kimi qeydiyyatdan keçməlidir. Başqa bir dəstəsi isə bu qənaətdə idi ki, məntəqənin bütün əhalisi məscidin tikintisində iştirak etdikləri üçün məscid ümumi vəqf kimi qeydiyyatdan keçməlidir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Məscid ümumi vəqflərdəndir, məscidi müəyyən bir qrup və ya tayfa üçün vəqf etmək olmaz. Amma məscidə ad verilməsi məsələsində müəyyən bir münasibətlə onu müəyyən şəxsin və ya şəxslərin adı ilə adlandırmağın maneəsi yoxdur. Məscidin tikintisində iştirak edən möminlərin qeyd edilən məsələ barədə mübahisə etmələri onlara yaraşmaz.**

**Sual 2029:** **Azğın bir firqənin başçısı öz əmlakını bu firqəyə vəqf etmişdir. Nəzərə alsaq ki, vəqfin düzgün olmasında vəqfin məqsədinin şəri məqsəd olması şərtdir, digər tərəfdən isə bu azğın firqənin hədəfi, etiqadları və əməlləri azdırıcı və yanlışdır, belə olduğu təqdirdə bu vəqf düzgündürmü? Bu əmlakdan sözügedən firqənin xeyrinə istifadə edilə bilərmi?**

**Cavab: Əgər sübuta yetsə ki, əmlakın vəqf edildiyi məqsəd haram məqsəd olub, günaha dəstək olmağın nümunələrindəndir, bu təqdirdə belə bir vəqf düzgün deyildir və şəri baxımdan haram olan məqsəd üçün bu əmlakdan istifadə edilməsi düzgün deyildir.**

[1] Vəqf kimə və ya nəyə edilibdirsə, həmin şəxs və ya şey “moqufun-ələyh” adlanır.

## Vəqf olunan şeyin şərtləri

**Sual 2030:** **Bir məntəqənin əhalisi üçün tikilən hüseyniyyədə əzadarlıq məclislərində iştirak edənlər, həmçinin bu məntəqənin əhalisi vəqfnamənin bəndlərinin açıqlamasına müdaxilə etmək haqqına malikdirlərmi?**

**Cavab: Vəqfnamənin bəndlərində müxtəsərlik və ya qeyri-müəyyənlik olduğu təqdirdə onların başa düşülməsi üçün "haliyyə qərinə"lər və ya "məqaliyyə qərinə"lərə, yaxud ürfə müraciət olunmalıdır. Heç kimin onları öz düşüncəsinə uyğun açıqlamaq haqqı yoxdur.**

**Sual 2031:** **Əgər bir məkan dini elmlərin tədrisi və təhsili üçün vəqf edilərsə, bu məkanda tələblər təhsil aldığı bir halda adi insanlar və müsafirlər oranın imkanlarından istifadə edə bilərlərmi?**

**Cavab: Əgər bu məkan yalnız dini elmlər tələbələrinə, yaxud dini elmlərin tədrisi və təhsili məqsədilə vəqf edilərsə, başqalarının bu məkandan istifadə etmələrinə icazə verilmir.**

**Sual 2032:** **Bu cümlə vəqfnamədə qeyd edilmişdir: "Vəqfdə şərt qoyulur ki, bütün əhali arasından bir heyət "idarə heyəti" ünvanında seçilsin." Bu cümlə seçicilərin təyin edildiyinə dəlalət edirmi? Dəlalət etmədiyi təqdirdə, idarə heyətini seçmək haqqı kimlərə aiddir?**

**Cavab: Sözügedən cümlənin zahiri idarə heyətinin seçilməsində bütün əhalinin iştirak etmələrinə dəlalət edir. Ümumiyyətlə, əgər vəqf edən şəxs vəqf əqdində idarə heyətini seçən şəxsi və ya şəxsləri müəyyən etməzsə, vəqf xüsusi vəqf qəyyumuna malik olduğu təqdirdə idarə heyətini seçmək vəqf qəyyumunun səlahiyyətidir. Bir neçə xüsusi vəqf qəyyumuna malik olduğu və onlar arasında fikirayrılığı mövcud olduğu təqdirdə, yaxud da vəqf edən şəxs tərəfindən vəqf qəyyumu təyin edilmədiyi təqdirdə, bu məsələ barəsində şəri-hakimə müraciət olunmalıdır.**

**Sual 2033:** **Əgər "moqufun-ələyhim"[1] arasında yaş baxımından hamıdan böyük olan oğlan övladının vəqf qəyyumluğunda "ən yetkin və ən saleh" xüsusiyyəti şərt qoyularsa, yetkinlik və salehliyin sübuta yetməsi vacibdirmi? Yoxsa bu şəxsin təkcə yaş baxımından böyük olması, onun ən yetkin və ən saleh olmasının qəbul edilməsinə əsas verir?**

**Cavab: Vəqf qəyyumu üçün müəyyən edilən bütün şərtlər dəqiqləşməli və öz təsdiqini tapmalıdır.**

**Sual 2034:** **Bir şəxs öz əmlakını Həzrət Əba Əbdillah Hüseynin (ə) məhərrəmlikdə və başqa günlərdə təşkil edilən əzadarlıq məclislərinə vəqf etmişdir. O özündən sonra övladlarını əbədi olaraq bu vəqfi əmlakın qəyyumu təyin etmiş, həmçinin əmlakın gəlirinin üçdə birini vəqf qəyyumu üçün müəyyən etmişdir. Əgər bir zamanlar vəqf edən şəxsin varislər mərtəbəsinin birinci, ikinci və üçüncü mərtəbəsindən oğlan və qız övladları olarsa, vəqf qəyyumluğu onların hamısı üçün müştərək şəkildə olacaqdırmı və bu vəzifə onlar arasında bölüşdürüləcəkdirmi? Bu vəzifə onların hamısı arasında bölüşdürüldüyü təqdirdə, oğlan və qız övladları arasında bərabər şəkildə, yoxsa müəyyən fərqlərlə bölüşdürüləcəkdir?**

**Cavab: Əgər varislər mərtəbələri əsasında ardıcıllığa və əvvəlki nəslin sonrakı nəsildən öndə olduğuna dəlalət edən əlamət və sübut mövcud olmazsa, hər zamanda mövcud olan bütün varislər mərtəbələri müştərək və bərabər şəkildə vəqf qəyyumu olacaqdır. Qəyyumluq vəzifəsi oğlan və qız arasında fərq qoyulmadan, onların arasında bərabər şəkildə bölüşdürüləcəkdir.**

**Sual 2035:** **Əgər vəqf edən şəxs vəqf qəyyumluğu vəzifəsini özündən sonra ümumi şəkildə alimlər və müctəhidlər üçün qərar**

**verərsə, müctəhid olmayan bir din aliminin vəqf qəyyumluğu vəzifəsini öz öhdəsinə götürməyə haqqı vardırmı?**

**Cavab: Vəqf edən şəxsin "alimlər" dedikdə, "müctəhidlər"i nəzərdə tutduğu dəqiqləşməyənədək, bir din aliminin - hətta ictihad dərəcəsinə çatmasa belə - vəqf qəyyumluğu vəzifəsini öz öhdəsinə götürməsinin maneəsi yoxdur.**

---

[1] Vəqf kimlərə edilibdirsə, həmin şəxslər "moqufun-ələyhim" adlanır.

## Vəqfin hökmləri

**Sual 2036:** **Bir qrup şəxs xüsusi vəqf qəyyumunun icazəsi olmadan, cami məscidinin mədrəsə otağı ilə məscidə birləşən hüseyniyyə mətbəxinin arasında yerləşən kitabxananı uçurmuş və bu yeri məscidin sahəsinə qatmışlar. Onların bu işi düzgündürmü? Bu məkanda namaz qılmaq olarmı?**

**Cavab: Əgər sübuta yetsə ki, kitabxananın yeri yalnız kitabxana üçün vəqf edilibdir, heç kimin oranı məscidə çevirmək haqqı yoxdur və həmin yerdə namaz qılmağa icazə verilmir. Kitabxananın binasını uçuran şəxs onu əvvəlki vəziyyətinə qaytarmalıdır. Amma əgər həmin yerin məhz kitabxana üçün vəqf edildiyi sübuta yetməsə, orada namaz qılmağın maneəsi yoxdur.**

**Sual 2037:** **Bir məkan müvəqqəti olaraq - məsələn, on il müddətinə - məscid ünvanında vəqf edilə və bu müddət başa çatdıqdan sonra yenidən vəqf edən şəxsin, yaxud onun varislərinin mülkiyyətinə geri qaytarıla bilərmi?**

**Cavab: Əgər bir məkan uzun bir müddətə, məsələn, əlli il və ya daha artıq müddətə icarəyə götürülərsə və orada məscid tikilərsə, bu müddət ərzində həmin məkan məscid hökmündədir.**

**Sual 2038:** **Bir qəbiristanlığın kənarında bir vəqfi torpaq sahəsi vardır. Bu qəbiristanlıq əhalinin öz ölülərini dəfn etmələri üçün kifayət etmir. Sözügedən vəqfi torpaq sahəsinin isə qəbiristanlığın ərazisinə qatılması və qəbiristanlığa çevrilməsi uyğun görünür. Bu vəqfi torpaq sahəsinin qəbiristanlığa çevirilməsinə icazə verilirmi?**

**Cavab: Ölülərin dəfnindən qeyri bir məqsədə vəqf edilən torpaq sahəsinin havayı olaraq qəbiristanlğa çevirilməsinə icazə verilmir. Amma əgər onun vəqfi "mənfəət vəqfi"[1] qismindən olarsa, onun şəri vəqf qəyyumu - vəqfin xeyrinə bildiyi təqdirdə - oranı ölülərin dəfni üçün icarəyə verə bilər.**

**Sual 2039:** **Bəzi vəqfi torpaq sahələri yolların genişləndirilməsi, milli parkların salınması, dövlət binalarının tikintisi layihələrinin planına düşür və vəqfin şəri qəyyumundan icazə alınmadan və onların pulu, yaxud icarə haqqı verilmədən bəzi dövlət müəssisələri, idarələri tərəfindən müsadirə edilir. Onlar bu işi görə bilərlərmi? Bu vəqfi torpaq sahələrindən istifadə edən şəxs onun əvəzini və ya qiymətini verməlidirmi? İstifadə etdikləri vaxtdan etibarən istifadənin ücrətül-mislini ödəməlidirlərmi? Müəssisələr və idarələr vəqfi torpaq sahəsinin qiymətini və ya onun yerinə başqa bir torpaq sahəsini verərkən şəri-hakimdən icazə almaq vacibdirmi? Yoxsa Vəqf İdarəsi və ya vəqf qəyyumu vəqfin xeyrini nəzərə alaraq, vəqfi əmlakın əvəzi və ya qiyməti barəsində onlarla razılığa gələ bilər?**

**Cavab: Vəqfin şəri qəyyumunun icazəsi olmadan heç kim vəqfi əmlakdan istifadə edə bilməz. Əgər vəqf "mənfəət vəqfi" qismindən olarsa, vəqfi əmlak vəqf qəyyumundan icarəyə götürüldükdən sonra ondan istifadə etmək olar. Həmçinin vəqfin məqsədi üçün istifadə edilməyə qabil olan vəqfi əmlakın satılmasına və ya başqa məqsədə dəyişdirilməsinə icazə verilmir. Əgər bir şəxs vəqfi əmlakı tələf edərsə, ona zamindir. Əgər vəqfin şəri qəyyumunun icazəsi olmadan ondan istifadə edərsə, onun ücrətül-mislinə zamindir və vəqfin məqsədinə istifadə edilməsi üçün ücrətül-misli vəqf qəyyumuna ödəməlidir. Bu xüsusda şəxslər və dövlət müəssisələri, idarələri arasında fərq yoxdur. Vəqf qəyyumu şəri-hakimə müraciət etmədən vəqfi əmlakın xeyrini nəzərə alaraq, onun əvəzi və ya ücrətül-misli barəsində vəqfi əmlakdan istifadə edən və ya onu tələf edən tərəf ilə**

razılığa gələ bilər.

**Sual 2040:** Bir vəqfi torpaq sahəsi vardır ki, onun yolu yalnız heyvanların get-gəli üçün yararlıdır. Hal-hazırda bu vəqfi torpaq sahəsinin ətrafında evlər tikildiyinə görə sözügedən yol genişləndirilməlidir. Yolun hər iki tərəfdən genişləndirilməsinə – belə ki, həm vəqfi torpaq sahəsindən, həm də şəxsi əmlakdan bərabər şəkildə götürüləcəkdir – icazə verilirmi? İcazə verilmədiyi təqdirdə, lazım olan ölçüdə vəqfi torpaq sahəsi vəqf qəyyumundan icarəyə götürülə bilərmi?

**Cavab: Qaçılmaz bir zərurət tələb etməyənədək, yaxud vəqfi əmlakın özünün istifadəsi üçün bu yola ehtiyac duyulmayanadək, vəqfi əmlakın gediş-gəliş yoluna çevrilməsinə icazə verilmir. Amma "mənfəət vəqfi" qismindən olan torpaq sahəsinin gediş-gəliş yolunun genişləndirilməsi üçün icarəyə verilməsinin - vəqfi əmlakın xeyri nəzərə alınaraq - maneəsi yoxdur.**

**Sual 2041:** Bir torpaq sahəsi iyirmi il öncə bir məntəqənin əhalisi üçün vəqf edilmişdir ki, öz ölülərini orada dəfn etsinlər. Vəqf edən şəxs özünü vəqf qəyyumu təyin etmiş, özündən sonra isə şəhərin din alimlərindən birini – belə ki, alimin adı vəqfnamədə qeyd edilmişdir – vəqf qəyyumu təyin etmişdir. Həmçinin bu alimdən sonrakı vəqf qəyyumlarının seçilməsi qaydasını da müəyyən etmişdir. Hazırkı vəqf qəyyumunun vəqfi dəyişdirmək, yaxud vəqfin bəzi şərtlərini dəyişdirmək, yaxud da başqa şərtləri əlavə etmək haqqı vardırmı? Əgər bu dəyişdirilmə torpaq sahəsinin vəqf edildiyi məqsədə təsir edərsə - məsələn, oranın maşın dayanacağı edilməsi – vəqf məsələsi öz qüvvəsində qalırmı?

**Cavab: Nəzərə alsaq ki, vəqf şəriət baxımından vəqfi əmlakın təhvil alınması ilə gerçəkləşir və qüvvəyə minir, bundan sonra vəqf edən şəxs və ya vəqf qəyyumu tərəfindən vəqfin dəyişdirilməsinə, həmçinin vəqfin bəzi şərtlərinin dəyişdirilməsinə və ya ona yeni şərtlərin əlavə edilməsinə icazə verilmir. Vəqfi əmlakı əvvəlki vəziyyətindən dəyişdirmək onu vəqflikdən çıxarmır.**

**Sual 2042:** Bir şəxs öz dükanını məscidə bağlı olan qərzul-həsənə büdcəsinin yaradılması üçün vəqf etmişdir. Bu şəxs hal-hazırda vəfat etmişdir. Neçə illərdir ki, bu dükan bağlıdır və hal-hazırda da uçulub-tökülmək üzrədir. Bu məkandan başqa işlər üçün istifadə etmək olarmı?

**Cavab: Əgər bu dükanda qərzul-həsənə büdcəsinin yaradılması üçün oranın vəqfi gerçəkləşmişdirsə və hal-hazırda bu məsciddə qərzul-həsənə büdcəsinin yaradılmasına ehtiyac yoxdursa, bu məkandan başqa məscidlərə bağlı olan qərzul-həsənə büdcəsinin yaradılması üçün istifadə etməyin maneəsi yoxdur. Əgər bu işi də görmək mümkün olmazsa, oradan başqa bir xeyir iş üçün istifadə etmək olar.**

**Sual 2043:** Bir şəxs bir torpaq sahəsini oranın su payı ilə birlikdə məhərrəm və ya səfər ayının gecələrinin birində, həmçinin Əmirəl-möminin Əlinin (ə) şəhadət gecəsində "Əl-Həyy" məscidində İmam Hüseynə (ə) əzadarlıq məclisinin qurulması üçün vəqf etmişdir. Bu şəxs sonradan öz varisinə vəsiyyət etmişdir ki, xəstəxana tikilməsi üçün bu torpaq sahəsi Səhiyyə Nazirliyinə verilsin. Bu işin hökmü nədir?

**Cavab: "Mənfəəət vəqfi"ni "intifa vəqfi"nə çevirməyə icazə verilmir. Amma xəstəxana tikilməsi üçün oranın icarəyə verilməsinin və icarə pulunun vəqfin məqsədinə sərf edilməsinin - vəqfi əmlakın xeyrinə olduğu təqdirdə - maneəsi yoxdur.**

**Sual 2044:** Vəqfi torpaqlarda namazgah və ya hüseyniyyə tikmək olarmı?

**Cavab: Vəqfi torpaqlar yenidən məscid, hüseyniyyə və s. ünvanında vəqf edilməyə qabil deyillər. Bu torpaqları namazgah və ya camaatın ehtiyac duyduğu hər hansı bir ümumi**

**müəssisənin tikintisi üçün havayı olaraq vermək heç kimə icazə verilmir. Amma bu torpaq sahələrində namazgah, məktəb, hüseyniyyə tikilməsi üçün oranın şəri vəqf qəyyumu tərəfindən icarəyə verilməsinin maneəsi yoxdur. Oranın icarə pulu vəqf üçün təyin edilən məqsədlərə sərf edilməlidir.**

**Sual 2045: "Ümumi vəqf" və "xüsusi vəqf"in mənası nədir? Bəziləri belə deyirlər: "Xüsusi vəqfi vəqf edən şəxsin məqsədindən qeyri bir məqsədə dəyişdirmək və onu xüsusi mülkə çevirmək olar". Bu söz düzdürmü?**

**Cavab: Vəqf, "moqufun ələyh" baxımından ümumi vəqf və xüsusi vəqfə ayrılır. Beləliklə, "xüsusi vəqf" bir şəxsə və ya şəxslərə edilən vəqfdir, məsələn, övladlara edilən vəqf, yaxud Zeyd və onun övladlarına edilən vəqf. "Ümumi vəqf" əmlakın ümumi məqsədlərə və mənafeyə vəqf edilməsidir, məsələn, məscidlərə, istirahət məkanlarına, məktəblərə və s. edilən vəqf. Yaxud da əmlakın ümumi ünvanlara – məsələn, yoxsullara, yetimlərə, xəstələrə, yolda qalanlara və s. – vəqf edilməsidir. Bu üç qisim arasında vəqfin əsası baxımından heç bir fərq yoxdur, baxmayaraq ki, hökmləri və nəticələri baxımından onlar arasında fərq vardır. Məsələn, ümumi məqsədlər və mənafe üçün olan vəqfdə, həmçinin ümumi ünvanlar üçün olan vəqfdə vəqf əqdi bağlanan zaman "moqufun ələyhim"in nümunə və nümayəndəsinin xarici reallığı (reallıqda mövcud olması) şərt deyildir. Halbuki, xüsusi vəqfdə bu şərtdir. Həmçinin "intifa vəqfi" qismindən olub ümumi məqsədlər və mənafe üçün olan vəqfdə - məsələn, məscidlərə, məktəblərə, qəbiristanlıqlara, körpülərə və s. olan vəqfdə - vəqfi əmlak, hətta məhv olsa belə, heç bir vəchlə satıla bilməz. Amma xüsusi vəqfdə və "mənfəət vəqfi" qismindən olub ümumi ünvanlar üçün olan vəqf bəzi istisna hallarda satıla və dəyişdirilə bilər.**

**Sual 2046: Hicri-şəmsi 1263-cü ilə mənsub olan bir əlyazma Quran nüsxəsi bir məscidə vəqf edilibdir və hal-hazırda məhv olmaq üzrədir. Onu cildlətdirmək və bu müqəddəs və dəyərli əsəri qorumaq üçün şəri icazəyə ehtiyac vardırmı?**

**Cavab: Qurani-Məcidi cildlətdirmək, onun cildini və vərəqlərini bərpa etmək və həmin məsciddə qoruyub saxlamaq üçün şəri-hakim tərəfindən xüsusi icazəyə ehtiyac yoxdur.**

**Sual 2047: Vəqfi əmlakı qəsb etmək və onu vəqfin məqsədindən qeyri bir məqsədə istifadə etmək ücrətül-mislə zamin olmağa səbəb olurmu? Vəqfi əmlakı tələf etmək – məsələn, binasını uçurtmaq – yaxud vəqfi torpaq sahəsini prospektə çevirmək onun mislinə və ya qiymətinə zamin olmağa səbəb olurmu?**

**Cavab: Xüsusi vəqfdə (məsələn, övlada olan vəqfdə), həmçinin "mənfəət vəqfi" qismindən olan ümumi vəqfdə vəqfi əmlakı qəsb etmək və onu vəqfin məqsədindən qeyri bir məqsədə istifadə etmək, yaxud da birincidə (yəni xüsusi vəqfdə) "moqufun ələyhim"in icazəsi olmadan, ikincidə isə vəqfin şəri qəyyumunun icazəsi olmadan vəqfi əmlakdan istifadə etmək vəqfi əmlakın özünə və mənfəətinə zamin olmağa səbəb olur. Mənfəətin əvəzini qaytarmaq – istər tələb edilsin, istərsə də tələb edilməsin – vacibdir. Həmçinin vəqfi əmlak mövcud olduğu təqdirdə onun özünü qaytarmaq, eləcə də, istifadəçinin əlində, yaxud onun əməlinə görə tələf olduğu təqdirdə onun əvəzini qaytarmaq vacibdir. Mənfəətin əvəzi vəqfin məqsədinə, vəqfi əmlakın əvəzi isə, tələf olan əmlakın yerinə sərf olunmalıdır. "İntifa vəqfi" qismindən olan ümumi vəqfdə - məsələn, məscidlər, məktəblər, karvansaralar,**

körpülər, qəbiristanlıqlar və s. kimi "moqufun ələyhim"in bəhrələnməsi üçün ümumi məqsədlərə və ya ünvanlara olan vəqfdə - qəsb edən şəxs tərəfindən qəsb edildiyi və vəqfin mənfəətindən qeyri bir məqsədə istifadə edildiyi təqdirdə, məktəb, karvansara, hamam kimi əmlakdan istifadənin ücrətül-misli ödənməlidir. Amma məscidlərin, məqbərələrin, ziyarətgahların, körpülərin istifadəsinin ücrətül-mislinə zamin deyildir. Əgər bu vəqfi əmlakın özünü tələf edərsə, onun mislinin və ya qiymətinin əvəzini verməlidir və bu da tələf olan vəqfi əmlakın yerinə sərf olunmalıdır.

**Sual 2048:** Bir şəxs öz əmlakını kənddə Seyyidüş-şühədanın (ə) əzadarlıq məclislərinin qurulması üçün vəqf etmişdir. Amma hal-hazırda vəqf qəyyumu vəqfnamədə qeyd edilən kənddə əzadarlıq məclislərini təşkil etmək iqtidarında deyildir. O, yaşadığı şəhərdə əzadarlıq məclislərini təşkil edə bilərmi?

Cavab: Əgər əmlak məhz həmin kənddə əzadarlıq məclislərinin qurulması üçün vəqf edilibdirsə, vəqf qəyyumunun özünə vəkil tutub həmin kənddə əzadarlıq məclislərini təşkil etməsi mümkün olduğu zamanadək, bu məclisləri başqa məkanda təşkil etməyə haqqı yoxdur. Əksinə, o, həmin kənddə əzadarlıq məclislərini təşkil etmək üçün bir şəxsi özünə naib tutmalıdır.

**Sual 2049:** Məscidin qonşuları öz evlərinin qaynaq işlərini görmək üçün məscidin işığından istifadə edə və istifadə etdikləri işığın pulunu artıqlaması ilə məscidin işlərini idarə edən məsullara ödəyə bilərlərmi? Məscidin məsulları məscidin işığından istifadə edilməsinə icazə verə bilərlərmi?

Cavab: Məscidin işığından şəxsi işlər üçün istifadə etməyə icazə verilmir və məscidin məsulları belə bir icazəni verə bilməzlər.

**Sual 2050:** Camaat uzun illərdir ki,bir vəqfi su çeşməsindən istifadə edirlər. Bu su çeşməsindən müxtəlif yerlərə və ya şəxsi yaşayış evlərinə borular vasitəsilə su çəkmək olarmı?

Cavab: Əgər bu su çeşməsindən borular vasitəsilə su çəkmək vəqfin dəyişdirilməsi və ya vəqfi əmlakın vəqfin məqsədindən qeyri bir məqsədə istifadə edilməsi hesab olunmazsa, həmçinin digər "moqufun ələyhim"in sudan istifadə etmələrinə mane olmazsa, bu işin maneəsi yoxdur. Əks təqdirdə, buna icazə verilmir.

**Sual 2051:** Bir torpaq sahəsi əzadarlıq məclislərinin təşkil edilməsi və dini elmlər tələbələri üçün vəqf edilibdir. Bu torpaq sahəsi kəndin əsas yolunun kənarında yerləşir. Hal-hazırda kəndin əhalisindən bir dəstə insan kənd üçün başqa bir yol çəkmək fikrindədirlər və bu yol sözügedən vəqfi torpaq sahəsinin o biri tərəfinə düşür. Bu yolun salınması torpaq sahəsinin qiymətinin artmasına təsirli olduğu təqdirdə, bu işi görməyə icazə verilirmi?

Cavab: Vəqfi torpaq sahəsinin bir hissəsində yol çəkmək nəticəsində torpaq sahəsinin qiymətinin artması, vəqfi torpaq sahəsindən istifadə etməyə və ya oranı yola çevirməyə şəri əsas deyildir.

**Sual 2052:** Bir məscidin yaxınlığında bir ev vardır ki, evin sahibi onu məscidin imam-camaatının məskunlaşması üçün vəqf etmişdir. Amma hal-hazırda ailənin böyüklüyünə, get-gəl edənlərin çoxluğuna və başqa səbəblərə görə, bu ev imam-camaatın yaşaması üçün münasib deyildir. İmam-camaatın özünün bir evi vardır və o, bu evdə yaşayır. Bu evin isə təmirə ehtiyacı vardır və bunun üçün o, bir qədər pul krediti götürmüşdür. İmam-camaat vəqfi evi icarəyə verə və onun icarə pulunu yaşadığı ev üçün götürdüyü borcu qaytarmağa və evin təmirinə sərf edə bilərmi?

Cavab: Əgər ev məscidin imam-camaatının məskunlaşması üçün "intifa vəqfi" şəklində

**vəqf edilibdirsə, şəriət baxımından onun bu evi icarəyə vermək – hətta evin icarə pulunu öz borcunu qaytarmağa və yaşadığı evin təmirinə sərf etmək məqsədilə olsa belə - haqqı yoxdur. Əgər həmin ev kiçik olduğuna görə onun ailəsinin yaşaması, qonaqların get-gəl etmələri və müraciət edənləri qarşılamaq üçün yetərli deyildirsə, bu evdən günün - gündüzün və ya gecənin - bəzi saatlarında müraciət edənləri qarşılamaq üçün istifadə edə bilər. Yaxud da həmin evi məskunlaşması üçün başqa bir imam-camaata verə bilər.**

**Sual 2053: Karvanların dincəlməsi üçün icarəyə verilən karvansara binası vəqfidir və onun vəqf qəyyumluğu karvansara ilə üzbəüz yerləşən məscidin indiki sabit imam-camaatının öhdəsindədir. Məsələ mərcəyi-təqlidlərə dəqiqliklə bəyan olunmadığına görə, karvansara uçurdulmuş və onun yerində hüseyniyyə tikilmişdir. Bu məkanın mənfəəti dəyişiklikdən öncəki şəklində qalırmı?**

**Cavab: "Mənfəət vəqfi" olan karvansaranın "intifa vəqfi" olan hüseyniyyəyə çevrilməsinə icazə verilmir. Karvansaranın binası özünün əvvəlki şəklinə qaytarılmalı və karvanlara, müsafirlərə icarəyə verilməli, icarə pulu da vəqf edən şəxsin müəyyən etdiyi məqsədə sərf edilməlidir. Amma əgər vəqfin şəri qəyyumu təyin etsə ki, vəqfin qısamüddətli və uzunmüddətli məsləhəti bu məkanın indiki vəziyyətində dini məclislərin təşkili üçün icarəyə verilməsini və icarə pulunun da vəqfin məqsədinə sərf edilməsini tələb edir, bu təqdirdə o, bu işi görə bilər.**

**Sual 2054: Məscidin həyətində tikilən dükanın sərquflisini satmaq olarmı?**

**Cavab: Əgər məscidin həyətində dükanın tikilməsi şəri baxımdan icazəli olubdursa, vəqfin xeyrini nəzərə alaraq, həmçinin vəqfin şəri qəyyumunun icazə ilə dükanın sərquflisini satmağın maneəsi yoxdur.**

**Sual 2055: Bəzən dövlət və qeyri-dövlət müəssisələri bir sıra layihələrə görə - məsələn, sədlərin tikilməsi, işıq stansiyalarının tikilməsi, parkların salınması və s. – vəqfi torpaq sahələrindən istifadə etmək məcburiyyətində qalırlar. Bu layihələri icra edənlər şəri baxımdan vəqfi əmlakın əvəzini və ya ücrətül-mislini vermək vəzifəsi daşıyırlarmı?**

**Cavab: Xüsusi vəqfdə vəqfi əmlakı icarəyə götürmək və ya almaq üçün "moqufun əleyhim"ə müraciət etmək lazımdır. "Mənfəət vəqfi" şəklində olan ümumi ünvanlara edilən vəqfdə isə - belə ki, burada vəqfi əmlakın mənfəəti vəqfin məqsədinə sərf edilir – vəqfi əmlakdan istifadə etmək üçün onun şəri qəyyumundan icarəyə götürülməlidir. İcarə pulu da vəqf qəyyumuna verilməli və vəqfin məqsədinə sərf edilməlidir. Əgər bu kimi vəqfi əmlakdan istifadə etmək əmlakın tələf edilməsi hökmündə olarsa, vəqfi əmlaka zamin olmağa səbəb olur və istifadəçi şəxsin vəqfi əmlakın əvəzini onun şəri qəyyumuna qaytarması vacibdir. Vəqfin şəri qəyyumu bu vəsaitlə başqa bir mülk almalı və onu əvvəlki vəqfin yerinə vəqf etməlidir, oradan gələn gəlirlər də vəqfin məqsədinə sərf edilməlidir.**

**Sual 2056: Bir şəxs bir neçə il bundan öncə tikintisi başa çatmamış bir dükanı icarəyə götürmüş və dükanın sərqufli pulunu həmin vaxt ödəmişdir. Sonra dükanın sahibindən icazə alıb icarə pulu ilə bu dükanın tikintisini başa çatdırmış və icarə müddəti ərzində dükanın yarısını rəsmi sənədlə onun sahibindən satın almışdır. İndi o, bu dükanın vəqfi olduğunu iddia edir və vəqf qəyyumunun naibi də dükanın sərqufli pulunun yenidən ödənilməsini tələb edir. Bu məsələnin hökmü nədir?**

**Cavab: Əgər dükanın torpağının vəqfi olduğu sübuta yetsə, yaxud icarəçi şəxs bunu etiraf etsə, bu təqdirdə dükanın vəqfi torpağının mülkiyyət iddiasını edən şəxsin icarəçi şəxsə**

**verdiyi səlahiyyətlərin hamısı etibarsızdır. İcarəçi şəxs bu dükandan istifadə etmək üçün vəqfin şəri qəyyumu ilə yenidən müqavilə bağlamalıdır. O, mülkiyyət iddiası edən şəxsə verdiyi pulu ondan geri ala bilər.**

**Sual 2057:** **Əgər müəyyən torpaqların vəqfi olduğu dəqiqləşərsə, amma vəqfin məqsədi məlum olmazsa, bu torpaqlarda məskunlaşan və əkinçilik edən şəxslərin vəzifəsi nədir?**

**Cavab: Əgər vəqfi torpaqların xüsusi vəqf qəyyumu olarsa, vəqfi torpaqlardan istifadə edənlər ona müraciət etməli və torpaları ondan icarəyə götürməlidirlər. Yox əgər xüsusi vəqf qəyyumu olmazsa, bu torpaqların idarəçiliyi şəri-hakimin öhdəsindədir və istifadəçilər ona müraciət etməlidirlər. Vəqfi əmlakdan gələn gəlirin istifadəsinə gəlincə, bu xüsusda müxtəlif ehtimallar mövcud olduğuna görə, əgər ehtimallar "mutəsadiq və qeyri-mutəbayin" olarsa – məsələn, seyidlər, yoxsullar, alimlər, filan şəhərin əhalisi – vəqfi əmlakın gəliri ehtimallar arasından yəqinliyə yaxın olanına sərf edilməlidir. Yox əgər ehtimallar "mutəbayin və qeyri-mutəsadiq" olarsa, bu təqdirdə əgər ehtimallar müəyyən məqamlar arasında "məhsur" olarsa, vəqfin gəlirinin istifadəsi püşk yolu ilə müəyyən edilməlidir. Amma əgər ehtimallar "qeyri-məhsur" məqamlar arasında olarsa, bu təqdirdə əgər ünvanlar və ya şəxslər arasında "qeyri-məhsur" olarsa – məsələn, vəqfi torpağın zürriyyəyə vəqf edildiyi məlumdur, amma "qeyri-məhsur" şəxslər arasından hansı şəxsin zürriyyəsinin nəzərdə tutulduğu məlum deyildir – onda vəqfi əmlakın gəliri "sahibi məlum olmayan mal" hökmündədir və fəqirlərə sədəqə verilməlidir. Amma əgər ehtimallar "qeyri-məhsur" məqsədlər arasında olarsa – məsələn, məscidlərə, ya ziyarətgahlara, ya körpülərə, ya zəvvarlara köməkliyə və s. – vəqfi əmlakın gəliri, ehtimallardan kənara çıxmamaq şərtilə, xeyriyyə işlərinə sərf edilməlidir.**

**Sual 2058:** **Bir torpaq sahəsi vardır ki, əhali öz ölülərini uzun illərdir orada dəfn edir. Burada bir imamzadə (ə) də dəfn olunubdur. Otuz il öncə ölülərin yuyulması üçün burada bir yer də tikilmişdir. Amma bu torpaq sahəsinin ölülərin dəfninə, yoxsa burada dəfn olunan imamzadəyə (ə) vəqf edildiyi məlum deyildir. Həmçinin burada ölülərin yuyulması üçün yerin tikilməsinin şəri baxımdan düzgün olub-olmadığı da məlum deyildir. Bu səbəbdən, əhalinin öz ölülərini həmin yerdə yumalarına icazə verilirmi?**

**Cavab: Əhali əvvəlki kimi, öz ölülərini həmin yerdə qüsl edə və imamzadənin (ə) ziyarətgahının həyətindən hesab olunan bu torpaqlarda öz ölülərini dəfn edə bilərlər. Amma əgər bu işin vəqfin məqsədinə zidd olduğu onlara məlum olarsa, bu işi görmələrinə icazə verilmir.**

**Sual 2059:** **Bizim məntəqədə torpaq sahələri vardır ki, camaat orada əkin sahələri salır və ağaclar əkirlər. Camaat arasında belə danışılır ki, bu torpaq sahələri məntəqədə dəfn olunan imamzadələrdən (ə) birinə vəqf edilibdir və vəqf qəyyumu da məntəqədə yaşayan seyidlərdir. Amma bu torpaq sahələrinin vəqfi olduğuna dəlalət edən bir dəlil mövcud deyildir. Deyilənlərə görə, əvvəllər bir vəqfnamə var imiş, amma yanğın nəticəsində məhv olmuşdur. Əvvəlki hökumətin dövründə camaat bu torpaqların əhali arasında bölüşdürülməsinin qarşısını almaq üçün onların vəqfi torpaqlar olduğuna şahidlik edirlərmiş. Bir dəstə də deyir ki, seyidlərə böyük hörmət və sevgi bəsləyən bir hakim bu torpaqların vergilərdən azad olması üçün onları seyidlərə vəqf etmişdir. Hal-hazırda bu torpaqların hökmü nədir?**

**Cavab: Vəqfliyin sübuta yetməsi üçün vəqfnamənin mövcud olması şərt deyildir. Vəqfi əmlakdan istifadə edən istifadəçinin bu torpaqların vəqfi olduğunu etiraf etməsi, yaxud bu istifadəçi vəfat etdikdən sonra onun varislərinin bu məsələni etiraf etmələri kifayət edir.**

Həmçinin bu əmlak ilə əvvəllər bir vəqfi əmlak kimi davranılmasının dəqiqləşməsi, yaxud bu torpaqların vəqfi olduğuna iki ədalətli kişinin şahidlik etməsi, yaxud bu torpaqların vəqfi olduğuna dair elm və yəqinlik hasil edən məşhurluğun mövcud olması onların vəqfi olduğunu sübuta yetirir. Beləliklə, vəqfliyin bu dəlillərindən biri mövcud olduğu təqdirdə, bu torpaqların vəqfi olduğuna hökm verilir. Bundan qeyri halda, istifadəçinin ixtiyarında olan mülkün onun mülkiyyəti olduğuna hökm veriləcəkdir.

**Sual 2060:** Bir mülkün beş yüz il öncəyə aid olan vəqfnaməsi tapılmışdır. İndi bu mülkün vəqfi olduğuna hökm verilirmi?

**Cavab:** Vəqf sənədinin məzmunun doğru olduğuna yəqinlik hasil olmayanadək, sadəcə vəqf sənədinin mövcud olması vəqfliyə şəri dəlil deyildir. Amma həmin mülkün vəqfi olduğu camaat arasında, xüsusilə də yaşlılar arasında geniş yayılarsa - belə ki, bu məşhurluq sözügedən mülkün vəqfi olduğuna dair elm və yəqinliyə yararlı olarsa, -yaxud istifadəçi şəxs bu məsələni etiraf edərsə, yaxud əvvəllər bu mülk ilə vəqfi bir mülk kimi davranıldığı dəqiqləşərsə, sözügedən mülk vəqfi mülk hökmündədir. Hər bir halda, zamanın ötməsi vəqfi əmlakın vəqflikdən çıxmasına səbəb olmur.

**Sual 2061:** Çayın suyunun üç payı atamdan mənə irs çatmışdır. Təzəlikcə bilmişəm ki, atamın aldığı bu üç pay, on beş payı vəqfi əmlak olan yüz paydandır. İndi məlum deyildir ki, bu üç pay hansı paylara daxildir: vəqfi əmlakdandır, yoxsa satan şəxsin əmlakındandır? Bu üç payın alğı-satqısı düzgün deyilmiş? Onun pulunu birinci satıcıdan – belə ki, o, indi həyatdadır – geri almağa haqqım varmı?

**Cavab:** Əgər satan şəxs onu satarkən, müştərək sudan satdığı payın şəri sahibi olubdursa və sahibi olduğu paydan, yoxsa vəqfi əmlak ilə şəxsi əmlak arasında müşa şəklində olan şərikli paydan satdığı məlum deyildirsə, bu təqdirdə alğı-satqı düzgündür. Müştərinin də aldığı malın sahibi olduğuna və irs yolu ilə bu əmlakın onun varislərinə çatdığına hökm verilir.

**Sual 2062:** Alimlərdən biri öz əmlakının – o cümlədən, əkin sahəsi və bağ kimi əmlakının - bir hissəsini xüsusi vəqf etmişdir. Bu barədə vəqfnamə tənzimləmiş və orada vəqfin bütün şərtlərinə əməl etdiyini, vəqfin şəri əqdini də icra etdiyini qeyd etmişdir. Elm əhlindən olan on nəfər bu vəqfnaməni imzalamışdır. Belə bir vəqfnamənin mövcud olması, bu əmlakın vəqfi əmlak olduğuna hökm verilməsinə əsas verirmi?

**Cavab:** Əgər sübuta yetsə ki, vəqf əqdinin icrasından əlavə, vəqf etdiyi əmlakı “moqufun əleyhim”ə və ya vəqfin şəri qəyyumuna təhvil vermiş, onların ixtiyarında qoymuşdur, bu vəqf düzgündür və icrası vacibdir.

**Sual 2063:** Bir torpaq sahəsi xəstəxana və ya tibb məntəqəsinin tikilməsi üçün Səhiyyə İdarəsinə bağışlanıbdır. Amma Səhiyyə İdarəsinin məsulları bu torpaq sahəsində hələ də xəstəxana və ya tibb məntəqəsinin tikilməsi üçün bir iş görməmişlər. Vəqf edən şəxs bu torpaq sahəsini geri ala bilərmi? Torpaq sahəsinin Səhiyyə İdarəsinin məsullarına təhvil verilməsi, vəqfliyin gerçəkləşməsi üçün kifayət edirmi? Yoxsa orada xəstəxana binasının tikilməsi də şərtdir?

**Cavab:** Əgər vəqf əqdi şəri şəkildə icra edildikdən sonra sahibi tərəfindən torpaq sahəsinin Səhiyyə İdarəsinin məsullarına təhvil verilməsi, bu əmlakın vəqfin şəri qəyyumuna təhvil verilməsi hesab olunarsa, vəqf edən şəxsin onu geri almağa haqqı yoxdur. Amma əgər qeyd edilən iki işdən biri gerçəkləşməzsə, o öz torpaq sahəsini onlardan geri ala bilər.

**Sual 2064:** **Bir şəxs sahibi olduğu torpaq sahəsini məscid tikintisi üçün məntəqənin din aliminin və iki nəfər ədalətli şahidin qarşısında vəqf etmişdir. Bir müddətdən sonra bəzi şəxslər oranı ələ keçirmiş və orada yaşayış evləri tikmişlər. Bu şəxslərin və vəqf qəyyumunun vəzifəsi nədir?**

**Cavab: Əgər vəqf əqdi icra edildikdən sonra bu torpaq sahəsi vəqf edən şəxsin icazəsi ilə təhvil alınmışdırsa, vəqfin bütün şəri hökmləri ona aid olacaqdır. Başqalarının orada özlərinə yaşayış evləri tikmələri qəsb hesab olunur. Onlar tikdikləri evləri uçurub torpağı boşaltmalı və vəqfin şəri qəyyumuna təhvil verməlidirlər. Bundan qeyri halda isə, torpaq sahəsi onun şəri sahibinin mülkiyyətindədir və başqalarının ondan istifadə etmələri, onun sahibinin icazəsinə bağlıdır.**

**Sual 2065:** **Bir şəxs bir torpaq sahəsini səksən il öncə almışdır və o, vəfat etdikdən sonra varisləri bu torpaq sahəsi üzərində bir neçə alğı-satqı həyata keçirmişlər. Bu torpaq sahəsini birinci alıcıdan alan alıcıların hamısı vəfat etmişlər, buna görə də torpaq sahəsi onların varislərinin ixtiyarına keçmişdir. Axırıncı alıcılar təxminən qırx ildir ki, torpaq sahəsini rəsmi şəkildə öz adlarına keçirmiş, rəsmi mülkiyyət sənədini aldıqdan sonra orada özlərinə yaşayış evləri tikmişlər. İndi bir şəxs iddia edir ki, bu torpaq sahəsi övladlara vəqf edilibmiş və övladların onu satmaq haqları yoxdur. Nəzərə alsaq ki, səksən il ərzində heç kim belə bir iddianı etməmişdir və vəqfliyə dəlalət edən yazılı bir sənəd də mövcud deyildir, həmçinin heç kim bu məsələyə şahidlik etmir, hazırkı sahiblərin vəzifəsi nədir?**

**Cavab: Bu torpaq sahəsinin vəqfi olduğunu və satışının qadağan olduğunu iddia edən şəxs öz iddiasını etibarlı bir yol ilə sübuta yetirməyənədək, torpaq sahəsi üzərində baş tutan alğı-satqıların, həmçinin hal-hazırda ondan istifadə edən şəxslərin mülkiyyətinə hökm verilir.**

**Sual 2066:** **Bir vəqfi torpaq sahəsində üç suvarma kanalı vardır. Şəhər İcra Hakimiyyəti bir neçə il davam edən quraqlığa görə bu su kanallarından ikisini məntəqənin əhalisinin içməli suyunu təmin etmək üçün icarəyə götürmüşdür. Məntəqənin din tələbələrinə və vəqf edən şəxsin övladlarına vəqf edilən üçüncü su kanalı isə qurumuşdur. Nəticədə, bu su kanalının suyu ilə suvarılan torpaqlar istifadəsiz xam torpaqlara çevrilmişdir. Hal-hazırda Şəhər Torpaq İdarəsi bu torpaqların "ölü torpaqlar" olduğunu iddia edir. Bu torpaqlarda bir neçə il əkin əkilmədiyinə görə "ölü torpaqlar" hesab olunurmu?**

**Cavab: Vəqfi torpaqlar bir neçə il əkilmədiyinə görə vəqflikdən xaric olmur.**

**Sual 2067:** **İmam Rzanın (ə) hərəminə vəqf edilən torpaqların bəzisinin ərazisində çöllüklər və meşəliklər vardır. Amma bəzi aidiyyatı qurumlar çöllüklər və meşəliklər barəsində olan dövlət qanunlarına istinad edərək, bu çöllüklər və meşəliklərin "ənfal" olduğuna hökm vermişlər. Vəqfi torpaqların ərazisində yerləşən çöllüklər və meşəliklərə bu torpaqların ərazisində yerləşən digər torpaq sahələri kimi vəqfin şəri hökmləri aid olurmu? Onlarla vəqfi əmlak kimi davranılmalıdırmı?**

**Cavab: Vəqfi torpaqların ətrafında yerləşən çöllüklər və meşəliklər əgər vəqfi torpaqların ərazisi hesab olunarsa, vəqfi əmlak hökmündədir və vəqfi torpaqlara aiddir. Onlar barəsində ənfal və ümumi əmlak hökmü verilmir. Ərazini və onun sahəsini təyin edən mənbə isə, məntəqənin ürfü və bu işdə mütəxəssis olan şəxslərin rəyidir.**

**Sual 2068:** **Bir neçə torpaq sahəsi qırx il öncə yetimlər evinin tikilməsi üçün vəqf edilibdir və o vaxtdan indiyədək bu vəqfə əməl edilir. Bu vəqfi əmlakın müəyyən vəqf qəyyumu da vardır ki, Vəqf İdarəsi tərəfindən qəbul edilmişdir. Təzəlikcə, qədim sənəddən üzü köçürüldüyü iddia edilən adi bir sənəd təqdim edilmiş və bu sənəddə qeyd edilmişdir ki, bu torpaqlar üç yüz il öncədən indiyədək vəqf edilibdir. Qədimi olduğu iddia edilən əsil vəqf sənədinin mövcud olmadığını nəzərə alaraq, həmçinin mövcud sənədin naqis olduğunu və orada vəqf qəyyumunun təyin edilmədiyini, əvvəllər bu torpaqlarla vəqfi əmlak kimi davranılmadığını, xüsusilə də istifadəçilərin bu iddianı təkzib etdiklərini, habelə bu torpaqların əvvəllər vəqfi olmasının məşhur olmadığını nəzərə alaraq, bu sənəd yeni vəqfin məqsədinə əməl edilməsinə - yetimlər evi olaraq istifadə edilməsinə - mane ola bilərmi?**

**Cavab: Vəqf sənədi – istər əsil olsun, istərsə də əsil sənədin üzü köçürülmüş olsun – vəqfliyə şəri dəlil deyildir. Nəticədə, əvvəlki vəqf mötəbər bir dəlil ilə sübuta yetməyənədək,**

hal-hazırda əməl edilən yeni vəqf düzgündür, qüvvədədir, ona əməl oluna bilər.

**Sual 2069:** Bir şəxs bir torpaq sahəsini Seyyidüş-şühədanın (ə) hüseyniyyəsinin tikintisi üçün vəqf etmişdir. Amma bu torpaq sahəsi kəndin ümumi yoluna çevrilmişdir. Hal-hazırda hüseyniyyənin tikintisi üçün vəqf edilən bu torpaq sahəsindən təxminən qırx iki kvadrat metr ərazi qalmışdır. Bu ərazinin hökmü nədir? Vəqf edən şəxs onu geri götürə, öz mülkiyyətinə qaytara bilərmi?

Cavab: Əgər vəqf əqdi şəri şəkildə icra edilibdirsə və vəqfi əmlak vəqf qəyyumu tərəfindən, yaxud vəqfin məqsədi üçün təhvil alınıbdırsa, vəqfi torpaq sahəsindən qalan ərazi vəqf olaraq qalır və vəqf edən şəxs onu geri götürə bilməz. Bundan qeyri halda, bu ərazi onun mülkiyyətindədir və bu ərazinin ixtiyarı onun əlindədir.

**Sual 2070:** İrsdə payı olan varislərin bəzisi bütün irsi vəqf edə bilərlərmi? Vəqf əqdinin onların adından icra edilməsi düzgündürmü?

Cavab: Onların bu işi yalnız irsdən öz payları barəsində düzgündür. Digər varislərin payı xüsusnda isə, vəqf "füzuli"dir və vəqfin düzgünlüyü onların icazəsinə bağlıdır.

**Sual 2071:** Bir şəxs bir torpaq sahəsini öz oğlan övladlarına vəqf etmişdir. O vəfat etdikdən sonra Vəqf İdarəsi vəqfin şərtlərini bilmədən, sözügedən torpaq sahəsini bu şəxsin həm oğlan, həm də qız övladlarının adına qeydiyyata salmışdır. Vəqf İdarəsinin bu işi sözügedən torpaq sahəsindən bəhrələnməkdə mərhumun qız övladlarının onun oğlan övladlarına şərik olmalarına səbəb olurmu?

Cavab: Sözügedən torpaq sahəsinin Vəqf İdarəsi tərəfindən mərhumun qız övladlarının adına qeydiyyata salınması, vəqfi əmlakdan bəhrələnməkdə qız övladlarının oğlan övladlarına şərik olmalarına səbəb olmur. Nəticədə, əgər torpaq sahəsinin yalnız oğlan övladlarına vəqf edildiyi sübuta yetsə, yalnız oğlan övladlarına aid olacaqdır.

**Sual 2072:** Çay yatağının yolunda yerləşən bir torpaq sahəsi yüz il öncə ümumi vəqf edilibdir. Vəqfi torpaq sahələrinin satışının qadağan olduğuna dair qanuna əsasən, bu torpaq sahəsinin vəqfi olduğuna dair rəsmi sənəd imzalanmışdır. Amma hal-hazırda mədən daşlarının istixracı üçün dövlət bu torpaq sahəsindən istifadə edir. Bu torpaq sahəsi ənfaldan hesab olunur, yoxsa vəqfi mülkdür?

Cavab: Əgər onun vəqfi mülk olduğu şəri yolla sübuta yetsə, şəxs və ya dövlət onu öz mülkiyyətinə keçirə bilməz. Əksinə, bu torpaq sahəsi vəqfi mülk olaraq qalır və vəqfin bütün şəri hökmləri ona aid olacaqdır.

**Sual 2073:** Bir təhsil mərkəzinin binasındakı bir otaqdan hal-hazırda tədris laboratoriyası kimi istifadə olunur. Bu otağın yeri qonşuluqdakı qəbiristanlığın ərazisi olubdur və bir neçə il öncə qəbiristanlıqdan ayırıblar. Nəzərə alsaq ki, qonşuluqdakı qəbiristanlıqdan hələ də ölülərin dəfni üçün istifadə edilir, bu laboratoriya otağında namaz qılan müəllimlərin və şagirdlərin vəzifəsi nədir?

Cavab: Laboratoriyanın yerləşdiyi yerin ölülərin dəfni üçün vəqf edildiyi sübuta yetməyənədək, orada namaz qılmağın və başqa istifadələrin maneəsi yoxdur. Amma əgər yalnız ölülərin dəfni üçün vəqf edildiyi mötəbər bir dəlil ilə sübuta yetsə, bu yer əvvəlki vəziyyətinə qaytarılmalıdır və ölülərin dəfni üçün boşaldılmalıdır. Orada tikilən tikililər qəsb hökmündədir.

**Sual 2074:** Yanaşı yerləşən iki dükan vəqf edən şəxs və istifadə baxımından müstəqil vəqfi mülklərdir və bir-birindən ayrıdır. Bu dükanları icarəyə götürən şəxslər bir dükandan o biri dükana, yaxud xüsusi bir gediş-gəliş yoluna qapı aça bilərlərmi?

Cavab: Vəqfi əmlakdan bəhrələnmək və ondan istifadə etmək – hətta digər vəqfin xeyrinə

**olsa belə - vəqfin şərtlərinə uyğun və vəqf qəyyumunun icazəsi ilə olmalıdır. Yanaşı yerləşən bu iki dükanı icarəyə götürən şəxslərin digər dükanın vəqfi olduğunu əsas götürərək, bir dükandan o biri dükana qapı açmağa və o biri dükana gediş-gəliş yolu yaratmaq şəklində vəqfdən istifadə etməyə haqları yoxdur.**

**Sual 2075:** **Nəzərə alsaq ki, bəzi mərkəzlərdə və evlərdə olan nəfis kitablar məhv olmaq üzrədir və onları qoruyub saxlamaq çətindir, bir qrup şəxs şəhərin Mərkəzi Kitabxanasının bir hissəsinin bu mərkəzlərin ixtiyarına verilməsini və əvvəlki yerlərində olan vəqfliyi qorunmaq şərtilə sözügedən kitabların kitabxananın həmin hissəsinə köçürülməsini təklif etmişlər. Bu işi görmək olarmı?**

**Cavab: Əgər bu vəqfi nəfis kitablardan yalnız müəyyən məkanda istifadə etməyin şərt qoyulduğu sübuta yetsə, bu şərtə riayət edərək kitabları məhv olmaqdan qorumaq mümkün olduğu zamanadək, onları həmin məkandan başqa bir məkana köçürmək olmaz. Bundan qeyri halda, onları həmin məkandan əminliklə qorunacaqları başqa bir məkana köçürməyin maneəsi yoxdur.**

**Sual 2076:** **Yalnız otlaq kimi istifadə olunmağa yararlı olan bir torpaq sahəsi sahibi tərəfindən müqəddəs məkanlara vəqf edilmişdir. Vəqf qəyyumu bu torpaqların bir hissəsini bir neçə şəxsə icarəyə vermiş, icarəçi şəxslər də bu torpaqların otlağa yararlı olmayan hissələrində tədricən özlərinə yaşayış evləri tikmişlər. Həmçinin əkinə yararlı olan hissələrində əkin sahələri və bağlar salmışlar. Suallarım budur:**
**1) Təbii otlaqların ənfaldan və ümumi əmlakdan olduğunu nəzərə alaraq, bu torpaqları vəqf etmək düzgündürmü? Hal-hazırda bu torpaqların vəqfi olduğuna hökm verilirmi?**
**2) Nəzərə alsaq ki, icarəçi şəxslər bu otlaq sahələrində dəyişikliklər və abadlıq işləri aparmış, nəticədə, bu torpaqlar əvvəlkindən daha yararlı olmuşdur, onlara nə qədər ücrət ödənilməlidir?**
**3) Nəzərə alsaq ki, əkin sahələri və bağlar icarəçi şəxslər tərəfindən salınıbdır, bu kimi torpaq sahələri hansı şəkildə icarəyə verilir? Bu torpaqların icarə pulu otlaq sahələrinin icarə pulu miqdarında ödənilməlidir, yoxsa əkin sahəsi və bağın icarə pulu miqdarında?**

**Cavab: Bu torpaqların vəqfi olduğu sübuta yetdikdən sonra, vəqf zamanı bu torpaqların ənfaldan olduğu və vəqf edən şəxsin şəri əmlakı olmadığı sübuta yetməyənədək, şəri baxımdan bu torpaqların vəqfi düzgündür. İcarəçi şəxslərin bu torpaqlarda əkin sahələri və bağlar salmaları, yaşayış evləri tikmələri nəticəsində bu torpaqlar vəqflikdən xaric olmur. Əgər bu şəxslər sözügedən torpaqları onun şəri qəyyumundan icarəyə götürdükdən sonra orada müəyyən işlər görüblərsə, icarə müqaviləsində müəyyən edilən icarə pulunu vəqf qəyyumuna verməlidirlər və vəqf qəyyumu da bu pulu vəqfin məqsədinə sərf etməlidir. Yox əgər bu şəxslər sözügedən torpaqları onun şəri qəyyumundan icarəyə götürmədən orada müəyyən işlər görübdürlərsə, hansı müddətdə oradan istifadə ediblərsə, bu müddət üçün ədalətli qiymətdə “ücrətül-misl” ödəməlidirlər. Amma əgər sözügedən torpaqların vəqf zamanı, əslində, ölü torpaqlardan və ənfaldan olduğu və vəqf edən şəxsin şəri əmlakı olmadığı sübuta yetsə, şəri baxımdan bu torpaqların vəqfi düzgün deyildir. Əgər insanlar bu torpaqlardan qanunlara müvafiq şəkildə istifadə edib oranı abadlaşdırıblarsa - belə ki, orada əkin sahələri və bağlar salıb, özlərinə yaşayış evləri tikiblərsə - həmin miqdar torpaq sahəsi onlara aiddir. Torpaqların əvvəlki vəziyyətində qalan və həmişə “ölü torpaqlar” hesab olunan hissələri təbii sərvətlərdən və ənfaldan hesab olunur. Bu torpaqların ixtiyarı İslam dövlətinə aiddir.**

**Sual 2077:** **Bir qadın bir neçə əkinçi ilə müşa şəklində şərikli olduğu torpaq sahəsinin yalnız altıda birinin sahibidir. Amma o,**

**bütün torpaq sahəsini vəqf etmişdir. Bu məsələ Vəqf İdarəsinin müdaxilələrinə görə əhali üçün çətinliklər yaratmışdır. Məsələn, Vəqf İdarəsi əhalinin evləri üçün mülkiyyət sənədinin verilməsinə mane olur. Bu vəqf müşa şəklində olan şərikli mülkün hamısı barəsində keçərlidirmi, yoxsa yalnız o qadının payı barəsində keçərlidir? Vəqf yalnız o qadının payı barəsində düzgün olduğu təqdirdə, müşa şəklində olan şərikli torpaq sahəsi şəriklər arasında bölüşdürülməmişdən qabaq onu vəqf etmək düzgündürmü? Əgər müşa şəklində olan şərikli mülk şəriklər arasında bölüşdürülməmişdən qabaq bu mülkdən olan payı vəqf etmək düzgündürsə, digər şəriklərin vəzifəsi nədir?**

**Cavab: Müşa şəklində olan şərikli mülk şəriklər arasında bölüşdürülməmişdən qabaq bu mülkdən olan payı vəqf etməyin maneəsi yoxdur, bu şərtlə ki, vəqfin məqsədinə istifadə edilməyə – hətta bölüşdürüldükdən sonra olsa belə - yararlı olmalıdır. Amma mülkün yalnız bir hissəsinin sahibi olan şəxs tərəfindən bütün mülkün vəqf edilməsinə gəlincə, bu vəqf digər şəriklərin payı barəsində "füzuli"dir və düzgün deyildir. Vəqfi əmlakdan öz əmlaklarının ayrılması üçün şəriklərin mülkün bölüşdürülməsini tələb etməyə haqları vardır.**

**Sual 2078: Vəqfin şərtlərindən kənara çıxmağa icazə verilirmi? İcazə verildiyi təqdirdə, bunun hüdudları hansılardır? Müddətin uzanması vəqfin şərtlərinə əməl etmək üzərində təsir qoyurmu?**

**Cavab: Vəqf edən şəxsin vəqf əqdində qoyduğu düzgün şərtlərdən kənara çıxmasına icazə verilmir. Yalnız bu şərtlərə əməl etmək qeyri-mümkün olduğu və ya bunun böyük çətinliyi olduğu təqdirdə buna icazə verilir. Müddətin uzanması vəqfin şərtlərinə əməl etmək üzərində təsir qoymur.**

**Sual 2079: Bəzi vəqfi torpaqlarda çaylar və ya çay yataqları yerləşir ki, bunlarda xırda çay daşları və mədən daşları tapılır. Vəqfi torpaqlarda yerləşən bu çaylarda və ya çay yataqlarındakı xırda çay daşları və mədən daşları vəqfi mülkə aiddirmi?**

**Cavab: Vəqfi torpaqların kənarında yerləşən və ya bu torpaqların daxilindən keçən böyük ümumi çaylar, həmçinin ümumi çay yataqları vəqfi mülkdən deyildir. Bu çayların və ya çay yataqlarının yalnız ürfə görə vəqfi torpaqların ərazisindən sayılan hissəsi vəqfi mülkdən sayılır və nəticədə, bunlarla vəqfi mülk kimi davranılır. Amma vəqfi olan kiçik çaylardakı xırda çay daşları, mədən daşları və s. ilə vəqfi mülk kimi davranılmalıdır.**

**Sual 2080: Bir dini elmlər mədrəsəsinin binası köhnə olduğuna və nəm çəkdiyinə görə yararsız vəziyyətə düşmüşdür. Onun əmlakının gəlirləri yığılmış və banka əmanət qoyulmuşdur. İndi biz bu gəlirlər ilə mədrəsə binasını yenidən tikmək istəyirik. Amma binanın tikintisi üçün rəsmi icazə almaq və sözügedən gəlirləri mədrəsənin yeni binasını tikmək üçün sərf etmək uzun müddət çəkəcəkdir. Bu müddət ərzində vəqfi əmlakın gəlirlərini bankların birinə sərmayə yatırımı ünvanında qoymaq və adi bank sövdələşmələrinə müvafiq olaraq vəqfi əmlakın xeyrinə müəyyən faiz gəlir ala bilərikmi?**

**Cavab: Vəqfi əmlakın gəlirləri barəsində vəqfin şəri qəyyumuna vacib olan vəzifə, yalnız bu gəlirləri vəqfin məqsədinə sərf etməkdir. Amma əgər gəlirləri vəqfin məqsədinə sərf etmək mümkün olmazsa və yalnız bir müddət keçdikdən sonra bu gəlirləri vəqfin məqsədinə sərf etmək mümkün olarsa, beləliklə, bu gəlirləri vəqfin məqsədinə sərf etmək mümkün olanadək onu banka qoymaqla qorumaq mümkün olarsa və bu gəlirləri banka qoymaq onu vəqfin məqsədinə vaxtında sərf etməyin təxirə düşməsinə səbəb olmazsa, onu banka qoymaq və şəri əqdlərin biri əsasında bu gəlirin faizindən vəqfin xeyrinə istifadə etməyin maneəsi yoxdur.**

**Sual 2081: Müsəlmanın müsəlmanlara vəqf etdiyi torpaq sahəsinin qeyri-müsəlmana icarəyə verilməsinə icazə verilirmi?**

**Cavab: Əgər torpaq sahəsinin vəqfi "mənfəət vəqfi" qismindəndirsə, vəqfin xeyri qorunduğu təqdirdə, onun qeyri-müsəlmana icarəyə verilməsinin maneəsi yoxdur.**

**Sual 2082:** **Bir neçə ay öncə bir din alimi vəqf edən şəxslərin icazəsi ilə vəqfi torpaqda dəfn edilmişdir. İndi bəzi şəxslər bu işə etiraz bildirir və iddia edirlər ki, vəqfi torpaqda dəfnə icazə verilmir. Bu məsələnin hökmü nədir? Sözügedən vəqfi torpaqda dəfnə icazə verilmədiyi təqdirdə, alimin dəfn edildiyi vəqfi torpağın əvəzi ünvanında müəyyən məbləğ pul ödəməklə maneə aradan qalxırmı?**

**Cavab: Əgər vəqfi torpaqda meyitin dəfn edilməsi vəqfin məqsədinə zidd olmazsa, bu işin maneəsi yoxdur. Amma əgər zidd olarsa, bu işə icazə verilmir. Əgər bir şəxs belə bir vəqfi torpaqda dəfn edilərsə, cəsədi dağılmamış qəbir açılmalı və meyit başqa bir yerdə dəfn edilməlidir. Amma əgər qəbrin açılmasının böyük çətinliyi olarsa, yaxud möminə qarşı hörmətsizlik olarsa, qəbir açılmamalıdır. Hər bir halda, vəqfi torpağın əvəzi ünvanında pul ödəmək və ya torpaq verməklə hökm aradan qalxmır.**

**Sual 2083:** **Əgər bir mülk nəsilbənəsil oğlan övladlarına vəqf edilərsə və "moqufun ələyhim" hər hansı bir səbəbə görə özlərinin haqqından keçərlərsə, vəqflik aradan qalxırmı? Əgər əvvəlki mərtəbədə olan "moqufun ələyhim" özlərinin haqqından keçərlərsə, sonrakı mərtəbələrdə olanların vəzifəsi nədir? Həmçinin vəqfi əmlakın şəri qəyyumunun belə bir durumda sonrakı nəsillərin haqqı barəsində vəzifəsi nədir?**

**Cavab: "Moqufun ələyhim"in özlərinin haqqından keçmələri ilə vəqflik aradan qalxmır. Vəqfi əmlak barəsində əvvəlki nəslin öz haqqından keçməsi, sonrakı nəslin haqqı üzərində təsir qoymur və belə bir durumda vəqflik aradan getmir. Əksinə, vəqfi əmlakdan istifadə etmək növbəsi çatdıqda, sonrakı nəsilin öz haqqını bütünlüklə tələb etməyə haqqı vardır. Hətta əgər əvvəlki nəslin dövründə vəqfi əmlakın satılmasına şəri icazə mövcud olubdursa, vəqfi əmlak satıldığı təqdirdə, sonrakı nəsillərin istifadə etməsi üçün əldə edilən pul ilə onun yerinə başqa bir mülk alınmalıdır. Vəqf qəyyumuna da vəqfi əmlakı idarə etmək və onu "moqufun ələyhim"in bütün mərtəbələri üçün qorumaq vacibdir.**

**Sual 2084:** **Əgər nəsilə edilən vəqfdə vəqfi əmlakın gəlirlərinin "moqufun ələyhim" arasında hansı qaydada bölüşdürülməsi məlum olmazsa, bu kimi hallarda vəqfin gəlirləri irs qanununa əsasən bölüşdürülməlidir, yoxsa "moqufun ələyhim" arasında bərabər şəkildə bölüşdürülməlidir?**

**Cavab: Əgər nəsilə edilən vəqfdə vəqfin gəlirlərinin "moqufun ələyhim" arasında bərabər şəkildə bölüşdürülməsi, yoxsa irs qanunu əsasında oğlan övladları ilə qız övladları arasında fərq qoyularaq bölüşdürülməsi məlum olmazsa, onlar arasında bərabər şəkildə bölüşdürülməsi qəbul olunur. Beləliklə, vəqfin gəlirləri hər mərtəbədən olan oğlan və qız övladları arasında bərabər şəkildə bölüşdürülür.**

**Sual 2085:** **Neçə illərdir ki, müəyyən bir şəhərdə yerləşən dini elmlər hövzəsinə aid vəqfin gəlirlərini həmin şəhərə göndərmək və onları vəqfin məqsədinə sərf etmək mümkün olmur. İndiyədək xeyli gəlir üst-üstə yığılmışdır. Bu gəlirləri başqa şəhərlərdə yerləşən dini elmlər hövzələrinə sərf etmək olarmı? Yoxsa həmin şəhərə göndərilməsi mümkün olan zamanadək bu gəlirləri qoruyub saxlamaq lazımdır?**

**Cavab: Vəqfin şəri qəyyumunun və ya Vəqf İdarəsinin vəzifəsi vəqfi əmlakın gəlirlərini yığmaq və onları vəqfin məqsədinə sərf etməkdir. Əgər bu gəlirləri müəyyən edilən şəhərə göndərmək müvəqqəti olaraq mümkün deyildirsə, bu gəlirləri qorumalı və onları həmin**

şəhərə yollamaq mümkün olan zamanadək gözləməlidirlər. Söz yox ki, bu iş vəqfin tətil olunması ilə nəticələnməməlidir. Amma əgər bu gəlirləri həmin dini elmlər hövzəsinə çatdırmağın – hətta gələcəkdə belə - mümkün olacağından ümid kəsilərsə, bu gəlirləri başqa məntəqələrdə yerləşən dini elmlər hövzələrinə sərf etməyin maneəsi yoxdur.

[1] "Mənfəət vəqfi"ndə maddi gəlir əldə etmək nəzərdə tutulubdır və vəqfi əmlakın gəliri "moqufun-ələyhim"in əmlakı olur. Amma "intifa vəqfi"ndə belə deyildir və "moqufun-ələyhim" yalnız vəqfi əmlakdan istifadə edə bilərlər.

## Həbs[1]

**Sual 2086:** **Əgər bir şəxs özünün torpaq sahəsini müəyyən müddətə vəqf üçün düzgün olan bir məqsədə həbs etsə, bu ümidləki, həbs müddəti başa çatdıqdan sonra torpaq sahəsi ona qaytarılacaqdır, müddət başa çatdıqdan sonra torpaq sahəsi ona qaytarılmalıdırmı və o, bu mülkdən digər əmlakı kimi istifadə etmək haqqına malikdirmi?**

**Cavab: Əgər torpaq sahəsi həbs edən şəxsin şəri əmlakı olarsa və o, bu torpaq sahəsini şəri qaydalar əsasında həbs edərsə, bu həbs düzgündür və həbsin şəri hökmləri bu torpaq sahəsinə aid olacaqdır. Həbs müddəti başa çatdıqdan sonra mülk həbs edən şəxsə qaytarılır və onun digər əmlakı hökmündədir. Buna görə də, bu torpaq sahəsinin gəliri və məhsulu onun əmlakıdır.**

**Sual 2087:** **Əgər bir şəxs sahibi olduğu mülkü vəqf üçün düzgün olan bir məqsədə daimi həbs etsə, yaxud bir şəxs irsinin üçdə biri olan əmlakın daimi qorunmasını vəsiyyət və onun gəlirinin hansı məqsədə sərf edilməsini müəyyən etsə - amma varislər bunu irs ünvanında öz aralarında bölüşdürsələr və öz adlarına rəsmi qeydiyyata salsalar, yaxud da şəri icazə olmadan onu başqa şəxsə satsalar - vəqfi əmlaka, sulara, torpaqlara sahiblənmənin və onların alğı-satqısının haramlığı sözügedən əmlaka da şamil olurmu?**

**Cavab: Əmlaka sahiblənmənin və alğı-satqısının haramlığı baxımından daimi həbs edilən mülk və ya irsin üçdə biri vəqf hökmündədir. Bu əmlakın irs ünvanında varislər arasında bölüşdürülməsi, həmçinin onun alğı-satqısı düzgün deyildir.**

[1] Həbs – vəqfə oxşar bir əqddir, amma vəqf ilə fəqrli cəhətləri vardır. Məsələn, burada əmlak, həbs edən şəxsin mülkiyyətindən xaric olmur. Həqiqətdə, həbs, bir növ müəyyən şərtlər altında başqasının əmlakından istifadə etmək haqqını yaradır.

## Vəqfin əmlakın satılması və ya vəqfin dəyişdirilməsi

**Sual 2088: Bir şəxs sahibi olduğu bir torpaq sahəsini hüseyniyyənin tikintisinə vəqf etmiş və bu hüseyniyyə tikilib istifadəyə verilmişdir. Amma əhalinin bir qrupu hüseyniyyənin bir hissəsini məscidə çevirmiş və hal-hazırda orada məscid ünvanında camaat namazı qılırlar. Əhalinin hüseyniyyəni məscidə çevirmələri düzgündürmü? Hüseyniyyənin bu hissəsinə məscidin hökmləri aid olurmu?**

**Cavab: Nə vəqf edən şəxsin, nə də başqa bir şəxsin hüseyniyyə ünvanında vəqf edilən hüseyniyyəni məscidə çevirməyə haqqı yoxdur. Zahirən bu işi görsələr belə, hüseyniyyə məscidə çevrilmir və məscidin hökmləri ona aid olmur. Amma orada camaat namazı qılmağın maneəsi yoxdur.**

**Sual 2089: Əgər bir şəxs ona irs çatan torpaq sahəsini bir neçə il öncə "lazım sövdələşmə" şəklində satarsa və sonradan bu torpağın vəqfi olduğu məlum olarsa, bu sövdələşmə düzgün deyildir? Düzgün olmadığı təqdirdə, satıcı bu torpaq sahəsinin hazırkı qiymətini alıcıya ödəməlidir, yoxsa satış zamanı alıcıdan aldığı pulu ona geri qaytarmalıdır?**

**Cavab: Satılan torpaq sahəsinin vəqfi olduğu və satıcının onu satmağa haqqı olmadığı məlum olduqda, sövdələşmə düzgün deyildir və torpaq sahəsi vəqf vəziyyətinə geri qaytarılmalıdır. Satıcı torpaq sahəsinin satışı qarşılığında aldığı pulu (inflyasiya miqdarını da hesablayaraq) alıcıya geri qaytarmalıdır.**

**Sual 2090: Bir şəxs təxminən yüz ildir ki, öz mülkünü oğlan övladlarına vəqf etmişdir. O, vəqfnamədə qeyd etmişdir ki, əgər onun oğlan övladlarından biri yoxsul və ehtiyaclı olsa, öz payını digər varislərə satmağa şəri baxımdan haqqı vardır. Bir neçə il öncə onun oğlan övladlarından bəziləri öz paylarını digər varislərə (moqufun ələyhim) satmışlar. Təzəlikcə deyirlər ki, ortada vəqf məsələsi olduğuna görə, vəqf edən şəxsin qeyd etdiyi şərtlər düzgün deyilmiş və bu mülkün alğı-satqısı düzgün deyildir. Bu mülkün ümumi vəqf deyil, xüsusi vəqf olduğunu nəzərə alaraq, vəqf edən şəxsin vəqfnamədə qeyd etdiyi qaydada bu mülkün alğı-satqısına icazə verilirmi?**

**Cavab: Əgər vəqf edən şəxsin vəqf əqdində belə bir şərti – yəni "moqufun ələyhim"dən biri yoxsul və ehtiyaclı olduqda, öz payını digər varislərdən birinə sata bilər - qoyduğu sübuta yetsə, yoxsul və ehtiyaclı olduğuna görə varisin vəqfdən olan payını satmasının maneəsi yoxdur və bu halda onun sövdələşməsi düzgündür.**

**Sual 2091: Mən bir torpaq sahəsini məktəb tikintisi üçün Təhsil Nazirliyinə hədiyyə etdim. Amma məsləhətləşmələrdən və bu torpaq sahəsinin pulu ilə şəhərin başqa məntəqələrində bir neçə məktəb tikdirməyin mümkün olduğunu bildikdən sonra, bu torpaq sahəsinin Təhsil Nazirliyinin nəzarəti altında satışı və onun pulu ilə şəhərin cənub məntəqəsində, yaxud məktəbə ehtiyac duyulan başqa məntəqələrdə bir neçə məktəbin tikinitisi üçün bu nazirliyə müraciət etdim. Mən bu işi görə bilərəmmi?**

**Cavab: Vəqf əqdi bağlandıqdan və torpaq sahəsi Təhsil Nazirliyinə vəqf qəyyumu ünvanında təhvil verildikdən sonra sizin bu torpaq sahəsini geri almağa, ondan istifadə etməyə və ona aid işlərə müdaxilə etməyə haqqınız yoxdur. Amma əgər vəqf əqdi – hətta ərəb dilində deyil, öz dilinizdə olsa belə – bağlanmayıbdırsa, yaxud Təhsil Nazirliyinə təhvil verilməyibdirsə, bu təqdirdə torpaq sahəsi sizin mülkiyyətinizdədir və onun ixtiyarı sizin əlinizdədir.**

**Sual 2092: Bir imamzadənin (ə) ziyarətgahının gümbəzində bir-birinə birləşmiş üç qübbə şəklində üç kiloqram qızıl vardır. Bu qızıl indiyədək iki dəfə oğurlanmış, sonra tapılıb öz yerinə qoyulmuşdur. Bu qızılın təhlükədə olduğunu və oğurlana biləcəyini nəzərə alaraq, onu satmaq və pulunu ziyarətgahın genişləndirilməsinə və təmirinə sərf etmək olarmı?**

**Cavab: Bu qızılın təhlükədə olması və oğurlanma ehtimalı, onun satılmasına və vəqfin dəyişdirilməsinə şəri əsas deyildir. Amma əgər vəqfin şəri qəyyumu sübutlar və şahidlər əsasında ciddi ehtimal versə ki, bu qızıl ziyarətgahın təmiri və ehtiyaclarının təmini üçün ehtiyatda saxlanmışdır, yaxud ziyarətgahın təmirə zəruri ehtiyacı vardır və bunun xərclərini başqa bir yolla təmin etmək mümkün deyildir, bu təqdirdə qızılı satmaq və pulunu ziyarətgahın zəruri təmirinə sərf etməyin maneəsi yoxdur. Yaxşı olar ki, bu işə Vəqf İdarəsi nəzarət etsin.**

**Sual 2093: Bir şəxs bir əkin sahəsini və onun su payını oğullarına vəqf etmişdir. Amma övladların sayı çox olduğuna, həmçinin əkin işlərinin ağır, məhsulun isə az olduğuna görə heç kim bu torpaqda əkinçilik etməyə meyil göstərmir. Bu səbəbdən, vəqfi mülk yaxın gələcəkdə xarab olub yararsız vəziyyətə düşəcəkdir. Sözügedən torpaq və su bu səbəbə görə satıla və pulu xeyir işlərə sərf edilə bilərmi?**

**Cavab: Vəqfi əmlak vəqfin məqsədinə istifadə edilməyə yararlı olduğu təqdirdə – hətta onu "moqufun ələyhim"dən bəzilərinə, yaxud başqa bir şəxsə icarəyə verib, icarə pulunu vəqfin məqsədinə sərf etməklə olsa belə - yaxud ondan istifadə növü dəyişdiyi təqdirdə, onu satmaq və ya vəqfi dəyişdirmək olmaz. Amma heç bir vəchlə istifadəyə yararlı olmazsa, onu satmağa icazə verilir. Amma bu halda satışdan əldə edilən pul ilə başqa bir mülk almaq və onun gəlirini vəqfin məqsədinə sərf etmək vacibdir.**

**Sual 2094: Bir minbər məscidə vəqf edilibdir, amma çox hündür olduğuna görə istifadəyə yararlı deyildir. Onun formasını dəyişib uyğun bir formada minbər düzəltmək olarmı?**

**Cavab: Əgər bu minbər indiki formasında bu məsciddə və ya başqa məscidlərdə istifadəyə yararlı deyildirsə, onun formasını dəyişməyin maneəsi yoxdur.**

**Sual 2095: "Xüsusi vəqf" olan torpaqların satışına icazə verilirmi? Belə ki, vəqf edən şəxs bu torpaqlara "torpaq islahatı qanunu"nun icrası nəticəsində sahiblənmişdir?**

**Cavab: Əgər vəqf edən şəxs vəqf zamanı vəqf etdiyi əmlakın şəri sahibi olubdursa və vəqf onun tərəfindən şəri qaydada həyata keçibdirsə, xüsusi vəqf olsa belə, bu vəqfi əmlakın alğı-satqısı və ya vəqfin dəyişdirilməsi düzgün deyildir. Yalnız bir sıra istisna hallarda şəri baxımdan vəqfi əmlakın alğı-satqısına və vəqfin dəyişdirilməsinə icazə verilir.**

**Sual 2096: Atam xurma ağacları olan bir torpaq sahəsini Aşurada və Qədr gecələrində təam verilməsi üçün vəqf etmişdir. Hal-hazırda bu ağacların ömründən təxminən yüz il ötür və istifadəyə yararsızdırlar (yəni daha bar vermirlər). Mən atamın böyük oğlu, onun vəkili və vəsisiyəm. Mən bu torpaq sahəsini sata və atam üçün "qalıcı sədəqə" olsun deyə, onun pulu ilə məktəb və ya hüseyniyyə tikdirə bilərəmmi?**

**Cavab: Əgər torpaq sahəsinin özü də vəqfi olarsa, bar verməyən ağacların bu torpaqdan çıxarılması ilə bu torpağın satılması və ya vəqfin dəyişdirilməsi icazəli olmur. Əksinə, imkan olduğu təqdirdə, bar verməyən həmin ağacların yerinə - hətta pul xərcləmək lazım gəlsə belə - yeni xurma ağacları əkmək və onun gəlirlərini vəqfin məqsədinə sərf etmək vacibdir. Bundan qeyri halda, vəqfi torpaq sahəsindən başqa bir şəkildə istifadə olunmalıdır, məsələn, əkinçilik üçün icarəyə verilə, yaxud orada ev və bu kimi obyekt tikdirib icarəyə verilə bilər. Buradan əldə edilən gəlirlər də vəqfin məqsədinə sərf edilməlidir. Ümumiyyətlə, vəqfi mülkdən hər hansı bir şəkildə istifadə etmək mümkün**

**olduğu təqdirdə, onun alğı-satqısına və ya vəqfin dəyişdirilməsinə icazə verilmir. Amma xurma ağacları bar vermədiyi təqdirdə, onları satmağın maneəsi yoxdur. Mümkün olduğu təqdirdə, onun pulu yeni ağacların əkilməsinə sərf edilməlidir. Mümkün olmadığı təqdirdə isə, vəqfin məqsədinə sərf edilməlidir.**

**Sual 2097:** **Bir şəxs müəyyən yerdə məscid tikintisinə bir qədər dəmir və qaynaq materialları hədiyyə etmişdir. Məscidin tikintisi tamamlandıqdan sonra bu materiallardan bir qədər artıq qalmışdır. Tikinti xərclərinə görə məscidin borcu olduğunu nəzərə alaraq, artıq qalan bu materialları satmaq və onun pulu ilə məscidin borcunu ödəmək, məscidin başqa ehtiyaclarını qarşılamaq olarmı?**

**Cavab: Əgər xeyriyyəçi şəxs bu materialları məscidin tikintisi üçün vermişdirsə və bu materialları məhz bu işin görülməsi üçün öz mülkiyyətindən xaric etmişdirsə, bu təqdirdə bu materiallardan hansı biri istifadə oluna bilərsə - hətta başqa məscidlərdə olsa belə - onları satmağa icazə verilmir. Əksinə, başqa məscidlərin təmiri üçün istifadə olunmalıdır. Yox əgər xeyriyyəçi şəxs bu materiallardan məscidin tikintisində istifadə edilməsinə icazə veribdirsə, bu təqdirdə artıq qalan materiallar xeyriyyəçinin əmlakıdır və bu materialların ixtiyarı onun əlindədir.**

**Sual 2098:** **Bir şəxs öz kitabxanasını oğlan övladlarına vəqf etmişdir. Amma onun övladlarından və nəvələrindən heç biri dini elmləri təhsil almağa müvəffəq ola bilməmişdir. Buna görə də kitabxanadan istifadə etmirlər. Qarışqalar da kitabların bəzisini zədələmişdir, qalan kitablar da məhv olmaq üzrədir. Bu kitabları sata bilərlərmi?**

**Cavab: Əgər kitabxananın övladlara vəqf edilməsində övladların dini elmləri təhsil almaları və din alimi sinfinə daxil olmaları şərt qoyulubdursa, belə bir şərt mövcud olduğuna görə vəqf kökdən düzgün deyildir. Yox əgər istifadə etsinlər deyə, kitabxananı onlara vəqf edibdirsə, amma hal-hazırda bu kitabxanadan istifadə edə biləcək bir şəxs onların arasında mövcud deyildirsə və gələcəkdə də belə bir şəxsin olacağına ümid yoxdursa, bu təqdirdə bu vəqf düzgündür. Övladlar bu kitabxananı, kitabxanadan istifadə edə bilən başqa şəxslərin istifadəsinə verə bilərlər. Həmçinin əgər kitabxana, ondan istifadə edə bilən şəxslərə vəqf edilibdirsə və vəqfi əmlaka qəyyumluq vəzifəsi bu şəxsin övladlarının öhdəsindədirsə, onlar bu kitabxananı həmin şəxslərin istifadəsinə verməlidirlər. Hər bir halda, kitabları satmağa haqları yoxdur və vəqfin şəri qəyyumuna uyğun bir şəkildə vəqfi kitabların zədələnməsinin və məhv olmasının qarşısını almaq vacibdir.**

**Sual 2099:** **Vəqfi bir əkin sahəsinin səthi ətrafdakı torpaqların səthindən hündürdə yerləşir. Buna görə də, bu torpağın suvarılması mümkün deyildir. Bir müddət olar ki, bu torpaq sahəsinin səthinin ətrafdakı toparların səthinin səviyyəsinə gətirilməsi işi başa çatmış və yerdən qazılıb götürülən torpaqlar bu torpaq sahəsinin ortasında qalaqlanmışdır. Bu da əkinçilik işlərinin görülməsinə mane olur. Yerdən qazılıb götürülən torpağı satmaq və pulunu bu torpaq sahəsinin yaxınlığında yerləşən bir imamzadənin (ə) hərəminə sərf etmək olarmı?**

**Cavab: Əgər bu artıq torpaq vəqfi torpaq sahəsindən istifadə etməyə mane olursa, onu bu yerdən götürüb satmaq və pulunu vəqfin məqsədinə sərf etməyin maneəsi yoxdur.**

**Sual 2100:** **Vəqfi torpaq sahəsində tikilən bir neçə vəqfi ticarət obyekti icarəyə verilmişdir, amma obyektlərin sərqufli haqqı icarəçi şəxslərə satılmamışdır. Bu obyektləri icarəyə götürən şəxslər onların sərqufli haqqını başqa bir şəxsə sata və pulunu ala bilərlərmi? Bu işə icazə verildiyi təqdirdə, sərquflinin pulu icarəçi şəxsin əmlakıdır, yoxsa vəqfi əmlakın gəlirlərindən sayılır və**

**vəqfin məqsədinə sərf edilməlidir?**

**Cavab: Əgər vəqf qəyyumu vəqfin xeyrini nəzərə alaraq, sərquflinin satılmasına icazə versə, sərquflinin satışından əldə edilən pul vəqfi əmlakın gəlirlərindən hesab olunur və vəqfin məqsədinə sərf edilməlidir. Yox əgər vəqf qəyyumu sərquflinin satılmasına icazə verməzsə, sövdələşmə düzgün deyildir və satıcı alıcıdan aldığı pulu ona qaytarmalıdır. Hər bir halda, sərqufli haqqına malik olmayan, amma bununla belə, sərquflini sonrakı icarəçi şəxsə satan icarəçi şəxsin sərquflinin satışından əldə edilən pulda heç bir haqqı yoxdur.**

## Qəbiristanlığın hökmləri

**Sual 2101: Müsəlmanların ümumi qəbiristanlığını şəxsi mülkiyyətə keçirməyin və orada şəxsi evlər tikib şəxsi mülk olaraq rəsmi qeydiyyatdan keçirməyin hökmü nədir? Müsəlmanların ümumi qəbiristanlığı vəqfi əmlak hesab olunurmu? Oradan şəxsi istifadə etmək qəsb sayılırmı? Oradan istifadə edənlər istifadə etdiklərinin "ücrətül-misl"ini ödəməlidirlərmi? Oradan şəxsi istifadə etmək "ücrətül-misl"ə zaminliyə səbəb olduğu təqdirdə, bu pul hansı məqsədə sərf edilməlidir? Orada tikilən evlərin hökmü nədir?**

**Cavab: Müsəlmanların ümumi qəbiristanlığını şəxsi mülk olaraq rəsmi qeydiyyatdan keçirmək mülkiyyətə şəri dəlil deyildir və əmlakın qəsb edildiyinə dəlil hesab olunmur. Eləcə də, ölülərin ümumi qəbiristanlıqda dəfn edilməsi oranın vəqfi olduğuna şəri dəlil deyildir. Əgər qəbiristanlıq, ürfə görə, əhalinin öz ölülərini dəfn etmələrindən və ya başqa işlər üçün istifadə etmələrindən ötrü şəhərin ərazisindən sayılarsa, yaxud müsəlmanların ölülərinin dəfni üçün vəqf edildiyinə dair şəri dəlil mövcud olarsa, hal-hazırda oradan şəxsi istifadə edənlərin bu işi qəsb sayılır və haramdır. Onlar qəbiristanlığın torpağından çıxmalı, orada tikdikləri evləri və ya başqa tikililəri uçurtmalı, qəbiristanlığı əvvəlki vəziyyətinə qaytarmalıdırlar. Amma oradan şəxsi istifadənin "ücrətül-misl"ə zaminliyə səbəb olması sübuta yetməmişdir.**

**Sual 2102: Bir qəbiristanlıqdakı qəbirlərin ömrü təxminən otuz beş il olar və Şəhər İcra Hakimiyyəti orada ümumi park salmışdır. Əvvəlki hökumətin dövründə oranın bəzi yerlərində müəyyən tikililər tikilmişdir. Aidiyyatı qurum ehtiyac duyulan tikililəri yenidən bu yerdə tikə bilərmi?**

**Cavab: Əgər qəbiristanlığın torpağı müsəlmanların ölülərinin dəfni üçün vəqf edilibdirsə, yaxud orada tikili tikmək qəbirlərin açılmasına və ya alimlərin, salehlərin, möminlərin qəbirlərinə hörmətsizliyə səbəb olarsa, yaxud da bu torpaq ümumi məkanlardan və əhalisinin istifadəsi üçün şəhərin ehtiyacı olduğu torpaqlardan olarsa, aidiyyatı qurumun orada tikililər tikməsinə, həmçinin oradan şəxsi istifadəyə və vəqfin dəyişdirilməsinə icazə verilmir. Bundan qeyri halda, bu işin öz-özlüyündə maneəsi yoxdur. Amma bu barədə olan qanunlara riayət olunmalıdır.**

**Sual 2103: Bir torpaq sahəsi ölülərin dəfni üçün vəqf edilmişdir və bu yerin ortasında bir imamzadənin (ə) ziyarətgahı vardır. Axır zamanlarda bir neçə şəhidin cənazəsi də bu qəbiristanlıqda dəfn edilmişdir. Gənclərin idman oyunları üçün uyğun bir məkanın olmadığını nəzərə alaraq, islam qaydalarına riayət edərək qəbiristanlığın daxilində oyun oynamağa icazə verilirmi?**

**Cavab: Qəbiristanlığın idman oyunları məkanına çevrilməsinə və vəqfi torpaqdan vəqfin məqsədindən qeyri bir məqsədə istifadə edilməsinə icazə verilmir. Həmçinin müsəlmanların və əziz şəhidlərin qəbirlərinə hörmətsizlik etməyə də icazə verilmir.**

**Sual 2104: İmamzadənin (ə) zəvvarları öz minik vasitələrini qədim bir qəbiristanlığın daxilində - belə ki, bu qəbiristanlığın ömründən təxminən yüz il ötür – saxlaya bilərlərmi? Hamı bilir ki, əvvəllər kəndin və başqa yerlərin əhalisi öz ölülərini bu qəbiristanlıqda dəfn etmiş, amma hal-hazırda onlar öz ölülərini başqa bir məkanda dəfn edirlər?**

**Cavab: Əgər bu iş ürfə görə qəbirlərə və müsəlmanlara qarşı hörmətsizlik sayılmazsa, həmçinin imamzadənin (ə) zəvvarları üçün maneəçilik yaratmazsa, bu işin maneəsi yoxdur.**

**Sual 2105: Bəzi şəxslər ümumi qəbiristanlıqlarda bəzi qəbirlərin kənarında ölülərin dəfn edilməsinə mane olurlar. Burada**

**ölüləri dəfn etmək üçün şəri bir maneə mövcuddurmu? Bu şəxslərin belə bir iş görməyə haqları vardırmı?**

**Cavab: Əgər qəbiristanlıq vəqfi olarsa, yaxud burada öz ölüsünü dəfn etmək hər bir şəxs üçün mübah olarsa, ümumi qəbiristanlıqda öz ölüsünün qəbri ətrafında ərazi tutmağa və orada möminlərin ölülərinin dəfn edilməsinə mane olmağa kimsənin haqqı yoxdur.**

**Sual 2106: Yeri tam dolmuş bir qəbiristanlığın kənarında bir torpaq sahəsi vardır ki, Şəhər İcra Hakimiyyəti bu torpaq sahəsini onun sahibindən müsadirə etmişdir. Bu torpaq sahəsi hal-hazırda başqa bir şəxsə verilmişdir. İndiki sahibindən icazə alaraq, oradan ölülərin dəfni üçün istifadə etmək olarmı?**

**Cavab: Əgər bu torpaq sahəsinin indiki sahibi onun şəri sahibi sayılırsa, onun razılığı və icazəsi ilə oradan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 2107: Bir şəxs bir torpaq sahəsini ölülərin dəfni üçün vəqf etmiş və oranı müsəlmanların ümumi qəbiristanlığı etmişdir. Oranın idarə heyəti öz ölüsünü dəfn edən şəxslərdən pul ala bilərmi?**

**Cavab: Ümumi vəqfi qəbiristanlıqda ölülərin dəfn edilməsi qarşılığında onların pul almağa haqları yoxdur. Amma əgər qəbiristanlığa, yaxud öz ölüsünü dəfn edən şəxslərə başqa xidmətlər göstərərlərsə, bu xidmətlərin qarşılığında ücrət ünvanında müəyyən məbləğ pul almalarının maneəsi yoxdur.**

**Sual 2108: Biz kəndlərin birində rabitə qovşağı tikmək istəyirik və buna görə də kəndin əhalisindən bizə bir torpaq sahəsi vermələrini istəmişik. Rabitə qovşağı tikmək üçün kəndin mərkəzində torpaq sahəsi olmadığına görə, biz bu qovşağı qədim bir qəbiristanlığın istifadə edilməyən hissəsində tikə bilərikmi?**

**Cavab: Əgər müsəlmanların ümumi qəbiristanlığı ölülərin dəfni üçün vəqf edilibdirsə, yaxud orada rabitə qovşağının tikilməsi qəbirlərin açılmasına və ya müsəlmanların qəbirlərinə hörmətsizliyə səbəb olacaqsa, bu işə icazə verilmir. Bundan qeyri halda, bu işin maneəsi yoxdur.**

**Sual 2109: Biz qərara almışıq ki, kənddə dəfn olunan şəhidlərin qəbirləri kənarında kəndin başqa məntəqələrdə dəfn olunan digər şəhidlərinin xatirəsi ünvanında daşlar qoyaq və bu yer gələcəkdə onların məzarı olsun. Bu işə icazə verilirmi?**

**Cavab: Əziz şəhidlərin adına və xatirəsinə simvolik tikililərin tikilməsinin maneəsi yoxdur. Amma əgər həmin məkan ölülərin dəfni üçün vəqf edilibdirsə, ölülərini dəfn etməkdə başqaları üçün maneəçilik yaratmağa icazə verilmir.**

**Sual 2110: Biz bir qəbiristanlığın kənarında yerləşən çöllük yerin bir hissəsində tibb mərkəzi tikmək istəyirik. Amma əhalinin bəzisi iddia edir ki, bu məkan qəbiristanlığın ərazisidir. Sözügedən məkanın qəbiristanlığın ərazisi olub-olmadığını müəyyən etməkdə məsullar çətinliyə düşüblər. Həmin məntəqənin bəzi yaşlıları şahidlik edirlər ki, qəbirlərin olduğu iddia edilən həmin məkanda heç bir qəbir olmamışdır. Amma hər iki dəstə şahidlik edir ki, tibb mərkəzinin tikilməsi üçün nəzərdə tutulan məkanın ətrafında qəbirlər mövcuddur. Bizim vəzifəmiz nədir?**

**Cavab: Həmin məkanın müsəlmanların ölülərinin dəfni üçün vəqf edildiyi və müxtəlif münasibətlərlə əlaqədar əhalinin ehtiyac duyduğu ümumi məkanlardan olduğu dəqiqləşmədiyi, həmçinin həmin məkanda tibb mərkəzinin tikilməsi qəbirlərin açılmasına və möminlərin qəbirlərinə hörmətsizliyə səbəb olmayacağı təqdirdə, həmin məkanda tibb məntəqəsinin tikilməsinin maneəsi yoxdur. Bundan qeyri halda, bu işə icazə verilmir.**

**Sual 2111: Vəqf növü və şərtləri dəqiqliklə məlum olmayan geniş bir qəbiristanlığın hələ heç bir ölü dəfn edilməyən hissəsi**

**ümumi mənafeyi olan işlərə – məsələn, məscid və ya məntəqənin uşaqları üçün tibb mərkəzinin tikintisinə – icarəyə verilə bilərmi? Bu şərtlə ki, icarə pulu qəbiristanlığın öz xeyrinə istifadə ediləcəkdir? (Qeyd etməliyik ki, xidmət mərkəzlərinin tikintisi üçün bu məntəqədə boş torpağın olmadığına görə, bu işə ehtiyac vardır.)**

**Cavab: Əgər torpaq yalnız ölülərin dəfni üçün "intifa vəqfi" şəklində vəqf edilibdirsə, oranı icarəyə verməyə və məscid, tibb mərkəzi və s. tikintisi üçün oradan istifadə etməyə icazə verilmir. Amma əgər dəlillər və əlamətlər vasitəsilə həmin torpağın ölülərin dəfni üçün vəqf edildiyi sübuta yetməzsə, həmçinin bu torpaq ölülərin dəfni və ya başqa işlər üçün məntəqə əhalisinin ehtiyac duyduğu ümumi məkanlardan olmazsa, orada qəbir olmazsa və müəyyən bir sahibi də olmazsa, bu təqdirdə məntəqənin əhalisinin ümumi mənafeyinə olan işlər üçün oradan istifadə etməyin maneəsi yoxdur.**

**Sual 2112:** **Energetika Nazirliyi bir neçə su səddinin və elektrik stansiyasının tikintisini planlaşdırmışdır. Bunlardan biri Su Elekrtik Stansiyasının tikintisi üçün Karun çayı üzərində səddin tikintisidir. Layihənin ilkin təsisatları yaradılmış, xərclər təmin edilmişdir. Amma layihənin icra edildiyi məntəqənin mərkəzində bir köhnə qəbiristanlıq vardır. Bu qəbiristanlıqda nisbətən köhnə qəbirlər, eləcə də, yeni qəbirlər vardır. Layihənin icrası isə bu qəbirlərin dağıdılmasına bağlıdır. Bu məsələnin hökmü nədir?**

**Cavab: Köhnə qəbirlərin – belə ki, bu qəbirlərdəki cəsədlər artıq torpağa qarışmışdır – dağıdılmasının maneəsi yoxdur. Amma köhnə olmayan qəbirlərin dağıdılmasına və açılmasına, hələ torpağa qarışmamış cəsədlərin üzə çıxarılmasına icazə verilmir. Əlbəttə, əgər həmin məntəqədə elektrik istehsalı layihələrinin icra edilməsinin iqtisadi və ictimai zərurəti olarsa, belə ki, bu layihələrin icra edilməsindən başqa bir həll yolu mövcud olmazsa və bu layihənin başqa məntəqədə icra edilməsi, yaxud qəbiristanlıqdan keçməməsi olduqca çətin bir iş olarsa, bu məkanda səddin tikintisinin maneəsi yoxdur. Amma torpağa qarışmayan qəbirlərin qəbirlər açılmadan başqa yerə köçürülməsi - hətta qəbirin ətrafındakı torpaqları qazıb, qəbir açılmadan bu torpaqları başqa yerə aparmaqla olsa belə - vacibdir. Əgər iş əsnasında bir cəsəd üzə çıxarsa, onun başqa bir yerdə dəfn edilməsi vacibdir.**

**Sual 2113:** **Bir qəbiristanlığın kənarında yeləşən bir torpaq sahəsində qəbirlərdən heç bir əsər-əlamət yoxdur və oranın köhnə qəbiristanlıq olduğu ehtimal olunur. Bu torpaq sahəsindən istifadə etməyə və ictimai fəaliyyətlər üçün orada bunalar tikməyə icazə verilirmi?**

**Cavab: Əgər bu torpağın ölülərin dəfni üçün vəqf edilən ümumi qəbiristanlığın ərazisi olduğu dəqiqləşərsə, yaxud ürfə görə oranın ərazisi hesab olunarsa, qəbiristanlıq hökmündədir və oradan istifadə etməyə icazə verilmir.**

**Sual 2114:** **Həyatda ikən insanın özü üçün şəxsi mülk məqsədilə qəbir almasına icazə verilirmi?**

**Cavab: Əgər qəbirin yeri başqa bir şəxsin şəri mülkü olarsa, oranı almağın maneəsi yoxdur. Amma əgər möminlərin ölülərinin dəfni üçün vəqf edilən torpağın ərazisi olarsa, insanın oranı alıb özü üçün saxlaması düzgün deyildir, çünki istər-istəməz ölülərin dəfni üçün başqalarının oradan istifadə etmələrinin qarşısı alınır.**

**Sual 2115:** **Əgər prospektlərin birində piyada səkisinin yaradılması, iyirmi il öncə ümumi yolun kənarındakı qəbiristanlıqda dəfn edilən bir neçə mömünin qəbrinin dağıdılmasına bağlı olarsa, bu işə icazə verilirmi?**

**Cavab: Əgər həmin qəbiristanlıq vəqfi olmazsa, müsəlmanların qəbirlərinin açılmasına və onlara hörmətsizlik edilməsinə səbəb olmadığı təqdirdə qəbirlərin yerini piyada səkisinə çevirməyin maneəsi yoxdur.**

**Sual 2116:** **Şəhərin mərkəzində istifadə edilməyən bir qəbiristanlıq vardır ki, onun vəqfi olduğu da məlum deyildir. Orada məscid tikmək olarmı?**

**Cavab: Əgər həmin qəbiristanlıq vəqfi torpaq və ya şəxsi mülk deyildirsə, həmçinin müxtəlif münasibətlərlə əhalinin ehtiyac duyduğu və istifadə etdiyi ümumi məkanlardan deyildirsə, orada məscid tikintisi müsəlmanların qəbirlərinin açılmasına və onlara qarşı hörmətsizliyə səbəb olmayacaqdırsa, orada məscid tikilməsinin maneəsi yoxdur.**

**Sual 2117:** **Bir torpaq sahəsi təxminən yüz il öncədən indiyədək ümumi qəbiristanlıqdır. Bir neçə il öncə qazıntı zamanı orada bir neçə qəbir müşahidə edilmişdir. Qazıntı işləri aparıldıqdan və torpaqlar daşındıqdan sonra bəzi qəbirlər üzə çıxmış, qəbirlərdə sümüklər görünmüşdür. Şəhər İcra Hakimiyyəti bu torpağı sata bilərmi?**

**Cavab: Əgər həmin qəbiristanlıq vəqfi olarsa, onun alğı-satqısına icazə verilmir. Hər bir halda, əgər qazıntı işləri qəbirlərin açılmasına səbəb olarsa, bu iş də haramdır.**

**Sual 2118:** **Təhsil Nazirliyi əhalinin razılığını almadan nisbətən qədim bir qəbiristanlığın bir hissəsini məktəb tikintisi üçün mənimsəmiş və orada məktəb tikdirmişdir. Şagirdlər orada namaz qılırlar. Bu işin hökmü nədir?**

**Cavab: Əgər məktəbin tikildiyi torpaq sahəsinin ölülərin dəfni üçün vəqf edildiyinə dair mötəbər bir dəlil mövcud olmazsa, həmçinin bu məkan ölülərin dəfni və ya başqa işlər üçün şəhər əhalisinin ehtiyac duyduğu ümumi məkanlardan olmazsa, habelə, şəxsi mülk də olmazsa, qanunlara riayət edərək orada məktəb tikməyin və həmin məktəbdə namaz qılmağın maneəsi yoxdur.**